QIZILBAŞ
ensiklopediyası

1001 termin və xüsusi ad

Qızılbaş ensiklopediyası

İkinci cild

Safavilər dövrünün görkəmli şəxsiyyətləri
Safavilər dövləti və qızılbaş ordusu
Safavilər dövlətində din, ədəbiyyat və incəsənət
Safavilər dövrünün tarixi mənbələri

Bakı - 2024

Sifarişçi: **Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası**

Layihənin rəhbəri: **Elçin Əsgərov**
Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası İdarə Heyətinin sədri

İdeya müəllifi və məsləhətçi: **Elşad İskəndərov**
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri

Rəyçi və girişin müəllifi: **Kərim Şükürov**
AMEA A.A.Bakıxanov ad. Tarix və Etnologiya İnstitutunun baş direktoru, t.e.d., prof.

Müəlliflər: **Tofiq Nəcəfli,** *t.e.d.*
Ceyhun Bayramlı, *t.ü.f.d.*
Natiq Rəhimov
Araz Şəhrili

Kitabın redaktoru: **Natiq Rəhimov**
Dini Araşdırmalar Mərkəzinin direktoru

Korrektor: **Kəmalə Cəfərova**

Kitabı nəşrə hazırlayan: **Dini Araşdırmalar Mərkəzi**

Üz qabığı süni intellekt vasitəsilə yaradılmışdır.

Dəyərli məsləhətlərinə görə
Azərbaycan İlahiyyat İnstitutunun rektoru
***Aqil Şirinova** təşəkkür edirik.*

İSBN

Qızılbaş Ensiklopediyası
Bakı, 2024, II cild, 624 səh.

© Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası

Mündəricat

Beşinci bölüm

Səfəvilər dövrünün görkəmli şəxsiyyətləri

Abbasqulu xan Ziyadoğlu-Qacar 18
Abdal bəy Dədə Zülqədər 19
Abdullah xan Ustaclu 20
Ağqoyunlular dövləti 20
Ağzıvar xan Şamlu 22
Allahqulu sultan Eycəkoğlu Ustaclu 23
Allahverdi xan Undiladze 24
Aras xan Rumlu 25
Babur şah 25
Badincan sultan Rumlu 27
Barik bəy Pörnak 27
Bayram bəy Qaramanlu 28
Bayram xan Baharlu 29
Bektaş xan Əfşar 30
Bədr xan Ustaclu 30
Böyük Moğol imperiyası 31
Budaq xan Çigini 33
Cəlaləddin Məhəmməd Keçəçi Təbrizi 33
Cuhə sultan 33
Çayan sultan Ustaclu 33
Çuxa sultan Təkəlü 34
Davud xan Undiladze 35
Dərviş Məhəmməd xan 36
Div sultan Rumlu 37
Durmuş xan Şamlu 39
Əbdi bəy Şamlu 41
Əbdülbaqi Yəzdi 41
Əbdürrəhim xan Baharlu 42
Əbu Talib xan Ordubadi 43
Əlixan bəy Cavanşir 44
Əliqulu xan Qıçoğlu Ustaclu 44
Əliqulu xan Saakadze 45
Əliqulu xan Şamlu 45
Əlimərdan xan Zig 47
Əlişəkər bəy Türkman Baharlu 47
Əmir Hüseyn Kiya Çəlavi 48
Əmir xan Mosullu-Türkman 49
Əmir xan Mosullu-Türkman 50
Əmiraslan sultan Ərəşlü Əfşar 51
Əmirgünə xan Ağcaqoyunlu-Qacar 52
Ənsar xəlifə Qaradağlu 52
Fərhad xan Qaramanlu 53
Fəthəli xan Dağıstani 54
Fəthəli xan Qovanlu-Qacar 55
Gəncəli xan Zig 56
Gökçə sultan 57
Halvaçıoğulları 57
Hatəm bəy Ordubadi 58
Həsən bəy Halvaçıoğlu 58
Həsən bəy 58
Həsənəli xan Dağıstani 59
Hüseyn Bayqara 59
Hüseyn bəy Lələ Şamlu 60
Hüseyn xan Şamlu 61
Hüseyn xan Şamlu 62
Hüseyn İsfahani 63
Hüseynqulu xəlifə Rumlu 64

Xadim bəy Xüləfa 65
Xəlifə sultan 66
Xosrov xan 66
İbrahim xan Zülqədər 66
İbrahim sultan Ziyadoğlu-Qacar 67
İlyas bəy Ayqut oğlu Xınıslu 68
İlyas bəy Halvaçıoğlu 68
İlyas bəy Zülədər 69
İmamqulu xan Undiladze 69
İmamqulu xan Qacar 70
İsa xan Şeyxavənd 71
İsmayılqulu xan Şamlu 71
Keçəçi Təbrizi 72
Keçəl İlyas bəy Zülqədər 73
Keçəl Şahverdi xan Ustaclu 73
Köpək (Kəpək) Sultan Ustaclu 73
Qara xan Ustaclu 73
Qara Piri bəy Qacar 74
Qazaq xan Çərkəz 74
Qənbər xan Gözüböyüklü 75
Qızılbaş üsyanları 75
Qudurmuş sultan Qacar 77
Malkoçoğlu Turəli bəy 77
Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü 78
Məhəmmədi xan Toxmaq Ustaclu 78
Məhəmməd xan Ustaclu 79
Məhəmməd Rəis Kərrə 80
Məhəmmədqulu xan Ziyadoğlu-Qacar 81
Məlik Bəhram Ordubadi 82
Məntəşa sultan Ustaclu 83
Məsum bəy Səfəvi 84
Mir Əşrəf Hutəki 85
Mir Mahmud Hutəki 86
Mirzə Hüseyn bəy Cavanşir 87
Mirzə Məhəmməd Təqi Etimad əd-dövlə 88
Mirzə Salman Cabiri İsfahani 88
Mirzə Şah Hüseyn İsfahani 89
Mövlana Şəmsəddin Lahici 89
Musa sultan Mosullu-Türkman 90
Mürşidqulu xan Ustaclu 90
Mürtəzaqulu xan Pörnak-Türkman 92
Müşəşəilər 93
Nadir şah Əfşar 94
Nəcm Rəşti 102
Nəcməddin Məsud Gilani 103
Nəcmi-sani 103
Nurəli xəlifə 105
Osmanlı dövləti 106
Peykər xan İyirmidörd Qacar 108
Peykər sultan Ziyadoğlu-Qacar 109
Pirbudaq xan Pörnak-Türkman 109
Pirbudaq xan Pörnak-Türkman 110
Pirə Məhəmməd xan Ustaclu 110
Rəvanqulu xan 111
Rüstəm bəy Qacar 111
Rüstəm bəy Qaramanlu 112
Rüstəm xan (Xosrov xan) 112
Rüstəm xan Saakadze 112
Rüstəm Məlikşah 113
Saakadzelər 114
Salman xan Ustaclu 114
Sarom xan Kürd 116
Saru Əli bəy Təkəlü Möhürdar 117
Saru Pirə Ustaclu 117
Saru Tağı 118
Sevindik bəy Əfşar 119
Sədrəddin xan Şeyxavənd 120

Səfiqulu xan Undiladze 120
Siyavuş xan Başıaçuği 121
Sultan Hüseyn xan Şamlu 121
Şahbəndə xan Pörnak-Türkman 121
Şahqulu xan Zəngənə 122
Şahqulu xəlifə Təkəlü 122
Şahqulu xəlifə üsyani 123
Şahqulu xəlifə Zülqədər 124
Şahqulu sultan Qarınca oğlu 125
Şahqulu sultan Ustaclu 126
Şahqulu sultan Yegan 127
Şahrux xan Tatıoğlu Zülqədər 127
Şahverdi xan Ustaclu 128
Şahverdi sultan Ziyadoğlu-Qacar 128
Şamxal sultan 129
Şeybani, Məhəmməd xan 130
Şeybanilər 132
Şeyxəli xan Zəngənə 133
Şirvanşahlar dövləti 134
Talıb xan Ordubadi 136
Teymur xan Ustaclu 136
Teymurilər dövləti 136
Təhmasibqulu xan Ağcaqoyunlu-Qacar 138
Uğurlu xan Ziyadoğlu-Qacar 138
Uğurlu xan Ziyadoğlu-Qacar 139
Ulamə sultan Təkəlü 139
Yaqub xan Zülqədər 140
Yarəhməd Xuzani 141
Yeddi qızılbaş əmiri 141
Yusif xan 142
Yusif xəlifə Ziyadoğlu-Qacar 142
Zal xan 142
Zeynal xan Şamlu 143
Zeynal xan Bəgdilü-Şamlu 143
Zülqədəroğulları bəyliyi 144

Altıncı bölüm

Səfəvilər dövləti və qızılbaş ordusu

Səfəvilər dövləti 149
Qızılbaş ordusu 154
Abbasi 159
Ağdərbənd döyüşü (1733) 159
Almabulağı (Almaqulağı) döyüşü (1503) 159
Amasya sülh müqaviləsi (1555) 160
Avaracənəvis 161
“Azərbaycan taxtı” 162
Baş vəzir (vəziri-əzəm) 162
Bəylərbəyi 163
Bəylərbəylik 164
Cabanı döyüşü (1500) 164
Carçıbaşı 166
Cəbbədarbaşı 166
Cəngi 167
Çaldıran döyüşü (1514) 167
Çalğıçı 170
Çaşnigirbaşı 171
Çərxçi 171
Çərxçibaşı 171
Çərik 172
Çıldır döyüşü (1578) 172
Davatdar 174
Dəbbabə (taxta qüllə) 174
Dədə Qarkın döyüşü 175

Divan 175
Divanbəyi 175
Divani-inşa 176
Ducum döyüşü (1733) 176
Eşikağası 176
Eşikağasıbaşı 176
Ələmdar 177
Ələmdarbaşı 178
Əmir 178
Əmir əl-üməra 178
Ərdəbil 179
Fərraşbaşı 180
Gəncə müqaviləsi (1735) 180
Halvaçıbaşı 181
Həkimbaşı 182
Həmədan sülh müqaviləsi (1727) 182
Xacə 183
Xacəbaşı 183
Xan 184
Xəlifət əl-xüləfa 184
Xəzinədar 185
İrəvan 186
İsfahan 187
İstanbul sülh müqaviləsi (1590) 189
İstanbul sülh müqaviləsi (1612) 189
İstanbul sülh müqaviləsi (1736) 190
Kərkük döyüşü (1733) 191
Kirmanşah sülh müqaviləsi (1732) 192
Qabaq oyunu 192
Qapuçu 192
Qapuçubaşı 193
Qayçıdarbaşı 193
Qazıəsgər 194
Qazı 194
Qəsri-Şirin sülh müqaviləsi (1639) 194
Qəzvin 196
Qoçbaşı 197
Qoçhisar döyüşü (1516) 197
Qorçubaşı (qorçibaşı) 198
Qorçular (qorçilər) 199
Qulam 201
Qullarağası 203
Leylan döyüşü (1733) 204
Lələ 204
Ləşkərnəvis 206
Mehmandarbaşı 206
Mehtər 207
Mehtərbaşı 207
Memarbaşı 207
Məclis 208
Məclis yasavulu 208
Məmaliki-məhrusə 208
Mərv döyüşü (1510) 209
Məşəl savaşı (1583) 210
Məşələdarbaşı 211
Mirab 212
Miraxurbaşiyi-cilov 213
Miraxurbaşiyi-səhra 213
Miraxurbaşı (əmiraxurbaşı) 213
Mirşikarbaşı (əmirşikarbaşı) 214
Mirzə 214
Mollabaşı 215
Mollahəsən döyüşü (1578) 215
Möhürdar 217
Müəyyir əl-məmalik 218
Mühtəsib 218
Mühtəsib əl-məmalik 218
Müqərrəb əl-həzrət 219
Müqərrəb əl-xaqan 219
Münəccimbaşı 219
Münşi 220

Münşi əl-məmalik 220
Mustovfi 221
Mustovfi əl-məmalik 221
Naziri-büyutat 222
Naziri-dəvvab 222
Nəqbçi (nəqqab) 222
Ovçubaşı 223
Oxçu 223
Sahibcəm 224
Sahibi-tovcih 225
Samirra döyüşü (1733) 225
Sədr 226
Səfəvi-Ağqoyunlu müharibələri 227
Səfəvi bayraqları 229
Səfəvi-Buxara xanlığı münaqişəsi 230
Səfəvi-əfqan müharibəsi 231
Səfəvi-moğol müharibələri 233
Səfəvi ordusunun döyüş taktikaları 235
Səfəvi-Osmanlı müharibələri 241
Səfəvi-Portuqal müharibələri 246
Səfəvi-Rusiya münaqişələri 248
Səfəvi-Şeybani müharibələri 250
Səfəvi-Şirvanşah müharibəsi 254
Səfəvilər dövlətində sosial-iqtisadi vəziyyət 257
Səfəvilər dövlətində türk dili 262
Səfəvilər dövlətinin xarici siyasəti və Səfəvi diplomatiyası 269
Osmanlı dövləti ilə münasibətlər 270
Şeybanilər dövləti ilə münasibətlər 271
Moğol dövləti ilə münasibətlər 271
Böyük Moskva knyazlığı ilə münasibətlər 272
Qərbi Avropa dövlətləri ilə münasibətlər 274
Venesiya respublikası və Papalıqla əlaqələr 274
Portuqaliya ilə münasibətlər 275
İspaniya və Almaniya ilə münasibətlər 276
İngiltərə ilə münasibətlər 278
Hollandiya ilə münasibətlər 279
Fransa, Polşa və İsveçlə münasibətlər 280
Səfəvilərin etnik mənsubiyyəti 282
Sərab sülh müqaviləsi (1618) 287
Sərxətnəvis 288
Sərrafbaşı 288
Sipəhsalar 289
Soyurqal 290
Söhbət yasavulu 290
Sufiyan döyüşü (1605) 290
Sultan 292
Süfrəçibaşı 292
Şahbəndər 292
Şahi 293
Şah İsmayil-Sultan Səlim məktublaşması 293
Şeyxülislam 297
Şəhid 298
Şərur döyüşü (1501) 299
Şirəçibaşı 300
Şirü xurşid 301
Tacik 301
Taxta qüllə 302
Təbriz 302
Təhvildar 304
Təvaçı 304
Təvaçıbaşı 305

Tiyul	305	Vali	311
Top	306	Vəkil	311
Topçu	307	Vəqf	313
Topçubaşı	308	Vəzir	314
Topxana	309	Vəziri-əzəm	314
Tuşmalbaşı	309	Vilayət	314
Tüfəng	309	Yasavul	315
Tüfəngçi	310	Zərbxana	315
Tüfəngçiağası	311	Zərgərbaşı	316
Tüfəngçibaşı	311		

Yeddinci bölüm

Səfəvilər dövlətində din, ədəbiyyat və incəsənət

Səfəvilər dövlətinin din siyasəti və Səfəvilər dövlətində dini tolerantlıq	319	Çehelsütun (İsfahan)	344
		Çehelsütun (Qəzvin)	345
Abdullah Əfəndi	327	Çökək hamam	346
Ağa Mirək İsfahani	328	“Dəhnamə”	346
Ali-əba	329	Dərviş Hüseyn Hafiz	347
Ali qapu	330	Dəştəki	347
Allahverdi xan körpüsü	330	Divan	347
Aşıq	331	Don Xuan (Juan)	348
Aşıq Abbas Tufarqanlı	332	Əbdi bəy Şirazi	348
Aşura	332	Əbülfəth Təbrizi	350
Baba Eşqi Təbərrayi	334	Əhli Şirazi	350
Baba Fəğani Şirazi	334	Əhli-beyt	350
Baba Samid məqbərəsi	335	Əxbarilik	352
Behzad	335	Əliqulu Cəbbədar	353
“Bihar əl-Ənvar”	336	Əlirza Abbasi	354
Budaq Qəzvini	338	Əmani	355
Cəbəli-Amil alimləri	338	Əmir Mahmud Xondəmir	355
Cəfərilik	340	Əşrəf Mazandarani	356
Cəlalilər	342	Ətiq Ordubadi	356
Cəzairi, Seyid Nemətullah	344	Fazil Hindi	357
		Fazil Tuni	357

Fendereski 358
Feyz Kaşani 358
Fədai Təbrizi 359
Füzuli 360
Həbibi 362
Həqiri 362
Həsən bəy Rumlu 362
Həsən bəy Şəkəroğlu Baharlu 364
Həşt behişt 364
Hikməti-mütəaliyə 365
Hürr Amili 366
Hürr ibn Yəzid Riyahi Təmimi 367
Hüveyzi 368
Xansari, Ağa Camal 368
Xansari, Ağa Hüseyn 368
Xatunabadi, Mir Məhəmməd Baqir 369
Xatunabadi, Mir Məhəmməd Saleh 369
Xətai 370
Xətai divanı 371
Xondəmir 371
İbn Bəzzaz Ərdəbili 372
İlahi Ərdəbili 373
İmam Musa Kazim 373
İmamət 374
İmamlar 375
İsfahan hövzəsi 376
İsgəndər bəy Münşi 377
İsna əşəriyyə 378
Kələxana türbələr kompleksi 379
Kərəki 380
Kişvəri 381
"Koroğlu" dastanı 382
Qasimi-Ənvar 384
Qazı Səid Qumi 385
Qeysəriyyə alaqapısı 385
Qələndəroğlu 386
Qənbər 386
Qəzvini, Molla Xəlil 387
Qövsi Təbrizi 387
Qul Hümmət 388
Qumi Şirazi 389
Qurbani 389
Qülüvv 390
Lahici, Əbdürrəzzaq 390
Laləvi, Bədrəddin 391
Lütfullah Meysi 391
Mazandarani, Məhəmməd Saleh 392
Mehdi 393
Mehdilik 394
Məclisi, Məhəmməd Baqir 395
Məclisi, Məhəmməd Təqi 396
Məczub Təbrizi 397
Məhəmməd Hüseyn Təbrizi 397
Məhəmməd Qasim Təbrizi 398
Məhəmməd Zaman 398
Məhəmmədi 399
Məlik bəy Avcı 399
Məlik əş-şüəra 400
Mərceyi-təqlid 400
Məsihi, Rüknəddin Məsud 401
Minşar, Zeynəddin Əli 402
Mir Damad 403
Mir İmad Həsəni 404
Mir Lovhi 404
Mir Müsəvvir 405
Mir Seyid Əli 405
Mirzə Əli Təbrizi 406
Mirzə Saleh Təbrizi 407
Mirzə Şəfia 407

Miskin Abdal 408
Molla Abdullah Şüştəri 409
Molla Fəthullah Kaşani 409
Molla Sədra 410
Möhtəşəm Kaşani 410
Mürtəzaqulu xan Şamlu 411
Mühəqqiq Səbzəvari 412
Müin Müsəvvir 412
Müqəddəs Ərdəbili 413
Müqəttəə hərflər 413
Müsahib Gəncəvi 414
Müzəffər Əli 415
Naxçıvan İmamzadə türbəsi 416
"Nəhc əl-Bəlağə" 417
Nəqşbənd Yəzdi 418
Nəqşicahan meydanı 418
"Nəsihətnamə" 419
Nəsimi, Seyid İmadəddin 419
Novruz bayramı 421
On dörd məsum 424
On iki imam 425
Oruc bəy Bayat 427
Ozan 428
Pir Sultan Abdal 429
Pirhəsən türbəsi 430
Rafizilik 430
Rəcəbəli Təbrizi 432
Rəhməti Təbrizi 432
Rövzə 432
Rövzəxanlıq 433
Rza Abbasi 434
Sadıq bəy Əfşar 434
Saib Təbrizi 436
Seyid 437
Seyid Məhəmməd Kəmunə 438
Səbki-hindi 439
Səbki-İsfahani 440
Səbki-Səfəvi 440
Sədrəddin Şirazi 440
Səfəvilər dövrünün oyun və əyləncələri 440
Səfəvilər dövrünün memarlığı 446
Səfiqulu xan Şamlu 450
"Səhifeyi-Səccadiyyə" 450
Sərdar Kabili 452
Sərdar sarayı 452
Sultan əl-üləma 453
Sultan Məhəmməd 454
Susəni bəy 455
Süruri 455
Şah Abbas karvansarası (Gəncə) 456
Şah Abbas məscidi (Gəncə) 456
Şah Abbas məscidi (İrəvan) 457
Şah Abbas məscidi (Keşlə) 457
Şah Abbas məscidi (Ordubad) 458
Şah Abbas məscidi (Yanıqlı, Tovuz) 459
"Şah Xətai" 459
"Şah İsmayıl" dastanı 459
"Şah İsmayıl" operası 460
"Şah İsmayıl ordeni" 460
Şah İsmayılın portreti 461
Şah Mahmud Nişapuri 462
Şah məscidi (İsfahan) 463
Şahi 463
"Şahsevəni" 464
Şair Səfəvilər 464
Şeyx Bəhai 465
Şeyx Bəhai hamamı 466
Şeyx Cüneyd türbəsi 467
Şeyx Heydər türbəsi 468
Şeyx Lütfullah məscidi 469

Şeyx Səfi kompleksi 470
"Şeyx Səfi" xalçası 472
Şəfi Abbasi 472
Şəmsayi Gilani 473
Şiəlik 473
Şirvani, Mirzə Məhəmməd 475
Təbriz miniatür məktəbi 476
Təbrizi İsfahani 478
Təfrişi, Seyid Mustafa 479
Təqlid 479
Tərzi Əfşar 479
Təsir Təbrizi 480
Tüfeyli 480
Tünikabüni, Məhəmməd 481
Uğurlu xan Karvansarası (Cəncə) 481
Üsulilik 482
Vaiz Qəzvini 483
Valeh Qəzvini İsfahani 483
Varsağı 484
Vədud Təbrizi 484
Vəhid Qəzvini 484
Vəhşi Bafqi 485
"Vəsail əş-Şiə" 485
Virani 486
Yeddi ulu ozan 486
Yellənən minarələr məscidi 486
Yəmini 488
Yusif bəy Ustaclu 488
Yusif Tərkeşduz (Yusif Sərrac) 489
Zülfüqar 489

Səkkizinci bölüm

Səfəvilər dövrünün tarixi mənbələri

Səfəvilər dövrünün tarixi mənbələri 493
Səfəvilər dövlətinə səfər etmiş Qərb səyyahları 498
"Abbasnamə" 505
"Aləmarayi-Səfəvi" 505
"Aləmarayi-Şah İsmayıl" 505
"Aləmarayi-Şah Təhmasib" 506
"Cahangüşayi-xaqan" 507
"Cəvahir əl-əxbar" 507
"Dəstur əl-müluk" 508
"Dəsturi-şəhriyaran" 508
"Əhsən ət-təvarix" 509
"Əlqab və məvacib" 509
"Fəvaid əs-Səfəviyyə" 510
"Fütuhati-şahi" 511
"Xülasət əs-siyər" 511
"Xülasət ət-təvarix" 512
"Xüldi-bərin" 513
"Qara məcmuə" 513
"Qisəs əl-xaqani" 514
"Qızılbaşlar tarixi" 515
"Lübb ət-təvarix" 515
"Məcmə əl-xəvas" 515
"Məcmə əl-inşa" 516
"Məcmə ət-təvarix" 516
"Molla Kamal tarixi" 517
"Münşəat" 517
"Nəqavət əl-asar fi zikr əl-əxyar" 517
"Nüsəxi-cahanara" 518

“Oruc bəy Bayatın kitabı”	518	“Tarixi-səlatini-Səfəviyyə”	526
“Rövzət əs-Səfəviyyə”	519	“Tarixi-sultani”	527
“Ruznameyi-Cəlal”	519	“Təkmilət əl-əxbar”	527
“Rüstəm ət-təvarix”	519	“Təzkireyi-Nəsrabadi”	527
“Səfvət əs-səfa”	520	“Təzkireyi-Şah Təhmasib”	528
“Silsilət ən-nəsəbi-Səfəviyyə”	520	“Təzkirət əl-əhval”	528
“Şeyx Səfi təzkirəsi”	521	“Təzkirət əl-müluk”	528
“Şeyx Zahid Gilani mənaqibnaməsi”	521	“Töhfeyi-Sami”	529
“Tarixi-Abbasi”	522	“Töhfeyi-şahi”	530
“Tarixi-aləmarayi-Abbasi”	523	“Vəqaye əs-sənin və-l-əvam”	530
“Tarixi-cahanara”	524	“Zeyli-Həbib əs-siyər”	530
“Tarixi-elçiyi-Nizamşah”	524	“Zeyli-Tarixi-aləmarayi-Abbasi”	531
“Tarixi-həzin”	525	“Zübdət ət-təvarix”	531
“Tarixi-qızılbaşan”	526	“Zübdət ət-təvarix”	531

İstifadə edilmiş ədəbiyyat siyahısı 533

Şəkillər 577

Beşinci bölüm

Səfəvilər dövrünün görkəmli şəxsiyyətləri

Bu bölüm Səfəvilər dövlətində yaşamış görkəmli hərbçilər, sərkərdə və əmirlər, dövlət xadimləri haqqında məlumatları əhatə edir. Bunların barəsində müstəqil kitab və ya məqalələrə az rast gəlindiyi üçün onlarca mənbəyə səpələnmiş məlumatları toplamaq lazım gəlir; bu məlumatlar ayrı-ayrı kitablardan çıxarış edilmiş və ümumiləşdirilmişdir. Buna görə də digər bölümlərdə olduğu kimi, istifadə edilmiş ədəbiyyatın siyahısı hər maddə üçün ayrılıqda göstərilməmişdir. Görkəmli Səfəvi hərb və dövlət xadimləri ilə yanaşı bu bölümdə Səfəvilər dövləti ilə həmsərhəd olan və geosiyasi maraqları onunla toqquşmuş dövlətlər, eləcə də mərkəzləşdirilmiş hakimiyyətə qarşı çıxmış məhəlli hakimlər haqqında məlumatlar verilir.

Bu bölümün yazılışı zamanı aşağıdakı mənbələrdən istifadə edilmişdir:

Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti.
İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı).
Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (tərcümə Ə.Rəhimli).
Həsən bəy Rumlu. Əhsənüt-təvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı).
Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu.
Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında).
Azərbaycan tarixi (7 cilddə), III cild.
M.Tərbiyət. Danişməndani-Azərbaycan.
A.A.Bakıxanov. Gülüstani-İrəm.
R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda).
Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər.
Əbu Bəkr Tehrani. Kitabi-Diyarbəkriyyə (tərcümə edən: R.Şükürova).
Sara Aşurbəyli. Şirvanşahlar dövləti.
Ə.Çingizoğlu, N.Məmmədova. Zülqədər eli (tarixi-genealoji tədqiqat).
Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli (tərtib edən: H.R.Şeyxzamanlı).
Firəngiz Xəlilova. Müsahib Gəncəvinin divanı.
L.Lockhart. Nadir şah (fars dilinə tərcümə edən: Müşfiq Həmədani).
Baburnamə (nəşrə hazırlayan: Ramiz Əskər), s.3-19.
Mehman Süleymanov. Nadir şah.
H.Məmmədbəyli. Məhəmməd Nəsirəddin Tusi, s.57.
N.Rəhimov. Məzhəblərarası yaxınlaşma: yardımlar və maneələr, s.87-88.
Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü.
Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi.
Mehmet Herkiloğlu. 16. Yüzyil Başlarında Ramazanoğlu Piri Mehmet Paşa Döneminde Anadolu ve Çukurova Bölgesinde Meydana Gelen İsyanlar (Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, 30. Yıl Özel Sayısı, Eylül/September 2022).
Elif Gül Akman. Onaltıncı Asır Osmanlı Toplumunda Bellibaşlı Kızılbaş İsyanları (Yüksek Lisans Tezi).
Mustafa Akdağ. Türk Halkının Dirlik ve Düzenlik Kavgası – Celali İsyanları.
John E. Woods. 300 Yıllık Türk İmparatorluğu: Akkoyunlular (tercüme: Sibel Özbudun).
Walther Hinz. Uzun Hasan ve Şeyh Cüneyd (tercüme: Tevfik Bıyıklıoğlu).
Təzkireyi-Nəsrabadi.
Mirzə Mehdi xan Astarabadi. Cahangüşayi-Nadiri (nəşrə hazırlayan: S.A.Ənvar).
Məhəmməd Kazim Mərvi. Aləmarayi-Nadiri (3 cilddə, nəşrə hazırlayan: M.Ə.Riyahi).

Osmanlı Ansiklopedisi (12 ciltte, editör: Güler Eren).
Mehdi Fərhad Münfərəd. Teymurilərin süqutu və Səfəvilərin zühuru dövründə siyasət və mədəniyyətin vəhdəti.
Shaw Stanford Jay. Osmanlı imperiyasının və yeni Türkiyənin tarixi (2 cilddə, farsca tərcümə: M.Ramazanzadə).
O.N.Topbaş. Abide Şahsiyetleri ve Müesseseleriyle Osmanlı.
Əhməd Rəşid. Xəritəli və rəsmli mükəmməl tarixi-Osmani.
E.B.Şapolyo. Osmanlı Sultanları Tarihi.
Colin İmber. Osmanlı İmparatorluğu (1300-1650).
Daniel Goffman. Osmanlı Dünyası ve Avrupa.
A.Ateş. Avşarlı Nadir Şah ve Döneminde Osmanlı-İran Mücadeleleri (S.Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı, Doktora Tezi).
Dayan Kamali. Safevi Hanedanı'nın Çöküşü ("Türk Dünyası Araştırmaları" dergisi, Sayı: 225, Aralık 2016), s.153-174.
A.E.Evirgen. Şibani-name'nin Budapeşte Nüshası (Metin-İnceleme-Dizin), s.5-7.
Yakup Karasoy. Şiban Han Dîvânı'na Farklı Bakmak ("Akademik Dil ve Edebiyat Dergisi", Cilt: 5, Sayı: 4, Aralık 2021), s.1689-1697.
Yakip Karasoy. Şibani Han Divan'ı (İnceleme-Metin), s.10-23.
Levent Kayapınar. Anadolu'dan Koron Ve Modon'a Kizil Taçlulerin İskânı (Alevilik-Bektaşilik Araştırmaları Dergisi/2016/14), s.3-26.
Filiz Tapan. Rumeli Uç Ailesi Malkoçoğulları'nın Kökeni Hakkında Tartışmalar ve Yeni Bir İddia ("Gazi Akademik Bakış" Dergisi, Yıl: 2023, Cilt: 16 Sayı: 32), s.107-129.
Fuad Köprülü. Osmanlı Devletinin Kuruluşu.
Bilal Dedeyev. Çaldiran Savaşı'na Kadar Osmanlı-Safevi İlişkilerine Kısa Bir Bakış (Uluslararası Sosyal Araştırmalar Dergisi, 2009, №2), s.126-135.
İsmail Hakkı Uzunçarşılı. Osmanlı Tarihi, II, 268-269.
İlyas Gökhan. Dulkadir Beyliği Coğrafyasında Bektaşîlîk ve Alevîlik (Nevşehir Hacı Bektaş Veli Üniversitesi SBE Dergisi, Cilt:11, Hacı Bektaş Veli Özel Sayısı), s.37-48.
N.Musalı. Anonim Bir Savefî Müellifinin Gözüyle Dulkadir Beyligi'nin Son 20 Yıllık Tarihine Bakış (Uluslar arası Dulkadir Beyliği sempozyumu, 29 Nisan-1 Mayıs 2011, Kahramanmaraş), I, 399-420.
N.Musalı. Safevilər'in Diyarbakır Beylerbeyi Muhammed Han Ustaclu ve Anadoluda'ki Faaliyetleri (Uluslararası Diyarbakır Sempozyumu, 02-05 Kasım, 2016), s.495-521.
Qiyas Şükürov. Şah İsmail ve Dulkadiroğulları (Uluslar arası Dulkadir Beyliği Sempozyumu, 29 Nisan-1 Mayıs 2011, Kahramanmaraş), I, 223-237.
Geza David. Macaristan'da Yönetici Osmanlı Aileleri (OTAM, 38/Güz 2015), s.13-30.
Ahmet Özcan. Uzun Hasan Kanunları ve Osmanlı Dönemine Yansımaları (OTAM, 2011, №29), s.173-192.
Aləmarayi-Səfəvi (nəşrə hazırlayan: Y.Şükri).
Nurullah Larudi. "Qılınc övladı" Nadir şahın həyatı.
Müdərrisi Təbatəbai. Səfəvi sədrlərinin misalları.
M.Məhəmmədqubar. Əfqanıstan tarix boyunca, I, 323-335.
R.Ş.Qasimxeyli, İ.Müşfiqifər. Əfqanların üsyanında Səfəvi hökumətinin hərbi tədbirlərinin təhlili ("Mütaliati-tarixiyi-cəng" dərgisi, 1395 h.-ş., №1), s.95-114.
M.N.Haşimi. İsfahanın süqutu faciəsinə yeni baxış (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi araşdırma dərgisi, qış 1377 h.-ş.), s.35-46.
Mürtəza Müdərrisi Çəhardəhi. Müşəşəilər ("Tarix araşdırmaları" dərgisi, il: 12, sayı: 6).
Qasim Qərib. Səfəvi–Gürgani münasibətlərinə təsir edən amillər ("Xarici əlaqələr tarixi" dərgisi, 1398 h.-ş., №74), s.21-49.

H.Şəhidi. Sultan Hüseyn Bayqaranın din siyasəti ("Mütaliati-tarixi-İslam" dərgisi, 1395 h.-ş., №29), s.61-81.
Divani-Sultan Hüseyn Mirza Bayqara (nəşrə hazırlayan: M.V.Cuzcani), müqəddimə.
Qasim Qərib. Səfəvilərlə Gürganilər arasındakı rabitəyə təsir edən amillər ("Xarici əlaqələr tarixi" dərgisi, 1397 h.-ş., №74), s.21-49.
Zeynəb Ümidiyan. Hindistan Gürganiləri dövlətinin yaranma şəraiti ("Pejuheş dər tarix" dərgisi, 1389 h.-ş., №1), s.19-37.
Məhəmməd Hüseyn Quddusi. Nadirnamə, s.468.
N.Abdullahi və Ə.Kəcbaf. Səfəvilərin legitimliyi və Nadirin şahlığı ("İslamdan sonrakı İran tarixi" elmi araşdırma dərgisi, 1392 h.-ş., №6), s.117-138.
M.İ.Arimi. Şah Sultan Hüseyndən Nadir şah dövrünə kimi Fəthəli xan Qacar ("Gəncineyi-əsnad", dördüncü il, üçüncü dəftər), s.22-27.
H.C.Kəlkənari. Əliqulu xan Şamlunun Səfəvi sarayında rolu, vəzifəsi və taleyi ("Miskəveyh" dərgisi, 1385 h.-ş., №5), s.65-78.
N.Fəlsəfi. Bir neçə tarixi və ədəbi məqalə, s.285-310.
C.Səvaqib. Qarabağda Davud xan üsyanının səbəbləri, gedişatı və nəticələri barədə araşdırma (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, 1382 h.-ş., №34-35), s.107-150.
Q.Səidiyan. Səfəvilər dövründə Əmir xan Türkmanın mənsəbi, fəaliyyəti və taleyi ("Pejuheşnaməeyi-tarix" dərgisi, 1385 h.-ş., №3), s.61-79.
B.Ş.Şabiyev. Çuxursəd bəylərbəyi Əmirgünə xan Qacar ("Tarix və onun problemləri", №4, 2009), s.33-35.
M.Mehmannəvaz, S.M.Musəvixu. Fəthəli xan Daşıstaninin yüksəliş və süqutunda saray intriqalarının rolunun təhlili ("İran və İslam tarixi araşdırmaları" dərgisi, 1398 h.-ş., №25), s.155-177.
Bastani Parizi. Gəncəli xan (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, 1343 h.-ş., №1), s.65-86.
Əhməd Gülçin Məani. Həsən xan Şamlu ("Ayəndə", il: 16), s.401-414.
F.Novzad. Hürmüzün fatehi İmamqulu xan və onun taleyinin sonu ("Vəhid" dərgisi, il: 5, №1-2), s.81-89 və 158-165.
C.Səvaqib. Şah Səfinin zamanında (1042 q.) Fars hakimi İmamqulu xanın qətlinin səbəb və nəticələrinin təhlili ("Tarixi araşdırmalar" dərgisi, 1389 h.-ş., №3/7), s.1-32.
A.İyzədyar və Ş.M.Alvar. Səfəvilər dövründə Kiyailər dövlətinin süqutunun səbəblərinin təhlili ("Tarixnameyi-Xarəzmi", 1396 h.-ş., №18), s.63-77.
Ə.Cəfəri və b. Səfəvilər dövründə Cabirilər nəslinin divanbaşı vəzifəsində yeri və rolu (Mirzə Salman Cabiri misalında) (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, 1392 h.-ş., №4/20), s.55-68.
Q.Səidiyan və Z.Yusifli. Mürşidqulu xan Ustaclu ("Miskəveyh" dərgisi, il: 3, №10), s.125-146.
N.Fəlsəfi. Şah Abbasın İngiltərədəki səfiri Nəqdəli bəy ("Mehr" dərgisi, №9), s.886-893.
M.Mehmannəvaz. II Şah Abbasın zamanında saray intriqalarında Saru Tağının yeri və rolu ("İran və İslam tarixi araşdırmaları" dərgisi, 1399 h.-ş., №27), s.247-270.
M.Sülhi, M.Əziznəjad və M.S.Musəvi. Gəncə xanı Şahverdi xanın Osmanlı dövlətinə yolladığı məktubun təhlili ("Gəncineyi-əsnad" dərgisi, 1392 h.-ş., ikinci dəftər), s.68-81.
D.Cəfərpur və P.Səlimi. Səfəvilər dövründə Şeyxəli xan Zəngənənin vəzirliyinə bir baxış ("Miskəveyh" dərgisi, il: 2, №7), s.74-91.
S.H.Ağacəri, M.H.Raznihan və H.Bayati. Səfəvilər dövründə siyasi sığınacaqlar (Ulamə Təkəlünün Osmanlı imperiyasına sığınması misalında) (Əz-Zəhra Universitetinin

"İslam və İran tarixi" elmi-araşdırma dərgisi, 1393 h.-ş, №23/113), s.5-24.
Behnam Elmi. Gəncə xanlığının yaranmasında və güclənməsində Ziyadoğlu-Qacar nəslinin rolu ("Tarixnameyi-Xarəzmi" dərgisi, 1394 h.-ş., yay), s.53-72.
Ağa Büzürg Tehrani. Əz-Zəriə ila təsanif əş-şiə, III, 425.
Bosworth, C.E. Hakim müsəlman sülalələri (ərəbcə tərcümə: Əmr əl-Məlah), s.339-341.
К.Рыжков. Все монархи мира (Мусульманский Восток, VII-XV вв.).
К.Э.Босворт. Мусульманские династии.
Джон Патрик Бальфур. Османская империя.
Кэролайн Финкель. История Османской империи: видение Османа.
Рафаэла Льюис. Османская Турция: быт, религия, культура.
Норманн Стоун. Краткая история Турции.
Ф.Хитцель. Османская империя (Гиды цивилизаций).
История Османского государства, общества и цивилизации (в. 2-х т., под ред. Э.Ихсаноглу).
Бартольд В.В. Сочинения, 2-ой том, 1-ая часть, стр.875-878.
Бабур-намэ (перевод: М.Салье), стр.5-10.
С.А.Азимджанова. Государство Бабура в Кабуле и в Индии, стр.85-98.
Жак Павио. Османская империя (ок. 1300-1481) (Империи средневековья: от Каролингов до Чингизидов; под ред. С.Гугуенхейма), стр.142-172.
История Государства и права (МИД Республики Узбекистан, Академия), стр. 170-175.
А.Г.Нестеров, М.И. Каджар. Каджары Зийадоглу и создание Карабахского беглярбекства в XVI веке ("Научный диалог", 2019, №6), стр.351-361.
Encyclopedia of Islam.
The Cambridge History of Iran, Volumes VI, VII.
Edward G.Browne. A Literary History of Persia, Volume IV, pp.72-73.
Gábor Ágoston, Bruce Masters. Encyclopedia of The Ottoman Empire.
L.Lockhart. Nadir Shah (with a Foreword by Sir E.Denison Ross).
Michael Axworthy. The Sword of Persia.
Sir Mortimer Durand. Nadir Shah.
Rudi Matthee and Hiroyuki Mashita. Kandahar. IV. From The Mongol Invasion Through the Safavid Era (Encyclopaedia Iranica, XV/5), pp.478-484.
Roma Chatterjee. India Medieval History, pp.51-88.
Satish Chandra. History of Medieval India, pp.202-378.
Burton Stein. A History of India (Second Edition), pp.159-195.
Rudi Matthee. The Wrath of God or National Hero? Nader Shah in European and Iranian Historiography (JRAS, Series 3/ 2023), pp.1-19.
Kubilayhan Erman. Afshar Nader Shah: Military Leadership, Strategy And The Armed Forces During His Reign (Çanakkale Araştırmaları Türk Yıllığı, Yıl: 16, Güz: 2018, Sayı: 25), s.87-104.

ABBASQULU XAN ZİYADOĞLU-QACAR – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Qacar* tarfasının *Ziyadoğulları* nəslindən *Uğurlu xanın* oğludur. 1642-ci ildə doğulmuş, 1666-cı ildə atasından sonra Qarabağ və Gəncə bəylərbəyi təyin edilmişdir. Ozamankı inzibati ənənəyə və Qarabağ bölgəsinin geosiyasi vəziyyətinə uyğun olaraq Qarabağ bəylərbəyiləri həm də Gürcüstan üzərində nəzarəti həyata keçirirdilər. Abbasqulu xan da Gürcüstanın Kartli və Kaxeti vilayətlərində hakimiyyət uğrunda mübarizə aparan gürcü çarları XI

Georgi və I İrakli arasındakı münasibətləri nizamlamağa çalışırdı. Bu problemi həll etmək üçün *Şah Süleyman* Abbasqulu xanı Kaxeti hakimi təyin etdi. Səfəvi sarayı bu münaqişədə əvvəlcə I İraklini dəstəkləyirdi. Gürcü əsilzadələri arasındakı münaqişəni tam nizamlaya bilməyən Abbasqulu xan intriqalara hədəf oldu. Şah Süleymandan sonra hakimiyyətə keçən *Şah Sultan Hüseyn* Abbasqulu xanı vəzifəsindən azad edib İsfahana gətirtdi (1694) və onun vəzifəsini qardaşı Kəlbəli xan Ziyadoğlu-Qacara verdi. Lakin tezliklə Şah Sultan Hüseyn Abbasqulu xanın yardımına ehtiyac duyaraq onu digər istiqamətlərdəki problemlərin həllinə yönləndirdi. Abbasqulu xan Ziyadoğlu-Qacar Səfəvi ordusunun *sipəhsaları* (baş komandanı) təyin edildi və böyük bir ordunun başında Kürdüstan bölgəsinə, Süleyman paşa Babanın üsyanını yatırmağa göndərildi (1701/02-ci illər). Bəzi məlumatlara görə, burada əhali ilə amansız davrandığı üçün Abbasqulu xan İsfahana qayıtdıqdan sonra şahın əmri ilə edam edilmişdir.

ABDAL BƏY DƏDƏ ZÜLQƏDƏR – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Şeyx Heydərin* zamanında qızılbaş hərəkatına qoşulmuş, daha sonra onun böyük oğlu *Sultan Əli Mirzənin* yanında yer tutmuş, Sultan Əli Mirzənin öldürülməsindən sonra cənazəsini Ərdəbilə gətirib (*Hüseyn bəy Lələ* ilə birlikdə) dəfn etmişdi. Abdal bəy I Şah İsmayılın uşaqlıq illərindən etibarən onun yanında olmuşdur. O, Səfəvi dövlətinin quruluşunda iştirak etmiş ilk yeddi qızılbaş əmirindən *(əhli-ixtisas)* biri idi. İsmayılın *dədəsi* (təriqət məsələləri üzrə tərbiyəçisi və ustadı) təyin edildiyi üçün adına "Dədə" ləqəbi qoşulmuşdur. Əsl adının nə olduğu dəqiq məlum deyildir, *"Abdal"* sözünün ad deyil, yüksək təbəqəyə məxsus dərviş mənasını ifadə edən ləqəb olduğu ehtimal edilir. Abdal bəyin hansı tayfadan olması da mübahisəlidir. Əksər mənbələrdə *Zülqədər* tayfasına aid edilsə də, bəzi kitablarda *talış* millətindən olması qeyd olunur.

I Şah İsmayıl Səfəvilər dövlətinin özəyini qurub əsas vəzifələri öz silahdaşları arasında bölüşdürdüyü zaman Abdal bəy Dədə Zülqədərə *qorçubaşı* (şahın xüsusi qvardiyası olan elit dəstənin sərkərdəsi) vəzifəsini vermişdi. Digər sıravi əmirlərdən fərqləndirilmək üçün Abdal bəy Dədə (Hüseyn bəy Lələ ilə birlikdə) *əmir əl-ümərа* (əmirlərin əmiri, baş əmir) rütbəsinə layiq görülmüşdü.

I Şah İsmayıl vaxtilə atası Şeyx Heydərə qarşı döyüşmüş və onu qətlə yetirmiş şəxslərin müəyyən edilib cəzalandırılması üçün təhqiqat işlərini aparmağı da Abdal bəyə həvalə etmişdi (1505/06).

Abdal bəy I Şah İsmayılın hakimiyyətinin ilk illərindən etibarən baş vermiş bütün mühüm döyüşlərdə fəal iştirak etmişdir. 1510-cu ildə *Şeybani xan* üzərində qələbə çaldıqdan sonra I Şah İsmayıl Xorasanın mühüm şəhərlərindən olan Mərvin idarəçiliyini Abdal bəyə həvalə etdi (1511; bundan əvvəl onun Rey hakimi olduğu yazılır). Lakin növbəti ildə vəkil *Nəcmi-saninin* başçılığı altında böyük qızılbaş ordusunun özbəklərə məğlub olması bölgədə vəziyyəti

dəyişdirdi. Düşmənin ardıcıl hücumları qarşısında Herat və Bəlx şəhərləri ilə yanaşı Mərv də təslim oldu. Abdal bəy Dədə ona etibar olunmuş şəhəri özbəklərin ixtiyarına buraxıb Astarabada qaçdı (1513). Bundan sonra I Şah İsmayılın ona münasibəti tamamilə dəyişdi. Keçmiş xidmətlərini nəzərə alaraq şah onu edam etdirmədi, amma qızılbaşlar arasında böyük hörməti olan bu sərkərdə rüsvayçı cəzaya məhkum olundu. Şahın əmri ilə Abdal bəyin bığ-saqqalı qırxıldı, əyninə qadın paltarı geyindirildi, üzünə ənlik-kirşan sürtüldü, uzunqulağın belində tərsinə otuzdurulub şəhərin küçələrində gəzdirildi. Abdal bəyi Ərdəbilə sürgün edib bir daha orduya qatılmamasını tapşırdılar. Onun sonrakı taleyi haqqında məlumat yoxdur.

ABDULLAH XAN USTACLU (vəf. 1567) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Təmişlü* oymağından, I Şah İsmayıl zamanının məşhur sərkərdəsi *Qara xan Ustaclunun* (vəf. 1516) oğlu, *Məhəmməd xan Ustaclunun (*vəf. 1514) qardaşı oğlu idi. Abdullah xan Ustaclu Səfəvi ailəsi ilə qohumluğuna görə dövlətdə hədsiz nüfuz qazanmışdı. Onun anası I Şah İsmayılın bacısı Fatimə sultan idi, özü isə I Şah Təhmasibin bacısı ilə evlənmişdi. (I Şah İsmayılın Firəngiz xanım adlı qızı ilə evləndiyini yazırlar).

Abdullah xan Ustaclu 1549-67-ci illər arasında Şirvan bəylərbəyi vəzifəsində xidmət etmişdir. (Şirvan bəylərbəyliyinin ilk hakimi *Əlqas Mirzə*, sonra İsmayıl Mirzə (gələcək II Şah İsmayıl) olmuşdur). Valiliyi dövründə üsyanları yatırmış, mərkəzi hakimiyyətin güclənməsinə yardım göstərmişdir. O, qızılbaş əmirləri arasında ən güclü və ən sərvətli sayılırdı. I Şah Təhmasibin zamanında Səfəvilər dövlətinə səfər etmiş ingilis səyyah-diplomatı Antoni Cenkinson onu "Şirvan kralı" adlandırmışdı. A.Cenkinson öz səyahətnaməsində Şirvan sarayının təmtəraqlı quruluşu və Abdullah xanın dəbdəbəli həyatı barədə ətraflı məlumat vermişdir. Səyyah onun şərəfinə təşkil edilmiş ziyafət süfrəsindəki yemək çeşidlərinin sayından heyrət içində idi. O yazırdı ki, meyvə və çərəzləri çıxmaqla, süfrəyə əvvəlcə 140 növ, daha sonra 150 növ yemək gətirilmişdi.

Abdullah xanın oğlu Həmzə xan qoşun sərkərdələrindən idi, bəzi mühüm döyüşlərdə *çərxçibaşı* (avanqard dəstənin sərkərdəsi) kimi iştirak etmişdi. Digər oğlu Şah Əli Mirzənin oğlu *Salman xan* əvvəlcə Məşhəd hakimi və Xorasanın yarısının əmir əl-ümərası olmuş, sonra baş vəzir məqamına yüksəlmişdi, üstəlik I Şah Təhmasibin qızı *Şəhrəbanu xanımla* ailə qurmuşdu. Abdullah xanın Xan Məhəmməd adlı daha bir oğlunun da adı mənbələrdə xatırlanır.

Abdullah xanın vəfatından sonra Şirvan bəylərbəyliyinə onun oğlu Şah Əli Mirzə, yaxud *Araz xan Rumlu* təyin edildi.

AĞQOYUNLULAR DÖVLƏTİ – Bayandur tayfasının rəhbərliyi altında türkman tayfa konfederasiyasının yaratdığı dövlət. Öz bayrağında Bayandur tayfasının "Ağ qoyun" tamğasını əks etdirdiyi üçün bu adla adlandırılmışdır. Qədim

oğuz boylarından biri olan Bayandurlar erkən orta əsrlərdə Cənubi Qafqaz, Azərbaycan, Göyçə gölü ətrafı, Araz çayının cənubundakı torpaqlar, indiki İranın qərb, Anadolunun şərq bölgələri, Dəclə və Fərat vadiləri daxil olmaqla geniş bir ərazidə məskunlaşmışdılar. Bəzi mənbələrdə onların Orta Asiyadan köçüb gəldikləri qeyd edilmişdir.

Köçəri həyat tərzi sürən ağqoyunlular XIV əsrdən etibarən bölgədə üstünlüyü ələ almaq uğrunda Qaraqoyunlu tayfa ittifaqı və Misir məmlük dövləti, eləcə də Trabzon imperiyası ilə ardıcıl toqquşmalara girirdilər. Bu dövrdə Ağqoyunlu tayfa ittifaqına Pəhləvan bəy oğlu Turəli bəy başçılıq edirdi. Turəli bəyin tabeliyində 30 min Bayandur ailəsi vardı. O, torpaqlarını müstəqil şəkildə idarə edir, öz adından pul zərb etdirirdi. Trabzona yürüşlərin nəticəsi olaraq imperator III Aleksey bacısını Turəli bəyin oğlu Qutlu bəyə ərə verməli olmuşdu. Bu, Ağqoyunlu dövləti və Trabzon imperiyası arasında bağlanmış siyasi izdivacların birincisi sayılır. Bundan bir əsr sonra Ağqoyunlu hökmdarı *Uzun Həsən* də Trabzon imperatoru IV Böyük İohann Komninin (ləqəbi Kalo-İoannes – "gözəl İohann") qızı Teodora *(Dəspinə xatun)* ilə evləndi və bu izdivacdan I Şah İsmayılın anası *Aləmşah bəyim* doğuldu.

Qutlu bəyin oğlu Qara Yuluq Osman bəy Ərətna bəyliyinin başçısı Qazı Bürhanəddinlə mübarizədə qalib gəlsə də, osmanlıların simasında özünə güclü rəqib qazandı. Osmanlı sultanı İldırım Bayezid Ağqoyunlu torpaqlarının bir hissəsini işğal etdi. Bundan sonra Qara Yuluq Osman bəy Əmir Teymurun himayəsinə sığınaraq Anadolu yürüşündə onun tərəfində döyüşdü. Bunun əvəzi olaraq ağqoyunlular əvvəlki mülklərini və daha geniş əraziləri ələ keçirib qüvvətləndilər. Lakin az sonra Qara Yuluq Osman bəy qaraqoyunlular qarşısında üstünlüyü əldən verib torpaqlarının böyük hissəsini güzəştə getməyə məcbur oldu. Onun ölümündən sonra oğlu Cəlaləddin Əli bəy bölünmüş torpaqları birləşdirməyə cəhd etsə də, qardaşı Həmzə bəylə mübarizə onların hər ikisini zəiflətdi. Onlardan sonra hakimiyyət əvvəlcə Əli bəyin böyük oğlu Cahangir Mirzəyə, daha sonra onun qardaşı Uzun Həsənə keçdi. Uzun Həsənin zamanında Ağqoyunlu dövləti özünün ən yüksək inkişaf dövrünü yaşamışdır. Regionda ən güclü rəqibi olan Qaraqoyunlu Cahan şahı məğlub etdikdən (1467) sonra o, Qaraqoyunlu ordusunun qalıqları və köməyə gələn Teymurilər üzərində parlaq qələbə qazandı. Otluqbeli savaşında (1473) Osmanlı sultanı II Mehmet Fatehə məğlub olsa da, Uzun Həsən öz böyük dövlətinin ərazilərini qoruyub saxlaya bildi. Uzun Həsən zamanında Ağqoyunlu dövləti indiki Azərbaycan, İran, İraq ərazilərini, indiki Türkiyə, Suriya və Gürcüstanın bir hissəsini əhatə edirdi. Dövlətin başçısı sultan titulunu daşıyırdı, paytaxt əvvəlcə Diyarbəkrin Amid şəhəri, daha sonralar Təbriz olmuşdur. Lakin Uzun Həsənin vəfatından sonra oğullarının və nəvələrinin zamanında Ağqoyunlu dövləti xeyli zəiflədi. Hakimiyyət taxtında bir-birini əvəz edən hökmdarların başı daxili müharibələrə

qarışdı. Uzun Həsənin nəvələri Əlvənd Mirzə və Sultan Murad 1500-cü ildə müqavilə bağlayaraq Ağqoyunlu dövlətinin ərazisini öz aralarında bölüşdürdülər. Qızılüzən çayının şimalındakı torpaqlar (indiki Şimali və Cənubi Azərbaycan) Əlvənd Mirzənin, digər ərazilər Sultan Muradın idarəsi altına düşdü. Nəhayət, 1501-ci ildə Əlvənd Mirzənin, 1503-cü ildə isə Sultan Muradın I Şah İsmayılla müharibədə uduzmaları nəticəsində Ağqoyunlu dövləti süqut etdi, onun yerini digər qüdrətli türk dövləti – Səfəvilər imperiyası tutdu.

Ağqoyunlu-Səfəvi münasibətləri Uzun Həsən zamanında müsbət istiqamətdə inkişaf etmiş, hətta sülalədaxili evliliklərlə möhkəmlənmişdi. Uzun Həsən bacısı Xədicə bəyimi *Şeyx Cüneydə*, daha sonralar öz qızı Aləmşah bəyimi *Şeyx Heydərə* ərə verməklə *səfəviyyə təriqətinin* başçıları ilə siyasi ittifaq yaratmışdı. Lakin onun vəfatından sonra Ağqoyunlu hökmdarlarının Səfəvi sülaləsinə münasibəti pisləşərək düşmənçilik həddinə çatmış, Şeyx Heydərin övladları uzun müddət ağqoyunluların əmri ilə həbsdə olmuş, I Şah İsmayılın böyük qardaşı *Sultan Əli Mirzə* onların əli ilə aradan götürülmüşdü.

Ağqoyunlular zamanında Azərbaycanda elm və mədəniyyət yüksək səviyyədə inkişaf etmiş, təsəvvüf təriqətlərinin fəaliyyətinə şərait yaradılmışdı. Uzun Həsənin xalqın maddi rifahını yüksəltməyə yönəlmiş iqtisadi islahatları ölkənin çiçəklənməsinə səbəb olmuşdu. Ağqoyunlular zamanında paytaxt *Təbriz* Şərqin elm və sənət mərkəzlərindən birinə çevrilmişdi.

Səfəvilər dövləti Ağqoyunluların dövlətçilik ənənələrini davam etdirmiş, onların qoyduğu bünövrə üzərində inkişaf etmişdir. Səfəvi idarəçilik mexanizmi, saray etiketi, ordu quruculuğu xeyli dərəcədə ağqoyunlu mirasına əsaslanırdı. Uzun Həsənin zamanında tərtib edilmiş "Qanunnamə" adlı hüquq toplusu Səfəvilər zamanında da bir müddət istifadədə olmuşdur. I Şah İsmayıl Təbrizi fəth etdikdən sonra Uzun Həsənin taxtında oturmaqla Ağqoyunlu dövlətinin hüquqi varisi olduğunu nümayiş etdirmişdir.

AĞZIVAR XAN ŞAMLU (vəf. 1534) – görkəmli qızılbaş əmiri. *Şamlu* tayfasına mənsub idi. Atası Dəmri bəy Şamlu I Şah İsmayıl zamanında və I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində nüfuzlu ordu əmirlərindən idi. O, 1527-ci ildə Əxi sultan Təkəlü ilə birlikdə Bistam yaxınlığında Übeyd xanın başçılıq etdiyi özbək qoşununa qarşı döyüşdə əsir düşüb öldürülmüşdür.

Ağzıvar xan hələ 1529-cu ildən Məşhəddə xidmət edirdi, o zaman qızılbaşlar özbəklərin hücumu qarşısında tab gətirməyib Məşhədi təslim etməyə məcbur olmuşdular. Sonralar Ağzıvar xan I Şah Təhmasib tərəfindən Nişapura hakim təyin edildi, 1530/31-ci illərdə Übeyd xanın sərkərdəsi Qəmiş Oğlanın başçılıq etdiyi özbək dəstəsinə hücum edib onları bölgədən uzaqlaşdırdı. 1532-ci ildə o, digər qızılbaş əmirləri ilə birləşib Übeyd xanın qarnizonunu Məşhəddən qovdu və şəhəri azad etdi. Az sonra I Şah Təhmasibin əmri ilə Ağzıvar xan

şahzadə *Sam Mirzənin lələsi* və Xorasan vilayətinin *əmir əl-ümərası* təyin olundu. 1534-cü ildə I Şah Təhmasib öz bibisi oğlu və vəkili *Hüseyn xan Şamlunun* təsirindən qurtulmaq üçün onu edam etdirdi. Bunun ardınca Şamlu tayfasından Hüseyn xanla əlaqəsi olan və onun komandasından sayılan əmirlərə qarşı təzyiqlər başladı. Ağzıvar xan cəzalanmaq qorxusundan şaha xəbər vermədən özbəklər üzərinə yürüşə çıxdı. Bununla o, qələbə qazanıb şahın gözündə ucalmaq və cəzadan qurtulmaq istəyirdi. Ağzıvar xan şahzadə Sam Mirzəni də özü ilə götürüb Böyük Moğol imperiyasının əlində olan Qəndəhar qalasına hücum etdi. Sayları 2-3 min nəfər arasında olan qızılbaşlar böyük şücaət göstərsələr də, döyüş onların məğlubiyyəti ilə bitdi. Ağzıvar xanın atının ayağı çalaya düşüb büdrədi və sərkərdə atdan yıxıldı. Onu əsir tutub düşərgəyə apardılar, Səfəvi qoşununun sərkərdəsi Ağzıvar xan olduğunu biləndə dərhal edam etdilər (1534).

Ağzıvar xanın oğlu Əbülfəth xan Şamlu I Şah Abbası öz nəzarəti altında saxlamaq üstündə *Əliqulu xan Şamlu* və *Mürşidqulu xan Ustaclu* arasında baş vermiş döyüşdə birincinin tərəfində iştirak edərək həlak olmuşdur.

ALLAHQULU SULTAN EYCƏKOĞLU USTACLU (vəf. 1576) – görkəmli qızılbaş əmiri. *Ustaclu* tayfasının *Kərəmpa* oymağına mənsub olan Allahqulu sultan 1568-ci ildə I Şah Təhmasibin əmri ilə Gilanın bir hissəsinin hakimi və şahzadə *Sultan Mahmud Mirzənin lələsi* (tərbiyəçisi) təyin edilmişdi. Sonralar şah Sultan Mahmud Mirzəni Gilan *əmir əl-ümərəlığından* azad edib, digər oğlu *İmamqulu Mirzəni* onun yerinə təyin etdi. Vilayətdə baş verən üsyanla bacarmaması və xidmətdə səhlənkarlığa yol verməsi ittihamı ilə Allahqulu sultan Eycəkoğlu da Gilan hakimliyindən çıxarıldı, mülkləri həmtayfası *Pirə bəy Ustacluya* hədiyyə olundu. Gözdən düşmüş Allahqulu sultan uzun müddət sarayın qapısında durub bağışlanmasını və şah tərəfindən qəbul olunmasını xahiş edirdi. Nəhayət, 1572-ci ilin ramazan ayında I Şah Təhmasib onu sarayda qəbul etdi, bağışladığını bildirdi və Gilana geri dönməsinə icazə verdi. Lakin salnamələrdə şahın bu hərəkətinin formal xarakter daşıdığını, əslində isə onun Allahqulu xandan yenə incik qaldığını yazırlar.

I Şah Təhmasibin ölümqabağı xəstəliyi vaxtı taxta kimin keçəcəyi mövzusunda qızılbaş əmirləri əsasən iki dəstəyə bölünmüşdülər. Onların bir qismi Qəhqəhə qalasında həbsdə olan İsmayıl Mirzəni (gələcək *II Şah İsmayıl*), digər qismi isə şahzadə *Heydər Mirzəni* dəstəkləyirdi. (Şahzadə Məhəmməd Mirzənin (gələcək *Şah Məhəmməd Xudabəndə*) gözləri çox zəif gördüyü üçün onu hakimiyyətə real namizəd saymırdılar). Allahqulu sultan Eycəkoğlu Ustaclu ikinci dəstəyə aid olsa da, radikal addımlar atmaq tərəfdarı deyildi. Bununla belə, II Şah İsmayıl hakimiyyətə gəldikdən sonra Ustaclu tayfası ilə keçmiş ədavətin intiqamını almağa fürsət tapan tərəfdarlar Allahqulu sultanın imarətinə hücum çəkdilər. Onun mərhum şah tərəfindən göz-

dən düşməsi, buna görə də nüfuzunun aşağı olması, eləcə də son hadisələrdə Heydər Mirzənin tərəfində durması təkəlülər üçün bəhanə oldu. Allahqulu sultanın özü və övladları da daxil olmaqla 20 nəfərdən artıq Ustaclu əmiri qılıncdan keçirildi, əmlakları qarət olundu (1576).

ALLAHVERDİ XAN UNDİLADZE (vəf. 1613) – Səfəvilər dövründə yaşamış görkəmli dövlət xadimi. Gürcü mənşəli idi. I Şah Abbas zamanında Qafqazın qeyri-müsəlman xalqları arasından toplanmış, İslamı qəbul etmiş döyüşçülərdən ibarət olan qullar *(qulamlar)* təbəqəsinə məxsus ən görkəmli əyanlardan biri olmuşdur. Allahverdi xan 1589-cu ildə *Mürşidqulu xan Ustaclunun* aradan götürülməsinə yardım etməklə şaha ilk xidmətini yerinə yetirmiş oldu. Bunun əvəzində ona İsfahan ətrafındakı məntəqələrdən birinin hakimliyi verildi. Allahverdi xan vəzifə pillələri ilə uğurla irəliləyərək təqribən 6 ildən sonra *qullarağası* mənsəbini qazandı. Xüsusi təlim görmüş minlərlə döyüşçüdən ibarət olan qulamlar korpusuna başçılıq etməklə o, dövlətdə böyük güc sahibinə çevrildi. Elə həmin il ona ən iri vilayətlərdən biri olan Fars əyalətinin hakimliyi verildi. Allahverdi xan Səfəvi tarixində bəylərbəyliyə (sonradan bəylərbəyliklərin çoxu xassə torpaqlara çevrildi) başçılıq edən ilk qeyri-qızılbaş qulam oldu. Cəmi bir ildən sonra Kuhgiluyə hakimliyi də ona həvalə edildi.

Allahverdi xan 1598-ci ildə 10 illik işğaldan sonra Herat şəhərini özbəklərdən döyüşlə geri aldı. Az sonra o, I Şah Abbasın öz hakimiyyəti üçün təhlükəli hesab etdiyi daha bir *nüfuzlu qızılbaş əmirini – Fərhad* xan Qaramanlunu aradan götürdü. Bu xidmətlərdən sonra Allahverdi xan Səfəvilər dövlətində, faktiki olaraq, şahdan sonra ən güclü fiqura çevrildi. Onun təklifi ilə qulam korpusu döyüşçülərinin sayı 4 mindən 25 minə çatdırıldı. Beləliklə, Allahverdi xanın ixtiyarı altında hər an onun əmrini gözləyən 25 minlik hərbi qüvvə toplanmış oldu. Artıq onu, sadəcə olaraq, qullarağası deyil, sərləşkər və *sipəhsalar* (ordunun baş komandanı) rütbəsi ilə çağırırdılar.

Allahverdi xan Bəhreyn torpaqlarının Səfəvilər dövlətinə birləşdirilməsini həyata keçirmiş (oğlu *İmamqulu xanın* əli ilə), həm şərq (özbəklərə qarşı), həm də qərb (osmanlılara qarşı) cəbhələrində aparılan hərbi əməliyyatlarda rəhbər rol oynamışdır.

Allahverdi xan 1613-cü ildə vəfat edərkən I Şah Abbas onun dəfn mərasiminə şəxsən başçılıq etmiş, evinə gedərək ailə üzvlərinə başsağlığı vermişdir.

Allahverdi xanın iki oğlu da Səfəvilər dövlətində yüksək vəzifə tutmuşdur. Oğullarından İmamqulu xan onun yerinə Fars vilayətinin hakimi təyin edilmiş, digər oğlu *Davud xan* bir müddət Qarabağ bəylərbəyi və Gəncə hakimi olmuşdur. Lakin sonralar onların hər ikisi dövlətə xəyanət ittihamı ilə vəzifədən azad edilmiş, İmamverdi xan bütün ailə üzvləri ilə birlikdə öldürülmüş, Davud xan isə Gürcüstana qaçmışdır.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında Allahverdi xanı fərdi

xüsusiyyətlərinə görə hamıdan seçilən, çoxlu imarət və xeyriyyə binası tikdirmiş, olduqca səbirli və həyalı bir şəxs, ruzgarın pak adamı kimi xarakterizə etmişdir. İsfahandakı məşhur *Allahverdi xan körpüsü* onun vəsaiti hesabına tikilmişdir.

ARAS XAN RUMLU (vəf. 1578) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Rumlu* tayfasına mənsub olmuş, *Abdullah xan Ustaclunun* vəfatından sonra (1567) I Şah Təhmasibin əmri ilə Şirvana bəylərbəyi təyin edilmişdir. Bəzi məlumatlara görə, Abdullah xandan sonra bir müddət oğlu Şah Əli Mirzə, daha sonra Aras xan Rumlu bu vəzifəyə təyinat almışdır. Aras xan şahzadə *Mahmud Mirzənin lələsi* (tərbiyəçisi) idi, şahzadə azyaşlı olduğu üçün Şirvanı onun adından Aras xan idarə edirdi.

I Şah Təhmasibin vəfatından (1576) sonra II Şah İsmayıl Aras xanı Şirvan bəylərbəyliyindən çıxarıb Herata bəylərbəyi təyin etdi, amma bir idən sonra (1577) Şah Məhəmməd Xudabəndə onu öz vəzifəsinə qaytardı. Şirvanın Ərəş mahalı Ərdoğdu xəlifə Təkəlüyə, Şəki əyaləti İsa xana tapşırıldı, bir neçə Rumlu əmirinə Şirvanda mülklər bağışlandı.

Lakin çox keçmədi ki, osmanlıların Səfəvilər dövlətinə növbəti hücum dalğası başladı, bu dalğanı üzərinə qəbul edən ilk bölgələrdən biri də Şirvan oldu. 1578-ci ildə Şirvan bəylərbəyliyinin iri yaşayış məntəqələri olan Şamaxı, Qəbələ, Bakı, Salyan, Mahmudabad, Şabran birbirinin ardınca osmanlıların əlinə keçdi. Aras xan tabeliyindəki qüvvələrlə müqavimət göstərə bilməyəcəyini anlayıb Kür çayının sahillərinə doğru geri çəkildi, daha sonra günahını yumaq üçün əks-hücuma keçdi. 1578-ci il noyabrın 9-da Şirvan qoşunu ilə Osmanlı qüvvələri arasında 3 gün davam etmiş döyüş başladı. Osmanlılara yardıma gələn 15 min nəfərlik Krim tatarları (Adil Gərayın başçılığı altında) savaşın taleyini həll etdilər. Şirvan qoşunu ağır məğlubiyyətə uğradı, Aras xan oğlu ilə birlikdə əsir götürülüb edam olundu. Adil Gəray bu qələbə ilə kifayətlənmədi, Şirvan qoşununun qalıqlarının düşərgə qurduğu yeri öyrənib ora hücum çəkdi. Bu dəfə də tatarlar çoxlu qətl törədib bol qənimət əldə etdilər.

Bu hadisələrdən sonra Qarabağ bəylərbəyi *İmamqulu xan Qacar* və onun ümumi komandası altında hərəkət edən yeni Şirvan bəylərbəyi *Peykər xan İyirmidörd* Osmanlı hücumları qarşısında duruş gətirə bilmədilər, Peykər xanın yerinə keçmiş *Ənsar xəlifə Qaradağlu* da məğlubiyyətlə barışmalı oldu. Şirvan torpaqları təqribən 20 il müddətində Osmanlı üsuli-idarəsi altında qaldı.

BABUR ŞAH (1483-1530) – *Böyük Moğollar imperiyasının* banisi, görkəmli sərkərdə, şair və sənət himayədarı. Əsl adı Zəhirəddin Məhəmməd olmuş, "bəbir" (qaplan, leopard) sözündən törəmiş "Babur" ləqəbini özünə təxəllüs götürmüşdür. Əmir Teymurun nəslindən olan Baburun şəcərəsi belədir: Zəhirəddin Babur ibn Ömər Şeyx Mirzə ibn Sultan Əbu Səid ibn Mirzə Məhəmməd ibn Miranşah ibn Əmir Teymur. Atası

Ömər Şeyx Mirzə Fərğanə hakimi, anası Qutluq Nigar xanım isə Çingiz xanın nəslindən olan Monqolustan hakimi Yunus xanın qızı idi.

Atasının ölümündən sonra yeniyetmə Babur Fərğanə hakimiyyətinə yiyələnmiş, təqribən 14 yaşında ikən Səmərqənd şəhərini fəth etmişdir. Onun arzusu ulu babası Teymurun dövlətini bərpa etmək idi, bu arzunun reallaşması üçün ilk pillə olaraq o, Mavəraünnəhri (Orta Asiya) fəth etməyə çalışırdı. Lakin az sonra *Məhəmməd xan Şeybani* Səmərqənd şəhərini onun əlindən aldı və Babur öz əmisi oğlunun hakimiyyət sürdüyü Kabili ələ keçirərək orada hakimiyyət sürməyə başladı.

1510-cu ildə *Mərv savaşında* Məhəmməd xan Şeybani I Şah İsmayıl tərəfindən öldürüldükdən sonra Orta Asiyanı geri qaytarmağın vaxtı çatdığını düşünən, amma təkbaşına buna gücü yetməyən Babur Səfəvi şahından yardım istədi. Qızılbaş ordusunun köməyi ilə Səmərqəndi fəth edən Babur I Şah İsmayıla minnətdarlıq əlaməti olaraq şiə məzhəbinə keçdiyini elan etdi, başına qızılbaş papağı qoydu, 12 imamın adına xütbə oxutdurub pulların üzərində onların adlarını həkk etdirdi. Bəzi tarixçilər Baburun məcburiyyət üzündən, arzusunda olduğu hakimiyyəti əldə etmək naminə bu addımları atdığını yazırlar. Az sonra bu yeniliklə barışmaq istəməyən xalqın təzyiqi qarşısında mövqeyindən geri çəkildiyi üçün və ya başqa səbəbdən Baburla Səfəvilərin münasibətlərində soyuqluq yarandı. 1512-ci ildə I Şah İsmayıl Orta Asiyada öz nüfuzunu bərpa etmək və Baburun müstəqillik cəhdlərinə son qoymaq məqsədilə *vəkil Nəcmi-saninin* başçılığı altında böyük bir qoşun göndərdi. Bu yürüş tam məğlubiyyətlə başa çatdı, qızılbaş ordusu Übeydullah xan Şeybani tərəfindən darmadağın edildi. Baburun döyüşdən əvvəl vəziyyəti düzgün qiymətləndirərək öz qoşunu ilə kənara çəkildiyi və savaşa qatılmadığı deyilir. Beləliklə, o, cəmi 7 aylıq hakimiyyət müddətindən sonra Orta Asiya üzərində nəzarəti itirdi.

Babur Əmir Teymurun imperiyasını dirçəltmək arzusunu güclü rəqiblər qarşısında həyata keçirə bilməyəcəyini anlayaraq bundan sonra diqqətini Hindistana tərəf yönəltdi. Türk mənşəli sülalənin idarə etdiyi Dehli sultanlığı vaxtilə çox güclü olsa da, bu dövrdə xeyli zəifləmişdi. 1519-cu ildə Şimal-Qərbi Hindistana yürüş etməklə Babur qarşı tərəfin gücü barədə məlumat qazandı. Dehli sultanlığının rəqiblərinə arxalanaraq o, 1526-cı ildə 15 min nəfərlik canlı qüvvə və 20-dən artıq topla Hindistan üzərinə hücuma keçdi. Dehli sultanlığının 40 min nəfər əsgərdən və yüzlərlə döyüş filindən ibarət ordusu darmadağın edildi. Babur bir-birinin ardınca şəhərləri fəth edir, hind racalarını məğlubiyyətə uğradırdı. Beləliklə, XVI əsrin birinci yarısında Babur şah paytaxtı Aqra olan Böyük Moğollar və ya Gürganilər imperiyasının əsasını qoydu.

Zəhirəddin Babur istedadlı ədib və şair idi, türk dilinin cığatay şivəsini özünün ana dili hesab edir və bu dildə yazıb-yaradırdı. Onun ən məşhur əsəri avtobioqrafik məzmunlu "Baburnamə"dir. Bu

kitabda Babur hakimiyyət uğrunda apardığı mübarizələri bədii üslubda təsvir etmişdir. Bundan əlavə, Baburun dini mövzuda əsərləri, klassik şeir qaydaları barədə "Əruz risaləsi", *divanı* da olmuşdur. Onun baburi adlı yeni xətt növü yaratdığı da mənbələrdə qeyd edilmişdir. Zəhirəddin Babur 1530-cu ilin sonlarında Aqrada dünyasını dəyişmiş, vəsiyyətinə əsasən Kabildə özünün saldığı bağda dəfn olunmuşdur. Vəfatından əvvəl Babur ixtiyarında olan torpaqları 4 oğlu arasında bölmüş, məmləkətin əsasını təşkil edən Hindistanı Humayuna vəsiyyət etmiş, Pəncab, Kabil və Qəndəhar hakimi olan qardaşlarının isə ona tabe olmalarını tapşırmışdı.

BADİNCAN SULTAN RUMLU (vəf. 1526/27) – görkəmli qızılbaş əmirlərindən biri. *Rumlu* tayfasına mənsub olmuşdur. Əsl adı məlum deyil, həyatı haqqında məlumat da azdır. Badincan sultan I Şah İsmayılın zamanında müxtəlif döyüşlərə qatılaraq şücaət göstərmiş, o cümlədən Luristan hakimi *Məlikşah Rüstəmlə*, özbək xanları *Şeybək xan* və Übeyd xanla savaşlarda fərqlənmişdir. Ömrünün sonlarına yaxın Ərdəbil şəhərinin hakimliyi ona verilmişdi. Badincan sultan uzun ömür yaşamış, 90 yaşında ikən *Ustaclu* əmirləri ilə savaşda öldürülmüşdür. I Şah İsmayılın vəfatından sonra qızılbaş əmirləri arasında baş vermiş qarşıdurmada *Div sultan Rumlu* və *Çuxa sultan Təkəlü* digər qızılbaş tayfalarını sıxışdıraraq hakimiyyəti öz əllərində cəmləşdirmişdilər. Bundan əvvəl bir müddət *əmir əl-üməralıq* mənsəbində Div sultana şərik olmuş, sonra vəzifədən uzaqlaşdırılaraq bütün mülkləri əlindən alınmış *Köpək sultan Ustaclu* və tərəfdarları üstünlüyü yenidən öz əllərinə keçirməyə çalışırdılar. Onlar Div sultandan intiqam almaq üçün həmtayfası Badincan sultanı öldürmək qərarına gəldilər. Ərdəbilə hücum edən ustacluların qarşısını 3-4 min nəfərlik *Rumlu, Çəpni* və *Talış* döyüşçüləri birliyi kəsir. Badincan sultan savaşda məğlub olub öldürüldü. Bundan sonra Ustaclu əmirləri qələbəni qeyd etmək üçün Ərdəbilə girib Şeyx Səfiəddinin məzarını ziyarət edib oradan da Təbriz üzərinə hərəkətə keçdilər. Div sultanla Çuxa sultanın qoşunları onların qarşısına çıxdı. Ustaclular birbaşa toqquşmadan yayınıb döyüş meydanını Şərur ətrafına çəkdilər. Orada baş vermiş savaşda ustaclular bir daha məğlub oldular, Köpək sultan Ustaclu isə öldürüldü (1527).

BARİK BƏY PÖRNAK – Türkman tayfa ittifaqına aid olan *Pörnak* tayfasından Əli bəyin oğlu. Məlumdur ki, Pörnak tayfasının başçıları Səfəvilərdən əvvəl Ağqoyunlu dövlətinə tabe idilər. Səfəvi dövləti qurulduqdan sonra bu tayfa qızılbaşlığı qəbul etdi. Barik bəyin həyatı haqqında informasiya azdır. Məlum olan budur ki, XVI əsrin əvvəllərində İraqda hakimiyyəti ələ keçirərək, Bağdad mərkəz olmaqla, burada hökm sürürdü. Ağqoyunlu şahzadəsi Sultan Murad *Almabulağı* (Almaqulağı) *savaşında* I Şah İsmayıla məğlub olduqdan sonra Bağdada çəkilərək Barik bəy Pörnaka sığınmış, bir müddət onun hima-

yəsi altında yaşamış, daha sonra *Zülqədəroğulları bəyliyinin* ərazisinə keçmişdi. 1508-ci ildə I Şah İsmayıl Xəlil yasavulu İraqa elçi göndərərək Barik bəyi təslim olmağa çağırdı. İraq hakimi şahın göndərdiyi *qızılbaş papağını* nümayişkaranə şəkildə başına qoydu, yanındakılara da bunu əmr etdi. Bununla o, qızılbaş əqidəsini qəbul etdiyini və I Şah İsmayıla təslim olduğunu göstərdi. Barik bəy öz növbəsində elçisi Əbu İshaq Şiraçi vasitəsilə şaha bahalı hədiyyələr yolladı. I Şah İsmayıl Barik bəyin öz sədaqətini şəxsən bildirməsi üçün Təbrizə gəlməsini tələb etdi. Buna cavab olaraq İraq hakimi qızılbaş tacını çıxardı (yəni Səfəvilərin tabeliyindən çıxdığını elan etdi), Bağdad qalasını möhkəmləndirdi. O, nəqib (İraq seyidlərinin başçısı) mənsəbində olan və müqəddəs hərəmlərin idarəçiliyini yerinə yetirən *Seyid Məhəmməd Kəmunəni* Səfəvilərə rəğbət bəslədiyi üçün quyuda həbs etdi.

I Şah İsmayıl bu xəbəri eşidəndə İraq üzərinə yürüşə çıxdı. Barik bəy Pörnakın tabeliyində təqribən 10 min nəfər döyüşçü olsa da, onların əksəriyyəti dağılışıb qaçdı. Axırda yanında cəmi 10 nəfər tərəfdarı qalmış Barik bəy əvvəlcə Hələbə getdi, orada bir müddət Məmlüklərin himayəsi altında qaldı, daha sonra Osmanlı dövlətinə pənah apardı və I Sultan Səlimə xidmət etməyə başladı. Barik bəy Pörnak I Sultan Səlimin Azərbaycana yürüşünə qatılmış, *Çaldıran savaşında* osmanlıların tərəfində iştirak etmişdir. Yürüşdən qayıtdıqdan sonra onun gözləri tutulmuş və bir neçə ildən sonra dünyasını dəyişmişdir.

BAYRAM BƏY QARAMANLU (vəf. 1512) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Qaramanlu* tayfasına mənsub idi. Səfəvilər dövlətinin qurulma prosesində fəal iştirak etmişdir. Hələ *Şeyx Heydər* zamanında qızılbaş hərəkatına qoşulmuş, onun ölümündən sonra oğullarının yanında olmuşdur. Bayram bəy Qaramanlu Şeyx Heydərin yanında böyük hörmətə malik olduğu üçün onun qızı Fəxricahan xanımla evlənmişdi. Səfəvi tarixində xüsusi yeri olan yeddi qızılbaş əmirindən *(əhli-ixtisas)* biridir, I Şah İsmayılın uşaqlıq dövründən etibarən onun yaxın ətrafında yer tutmuşdur. I Şah İsmayıl 1500-cü ildə Anadolunun vəziyyətini öyrənmək və oradakı tayfaların dəstəyini qazanmaq məqsədilə Ərzincana səfərdən geri qayıdarkən *Təkəlü* və *Zülqədər* tayfalarından ona qoşulanların dəstəsinə rəhbərlik Bayram bəy Qaramanluya həvalə edilmişdi. Həmin il Şirvana yürüş zamanı I Şah İsmayıl Bayram bəyi Zülqədər tayfasından bir dəstənin başında qoşundan qabağa göndərmişdi ki, Kür çayı üzərində körpü salsın və ya çaydan keçmək üçün münasib bir yer tapsın. Lakin Bayram bəy keçid tapa bilmədi, bu zaman qoşunla bilikdə gəlib çatan şah öz atını Kür çayına vuraraq qarşı sahilə keçdi, qızılbaş qoşunu da ondan ilham alaraq ardınca getdi.

O, I Şah İsmayılın ilk döyüşlərində qoşun bölümünün sərkərdəsi qismində iştirak etmiş, dövlətin ilk *divanbəyisi* vəzifəsinə layiq görülmüşdür. *Şeybani xan* üzərində qələbədən (1510) sonra I Şah İsmayıl Bəlx, Mürğab və ətraf bölgələ-

rin idarəçiliyini ona vermişdi. Bayram bəy Qaramanlu 1512-ci ildə *Nəcmi-saninin* başçılıq etdiyi qoşunun tərkibində özbəklərə qarşı baş vermiş Qicduvan savaşında həlak olmuşdur. Oğlu Məhəmmədi bəy I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində qızılbaş tayfaları arasında gedən mübarizəyə qoşulmuş, 1526/27-ci illərdə Təkəlü və *Ustaclu* tayfaları arasında baş vermiş döyüşdə öldürülmüşdür. Nəvəsi Hüsam bəy I Şah Təhmasibin sərkərdələrindən olmuş, lakin 1577-ci ildə törətdiyi cinayətə görə edam edilmişdir.

BAYRAM XAN BAHARLU (vəf. 1561) – qızılbaş *Baharlu* tayfasının yetirməsi olan görkəmli dövlət xadimi, şair, elm və sənət himayədarı.

Bayram bəy Baharlu tayfasının nüfuzlu *Əlişəkəroğulları* qoluna mənsub idi. Bu nəslin başçısı Əlişəkər bəy Baharlu Qaraqoyunlu hökmdarı Cahan şahın (və ya oğlu Məhəmməd Mirzənin) qayınatası idi. Qaraqoyunlu dövlətinin süqutundan sonra Əlişəkər bəyin oğlu Pirəli bəy Teymurilərin xidmətinə keçmişdi. Onun oğlu Canəli bəy Böyük Moğol hökmdarı *Baburun* sərkərdəsi idi, Canəli bəyin oğlu Seyfəli bəy Babur şah tərəfindən Qəznə vilayətinin hakimi təyin olunmuşdu. Sonralar bu nəslin digər nümayəndələri də Babur şahın dövlətində xidmət etmişdilər.

Seyfəli bəyin oğlu Bayram bəy Baharlu 16 yaşında ikən Kabilə gəlmiş, əvvəlcə Babur şaha, daha sonra onun oğlu Humayun şaha xidmət etmişdi. İti zəkası, idarəçilik bacarığı və dürüstlüyü sayəsində Humayun şahın etimadını qazanmış Bayram bəy "xanlar xanı" tituluna layiq görülmüşdü. Dövlətin daxili və xarici siyasətinin əsas cizgilərini təyin etmək, kadr siyasətini həyata keçirmək onun səlahiyyətləri çərçivəsində idi. Bayram xan Humayun şahın düşmənlərinə əsir düşsə də, hökmdara xəyanət etməmiş, Humayun şah taxtdan endirilib I Şah Təhmasibin himayəsi altında sığınacaq tapdığı zaman onun yanında yer tutmuşdu. Humayun şahın yenidən taxtı geri qaytarması müəyyən dərəcədə Bayram xanın məsləhətləri və müdrik siyasəti nəticəsində mümkün olmuşdu.

Humayun şahın bacısı qızı Səlimə bəyimlə ailə qurması Baharlu tayfasının bu uzaqgörən yetirməsini hakim sülaləyə daha da yaxınlaşdırdı və nüfuzunu artırdı. Humayun şahın vəfatından (1556) sonra Bayram xan tərbiyəçisi olduğu 14 yaşlı şahzadə Əkbərin taxta yiyələnməsini təmin etmiş və onun müşaviri kimi fəaliyyət göstərmişdi.

Bayram xanın artan nüfuzundan narahat olan saray əyanları, nəhayət, onunla Əkbər şahın arasını vurmağa nail oldular. 1560-cı ildə xan öz səlahiyyətlərinin böyük hissəsini itirdi, növbəti ildə isə şah onu həcc ziyarətinə yola salmaqla əslində saraydan uzaqlaşdırdı. Həcc səfəri zamanı Bayram xan sui-qəsdin qurbanı oldu (1561). Onun cənazəsini böyük ehtiramla Dehlidə dəfn etdilər, sonralar xanın övladları cənazəni Məşhəd şəhərində torpağa tapşırdılar.

Bayram xan Baharlu sənətsevər insan idi, şairləri və sənət adamlarını himayə edirdi. Özü də musiqi ilə məşğul olur,

"Bayram" təxəllüsü ilə türk və fars dillərində şeirlər yazırdı. Onun şeir divanı XX əsrin əvvəllərindən etibarən nəşr edilmişdir. Bayram xanın həyat yoldaşı, Humayun şahın bacısı qızı Səlimə bəyim həm də ata tərəfdən türkmanlardan idi. Zəkası və savadı ilə seçilən Səlimə bəyim "Məxfi" təxəllüsü ilə şeir yazırdı. Bayram xanın oğlu *Əbdürrəhim xan* (vəf. 1627) da Böyük Moğollar dövlətində yüksək məqama sahib olmuşdur.

BEKTAŞ XAN ƏFŞAR (vəf. 1590) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Əfşar* tayfasından Kirman hakimi Vəli xan Əfşarın oğlu idi. Vəli xan sarayda *qorçubaşı* vəzifəsinə gətirildikdən sonra Kirmanı Bektaş xan idarə edirdi. Üstəlik, zirəkliyi sayəsində o, Yəzdin möhtərəm seyidlərindən olan Mirmiran Yəzdinin qızı ilə evlənərək bu şəhərin də hakimiyyətini ələ keçirmişdi. *Hatəm bəy Ordubadi* həmin dövrdə əvvəlcə Vəli xanın, daha sonra Bektaş xanın vəziri kimi xidmət edirdi.

Bektaş xan Fars vilayətini də ələ keçirmək niyyətində idi, bunun üçün oradakı *Zülqədər* əmirlərinin bir hissəsini öz tərəfinə çəkmişdi. Buna cavab olaraq Şiraz hakimi *Yaqub xan Hacılar Zülqədər* onun əmisi Abbas sultana Kirman hakimliyini şahın adından vəd etdi, nəticədə Bektaş xanla Abbas sultan arasında hakimiyyət uğrunda mübarizə qızışdı. Bu mübarizədə Bektaş bəy qalib gəlib öz əmisini və onun övladlarını öldürdü. Şirazda Yaqub xana qarşı müxalifət mövqeyində olan Zülqədər əmirləri Yəzd şəhərinə qaçıb Bektaş xana sığındıqda iki sərkərdənin arasındakı münasibətlər gərginliyin ən son həddinə çatdı. Yaqub xan öz qoşunu ilə Yəzd üzərinə yeridi, 1590-cı ildə şəhər kənarında baş vermiş döyüşdə Bektaş xan öldürüldü və onun mülkləri Yaqub xan Zülqədərin əlinə keçdi.

BƏDR XAN USTACLU (vəf. 1558) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Şərəflü* oymağından idi. Əvvəlcə *Köpək sultana* xidmət etmiş, sonra I Şah Təhmasibdən sultan və xan titullarını almışdır. Qızılbaş tayfalarının çəkişməsində Ustaclu tayfasının uğursuzluğundan sonra sağ qalmış azsaylı əmirlərdən olan Bədr xan 1530-cu ildə şah tərəfindən əfv edildi. I Şah Təhmasib Xorasan istiqamətində özbəklərin üzərinə hücuma keçməzdən əvvəl Bədr xanı şahzadə *Əlqas Mirzə* ilə birlikdə ön dəstənin başında göndərmişdi. Bədr xan Əlqas Mirzəni Astarabaddakı özbəklərin üzərinə qəfil hücuma keçməyə razı sala bildi. Hücum uğurla başa çatdı, 500 nəfərdən artıq özbək öldürüldü, onların başçısı Qəmiş Oğlan Mərvə qaçdı (1532/33). Bədr xan sonrakı illərdə osmanlılara qarşı hərbi əməliyyatlarda da igidlik göstərərək fərqlənmişdir.

1538-ci ildə *Şirvanşahlar dövləti* süqut etdikdən sonra onun ərazisində Şirvan bəylərbəyliyi yaradıldı, şahzadə Əlqas Mirzə Şirvanın bəylərbəyi və Şamaxının hakimi oldu. Uzun müddət ərzində Bədr xan Əlqas Mirzənin *lələsi* (tərbiyəçisi) qismində Şirvanda xidmət etmişdir. 1546-cı ildə şahzadə öz qardaşına qarşı üsyan qaldırıb məğlubiyyətini eti-

raf etdikdə şah qızılbaş əmirlərindən bir dəstəni Əlqas Mirzənin anası Xanbikə xanımla birlikdə onun yanına göndərdi. Bədr xanın da qatıldığı nümayəndə heyəti Əlqas Mirzə ilə görüşdü və şahzadə bir daha üsyana qalxmayacağına onların hüzurunda and içdi.

Bədr xan I Şah Təhmasibin zamanında dövlətdə ən yüksək mənsəblərdən olan *divanbəyi* vəzifəsini də icra etmişdir.

1558-ci ildə Bədr xan *Şahqulu sultan Zülqədərin* ümumi sərkərdəliyi altında Yaka türkmanlarının başçısı Aba xan Oxlu və Xarəzm hakimi özbək Əli sultana qarşı yürüşə yollandı. Şahqulu xanın qəfil ölümündən sonra Səfəvi qoşununa rəhbərliyə Bədr xan keçdi. Lakin o, döyüşə aludə olub ehtiyat tədbirləri görmədiyinə görə qızılbaşlar mühasirəyə düşüb məğlub oldular, Bədr xan isə əsir düşdü. Bir müddət sonra əsirlikdən azad olub Qəzvinə qayıdan Bədr xan şahın gözündə əvvəlki hörmətini qaytara bilmədən mənəvi sarsıntı içində dünyasını dəyişdi.

BÖYÜK MOĞOL İMPERİYASI – 1526-1857-ci illər arasında mövcud olmuş Şərqin ən böyük və güclü dövlətlərindən biri. Əsası *Babur şah* tərəfindən qoyulmuşdur. Babur Əmir Teymurun nəslindən olduğu üçün dövləti və hakim sülaləni bəzən Gürganilər adlandırırlar. Babur fəaliyyətinin əvvəllərində Səfəvilərin hərbi və siyasi yardımından dəfələrlə istifadə etmiş, lakin Orta Asiyada möhkəmlənə bilməyərək öz dövlətini Hindistanda qurmaq qərarına gəlmişdir. Hindistana etdiyi bir neçə hücumun sonunda Babur Panipat döyüşündə (1526) Dehli sultanlığının sayca üstün qüvvələrini məğlub etdi; həmin il Böyük Moğol imperiyasının əsasının qoyulduğu tarix kimi qəbul edilir. Baburun oğlu Humayun şahın zamanında imperiyanın sərhədləri genişlənməkdə davam etdi. Rəqibləri tərəfindən taxtdan salınan Humayun şah Səfəvilər dövlətinə sığındı, 15 il müddətində I Şah Təhmasibin himayəsi altında yaşadıqdan sonra qızılbaş ordusunun dəstəyi ilə hakimiyyəti özünə qaytardı.

Səfəvilər dövlətində yaşadığı illərdə Humayun şah yerli dövlətçilik ənənələri, elm və mədəniyyət sahəsindəki nailiyyətlərlə yaxından tanış olmuş, hakimiyyəti yenidən ələ keçirdikdən sonra bu təcrübəni Hindistanda da tətbiq etmişdir. Səfəvi torpaqlarından Böyük Moğol dövlətinə mühacirət etmiş sənət adamları burada Səfəvi ənənəsi əsasında formalaşmış mədəni üslubun əsasını qoymuşlar. Moğol miniatür məktəbi *Mir Müsəvvir* və oğlu *Mir Seyid Əli*, Əbdüssəməd Şirazi kimi nəqqaşların səyləri ilə formalaşmış, onların yetişdirdikləri yerli tələbələr hesabına inkişaf etmişdir. Qızılbaş türk mənşəli xeyli sərkərdə və dövlət adamı da Böyük Moğol imperiyasının ordu quruculuğunda və dövlət idarəçiliyində yaxından iştirak etmişdir (*Baharlu* tayfasından olan sərkərdələr *Bayram xan* və oğlu *Əbdürrəhim xan*, Həsən bəy Şəkəroğlu, Məhəmmədi xan, həmçinin *Əlimərdan xan Zig* və b). Səfəvi mənşəli bir neçə şair və ədib uzun illər ərzində Hindistanda yaşayıb-yaratmış (*Saib Təbrizi*, *Məsihi* və b.), Səfəvi

şairləri sonralar *"səbki-hindi"* adlandırılan ədəbi üslubun əsasını qoymuşlar.

Humayun şahın xələfləri Əkbər şah, Cahangir şah, Şah Cahan, Övrəngzib qonşuluqdakı hind racalıqları ilə uğurla mübarizə aparmış, onların ərazisini imperiyaya birləşdirmişlər. Övrəngzibin hakimiyyəti dövründə (1658-1707) Böyük Moğol imperiyası bütün Hindistan yarımadasını, indiki Pakistanı və Əfqanıstanın bir hissəsini əhatə edirdi.

Böyük Moğol imperiyasının ilk paytaxtı Aqra, qısa fasilədən sonra Dehli şəhəri olmuşdur. Hakim inanc İslam dininin əhli-sünnə qolu sayılırdı. Əkbər şahın zamanında İslam, hinduizm, xristianlıq, caynizm, zərdüştilik və digər dinlərin elementlərini özündə birləşdirən, "dini-ilahi" adlandırılan sinkretik dini təlim yaradılmış və təbliğ olunmuşdur. Bu təlim kütləvi şəkildə yayılmamış, sarayda şah və əyanlar tərəfindən qəbul edilmişdi. Ölkədə məişət səviyyəsində urdu və hind dillərindən geniş istifadə edilirdi, hakim sülalə türk mənşəli olduğu üçün türk cığatay ləhcəsi də yayılmışdı, dövlət və diplomatiya dili isə fars dili idi.

Böyük Moğol imperiyası dünya mədəniyyət tarixinə möhtəşəm memarlıq abidələri ilə daxil olmuşdur. Aqradakı Tac Mahal məqbərəsi və Aqra istehkamı, Dehlidəki Cama məscid və Lal-Kila (Qırmızı istehkam), Lahurdakı Padşah məscidi və Şalimar bağı, Övrəngabaddakı Bibi-ka məqbərə və s. moğol memarlığının şah əsərləridir.

XVIII əsrin ikinci yarısında Hindistanda müsəlmanların hakimiyyəti xeyli zəifləmiş, buddist marathalar üstünlük əldə etmişlər. *Nadir şah Əfşar* və Əfqanıstan hökmdarı Əhməd şah Dürrani ilə mübarizədə Böyük Moğol imperiyası məğlubiyyətə uğrayırdı. Həmin dövrdə İngiltərənin Ost-Hind şirkəti Hindistan iqtisadiyyatının mühüm hissəsini öz inhisarı altına almış, bunun nəticəsində ingilislərin siyasi hakimiyyətdə də yeri möhkəmlənmişdi. Tədricən Böyük Moğol imperatorları dövlət idarəçiliyindən kənarlaşaraq formal hakimlərə çevrildilər. 1857-58-ci illərdə ingilislərə qarşı baş vermiş xalq üsyanında sonuncu imperator II Bahadur şahın adının hallanması onun rəsmi olaraq hakimiyyətdən salınması və Hindistanın Böyük Britaniya müstəmləkəsinə çevrilməsi ilə nəticələndi.

Böyük Moğol imperiyasının Səfəvilər dövləti ilə münasibətləri birmənalı olmamış, zaman-zaman hərbi konfliktlərlə müşayiət edilmişdir. Babur şahın zamanında Səfəvilərlə müttəfiqlik siyasəti yürüdülürdü, lakin Humayun şahın hakimiyyətinin birinci mərhələsində (1530-cu illərdə) sərhəd bölgəsində yerləşən Qəndəhara yiyələnmək uğrunda hərbi toqquşmalar baş vermişdir. Bundan təxminən 100 il sonra Qəndəharın Səfəvi hakimi Əlimərdan xan Zig mərkəzi hakimiyyətlə anlaşılmazlıq üzündən şəhəri moğollara təhvil verdi (1637/38). II Şah Abbas 1649-cu ilin əvvəllərində Qəndəharı yenidən Səfəvilər dövlətinin ərazisinə qatdı. Bundan sonrakı illər ərzində Böyük Moğol imperatoru Şah Cahan şahzadə Övrəngzibin sərkərdəliyi altında Qəndəhara bir neçə dəfə yürüş təşkil etsə də, məqsədinə nail ola bilmədi.

BUDAQ XAN ÇİGİNİ – kürd mənşəli *Çigini* tayfasının başçısı. Səfəvilər dövlətinin əvvəlində Çigini tayfası soyğunçuluqla məşğul olur və karvanlara təhlükə törədirdi. I Şah Təhmasib onları ölkədən sürgün etməyi düşünəndə Çiginilər Xorasanda yaşamaq icazəsi istədilər. I Şah Təhmasib onlara öz aralarından Budaq xanı başçı qoydu. Budaq xan Şah Məhəmməd Xudabəndənin hakimiyyət dövründə də çiginilərin rəhbəri oldu və Xorasanın Xəbuşan bölgəsində hakimiyyət sürdü. Şahzadələr *Həmzə Mirzə* ilə Abbas Mirzə (gələcək I Şah Abbas) arasındakı rəqabətdə Budaq xan ikincinin tərəfini tutdu. Bunda *Mürşidqulu xan Ustaclunun* böyük rolu olmuşdur; o, Budaq xanın qızı ilə evlənərək Çigini tayfasını öz tərəfinə çəkməyi bacardı. Bununla da I Şah Abbas hakimiyyət uğrunda mübarizədə ən böyük kürd tayfasının dəstəyini qazandı.

I Şah Abbas hakimiyyətə keçdikdən sonra Budaq xanı şahzadə *Hüseyn Mirzənin lələsi* və Məşhəd hakimi təyin etdi. Sonralar Budaq xan şahın əleyhinə çıxdı, onun kiçik oğlu Hüseynəli xan edam edildi. Lakin I Şah Abbas Budaq xanı bağışladı, hətta onun böyük oğlu Həsənəli xanı əvvəlcə Həmədan, sonra Bəstam hakimliyinə gətirdi. Budaq xan özü isə bir müddət sarayda xidmət etdi, daha sonra İsfərain və yenidən Məşhəd hakimi oldu. I Şah Abbas dövründə Budaq xanın digər oğlu Bayram bəy qardaşından sonra Bəstam valisi, digər Çigini əmirləri Aşur xan və Əhməd sultan Mərv və Səbzəvar hakimi vəzifələrində xidmət etmişlər.

CƏLALƏDDİN MƏHƏMMƏD KEÇƏÇİ TƏBRİZİ (vəf. 1524) – Səfəvilər zamanında fəaliyyət göstərmiş dövlət xadimi. I Şah İsmayılın ömrünün sonlarında öldürülmüş *Mirzə Şah Hüseyn İsfahaninin* yerinə *vəkil* təyin edilmişdi (1523). Eyni dövrdə *Div sultan Rumlu* da mənbələrdə vəkil kimi təqdim edilmişdir; görünür, vəkillik mənsəbi iki nəfərə verilmiş, onlardan biri (Div sultan) hərbi sahəni, digəri (Cəlaləddin Məhəmməd Təbrizi) isə mülki sahəni idarə etmişdir. Cəlaləddin Məhəmməd Təbrizi "Kilidi-Azərbaycan" (Azərbaycanın açarı) ləqəbli baş vəzir Əmir *Şəmsəddin Zəkəriyya Keçəçi (Köcəci) Təbrizinin* oğludur. O, qısa müddət vəzifədə qalmış, I Şah İsmayılın vəfatından az sonra Div sultan hakimiyyətə tam şəkildə yiyələnmək üçün Cəlaləddin Məhəmməd Keçəçi Təbrizini öldürmüşdü. (Onu həsirə büküb yandırmışdılar). Təbrizinin ölümündən sonra Div sultan Rumlu, faktiki olaraq, dövlətin tam sahibi oldu, həm *əmir əl-üməra* (ordunun baş komandanı), həm də vəkil (şahın tam səlahiyyətli nümayəndəsi) vəzifələri onun əlində cəmləşdi.

Cəlaləddin Məhəmməd Keçəçi Təbrizi gözəl təbə malik idi, hətta edama gedərkən öz vəziyyətini şeirlə ifadə etdiyini yazmışlar.

CUHƏ SULTAN – *bax:* **ÇUXA SULTAN.**

ÇAYAN SULTAN USTACLU (vəf. 1522/23) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Ustaclu* tayfasına

mənsub idi, əsl adı Məhəmməd bəy olmuş, "Çayan" ləqəbini ona I Şah İsmayıl vermişdir. Çayan sultan şahın *süfrəçibaşısı* vəzifəsində xidmətə başlamışdı. Daha sonralar şücaətinə görə vəzifə karyerasında uğurla yüksəlmiş, nəhayət, Səfəvi ordusunda ən yüksək hərbi vəzifə olan *əmir əl-üməra* (baş komandan) mənsəbinə layiq görülmüşdü (1509). Ömrünün sonunadək (1522/23) bu vəzifəni icra edən Çayan sultanın nəşinin Bağdada aparılıb dəfn edildiyi yazılır; görünür, burada cənazənin müqəddəs Nəcəf və ya Kərbəla şəhərində dəfn edilməsi nəzərdə tutulur. Çayan sultandan sonra yerinə keçmiş oğlu Bayezid sultan az sonra, 1524-cü ildə I Şah İsmayılın ömrünün sonlarına yaxın dünyadan köçdü. Onun vəfatı ilə *Div sultan Rumlu* əmir əl-üməra vəzifəsini ələ keçirdi.

Çayan sultanın digər oğlu, Qazuq ləqəbli Həmzə sultan və nəvəsi Ayqut sultan Səfəvi ordusunda yüksək rütbəli əmir kimi xidmət edirdilər. Ayqut sultanın tarix elminə maraq göstərən və bu istiqamətdə çalışan Yaqub bəylə (vəf. 1543/44) eyni şəxs olduğu, nüsxələrdəki yanlışlıq üzündən ad fərqinin yarandığı ehtimal edilir.

Çayan sultanın qardaşı, *Köpək sultan* (bu adı bəzən "Kəpək sultan" kimi də oxuyurlar) ləqəbli Mustafa xan da görkəmli qızılbaş sərkərdələrindən idi.

ÇUXA SULTAN TƏKƏLÜ (vəf. 1531) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Təkəlü* tayfasına mənsub idi. Adının Baxşı bəy olduğunu yazırlar, mənbələrdə "Cuhə", "Çuhə", "Covhə" formasında da qeyd edilir. Bunun ad deyil, ləqəb olduğu ehtimal edilir. Təkəlü tayfasının Səfəvilər dövlətinə əsas köçü *Şahqulu xəlifə üsyanının* yatırılmasından sonra baş versə də, Çuxa sultan bundan daha əvvəl orduda xidmətə girmişdi. Çünki Şahqulu xəlifə üsyanının iştirakçılarının qalıqları Səfəvilər dövlətinin ərazisinə daxil olduqları zaman I Şah İsmayıl onların vəziyyətini və niyyətini öyrənmək, doğru-düzgün xəbər gətirmək üçün Çuxa sultanı göndərmişdi (1511).

I Şah İsmayılın zamanında Çuxa sultan kürd mənşəli Kəlhur tayfasının məskunlaşdığı eyniadlı məntəqənin hakimi idi.

I Şah Təhmasibin hakimiyyətə gəlişindən sonra qızılbaş tayfalarının hakimiyyət uğrunda mübarizəsində əvvəlcə *Div sultan Rumlu* ilə *Köpək sultan Ustaclu* şərikli şəkildə *əmir əl-üməra* vəzifəsini icra edirdilər. Dövlət idarəçiliyindən kənarda qalmış Təkəlü tayfası hakimiyyətin Rumlu-Ustaclu alyansının əlində cəmləşməsindən narazı qalaraq mübarizəyə başladı, onlara Çuxa sultan başçılıq edirdi. Çuxa sultan Div sultanla danışığa girib onu ustacluları hakimiyyətdən kənarlaşdırmağa razı saldı. Ustaclular vətəndaş müharibəsində ardıcıl surətdə məğlub oldular və Köpək sultan öldürüldü. Bundan sonra Div sultan Rumlu ilə Çuxa sultan Təkəlü əmir əl-ümərалıq səlahiyyətlərini öz aralarında bölüşdürdülər. Çuxa sultan bölgələrə öz nümayəndələrini yerləşdirməyə başladı. Div sultan nə qədər güclü və xarizmatik şəxsiyyətə malik olsa da, tayfasının kiçikliyi və qeyri-fəallığı üzündən üstün-

lüyü əldən verməyə başladı. Nəhayət, 1527-ci ildə Çuxa sultan I Şah Təhmasibi Div sultandan yaxasını qurtarmağa inandıra bildi. Div sultanın qətlindən sonra hakimiyyət bütövlükdə Təkəlü tayfasının ixtiyarına keçdi. Lakin bu dəfə onlar Çuxa sultanın başçılığı altında özbaşınalıq etməyə və digər tayfaları sıxışdırmağa başladılar. Nəticədə I Şah Təhmasib anladı ki, Div sultandan xilas olmaqla heç də tam müstəqillik qazanmamışdır və indi də hakimiyyətinə Çuxa sultan tərəfdən təhlükə vardır. Xorasanda öz tabeliyi altında olan torpaqları özbəklərə təslim etməyə məcbur olmuş *Hüseyn xan Şamlunun* (şahın bibisi oğlu, *Durmuş xanın* qardaşı) saraya gəlişi Çuxa sultanı zərərsizləşdirmək üçün gözəl imkan yaratdı. Hüseyn xanla Çuxa sultan arasında getdikcə gərginləşən konflikt 1531-ci ildə silahlı qarşıdurma ilə nəticələndi. Çuxa sultan Hüseyn xanı öldürmək fikrinə düşdü, Hüseyn xan bundan xəbər tutub onu qabaqlamaq qərarına gəldi. Şah öz əyanları ilə İsfahan yaxınlığındakı Gəndüman (Kəndüman) yaylağında istirahət edərkən gecə Şamlu tayfasının döyüşçüləri təkəlülərin çadırlarına hücum etdilər. Qəfil yaxalanmış Çuxa sultan özünü şah divanxanasının yerləşdiyi çadıra yetirdi, amma *Zülqədər* tayfasından Misir adlı bir *qorçunun* əli ilə öldürüldü. Təkəlülər həmin gecə Çuxa sultanın ölümünü hamıdan gizli saxlayıb müqavimət göstərməkdə davam etdilər, nəticədə Hüseyn xan Şamlu öz tərəfdarları ilə birlikdə geri çəkilməyə məcbur oldu. Döyüş o qədər şiddətli keçmişdi ki, hətta atılan oxlardan bir neçəsi şahın çadırdakı tacına sancılmışdı. Çuxa sultanın ölümündən sonra onun böyük oğlu Şahbudağı əmir əl-üməra vəzifəsinə gətirdilər. Lakin Təkəlü özbaşınalığından bezmiş digər qızılbaş tayfaları I Şah Təhmasibin gizli xeyir-duası ilə birləşib onların üzərinə yeridilər. Döyüşdə Təkəlü tayfası ağır məğlubiyyətə uğradı, onların qalıqları (o cümlədən Şahbudaq) Bağdada, *Məhəmməd xan Şərəfəddinoğlu Təkəlüyə* pənah apardı. Lakin Məhəmməd xan nəinki öz həmtayfalarına sığınacaq vermədi, hətta onların başını kəsib şaha göndərdi. Beləliklə, 1531-ci ildə I Şah Təhmasibin hakimiyyəti üçün ciddi təhlükə törədən Təkəlü ağalığına son qoyuldu. Həmin hadisəni tarix kitablarında "afəti-Təkəlü" (Təkəlü fitnəsi) ifadəsi ilə xatırlayırlar. (Bu sözün əbcədlə qarşılığı 937-dir, bu da hicri təqvimlə 1531-ci ilə müvafiqdir). Təkəlülərin keçmiş iqtidarını geri qaytarmağa çalışan *Ulamə sultanın* da cəhdləri faydasız oldu. Tayfanın xeyli üzvü döyüşlərdə öldürüldü, bir hissəsi cəzalandırıldı, qalanları da Osmanlı himayəsinə sığındılar. Lakin Təkəlü fitnəsindən qurtulduqdan sonra şah öz bibisi oğlu Hüseyn xan Şamlunun təsiri altına düşdü və yalnız 3 ildən sonra onu aradan götürməklə hakimiyyətdə müstəqillik qazandı.

DAVUD XAN UNDİLADZE (vəf. 1633) – Səfəvilər dövlətində xidmət etmiş gürcü mənşəli dövlət xadimi. I Şah Abbas zamanında qeyri-türk millətlərinin nümayəndələrindən təşkil edilmiş qullar *(qulamlar)* təbəqəsinə mənsub idi. I Şah

Abbasın zamanında əvvəlcə *zərgərbaşı,* daha sonra *qullarağası* vəzifəsini tutan atası *Allahverdi xan* və Fars vilayətinin hakimi olan qardaşı *İmamqulu xan* Undiladze Səfəvilər dövlətinin ən nüfuzlu əmirlərindən sayılırdılar.

1627-ci ildə I Şah Abbas Qarabağ bəylərbəyi *Məhəmmədqulu xan Ziyadoğlu-Qacarı* yarıtmaz xidmətinə görə vəzifəsindən çıxarıb yerinə Davud xanı təyin etdi. Onu hakim mənsəbinə gətirməklə şah yerlibazlıq və tərəfkeşlik hallarının qarşısını almaq, qeyri-türk bitərəf şəxsin əli ilə problemləri aradan qaldırmaq istəyirdi. Lakin Davud xan öz səlahiyyətlərini aşaraq tabeliyində olanlarla haqsız davranmağa başladı. I Şah Səfinin hüzuruna onun qəddarlığı barədə tez-tez şikayətlər daxil olurdu. Üstəlik, Qarabağ bəylərbəyinə həm də Gürcüstan idarəçiliyinin verilməsindən istifadə edən Davud xan yerli gürcü əyanlara qoşulub Səfəvilər əleyhinə gizli fəaliyyətə başladı. I Şah Səfi Davud xanı İsfahana sorğu-suala çağırdı, amma o, ilk dindirmədən sonra paytaxtı icazəsiz tərk edib xidmət yerinə qayıtdı. Davud xanla Kaxeti çarı I Teymuraz (Davud xan onun bacısı Yelena ilə evli idi) Gəncə və Bərdə şəhərlərində dəhşətli qırğın törədərək *Qacar* tayfasının 700 nəfər üzvünü qılıncdan keçirdilər (1632). Araz çayınadək Qarabağ torpaqları üsyankar gürcü əyanlarının əlinə keçdi. Fürsətdən istifadə edən erməni katolikosu onlara 40 min nəfər əsgər verəcəyini və daha sonra osmanlılardan da yardım alacağını vəd verərək təklif etdi ki, İsfahan üzərinə yürüyüb qəfil hücumla Səfəvi dövlətinə son qoysunlar. Lakin I Teymuraz bu təkliflə razılaşmadı və Gürcüstandan kömək gəlməsini gözlədi. Gürcü əyanları ümid edirdilər ki, Davud xanın qardaşı, Fars vilayətinin hakimi İmamqulu xan Undiladze 30 min nəfərlik qoşunla digər istiqamətdən hücum etməklə onlara yardımçı olacaq. Lakin vəziyyətdən xəbərdar olan şah İmamqulu xanı bütün ailə üzvləri ilə birlikdə edam etdirdi (1633), bununla da I Teymurazla Davud xanın yardımçı qüvvələrə olan ümidi puça çıxdı.

Daha sonra I Şah Səfi Davud xanı Qarabağ bəylərbəyliyindən kənarlaşdırdı və sabiq bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu-Qacarı öz vəzifəsinə qaytardı. Cəzalanacağından qorxan Davud xan Osmanlı himayəsinə sığınsa da, az sonra öldü.

DƏRVİŞ MƏHƏMMƏD XAN (vəf. 1551) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. 1524-cü ildə atası, Şəki hakimi Həsən bəy gürcülərlə döyüşdə öldürüldükdən sonra onun yerinə keçmişdir. Lakin Dərviş Məhəmməd xan atasından fərqli olaraq, Səfəvilərlə müttəfiq olmamış, bir neçə dəfə I Şah Təhmasibə qarşı çıxmışdır. 1538-ci ildə qızılbaş ordusu *Şirvanşahlar dövlətinin* ərazisini Səfəvilər dövlətinə ilhaq etmək üçün hücuma keçdikdə Dərviş Məhəmməd xan Şirvanşah Şahruxa yardım məqsədilə öz dəstəsinin başında gəlmiş və Buğurt qalasını mühasirədə saxlayan qızılbaşlara gecə vaxtı basqın həyata keçirmişdi. Amma daha sonra onunla I Şah Təhmasib arasında

münasibətlər qaydaya düşmüş, hətta şah öz bacısı *Pərixan bəyimi* (Şirvanşah II Xəlilullahın dul qalmış həyat yoldaşını) ona ərə vermişdi. Pərixan bəyimin 1543-cü ildə vəfatından sonra I Şah Təhmasib öz qızlarından birinə onun adını verdi.

Şahzadə *Əlqas Mirzə* Şirvan hakimi təyin edildikdə Dərviş Məhəmməd xan onunla yaxşı münasibət qurmuş, hətta qardaşı Şahnəzər bəyi Əlqas Mirzənin başçılığı altında Dağıstana yürüşə göndərmişdi. (Şahnəzər bəy bu yürüşdə çərkəzlərin əli ilə həlak olmuşdur). Əlqas Mirzənin mərkəzləşdirilmiş hakimiyyətə qarşı çıxmasından sonra Şəki torpağı da onun tərəfdarlarının dayaq nöqtəsinə çevrildi.

1551-ci ildə I Şah Təhmasib Şəkidəki üsyançıların müqavimətini qırmaq üçün yürüşə çıxdı. Dərviş Məhəmməd xan sərkərdələrindən birini Kiş qalasında yerləşdirdi, özü alınmaz hesab etdiyi Gələsən-Görəsən qalasına sığındı, daha bir dəstə isə dağlıq ərazidəki Sığnaq adlı yerdə mövqe tutdu. Gürcüstanın Kaxeti çarı I Levan öz qoşunu ilə I Şah Təhmasibə qoşuldu. Səfəvi-gürcü müttəfiq qoşunu 3 hissəyə bölündü. *Sevindik bəy Əfşar qorçubaşı*, *Bədr xan Ustaclu* və *Şahqulu sultan Ustaclu* Kiş qalasını almağa göndərildilər. *Abdullah xan Ustaclu* ilə I Levan Gələsən-Görəsən qalasını tutmağa təhkim olundular. *Şahqulu xəlifə Zülqədər möhürdar* da Sığnaq istiqamətində həmləyə başladı. Əvvəlcə Kiş qalası, daha sonra Sığnaq istehkamı qızılbaşlara təslim oldu, Dərviş Məhəmməd xanın özü isə Gələsən-Görəsən qalasında müdafiə olunmağa davam etdi. Bir müddətdən sonra o da müqavimətin mənasız olduğunu anlayıb qaçmağa cəhd göstərdi, amma qızılbaş ordusu tərəfindən haqlandı. Çərəndab sultan Şamlunun dəstəsindəki Kosa Pirqulu adlı döyüşçü onu öldürüb başını şahın hüzuruna gətirdi. Beləliklə, keçmiş Şirvanşahlar dövlətinin ərazisindəki son müqavimət məkanı olan Şəki də qızılbaşlar tərəfindən fəth edildi. Toyqun bəy Qacar Şəkinin yeni valisi təyin olundu.

DİV SULTAN RUMLU (vəf. 1527) – ən nüfuzlu qızılbaş əmirlərindən və dövlət xadimlərindən biri. Əsl adı Əli və ya Div Əli olub, Tokat ətrafında məskunlaşmış *Rumlu* tayfasına mənsub idi. I Şah İsmayıldan əvvəlki qızılbaş hərəkatlarında onun adına rast gəlmirik. İlk dəfə 1501-ci ildə Ağqoyunlu Əlvənd Mirzəyə qarşı Şərur savaşında iştirak etmiş qızılbaş əmirləri arasında Div Sultan Rumlunun da adı çəkilir. O, savaşdan əvvəl Tokatdan gəlib şaha qoşulmuşdu. Şərur savaşından sonra I Şah İsmayıl öz köhnə silahdaşlarına özəyi qurulan dövlətdə müxtəlif vəzifələr versə də, Div sultana əyalətlərdən birində mülk bağışlamaqla kifayətləndi.

1510-cu ildən etibarən döyüş səhnələrinin təsvirində Div sultanın adı tez-tez çəkilməyə başlayır. Özbəklərə qarşı Mərv savaşında o, 6 min nəfərlik *çərxçi* dəstəsinin başında Şeybaninin ön qüvvələrini geri oturdur. Div sultan həm hərb, həm də idarəçilik sahələrində uğurlar qazanaraq 1513-cü ildə Mərvə, 1517-ci ildə isə Çuxursədə bəylərbəyi təyin edi-

lir. Xüsusilə sonuncu vəzifədə o, Gürcüstan üzərinə ardıcıl olaraq yürüşlər edir və bol qənimət qazanırdı. Div sultanın nüfuzu şahın gözündə artmaqda idi. Hətta deyirlər ki, Mərv hakimi olarkən özbəklərlə savaşda bir neçə ox yarası almış Div sultan yardım almaq məqsədilə Təbrizə gələndə I Şah İsmayıl tərəfindən mehribanlıqla qarşılanmış, bədənindəki hər ox yarasının müqabilində şahdan bir xələt almışdı (1515). O dövrdə Səfəvi ordusunun baş komandanı *(əmir əl-üməra) Çayan sultan Ustaclu* olsa da, Div sultan bəzən onunla və şahla məsləhətləşmədən müstəqil şəkildə qəti qərarlar verirdi.

Div sultan şah tərəfindən özbəklərlə cəbhəni qorumağa təhkim edildiyi üçün Çaldıran savaşında iştirak etməmişdir.

1522/23-cü illərdə əmir əl-üməra Çayan sultanın vəfatından sonra oğlu Bayezid sultan onun yerinə keçdi. Həmin il şahın *vəkili* (tamsəlahiyyətli nümayəndəsi) *Hüseyn İsfahani miraxurbaşı* Şahqulu bəy Türkmanın başçılıq etdiyi suiqəsd nəticəsində dünyasını dəyişdi və Xacə *Cəlaləddin Məhəmməd Təbrizi* vəkil vəzifəsinə gətirildi. Növbəti ildə Bayezid sultan Ustaclu da öldü. Onun ölümü ilə Div sultanın əmir əl-ümərəlıq vəzifəsinə yolu açıldı və o, 1524-cü ildə I Şah İsmayılın ölümü ərəfəsində bu məqama təyin edildi. Vəkil mənsəbini əldə etmək üçün isə Div sultan bir ildən sonra Xacə Cəlaləddini öldürməli oldu. (Bəzi tədqiqatçılar I Şah İsmayılın həyatının sonlarında vəkil vəzifəsini iki nəfər arasında böldüyünü, bunlardan birinin hərbi, digərinin isə mülki sahələrə nəzarət etdiyini yazırlar. Div sultan hərbi məsələlər üzrə vəkil idi, I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində mülki işlər üzrə vəkili də aradan götürdükdən sonra bu vəzifəyə tam şəkildə yiyələndi).

I Şah İsmayıl vəkil Hüseyn İsfahaniyə böyük etimad bəsləyir, onu özündən sonra azyaşlı Təhmasib Mirzənin qəyyumu etmək istəyirdi. Vəkilin öldürülməsi şaha ağır təsir etmişdi. Belə bir şəraitdə digər seçim imkanı qalmadığından şah ömrünün sonlarında Div sultanı oğlunun qəyyumu elan etdi və bütün qızılbaş əmirlərinin ona tabe olmasını tapşırdı. Təhmasib 18 yaşına çatanadək qəyyum hakimiyyətdə ona yardımçı olmalı, sonra isə idarəçilikdən kənara çəkilməli idi. Beləliklə, I Şah İsmayılın vəfatından sonra Div sultan Rumlu Səfəvi dövlətinin idarəçiliyini öz əlində cəmləşdirdi və faktiki olaraq, hakimiyyətin yeganə sahibi oldu. Lakin bəzi qızılbaş əmirləri bu vəziyyətlə barışmaq fikrində deyildilər. *Ustaclu* tayfasının təzyiqləri qarşısında Div sultan bu tayfadan *Köpək sultanı* (əvvəlki əmir əl-üməra Çayan sultanın qardaşı) əmir əl-üməra vəzifəsində özünə şərik etdi. Lakin digər qızılbaş tayfalarının əmirləri onlara pay verilməməsindən narazı qaldılar. Vəziyyətdən xüsusilə narazı olan *Təkəlü* tayfasının əmirləri Div sultana bildirdilər ki, ustaclulara qarşı savaşarsa, ona müttəfiqlik edəcəklər. Təkəlülərdən İsfahan hakimi *Çuxa sultan*, Məşhəd valisi Burun sultan və Həmədan hakimi Qaraca sultan Şirvan valisi Əli sultan Zülqədərlə saziş bağlayıb Ustac-

lu tayfasını hakimiyyətdən salmaq üçün birləşdilər. Bu arada özbəklərin Xorasana hücum xəbəri Təbrizə çatdı. Div sultan Köpək sultanla razılığa gəlib əmir əl-üməralıq səlahiyyətini öz öhdəsinə götürdü və Xorasan üzərinə yürüşə çıxdı. Bütün ətraf məntəqələrin əmirlərinə məktub yazılıb hamısının öz dəstəsi ilə Div sultana qoşulmaları əmr edildi. Beləliklə, böyük bir ordunun başında duran Div sultan, faktiki olaraq, qızılbaş ordusunu təkbaşına öz ətrafında cəmləmiş oldu. Xorasanda vəziyyəti yoluna qoyduqdan sonra Div sultan Təbrizə qayıdaraq Köpək sultanı şəriklikdən uzaqlaşdırdığını elan etdi. Ətrafdakıların təhriklərinə baxmayaraq, Köpək sultan Ustaclu radikal addımlar atmadan vəzifədən kənara çəkildi. Ustaclu tayfasının bir neçə əmiri (Qarınca sultan və b.) edam edildi, tayfanın hərbi gücü Köpək sultanın başçılığı altında Gürcüstana göndərildi.

Bundan sonra Təkəlü tayfasından Çuxa sultan əmir əl-üməralıqda Div sultana şərik oldu. Ustacluların Gürcüstan səfərində olmalarından istifadə edən Div sultan və müttəfiqləri onların bütün mülklərini mənimsəyib öz aralarında bölüşdürdülər. Ustaclu əmirləri öz haqlarını döyüşlə geri almaq üçün iki dəfə cəhd etdilər, amma hər ikisində məğlub olub daha da əzildilər.

Bir neçə güclü qızılbaş əmirinin ölümü ilə nəticələnmiş bu vətəndaş müharibəsinin sonunda Div sultan Rumlu ilə Çuxa sultan Təkəlü öz rəqiblərini zərərsizləşdirməyə nail oldular. Lakin Div sultanın mənsub olduğu Rumlu tayfası təkəlülər qədər böyük və fəal deyildi. Div sultan hakimiyyətdə möhkəmlənə bilmədi. Nəticədə Çuxa sultan az sonra öz müttəfiqi Div sultanı aradan götürüb şah üzərində şəriksiz nüfuz qazanmaq qərarına gəldi, Div sultanın dövlət üçün təhlükəyə çevrildiyinə gənc Təhmasibi inandıra bildi. 1527-ci ilin iyulunda suiqəsddən xəbərsiz olan Div sultan divanxanaya (şahın hüzuruna) daxil olarkən hücuma məruz qalıb öldürüldü. Şərəf xan Bidlisi "Şərəfnamə" kitabında yazır ki, I Şah Təhmasib şəxsən Div sultana ox atmış, ətrafdakı əmirlər də onu öz qılıncları ilə doğramışdılar. Div sultanın ölümündən sonra onun mülkləri tabeliyində olmuş Süleyman bəy Rumluya verildi.

Div sultanın oğlu Ədhəm bəy də qızılbaş ordusunun sərkərdələrindən olmuşdur.

DURMUŞ XAN ŞAMLU (vəf. 1525) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Şamlu* tayfasından I Şah İsmayılın *təvaçıbaşısı* və yeznəsi olan *Əbdi bəy Şamlunun* (vəf. 1506/07) oğlu, I Şah Təhmasibin *vəkili* olan *Hüseyn xan Şamlunun* (vəf. 1534) qardaşı idi. I Şah İsmayılın bacısı oğlu olduğu üçün qızılbaş sarayında böyük hörməti vardı. Bəzi mənbələrdə I Şah İsmayılın həyat yoldaşı *Taclu bəyim* Əbdi bəyin qızı və Durmuş xanın bacısı kimi təqdim edilir. (Bu barədə fərqli məlumatlar da vardır). Durmuş xanın təvəllüd tarixini aydınlaşdırmaq mümkün olmamışdır. Lakin 1503-cü ildə baş vermiş *Almabulağı savaşında* dayısının yanında olduğunu nə-

zərə alaraq təqribən I Şah İsmayılla yaşıd olması ehtimal edilir. 1506/07-ci illərdə *Sarom xan Kürdə* qarşı döyüşdə Durmuş xanın atası həlak olmuş, özü də yaralanmışdı.

Çaldıran döyüşünədək Durmuş xanın həm də İsfahan hakimi olduğu məlumdur. O, Təbriz sarayında *eşikağasıbaşı* kimi də xidmət etdiyinə görə əsas işləri İsfahandakı vəziri *Şah Hüseyn İsfahani* yerinə yetirirdi. Vəzir İsfahanın maliyyə hesabatını aparır, mütəmadi olaraq Təbrizə gəlib Durmuş xana bu barədə məlumat verirdi. Çaldıran savaşından sonra İsfahani I Şah İsmayılın fərmanı ilə dövlətdə ən yüksək məqam olan vəkil vəzifəsinə təyin edildi. Bundan sonra Durmuş xanla onun münasibətlərinin pisləşdiyi ehtimal edilir. Durmuş xanın sonralar paytaxtdan uzaqlaşdırılıb Herata hakim təyin edilməsində İsfahaninin əli olduğunu yazırlar.

Durmuş xan gənc yaşlarından döyüşlərdə fəal iştirak etmiş və hərbi karyera pillələri ilə uğurla irəliləmişdir. O, I Şah İsmayılın göstərişi ilə üsyankar valiləri cəzalandırır, şəhərləri fəth edib Səfəvi dövlətinin tərkibinə qatırdı. *Mərv savaşında* (1510) o, *Şeybani xanın* bacısı oğlu və silahdaşı Canvəfa Mirzəni tanımadan öldürmüşdü. 1513-cü ildə Dəşti-Qıpçaq qazaxlarının başçısı Əbülxeyr xanla döyüşdə şah özü *Hüseyn bəy Lələ* ilə qoşunun mərkəzi bölümünü idarə etmiş, sağ cinahı Durmuş xana tapşırmışdı.

Bəzən Durmuş xanı Çaldıran savaşındakı uğursuzluğun səbəbkarı hesab edirlər. Döyüşdən qabaq *Məhəmməd xan Ustaclu* da daxil olmaqla bir neçə təcrübəli qızılbaş sərkərdəsi Osmanlı qoşununa qəfil basqın etməyi təklif etsə də, Durmuş xan bunu namərdlik və xəyanət adlandırmışdı. Durmuş xan hərb işində onlar qədər təcrübəli deyildi və yaşına uyğun olan bir dəliqanlılıqla qərar verirdi. Onun təhriki ilə I Şah İsmayıl: "Mən karvanbasan quldur deyiləm, Allah necə istəyirsə, elə də olacaq", – deyə açıq döyüşü seçdi. Nəticədə qızılbaş qoşunu Çaldıran savaşında xeyli itki verdi, dövlətin ən güclü əmirləri həlak oldu. *"Şah Təhmasib təzkirəsi"ndə* yazılıb ki, I Şah Təhmasib Çaldıran savaşındakı məğlubiyyətdə bibisi oğlu Durmuş xanı günahkar bilir və hətta ona lənət oxuyurmuş.

1522-ci ildə I Şah İsmayıl oğlu *Sam Mirzəni* Herat hakimi təyin edir, Durmuş xan isə şahzadənin *lələsi* vəzifəsinə təhkim olunur. Şahzadə azyaşlı olduğu üçün Heratı idarə etmək məsuliyyəti Durmuş xanın öhdəsinə qoyulur və o, ömrünün sonunadək Heratda xidməti vəzifəsini yerinə yetirir. Durmuş xandan əvvəl Herat hakimliyi *Əmir xan Mosulluya* məxsus idi. O, Herat vilayətinin *sədri* (ali ruhani başçısı) vəzifəsinə rüşvət müqabilində fars mənşəli bir şəxsi gətirmək üçün hazırkı sədri casusluqda ittiham edib öldürmüşdü. Bu xəbər saraya çatanda şah Əmir xanı əvvəlcə öldürmək istəmiş, amma ətrafındakıların (bəzi məlumatlara görə, Taclu bəyimin) xahişi ilə edam cəzasını həbslə əvəz etmişdi. Əmir xanın öldürdüyü sədrin atası dövlətin ən yüksək məqam sahibi olan vəkil Şah Hüseyn İsfahaninin yaxın dostu idi. Qızılbaş əyanları Əmir

xanın həbsinin siyasi sifariş olduğunu söyləyərək vəkildən narazılıq etdilər. Şah Hüseyn İsfahani bu arada *əmiraxurbaşı* Şahqulu bəy Türkmanın vəzifəsindən sui-istifadə edərək xəzinədən pul oğurlamasının üstünü açdı. İfşa edilmiş Şahqulu bəy vəkili türk qızılbaş əmirlərə qarşı milli zəmində düşmənçilik aparmaqda ittiham etdi və onu öldürməyə and içdi. Az sonra vəkil Şah Hüseyn İsfahani bir dəstə qızılbaş sui-qəsdçi tərəfindən öldürüldü. Bəzi tədqiqatçılar bu qətlin icrasında Durmuş xanın da əlinin olduğunu yazırlar.

Durmuş xanın nəslindən olan əmirlər sonralar da Səfəvilər dövlətində yüksək vəzifələrdə xidmət etmişlər. II Şah İsmayıl zamanında Durmuş xanın nəvəsi Hüseyn xanın oğlu *Əliqulu xan Şamlu* Herat hakimi təyin olunmuş və ona *əmir əl-üməra* rütbəsi verilmişdi.

ƏBDİ BƏY ŞAMLU (vəf. 1506/07) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Şamlu* tayfasına mənsub idi. Adını "Abidin" kimi də yazırlar. I Şah İsmayılın özünə tərəfdar toplamaq və Anadolu qızılbaşlarının vəziyyəti ilə yaxından tanış olmaq məqsədilə Ərzincana səfəri zamanı Əbdi bəy 300 nəfər həmtayfası ilə birlikdə ona qoşulmuşdu (1500). O, I Şah İsmayılın başladığı dövlət quruculuğu prosesinin ilk mərhələsində fəal iştirak etmişdir. I Şah İsmayıl Səfəvilər dövlətinin özəyini təşkil edən ilk vəzifə təyinatlarını həyata keçirərkən Əbdi bəyə *təvaçıbaşı* (səfərbərlik və əlaqələndiricilik xidmətinin rəisi) vəzifəsini vermişdir. Əbdi bəy Ağqoyunlu hökmdarı Sultan Murada qarşı *Almabulağı* (Almaqulağı) *savaşında* qızılbaş qoşununun sağ cinahına *Abdal bəy Dədə* ilə birlikdə başçılıq etmiş (1503), Şirvanşah Fərrux Yasara (1500), Mazandaran hakimi *Əmir Hüseyn Kiya Çəlaviyə* və Yəzd hakimi *Məhəmməd Rəis Kərrəyə* qarşı döyüşlərdə fərqlənmişdir (1504).

1506-cı ildə I Şah İsmayıl *Sarom xan Kürdün* üzərinə *Saru Əli bəy Möhürdarın* başçılığı altında qoşun göndərdi. İlk döyüşdə hər iki tərəfdən xeyli adam, o cümlədən qızılbaşların sərkərdəsi öldürüldü. Bundan sonra Əbdi bəy Şamlunun başçılıq etdiyi 6 min nəfərlik yardımçı qüvvə gəlib-çıxdı. Daha şiddətli keçən ikinci döyüşdə Əbdi bəy Şamlu həlak oldu.

Əbdi bəy Şamlu I Şah İsmayılın bacısı ilə ailə qurmuş, bu izdivacdan *Durmuş xan* və *Hüseyn xan* adlı iki oğlu doğulmuşdur. Bu iki qardaş Səfəvilər tarixinin ilk onilliklərində kifayət qədər mühüm rol ifa etmişdir. Durmuş xan I Şah İsmayılın çox etibar etdiyi əmirlərdən biri olmuş, Hüseyn xan isə I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində onun vəkili olaraq dövlət idarəçiliyinə rəhbərlik etmişdir.

Bəzi mənbələrdə I Şah İsmayılın həyat yoldaşı *Taclu bəyim* Əbdi bəy Şamlunun qızı və Durmuş xanın bacısı kimi təqdim edilir. (Bu barədə fərqli məlumatlar mövcuddur).

ƏBDÜLBAQİ YƏZDİ, NİZAMƏDDİN (vəf. 1514) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. Yəzd şəhərində yaşayır, buradakı nemətullahiyyə

təriqəti tərəfdarlarının şeyxi sayılırdı. 1503-cü ildə Yəzd şəhərinin hakimiyyəti I Şah İsmayıl tərəfindən *Hüseyn bəy Lələ Şamluya* verilmişdi. O, Təbrizdə şah sarayında qaldığı üçün öz xidmətçisi Şüeyb ağanı Yəzdə göndərmişdi. Yerli hakimlər Səfəvi ordusunun uzaqda olmasından istifadə edib Şüeyb ağanı öldürdülər, 1504-cü ildə isə Əbərquh hakimi *Məhəmməd Rəis Kərrə* Yəzd şəhərini işğal edərək Səfəvilərin tabeliyindən çıxdı. O, şəhərin hörmətli din və əxlaq alimi olan Əbdülbaqi Yəzdinin qızını almaqla öz nüfuzunu möhkəmlətməyə çalışırdı. Lakin Əbdülbaqi Yəzdi ailəsi ilə şəhərdən qaçıb təhlükəsiz yerə sığındı və I Şah İsmayıla məktub yazaraq Yəzddəki vəziyyəti ona xəbər verdi. 1504-cü ilin axırlarında şahın başçılıq etdiyi Səfəvi qoşunu şəhəri mühasirəyə aldı. Məhəmməd Rəis Kərrə bir neçə gün müqavimət göstərsə də, *Durmuş xanın* başçılıq etdiyi dəstə qalanı ələ keçirdi, müqavimətçilərin böyük hissəsi öldürüldü, başçıları isə İsfahanda edam olundu. Bu hadisələr Əbdülbaqi Yəzdinin hələ o zamanlardan Səfəvilərə rəğbətlə yanaşdığını göstərir.

1511/12-ci illərdə Əbdülbaqi Yəzdi sarayda böyük nüfuz sahibi idi. Ozamankı sədr Seyid Şərəfəddin Əli Şirazi (Mir Seyid Şərif Şirazi) *vəkil Nəcmi-sani* ilə yola getmədiyi üçün İraqa ziyarətə getmək bəhanəsi ilə vəzifədən kənara çəkildi və onun vəzifəsini Əbdülbaqi Yəzdi yerinə yetirməyə başladı. Yəzdinin vəkil Nəcmi-sani ilə münasibətləri yaxşı idi, ona görə də 1512-ci ildə vəkil özbəklərə qarşı yürüşə çıxdığı zaman onu öz canişini elan etmişdi. Nəcmi-sani Qicduvan savaşında öldürüldükdən sonra sədr Seyid Şərəfəddin Əli Şirazi öz vəzifəsinə qaytarıldı, Əbdülbaqi Yəzdi isə şahın vəkili və Səfəvilər dövlətinin baş vəziri kimi fəaliyyətə başladı.

1514-cü ildə *Çaldıran savaşında* digər əmirlər kimi, din xadimləri də ordu hissələrinə başçılıq edirdilər. İraq seyidlərinin lideri (nəqibi) *Seyid Məhəmməd Kəmunə*, vəkil Əbdülbaqi Yəzdi və sədr Seyid Şərəfəddin Əli Şirazi qoşunun mərkəzində, şahın yanında qərar tutmuşdular. Onların hər üçü həmin döyüşdə həlak oldu. Əbdülbaqi Yəzdidən sonra vəkil vəzifəsi *Durmuş xanın* keçmiş vəziri *Mirzə Şah Hüseyn İsfahaniyə* verildi.

I Şah Təhmasib bacısı *Xanış bəyimi* Mir Əbdülbaqi Yəzdinin oğlu Şah Nemətullah Yəzdiyə ərə vermişdi. Səfəvilər sülaləsi ilə Şah Nemətullah Yəzdinin nəsli arasında qohumluq sonrakı dövrlərdə də davam etmişdir. Belə ki, Yəzdinin Xanış bəyimlə izdivacından olan qızı Pəripeykər xanım II Şah İsmayıla ərə getmiş, onların qızı Səfiyyə sultan bəyim isə Yəzdinin nəvəsi Şah Xəlilullahla ailə qurmuşdu. Şah Nemətullah Yəzdinin öz adını daşıyan digər nəvəsi də I Şah Təhmasibin qızı *Xanış bəyimlə* evlənmişdi.

ƏBDÜRRƏHİM XAN BAHARLU (vəf. 1627) – qızılbaş əsilli görkəmli dövlət xadimi, alim və sənətşünas. *Baharlu* tayfasının nüfuzlu *Əlişəkəroğulları* qoluna mənsub *Bayram xan Baharlunun* oğludur. *Böyük Moğollar dövlətində* yüksək məqama sahib idi. Kiçik yaşla-

rından mükəmməl təhsil almış Əbdürrəhim xan türk, ərəb, fars, hind, sanskrit və hətta bəzi Avropa dillərini bilirdi. O, Əkbər şah və Cahangir şahın zamanında, atası kimi, "xani-xanan" tituluna yiyələnmiş, Hindistanın yerli hakimlərini mərkəzi hökumətə tabe etdirmək istiqamətində uğurlu müharibələr apararaq döyüş meydanında özünü güclü sərkərdə kimi təsdiqləmişdi. Əkbər şah oğlu Səlim Mirzənin tərbiyəsinu ona həvalə etmişdi.

Əbdürrəhim xan tibb və astronomiyanı gözəl bilirdi, astronomiya mövzusunda iki kitab yazmışdı. O, həmçinin *Babur şahın* zəfərlərindən bəhs edən "Baburnamə" kitabını cığatay türkcəsindən fars dilinə çevirmişdir. Əbdürrəhim xanın monumental məqbərəsi Dehlidə, Humayun şahın türbəsinin yaxınlığında yerləşir və moğol memarlıq məktəbinin ən gözəl nümunələrindən sayılır.

ƏBU TALİB XAN ORDUBADİ (vəf. 1634) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. Adını mənbələrdə "Talib xan" şəklində də yazmışlar. Ensiklopedik bilikli böyük alim Nəsirəddin Tusinin nəslindən olan *Hatəm bəy Ordubadinin* oğlu idi. Atası I Şah Abbasın zamanında baş vəzir mənsəbində xidmət etmiş, onun vəfatından (1610) sonra bu vəzifə Əbu Talib xana verilmişdi. Əbu Talib xan 1621-ci ilədək Səfəvilər dövlətinin baş vəziri və "etimad əd-dövlə" (dövlətin güvənc yeri) rütbəsinin sahibi oldu, lakin sonra işdə yol verdiyi bəzi xətalara görə vəzifədən çıxarıldı. Bundan sonra həmin vəzifə *Abdullah xan Ustaclunun* nəvəsi *Salman xana* verildi. Əbu Talib xan isə uzun müddət sarayda vaqeənəvis vəzifəsini daşıdı. Tarixi mənbələrdən aydın olur ki, vaqeənəvis sarayda yüksək təbəqəli məmurlardan, məşvərət şurasında iştirakı vacib olan əmirlərdən (ümərayi-*cəngi*) sayılırdı, hətta bəzən bu vəzifəni *münşi əl-məmaliklə* eyni qəbul edirlər. Göründüyü kimi, Əbu Talib xan vəzifə pilləsində aşağı salınmış olsa da, yenə sarayda kifayət qədər nüfuza sahib idi.

1631-ci ildə baş vəzir *Xəlifə sultanın* (*Sultan əl-üləma* Seyid Hüseyn Mərəşi Amuli) I Şah Səfi tərəfindən vəzifəsindən birinci dəfə uzaqlaşdırılması Əbu Talib xan Ordubadiyə yenidən öz mövqeyini bərpa etmək fürsəti verdi. O, ikinci dəfə baş vəzir mənsəbinə təyinat aldı. Lakin ikinci təyinat onun üçün daha da uğursuz oldu. Üç ildən sonra Əbu Talib xan kiçik bir nöqsana görə qəzəbə düçar oldu və edam edildi (1634). Salnamələrdə yazıldığına görə, I Şah Səfi Səhənd yaylağında Herat hakimi Həsən xanın evində gecələdiyi zaman *eşikağasıbaşı* Uğurlu xan Şamlu və *söhbət yasavulu* Həsən bəy (Əbu Talib xanın kürəkəni) qapıda duran Bəhram bəy adlı keşikçini çubuqla döyüb başını yarmışdılar. (Bunu edərkən onların sərxoş olduqları yazılır). Hadisədən xəbər tutan I Şah Səfi Həsən bəyə acıqlanarkən baş vəzir Əbu Talib xan öz kürəkənini müdafiə etməyə çalışmış, bu hərəkət şahın acığına gəlmiş, qılıncını çəkib Əbu Talib xanı oradaca öldürmüş, Həsən bəylə Uğurlu xanın da edamına əmr vermişdi.

Əbu Talib xanın süqutunun ondan sonra

yerinə keçmiş *"Saru Tağı"* ləqəbli Mirzə Məhəmməd Təqi tərəfindən təşkil edildiyi ehtimal olunur.

"Tarixi-aləmarayi-Abbasi" kitabının müəllifi *İsgəndər bəy Münşi* (vəf. 1634) uzun müddət Əbu Talib xan Ordubadinin başçılığı altında saray dəftərxanasında xidmət etmişdi və aralarında yaxşı münasibət vardı. İsgəndər bəy öz əsərinin ilk variantını yazıb bitirdikdən sonra Əbu Talib xanın vasitəsilə I Şah Abbasın hüzuruna təqdim etmişdi. Buna görə də müəllif kitabın müqəddiməsində Əbu Talib xanı ən yüksək ifadələrlə tərifləyir.

ƏLİXAN BƏY CAVANŞİR (vəf. 1612) – qızılbaş əmiri. *Otuzikilər* ittifaqına daxil olan *Cavanşir* oymağına mənsub idi. *Mirzə Hüseyn bəyin* kiçik qardaşı olan Əlixan bəy, ondan fərqli olaraq, Azərbaycan torpaqlarının osmanlılar tərəfindən işğalı zamanı Osmanlı idarəçiliyi altında yaşamağa razı olmamış, Səfəvilər dövlətinin içərilərinə çəkilmiş və I Şah Abbasın tabeliyində hərbi yürüşlərə qatılmışdı. O, qardaşı Mirzə Hüseyn bəyin yerinə keçmək üçün ona qarşı suiqəsd hazırlamış, amma uğursuzluğa düçar olaraq öldürülmüşdü.

bax: **MİRZƏ HÜSEYN BƏY CAVANŞİR.**

ƏLİQULU XAN QIÇOĞLU USTACLU (vəf. 1587) – görkəmli qızılbaş əmiri və Səfəvi dövlət xadimi. *Ustaclu* tayfasının *Qıçlu* oymağından idi. Bəzən onun adını yanlış olaraq "Fəthoğlu" şəklində yazırlar, tarixi mənbələrin bəzi nüsxələrində də bu yanlışlıqla rastlaşırıq. Ərəb əlifbası ilə bu iki söz eyni şəkildə yazıldığı, yalnız nöqtələrlə fərqləndiyi üçün Qıçlu oymağının mövcudluğundan xəbərsiz olan katiblər bu sözü "Fəthoğlu" şəklində anlamışlar.

Əliqulu xan Şah Məhəmməd Xudabəndənin zamanında sarayda yüksək mövqeyə malik idi. Hətta şah ona "qardaş", *İsmayılqulu xan Şamluya* isə "yoldaş" fəxri ləqəblərini vermişdi. 1584-cü ildə Əliqulu xan Azərbaycan (Təbriz) bəylərbəyi təyin edildi, onun sarayda *divanbəyi* mənsəbini daşıdığı da mənbələrdə qeyd edilmişdir.

Əliqulu xan Qıçoğlu şahın özünə vəliəhd təyin etdiyi *Həmzə Mirzənin* sevimli və sadiq əmirlərindən idi. Onun şahzadə üzərində böyük təsiri vardı, bəzi məlumatlara görə, şahzadə üçün əyləncə məclisləri təşkil etməklə bu mövqeyi qazanmışdı. Xanlar xanı *Əliqulu xanla* Şamlu tayfasından İsmayılqulu xan dövlət idarəçiliyində məhdudiyyətsiz ixtiyar sahibi idilər, bütün mühüm dövlət məsələləri onların razılığı ilə həll edilirdi.

1586-cı ildə Həmzə Mirzənin silahdaşları ilə şahzadə *Təhmasib Mirzənin* tərəfdarı olan Təkəlü-Türkman tayfa ittifaqının döyüşündə Əliqulu xan Qıçoğlu qoşun sərkərdələrindən biri olmuş, qələbədən sonra Həmzə Mirzə ona Rey vilayətinin hakimliyini vermişdi.

Həmzə Mirzənin qətlindən sonra Əliqulu xan *Əbu Talib Mirzənin* şah tərəfindən vəliəhd elan edilməsinə nail olmuşdur.

1587-ci ildə Abbas Mirzə (gələcək I Şah Abbas) *Mürşidqulu xanın* müşayiəti ilə

paytaxt Qəzvinə yürüş etdiyi zaman Əliqulu xan qızılbaş əmirlərini müqavimət göstərməyə çağırdı, əgər təslim olarlarsa mütləq öldürüləcəklərini söylədi. Lakin Mürşidqulu xanın şirnikləndirici təklifləri və hədə-qorxusu nəticəsində əmirlərin əksəriyyəti təslim olmağa üstünlük verdi, Abbas Mirzə şəhərə döyüşsüz daxil olaraq özünü şah elan etdi. Bunun ardınca başda Əliqulu xan Qıçoğlu Ustaclu və İsmayılqulu xan Şamlu olmaqla bir neçə qızılbaş əmiri edam edildi, əmlakları müsadirə olundu.

ƏLİQULU XAN SAAKADZE (vəf. 1667) – gürcü mənşəli görkəmli Səfəvi sərkərdəsi və dövlət xadimi. Qullar *(qulam)* təbəqəsindən gürcü əsilli Bican bəyin oğlu, I Şah Səfinin hakimiyyəti dövründə *sipəhsalar* və Azərbaycan bəylərbəyi vəzifələrini qazanmış *Rüstəm xan Saakadzenin* qardaşı, bütün yaxın qohumları ilə birlikdə öldürülmüş Fars bölgəsinin hakimi *İmamqulu xan Undiladzenin* kürəkəni idi. (İmamqulu xanın qətlini icra edənlərdən biri olmuşdur). O, I Şah Səfinin zamanında sarayda *divanbəyi* vəzifəsinə təyinat almışdı. 1650-ci ildə II Şah Abbasın əmri ilə vəzifəsindən azad edilmiş Azərbaycan bəylərbəyi, azyaşlı II *Pirbudaq bəy Pörnakın* yerinə Əliqulu xan keçdi. Lakin 1655-ci ildə tabeliyində olanlarla ədalətsiz davrandığına görə saraya daxil olan şikayətlər əsasında vəzifəsindən kənarlaşdırıldı. Səfəvilər dövlətində bir müddət yaşamış fransız səyyahı J.Şarden yazırdı ki, Əliqulu xan vəhşi ov quşları saxlamaqla məşğul idi, bu quşlar əmirlərdən birinin gözünü dimdikləyib çıxarmış, həmin əmir stresdən və yaranın təsirindən ölmüşdü; bundan sonra Əliqulu xan vəzifəsindən azad edilmişdi. Şah Süleyman hakimiyyətə gəldikdən sonra (1666) Əliqulu xan ömrünün sonlarına yaxın yenidən öz nüfuzunu bərpa etməyə nail oldu və vaxtilə qardaşına məxsus olmuş sipəhsalar vəzifəsinə yiyələndi. Özündən sonra övladı qalmamışdır.

bax: **RÜSTƏM XAN SAAKADZE.**

ƏLİQULU XAN ŞAMLU (vəf. 1589) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Şamlu* tayfasından, I Şah İsmayılın yeznəsi və *təvaçıbaşısı* olan *Əbdi bəy Şamlunun* nəslinin davamçısı, *Durmuş xanın* nəvəsi idi. Bu sülalənin Şamlu tayfasının hansı oymağından olması dəqiq məlum deyil. Bəzi tədqiqatçılar onları *Bəgdilü* oymağına aid etmişlər. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında bu məsələni ayrıca qeyd etməsə də, I Şah Abbasın hakimiyyətinin ikinci ilində baş vermiş hadisələri şərh edərkən özbəklərin hücumu zamanı Heratda həlak olmuş Əliqulu xanı Avcı ləqəbi ilə xatırlatmışdır.

Əliqulu xanın atası *Sultan Hüseyn xan* təvaçıbaşı (səfərbərlik və ordu əlaqələndiricisi xidmətinin rəisi) vəzifəsində xidmət edirdi.

Əliqulu xan II Şah İsmayıl tərəfindən Herat bəylərbəyi təyin edlmiş, elə o zaman mərhum I Şah Təhmasibin qızı *Zeynəb bəyimlə* nişanlanmışdı. İsgəndər bəy Münşi yazırdı ki, kəbin kəsilməsinə baxmayaraq, Əliqulu xanla Zeynəb bəyim evlənmədilər.

I Şah Abbas şahzadəlik dövründə atası Şah Məhəmməd Xudabəndə tərəfindən Herat *əmir əl-ümərası* təyin edilmiş, Əliqulu xan da onun *lələsi* (tərbiyəçisi) seçilmişdi. Beləcə, gələcək şah kiçik yaşlarından Xorasanda Əliqulu xan Şamlunun tərbiyəsi altında böyümüşdü. Əliqulu xan Abbas Mirzəyə çox sadiq idi, hakimiyyətə gedən yolda onu həmişə dəstəkləmiş, düşmənlərdən qorumuşdu. Abbas Mirzə onu özünə ata qədər əziz bilirdi.

Şah Məhəmməd Xudabəndə zamanında paytaxtda şahzadə *Həmzə Mirzənin* hakimiyyətə gəlməsini istəyən bəzi qüvvələr Abbas Mirzənin Xorasanda əlçatmaz olması ilə razılaşmır və onu Qəzvinə gətirtmək istəyirdilər. Şahzadə paytaxta gətirilərsə, ətrafındakıların, o cümlədən Əliqulu xanın himayəsindən məhrum qalacaqdı, belə bir vəziyyətdə onu idarə etmək, bu alınmazsa, aradan götürmək rahat olardı. Abbas Mirzənin təhvil verilməsi əmrini Xorasana Əliqulu xanın atası, Şamlu tayfasının ağsaqqalı Sultan Hüseyn xan çatdırdı. Lakin şahın həyat yoldaşı və bu işlərin təşkilatçısı olan *Məhdi-ülyanın* öldürülməsi nəticəsində Abbas Mirzəni təhvil vermə tələbi müvəqqəti də olsa öz qüvvəsini itirdi. Bir müddətdən sonra şahzadə Abbasın əleyhdarları Əliqulu xanın anasını boğub öldürdülər, Sultan Hüseyn xanın və tərəfdarlarının vəzifələrini əllərindən alıb qarşı cəbhənin nümayəndələrinə verdilər. Sultan Hüseyn xan Ərdəbilə qaçıb Şeyx Səfi xanəgahında sığınacaq tapsa da, az sonra xəyanətlə öldürüldü.

Əliqulu xan hakimiyyətə iddialı şahzadələrin arasında ən zəkalı olan Abbas Mirzəyə himayədarlıq etdiyinə və strateji əhəmiyyətə malik Xorasan bölgəsini öz ixtiyarında saxladığına görə Səfəvilər dövlətində böyük güc sahibi idi, ona "xanlar xanı" deyirdilər.

Sonralar *Ustaclu* tayfasından olan *Mürşidqulu xan* şahzadə Abbas üzərində nüfuz qazanmaq uğrunda Əliqulu xanla rəqabətə girdi. Narazılıq getdikcə şiddətlənərək döyüş həddinə çatdı. İki tərəfin qarşıdurmasında Mürşudqulu xan qalib gəldi, o zamandan şahzadə Abbas onun himayəsi və nəzarəti altında qalmağa məcbur oldu. Məğlub olmuş Əliqulu xan isə Abbas Mirzə üzərində bütün təsirini itirdi.

Əliqulu xanın zəifləməsindən xəbər tutan özbəklər Herat üzərinə hücum çəkdilər. Uzun sürən mühasirədən sonra nə paytaxtdan, nə də Mürşidqulu xandan yardım almayacağını anlayan Əliqulu xan Şamlu təslim olub qaladan çıxdı. Özbəklər əvvəlcə ona aman vəd etsələr də, yaxın ətrafı ilə birlikdə öldürdülər, Herat şəhərini də dəhşətli qırğına və qarətə məruz qoydular (1589).

Əliqulu xan Şamlu şeirə və sənətə dəyər verən şəxs idi. Şamlu tayfasının şair və ədib yetirmələri Yolqulu bəy, Qasım bəy və Dura bəy (təxəllüsü Kirami) Əliqulu xanın yaxın ətrafından sayılırdılar. (Qasım bəy Əliqulu xanın qaynı, Yolqulu bəy bəylərbəyi sarayındakı kitabxananın müdiri, Dura bəy isə Əliqulu xanın *süfrəçibaşısı* idi).

Həyat yoldaşı Canağa xanım Murad bəy Bayandurun qızı idi. I Şah Abbas onu ana kimi sevir, "nənəm" deyə müraciət

edirdi. Hərəmxanada böyük nüfuz sahibi olan Canağa xanım 1623-cü ildə Mazandaranda vəfat etmiş, I Şah Abbasın göstərişi ilə Kərbəla şəhərində dəfn olunmuşdur.

ƏLİMƏRDAN XAN ZİG (vəf. 1657) – XVII əsrdə yaşamış görkəmli sərkərdə, Səfəvi dövlət xadimi. Kürd mənşəli Zig tayfasına mənsub olan *Gəncəli xanın* oğlu idi. Atasının ölümündən (1624/25) sonra Əlimərdan bəyə I Şah Abbas tərəfindən xan titulu bağışlanmış və o, Qəndəhar hakimliyinə təyin edilmişdi. I Şah Abbasın "baba" (ata) deyə müraciət etdiyi Gəncəli xanın xatirəsinə ehtiram əlaməti olaraq Əlimərdan xan da "Babayi-sani" (ikinci ata) ləqəbinə layiq görülmüşdü.

O dövrün mənbələri xəbər verir ki, Əlimərdan xan Qəndəhar bazarlarında hind tacirlərini lazım olduğundan çox ləngidir, bununla daha artıq gəlir qazanırdı. Böyük Moğol hökmdarı Şah Cahan əlverişli strateji mövqeyinə görə Qəndəharı çoxdan ələ keçirmək istəyirdi. O, hətta Əlimərdan bəyə Qəndəharı təslim etməyi təklif etmiş, lakin rədd cavabı almışdı. Bu arada Əlimərdan bəyin davranışları barədə I Şah Səfiyə şikayət olunmuş, o da vəziyyəti öyrənmək üçün 1630-cı ildə Qəndəhara müfəttiş göndərmişdi. Əlimərdan xanın bölgədə əfqanlarla uğurlu döyüşlər aparmasına, vergini vaxtında ödəməsinə baxmayaraq, baş vəzir *Saru Tağı* Böyük Moğol hökmdarı ilə Əlimərdan xanın yazışmalarını şaha fərqli şəkildə təqdim etdi. Nəticədə I Şah Səfi Əlimərdan xanın böyük oğlunu girov kimi saxladı, onun özünü də cəzalandırmaq üçün İsfahana çağırdı. Öldürüləcəyini anlayan Əlimərdan xan Şah Cahanın təklifini qəbul etməyə məcbur oldu, Qəndəhar şəhərini moğollara təslim edib özü də onların xidmətinə keçdi (1637/38). Əlimərdan xanın bu addımı tarixçilər tərəfindən fərqli şəkildə qiymətləndirilir. Bəziləri onu Səfəvilərə xəyanət etməkdə təqsirli bilmiş, bəziləri də öz həyatını xilas etmək məcburiyyətində qaldığını yazmışlar. I Şah Səfinin əyanlara qarşı qəddar davranışı, onları ən xırda səhvlər üstündə edama məhkum etməsi də Əlimərdan xanın bu addımı atmasına təkan vermişdir. (Əlimərdan xanın evliliklə qohum olduğu *Əbu Talib xan Ordubadi* də bir neçə il əvvəl şah tərəfindən öldürülmüşdü).

Əlimərdan xan Hindistana gəldikdən sonra Şah Cahan onu Kəşmir, Pəncab və Kabil hakimliyinə təyin etmiş, ixtiyarına hərbi dəstə vermişdi. Əlimərdan xan Hindistanda tikinti və abadlıq işləri ilə məşğul olmuş, Pişəvərdə üstüörtülü bazar tikdirmiş, bağlar saldırmış, Lahura kanal çəkdirmişdir. 1657-ci ildə Kabildə vəfat etmiş, Lahurda dəfn olunmuşdur.

ƏLİŞƏKƏR BƏY TÜRKMAN BAHARLU – görkəmli qızılbaş sərkərdəsi. *Türkman* ittifaqına daxil olan *Baharlu* tayfasının *Əlişəkəroğulları* nəslinə mənsub idi. 1511-ci ildə özbəklərə qarşı döyüşdə fərqləndikdən sonra I Şah İsmayıl onu *Böyük Moğol imperiyasının* banisi *Babur şaha* yardım üçün göndərmişdi. Əlişəkər bəyin oğlu Məhəmmədi

xan Baharlu Mərv bəylərbəyi *Div sultan Rumlunun* tabeliyində xidmət edirdi. Div sultan 1515-ci ildə Məhəmmədi xanı Mərv qalasının hərbi qarnizonuna komandan təyin edərək özü yardım üçün Təbrizə – I Şah İsmayılın hüzuruna gəldi. Özbəklərin şiddətli hücumları qarşısında şəhəri əldə saxlaya bilməyəcəyini görən Məhəmmədi xan Baharlu tabeliyində olanların toxunulmazlığına zəmanət aldıqdan sonra Mərvi tərk etdi. Qaladakı qızılbaş döyüşçüləri Təbriz istiqamətində geri qayıtdılar. Məhəmmədi bəy isə Babur şahın dəvəti ilə atası Əlişəkər bəyin xidmət etdiyi Kabil şəhərinə getdi. Babur şah öz qohumlarından birinin qızını Məhəmmədi bəyə ərə verərək onu xidmətə qəbul etdi.

ƏMİR HÜSEYN KİYA ÇƏLAVİ (vəf. 1504) – XVI əsrin əvvəllərində Mazandaran bölgəsində hakimiyyət sürmüş və Səfəvilərə qarşı müqavimət göstərmiş yerli hakim. Amul şəhərinin yaxınlığındakı Çəlav (Çəlavun) məntəqəsindən idi. Bu bölgədə hələ IX əsrdən *şiəlik* yayılmağa başlamış, X əsrdə Deyləmilər sülaləsi hətta Bağdadı ələ keçirib Abbasilər xilafətini özündən asılı vəziyyətə salmışdı.

Əmir Hüseyn də şiə məzhəbinə (daha dəqiq məlumatlara görə, şiəliyin zeydi qoluna) mənsub idi. *Almabulağı savaşında* Ağqoyunlu Sultan Murad qızılbaşlara məğlub olduqdan sonra onun qoşununun qalıqları Çəlavinin yanında sığınacaq tapmışdı. Çəlavi qızılbaşlara tabe olmaqdan imtina edir, hətta ətrafdakı torpaqlara talançı yürüşlər həyata keçirirdi. O və tabeliyindəki hərbi qüvvə Səfəvilər üçün təhlükə törətməyə başlamışdı. Çəlavi şiələrin liderliyinə iddia etməklə tədricən I Şah İsmayılın rəqibinə çevrilirdi.

1503-cü ildə Çəlavi Tehran ətrafındakı yaşayış məntəqələrini talan edib Vəramin qalasını mühasirəyə aldı. Şah Vəramini qorumaq üçün görkəmli sərkərdə *İlyas bəy Ayqut oğlu Xınıslunun* başçılığı altında 300 nəfərlik dəstə göndərdi, özü də bir müddətdən sonra qoşunla köməyə gələcəyini vəd etdi. İlyas bəy Vəramin qalasının 400 nəfərlik qarnizonuna başçılığı da öhdəsinə aldı. Lakin qüvvələr qeyri-bərabər idi, qalanı mühasirədə saxlayan Çəlavi qoşununun sayı 12 min nəfəri aşırdı. Bir aylıq mühasirədən sonra Vəramini ala bilməyən və hər an şahın öz ordusu ilə köməyə gələcəyindən ehtiyat edən Çəlavi hiyləyə əl atdı. O, İlyas bəyi danışıq aparmaq bəhanəsi ilə qaladan çıxarıb öz düşərgəsinə gətirdi. Burada İlyas bəy və yanındakı kiçik dəstə öldürüldü, Vəramin qalası Çəlavinin əlinə keçdi.

I Şah İsmayıl baş verənləri eşidəndə hücum əmrini tezləşdirərək 1504-cü ilin fevralında Çəlavinin üzərinə yürüşə çıxdı. Çəlavi Vəramini tərk edib tabeliyində olan qalaları möhkəmləndirdi. O, Gülxəndan qalasının müdafiəsini qardaşı Kiya Əşrəfə həvalə etdi, özü isə Firuzkuh qalasına sığındı.

I Şah İsmayıl Kiya Əşrəfi təslim olmağa çağırsa da, o, şahın elçisini öldürərək bu təklifdən imtina etdi. Qızılbaşlar Gülxəndanı tutdular, qalanı qoruyan 5 min nəfər qılıncdan keçirildi, şahın əmri ilə

qalanı yerlə yeksan etdilər. Bundan sonra qızılbaş qoşunu Əmir Hüseyn Kiya Çəlavinin dayaq nöqtəsi olan Firuzkuh üzərinə yeridi. Çəlavi digər qardaşı Əmir Əlini qalaya təhkim edib özü Mazandaranın içərilərinə doğru çəkildi. Firuzkuh qalası alınmaz hesab ediləcək dərəcədə güclü idi və müdafiəsi yaxşı təşkil edilmişdi. Amma I Şah İsmayıl strateji istedad göstərərək qalaya gözlənilməyən yerdən hücum təşkil etdi. Əmir Əli *Nəcm Rəşti* vasitəsilə xəbər göndərərək təslim olmaq istədiyini bildirdi. Ona və ətrafındakı döyüşçülərə aman verildi, qala isə dağıdıldı.

Növbəti hədəf Əmir Hüseyn Kiya Çəlavinin son sığınacağı, Marankuh dağında yerləşən Usta qalası idi. Qızılbaşlar Çəlavinin yol boyunca təşkil etdiyi müdafiə sədlərini aşaraq mühasirəyə başladılar. I Şah İsmayıl nəticəni tezləşdirmək üçün qalaya gedən çayın istiqamətini dəyişməyi əmr etdi. Susuzluq təhlükəsi qarşısında qalan bəzi qala müdafiəçiləri Çəlavini tutub şahın hüzuruna gətirdilər, qaladakıların müqaviməti də bir neçə gün ərzində qırıldı. Beləliklə, üç aylıq hərbi əməliyyatların sonunda, 1504-cü ilin mayında Mazandaran bölgəsi bütünlüklə I Şah İsmayılın tabeliyi altına keçdi. Əmir Hüseyn Kiya Çəlavi əsirlikdə intihar edərək özünü öldürdü və qardaşı onun yerinə Mazandaran valisi təyin edildi.

Düzənlik ərazilərdə döyüşməyə öyrəşmiş qızılbaş qoşunu Mazandaranın dağlıq bölgəsində apardığı uğurlu hərbi əməliyyatla öz universal gücünü göstərmiş oldu. Mazandaran yürüşünün uğuru xeyli dərəcədə I Şah İsmayılın hərbi bacarığı və sərkərdəlik istedadı sayəsində mümkün olmuşdur.

ƏMİR XAN MOSULLU-TÜRKMAN (vəf. 1522) – XVI əsrin birinci rübündə Səfəvilər dövlətində mühüm rol oynamış qızılbaş əmiri. 1507-ci ildə I Şah İsmayılın *Zülqədəroğulları bəyliyi* üzərinə yürüşü zamanı ağqoyunluların Diyarbəkir bəylərbəyi Əmir bəy Mosullu onun xidmətinə keçmiş və *möhürdar* vəzifəsini qazanmışdı. Əmir bəy *Uzun Həsənə* xidmət etmiş eyniadlı bəyin nəvəsi, Ağqoyunlu Sultan Yaqubun sərkərdəsi Gülabı bəyin oğlu və bacarıqlı sərkərdə idi. O, xidməti karyerasına möhürdar kimi başlamış, sonralar xan titulu alaraq şahzadə Təhmasib Mirzənin *lələsi* və Herat hakimi təyin edilmişdi. Heratda ikən Əmir xanın adı saray intriqalarından birində hallanmışdı. Bəzi məlumatlara görə, o, Herat bəylərbəyliyində *sədr* vəzifəsinə bir nəfəri təyin etmək üçün hazırda həmin vəzifəni tutan sədr Mir Məhəmməd ibn Yusifi özbəklərlə əlbir olmaqda ittiham edib öldürmüşdü. Xəbər I Şah İsmayıla çatanda qəzəblənib Əmir xanı həbsə atdırdı (1522). Əmir xan əvvəlcə edam cəzasına məhkum olunmuşdu, amma həmtayfası *Taclu bəyimin* xahişi ilə cəzası həbslə əvəz edildi, bununla belə, az sonra həbsxanada dünyasını dəyişdi. Onun ayağının müalicəsi zamanı zəhərli dərmanla öldürüldüyünü yazırlar. Şahın *miraxurbaşısı* Şahqulu bəy Türkman Əmir xanın həbsində dövlətdə şahdan sonra birinci şəxs olan *vəkil Mirzə Şah*

Hüseyn İsfahanini təqsirli bilirdi, çünki Mirzə Şah Hüseyn Əmir xanın öldürdüyü sədrin atası ilə dost idi. Miraxurbaşı bu intiqamı vəkildən alacağını hər yerdə deyirdi. Vəkil Mirzə Şah Hüseyn İsfahani miraxurbaşının korrupsiya cinayətlərinin üstünü açaraq şahın hüzurunda onu ifşa etdi. Bundan sonra vəzifəsindən uzaqlaşdırılmış Şahqulu bəy Türkman öz həmtayfalarını qızışdırıb vəkilə qarşı sui-qəsd təşkil etdi, 1523-cü ildə vəkil aradan götürüldü. Mənbələrdə türk qızılbaş əmirlərlə qeyri-türk əmirlər arasında o zamandan gərginlik yaşandığı qeyd edilir, miraxurbaşı hələ I Şah İsmayılın zamanında fars mənşəli vəkil İsfahanini *"tacik"* adlandıraraq deyirdi: "Bu gün bir tacik türkmanlarla düşmənçilik edir və bizi öz mürşidimizin nəzərindən salır. Əgər Əmir xanın qanını bu tacikdən almasam, kişi deyiləm".

Əmir xan Mosulludan sonra həmtayfaları onun oğlu Gülabı xanı Herat hakimi vəzifəsinə gətirməyi təklif etsələr də, I Şah İsmayıl Gülabı xanın gənc və təcrübəsiz olduğunu əsas gətirərək bu təklifi rədd etdi və Herat hakimliyini *Durmuş xan Şamluya* verdi.

Əmir xanın qardaşı Qayıtmış bəy Diyarbəkrin Səfəvilərə təslim edilməsindən sonra bu qərarla razılaşmamış, Əlaüddövlə Zülqədərlə birləşərək şəhəri geri qaytarmağa çalışmış, amma məğlub olaraq öldürülmüşdü (1508).

Əmir xan Mosullunun digər qardaşı İbrahim xan Bağdad hakimi idi. Onun digər qardaşı Əli bəyin oğlu Noxud sultan (əsl adı Zülfüqar idi) Luristanın Kəlhor bölgəsinin hakimi təyin edilmişdi. İbrahim xan Mosullu böyük Azərbaycan şairi *Məhəmməd Füzulini* himayə etməsi ilə məşhurdur. Noxud sultan 1527/28-ci illərdə Bağdada hücum edib əmisini və əmisi oğullarını öldürdü, hakimiyyəti əlinə keçirdi. Əmir xanın bir oğlundan savayı bütün övladları qılıncdan keçirildi. Məhəmmədi bəy adlı 10 yaşlı bu uşaq I Şah Təhmasibin süd qardaşı olduğu üçün qətldən amanda qaldı. Sonralar I Şah Təhmasibin əmri ilə Noxud sultan cəzalandırıldı və *Təkəlü* tayfasından *Şərəfəddinoğlu Məhəmməd xan* Bağdad hakimliyinə gətirildi.

Əmir xanın oğlu Mərcimək sultan da öz əmisi oğlunun əli ilə qətl edilmişdi. Onun oğlu Yadigar Məhəmməd Tarxan sonralar Savə hakimi oldu, onun oğlu Əbu Məsum sultan da I Şah Təhmasibin vəfatı ərəfəsində nüfuzlu əmirlər cərgəsində idi.

ƏMİR XAN MOSULLU-TÜRKMAN (vəf. 1586) – Səfəvilər dövlətinin görkəmli əmirlərindən biri, türkman *Mosullu* tayfasının nümayəndəsi. O, I Şah İsmayıl zamanında yaşamış Təhmasib Mirzənin *lələsi* və Herat hakimi *Əmir xan Mosullunun* nəslindən idi. Həmin Əmir xan rüşvət almaqda və tabeliyindəki *sədr* vəzifəsini daşıyan şəxsi öldürməklə günahkar bilinərək həbs olunmuş və zindanda ölmüşdür. Onun Məhəmmədi adlı azyaşlı oğlundan (I Şah Təhmasibin süd qardaşı) savayı bütün övladları qardaşı oğlu Noxud sultan Türkman tərəfindən öldürülmüşdür. Burada haqqında danışılan Əmir xanın da Məhəmmədi bəyin oğlu olduğu ehtimal edilir.

Əmir xan I Şah Təhmasibin zamanında Həmədan və Rey hakimi idi. II Şah İsmayıl türkmanların bir qismini Qum və Savə ətrafına köçürüb Əmir xanı da oraya hakim göndərdi. Şah Məhəmməd Xudabəndə isə taxta çıxandan sonra Əmir xanın mövqeyini daha da yüksəldərək ölkənin ən varlı bəylərbəyliyi olan Azərbaycanın idarəçiliyini ona tapşırdı. Əmir xan I Şah Təhmasibin qızı *Fatimə sultan bəyimlə* evli olduğu üçün dövlətin ən nüfuzlu əyanlarından sayılırdı. Onun tabeliyində 12 min nəfərlik hərbi qüvvə vardı. Əmir xanın qardaşları İsmayıl sultanla Şahqulu sultana, oğlu Murad sultana Azərbaycanda iri mülklər bağışlanmışdı. Onun qohumlarından olan Məhəmməd xan Sistan və Kaşan hakimi vəzifələrində xidmət etmişdir.

Əmir xan Azərbaycan bəylərbəyliyi vəzifəsində özünü doğrulda bilmədi, əhaliyə zülm etdiyi üçün mərkəzi hakimiyyətə ondan ardıcıl şikayətlər daxil olurdu. Nəhayət, şahzadə *Həmzə Mirzənin* əmri ilə Qəhqəhə qalasında həbsə atılan Əmir xan 1586-cı ildə orada edam edildi.

Əmir xan Türkmanın ən böyük səhvlərindən biri 1578-ci ildə Osmanlı qoşununa qarşı baş vermiş *Çıldır savaşına* qoşulmaması idi. Osmanlıların Gürcüstana yolunu bağlamaq və gələcəkdə Azərbaycan torpaqları üçün yaranacaq təhlükəni önləmək üçün Çuxursəd bəylərbəyi *Məhəmmədi xan Toxmaq Ustaclu* Azərbaycan bəylərbəyi Əmir xan Türkmana, Gəncə və Qarabağ bəylərbəyi *İmamqulu xan Qacara* xəbər göndərərək qüvvələrini birləşdirməyi təklif etmişdi. İmamqulu xan təklifə müsbət cavab versə də, Əmir xan Türkman tabeliyində böyük hərbi güc olmasına baxmayaraq, Ustaclu tayfası ilə köhnə ədavəti xatırlayıb yardıma gəlməmişdi. Nəticədə qızılbaş Səfəvi qoşunu Çıldır savaşında ağır məğlubiyyətə uğrayıb minlərlə itki verdi. Əmir xanın qızılbaş qoşununa yardım etməməsinin səbəbi onun Təbrizi Osmanlı hücumu qarşısında müdafiəsiz qoymaq istəməməsindən də qaynaqlana bilərdi.

ƏMİRASLAN SULTAN ƏRƏŞLÜ ƏFŞAR – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Əfşar* tayfasının *Ərəşlü* oymağına mənsub, Rüstəm sultanın oğlu idi. I Şah Təhmasib zamanında Əmiraslan sultan Əfşar tayfasının böyüyü sayılırdı, tabeliyindəki hərbi qüvvənin sayı baxımından qalan əmirlərdən fərqlənirdi. O, şahzadə *Əhməd Mirzənin* *lələsi* (tərbiyəçisi) olmuşdur.

I Şah Təhmasibdən sonrakı hakimiyyət davasında Əfşarlar İsmayıl Mirzəni (gələcək II Şah İsmayılı) dəstəklədikləri üçün onun hakimiyyəti zamanında da Əmiraslan sultan öz mövqeyini qoruya bildi. Şah Məhəmməd Xudabəndə hakimiyyətə keçdikdən sonra Əmiraslan sultanı vəzifəsində saxladı və hətta ona xüsusi tapşırıqlar verdi. Əmiraslan sultan şahın əmri ilə Şəki hakimi *Şamxal sultanı* aradan götürməklə öz sədaqətini sübuta yetirdi (1578).

Əmiraslan sultan İsfahan şəhərinin yanından axan Zindərud çayından kanal qazdıraraq şəhərin qədim camesinə su çəkdirmişdi.

Əmiraslan sultanın oğlu Təhmasibqulu

xan 1590-cı ildə I Şah Abbas tərəfindən Həmədan hakimi təyin edilmiş, amma Nəhavənd şəhərini osmanlılardan geri ala bilmədiyi üçün şahın əmri ilə öldürülmüşdü.

ƏMİRGÜNƏ XAN AĞCAQOYUNLU-QACAR (vəf. 1625) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ağcaqoyunlu* oymağına mənsub idi. Zadəgan sülaləsindən deyil, sadə kəndli ailəsindən çıxmış Əmirgünə xan bacarığı sayəsində karyerasını qurmağa nail olmuşdu. O, əvvəlcə Qəzvin şəhərinin darğası işləmiş, tabeliyindəki döyüşçülərlə birlikdə Səfəvi-Osmanlı müharibələrinin üçüncü mərhələsində fəal iştirak etmişdi. 1604-cü ildə Rəvan *(İrəvan)* qalası osmanlılardan geri alındıqdan sonra I Şah Abbas tərəfindən Çuxursədə bəylərbəyi təyin olunmuşdu. Təqribən 20 il bu vəzifədə qalmış Əmirgünə xan öz vilayətində quruculuq işləri ilə məşğul olmuş, Osmanlı hücumlarından uğurla qoruna bilmişdi. Əmirgünə xanın qardaşı Hüseynqulu bəy də hərbi əməliyyatlarda öz dəstəsi ilə ona yardım edirdi.

Osmanlı ordusunun hücum təhlükəsi yarananda Əmirgünə xan I Şah Abbasın əmri ilə İrəvan əhalisini qaladan çıxarıb təhlükəsiz yerə köçürmüşdü. Əmirgünə xanın Osmanlı dövləti ilə müharibədə göstərdiyi şücaətə, Qars, Maku və Bəyazid qalalarının fəthinə görə şah ona "Saru Aslan" ləqəbini vermişdi. I Şah Abbas zamanında Əmirgünə xan qızılbaş əmirləri arasında xüsusi yerə malik idi. 1612-ci ildə Səfəvi-Osmanlı müharibəsinin növbəti mərhələsinin sonunda bağlanmış İstanbul müqaviləsinin hazırlıq sənədlərinin hazırlanması və təsdiqində Səfəvilər tərəfindən səlahiyyətli şəxs qismində Əmirgünə xan Qacar çıxış etmişdi.

1625-ci ildə Əmirgünə xan Gürcüstan ərazisindəki döyüşlərin birində ağır yaralandı, bir müddət İrəvanda müalicə almasına baxmayaraq, vəfat etdi və Çuxursəd bəylərbəyliyi oğlu Təhmasibqulu xana həvalə olundu. 1635-ci ildə İrəvan qısa müddətə Osmanlı qoşunu tərəfindən ələ keçirilən zaman *Təhmasibqulu xan Qacar* da əsir düşdü və ömrünün sonunadək (1641) Osmanlı əsarətində yaşamalı oldu. Əmirgünə xanın digər oğlu Ağası bəy ləqəbli Gülabı bəy Qacar 1645-ci ildə baş vəzir *Saru Tağıya* qarşı sui-qəsddə təqsirkar bilinərək bir dəstə qızılbaş əmiri ilə birlikdə edam edildi. Onun daha bir oğlu Abbas xan da qısa müddət ərzində Çuxursəd hakimi olmuşdur.

ƏNSAR XƏLİFƏ QARADAĞLU (vəf. 1583) – görkəmli qızılbaş əmiri. Qaradağ sufilərindən olan bu şəxs *"xəlifə"* ləqəbindən göründüyü kimi, təriqətə ciddi şəkildə bağlı olan sufi şəbəkəsinin üzvü idi. Uzun illər Qaradağ bölgəsinin hakimi olmuşdur.

Ənsar xəlifə Qaradağlu Qəhqəhə qalasının qoruyucusu idi və İsmayıl Mirzə (gələcək II Şah İsmayıl) burada onun nəzarəti altında saxlanırdı. Ərdəbil ətrafındakı Mişkinşəhrdən xeyli kənarda, təpə üzərində yerləşən Qəhqəhə qalası alınmaz istehkam hesab edilirdi. Hər ne-

çə ildən bir qalanın hakimi dəyişdirilirdi. I Şah Təhmasibin vəfatı ərəfəsində qala qarnizonunun rəhbərliyinə və İsmayıl Mirzənin mühafizəsinə Ənsar xəlifə təyin edilmişdi. Ənsar xəlifə şahzadə *Heydər Mirzənin* hakimiyyətə gətirilməsini dəstəkləyən qruplaşmaya daxil idi. Heydər Mirzənin qətlə yetirilməsi barədə xəbər gizlicə İsmayıl Mirzəyə çatıdırılan zaman Ənsar xəlifə qaladan kənarda ov ilə məşğul idi. İsmayıl Mirzənin tərəfdarları mühafizəçiləri həbs edib qalanın darvazasını bağladılar. Ənsar xəlifə ovdan qayıdanda üç gün qalaya daxil ola bilmədi. Nəhayət, Qəzvində baş verən hadisələrin dəqiq xəbəri gəlib çıxdı və İsmayıl Mirzə öz tərəfdarlarının əhatəsində təntənə ilə paytaxta yola düşdü.

Gözlənilənin əksinə olaraq, İsmayıl Mirzə Ənsar xəlifəni cəzalandırmadı, hətta "Sən öz çörək sahibinin (şahının) əmrini yerinə yetirirdin, yaxşı xidmətçi sənin kimi olmalıdır" deyə onu bağışladı.

Ənsar xəlifə Qaradağlu Şah Məhəmməd Xudabəndənin zamanında saray intriqalarında iştirak etməklə öz mövqeyini qoruyub saxlaya bildi. 1581-ci ildə Şirvan bəylərbəyi *Peykər xan İyirmidörd* şöhrətinin zirvəsində ikən qəfildən xəstələnib dünyasını dəyişdikdə onun yerinə Ənsar xəlifə həmin diyarın hakimi təyin olundu. Lakin o da osmanlıların güclənməkdə olan hücumunun qarşısını ala bilmədi və 1583-cü ildə vəfat etdi.

Ənsar xəlifənin bir oğlu Şahverdi xan osmanlıların tərəfinə keçmişdi, digər oğlu Zöhrab bəy isə Səfəvi xidmətində idi.

FƏRHAD XAN QARAMANLU (vəf. 1598/99) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qaramanlu* tayfasından, I Şah İsmayılın ilk silahdaşlarından olmuş atası Hüsam bəy (*Bayram bəy Qaramanlunun* nəvəsi) 1567/68-ci illərdə Gilan hakimi Xan Əhmədin üsyanını uğurla yatırdığına görə təbil və bayrağa (fərqləndirici nişanlara) layiq görülərək Qaramanlu tayfasının başçısı elan edilmiş, lakin 1577-ci ildə işlətdiyi bir cinayətə görə öldürülmüşdü.

Fərhad xan xidməti karyerasına şahzadə *Həmzə Mirzənin* yanında başlamış, şahzadənin qətlindən (1586) sonra bir müddət gizlənmiş (qardaşları ilə birlikdə osmanlılara sığındığı yazılır), I Şah Abbasın hakimiyyətə gəlişindən sonra onun xidmətinə keçmişdir. Fərhad xanın vəzifə pillələri ilə yüksəlişi də I Şah Abbasın hakimiyyət dövrünə təsadüf edir. O, dövlət ərazisində qopan bir neçə üsyanı şahın əmri ilə uğurla yatırmağa nail olmuş, bunun müqabilində "Rükn əssəltənə" (Səltənətin dayağı) ləqəbini qazanmışdı.

Fərhad xan müxtəlif illərdə Azərbaycan (Təbriz) bəylərbəyi, Ərdəbildəki Şeyx Səfi xanəgahının mütəvəllisi, Fars, Gilan, Mazandaran və Astarabad vilayətlərinin hakimi kimi xidmət etmişdir. O, Səfəvi ordusunun *sipəhsaları* (baş komandanı) idi. I Şah Abbasın yanında böyük hörməti vardı, şah ona "övlad" (fərzənd) deyə müraciət edirdi.

1598-ci ildə Xorasanda özbəklərlə savaşan Fərhad xan Məşhəd şəhərini işğaldan azad etdi, amma daha sonra məğlub olaraq geri çəkildi. Şah keçmiş xidmət-

lərini nəzərə alaraq onu cəzalandırmadı, hətta Herata vali təyin etdi. Lakin Fərhad xan sipəhsalar üçün Herat hakimliyini əskildici vəzifə sayaraq yeni təyinatı qəbul etmədi. Xorasan məğlubiyyətinin ardınca şahın təklifini rədd edib verilən vəzifəni bəyənməməsi Fərhad xanın gözdən düşməsinə səbəb oldu. Beləliklə, 1598/99-cu illərdə I Şah Abbas sipəhsaların ölüm hökmünü verdi. Əmrin icrası *qulamlar* təbəqəsindən olan gürcü mənşəli *Allahverdi xan Undiladzeyə* tapşırıldı.

Fərhad xan Qaramanlunun edamının səbəbi konkret məlum deyil. Yuxarıdakı səbəblərdən əlavə, böyük ehtimalla, I Şah Abbas Fərhad xanın artmaqda olan nüfuzundan qorxaraq mərkəzi hakimiyyətə qarşı çıxa biləcəyini düşünmüş və təhlükədən qurtulmaq üçün çıxış yolunu onu aradan götürməkdə görmüşdü. Hər halda Fərhad xan ona qarşı qurulmuş sui-qəsd planından xəbərdar deyildi, onu öldürməyə gəlmiş Allahverdi xanı görəndə heyrətlə Azərbaycan dilində "Beləmi oldu?" söyləmişdi.

Fərhad xanın qətlindən sonra qardaşı Zülfüqar xan onu da öldürəcəklərindən qorxmuş, amma buna rəğmən sağ buraxılmışdı. Hətta 1607-ci ildə Zülfüqar xana Şirvan bəylərbəyliyi həvalə edildi, lakin 3 ildən sonra o da şahın əmri ilə öldürüldü (1610).

Fərhad xan Qaramanlu sənətkarları himayə edirdi. *Mir İmad Qəzvini, Əlirza Abbasi* kimi görkəmli xəttatlar bir müddət onun sarayında fəaliyyət göstərmişlər.

Fərhad xanın digər qardaşı Əlvənd sultan, Zülfüqar xanın oğlu Hüsam sultan (I Şah Səfi zamanında Qızılağac valisi idi), qohumu Qaraman bəy də Səfəvilər dövlətində xidmət etmişlər.

FƏTHƏLİ XAN DAĞISTANİ (vəf. 1720) – Səfəvilər dövründə yaşamış görkəmli dövlət xadimi. Milliyyətcə qumuq olan Fəthəli xan Dağıstanın aristokratik Şamxal sülaləsindən idi. Atası Səfiqulu xan ləzgi Şah Süleyman dövründə bir neçə il Çuxursəd bəylərbəyi vəzifəsində xidmət etmişdi. Fəthəli xan bir müddət Kuhgiluyə hakimi, daha sonra *qullarağası* vəzifələrində çalışmış, qayınatası *Şahqulu xan Zəngənədən* (vəf. 1716) sonra Səfəvilər dövlətinin baş vəziri təyin edilmişdi. Dağıstaninin vəzirlik müddəti Səfəvilər dövlətinin tənəzzül mərhələsinə təsadüf etmişdir. Dövlət əyanları arasında düşmənçilik, nifaq və intriqa hökm sürürdü. Baş vəzirə qarşı müxalifət cəbhəsinə Məhəmməd Hüseyn mollabaşı və Rəhim xan həkimbaşı rəhbərlik edirdilər. Bu arada qiyam etmiş Dağıstan əmirləri Şirvan bəylərbəyliyinə hücum edib qətl-qarət törətdilər. Bu hadisə Dağıstaninin mövqeyini daha da zəiflətdi. Onun guya kürd əmirləri ilə əlbir olub hakimiyyəti ələ keçirmək istəməsi barədə şaha məlumatlar ötürüldü. Şah Sultan Hüseyn vəzirin xəyanəti barədə deyilənlərə inanıb onu hakimiyyətdən uzaqlaşdırdı və ağır şəkildə cəzalandırılmasını əmr etdi. Fəthəli xan Dağıstaninin var-dövlətinin yerini öyrənmək üçün gözlərini çıxarıb işgəncəyə məruz qoydular. Deyilənlərə görə, Şah Sultan Hüseyn sonralar öz vəzirinin günahsız olduğunu anlamış və

peşman olmuşdu. Dağıstaninin Şiraz şəhərində həbsdə öldüyünü, yaxud əfqanların İsfahana hücumu zamanı həlak olduğunu yazırlar.

Fətəli xan Dağıstanidən sonra Məhəmmədqulu xan Şamlu baş vəzir olmuşdur. Fətəli xan yaxın qohumlarını bütün Səfəvilər dövlətinin ərazisində yüksək vəzifələrə təyin etmişdi. Bu sülalənin nümayəndələri XVIII əsrin ilk rübündə Şirvan, Kuhgiluyə, Astarabad və Fars bəylərbəyliklərini idarə etmişlər. Belə ki, Fətəli xanın qardaşı Aslan xan əvvəlcə Kuhgiluyə, sonra Astarabad hakimi, onun oğlu Məhəmməd xan Herat bəylərbəyliyinin vəziri idi. Fətəli xanın digər qardaşı Kəlbəli xan Şüştərdə hakimiyyət sürürdü, onun vəfatından (1717) sonra oğlu Mehrəli xan yerinə keçdi. Baş vəzirin daha bir qardaşı Məhəmməd xan əvvəlcə Məşhəd hakiminin *vəkili* idi, 1714-cü ildə *sipəhsalar* (ordu baş komandanı) məqamını tutdu. Fətəli xanın qardaşı oğlu Həsənəli xan (vəf. 1721) Şirvan bəylərbəyi kimi mənbələrdə qeyd edilmişdir. Onun yaxın qohumu Məhəmməd Əli xan sipəhsalar (ordu baş komandanı) və İrəvan hakimi vəzifəsində xidmət etmiş, 1716-cı ildə öldürüldükdən sonra onun yerinə oğlu keçərək, üstəlik Gürcüstan valisi və Azərbaycan (Təbriz) bəylərbəyi mənsəblərinə də yiyələnmişdi. Baş vəzir öz kürəkəni (həm də qardaşı oğlu) Lütfəli xana Fars bəylərbəyliyini və sipəhsalarlığı vermişdi. Fətəli xan baş vəzir olduqdan sonra onun keçmiş vəzifələri (qullarağası mənsəbi və Kuhgiluyə hakimliyi) qeyri-türk mənşəli Səfiqulu bəyə verilmişdi. Bu iki dövlət adamı birbiri ilə yola getmir, sərvət və güc sarıdan yarışırdılar. Tezliklə baş vəzir rəqibinin vəzifələrini əlindən alıb öz qohumlarına (Hüseynqulu (və ya Rüstəm) xan və Gəda Əli xan) ötürdü.

FƏTHƏLİ XAN QOVANLU-QACAR (vəf. 1726) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. Atası Şahqulu xan *Qacar* tayfasının *Qovanlu* oymağından və Astarabad bölgəsində, Gürgan çayının aşağı sahilində məskunlaşmış Aşağıbaş Qacarlarından idi. Fətəli xan XVIII əsrin əvvəllərində öz hərbi karyerasını qurmağa başladı, Şah Sultan Hüseyndən əvvəlcə sultan, daha sonra xan titulunu aldı. Şahın əmri ilə o, 1720-ci ildə Xorasanda hakimiyyət sürən və özünü şah elan edən Məlik Mahmud Sistaniyə qarşı hücuma keçdi, amma məğlub olub Astarabada çəkildi. İsfahanın əfqanlar tərəfindən mühasirəsi və fəthi zamanı Fətəli xan hərbi əməliyyatlarda fəal iştirak etməmişdir.

İsfahanı tərk etdikdən sonra özünü şah elan etmiş II Təhmasiblə Fətəli xanın münasibətləri bu arada xeyli gərginləşdi, hətta arada silahlı toqquşmalar baş verdi. Lakin Fətəli xan gələcək planlarını həyata keçirmək üçün şahla barışmağın ona daha çox faydalı olduğunu anlayaraq ilk addımı atdı. Şah da Qacar tayfasının yardımını qazanmaq üçün Astarabada gəlib Fətəli xanı baş vəzir təyin etdi, ona "Etimad əd-dövlə" (Dövlətin güvənc yeri) və "Vəkil əd-dövlə" (Dövlətin vəkili) fəxri ləqəblərini verdi.

II Şah Təhmasib əfqanların öhdəsindən

asanlıqla gələ bilməyəcəyini başa düşürdü, buna görə də itirilmiş hakimiyyəti əlinə almaq üçün əvvəlcə daha zəif rəqibi – Məlik Mahmud Sistanini aradan götürmək qərarına gəldi. II Şah Təhmasib və Fəthəli xan 1726-cı ildə Qacar tayfasının döyüşçülərindən ibarət bir neçə minlik qoşunun başında Xorasan istiqamətində yürüşə çıxdılar. Məşhəd yaxınlığında *Nadir xan Əfşar* da öz dəstəsi ilə onlara qoşuldu. Nadir xan və Fəthəli xan üstünlüyü ələ keçirmək və şahı öz təsiri altına almaq uğrunda rəqabətə girişdilər. Nadir xan bu mübarizədə qalib gəldi. Rəvayətə görə, o, Fəthəli xanın adından Məlik Mahmud Sistaniyə müttəfiqlik təklif edilən saxta məktub hazırlamış və həmin məktubun şahın əlinə keçməsini təşkil etmişdi. II Şah Təhmasib məktubda yazılanlara inanıb Fəthəli xanın öldürülməsini əmr etmişdi. 1726-cı ilin oktyabrında Fəthəli xan edam olundu. Bəzi məlumatlara görə, Nadir xan onun öldürülməsini deyil, həbsini məsləhət görmüş, amma onun xəbəri olmadan şah Fəthəli xanı öldürtmüşdü.

Fəthəli xandan sonra oğlu Məhəmməd Həsən xan (vəf. 1759) Qacar tayfasının başçısı olmuş, Nadir şahla, onun qətlindən sonra Zəndi sülaləsi ilə hakimiyyət uğrunda mübarizə aparmışdır. Qacarlar dövlətinin banisi Ağa Məhəmməd şah Qacar Məhəmməd Həsən xanın oğludur.

GƏNCƏLİ XAN ZİG (vəf. 1624/25) – Səfəvilər zamanında yaşamış görkəmli sərkərdə və dövlət xadimi. Kürd mənşəli Zig tayfasına mənsub idi. Şahzadə Abbas Mirzə (gələcək I Şah Abbas) Heratda ikən Gəncəli xan burada onun tabeliyi altında xidmətə başlamışdı. O vaxtdan Gəncəli xanla Abbas Mirzə arasında dostluq və bağlılıq yaranmışdı, şahzadə onu "baba" (ata) adlandırırdı.

I Şah Abbası hakimiyyətə gəlməzdən əvvəl saray intriqalarından və düşmən tayfalardan qoruyan şəxslərin ön sırasında Gəncəli xan dururdu. Buna görə I Şah Abbas onun xidmətlərini unutmamış, 1596-cı ildə onu Kirmana hakim təyin etmişdi. Getdikcə Gəncəli xanın tabeliyində olan ərazilərin sahəsi genişlənmiş, Sistan, Bəlucistan, daha sonra Qəndəhar (1622-ci ildən) da onun ixtiyarına keçmişdi. Gəncəli xan I Şah Abbasın zamanında Səfəvi ordusunun ən güclü sərkərdələrindən biri sayılırdı, müxtəlif cəbhələrdə hərbi əməliyyatlar aparır və qələbələr qazanırdı. O, fərqli zamanlarda Xorasanda özbəklərlə, Gürcüstanda üsyankar gürcü əyanları ilə, Azərbaycanda Osmanlı ordusu ilə döyüşmüşdür. Onun başçılıq etdiyi Kirman qoşunu bir çox döyüşdə həlledici rol oynamışdır. Gəncəli xan öz tabeliyi altındakı torpaqlarda sabitliyi uğurla qoruyur, üsyanları vaxtında yatırırdı. Kirman hakimi fəal şəkildə tikinti-abadlıq işləri aparmağı da unutmurdu. Kirman şəhərinin mərkəzindəki iri meydan və Gəncəli xan kompleksi onun quruculuq fəaliyyətinin göstəricisidir. Buna görə də I Şah Abbas Gəncəli xana çox etibar edirdi, 1606-cı ildə saraya daxil olmuş bir şikayəti araşdırıb Kirman hakiminin təqsirsiz olduğunu biləndən sonra şahın ona etibarı daha da artmışdı.

Gəncəli xan 1624/25-ci illərdə Qəndəhardakı mülkünün eyvanında yatdığı zaman eyvan uçulmuş və o, hündürlükdən yıxılaraq ölmüşdür. Cənazəsini oğlu *Əlimərdan bəy* Məşhədə apararaq orada dəfn etdi. Gəncəli xandan sonra oğlu Əlimərdan bəyə xan rütbəsi verildi və Qəndəhar hakimliyinə təyin edildi. I Şah Abbas Əlimərdan xana atasının xatirəsinə ehtiram olaraq "Babayi-sani" (İkinci ata) ləqəbini vermişdi.

GÖKÇƏ SULTAN (vəf. 1555) – görkəmli qızılbaş əmiri. *Qacar* tayfasının yetirməsi idi. I Şah Təhmasibin zamanında Gökçə sultan bir müddət Van qalasının hakimi olmuş, daha sonra Şirvan ərazisində üsyankar *Əlqas Mirzəyə* qarşı mübarizə aparmışdır. Əlqas Mirzənin məğlubiyyətindən sonra I Şah Təhmasib Şirvan hakimliyini öz oğlu İsmayıl Mirzəyə (gələcək II Şah İsmayıl) verərək Gökçə sultanı onun lələsi təyin etdi. Gökçə sultan İsmayıl Mirzənin rəhbərliyi altında Şirvandakı üsyançıların qalıqlarını darmadağın etmiş, Qars qalasındakı Osmanlı qarnizonunu məhv edərək qalanı ələ keçirmişdi. O, bir müddət Qarabağ bəylərbəyi vəzifəsində də xidmət etmişdir. Gökçə sultan Gürcüstan üzərinə hərbi yürüşlərdə fərqlənmiş, Nişapur hakimliyinə layiq görülmüş, nəhayət, 1555-ci ildə Yaka türkmanlarının başçısı Aba xan Oxlu və Xarəzm hakimi özbək Əli sultana qarşı döyüşdə həlak olmuşdur.

Bəzi mənbələrə görə, ilk Qarabağ bəylərbəyi I Şah Təhmasib tərəfindən təyin edilmiş Gökçə sultan Qacar olmuşdur. Lakin hələ 1508-ci ildə I Şah İsmayıl *Qara Piri bəy Qacarın* oğlu Rüstəm bəyi Qarabağ bəylərbəyi təyin etmişdi.

HALVAÇIOĞULLARI – qızılbaş əmirləri ailəsi. *Təkəlü* tayfasına mənsub bu ailənin üzvləri Səfəvilər dövlətinin quruluş mərhələsində mühüm rol oynamışlar. Bəzi tədqiqatçılar bu ailəni *Bayburtlu* və ya *Ustaclu* tayfasına aid bilmişlər.

Saray mətbəxində şirniyyat hazırlanması işinə nəzarət edən şəxsə halvaçı deyilirdi. Bu nəslin ilk nümayəndəsi olaraq mənbələrdə adı çəkilən İlyas bəyin "Halvaçıoğlu" adlandırılması onun atasının ilk Səfəvilər zamanında, yaxud Ağqoyunlu sarayında bu vəzifədə qulluq etməsi ilə bağlı ola bilər. Sonralar həmin nəslin digər nümayəndələri də bu ləqəbi daşımışlar.

Mənbələrdə Halvaçıoğlu kimi təqdim edilən ilk şəxs *İlyas bəy Halvaçıoğludur*. O, I Şah İsmayılın zamanında *ovçubaşı* təyin olunmuş, döyüşlərdə fəal iştirak edərək şücaət göstərmişdir.

İlyas bəyin oğlu *Həsən (və ya Hüseyn) bəy Halvaçıoğlu* xidməti pillədə uğurla irəliləyərək *çərxçibaşı*, *eşikağasıbaşı* naibi, *əmirşikarbaşı* və *söhbət yasavulu* mənsəblərinə yiyələnmişdi. *Çaldıran savaşı* ərəfəsində o, Təbriz hakimi idi.

Halvaçıoğulları nəslindən olan gənc Yaqub bəy Luristan döyüşlərində (1508) fərqləndiyinə görə birbaşa *sultan* rütbəsi ilə təltif edilmişdi.

Halvaçıoğulları nəslinin nümayəndəsi Həsən bəy II Şah İsmayıl Səfəvinin yaxın ətrafından sayılırdı, şah 1577-ci ildə onun evində dünyasını dəyişmişdir.

HATƏM BƏY ORDUBADİ (vəf. 1610) – XVII əsrdə yaşamış azərbaycanlı ədib və Səfəvi dövlətinin yüksək rütbəli məmuru. Məşhur alim Xacə Nəsirəddin Tusinin nəslindən idi. Atası *Məlik Bəhram* Ordubad şəhərinin darğası idi. Hatəm bəy əvvəlcə Kirman hakiminin yanında xidmətə başlamış, sonra I Şah Abbasın zamanında paytaxta köçmüşdür. Şah onu əvvəlcə *mustovfi əl-məmalik*, altı aydan sonra vəziri-əzəm (baş vəzir) vəzifəsinə təyin etmişdir (təqr. 1592-ci il). Hatəm bəy Ordubadi sarayda "Etimad əd-dövlə" (Dövlətin etimad etdiyi şəxs) ləqəbini daşıyırdı. O, dövlət işlərində düzgün və məsuliyyətli, ətrafındakılarla mehriban, səxavətli və xeyirxah insan kimi tanınırdı. Gözəl təbi vardı, "Safi" təxəllüsü ilə şeirlər yazırdı. *Şeyx Bəhaidən* astronomiya dərsi almışdı. Şeyx Bəhai fars dilində yazdığı "ət-Töhfət əl-Hatəmiyyə" risaləsini ona ithaf etmişdi. Urmiya şəhəri yaxınlığında gözlənilmədən vəfat etmiş, Məşhəddə dəfn olunmuşdur.

Hatəm bəyin vəfatından sonra oğlu *Əbu Talib xan* onun yerini tutmuş və 10 il müddətində I Şah Abbasa vəzirlik etmişdir.

Hatəm bəyin qardaşı Ədhəm bəy də 1609/10-cu illərdə Şirazda vəfat etmişdir.

HƏSƏN BƏY HALVAÇIOĞLU – qızılbaş sərkərdəsi. *Təkəlü* tayfasından *ovçubaşı İlyas bəy Halvaçıoğlunun* oğludur. O, hələ I Şah İsmayılın hakimiyyəti zamanından döyüşlərdə fərqlənməyə başlamışdı. Həsən bəy Luristan hakimi *Məlikşah Rüstəmin* üzərinə göndərilən qoşunun 5 minlik *çərxçi* bölümünə başçılıq edirdi. 1510-cu ildə *Şeybani xana* qarşı hərbi əməliyyatlarda da o, Səfəvi qoşununun çərxçilərinin sərkərdəsi idi. Həsən bəy Halvaçıoğlu xidməti pillədə uğurla irəliləyərək növbə ilə *eşikağasıbaşı* naibi, *əmirşikarbaşı* və *söhbət yasavulu* mənsəblərinə yiyələnmişdi.

bax: **HALVAÇIOĞULLARI.**

HƏSƏN BƏY (vəf. 1524) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. XVI əsrin əvvəllərində *Şirvanşahlar dövləti* Səfəvilərə tabe edildikdən sonra hələ də öz varlığını qoruyub saxlayırdı. Şirvanşahlar dövlətinin inzibati bölgələrində Səfəvi şahının təyin etdiyi valilər hökm sürürdü. I Şah İsmayılın dövründə Şəki valisi Həsən bəy idi. O dövrdə gürcü Kaxeti çarı I Levan (1518-74) mütəmadi olaraq Şəkiyə yürüşlər edib qətl-qarət törədirdi. I Şah İsmayıl Həsən bəyin xahişi əsasında qızılbaş qoşunu göndərərək Şəkinin gürcülərdən müdafiəsini təşkil etmişdi.

I Şah İsmayıl ömrünün sonlarına yaxın Şirvan torpaqlarına ova getmiş, Şəki vilayətində, Şahdağın ətəklərində bir neçə gün qalaraq əylənmişdi. Bu zaman Şəki hakimi Həsən bəy çoxlu hədiyyə ilə şahın pişvazına çıxaraq onu qarşılamışdı. I Şah İsmayıl ovu bitirib Təbrizə sarı istiqamət alan kimi Kaxeti çarı I Levan yenidən Şəkiyə hücum etmişdi. Şəkinin müdafiəçiləri ilə gürcü qoşunu arasında şiddətli döyüş baş vermiş, bu döyüşdə Həsən bəy həlak olmuşdu. Onu Daşyüz adlı yerdə dəfn etmişlər, hazırkı Cəfər-

abad kəndi yaxınlığında yerləşən Həsən sultan adlı ərazinin by yer olduğu ehtimal edilir.

Həsən bəyin ölümündən sonra yerinə oğlu *Dərviş Məhəmməd xan* Şəki hakimi seçilmişdi.

HƏSƏNƏLİ XAN DAĞISTANİ (vəf. 1721) – Səfəvi hakimiyyətinin son mərhələsində yaşamış qeyri-türk (ləzgi) mənşəli dövlət xadimi. Səfəvilər dövlətinin baş vəziri *Fətəli xan Dağıstaninin* qardaşı oğludur. Həsənəli xan 1718-ci ildə Şah Sultan Hüseyn tərəfindən Şirvan bəylərbəyi və Şamaxı hakimi təyin edilmiş, bu vəzifədə olduğu müddətdə ardıcıl olaraq Dağıstan və Gürcüstanda baş verən narazılıqları yatırmağa çalışmışdır. Özünün tənəzzül dövrünü yaşayan Səfəvilər dövləti bölgələrdə bir-birinin ardınca qopan üsyanları nizamlamaq gücündə deyildi. Ləzgilər Həsənəli xanın göndərdiyi qoşunu Şəki bölgəsində məğlub etdilər. Bəylərbəyi özü şəxsən qoşunun başında üsyançıların üzərinə yeridi, lakin Şəki bölgəsində baş vermiş döyüşdə öldürüldü.

HÜSEYN BAYQARA (1438-1506) – Teymuri hökmdarı, hakimiyyətinin son illəri I Şah İsmayılın hakimiyyəti dövrü ilə üst-üstə düşür. Sultan Hüseyn Bayqara valideynləri tərəfdən Əmir Teymurun nəslindən idi. Mükəmməl təhsil almış, mədrəsədə gələcəyin məşhur şairi Əlişir Nəvai ilə birlikdə oxumuşdu. Hüseyn Bayqara gənc yaşlarından güclü Teymuri əmirlərinin xidmətində olmuş və hakimiyyət pilləsi ilə yüksəlməyə çalışmışdı. Uzun müddət Teymurilər dövlətinin varisi Əbu Səidlə mübarizə aparmış, dəfələrlə məğlub olmasına baxmayaraq, mübarizəni israrla davam etdirmişdi. Əbu Səidin vəfatından (1469) sonra Herat şəhərini ələ keçirmiş və burada hakimiyyət sürməyə başlamışdı. Müsəlman Şərqinin uzun hakimiyyət sürmüş hökmdarlarından olan Sultan Hüseyn Bayqara XVI əsrin ikinci yarısında Xorasan vilayətinin ən güclü hakimi idi.

Xasiyyətcə həlim, şeir və sənətə meyilli, amma eyni zamanda döyüş meydanında şücaətli olan Bayqara tələbəlik yoldaşı Əlişir Nəvaini özünə vəzir təyin etmiş və onun məsləhətlərinə əməl etməyə çalışmışdır. Sultan Hüseynin Heratdakı sarayı elm və sənət mərkəzi sayılırdı, burada o dövrün ən istedadlı şair və ədibləri, rəssam və xəttatları yaşayıb-yaradırdılar. Səfəvilər zamanında Təbriz miniatür məktəbi yaranmazdan əvvəl Herat rəssamları Şərq miniatür sənətində aparıcı mövqe tuturdular. Səfəvilər dövlətində fəaliyyət göstərmiş sənətkarların bir qismi XVI əsrin əvvəllərində Heratın süqutundan sonra köçüb gələnlərdən ibarət idi. Sultan özü də "Hüseyni" təxəllüsü ilə şeirlər yazırdı, *divan* tərtib etmişdi.

Sultan Hüseyn Bayqara qərb qonşusu Səfəvilərlə sülh şəraitində yaşamağa çalışır, açıq konfliktlərdən çəkinirdi. I Şah İsmayılla onun arasında münasibətlər normal səviyyədə idi. İlk Səfəvi mənbələrində I Şah İsmayılla Bayqaranın birbirinin hüzuruna diplomatik nümayəndə heyətləri göndərmələri barədə məlumat-

lar mövcuddur. "Aləmarayi-Səfəvi" kitabında şahın Hüseyn Bayqaraya göndərdiyi məktubda ona "ata" deyə müraciət etməsi qeyd olunmuşdur.

Sultan Hüseyn Bayqara 1506-cı ildə vəfat etmiş, oğulları Bədiüzzaman Mirzə və Müzəffər Hüseyn onun yerinə keçmişlər. Lakin bir ildən sonra *Məhəmməd xan Şeybani* Herata hücum edərək onların hakimiyyətinə son qoydu.

Bədiüzzaman Mirzə bundan sonra Səfəvilər dövlətində özünə sığınacaq tapdı və I Şah İsmayıl tərəfindən hörmətlə qarşılandı. Lakin sonralar şahla münasibətləri korlandığı üçün Bədiüzzaman Mirzə Təbrizdə həbs olundu. *Çaldıran savaşından* sonra Təbrizə gələn I Sultan Səlim onu həbsdən azad etdi, sultan Təbrizi tərk edəndə isə Bədiüzzaman Mirzə də ona qoşulub Osmanlı dövlətinə getdi.

HÜSEYN BƏY LƏLƏ ŞAMLU (vəf. 1514) – görkəmli qızılbaş əmiri, sərkərdə və dövlət xadimi. *Şamlu* tayfasına mənsub olmuş, *Şeyx Heydərin* zamanında qızılbaş hərəkatına qoşulmuşdur. Bəzi məlumatlara görə, Şeyx Heydərin qızlarından (I Şah İsmayılın bacılarından) biri ilə evlənmişdir. Hüseyn bəy Lələ I Şah İsmayılın uşaqlıq dövründən onun ən yaxın ətrafında yer tutmuş, yeddi nəfər ən sadiq qızılbaş əmirindən *(əhli-ixtisas)* biri olmuşdur. I Şah İsmayılın *lələsi* (tərbiyəçisi) olduğu üçün "Lələ" ləqəbi ilə məşhurdur. Hüseyn bəy I Şah İsmayılın şəxsiyyətinin formalaşmasında mühüm rol oynamışdır. O, mənəvi ustad olmaqla yanaşı, bacarıqlı döyüşçü idi və Səfəvilər dövlətinin qurulma mərhələsində baş vermiş döyüşlərdə fəal iştirak etmişdi. Hüseyn bəy Şeyx Heydərin ölümü ilə nəticələnmiş Tabasaran savaşında (1488) qızılbaş qoşununun sol cinahına başçılıq etmiş, Ağqoyunlu Baysunqur Mirzəyə qarşı döyüşdə (1493) I Şah İsmayılın böyük qardaşı *Sultan Əli Mirzə* ilə Ağqoyunlu Rüstəm padşahın müttəfiq qoşununun sağ cinahının sərkərdəliyini öhdəyə almışdı. O, əvvəlcə Şeyx Heydərin göstərişi ilə Sultan Əli Mirzənin lələsi olmuş, daha sonra yetkinlik yaşına çatmış Sultan Əlinin göstərişi ilə İsmayılın lələsi təyin edilmişdi.

Hüseyn bəy I Şah İsmayılın zamanında Səfəvi ordusunun *Zülqədər bəyliyi*, İraq, Luristan istiqamətindəki yürüşlərinə, *Sarom xan Kürd* və *Şeybani xanla* döyüşlərə də sərkərdə qismində qatılmışdır. O, 1502-ci ildə Səfəvilər dövlətində şahdan sonra ən yüksək vəzifə olan *vəkil* mənsəbinə layiq görülmüşdü, yəni şahın tamsəlahiyyətli nümayəndəsi idi. Digər qızılbaş əmirlərindən fərqlənmək üçün ona *əmir əl-ümərа* (əmirlər əmiri) rütbəsi verilmişdi. Yəzd şəhərinin idarəçiliyi və sarayda *divanbəyi* vəzifəsi də ona həvalə olunmuşdu. Lakin sonralar I Şah İsmayıl vəkil və əmir əl-ümərа vəzifələrini ondan aldı. 1507-ci ildə *Əmir Nəcm Rəşti* vəkil təyin edildi, 1509-cu ildə isə Məhəmməd bəy Ustacluya *(Çayan sultan) sultan* rütbəsi və əmir əl-ümərалıq mənsəbi həvalə olundu. Hüseyn bəyə şah tərəfindən bağışlanmış mülklər və nökərlər də geri alınıb Çayan sultana verildi. Şahda öz ustadına qarşı

mənfi münasibətin yaranmasının səbəbi barədə mənbələrdə məlumat yoxdur.

Hüseyn bəy Lələ ilə yanaşı *əhli-ixtisasdan* olan *Abdal bəy Dədə Zülqədər* də əmir əl-üməra vəzifəsini daşıyırdı. Bu iki şəxsin taleyi arasında müəyyən oxşarlıq vardır. Onlardan biri şahın *lələsi* (dünyəvi məsələlər üzrə tərbiyəçisi), digəri isə *dədəsi* (təriqət ustadı) idi. 1511-ci ildə Şeybani xan üzərində qələbədən və Xorasanın fəthindən sonra Hüseyn bəyə bu vilayətin mühüm şəhərlərindən olan Herat, Abdal bəy Dədəyə isə Mərv etibar edilmişdi. Lakin onların hər ikisi özbəklərin hücumu qarşısında davam gətirməmiş, tabeliklərindəki şəhəri təslim edib geri çəkilmişdilər. Əslində Xorasanda vəziyyət vəkil Nəcmi-saninin başçılığı altında böyük qızılbaş ordusunun özbək hökmdarı Übeydullah xan tərəfindən darmadağın edilməsindən (1512) sonra pisləşmişdi. Özbəklər Heratı iki dəfə mühasirəyə almış, birinci dəfə iki aylıq cəhddən sonra şəhəri ələ keçirməkdən ümidlərini üzüb geri qayıtmış, amma tezliklə yenidən mühasirəni bərpa etmişdilər. Bu dəfə Hüseyn bəy qaladakı ərzaq ehtiyatının tükəndyini görüb təslim olmuşdu. Hüseyn bəy Lələ ona etibar edilmiş şəhəri qorumamaqla bir daha I Şah İsmayılın gözündən düşmüşdü. Şah onu cəzalandırmasa da, bundan sonra ona məsuliyyətli vəzifə vermədi.

Bəzi mənbələrdə Hüseyn bəy Lələnin Şirvan bölgəsinə hakimlik etdiyi yazılıb. O zaman *Şirvanşahlar dövləti* hələ tam ləğv edilmədiyindən Hüseyn bəyin Şirvanşahlar dövləti ərazisindən kənardakı torpaqlarda hökm sürdüyü ehtimal olunur. Hüseyn bəy Şirvanda olmadığı zamanlarda onu xidmətçisi Şahgəldi ağa əvəz edirdi.

Hüseyn bəy Lələ *Çaldıran savaşında* iştirak etmişdir, amma əsas qoşun birliklərinin başçıları qismində onun adına rast gəlmirik. O, Çaldıran savaşında daha bir neçə görkəmli əmirlə birlikdə həlak olmuşdur (1514).

Hüseyn bəy Lələnin Həsən bəy adlı qardaşı olmuşdur, onun Ərdəbildə evi vardı. Hüseyn bəy Heratda hakim olarkən şəhəri tərk edəndə öz əmisi nəvəsi Musa sultan Şamlunu canişin qoyurdu.

HÜSEYN XAN ŞAMLU (vəf. 1534) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Şamlu* tayfasına mənsub olmuşdur. O, I Şah İsmayılın *təvaçıbaşısı* və yeznəsi olan *Əbdi bəy Şamlunun* oğlu, *Durmuş xanın* qardaşı idi. Durmuş xanın vəfatından (1525) sonra Hüseyn xan onun yerinə Herat hakimi təyin edildi. 1528/29-cu illərdə özbəklər Übeydullah xanın başçılığı altında Herata hücum etdilər, lakin Hüseyn xan qalanı möhkəmləndirdiyi üçün özbəklər uğur qazana bilmədilər. Heratın mühasirəsi 7 aydan artıq uzandı, axırda Übeydulah xan qalanı ələ keçirməkdən ümidini üzüb mühasirəni qaldırdı. Bu arada I Şah Təhmasib böyük ordu ilə gəlib özbəkləri məğlub etdi, Übeydullah xan qaçıb canını qurtardı. Şah öz ordusu ilə geri qayıtdıqdan sonra özbəklər yenə Heratı mühasirəyə aldılar. Bu dəfə qıtlıq üzündən azuqə olmadığından Hüseyn xan qalanı təslim etməyə məcbur oldu. Qızılbaş əsgərləri Heratı boşaldıb çıxdılar,

Hüseyn xan Şiraz şəhərinə getdi.
1531-ci ildə Şirazdan Təbrizə gələn Hüseyn xan şah tərəfindən səmimi qarşılandı. O, I Şah Təhmasibin bibisi oğlu olduğu üçün sarayda böyük nüfuz sahibi idi, bu nüfuzdan və Təhmasibin təcrübəsizliyindən istifadə edərək fəal şəkildə intriqalara qoşulur və hakimiyyəti öz əlində cəmləşdirməyə çalışırdı. Əyalət hakimi olmaqla razılaşmayan və sarayda, hakimiyyətin mərkəzində qərar tutmaq istəyən Hüseyn xan *Çuxa sultan* üçün ciddi təhlükə idi. 1531-ci ildə Çuxa sultan ona qarşı sui-qəsd hazırladı, lakin Hüseyn xan bunu öyrənib özü onun çadırına hücum etdi. Güclü müqavimət göstərməsinə, hətta özünü I Şah Təhmasibin çadırına çatdırıb orada müdafiə olunmasına baxmayaraq, Çuxa sultan öldürüldü. Onun oğlu Şahqubad xan və digər *Təkəlü* əmirləri üstünlüyü qoruyub saxlamağa cəhd etsələr də, buna nail olmadılar və şahın göstərişi ilə ağır şəkildə cəzalandırıldılar. Hüseyn xan I Şah Təhmasibi təkəlülər əleyhinə qızışdırıb bu tayfanı siyasət səhnəsindən silməyə nail oldu. Bundan sonra I Şah Təhmasib bibisi oğulları Hüseyn xan Şamlu ilə *Abdullah xan Ustaclunu* ordunun *əmir əl-ümərası* (baş komandan) təyin etdi, üstəlik, Hüseyn xan həm də şahın *vəkili* (tam səlahiyyətli nümayəndəsi) oldu. Hüseyn xan bundan sonra osmanlılara qarşı döyüşlərdə fəal iştirak etmişdir. Lakin o, yüksək vəzifələrə yiyələndikdən sonra hakimiyyətə həris, rəqiblərinə qarşı amansız bir şəxs olduğunu nümayiş etdirdi. I Şah Təhmasib 20 yaşına çatsa da, dövlətin faktiki başçısı Hüseyn xan sayılırdı, bütün məsuliyyətli qərarlar onun tərəfindən verilir, saray əyanlarının taleyi onun istəyi əsasında həll edilirdi. Bu vəziyyətlə barışa bilməyən I Şah Təhmasib Hüseyn xanı aradan götürməyi qərara aldı. Hüseyn xanın *Sam Mirzəni* hakimiyyətə gətirmək istəməsi barədə yayılan şayiələr də şahın ona olan münasibətinin pisləşməsində mühüm rol oynadı. 1534-cü ildə Hüseyn xan Şamlu I Şah Təhmasibin əmri ilə öldürüldü. Bundan sonra Şamlu tayfasının hörməti azaldı, bu tayfanın nümayəndələri bir-birinin ardınca vəzifədən götürüldülər.

HÜSEYN XAN ŞAMLU (vəf. 1618) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Şamlu* tayfasındandır. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında onun oğlu Həsən xanı Şamlu tayfasının *Abdullu* (Əbdüllü) oymağının nümayəndəsi və "adlı-sanlı əmir" kimi qeyd etmişdir.
Hüseyn xan 1598-ci ildə I Şah Abbasın əmri ilə Herata bəylərbəyi təyin olunmuş, 20 il Xorasan vilayətini uğurla idarə etmişdi. O, tabeliyindəki torpaqlarda asayişi qoruyur, üsyançıları cəzalandırırdı. Hüseyn xan Səfəvilər dövlətinin şimal-şərq sərhədlərini hədələyən özbəklərə qarşı bacarıqla müqavimət göstərir və onların hücumlarının qarşısını alırdı. Nəinki Xorasanda, bütün Səfəvilər dövlətində ağsaqqal kimi qəbul edilən Hüseyn xan qızılbaş əmirləri arasında böyük nüfuz sahibi idi. Dövlət sənədlərində və fərmanlarda onun adı "qədim qoca qulam" şəklində yazılırdı.

Hüseyn xan 1618-ci ildə qoca yaşlarında vəfat etmiş, Məşhəd şəhərində, İmam Rzanın (ə) hərəmində dəfn olunmuşdur. Ondan sonra mülkləri və Xorasan hakimliyi oğlu Həsən xana verildi. Həsən xan Şamlu şeir və sənət himayədarı idi, özü də şeir yazırdı, nəstəliq xəttinin mahir xəttatlarından sayılırdı. 1641-ci ildə Həsən xan vəfat etdikdə bu vəzifə onun oğlu Abbasqulu bəyə həvalə olundu. Həsən xan görkəmli şair və rəssam, "Mürtəza" təxəllüslü *Mürtəzaqulu xan Şamlunun* atasıdır.

Hüseyn xan Şamlunun digər oğlu Qazaq xan Xorasanın Maruçaq qalasının hakimi idi. O, bir dəstə cığatay tərəfindən xainliklə öldürülmüşdü.

HÜSEYN İSFAHANİ (vəf. 1523) – Səfəvilər zamanında fəaliyyət göstərmiş qeyri-türk (fars) mənşəli görkəmli dövlət xadimi. 1514-cü ildə *Çaldıran savaşında* öldürülmüş *Nizaməddin Əbdülbaqi Yəzdidən* sonra dövlətdə şahdan sonra ən yüksək məqam olan *vəkil* mənsəbinə təyin edilmişdi. Bundan əvvəl *Durmuş xan Şamlunun* vəziri kimi xidmət etdiyini yazırlar. Hüseyn İsfahaninin adı mənbələrdə Mirzə Kəmaləddin Şah Hüseyn İsfahani şəklində qeyd edilir.

İsfahaninin vəkil mənsəbinə layiq görülməsinin səbəbini bəzən bununla bağlayırlar: Çaldıran savaşından sonra I Şah İsmayılın xanımı *Taclu bəyim* yaralı halda döyüş meydanından çıxa bilir və düşmən əlinə keçməmək üçün bir müddət gizlənir. Bu zaman Sərabda düşərgə qurmuş şah həyat yoldaşının taleyi sarıdan çox nigaran imiş. Nəhayət, iki gündən sonra Təbriz ətrafında Hüseyn İsfahani Taclu bəyimi tapır, onlar əsas yolla deyil, daha təhlükəsiz olan Marağa tərəfdən Səraba doğru irəliləyirlər. Yolda şahın göndərdiyi Durmuş xan 300 süvari ilə onları qarşılayır və düşərgəyə gətirir. Taclu bəyimi sağ-salamat onun yanına gətirdiyi üçün I Şah İsmayıl Hüseyn İsfahanini öz vəkili təyin edir.

Mirzə Şah Hüseyn I Şah İsmayılın ən çox etibar etdiyi şəxslərdən idi, ona "Etimad əd-dövlə" (Dövlətin güvənc yeri) ləqəbini vermişdi. Sonrakı vəkillər və baş vəzirlər də ənənəvi olaraq bu ləqəbi daşımışlar. Dövlətin mülki və iqtisadi həyatı bütünlüklə İsfahaninin ixtiyarı altında cəmlənmişdi. Vəkil dövlət xəzinəsinə tam nəzarət edir, əyanların xəzinədən götürdükləri məbləğlərin təyinatı üzrə xərclənməsini izləyirdi. Dövlət idarəçiliyində ona tam sərbəstlik verilmiş, bütün vəzirlər, əmirlər və əyanlar ona tabe edilmişdi. Divanda müzakirə edilən bütün məsələlərdə onun da rəyi soruşulur və həlledici sayılırdı. Hətta bəzi məlumatlara görə, hərbi struktura aid kadr siyasəti də onun nəzarətinə verilmişdi. Mirzə Şah Hüseyn yalnız şahın qarşısında məsuliyyət daşıyır və yalnız ona hesabat verirdi.

Qeyri-türk mənşəli vəkilin bu qədər geniş səlahiyyətlərə sahib olması qızılbaş əmirlərin narazılığına səbəb olurdu. Üstəlik, vəkil bəzi qızılbaş əmirlərinin korrupsiya əməliyyatlarının üstünü açmışdı.

I Şah İsmayılın hakimiyyətinin sonlarına yaxın şahzadə Təhmasib Mirzənin lələsi və Herat hakimi *Əmir xan Mosullu-Türkmanın* adı ilə bağlı bir saray

intriqası vəkil Mirzə Şah Hüseynin ölümü ilə nəticələndi. Əmir xan Heratda *sədr* vəzifəsinə bir nəfəri təyin etmək üçün rüşvət almışdı, amma sədr vəzifəsi boş deyildi. Rüşvət aldığı şəxsi vəzifəyə gətirmək üçün Əmir xan hazırkı sədri özbəklərə casusluqda ittiham edib öldürdü. Öldürülən şəxsin atası vəkil Mirzə Şah Hüseynlə dost idi. I Şah İsmayıl hadisədən xəbər tutub Əmir xanı cəzalandıranda qızılbaş əmirləri günahı vəkildə gördülər. Belə bir şayiə yayıldı ki, fars millətindən olan vəkil qızılbaşları hakimiyyətdə sıxışdırır və hökmdarı onların əleyhinə qaldırır. Vəkilin araşdırmaları sayəsində xəzinədən oğurluq etməsinin üstü açılmış *əmiraxurbaşı* Şahqulu bəy Türkman bu şayiələri yayır və qızılbaş əmirlərində vəkilə qarşı nifrət yaradırdı. Deyilənlərə görə, vəkilin aradan götürülməsi planını şahın bacısı oğlu Durmuş xan Şamlu da dəstəkləmişdi. Bundan bir qədər əvvəl Durmuş xanla keçmiş vəziri arasında münasibətlərin gərginləşdiyini, Hüseyn İsfahaninin təqdimatı əsasında Durmuş xanın saraydan uzaqlaşdırılıb Herata hakim göndərildiyini, buna görə də Durmuş xanın bu qətli dəstəklədiyini yazırlar. 1523-cü ildə vəkil Mirzə Şah Hüseyn İsfahani bir qrup qızılbaş əmiri tərəfindən öldürüldü. Bu, Səfəvilər dövlətində türklərlə qeyri-türklər arasında qarşıdurma və rəqabətin ilk ciddi təzahürü hesab edilir. I Şah İsmayıl Mirzə Şah Hüseynin oğlunu onun yerinə vəkil və baş vəzir vəzifəsinə gətirmək istədikdə o, şaha yalvararaq qızılbaşların intiqamından qorxduğu üçün bu vəzifənin ona verilməməsini xahiş etmişdi.

Vəkilin qətli I Şah İsmayıla çox ağır təsir etmişdi. Deyirlər ki, o, ölənədək Şahqulu bəy Türkmana qarğış edirmiş. Şah özündən sonra oğlu Təhmasib Mirzənin də vəkilliyini və himayəsini Mirzə Şah Hüseynə tapşırmaq fikrində idi. Onun qətlindən sonra konkret seçim imkanı qalmadığı üçün şah *Div sultan Rumlunu* azyaşlı Təhmasibin qəyyumu elan etməli oldu.

Mirzə Şah Hüseynin vəfatından sonra *Xacə Cəlaləddin Məhəmməd Təbrizi* vəkil təyin edildi.

HÜSEYNQULU XƏLİFƏ RUMLU – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Rumlu* tayfasına mənsub idi. I Şah Təhmasib tərəfindən *xəlifət əl-xüləfa* vəzifəsinə təyin edilmişdi. Şahın təriqət məsələləri üzrə birinci dərəcəli müşaviri sayılan xəlifət əl-xüləfa Səfəvilər dövlətində kifayət qədər böyük nüfuz və güc sahibi sayılırdı. Əksəriyyəti hərbçilər təbəqəsində yer alan digər qızılbaş əmirlərindən fərqli olaraq, Hüseynqulu xəlifənin tabeliyində rəsmi hərbi dəstə yox idi, özü də fərqləndirici əlamət olan ələm (bayraq) və təbil sahibi deyildi. Amma Hüseynqulu xəlifəyə təkcə Qəzvin ətrafında 10 min nəfər *sufi* tabe idi, bununla da o, canlı qüvvə sarıdan bütün digər əmirlərin fövqündə dururdu. Hüseynqulu xəlifənin mövqeyi I Şah Təhmasibin vəfatından sonra kimin şah seçilməsində həlledici rol oynadı. Çünki paytaxtın ətrafında 10 min nəfərlik bir izdiham şah seçkisinin nəticələri barədə Hüseynqulu xəlifədən intizarla cavab

gözləyirdi. I Şah Təhmasibin oğulları *Heydər Mirzə* ilə İsmayıl Mirzədən (II Şah İsmayıl) hansı birinin hakimiyyətə gəlməsi məsələsində qızılbaş əmirləri iki cəbhəyə bölünmüşdü. Əsasən *Ustaclu* tayfasının nümayəndələri Heydər Mirzəni dəstəkləyirdilər, digər tayfaların arasında da onların tərəfdarları vardı. *Rumlu, Şamlu, Təkəlü* tayfalarının əksər əmirləri isə İsmayıl Mirzəni hakimiyyətə gətirmək niyyətində idilər. Belə bir şəraitdə Hüseynqulu xəlifə də ikinci dəstədə qərar tutmuşdu.

Lakin 1576-cı ildə hakimiyyətə gələn II Şah İsmayıl tezliklə öz qəddar simasını açıb göstərdi. O, hakimiyyətinə rəqabət yaradacağı ittihamı ilə Səfəvi sülaləsinin xeyli üzvünü öldürdü və ya kor etdi. Qurbanlardan biri də Hüseynqulu xəlifə oldu. Hüseynqulu xanın öz tabeliyindəki sufiləri onun əleyhinə qaldıra biləcəyi qorxusu şahı rahat buraxmırdı. Xəlifət əl-xüləfanı açıq şəkildə birdəfəyə öldürtməyin təhlükəli olduğunu anlayan II Şah İsmayıl belə bir plan qurdu: Hüseynqulu xana təklif edildi ki, xəlifət əl-xüləfalıq məqamından istefa verib şahın *vəkili* olsun. Lakin Hüseynqulu xan vəzifəsini əldən verməyə fikrində deyildi; o, şahın təklifini rədd edib dedi ki, xəlifəlikdən geri çəkilməyəcək. Şahla Hüseynqulu xəlifə arasında narazılıq yaranması qızılbaş əmirlərinə məlum olduqda hamı xəlifət əl-xüləfadan üz çevirdi, hətta onu saraya buraxmadılar. Hüseynqulu xəlifə günlərlə sarayın qapısında durub bağışlanmasını xahiş etdi. Axırda şah Məşhəddəki İmam Rza (ə) hərəminin idarəçiliyini ona verdiyini elan etdi. Təcili surətdə Hüseynqulu xanı Qəzvindən çıxarıb Xorasan istiqamətində yola saldılar. Lakin Damğan şəhərində şahın əmri ilə xəlifəni saxladılar, az sonra Qəzvindən gələn cəllad onun gözlərini çıxardı. Hüseynqulu xanın vəzifəsi Bulqar xəlifəyə (Rumludan olması ehtimal edilir) verildi, lakin Bulqar xəlifə şahın məzhəbi mövzulara loyal münasibətini dəstəkləmədiyi üçün tezliklə kənarlaşdırıldı və Ustaclu tayfasından Dədə xəlifə onun yerini tutdu.

Hüseynqulu xəlifənin oğlu Məhəmməd bəy hərtərəfli istedad sahibi idi, şairliyi və rəssamlıq istedadı vardı, nəstəliq xətti ilə gözəl yazır, beşsimli tənburda ustalıqla ifa edirdi. O, I Şah Abbasın göstərişi ilə Osmanlı dövlətinə diplomatik səfər etmişdi.

XADİM BƏY XÜLƏFA (vəf. 1514) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. Milliyyətcə talış olan Xadim bəy *Şeyx Heydər* zamanında qızılbaş hərəkatına qoşulmuşdu. Şeyx Heydərin ölümündən sonra digər ilk qızılbaşlar kimi, şeyxin böyük oğlu *Sultan Əli Mirzənin* ətrafında birləşərək onunla eyni cəbhədə döyüşmüş, Sultan Əli öldürüldükdən sonra cənazəsini Ərdəbilə gətirib dəfn etmişdi. Xadim bəy I Şah İsmayılın uşaq yaşlarından yanında mövqe tutmuş və Səfəvilər dövlətinin qurulmasında yaxından iştirak etmiş yeddi qızılbaş əmirindən *(əhli-ixtisas)* biridir.

Xadim bəy I Şah İsmayılın zamanında *xəlifət əl-xüləfa* vəzifəsini yerinə yetirirdi. Şahın təriqət məsələləri üzrə baş məsləhətçisi, onunla qızılbaş sufilər ara-

sında əlaqələndirici rolunu ifa edən xəlifət əl-xüləfa sarayda böyük nüfuz sahibi idi. Bununla yanaşı, Xadim bəyə *divanbəyi* mənsəbi də verilmişdi. Şirvanın fəthində göstərdiyi fəallığa görə I Şah İsmayıl Bakı və ətraf ərazilərin hakimliyini ona tapşırmışdı. İraqın fəthindən (1508) sonra Bağdad bölgəsinin hakimliyi də ona həvalə olunmuşdu. Xadim bəyə "Xəlifət əl-xüləfa" (Xəlifələr xəlifəsi) və "Əbül-mənsur" (Qalibiyyət və zəfər sahibi) ləqəblərinin də o zaman verildiyini yazırlar. İraqda Xadim bəyin tabeliyi altında 12 min nəfər sufinin (qızılbaşın) mövcudluğu mənbələrdə qeyd edilmişdir.

Xadim bəy ömrünün sonunadək I Şah İsmayılın başçılıq etdiyi bütün iri döyüşlərə fəal şəkildə qatılmış, bəzi kiçik yürüşlərə sərkərdəlik etmişdir. 1503-cü ildə Ağqoyunlu Sultan Muradla döyüşdə qızılbaş qoşununun *çərxçi* (avanqard) bölümünə Xadim bəy Xüləfa ilə Mənsur bəy Qıpçaq başçılıq edirdilər.

Xadim bəy Xüləfa *Çaldıran savaşında* igidliklə döyüşüb həlak olmuşdur (1514).

Bəzi tədqiqatçılar I Şah İsmayılın həyat yoldaşı *Taclu bəyimi* Xadim bəy Xüləfanın qızı kimi təqdim etmişlər, lakin geniş yayılmış məlumata görə, Taclu bəyim *Mosullu* tayfasına mənsub idi, Xadim bəyin qızı isə *Bəhruzə xanımdır*.

XƏLİFƏ SULTAN – *bax:* **SULTAN əl-ÜLƏMA.**

XOSROV XAN (Rüstəm xan, vəf. 1658) – gürcü mənşəli Səfəvi dövlət xadimi. Baqrat(ioni) çarları sülaləsindən idi. Atası Kartli çarı Davud xan (XI David) İslam dinini qəbul etmiş, Səfəvilərin vassalı kimi 1569-78-ci illərdə hakimiyyət sürmüşdür. Xosrov xan Davud xanın Səfəvi sarayında yaşadığı dövrdə İsfahanda doğulmuş, *qulam* korpusunda xidmət keçmiş, İslamı qəbul etmişdir. O, 1618-ci ildə I Şah Abbas tərəfindən İsfahan darğası vəzifəsinə təyin olunmuşdur. (Ənənə üzrə İsfahan şəhərinin darğaları gürcü şahzadələri arasından seçilirdi). 1626-cı ildə o, *qullarağası* mənsəbinə gətirildi. Xosrov xan Osmanlılara qarşı İraqda aparılan hərbi əməliyyatlara qatılmış, rəqibi olan Undiladzelər nəslinin təsirinin aradan qaldırılmasına xidmət etmiş, Gürcüstanda *Davud xan Undiladzeyə* qarşı döyüşmüşdür. I Şah Səfinin tapşırığı əsasında adaşı, *sipəhsalar Rüstəm xan Saakadzenin* başçılıq etdiyi böyük Səfəvi qoşunu ilə birlikdə Gürcüstana yola düşmüş Xosrov xan orada Kartli çarlığının taxtına əyləşmişdi. Xosrov xan bütün hakimiyyəti dövründə Səfəvilərə sədaqətli olmuş, bölgədə Səfəvi nüfuzunu artırmağa çalışmış, hətta sarayında qızılbaş dövlət strukturuna məxsus idarəçilik sistemi qurmuşdur. Qum şəhərində dəfn olunmuşdur.

İBRAHİM XAN ZÜLQƏDƏR (vəf. 1558) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Zülqədər* tayfasının *Hacılar* oymağından "Keçəl" ləqəbli *İlyas bəy Zülqədərin* (vəf. 1505) oğlu idi.

1540-cı ildə Fars vilayətinin hakimi Qazı xan Zülqədər vəfat etdi və onun yerinə İbrahim xan həmin vəzifəyə gətiril-

di. İbrahim xan Zülqədər mərkəzi Şiraz şəhəri olan Fars bəylərbəyliyini uzun müddət idarə etmiş, bu müddətdə I Şah Təhmasibin əmri ilə bir neçə dəfə hərbi yürüşlərə qatılmışdır. Şahzadə *Əlqas Mirzə* mərkəzi hakimiyyətə qarşı üsyan qaldıanda İbrahim xan Zülqədər, Gökçə sultan Qacar və *Şahverdi sultan Ziyadoğlu-Qacar* qoşunla onun üzərinə yeriyərək Əlqas Mirzəyə tabe olan Şirvan torpaqlarında (o, Şirvanın ilk bəylərbəyi idi) asayişi bərpa etmişlər. Əlqas Mirzə tövbəsini pozub ikinci dəfə hərəkətə keçdikdə yenə İbrahim xan Zülqədər (şahzadə *Bəhram Mirzə* ilə birlikdə) onu cəzalandırmağa göndərilmişdi.

1558-ci ildə İbrahim xanın xidmət yeri dəyişdirilərək Astarabada hakim təyin edildi. (Şiraz hakimliyi onun həmtayfası Tatıoğlu Əli bəy Zülqədərə verildi). Lakin həmin il Yaka türkmanlarının başçısı Aba xan Oxlu Astarabad üzərinə hücum çəkdi. İbrahim xanın yardım xahişindən sonra şahın göstərişi ilə qızılbaş tayfalarından təşkil edilmiş qoşun Astarabada gəldi. Aba xan ilk döyüşdə məğlub olub geri çəkilsə də, qızılbaş sərkərdəsi *Şahqulu xəlifə Zülqədərin* xəstələnib ölməsindən sonra onun yerinə rəhbərlik etmiş *Bədr xan Ustaclu* qələbəni möhkəmlədə bilmədi. Qızılbaşlar növbəti döyüşdə Aba xana məğlub oldular, İbrahim xan Zülqədər öldürüldü.

I Şah Təhmasibin vəfatı ərəfəsində İbrahim xanın oğlu Mənsur bəy Xoy valisi, əmisi oğlu Məhəmməd xəlifə isə Astarabad hakimi idi. 1578-ci ildə Şah Məhəmməd Xudabəndə Məhəmməd xəlifəni Astarabad hakimliyindən azad edib Şirvan bəylərbəyliyini ona verdi.

Mənbələrdə İbrahim xanın qardaşı Cüneyd bəyin, oğulları Zeynal xan və *Yaqub xanın* də adları qızılbaş əmirlərinin cərgəsində çəkilir. Zeynal xan I Şah Təhmasib zamanında Xorasanın Cam bölgəsinin hakimi olmuş, özbəklərlə döyüşdə öldürülmüşdür. Yaqub xan isə I Şah Abbas tərəfindən Fars bəylərbəyi və Şiraz hakimi təyin edilmişdir.

İBRAHİM SULTAN ZİYADOĞLU-QACAR – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* qolundan *Şahverdi sultanın* oğlu. Atasının vəfatından (1568) sonra I Şah Təhmasibin əmri ilə Qarabağ və Gəncə bəylərbəyi və Arranın (Aran) *əmir əl-ümərası* təyin edilmişdi. İbrahim sultan təbil və bayraq sahibi idi, yəni tabeliyindəki hərbi qüvvənin çoxluğuna görə yürüşlər zamanı öz bayrağını qaldırmasına, səfər zamanı və sarayının qarşısında təbil vurdurmasına icazə verilmişdi. Təbil və bayraq sahibi olan əmirlər digər sıravi əmirlərdən daha üstün və nüfuzlu idilər. I Şah Təhmasib İbrahim sultanı öz oğlu *Əli Mirzənin lələsi* (tərbiyəçisi) təyin etmişdi. Bir müddətdən sonra I Şah Təhmasib İbrahim sultanı vəzifədən azad edərək qardaşı *Yusif xəlifə Ziyadoğlunu onun yerinə* Qarabağ bəylərbəyi və Əli Mirzənin lələsi təyin etdi. I Şah Təhmasibin vəfatı ərəfəsində xidmətdə olan əmirlərin siyahısında qeyd edilir ki, Yusif xəlifə Ziyadoğlu-Qacar hələ xidmət yerinə getməmişdi və Qəzvində, şah sarayında qalmaqda idi.

İLYAS BƏY AYQUT OĞLU XINISLU (vəf. 1503) – görkəmli qızılbaş əmiri. *Xınıslu (Xunuslu)* tayfasına mənsub idi. Məlum olduğu kimi, bu tayfanın içində qızılbaşlıq inancı hələ I Şah İsmayıldan əvvəl yayılmış və bəzi xınıslular hərbi-siyasi proseslərdə Səfəviləri dəstəkləmişdilər. İlyas bəy Ayqut oğlu *Şeyx Heydərin* zamanında qızılbaşlığı qəbul etmiş, daha sonra balaca İsmayılın yanında yer tutmuşdu. Buna görə o, Səfəvilər dövlətinin quruluş prosesində yaxından iştirak etmiş ilk yeddi qızılbaş əmirindən *(əhli-ixtisas)* biri olmaq etibarilə Səfəvilər tarixində xüsusi əhəmiyyətə malik fiqurlardan sayılır.

I Şah İsmayıl *Cabanı döyüşündə* Şirvanşah Fərrux Yasarın ordusunu məğlub etdikdən sonra 1501-ci ildə *Məhəmməd bəy Ustaclu* ilə İlyas bəy Ayqut oğlunu Şirvanşahlar dövlətinin ikinci iri şəhəri (Şamaxıdan sonra) olan Bakını fəth etmək üçün yollamışdı. 1503-cü ildə *Almabulağı döyüşündə* Ağqoyunlu Sultan Murad üzərində qələbə çaldıqdan sonra ələ keçirilmiş torpaqlar qızılbaş əmirlərinin arasında bölüşdürüləndə Rey bölgəsinin hakimiyyəti İlyas bəy Xınısluya həvalə edildi. Məhəmməd bəy Ustaclunu və İlyas bəyi digər əmirlərdən fərqləndirmək üçün I Şah İsmayıl onlara əmiri-əzəm (böyük əmir) rütbəsini verdi.

İlyas bəy Reyə çatanda Mazandaran diyarında hökm sürən *Əmir Hüseyn Kiya Çəlavinin* müqaviməti ilə qarşılaşdı. 12 min nəfərlik qoşunu olan Əmir Kiya bu qarşıdurmada üstünlüyü ələ aldı və İlyas bəy Vəramin qalasına çəkildi. Əmir Kiya qalanı ala bilməyəcəyini və açıq döyüşdə böyük itki verəcəyini anlayaraq hiyləyə əl atdı, İlyas bəy Ayqut oğlunu danışıq adı ilə qaladan çıxardı və Günbədi-kəbud adlı yerdə xəyanətlə öldürdü (1503). I Şah İsmayıl Əmir Kiyanı cəzalandırmaq və Ayqut oğlunun qisasını almaq üçün şəxsən bölgəyə qoşun çəkdi və bir-birinin ardınca qalaları fəth etdi. Əmir Kiya Çəlavi əsir düşüb elə İlyas bəyi öldürdüyü məkanda əzabəziyyət içində öldü.

İLYAS BƏY HALVAÇIOĞLU – görkəmli qızılbaş sərkərdəsi. *Təkəlü* tayfasına mənsub *Halvaçıoğulları* nəslinin ilk məşhur nümayəndəsi. Onun "Halvaçıoğlu" adlandırılması atasının ilk Səfəvilər zamanında, yaxud Ağqoyunlu sarayında bu vəzifədə qulluq etməsi ilə bağlı ola bilər. İlyas bəy Halvaçıoğlu *Şeyx Heydər* zamanından qızılbaşlıq mücadiləsinə qoşulmuş, onun vəfatından sonra övladlarının yanında olmuş, *Sultan Əli Mirzəyə*, daha sonra İsmayıla yardım etmişdir.

I Şah İsmayılla Ağqoyunlu Əlvənd Mirzənin qüvvələri arasında baş vermiş *Şərur döyüşündən* (1501) əvvəl hər iki tərəfin *çərxçi* (avanqard) hissələri qarşılaşmışdılar. Bu döyüşdə 5 min nəfərlik qızılbaş çərxçilərinə *Qara Piri bəy Qacarla* İlyas bəy Halvaçıoğlu başçılıq edirdilər. "Tarixi-Aləmarayi-Səfəvi"yə görə, daha yaşlı və təcrübəli olan Qara Piri bəy gənc İlyas bəyi ehtiyat dəstənin başında pusquda yerləşdirmiş, özü döyüşə atılmışdı. Həmin mənbədə Qara Piri bəyin Ağqoyunlu sərkərdəsi Osman

bəyin oğlu Məhəmməd bəy tərəfindən arxadan nizə ilə vurulub həlak olduğu qeyd edilir. İlyas bəy onun intiqamını alaraq həm qarşı tərəfin sərkərdəsi Osman bəyi, həm də onun oğlu Məhəmməd bəyi öldürüb başlarını şaha gətirdi.

1501-ci ildə I Şah İsmayıl dövlətin özülünü yaradarkən vəzifələri ətrafındakı sadiq qızılbaş əmirləri arasında bölüşdürmüş, İsa bəyi *əmirşikarbaşı* (ovçubaşı) təyin etmişdi. Hərbi yürüşə çıxarkən şah bəzən onu Təbrizdə öz yerinə canişin qoyurdu.

İlyas bəy Halvaçıoğlu Ağqoyunlu Sultan Murada qarşı *Almabulağı savaşında* (1503) iki min nəfərlik Qacar döyüşçülərindən ibarət olan çərxçi dəstəsinə başçılıq edirdi. Döyüşdən əvvəl isə o, 1500 nəfər döyüşçü götürərək gecə Ağqoyunlu qoşununun düşərgəsinə basqın etmiş və 20 döyüş topunu qənimət olaraq ələ keçirmişdi. Sonralar İlyas bəy Halvaçıoğlu I Şah İsmayıl tərəfindən Damğan vilayətinə hakim göndərildi.

İlyas bəyin oğlu *Həsən bəy Halvaçıoğlu* da görkəmli sərkərdələrdən idi.

İLYAS BƏY ZÜLQƏDƏR (vəf. 1504) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. I Şah İsmayılın hakimiyyətinin əvvəllərindən ona qoşulmuş və əmirlərin ön sıralarında qərar tutmuşdu. Keçəl İlyas bəy kimi tanınırdı. Artıq 1501-ci ildə baş vermiş *Şərur savaşında* o, qızılbaş qoşununun bölük başçılarından biri idi. Ağqoyunlu Sultan Murad üzərindəki qələbədən (1503) sonra I Şah İsmayıl fəth etdiyi Fars vilayətinin və Şiraz şəhərinin idarəçiliyini İlyas bəyə həvalə etdi. Lakin bir müddət sonra İlyas bəy şahın qəzəbinə düçar olaraq edam olundu. Onun hansı günah üzündən öldürülməsi barədə dəqiq məlumata mənbələrdə rast gəlinmir; ehtimala görə, o, tabeliyində olan şəxslərlə ədalətsiz davranışı barədə daxil olmuş şikayətlər əsasında edam edilmişdir. Bu hadisəyə baxmayaraq, Fars vilayətinin *Zülqədər* tayfasından olan əmirlər tərəfindən idarə edilməsi o vaxt ənənəyə çevrilmişdi.

Oğulları *İbrahim xan* və Cüneyd bəy, nəvələri Zeynal xan, *Yaqub xan* və Mənsur bəy də Səfəvilər dövlətində mühüm vəzifələrdə xidmət etmişlər.

İMAMQULU XAN UNDİLADZE (vəf. 1633) – Səfəvilər dövründə yaşamış görkəmli dövlət xadimi. Gürcü mənşəli *qullarağası Allahverdi xan Undiladzenin* oğlu, *Davud xanın* böyük qardaşıdır.

Atası Allahverdi xan Fars vilayətinin hakimi təyin edilən zaman İmamqulu xan da onunla birlikdə xidmət yerinə getmiş və Fars vilayətinin idarəçiliyində atasına yardım göstərmişdi. O, Allahverdi xanın rəhbərliyi altında hərbi əməliyyatlar yolu ilə Bəhreyn məntəqəsini portuqallardan alıb Səfəvi dövlətinə qatmışdı. I Şah Abbas ona Lar, Cəzirə və Bəhreyn əyalətlərinin hakimiyyətini vermişdi.

Allahverdi xanın vəfatından (1613) sonra İmamqulu xan I Şah Abbasın əmri ilə onun yerinə Fars vilayətinin hakimi təyin edildi. İmamqulu xan öz nüfuzuna görə digər əmirlərdən üstün idi. Əlində külli miqdarda sərvət toplamış, sayı on

minlərlə ölçülən böyük hərbi dəstə təşkil etmişdi. Qərb səyyahlarından biri onun illik gəlirinin 2 milyon ekyudan artıq olduğunu yazırdı. İmamqulu xan zərurət halında şaha 10 min nəfərlik qoşun göndərməyə vəzifəli idi, amma onun ixtiyarındakı real hərbi qüvvənin sayı bundan çox idi.

İmamqulu xanın səyləri nəticəsində gürcü millətindən olan xeyli şəxs dövlət xidmətində müxtəlif vəzifələrə təyinat almışdı. O cümlədən, oğlu Səfiqulu xan Lar vilayətinin hakimi idi.

1633-cü ildə I Şah Səfi dövlətin ən nüfuzlu əmiri olan İmamqulu xanı aradan götürdü. Bunun səbəblərini bir neçə amillə əlaqələndirirlər. Səbəblərdən biri İmamqulu xanın dövlət idarəçiliyində həddən artıq qüvvəyə və müstəqilliyə sahib olması idi, bu da şah üçün ciddi təhlükə yaradırdı. O dövrün salnamələrindən göründüyü kimi, İmamqulu xan iqtisadi və hərbi güc sarıdan, demək olar ki, şahla eyni səviyyəyə çatmışdı. Digər səbəb İmamqulu xanın kiçik qardaşı, Qarabağ bəylərbəyi *Davud xanla* bağlı idi Davud xan 1632-ci ildə öz qaynı Kaxeti çarı I Teymurazla birləşərək Gəncə və Bərdədə qətl-qarət törətdi və Araz çayının sahilinədək irəlilədi. O, erməni katolikosunun təhriki ilə İsfahan üzərinə yeriyib Səfəvi dövlətinə son qoymaq istəyirdi, amma təkbaşına buna cürət etməyib İmamqulu xana xəbər yolladı. Davud xanın planına əsasən, İmamqulu xan da tabeliyində olan 30 min nəfərlik qoşunla digər istiqamətdən həmlə edəcək və Səfəvi ordusu iki cəbhə arasında qalacaqdı. I Şah Səfinin bu plandan xəbər tutması İmamqulu xanı birdəfəlik aradan götürmək üçün ona bəhanə verdi. Şah İmamqulu xanı övladları ilə birlikdə İsfahana çağırdı. Paytaxta gəldikdən sonra İmamqulu xanın, oğulları Səfiqulu xan, Fəthəli bəy və Əliqulu bəyin boyunları vuruldu. Bundan sonra bir neçə gün ərzində İmamqulu xanın nəslindən olan 50-dən artıq şəxs öldürüldü və ya kor edildi (1633).

İmamqulu xanın qətlini oğlu *Səfiqulu xanın* ətrafında yaranmış şayiələrlə də bağlayırlar.

İmamqulu xanın nəslindən yalnız onun qız nəvəsi Cəfərqulu xan (Dağıstan hakimi Davud bəyin oğlu) amanda qalmış və sonralar II Şah Abbasın zamanında Astarabad hakimi təyin edilmişdir.

Maraqlıdır ki, İmamqulu xanın qətlini şahın əmri ilə onun iki kürəkəni (Davud bəy və *divanbəyi Əliqulu xan*) Kəlbəli bəy *eşikağasıbaşının* başçılığı altında icra etmişdilər.

İMAMQULU XAN QACAR (vəf. 1588) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Yıva* oymağına mənsub idi. II Şah İsmayıl 1576-ci ildə öz əmisi oğlunu öldürmüş *Peykər sultan Ziyadoğlu-Qacarı* yenicə təyinat aldığı Qarabağ bəylərbəyliyindən azad edib İmamqulu xana onun vəzifəsini verdi. Şah Məhəmməd Xudabəndə də İmamqulu xanı öz vəzifəsində saxladı.

İmamqulu xan bir neçə il boyunca Azərbaycan torpaqlarının osmanlılar tərəfindən işğalına qarşı mübarizədə iştirak etmiş, daha sonralar komandan kimi bu mübarizənin rəhbəri olmuşdur. 1578-ci

ildə osmanlıların Gürcüstana yolunu bağlamaq və gələcək işğalların qarşısını almaq üçün Çuxursəd bəylərbəyi *Məhəmmədi xan Toxmaq Ustaclu* qonşuluqdakı iki bəylərbəyiyə müttəfiqlik təklifi göndərdi. Qarabağ bəylərbəyi İmamqulu xan Qacar Azərbaycan (Təbriz) bəylərbəyi *Əmir xan Türkmandan* fərqli olaraq, uzaqgörənliklə davranıb təklifə müsbət cavab verdi. Çuxursəd və Qarabağ qoşunları birlikdə Osmanlı ordusunun qarşısını kəsməyə cəhd göstərdilər. Lakin Qars yaxınlığındakı *Çıldır məntəqəsində* baş vermiş döyüşdə qızılbaşlar məğlub oldular.

Çox keçmədən İmamqulu xanın da qatıldığı *Mollahəsən döyüşündə* qızılbaşlar osmanlıların müttəfiqi olan Krım tatarlarını ağır məğlubiyyətə uğradıb tatar sərkərdəsi Adil Gərayı əsir aldılar.

Şah Məhəmməd Xudabəndənin zamanında İmamqulu xan Qarabağ hakimi olmaqla yanaşı, həm də Şirvanın Osmanlı hücumundan müdafiəsinə başçılıq edirdi. O, bölgədəki Osmanlı sərkərdəsi ilə sazişə gedərək münaqişənin danışıqlar yolu ilə həllinə nail olmaq üzrə idi. Əldə olunmuş razılığa görə, Səfəvilər tərəfdən əvvəlcə Şahqulu sultan Təbətoğlu (Beytoğlu) Zülqədər Ərzuruma, daha sonra Heydər sultan Türkman Çabukun oğlu İbrahim xan İstanbula elçi qismində yola düşdülər. Lakin Azərbaycandakı Osmanlı paşaları arasında hökm sürən rəqabət üzündən danışıqlar pozuldu və İsmayıl xan 7 il müddətində İstanbulda saxlanıldı.

İmamqulu xan digər qızılbaş əmirləri ilə ittifaqda dəfələrlə Osmanlı qüvvələrinə qarşı döyüşmüş, bir neçə dəfə qələbə qazanmışdı. Təbriz şəhərinin mühasirəsi zamanı da İmamqulu xan və tabeliyindəki Qarabağ qüvvələri fərqlənmişdilər. İmamqulu xan 1588-ci ildə dünyasını dəyişmişdir.

İSA XAN ŞEYXAVƏND (vəf. 1632) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Məsum bəy Səfəvinin* nəvəsi, Astarabad hakimi Seyid bəyin oğlu. 1611-ci ildə İsa bəy yüzbaşı rütbəsindən yüksələrək *qorçubaşı* mənsəbinə təyinat aldı. O, I Şah Abbasın qızı *Zibeydə bəyimlə* ailə qurmuşdu. I Şah Səfi bu məsuliyyətli vəzifədə Səfəvi nəslinin nümayəndəsini saxlamağı öz hakimiyyəti üçün təhlükəli bilib onu aradan götürmək qərarına gəldi. *Şeyx Zahid Gilaninin* nəslindən olan saray məmuru Çıraq xan Zahidiyə İsa xan əleyhinə ifşaedici materiallar toplamaq tapşırıldı. İsa xan hakimiyyəti mənimsəmək barədə şirnikləndirici təkliflərə yox desə də, onun sözləri şaha əks formada çatdırıldı. 1632-ci ildə əvvəlcə İsa xan qorçubaşının oğulları, az sonra özü edam edildi, onun vəzifəsi və mülkləri isə qatili Çıraq xana verildi. Lakin Çıraq xan da bir ildən sonra edam cəzasına məhkum olundu və qorçubaşı vəzifəsinə Zülqədər tayfasının *Söklən* oymağından Əmir xan gətirildi. İsa xan Kərbəlada dəfn edilmişdir.

İSMAYILQULU XAN ŞAMLU (vəf. 1587) – görkəmli qızılbaş əmiri və Səfəvi dövlət xadimi. *Şamlu* tayfasının *Avcı* oymağından Vəli xəlifə Avcının oğlu idi. Atası Vəli xəlifə I Şah Təhma-

sibin zamanında Şamlu tayfasının ən nüfuzlu nümayəndəsi sayılırdı, bu tayfanın əmirləri arasında ən çox qoşunu olan o idi. O, Qum və Məşhəd şəhərlərində hakimiyyət sürmüş, Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə qızılbaş əmirləri arasında baş vermiş döyüşlərdə Abbas Mirzənin (gələcək I Şah Abbas) qüvvələri tərəfindən öldürülmüşdür.

İsmayılqulu xan Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə *təvaçı-başı* (səfərbərlik və hərbi kommunikasiya üzrə məsul şəxs) vəzifəsində xidmət edirdi. Şah İsmayılqulu xana çox bağlı idi, hətta ona "Yoldaş" (və ya "Yoldaşbaşı") fəxri ləqəbini vermişdi.

İsmayılqulu xan Şamlu əvvəlcə şahzadə *Həmzə Mirzənin* tərəfində olmuş, ona qarşı çıxan Təkəlü-Türkman tayfa birliyinə qarşı döyüşmüş, qələbədən sonra *möhürdar* vəzifəsini qazanmışdı. Lakin az sonra Həmzə Mirzə sui-qəsd nəticəsində öldürüldü. Şayiələrə görə, onun qətl əmri İsmayılqulu xan tərəfindən verilmişdi. Həmzə Mirzənin digər qızılbaş əmiri *Əliqulu xan Qıçoğlu Ustaclıya* daha artıq diqqət yetirməsi, ona xanlar xanı rütbəsi verməsi İsmayılqulu xanın həsədinə səbəb olmuş və qisas məqsədilə şahzadəni aradan götürmüşdü. (İsgəndər bəy Münşi bunu variantlardan biri kimi qeyd edir).

Həmzə Mirzənin öldürülməsindən sonra İsmayılqulu xan Şah Məhəmməd Xudabəndənin digər oğlu *Əbu Talib Mirzənin* vəliəhdliyini müdafiə etməyə başladı. Bu zaman onunla Əliqulu xan Qıçoğlu Ustaclu dövlət idarəçiliyini artıq öz əllərinə keçirmişdilər. Şahın iradəcə zəifliyindən istifadə edən bu iki qızılbaş əmiri, faktiki olaraq, dövlətin hakimi sayılırdı. İsmayılqulu xan atası Vəli xəlifənin qətlinə cavab olaraq Abbas Mirzənin *lələsi Əliqulu xan Şamlunun* anasının və Ərdəbilə sığınmış atası Sultan Hüseyn xanın qətlini təşkil etdi.

1587-ci ildə Abbas Mirzə öz himayədarı *Mürşidqulu xan Ustaclunun* müşayiəti ilə Xorasandan Qəzvinə gəldi və paytaxtda şah elan edildi. İamayılqulu xan Şamlu və Əliqulu xan Qıçoğlu öz tabeliklərini bildirməyi yubatsalar da, onların ətrafındakı qüvvənin çox hissəsi dağılışıb getdi. Sonda hər iki əmir təslim oldu, lakin Mürşidqulu xan Ustaclu onlara şahla görüşmək fürsəti vermədi. İsmayılqulu xan, Əliqulu xan və tərəfdarları Qəzvində edam edildilər, onların bütün əmlakı müsadirə olundu.

Şah Məhəmməd Xudabəndə zamanında İsmayılqulu xanın qardaşları Mürşidqulu sultan Fərəhana, Şahverdi xəlifə Həmədana hakim təyin edilmişdilər.

KEÇƏÇİ TƏBRİZİ, ŞƏMSƏDDİN ZƏKƏRİYYA (vəf. 1512) – XV əsrin ikinci yarısı, XVI əsrin əvvəllərində yaşamış görkəmli dövlət xadimi, Səfəvilər dövlətinin ilk baş vəziri. Təbrizin Keçəçilər məhəlləsindən idi. Bu nəslin bəzi nümayəndələri (Keçəçilər və ya Köcəcilər) Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində vəzir olmuşlar. Şəmsəddin Zəkəriyya özü də əvvəllər Ağqoyunlu dövlətində xidmət etmiş, I Şah İsmayılın başladığı hərəkatın ilk mərhələsində ona qoşulmuşdu.

1501-ci ildə İsmayıl Təbrizdə özünü şah elan etdikdən sonra Zəkəriyya Təbrizini yanına dəvət etdi. O, Təbriziyə "Kilidi-Azərbaycan" (Azərbaycanın açarı) ləqəbini və baş vəzir məqamını verdi. Səfəvilər dövlətinin vəzirinə verilmiş fəxri ləqəbin məhz Azərbaycanla bağlı olması onu göstərirdi ki, o zamanlar I Şah İsmayılın ixtiyarı altında olan əsas ərazilər Azərbaycan torpaqlarından ibarət idi, eləcə də şahın nəzərində Səfəvilər dövləti Azərbaycanla və Azərbaycan dövləti məfhumu ilə sıx bağlı idi.

1503/04-cü illərdə Mahmudcan (Mahmudxan) Deyləmi Qəzvini vəzirlikdə Zəkəriyya Təbriziyə şərik edilmiş və onlar vəzirlik vəzifəsini birlikdə yerinə yetirmişlər.

Şəmsəddin Zəkəriyya Keçəçi Təbrizi 1512-ci ildə Xorasanda vəfat etmiş, Məşhəd şəhərində dəfn olunmuşdur. Keçəçilər nəslinin nümayəndələri sonralar da Səfəvilər dövlətində həm mərkəzdə, həm də bölgələrdə məsuliyyətli vəzifələrdə xidmət etmişlər.

KEÇƏL İLYAS BƏY ZÜLQƏDƏR – *bax:* **İLYAS BƏY ZÜLQƏDƏR.**

KEÇƏL ŞAHVERDİ XAN USTACLU – *bax:* **ŞAHVERDİ XAN USTACLU.**

KÖPƏK (KƏPƏK) SULTAN USTACLU (vəf. 1527) – *Ustaclu* tayfasına mənsub görkəmli qızılbaş sərkərdəsi. Əsl adı Mustafa xan idi. Ləqəbini bəzən "Kəpək sultan" şəklində də oxuyurlar. Qardaşı *Çayan sultan* və onun oğlu Bayezid sultan I Şah İsmayılın zamanında *əmir əl-ümərа* mənsəbini daşımışlar. Köpək sultan I Şah İsmayılın vəfatından (1524) sonra siyasi proseslərə fəal şəkildə qoşulmuş və *Div sultan Rumlu* ilə şərikli halda əmir əl-ümərа vəzifəsini icra etmişdir. Lakin az sonra *təkəlülərin* təzyiqi qarşısında o, vəzifədən uzaqlaşdı və 1527-ci ildə Şərur ətrafında baş vermiş tayfa savaşında Rumlu-Təkəlü ittifaqı tərəfindən öldürüldü.

QARA XAN USTACLU (vəf. 1516) – I Şah İsmayılın yaxın silahdaşı, qızılbaş əmiri. *Ustaclu* tayfasının *Təmişli* qolundan Mirzə bəyin oğlu idi. O, əvvəlcə qızılbaş ordusunun 600 nəfərlik *çərxçi* (avanqard) dəstəsinə başçılıq edirdi. Qardaşı Məhəmməd xan Diyarbəkir hakimi idi, *Çaldıran savaşında* həlak olmuşdu. 1516-cı ildə I Şah İsmayıl Qara xanı Diyarbəkrə bəylərbəyi təyin etdi, öz bacısı, əvvəllər Qara xan Ustaclunun həyat yoldaşı olub dul qalmış Fatimə sultanı Qara xana ərə verdi. Şahın əmri ilə Qara xan osmanlılara tərəf meyillənən Diyarbəkri geri qaytarmaq üçün 4 min nəfərlik dəstə ilə yola düşdü. O, Osmanlı sərkərdəsi Həsən paşanın 10 min nəfərlik qoşununu məğlub etdi və Diyarbəkri ələ keçirdi. I Sultan Səlim Qara xanı təslim olmağa çağırsa da, o, təklifə rədd cavabı verdi. Bıyıklı Mehmet paşanın 30 minlik ordusu qarşısında Diyarbəkri qoruya bilməyən Qara xan Mardin qalasına sığındı. Orada baş vermiş döyüşdə Səfəvi əsgərləri sayca bir neçə qat çox olan düşmənə məğlub oldular, Qara xan yeniçərilərin tüfəng gülləsindən həlak oldu.

Qara xan I Şah İsmayılın yeznəsi, məşhur Səfəvi sərkərdəsi və dövlət xadimi, Şirvan bəylərbəyi *Abdullah xan Ustaclunun* atasıdır.

QARA PİRİ BƏY QACAR (vəf. 1501 və ya 1512) – görkəmli qızılbaş sərkərdəsi. *Qacar* tayfasına mənsub olmuş, *Şeyx Heydər* zamanında qızılbaş hərəkatına qoşulmuşdu. Döyüşlərdə igidliklə at çapıb şücaət göstərdiyi üçün I Şah İsmayıl ona "Tozqoparan" ləqəbini vermişdi.

Qara Piri bəy 1488-ci ildə Şeyx Heydərin ölümü ilə nəticələnmiş Tabasaran döyüşündə qızılbaş dəstəsinin sağ cinahına başçılıq etmiş, Şeyx Heydərdən sonra onun böyük oğlu *Sultan Əli Mirzənin*, daha sonra kiçik İsmayılın yanında yer tutmuşdu. O, qızılbaş əmirləri arasında xüsusi imtiyaza malik olan yeddi nəfərlik qrupa *(əhli-ixtisas)* daxil idi.

1500-cü ildə Şirvanşahlar üzərinə yürüyən I Şah İsmayıl Qara Piri bəyi 2 min nəfərlik dəstə ilə qabağa göndərmişdi ki, Kür çayı üzərindən körpü salıb qoşun üçün yol açsın. Lakin Şirvanşah Fərrux Yasarın çay kənarına təhkim etdiyi dəstə onlara əngəl olduğundan körpünü hazırlamaq mümkün olmadı. Qoşunun başında gəlib çatan şah vəziyyəti görəndə atını qorxmadan çaya sürdü, qızılbaşlar da onun ardınca özlərini suya vurdular. Qoşun körpüyə ehtiyac duymadan qarşı sahilə keçdi və düşmənin keşikçi dəstəsini məhv etdi.

"Aləmarayi-Səfəvi"dən məlum olur ki, I Şah İsmayıl Qara Piri bəyi doğma atası kimi sevir və hətta ona "ata" deyə müraciət edirdi. Ağqoyunlu Əlvənd Mirzənin qoşunu ilə döyüşdən əvvəl Qara Piri bəy *çərxçi* (avanqard) bölümünə başçılıq etmək istəyəndə İsmayıl ona demişdi: "Sən mənim üçün ata yerindəsən. Sən qal, qoy başqası döyüşə getsin". Qara Piri bəy Qacar isə ona belə cavab vermişdi: "Arzum budur ki, qoca yaşımda bu ağ saqqalımı sənin yolunda qanıma boyayım və şəhadətə yetim". Qara Piri bəy çərxçi dəstəsinin başında döyüşə girib şücaətlə döyüşmüş və Ağqoyunlu qoşununun başçısı Osman bəyin oğlu Məhəmməd bəy tərəfindən nizə ilə xaincəsinə arxadan vurulmuşdu. Bəzi mənbələr onun bu döyüşdə ölmədiyini, daha sonralar Ağqoyunlu Sultan Murada qarşı müharibədə iştirak etdiyini, 1512-ci ildə *Nəcmi-saninin* rəhbərlik etdiyi Səfəvi qoşunu ilə özbəklər arasında baş vermiş Qicduvan savaşında həlak olduğunu yazır.

Qara Piri bəy Qacarın oğlu Rüstəm bəy 1508-ci ildə I Şah İsmayılın əmri ilə Qarabağ bəylərbəyi təyin edilmişdir. Mövcud məlumatlar onu ilk Qarabağ bəylərbəyi hesab etməyə əsas verir.

QAZAQ XAN ÇƏRKƏZ – Səfəvilər dövrünün dövlət xadimi, çərkəz mənşəli qullar *(qulamlar)* təbəqəsindən idi. Xidməti karyerasına Gilan şəhərinin darğası kimi başlamış, Şirvan bəylərbəyi Yusif xanın Gürcüstanda xəyanətlə öldürülməsindən sonra (1623/24) I Şah Abbas tərəfindən onun yerinə təyin edilmişdir. Şirvandakı *Qaramanlu* və *Çavuşlu* oymaqlarının rəhbərliyi də ona həvalə olunmuşdu. Qazaq xan 1625-ci ildə

gürcü üsyançılarına əsir düşmüş, bu müddət ərzində qohumları onun əvəzinə Şirvanı idarə etmişlər. Əsirlikdən xilas olduqdan sonra o, yenidən öz vəzifəsinə qayıtdı (1627). I Şah Abbasdan fərqli olaraq, çərkəz mənşəli kadrlara o qədər də etibar etməyən I Şah Səfi dövlət idarəçiliyində və orduda onların nüfuzunu azaltmağa başladı. Çərkəz qruplaşmasının mühüm simalarından olan, əlində külli miqdarda vəsait cəmləmiş qapıqulu Yusif ağa aradan götürüldü (1632). Bundan sonra Qazaq xan da vəzifədən uzaqlaşdırılıb həbsə alındı (1633), onun yerini isə qulam təbəqəsinin digər nümayəndəsi, Dərbənd hakimi Fərrux sultan tutdu. 1639-cu ildə bəraət alaraq azad edilmiş Qazaq xan növbəti bir il ərzində Astarabad hakimi olmuşdur. 1640-cı ildə öldüyü ehtimal olunur.

Qazaq xan Çərkəzin oğlu Nəcəfqulu xan 1656-1663-cü illərdə Çuxursəd bəylərbəyi vəzifəsində xidmət etmişdir.

QƏNBƏR XAN GÖZÜBÖYÜKLÜ – *Ustaclu* tayfasının *Gözüböyüklü* oymağına mənsub qızılbaş əmiri. *Əliqulu xan Qıçoğlunun* yaxın ətrafından və Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin sonlarında yaranmış qarışıqlıq zamanı *Mürşidqulu xan Ustaclunun* səyləri sayəsində şahzadə Abbas Mirzəni hökmdar kimi tanıyan qızılbaş əmirlərindən biri idi. O, I Şah Abbasın silahdarbaşısı və yaxın adamlarından sayılırdı. Şah onu *Qərcıqay xanla* birlikdə *Sufiyan savaşında* (1605) ordu hissələrinə sərkərdə təyin etmişdi. Bundan sonra Qənbər bəy xan titulu alaraq Qarabağ və Şirvanın fəthində iştirak etdi, daha sonra Dərbənd qalasının möhkəmləndirilməsini öhdəsinə aldı. Qənbər bəy I Şah Abbasın əmri ilə *Əfşar* tayfasının *Ərəşlü* oymağını Rey və Simnan ətrafına köçürmüşdü.

QIZILBAŞ ÜSYANLARI – XVI əsrin birinci yarısında Osmanlı torpaqlarında məskunlaşmış *qızılbaş* tayfalarının qaldırdığı və böyük xalq kütlələrinin iştirak etdiyi hərəkatlar. Bunların böyük hissəsi tarixi mənbələrdə *cəlali* üsyanları kimi qeyd edilmişdir.

Anadolu torpaqlarındakı qızılbaşların təşkilatlanmasında Səfəvilər dövlətinin göndərdiyi *xəlifələrin* rolu böyük idi. Şahla Anadolu qızılbaşları arasında vasitəçi rolunu oynayan xəlifələr *"mürşidi-kamil"in* (Səfəvi şahının) mesajlarını mütəmadi olaraq qızılbaşlara çatdırır, Səfəvilər dövlətinin hərbi-siyasi uğurlarından onları xəbərdar edir, təşkilatlanma işinə yardım göstərir, yerli qızılbaşların Ərdəbil xanəgahına nəzir adlı ianələrini toplayıb aparırdılar.

Qızılbaş üsyanlarının yaranma səbəbləri bir neçə amillə bağlı olmuşdur. Əvvəla, XVI əsrin əvvəllərində Osmanlı dövlətində yaranmış siyasi xaos, II Sultan Bayezidin zəifliyi üzündən şahzadələrin hakimyyət uğrunda mübarizəsinin şiddətlənməsi bu üsyanların başlamasına təkan vermişdir. Daxili müharibələr nəticəsində əsas ziyan sadə xalqa dəyirdi, kəndlər və şəhərlər viran qalır, əkin sahələri yandırılır, əsgərlər tərəfindən soyğunçuluq halları artırdı.

Həlledici amillərdən biri də məmur öz-

başınalığı, rüşvətin artması idi. Vergi məmurları xəzinəni asan yolla doldurmaq üçün kəndlilərin məhsulunun miqdarını hesabatda süni şəkildə artırır, buna görə əhalidən artıq vergi alırdılar. Bütün bunlar öz növbəsində xalqda narazılıq və hiddət doğururdu.

Öz qonşuluğundakı Səfəvilər dövlətinin güclənməsi osmanlıları narahat edir, qızılbaşlıq ideyalarının ölkədə yayılmasının qarşısını almaq üçün yerli qızılbaş tayfalarına qarşı təzyiqlər artırdı. Osmanlı dövləti qızılbaşlardan yığılan nəzirə ciddi nəzarət tətbiq etməyə, qızılbaşların Səfəvi dövlətinə keçməsinə maneçilik törətməyə başlamışdı. I Şah İsmayıl təqiblərin dayandırılması üçün II Sultan Bayezidə müraciət etdi və tərəfdarlarının ölkədən çıxmasına icazə verilməsini ondan istədi. Sultan bu xahişə rədd cavabı verməklə yanaşı, 16 min nəfər qızılbaşı Anadoludan Rumeliyə (Venesiya ilə müharibədə fəth olunmuş Modon və Koron bölgələrinə) sürgün etdi. Sonrakı dövrlərdə I Sultan Səlim tərəfindən qızılbaşlara qarşı həyata keçirilən təqib siyasəti daha amansız xarakter almış, on minlərlə qızılbaş kafir adlandırılmış və müftilərin fətvası ilə öldürülmüşdü.

Anadolu qızılbaşları diqqətlə Səfəvilər dövlətinin uğurlarını izləyir, oradakı şəraitin öz məkanlarında da mövcud olmasını arzulayır, bu arzunun reallaşması üçün hakimiyyətə qarşı çıxmağı çıxış yolu kimi görürdülər. Bu və digər amillər XVI əsrin ilk onilliyindən etibarən Osmanlı dövlətində güclü qızılbaş hərəkatlarının yaranmasına gətirib çıxardı.

Anadoluda başlamış ilk irimiqyaslı qızılbaş hərəkatı *Şahqulu xəlifə üsyanı* sayılır (1511). Bu üsyan amansızlıqla yatırılmış, onun xeyli iştirakçısı öldürülmüş, bir qismi sərhəddən adlayaraq Səfəvilər dövlətinin ərazisinə keçmişdi. Bundan bir il sonra *Nurəli xəlifə* daha bir qızılbaş üsyanını təşkilatlandırmağı bacardı. 1515-ci ildə o, Anadoluya növbəti səfəri zamanı yenidən fəallıq yaratmağa cəhd etdi, amma Tunceli ətrafında Bıyıklı Mehmet paşa (Bığlı Mustafa bəy) ilə döyüşdə öldürüldü. Nurəli xəlifənin başı və 600 nəfər qızılbaşın burnu kəsilərək I Sultan Səlimə qənimət kimi göndərildi. Boz Oklu Şeyx Cəlal (1518/19), Donuz oğlan və Yenicə bəy (1525/26), Qələndər Çələbi (1526/27), Söklənoğlu Baba Zünnun (1526/27), Zünnunoğlu (1527), Vəli xəlifə (1527), Seydi bəy və İnciryeməz (1529) üsyanları osmanlılar dövlətinin daxilində böyük qarışıqlıq yaratmış və hakimiyyəti ciddi şəkildə qorxuya salmışdı. Sultan Səlim Yavuz və Sultan Süleyman Qanuni qızılbaş üsyanlarını böyük çətinliklə, xeyli itkilər hesabına yatıra bildilər.

Qızılbaş üsyanları təqribən 20 il ərzində Osmanlı dövlətinin bütün diqqətini özünə çəkərək Səfəvilərlə müharibədən yayındıra bildi. *Çaldıran döyüşündən* (1514) sonra təqribən 20 il müddətində osmanlılar Səfəvi dövlətinə qarşı işğalçılıq siyasətindən imtina etməli oldular. Bu da I Şah İsmayıla digər ölkədaxili problemləri həll etməyə imkan verdi və onun vəfatından sonra çox təhlükəli dövr olan qızılbaş tayfa müharibələri gedişində Osmanlı ekspansiyası təhlükəsindən dövləti sığortaladı.

QUDURMUŞ SULTAN QACAR (vəf. 1516) – görkəmli qızılbaş sərkərdəsi. *Qacar* tayfasına mənsub idi. Əsl adı Əhməd sultan Qacardır. Hələ şahzadəlik dövründən etibarən Səfəvilərlə sərhəd münaqişələrinin təşkilində maraqlı olan I Sultan Səlimin göstərişi ilə Ərzincan hakimi Osman paşa 12 min nəfərlik qoşunla Səfəvilər torpağına soxulduqda Əhməd sultan onu ağır məğlubiyyətə uğratmışdı. Bəzi mənbələr Ağqoyunlu Sultan Muradın da Əhməd sultan tərəfindən öldürüldüyünü yazır. Əhməd sultanın bəzi mənbələrdəki Əcə (Aca) sultanla (Qaraca və ya Dəracə sultan) eyni şəxs olduğu ehtimal edilir. O, Sultan Muradın böyük qoşununu özünün cəmi 800 nəfərlik dəstəsi ilə darmadağın etdiyinə görə I Şah İsmayıldan "cəsarətli" mənasını verən "Qudurmuş sultan" titulunu almışdı. Qudurmuş sultan Qacar 1516-cı ildə Qoçhisar ətrafında Osmanlı sərkərdəsi Bıyıklı Mehmet paşa ilə savaşda *Qara xan Ustaclu* ilə birlikdə həlak olmuşdur.

MALKOÇOĞLU TURƏLİ BƏY (vəf. 1514) – XIV əsrin sonlarından Osmanlı ordusunda və dövlət idarəçiliyində yüksək mövqe tutmuş nəslin nümayəndəsi. *Çaldıran savaşında* I Şah İsmayılla təkbətək savaşmış və onun əli ilə öldürülmüşdür. İslamı qəbul edərək Osmanlı xidmətinə keçmiş Bosniya mənşəli nəsildəndir. Bu nəslin ilk məşhur nümayəndəsi I Sultan Murad və İldırım Bayezid dövrlərinin sərkərdəsi Malkoç (əslində Malkoviç) bəydir. Onun nəslindən olanlar Malkoçoğlu soyadı ilə tanınmışlar. Malkoçoğulları əsasən Osmanlı imperiyasının sərhəd bölgələrində xidmət edən hərbi bölmələrin (akınçılar) yürüşlərinə başçılıq etmişlər. Bu nəslin bir neçə nümayəndəsinin adına Osmanlı sancaqbəylərinin (bölgə hakimləri) siyahısında da rast gəlinir.

Turəli bəy Avropa yürüşlərində fərqlənmiş Silistre sancaqbəyisi Balı bəyin oğlu, Sofiya sancaqbəyisi Damad Əli bəyin qardaşı idi. O, atasından sonra Silistre sancaqbəyisi təyin edilmiş, qardaşı Damad Əli bəylə birlikdə Səfəvi torpaqlarına yürüşə qatılmış, hər ikisi Çaldıran savaşında öldürülmüşdür.

I Sultan Səlim mahir cəngavər kimi tanınan Turəli bəyi I Şah İsmayılı döyüşdə öldürmək üçün hazırlamışdı. Çaldıran savaşı günündə sultan vaxtilə II Mehmet Fatehə məxsus olmuş zirehi öz əlləri ilə Turəli bəyə geyindirmiş və onu xeyir-dua ilə döyüş meydanına yola salmışdı. Malkoçoğlu o qədər iricüssəli imiş ki, Fatehin zirehi onun əyninə çətinliklə yerləşibmiş.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" əsərində I Şah İsmayılla Malkoçoğlunun təkbətək döyüşünü bu cür təsvir etmişdir: "Şah İsmayıl Zülfüqar nişanəli heydəri qılıncı çəkərək, elə qəzəb və kinlə o bədbəxtin üzərinə hücum etdi ki, Malkoçoğlu padşahın həmləsinin təsirindən özünü itirib hərəkət etməyə belə macal tapmadı. Cəsarət meşəsinin aslanı heydəri qolunun gücü ilə ona elə zərbə endirdi ki, onun zirehini və poladdan olan qaftanını parça-parça etdi və onun alçaq vücudunu ölüm torpağına atdı. Hər iki ordudan fəryad qopdu, gö-

yün mələkləri o qola və qoldakı gücə afərin dedilər". Salnamələrdə xəbər verilir ki, I Şah İsmayıl Malkoçoğlunun başına qılıncla elə güclü zərbə vurmuşdu ki, onun bədəni belinə (və ya sinəsinə) kimi iki hissəyə bölünmüşdü.

MƏHƏMMƏD XAN ŞƏRƏFƏDDİNOĞLU TƏKƏLÜ (vəf. 1557) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Təkəlü* tayfasının *Şərəfəddinoğlu* nəslinə mənsub idi. O, I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində qızılbaş əmirləri arasında baş vermiş qarşıdurmada öz tayfa üzvlərinə qarşı həyata keçirilən cəza tədbirlərini dəstəkləmiş, 1531-ci ildə ona sığınan Təkəlü əmirlərinin başlarını kəsib şaha göndərmişdi. I Şah Təhmasibin vəfatı ərəfəsində mənsəb sahibi olan Təkəlü əmirlərindən yalnız onun adı mənbələrdə çəkilir. Herat hakimi olan Məhəmməd xan həm də şahzadə Məhəmməd Mirzənin (gələcək Şah Məhəmməd Xudabəndənin) *lələsi* idi. O, bir müddət Bağdad valisi olmuş, amma Osmanlıların hücumu və şəhərdəki Təkəlü əmirlərinin etibarsızlığı üzündən şahın icazəsi ilə şəhəri tərk etmişdi.

Şərəfəddinoğlu Məhəmməd xan 1557-ci ildə öldü. Görkəmli tarixçi, "Cəvahir ələxbar" salnaməsinin müəllifi Budaq Qəzvini Bağdadda onun sarayında bir neçə il xidmət etmiş, Əmir Mahmud Xondəmir "Zeyli-Həbib əs-siyər" kitabını Heratda onun sifarişi və dəstəyi ilə qələmə almışdı. Salnamələrdə onun ağır xasiyyətə malik olduğu və tabeliyində olanlara zülm etdiyi yazılır. Hətta oğulları və qardaşı oğulları da onunla yola getmirdilər. Məhəmməd xanın ölümündən bir qədər əvvəl I Şah Təhmasib öz oğlu Məhəmməd Mirzənin yerinə İsmayıl Mirzəni (gələcək II Şah İsmayıl) Herat hakimi təyin etdi. İsmayıl Mirzə Təkəlü əmiri Əli sultanla birlikdə Herata gəldi. Bundan sonra Məhəmməd xan İsmayıl Mirzənin lələsi kimi xidmət etməyə başladı. Xasiyyətcə müstəqilliyi xoşlayan şahzadə ilə lələsinin arasında narazılıqlar yaranırdı. Məhəmməd xanla konfliktə girmiş Əli sultan Təkəlü bu qarşıdurmada məğlub oldu və şah tərəfindən ölümlə cəzalandırıldı.

Bəzi mənbələrdə Məhəmməd xanın I Şah İsmayılın qızı Şah Zeynəb xanımla evli olduğu yazılmışdır.

Şərəfəddinoğlu Məhəmməd xandan sonra oğlu Qazaq xan Herat hakimi oldu, onun tabeliyində 10 min nəfərlik hərbi qüvvə vardı. O, I Şah Təhmasibə qarşı çıxdığı üçün Məsum bəy Səfəvi tərəfindən həbs edilmiş və 1564/65-ci illərdə ölmüşdür.

MƏHƏMMƏDİ XAN TOXMAQ USTACLU – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Ustaclu* tayfasından *Şahqulu sultan Ustaclunun* oğlu idi. Fiziki cəhətdən zəif cüssəli olduğu üçün ona "Toxmaq" ləqəbini vermişdilər. I Şah Təhmasibin zamanında Şahqulu sultan Osmanlı dövlətinə elçi qismində göndəriləndə Məhəmmədi xan atasının əvəzinə Çuxursəd bəylərbəyliyini idarə etmişdi. 1574-cü ilin axırlarında Osmanlı sultanı II Səlim vəfat etdi və III Murad taxta çıxdı. I Şah Təhmasib, ənənəyə uyğun olaraq, bu münasibətlə Os-

manlı dövlətinə diplomatik nümayəndə heyəti göndərmişdi, onlara Məhəmmədi xan Ustaclu başçılıq edirdi. Məhəmmədi xan şahın təbrik məktubunu və hədiyyələrini sultana təqdim etmiş və onun verdiyi hədiyyələrlə birlikdə vətənə qayıtmışdı. Bu zaman artıq I Şah Təhmasib vəfat etmiş, II Şah İsmayıl hakimiyyətə keçmişdi. Atasının zamanındakı kadrlara həmişə etimadsızlıqla yanaşan II İsmayıl Məhəmmədi xana da laqeydlik göstərdi. Ustaclu tayfasının üzvləri uzun-uzadı üzrxahlıqdan və yayılmış şayiəyə görə guya hakimiyyətə gətirmək istədikləri şahzadə *Həsən Mirzəni* qətlə yetirəndən sonra bağışlandılar. Məhəmmədi xan atasının yerinə Çuxursəd bəylərbəyliyinə təsdiq edildi. Şah Məhəmməd Xudabəndə də taxta çıxdıqdan (1577) sonra onu vəzifəsində saxladı.

1578-ci ildə Məhəmmədi xan Toxmaq Ustaclu Osmanlı qoşununun qarşısını kəsməyə cəhd göstərmiş, bu məqsədlə yardım üçün Azərbaycan bəylərbəyi *Əmir xan Türkmana* və Gəncə bəylərbəyi *İmamqulu xan Qacara* müraciət etmişdi. Əmir xan öz tayfasının ustaclularla köhnə düşmənçiliyini xatırlayıb xahişi rədd etdi. Çuxursəd və Gəncənin müttəfiq qoşunu 1578-ci ildə Qarsın şimal-şərqindəki Çıldır gölünün sahilində Osmanlı ordusu ilə döyüşə girdi. Lakin düşmənin sayını və potensial gücünü lazımınca qiymətləndirə bilməyən Məhəmmədi xan döyüşü uduzdu, nəticədə osmanlıların Gürcüstana sərbəst keçid imkanı yarandı və Azərbaycan torpaqları real təhlükə altına düşdü. Məhəmmədi xanın müqavimətinə baxmayaraq, Çuxursəd bəylərbəyliyi 1583-cü ildə osmanlılar tərəfindən tutuldu və 1604-cü ildə I Şah Abbas *İrəvanı* azad edənədək işğal altında qaldı.

1585-ci ildə Osmanlı qüvvələri Azərbaycan bəylərbəyliyinin mərkəzi və Səfəvilər dövlətinin ilk paytaxtı olan Təbriz şəhərini ələ keçirdi. Şah Məhəmməd Xudabəndənin fərmanı ilə Məhəmmədi xan Azərbaycan bəylərbəyi vəzifəsinə təyinat aldı, Təbrizin mühasirəsi ona tapşırıldı. Lakin Təkəlü-Türkman alyansı ilə digər qızılbaş tayfalarının müharibəsi hərbi əməliyyatları uğurla aparmağa mane oldu. 1590-cı il İstanbul sülh müqaviləsi ilə Təbriz osmanlıların ixtiyarında qaldı.

Mənbələrdəki bəzi məlumatlardan aydın olur ki, Məhəmmədi xan hərbi əməliyyatlar gedişində osmanlılara əsir düşmüş, bir müddət əsirlikdə qaldıqdan sonra azad edilmişdir. Ərdəbildə və Muğanda məskən salan Məhəmmədi xan 1591/92-ci illərdə Qəzvində I Şah Abbasla görüşmüşdür.

Osmanlı hücumundan əvvəl Məhəmmədi bəy Toxmaq Ustaclu müasiri olduğu əmirlərin arasında üstün mövqeyə sahib idi. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"də onu "mötəbər əmirlərdən biri" adlandıraraq yazır: "O, ordusunun və qoşununun say çoxluğuna görə tayfadaşlarından öndə idi".

MƏHƏMMƏD XAN USTACLU (vəf. 1514) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Ustaclu* tayfasının *Təmişlü* oymağından Mirzə bəyin oğlu idi. Məhəmməd xan I Şah İsmayılın başla-

dığı dövlət quruculuğu prosesində başlanğıcdan etibarən yaxından iştirak etmişdir. O, hərb sənətində son dərəcə bacarıqlı idi, döyüş taktikasını gözəl bilən sərkərdə, şücaətli döyüşçü kimi özünü dəfələrlə təsdiq etmişdi.

Məhəmməd xan 1503-cü ildə Ağqoyunlu Sultan Murada qarşı *Almabulağı* (Almaqulağı) *savaşında* Səfəvi qoşununun sol cinahına başçılıq etmişdir.

1507-ci ildə I Şah İsmayılın Şərqi Anadolu torpaqlarına *(Zülqədəroğulları bəyliyinə)* uğurlu yürüşü nəticəsində Diyarbəkir bölgəsi Səfəvilər dövlətinə qatıldı. Mühüm strateji mövqeyə malik olan Diyarbəkrə Məhəmməd xan Ustaclu bəylərbəyi təyin edildi, qardaşı Qara xan da ona yardımçı verildi. Məhəmməd xanın qarşısında çox çətin vəzifə dururdu; o öz tabeliyindəki torpaqları həm osmanlılardan və Zülqədəroğullarından, həm də Ağqoyunlu əmirlərindən və yerli kürd tayfalarından qorumalı, həmsərhəd olduğu Məmlük sultanlığı ilə normal münasibət saxlamalı idi. Məhəmməd xan bu çətin vəzifənin öhdəsindən kifayət qədər uğurla gəlirdi. O, qardaşı *Qara xan Ustaclu, Qudurmuş (Əhməd) sultan Qacar* və digər sərkərdələrin yardımı ilə nəinki hücumların qarşısını alır, özü düşmən torpaqlarına talançı yürüşlər təşkil edirdi.

Məhəmməd xan hərb meydanında nə qədər güclü olsa da, siyasət sahəsində o qədər də bacarıqlı deyildi və çılğın təbiətə malik idi. Tədqiqatçılar Səfəvi–Osmanlı münasibətlərinin sürətlə gərginləşməsində onun da "payının" olduğunu yazırlar. Bəzi klassik mənbələrdə I Sultan Səlimin sərhəd bölgələrinə talançı yürüşlərinə cavab olaraq Məhəmməd xanın ona qadın paltarı və yaşmağı göndərdiyi yazılır.

Məhəmməd xan Ustaclu *Çaldıran döyüşündən* əvvəl I Şah İsmayılın təşkil etdiyi məşvərət məclisində *(cəngi)* iştirak etmiş və düşmənin say çoxluğunu, hərbi texnika baxımından üstünlüyünü nəzərə alaraq hələ döyüş mövqeyi tutmazdan əvvəl basqın etməyi təklif etmişdi. Məhəmməd xanın haqlı olaraq düşündüyü kimi, bu qəfil basqın Osmanlı qoşununun ağır artilleriyasını məhv etməyə, canlı qüvvəsinə ciddi ziyan vurmağa yardım edəcək, həm də düşmənə psixoloji cəhətdən təsir edərək ruh düşkünlüyü yaradacaqdı. Lakin *Durmuş xan Şamlunun* təhriki ilə şah bu planı rədd edərək demişdi: "Mən karvanbasan quldur deyiləm; Allah necə istəyirsə, elə də olacaq". Nəticədə Çaldıran savaşında qızılbaş qoşunu xeyli itki verdi, onlarla igid sərkərdə, o cümlədən Məhəmməd xan Ustaclu həlak oldu.

Məhəmməd xan Ustaclu I Şah İsmayılın bacısı *Fatimə sultanla* evli idi. Onun ölümündən sonra şah öz dul bacısını Məhəmməd xanın qardaşı Qara xana ərə verdi və Qara xanı Diyarbəkir bəylərbəyi məqamına yüksəltdi. Məhəmməd xanın Qılıc bəy adlı oğlunun adı mənbələrdə çəkilsə də, onun haqqında əlavə məlumat verilmir.

MƏHƏMMƏD RƏİS KƏRRƏ (Kərreyi, vəf. 1504) – XVI əsrin əvvəllərində I Şah İsmayıla qarşı çıxmış Əbərquh hakimi. 1503-cü ildə qızılbaş ordu-

su *Almabulağı döyüşündə* Ağqoyunlu Sultan Murada qalib gəldikdən sonra onun ixtiyarındakı ərazilər, o cümlədən Yəzd şəhəri və yaxınlığındakı Əbərquh məntəqəsi Səfəvilər dövlətinə qatıldı. Əbərquhun darğası olan Məhəmməd Kərrə də əvvəlcə I Şah İsmayıla tabe olub ona hədiyyələr göndərdi. Şah Yəzd şəhərinin hakimliyini *Hüseyn bəy Lələ Şamluya* həvalə etdi. Amma o, həm də *vəkil* və *əmir əl-üməra* mənsəblərini daşıdığı üçün şahın yanında qalmağa üstünlük verdi, öz adamlarından Şüeyb ağanı Yəzdə yolladı. Şüeyb ağa Yəzd şəhərini Səfəvilər dövləti adından idarə etməyə başladı. Az sonra Sultan Muradın şəhərdə qalmış vəziri Xoca Sultan Əhməd Saruyi Şüeyb ağanı öldürüb şəhər üzərində nəzarəti ələ keçirdi. Qarışıqlıqdan istifadə edən Məhəmməd Rəis Kərrə Əbərquhdan hücum edərək Yəzdi tutdu və şahın tabeliyindən çıxdığını elan etdi. O, Yəzdin məşhur seyidlərindən olan nemətullahi şeyxi Əbdülbaqi Yəzdinin (I Şah İsmayılın gələcək vəkili, 1514-cü ildə *Çaldıran savaşında* öldürülmüşdür) qızı ilə evlənmək, bununla nüfuzunu artırmaq istəyirdi. Amma Əbdülbaqi Yəzdi şəhərdən qaçıb hadisəni şaha yazdı.

1504-cü ilin sonlarında I Şah İsmayıl qoşunla Yəzd üzərinə yürüdü və şəhəri mühasirəyə aldı. Bir il davam edən mühasirə gedişində Məhəmməd Rəis Kərrə və tərəfdarları Yəzdi əldə saxlamağa çalışsalar da, axırda *Durmuş xan Şamlunun* başçılığı altında qızılbaş qoşunu şəhəri ələ keçirə bildi. 7 min nəfərlik şəhər qarnizonundan 4 mini öldürüldü, qalan 3 min nəfər isə öz başçıları ilə birlikdə iç qalaya sığınaraq daha 20 gün müdafiə olundu. Nəhayət, iç qala da süqut etdi, Məhəmməd Rəis Kərrə əsir tutulub İsfahana gətirildi və burada edam edildi (1504).

Daha sonra Rəis Məhəmməd Kərrənin Əbərquhdakı qüvvələri də zərərsizləşdirildi, növbəti ildə bu dəstənin digər şəhərlərə sığınmış qalıqları da ortadan qaldırıldı.

MƏHƏMMƏDQULU XAN ZİYADOĞLU-QACAR – qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* nəslinə mənsub, Qarabağ və Gəncə bəylərbəyi Məhəmməd xan Ziyadoğlu-Qacarın kiçik oğludur. I Şah Abbas 1606-cı ildə Qarabağı osmanlılardan geri aldıqdan sonra əvvəlcə Ziyadoğulları nəslindən Hüseyn xanı buraya bəylərbəyi təyin etdi. Lakin Hüseyn xan əhalini incitdiyinə və lovğalıq göstərdiyinə görə tezliklə vəzifəsindən azad edildi və onun yerini Məhəmməd xan Ziyadoğlu tutdu. Məhəmməd xan Osmanlı işğalından əvvəlki son Qarabağ bəylərbəyi idi, osmanlıların əlinə keçib bir müddət əsir qaldıqdan sonra xilas olmuşdu. Məhəmməd xan 1610-11-ci illərdə Gürcüstan və İrəvan istiqamətlərindəki döyüşlərdə qəhrəmanlıq göstərmiş, 1615-cı ildə Gürcüstanda ağır yaralanıb dünyasını dəyişmişdir. Ondan sonra böyük oğlu Mürşidqulu xan Qarabağ bəylərbəyi oldu, daha sonra onu qardaşı Məhəmmədqulu xan əvəz etdi. Lakin zəif təbiətli Məhəmmədqulu xan bölgənin idarəçiliyinin öhdəsindən gələ

bilmirdi. Qarabağ bəylərbəyinin nəzarətinə verilmiş Gürcüstanda vəziyyət gərgin idi, 1625-ci ildə Səfəvi komandanı *Qərəçəqay xan* və bir neçə qızılbaş əmiri Georgi Saakadze (Böyük Mouravi) tərəfindən xainliklə öldürüldü, *Peykər sultan İyirmidörd* öz mövqeyini buraxıb Gürcüstandan çıxdı. 1627-ci ildə Gürcüstan valisi Qarabağ torpaqlarına soxuldu və burada qətl-qarətlər törətdi. I Şah Abbas Məhəmmədqulu xanın fəaliyyətsizliyindən qəzəblənib onu vəzifədən azad etdi. Bu dəfə *qullarağası Allahverdi xanın* oğlu, gürcü mənşəli *Davud xan Undiladze* Qarabağ hakimliyinə gətirildi (1627). I Şah Səfi 6 ildən sonra yarıtmaz fəaliyyətinə və xəyanətinə görə Davud xanı vəzifədən azad edib Qarabağ bölgəsinin idarəçiliyini yenidən Məhəmmədqulu xana qaytardı (1633). Məhəmmədqulu xan bu dəfə öz vəzifəsinə daha məsuliyyətlə yanaşaraq tabeliyindəki ərazilərdə sabitliyi bərpa etməyə çalışmış, 1635-36-cı illərdə Çuxursəd ərazisində osmanlılara qarşı döyüşlərdə fərqlənmişdir. Qarabağın idarə olunmasında kiçik qardaşı Mürtəzaqulu xan ona yardım edirdi. Məhəmmədqulu xandan sonra Qarabağ və Gəncə bəylərbəyliyi də Mürtəzaqulu xana verildi.

MƏLİK BƏHRAM ORDUBADİ – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. Məşhur alim Nəsirəddin Tusinin nəslindən olmuş, Ordubadda doğulmuş, Ağqoyunluların zamanında Naxçıvan torpaqlarını idarə etmişdir. I Şah İsmayılın hakimiyyəti zamanı iftiraya məruz qalaraq şahın gözündən düşmüş, Misir və digər ölkələrdə mühacirət həyatı yaşamağa məcbur olmuşdur. Sonralar I Şah İsmayıl onun barəsində *(Hüseyn bəy Lələdən)* müsbət rəylər eşidərək Ordubada qayıtmasını istədi. Sarayda katib kimi xidmət edən və məktublara tuğra yazan Xacə Ətiq şahın göstərişi ilə Məlik Bəhrama məktub yazdı. Bundan sonra Məlik Bəhram vətənə qayıdıb o yerlərin idarəçiliyi ilə məşğul olmağa başladı. I Şah Təhmasibin zamanında o, böyük hörmət sahibi idi, Ordubadın kələntəri təyin edilmişdi. I Şah Təhmasib dəfələrlə istirahət etmək üçün Ordubada səfər etmiş, hər dəfə Məik Bəhramın qonağı olmuşdu. Şahın göstərişi ilə Ordubadda iri və yaraşıqlı məscid də tikilmişdi, Məlik Bəhram çox zaman həmin məsciddə ibadətlə məşğul olur və xalqın müraciətlərini dinləyirdi. Yaşı 90-a yaxın olan Məlik Bəhram ömrünün sonlarında həcc səfərinə getmək fikrinə düşmüş və Mədinə şəhərinə gedən yolda dünyasını dəyişmişdir. Onu bu səfərdə müşayiət edən oğlu Ədhəm bəy atasını "Qəleyi-Heydər" adlı məkanda dəfn edir. Bir müddətdən sonra *Məsum bəy Səfəvinin* ölümü ilə nəticələnmiş həcc səfərində iştirak edən Mirək bəy (Məlik Bəhramın böyük oğlu) atasının cənazəsini əvvəlki dəfn yerindən çıxarıb Mədinə şəhərinə aparmış və Bəqi qəbiristanlığında basdırmışdır.

Məlik Bəhramın 5 oğlu olmuşdur. "Tarixi-aləmarayi-Abbasi" kitabının müəllifi İsgəndər bəy Münşi Məlik Bəhramı və bütün oğullarını yaxşı tanıdığını yazır və onların haqqında müsbət fikirlər bildirir.

Məlik Bəhramın böyük oğlu Mirək bəy Məsum bəy Səfəvinin yaxın ətrafından sayılır, sarayda *münşi* (katib) vəzifəsində xidmət edirdi. Məsum bəy həcc ziyarəti yolunda öldürüldükdən (1568/69) sonra Mirək bəy onun əmlakını və yadigarlarını varislərinə vermişdi.

Məlik Bəhramın ikinci oğlu Ədhəm bəy hesab və digər elmləri mükəmməl şəkildə mənimsəmiş, şahzadə *Mustafa Mirzənin sərkərdəsi, daha sonra* Həmzə Mirzənin vəziri olmuşdur. Şah Məhəmməd Xudabəndənin zamanında bir müddət Təbrizin kələntəri kimi xidmət edən Ədhəm bəy sonralar bölgələrdə hakimlərə vəzirlik etmiş, dəfələrlə Məşhəd, İraq və həcc ziyarətlərinə getmiş, ömrünün sonlarına yaxın Şirazda yurd salmışdır (vəf. 1608/09).

Məlik Bəhramın üçüncü oğlu baş vəzir *Hatəm xan* haqqında kitabda müstəqil şəkildə geniş məlumat verilir.

Məlik Bəhramın dördüncü oğlu Əbu Turab bəy hesab və katiblikdə mahir idi, əvvəlcə Məşhəd vilayətinin vergi məmuru, daha sonra Məşhəd hakimi *Mürtəzaqulu xan Pörnakın* vəziri kimi xidmət etmişdir.

Məlik Bəhramın beşinci oğlu Herat hakimi *Əliqulu xan Şamlunun* vergi məmuru olmuş, özbəklərin hücumu zamanı faciəli şəkildə öldürülmüşdür. Xan tərəfindən danışıq üçün göndərilmiş məmurları (o cümlədən Məlik Bəhramın bu oğlunu) özbəklər top lüləsinə qoyub Herat qalasına sarı atmışdılar.

Məlik Bəhramın qohumu Mirzə Kafi Münşi sarayda katib vəzifəsində xidmət edirdi və şahın etibarını qazanmışdı.

MƏNTƏŞA SULTAN USTACLU (vəf. 1545/46) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Şeyxlər* (və ya Şeyxlü) oymağından idi. Böyük qardaşı *Saru Pirə bəy Ustaclu* I Şah İsmayılın zamanında *qorçubaşı* (şahın şəxsi qvardiyasının komandiri) kimi xidmət etmiş və *Çaldıran savaşında* igidliklə döyüşərək həlak olmuşdu.

Məntəşa sultan hərbi karyerasına I Şah İsmayılın zamanında başlamışdır. 1506/07-ci iilərdə Sarom xan Kürdə qarşı həyata keçirilmiş yürüşün sərkərdələrindən biri də Məntəşa sultan idi. *Əbdi bəy Şamlunun* ölümü ilə nəticələnmiş həmin yürüşdə Məntəşa sultan və *Durmuş xan* yaralanmışdılar.

1513/14-cü illərdə *Şeyx Heydərin* oğlu (I Şah İsmayılın atabir qardaşı) *Süleyman Mirzə* üsyan qaldıranda şah ona qarşı Məntəşa sultanın başçılığı altında qoşun göndərdi. Döyüşdə Süleyman Mirzə məğlub olaraq öldürüldü. Şah əvvəlcə qardaşını niyə diri halda onun hüzuruna gətirməyib deyə Məntəşa sultana qəzəblənərək onu zindana atdı, amma *Çaldıran döyüşündən* əvvəl bir hərbçi kimi onun xidmətinə ehtiyac duyaraq həbsdən azad etdi.

Məntəşa sultan I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində qızılbaş əmirləri arasındakı döyüşlərdə Ustaclu tayfasının tərəfində fəal iştirak etmişdir. 1529/30-cu illərdə o, digər Ustaclu əmirləri ilə birlikdə şahın hüzuruna gəlib əfv diləmiş və bağışlanmışdı. Sonralar Məntəşa sultan I Şah Təhmasibin dərin etimadını qazanmağa müvəffəq oldu, hətta şahın ona "lələ" deyə müraciət etdiyini

yazırlar. Məntəşa sultan I Şah Təhmasibin zamanında Azərbaycan (Təbriz) hakimi vəzifəsində xidmət etmişdir.
Məntəşa sultanın oğlu Teymur xan Ustaclu Sistan hakimi olmuş, nəvəsi (Teymur xanın oğlu) Murad xan sarayda *süfrəçibaşı* vəzifəsində xidmət etmiş, daha sonra bölgələrə vali təyin olunmuşdu.

MƏSUM BƏY SƏFƏVİ (vəf. 1568/69) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. Onun atası Xacə Xanəhməd I Şah İsmayılın ögey əmisi *Xacə Məhəmmədin* oğlu idi; beləliklə, Məsum bəy I Şah İsmayılın əmisi nəvəsi olmuşdur. Səfəvi nəslinin əsas qolundan ayrılan kənar qolların digər nümayəndələri kimi, o da *şeyxavəndlərə* aid edilirdi.
I Şah Təhmasibin zamanında Məsum bəy adətən şah ailəsinə aid problemlərin həllində Səfəvilər nəslinin nümayəndəsi qismində iştirak edirdi. Səfəvilər nəslindən olmayan şəxsləri sülalə məsələlərinə qatmağı layiq bilməyən şah oğlu İsmayıl Mirzəni (gələcək II Şah İsmayıl) Qəhqəhə qalasındakı həbs yerinə təhvil verməyi Məsum bəyə tapşırmışdı (1556).
Bundan əvvəl I Şah Təhmasibin qardaşı *Əlqas Mirzə* üsyan qaldırıb məğlub olduqdan sonra şah onun yanına dövlətin yüksəkrütbəli məmurlarından ibarət bir heyət göndərdi. (Əlqas Mirzənin anası Xanbikə bəyim və Məsum bəy Səfəvi də onların arasında idi). Şahzadə bu şəxslərin qarşısında and içib bir daha mərkəzi hakimiyyətə qarşı çıxmamağa söz verdi (1546).
1559-cu ildə Osmanlı şahzadəsi Bayezid qardaşı Səlimlə (gələcək II Sultan Səlim) döyüşdə məğlub olduqdan sonra I Şah Təhmasibə pənah gətirdi. Əvvəlcə Təbrizə gəlib, oradan Qəzvinə doğru hərəkət edən Bayezidi qarşılamaq üçün şah Məsum bəyi göndərdi.
Məsum bəy ölkə daxilindəki üsyanların yatırılmasında və osmanlılara qarşı aparılan hərbi əməliyyatlarda da fəal şəkildə iştirak edirdi.
I Şah Təhmasibin əmri ilə Məsum bəy əvvəlcə Ərdəbildəki Şeyx Səfi xanəgahının mütəvəllisi (müdiri) vəzifəsini daşımış, ömrünün sonlarına yaxın bir müddət baş vəzir *(vəkil)* mənsəbində xidmət etmiş və şahın böyük etimadını qazanmışdı. Ona "Rükn əs-səltənə" (Dövlətin dayağı) ləqəbi verilmişdi, hökmdar isə onu "əmioğlu" deyə çağırırdı. I Şah Təhmasibin oğlu şahzadə *Heydər Mirzənin lələsi* (tərbiyəçisi) olmaq məsuliyyəti də ona həvalə edilmişdi.
1568/69-cu illərdə həcc səfərinə gedən Məsum bəy yolda sui-qəsd nəticəsində öldürüldü. Onu, oğlu Xanmirzəni və səfər yoldaşlarını öldürənlərin bədəvi ərəb qəbiləsinə mənsub olduqları yazılır. Lakin şayiəyə görə, osmanlılardan bir dəstə ərəb libası geyinərək onlara hücum etmişdi. Osmanlı sultanı II Səlim bu münasibətlə Səfəvilər dövlətinə elçi yollayıb şaha başsağlığı verdi. Məsum bəyin vəfatından sonra uzun müddət baş vəzirlik məqamına heç kim layiq görülmədi.
I Şah Abbasın vəfatı ərəfəsində yüksək vəzifədə olan qızılbaş əmirlərinin siyahısında Şeyxavənd tayfasından Məsum bəyin oğlu Sədrəddin xan Səfəvinin də adı çəkilir.

Məsum bəyin digər oğlu Seyid bəy Astarabad hakimi vəzifəsində xidmət edirdi, lakin I Şah Təhmasibin vəfatı ərəfəsində vəzifədən uzaqlaşdırılmışdı. Seyid bəyin oğlu *İsa bəy* (vəf. 1632) *qorçubaşı* vəzifəsinə kimi yüksəlmiş, I Şah Abbasın qızı *Zibeydə bəyimlə* ailə qurmuşdu.

Məsum bəyin daha bir oğlu Bəşarət bəy saray dəftərxanasında xidmət etmişdir.

MİR ƏŞRƏF HUTƏKİ (vəf. 1730) – Əfqanıstan ərazisində məskunlaşmış puştu xalqının ğilzayi (və ya ğilcayi) qəbiləsinin hutəki tayfasına mənsub sərkərdə. Qəndəhar hakimi Mir Üveys xanın qardaşı Əbdüləziz xanın oğlu, Səfəvilər dövlətini işğal etmiş *Mir Mahmud Hutəkinin* əmisi oğlu. Mir Əşrəf əfqanların Səfəvilər dövləti üzərinə yürüşündə iştirak etmiş, döyüşlərdə fərqlənmişdi. Mir Mahmud xan ömrünün sonlarında ruhi xəstəliyə düçar oldu və 1725-ci ildə öldü. Bəzi mənbələrə əsasən, Mir Əşrəfin atası Əbdüləziz xanı vaxtilə Mir Mahmud öldürdüyünə görə o da atasının intiqamını alaraq əmisi oğlunu öldürmüş və taxta oturmuşdu.

Mir Əşrəf özündən əvvəlki əfqan şahına nisbətən daha tədbirli və ağıllı davranmağa çalışırdı. O, Səfəvilər dövlətini idarə edə bilmək üçün yerli əyanlara arxalanmağın zərurətini anlayaraq onlarla rabitə yaratmağa və yumşaq rəftar etməyə başladı. Ölkədə qətl-qarətlər dayandırıldı. Bu yolla Mir Əşrəf Mazandarana sığınmış, sonralar özünü şah, Qəzvini isə paytaxt elan etmiş II Təhmasibə qarşı mübarizədə nüfuzunu möhkəmlətmək niyyətində idi. Səfəvi elçisinin Rusiya imperiyası ilə özbaşına bağladığı müqavilə nəticəsində Xəzər dənizinin qərb sahilləri rusların əlinə keçdi. Osmanlılar da fürsətdən istifadə edib Azərbaycanın qərb bölgəsini və Araz çayından cənubdakı Azərbaycan torpaqlarını işğal etdilər. Mir Əşrəf işğalın qarşısını almaq və vaxt qazanmaq üçün danışıqlara getməyə razı oldu. Lakin Osmanlı dövləti öz işğalçılıq siyasətinə guya Şah Sultan Hüseyni hakimiyyətə qaytarmaq cəhdi kimi don geydirdi, böyük Osmanlı qoşunu İsfahan üzərinə yeridi. Mir Əşrəf bu cəhdin qarşısını almaq üçün Şah Sultan Hüseyni öldürüb başını sultana göndərdi, özü isə qoşunun başında osmanlıları qarşılamaq üçün yola düşdü. İki ordu arasında baş vermiş döyüşdə əfqanlar qalib gəldilər, bunun nəticəsində Osmanlı-əfqan gərginliyi bir müddət sakitləşdi.

Bundan sonra Mir Əşrəf Rusiya imperiyasının cənuba doğru irəliləyişinin qarşısını almaq üçün bölgədəki rus qoşununa hücum etdi. Bu döyüşü də udan əfqanlar Mazandaran və Astarabad bölgələrini ruslardan geri aldılar.

II Şah Təhmasib ona qoşulmuş istedadlı sərkərdə *Nadir xan Əfşarın* köməyi ilə getdikcə öz gücünü artırmaqda idi, Səfəvi ordusu Xorasan bölgəsini ələ keçirmişdi. Mir Əşrəf böyük qoşun toplayıb onlara tərəf hərəkət etdi. Əvvəlcə Damğan yaxınlığındakı Mehmandust kəndində, daha sonra Vəramində, üçüncü dəfə İsfahan yaxınlığındakı Murçəxurt məntəqəsində Nadir xan əfqanların sayca çox olan qüvvələrini məğlubiyyətə

uğratdı. Əşrəf xan İsfahanı tərk edib Şiraz istiqamətində geri çəkildi, amma getməzdən əvvəl paytaxtda böyük qırğın törətdi. 1729-cu ilin sonlarında Nadir xan İsfahanda II Təhmasibi taxta çıxardı, özü isə Mir Əşrəf xanı birdəfəlik aradan götürmək üçün Şiraz şəhərinə üz tutdu. 1730-cu ilin əvvəllərində əfqan qoşunu Nadir xanın başçılığı altındakı qızılbaşlarla döyüşdə son və həlledici məğlubiyyətə uğradı. Mir Əşrəf əvvəlcə Luristana, oradan Bəlucistana qaçdı. Qəndəharda hakimiyyət sürən Ğilzayi tayfasının başçısı, Mir Mahmud xanın qardaşı Hüseyn sultan Mir Əşrəfin gizləndiyi yeri öyrəndi və 1730-cu ilin əvvəllərində qardaşının intiqamını alaraq onu öldürdü. Mir Əşrəfin vəfatı ilə Səfəvilər dövlətində 8 il davam etmiş əfqan işğalı dövrü başa çatdı.

MİR MAHMUD HUTƏKİ (vəf. 1725) – Əfqanıstan ərazisində məskunlaşmış puştu xalqının ğilzayi (və ya ğilcayi) qəbiləsinin hutəki tayfasına mənsub sərkərdə.

XVIII əsrin əvvəllərində dürrani, abdali və digər tayfalarla yanaşı Əfqanıstanda söz sahibi olan ğilzayi tayfasının başçısı, Qəndəhar kəlantəri Mir Üveys Səfəvilər əleyhinə qiyam qaldırdı. Qiyamın səbəbi tarix kitablarında Səfəvilərin Qəndəhar valisi, gürcü mənşəli Gorgin xanın (XI Georgi, ləqəbi Şahnəvaz xan) əhaliyə qarşı ədalətsiz davranışı ilə izah edilir. 1709-cu ildə Gorgin xan və tabeliyində olanlar üsyançılar tərəfindən öldürüldü, Səfəvi kontingenti ölkədən qovuldu. Şah Sultan Hüseyn Qəndəhar üzərində hakimiyyəti geri qaytarmağa cəhd etsə də, buna nail olmadı.

Mir Üveysin ölümündən sonra əvvəlcə qardaşı, 1717-ci ildə oğlu Mir Mahmud Hutəki Qəndəhar valisi oldu. Səfəvilər dövlətinin tamamilə zəifləyib gücdən düşdüyünü, hər tərəfi üsyanların büründüyünü görən Mir Mahmud xan ölkəni işğal etmək üçün fürsət yarandığını anladı. O, 1720-ci ildə 10 min nəfərlik qoşunla Səfəvilər dövlətinin içərilərinə doğru kəşfiyyat xarakterli ilk yürüşə çıxdı. Sistan və Kirman şəhərlərini asanlıqla ələ keçirən Mir Mahmud Qəndəharda üsyan qalxdığını eşidib geri qayıtmalı oldu. İki ildən sonra o, daha böyük hərbi qüvvə ilə ikinci dəfə İsfahan üzərinə yeridi. Yol boyunca, demək olar ki, müqavimətlə rastlaşmayan əfqanlar paytaxt yaxınlığına gəlib çatdılar. 1722-ci il mart ayının 8-də İsfahanın Gülnabad kəndində Şah Sultan Hüseynin göndərdiyi böyük ordu (fərqli mənbələr ordunun 30-80 min nəfərdən ibarət olduğunu yazır) onların qarşısını kəsdi. Səfəvi ordusunda hökm sürən qarışıqlıq, qoşun bölüklərinin rəqabəti döyüşdə həlledici rol oynadı. Səfəvi qoşunu daha yaxşı silahlanmasına, əfqanlardan fərqli olaraq piyada bölüklərinə və artilleriyaya sahib olmasına, sayca da onları iki dəfə üstələməsinə baxmayaraq, darmadağın edildi. Mir Mahmud İsfahanı mühasirəyə aldı. 6 aydan çox davam edən mühasirə İsfahan əhalisini əldən saldı, şəhərdə aclıq və xəstəlik başladı. Ərzaq tapılmadığından camaat it-pişik əti yeməyə məcbur olmuşdu. İsfahanın mühasirəsi zamanı şəhərdə ac-

lıq və xəstəlikdən 80 min nəfərin öldüyünü yazırlar.

Şahzadə Təhmasib Mirzə gizlicə şəhərdən çıxıb ölkənin şimalına qaçdı və Mazandaran vilayətində *Fəthəli xan Qacarla* birləşərək özünü şah elan etdi. 1722-ci ilin oktyabrında İsfahan əfqanlara təslim oldu, Şah Sultan Hüseyn nümayişkaranə şəkildə öz tacını Mir Mahmudun başına qoydu. Beləliklə, ğilzayi tayfasının lideri Mir Mahmud xan özünü şah elan etdi. O, əvvəlcə radikal addımlardan çəkinirdi, lakin 1725-ci ildə saraya ziyafətə dəvət olunmuş 300 nəfər qızılbaş əmiri onun əmri ilə öldürüldü. Bunun ardınca taxtdan salınmış Şah Sultan Hüseynin Təhmasib Mirzə, *Səfi Mirzə* və 2 körpədən başqa bütün oğulları amansızlıqla qətlə yetirildi. Bütün ölkə ərazisində qırğın və talanlar törədildi, məzhəbi zəmində təzyiqlər şiddətləndi. Fürsətdən istifadə edən Rusiya və Osmanlı imperiyaları Səfəvilər dövlətinin ərazisinə soxuldu. Rusiya şimal torpaqlarını (Dərbənd, Bakı, Şirvan, o cümlədən Mazandaran, Gilan və Rəşt) ilhaq etdi, osmanlılar Tiflis və İrəvanı, Təbriz daxil olmaqla indiki Cənubi Azərbaycan torpaqlarını, eləcə də Luristanı ələ keçirdilər.

Ömrünün sonlarında Mir Mahmud Hutəkinin ruhi xəstəliyə düçar olduğunu yazırlar. Ətrafındakı yaxın adamları günahsız öldürdüyünə, qeyri-adekvat hərəkətlər etdiyinə, bəzən hətta öz canına qəsd etməyə cəhd göstərdiyinə görə onu əvvəlcə sarayda bağlı otaqda saxlayırdılar. Getdikcə vəziyyəti pisləşən Mir Mahmud yatağa düşdü, bədənində yaralar əmələ gəldi. Ondan əllərini üzən əfqanlar əvvəlcə qardaşını Qəndəhardan çağırmaq istədilər, amma yol uzaq olduğuna və qış fəsli girdiyinə görə bunu etmək mümkün olmadı. Nəhayət, 1725-ci il aprelin 22-də Mir Mahmudun vaxtilə qətlə yetirdiyi əmisi Əbdüləziz xanın oğlu *Mir Əşrəf* onu öldürüb yerinə keçdi.

MİRZƏ HÜSEYN BƏY CAVANŞİR

(vəf. 1612) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Otuzikilər* ittifaqına daxil olan *Cavanşir* oymağının başçısı idi. Azərbaycan torpaqlarının Osmanlı qüvvələri tərəfindən işğalından əvvəl bu oymağa Mirzə Hüseyn bəy Cavanşir başçılıq edirdi. Lakin o, Osmanlı üsuli-idarəsi altında yaşamağa etiraz etməmiş, bəzi digər qızılbaş tayfaları kimi öz məskənini tərk edib cənuba çəkilməmişdi. Buna görə hakimiyyət dairələrində Cavanşir oymağı və Mirzə Hüseyn bəy barəsində mənfi təəssürat formalaşmışdı. Mirzə Hüseyn bəyin kiçik qardaşı *Əlixan bəy Cavanşir* isə Səfəvilərin tərəfində qalmış, I Şah Abbasın tapşırığı ilə bəzi hərbi əməliyyatlarda fəal iştirak etmişdi. I Şah Abbasın Qarabağa doğru yürüşə çıxdığını öyrənən Mirzə Hüseyn bəy peşman olub şahın hüzuruna gəldi və ona tabeliyini bildirdi. I Şah Abbas onu müvəqqəti olaraq yenə Cavanşir oymağının başçısı təyin etdi. Lakin Əlixan bəy bu vəzifəyə özünü daha layiq bildiyi üçün qardaşına qarşı sui-qəsd hazırladı. Mirzə Hüseyn bəy Gəncə bəylərbəyi Məhəmməd xan Ziyadoğlu-Qacarın sarayına sığındığı

üçün qardaşlar arasında münaqişə oraya da keçdi, hətta bəylərbəyinin hərəmxanasında qarışıqlıq yarandı. Bu zaman bəylərbəyinin adamları Əlixan bəyi və ətrafında olanları öldürdülər. Məhəmməd xan Ziyadoğlu hadisədən xəbər tutduqda qəzəblənib Mirzə Hüseyn bəyi də qətlə yetirdi (1612).

MİRZƏ MƏHƏMMƏD TƏQİ ETİMAD ƏD-DÖVLƏ – *bax:* **SARU TAĞI.**

MİRZƏ SALMAN CABİRİ İSFAHANİ (vəf. 1583) – Səfəvilər zamanında yaşayıb xidmət etmiş görkəmli dövlət xadimi. Qeyri-türk (fars) mənşəli, məşhur sufi mütəfəkkir və şair Xacə Abdullah Ənsarinin nəslindən idi. Onun ulu babaları ağqoyunlulara xidmət etmişdi, atası Ağa Mirzə Əli Cabiri isə I Şah Təhmasibin zamanında Şiraz hakimi *İbrahim xan Zülqədərin* vəziri vəzifəsində xidmət edirdi. Mirzə Salman atasının vəfatından (1548) sonra patyaxt Qəzvinə gəldi, burada saray xidmətinə daxil olaraq *naziri-büyutat* vəzifəsinə yüksəldi.

II Şah İsmayıl 1577-ci ildə onu özünə vəzir təyin etdi. Şahın vəfatından sonra Mirzə Salman düzgün qərar verərək Şah Məhəmməd Xudabəndənin tərəfini tutdu, o zaman Şirazda yaşayan Xudabəndənin yanına gedərək onun təcili surətdə Qəzvinə gəlməsini xahiş etdi.

Şah Məhəmməd Xudabəndə zamanında Mirzə Salman Cabiri öz vəzifəsini qoruyub saxlamış, əvvəlcə şahın bacısı *Pərixan xanımla*, onun qətlindən sonra isə şahın xanımı *Məhdi-ülya* ilə müttəfiq olmuşdur. Vəzir və məlikə şahın görmə qabiliyyətinin və xarakterinin zəifliyindən istifadə edərək, faktiki olaraq, hakimiyyəti öz əllərinə keçirməyə nail olmuşdular. Məhdi-ülyanın sevimli oğlu, şahın vəliəhd elan etdiyi şahzadə *Həmzə Mirzənin* atasından sonra hakimiyyətə keçmə şansı bütün qardaşlarından daha çox olduğu üçün Mirzə Salman onun üzərində də təsir yaratmağa çalışırdı. Bu məqsədlə Mirzə Salman qızını Həmzə Mirzəyə ərə vermiş, öz oğlu Mirzə Abdullahı da şahzadənin vəziri vəzifəsinə gətirmişdi.

Mirzə Salman Cabiri Gürcüstandakı gərginliyi danışıqlar yolu ilə həll etdiyinə görə şahın gözündə yüksəlmişdi. O, idarəçilik işlərindən əlavə hərbi sahədə də öz gücünü sınamış, osmanlılara və Krım tatarlarına qarşı yürüşlər təşkil etmişdi. 1578-ci ildə Mirzə Salmanın və Həmzə Mirzənin ümumi komandanlığı altında Səfəvi qoşunu Şirvan torpağına doğru hərəkətə keçdi. Onlar gəlib çatanadək osmanlılar və tatarlar Şirvan bəylərbəyi *Aras xan Rumlunun* qoşununu darmadağın etdilər. Buna baxmayaraq, Mirzə Salman Mollahəsən məntəqəsində tatarlarla döyüşə girib onları ağır məğlubiyyətə uğrada bildi, hətta döyüşdə tatar sərkərdəsi Adil Gəray əsir alındı. Bundan sonra ordudakı qızılbaş əmirləri arasında Dərbəndə hücum etmək mövzusunda mübahisələr başladı, fikir ayrılığına düşən sərkərdələr bir-birindən incik halda dağılışıb getdilər, bununla da Azərbaycan torpaqlarını osmanlılardan təmizləmək imkanı itirildi.

Mirzə Salmanın hərbi yürüşə çıxıb qoşuna başçılıq etməsi saraydakı qızılbaş

sərkərdələrini qəzəbləndirdi. Onlar bundan əvvəl də vəzirin qızılbaşlara nifrətlə yanaşdığı barədə məlumatlı idilər. Qeyri-türk millətindən olan bir saray məmurunun hərb sahəsinə müdaxilə etməsini qızılbaşlar özlərinə təhqir sayırdılar. Onların fikrincə, *tacik* (o zaman farslara bu adla müraciət edilirdi) məmur yalnız dəftərxana və yazı işləri ilə məşğul olmalı idi, müharibə isə türk qızılbaşların işi sayılırdı. Mənbələrdə yazıldığına görə, Mirzə Salmandan şaha şikayət edən qızılbaş əmirləri öz fikirlərini belə əsaslandırmışdılar: "Mirzə Salman bir tacik kişidir; hesab və divan işlərinin icrasından savayı ondan başqa heç nə təvəqqe olunmurdu. Ordu və qoşun toplayaraq özbaşına surətdə səltənət işlərinə müdaxilə edib fitnə-fəsada bais olmaq onun işi deyildi".

Mirzə Salmanın şahzadələr arasındakı rəqabəti gərginləşdirməyə çalışması da qızılbaş əmirlərinin gözündən qaçmırdı. Şah Məhəmməd Xudabəndəni öz oğlu Abbas Mirzənin (gələcək I Şah Abbas) üzərinə Xorasana qoşun çəkməyə təşviq edən Mirzə Salman bu yürüşdə canfəşanlıq göstərirdi. Nəhayət, qızılbaş əmirləri şahın da gizli razılığını alaraq Xorasan yürüşü zamanı Mirzə Salman Cabirini öldürdülər. Ona qarşı təşkil edilmiş sui-qəsd qrupunun əsas üzvləri *qorçubaşı* Qulu bəy Əfşar, *möhürdar Şahrux xan Zülqədər* və *Məhəmməd xan Türkman* idi. Mirzə Salmanın başını kəsib Herat hakimi, Abbas Mirzənin *lələsi Əliqulu xan Şamluya* göndərdilər. Çünki bundan bir müddət əvvəl Abbas Mirzə tərəfdarlarına cəza vermək üçün Mirzə Salmanın təhriki ilə Qəzvində Əliqulu xanın anası (o, həm də Həmzə Mirzənin süd anası idi) boğulub öldürülmüşdü. Sonralar Mirzə Salmanın cənazəsi Məşhəddə dəfn edildi.

MİRZƏ ŞAH HÜSEYN İSFAHANİ – *bax:* **HÜSEYN İSFAHANİ.**

MÖVLANA ŞƏMSƏDDİN LAHİCİ (Gilani) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. Qızılbaş hərəkatına hələ *Şeyx Heydər* zamanında qoşulmuşdu. İsmayıl kiçik yaşlarında Lahicanda, Kərkiya Mirzə Əlinin sarayında qalarkən Mövlana Şəmsəddin onun tərbiyəsi ilə məşğul olmuş, ona Quran oxumağı və digər zəruri bilikləri öyrətmişdi. Mövlana Şəmsəddin 1501-ci ildə *sədr* təyin olunmuş və təqribən 3 il bu vəzifəni icra etmişdir. İsmayıl 1501-ci ildə öz şahlığını elan etdikdən sonra dövlətin özəyini quraraq ilk dövlət vəzifələrinə təyinatlar həyata keçirdi. Bu zaman Mövlana Şəmsəddin Təbrizə dəvət olundu və ona Səfəvilər dövlətində ən yüksək vəzifələrdən olan sədr mənsəbi verildi. Digər işlərlə yanaşı, *vəqflərə* nəzarət də onun öhdəsində idi.

Mövlana Lahicinin oğlu, Şeyxzadə Lahici kimi tanınan Mühyiddin Əhməd Lahici də I Şah İsmayılın dövründə mötəbər din xadimlərindən sayılırdı. Şah onu 1509/10-cu illərdə özbək hökmdarı *Şeybani xanın* məktubuna cavab olaraq yazdığı namə ilə Herata yollamışdı. Şeyxzadə Lahicinin özbək hökmdarına təqdim etdiyi məktubda I Şah İsmayıl onu düşmənçiliyi kənara qoymağa, Sə-

fəvilər dövlətinin sərhədlərini rahat buraxmağa, "müsəlmanların qanının nahaq yerə axmasına səbəb olan işlərə imkan verməməyə" çağırırdı. Missiyasını yerinə yetirmiş Şeyxzadə Şeybək xanın elçisini də özü ilə götürüb geri qayıtdı. Əmir Kəmaləddin Əbivərdi (Taclu bahadır) adlı həmin elçi Şeybani xanın ikinci məktubunu şaha təqdim etdi.

MUSA SULTAN MOSULLU-TÜRKMAN – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Türkman* ittifaqına daxil olan *Mosullu* tayfasından İsa bəy Mosullu-Türkmanın oğlu idi. Bu nəslin başçısı Bektaş bəy olmuşdur. Bektaş bəyin oğlu Bəkr bəy Ağqoyunlu dövləti zamanında Astarabad hakimi olmuş, sonralar Ağqoyunlu şahzadələrinin hakimiyyət davasında öldürülmüşdü. İsa bəy Bəkr bəyin oğlu idi. Bəkr bəyin qardaşı Həmzə bəyin oğlu Mihmad (Mehmed) bəy *Taclu bəyimin* atasıdır. I Şah Təhmasib İsa bəyin qızı və *Musa sultanın* qardaşı *Sultanım bəyimlə* evlənmişdi. Beləliklə, Musa sultan I Şah Təhmasibin qaynı, II Şah İsmayılla Şah Məhəmməd Xudabəndənin dayısı idi. Musa sultanla (Sultanım bəyimlə) Taclu bəyimin ataları əmioğlu idilər.

1532/33-cü illərdə Azərbaycan hakimi *Ulamə sultan Təkəlü* şaha xəyanət edib osmanlılara qoşulduqdan sonra Musa sultan onun yerinə təyin edilmişdi. 1534-cü ildə Səfəvilər dövlətinə hücum etmiş Osmanlı qoşununun sərkərdəsi, vəziri-əzəm İbrahim paşaya xəbər çatdırmışdılar ki, guya Musa sultan onların tərəfinə keçmək və Təbrizi təslim etmək istəyir. Bu xəbər Musa sultandan xəbərsiz halda onun vəziri Xacə Şahqulu və I Şah Təhmasibin müəllimi olmuş Mövlana Əhməd Təbəsi vasitəsilə İbrahim paşaya çatdırılmışdı. Osmanlı sarayı bundan əvvəl Ulamə sultanla daha bir neçə Səfəvi əmirinin qarşı tərəfə keçdiyini nəzərə alaraq bu xəbərə inanmışdı. Lakin İbrahim paşa Təbrizə çatanda artıq Musa sultan I Şah Təhmasibin icazəsi ilə Təbrizi boşaldıb şəhərdən çıxmış və təhlükəsiz yerdə olan şaha qoşulmuşdu. Onun Təbrizi boşaltmasının səbəblərindən biri də qarnizon əsgərləri arasında vəba xəstəliyinin yayılması idi. Ehtimala görə, Musa sultan Təbrizin Osmanlılar tərəfindən ələ keçirilməsindən az sonra vəfat etmişdir.

MÜRŞİDQULU XAN USTACLU (vəf. 1589) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Çavuşlu* oymağından *Şahqulu sultan Yeganın* (vəf. 1576) oğlu idi. Gənclik dövründə özbəklərə və osmanlılara qarşı müharibələrdə fərqlənmiş, 1577-ci ildə II Şah İsmayılın zamanında özü Sistan vilayətinə, qardaşı İbrahim sultan isə Qəzvinə hakim təyin edilmişdi. Şah Məhəmməd Xudabəndə 1578-ci ildə onların hər ikisinə Xorasanın müəyyən bölgələrinin idarəsini tapşırdı. Mürşidqulu xan getdikcə Xorasanda möhkəmlənərək siyasi proseslərə qoşulmağa başladı. O, şahzadə Abbas Mirzənin (gələcək I Şah Abbas) hakimiyyətə gətirilməsinin tərəfdarı idi. Məqsəd birliyi onu Herat hakimi, Abbas Mirzənin *lələsi*, xanlar xanı *Əliqulu xan Şamlu* ilə yaxınlaşdırdı.

Mürşidqulu xan Əliqulu xanla birlikdə Abbas Mirzəni Qəzvindəki müxalif cəbhənin təhlükələrindən qoruyur, əks qüvvələrlə mübarizə aparırdı. Məşhəd hakimi *Mürtəzaqulu xan Pörnak-Türkman* Abbas Mirzə tərəfdarlarının əsas düşməni və bölgədə mərkəzi hakimiyyətin iradəsinin təmsilçisi idi. Mürşidqulu xan uzun müddət onunla siyasi və hərbi sahədə mübarizə apardıqdan sonra, nəhayət, onun vəzifədən uzaqlaşdırılmasına nail oldu.

Kifayət qədər güc topladıqdan sonra Mürşidqulu xan öz müttəfiqi Əliqulu xanla rəqabətə girdi və Abbas Mirzənin üzərində nüfuz qazanmaq uğrunda onunla mübarizə apardı. Mübarizədən qalib çıxan Mürşidqulu xan rəqibini səhnədən kənarlaşdıraraq Abbas Mirzəni öz himayəsində saxladı. Mürşiqdulu xanın səyləri nəticəsində qızılbaş əmirlərinin əksəriyyəti onun tərəfinə keçdi və 1587-ci ildə Abbas Mirzə Qəzvinə daxil olaraq Səfəvi taxtına oturdu. Mərkəzi hakimiyyətin tərəfdarı olan və Abbas Mirzənin hakimiyyətə gəlməsinə hər yolla maneçilik törədən nüfuzlu qızılbaş əmirləri *İmamqulu xan Şamlu, Əliqulu xan Qıçoğlu*, onların tərəfdarları öldürüldülər, müxalif cəbhənin üzvlərinin bütün əmlakı müsadirə edildi. Bununla Mürtəzaqulu xan çəkdiyi əziyyətlərin, o cümlədən qətlə yetirilmiş əmisi Şahverdi bəy Yeganın qisasını almış oldu. Mürşidqulu xan I Şah Abbasın baş vəziri *(vəkili)* təyin edildi. Bundan sonra o, dövlət idarəçiliyində yerini daha da möhkəmlətməyə və şahı öz təsiri altında saxlamağa davam etdi. Bu monopoliya ilə razılaşmaq istəməyən bir neçə qızılbaş əmiri onu öldürmək üçün birləşsə də, məsələnin üstü açıldı və sui-qəsd planının bütün üzvləri edam olundu (1588).

Nəhayət, I Şah Abbas Mürşidqulu xanın həddən artıq gücləndiyini və şahın mütləq hakimiyyətinə təhlükə törətdiyini anlayaraq onu aradan götürmək qərarına gəldi. Herat qalasının özbəklər tərəfindən ələ keçirilməsindən və köməksiz qalmış Herat valisi, şahın keçmiş lələsi Əliqulu xan Şamlunun öldürülməsindən sonra şahın fikri daha da qətiləşdi. Çünki Mürşidqulu xan keçmiş müttəfiqi Əliqulu xana xəyanət edərək şahzadəni onun himayəsindən almış, Əliqulu xanın tabeliyindəki hərbi dəstəni qırmış, bununla da onu özbəklərin qarşısında köməksiz buraxmışdı. Bu mübarizədə zəifləmiş Əliqulu xan Mürşidqulu xanın laqeydliyi ucbatından paytaxtdan yardım ala bilməmiş və sonda Herat şəhəri düşmən əlinə keçmiş, Əliqulu xan həlak olmuşdu. I Şah Abbas qoşun toplayaraq Heratı geri almaq üçün yürüşə çıxdı, Mürşidqulu xana da onu müşayiət etməyi tapşırdı. Şah öz vəzirini paytaxtdan kənarda öldürməyi qərara aldı ki, tabeliyində olan qüvvələrdən istifadə edə bilməsin. Sui-qəsdin həyata keçirilməsi Ustaclu tayfasından Əmət bəy Köşəkoğlu Qarasarlunun başçılığı altındakı dəstəyə həvalə edildi. (Əmət bəy Köşəkoğlu Əliqulu xan Qıçoğlu ilə dost olduğu üçün əmlakı bundan əvvəl vəzir tərəfindən müsadirə edilmişdi və ona qarşı kinli idi). 1589-cu ildə Bəstam yaxınlığında qurulmuş düşərgədə qızılbaş

əmirləri gecə Mürşidqulu xanın çadırına hücum çəkib onu öldürdülər. Sui-qəsddə iştirak edən bütün əmirlərə yüksək rütbələr və mülklər bağışlandı, o cümlədən Əmət bəyə xan rütbəsi və Məşhəd hakimliyi verildi.

Mürşidqulu xanın öldürülməsindən sonra artıq kifayət qədər güclü olan I Şah Abbas hakimiyyəti sərbəst şəkildə idarə etməyə başladı.

MÜRTƏZAQULU XAN PÖRNAK-TÜRKMAN (vəf. 1587) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Türkman* ittifaqına daxil olan *Pörnak* tayfasından Mənsur bəy Pörnakın oğlu idi. Mənsur bəy əvvəllər ağqoyunlular tərəfindən Şiraz şəhərini idarə etmişdir. I Şah İsmayıl uşaq yaşlarında ikən anası və qardaşları ilə birlikdə İstəxr qalasında onun nəzarəti altında həbsdə olmuş, amma Mənsur bəy onlarla yaxşı rəftar etmişdi. Sonralar Mənsur bəy qızılbaşlığı qəbul edərək I Şah İsmayılın tərəfinə keçdi.

Mürtəzaqulu xanın adına II Şah İsmayılın zamanında baş vermiş hadisələrin təsvirində rast gəlirik. I Şah Təhmasibin cənazəsini 300 nəfər *qorçunun* müşayiəti ilə Məşhəd şəhərində İmam Rza (ə) hərəmində dəfn etmək vəzifəsi ona həvalə edilmişdi. *Hüseynqulu xəlifə Şamlu* vəzifədən çıxarılıb kor edildikdən sonra tabeliyindəki *sufilər* qiyam qaldıranda II Şah İsmayılın əmri ilə Mürtəzaqulu xan Pörnak və Müseyib xan Şərəfəddin-oğlu Təkəlü onlara hücum edərək 500 nəfərə yaxın sufini öldürməklə etirazı yatırmışdılar. Bu xidmətin əvəzi olaraq Müseyib xan Rey hakimliyini, Mürtəzaqulu xan isə Məşhəd valiliyini qazandı və bununla Xorasan vilayətinin yarısının *əmir əl-ümərası* oldu. Xorasanın digər yarısı Abbas Mirzənin (gələcək I Şah Abbasın) *lələsi*, Herat valisi *Əliqulu xan Şamlunun* ixtiyarı altında idi. Əliqulu xan şahzadənin lələsi və xanlar xanı rütbəsində olduğu üçün Mürtəzaqulu xandan üstün sayılırdı və mübahisəli məsələlərdə həlledici son qərarı vermək səlahiyyəti ona məxsus idi. Amma Mürtəzaqulu xan onun üstünlüyü ilə barışmaq fikrində deyildi. Əliqulu xanın I Şah Abbası hakimiyyətə gətirmək istəməsi də mərkəzi hakimiyyətə sədaqətli olan Mürtəzaqulu xanla onun arasında uçurum yaradırdı. Şah Məhəmməd Xudabəndə digər oğlu *Həmzə Mirzəni* özünə vəliəhd elan etmişdi və belə bir şəraitdə Mürtəzaqulu xanın gözündə Əliqulu xan şahın iradəsinin əksinə çıxmış sayılırdı. Mürtəzaqulu xanla Əliqulu xanın rəqabəti getdikcə kəskinləşib silahlı qarşıdurma həddinə çatdı. Əliqulu xan qoşunla Məşhəd üzərinə yeridi, Məşhədi tuta bilməsə də, Nişapur və Türbəti-Heydəriyyə şəhərlərinin hakimlərini dəyişməklə öz üstünlüyünü göstərdi. Yalnız Məhəmməd şah Xudabəndənin özünün Xorasana gəlməsi müharibə alovunu bir qədər zəiflətdi. Əliqulu xan şaha tabeliyini elan etdi, əvəzində onun xahişi ilə Mürtəzaqulu xan Məşhəd hakimliyindən çıxarıldı və *Ustaclu* tayfasından *Abdullah xanın* oğlu *Salman xan* onun yerinə keçdi (1581). Bundan sonra Mürtəzaqulu xan Pörnaka Astarabad valiliyi verildi. O, 1587-ci ildə vəfat etmişdir.

Mürtəzaqulu xanın qardaşları Kazım xan Damğanda, Fərrux xan Mazandaran ətrafında hökm sürürdülər, oğlu Məhəmmədqulu xan isə Fars viayətinin bir hissəsini idarə edirdi.

MÜŞƏŞƏİLƏR – XV əsrin ikinci rübündə meydana çıxmış hərəkat və onlar tərəfindən Xuzistan, Hüveyzə ərazisində qurulmuş dövlət. Sözün mənası ərəbcə "parıltılı" deməkdir. Bu hərəkatın banisi şiə məzhəbli Məhəmməd ibn Fəlah adlı şəxsdir. O, yeddinci *İmam Musa Kazimin (ə)* nəslindən olduğunu iddia edirdi. Məhəmməd böyük şiə alimi İbn Fəhd Hillidən dərs almış, hətta onunla qohum olmuşdu. Lakin 1436/37-ci illərdə o, XII *İmam Mehdinin (ə)* nümayəndəsi olduğunu elan etdi və ətrafına tərəfdar toplamağa başladı. İbn Fəhd Hilli şagirdinin fikirlərini batil adlandırıb qətlinə hökm verdi. Məhəmməd ibn Fəlah naiblik iddiası ilə kifayətlənməyib yeni fikirlər irəli sürməyə başladı. O öz dini düşüncələrini "Kəlam əl-Mehdi" kitabında bəyan etmişdir. Bu kitab şiə məzhəbinə aidiyyəti olmayan ifrat ideyalarla *(ğülüvv)* doludur. Məhəmməd ibn Fəlah əvvəlcə İraq ərazisində, Bağdad, Vasit və Cəzairdə özünə xeyli tərəfdar toplamışdı, sonralar onun fikirləri Xuzistan və Hüveyzə bölgələrində daha geniş yayıldı.

XV əsrin ikinci yarısından etibarən bölgədəki ərəb qəbilələrinin yardımı ilə müşəşəilər xeyli gücləndi. Məhəmməd ibn Fəlahla oğulları Mövla Əli (Qaraqoyunlular tərəfindən edam edilmişdir) və Möhsün hərbi yolla öz ideyalarını yaymağa başladılar. Cəzair, Xuzistan, Kuhgiluyə bölgələri, Bəsrə, Şüştər, Duzful, Bəhbəhan, Kirmanşah şəhərləri, hətta Bağdad müşəşəiliyin mərkəzinə çevrildi. I Şah İsmayılın zamanında müşəşəilərin lideri Möhsünün oğlu Sultan Fəyyaz idi. "Aləmarayi-Səfəvi" kitabında yazılanlara əsasən, I Şah İsmayıla xəbər vermişdilər ki, Sultan Fəyyaz nəinki əliallahi əqidəsindədir, hətta tanrılıq iddiası da edir. Bu cür ifrat batil fikirlər şiə məzhəbinin adına ləkə gətirirdi. Müşəşəilər xalqı öz tərəflərinə çəkmək üçün hər üsuldan, hətta gözbağlıca yolundan da istifadə edirdilər. Dərviş qiyafəsinə bürünmüş şəxslər camaat arasında dolaşır, "Əli Allahdır" söyləyərək qılıncı qarınlarına dayayırdılar, lakin guya qılıncın tiyəsi əyilir və onlara zərər vermirdi. Salnamələrə görə, şah İraq səfərindən qayıdarkən (1508) Luristanda *Məlikşah Rüstəmin* üsyanını yatırdıqdan sonra Hüveyzə bölgəsinə tərəf istiqamət götürdü. Döyüşün əvvəlində *Hüseyn bəy Lələnin* başçılıq etdiyi *çərxçi* dəstəsi müşəşəilərə ağır zərbə vurdu. Bunun ardınca şahın sərkərdəliyi altında qızılbaş ordusu savaş meydanına girdi. I Şah İsmayıl şəxsən döyüşdə böyük şücaət göstərmiş, bir neçə güclü ərəb pəhləvanını, o cümlədən Sultan Fəyyazın kürəkəni Nəimi öldürmüşdü. Əvvəlcə Hüveyzəyə sığınan Sultan Fəyyaz sonra şəhəri tərk edib səhra yolu ilə qaçmağa cəhd göstərsə də, qızılbaş qoşunu tərəfindən yaxalandı. Şah özü təkbətək döyüşdə müşəşəi liderini qətlə yetirdi. Səfəvi şahı Hüveyzə əyanlarından ona sadiq olan bir nəfəri hakim təyin edib

geri qayıtdı.
Müşəşəilərə məxsus olan Hüveyzə və ətrafı Səfəvi dövlətinin tərkibində Ərəbistan vilayəti kimi tanınırdı və buranın hakimi Ərəbistan valisi titulunu daşıyırdı. 1508-ci il hadisələrindən sonra müşəşəilərin batil fikirlərinin təbliğinə qadağa qoyuldu və bölgədə ənənəvi şiə əqidəsi hakim oldu.

NADİR ŞAH ƏFŞAR (1688 və ya 1698 -19 iyun 1747) – Əfşar imperiyasının (1736-1796) ilk şahı (hakim. 1736-1747), Əfşarlar sülaləsinin banisi. Türk mənşəli qızılbaş *Əfşar* tayfasının *Qırxlu* oymağından idi. Qırxlunu bəzən Əfşar tayfasının müstəqil oymağı, bəzən də *Gündüzlü* və ya *Əbərlü* oymağının bir qolu kimi mənbələrdə qeyd edirlər. Monqol istilası nəticəsində Orta Asiyadan Azərbaycan torpaqlarına köçmüş Qırxlu oymağı I Şah İsmayıl zamanından Xorasan nahiyəsində məskunlaşmışdı. Səfəvilər onları özbək hücumu qarşısında sipər kimi dəyərləndirirdilər.
Nadirin əsl adının Nədirqulu (Nəzirqulu) olduğunu yazırlar, bəzi məlumatlara görə, babasının adını daşımışdır. Atası İmamqulu bəy Qırxlu oymağının hörmətli şəxslərindən idi, çobanlıq və ya dəri məmulatı ilə məşğul olurdu. Nadir Səfəvilər dövlətinin tərkibində olan Xorasanın Əbivərd mahalındakı Dərgiz məntəqəsinin Dəstcird kəndində doğulmuşdu. Onun tayfası heyvandarlıqla məşğul olur və köçəri həyat sürürdü. Uşaq yaşlarından zirəkliyi, fiziki gücü və iti zehni ilə yaşıdlarından fərqlənən Nadir Azərbaycan türkcəsində danışırdı, fars dilini böyüdükdən və hərbi-siyasi karyeraya başladıqdan sonra öyrənmişdi, amma ömrünün sonunadək azərbaycanca danışmağa üstünlük verir və bunu öz ana dili hesab edirdi.
Nadirin yeniyetməlik və gənclik illəri Səfəvilər dövlətinin tənəzzül dövrünə təsadüf etmişdir. Ölkənin şərq sərhədlərində özbəklərin hücumu güclənmiş, əfqan təhlükəsi yaranmağa başlamışdı. Siyasi-iqtisadi durum böhran içində idi, korrupsiya, rüşvət, özbaşınalıq tüğyan edirdi. Erkən yaşlarında atasını itirmiş Nadir, bəzi mənbələrə əsasən, özbək-türkmən hücumu nəticəsində anası və qardaşı İbrahimlə birlikdə əsir düşmüş, amma əsarətdən xilas ola bilmişdi.
Bundan sonra Nadir karvanları soyğunçulardan xilas edən silahlı dəstələrə qoşulur. Daha sonra o, Səfəvilərin Əbivərd hakimi Babaəli bəy Kosa Əhmədlüyə xidmət etməyə başlayır. Qısa müddətdə xidmətdə fərqlənən Nadir karyera pillələri ilə sürətlə yüksəlir, Əbivərd hakiminin etimadını qazanır və hətta onun iki qızı ilə evlənir. Onun oğulları Rzaqulu Mirzə, Nəsrullah Mirzə və İmamqulu Mirzə bu izdivaclardan doğulmuşlar. Bu dövrdə Nadir İsfahana – Səfəvi sarayına gələrək Əbivərd hakiminin qələbə xəbərlərini Şah Sultan Hüseynə çatdırmış və ondan muştuluq almışdı.
Babaəli bəyin ölümündən (1716) sonra Nadir onun qardaşına, daha sonra bu vəzifəyə İsfahandan təyin edilmiş yeni hakimə xidmət etməyə başladı. Bu illər ərzində Nadirin artmaqda olan nüfuzu Xorasanda söz sahibi olan sərkərdələri və Əfşar tayfasının böyüklərini narahat

edirdi. 1722-ci ildə Səfəvilər dövlətinin paytaxtı İsfahan əfqanların uzunmüddətli mühasirəsindən sonra təslim oldu. Ölkəni xaos bürüdü, belə bir şəraitdə özünü "Şahnamə" qəhrəmanı Keyxosrovun törəməsi adlandıran Məlik Mahmud Sistani qarışıqlıqdan istifadə edərək Xorasan bölgəsini ələ keçirmək fikrinə düşdü. Məlik Mahmud Məşhəd şəhərini tutub kürd tayfalarını öz tərəfinə çəksə də, Nadir bölgənin mühüm simalarından biri olaraq qalırdı. 1724-cü ildə Nadirlə Məlik Mahmud arasındakı rəqabət açıq mübarizə mərhələsinə keçdi. Nadir getdikcə güclənərək Məşhəd şəhərini rəqibinin əlindən aldı, kürd tayfalarının müqavimətini çətinliklə də olsa qırmağı bacardı. Artıq o, Xorasanda ən mühüm güc sahibinə çevrilmişdi.

Səfəvi şahzadəsi Təhmasib Mirzə 1722-ci ildə mühasirədə olan İsfahandan qaçıb Mazandaranda hakimiyyət sürən *Fəthəli xan Qovanlu Qacarın* himayəsi altında yaşamış, daha sonra özünü şah elan etmişdi. II Şah Təhmasib adı ilə hakimiyyətə gələn gənc hökmdar 1726-cı ildə Məlik Mahmud Sistaniyə qarşı Xorasan istiqamətində yürüşə çıxdı. Şahın müttəfiqlik təklifini Nadir razılıqla qarşıladı. O, sentyabr ayında Xəbuşanda düşərgə qurmuş şahın hüzuruna öz silahlı dəstəsi ilə birlikdə gələrək hökmdara beyət etdi. Bu fədakarlığın qarşısında xan titulunu qazanan Nadir tezliklə Səfəvi ordusuna rəhbərlik istiqamətində təşəbbüsü ələ keçirdi. Amma şahı öz təsiri altına almaq yolunda onun qarşısını Fətəli xan kəsirdi. Tezliklə Fətəli xanın guya Məlik Mahmudla əlbir olduğunu sübut edən gizli məktub ələ keçirildi. Bəzi mənbələr Fətəli xanın həqiqətən öz mövqeyinin zəiflədiyini hiss etdikdən sonra qarşı tərəflə danışıqlara getdiyini yazır, bəzi mənbələr isə bu məktubun onu şahın gözündə ləkələmək üçün Nadir tərəfindən yazdırıldığını iddia edir. Sonda II Şah Təhmasibin əmri ilə baş vəzir Fətəli xan Qovanlu-Qacar həbsə alındı və Nadirin etirazına baxmayaraq, edam edildi. Bunun ardınca Nadir Səfəvi qoşununun ali hərbi rütbəsi olan *qorçubaşı* vəzifəsinə irəli çəkildi və şaha sədaqətini sübut etmək üçün Təhmasibqulu xan ləqəbini götürdü.

Məşhədi özünə sığınacaq seçmiş Məlik Mahmud Sistani Fətəli xan Qacarın edamından xəbər tutduqda Səfəvi qoşununun zəiflədiyini düşündü və mühasirəni yarmaq məqsədilə şahın düşərgəsinə hücum etdi. Lakin Nadir xanın hərbi istedadı sayəsində Məlik Mahmudun qüvvələri bütün artilleriyanı itirərək yenidən şəhərə çəkilməyə məcbur oldu. Az sonra Məşhəd qarnizonundakı narazı şəxslər şəhərin qapılarını açdılar (1726, 12 noyabr). Nadir xan Məlik Mahmuda əvvəlcə aman versə də, sonra onun türkmənlərlə gizli danışıq apardığını öyrənib öldürdü (1727).

Bundan sonra Xorasanın şəhərlərini birbirinin ardınca ələ keçirən Nadir xanın mövqeyi xeyli gücləndi. Bundan narahat olan II Şah Təhmasib Xəbuşan məntəqəsinə qaçıb Nadir xana qarşı mübarizə aparmaq üçün kürdlərdən yardım istədi. Lakin Nadir xan kürdlərin müqavimətini qıraraq şahı təslim olmağa məcbur etdi və kürd tayfalarının liderinin

qızı ilə evlənərək öz mövqeyini daha da möhkəmləndirdi.

II Şah Təhmasib İsfahanda hökm sürən əfqanların üzərinə hücum etməyi israrla tələb etsə də, Nadir xan əvvəlcə Heratdakı əfqan abdali tayfasını zərərsizləşdirmək üçün yürüşə çıxdı. Tərəflərin canlı qüvvəsi, demək olar ki, bərabər olsa da, Nadir xan odlu silahdan bacarıqla istifadə etməklə döyüşdə qələbə qazandı, əfqanlar pərakəndə halda Herat istiqamətində geri çəkildilər (1727, oktyabrın əvvəli).

Nadir xanın uzaqda olmasından istifadə edən II Şah Təhmasib bir daha onun təsirindən qurtulmağa cəhd göstərdi, Səbzəvara qaçaraq qala qapılarını bağlatdırdı. Lakin 1727-ci il oktyabr ayının sonlarında Nadir xan şəhəri top atəşinə tutduqdan sonra şah təslim oldu. Sərkərdənin əmri ilə şahı qarovul altında Məşhədə apardılar. Nadir xan II Şah Təhmasibdən şahlıq üzüyünü alaraq onun adından ölkəni idarə etməyə başladı. Bu zamandan etibarən şah ölkə üzərində nəzarəti tamamilə itirərək Nadir xanın oyuncağına və dustağına çevrildi.

1728-ci ildə Nadir xan Mazandaranı ələ keçirib itaətsizlik göstərən iki sərkərdəni (Məhəmməd Əli xan və Zülfüqar xan) cəzalandırdı. 1729-cu ilin Novruz bayramını Məşhəddə keçirən Nadir xan 1723-cü ildən Xəzərsahili şəhərlərə yiyələnmiş Rusiya imperiyasının nümayəndələrinə də xəbər göndərib Gilan bölgəsindən çıxmalarını tələb etdi. Həmin ilin baharında Nadir xan abdali əfqanları ilə məsələni sona çatdırmaq üçün bir daha Herat istiqamətində yürüşə çıxdı. Əfqanların lideri Allahyar xan müqavimət göstərməyə çalışsa da, uğur qazana bilmədi. Nadir xan təslim olan əfqanları bağışladı və Allahyar xanı Herat hakimi təyin etdi. Xorasanda sabitlik yarandıqdan sonra bütün diqqət İsfahan üzərinə yönəldi.

İsfahanda hökm sürən *Mir Əşrəf şah Hutəki* 1729-cu ildə Nadir xanın Herat istiqamətində yürüşdə olduğunu öyrənib qoşunla onun üzərinə yeridi. Lakin Nadir xanın Allahyar xan üzərində qələbə qazanması Mir Əşrəfi ciddi şəkildə sarsıtdı. 1729-cu il sentyabrın sonlarında Damğan yaxınlığındakı Mehmandust məntəqəsində tərəflər qarşılaşdı. Bu döyüşdə əfqan ordusunun 40 min, Səfəvi qoşununun isə 25 min nəfərdən ibarət olduğunu yazırlar. Mehmandust döyüşü, onun ardınca Vəramin yaxınlığında baş vermiş ikinci savaş Nadir xanın üstünlüyü ilə nəticələndi. Mir Əşrəf şah tələsik İsfahana doğru geri çəkildi, şəhərdə qırğın törədib bazarı yandırdı, daha sonra Osmanlı sərkərdəsi Əhməd paşadan yardım alaraq Səfəvi qoşununun qarşısını kəsməyə çalışdı. 1729-cu il noyabrın ortalarında İsfahan yaxınlığımdakı Murçəxurt adlı yerdə baş vermiş döyüş Osmanlı artilleriyasının cəhdlərinə rəğmən Nadir xanın qələbəsi ilə bitdi. Mir Əşrəf xan bir dəstə tərəfdarı ilə Şiraza qaçdı, Nadir xan Səfəvilər dövlətinin paytaxtı İsfahana qalib halda daxil oldu. İsfahandakı əfqan qarnizonunun bir hissəsi öldürüldü, bundan əvvəl əhali ilə nisbətən mülayim davranmış sərkərdə və döyüşçülərə aman verildi, onlar Nadir xanın tərəfinə keçdilər.

Nadir xan İsfahan üzərinə yürüşdən əvvəl II Şah Təhmasibi Tehrana göndərmişdi. 1729-cu ilin dekabrında onun dəvəti ilə şah İsfahana gəldi. Nadir xan Şah Sultan Hüseynin qızı (II Şah Təhmasibin bacısı, Kaxeti çarı Davidin dul qalmış xanımı) *Raziyyə bəyimlə* evlənərək şah nəsli ilə qohum oldu və bu yolla öz hakimiyyət iddiasını daha da əsaslandırdı.

İsfahanı azad etdikdən sonra Xorasan vilayətinin hakimi elan edilmiş Nadir xan əfqan qoşununun qalıqları ilə mübarizəni davam etdirdi. O, Mir Əşrəf şahın qüvvələrini darmadağın etdi, az sonra əfqan lideri də təqib zamanı əmisi oğlu tərəfindən öldürüldü (1730). Nadir xan bundan sonra Azərbaycan torpaqlarını işğal altında saxlamaqda olan osmanlılara qarşı müharibəyə başladı. Kirmanşah, Həmədan, Ərdəbil və Təbriz işğalçılardan təmizləndi. İstanbulda yaranmış siyasi böhran (Sultan III Əhmədin taxtdan salınması) da vəziyyətə həlledici təsir göstərirdi. Həmin il Nadir xan böyük oğlu Rzaqulu Mirzə ilə II Şah Təhmasibin digər bacısı *Fatimə sultan bəyimin* kəbinini kəsdirdi. O, hərbi uğurlarını daha da genişləndirmək və *İrəvan* üzərinə yürümək fikrində idi, lakin Xorasanda başlamış növbəti əfqan qiyamı buna mane oldu. Nadir xanın Xorasan istiqamətində yürüşə çıxmasından istifadə edən II Şah Təhmasib hərbi əməliyyatlara özü rəhbərlik etmək qərarına gəldi. Təcrübəsiz şah İrəvan şəhərini tutmağa uğursuz cəhd edib məğlub oldu, Osmanlı qüvvələri isə İrəvan və Bağdad istiqamətlərindən həmlə edib Kirmanşahla Həmədanı yenidən tutdular. Onlar şahın sadəlövhlüyündən istifadə edərək Təbriz və Ərdəbilə də yiyələndilər, Səfəvi artilleriyası ələ keçirildi. II Şah Təhmasib paytaxt İsfahanı da osmanlılara təslim edib ölkənin şimalına qaçdı. 1732-ci ildə Osmanlı və Rusiya dövlətləri ilə bağlanmış sazişlərə əsasən, Araz çayından şimaldakı bütün torpaqlar osmanlıların, Kür çayından şimaldakı Xəzərsahili şəhərlər isə rusların ixtiyarında qaldı.

Nadir xan əfqan üsyanını yatırıb Məşhəd şəhərini yenidən qardaşı İbrahim xana təhvil verdi, bundan sonra Heratı da qiyamçılardan azad edərək geri qayıtdı. O, şahın özbaşına bağladığı sazişləri qəbul etmək fikrində deyildi. II Şah Təhmasib İsfahan yaxınlığındakı bağların birində düşərgə salıb komandanın qəzəbini yatırmaq üçün yollar axtarmağa başladı. Nadir xan Səfəvi dövlətinin mühüm şəxslərini dəvət edərək II Şah Təhmasibin əyləncəyə və eyş-işrətə bağlı olduğunu onlara nümayiş etdirdi və belə bir hökmdarın hakimiyyətdə qalmasının düzgün olmadığını bildirdi. 1732-ci ilin avqustunda II Şah Təhmasib hakimiyyətdən salındı və Məşhəd şəhərinə göndərildi, onun beşikdəki körpə oğlu Abbas *(III Şah Abbas)* isə formal olaraq şah seçildi. Nadir xan özünə "Naib əssəltənə" və "Vəkil əd-dövlə" ləqəblərini götürərək körpə şahın adından Səfəvilər dövlətini idarə etməyə başladı.

Nadir xan itaətsizlik göstərən Bəxtiyari və Zəndi tayfalarını cəzalandırdıqdan sonra Bağdadı osmanlılardan almaq üçün hərəkətə keçdi. 1733-cü ildə Səfəvi qo-

şunu şəhəri mühasirəyə aldı, Bağdad valisi Əhməd paşa yardım gözləməyə başladı. Osmanlı sarayının sədri-əzəmi, istedadlı sərkərdə Topal Osman paşa böyük ordu ilə Bağdadın köməyinə gəldi. İyul ayında Samirra yaxınlığında baş vermiş döyüşdə Nadir xan həyatında yeganə məğlubiyyəti yaşadı və 30 minə yaxın döyüşçüsünü itirdi. Lakin o, qısa müddətdə qüvvələrini səfərbər edərək *Kərkük savaşında* məğlubiyyətin əvəzini çıxdı. Topal Osman paşa öldürüldü. Bununla belə, Xuzistan və Bəlucistanda başlamış qiyam Nadir xana öz uğurlarını tam möhkəmlətməyə imkan vermədi. Bağdad valisi Əhməd paşa ilə bağlanmış müqavilə, Arazın şimalındakı torpaqları boşaltmaq tələbi Osmanlı sultanı tərəfindən qəbul edilmədi.

Nadir xan Bəlucistandakı qiyamı yatırdıqdan sonra (1734) Azərbaycan torpaqlarını Osmanlı işğalından azad etmək planını mərhələlər üzrə həyata keçirməyə başladı. Qazıqumuq hakimi Surxay xan müqavimət göstərmək istəsə də, sonra qorxu içində Dağıstana qaçdı. 1734-cü ilin sentyabrında Şamaxı şəhəri Nadir xana təslim oldu. Uzun sürən mühasirədən sonra Gəncə və İrəvan şəhərləri osmanlılardan geri alındı. Gəncənin mühasirəsi zamanı Nadir xan ləğımçıların yardımından istifadə etmiş, həmçinin Gəncəçayın suyunu qala divarlarının üzərinə yönəltməklə müdafiəçilərə ciddi ziyan vurmuşdu. Nadir xan Qarsda mövqe tutmuş Osmanlı sərkərdəsi Abdullah paşanı döyüşə cəlb etmək üçün hərbi fənd işlədərək geri çəkildi, qaladakı böyük Osmanlı qoşunu bundan cəsarətlənərək onu İrəvanadək təqib etdi. İrəvan yaxınlığında Səfəvi ordusu qəfil manevr edərək əks-hücuma keçdi və qarşı tərəfi ağır məğlubiyyətə uğratdı. Bundan sonra Nadir xan Tiflis üzərinə hücum etməklə Gürcüstanda da Səfəvi nüfuzunu bərpa etməyə nail oldu. Qafqazda qazanılmış bütün torpaqların hakimiyyəti Nadir xanın qardaşı İbrahim xana verildi. Beləliklə, 1735-ci ilin sonlarına doğru Nadir xan Səfəvi dövlətinin ərazisini əfqan hücumuna qədərki sərhədlər daxilində (yalnız əfqanların əlində olan Qəndəhar bölgəsi istisna edilməklə) bərpa etdi. 1735-ci ildə Gəncədə Rusiya imperiyası ilə bağlanmış müqaviləyə əsasən rus qoşunları Kür çayının mənsəbindən Dərbəndədək Azərbaycan torpaqlarını tərk etdi. Həmin ilin yayında əyalətlərdəki hakimlərə məktublar göndərildi və hamı dövlətin ali qanunverici məclisinə – qurultaya dəvət olundu.

1736-cı ilin yazında Muğan çölündə, Suqovuşan məntəqəsində (Kür və Araz çaylarının birləşdiyi yerdə) 100 min nəfərin iştirakı ilə böyük qurultay təşkil edildi. Novruz günlərinə düşmüş həmin toplantıda Nadir xan Səfəvilər sülaləsinin hakimiyyətinin sona çatdığını elan etdi, III Şah Abbası rəsmi olaraq taxtdan endirdiyini bildirdi və şah titulunu qəbul etməklə keçmiş Səfəvi torpaqlarında hakimiyyət sürməyə başladı. Bölgələrdəki əmirlərin bir qismi səmimiyyətlə, bir qismi də qorxudan onun şahlığını tanıdı, yalnız məhdud sayda dövlət adamları, o cümlədən *II Uğurlu xan Ziyadoğlu-Qacar* Səfəvilər sülaləsinin hakimiyyətdə saxlanmasının tərəfdarı kimi

çıxış etdilər, amma buna görə cəzalandırılıb mülklərindən məhrum oldular. Muğan qurultayında Nadir şah Osmanlı dövləti ilə sülh bağlamaq niyyətində olduğunu elan edib, bunun üçün bəzi şərtlər irəli sürdü. O, həmçinin gələcəkdə izləmək niyyətində olduğu, şiə və sünni məzhəbləri arasındakı ortaq dəyərlər üzərində qurulmuş din siyasətinin əsas prinsiplərini də toplaşanların diqqətinə çatdırdı.

Muğan qurultayından sonra Nadir şah ölkə ərazisindəki bəzi üsyanları yatırdı, II Şah Təhmasibi və III Şah Abbası Səbzəvarda nəzarət altına aldı, qışı İsfahanda keçirib Qəndəhar yürüşünə hazırlaşmağa başladı.

1737-ci ildə Nadir şahın başçılığı altında böyük qızılbaş qoşunu Qəndəhar üzərinə yürüşə çıxdı. Şah yol boyunca əfqan tayfalarının əlində olan məntəqələri tutaraq Qəndəharı mühasirəyə aldı. Səfərbərlik elanı nəticəsində yığılmış dəstələr də orduya qoşuldu. Bir illik mühasirədən sonra əfqanların əsas mərkəzi və qərargahı olan Qəndəharın hakimi Hüseyn sultan (Mir Mahmud Hutəkinin qardaşı) Nadir xana təslim oldu (mart, 1738). Şəhərin əfqan əhalisinin böyük qismi yaxınlıqda yeni salınmış Nadirabad şəhərciyinə köçürüldü.

Qəndəharın fəthindən sonra əfqan tayfalarının (abdali, ğilzayi və s.) bir hissəsi Nadir şahın tərəfinə keçdi, bunun sayəsində ordunun sayı xeyli artdı. Amma əfqanların bir qismi *Böyük Moğol imperiyasının* sərhədlərini keçərək bu ölkəyə sığındı. Nadir şah bundan əvvəl moğol hakimlərinə xəbər yollayaraq qaçqınları qəbul etməmələrini tələb etmişdi. Lakin bu tələbə əhəmiyyət verilmədiyi üçün Nadir şah 1738-ci ildə Böyük Moğol imperiyası üzərinə hücuma keçdi. O, Çingiz xan və Əmir Teymur kimi qüdrətli fatehlərin edə bilmədiyi bir işi reallaşdırmaqla öz adını tarixə yazmaq istəyirdi.

1738-ci ilin iyununda Nadir şah bir neçə həftəlik mühasirədən sonra Kabili ələ keçirdi, daha sonra Sind çayını keçərək Lahur üzərinə yürüdü. Döyüşdə Lahur hakimi məğlub oldu və 2 milyon rupi xərac ödəmək şərti ilə öz vəzifəsində qaldı. Nadir şah onu Hindistan səfərində müşayiət edən 17 yaşlı oğlu Rzaqulu Mirzəni vəliəhd elan edərək Xorasana geri qaytardı.

1739-cu ilin fevralında Dehlinin 20 kilometrliyindəki Kərnal məntəqəsində Nadir şahın qoşunu ilə moğol imperatoru Məhəmməd şahın ordusu qarşılaşdı. Döyüşdə parlaq qələbə qazanan Nadir şah 1739-cu ilin Novruz günlərində Dehliyə daxil oldu. Onun şərəfinə məscidlərdə xütbə oxundu, adına sikkə zərb edildi. Lakin bir neçə gündən sonra Dehlidə baş vermiş üsyan nəticəsində Nadir şahın qoşunundan bir neçə döyüşçü öldürüldü. Qəzəblənmiş şah Dehli əhalisini ağır şəkildə cəzalandırmağı əmr etdi, 20 min nəfər qətlə yetirildi.

Bu arada həmin üsyan nəticəsində Nadir şahın da öldürülməsi barədə şayiələr yayıldı. Məşhəddə atasının adından dövləti idarə edən Rzaqulu Mirzə bu şayiəni əsas gətirərək Səfəvi sülaləsi üzvlərinin hakimiyyəti geri qaytarmaq təhlükəsini birdəfəlik aradan qaldırmaq qəra-

rına gəldi. Onun göstərişi ilə Məhəmməd Hüseyn xan Dəvəlü-Qacar Səbzəvara gəlib II Şah Təhmasibi və oğullarını qətlə yetirdi (1739/40).

Nadir şah Böyük Moğol imperiyasının ondan asılılığını möhkəmlətmək üçün ikinci oğlu Nəsrullah Mirzəni moğol hökmdarı Məhəmməd şahın qızı ilə evləndirdi. Məhəmməd şah yüz milyonlarla rupi xərac müqabilində öz hakimiyyətində bərqərar oldu, lakin Nadir şah fəxri "şahənşah" titulunu özündə saxladı. Dehlidəki şah xəzinəsi, o cümlədən məşhur Kuhi-nur, Dəryayi-nur və Orlov almazları, moğol hökmdarlarına məxsus "tovuzquşu taxtı" Nadir şahın əlinə keçdi. 1739-cu il may ayının ortalarında Nadir şah külli miqdarda qənimətlə Dehlini tərk etdi. O, Nadirabadda ikən II Şah Təhmasibin öldürülmə xəbərini aldı, Rzaqulu Mirzəni bu özbaşına addıma görə vəliəhdlikdən kənarlaşdırıb digər oğlu Nəsrullah Mirzəni canişin elan etdi. Geri qayıdarkən şah Amudərya çayını hind ustalarının hazırladığı qayıqlarla keçdi, Orta Asiyadakı özbək liderlərinin bir qismi ona müqavimətsiz təslim oldu. Buxara xanı öz qızını Nadir şahın qardaşı oğluna ərə verməklə vəzifəsini qoruya bildi. Çingiz xandan qaldığı iddia edilən zireh və Əmir Teymura məxsus qılınc Nadir şaha hədiyyə olundu. Xarəzm (Xivə) xanı müqavimət göstərməyə çalışsa da, axırda təslim olmaqdan başqa çıxış yolu görmədi və xəyanətinin cəzası olaraq öldürüldü. Nadir şah Orta Asiya (Türküstan) torpaqlarını fəth etməklə öz imperiyasının ərazisini xeyli genişləndirdi. İndi bütün keçmiş Səfəvi torpaqlarından əlavə Türküstan və Hindistan da onun tabeliyi altında idi.

1738-ci ildə Dağıstandakı hərbi əməliyyatlar zamanı Nadir şahın qardaşı, Azərbaycan bəylərbəyi İbrahim xan və Gəncə hakimi II Uğurlu xan Ziyadoğlu-Qacar öldürülmüşdülər. Şah qardaşının intiqamını almaq üçün 100 min (bəzi məlumatlara görə, hətta 150 min) nəfərlik qoşunla hücuma keçdi. Yürüş zamanı Mazandaran bölgəsində tüfəng atəşi ilə sui-qəsdə məruz qalan şah öz böyük oğlu Rzaqulu Mirzədən şübhələnərək onun gözlərinin çıxarılmasını əmr etdi.

Qafqazın dağlıq relyefi Nadir şahın irəliləməsinə mane olur və üsyançılara üstünlük qazandırırdı. Dağıstandakı hərbi əməliyyatlar zamanı şah ciddi çətinliklərlə üzləşdi, bu torpaqlara iddialı olan Rusiya da onun yürüşünü diqqətlə izləyirdi. Nadir şaha mane olmaq məqsədilə Osmanlı dövləti özünü Səfəvilər sülaləsinin nümayəndəsi və Şah Sultan Hüseynin oğlu *Sam Mirzə* adlandıran şəxsi dəstəklədi. Sam Mirzə Azərbaycan torpaqlarında qiyam qaldırıb Şirvan hakimini sıxışdırdı. Nadir şahın əmri ilə oğlu Nəsrullah Mirzə üsyançıları darmadağın edib Sam Mirzəni ələ keçirdi. Bir neçə il əvvəl Nadir şahın əmri ilə burnu kəsilmiş Sam Mirzə bu dəfə bir gözündən də məhrum oldu.

Nadir şah hələ Muğan qurultayı zamanı məzhəbləri yaxınlaşdırmaq, cəfəri məzhəbini rəsmi şəkildə tanımaq, Məkkədə dörd əhli-sünnə məzhəbinin ardıcılları ilə yanaşı şiələr üçün də sərbəst ibadət

şəraiti yaratmaq barədə Osmanlı sultanına müraciət etmiş, amma bu çağırışa müsbət cavab almamışdı. Sonralar da Nadir şah İslam vəhdəti istiqamətində bəzi tədbirlər həyata keçirdi, amma İstanbul sarayı yenə cavab addımı atmadı. Əksinə, sultanın təhriki ilə Osmanlı müftiləri cəfəri məzhəbinin bidət olması barədə fətva imzalayıb yeni müharibəyə xeyir-dua verdilər. Nadir şah Dağıstan yürüşündə ikən Osmanlı qüvvələrinin sərhədi keçdiyini eşitdi və böyük qoşunla İraq istiqamətində yola çıxdı. Kərkük qalası ələ keçirildi, Mosul və Bəsrə mühasirəyə alındı. Lakin mühasirələri uzun müddət davam etdirmək mümkün olmadı, axırda Nadir şah İraq valisi ilə barışıq imzaladı. O, Nəcəf, Kərbəla və Kazimeyndəki müqəddəs məzarları təntənəli şəkildə ziyarət etdi, bu məqbərələrə xeyli hədiyyə və *vəqf* əmlakı bağışladı. Son illərin müharibələri külli miqdarda vəsait tələb etdiyindən Nadir şah rəiyyətdən ikiqat vergi alınması, Hindistan əhalisinin 3 illik vergi möhlətinin də ləğv edilməsi barədə fərman imzaladı. Bu hərəkətlər xalqda böyük narazılıq yaratdı, həm yerli feodallar, həm də sadə xalq kütlələri arasında hökmdara qarşı etimadsızlıq gücləndi. Nadir şahın özünə yaxın bildiyi Fars vilayətinin hakimi Məhəmməd Təqi xan Şirazi, Mazandaran hakimi Məhəmməd Həsən xan Qacar (Fətəli xan Qacarın oğlu və Ağa Məhəmməd şah Qacarın atası) qiyam qaldırdılar. Nadir şah bu qiyamları yatırıb Dağıstana daha bir hücum etməklə öz üstünlüyünü möhkəmlətdi. O, osmanlıların əlində olan Qars qalasını bir neçə ay mühasirədə saxladı (1744), daha sonra Yegən paşanın başçılıq etdiyi böyük Osmanlı qoşununu məğlub etdi (1745). Bundan sonra Nadir şah Məşhədə qayıtdı, hakimiyyətinin sonlarına yaxın o, Məşhəd şəhərini dövlətinin paytaxtı hesab edirdi.

1746-cı ildə Tehran yaxınlığında Osmanlı sultanının göndərdiyi elçilər Nadir şahla görüşdülər. 4 aylıq müzakirələrdən sonra iki dövlət arasında yeni barışıq sənədi imzalandı və son hərbi əməliyyatlardan əvvəlki sərhədlər təsdiq edildi.

Bəzi məlumatlara görə, Nadir şah həyatının son illərində həm fiziki, həm də psixoloji cəhətdən ciddi problem yaşamışdır. O, coğrafi mövqe baxımından təbii istehkam sayılan Kəlat məntəqəsində (Xorasan) möhkəm qala tikdirmiş, bütün xəzinəni ora köçürmüşdü. Şah var-dövlətə həris olmuşdu, ətrafdakılarla xəsis davranırdı. Qiyamı yatırmaq bəhanəsi ilə bölgələrə cəza dəstələri yollayır və yerli hakimlərdən iri məbləğdə təzminat tələb edirdi. Şah ətrafındakı qızılbaş əmirlərinə, hətta Əfşar tayfasının nümayəndələrinə şübhə ilə yanaşırdı, ona sadiq olan əfqan əmirlərə əmr vermişdi ki, onları həbs etsinlər. Bundan xəbər tutan qızılbaş tayfalarının bir neçə nümayəndəsi şahı öldürmək qərarına gəldi. 1747-ci il iyun ayının 19-dan 20-nə keçən gecə Xorasanda Xəbuşan yaxınlığındakı düşərgədə qurulmuş çadırda yatan Nadir şah sui-qəsdçilərin hücumuna məruz qaldı, bir neçə nəfəri zərərsizləşdirsə də, ayağı çadırın iplərinə ilişib yıxıldı və qılınc zərbələri ilə

öldürüldü. Nadir şahın qardaşı İbrahim xanın oğlu Əliqulu xan (10 il müddətində Xorasan hakimi kimi xidmət etmişdir) "Adil şah" ləqəbi ilə taxta çıxdı. O, Nadir şahın bütün övladlarını (Rzaqulu Mirzə, Nəsrullah Mirzə, İmamqulu Mirzə də daxil olmaqla) və nəvələrini edam etdirib yalnız 14 yaşlı nəvəsi Şahrux Mirzəni (Rzaqulu Mirzənin oğlu) nəzarət altında sağ buraxdı. Nadir şahın yaratdığı nəhəng dövlət onun vəfatından sonra sürətlə zəifləməyə başladı, qısa müddətdən sonra Əfşar, Bəxtiyari, Zəndi və Qacar tayfaları hakimiyyətə yiyələnmək uğrunda amansız mübarizəyə girişdilər.

Nadir şah Məşhəd şəhərində öz sağlığında ucaltdığı möhtəşəm türbədə dəfn edilmiş, sonralar türbə dağıdılmış və yenidən tikilmişdir. Hazırda Məşhəddə Nadir şahın məqbərə-muzeyi və əzəmətli qəbirüstü abidəsi mövcuddur.

Nadir şah təkcə öz dövrünün deyil, bütün Şərq tarixinin ən böyük fatehlərindən biri olmuşdur. Onu bəzən "Şərqin Napoleonu" adlandırır, Çingiz xan, Əmir Teymur və I Şah İsmayılla müqayisə edirlər. Nadir şah bacarığı sayəsində hərbi-siyasi karyeranın aşağı pilləsindən şahlığa qədər yüksəlmişdi. Onun güclü sərkərdəlik məharəti var idi və döyüşlərin böyük əksəriyyətini qələbə ilə başa vurmuşdu. Bununla belə, ona itaətsizlik göstərənlərə qarşı bəzən son dərəcə amansız davranırdı. Hakimiyyəti itirmək qorxusu onu böyük oğlu Rzaqulu Mirzənin gözlərini çıxartdırmağa sövq etmişdi. Nadir şah sadə ailənin yetirməsi idi və bunu heç zaman gizlətmir, əksinə, döyüşçü nəslindən olması ilə fəxr edirdi. Böyük Moğol imperatoru Məhəmməd şah öz qızını Nadir şahın oğlu Nəsrullah Mirzəyə ərə vermək təklifinə qarşı şərt qoymuşdu ki, onunla qohum olacaq şəxs 7 nəsildən şah övladı olmalıdır. Nadir şah oğluna söyləmişdi: "Cavabında onlara deyərsən ki, mən nəinki yeddinci, hətta yetmişinci nəsildən qılıncın oğlu, qılıncın nəvəsi, qılıncın nəticəsiyəm". Nadir şah süqut etmiş Səfəvilər dövlətinin ərazi bütövlüyünü tam şəkildə təmin etmiş, bundan sonra həmin torpaqları daha da genişləndirərək öz hakimiyyəti altında birləşdirmişdi. Şərqin ən böyük dövlətlərindən biri sayılan Əfşar imperiyasına indiki Azərbaycan, Ermənistan, İran, Əfqanıstan, Türkmənistan torpaqları daxil idi, bundan əlavə, Nadir şah Gürcüstan, Özbəkistan, Pakistan, İraq, İran körfəzi ölkələrinin də ərazisinin bir qismini fəth etmiş və ya öz nəzarəti altına almış, Hindistanın şimal-qərb bölgələrini talan etmişdi.

NƏCM RƏŞTİ (vəf. 1509) – Səfəvilər dövlətində şahdan sonra ən yüksək mənsəb sayılan *vəkil* vəzifəsini icra etmiş qeyri-türk (fars) mənşəli dövlət xadimi. Mənbələrdə adı Əmir Nəcməddin Məsud Gilani (Rəşti) şəklində qeyd edilir, qısaldılmış formada Əmir Nəcm deyilirdi. (Ərəb dilində "nəcm" ulduz deməkdir). I Şah İsmayıl uşaq yaşlarında Gilanda gizləndiyi zamanlarda Nəcməddin Məsud onun yaxın ətrafından sayılırdı, buna görə sonralar da şahın yanında etibar sahibi olmuşdur.

I Şah İsmayıl Səfəvilər dövlətinin bünövrəsini qoyarkən Nəcməddin Məsud Rəştdə idi. Rəşt hakimi onun şiə və Səfəvi tərəfdarı olduğunu öyrənib öldürmək istədi, amma Nəcməddin Məsud bundan xəbər tutub qaçdı və Şirvanşahla döyüş ərəfəsində (1500) özünü I Şah İsmayılın hüzuruna yetirdi.

Mazandaran hakimi *Əmir Hüseyn Kiya Çəlavinin* qardaşı Əmir Əli 1504-cü ildə hakimlik etdiyi Firuzkuh qalasını I Şah İsmayıla təslim etməzdən əvvəl Əmir Nəcm Rəşti vasitəsilə xəbər göndərib aman istəmişdi. Şahdan aman aldıqdan sonra Əmir Əli qalanı qızılbaşlara təhvil verdi, özü isə sonralar qardaşının yerinə Mazandaran vilayətinin hakimi təyin olundu. Rəşt valisi Əmir Hüsaməddin də I Şah İsmayıldan əfvnamə almaq üçün Əmir Nəcmin köməyindən istifadə etmiş, onun vasitəsilə qiymətli hədiyyələri şaha çatdırmışdı (1507).

Ovaxtkı ənənəyə görə, xarici dövlətin başçısı və ya hörmətli elçisi gələndə şah yerli əyanlardan birini ona *mehmandar* təyin edirdi, qonağın yerləşdirilməsi, istirahəti və qidalanması mehmandar tərəfindən təşkil olunurdu. Teymuri hökmdarı *Sultan Hüseyn Bayqaranın* elçisi Əmir Kəmaləddin Sədr diplomatik missiya ilə Təbrizə gəldikdə I Şah İsmayıl Əmir Nəcm Rəştini ona mehmandar təyin etmişdi.

1507-ci ildə I Şah İsmayılın ilk vəkili (tamsəlahiyyətli nümayəndəsi) *Hüseyn bəy Lələ Şamlu* vəzifəsindən azad edildi və Əmir Nəcm Rəşti onun yerini tutdu. Əvvəllər zərgərliklə məşğul olmuş bu şəxsin "ulu dərgaha (yəni şaha) yaxın adam" olduğu və I Şah İsmayılın hərəkata başladığı ilk zamanlarda ona qoşulduğu mənbələrdə vurğulanır. Bütün dövlət ərazisində mülki və iqtisadi məsələlərin həllində ona tam sərbəstlik verildi, heç bir divan əmiri onun işlərinə qarışmaq səlahiyyətində deyildi. Mühüm fərmanların başında vəkilin imzası və möhürü olmalı idi.

I Şah İsmayıl Əmir Nəcm Rəştiyə tamamilə etibar edirdi. Dini işlər üzrə ən yüksək dövlət vəzifəsi olan sədr məqamına təyinat almış Qazı Məhəmməd Kaşani Əmir Nəcmi xəzinədən oğurluq etməkdə günahlandırıb şahda ona qarşı mənfi münasibət yaratmağa çalışmış, amma nəinki buna nail olmamış, hətta özü qəzəbə düçar olaraq öldürülmüşdü.

Şahın *Şeybani xan* üzərinə yürüşündən bir qədər əvvəl Əmir Nəcm Təbrizdə vəfat etdi (1509). Onun Təbrizlə Xoy arasında sətəlcəm olub dünyasını dəyişdiyini yazırlar. I Şah İsmayılın əmri ilə Əmir Nəcm Rəştinin cənazəsi bir il əvvəl fəth olunmuş İraqa aparılaraq Nəcəf şəhərində torpağa tapşırıldı. Onun övladı qalmadığından şah Əmir Yar Əhməd Xuzaniyə vəkillik vəzifəsini həvalə etdi. Bundan sonra şah Əmir Yar Əhmədə *"Nəcmi-sani"* (İkinci Nəcm) ləqəbini verib tapşırdı ki, onu bu adla çağırsınlar.

NƏCMƏDDİN MƏSUD GİLANİ – *bax:* **NƏCM RƏŞTİ.**

NƏCMİ-SANİ (vəf. 1512) – Səfəvilər dövrünün qeyri-türk (fars) mənşəli dövlət xadimi. Əsl adı Əmir Yar Əhməd

Xuzanidir. 1503-cü ildə qızılbaş hərəkatına qoşulmuş, I Şah İsmayıl Ağqoyunlu Sultan Murad üzərində qələbədən sonra İsfahan şəhərini tutanda Əmir Yarəhməd ona 12 min batman taxıl peşkəş etmişdi. Əmir Yarəhməd əvvəlcə *naziri-büyutat*, daha sonra *mustovfi əlməmalik* vəzifələrinə təyin edildi. I Şah İsmayılın sayca ikinci *vəkili* (*Hüseyn bəy Lələ Şamlunun* yerinə təyin edilmiş), ixtisasca zərgər olan *Əmir Nəcm Rəşti* vəfat etdikdən sonra Əmir Yar Əhməd Xuzani onun yerinə vəkil təyin olundu (1509). I Şah İsmayıl fərman vermişdi ki, "Əmir Nəcm Zərgərin adının zati-alilərimizin xatirindən silinib getməməsi üçün bundan sonra Rəis Yarəhmədi "Nəcmi-sani" (İkinci Nəcm) adlandırsınlar". Nəcmi-sani tarixi mənbələrdə hərb sənətini o qədər də yaxşı bilməyən, özündənrazı, karyerist şəxs kimi xarakterizə olunur. "Əhsən ət-təvarix" kitabında yazılıb ki, hər gün Nəcmi-saninin sarayının mətbəxində 100 qoyun kəsilir, 13 gümüş qazan dolusu xörək bişirilirdi. Bu rəqəmlər əmirin xidmətçi və qonaqlarının sayının çoxluğunu ifadə edir.

1510-cu ildə I Şah İsmayıl özbək hökmdarı *Şeybanini* məğlub etsə də, onun varisləri və Orta Asiyanın digər türk xanları Səfəvilər dövlətinin şimal-şərq sərhədlərini hədələyirdilər. I Şah İsmayılın müttəfiqi *Babur şah* qızılbaş qoşununun köməyi ilə 1511-ci ildə özbəkləri məğlubiyyətə uğradıb Səmərqəndi tutdu. Lakin az sonra Orta Asiya xanlarının birləşmiş qüvvələri qarşısında geri çəkilməyə məcbur oldu və Səfəvi şahından bir daha yardım istədi. Hələ bundan əvvəl I Şah İsmayıla xəbər çatmışdı ki, Babur şah onun yardımı ilə qələbə qazandıqdan sonra Səfəvilərlə əlaqələri kəsmək fikrinə düşüb. Bundan narahat olan şah böyük qoşun toplayıb Xorasan istiqamətində göndərməyi qərara aldı. Bu qoşun həm özbəkləri yerində oturtmalı, həm də Babur şaha yerini göstərməli idi. Qoşunun başçılığı Nəcmi-saniyə həvalə edildi.

Nəcmi-saniyə tapşırılmış qızılbaş ordusunun sayı barədə məlumatlar fərqli olsa da, 50 min rəqəmi daha düzgün görünür. Hüseyn bəy Lələ Şamlu, *Abdal bəy Dədə Zülqədər, Zeynal xan Şamlu, Bayram bəy Qaramanlu*, Vəlican sultan Əfşar kimi əmirlər ordunun tərkibində idilər. Bölgəyə çatdıqda Babur şah da 15 min nəfərlik qoşunla onlara qoşuldu. Babur şah o yerləri yaxşı tanıdığı üçün hərəkət istiqaməti və yollar barədə Nəcmi-saniyə məsləhətlər verdi, lakin Səfəvi sərkərdəsi bu məsləhətləri qəbul etməyi lazım bilmədi. Nəcmi-sani öz qəddar davranışı ilə həm tabeliyindəki döyüşçüləri, həm də yerli əhalini narazı salırdı. Yol üstündəki Qərşi qalası mühasirəyə alınanda Nəcmi-sani öz bacısı oğlunu səhlənkarlığa yol verdiyi üçün edam etdirdi. Qala alındıqdan sonra isə əhaliyə divan tutuldu. Bu yolla sərkərdə düşmən tərəfdə qorxu yaratmaq istəyirdi, lakin bu cəza tədbirləri həm qoşunda narazılıq və inamsızlıq yaradır, həm də yerli əhalini qızılbaşlardan uzaqlaşdırırdı.

Səfəvi ordusu Buxara istiqamətində irəliləyərək Qicduvan qalasını mühasirəyə aldı. Payız girmiş, soyuqlar düşmüşdü,

ordunun azuqə ehtiyatı da tükənmək üzrə idi. Nəcmi-saninin cəza tədbirlərindən narazı qaldığı, həm də özbəklərdən qorxduğu üçün yerli əhali qızılbaşlara ərzaq satmaqdan imtina edirdi. Babur şah yürüşü saxlayıb geri qayıtmağı, ehtiyat toplayıb gələn ilin yazında qayıtmağı məsləhət gördü, amma Nəcmi-sani uğursuzluqla barışmaq fikrində deyildi. Qızılbaş qoşununu aclıq və yorğunluq əldən saldı. Bu fürsəti gözləyən nəhəng özbək ordusu Übeydullah xan, Canıbəy sultan və digər cığatay əmirlərinin başçılığı altında hücuma keçdi. Babur şah vəziyyətin ümidsiz olduğunu görərək qoşununu da götürüb savaş meydanından çəkildi. Şiddətli döyüşdə qızılbaşlar dəhşətli məğlubiyyətə uğradılar. Bir neçə görkəmli qızılbaş əmiri (o cümlədən I Şah İsmayılın bacısının əri *Bayram bəy Qaramanlu*) öldürüldü. Nəcmi-sani əsir düşdü və Übeydullah xan tərəfindən edam edildi.

Qicduvan məğlubiyyətindən sonra Səfəvilərin Xorasandakı dayaq nöqtələri birbirinin ardınca əldən çıxdı. Mərv, Bəlx, Herat kimi iri şəhərlər özbəklərin hücumu qarşısında təslim oldu.

Nəcmi-sanidən sonra vəkillik vəzifəsi nemətullahi şeyxi *Nizaməddin Əbdülbaqi Yəzdiyə* (vəf. 1514) verilmişdir.

Bəzi məlumatlara görə, Nəcmi-sani I Şah İsmayılın qızlarından biri ilə evli olmuşdur.

NURƏLİ XƏLİFƏ (vəf. 1515) – Osmanlı dövlətində böyük qızılbaş üsyanlarından birinin başçısı. *Şahqulu xəlifənin üsyanından* bir il sonra (1512) Osmanlı dövlətində daha bir qızılbaş üsyanı başladı. Bu dəfə üsyanın mərkəzi Tokat, Amasya, Şorum və Yozqat bölgələri idi. I Şah İsmayılın tapşırığı ilə tez-tez Osmanlı dövlətinin ərazisinə səfər edən, oradakı qızılbaşlarla şahın arasında əlaqə yaradan Nurəli xəlifə Rumlu öz ətrafına 4 min ailədən ibarət qüvvə topladı (təxminən 20 min nəfər). "Aləmarayi-Səfəvi" salnaməsində yazılıb ki, Nurəli xəlifə *mürşidi-kamilin* (I Şah İsmayılın) məktubunu və başmağını Anadolu qızılbaşlarına aparmışdı. Onlar məktubu və başmağı öpüb gözlərinin üstünə qoymuş və demişdilər: "Xoş olsun sizin halınıza ki, hər gün mürşidi-kamilin didarını görürsünüz... Əmr mürşidi-kamilin əmridir ki, biz sənə xidmət edib başımızı sənin yolunda qoyaq".

II Bayezidin taxtdan endirilməsindən sonra hakimiyyətə yiyələnmiş Sultan Səlim Yavuz taxt-taca iddialı olan qardaşları ilə münasibətləri aydınlaşdırırdı. Belə bir şəraitdə Nurəli xəlifənin üsyanı kifayət qədər geniş ərazini əhatə edə bildi. Tokat şəhəri ələ keçirildi və orada I Şah İsmayılın adına xütbə oxundu. Şahzadə Əhmədin oğlu şahzadə Murad başına qızılbaş tacı qoyub 10 min nəfərlə Nurəli xəlifəyə qoşuldu. Şahzadə Əhmədin lələsi Sinan paşa 2 min əsgərlə üsyanı yatırmağa göndərilsə də, məğlub olub öldürüldü. Sultan Səlimin taxta çıxması ərəfəsində qopmuş bu üsyan dövlət daxilində qızılbaşların gücünü göstərən bir mesaj xarakteri daşıyırdı. Nurəli xəlifə sonralar Səfəvilər dövlətinin ərazisinə keçmiş, I Şah İsmayıl ona Mərv ətrafında mülk bağışlamaq istəsə

də, Nurəli xəlifə Osmanlı sərhədinə yaxın bölgədə olmağı istəmişdi. Şah ona Ərzincan valiliyini verərək demişdi: "Öz adamlarını götür və Ərzincan tərəfə get, o sərhədi tamamilə sənə bəxş edirəm. Bundan başqa, haranı ki iti qılıncının zərbi ilə tutarsan, sənin olsun".

Nurəli xəlifə *Çaldıran savaşında* iştirak etmiş, bir ildən sonra Tunceli ətrafında Bıyıklı Mehmet paşa (Səfəvi mənbələrində Bığlı Mustafa bəy) ilə döyüşdə öldürülmüşdür (1515). Deyirlər ki, Bıyıklı Mehmet paşa Nurəli xəlifənin başını və öldürülmüş 600 qızılbaşın burunlarını kəsib Sultan Səlimə yollamışdı.

OSMANLI DÖVLƏTİ (1299-1922) – XIII əsrin sonlarından XX əsrin birinci rübünədək mövcud olmuş transkontinental müsəlman imperiyası. Dövlətin adı rəsmi mənbələrdə "Dövləti-aliyeyi-Osmaniyyə", yəni "uca Osmanlı dövləti" kimi təqdim olunurdu. Qərb mənbələrində onu çox zaman "Porta" adlandırmışlar. Dövlət öz adını banisi Osman Qazinin adından götürmüşdür. 623 il ərzində dövləti onun nəslindən olan hökmdarlar idarə etmişlər. Osmanlı dövləti başçılarının ləqəbi sultan idi, 1517-ci ildə Məmlük dövlətini məğlub edib Məkkə və Mədinə şəhərlərini ələ keçirdikdən sonra onlar xəlifə titulunu da özlərinə götürdülər. Səfəvi mənbələrində Osmanlı sultanları, bir qayda olaraq, "xondgar" ləqəbi ilə xatırlanırdı. (Başçı, ağa, sahib mənalarını verən "xudavəndigar" sözünün qısaldılmış formasıdır).

Osmanlı dövlətinin banisi Osman Qazi (vəf. 1324) Oğuzun Boz Ok qolundan olan Kayı obasına mənsub Ərtuğrul Qazinin oğludur. O, Anadolu Səlcuq dövlətinin qərb sərhədlərində uçbəyi (Bizans imperiyası ilə həmsərhəd bölgənin hakimi) kimi hökm sürmüş, 1299-cu ildə müstəqilliyini elan etmişdir. Bizans qüvvələrinə qarşı uğurla mübarizə aparmış Osman Qazinin zamanında əvvəlcə Sögüt, daha sonra Yenişəhər paytaxt idi. Onun xələfləri xristianların əlində olan Bursa və Ədirnə şəhərlərini fəth edərək öz paytaxtlarına çevirmiş, həm Balkan yarımadasındakı xristian torpaqlarının, həm də Anadoludakı türkman bəyliklərinin hesabına ölkənin sərhədlərini genişləndirmişlər. 1402-ci ildə sultan İldırım Bayezidin Əmir Teymurla müharibədə dəhşətli məğlubiyyətindən sonra dövlət xeyli zəifləsə də, qısa müddətdə öz gücünü bərpa edə bildi. 1453-cü ildə Sultan II Mehmed Bizansın paytaxtı Konstantinopolu fəth edib İstanbul (İslambul) adlandırdı; bu fəthin şərəfinə ona "Fateh" ləqəbi verildi.

Osmanlı imperiyasının əsas ərazisi hesab olunan Kiçik Asiya yarımadasının cənub-qərb hissəsi (Anadolu torpaqları) *qızılbaş* tayfalarının məskəni idi. Güclü *ələvi-bektaşi* tərbiyəsi altında qərar tutmuş türkmanlar XV əsrdə səfəviyyə təriqətinin şeyxləri ilə sıx rabitə saxlayırdılar. Xüsusilə Şeyx Cüneyd və *Şeyx Heydər* zamanında Anadoluda böyük ələvi-bektaşi (qızılbaş) icması yarandı. Şeyx Heydər və I Şah İsmayıl öz *xəlifələri* (təriqət üzrə canişinləri) vasitəsilə *Zülqədər*, *Rumlu*, *Şamlu*, *Ustaclu*, *Təkəlü* kimi iri türkman tayfalarını nəzarət altında saxlayır, hətta Osmanlı dövlətini

daxildən zəiflətmək üçün onların üsyanlarını dəstəkləyirdilər. Sonralar bu tayfaların əksər hissəsi Osmanlı dövlətini tərk edərək Səfəvi torpaqlarına köçdü və fərqli məkanlarda məskunlaşdı. I Şah İsmayılın dövlət quruculuğu istiqamətində atdığı ilk addımlar zamanı qızılbaş qoşununun böyük hissəsini Osmanlı torpaqlarından köçüb gəlmiş qızılbaş türkman tayfaları təşkil edirdi.

Osmanlı sultanlarının Səfəvilər sülaləsi ilə münasibətləri ilk dövrlərdə o qədər də gərgin deyildi, hətta sultanlar Ərdəbildəki Şeyx Səfi xanəgahına hər il iri miqdarda nəzir (çıraq pulu) göndərirdilər. I Şah İsmayılın hakimiyyətə gəlişindən sonrakı təqribən 10 il ərzində Sultan II Bayezid Səfəvilər dövləti ilə açıq konfliktdən çəkinirdi. Lakin 1512-ci ildə Sultan I Səlim Yavuzun hakimiyyətə gəlişi ilə iki qonşu dövlət arasında gərginlik sürətlə artaraq 1514-cü ildə *Çaldıran döyüşü* ilə nəticələndi. Bundan sonrakı onilliklər ərzində də *Səfəvi-Osmanlı* müharibələri mərhələlər üzrə davam etdi; müharibələrdə gah bu, gah da digər tərəf üstünlük qazanırdı. Osmanlı imperiyasının aktiv ekspansiya siyasəti qarşısında Səfəvilər adətən müdafiə taktikasını izləyir və daha az itki ilə kifayətlənməyə çalışırdılar. I Şah Təhmasib zamanında Osmanlı ordusunun Səfəvi torpaqlarına etdiyi silsilə yürüşlər "yandırılmış torpaq" taktikası nəticəsində uğursuzluqla nəticələndi. Şah Məhəmməd Xudabəndənin zəif xarakterindən və təcrübəsizliyindən istifadə edən osmanlılar üstünlüyü ələ alsalar da, sonralar I Şah Abbas bütün itirilmiş torpaqları geri qaytardı. Ondan sonra hakimiyyətə gəlmiş I Şah Səfi İraq torpaqlarını osmanlılara güzəştə getdi, amma 1639-cu ildə bağlanmış *Qəsri-Şirin müqaviləsi* ilə tərəflər arasında 85 ilə yaxın müddətdə sülh qorundu. Səfəvilər dövlətinin əfqan işğalı qarşısında çökməsindən sonra osmanlılar yenidən müharibəyə başlayıb uğur qazandılar, lakin bu dəfə bacarıqlı sərkərdə *Nadir xan Əfşar* sərhədləri əvvəlki vəziyyətə qaytardı.

Osmanlı dövləti XVIII və XIX əsrlərdə Rusiya imperiyası ilə bir neçə dəfə müharibə aparmış, lakin bunların hamısı Rusiyanın üstünlüyü ilə başa çatmışdır. XIX əsrin 40-cı illərində Osmanlı dövlətində irimiqyaslı islahatçılıq hərəkatı başladı (Tənzimat hərəkatı). Bundan sonra bir sıra ölkələr Osmanlı imperiyasının tərkibindən ayrılaraq öz müstəqilliyini elan etdi. Birinci Dünya müharibəsində Osmanlı imperiyası Almaniyanın müttəfiqi olaraq Antantaya qarşı savaşdı, müharibə başa çatandan sonra imperiyanın bölünməsi prosesi başladı. Osmanlı imperiyası sürətlə müstəmləkələrini itirdi, nəhayət, 1922-ci ildə sultanlıq, 1924-cü ildə isə xilafət ləğv edildi. Hazırkı Türkiyə Cümhuriyyəti Osmanlı imperiyasının varisidir.

Osmanlı imperiyası uzun müddət müsəlman Şərqinin aparıcı və ən güclü dövlətlərindən biri olaraq qalmış, Şərqlə Qərb, Avropa ilə Asiya arasında əlaqələndirici mədəni-siyasi körpü rolunu oynamışdır. İndiki Türkiyə, Suriya, İraq, Misir, Fələstin, Səudiyyə Ərəbistanı, Şimali Afrika ölkələri, Gürcüstan, Krım, Moldova, Kipr, Balkan dövlətləri (o

cümlədən Yunanıstan, Bolqarıstan, Macarıstan, Albaniya, Bosniya, Makedoniya, Serbiya, Monteneqro və s.) tarixin müxtəlif dönəmlərində Osmanlı imperiyasının tərkibində olmuş və ya onun təsir dairəsi altına düşmüşlər. Azərbaycan torpaqları da müəyyən dönəmlərdə Osmanlı imperiyası tərəfindən işğal edilmiş və burada bir neçə onillik ərzində Osmanlı üsuli-idarəsi bərqərar olmuşdur. (XVI əsrin axırları, XVII əsrin əvvəlləri və XVIII əsrin 20-30-cu illəri). Dünyanın ən böyük imperiyalarından sayılan çoxmillətli Osmanlı dövlətinin ərazisi ən geniş həddə çatdığı 1683-cü ildə 5.200.000 kv.km sahəyə malik idi.

Osmanlı dövlətində yaşamış ədəbiyyat və incəsənət xadimləri, şair və ədiblər, rəssam və xəttatlar, musiqiçilər Şərq mədəniyyətinin inkişafına mühüm töhfələr vermişlər. Osmanlı imperiyasının elmi-mədəni həyatında Səfəvilər dövlətindən köçüb gəlmiş, xüsusilə soyğunçu yürüşlər nəticəsində əsir tutulub aparılmış sənətkarların mühüm rolu olmuşdur. Osmanlı müəlliflərinin əsərləri iki dövlət arasındakı münasibətləri işıqlandırmaq baxımından Səfəvilər tarixi üzrə mühüm mənbələrdən sayılır.

PEYKƏR XAN İYİRMİDÖRD QACAR – görkəmli qızılbaş əmiri. *Qacar* tayfasının *İyirmidörd* oymağına mənsub idi. I Şah Abbasın vəfatı ərəfəsində yüksək dövlət xidmətində olan iki Qacar əmirinin adı mənbələrdə çəkilir ki, bunlardan biri Peykər xan İyirmidördür. Ənənəyə görə, çox zaman Qarabağ bəylərbəyliyində Gəncədən sonra ikinci böyük şəhər sayılan Bərdənin hakimliyinə bəylərbəyi özü deyil, başqa bir əmir təyin edilirdi. I Şah Abbas zamanında Bərdə şəhərini uzun müddət Peykər xan idarə etmişdir.

I Şah Abbasın əmri ilə Peykər sultan mərhələli şəkildə Gürcüstana hərbi yürüşlər həyata keçirirdi. Kaxetinin üsyankar gürcü hakimlərini cəzalandırmaq məqsədilə təşkil edilən yürüşlərdə digər qızılbaş tayfalarının əmirləri də (o cümlədən *Məhəmmədqulu xan Ziyadoğlu-Qacar*) ona yardım göstərirdilər. Səfərlərin birində Peykər sultanın qardaşı Həsənəli bəy tüfəng gülləsindən həlak oldu (1616/17). 1620-ci ildə I Şah Abbas Peykər sultana xan rütbəsi verdi, ailəsi və oymağı ilə birlikdə Qarabağdan köçüb Kaxetidə məskunlaşmağı tapşırdı. Peykər xan İyirmidörd ailəsi və tayfa üzvləri ilə birlikdə yola çıxıb Qırlanquç qalasında möhkəmləndi. O, məntəqədə böyük abadlıq işləri görür, xalqın rifahını yüksəltməyə çalışırdı. Qaçqın düşmüş insanlar əmin-amanlıq abhavasını görüb öz yerlərinə qayıdırdılar. Lakin bir müddət sonra üsyankar gürcü əmirləri hərbi güc toplayıb qızılbaşları sıxışdırmağa başladılar. Sabitlik yaratmaq üçün məntəqəyə gəlmiş Səfəvi ordusunun güclü sərkərdəsi *Qərəçəqay xan* və oğlu İmamverdi bəy, Şirvan əmir əlümərası *Yusif xan* "Böyül Mouravi" ləqəbli Georgi Saakadze tərəfindən xainliklə öldürüldülər, qızılbaş ordusu ağır zərbə alıb pərən-pərən düşdü. Peykər xan qarşı tərəfin üstünlüyünü nəzərə alıb qalanı boşaltmağa məcbur oldu (1625). I Şah Səfinin zamanında Peykər xanın

vəzifəsi İyirmidörd oymağından İbrahim xan Qacara verildi, amma o da az sonra vəzifəsindən azad edilib elçi qismində İstanbula göndərildi.

PEYKƏR SULTAN ZİYADOĞLU-QACAR (vəf. 1581) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* nəslindən *Şahverdi sultanın* qardaşı oğlu idi. II Şah İsmayıl hakimiyyətə keçəndə Şahverdi sultanın oğlu, şahzadə *Heydər Mirzənin* tərəfdarı olmuş *Yusif xəlifəni* Qarabağ bəylərbəyliyindən azad edib, onun əmisi oğlu Peykər sultanı həmin vəzifəyə gətirdi. Peykər sultan gözdən düşmüş Yusif xəlifəni öldürməklə şahın rəğbətini qazanacağını düşünərək onun evinə hücum etdi. Hamamdan çıxan Yusif xəlifə, eləcə də onun qardaşları və anası qətlə yetirildilər. Xəbər II Şah İsmayıla çatanda bu qəddar hadisədən xoşlanmadı, Peykər sultanı vəzifədən götürüb Qacar tayfasının *Yıva* oymağından *İmamqulu xanı* Qarabağ və Gəncə bəylərbəyi təyin etdi (1576).

Şah Məhəmməd Xudabəndənin zamanında Peykər sultan mövqeyini bərpa edə bildi. İmamqulu xanın məsləhəti əsasında şah ona Şirvan bəylərbəyi mənsəbini bağışladı (1581). Digər bir neçə qızılbaş əmirinə də Şirvanda mülklər hədiyyə olundu və onların hamısı xidmət yerinə yola düşdü. Bu dövrdə Şirvan vilayəti osmanlılarla Səfəvilər arasında mübarizə meydanına çevrilmişdi. Şah əmirlərə Şirvanda mülklər bağışlamaqla bu torpaqların əsl sahibinin Səfəvilər olduğunu Osmanlı tərəfinə anlatmaq istəyirdi. Şirvanda vəziyyəti nizamlamağa məmur edilmiş İmamqulu xan Qacarın Osmanlı valisi ilə anlaşması nəticəsində qərara alındı ki, Səfəvilər tərəfdən bir nəfər elçi İstanbula gedib Şirvan torpaqlarının taleyi barədə danışıqlara başlasın. Lakin Osmanlı paşaları arasındakı düşmənçilik üzündən bu plan uğursuzluqla nəticələndi.

Peykər sultan həmin il Şirvana soxulmuş Krım tatarları ilə döyüşüb onları məğlub etdi. Şamaxı ilə Şabran arasında baş vermiş savaşda tatarların sərkərdəsi Adil Gəray əsir düşdü. Bu qələbədən sonra Peykər xanın hörməti artdı. Amma qəfildən xəstələnən Peykər xan tezliklə dünyasını dəyişdi (1581), onun vəzifəsi *Ənsar xəlifə Qaradağluya* həvalə olundu. Lakin yeni bəylərbəyi osmanlılarla mübarizədə uğur qazana bilməyib tezliklə vəfat etdi. Bundan sonra qızılbaş əmirləri osmanlıların təzyiqi qarşısında davam gətirə bilməyib Şirvanı tərk etdilər və bu bölgə I Şah Abbas tərəfindən geri alınanadək Osmanlı hakimiyyəti altında qaldı.

PİRBUDAQ XAN PÖRNAK-TÜRKMAN (vəf. 1616) – görkəmli qızılbaş əmiri, sərkərdə və dövlət xadimi. *Türkman* ittifaqına daxil olan *Pörnak* tayfasından idi. I Şah Abbas Osmanlı dövləti ilə müharibələr gedişində Səfəvi torpaqlarını azad etdikcə həmin məntəqələrə qızılbaş tayfalarının döyüşlərdə fərqlənmiş nümayəndələrini hakim təyin edirdi. 1603-cü ildə Pirbudaq xan Azərbaycan (Təbriz) bəylərbəyi vəzifəsinə gətirildi. Bundan sonra da o, osmanlılara

qarşı döyüşlərdə fəal iştirak etmiş və öz tabeliyindəki ərazilərdə qopan üsyanları yatırmışdır. Azərbaycan bəylərbəyliyində baş verən problemli hadisələrdə I Şah Abbas onun fikri ilə razılaşırdı. 1616-cı ildə Səlmas ətrafında kürdlər üsyan qaldırdılar və Pirbudaq xan digər əmirlərin yardımı ilə üsyanı yatırarkən döyüşdə öldürüldü. Ondan sonra oğlu *Şahbəndə bəyə* xan rütbəsi verilərək Azərbaycan bəylərbəyliyinə göndərildi.

PİRBUDAQ XAN PÖRNAK-TÜRKMAN – qızılbaş əmiri və dövlət xadimi. *Türkman* ittifaqına daxil olan *Pörnak* tayfasından *Şahbəndə xanın* oğludur. 1625-ci ildə Şahbəndə xanın Gürcüstan əmirləri ilə döyüşdə həlak olmasından sonra I Şah Abbas 3 yaşlı Pirbudağa xan rütbəsi verib onu Azərbaycan bəylərbəyi seçdi. Pirbudağın qohumlarından biri onun qəyyumu təyin olundu. 3 yaşlı uşağın bu cür məsuliyyətli vəzifəyə gətirilməsi Səfəvilər tarixində nadir hadisə olmuşdur. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" əsərində bu barədə yazırdı: "Keçmiş zamanlarda kamkar sultanlar və ədalətşüar padşahlar arasında canlarını fəda eləyən insanlara qarşı belə bir diqqət göstərilməmiş, yəni üç yaşlı uşağa uca əyalət və əmir əl-üməralıq rütbəsi verilməsi və çocuğun imtiyaz və iftixar xələtinə layiq görülməsi kimi hala olduqca az təsadüf olunmuşdur". Səfəvilər dövlətində bəylərbəylik vəzifəsi adətən şəxslərin dövlət qarşısında xidmətlərinə görə verilirdi, bu vəzifə irsi şəkildə ötürüləndə də şəxsi keyfiyyətləri nəzərə almağa çalışırdılar. II Pirbudaq xanın bu təyinatı ilk növbədə I Şah Abbasın Pörnak tayfasını öz tərəfində saxlamaq və Şahbəndə xanın vəfatından sonra yaranmış sarsıntını aradan qaldırmaq məqsədi daşıyırdı.

Lakin I Şah Səfi Pirbudağın yaşının azlığını əsas gətirərək Azərbaycan kimi məsuliyyətli bir bölgəni onun ixtiyarında saxlamaq istəmədi, 1634/35-ci illərdə onu vəzifədən azad edib bir neçə ildən sonra daha az əhəmiyyəti olan bir bölgəyə hakim qoydu. Azərbaycan bəylərbəyliyi isə *qulam* əsilli *Rüstəm xana* həvalə edildi. 1643-cü ildə Rüstəm xan II Şah Abbas tərəfindən edam edildikdən sonra artıq yetkin yaşda olan II Pirbudaq xan Pörnak-Türkman yenidən Azərbaycan bəylərbəyi və Təbriz hakimi vəzifəsinə təyinat aldı. 1650-cı ildə II Şah Abbas onu vəzifədən götürərək yenə qızılbaş olmayan, qulam əsilli *Əliqulu xanı* (Rüstəm xanın qardaşı) Azərbaycana hakim təyin etdi.

PİRƏ MƏHƏMMƏD XAN USTACLU (vəf. 1580) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Çavuşlu* oymağına mənsub idi.

Pirə Məhəmməd xan I Şah Təhmasibin zamanında şahzadə *İmamqulu Mirzənin* *lələsi* təyin edilmişdi. 1571-ci ildə Gilan hakimi *Allahqulu sultan Eycəkoğlu Kərəmpa* üsyançılarla bacara bilmədiyinə görə şah tərəfindən vəzifədən uzaqlaşdırılmış, yerinə Pirə Məhəmməd xan Gilan hakimliyinə gətirilmişdi.

I Şah Təhmasibin vəfatı ərəfəsində qızılbaş əmirləri arasında yaranmış qarşıdurmada Pirə Məhəmməd xan şahzadə İs-

mayıl Mirzənin (gələcək II Şah İsmayıl) taxt-taca namizədliyini dəstəkləmişdi. II Şah İsmayıl hakimiyyətə keçdikdən sonra *Təkəlü* tayfası keçmiş ədavətə görə Ustaclu tayfasından qisas almaq fikrinə düşdü, ustaclulardan xeyli adam öldürüldü, hətta şahın tərəfdarı olan Pirə Məhəmməd xanın oğlu Əlixan bəy də bu qırğından amanda qalmadı. Şah ustacluların könlünü almaq və bu tayfa ilə münasibətləri qaydaya salmaq üçün Pirə Məhəmməd xanın qızı ilə evləndi (1576). Bundan sonra Pirə Məhəmməd xanın və tayfasının qızılbaş əmirləri arasındakı mövqeyi müvəqqəti bərpa olundu.

Pirə Məhəmməd xan Şah Məhəmməd Xudabəndənin zamanında da Ustaclu tayfasının ağsaqqalı sayılırdı. Ona Tarım və Xalxal məntəqələrində yeni mülklər bağışlandı. Bu dövrdə Pirə Məhəmməd xan osmanlılara və Krım tatarlarına qarşı döyüşlərə qatıldı. O, həmin dövrün ən güclü qızılbaş əmirlərindən sayılan Azərbaycan bəylərbəyi *Əmir xan Mosullu-Türkmanla* da qohum olmuşdu; Pirə Məhəmməd xanın qızı Əmir xanın oğlu Sultan Muradın həyat yoldaşı idi.

Pirə Məhəmməd xan Şirvan bəylərbəyi *Salman xan Ustaclunun* başçılıq etdiyi qoşunun tərkibində osmanlılara qarşı hərbi əməliyyatlarda iştirak etmiş, 1580-ci ildə öz əcəli ilə dünyasını dəyişmişdir. Ondan sonra Ustaclu tayfasının ağsaqqallığı oğlu Pirə Murad xana verildi, lakin o, tayfa arasında atası qədər nüfuz qazana bilmədi. Üstəlik, Xorasanda Ustaclu tayfasının nümayəndəsi *Mürşidqulu xanın* Abbas Mirzəni (gələcək I Şah Abbası) müdafiə etməsi, bununla da *Həmzə Mirzəni* özünə vəliəhd elan etmiş şahın iradəsinə qarşı çıxması bu tayfanın nüfuzunu xeyli aşağı saldı.

RƏVANQULU XAN – qızılbaş əmiri. Həyatı haqqında məlumat azdır. Məlum olan budur ki, I Şah İsmayıl ona 1509/10-cu illərdə Çuxursəd məntəqəsində, Zəngi çayının sahilində, indiki *İrəvan* şəhərinin yerində möhkəm bir qala tikməyi əmr etmişdi. Rəvanqulu xan 7 il ərzində qalanın tikintisini tamamlamış, qala onun adı ilə "Rəvan qalası" adlanmışdır. Sonralar yerli dialektə uyğun olaraq "Rəvan" sözü "İrəvan" formasına düşmüşdür. Rəvanqulu xanın göstərişi və rəhbərliyi altında ucaldılmış qala dövrünün ən möhkəm və möhtəşəm istehkamlarından sayılırdı.

Məşhur səyyah Övliya Çələbi səyahətnaməsinin ikinci cildində Rəvan qalası haqqında məlumat verərkən qalanı tikdirmiş şəxsi I Şah İsmayılın vəziri kimi təqdim edir. Lakin tarixi mənbələrdə I Şah İsmayılın vəzirləri arasında belə bir şəxsin adına rast gəlinmir. Rəvanqulu xanın Çuxursəd bölgəsinə təhkim edilmiş qızılbaş əmirlərindən (qoşun başçılarından) biri olduğu ehtimal edilir.

RÜSTƏM BƏY QACAR – qızılbaş əmiri. *Qacar* tayfasından Tozqoparan ləqəbli məşhur sərkərdə *Qara Piri bəyin* oğludur. Atası Qara Piri bəy *Şeyx Heydər* zamanından qızılbaş hərəkatının ön cərgələrində yer tutmuş, I Şah İsmayılın uşaq yaşlarından etibarən yanında olmuşdu, *əhli-ixtisas* adlandırılan yeddi qızılbaş əmirindən biri idi. Rüstəm bəy

gənc yaşlarından döyüşlərdə fərqlənmiş, buna görə 1508-ci ildə I Şah İsmayıl tərəfindən Qarabağ vilayətinə bəylərbəyi təyin edilmişdi. Bəzi mənbələr Qarabağ bəylərbəyliyinin I Şah Təhmasib tərəfindən təsis edildiyini və *Gökçə sultan Qacarın* ilk Qarabağ bəylərbəyi olduğunu yazır. Lakin Rüstəm bəyin 1508-ci ildə baş vermiş vəzifə təyinatı onu göstərir ki, Qarabağ bəylərbəyliyi inzibati vahid olaraq hələ I Şah İsmayılın zamanından mövcud idi. Rüstəm bəy Qacarın həyatı barədə mənbələrdə digər məlumat yox dərəcəsindədir.

Heydər Çələbinin "Ruznamə" əsərində Çaldıran savaşında həlak olmuş qızılbaş əmirləri sırasında Muğan hakimi Ağzıvar bəyin qardaşı, Gəncə və Bərdə hakimi Sərdar bəyin adı çəkilir. Burada qeyd edilən Ağzıvar bəyin I Şah Təhmasib zamanındakı Herat hakimi və şahzadə *Sam Mirzənin lələsi Ağzıvar xan Şamlu* olması mümkündür. (Onun Muğan hakimi olması barədə digər mənbələrdə məlumata rast gəlmədik). Bu məlumat doğrudursa, Rüstəm bəy Qacardan sonra 1514-cü ilədək Qarabağ bəylərbəyi vəzifəsində dəyişiklik olmuş və bu vəzifə Şamlu tayfasından Sərdar bəyə verilmişdir. ("Sərdar" sözünün, ümumiyyətlə, şəxs adı deyil, "sərkərdə, komandan" mənasını verən rütbə adı olması da mümkündür).

RÜSTƏM BƏY QARAMANLU – qızılbaş sərkərdəsi. *Qaramanlu* tayfasına mənsub idi. Həsən bəy Rumlu "Əhsən ət-təvarix" kitabında onun digər qızılbaş sərkərdəsi *Bayram bəy Qaramanlunun* əmisi olduğunu yazmışdır. Rüstəm bəy qızılbaş əmirləri arasında xüsusi yeri olan yeddi nəfərdən ibarət *əhli-ixtisas* qrupunun üzvüdür. Rüstəm bəy Qaramanlu hələ *Şeyx Heydər* zamanında qızılbaş hərəkatına qoşulmuş, o, öldürüləndən sonra böyük oğlu *Sultan Əlinin*, onun da ölümündən sonra balaca İsmayılın yanında olmuşdur. I Şah İsmayılı kiçik yaşlarında bir neçə il ərzində ağqoyunluların təqibindən qoruyub gizlədənlərdən biri də Rüstəm bəy idi.

Rüstəm bəy Qaramanlunun həyatı haqqında ətraflı məlumat yoxdur. Onun adı I Şah İsmayılın uşaqlıq dövrü ilə bağlı hadisələrin təsvirində qısa şəkildə çəkilir, sonrakı hadisələrin, o cümlədən ilk döyüşlərin təsvirində Rüstəm bəyin adına rast gəlmirik. Ehtimala görə, Rüstəm bəy I Şah İsmayılın hakimiyyətə gəlişinədək keçən dövr ərzində ya öldürülmüş, ya da yaşının çoxluğuna görə vəfat etmişdir.

RÜSTƏM XAN (XOSROV XAN) – *bax:* **XOSROV XAN.**

RÜSTƏM XAN SAAKADZE (vəf. 1643) – gürcü mənşəli görkəmli Səfəvi sərkərdəsi və dövlət xadimi. Qullar *(qulam)* təbəqəsindən gürcü əsilli Bican bəyin oğlu idi. Hərbi xidmətə I Şah Abbasın zamanında *söhbət yasavulu* kimi başlamış, osmanlılara qarşı döyüşlərdə fərqlənmişdi. I Şah Səfi Rüstəm xanı əvvəlcə *divanbəyi*, daha sonra *sipəhsalar* (ordunun baş komandanı) və *tüfəngçiağası* təyin etmişdi. Rüstəm xan həm osmanlılara, həm də özbəklərə qarşı dö-

yüşlərdə bir sıra qələbələr qazanmışdı. I Şah Səfi 1633-cü ildə onu ordunun başında Azərbaycan torpaqlarına soxulmuş gürcü əsilzadəsi (keçmiş Səfəvi sərkərdəsi) *Davud Undiladze* ilə Kaxeti şarı I Teymurazın üzərinə yolladı (Xosrov xan ilə birlikdə). Gürcü üsyançılarını cəzalandıran Rüstəm xan Kartli çarlığını I Teymurazın təsirindən azad edib Xosrov xanı taxtda əyləşdirdi.

1634/35-ci illərdə ozamankı Azərbaycan bəylərbəyi *II Pirbudaq xan Pörnak-Türkman* yaşının azlığı bəhanəsi ilə vəzifədən götürüldü və bir müddətdən sonra daha az məsuliyyətli bir bölgəyə hakim göndərildi. I Şah Səfi Rüstəm xanın sədaqətinin əvəzi olaraq ona Azərbaycan bəylərbəyliyini verdi. Rüstəm xanın qardaşı *Əliqulu bəy* (*İmamqulu xan Undiladzenin* kürəkəni) isə sarayda *divanbəyi* vəzifəsini qazandı. I Şah Səfi vəfat edəndə Rüstəm xan növbəti dəfə özbəklər üzərinə yürüşdə idi. Hakimiyyətə təzə gəlmiş II Şah Abbasın vəziri *Saru Tağının* Rüstəm xana münasibəti mənfi idi, buna görə də 1643-cü ildə o, şaha qarşı çevriliş hazırlamaq ittihamı ilə Məşhəd şəhərində öldürüldü. Bundan sonra artıq yetkin yaşda olan II Pirbudaq xan Pörnak-Türkman yenidən Azərbaycan bəylərbəyi və Təbriz hakimi vəzifəsinə təyinat aldı. 1650-cı ildə şah II Pirbudaq xanı vəzifədən götürərək Rüstəm xanın qardaşı Əliqulu xanı Azərbaycana hakim təyin etdi. 1655-ci ildə vəzifə səlahiyyətini aşıb rəiyyətə zülm etdiyi üçün daxil olan şikayətlər əsasında Əliqulu xan vəzifədən götürüldü, Qacar tayfasından Mürtəzaqulu xan (Şeyx Səfi *təkkəsinin* əvvəlki mütəvəllisi) Azərbaycana bəylərbəyi təyin olundu (*qullarağası* və *əmirşikarbaşı* Kuhgiluyə hakimi *Allahverdi xanla* şərikli).

RÜSTƏM MƏLİKŞAH – Luristan hakimi, XVI əsrin əvvəllərində Səfəvilərə qarşı döyüşmüşdür. 1508-ci ildə İraq fəthindən qayıdan I Şah İsmayıl Luristan hakimi Rüstəm Məlikşahın itaətsizlik göstərdiyini və karvanları soyaraq bölgədə qarışıqlıq yaratdığını eşitdi. Rüstəm şiə məzhəbindən idi, Həzrət Abbasın nəslindən olduğunu iddia edirdi. Lurlar hətta ağqoyunlular zamanında da onlara tabe olmamışdılar. Məskunlaşdığı ərazinin dağlarla əhatə olunmasından istifadə edən və tabeliyindəki 40 min ailəlik lur tayfasının şücaətinə arxalanan Rüstəm Xürrəmabad şəhərini və ətrafını möhkəmləndirib müdafiəyə hazırlaşdı.

Luristan yürüşündə I Şah İsmayılın şəxsən iştirak edib-etmədiyi barədə mənbələrdə fikir ayrılıqları vardır. Xondəmir, İsgəndər bəy Münşi kimi müəlliflər I Şah İsmayılın bu yürüşdə şəxsən iştirak etmədiyini, Luristan üzərinə *Əmir Nəcməddin Məsud, Bayram bəy Qaramanlu* və *Hüseyn bəy Lələ Şamlunun* başçılığı altında 10 min nəfər döyüşçü göndərdiyini, özünün isə *müşəşəilər* üzərinə hücum etdiyini yazmışlar. "Aləmarayi-Səfəvi"nin müəllifi isə Luristan əməliyyatına şahın başçılıq etdiyini xəbər verir.

Luristan hakimi Məlikşah Rüstəm əmisi oğlu Şahmənsuru 15-20 min nəfərlik qoşunla qızılbaşların qarşısına göndərdi. Lurlar dağlıq ərazidə döyüşməyə öyrəşdikləri üşün əvvəlcə qızılbaşları

çətin vəziyyətə saldılar. Əsasən süvarilərdən ibarət olan və düzənlik döyüşündə təcrübə toplamış qızılbaşlar 500 nəfər itki verdilər. Lakin sonra qədim türk döyüş taktikası olan "qurd oyunu"nu tərbiq etməklə lurları dağlıq ərazidən kənara çıxarmağı bacardılar. Səfəvi qoşununun geri çəkildiyini düşünən Şahmənsur onları təqib etməyə başladı, amma pusquya düşüb əsgərlərinin çoxunu itirdi.

Əmisi oğlunun məğlubiyyət xəbərini eşidən Rüstəm Xürrəmabaddan çıxıb Sədmərə adlı möhkəm qalaya sığındı. Təslim olmaq təklifinə rədd cavabı alan qızılbaşlar hücuma keçib düşmənin mövqeyini tutdular. Rüstəm Məlikşahı əsir tutub şahın hüzuruna gətirdilər. (Digər məlumata görə, şah özü döyüşdə onu əsir tutmuşdu). Rüstəmın əfv xahişi şah tərəfindən müsbət qarşılandı və o, yenidən Luristan hakimliyinə təsdiq edildi. Rəvayətə görə, I Şah İsmayıl Rüstəmə çoxlu hədiyyə vermiş, onun saqqalını daş-qaşla bəzətmişdi.

SAAKADZELƏR – XVII əsrdə Səfəvilər dövlətində yüksək vəzifələr tutmuş gürcü əsilli dövlət xadimlərinin mənsub olduğu nəsil. Saakadzelər nəsli həmçinin Tarxan-Mouravi və ya Tarxan-Mouravişvili soyadı ilə də tanınır. Gürcü dilində "mouravi" vali, hakim mənasını verir. Bu nəslin bəzi nümayəndələri Səfəvilər dövlətinə sadiq olmuş, bəziləri isə Səfəvilərə qarşı döyüşərək osmanlıların mənafeyini qorumuşlar. Nəslin ən məşhur nümayəndəsi, "Böyük Mouravi" ləqəbli Georgi Saakadze (1570-1629) əvvəlcə Səfəvilərlə müttəfiq olmuş, sonra əks tərəfə keçmişdir. Saakadzelər sülaləsinin daha bir nümayəndəsi I Şah Abbasın çox etibar etdiyi Bican (Bijən) bəy idi. O, bir müddət İsfahanın darğası vəzifəsində işləmişdir. Bican bəyin oğlu *Rüstəm xan* I Şah Abbasın zamanında qullar *(qulamlar)* korpusunda yüksək mövqe qazanmış, I Şah Səfinin dövründə *divanbəyi*, *sipəhsalar* (ordunun baş komandanı), *tüfəngçiağası* və Azərbaycan (Təbriz) bəylərbəyi vəzifələrinə təyin edilmişdir. Bican bəyin digər oğlu *Əliqulu xan* da Fars bəylərbəyi *İmamqulu xan Undiladze* ilə qohum olmaqla sarayda divanbəyi vəzifəsinə yiyələnmiş, bir müddət Azərbaycan (Təbriz) bəylərbəyi də olmuşdur. Sonrakı dövrlərdə də bu nəslin bəzi nümayəndələri yüksək vəzifələrdə xidmət etmişlər. Rüstəm xan sipəhsaların oğullarından Səfiqulu xan əvvəlcə Məşhəd, sonra Çuxursəd bəylərbəyi (*Zal xandan* əvvəl) olmuşdur. Onun ikinci oğlu II Bican bəy Şah Süleymanın hakimiyyəti dövründə uzun müddət Azərbaycan (Təbriz) bəylərbəyi vəzifəsini icra etmişdir. Səfiqulu xanın oğlu II Rüstəm xan da eyni şahın zamanında babası I Rüstəm xanın daşımış olduğu vəzifələrə sahib olmuşdur. O, mərkəzi hakimiyyətdə divanbəyi, tüfəngçiağası və sipəhsalar (baş komandan) mənsəblərini daşıyır, eyni zamanda Azərbaycan (Təbriz) bəylərbəyliyini də idarə edirdi.

SALMAN XAN USTACLU (vəf. 1623/24) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Təmişlü* oy-

mağından, məşhur qızılbaş sərkərdəsi *Qara xan Ustaclunun* nəslindəndir. 1516-cı ildə Mardin yaxınlığında osmanlılarla qeyri-bərabər döyüşdə həlak olmuş Diyarbəkir hakimi Qara xan onun atasının babasıdır. Salman xanın babası I Şah Təhmasibin zamanında Səfəvilər ordusunun *əmir əl-ümərası* (baş komandanı) və Şirvan bəylərbəyi vəzifəsində xidmət etmiş, əcnəbi səyyahın "Şirvan kralı" adlandırdığı *Abdullah xan Ustacludur* (vəf. 1567). Salman xanın atası isə Abdullah xanın oğlu Şahəli Mirzə idi. Salman xan babalarının Səfəvilər nəsli ilə yaxın qohum olmalarına görə sarayda böyük nüfuz sahibi idi. Onun ulu babası Qara xan I Şah İsmayılın bacısı ilə, babası Abdullah xan isə I Şah Təhmasibin bacısı ilə ailə qurmuşdular.

Səfəvilərin Ustaclu tayfasına hədsiz etibarının nəticəsi olaraq Salman xan da şah nəsli ilə qohum olmaq şərəfini qazandı. 1580/81-ci illərdə Şah Məhəmməd Xudabəndə bacısı *Şəhrəbanu bəyimi* Salman xan Ustacluya ərə verdi. Şəhrəbanu bəyim I Şah Təhmasibin Dağıstan hakiminin qızı ilə izdivacından doğulmuşdu. Onların toyunu Ustaclu tayfasının ağsaqqalı *Pirə Məhəmməd xan* təşkil etdi. Toydan sonra Salman xan Şirvan bəylərbəyi vəzifəsinə gətirildi, ordunun komandanlığı da ona həvalə olundu. Ustaclu tayfasının bir neçə nümayəndəsi də sultan və xan titulları ilə təltif edildi, Şirvanda onlara mülklər bağışlandı. Salman xan qoşunun başında Şirvan istiqamətində yola düşdü. Amma o, xidməti yerinə çatmağa tələsmirdi, Kür çayını keçmədən düşərgə qurub köməkçi qüvvələrin çatmasını gözləyirdi. Bu zaman qəfil hücum edən osmanlılar onun qoşununu darmadağın etdilər. Salman xan məğlubiyyətini örtbasdır etmək üçün osmanlıların əlində olan Bakı şəhərini ələ keçirmək fikrinə düşdü və şəhəri mühasirəyə aldı. Lakin Bakının mühasirəsi heç bir nəticə vermədi, qızılbaş əsgərləri arasında aclıq başladı və qoşun dağılışıb Şirvanı tərk etdi. Səfəvi qoşununun mövqelərini buraxıb Şirvandan çəkilməsi nəticəsində osmanlılar bu torpaqlara yiyələndilər. Bundan sonra Şirvan bəylərbəyliyi Salman xandan alınıb *Peykər xan Ziyadoğlu-Qacara* verildi (1581).

Salman xan Ustaclu tayfasının mülkü sayılan Gilan bölgəsindəki Rəştdə bir müddət qaldıqdan sonra Qəzvinə qayıtdı. Bir neçə ildən sonra o, Şah Məhəmməd Xudabəndənin əmri ilə divanbaşı *(divanbəyi)* təyin edildi. Hakimiyyət uğrunda şahzadələr Abbas Mirzə (gələcək I Şah Abbas) ilə *Həmzə Mirzə* arasındakı rəqabətdə Salman xan Həmzə Mirzəni dəstəkləmişdi. Bu arada Məşhəd hakimi və Xorasanın yarısının əmir əl-ümərası olan *Mürtəzaqulu xan Pörnak* özündən daha üstün təbəqədə duran xanlar xanı, Herat bəylərbəyi şahzadə Abbas Mirzənin *lələsi Əliqulu xan Şamluya* tabe olmadığı üçün vəzifəsindən azad edildi və onun yerinə Salman xan Ustaclu təyin olundu. Lakin az sonra Abbas Mirzənin tərəfdarı olan Mürşidqulu xan Ustaclunun təzyiqləri qarşısında davam gətirməyib Xorasanı tərk etdi və yenidən Qəzvinə dönməyə məcbur oldu.

Salman xan Ustaclu bir daha I Şah Abbasın hakimiyyəti dövründə dövlət idarəçiliyində yüksək vəzifə qazanmışdır. O, əvvəlcə 1617-ci ildə Qəzvin şəhərinin hakimi təyin edilmiş, amma az sonra şikayətlər əsasında işdən çıxarılıb əmlakı müsadirə olunmuş, 2 ilə yaxın həbsdə yatmışdır. Nəhayət, şah onu bağışlamış və 1621-ci ildə *Hatəm xan Ordubadinin* oğlu *Əbu Talib xandan* sonra baş vəzir məqamını və "Etimad əd-dövlə" (Dövlətin etibar etdiyi şəxs) ləqəbini ona vermişdir. Salman xan vəzir vəzifəsində ikən, 1623/24-cü illərdə dünyasını dəyişmiş, yerinə *"Xəlifə sultan"* və *"Sultan əl-üləma"* ləqəbli Seyid Hüseyn Mərəşi Amuli keçmişdir.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında Salman xan Ustaclunun hesab elmini yaxşı bildiyini və bütün məlum elmlərdən xəbərdar olduğunu yazır.

SAROM XAN KÜRD – XV əsrin sonu – XVI əsrin əvvəllərində indiki Cənubi Azərbaycan bölgəsində məskunlaşan kürd tayfalarını toplayaraq müstəqillik elan etmiş və I Şah İsmayılla döyüşmüş kürd mənşəli sərkərdə. Mokri tayfasından Əmir Seyfəddinin oğlu idi. Ağqoyunlu dövlətinin parçalanmasından və şahzadələrin hakimiyyət uğrunda didişməsindən istifadə edən Seyfəddin bəy XV əsrin sonlarında kürd tayfalarını ətrafına toplayaraq təşkilatlandırmış, bəzi türkman tayfalarını qovlayıb torpaqlarını ələ keçirmişdi. Onun vəfatından sonra yerinə keçən oğlu Sarom xan kürdlərin əlindəki əraziləri genişləndirməyə başladı. I Şah İsmayıl Səfəvilər dövlətini qurduqdan sonra Sarom xan nəinki ona tabe olmamış, hətta öz talançı yürüşlərini davam etdirmişdi. 1505-ci ildə qızılbaş dəstələrinin uğurlu hərbi əməliyyatı nəticəsində kürd talanlarının qarşısı alınsa da, növbəti il onların itaətsizliyi dözülməz hal aldı. Tabeliyində 40 min kürd ailəsi olan Sarom xan Urmiya qalasına hücum edib onu mühasirəyə aldı. Cəmi 300 nəfərlik qarnizonla qalanı müdafiə edən Qaragünə sultan ona bir ay müqavimət göstərdi. Lakin qalada ərzaq ehtiyatı bitdikdən sonra qızılbaş sərkərdəsi təslim olmaqdan başqa çıxış yolu görmədiyi üçün danışıqlara başladı. Sarom xanla razılıq əldə edildi ki, Urmiyadakı bütün qızılbaşlar ailə üzvləri ilə birlikdə qaladan çıxıb getsinlər. Kürdlər onlara aman verdiklərini elan etsələr də, qızılbaşlar qaladan çıxanda bütün kişiləri öldürüb ailə üzvlərini əsir etdilər.

Bu xəbər I Şah İsmayıla çatan kimi qardaşı *İbrahim Mirzəni Bayram bəy Qaramanlu*, *Xadim bəy Xüləfa* və *Saru Əli bəy Möhürdarla* birlikdə Sarom xanın üzərinə yolladı. 12 min nəfərlik qızılbaş qoşunu Xoy və Səlmas ətrafında sayca iki dəfə çox olan kürd birləşmələri ilə ağır döyüşə girdi. Toqquşmada 3000 nəfərdən artıq kürd, 1500 nəfər qızılbaş həlak oldu. Qızılbaş ordusu öz sərkərdəsi Saru Əli bəy Möhürdarı da itirdi. Qarşı tərəfdən Sarom xanın iki oğlu da öldürülmüş, özü yaralanmışdı. Şahın qardaşı İbrahim Mirzə və *Məntəşa sultan Ustaclu* qoşunun qalıqlarını döyüş meydanından çıxarıb geriyə çəkdilər.

Burada onlar şahın yeznəsi *Əbdi bəy Şamlu* ilə oğlu *Durmuş xanın* gətirdikləri 6 min nəfərlik yardımçı dəstə ilə birləşib yenidən kürdlərin üzərinə hücuma keçdilər. Bu zaman I Şah İsmayılın başçılığı altında hərəkətə keçmiş əsas Səfəvi qoşunu da döyüş mövqeyinə çatmaq üzrə idi. Əvvəlkindən daha şiddətli keçən savaşda Əbdi bəy Şamlu həlak oldu, Durmuş xanla Məntəşa sultan ağır yaralandılar. Sarom xanın qüvvələri əvvəlcə üstünlük qazansa da, şahın vaxtında özünü yetirməsi nəticəsində qızılbaşlar qalib gəldilər. Sarom xanın bundan sonrakı taleyi barədə məlumatlar fərqlidir. Bəzi mənbələr onun döyüşdə şahın əli ilə öldürüldüyünü, bəzi mənbələr isə qaçıb gizləndiyini xəbər verir. I Şah İsmayıl kürd təhlükəsini birdəfəlik aradan qaldırmaq üçün Sarom xanın dayaq nöqtəsi olan Mokri obasını qarət etmək, onlara məxsus bütün çadırları və müxəlləfatı yandırmaq əmrini verdi.

Beləliklə, 1506-cı ildə inkişaf etməkdə olan Səfəvilər dövləti daha bir təhlükədən xilas oldu. Bu qələbədən sonra I Şah İsmayıl diqqətini növbəti təhlükənin – *Zülqədəroğulları bəyliyinin* üzərinə yönəltmək imkanı qazandı.

SARU ƏLİ BƏY TƏKƏLÜ MÖHÜRDAR (vəf. 1506) – görkəmli qızılbaş sərkərdəsi. *Təkəlü* tayfasına mənsub idi. I Şah İsmayıl zamanında Saru Əli bəy döyüşlərdə böyük şücaət göstərmişdi. O, şahın qardaşı *İbrahim Mirzənin lələsi* (tərbiyəçisi) idi. I Şah İsmayıl 1501-ci ildə Təbrizdə özünü şah elan etdikdən sonra dövlətin ilk idarəçilik strukturunu yaratmış və ətrafındakı sadiq şəxslərə vəzifələr vermişdi. Bu zaman Saru Əli bəy ən məsuliyyətli və şərəfli vəzifələrdən olan *möhürdar* mənsəbinə layiq görülmüşdü. Kürd tayfalarının lideri *Sarom xana* qarşı 1506-cı ildə göndərilmiş qızılbaş qoşununun başçısı Saru Əli bəy idi. O, şahın qardaşı İbrahim Mirzə, *Bayram bəy Qaramanlu, Xadim bəy Xüləfa* ilə birlikdə 12 min nəfərlik qoşunun başında yürüşə çıxmış, Xoy və Səlmas ətrafında sayca iki dəfə çox olan kürd birləşmələri ilə ağır döyüşə girmişdi. 3000 nəfərdən artıq kürdün, 1500 qızılbaşın həlak olduğu savaşda Saru Əli bəy Möhürdar həlak olmuşdur.

SARU PİRƏ USTACLU (vəf. 1514) – böyük qızılbaş sərkərdələrindən biri. "Pir" sözü Gilan və Mazandaran ləhcəsində "pirə" şəklində deyilir, "Şeyx Səfi təzkirəsi" də daxil olmaqla, qədim Səfəvi mənbələrində bu sözə çox rast gəlinir. Saru Pirə bəy *Ustaclu* tayfasının *Şeyxlü* (Şeyxlər) oymağına mənsub idi. Həyatı haqqında məlumat azdır.

I Şah İsmayıl Saru Pirə bəyə böyük etimad göstərərək 1512-ci ildə onu *qorçubaşı*, yəni şahın şəxsi qvardiyası sayılan elit qızılbaş dəstəsinin sərkərdəsi təyin etmişdi. Saru Pirə bəy döyüşlərdə fəal iştirak edirdi. 1513-cü ildə özbək-qazax müttəfiq qoşunu ilə baş vermiş döyüşdə qızılbaş ordusunun sol cinahı onun komandanlığı altında hərəkət edirdi. Saru Pirə bəy *Çaldıran savaşında çərxçi* (avanqard) birləşmələrə başçılıq edirdi və onun tabeliyində 5 min süvari vardı. Ozamankı müharibə ənənəsinə uyğun

olaraq, çərxçi birləşmələri döyüşə ilk başlamış və Saru Pirə bəyin başçılığı altında qızılbaş süvariləri ilk həmlədə düşmənin avanqard dəstəsini darmadağın etmişdilər. Həmin savaşda bir neçə qızılbaş sərkərdəsi kimi Saru Pirə bəy də igidliklə döyüşərək həlak oldu.

Saru Pirə bəyin kiçik qardaşı *Məntəşa sultan* da qızılbaş ordusunun şücaətli sərkərdələrindən olmuş, I Şah Təhmasibin dövründəki müharibələrdə fərqlənmişdir (vəf. 1545/46).

Saru Pirə bəyin qardaşı oğlu Təqi bəy I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində baş vermiş tayfa çəkişmələrində Ustaclu tayfasının əmirləri arasında olmuş, *Rumlu* və *Təkəlü* tayfalarına qarşı döyüşmüşdür.

SARU TAĞI (vəf. 1645) – Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi. Əsl adı Mirzə Məhəmməd Təqi idi. Təbrizdə doğulmuş, ailəsi ilə birlikdə əvvəlcə Qəzvinə, daha sonra təkbaşına İsfahana gəlmişdi. I Şah Abbas zamanında adı rüsvayçı bir hadisədə hallanmışdı. Saru Tağı cinsi təcavüzdə ittiham olunaraq axtalanmış, daha sonra araşdırma nəticəsində təqsirsiz olduğu aşkara çıxaraq bəraət almışdı. Bundan sonra dövlət xidmətinə daxil olub vəzifə karyerasında sürətlə irəliləmişdi. Qısa müddətdə o, Mazandaran hakiminin vəziri mənsəbinə təyinat almış, bunun ardınca bir neçə vilayətdə eyni vəzifədə xidmət etmişdi. Saru Tağı həmçinin Qarabağ bəylərbəyi Məhəmməd xanın sarayında da vəzir kimi çalışaraq təcrübə toplamışdı.

1634-cü ildə I Şah Səfi baş vəzir *Mirzə Əbu Talib Ordubadini* edam etdirəndən sonra bu vəzifəyə Saru Tağını gətirdi. Bəzi mənbələr Ordubadinin vəzifədən götürülməsində və edamında Saru Tağının əli olduğunu göstərir. Mirzə Əbu Talib Ordubadinin atası *Hatəm xan Ordubadi* vaxtilə çətin vəziyyətə düşmüş Saru Tağının atasına kömək etmədiyi üçün onun Ordubadilərə nifrəti vardı. Sonralar bu nifrət üzündən Saru Tağı Mirzə Əbu Talibi şərləyərək şahın gözündən salmış, nəhayət, onu aradan götürüb yerinə keçmişdir. Ordubadilərin böyük mülkü də onun tərəfindən mənimsənilmişdir.

Saru Tağı sarayda böyük nüfuz sahibi idi. Xədim olduğuna görə hərəmxanaya sərbəst şəkildə daxil olur və şahın ailə üzvləri vasitəsilə də ona təsir göstərirdi. Saru Tağı vəzifəsini qorumaq və rəqiblərini aradan götürmək üçün saray intriqalarında fəal iştirak edirdi. Tarixi mənbələr onun nüfuzlu qızılbaş əmirlərini hökmdarın gözündən salmaq üçün dəfələrlə qərəzli davrandığını xəbər verir. Saru Tağı maliyyə divanında işləyən şəxsləri öz tərəfinə çəkir, lazımi informasiyanı onlardan alır, hətta bəzən hesabat dəftərlərində dəyişikliklər etməklə istədiyi əmirin adını korrupsiyada hallandırırdı.

I Şah Səfi Saru Tağıya çox inanır, hətta xarici qonaqları onun evində (Hatəm xan Ordubadiyə məxsus olmuş mülkdə) qəbul edir və qonaq saxlayırdı.

Saru Tağı irimiqyasda quruculuq işləri həyata keçirirdi. Şahın göstərişi ilə o, İraqdakı müqəddəs ziyarətgahların tikin-

ti-təmir işlərinə başçılıq etmişdir.
Saru Tağı böyük və təhlükəli bir inzibati islahatın müəllifi idi. Onun məsləhəti ilə I Şah Səfi bir neçə bəylərbəyliyi ləğv edərək, həmin torpaqları xassə vilayətlərin siyahısına daxil etdi. O vaxtadək yalnız bir neçə iri şəhər xassə vilayəti sayılırdısa, yeni inzibati bölgüyə görə, əvvəl bəylərbəylik olmuş iri əyalətlər də bu statusu qazandı. II Şah Abbasın zamanında bu istiqamətdə işlər daha da irəli getdi. Əlbəttə, vilayətlərin qızılbaş əmirlərindən alınıb şahın təyin etdiyi və əsasən qeyri-türklərdən ibarət divan vəzirlərinə tabe etdirilməsi qızılbaşlar tərəfindən narazılıqla qarşılanırdı.
1642-ci ildə vəfat etmiş I Şah Səfinin yerinə II Şah Abbasın gətirilməsində Saru Tağının da böyük xidməti vardı. O zamandan baş vəzirlə *qorçubaşı* Canı xan Şamlu arasında rəqabət yaranmışdı. Canı xan baş vəzirin onu aradan götürəcəyindən şübhələnərək özü onu qabaqlamaq qərarına gəldi, qızılbaş əmirlərindən bir neçəsini öz tərəfinə çəkərək Saru Tağıya qarşı sui-qəsd planı hazırladı. 1645-ci ildə Nağdı xan Şamlu, Ərəb xan Ağzıvaroğlu Şamlu, *cəbbədarbaşı* Əbülfəth bəy, *qorçu* Abbasqulu bəy Ustaclu, Əlimirzə bəy Şeyxavənd və başqalarından ibarət olan dəstə baş vəziri qətlə yetirdi. II Şah Abbas bu qrupun nüfuzundan ehtiyatlanaraq onları dərhal cəzalandırmadı, guya cinayətin araşdırılacağını elan etdi. Bir müddətdən sonra nəinki sui-qəsdçilər, hətta onların yaxın qohumları da ağır şəkildə cəzalandırıldı, əmlakları müsadirə edildi. Baş vəzirlik isə bu vəzifədə əvvəllər də təcrübəsi olmuş *Xəlifə sultana* (Seyid Hüseyn Mərəşi Amuli) həvalə olundu.

SEVİNDİK BƏY ƏFŞAR (vəf. 1561/62) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Əfşar* tayfasının *Gündüzlü* oymağından Çulu bəyin oğlu olduğunu yazırlar. Mənbələrdə onun Gilan sufilərindən olduğu bildirilir. Bu məlumat hələ I Şah İsmayıl uşaq yaşlarında Gilanda gizləndiyi zamanlarda Sevindik bəyin qızılbaş hərəkatına qoşulduğunu və Səfəvilər dövlətinin quruluş mərhələsində iştirak etdiyini düşünməyə əsas verir. Vəfat edərkən yaşının çox olması da bu ehtimalı doğruldur.
Sevindik bəy I Şah Təhmasibin hakimiyyəti dövründə *qorçubaşı* təyin edilmiş, 1539-cu ildən ömrünün sonunadək təqribən 23 il bu məsuliyyəti vəzifəni daşımışdır.
Sevindik bəy I Şah Təhmasib dövrünün ən qüdrətli əmirlərindən sayılırdı. Osmanlı vəziri-əzəmi Əhməd paşa *Amasya sülh müqaviləsi* ərəfəsində ən güclü Səfəvi əmirlərinə məktub göndərmiş, Sevindik bəyə yazdığı məktubda ona "Mübarizüddin" (Dinin mübarizi) ləqəbi ilə müraciət etmişdi.
1546-cı ildə *Əlqas Mirzə* uğursuz üsyan cəhdinin ardınca təslim olduqdan sonra I Şah Təhmasib dövlətin ən yüksəkrütbəli şəxslərini, o cümlədən *Məsum bəy Səfəvini*, Əlqas Mirzənin anasını və Sevindik bəyi göndərmişdi ki, şahzadə onların hüzurunda and içib tövbə etsin. Həmçinin şah öz oğlu İsmayıl Mirzəni (gələcək II Şah İsmayıl) həbs etməyi qərara alanda onu Heratdan Savəyədək

gətirməyi Sevindik bəyə həvalə etmişdi, Sevindik bəy Savədə şahzadəni Məsum bəyə təhvil vermiş, o da İsmayıl Mirzəni Qəhqəhə qalasına aparmışdı (1556).
1546-cı ildə Fars vilayətində *Əfşar* və *Zülqədər* tayfaları arasında qarşıdurma yarananda bəzi qızılbaş əmirləri, o cümlədən Sevindik xan ortada vasitəçilik edərək barışıq yaratmış və qardaş qırğınına yol verilməmişdi.
Sevindik bəyin qardaşı Qanqara ləqəbli Mehdiqulu sultan Xuzistan bölgəsində məskunlaşmış *Gündüzlü* əfşarlarının lideri və Şüştər hakimi idi. 1539/40-cı illərdə o, I Şah Təhmasibin qəzəbinə gəldi və şahın əmri ilə Sevindik xan öz qardaşını öldürməyə məcbur oldu.
Sevindik bəy Əfşar 1561/62-ci illərdə vəfat edərkən yaşı 90-ı keçmişdi.
Sevindik bəyin oğlu Qulu bəy Əfşar da qorçubaşı vəzifəsində xidmət etmiş, Şah Məhəmməd Xudabəndənin zamanında yaranan qarışıqlıqda vəzir *Salman xan Cabirinin* öldürülməsini dəstəkləmişdi. Qulu bəydən sonra oğlu Yusif xan qorçubaşı təyin edilmiş, amma *Mürşidqulu xan Ustacluya* qarşı sui-qəsddə ittiham edilərək vəzifədən götürülmüşdü.
Sevindik bəyin digər oğlu, Səbzəvar hakimi Hüseyn bəy isə şahzadə *Həmzə Mirzəyə* tabe olmadığı üçün öldürülmüşdür.
Sevindik bəyin yaxınlarından olan Məhəmməd bəy Əfşar Şəmsi gözəl varsağılar müəllifidir.

SƏDRƏDDİN XAN ŞEYXAVƏND – görkəmli qızılbaş əmiri və dövlət xadimi, *Məsum bəy Səfəvinin* nəvəsi. O, şahzadə *Bəhram Mirzənin* oğlu *Sultan Hüseyn Mirzənin lələsi* idi. I Şah Təhmasibin vəfatından sonra başçılıq etdiyi *Şeyxavəndlərlə* birlikdə şahzadə *Heydər Mirzəni* hakimiyyətə gətirməyə çalışmış, lakin bu mübarizədə məğlub olmuşdur. II Şah İsmayıl hakimiyyətə keçdikdən sonra Sədrəddin xan tərəfdarları ilə birlikdə həbs edildi, yalnız şahın vəfatından sonra I Şah Təhmasibin qızı *Pərixan xanımın* əmri ilə azadlığa çıxdı. Bundan az sonra o, Şah Məhəmməd Xudabəndənin xanımı *Məhdi-ülyaya* qarşı yaradılmış qızılbaş koalisiyasının üzvü və məlikəni qətlə yetirənlərdən biri olmuşdur (1579/80).

SƏFİQULU XAN UNDİLADZE (vəf. 1633) – Səfəvi dövründə yaşamış gürcü mənşəli dövlət xadimi. *İmamqulu xan Undiladzenin* oğlu. Lar vilayətinin hakimi vəzifəsində xidmət etmişdir. Bəzi mənbələrdə Undiladzelər nəslinin aradan götürülməsinin səbəbini Səfiqulu xanla bağlayırlar. Hakim dairələrdə belə bir şayiə gəzirdi ki, vaxtilə I Şah Abbas hərəmxanasındakı qadınlardan birinə talaq verib İmamqulu xana bağışlamışdı və guya həmin qadın Fars vilayətinə çatanda bətnində şahın 3 aylıq övladını gəzdirirmiş. Bu şayiəyə görə, Səfiqulu xan əslində şahın oğlu və Səfəvi sülaləsinin üzvü idi. Beləliklə, İmamqulu xan hər an Səfiqulunun şahlığa iddiasını irəli sürə bilərdi. Lakin o dövrün hadisələrinin təhlili bunu söyləməyə əsas verir ki, Undiladzelər nəslinə qarşı törədilmiş soyqırımı daha dərin siyasi köklərə dayaqlanırdı.

Səfiqulu xan 1633-cü ildə I Şah Səfinin əmrinə əsasən atası İmamqulu xan, qardaşları Fəthəli bəy və Əliqulu bəylə birlikdə İsfahanda edam olunmuş, ardınca bu nəslin onlarca üzvü öldürülmüş və ya kor edilmişdi.

SİYAVUŞ XAN BAŞIAÇUĞİ (vəf. 1650/51 və ya 1655) – qeyri-türk (gürcü) mənşəli Səfəvi dövlət xadimi. Gürcüstanın qərbində yerləşən İmereti çarlığının müsəlman sakinli Başıaçuq bölgəsindən idi. Qeyri-müsəlmanlardan təşkil olunmuş qullar *(qulamlar)* korpusunda hərbi xidmətə başlamış, əvvəlcə yüzbaşı təyin edilmiş, karyera pilləsində sürətlə yüksələrək 1632-ci ildə I Şah Səfinin əmri ilə Dərbənd hakimi mənsəbinə irəli çəkilmişdi. *Qullarağası Xosrov xandan* sonra uzun müddət ərzində bu vəzifəni daşımış, II Şah Abbasın fərmanı ilə 1645-49-cu illərdə Kuhgiluyə vilayətində hakim olmuşdur. Siyavuş xan İslamı qəbul etsə də, xristianların hüququnu qoruyur və onların himayədarı kimi tanınırdı. 1645-ci ildə baş vəzir təyin edilmiş *Xəlifə sultan* erməni icmasının vergilərini artıranda onlar kömək üçün Siyavuş bəyə müraciət etmişdilər. Siyavuş xan Başıaçuği 1650/51-ci və ya 1655-ci ildə vəfat etmiş, ondan sonra qullarağası vəzifəsi Xosrov sultanın oğlu Allahverdi xana verilmişdir.

SULTAN HÜSEYN XAN ŞAMLU (vəf. 1580) – görkəmli Səfəvi əmiri. I Şah İsmayılın yeznəsi və *təvaçıbaşısı* olmuş *Əbdi bəy Şamlunun* nəvəsi, *Durmuş xanın* oğlu. O da təvaçıbaşı (sərbərlik və ordu əlaqələndiricisi xidmətinin rəisi) vəzifəsində xidmət etmişdir. Şah Məhəmməd Xudabəndə hakimiyyətə keçdikdən sonra onu paytaxt Qəzvin şəhərinin hakimi (darğası) təyin etdi. Sultan Hüseyn xanın oğlu *Əliqulu xan Şamlu* şahzadə Abbas Mirzənin (gələcək I Şah Abbas) *lələsi* olaraq Səfəvilər dövlətində çox böyük nüfuza malik idi, "xanlar xanı" ləqəbi ilə Heratı idarə edirdi. Sultan Hüseyn xan Şah Məhəmməd Xudabəndənin zamanında mərkəzi hakimiyyətlə Heratda hakimlik edən oğlu Əliqulu xan arasında əlaqələndirici rolunu oynamış, şahzadə Abbas Mirzənin sağ qalmasında mühüm rolu olmuşdur. Əliqulu xanı təslim edə bilməyən qüvvələr onun anasını məlikə *Məhdi-ülyanın* tərəfdarı olmaq bəhanəsi ilə öldürmüşlər. Xanımının qətlindən sonra Sultan Hüseyn xan Ərdəbildəki Şeyx Səfi *xanəgahına* sığınmış, amma hiylə ilə ələ keçirilib öldürülmüşdü.

ŞAHBƏNDƏ XAN PÖRNAK-TÜRKMAN (vəf. 1625) – görkəmli qızılbaş əmiri, sərkərdə və dövlət xadimi. Türkman ittifaqına daxil olan *Pörnak* tayfasından Azərbaycan (Təbriz) bəylərbəyi Pirbudaq xanın oğlu idi. Pirbudaq xan üsyançı kürdlərlə döyüşdə öldürüləndən (1616) sonra I Şah Abbasın əmri ilə Şahbəndə bəyə xan rütbəsi verilmiş və Azərbaycan bəylərbəyi təyin edilmişdi. Şahbəndə xan təqribən 9 il ərzində Azərbaycan torpaqlarını idarə etmişdir. Qısa müddətə ordunun baş komandanı *Qərəçəqay xan* onu bu vəzifədə əvəz etsə də, Şahbəndə xan yenidən vəzifə-

sinə qaytarıldı (1619). O öz xidmət yerindən əlavə digər bölgələrdə aparılan hərbi əməliyyatlarda da fəal iştirak edirdi. Şahbəndə xan şahın göndərdiyi *söhbət yasavulu* Rüstəm bəylə birlikdə Van istiqamətində yürüş etmiş, "yandırılmış ərazi" taktikasına uyğun olaraq, Osmanlı qoşununun keçəcəyi bütün yolları və əraziləri dağıntıya məruz qoymuşdu.

1625-ci ildə I Şah Abbas osmanlıların təhriki ilə Gürcüstanda qiyam qaldırmış "Böyük Mouravi" Georgi Saakadze hərəkatını yatırmaq üçün *İsa bəy Qorçubaşının* ümumi rəhbərliyi altında qoşun təşkil etdi. Bu qoşuna Çuxursəd bəylərbəyi *Əmirgünə xan Ağcaqoyunlu-Qacar*, Fars bəylərbəyi *İmamqulu xan* (Undiladze), yeni təyin olunmuş Şirvan bəylərbəyi *Qazaq xan Çərkəzlə* yanaşı Azərbaycan bəylərbəyi Şahverdi xan Pörnak-Türkman da qatılmışdı. Tiflis yaxınlığındakı Gümüşlü məntəqəsində baş vermiş şiddətli döyüşdə qızılbaş qoşunu çətinliklə də olsa qalib gəldi. Lakin az sonra qalaların birinə hücum edən Şahbəndə xan gürcü ordusu qalıqlarının qəfil hücumu ilə öldürüldü, Qazaq xan əsir düşdü.

I Şah Abbas Şahbəndə xanın 3 yaşlı oğlu *Pirbudağa* xan rütbəsi verib onu atasının yerinə Azərbaycan bəylərbəyi təyin etdi (1625).

ŞAHQULU XAN ZƏNGƏNƏ (vəf. 1716) – Səfəvilər dövründə yaşamış görkəmli dövlət xadimi. Kürd mənşəli Zəngənə elindən, Şah Süleymanın zamanında 20 il baş vəzir mənsəbində xidmət etmiş *Şeyxəli xan Zəngənənin* (vəf. 1689) oğludur. 1680-ci ildə Şahqulu xan Kirman əyalətinin hakimi təyin edilmiş, 1691-ci ildə *qorçubaşı* vəzifəsinə gətirilmişdi. Şahqulu xanla ozamankı baş vəzir *Mirzə Məhəmməd Tahir Qəzvini* arasında rəqabət var idi. Qəzvininin vəzifədən getməsindən (1699) sonra *Şamlu* tayfasından Məhəmməd Mömin xan baş vəzirliyə təyinat almış və 8 il bu vəzifəni icra etmişdir. 1707-ci ildə Şah Sultan Hüseynin əmri ilə Şahqulu xan Zəngənəyə baş vəzirlik verildi və o, təqribən 9 il dövlət idarəçiliyində şaha yardım etdi. Şahqulu xanın vəfatından sonra onun vəzifəsi kürəkəni *Fəthəli xan Dağıstaniyə* verildi.

ŞAHQULU XƏLİFƏ TƏKƏLÜ (vəf. 1511) – Osmanlı dövlətində ən böyük qızılbaş üsyanlarından birinin başçısı. Təkə tayfasına mənsub idi, Təkə elinin Qorqudeli elçəsinə bağlı Yalınlı (və ya Almalı) kəndində yaşayırdı. Xalq arasında "Şeyxoğlu", "Karabıyıkoğlu" və "Baba" ləqəbləri ilə tanınırdı. Bunun əksinə olaraq, Osmanlı mövqeyindən yazılmış kitablarda onu Şeytanqulu adlandırırdılar. Atası Həsən *Şeyx Heydərin xəlifəsi* (nümayəndəsi) olmuş, iki dəfə Ərdəbilə gedərək onunla şəxsən görüşmüşdü. Şahqulu atası ilə birlikdə bir mağarada ibadətlə məşğul idi, bununla belə, onlar Təkə və Hamid elində böyük nüfuz sahibi idilər, xalq kütləsi ilə sıx əlaqə saxlayırdılar. Hətta Sultan II Bayezid onların xeyir-duasını almaq üçün ildə 6-7 min ağça pul göndərirdi.

Şahqulu atasından sonra xəlifəlik mənsəbini daşımış və bölgədə *qızılbaşlığı*

daha fəal şəkildə yaymışdı. Osmanlı dövlətinin qızılbaşlara qarşı sərt təzyiqlərinə cavab olaraq o, 1511-ci ilin Aşura günündə qiyam qaldırdı. Şahqulu xəlifənin başçılığı altında Anadolu qızılbaşları Antalya sancağının bəyi şahzadə Qorqudun xəzinəsini talan edib Antalyanı ələ keçirdilər. Anadolu bəylərbəyi Qaragöz paşa və Qaraman bəylərbəyi Heydər paşa üsyançılarla döyüşdə məğlub oldular. Vəziri-əzəm Xədim Əli paşanın və şahzadə Əhmədin başçılığı altında hərəkət edən Osmanlı qoşunu da əvvəlcə üsyançıların öhdəsindən gələ bilmədi. Lakin Sivas yolunda baş vermiş ikinci döyüşdə hökumət qüvvələri üstünlük qazandı. Şahqulu xəlifə aldığı ox yarasından öldü (1511). Başçısını itirmiş 15 min nəfərlik qızılbaş dəstəsi sərhədi keçərək Səfəvilər dövlətinin ərazisinə daxil oldu.

bax: **ŞAHQULU XƏLİFƏ ÜSYANI.**

ŞAHQULU XƏLİFƏ ÜSYANI (1511) – Osmanlı dövlətində baş vermiş ən böyük qızılbaş üsyanı. Üsyanın başçısı Təkə elinin Qorqudeli elçəsinə bağlı Yalınlı (və ya Almalı) kəndində yaşayan *Şahqulu xəlifə* idi. O, atasından sonra Səfəvilərin *xəlifəlik* mənsəbini daşımış və bölgədə *qızılbaşlığı* daha fəal şəkildə yaymışdır. Qızılbaş icmasından toplanan nəzirlər I Şah İsmayıla göndərilirdi. Osmanlı dövlətinin daxilində qızılbaşların siyasi gücünün artmasından, eləcə də toplanan vəsaitin ölkə xaricinə – Səfəvi şahına göndərilməsindən narahat olan sultan tədricən məhdudlaşdırıcı tədbirlər tətbiq etməyə başladı. Nəzir yığımına ciddi nəzarət qoyuldu, pulun Səfəvilər dövlətinə göndərilməsinin qarşısı alındı, qızılbaşların Anadoludan Səfəvilər dövlətinə keçərək şaha qoşulmaları da qadağan edildi. I Şah İsmayıl bu təqiblərə son qoymaq, *müridlərinin* ölkədən çıxışına mane olmamaq üçün Sultan II Bayezidə müraciət etsə də, onun xahişinə rədd cavabı verildi. Üstəlik, sultan 16 min nəfər qızılbaşı Anadoludan Rumeliyə sürgün etdirdi. Əksəriyyəti *Təkəlü* tayfasının mənsublarından ibarət olan bu qızılbaşlar əsasən Venesiya ilə müharibədə fəth olunmuş Modon və Koron bölgələrində yerləşdirildilər. Sürgün siyasəti bir neçə il, o cümlədən Şahqulu üsyanı yatırıldıqdan sonra da davam etmişdir.

Şahqulu xəlifə haqsızlıqlara etiraz edərək 1511-ci ilin Aşura günündə hərəkata başladı. Bundan əvvəl bölgələrdəki qızılbaş xəlifələrinə gizlicə məktublar göndərilmiş və təlimatlar verilmişdi. Üsyana qoşulanların arasında dövlətdən narazı xeyli sipahi (ordu əsgəri) vardı, onlardan biri də sonralar Səfəvilər dövləti tarixində özünəməxsus rol oynamış *Ulamə sultan* idi. Ölkəni bürümüş ədalətsizlik, rüşvət, zorakılıq, şahzadələr arasındakı düşmənçilikdən yaranan xaos, eləcə də Sultan II Bayezidin zəif xarakteri üsyanın sürətlə yayılmasına səbəb oldu. 10 min nəfərlik kütlə Antalya sancağının bəyi şahzadə Qorqudun xəzinəsini talan etdi və Antalyanı ələ keçirdi. Anadolu bəylərbəyi Qaragöz paşa üsyançılarla döyüşdə məğlub oldu. Sayları durmadan artan qızılbaşlar bundan sonra Qaraman bəylərbəyi Heydər paşa-

nı da məğlub etdilər. Sultan üsyanı yatırmaq üçün vəziri-əzəm Xədim Əli paşanın və şahzadə Əhmədin başçılığı altında Anadoluya qoşun göndərdi. Digər şahzadələrə də hərbi əməliyyatlara yardım göstərmək tapşırıldı. Kütahya ətrafında baş vermiş döyüş fasilələrlə 38 gün davam etdi. Axırda Osmanlı sərkərdələri arasında narazılıq yarandı və qoşun dağıldı, Şahqulu xəlifə vəziyyətdən istifadə edib dəstəsinin qalıqları ilə oradan uzaqlaşdı. Vəziri-əzəm üsyançıları təqib edərək Sivas yolunda onları haqladı. İkinci döyüş daha ağır keçdi, Şahqulu xəlifə ox yarasından öldü, vəziri-əzəm Əli paşa da döyüşdə həlak oldu (1511). Osmanlı ordusu üstünlük qazansa da, başçısını itirdiyi üçün üsyançıları tam darmadağın edə bilmədi. Qızılbaşlar da başsız qalıb pərakəndə halda sərhədi keçdilər və Səfəvilər dövlətinin ərazisinə daxil oldular. Sayları 15 mini keçən bu dəstə yol boyunca qətl-qarətlər törədir, Təbriz yolunda karvanları soyub-talayırdı. Karvanların birində ziyarətə gedən din alimi Şeyx İbrahim Şəbüstəri oğlu ilə birlikdə üsyançılar tərəfindən öldürüldü.

Üsyançı dəstələr Təbrizə çatanda I Şah İsmayıl onların başçıları ilə görüşüb etdikləri özbaşınalığın səbəbini soruşdu. Şah Osmanlı dövləti ilə münasibətləri pisləşdirmək və bu cür üsyanlarla qarşı tərəfi radikal addımlar atmağa məcbur etmək istəmirdi. Səfəvi torpaqlarında törədilmiş qətl-qarətlər də hökmdarı qəzəbləndirmişdi. I Şah İsmayıl üsyançıların əsas günahkar liderlərini edam etdirdi, yerdə qalanları hissələrə böldürdü ki, qarışıqlıq yarada bilməsinlər. Onların arasından xidmətə uyğun olanlar seçildi və orduya qəbul edildi. Qalanlar isə xidmətdən azad edilərək bölgələrə göndərildi.

Şahqulu xəlifənin üsyanı yatırıldıqdan sonra I Sultan Səlim Səfəvilərə qarşı planlaşdırdığı müharibədə arxa cəbhədən arxayın olmaq üçün ölkə daxilində qızılbaşlara qarşı terrora başladı. Təkcə Şahqulu xəlifənin mənsub olduğu Təkəlü tayfası deyil, bu tayfa ilə əlaqəsi olan hər kəs cəzalandırıldı. Bəzi mənbələrdə qeyd edilib ki, sağ buraxılan şiələri fərqləndirmək üçün alınlarına dağ basırdılar. XIX əsrdə yaşamış məşhur Avstriya tarixçisi Jozef fon Hammer-Purqştal (1174-1856) özünün 10 cildlik "Osmanlı imperiyasının tarixi" kitabında I Sultan Səlimin şiələrə tutduğu divanı "tarix boyunca din bəhanəsi altında həyata keçirilmiş ən dəhşətli cinayətlərdən biri" sayır, bu dəhşətin Avropadakı inkivizisiya məhkəmələrindən və Müqəddəs Varfolomey gecəsindən geri qalmadığını yazırdı. Jozef fon Hammer-Purqştal həmin kitabda o dövrün məhsulu olan farsca bir şeiri də təqdim edir. Şeirdə qeyd edilir ki, I Sultan Səlimin əmri ilə məmləkət ərazisində yaşayan və şiə əqidəsinə inanan, yaşı 7 ilə 70 arasında olan 40 min nəfər günahsız insan qətlə yetirilmişdi.

bax: **ŞAHQULU XƏLİFƏ.**

ŞAHQULU XƏLİFƏ ZÜLQƏDƏR (vəf. 1558) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Zülqədər* tayfasının *Qavurğalu (Qoruğlu)* oymağından idi. I Şah

Təhmasibin zamanında əvvəlcə *qorçu* (şahın şəxsi qvardiyasının üzvü), sonra *eşikağasıbaşı* vəzifələrində xidmət etmişdi. Qısa müddətdə karyera pilləsində uğurla irəliləyərək məsuliyyətli *möhürdarlıq* mənsəbinə layiq görülmüş, 25 ildən çox bu vəzifəni daşımışdır. (Ondan əvvəlki möhürdar Mahmud bəy Qavurğalu 1533-cü ildə yarışma zamanı atdan yıxılıb ölmüşdü). Adındakı *"xəlifə"* sözündən göründüyü kimi, *təriqətə* bağlı olmuş və xəlifəlik işlərini də icra etmişdir.

I Şah Təhmasibin hakimiyyətinin əvvəllərindən etibarən baş verən hadisələrin təsvirində onun adına tez-tez rast gəlinir. Şahqulu xəlifə 1536/37-ci illərdə itaətsizliyinə görə həbs edilmiş şahzadə *Sam Mirzəni* Təbəs şəhərindən Herata – şahın hüzuruna gətirməyə təhkim olunmuşdu. Şahqulu xəlifə möhürdar I Şah Təhmasibin əmri ilə həm osmanlılara qarşı yürüşlərə qatılır, həm də daxildə baş verən üsyanları (o cümlədən *Əlqas Mirzənin* qiyamını) yatırırdı.

Şahqulu xəlifə 1558-ci ildə Yaka türkmanlarından Aba xan Oxlunun üzərinə göndərilən qızılbaş ordusuna sərkərdə təyin edilmiş, amma isti hava şəraitinə dözməyərək dünyasını dəyişmişdi. Onun vəfatından sonra *Bədr xan Ustaclu* qoşunun sərkərdəliyinə keçdi, amma səriştəsizliyi üzündən məğlubiyyətə uğradı.

Şahqulu xəlifənin xələfləri Səfəvilər dövlətində yüksək vəzifələr tutmuşlar. Onun oğlu Məhəmmədqulu xəlifə də möhürdar kimi xidmət edir və tabeliyində güclü hərbi dəstə saxlayırdı. I Şah Təhmasibin vəfatından sonra şahzadə *Heydər Mirzə* ilə İsmayıl Mirzənin (gələcək II Şah İsmayıl) tərəfdarları arasındakı mübarizədə əvvəlcə bitərəf qalmış, sonra üstünlüyün İsmayıl Mirzə tərəfdarlarına keçdiyini görüb onlara qoşulmuşdu. Məhəmmədqulu xəlifə öz zamanında bütün Zülqədər tayfasının böyüyü və ağsaqqalı kimi tanınırdı.

Şah Məhəmməd Xudabəndənin zamanında şahzadə *Həmzə Mirzə* ona sədaqətli olan əmirlərə bölgələrdə vəzifələr verəndə Şahqulu xəlifə Zülqədər möhürdarın nəvəsi Əliqulu sultan Qoruğluya da Qum şəhərinin hakimliyini tapşırmışdı. I Şah Abbasın vəfatı ərəfəsində yüksək dövlət vəzifələrində xidmət edən 6 Zülqədər əmirindən biri də Şahqulu xəlifənin nəvəsi Dərgahqulu sultan idi, onun Fars bölgəsində iri mülkləri vardı. Şahqulu xəlifənin qız nəvəsi, Ərəş hakimi Məhəmməd Hüseyn sultan I Şah Abbasın zamanında gürcü əyanlarının təhriki və yardımı ilə Şirvanda qopmuş qarışıqlıq zamanı həlak olmuşdur.

ŞAHQULU SULTAN QARINCA OĞLU – görkəmli qızılbaş əmiri. *Ustaclu* tayfasının *Mahifəqihlü* oymağından Qarınca sultanın oğlu idi. Atası Qarınca sultan I Şah Təhmasibin zamanında nüfuzlu sərkərdələrdən sayılırdı. (Bu, I Şah İsmayıl zamanında xidmətdə olmuş, onun vəfatından sonra qızılbaş tayfaları arasında baş verən vətəndaş müharibəsində öldürülmüş Qarınca sultan deyil).

Şahqulu sultan I Şah Təhmasibin zamanında Tiflisdə Səfəvi dövlətinin nüma-

yəndəsi və Gürcüstana şah tərəfindən təhkim olunmuş valinin müşaviri kimi xidmət edirdi. II Şah İsmayıl taxta çıxdıqdan sonra Şahqulu sultan öz təbrikini çatdırmaq üçün Qəzvinə gəldi, amma digər Ustaclu əmirləri kimi, o da etinasızlıqla qarşılandı. Şah Məhəmməd Xudabəndə hakimiyyətə keçdikdən bir qədər sonra Şahqulu sultana Xorasanda mülklər bağışladı. Bir müddətdən sonra ona Gilan tərəflərdə də mülklər verildi və o, *Salman xan Ustaclunun lələsi* (tərbiyəçisi) təyin edildi. (Salman xanın babaları şah nəsli ilə qohum olduqları üçün o da bu sülalənin bir qolu hesab edilirdi). Şahqulu sultan Abbas Mirzənin (gələcək I Şah Abbas) himayədarı olan *Əliqulu xan Şamlu* ilə mərkəzi hakimiyyətin maraqlarını müdafiə edən *Mürtəzaqulu xan Pörnak-Türkmanın* mübarizəsində ikinciyə yardım etmək üçün Xorasana göndərilsə də, yolda vəziyyətin onların ziyanına olduğunu öyrənib geri qayıtmışdı.

Şahqulu sultan Qarınca oğlunun adı I Şah Abbasın zamanında baş vermiş hadisələrin təsvirində çəkilmir, buna görə də onun o vaxt artıq həyatda olmadığı ehtimal edilir.

ŞAHQULU SULTAN USTACLU (vəf. 1568) – görkəmli qızılbaş sərkərdəsi, dövlət xadimi, diplomat. *Ustaclu* tayfasından *Köpək sultanın* qardaşı olan Muğan hakimi Qazaq (Qazuq) ləqəbli Həmzə sultanın oğlu idi. Atası Həmzə sultan Qazaq I Şah İsmayılın vəfatından sonra qızılbaş tayfaları arasında baş vermiş vətəndaş müharibəsində qardaşları *Çayan sultan* və Köpək sultanın tərəfində olmuş, Ustaclu koalisiyasının tərkibində savaşmış, gərginlik aradan qalxdıqdan sonra I Şah Təhmasibin hüzuruna gələrək əfv olunmuşdu.

Osmanlıların 1554-cü ildə *İrəvana* hücumu zamanı Hüseyn sultan Rumlu burada hakim olmuş, amma müqavimət göstərmədən qalanı təslim etmişdi. Bundan sonra o, vəzifəsindən azad edilmiş və yerinə Şahqulu sultan Çuxursəd bəylərbəyi təyin olunmuşdu. (Bəzi mənbələrdə bu təyinatın 1551-ci ildə baş tutduğunu yazmışlar). Şahqulu sultan bundan əvvəl Kirman, Astarabad və Məşhəddə yüksək vəzifələrdə xidmət edərək təcrübə toplamışdı. 1566-cı ildə Osmanlı hökmdarı Sultan Süleyman Qanuni vəfat edib yerinə II Sultan Səlim keçəndə, ənənəyə uyğun olaraq, I Şah Təhmasib mərhum sultanın vəfatı münasibətilə başsağlığını, taxta çıxmış sultana təbrikini çatdırmaq üçün Osmanlı dövlətinə böyük elçi heyəti göndərdi. 500 nəfərdən ibarət bu diplomatik qrupa Şahqulu sultan Ustaclu başçılıq edirdi. Şahqulu sultan Ədirnədə Osmanlı hökmdarı ilə görüşüb şahın məktubunu ona təqdim etmişdi. "Tarixi-aləmarayi-Abbasi" kitabında I Şah Təhmasibin vəfatı ərəfəsində sağ olan Ustaclu əmirlərinin siyahısında Şahqulu sultanın adının çəkilməməsi (oğlu Məhəmmədi bəyin adı çəkilir) göstərir ki, 1576-cı ildə o, artıq həyatda deyildi. Bəzi məlumatlara görə 1568-ci ildə Qəzvində vəfat etmişdir.

Şahqulu sultanın oğlu, Toxmaq ləqəbli *Məhəmmədi bəy* ondan sonra Çuxursəd bəylərbəyi olmuş, atası kimi diplomatik

missiya ilə Osmanlı dövlətinə göndərilmişdi. Şahqulu sultanın digər oğlu Allahqulu bəy Təbriz şəhərinin darğası idi.

ŞAHQULU SULTAN YEGAN (vəf. 1576) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasının *Çavuşlu* oymağından idi. I Şah Təhmasib zamanında Ustaclu tayfasının nüfuzlu əmirlərindən sayılırdı. O, həm strateji əhəmiyyətə malik Heratın bəylərbəyi, həm də şahzadə Məhəmməd Mirzənin (gələcək Şah Məhəmməd Xudabəndə) *lələsi* (tərbiyəçisi) idi. Sonralar Şah Məhəmməd Xudabəndə də oğlu şahzadə Abbas Mirzənin lələliyini ona tapşırmışdı. (Şahqulu sultanın qətlindən sonra *Əliqulu xan Şamlu* onun yerini tutdu).

II Şah İsmayıl hakimiyyətə gəldikdən sonra əvvəlcə Ustaclu tayfasına qarşı mənfi münasibətdə olmuş, bu tayfanın bir neçə nümayəndəsinə qarşı amansız davranmışdı. Ustaclu əmirlərinin bir qismi öldürülmüş, qalanları da vəzifələrindən və müklərindən məhrum olmuşdular. Bölgələrdəki qızılbaş əmirləri də vəziyyətdən istifadə edərək ustaclulara qarşı özbaşınalıqlar törətməyə başladılar. Fərah valisi Hüseyn sultan Əfşar Herata hücum çəkib Şahqulu sultanı qətlə yetirdi və evini qarət etdi (1576). Halbuki Şahqulu sultan mərkəzi hakimiyyətə qarşı çıxış etməmiş, səbirlə Qəzvindən gələn xəbərləri gözləmişdi. Şahqulu sultan Yeganın ölümü Ustaclu tayfasının mövqelərinə sarsıdıcı zərbə vurdu. Bu mövqe yalnız 10 ildən çox müddət keçdikdən sonra Şahqulu sultanın oğlu *Mürşidqulu xanın* səyləri ilə bərpa olundu.

Şahqulu sultanın qətlindən sonra *Aras xan Rumlunu* Herata hakim təyin edildi. Şahqulu sultanın digər oğlu İbrahim sultan Sərəxs hakimi vəzifəsində xidmət edirdi.

ŞAHRUX XAN TATIOĞLU ZÜLQƏDƏR (vəf. 1585/86) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Zülqədər* tayfasına mənsub idi. I Şah Təhmasibin hakimiyyətinin sonlarında Şahrux bəy *möhürdar* vəzifəsini daşıyırdı. II Şah İsmayıl onu vəzifədə saxladı, Şah Məhəmməd Xudabəndə isə onu xan rütbəsinə yüksəltdi və əlavə olaraq Şiraz hakimliyini də ona verdi. Bu dövrdə Şahrux xan Zülqədər tayfasının ağsaqqalı sayılırdı. O, Səfəvi torpaqlarına soxulmuş osmanlılara və Krım tatarlarına qarşı döyüşlərdə fəal iştirak edirdi. Şahrux xan saray intriqalarında da həlledici rol oynayırdı, Şah Məhəmməd Xudabəndənin xanımı *Məhdi-ülyanın* öldürülməsində onun da xidməti olmuşdur.

Şahrux xanın qızılbaş əmirləri arasında böyük nüfuzu vardı, hətta *Əmir xan Mosullu-Türkmanla* rəqabət aparmaq və mübahisə etmək gücünə malik idi.

Şahrux xan Tatıoğlu Zülqədər 1585/86-cı illərdə osmanlılar tərəfindən ələ keçirilmiş Təbriz şəhərini geri qaytarmaq uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak etmişdir. O, şəhərin mühasirə yolu ilə alınmasına razı deyildi və hücum tərəfdarı idi. Şahrux xan tabeliyindəki dəstə ilə Təbrizin qala divarlarına həddən çox yaxınlaşdığı üçün Osmanlı döyüşçüləri onu əsir tutub qalada

edam etdilər. Ondan sonra möhürdarlıq vəzifəsi oğlu Əsləməz xan Zülqədərə verildi.

ŞAHVERDİ XAN USTACLU (vəf. 1550) – görkəmli qızılbaş sərkərdəsi. *Ustaclu* tayfasından idi, "Keçəl" Şahverdi xan kimi tanınırdı.

Böyük Moğol hökmdarı Humayun şah hakimiyyətdən salındıqdan sonra I Şah Təhmasibə sığınmış, uzun müddət onun himayəsi altında yaşadıqdan sonra qızılbaş qoşununun yardımı ilə taxt-tacını qaytarmışdı. 1545-ci ildə Humayun şahla birlikdə Hindistana yürüş edən qızılbaş sərkərdələri arasında Şahverdi xan da vardı. O, Qəndəhar şəhərini Humayun şahın qardaşı Əskəri Mirzənin əlindən aldıqdan sonra, iki hökmdar arasındakı danışığa əsasən, şəhərdəki xəzinəni özü ilə Səfəvi torpaqlarına gətirdi.

1550-cı ildə Astarabad hakimi Şahəli sultan Ustaclu vəfat etdi və onun yerinə Şahverdi xan keçdi. Bölgədə məskunlaşmış Yaka türkmanları bu təyinatla razılaşmayıb silaha əl atdılar. Yaka türkmanlarının başçısı Aba xan Oxlu Şahverdi xanın qohumu Şatır bəyi öldürəndən sonra qarşıdurma daha da gücləndi. Şahverdi xan qiyamı yatırmağa çalışsa da, məğlub olaraq öldürüldü.

I Şah Təhmasibin vəfatı ərəfəsində Ustaclu tayfasının nüfuzlu əmirlərindən biri də Şahverdi xanın oğlu Mustafa sultan idi; o, Xorasanda xidmət edirdi.

ŞAHVERDİ SULTAN ZİYADOĞLU-QACAR (vəf. 1568) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* qoluna mənsub idi. Bəzi mənbələrə görə, atasının adı Əmət xan olmuşdur. I Şah Təhmasib Kəmaləddin Şahverdi sultanı Qarabağa bəylərbəyi təyin etmişdi. Şah Şahverdi sultanın xatirini əziz tutduğu üçün ona "Müsahib" (yoldaş, rəfiq) deyirdi. I Şah Təhmasib fərman vermişdi ki, Şahverdi xandan sonra onun nəslindən Qarabağ bəylərbəyi olacaq hər kəs "Müsahib" adlandırılsın və bu ləqəb bütün fərmanlarda bəylərbəyinin adından sonra yazılsın. Ziyadoğlu nəslinin sonrakı yüksək vəzifəli nümayəndələrinin adı mənbələrdə Müsahib ləqəbi ilə yad edilir (I Şah Təhmasibin digər qızılbaş əmirlərinə "Yoldaş", "Qardaş", "Sirdaş" kimi fəxri ləqəblər verdiyi məlumdur).

Şahverdi sultan dövlətin nüfuzlu əmirlərindən sayılırdı. O, I Şah Təhmasibin göstərişi ilə dəfələrlə Gürcüstana hərbi yürüşlər etmiş, mərkəzi hakimiyyətə tabe olmayan yerli hakimləri cəzalandırmışdı. 1556-cı ildə Kartli hakimi Luarsab itaətsizlik göstərdikdə Şahverdi sultan qoşunla əraziyə daxil oldu, əvvəlcə pusquya düşərək 300 nəfəri itirsə də, sonda qələbə çaldı. Luarsab öldürüldü, Səfəvilərə sədaqətli olan Simon onun əvəzinə Kartli çarı təyin edildi.

Şahverdi sultanın sağlığında böyük oğlu Xəlil xan Astarabad bəylərbəyi vəzifəsində xidmət edir və bu bölgədə məskunlaşmış Qacar tayfasının başçısı sayılırdı. (Sonralar qəzəbə düçar olaraq öldürüldü). Şahverdi sultanın daha bir oğlunun adı Süleyman bəy idi.

Şahverdi sultanın vəfatından (1568) sonra Qarabağ və Gəncəyə onun oğlu İbra-

him sultan hakim təyin edildi. Ümumiyyətlə, Şahverdi xanın bir neçə yaxın qohumu Səfəvilər dövlətində yüksək vəzifə tutmuşdur. İbrahim sultandan sonra qardaşı *Yusif xəlifə*, ondan sonra Şahverdi sultanın qardaşı oğlu *Peykər sultan* Qarabağ bəylərbəyi oldular. Qacar tayfasının *Yıva* oymağından olan *İmamqulu xanı* və gürcü mənşəli *Davud xan Undiladzeni* çıxmaq şərti ilə Qarabağ bəylərbəyiləri, ənənəvi olaraq, Şahverdi sultanın nəslinin nümayəndələri arasından seçilirdi. Qarabağ osmanlılardan geri alındıqdan (1606/07) sonra bu nəsildən Hüseyn xan, Məhəmməd xan (Xəlil xanın oğlu), onun oğulları Mürşidqulu xan, *Məhəmmədqulu xan* və Mürtəzaqulu xan, *I Uğurlu xan* (Məhəmmədqulu xanın oğlu, şair), onun oğulları *Abbasqulu xan* və Kəlbəli xan, *II Uğurlu xan* (Kəlbəli xanın oğlu) Qarabağ və Gəncə bəylərbəyi olmuşlar. Gəncə xanlığının əsasını da bu nəsildən olan Şahverdi xan Ziyadoğlu-Qacar qoymuşdur (1747).

ŞAMXAL SULTAN (vəf. 1578) – Səfəvilər zamanında yaşamış qeyri-türk (çərkəz) mənşəli görkəmli dövlət xadimi. Dağıstanın yerli feodal sülaləsindən (Şamxal nəslindən) idi. I Şah Təhmasib dövlətin şimal sərhədlərindən arxayın olmaq və etibarsız gürcü feodallarına qarşı sipər yaratmaq üçün 1547-ci ildə Şamxal sultanın bacısı *Sultanağa xanımla* evlənmiş, bu izdivacdan *Pərixan xanım* və şahzadə *Süleyman Mirzə* doğulmuşdular.

Şamxal sultan Gürcüstanda baş verən iğtişaşlar zamanı I Şah Təhmasibin göstərişi ilə bir neçə dəfə hadisələrə müdaxilə etmiş və Səfəvilər dövlətinin şimal sərhədlərini hücumdan qorumuşdu.

I Şah Təhmasibin vəfatı ərəfəsində qızılbaşların bir hissəsi şahzadə *Heydər Mirzənin*, digər hissəsi isə İsmayıl Mirzənin (gələcək II Şah İsmayıl) hakimiyyətə gətirilməsini dəstəkləyirdi. Şamxal sultan və bacısı qızı Pərixan xanım ikinci dəstəyə aid idilər. Şahın vəfatından sonra yaranmış qarışıqlıq zamanı Şamxal sultan başçılıq etdiyi çərkəz dəstəsinin və bir qrup qızılbaş əmirinin köməyi ilə saraya daxil olub Heydər Mirzəni qətlə yetirdi. II Şah İsmayıl taxta çıxandan sonra Şamxal sultan onun sadiq köməkçisi olmuş, öz qızını ona ərə vermiş, hətta şahın əmri ilə öz bacısı oğlu şahzadə Süleyman Mirzəni öldürmüşdü. Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin əvvəllərində də Şamxal sultan və Pərixan xanım dövlət işlərində üstünlüyü əllərində saxlayırdılar. Bu vaxt Şah Məhəmməd Xudabəndə hələ II Şah İsmayılın zamanında saxlandığı Şiraz şəhərində idi. Vəzir *Mirzə Salman Cabirinin* təklifi ilə hökmdar Qəzvinə doğru hərəkətə başladı. Şəhər yaxınlığına çatanda Şamxal sultanın öz tabeliyindəki çərkəz qulamlarla qarışıqlıq yaradacağından ehtiyatlanaraq ona məktub yazdı. Məktubda Şəki hakimliyinin əvvəlki kimi Şamxal sultana verildiyi bildirilir və ona Qəzvindən çıxıb öz mülkünə getmək təklif olunurdu. Şamxal sultan yazılanlara inanaraq dəstəsini də götürüb şəhəri tərk etdi, amma çox uzaqlaşmadan şəhər kənarında düşərgə

qurdu. Şah Məhəmməd Xudabəndə Qəzvinə daxil olan kimi həyat yoldaşı *Məhdi-ülyanın* göstərişi ilə Pərixan xanımı kəcavənin içində saraydan çıxarıb qızılbaş əmirlərindən birinin evinə apardılar. Pərixan xanım orada boğulub öldürüldü. Vaxtilə II Şah İsmayılın tərəfdarı olmuş Əmiraslan xan Ərəşlü Əfşara əmr edildi ki, şaha sədaqətini sübuta yetirmək üçün Şamxal sultanı öldürsün, o da əmrə itaət edib Qəzvin yaxınlığında durmuş Şamxal sultanı və dəstəsinin bütün üzvlərini qətlə yetirdi (1578).

ŞEYBANİ, MƏHƏMMƏD XAN (1451-1510) – Çingiz xanın nəslindən olan, Orta Asiyada hakimiyyət sürmüş özbək hökmdarı, Şeybanilər dövlətinin banisi. Əsl adının Əbülfəth Məhəmməd xan, yaxud Şeybək (Şibək), Şahibəy və ya Şahbəxt olduğunu yazırlar. "Şeybani" və "Şahbəxt" həm də onun ədəbi təxəllüsləri idi.

Şeybani xan Çingiz xanın nəslindən, Cuçi ulusundan özbək hökmdarı Əbülxeyr xanın nəvəsi, Şahbudaq sultanın oğludur. Bu nəslin adı Cuçinin oğlu Şeybanın (və ya Şibanın) adından götürülmüşdür. Məhəmməd Şeybani xanın babası Əbülxeyr xan (1412-1468) XV əsrdə köçəri özbək tayfalarını birləşdirib xanlıq qurmuşdu, bu xanlığı Şeybanilər dövlətinin sələfi sayırlar. Gənc yaşlarında atasını itirən Şeybani xan bir müddət yaxın qohumlarının himayəsində yaşamış, daha sonra öz dövlətini qurmağa çalışmış, amma özbək və qazax xanlarının, eləcə də Qızıl Orda xanı Əhmədin güclü rəqabəti ilə qarşılaşmışdı. O, tez-tez yerini dəyişərək özünə müttəfiqlər axtarır, bölgə hakimləri ilə toqquşmalara girirdi.

1488-ci ildə Şeybani xan Türküstanı ələ keçirib burada möhkəmləndi. Onun növbəti hədəfi zəifləmiş Teymurilər dövləti idi. XV əsrin sonu – XVI əsrin əvvəllərində Şeybaninin başçılığı altında özbək qoşunları Orta Asiyaya aramsız hücumlar edərək Səmərqənd, Urgənc kimi iri şəhərləri ələ keçirdi, qazax tayfalarını özünə tabe etdi, Zəhirəddin *Baburu* Kabilə sıxışdırdı. Xorasanda hakimiyyət sürən Sultan Hüseyn Bayqaranın vəfatından sonra oğullarının zəifliyindən istifadə edən Şeybani xan Herat şəhəri başda olmaqla, Xorasan vilayətini tutdu. Beləliklə, XVI əsrin birinci onilliyinin sonlarında Səfəvilər dövlətinin şimal-şərqində güclü Şeybanilər dövləti yarandı. Bu dövlət şimalda Mavəraünnəhrdən cənubda Qəndəhara kimi, qərbdə Xəzər dənizi sahillərindən şərqdə Çin sərhədinədək böyük ərazini əhatə edirdi.

Şeybani xanla I Şah İsmayıl arasında gərginlik 1507-ci ildə başlamışdı. Heratı ələ keçirdikdən sonra özünü bütün müsəlmanların başçısı, "zəmanənin imamı", "əsrin xəlifəsi" adlandıran Şeybani xan I Şah İsmayıla məktub göndərərək həcc ziyarətinə yollanmaq fikrində olduğunu, bunun üçün Səfəvilər dövlətinin ərazisindən keçəcəyini bildirdi. O, Səfəvi şahını təhqir məqsədilə "İraq darğası İsmayıl Mirzə" adlandıraraq tələb edirdi ki, onun rahat hərəkət etməsi üçün yolları abadlaşdırsın, azuqə hazırlasın, özü də pişvaza çıxıb tabeliyini göstərsin.

Şeybani xan I Şah İsmayıla yazdığı məktubdakı şeir parçası ilə Səfəvilər dövlətini özünə rəqib hesab etmədiyini vurğulayırdı:

Ma ra təmə be-mülki-İraqi-xərab nist,
Ta Məkkəvü Mədinə nəgirəm, hesab nist!

Tərcüməsi:
Biz xaraba İraq mülkünə tamah salmamışıq,
Məkkə ilə Mədinəni tutmasam, hesabdan sayılmaz!

(Səfəvilər dövlətinin tərkibində olan ərazilərin böyük hissəsi, ozamankı coğrafiyaya uyğun olaraq, İraq torpaqları (İraqi-Əcəm və İraqi-Ərəb) sayılırdı).
Şah isə dini amili qabartmaqla ona bu şəkildə cavab verdi:

Hər kəs ze-can ğulami-şəhi-Butürab nist,
Gər səd həzar Məkkə begirəd, hesab nist!

Tərcüməsi:
Kim ürəkdən Əbutürabın (yəni İmam Əlinin) nökəri deyilsə,
Yüz min Məkkəni tutsa da, hesabdan sayılmaz!

Bu arada Şeybani xan gücünü göstərmək üçün bacısı oğlu Canvəfa Mirzənin və təcrübəli sərkərdə Bayaqu Bahadurun başçılığı altında 10 minlik qoşunu Səfəvilər dövlətinin mərkəzi vilayətləri olan Kirman və Yəzd üzərinə yolladı. Özbək qoşunu Kirmandakı 500 nəfərlik qarnizonu qırıb şəhəri talan etdi, amma Yəzdin müdafiəçiləri hücum haqqında qabaqcadan məlumatlı olduqları üçün şəhəri qoruya bildilər.

Şeybani xanın təhdidləri dözülməz həddə çatmışdı, o öz məktublarında Səfəvi hökmdarını təhqir etməkdən çəkinmirdi. Şahın nəzakətli cavab məktubunun əvəzində Şeybani xan daha da irəli gedərək ondan tələb etdi ki, *şiəlikdən* əl çəkib əhli-sünnə məzhəbinə keçsin, ya da ata-babası kimi sufiliklə məşğul olsun. O, şahın səfəviyyə soyundan olduğuna işarə edərək ona sufi atributları olan əsa və kəşkül də göndərmişdi. Bunun əvəzində I Şah İsmayıl qadın əl aləti olan cəhrənin bəzi hissələrini ona göndərməklə "boş-boş danışmaq və cəhrə kimi qırıldamaq qadın işidir" mesajını verdi. Şah öz məktubunda Şeybani xana elan etdi ki, onun Məkkə ziyarətinə yollanmasını gözləmək fikri yoxdur, özü gələn il Novruzdan sonra (1511-ci ilin yazında) İmam Rzanın (ə) məzarını ziyarət etmək üçün Xorasana gələcək. Bununla şah özbəklərin əlində olan Xorasan vilayətini fəth edəcəyinə və İmam Rzanın (ə) məqbərəsini onlardan alacağına işarə edirdi.
Herata göndərilmiş elçilərin və kəşfiyyatçıların gətirdikləri xəbərdən məlum olmuşdu ki, soyuqların düşməsi ilə əlaqədar Şeybani xan sərkərdələrini əyalətlərə qaytarmış və onların qış fəslini öz yerlərində keçirmələrinə icazə vermişdi. Heratda Şeybani xanın ətrafında cəmi 4 min nəfərlik dəstə qalmışdı, Orta Asiyadakı qüvvələrin toplaşması və Xorasana qəlib çatması üçün xeyli vaxt lazım idi. Üstəlik, məlum olmuşdu ki, Şeybani xanın axırıncı soyğunçu yürüşlərinin bəziləri uğursuzluqla nəticələnib. Qazax xanı Burunduka və Əfqanıstan həzarilə-

rinə qarşı yürüşlərdə Şeybani xan öz ordusunun xeyli hissəsini və hərbi təchizatını itirmişdi. O, uğursuzluğun əvəzini Səfəvilərlə sərhəddə yerləşən bölgələrə basqınlar etməklə doldurmağa çalışır, amma bu yürüşlərin hansı fəlakətlə nəticələnəcəyini düşünmürdü.

Taktiki gedişlə Şeybani xanı arxayın salan I Şah İsmayıl 1510-cu ilin payızında qoşunu toplayıb sürətlə Xorasan üzərinə yürüş etdi. Özbək xanı Səfəvi hücumunu növbəti ilin yazında gözlədiyi üçün ordusunu çağırmağa imkan tapmadı, Heratı tərk edib Mərv qalasına sığındı. Qızılbaş ordusu bir-birinin ardınca Simnan, Damğan, Bistam, Səbzəvar, Nişapur və Məşhəd şəhərlərini fəth etdi. Nəhayət, 1510-cu ilin sonunda Mərv qalasını mühasirəyə alan I Şah İsmayıl bir daha sərkərdəlik istedadını göstərərək taktiki manevr nəticəsində Şeybani xanı qaladan çıxara bildi. Mərv yaxınlığında baş vermiş həlledici döyüşdə özbək qoşunu darmadağın edildi, Şeybani xan qaçmağa cəhd göstərərkən atı bataqlığa düşdü. I Şah İsmayılın mehtəri onun başını kəsib şaha təqdim etdi.

Bəzi mənbələrdə I Şah İsmayılın əmri ilə Şeybani xanın kəlləsindən qədəh düzəldilməsi və məclislərdə şahın bu qədəhdə şərab içməsi qeyd edilmişdir. Lakin, əvvəla, I Şah İsmayıl dinə bağlı bir şəxs olmuş və mənasız əyləncələrdən, şərabdan uzaq durmuşdur. İkincisi, bəzi tarixi mənbələrdə qeyd edilmişdir ki, Şeybani xanın kəsik başının kəllə sümüyü Misirin məmlük sultanı Qansuh al-Ğovriyə, saman doldurulmuş baş dərisi isə Osmanlı sultanı II Bayezidə göndərilmişdi. I Şah İsmayıl bu yolla həm qələbə xəbərini rəqib ölkələrin hökmdarlarına çatdırdı, həm də Səfəvilərə qarşı düşmənçiliyin acı nəticələri barədə onları xəbərdar etdi.

Şeybani xan gənclik illərində Buxara mədrəsəsində mükəmməl təhsil almış, Heratda hakimiyyət sürdüyü dövrdə elm və sənət adamlarını himayə etmiş, tikinti və abadlıq işləri aparmışdır. Özbək xanı "Şeybani" təxəllüsü ilə türk (cığatay ləhcəsi) və fars dillərində şeirlər yazırdı. Onun ilahiyyat mövzusunda "Bəhr əl-Xuda" və "Risaleyi-maarifi-Şeybani" əsərləri, eləcə də tarix mövzusunda kitabı vardır.

ŞEYBANİLƏR – XVI əsrdə müsəlman dünyasının ən güclü dövlətlərindən biri olan Buxara xanlığında (1501-1785) hakimiyyət sürmüş sülalə. Sülalənin şəcərəsi Çingiz xanın oğlu Cuçinin oğlu Şeybana (və ya Şibana) bağlandığı üçün bu adı daşımışdır. Tamamilə türkləşmiş olan Şeybanilər sülaləsinin ilk görkəmli nümayəndəsi *Məhəmməd xan Şeybani* (Şeybək xan, Şahbəxt xan) sayılır. Onun babası Əbülxeyr xan (1428-68) köçəri özbək tayfalarını birləşdirərək paytaxtı Suğnaq olmaqla dövlət qurmuş, amma ölümündən sonra dövlət dağılmışdı. Şeybani xan XV-XVI əsrlərin qovşağında əvvəlcə Orta Asiya (Mavəraünnəhr) bölgəsini, daha sonra Xorasanı Teymurilərin əlindən alaraq yeni dövlətin əsasını qoydu. Şeybanilərin siyasi maraqları Teymurilər, Səfəvilər, Böyük Moğollar və Qazax xanlığı ilə toqquşduğu üçün daim bunlarla mübarizə halında yaşamış-

lar. Onlar özlərini Çingizin qanuni varisi sayır, Teymuriləri qəsbkar adlandırırdılar. XVI əsrin əvvəllərində Şeybanilərin idarəçiliyi altında nəhəng ərazi cəmlənmişdi, bu dövlət şimalda Orta Asiyadan (Mavəraünnəhr) cənubda Qəndəhara, qərbdə Xəzər dənizi sahillərindən şərqdə Çin sərhədinədək uzanırdı.

Məhəmməd Şeybani 1510-cu ildə Mərv savaşında qızılbaş qoşununa məğlub olduqdan sonra özbəklərin bölgədə nüfuzu nisbətən zəifləmiş, amma qonşu dövlətlərlə, xüsusən Səfəvilərlə çəkişmələri davam etmişdir. XVI əsrin sonlarında hakimiyyət sürmüş II Abdullah xanın (1583-98) səyləri nəticəsində özbəklər yenidən güclənərək fəal işğalçılıq siyasəti yürütmüşlər. Lakin onun vəfatından sonra Şeybanilər sülaləsi Həştərxan əsilli Canılar sülaləsi tərəfindən hakimiyyətdən salındı. Canılar sülaləsinin idarəçiliyi altında Buxara xanlığı 1785-ci ilədək öz mövcudluğunu davam etdirdi.

Şeybanilər sülaləsi dövründə özbəklər Səfəvilər dövlətinə qarşı daim siyasi rəqabət və hərbi qarşıdurmada olmuşlar. Mütəmadi olaraq sərhəd bölgəsi Xorasanda toqquşmalar baş verir, hər iki tərəfdən xeyli insan bu döyüşlərdə həlak olurdu. Bu iki dövlətin gah biri, gah da o birisi Xorasanın şəhərlərini dəfələrlə ələ keçirmiş və itirmişlər. Səfəvilər dövlətinin onlarla sərkərdəsi özbəklərlə döyüşdə öldürülmüşdür, onların arasında bütün qızılbaş tayfalarının nümayəndələrinin adına rast gəlirik:

Şamlu tayfasından *Zeynal xan*, Çəkirgə sultan, Dəmri bəy və oğlu Ağzıvar xan, Əliqulu xan;

Əfşar tayfasından Məhəmməd xan, Mustafa sultan, Danə Məhəmməd xan;

Qacar tayfasından *Qara Piri bəy*, Budaq xan, Gökçə sultan;

Rumlu tayfasından Sufiyan xəlifə;

Ustaclu tayfasından *Şahqulu sultan*;

Zülqədər tayfasından Səncər oğlu Həmzə bəy;

Bayat tayfasından Mahmud bəy Qarabayat;

Qaramanlu tayfasından *Bayram bəy*;

I Şah İsmayılın *vəkili* Əmir Yar Əhməd Xuzani *(Nəcmi-sani)* və b.

ŞEYXƏLİ XAN ZƏNGƏNƏ (vəf. 1689) – Səfəvilər dövründə yaşamış görkəmli dövlət xadimi. Kürd mənşəli Zəngənə elinə mənsub olan Əli bəy (və ya Əli Balı bəy) Zəngənənin oğludur. Atası I Şah Abbas və I Şah Səfinin hakimiyyətləri dövründə cilovdar, *əmiraxurbaşı*, *qorçu* vəzifələrində xidmət etmişdir. Şeyxəli xan Zəngənə 1653-cü ildə Kirman hakimi vəzifəsinə təyin olunmuş, 1669-cu ildə Şah Süleymanın əmri ilə baş vəzir məqamına gətirilmiş, 20 il bu vəzifədə xidmət etmişdir. O, həm də *sipəhsalar* (ordunun baş komandanı) və *tüfəngçiağası* rütbələrini daşıyırdı.

Şeyxəli xan Zəngənənin həyata keçirdiyi uğurlu islahatlar Səfəvilər dövlətinin iqtisadi vəziyyətinin yüksəlməsinə səbəb olmuşdu. O zamanlar şah tərəfindən ənənə halına gətirilmiş bəxşiş, peşkəş və rüşvət ölkəni bürümüşdü, bu ödənişlər büdcəyə ağır zərbə vururdu. Şeyxəli xan bu ənənəyə qarşı mübarizə aparır, özü heç kimdən bəxşiş və peşkəş almır, heç kimə də vermirdi. Kürdlərin arasında o

zamandan belə bir misal yaranmışdır: "Şah da bağışladı, amma Şeyxəli xan bağışlamadı".

Şeyxəli xan xarici siyasət sahəsində də uzaqgörənliklə hərəkət edir, qonşu dövlətlərlə sülh və sabitliyi qorumağa çalışırdı. Avropa səyyahı Sanson öz xatirələrində Almaniya, Polşa, Rusiya elçilərinin etimad əd-dövlə (Şeyxəli xan) ilə görüşlərindəki söhbətləri təsvir etmişdir. Avropa elçiləri Səfəvi dövlətinin baş vəzirini osmanlılarla müharibəyə qızışdırmaq üçün nə qədər səy göstərsələr də, o, təxribatçı təklifləri qəti şəkildə rədd edərək bildirmişdi ki, biz öz qonşuluğumuzda hər hansı qeyri-müsəlman dövlətinin olmasındansa, müsəlman osmanlıların olmasına üstünlük veririk. Osmanlı dövləti bizim üçün nə qədər təhlükəli olsa belə, biz onun yox olmasını istəmirik, çünki o, bizimlə qeyri-müsəlman ölkələri arasında maneə rolunu oynayır. Baş vəzir xarici səfirlərə aydın şəkildə başa salmışdı ki, Səfəvi və Osmanlı hökmdarları bir-birinin üzərinə hücum etməmək barədə söz vermişlər və Səfəvi tərəfi heç zaman öz vədini pozmaq niyyətində deyil. "Şah öz məmləkətinin bir hissəsini itirməyə razı olar, amma Osmanlı sultanı ilə bağladığı sülh müqaviləsinin əksinə hərəkət etməz və başqa ölkələri ələ keçirməz".

Şeyxəli xan Zəngənə Səfəvilər dövləti ərazisində böyük tikinti-abadlıq işləri həyata keçirmişdir. Paytaxt İsfahanda və digər bölgələrdə onun göstərişi əsasında xeyli məscid, mədrəsə, karvansara, körpü, bazar və hamam tikilmişdir. Bunlardan ən məşhuru İsfahanda onun adını daşıyan məsciddir.

Şeyxəli xan Zəngənənin 5 oğlu olmuş, onlardan *Şahqulu xan Zəngənə* 1707-16-cı illər arasında Səfəvilər sövlətində baş vəzir vəzifəsində xidmət etmişdir.

ŞİRVANŞAHLAR DÖVLƏTİ – 861-1538-ci illər arasında təqribən 7 əsr boyunca indiki Azərbaycan Respublikası və qismən Dağıstan ərazisində mövcud olmuş dövlət. Ərazisi şərqdə Dərbənddən Kür çayı mənsəbinədək Xəzər dənizi sahillərindən başlamış qərbdə Gəncə şəhərinə kimi torpaqları əhatə etmiş, bəzən Şəki və Qarabağ vilayətlərini də öz içinə almışdır. Dövlətin əsasını Şirvan vilayəti təşkil etdiyi üçün Şirvanşahlar dövləti kimi tanınmışdır. Paytaxtı Şamaxı, müəyyən dövrlərdə isə Bakı şəhəri olmuşdur.

Hələ Sasanilər zamanında bu torpaqların hakiminin Şirvanşah adlanması barədə bəzi məlumatlar mövcuddur. Müstəqil dövlət olaraq Şirvanşahlar dövlətinin əsası Abbasilər zamanında Azərbaycan valisi təyin edilmiş ərəb mənşəli Heysəm ibn Xalid Şeybani tərəfindən qoyulmuşdur. Onun babası Yəzid ibn Məzyəd Bəni-Şeyban qəbiləsinin başçısı, şücaət və səxavəti ilə tanınmış Mən ibn Zaidənin qardaşı oğlu idi. Abbasilər zamanında o, üç dəfə bu vəzifəyə təyinat almış, hər dəfə Azərbaycan torpaqlarında baş vermiş üsyanları yatırdıqdan və sabitliyə nail olduqdan sonra vəzifədən uzaqlaşdırılmışdı. Nəhayət, 799-cu ildə Yəzid dördüncü dəfə Azərbaycan valisi təyin edilir, amma 2 ildən sonra dünyasını dəyişir. Ondan sonra oğlu

Əsəd qardaşı Məhəmmədlə birlikdə atasının vəzifəsini yerinə yetirmiş, daha sonra xəlifə Əminin əmri ilə əmisi Əhməd onun yerinə gətirilmişdir. Məmun hakimiyyətə gəldikdən sonra Yəzid ibn Məzyədin digər oğlu Xalid Azərbaycan valisi təyin olundu, vəfatından sonra oğulları Əli və Məhəmməd onu əvəz etdilər. Məhəmməd Dərbənd şəhərini də öz mülkünə əlavə etmiş, Gəncə şəhərinin əsasını qoymuşdur. 861-ci ildə onun qardaşı Heysəm ibn Xalid ibn Yəzid Abbasilər xilafətində baş vermiş qarışıqlıqdan faydalanaraq müstəqilliyini elan etdi. O vaxtdan etibarən onu Şirvanşah adlandırmağa başladılar. Heysəmin qardaşı Yəzid ibn Xalid isə Layzanda (indiki Lahıc) hökm sürür və Layzanşah ləqəbini daşıyırdı. Bir müddətdən sonra o, qardaşının bütün varislərini aradan götürüb özü Şirvan hakimiyyətinə yiyələndi. Təqribən XI əsrin 30-cu illərindən etibarən Şirvanşahlar dövlətində Sasani ənənələrinə meyil yaranmış, bu, hökmdarların adlarında da özünü göstərmişdir. Şirvanşahlar dövləti bölgədə Saci, Salari, Şəddadi dövlətləri ilə rəqabət şəraitində mövcud olmuş, rusların, oğuzların, monqolların və Xarəzmşahların hücumlarına məruz qalmış, Səlcuq və Elxani dövlətlərinin tərkibində öz mövcudluğunu qorumuşdur. 1382-ci ildə Məzyədilər sülaləsi ilə qohum olan Dərbəndilər sülaləsindən I İbrahim hakimiyyətə gətirildi. Əmir Teymurun yürüşləri zamanı diplomatik bacarığı sayəsində öz hakimiyyətini qoruyub saxlamış Şirvanşahlar Qaraqoyunlularla mübarizədə üstünlüyü əldən vermiş, onlardan sonra bölgədə güc sahibinə çevrilən *Ağqoyunlular dövləti* ilə müttəfiqlik siyasəti yürütmüşlər.

Şirvanşahlar dövlətinin başçısı Fərrux Yasar *səfəviyyə* təriqətinin rəhbərləri ilə mənfi münasibətdə olmuş, bu düşmənçilik 1460-cı ildə *Şeyx Cüneydin*, 1488-ci ildə *Şeyx Heydərin* ölümləri ilə nəticələnmişdir. I Şah İsmayıl hakimiyyətə gəldikdən sonra hər şeydən əvvəl Şirvanşahlar dövlətinin müqavimətini qırmaq və onun torpaqlarını öz dövlətinə birləşdirmək məqsədilə Şirvana yürüş təşkil etdi. *Cabanı döyüşündə* (1500) qızılbaşlar Şirvanşah qoşunu üzərində parlaq qələbə qazandılar, Fərrux Yasar öldürüldü, Şamaxı, Bakı və digər şəhərlər fəth edildi. Bundan sonra Şirvanşahlar dövləti Səfəvilərdən asılı vəziyyətə düşərək onların vassalına çevrildi. Lakin 1509-cu ildə Şirvanşah Şeyxşahın vergidən boyun qaçırması və öz adına pul zərb etdirməsi I Şah İsmayılın Şirvana ikinci dəfə yürüş etməsinə səbəb oldu. Onun zamanında Şirvan torpaqlarının idarəçiliyi *Hüseyn bəy Lələ Şamluya* tapşırılmışdı. 1523-cü ildə I Şah İsmayıl Şirvanşah Şeyxşahın qızı ilə evlənərək öz dövlətinin şimal hissəsində sabitliyə nail oldu. 1538-ci ildə Şeyxşahın hakimiyyətinə qarşı qopan üsyanlar I Şah Təhmasibə Şirvan torpaqlarına daxil olmaq imkanı verdi. Şirvanşahlar dövlətinin iri şəhərləri qızılbaş ordusu tərəfindən tutuldu, Şeyxşah əsir edilib Təbrizə gətirildi və növbəti ildə burada öldü. I Şah Təhmasib əvvəlcə Şirvan hakimliyini qardaşı *Əlqas Mirzəyə* verdi, sonralar burada Şirvan bəylərbəyliyi yaradıldı.

Şirvanşahlar dövlətinin 7 əsrlik tarixi Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatı üçün çox mühüm və əlamətdar olmuşdur. Şamaxı və Bakı şəhərləri orta əsrlərdə təkcə Azərbaycanın deyil, Şərqin elm və sənət mərkəzləri kimi tanınırdı. Xaqani Şirvani, Fələki Şirvani, Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Fəzlullah Nəimi, İmadəddin *Nəsimi*, Seyid Yəhya Bakuvi kimi görkəmli şəxsiyyətlərin həyatı Şirvanşahlar dövləti ilə sıx bağlı olmuşdur. Şirvan-Abşeron memarlıq məktəbi Şirvanşahlar zamanında özünün ən parlaq inkişaf dövrünü yaşamışdır. Şirvanşahlar sarayı, Qız qalası, Abşeron qalaları, Gülüstan və Buğurt qalaları, məscid, xanəgah və ziyarətgahlar bu memarlıq məktəbinin şah əsərləri sayılır. Şirvanşahlar dövlətində xəttatlıq, nəqqaşlıq, miniatür, musiqi, dulusçuluq, xalçaçılıq kimi sənət növləri yüksək səviyyədə inkişaf etmişdi.

TALIB XAN ORDUBADİ – *bax:* **ƏBU TALİB XAN ORDUBADİ.**

TEYMUR XAN USTACLU – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Ustaclu* tayfasından məşhur Səfəvi əmiri *Məntəşa sultanın* oğlu idi. Teymur xan Ustaclu I Şah Təhmasibin zamanında Sistan hakimliyinə təyinat almışdı. O, I Şah İsmayılın nəvəsi *Bədiüzzaman Mirzənin* (*Bəhram Mirzənin* oğlu) *lələsi* idi. II Şah İsmayılın əmri ilə Teymur xan Bədiüzzaman Mirzəni oğlu ilə birlikdə öldürdü. Sonralar Sistan əhalisi Teymur xanın ədalətsizliyindən bezib onu şəhərdən qovdu.

Məntəşa sultanın nəvəsi (Teymur xanın oğlu) Murad xan sarayda *süfrəçibaşı* vəzifəsində xidmət etmiş, daha sonra Lahican valiliyini qazanmışdı. I Şah Təhmasibin vəfatı ərəfəsində və sonrakı dövrlərdə "böyük əmirlərdən" sayılırdı və geniş nüfuz sahibi idi. I Şah Abbasın hakimiyyətinin əvvəlində Turşiz əmiri olmuş, daha sonra vəzifəsindən götürülmüş Məntəşa sultanın da onun digər nəvəsi olduğu ehtimal edilir.

TEYMURİLƏR DÖVLƏTİ – 1370-1507-ci illər arasında mövcud olmuş böyük müsəlman imperiyası. Məşhur sərkərdə Əmir Teymur tərəfindən yaradılmış imperiyaya indiki Azərbaycan, Qafqaz, İran, Əfqanıstan torpaqları, o cümlədən Orta Asiyanın böyük hissəsi, İraq, Suriya, Türkiyə və Pakistanın bir hissəsi aid idi. Əmir Teymurun vəfatından sonra onun dövlətini iki oğlu – Şahrux və Miranşah idarə etmişlər. Lakin böyük sərkərdənin xələfləri (Teymurilər sülaləsi) onun yaratdığı dövlətin bütövlüyünü qoruyub saxlaya bilmədilər və daxili müharibələr Teymurilər dövlətini getdikcə zəiflətdi. Teymurilər imperiyasına daxil olan ərazidə məskunlaşmış Qaraqoyunlu tayfa ittifaqı müstəqil dövlət qurdu, daha sonralar onları Ağqoyunlu tayfa ittifaqı əvəz etdi. Teymuri Əbu Səidin qərb torpaqlarını Uzun Həsəndən geri almaq cəhdi uğursuzluqla nəticələndi (1469). XV əsrin ikinci yarısında Teymurilər dövləti iki hissəyə parçalanmış şəkildə (mərkəzi Səmərqənd olan Mavəraünnəhr (Orta Asiya) və mərkəzi Herat olan Xorasan bölgələrində) öz mövcudluğunu

davam etdirirdi.

Sultan *Hüseyn Bayqaranın* Heratdakı hakimiyyət illəri (1469-1506) Teymurilər dövlətinin "qızıl dövrü" sayılır. Məhz onun hakimiyyət dövrünün son illərində Teymurilərin qərb qonşusu olan Səfəvilər dövləti yaranmış və sürətlə böyüməyə başlamışdı. I Şah İsmayıl Sultan Hüseyn Bayqara ilə mehriban qonşuluq münasibətləri saxlamağa, arabir baş verən sərhəd toqquşmalarını barışıq yolu ilə həll etməyə çalışırdı. "Aləmarayi-Səfəvi" kitabında şahın Sultan Hüseynə ağsaqqal kimi hörmətlə yanaşdığı barədə məlumatlar öz əksini tapmışdır. I Şah İsmayıl və Sultan Hüseyn Bayqara arasında kifayət qədər sıx diplomatik əlaqələr mövcud olmuş, bu əlaqələr hökmdarların bir-birinə hədiyyələri və sülh mesajları şəklində özünü göstərmişdir.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında yazırdı: "Müzəffər xaqan Əbülqazi Sultan Hüseyn Mirzə Bayqara Xorasan, Mərvi-Şahican, Xarəzm, Toxarıstan, Zabilistan və Qəndəhardan tutmuş Kabilə və Bədəxşan hüduduna qədər məmləkətlərə hökmdarlıq edirdi. Onun hakimiyyət müddəti neçə illər ərzində davam etmişdi... (Sultan Hüseyn Bayqara) o həzrətlə (Şah İsmayılla) sədaqət və dost münasibətlərində olub, həmişə yaxınlıq və məhəbbət göstərirdi. Süleyman şanlı xaqan da o yüksək məqamlı padşahla ata-oğul kimi rəftar edirdi və Teymurilər sülaləsinə ehtiram göstərib, keçmiş və gələcək münasibətləri nəzərə alırdı. (Şah İsmayıl) məmləkətləri almağa başlayanda o müzəffər şahın əlində olan ölkələrə təcavüz etmədi. İki tərəf arasında həmişə məktublaşma və gediş-gəliş qapıları açıq idi".

Sultan Hüseyn Bayqaranın məzhəbi mənsubiyyəti barədə məlumatlar ziddiyyətlidir. Daha geniş yayılmış məlumata görə, o, ənənəvi əhli-sünnə əqidəsində olmuş, amma şiə məzhəbinə də kifayət qədər tolerant yanaşmışdır. O öz tabeliyində olan torpaqlarda aşkar edilmiş Əhli-beytlə bağlı ziyarətgahlara hörmətlə yanaşır, şeirlərini "Hüseyni" təxəllüsü ilə imzalayırdı. Bəzi məlumatlara görə, o, ölkədə şiə əqidəsini yaymağa cəhd etmiş, hətta xütbədə 12 imamın adını qeyd etməyə əmr vermiş, amma əhalinin ciddi müqaviməti ilə qarşılaşmış, vəziri Əbdürrəhman Caminin məsləhəti ilə bu fikirdən daşınmışdı.

I Şah İsmayılın *Məhəmməd xan Şeybaniyə* qarşı yürüşünü təsvir edən "Aləmarayi-Səfəvi"nin müəllifi onun Herat şəhərində Sultan Hüseyn Bayqaranın sarayına daxil olmasını bu şəkildə təsvir edir: "Şah gəlib sultanın imarətinə (həyətə) daxil olanda əvvəlcə onun ruhunu "Fatihə" ilə sevindirdi. "Fatihə"dən sonra (atdan) endi, imarətin hansı tərəfinə baxdısa, orada sultanın şəxsiyyətinin nişanələrini gördü və bildi ki, sultan hansı qüvvənin sahibi imiş".

Vəziri, böyük şair Əbdürrəhman Caminin müdrik məsləhətləri əsasında dövləti idarə edən Hüseyn Bayqara elm və sənətə himayədarlıq edirdi. Onun dövründə Herat şəhəri müsəlman Şərqinin mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Lakin bu vəziyyət Sultan Hüseyn Bayqaranın vəfatından cəmi bir il

sonra (1507) köklü surətdə dəyişdi. Bundan əvvəl Səmərqəndi işğal edərək oradakı Teymuri hakimiyyətinə son qoymuş Məhəmməd xan Şeybani Heratı öz istilaçı yürüşlərinin hədəfi seçdi. Heratın Şeybanilər tərəfindən işğalından sonra burada fəaliyyət göstərən sənət adamlarının bir qismi Səfəvilər dövlətinə üz tutdu. I Şah İsmayıl Heratdan köçüb gəlmiş elm və sənət xadimlərinə, xəttat və nəqqaşlara gözəl şərait yaratdı və onlar Səfəvilər dövlətinin himayəsi altında öz fəaliyyətlərini davam etdirdilər.

TƏHMASİBQULU XAN AĞCAQOYUNLU-QACAR (vəf. 1641) – qızılbaş əmiri. *Qacar* tayfasının *Ağcaqoyunlu* oymağından Çuxursəd bəylərbəyi *Əmirgünə xanın* oğlu idi. Atası 1625-ci ildə döyüşdə ağır yaralanıb öldükdən sonra I Şah Abbas ona xan rütbəsi verib Çuxursədə hakim təyin etdi. Təhmasibqulu xan təxminən 10 il müddətində bu məsuliyyətli vəzifəni yerinə yetirib tabeliyindəki ərazini Osmanlı hücumundan qorudu. Səfəvi imperiyasının şimal-qərb sərhədlərinin mühafizəsi ona həvalə edilmişdi. 1635-ci ildə *İrəvan* şəhəri 9 günlük mühasirədən sonra Osmanlı qüvvələri tərəfindən tutuldu, şəhər hakimi Təhmasibqulu xan ələ keçdi. Bir ildən sonra I Şah Səfi İrəvanı geri alsa da, Təhmasibqulu xan ömrünün sonunadək (1641) osmanlıların əlində əsir qaldı.

Təhmasibqulu xandan sonra Çuxursəd bəylərbəyliyinə təyin edilmiş hakimlər arasında qeyri-türk millətindən (çərkəz və gürcü) əmirlər üstünlük təşkil etmiş və onların hər biri hakimiyyətdə qısa müddətdə qalmışdır. Çuxursəd bəylərbəyilərinin siyahısında Əmirgünə xanın oğlu Abbasqulu xanın və onun kürəkəni *Zal xanın*, eləcə də Əmirgünə xanın nəvəsi Fəzləli xanın da adlarına rast gəlinir. Lakin Zal xan istisna olmaqla, bu hakimlər bölgənin həyatında o qədər də mühüm rol oynamamışlar.

UĞURLU XAN ZİYADOĞLU-QACAR (vəf. 1686-cı ildən sonra) – XVII əsrdə Səfəvilər zamanında yaşamış qızılbaş dövlət xadimi və şair. Bəzi mənbələrdə onun adını Kərbəlayı Əli xan və ya qısaldılmış formada Kəlbəli xan kimi yazmışlar. Lakin daha dəqiq araşdırmalar bu fikri təkzib edir. Uğurlu xan *Qacar* tayfasının *Ziyadoğlu* oymağının başçısı və *Məhəmmədqulu xanın* oğlu idi. Səfəvilər dövründə bu bölgənin hakimləri, ənənəvi olaraq, Qacar tayfasından seçilirdi.

Uğurlu xan gənclik illərində Qum şəhərində darğa, İsfahanda mirab (su təchizatı müdiri) işləyir, bu zaman mükəmməl təhsil (həm də dini) almağa müvəffəq olur. 1664-cü ildə əmisi (və ya əmisi oğlu) Mürtəzaqulu xan Qacarın vəfatından sonra II Şah Abbasın fərmanı ilə o, Qarabağ və Gəncə bəylərbəyi təyin edilir. Gürcüstan valisi mütəmadi olaraq mərkəzi hakimiyyətə qarşı çıxdığı üçün Uğurlu xan həmişə onu nəzarət altında saxlayır, bəzən hərbi yürüşlə yerində oturdurdu. Buna görə mənbələrdə onu, faktiki olaraq, Gürcüstan (Kaxeti) hakimi kimi də qeyd edirlər.

Uğurlu xan gəncliyində Ziyadi, daha sonralar Müsahib təxəllüsü ilə şeirlər

yazmışdır. Məşhur şair *Qövsi Təbrizi* ilə müasir və dost idi. Qövsi onun himayəsi altında ömür sürərək, bəzi şeirlərində onun adını minnətdarlıqla yad etmişdir. Ədəbi mənbələrdə Müsahib Gəncəvi adı ilə xatırlanır.

bax: **MÜSAHİB GƏNCƏVİ.**

UĞURLU XAN ZİYADOĞLU-QACAR (vəf. 1738) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* qolundan I *Uğurlu xanın* nəvəsi, Kəlbəli xanın oğludur. Atası Kəlbəli xanın vəfatından (1702) sonra Qarabağ və Gəncə bəylərbəyi təyin edilmişdir. Onun zamanında Qarabağ osmanlılar tərəfindən ələ keçirildi. 1735-ci ildə *Nadir xan Əfşar* (gələcək Nadir şah) Gəncəni və Qarabağ torpaqlarını osmanlılardan azad edib II Uğurlu xan Ziyadoğlunun ixtiyarına verdi. Lakin Nadir şah Muğan qurultayında öz hökmdarlığını elan etdiyi zaman II Uğurlu xan və digər Qarabağ zadəganları bununla razılaşmayıb Səfəvilər dövlətinin qalmasını istədilər. Bundan sonra Nadir şah Qarabağ bəylərbəyliyinin gücünü sarsıtmaqdan ötrü bir sıra inzibati islahatlar həyata keçirdi. Qarabağ camaatının bir hissəsi Xorasana köçürüldü, Bərgüşad və Xəmsə məlikliyi yeni yaranmış Azərbaycan vilayətinə verildi, Qazax və Borçalı mahalı isə Gürcüstan hakiminin ixtiyarına keçdi. Qarabağ bəylərbəyinin əlində, faktiki olaraq, yalnız Gəncə şəhəri və ətrafı qaldı.

II Uğurlu xan Ziyadoğlu 1738-ci ildə dağıstanlılarla döyüşdə öldürülmüş və Gəncədə dəfn edilmişdir.

ULAMƏ SULTAN TƏKƏLÜ – qızılbaş əmiri. Mənbələrdə adı "Üləma", "Uləmə" şəklində də qeyd edilir. O dövrün salnamələrində adətən hərflərin üzərində hərəkə qoyulmadığı üçün bu sözü daha fərqli formalarda da oxumaq olar. Ulamə sultan *Təkəlü* tayfasına mənsub olmuş, əvvəlcə Osmanlı ordusunda sipahi (döyüşçü) kimi xidmət etmiş, *Şahqulu xəlifə üsyanına* qatılmışdır (1511). *Şahqulu xəlifə* öldürüldükdən sonra Səfəvilər dövlətinin ərazisinə keçmiş minlərlə qızılbaşın arasında o da vardı. Cəsurluğuna görə ona "Yavuz oğlan" ləqəbini vermişdilər. I Şah İsmayılın zamanında sarayda xidmətə başlayan, əvvəlcə *yasavul*, daha sonra *eşikağasıbaşı* vəzifələrini icra edən Ulamə sultan şahın son tapşırıqlarından birini yerinə yetirmiş, şahzadə Təhmasib Mirzəni Ərdəbilə gətirmişdi. I Şah İsmayılın vəfatından sonra xidmət pilləsində getdikcə irəliləyən Ulamə sultan hakimiyyət uğrunda qızılbaş əmirlərinin silahlı mübarizəsində fəal iştirak edərək Təkəlü tayfasının mənafeyini qorumuşdu. I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində *Çuxa sultanın əmir əl-üməralıq* dövründə Ulamə sultan Azərbaycan (Təbriz) hakimi təyin edildi (1528/29). Çuxa sultanın ölümündən sonra isə Ulamə sultan əmir əl-ümərа mənsəbini ələ keçirməyə çalışdı, amma buna nail ola bilmədi. Təkəlü tayfasının məğlubiyyətindən sonra bir daha üstünlüyü ələ almağa cəhd göstərdi və I Şah Təhmasibin Təbrizdə olmamasından istifadə edərək şəhərə hücum etdi. Təbrizi və şahın sarayını qarət edən Ulamə sultan I

Şah Təhmasibin yürüşdən geri qayıtdığını eşidəndə sərhəd istiqamətinə qaçıb osmanlılara sığındı. Bundan sonra Ulamə paşa Osmanlı qoşununun tərkibində dəfələrlə Səfəvi torpaqlarına soxulmuş, qətl-qarətlər törətmişdir. Lakin hər dəfə qaçıb gizlənməyi bacarmış, I Şah Təhmasibin onu ələ keçirmək cəhdləri uğursuz olmuşdur. Coğrafi relyefə, o cümlədən Səfəvi qoşununun döyüş taktikasına bələd olduğu üçün Sultan Süleyman Qanuni Ulamə paşanı sərhəd bölgəsinə basqınlara göndərir, özünün başçılıq etdiyi yürüşlərdə də onu bələdçi kimi götürürdü. Bidlis və Van qalalarının osmanlılar tərəfindən ələ keçirilməsində onun da böyük rolu olmuşdur. Ulamə paşa ilə birlikdə Təkəlü tayfasının daha bir neçə əmiri də osmanlıların tərəfinə keçdi. Ulamənin qardaşı Vəli bəy, təkəlülərdən Vəlican bəy, Burun sultanın oğlu Hüseyn sultan və b. bunların arasında idi.

Ulamə paşa Osmanlı ordusunun Avropa istiqamətindəki hərbi əməliyyatlarında da iştirak edirdi. O, Bosniya sancaqbəyisi təyin edilmiş, Avropanın bir sıra şəhərlərinin tutulmasında və mühasirəsində fərlənmişdir. Vəfat ili dəqiq məlum deyil, 1556-cı ildə sağ idi.

YAQUB XAN ZÜLQƏDƏR (vəf. 1592) – görkəmli qızılbaş əmiri. *Zülqədər* tayfasının *Hacılar* oymağından İbrahim xanın oğlu idi. O, Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin sonlarında şahzadələr Abbas Mirzə (gələcək I Şah Abbas) və *Həmzə Mirzə* arasındakı mübarizədə birincini dəstəkləmişdi. Buna görə I Şah Abbas hakimiyyətə keçdikdən sonra onun xidmətlərini qiymətləndirdi. Ozamankı Şiraz hakimi Mehdiqulu xan Zülqədər şahın sağ əli olan *Mürşidqulu xan Ustacluya* qarşı koalisiya qurmuş əmirlərdən biri idi. Yaqub bəy şahın göstərişi ilə Mehdiqulu xanı öldürüb əvəzində xan rütbəsi alaraq Şiraz hakimliyinə təyin edildi (1588).

Yaqub xan xidmət yerinə çatdıqda yaxınlıqdakı Kirman vilayətində və Yəzd şəhərində hakimiyyət sürən *Bektaş xan Əfşarın* simasında güclü rəqiblə qarşılaşdı. Onların arasındakı rəqabət getdikcə gücləndi. Yaqub xan Şirazda çevriliş edib hakimiyyəti Bektaş xana vermək istəyən satqın Zülqədər əmirlərini ifşa edib cəzalandırmağa başladı. Bu arada hakimiyyətin yuxarı təbəqəsində də sürətli proseslər baş verirdi. I Şah Abbas onu hakimiyyətə gətirmiş Mürşidqulu xan Ustaclunun nüfuzundan narahat olub digər xanların əli ilə onu aradan götürdü (1589). Yaqub xan öz düşmənlərinin də Mürşidqulu xanın komandasından olduğunu elan edib cəza tədbirlərini şiddətləndirdi. Nəticədə Zülqədər əmirlərinin bir hissəsi şəhərdən qaçıb Yəzd hakimi Bektaş xana sığındı.

Qaçmış əmirləri qaytarmaq üçün Yaqub xan Yəzdə gəlib Bektaş xanla görüşdü. Lakin onların ilk görüşü hər ikisində mənfi təəssürat yaratdı. Yaqub xan elə güman etdi ki, Bektaş xan da qaçqın əmirlərin tərəfinə keçib və onu öldürmək istəyir. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"də yazır ki, Yaqub xan bu şübhələrində haqlı idi, Bektaş bəy, həqiqətən, onu öldürüb Fars vila-

yətinə də yiyələnmək istəyirdi. Yaqub xan təcili surətdə Şiraza qayıtdı, torpaqlarına çatan kimi tabeliyindəki hərbi dəstəni səfərbər edb Yəzd üzərinə yeridi. Şəhər kənarında baş vermiş döyüş (1590) Yaqub xan Zülqədərin qələbəsi ilə başa çatdı, Bektaş bəy öldürüldü, nəticədə Yaqub bəy Zülqədər Fars əyalətindən əlavə Kirman və Yəzd üzərində də nəzarəti ələ keçirdi. O, hətta Kirmana öz tərəfdarı, Əbərquh hakimi Yusif xan Əfşarı hakim təyin etdi, amma Yusif xanın təyinatı sonralar şah tərəfindən təsdiq olunmadı və o, həbs edildi. Kirmanı isə əvvəlki hakim Vəli xan Əfşarla İsmayılqulu sultan Alplu-Əfşar şərikli surətdə idarə etməyə başladılar.

Bektaş xanın üzərindəki qələbədən sonra Yaqub xan Zülqədər öz gücünə arxalanıb şahın əmrlərini qulaqardına vurmağa başladı, alınmaz hesab olunan İstəxr qalasını möhkəmləndirib ora çəkildi. I Şah Abbasın dəvətlərini də cavabsız qoyub saraya gəlmədi, vergi ödənişində ləngitmələr yaratdı. Onsuz da ikitirəlik halında yaşayan Zülqədər əmirlərinin əksəriyyəti ona dəstək vermədi. Nəhayət, I Şah Abbasın başçılığı altında qoşun Şiraz üzərinə yeriyəndə Yaqub bəy təslim olub şahın hüzuruna gəldi, buna baxmayaraq, tabeliyində olan əmirlərlə birlikdə edam edildi (1592).

YARƏHMƏD XUZANİ – *bax:* **NƏCMİSANİ.**

YEDDİ QIZILBAŞ ƏMİRİ – Səfəvilər dövlətinin qurulma mərhələsində iştirak etmiş qızılbaş əmirlərindən ibarət qrup. Bu qızılbaş əmirləri *Şeyx Heydərin* zamanında qızılbaşlığı qəbul etmiş, onun vəfatından sonra şeyxzadələrin (İsmayılla qardaşlarının) himayəsini öhdələrinə almışdılar. Şeyx Heydərin böyük oğlu *Sultan Əli Mirzənin* ölümündən sonra bu qrup qızılbaşların şeyxi elan edilmiş balaca İsmayılı Gilanda qorumuş və onun tərbiyəsi ilə məşğul olmuşdu. Səfəvi mənbələrində bunları "pak etiqadlı yeddi sufi" və "əhli-ixtisas" adlandırırlar. Yeddi qızılbaş əmiri bunlardan ibarət idi: İsmayılın *lələsi* (tərbiyəçisi) *Hüseyn bəy Lələ Şamlu*, *dədəsi* (təriqət ustadı) *Abdal bəy Dədə Zülqədər*, *Xadim bəy Xüləfa Talış*, *Rüstəm bəy Qaramanlu*, *Bayram bəy Qaramanlu*, *İlyas bəy Ayqutoğlu Xınıslu* və *Qara Piri bəy Qacar*. Göründüyü kimi, bunlar qızılbaşların özəyini təşkil etmiş türk tayfalarından altısının (*Şamlu, Zülqədər, Qacar, Qaramanlu, Talış* və *Xınıslu*) nümayəndəsi idilər. Səfəvilər tarixinin mühüm mənbələrindən sayılan "Tarixi-aləmarayi-Səfəvi" kitabında yazılıb: "Həmin yeddi nəfər sufi Həzrət Sultan Heydərin və Sultan Əlinin vəsatəti ilə şərəfli hökmdarı (Şah İsmayılı) dar əl-irşad Ərdəbildən Gilana aparmışdılar və onların yeddisi də ona yoldaş olmuşdular. Onlar qızılbaşlar arasında öz arvad-uşaqlarından, mallarından və varlarından əl çəkərək, öz başlarını bu yolda qoymuşdular və şəhidlik dərəcəsini öz mərtəbələri bilmişdilər ki, sabah məhşər günündə üzüağ olsunlar".

Bəzi tədqiqatçılar bu yeddi qızılbaş əmirini, haqlı olaraq, Səfəvilər hərəkatının nüvə mərkəzi alandırmışlar.

YUSİF XAN (vəf. 1623/24) – Səfəvilər dövrünün dövlət xadimi, qeyri-türk mənşəli qullar *(qulamlar)* təbəqəsindən idi. Şirvan Osmanlı işğalından azad edildikdən sonra I Şah Abbas buraya *Fərhad xan Qaramanlunun* qardaşı Zülfüqar xanı bəylərbəyi təyin etdi (1607). Lakin 3 ildən sonra Zülfüqar xan da qardaşının aqibətini yaşayıb edam olundu. 1610-cu ildə I Şah Abbas Şirvan hakimiyyətini Yusif xana verdi. Bundan əvvəl Yusif xan *əmirşikarbaşı*, sonra Astarabad hakimi vəzifəsində xidmət etmişdi. Təqribən 15 il boyunca Şirvan bəylərbəyliyini idarə etmiş Yusif xan 1623/24-cü illərdə Səfəvi sərkərdəsi *Qərəçəqay xanla* birlikdə Gürcüstandakı münaqişəni yatırmaq üçün bu bölgəyə səfər etdi. Həmin səfər zamanı onların hər ikisi özünü müttəfiq kimi göstərən Böyük Mouravi Georgi Saakadze tərəfindən xəyanətlə öldürüldü.

Yusif xan ədəbiyyata maraq göstərir, özü də azərbaycanca və fars dilində şeir yazır, ətrafındakı şairlərlə şeirləşirdi. Onun Şirvandakı sarayı elm və sənət adamlarının fəaliyyət mərkəzi idi.

YUSİF XƏLİFƏ ZİYADOĞLU-QACAR (vəf. 1576) – görkəmli qızılbaş əmiri və dövlət xadimi. *Qacar* tayfasının *Ziyadoğulları* qolundan Şahverdi sultanın oğlu idi. Qardaşı *İbrahim sultandan* sonra I Şah Təhmasibin əmri ilə Qarabağ və Gəncə bəylərbəyi təyin edilmişdi. Amma şahın vəfatı ərəfəsində hələ təyinat yerinə yola düşməmiş və Qəzvində qalmışdı. Adındakı *"xəlifə"* sözündən göründüyü kimi, qızılbaşlıq inancına dərindən bağlı olmuş və təriqət işləri sahəsində müəyyən səlahiyyət və vəzifələr daşımışdı. Yusif xəlifə şahzadə *Əli Mirzənin lələsi* (tərbiyəçisi) idi. II Şah İsmayıl hakimiyyətə keçdikdən (1576) sonra Yusif xəlifəni vəzifədən azad etdi və Qarabağ hakimliyini onun əmisi oğlu *Peykər sultan Ziyadoğluya* verdi. Peykər sultan vaxtilə I Şah Təhmasibin vəfatından sonra hakimiyyətə kimin gətirilməsi mövzusunda qızılbaş əmirləri arasında yaranmış ikitirəlikdə Yusif xəlifənin şahzadə *Heydər Mirzəni* dəstəkləmiş olduğunu xatırlayıb şahın gözündə ucalmaq və vəzifədə öz yerini möhkəmlətmək üçün Yusif xəlifəni öldürdü. Bu iş xüsusi qəddarlıqla icra edilmiş, Yusif xəlifənin qardaşları və hətta anası da qətlə yetirilmişdi. Lakin II Şah İsmayıl bu hərəkəti təqdir etmədi, Peykər sultana qəzəblənib vəzifədən kənarlaşdırdı və Qacar tayfasının *Yıva* oymağından *İmamqulu xanı* Qarabağ hakimliyinə gətirdi.

ZAL XAN – görkəmli Səfəvi əmiri və dövlət xadimi. Şah Süleyman tərəfindən Çuxursəd bəylərbəyi vəzifəsinə təyin edilmişdi (1679). Vaxtilə Çuxursəd bəylərbəyi olmuş *Əmirgünə xan Ağcaqoyunlu-Qacarın* oğlu Abbasqulu xanın kürəkəni idi.

Çuxursəddə ondan əvvəlki bəylərbəyi gürcü mənşəli Səfiqulu xan Saakadze keçmiş *sipəhsalar Rüstəm xanın* oğlu və Azərbaycan (Təbriz) bəylərbəyi Bican bəyin qardaşı idi. Bu vəzifəyə keçməzdən əvvəl Məşhəd bəylərbəyi və *divanbəyi* kimi xidmət etmişdi. Çuxursəd

hakimi kimi əvvəlcə xalqla ədalətli rəftarına görə hörmət qazanmış, amma oğru və quldurları cəzalandırmadığına, əksinə, rüşvət alıb buraxdığına görə şahın qəzəbinə düçar olmuşdu.

Zal xan vəzifəni təhvil aldıqdan az sonra *İrəvanda* güclü zəlzələ baş verdi (1679). Şəhərdə xeyli bina, o cümlədən qala divarları dağıldı. Zal xan qısa müddətdə ziyanı aradan qaldırmağa və dağılmış tikililəri bərpa etməyə nail oldu. Bu işdə ona Azərbaycan (Təbriz) bəylərbəyliyinin vəziri Mirzə İbrahim də yaxından köməklik göstərdi. Mirzə İbrahim şəxsən bölgəyə gələrək qonşu vilayətlərin hakimlərini Çuxursədə yardım göstərmək üçün səfərbər etdi. Naxçıvan, Bərdə, Maku və digər məntəqələrin köməyi ilə İrəvan şəhəri yenidən qurularaq öz geosiyasi mövqeyini bərpa etdi.

Zal xanın İrəvanda tikdirdiyi gözəl memarlıq quruluşuna malik ikimərtəbəli məscid onun adı ilə Zal xan məscidi adlanırdı. 1928-ci ildə məscid qismən sökülərək yerində mehmanxana tikildi. 1999-cu ildə məscid tamamilə uçuruldu və mehmanxananın binası böyüdülərək hotel kompleksinə çevrildi. İrəvanda Zal xanın tikdirdiyi hamam da məşhur idi.

ZEYNAL XAN ŞAMLU (vəf. 1527/28) – görkəmli qızılbaş sərkərdəsi. *Şamlu* tayfasına mənsub idi. Onun adına 1510-cu illərdən etibarən baş vermiş hadisələrin təsvirində rast gəlirik.

1511-ci ildə Rey hakimi *Hüseyn bəy Lələ Şamlu* Mərv şəhərinə vali təyin edildi, Reyin idarəçiliyi isə Zeynal xana tapşırıldı. Zeynal xan o vaxtdan döyüşlərdə fəal iştirak etmiş, əsasən Xorasan istiqamətində özbəklərə qarşı müharibədə fərqlənmişdi. Şahın başçılığı altında Mərv yaxınlığında *Şeybani xanın* darmadağın edilməsi, 1512-ci ildə Qicduvan qalasının qarşısında Orta Asiya xanlarının birləşmiş qüvvələri tərəfindən *Nəcmi-saninin* rəhbərlik etdiyi Səfəvi ordusunun məğlub edilməsi ilə nəticələnmiş savaşlara Zeynal xan da qatılmışdı. Bu döyüşlərdə, eləcə də *Babur şaha* yardım məqsədilə göndərilmiş Səfəvi dəstəsinin tərkibində qazandığı hərbi təcrübəyə baxmayaraq, Zeynal xan Mərv şəhərini qoruya bilmədi. Hüseyn bəy Lələ Şamluya yardım məqsədilə Mərvin müdafiəsinə başçılıq edən Zeynal xan azuqə çatışmazlığı üzündən şəhəri təslim etdi və Astarabada çəkildi. Lakin I Şah İsmayıl şəxsən bölgəyə gəlib vəziyyəti qaydaya saldı, bundan sonra Heratın müdafiəsinə başçılıq edən Zeynal bəy özbəklərə layiqli müqavimət göstərməyi bacardı (1514).

I Şah İsmayılın hakimiyyətinin sonlarında Zeynal xana Astarabad hakimliyi verildi, I Şah Təhmasibin zamanında da bu vəzifə onun öhdəsində qaldı. Zeynal xan Şamlu həmtayfası Çəkirgə sultan Şamlu ilə birlikdə 1527/28-ci illərdə Firuzkuhda özbəklərlə döyüşdə həlak olmuşdur.

ZEYNAL XAN BƏGDİLÜ-ŞAMLU (vəf. 1630) – görkəmli qızılbaş sərkərdəsi və dövlət xadimi. *Şamlu* tayfasının *Bəgdilü* oymağından, I Şah Təhmasibin sərkərdəsi *Zeynal xan Şamlunun* (vəf. 1527/28) nəvəsi idi.

I Şah Abbasın zamanında Polşaya göndərilən diplomatik heyətə qatılmış (1605), özbək xanı Vəli Məhəmməd xanın qarşılanması və yola salınması mərasimində (1611) iştirak etmişdir.

Sonrakı illərdə o, Osmanlı ordusu ilə aparılan döyüşlərdə fəal iştirak edərək fərqlənmişdi. Bu mərhələdə onun adının bəy titulu ilə qeyd edilməsi orduda və dövlət idarəçiliyində hələ o qədər də yüksək mövqe sahibi olmadığını göstərir. Sarayda *tuşmalbaşı* vəzifəsində xidmət edən Zeynal bəy 1620-ci ildə Səfəvilər dövlətində diplomatik səfərdə olan Böyük Moğol elçisi ilə birlikdə elçi qismində Hindistana yola düşdü. Zeynal bəyin diplomatik missiyasını uğurla başa vurması, Hindistanda ona təklif edilən hədiyyə və peşkəşləri qəbul etməməsi şahın gözündə ucalmasına səbəb oldu. I Şah Abbasın İraqa yürüşündə də Zeynal bəy öz hərbi istedadını nümayiş etdirdi. Həmin səfər zamanı Zeynal bəyin qardaşı Saru sultan Bəgdilü müqəddəs ziyarətgahların mütəvəllisi, Hillə hakimi və Nəcəf şəhərinin *qorçubaşısı* təyin edildi. 1624-cü ildə Zeynal bəy böyük ordunun başında və digər qızılbaş əmirlərinin əhatəsində bir daha İraq istiqamətində yola salındı. 1625-cı ildə Şamlu tayfasının *Kəramətlü* oymağından Əliqulu xanın vəfatı ilə bağlı *eşikağasıbaşı* vəzifəsi və Rey şəhərinin hakimliyi Zeynal bəyə həvalə edildi. Bu tarixdən etibarən mənbələrdə onun adı xan titulu ilə xatırlanır. İsgəndər bəy Münşi Zeynal xan Bəgdilü haqqında yazırdı: "Olduqca izzətli, hörmətli və hamıdan möhtərəm idi".

Zeynal xan Şamlu 1628/29-cu illərdə I Şah Səfinin əmri ilə Səfəvi ordusunun *sipəhsaları* (baş komandanı) elan olunmuş, lakin 1630-cu ildə Osmanlı ordusunun Həmədanı ələ keçirməsində təqsirli bilinərək edam edilmişdir.

ZÜLQƏDƏROĞULLARI BƏYLİYİ – Anadolunun cənubunda iki əsrə yaxın (1337-1522) mövcud olmuş türk bəyliyi. Mənbələrdə adı Zülqədiroğulları və ya Zülqədroğulları şəklində də verilir. Oğuzun Boz Ok tayfa birliyinə daxil olan tayfalardan törəmiş Zülqədəroğullarının siyasi hakimiyyətinin başlanğıcı Zeynəddin Qaraca bəyin adı ilə bağlıdır. O, 1337-ci ildə məmlüklərin əli ilə Elbistan bölgəsindəki türkmanların rəhbərliyinə gətirilmiş və öz bəyliyini qurmuşdu. Zülqədəroğulları bəyliyi şimalda Ərətna bəyliyi, cənubda Məmlük sultanlığı, qərbdə Ramazanoğulları bəyliyi, şərqdə isə fərqli tarixi dönəmlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri ilə əhatə edilmişdi. Sonralar Qaraca bəyin Məmlük sultanlığı ilə münasibətləri pozulmuş və o, rəqibi olan Ərətna bəyi tərəfindən ələ keçirilib məmlüklərə təslim edilmişdi. 1353-cü ildə Qahirədə edam edilən Qaraca bəyin yerini oğlu Xəlil bəy tutdu. Xəlil bəy 30 ilə yaxın məmlüklərlə uğurlu mübarizə apardıqdan sonra məğlubiyyətə uğradı və xəyanətlə öldürüldü (1386). Ondan sonra hakimiyyətə kiçik qardaşı Sülü (Sevlü) bəy, daha sonra oğlu Nasirəddin Məhəmməd bəy keçdi. Nasirəddin Məhəmməd bəy Osmanlı sultanları ilə müttəfiqlik siyasəti yürütmüş, hətta taxt uğ-

runda şahzadələr arasında şiddətlənən mübarizədə gələcək I Sultan Mehmeti dəstəkləyərək onun hakimiyyətə keçməsinə (1413) yardım göstərmişdi. Nasirəddin Məhəmməd bəyi sultanla qohumluq əlaqəsi də bağlayırdı; o, qızını sultana ərə vermişdi. Onun ölümünədək (1442) keçən müddətdə Zülqədəroğulları bəyliyi digər türkman bəyliyi olan Qaramanoğulları ilə və məmlüklərlə ardıcıl mübarizə aparmışdır. Nasirəddin Məhəmməd bəydən sonra hakimiyyətə keçən oğlu Süleyman bəy qızlarını Osmanlı və Məmlük sultanlarına ərə verməklə nisbi sabitliyə nail oldu, özünü Qaramanoğulları, Qaraqoyunlu və Ağqoyunlu hücumlarından sığortaladı. Bundan sonrakı daha bir neçə onillik ərzində Zülqədəroğulları Ağqoyunlular, məmlüklər və Qaramanoğulları ilə üzücü savaşlara cəlb edildilər. 1479-cu ildə zəifləmiş bəyliyin başına Süleyman bəyin oğlu Əlaüddövlə bəy Bozqurd Zülqədər keçdi. Qızını II Sultan Bayezidə ərə verməklə Əlaüddövlə bəy Osmanlı dövləti ilə dostluq münasibətlərini daha da möhkəmləndirdi. Siyasi qərarlar verərkən həmişə ehtiyatlı davranan Əlaüddövlə bəy Zülqədər 1480-ci illərdə baş vermiş Osmanlı-Məmlük müharibəsində tərəflərdən heç birinə qoşulmadan bitərəf qalmağa üstünlük verdi. Lakin XV əsrin son onilliyində o, Məmlük taxtını ələ keçirmək istəyən əmir Ağberdini müdafiə etdiyinə görə Məmlük sultanlığı ilə silahlı toqquşmalara girdi. Bununla belə, XV-XVI əsrlərin qovşağında Zülqədəroğulları bəyliyi həm osmanlılarla, həm də məmlüklərlə sülh anlaşması bağlamağa nail olmuşdu.

Səfəvilər dövləti qurulandan sonra Zülqədəroğulları bəyliyi şərq tərəfdə özünə güclü və təhlükəli bir rəqib qazanmış oldu. I Şah İsmayıl bəyliklə münasibətləri yaxşılaşdırmaq üçün Əlaüddövlənin qızı Bənlü xatunla evlənmək istədiyini bildirdi, lakin Əlaüddövlə bəy məzhəb fərqliliyini bəhanə gətirib qızını Ağqoyunlu şahzadəsi Sultan Murada nişanladı. I Şah İsmayılın Sultan Muradı təhvil vermək tələbini rədd edən Əlaüddövlə bəy kürəkənini osmanlıların yanına göndərdi. I Şah İsmayılın qasidi Oğlan Əmət Çavuşlu isə həbs olundu.

1507-ci ildə I Şah İsmayılın başçılığı altında qızılbaş qoşunu Zülqədəroğulları bəyliyinin torpaqlarına daxil oldu. Bundan əvvəl şah Osmanlı və Məmlük sultanlarına müraciət edərək, bu yerlərə yalnız Əlaüddövlə bəyi cəzalandırmaq məqsədilə yürüş etdiyini bildirmişdi. Üç gün davam edən döyüşün sonunda qızılbaş qoşunu qalib gəlmişdi. Rəvayətə görə, savaşdan əvvəlki gecə I Şah İsmayıl öz düşərgəsini gəzərkən bəzi döyüşçülərin belə dediyini eşitmişdi: "Savaşlarda qılınc çalan bizik, amma şahın adı ucalır". Şah qəsdən müharibənin birinci və ikinci günlərində döyüş meydanına çıxmamış, nəticədə qızılbaşlar qələbə qazana bilməmişdilər. Bu uğursuzluqdan sonra I Şah İsmayıl döyüşün üçüncü günündə şəxsən savaşa qoşuldu və bundan ruhlanan qızılbaşlar Zülqədəroğullarının müqavimətini qıra bildilər. Bu yolla şah özünün döyüşlərdəki həlledici rolunu bir daha sübuta yetirmiş oldu.

Döyüşdən sonra tərəflər Ceyhan çayının qarşı sahillərində düşərgə qurdular. Bu zaman xeyli aralıda qərargah qurmuş I Şah İsmayıl qızılbaş qoşununa başçılıq etməyi *Hüseyn bəy Lələ Şamluya* tapşırdı. Bir gecə Əlaüddövlə bəyin oğlu Saru Aslan (və ya Saru Qaplan) əsgərləri ilə basqın edib Səfəvi düşərgəsinə ağır zərə vurdu. I Şah İsmayıl bunu eşidincə özü düşmən mövqeyinə yürüyüb onları çaın o biri sahilinə qayıtmağa məcbur etdi. Əlaüddövlə bəy Zülqədər Durna dağındakı möhkəm qalaya sığındı. Qızılbaş qoşunu qalanı mühasirəyə aldıqdan sonra o, I Şah İsmayıla barışıq təklifi ilə müraciət etdi. Əldə edilmiş razılığa görə, Əlaüddövlə bəy Bozqurd Zülqədər Fərat çayından şərqə doğru yürüşlər etməməyə söz verdi. I Şah İsmayılın babası *Uzun Həsənin* vətəni olan Diyarbəkrin hakimi *Əmir xan Mosullu* şəhəri qızılbaşlara təslim etdi. Qızılbaş qoşunu Zülqədəroğulları bəyliyini tərk etdikdən sonra Əlaüddövlə bəy yenidən Diyarbəkri ələ keçirməyə cəhd göstərsə də, nəinki uğur qazanmadı, hətta iki oğlunu da döyüşlərdə itirdi. I Şah İsmayıl tərəfindən Diyarbəkir hakimi təyin edilmiş *Məhəmməd xan Ustaclu* bir neçə il həmlələrin qarşısını uğurla almağa nail oldu. Əlaüddövlə bəy Bozqurd Zülqədər *Çaldıran savaşında* Osmanlı ordusuna qoşulmadığı üçün I Sultan Səlimin göndərdiyi ordu tərəfindən öldürüldükdən sonra (1515) bəyliyin başçısı seçilmiş Şahsuvaroğlu Əli bəy osmanlılarla müttəfiqlik şəraitində hərəkət etmiş, bəyliyin ərazisində qopmuş *cəlali* üsyanlarının yatırılmasında fəallıq göstərmişdi. 1522-ci ildə o, saray əyanlarının intriqası nəticəsində oğulları ilə birlikdə aradan götürüldü, bundan sonra Zülqədəroğulları bəyliyi Osmanlı dövlətinə ilhaq edilərək sancaqlıqlardan birinə çevrildi.

Zülqədəroğulları bəyliyinin ərazisindən köç etmiş *Zülqədər* tayfası Səfəvilər dövlətinin siyasi-ictimai həyatında mühüm rol oynamışdır.

Altıncı bölüm

Səfəvilər dövləti və qızılbaş ordusu



SƏFƏVİLƏR DÖVLƏTİ – 1501-1736-cı illərdə Səfəvilər sülaləsindən olan şahlar tərəfindən idarə edilmiş eyniadlı müsəlman dövləti. XVI-XVII əsrlərdə müsəlman Şərqinin ən güclü imperiyalarından sayılan Səfəvilər dövləti müxtəlif dövrlərdə müasir Azərbaycan, İran, Gürcüstan, Ermənistan ərazilərini, eləcə də İraq, Əfqanıstan, Pakistan, Türkmənistan torpaqlarının bir hissəsini, Şərqi Türkiyəni və Dağıstanı əhatə etmişdir. Ərazisi fərqli zaman kəsimlərində 3 milyon kv.km-ə yaxın və bundan artıq sahəni tutmuşdur. Qərbdə *Osmanlı imperiyası*, şimal-qərbdə Rusiya, şimal-şərqdə *Şeybanilər*, cənub-şərqdə *Böyük Moğol imperiyası*, cənub-qərbdə Məmlük sultanlığı (sonralar Osmanlı dövləti) ilə həmsərhəd idi. İlk paytaxtı Təbriz (1555-ci ilədək), daha sonralar Qəzvin (1555-1598) və İsfahan (1598-ci ildən axıradək) şəhərləri olmuşdur.

Dövləti idarə edən hakim sülalə XIII-XIV əsrlərdə yaşamış böyük sufi, səfəviyyə təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin* (Şeyx Səfi) nəslindəndir. Səfəvilər sülaləsinin mənşəyi barədə fərqli nəzəriyyələr mövcud olsa da, onların türk mənşəli olması barədə məlumatlar daha əsaslıdır. Şeyx Səfidən etibarən ilk Səfəvilər aktiv dini-əxlaqi təbliğatla məşğul olmuş, yerli hakimlərin himayəsi ilə bölgədə nüfuz qazanmış, zəngin vəqf əmlakı əldə etmişlər. XV əsrin ikinci yarısından başlayaraq əvvəlcə *Şeyx Cüneyd*, daha sonra *Şeyx Heydər* səfəviyyə təriqətinin hərbi bazasını yaratmaqla onu bölgənin güc mərkəzlərindən birinə çevirməyə nail oldular. Nəhayət, XV-XVI əsrlərin qovşağında *I Şah İsmayıl* bu prosesi yekunlaşdıraraq Səfəvilər dövlətini yaratdı.

Səfəvilər dövrünün tarixçisi Həsən bəy Rumlu yazır ki, 1501-ci ildə I Şah İsmayıl Azərbaycanda siyasət meydanına qədəm basdığı zaman İraqi-Ərəb, İraqi-Əcəm, Xorasan, Diyarbəkir, Yəzd, Kaşan, Qəndəhar, Bəlx, Kirman, Əbərquh və Simnanda hər biri müstəqillik iddiası edən və "məndən başqası yoxdur" deyən 11 hakim vardı. Digər salnaməçi Budaq Münşi Qəzvini isə həmin dövrü bu cür təsvir edirdi: "İraqi-Əcəm və Azərbaycanda hərc-mərclik hökm sürürdü, iki gündən bir kimsə padşah olurdu". Səfəvilər bütün tarixi Azərbaycan torpaqlarını vahid bayraq altında və vahid ideologiya ətrafında birləşdirməyə nail olmuşlar. Azərbaycan xalqının milli kimliyinin formalaşmasında Səfəvilər dövlətinin əvəzedilməz rolu vardır.

1501-ci ildə I Şah İsmayılın Təbrizdə özünü şah elan etməsi ilə *Səfəvilər sülaləsinin* 235 illik hakimiyyəti başlandı. Bu müddət ərzində həmin sülalədən olan 11 hökmdar dövlətə başçılıq etmişdir. Səfəvilər dövləti quruluş baxımından mütləq monarxiya tipinə aid idi. Dövlətin başında qeyri-məhdud hakimiyyətə sahib olan şah dururdu. Şah həm də *səfəviyyə təriqətinin* başçısı sayılır, *"mürşidi-kamil"* adlanırdı. O, dünyəvi hakimiyyəti bürokratik dövlət aparatının, təriqət rəhbərliyini isə *xəlifət əl-xüləfanın* və onun tabeliyindəki xəlifələrin vasitəsilə həyata keçirirdi. Səfəvilər dövləti qurulandan qızılbaş türk tayfalarına əsaslanmış və bu tayfaların mənsubları döv-

lət idarəçiliyində ən yüksək yerləri tutmuşlar. *Ustaclu, Şamlu, Rumlu, Zülqədər, Təkəlü, Türkman (Mosullu, Pörnak), Sədlü, Qacar, Əfşar, Bayat, Varsaq, Çəpni, Qaramanlu, Talış* kimi tayfalar Səfəvilər dövlətinin quruluşunda bilavasitə yaxından rol oynamışlar. Burada Anadoluda məskunlaşmış, daha sonralar Səfəvilər dövlətinin ərazisinə köçmüş tayfaları xüsusi qeyd etmək lazımdır.

Səfəvilər dövləti o dövrün tarixi mənbələrində əsasən "Dövləti-qızılbaşiyyə", "Ölkeyi-qızılbaş", "Məmləkəti-qızılbaş" və "Dövləti-Səfəviyyə" adları ilə xatırlanmışdır: "I İsmayıl Səfəvi (1501-1524) tərəfindən yaradılmış dövlət daha çox "Dövləti-qızılbaş" adlandırılırdı". İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" əsərinin bəzi nüsxələrində "qızılbaş" və "dövlət" sözlərinin əbcəd hesabı ilə ekvivalentinin eyni olduğu göstərilir, eyni zamanda "bədvi-dövləti-qızılbaş" (Qızılbaş dövlətinin başlanğıcı) ifadəsinin əbcəd hesabı ilə ekvivalenti olan 892 ədədinin də hicri təqvimlə I Şah İsmayılın doğum tarixinə uyğun gəldiyi diqqət mərkəzinə çəkilir.

Səfəvilər dövlətinin ilk bayrağı yaşıl fon üzərində Günəşi simvolizə edən sarı dairədən ibarət idi. I Şah Təhmasibin zamanında yaşıl fon üzərində qoç (şahın astroloji təqvim simvoluna işarədir) və onun arxasında yüksələn Günəş təsviri dövlət bayrağı kimi qəbul edildi. Daha sonralar (ehtimala görə, I Şah Abbasın zamanından etibarən) qoç təsvirini aslan əvəz etdi və *"şirü xurşid"* (aslan və Günəş) Səfəvilər dövlətinin əsas atributuna çevrildi. Ordu bölmələrinə məxsus bayraqların üzərində Quran ayələrinə, "Ya Əli, mədəd" və digər kəlmələrə, *Zülfüqar* təsvirinə də rast gəlinirdi.

Səfəvilər dövlətinin ərazisində filis və dinar kimi xırda, tümən kimi iri nominallı standart pul vahidləri ilə yanaşı, sırf Səfəvilər zamanında zərb edilmiş və onların adı ilə bağlı olan pullar dövriyyədə idi. *Şahi* adlı pul vahidi yarışahi, dörddəbir şahi, ikiqat şahi nominal formalarında da buraxılırdı. Şah Məhəmməd Xudabəndənin zamanında onun adı ilə bağlı məhəmmədi və xudabəndi sikkələri, I Şah Abbasın zamanında isə *abbasi* sikkələri əsas pul vahidləri sayılırdı.

Ayrı-ayrı feodallara hərbi xidmət müqabilində tiyul, ruhanilərə isə *soyurqal* olaraq torpaq sahələri verilirdi. Zadəganlar dəqiq iyerarxiya pilləsinə uyğun olaraq bir-birindən asılı idilər, bəylərdən daha yüksəkdə *sultanlar*, onlardan da yüksəkdə *xanlar* dururdu. Ölkə ərazisi *bəylərbəylik* və *vilayət* adlı inzibati vahidlərə bölünmüşdü. Bəylərbəyliklərin sayı fərqli dövrlərdə müxtəlif olmuşdur, əsasən 13 bəylərbəylik mənbələrdə qeyd edilmişdir:

1. Qəndəhar;
2. Herat;
3. Şirvan;
4. Azərbaycan (indiki Cənubi Azərbaycan torpaqları);
5. Çuxursəd;
6. Qarabağ və Gəncə;
7. Astarabad;
8. Kuhgiluyə (Fars);
9. Kirman;
10. Mərvi-Şahcahan;
11. Qələmrovi-Əlişəkər ölkəsi (Həmədan);

12. Məşhədi-müqəddəsi-müəlla;
13. Paytaxt Qəzvin.

Bu inzibati vahidləri yarımmüstəqil statusa malik *bəylərbəyilər* idarə edir, topladıqları vergi hesabına silahlı qüvvə saxlayır, şahın çağırışı ilə lazım gələndə bu qüvvələri səfərbərlik məntəqələrinə gətirirdilər. Bəylərbəyliklərdən əlavə vilayət adlı daha 4 iri inzibati vahid mövcud idi: Ərəbistan (Xuzistan), Luristan, Gürcüstan və Kürdüstan. (Bəzi mənbələrdə bu 4 vilayətdən sonra Bəxtiyar eli də qeyd edilir). Bəylərbəylərə və valilərə öz tabeliklərində olan torpaqların gəlirlərini lazım bildikləri şəkildə xərcləmək səlahiyyəti verilmişdi, amma onlar şaha peşkəş adlı hədiyyələr göndərməli idilər. Bunlardan əlavə, birbaşa şahın mülkiyyətində olan xassə (səltənət) torpaqları da mövcud idi. XVII əsrdən etibarən aparılan inzibati islahatlar nəticəsində bəzi bəylərbəyliklər ləğv edildi, onların ərazisi dövlət (divan) mülkiyyətinə və xassə torpaqlarının sırasına qatıldı.

Səfəvilər dövlətinin bürokratik idarəçilik aparatı özündən əvvəlki türk dövlətlərinin, əsasən Ağqoyunluların idarəçilik mexanizmi əsasında qurulmuşdu. Bu baxımdan Teymuri, Osmanlı və Moğol imperiyaları ilə Səfəvilər dövləti arasında ortaq cəhətlər çox idi. Şahın yanında "məclisi-əla" (ali məclis) adlı məşvərətçi şura fəaliyyət göstərirdi, adətən 12 nəfərdən ibarət bu şuraya dövlətin ən yüksək rütbəli şəxsləri qatılırdı. Bundan əlavə, əmirlərin iştirakı ilə qurulan *cəngi* məclisində də mühüm dövlət məsələləri müzakirə edilir və nəticəsi şaha bildirilirdi. Dövlətdə şahdan sonra ən yüksək yer onun mütləq canişini və nümayəndəsi olan *vəkilə* məxsus idi, sonralar bu, *baş vəzir* mənsəbi ilə əvəzləndi. Nazirlik səviyyəsində olan divan qurumlarına vəzirlər başçılıq edirdi, xəzinələr *sahib-cəmlərə*, hesabat işləri *mustovfilərə* həvalə olunmuşdu. Sarayda ən xırda işlər üçün də ayrıca vəzifələr təsis edilmişdi, hətta şahın qılıncını, ox-yayını, dəsmalını, başmaqlarını daşıyan, ata minəndə üzəngisini tutan ayrı-ayrı xidmətçilər vardı. (Səfəvi idarəçilik aparatında mövcud olan vəzifələr və onlara aid məvaciblər barədə ən ətraflı məlumat vermiş mənbələr Mirzə Rəfianın qələmə aldığı "Dəstur əl-müluk" və Mirzə Səmianın yazdığı "Təzkirət əl-müluk" əsərləri sayılır). Çoxşaxəli bürokratik aparatdakı asılılıq zəncirləri, mürəkkəb sənədləşmə işləri dövlət büdcəsindən oğurluq edilməsinə, rüşvət və korrupsiyaya şərait yaradırdı. Sarayın idarəçiliyi və təsərrüfat işləri *eşikağası-başı*, *divanbəyi* və *xacəbaşı* arasında bölünmüşdü. Saray vəzifələri çox zaman ayrı-ayrı qızılbaş tayfalarının inhisarına verilir, kimsə vəfat etdikdə və ya vəzifəsindən kənarlaşdırıldıqda onu həmtayfalarından (çox zaman yaxın qohumlarından) biri əvəz edirdi.

Səfəvilər dövlətinin hakim ideologiyası İslamın şiə məzhəbi idi, Səfəvi şahları, demək olar ki, hər zaman şiə üləması ilə yaxşı münasibət saxlamış, onların dini nüfuzundan faydalanmağa çalışmışlar. On ikinci imam Həzrət *Mehdinin* (ə) canişini olan müctəhidlər şahın dini hakimiyyətinə də legitimlik gətirirdilər,

belə ki, şah müctəhidin icazəsi ilə onun naibi (nümayəndəsi, canişini) olaraq dövlətə başçılıq etdiyini gizlətmirdi. Dini sahədə ən yüksək səlahiyyət *sədrə*, daha sonralar *şeyxülislama*, Səfəvilər dövlətinin sonuna yaxın isə *mollabaşıya* məxsus idi. Yerlərdəki mübahisəli məsələləri *qazılar* həll edirdilər.

Səfəvi ordusu müsəlman Şərqinin ən güclü silahlı qüvvələrindən sayılırdı. Bu ordunun əsas xarakterik xüsusiyyəti çeviklik, mobil hərəkət və yerdəyişmə imkanı, qəfil hücum bacarığı idi. Kiçik yaşlarından hərb sənətinin incəliklərini mükəmməl mənimsəyən qızılbaşlar özlərindən sayca qat-qat çox olan düşməni məğlub etməyə qadir idilər, Səfəvilər dövlətinin hərb tarixi bu cür misallarla zəngindir. Ordunun əsasını yerli hakimlərin topladığı *çərik* adlı səfərbərlik qüvvələri təşkil edirdi, müxtəlif dövrlərdə onların sayı 100 minə, hətta bəzi məlumatlara görə, 200 minə çatırdı. Ordunun elit bölümü *qorçulardan* ibarət idi, onlar müharibələrdə əsas zərbə qüvvəsi idilər. *Tüfəngçilər* korpusu odlu silahla (muşket və tapança ilə) təchiz edilmişdi. I Şah Abbasın təşəbbüsü ilə yaradılmış *qulamlar* (qullar) korpusu isə qeyri-müsəlman əhali arasından (əsasən gürcü, çərkəz, həbəş və digər millətlərdən) səfərbər edilmiş, mükəmməl hərbi təlim görmüş, saray etiket qaydalarını mənimsəmiş gənclərdən təşkil olunurdu. Qorçular, tüfəngçilər və qulamlar həmçinin sarayın və dövlət idarələrinin mühafisəzini həyata keçirirdilər. Səfəvi ordusu toplarla da təchiz olunmuşdu, artilleriya korpusu döyüşlərdə kifayət qədər fəal iştirak edirdi. Bu qoşun növlərinə müvafiq olaraq *qorçubaşı*, *tüfəngçiağası*, *qullarağası* və *topçubaşı* adlı komandanlar rəhbərlik edirdilər. Ordunun baş komandanı *əmir əl-ümərа* və ya *sipəhsalar* titulunu daşıyırdı.

Səfəvi sarayında və orduda hakim dil türk (Azərbaycan) dili idi, şah da daxil olmaqla əyanlar, əmirlər, sərkərdə və döyüşçülər bu dildə ünsiyyət qurur, əmr verirdilər. Ölkədaxili yazışmalarda və xarici diplomatiyada türk dili ilə yanaşı fars dilindən də istifadə edilirdi. Dövlətin yazılmamış qanununa görə, bürokratik aparatda qeyri-türklər (*"tacik"* adlandırılan farslar) daha çox təmsil olunmuşdu, lakin onların hərbi işlərə qarışması xoş qarşılanmır, hətta yolverilməz sayılırdı.

Səfəvilər dövləti yaxın qonşuları ilə tez-tez müharibə şəraitində olsa da, sülh dövründə fəal diplomatik və ticarət əlaqələri qurmağa çalışırdı. Uzaq Avropa dövlətləri öz Şərq siyasətlərində Səfəvilərlə hesablaşmağa məcbur idilər. Əlverişli coğrafi məkanda, qədim ipək yolu marşrutu üzərində yerləşdiyinə görə Səfəvilər gömrük hüququndan da əlverişli şəkildə faydalanırdılar. Sənətkarlıq, kənd təsərrüfatı, ticarət yüksək səviyyədə inkişaf etmişdi, Səfəvi torpaqlarında istehsal edilən sənətkarlıq məmulatları bütün dünyada məşhur idi və qonşu ölkələrin tacirləri tərəfindən həvəslə alınırdı. Ölkədə istehsal edilən ipək parçalar, xalçalar, misgərlik və dulusçuluq məmulatları, soyuq və odlu silahlar xalq ustalarının misilsiz bacarığından və zəngin təcrübəsindən xəbər verirdi.

Səfəvilər dövründə *Təbriz*, *İsfahan*, Şiraz, *Ərdəbil*, Qəzvin, Yəzd, Məşhəd, Şamaxı, *İrəvan* şəhərləri yüksək tərəqqi etmiş sənaye və mədəniyyət mərkəzləri sayılır, öz ölçülərinə, gözəlliyinə və infrastrukturuna görə dünyanın ən iri yaşayış məskənləri ilə rəqabət aparırdı. XV əsrin əvvəllərində 300 min nəfər əhaliyə malik Təbriz əhali sayına görə Avropanın ən iri şəhərlərini üstələyirdi.

Səfəvilər dövlətində yaşamış alimlər həm dəqiq, həm də humanitar elmlərdə böyük nailiyyətlər əldə etmişlər. Mədrəsələrdə riyaziyyat, coğrafiya, astronomiya, tibb, kimya və digər elmlər yüksək səviyyədə tədris edilirdi. Dini elmlərin və fəlsəfənin inkişafı xüsusi qeyd edilməlidir, *Şeyx Bəhai, Mir Damad, Molla Sədra, Əllamə Məclisi, Feyz Kaşani* kimi dünya şöhrətli alimlər Səfəvilər dövlətində yaşamış və fəaliyyət göstərmişlər.

Səfəvilər dövrü klassik ədəbiyyatın yüksək inkişafı ilə xarakterik olmuş, şairlər və ədiblər tərəfindən həm azərbaycanca, həm də farsca şah əsərlər yaradılmışdır. *"Hind üslubu"nun* meydana gəlməsi və ədəbiyyatda hakim mövqe qazanması Səfəvilər zamanına təsadüf etmiş, *Xətai* ləqəbli I Şah İsmayıl, *Saib Təbrizi, Qövsi Təbrizi, Möhtəşəm Kaşani, Vəhşi Bafqi* kimi qələm sahibləri bu dövlətdə yaşayıb-yaratmışlar. Təbriz, Şiraz və İsfahan miniatür məktəblərinə mənsub nəqqaşların yaratdıqları sənət əsərləri, bacarıqlı memarlar tərəfindən ucaldılmış məscid və mədrəsə binaları, körpülər Şərq memarlığının inciləri sayılır. Səfəvilər dövlətinin yetirməsi olan elm və sənət xadimləri qonşu dövlətlərin (Osmanlı imperiyası, Böyük Moğol imperiyası və s.) mədəni həyatında da fəal iştirak etmiş, yaradıcılıqları ilə ümumdünya mədəni irsini zənginləşdirmişlər.

Səfəvilər dövləti XVIII əsrin əvvəllərində güclü tənəzzül dövrünü yaşamış, 1722-ci ildə paytaxt İsfahanın əfqanlar tərəfindən işğalından sonra süqut etmişdir. Həmin il sonuncu Səfəvi hökmdarı *Şah Sultan Hüseyn* öz əlləri ilə şahlıq tacını əfqan sərkərdəsi *Mir Mahmud xan Hutəkinin* başına qoyaraq hakimiyyəti ona təhvil verdi. 1726-cı ildə Şah Sultan Hüseyn əfqanlar tərəfindən öldürülsə də, onun oğlu *II Təhmasib* bundan əvvəl Qəzvində özünü şah elan etməyə imkan tapdı. Bir neçə ildən sonra ona xidmət edən istedadlı sərkərdə *Nadir xan Əfşar* əvvəlcə əfqanları, daha sonra Osmanlı və Rusiya qüvvələrini ölkədən qovdu, Səfəvilər dövlətinin ərazi bütövlüyünü son dəfə təmin etdi. Daha sonra o, II Şah Təhmasibi taxtdan salıb onun oğlu körpə İsmayılı hakimiyyətə gətirdi *(III Şah İsmayıl)*. 4 ildən sonra II Şah Təhmasiblə oğlu öldürüldü və Muğan qurultayında Nadir xan özünü şah elan edərək Səfəvilər dövlətinə son qoydu (1736).

Səfəvilər dövlətinin tarixi, siyasi-inzibati bölgüsü, idarəçilik aparatı, sosial-iqtisadi durumu, din siyasəti, ordunun quruluşu, digər ölkələrlə diplomatik əlaqələri, görkəmli şəxsiyyətləri, elmi-mədəni həyatı və s. mövzular barədə kitabda ayrı-ayrı məqalələr şəklində məlumat verilmişdir.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti; Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti (1501-1736-cı illər); Z.Bayramlı və B.Şabiyev. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər); Cihat Aydoğmuşoğlu. Safevi Devleti Tarihi (1501-1736); Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə; C.Bayramlı, V.Zifəroğlu. Azərbaycan hökmdarları: Səfəvilər, s.7-10; Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər (redaktor: S.Əliyarlı); s.364-460; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (təshih: Əbdülhüseyn Nəvayi), s.87; Cəvahir əl-əxbar (müqəddimə: M.Bəhramnejad), s.112; К.Рыжов. Все монархи мира. Мусульманский Восток, XV-XX вв., стр.407-412; Р.Б.Рыбаков и др. История Востока: Восток на рубеже средневековья и нового времени XVI-XVIII вв. (в 6 томах), III, 100; Н.В.Пигулевская и др. История Ирана с древнейших времен до конца 18 века, стр.254-255; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.150; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.78-79; Q.Ə.Pirquliyeva. Numizmatikanın əsasları, s.48-49; The Cambridge History of Iran, vol. 6, pp.189-350; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXV, 451-455.*

QIZILBAŞ ORDUSU – XVI-XVII əsrlərdə müsəlman Şərqinin ən qüdrətli ordularından biri sayılırdı. Səfəvi ordu quruculuğu prosesi I Şah İsmayılın hakimiyyətinin əvvəllərində başlamış, daim inkişaf edərək, hərbi islahatlar nəticəsində təkmilləşmişdir.

Səfəvi ordusu ilk onilliklər ərzində əsasən səfərbərlik bölüklərindən *(çərik)* ibarət idi. Buna görə də sülh və döyüş zamanlarında ordunun sayı ciddi şəkildə fərqlənirdi. Hərbi əməliyyatlar başlamazdan bir-iki ay əvvəl şah *təvaçılar* vasitəsilə bölgələrdəki əmirlərə xəbər göndərib öz tabeliklərindəki hərbi qüvvə ilə birlikdə təyin edilmiş səfərbərlik nöqtəsində toplaşmalarını tələb edirdi.

Bununla belə, qoşunun müəyyən bir hissəsini də daimi hərbi bölüklər təşkil edirdi. Şahın xüsusi qvardiyası sayılan *qorçu* birlikləri, sayının azlığına baxmayaraq, mükəmməl silahlanmaya və güclü hərbi hazırlığa malik idi, buna görə də döyüşlərdə həlledici rol oynayırdı. Hələ I Şah İsmayıl zamanında qorçu birliklərinin olmasını *Abdal Dədə bəy Zülqədər* və *Saru Pirə bəy Ustaclunun qorçubaşı* vəzifəsini tutmaları sübut edir. Qorçuların sayı I Şah Təhmasibin zamanında 5-6 min nəfər idi, daha sonra qorçu birliklərinin sayı dəfələrlə artırılaraq 60-70 minə çatdırıldı, I Şah Abbasın zamanında isə 30 minə endirildi.

Bölgələrdən gələn döyüşçülərin xərci bölgə hakiminin *(bəylərbəyinin)* öhdəsində idi. Şah daimi ordu hissəsinin xərclərini ödəyirdi, amma bəzən ordunun məvacibi uzun müddət gecikirdi. I Şah Təhmasib vəfat edəndə ordunun 14 illik məvacibi ödənilməmiş qalırdı, bu məvacibi ondan sonra hakimiyyətə gələn II Şah İsmayıl ödəmişdi.

XVI əsrdə Səfəvilər dövlətində səfərdə olmuş Venesiya səyyahları qeyd edirdilər ki, I Şah Təhmasib yalnız 5 min nəfərlik hərbi qüvvənin xərclərini qarşılayırdı, bu xərclər də döyüşçüləri geyim və minik atı ilə təmin etməkdən ibarət idi (görünür, burada qorçular nəzərdə tutulmuşdur), qoşunun ümumi sayı isə 60 min nəfəri ötüb keçirdi. *İsgəndər bəy*

Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında I Şah Təhmasibin vəfatı ərəfəsində dövlət qulluğunda olan əmirlərin ümumi sayının 114 nəfər olduğunu yazmış, bunlardan bir qisminin (70 nəfərdən çoxunun) adlarını qeyd etmişdir. Bəzi mənbələrə görə, səfərbərlik zamanı orduya Qəzvin 12.000, İsfahan və ətrafı 8.000, Şiraz 8.000, Kaşan 4.000, Təbriz 4.000, Gəncə və Gürcüstanın bir hissəsi 4.000, Qum 2.000, Ərdəbil, Sultaniyyə, Savə bölgələrinin hər biri 1.000 nəfər süvari verirdi. Göründüyü kimi, bu siyahı tam deyildir və bütün bölgələri əhatə etmir. Adları çəkilən bölgələrdən səfərbər edilmiş 45 min nəfərə Çuxursəd, Şirvan, Xorasan, Kirman və digər bölgələrin də payını əlavə etsək, böyük bir ədəd alınar. Ümumiyyətlə, Səfəvi qoşununun sayı barədə mənbələrdəki məlumatlar fərqlidir. XVI əsr tarixçisi Qazı Əhməd Qumi "Xülasət ət-təvarix" kitabında I Şah Təhmasib zamanında (1530) keçirilmiş ordu baxışında iştirak edən döyüşçülərin sayının 120 min nəfər olduğunu, Səfəvi ordusunda xidmət edən hərbi qulluqçuların ümumi sayının isə 200 min nəfəri keçdiyini yazmışdır. Sonuncu rəqəmi J.Şarden də öz səfərnaməsində təkrarlayır. I Şah Təhmasibin 1529/30-cu illərdə Xorasana yürüşü zamanı bölgələrdən topladığı çərik hissələrinin ümumi sayı, "Xülasət ət-təvarix" əsərinə görə, 110 min nəfərə çatırdı.

Səfəvi ordusu on və yüz nəfərdən ibarət bölüklərə bölünürdü, bunların hər birinə onbaşılar və yüzbaşılar başçılıq edirdi. On yüzbaşı bölüyü birlikdə minbaşının tabeliyinə verilmişdi. Min nəfərlik hər dəstənin öz bayrağı vardı. J.Şarden qeyd edirdi ki, Səfəvi ordusunda bayraqların sayına əsasən döyüşçülərin sayını təyin etmək mümkün idi, belə ki, hər bayraq min nəfər döyüşçünü bildirirdi. Uzaqdan ordunun sayını öyrənmək üçün bayraqları saymaq kifayət edirdi. Bölüklərin bayraqlarını *ələmdarlar* daşıyırdı, ordunun əsas və ən iri bayrağı olan şah bayrağını daşımaq və qorumaq məsuliyyəti *ələmdarbaşının* öhdəsində idi. Şah hərəkət edərkən bayrağı və qızıl daşqaşla bəzənən, uzaqdan günəş kimi parlayan çətiri onunla birlikdə gəzdirirdilər.

Ordunun daimi xidmət arsenalından biri də musiqiçilər bölüyü idi. Müxtəlif ölçülü şeypur, kərənay, sinc və təbillərlə təchiz edilmiş musiqiçilər ordu ilə birlikdə hərəkət edərək marş ritmini verir, döyüş zamanı əsgərləri coşdurub şücaətə səsləyirdilər. Səfəvilər dövlətinin əvvəllərində orduda aşıq-ozanlar da xidmət edirdi.

XVII əsrin sonlarınadək Səfəvi qoşunu əsas etibarilə qızılbaş tayfalarının nümayəndələrindən ibarət idi və tayfa mənsubiyyəti əsasında formalaşmışdı. I Şah Abbasın zamanında qızılbaş tayfalarının qarşısında müvazinəti qorumaq və ordunu birrəngli tərkibdən azad etmək məqsədilə qullar *(qulamlar)* korpusu yaradıldı. Qulamlar əsasən Səfəvilərə tabe olan Qafqaz bölgəsinin əhalisindən yığılırdı, onların arasında gürcülər, çərkəzlər və b. üstünlük təşkil edirdi. Qulam korpusunun komandanı olan *qullarağası* ən mühüm dövlət adamlarından biri olub, qorçubaşı ilə yanaşı dururdu. Xidmətdə fərqlənən qulamlar karyera pillə-

si ilə sürətlə yüksələrək sarayda mühüm vəzifələrə yiyələnir, bəzən hətta bölgələrə hakim qismində göndərilirdilər.

Səfəvi ordusuna ilk dövrlərdə *əmir əl-üməra*, daha sonralar *sipəhsalar* adlandırılan baş komandan rəhbərlik edirdi. Adətən bu vəzifə daimi xarakter daşımır, hərbi əməliyyatlar zamanı əmirlərdən biri sipəhsalar elan edilərək döyüşə göndərilirdi. Müharibə dövründə sipəhsalar dövlət aparatında *baş vəzirdən* (etimad əd-dövlə) sonra ilk yerdə dururdu və ölkənin təhlükəsizliyinə tam cavabdehlik daşıyırdı.

Dövlət idarəçilik aparatının digər sahələrində olduğu kimi, ordunun da idarəçiliyi müəyyən qurumlar vasitəsilə həyata keçirilirdi. Hərbi qulluqçuların sayının, komplektləşmə vəziyyətinin, xidməti davamiyyətinin hesabatını *ləşkərnəvis* həyata keçirirdi, məvaciblərin ödənişinə nəzarət *sərxətnəvisin* ixtiyarında idi. Silah-sursatın hesabı isə cəbbəxana *sahibcəmi* tərəfindən aparılırdı. Ordunun hər qurumunun bürokratik aparatının başında ayrı-ayrı vəzirlər dururdu (qorçuların, qulamların, tüfəngçilərin və topxananın vəzirləri). Hər vəzirin başçılığı altında bir *mustovfi* (hesabdar) və 4-5 nəfər *mirzə* işləyirdi. Ordunun 4 əsas bölümünün komandanları olan qorçubaşı, qullarağası, *tüfəngçiağası* və *topçubaşının* daimi məvacibindən əlavə *tiyul* torpaqları da vardı, həmin ərazilərin gəliri onlara məxsus idi. Məsələn, Kazerun qorçubaşının, Əbərquh tüfəngçiağasının, Gülpaygan qullarağasının, Şift isə topçubaşının tiyulu sayılırdı.

Səfəvilər dövrünə aid ən mühüm mənbələrdən sayılan *"Təzkirət əl-müluk"* əsərində yazılanlara əsasən, XVIII əsrin birinci yarısında minbaşının illik məvacibi 70 tümən, yüzbaşınınkı 30 tümən, onbaşınınkı 15 tümən, sıravi döyüşçününkü 9 tümən idi. Adətən süvari döyüşçü piyadadan daha artıq məvacib alırdı.

Döyüşçülərin müharibə zamanı ərzaq təminatı onların öz öhdəsinə qoyulmuşdu, dövlət tərəfindən onlar yalnız silah-sursatla təmin edilirdilər. Əsgərlərin ərzaq ehtiyatı hesablanaraq ordu ilə yanaşı göndərilirdi, döyüşçülər öz vəsaitləri hesabına ərzaq və digər ehtiyac duyulan malları alırdılar. Bu zaman özbaşınalığın, qarət və möhtəkirlik hallarının baş verməməsinə ciddi nəzarət olunur, günahkarlar ağır şəkildə cəzalandırılırdı.

Sülh şəraitində öz hərbi xidmətini davam etdirməyə təhkim edilmiş (sərhəd bölgələrində, şəhər əmniyyət sistemində, gözətçi dəstələrində və s. xidmət edən) dəstələrdən savayı digər hərbi qulluqçular gündəlik fəaliyyətləri ilə məşğul olurdular. Lakin ildə bir, bəzən iki dəfə orduya yoxlama xarakterli baxışlar keçirilirdi, bütün hərbi qulluqçular öz silahları və minik atları ilə birlikdə hərbi keçidə (parad) toplaşır, döyüş bacarığından imtahan verirdilər.

Səfəvi ordusunun fəaliyyəti əsas etibarilə sürətli yerdəyişmə və qəfil hücum taktikasına əsaslandığı üçün orduda süvari bölüklər üstünlük təşkil edirdi. Kiçik yaşlarından hərbi təlimlərə qatılan qızılbaş süvariləri atçapma, oxatma, qılınc vurma və əlbəyaxa döyüş sahələrində mükəmməl bacarıq sahibi idilər. Düzənlik coğrafiyada aparılan hərbi əmə-

liyyatlarda onların rəqibi yox idi. Alman səyyahı Adam Oleari öz səfərnaməsində qeyd edirdi ki, 100 qızılbaş süvarisi sürət, cəldlik və yüngül silah sayəsində 400 nəfər Osmanlı süvarisinə qarşı dura bilərdi. Moğol hərbçiləri də hərbi hazırlıq səviyyəsi baxımından qızılbaşların onlardan üstün olduqlarını etiraf edirdilər. Təsadüfi deyil ki, *Böyük Moğol imperiyasının* hərbi sistemində qızılbaş ordusuna məxsus meyarlar əsas götürülmüş və moğol qoşunu qızılbaş təlimçilərin yardımı ilə formalaşmışdı. Qərb səyyahları Səfəvi süvarilərinin yəhər üstündən ox atarkən hədəfi çox dəqiqliklə vurduqlarını heyrətlə təsvir edirdilər.

Səfəvi ordusunun bir hissəsini də odlu silahla təchiz olunmuş döyüşçülər təşkil edirdi. Geniş yayılmış təsəvvürün əksinə olaraq, qızılbaşların odlu silahdan istifadə təcrübəsi XVI əsrin ilk onilliklərindən başlamışdır. Hələ I Şah İsmayıl zamanında baş vermiş döyüşlərdə qızılbaşlar tüfəngdən istifadə etmişdilər (Bakının mühasirəsi, *Şərur savaşı*, *Sarom xan Kürdə* və *Zülqədəroğulları bəyliyinə* qarşı yürüşlər, *Nəcmi-saninin* Xorasan yürüşü və s). Səfəvilərin tüfəng istehsal etmələri barədə hər hansı mötəbər məlumat tapmaq çətindir, böyük ehtimalla, onlar tüfəngləri osmanlılarla döyüşlərdə qənimət olaraq ələ keçirir və ya Avropa ölkələrindən alırdılar. Qeyd edilməlidir ki, ilk onilliklərdə Səfəvi ordusunda tüfəngdən məhdud şəkildə istifadə olunmuşdur; bu da ilk növbədə süvari dəstələrin mobil hərəkəti zamanı tüfəngdən atəş açmağın çətin olması ilə əlaqəlidir. Bununla belə, qızılbaş döyüşçüləri tüfəngdən çox məharətlə yararlanmağı bacarmışlar. İtalyan səyyahı Alessandri bu barədə yazırdı: "Onları (tüfəngləri) elə asanlıqla idarə edirlər ki, bu, nə yay tutmağa, nə də əgər şərait tələb edərsə, yəhərlərinə bərkitdikləri qılıncdan yapışmağa mane olur. Odlu silahı arxada gizlədirlər, belə ki, bir silah o birisindən istifadə edilməsinə mane olmur". Səfəvi ordusunda tüfəngçi korpusunun üzvlərinin sayı I Şah Səfinin zamanında 12 min nəfərə çatırdı və onlara tüfəngçiağası rəhbərlik edirdi (Tavernye, Kempfer və Kareri kimi Qərb səyyahları tüfəngçilərin sayını 50 min nəfər qeyd etmişlər).

Səfəvi ordusu artilleriya xidmətinə *(topxana)* malik olsa da, toplardan o qədər də geniş istifadə edilməmişdir. Qərb səyyahlarının xatirələrində Səfəvi qoşununun artilleriya bölüyünün o qədər də fəal olmadığı dəfələrlə qeyd edilmişdir. Ağır çəkiyə malik olan, 20 və bəzən daha artıq at gücünə hərəkət etdirilən toplar qızılbaşların mobil hərəkətini ləngidirdi. Bununla belə, Səfəvi qoşununun hərbi əməliyyatlarında müxtəlif kalibrli toplardan istifadə edilmiş, hətta Təbrizdə top emalatxanası yaradılmışdı. XVII əsrin əvvəllərində topçubaşının rəhbərlik etdiyi topçu korpusunun üzvlərinin sayı 12 min nəfərə çatırdı, əsrin ortalarına doğru bu say azalmış, hətta bir neçə onillik boyunca topçu korpusu ləğv edilmiş, Səfəvi hakimiyyətinin sonlarına yaxın bir daha bərpa olunmuşdur. Lakin toplardan məharətlə istifadə edə bilən mütəxəssislərin azlığı döyüşlər zamanı lazımi effekti almağa mane olur-

du. XVIII əsrin əvvəllərində uzun müddət Səfəvilər dövlətində yaşamış və əfqan işğalının şahidi olmuş polşalı yezuit rahibi Krusinski xatirələrində qeyd edirdi ki, İsfahanın əfqanlar tərəfindən mühasirəsi zamanı şəhərin fərqli yerlərində quraşdırılmış 400 topun hər birindən düşmənə qarşı ən azı 400 dəfə atəş açılmasına baxmayaraq, 160 min mərmi ilə cəmi 400 nəfər əfqan döyüşçüsünü öldürmək mümkün olmuşdu.

Səfəvilər dövləti şimalda Xəzər dənizi, cənubda İran körfəzi və Hind okeanı ilə sərhədləşsə də, hərbi dəniz donanmasına malik deyildi. Hətta I Şah Abbas İran körfəzində portuqallarla aparılan hərbi əməliyyatlar zamanı İngiltərənin gəmilərindən istifadə etmişdi. Sonrakı dövrlərdə də dəniz əməliyyatlarını həyata keçirmək və su sərhədlərini qorumaq üçün fransızlara və hindlilərə müraciət edilirdi. Fransız səyyahı J.Şarden Səfəvi şahının hətta bir hərbi gəmisinin də olmadığını qeyd edirdi. Hərbi dəniz qüvvələrinin rəisi (admiral) vəzifəsi daimi deyildi və ara-sıra bəzi əməliyyatlar zamanı ordunun artilleriya xidmətinin rəisi olan topçubaşı həm də bu vəzifəni öhdəsinə götürürdü. Şarden yazırdı: "15-20 ildir ki, kazaklara (ruslara) müqavimət göstərmək üçün gəmilər hazırlamaqla məşğuldurlar. Amma bu gəmiləri heç cür hərbi dəniz qüvvələri adlandırmaq və ya buna yaxın hesab etmək olmaz. Təhlükə aradan qalxan kimi gəmiləri buraxır və balıqçılar arasından toplanmış dənizçiləri hərbi xidmətdən azad edirlər".

Səfəvi ordusunun əsas silahları qılınc, xəncər, ox, tatar yayı (arbalet), nizə, gürz (şeşpər və əmud da adlanırdı), təbərzin (balta), tüfəngdən (muşket) ibarət idi. Soyuq silahların hazırlanmasında Səfəvi ustalarının məharəti bütün Şərqə yayılmışdı. Qızılbaş ordusunun soyuq silahlarının keyfiyyəti, quruluşu, hazırlanma qaydası barədə klassik mənbələrdə ətraflı məlumatlar verilmişdir. Döyüşçülərin zirehli geyimi möhkəmliyi ilə ad qazanmış Şiraz poladından hazırlanırdı. Başlarına qoyduqları *qızılbaş papağı (heydəri tac)* onları düşmən əsgərlərindən fərqləndirirdi. Döyüş atlarının da zərbəyə məruz qalan hissələrini mis zirehlə örtürdülər.

Mənbələr: *Xanbaba Bəyani. İranın hərbi tarixi. Səfəvilər dövrünün döyüşləri, s.54-136; Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati (Doktora Tezi); Laurence Lockhart. Safevi Döneminde İran Ordusu (Cihannüma Tarih ve Coğrafya Araştırmaları Dergisi, Sayı II/2, Aralık 2016), s.177-188; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.269-272; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.137-163; C.Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.1-52; T.Nəcəfli. I Şah Abbasın islahatları (Akademik Tarih ve Düşünce Dergisi, 2022, №9-4), s.1952-1964; Şardenin səyahətnaməsi (10 cilddə, farsca tərcümə edən: M.Abbasi), II, 226-227; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.312; Adam Oleariusun səfərnaməsi (2 cilddə, farsca tərcümə edən: M.H.Kürdbeççə), II, 742; Rəna Nəcəfova. Səfəvi imperiya ordusunun quruluşu (Akademik Tarih ve Düşünce Dergisi, 6(5), Kış 2019) s.274-287.*

ABBASİ – I Şah Abbasın hakimiyyət illərində tədavülə buraxılmış gümüş pul sikkəsi. Nominal dəyəri 200 dinara bərabər idi. Əslində 4 şahılıq sikkə olub, I Şah Abbasın şərəfinə abbasi adlanırdı. Əvvəlcə çəkisi iki misqala bərabər (təqribən 9.2 q) idi, sonralar çəkisi azaldıldı (bəzi mənbələrə görə, çəkisi bir misqal olmuşdur). Üzərində I Şah Abbasın adı ("Vilayət şahının (yəni İmam Əlinin) nökəri Abbas"), kəlmeyi-şəhadətin hər üç cümləsi və imamların adları həkk edilirdi. Səfəvilər dövlətinin müxtəlif şəhərlərində, o cümlədən Təbriz, Ərdəbil, Qəzvin, İsfahan, Şamaxı, Naxçıvan, İrəvanda zərb edilmişdir.

Xalq arasında "abası" adlanırdı. Səfəvilərdən sonrakı zamanlarda da bu söz pul vahidi kimi işlənmişdir. Əsasən 20 qəpiklik sikkəyə "abası" deyir və dörd *şahıya* bərabər tuturdular.

Mənbə: *Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, III, 259-261; Əli Əkbər Yəzdani. Səfəvilər dövründə İran pulları ("Pəyami-baharistan" dərgisi, 1391 h.-ş., №15), s.1070-1074; Fərzanə Qaini. Səfəvi sikkələri ("Mirasi-fərhəngi" dərgisi, №17), s.39-41; Rza Şapuriyan. Səfəvi sikkələrinin yazıları ("Xirəd və kuşiş"), s.94-112; Q.Ə.Pirquliyeva. Numizmatikanın əsasları, s.48-49.*

AĞDƏRBƏND DÖYÜŞÜ (1733) – *bax:* **KƏRKÜK DÖYÜŞÜ.**

ALMABULAĞI (ALMAQULAĞI) DÖYÜŞÜ (1503) – I Şah İsmayılla Ağqoyunlu Sultan Muradın qoşunları arasında baş vermiş və Səfəvilərin qələbəsi ilə nəticələnmiş döyüş. Bu yerin adı mənbələrdə bəzən Almaqulağı şəklində də yazılır.

Şirvanşahları və Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlub etmiş Səfəvi ordusu indiki Şimali və Cənubi Azərbaycan torpaqlarına tam nəzarət edirdi. Ağqoyunlu hökmdarı, *Uzun Həsənin* nəvəsi Sultan Murad bundan narahat olub Şah İsmayılla döyüşmək üçün ordu toplamağa başladı.

1503-cü ilin yazında Şah İsmayıl Qənbər ağa adlı müridi vasitəsilə Ağqoyunlu Sultan Murada məktub göndərdi və onu itaətə çağırdı. Sultan Murada vəd edildi ki, əgər Şah İsmayılın hakimiyyətini tanıyarsa, İraqi-Əcəm torpaqlarının bir hissəsinin ixtiyarı ona veriləcək. Lakin Sultan Murad təklifi rədd etdi və Qənbər ağanı ölənə kimi döydürdü. 12 min nəfərlik Səfəvi ordusu Şah İsmayılın başçılığı altında Təbrizdən çıxıb cənuba doğru hərəkətə keçdi. Qızılüzən çayını keçən ordu Həmədan yaxınlığında sayı 70 mini aşan Ağqoyunlu qoşunu ilə qarşılaşdı.

1503-cü il iyun ayının 21-də Həmədan yaxınlığındakı Almabulağı (və ya Almaqulağı) adlı yerdə döyüş baş verdi. Şah İsmayıl qoşunun *çərxçi* (avanqard) bölümünə *Xadim bəy Xüləfa* ilə Mənsur bəy Qıpçağı sərkərdə təyin etdi. *Qara Piri bəy Qacar* 1500 qızılbaşla pusquda durdu. *Hüseyn bəy Lələ, Məhəmməd bəy Ustaclu, Bayram bəy Qaramanlu, Əbdi bəy Şamlu,* Yegan bəy Təkəlü, *Dədə bəy Talış, Saru Əli möhürdar* kimi məşhur sərkərdələr cinahlarda, Şah İsmayıl özü isə ordunun mərkəzində yerləşdilər. Ağqoyunlu qoşununun sağ cinahına Əli bəy Türkman, sol cinahına Murad bəy

təyin edildi. Məlumatlara görə, Sultan Muradın qoşununda Osmanlı dövlətindən göndərilmiş əsgərlər və hərbi toplar da var idi. Lakin ağqoyunlular topları vaxtında işə sala bilmədilər.

Klassik döyüş planına uyğun olaraq əvvəlcə hər iki tərəfin çərxçi qüvvələri toqquşdu. Ağqoyunlu avanqardının sərəskəri, Qum hakimi İslamış bəy qızılbaş çərxçilərinin hücumunu uğurla dəf etdi. Bu zaman ehtiyat qüvvələrə komandanlıq edən Qara Piri bəy ona qəfil sarsıdıcı zərbə endirdi. İslamış bəyin ələ keçirilməsi və əsgərlərinin qaçması qızılbaşlarda ruh yüksəkliyi yaratdı. Qızılbaş döyüşçüləri özlərindən bir neçə qat çox olan düşməni darmadağın etdilər. Aqğoyunlu sərkərdəsi Əli bəy Türkman və 10 min nəfər döyüşçü bu savaşda həlak oldu. Daha bir neçə Ağqoyunlu sərkərdəsi əsir düşdü. Sultan Murad ordunun qalıqlarını götürüb qaçdı.

Bundan əvvəl Ağqoyunlu Əlvənd Mirzəni məğlub etməklə Azərbaycan vilayətini ələ keçirmiş Şah İsmayıl Almabulağı savaşında Sultan Murada qalib gəlməklə Fars və İraqi-Əcəm torpaqlarının böyük hissəsinə yiyələndi. Sultan Muradı təqib edən qızılbaş ordusu qısa müddətdə bir-birinin ardınca Şiraz, İsfahan, Kaşan, Qum, Yəzd kimi iri şəhərləri fəth etdi. Xorasan istisna olmaqla, indiki bütöv İran ərazisi Şah İsmayılın başçılıq etdiyi Səfəvilər dövlətinin bayrağı altında birləşdi.

Şah İsmayıl tərəfindən düzgün taktika seçimi, qızılbaş döyüşçülərinin yüksək hərbi və psixoloji hazırlığı bu döyüşün taleyini Səfəvilərin xeyrinə həll etdi. Almabulağı döyüşündə Şah İsmayıl sayca altı qat artıq düşmənə qalib gəlməklə sərkərdəlik məharətini bir daha nümayiş etdirmiş oldu.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.50-51; Həsən bəy Rumlu. Əhsənüt-təvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.377-380; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.86-87; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.146-147.*

AMASYA SÜLH MÜQAVİLƏSİ (1555) – Səfəvi və Osmanlı dövlətləri arasında imzalanmış ilk anlaşma. İki dövlət arasında 1514-cü ildə başlamış hərbi əməliyyatlara 23 il müddətinə son qoymuş müqavilə 1555-ci il 29 may tarixində Amasya şəhərində imzalandı. Əslində 1554-cü ilin sentyabr ayında Ərzurum şəhərində hərbi əməliyyatların dayandırılması barədə barışıq imzalanmışdı. Sonrakı bir neçə ay ərzində müqavilənin şərtləri müzakirə edildi, nəhayət, Səfəvi sarayının *eşikağasıbaşısı* Fərruxzad bəy Qaradağlu dövlət adından müqaviləni təsdiq etdi.

Müqavilənin şərtlərinə görə, Gürcüstan torpaqları iki hissəyə bölündü, Qərbi Gürcüstan (İmeretiya, Meqreliya və Quriya) Osmanlı dövlətinin, Şərqi Gürcüstan (Mesxetiya, Kartli və Kaxeti) isə Səfəvilərin nüfuz dairəsinə keçdi. Bağdad da daxil olmaqla, İraq Osmanlı dövlətinin, bütün əraziləri ilə birlikdə Azərbaycan isə Səfəvi dövlətinin tərkibində qaldı. Şərqi Anadolu boyunca Ərzurum, Van, Şəhrizur kimi bir neçə bufer zona

yaradıldı. Qars hərbsizləşdirilmiş zona elan edildi və Qars qalası dağıdıldı.

Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsində tərəflərdən heç biri öz məqsədinə tam nail ola bilmədi. Osmanlı dövləti Şirvanın yerli əhli-sünnə elitasını Səfəvilərə qarşı mübarizəyə qızışdırmaq, eləcə də Səfəvilərin şərq sərhədindəki *Şeybanilərlə* əlaqəli şəkildə hücumlar təşkil etmək planını həyata keçirməyi bacarmadı. Osmanlılarla sərhəd bölgəsində yaşayan qızılbaş tayfalarının dəstəyini qazanmaq cəhdləri də uğursuzluqla nəticələndi, onlar Səfəvilərə sadiq qalmaqda davam etdilər. Osmanlı dövləti Azərbaycan bölgəsini ələ keçirmək planından da əl çəkməli oldu.

Eyni qaydada Səfəvilər Osmanlı sərhədləri daxilində yaşayan qızılbaşları ayağa qaldırmağa çalışsalar da, hökumət tərəfindən verilən sərt reaksiya nəticəsində çıxışların qarşısı amansızlıqla alındı. Hər iki tərəf iki cəbhədə müharibə aparırdı; Osmanlılar Səfəvi sərhədləri ilə yanaşı həm də Avropa ilə, Səfəvilər isə Şeybanilərlə döyüşmək məcburiyyətində idilər.

Müqavilə iki dövlətin din siyasətinə də müəyyən düzəlişlər verdi. Səfəvilər Osmanlı sultanlarını müqəddəs Məkkə və Mədinə şəhərlərinin himayədarı kimi tanımaq müqabilində sərbəst şəkildə həcc ziyarəti hüququnu əldə etdilər. Eyni zamanda, Səfəvi təbəəsinə İraqdakı müqəddəs məkanları maneəsiz ziyarət etmək ixtiyarı verildi.

Amasya sülh müqaviləsinin şərtləri 1578-ci ildə osmanlılar tərəfindən pozulanadək qüvvədə qaldı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.91; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.197-198; C.Bayramlı, V.Zifəroğlu. Azərbaycan hökmdarları: Səfəvilər, s.60; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, III, 4.*

AVARACƏNƏVİS – Səfəvilər dövründə sarayda yüksək dövlət vəzifələrindən biri. "Avaracə" kitab, yaxud sənəd deməkdir, əsasən hissə-hissə ödənilən borclara aid edilirdi. Fərdi qaydada vergi verənlərin ödəmələrini qeydiyyata almaq avaracənəvisin vəzifəsi idi. Bu qeydlər elə formada aparılırdı ki, növbəti ödəmələr zamanı ona əlavələr edilə bilsin. Avaracənəvis *mustovfi əl-məmalikin* nəzarəti altında fəaliyyət göstərirdi və maliyyə idarəsinə bağlı idi. Ehtimala görə, vergiləri qeydə almaq vəzifəsi avaracənəvislə zabitənəvisin arasında bölünmüşdü. Belə ki, bunların birincisi şah mülkiyyətini və daxil olan təsadüfi gəlirləri, ikincisi isə dövlət torpaqlarından daxil olan pulları qeydə alırdı.

Avaracənəvis vergi ödəyicilərinin adlarını öz dəftərində qeyd edir, divan qulluqçularından daxil olan sənədlərin üzərinə dərkənar qoyur, *tiyul*, həmesale və s. ilə bağlı olan sənədləri qəbul edib yola salırdı. Vergi toplanmasını idarə edən vilayət hakimiyyət orqanlarına göndərilən fərman və sənədlərin qeydə alınması, yoxlanılması da onun vəzifəsinə daxil idi. Avaracənəvis çox məsuliyyətli vəzifə idi, bəzən onlar mustovfi əl-məmalikin işini də öz aralarında bölüşdürürdülər, bu zaman onların hər biri öz idarəsinin *mustovfisi* olurdu.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.260-261; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.285-289; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.122.*

"AZƏRBAYCAN TAXTI" – Şamaxıdakı Gülüstan qalasının mühasirəsi zamanı I Şah İsmayılın söylədiyi məşhur cümlədəki ifadə. 1501-ci ildə I Şah İsmayılın başçılığı altında Səfəvi qoşunu Şirvanşahların mühüm dayaq nöqtəsi olan Gülüstan qalasını mühasirədə saxladığı zaman Ağqoyunlu hökmdarı Əlvənd Mirzənin qoşun toplayaraq hücuma hazırlaşması xəbəri gəldi. I Şah İsmayıl əmirləri toplayaraq mühasirəni davam etdirməyin, yoxsa Əlvənd Mirzə il döyüşməyin daha mühüm olduğunu soruşdu. Həmin müşavirədə şah sərkərdələrə bu şəkildə müraciət etdi: "Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?" Əmirlər yekdilliklə ikincini seçdilər, beləliklə, Gülüstan qalasının mühasirəsi dayandırıldı və Səfəvi qoşunu Ağqoyunluların qarşısını kəsmək üçün cənuba doğru istiqamət aldı.

"Əhsən ət-təvarix" kitabında yazılıb ki, Gülüstan qalasının mühasirəsi zamanı I Şah İsmayıl yuxuda imamlardan birini görmüş və imam ona mühasirəni buraxıb Azərbaycana üz tutmağı tapşırmışdı. *Həsən bəy Rumlunun* rəvayətinə əsasən, I Şah İsmayıl əmirlərlə müşavirə vaxtı "Azərbaycan taxtı" deyil, "Azərbaycan" ifadəsini işlətmişdir. XVII əsrdə yaşamış Məhəmməd Yusif *Valeh İsfahani "Xüldi-bərin"* adlı tarix kitabında şahın: "Azərbaycan məmləkətini istəyirsiniz, ya Gülüstan qalasını?" – deyə soruşduğunu qeyd edir. *"Tarixi-aləmarayi-Abbasi"də* isə onun "Azərbaycan taxtı" söylədiyi bildirilir.

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.132-135; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.31; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.83-84; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev), s.83; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.48-48; Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.68; Məhəmməd Yusif Valeh İsfahani. Xüldi-bərin, s.113.*

BAŞ VƏZİR (VƏZİRİ-ƏZƏM) – Səfəvilər dövlətində ən yüksək dövlət vəzifəsi, saray vəzirlərinin başçısı, faktiki olaraq, şahdan sonra dövlətdə birinci idarəedici şəxs. Baş vəzir yalnız şaha tabe idi. Səfəvi hakimiyyətinin əvvəllərindəki *vəkil* vəzifəsi tədricən öz yerini baş vəzir mənsəbinə vermişdi.

Səfəvi hakimiyyətinin ilk mərhələsində baş vəzir o qədər də böyük səlahiyyət sahibi deyildi, o, sarayda vəkilə və *əmir əl-ümaraya* nisbətən daha zəif fiqur sayılırdı. Səfəvilər dövlətinin ilk baş vəziri bundan əvvəl Ağqoyunlu dövlətinə xidmət etmiş *Şəmsəddin Zəkəriyya Keçəçi Təbrizi* olmuşdur. 1500-cü ildə I Şah İsmayıl onu vəzir təyin edərək "Azərbaycanın kilidi" ləqəbini vermişdi. Üç ildən sonra vaxtilə onunla birlikdə Ağqoyunlulara xidmət etmiş Qivaməddin Mahmud xan Deyləmi Qəzvini

də ikinci vəzir təyinatını aldı. Daha sonra Xacə Cəlaləddin Məhəmməd Təbrizi və Qazi Cahan Qəzvini vəzir vəzifəsini şərikli şəkildə icra etməyə başladılar. Sonrakı zamanlarda da bu vəzifəni bəzən bir, bəzən də iki nəfər tuturdu.

Baş vəzirlik məsuliyyətli vəzifə olduğu üçün bəzən öz bacarıqsızlığı və ya günahı üzündən, bəzən də qısqanclıq və saray intriqası zəminində vəzirlər işdən uzaqlaşdırılırdı. I Şah Təhmasibin hakimiyyətinin ilk dövrlərində adətən vəkil istədiyi şəxsi baş vəzirliyə gətirirdi. I Şah Təhmasib zamanında vəzirlik vəzifəsini daşımış şəxslər arasında *Məsum bəy Səfəvi* həm diplomatik bacarığına, həm də gözəl əxlaq və dürüstlüyünə görə təriflənir. O, baş vəzirlik məqamına vəkillikdən gəlmişdi və ondan sonra vəkil vəzifəsi barədə məlumatlar kəsilir. Səfəvi salnamələrində deyilir ki, baş vəzir vəzifəsi adətən *taciklərə* (yəni farslara) verilirdi. Divan və yazı-pozu işini yaxşı bacardıqları üçün onların bu vəzifədə olmaları qızılbaş əyanları tərəfindən də narazılıqla qarşılanmırdı. Amma baş vəzir hərbi məsələlərə qarışanda qızılbaşlar bunu özlərinə təhqir kimi qəbul edirdilər. Çünki, onların fikrincə, taciklərin (farsların) işi dəftərxana ilə məhdudlaşmalı, qızılbaşlar isə dövləti qoruyub hərb meydanında qılınc çalmalıdırlar. Şah Məhəmmd Xudabəndə zamanında baş vəzir olmuş *Mirzə Salman Cabiri* sərkərdəlik cəhdi üstündə qızılbaş əyanları tərəfindən öldürülmüşdü (1583).

Baş vəzir dünyəvi məsələlər üzrə səlahiyyət sahibi idi, dini sahədə söz demək ixtiyarı *sədrdə*, daha sonralar *mollabaşıda* olmuşdur. Baş vəzirlər, bir qayda olaraq, "Etimad əd-dövlə" (Dövlətin etimad etdiyi şəxs) ləqəbini daşıyırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.165-171; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.248-251; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.313-314; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.80.*

BƏYLƏRBƏYİ – Səfəvilər dövlətində ən yüksək vəzifələrdən biri, dövlətin inzibati ərazi vahidi olan *bəylərbəyliyin* hakimi. Tarixi mənbələrdə bəylərbəyi vəzifəsi bəzən *əmir əl-üməra* ilə eyni tutulur, müasir tədqiqatçılar da bu iki məfhumun eyni olması qənaətindədirlər. Bəzi tədqiqatçılar bəylərbəyi vəzifəsinin I Şah Təhmasib, bəziləri isə I Şah Abbas zamanından məlum olduğunu iddia edirlər.

Bəylərbəyi iyerarxik pillədə ən yüksək yeri tuturdu, faktiki olaraq, mərkəzi hakimiyyətdən asılı deyildi və şaha tabe idi. *Xanlar* və *sultanlar* bəylərbəyinin tabeliyində idilər. Bəylərbəyi tabeliyindəki əhalidən topladığı verginin müəyyən hissəsini şaha göndərir, mənsub olduğu tayfaların üzvlərindən ibarət silahlı qüvvə saxlayır, şahın əmri ilə hərbi yürüşlərdə, üsyanların yatırılmasında iştirak edirdi. Bəzi bəylərbəyiləri o qədər vardövlət və nüfuz sahibi idilər ki, bəzəkli saray, təmtəraqlı yaşayış sarıdan şahla rəqabət apara bilərdilər. I Şah Təhmasibin zamanında Səfəvilər dövlətində olmuş ingilis səyyah-diplomat A.Cenkinson

Şirvan bəylərbəyi *Abdullah xan Ustaclunu* "Şirvan kralı" adlandırmışdı.

Bəylərbəyi adətən müəyyən bir tayfanın böyüklərinin arasından seçilirdi. Yəni həmin bəylərbəylik ərazisində yaşayan iri tayfalar bu bölgənin hakimiyyətini təmsil edirdi. Bəylərbəyi vəfat etdikdə və ya vəzifəsindən uzaqlaşdırıldıqda eyni tayfanın digər üzvü (adətən əvvəlki bəylərbəyinin yaxın qohumu, oğlu) onun yerinə təyinat alırdı. Beləliklə, bəylərbəyi və ya əmir əl-üməra irsən ötürülən vəzifə hesab edilə bilər. Adətən Qarabağ və Astarabad bəylərbəyiləri *Qacar* tayfasından, Şirvan və Çuxursəd bəylərbəyiləri *Ustaclu* tayfasından, Azərbaycan bəylərbəyi *Təkəlü* və *Türkman* tayfalarından, Kuhgiluyə (Fars) bəylərbəyi *Zülqədər* tayfasından, Kirman bəylərbəyi *Əfşarlardan*, Herat bəylərbəyi *Şamlulardan* seçilirdi. Əlbəttə, bu bölgünü tam dəqiq hesab etmək düzgün deyil, bəzi hallarda istisnalar da baş verirdi. Məsələn, ən iri və mühüm bəylərbəylik olan Azərbaycana müxtəlif zamanlarda təkcə Təkəlülərdən və Türkmanlardan deyil, Ustaclu, Şamlu, Qacar tayfalarından da əmirlər başçılıq etmişlər.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.263-265; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.204; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.301-307; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.314-315.*

BƏYLƏRBƏYLİK – Səfəvilər dövlətinin bölündüyü iri inzibati ərazi vahidləri. Səfəvilər zamanında dövlətin ərazisi 13 bəylərbəyiliyə bölünmüşdü (fərqli mənbələrdə digər rəqəmlər də göstərilir): Qəndəhar, Herat, Şirvan, Azərbaycan (indiki Cənubi Azərbaycan torpaqları), Çuxursəd, Qarabağ və Gəncə, Astarabad, Kuhgiluyə (Fars), Kirman, Mərvi-Şahcahan, Qələmrovi-Əlişəkər ölkəsi (Həmədan), Məşhədi-müqəddəsi-müəlla, paytaxt Qəzvin. Bəylərbəyi avtomatik olaraq həmin ölkənin ən iri şəhərinin hakimi olurdu. Məsələn, Azərbaycan bəylərbəyi Təbrizin, Şirvan bəylərbəyi Şamaxının, Çuxursəd bəylərbəyi İrəvanın, Qarabağ və Gəncə bəylərbəyi Gəncənin hakimi sayılırdı.

Bəylərbəyliklərdə də paytaxtdakına bənzər struktura malik bürokratik aparat fəaliyyət göstərirdi. Belə ki, bəylərbəyliklərin öz *vəziri*, *sədri* var idi.

XVI əsrin sonlarından etibarən əksər bəylərbəyliklər ləğv edilmiş, onların ərazisi xassə (səltənət) mülkiyyətinə qatılmışdı. Həmin dövrdən etibarən ayrı-ayrı vilayət və şəhərləri şah tərəfindən təyin edilən darğalar və hakimlər idarə etmişlər.

bax: **BƏYLƏRBƏYİ.**

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.263-265; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.204; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.301-307; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.314-315.*

CABANI DÖYÜŞÜ (1500) – I Şah İsmayılın başçılıq etdiyi qızılbaş qoşu-

nu ilə Fərrux Yasarın başçılıq etdiyi Şirvanşahlar ordusu arasında baş vermiş və qızılbaşların qələbəsi ilə nəticələnmiş döyüş.

Hakimiyyətə gedən yolun hələ əvvəllərində olan 13 yaşlı I Şah İsmayıl öz ətrafında 7 min nəfərlik qızılbaş qoşunu toplaya bilmişdi. Ərzincanda qızılbaş tayfa başçılarının müşavirəsində gələcək fəaliyyət planı müzakirəyə çıxarıldı. Bəziləri qışı Ərzincanda keçirib, növbəti il Ağqoyunlu Əlvənd Mirzənin üzərinə getməyi, bəziləri Gürcüstan istiqamətində yürüşə çıxmağı, bəziləri də Çuxursəddə qışlamağı təklif etdilər. Sonda qərara alındı ki, düşmən qüvvələrin arasında nisbətən daha zəifi olan Şirvanşahları Ağqoyunlularla birləşməzdən əvvəl darmadağın etmək məqsədəuyğundur.

Şah İsmayıl *Bayram bəy Qaramanluya Zülqədər* qızılbaş tayfasının döyüşçüləri ilə Qoyun ölümü adlı yerdə Kür çayını keçib Şirvana daxil olmaq əmrini verdi. Bayram bəy çay keçidini münasib görmədiyi üçün əmrin icrasını ləngitdi. Şah əsas qüvvənin başında Kür sahilinə gəlib çatdı, atını suya vurub qarşı sahilə keçməklə ordunu da arxasınca apardı. Bu davranış onun yeniyetməlik yaşlarından etibarən qətiyyətli xarakterə malik olduğunu göstərir.

Qızılbaş ordusuna məlumat daxil olmuşdu ki, Şirvanşah onların gəlişindən xəbərdar olaraq Şamaxını tərk edib, Qəbələ qalasına sığınıb. Qızılbaşlar müdafiəsiz qalmış Şamaxıya döyüşsüz daxil oldular, əhali şəhəri boşaldaraq dağlara çəkilmişdi. Bundan sonra Fərrux Yasarın Buğurt qalası yaxınlığında meşədə düşərgə salması barədə xəbər gəldi. Amma qızılbaşlar həmin yerə çatanda Şirvan qoşunu artıq oranı tərk edib Gülüstan qalasına doğru çəkilməkdə idi. Qızılbaşlar onları Cabanı çölündə haqlaya bildilər.

1500-cü ilin sonlarında tərəflər arasında toqquşma baş verdi. Döyüşdə Şirvanşahlar tərəfdən 20 min süvari və 6 min piyada, Səfəvilər tərəfdən 7 və ya 12 min nəfər döyüşçü iştirak edirdi. Qızılbaş qoşununun sağ cinahında *Şamlu*, solunda *Ustaclu* tayfalararının üzvləri durmuşdular, şah özü isə mərkəzdə mövqe tutmuşdu. *Təkəlü*, *Rumlu* və *Zülqədər* tayfaları gözətçi *(çərxçi)* təyin edilmişdi. Savaşın əvvəlində Şirvanşah qoşununun oxatanları qızılbaşları ox yağışına tutaraq onlara ciddi ziyan vurdular. Lakin qələbənin təmin edildiyini düşünən Fərrux Yasar oxatanları mövqelərindən çıxarıb döyüş meydanına yolladı. Burada Şirvan piyadaları qızılbaş süvariləri tərəfindən məhv edildi. Şah İsmayıl şəxsən döyüş meydanına çıxmışdı və şücaətlə savaşırdı. Şirvan qoşunu qorxu içində qaçmağa başladı. Fərrux Yasar qalaya sığınmağa çalışsa da, bir qızılbaş əsgəri tərəfindən öldürüldü. Qızılbaş qoşunu Cabanıda üç gün qaldıqdan sonra Şamaxıya qayıtdı.

Fərrux Yasarın oğlu Şeyxşah Şirvan qoşununun qalıqlarını toplayıb Şəhrinov şəhərinə çəkildi, oradan da dəniz yolu ilə Gilana qaçdı.

Şah qızılbaş sərkərdələri *Məhəmməd bəy Ustaclu* ilə *İlyas bəy Xınıslunu* Bakı qalasını fəth etməyə yolladı. Lakin yaxşı

müdafiə olunan Bakı qalası təslim olmadı. Şah İsmayıl özü Bakı üzərinə hərəkət etdi. Gərgin döyüşlərdən sonra şəhər qızılbaşların əlinə keçdi, əhaliyə aman verildi. Şirvanşah qoşununun qalıqları Gülüstan, Buğurt, Surxab kimi möhkəm qalalara çəkilib müqaviməti davam etdirmək fikrində idilər. Şah İsmayıl Gülüstan qalasını mühasirəyə aldı, amma Ağqoyunlu Əlvənd Mirzənin qoşun topladığını və müharibəyə hazırlaşdığını eşidib qalanın mühasirəsini yarımçıq buraxdı və Naxçıvan istiqamətində Əlvənd Mirzənin üzərinə yürüdü.
Cabanı döyüşü qızılbaş qoşununun rəqib qüvvələr üzərində ilk böyük qələbəsi ilə nəticələndi. Şah İsmayıl indiki Azərbaycan ərazisinin böyük hissəsi üzərində nəzarəti ələ keçirdi. Bu qələbə Səfəvilərin gələcək uğurlarına müqəddimə oldu.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.45-49; Həsən bəy Rumlu. Əhsənüt-təvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.364-367; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.82-83; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.129-132.*

CARÇIBAŞI – Səfəvilər zamanında dövlət qulluqçusu. Carçılar şahın əmr və fərmanlarını yerlərdə ucadan səsləndirir, bununla da fərmanın hər kəsə çatdırılmasını təmin edirdilər. Carçılar adətən öz vəzifələrini bazarda icra edirdilər, çünki əhalinin ən çox toplaşdığı məkan bura idi. Onlar vergilərlə, səfərbərliklə bağlı yenilikləri çatdırır, ağır cinayət törətmiş şəxslərin cəzalanma yerini və zamanını elan edirdilər.
Şahın və yüksək rütbəli məmurların gəlişindən əvvəl yolu açmaq, insanları xəbərdar etmək də carçıların vəzifəsi idi. Bu vəzifə saray daxilində də icra edilirdi və saray carçılarının başçısı *eşikağasıbaşı* idi. Yerlərdəki carçılar carçıbaşıya, o da *tüfəngçiağasıya* tabe idi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.199-201; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.330.*

CƏBBƏDARBAŞI – Səfəvilər zamanında mühüm dövlət vəzifələrindən biri. Silah-sursat anbarının (cəbbəxana) müdiri vəzifəsini icra edirdi, mühüm *sahibi-cəmlərdən* (anbardarlardan) biri və şaha ən yaxın təbəqənin *(müqərrəb əlhəzrət)* mənsubu idi. *Xacələr* arasından seçilirdi. Cəbbəxananın bütün işçiləri onun tabeliyi altında fəaliyyət göstərirdi. Silah emalatxanalarının hesab-kitabı ona tabe edilmişdi. Hərb alətləri, qurğuşun və barıt kimi qorxanaya (silah anbarına) verilən bütün sursat cəbbədarların hesab dəftərinə yazılır və sahibi-cəmə (xəzinədara) təhvil verilirdi. Bütün bölgələrdəki silah anbarlarına cəbbədarbaşı *təhvildarlar* təyin edirdi, vilayət hakimləri onlara ehtiram göstərirdilər.
Səfəvilər zamanında cəbbədarbaşı vəzifəsi uzun müddət qızılbaş *Şamlu* tayfasının nümayəndələrinə məxsus olmuşdur. Hətta I Şah Səfinin zamanında Şirvan bəylərbəyi olmuş Ərəb xan Ağzıvaroğlu Şamlu öz karyerasına cəbbədar-

başı kimi başlamışdı.

Mənbələr: *İsgəndər bəy Münşi. Zeyli-Tarixi-aləmarayi-Abbasi, s.279; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.132; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.261.*

CƏNGİ (cangi) – Səfəvilər dövlətində yüksək rütbəli məmurların iştirakı ilə təşkil edilən məşvərət toplantısı. Dövlətin yüksək məmurları şahın iştirakı olmadan hər gün iki dəfə – səhər və axşam keşikxanada, saray qapılarının yaxınlığındakı otaqların birində toplaşırdılar. Bu məclislərə "cəngi" və "gənəşik" deyirdilər. İclasda iştirak etmək səlahiyyətinə malik olanlar "ümərayi-cəngi" (cəngi əmirləri) adlanırdı. Səfəvilər dövlətinin əvvəllərində ümərayi-cəngi yeddi nəfərdən ibarət idi: *qorçubaşı*, *qullarağası*, *eşikağasıbaşı*, *tüfəngçiağası*, *vəziri-əzəm*, *divanbəyi*, *vaqeənəvis* (məclisnəvis). Bəzi hallarda *naziri-büyutat*, *əmir-şikarbaşı* və *mustovfi əl-məmalik* də onlara qatılırdr. Cəngi iclasının nəticələri bəzən şaha təqdim edilirdi, ehtiyac olanda şah da cəngi iclasına öz rəyini göndərirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.155-157, 186-187; Zülfiyyə Vəliyeva. Səfəvi dövlət təşkilatında "cəngi" və "tacikiyyə" ("Azərbaycan Dünya Ədəbiyyatında Beynəlxalq Simpoziumun materialları"), s.590-595; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.244; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.79.*

ÇALDIRAN DÖYÜŞÜ (1514) – I Şah İsmayılın başçılığı altında qızılbaş qoşunu ilə I Sultan Səlimin başçılığı altında Osmanlı ordusu arasında baş vermiş məşhur döyüş.

I Sultan Səlimin güclənməsinə qədər (Sultan II Bayezid zamanında) Səfəvi-Osmanlı münasibətləri o qədər də gərgin olmamış və tərəflər arasında radikal qarşıdurma, demək olar ki, baş verməmişdir. Lakin I Şah İsmayılın hərbi uğurlarından və Səfəvilər dövlətinin bölgədə ciddi rəqibə çevrilməsindən narahat olan şahzadə Səlim (gələcək I Sultan Səlim) dövlətdə öz nüfuzunu möhkəmlətdikdən sonra qızılbaşlarla sərhəd toqquşmaları şiddətləndi. I Sultan Səlim hakimiyyətə keçdikdən dərhal sonra Səfəvilər dövlətinə qarşı hərbi müdaxiləyə hazırlaşmağa başladı. Bunun üçün o, əvvəlcə Anadolunun qızılbaş tayfalarına qarşı amansız cəza tədbirləri həyata keçirdi. Şahqulu üsyanının yatırılmasından sonra 40 min nəfərdən artıq qızılbaş öldürüldü. Hökmdarlar arasındakı məktublaşma vəziyyəti daha da gərginləşdirdi. Sultan öz yürüşünə haqq qazandırmaq üçün din xadimlərindən fətva tələb etdi, bəzi müftilər Səfəvilərlə döyüşməyin icazəli əməl və hətta vacib dini vəzifə olması barədə fətva imzaladılar.

1514-cü ildə I Şultan Səlim böyük ordunun başında sərhədi keçərək Səfəvilər dövlətinin ərazisinə daxil oldu. I Şah İsmayıl da əks tərəfdən öz döyüşçüləri ilə Təbrizdən yola çıxdı. Maku yaxınlığındakı Çaldıran çölündə tərəflər qarşılaşdı.

Səfəvi və Osmanlı qoşunlarının ilk böyük toqquşması olan Çaldıran savaşı 1514-cü il avqustun 23-də baş vermişdir. Bu döyüşdə tərəflərin canlı qüvvəsinin sayı barədə məlumatlar fərqlidir, bəzi mənbələrdə hərbi əməliyyata cəlb olunmuş döyüşçülərin sayı şişirdilmişdir. Həqiqətə daha yaxın görünən məlumata görə, Osmanlı qüvvələrinin sayı təqribən 100 min, qızılbaş ordusunun sayı isə təqribən 40 min nəfər olmuşdur.

Osmanlı ordusu döyüş məkanına birinci çatmış və mövqe qurmağa başlamışdı. Səfəvi qoşunu bundan bir qədər sonra Çaldıran düzünə çatdı. Osmanlı ordusunda qızılbaşlara rəğbət bəsləyənlər çox olduğu üçün qarışıqlıq yaranmasından ehtiyat edən sultan dincəlməyə vaxt ayırmadan döyüşü başlamaq qərarına gəldi. Təcrübəli qızılbaş sərkərdəsi *Məhəmməd xan Ustaclu* Osmanlıların tam döyüş mövqeyi almalarını gözləmədən qəfil hücumla onları çaşqınlığa salmağı təklif etdi. Lakin *Durmuş xan Şamlunun* təkidi ilə I Şah İsmayıl qəfil hücum təklifini rədd etdi və söylədi: "Mən karvanbasan quldur deyiləm, Allah necə istəyirsə, elə də olacaq".

I Sultan Səlim 500 topdan ibarət artilleriyanı ordunun mərkəzində yerləşdirdi. Sağ və sol cinahlarda Rum və Anadolu qüvvələri mövqe tutdu; cinahların hər birində 40 min nəfər hərbi qüvvə var idi. Mərkəzdə artilleriyanın qarşısında əsasən rəiyyətdən toplanmış səfərbərlik qüvvələri (əzəb) dururdu. Sultan özü tüfənglərlə silahlanmış yeniçərilərin başında artilleriyanın arxasında düşməni gözləməyi qərara aldı. Bəzi məlumatlara görə, o, döyüş meydanına çıxmamış, şəxsi qvardiyası ilə yaxınlıqdakı təpənin üzərindən savaşı izləmişdi. Bütün ordunun arxasında bir-birinə zəncirlərlə bağlanmış dəvələrdən və arabalardan ibarət canlı sədd qurulmuşdu ki, döyüşçülər qaçmağa cəhd göstərməsinlər.

Qızılbaş ordusunun sağ cinahına I Şah İsmayıl özü, sol cinaha Məhəmməd xan Ustaclu ilə qardaşları başçılıq edirdilər. Ordunun mərkəzi hissəsi şahın qardaşı *İbrahim Mirzənin* və şiə ruhanilərinin sərkərdəliyi altında qərar tutmuşdu. *Çərxçi* (avanqard) bölümü *Saru Pirə bəy Ustaclunun* ixtiyarında idi. Səfəvi qoşunu artilleriya və tüfənglə təchiz edilməmişdi, piyada qüvvələr də yox idi, bütün qoşun yüngül süvari döyüşçülərdən təşkil olunmuşdu. Qızılbaş qoşunu həmişə çevik yerdəyişmə taktikası əsasında hərəkət edirdi, bu qoşunun əsas zərbə gücü qəfil hücumla şərtlənirdi. Artilleriya və piyada qüvvələr qoşunun mobil imkanlarını zəiflədəcəyi üçün onlardan imtina edilmişdi. Həmçinin qızılbaşlar üzbəüz, "mərd-mərdanə" döyüşə üstünlük verir, uzaq məsafədən top-tüfənglə düşmənə xəsarət yetirməyi namərdlik sayırdılar.

Səhər tezdən başlamış döyüş bir neçə saat davam etdi. Əvvəlcə qızılbaşlar ani hücumla düşmən səflərini dağıtmağa nail oldular, Osmanlı qüvvələri onların təzyiqi qarşısında geriləməyə başladı. Lakin artilleriyanın işə salınması döyüşün taleyini həll etdi. Qızılbaş döyüşçüləri top mərmilərinin zərbəsi altına düş-

dülər, düşmənə yaxınlaşan süvarilər isə tüfəng atəşi ilə zərərsizləşdirildi. Qızılbaş qoşunu böyük şücaət göstərsə də, qarşı tərəfin 2,5 dəfə artıq olan canlı qüvvəsi və dağıdıcı silahları qarşısında üstünlüyü əldən verdi.

Çaldıran savaşında I Şah İsmayıl şəxsən iştirak etmiş, döyüş meydanına çıxaraq düşmən mövqeyinin içərilərinə doğru xeyli irəliləmişdi. Onun Osmanlı topunun lüləsini (və ya topun zəncirini) qılınc zərbəsi ilə qırması barədə rəvayətlər mənbələrdə öz əksini tapmışdır. I Sultan Səlim tərəfindən təlimatlandırılaraq I Şah İsmayılı aradan götürmək üçün döyüş meydanına göndərilmiş Osmanlı pəhləvanı *Malkoçoğlu* şahla təkbətək döyüşdə öldürüldü.

Qızılbaş qoşunu geriləmək məcburiyyətində qaldı, bu zaman I Şah İsmayılın atı bataqlığa düşdü, amma Ustaclu tayfasından Xızır ağa öz atını verməklə şahı xilas etdi. Sultanəli bəy Əfşar isə zahiri bənzərlikdən faydalanaraq özünü Şah İsmayıl kimi təqdim etməklə könüllü surətdə osmanlılara təslim oldu, bununla da Səfəvi şahının təhlükəli mövqedən uzaqlaşmasına şərait yaratdı.

Çaldıran döyüşünün itkiləri barədə məlumatlar ziddiyyətlidir. Qızılbaşların 2000-7000 nəfər, osmanlıların isə 3000-20000 nəfər arasında itki verdiyini yazırlar. Bu döyüşdə və qızılbaş qoşununun bir neçə bacarıqlı sərkərdəsi həlak oldu: *Hüseyn bəy Lələ Şamlu*, *Məhəmməd xan Ustaclu, Saru Pirə bəy Ustaclu, Xadim bəy Xüləfa Talış, Seyid Məhəmməd Kəmunə* və b. Osmanlı tərəfi də xeyli təcrübəli sərkərdəni itirdi.

Müasir tədqiqatçılar Çaldıran savaşını hər şeydən əvvəl müasir silahlanmanın köhnə səhra döyüş strategiyası üzərində qələbəsi kimi xarakterizə edirlər. Geniş yayılmış təsəvvürün əksinə olaraq, Çaldıran savaşı nə Səfəvi, nə də Osmanlı tarixində həlledici döyüşlərdən olmamış, lokal mahiyyət daşımışdır. Osmanlı tarixində bundan qat-qat parlaq qələbələr, Səfəvi tarixində də bundan daha fəlakətli məğlubiyyətlər baş vermişdir. Osmanlı qoşununun bu döyüşdəki qələbəsi ona heç də qəti üstünlük qazandırmadı. I Sultan Səlim Təbrizə müqavimətsiz daxil olsa da, burada 8 gündən artıq qala bilmədi, üzücü yürüşdən yorulmuş, xalq tərəfindən narazılıqla qarşılanan döyüşçülər təcili surətdə vətənə qayıtmağı tələb etdilər. Bəzi mənbələrə görə, qoşundakı *bektaşiyyə* təriqətinə mənsub on minlərlə yeniçəri şiələrlə bundan artıq nüharibə etmək istəmədikləri barədə məktub yazıb sultana göndərmiş və təcili olaraq yürüşü saxlayıb İstanbula geri dönmək əmri verilməsini istəmişdi. Osmanlılar Təbrizin xeyli əhalisini, xüsusilə sənətkar təbəqəsinə məxsus insanları özləri ilə götürüb ölkəni tələsik tərk etdilər. I Sultan Səlim bundan sonra hakimiyyətdə olduğu 6 il ərzində bir daha Səfəvilər dövlətinə hücum etmək barədə düşünmədi.

Çaldıran savaşı ilə bağlı həqiqətdən uzaq olan bəzi rəvayətlər xalq arasında dolaşmış, hətta tarixi mənbələrə də yol tapmışdır. Məsələn, döyüşdən əvvəl I Şah İsmayılın düşmən əlinə keçməsinlər deyə məşhur rəssam *Kəmaləddin Behzadla* xəttat *Şah Mahmud Nişapurini* mağara-

da gizlətməsi, şahın həyat yoldaşı *Taclu bəyimin* Osmanlılara əsir düşməsi və bundan sonra başına gələnlər, Çaldıran döyüşündən sonra I Şah İsmayılın depressiyaya düşüb içkiyə qurşanması barədə xəbərlər tamamilə əsassızdır.

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.244-257; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.56-59; Bilal Dedeyev. Çaldiran Savaşı'na Kadar Osmanlı-Safevi İlişkilerine Kısa Bir Bakış (Uluslararası Sosyal Araştırmalar Dergisi, 2009, №2), s.126-135; N.Fəlsəfi. Çaldıran savaşı (Tehran Universiteti ədəbiyyat fakültəsinin dərgisi, №2), s.50-127; V.Genş. Safevi Kroniklerinde Çaldıran Savaşı (Osmanlı Medeniyeti Araştırmaları Dergisi, Cilt 5, Sayı 8, Nisan 2019), s.41-50; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VIII, 193-195; Ə.Ə.Vilayəti. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi, s.152-184.*

ÇALĞIÇI – Səfəvi Səfəvi sarayında çalışan sənətçi. Çalğıçı sarayda təşkil edilən çalğı məclislərinə qatılır və musiqi parçaları ifa edirdi. Çalğıçılar nağaraxana *sahibi-cəminin* ştatları hesab edilirdi və *məşəldarbaşıya* tabe idilər. Hər gün günəş çıxanda və batanda şah sarayının qarşısında nağara vurulur, kərənay çalınırdı. II Şah Abbas kərənayçıları Qəndəhardan gətirdirdi.

Səfəvilər zamanında xarici qonaqların qəbulu zamanı təntənəli musiqi məclisləri təşkil edilirdi, həmin məclisləri təsvir edən rəsmlər İsfahanda Çehelsütun sarayının divarlarını bəzəyir. Çalğıçılar məclisdə xalq təranələri çalır, xanəndələr muğam oxuyur, rəqqaslar rəqs edirdilər. Saraylarda musiqiçilərin əyləşməsi üçün ayrıca guşə (köşk) olurdu.

Musiqiçilər hərbi yürüşlərdə də fəal iştirak edir, təbilçilər, kərənayçılar, zurnaçılar öz ritmik ifaları ilə əsgərləri döyüşə həvəsləndirirdilər. Müharibə zamanı çox iri ölçüyə malik olan kos (kus) adlı təbili döyəcləməklə bütün döyüş meydanı boyunca hərbi siqnalların ötürülməsi təmin edilirdi. Səfəvi ordusunda (xüsusilə ilk zamanlarda) *ozan* və aşıqların rolu xüsusi qeyd edilməlidir. Hökmdarlar ordunun musiqi bölümünə xüsusi əhəmiyyət verirdilər, nağaraxananın çökməsi və ya düşmən əlinə keçməsi məğlubiyyətə bərabər sayılırdı. Çünki ordu məhz onların verdiyi ritm və siqnallar əsasında hərəkət edirdi, bu siqnallardan məhrum olan ordu həm manevr gücünü itirir, həm də ümidsizliyə qapılırdı. Ona görə döyüşdə məğlubiyyətlə üzləşən şahlar ilk növbədə nağaraxananı xilas etməyə çalışırdılar.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında sarayda fəaliyyət göstərən bir neçə musiqiçinin adlarını qeyd edir. Onların bir qismi xanəndə (müəllif onları qissəxan da adlandırır), bir qismi isə kaman, tənbur, ud, çəng ifaçısı idi.

I Şah Təhmasib hakimiyyətə gəldikdən bir neçə il sonra şəriət alimlərinin təsiri altında musiqi, rəsm və digər əyləncələrdən tövbə edi, bu sahənin adamlarının çoxu himayədən məhrum qaldığı üçün şahzadələrin sarayına (xüsusilə şahın qardaşı oğlu *İbrahim Mirzənin* Məşhəddəki sarayına) sığındı. Növbəti şahların zamanında sarayda digər sənət növləri ilə yanaşı musiqi də çiçəkləndi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.254; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.135; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.342-343; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.392-395; H.Meysəmi. Səfəvilər dövrü musiqisinə bir baxış ("Gülüstani-hünər" dərgisi, 1384 h.-ş., №2), s.141-147.*

ÇAŞNİGİRBAŞI – Səfəvi sarayındakı vəzifələrdən biri. Yeməkləri gətirib süfrəyə düzənlər və hər kəsin boşqabına yemək çəkənlər (müasir anlamda ofisiantlar) çaşnigir adlanırdı. Çaşnigirlər bütün yemək məclislərində iştirak edirdilər. Onlara çaşnigirbaşı nəzarət edirdi, çaşnigirbaşı şahın süfrəsinə xidmət göstərirdi. XVII əsrin məşhur səyyahı Övliya Çələbi Urmiyada xan sarayında onun şəninə verilmiş ziyafəti təsvir edərkən yazırdı: "Sonra meydana (süfrəyə) təmiz çini tabaqlar ilə iyirmi növ plov və iyirmi kasa şorba gəlib, çaşnigirbaşı cümlə tabaqlar arasına girib xanın önündəki zəfəranlı plovdan kəpçə (çömçə) ilə hər kəsin önünə qoyardı".

Bəzi mənbələrdə rast gəlinən süfrəçibaşı vəzifəsi ilə eyni olması ehimal edilir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.261-162; Övliya Çələbi səyahətnaməsi, IV, 288; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.262.*

ÇƏRXÇİ – qızılbaş Səfəvi ordusunda hərbi birləşmə növü. Çərxçilər ordunun ön qüvvələrini (avanqard) təşkil edirdilər. Düşmənlə ilk qarşılaşan hərbi birləşmə çərxçilər idi. Səfəvilər dövrünə aid salnamələrdəki hərbi xronikalara əsasən bütün döyüşlər, bir qayda olaraq, tərəflərin çərxçi qüvvələrinin toqquşması ilə başlayırdı. Çərxçi dəstələrinə çərxçibaşı komandanlıq edirdi. Çərxçilərin fəaliyyət dairəsinə döyüş sursatının daşınması və yerləşdirilməsi də daxil idi.

Səfəvilərlə Şirvanşahlar arasında baş vermiş Cabanı döyüşündə *Təkəlu*, *Rumlu* və *Zülqədər* tayfaları çərxçi təyin edilmişdi.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.45, 56; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.380; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.2010 (şərhlər bölümü).*

ÇƏRXÇİBAŞI – Səfəvi ordusunda mühüm vəzifələrdən biri. Qoşunun ön qüvvələrini (avanqard) təşkil edən *çərxçi* birliklərinə başçılıq edən sərkərdəyə çərxçibaşı deyilirdi. Ənənəyə əsasən döyüşlər hər iki tərəfdən çərxçi qüvvələrinin toqquşması ilə başladığı üçün çərxçibaşının öhdəsinə böyük məsuliyyət düşürdü. Çox zaman çərxçilərin toqquşması döyüşün ümumi taleyini həll edirdi. Çərxçibaşı əsas döyüş üçün əlverişli mövqe seçməli, düzgün taktika işləyib hazırlamalı, qəfil və gözlənilməz hücum manevrindən istifadə etməyi bacarmalı idi. Adətən çərxçibaşı daimi vəzifə sayılmır, hər döyüş üçün fərdi olaraq şah (və ya baş komandan) tərəfindən təyin edilirdi.

Çaldıran savaşında çərxçilərin başçısı *Saru Pirə bəy Ustaclu* olmuşdur.
bax: **ÇƏRXÇİ.**

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.45, 56; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.380; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.2010 (şərhlər bölümü).*

ÇƏRİK – qədim türk sözüdür, bəzən "çəri" formasında işlədilirdi ("Yeniçəri" sözü də buradandır). Səfəvi ordusunda yerli feodallar *(bəylərbəyiləri, xanlar)* tərəfindən saxlanılan hərbi dəstələrə çərik deyilirdi. Birbaşa şaha tabe olan *qorçu* adlı daimi nizami ordudan fərqli olaraq, çərik yerli əhalidən səfərbərlik əsasında toplanırdı, yerli feodalın tabeliyində xidmət edirdi, çəriyin xərcləri də onun öhdəsində idi. Məhəlli hakimlərin hər biri tabeliyindəki məntəqənin ərazisi, gəliri, əhalisinin sayı və əhəmiyyətinə uyğun olaraq müəyyən miqdarda hərbi qüvvəni istənilən an şahın ixtiyarına verməyə vəzifəli idi. Bunun əvəzində həmin məntəqənin gəlirinin bir hissəsi (və ya hamısı) hakimin ixtiyarına verilir, qalan hissəsini xəzinəyə göndərməsi və ya vergi əvəzinə şaha peşkəs (hədiyyələr) yollaması ondan tələb edilirdi. Müharibə zamanı çəriklər şahın təyin etdiyi toplama məntəqəsinə yığılırdı. Yaxud şahın əmri ilə bir və ya bir neçə hakimə öz çəriyi ilə müəyyən hərbi tapşırığı yerinə yetirmək əmri verilirdi.
"Tarixi-aləmarayi-Abbasi" kitabında və digər Səfəvi mənbələrində hərbi əməliyyatların təsvirində "çərik" sözünə rast gəlinir, bəzən bu ifadə müəyyən əraziyə bağlı şəkildə işlədilir və həmin ərazidən səfərbər edilmiş hərbi bölüyü ifadə edir (məsələn, Azərbaycan çəriyi).
Səfəvilər dövlətində "çərik" adlı vergi növü də var idi, ehtimala görə, bu vergi hərbi xidmətdə olmayan şəxslərdən alınırdı.
Bəzən "çərik" sözü ümumilikdə qoşun, ordu mənasında da işlədilir.

Mənbələr: *Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.2149; С.А.Мамедов. Азербайджан по источникам XV-первой половины XVIII вв., стр. 58; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.194 və 385; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.263, M.Müin. Fərhəngi-farsiyi-Müin, I, 926.*

ÇILDIR DÖYÜŞÜ (1578) – *Səfəvi-Osmanlı müharibələrinin* ikinci mərhələsinin əvvəllərində baş vermiş və Osmanlı ordusunun qələbəsi ilə nəticələnmiş döyüş.
Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsi 1555-ci ildə *Amasya sülh müqaviləsi* ilə nəticələnmişdi. 1576-cı ildə I Şah Təhmasibin vəfatından sonra Səfəvilər sülaləsi daxilində hakimiyyət uğrunda başlamış mübarizədə II Şah İsmayıl qalib gələrək taxt-taca yiyələndi, iki ildən sonra Şah Məhəmməd Xudabəndə onu əvəz etdi. Belə bir şəraitdə Osmanlı sultanı III Murad Qafqazda hakimiyyəti ələ keçirmək üçün müharibənin növbəti mərhələsinə başladı. Sə-

fəvi torpaqlarına müdaxilə etməzdən əvvəl o öz müttəfiqlərini müharibəyə cəlb etmək üçün Krım xanı Məhəmməd Gəraya və Şimali Qafqaz hakimlərinə xəbər göndərdi. Qərara alındı ki, Osmanlı qoşunlarının hücumu ilə eyni zamanda Krım tatarları, qumuq, qaytaq, avar və Tabasaran hakimləri də müxtəlif istiqamətlərdən həmlə etməklə Səfəvi ordusunun qüvvələrinin parçalanmasına şərait yaradacaqlar. Səfəvilər dövlətinin hüdudları daxilində kürd tayfalarının da təxribatlar törədəcəyi planlaşdırıldı.

Osmanlı imperiyasının Qars istiqamətində sərhəddə fəallaşmasından narahat olan Çuxursəd bəylərbəyi *Məhəmmədi xan Toxmaq Ustaclu* paytaxt Qəzvinə bu barədə xəbər göndərdi, daha sonra Azərbaycan bəylərbəyi *Əmir xan Türkmana*, Gəncə və Qarabağ bəylərbəyi *İmamqulu xan Yıva Qacara* kömək üçün müraciət etdi. O, Osmanlı hücumunun qarşısını almaq və Gürcüstan yolunu bağlamaq üçün qüvvələri birləşdirmək istəyirdi. İmamqulu xan onun çağırışını qəbul edib öz dəstəsi ilə köməyə gəldi. Əmir xan isə *Türkman* və *Ustaclu* tayfaları arasındakı düşmənçilik üzündən onlara qoşulmamağa üstünlük verdi. Çuxursəd və Qarabağ birləşmiş qüvvələri Qarsın şimal-şərqindəki Çıldır gölünün sahilində Osmanlıları qarşılamaq üçün düşərgə saldı.

Çıldır döyüşünün dəqiq tarixi barədə məlumatlar fərqlidir. Əldə edilən ümumi nəticə budur ki, döyüş 1578-ci il 8 və ya 9 avqust tarixində baş vermişdir. Lala Mustafa paşanın başçılıq etdiyi Osmanlı qoşununun sayı 100 min nəfərdən artıq olduğu halda, Səfəvi döyüşçülərinin sayı 15 min nəfəri keçmirdi. Döyüşün ilk mərhələsində qızılbaş əsgərləri uğur qazandılar. Səfəvi qoşunu *çərxçilərinin* (ön hissəsi) şiddətli hücumu nəticəsində Osmanlı ordusunun avanqardı geri çəkildi. Onları təqib edən Səfəvi dəstəsi əsas ordudan xeyli aralı düşərək məhv edildi. Səfəvilərin əsas qüvvəsi isə Osmanlıların çarpaz hücumunun arasında qaldı. Məhəmmədi xan Toxmaq Ustaclu düşmənin ümumi sayının 40 min nəfər olduğunu düşünərək, döyüş taktikasını buna uyğun şəkildə qurmuşdu. Lakin Lala Mustafa paşanın ehtiyatda saxladığı 70 min nəfərlik ikinci ordunun hücumu döyüşün taleyini həll etdi. Qızılbaş əsgərlərinin igidliyinə baxmayaraq, qeyri-bərabər döyüşdə Osmanlılar üstünlük qazandılar. Çıldır döyüşündə Səfəvi ordusunun itkisi barədə məlumatlar fərqlidir. Döyüş meydanında həlak olanların sayı ən azı 5 min (və ya 7 min) nəfər idi. Əsir düşmüş daha bir neçə min nəfər də edam olundu.

Çıldır döyüşündəki qələbə nəticəsində Osmanlı ordusunun Gürcüstan istiqamətində yolu açılmış oldu. Bu döyüş qızılbaş tayfaları arasındakı rəqabət və düşmənçiliyin nə qədər dərin olduğunu göstərdi.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.144-147; Azərbaycan tarixi (7 cilddə), III, 190; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.216; Фарах Адиль кызы Гусейн. Османо-Сефевидская война 1578-1590 гг., стр. 38-42.*

DAVATDAR – Səfəvilər sarayında vəzifələrdən biri. Şaha yaxın olan *müqərrəb əl-xaqan* təbəqəsinə aid idi, amma bu təbəqənin aşağı pilləsində dururdu. Davatdar məclislərdə şaha yaxın durur, kəmərində hazır şəkildə kağız-qələm və mürəkkəb gəzdirirdi, şahın əmri ilə lazım olan anda qeydlər aparırdı. Vəzifənin adı yazı avadanlığı mənasında olan "davat" sözündən qaynaqlanır.

Bəzi üzük formalı dövlət möhürlərinin də davatdarın barmağında olduğunu və buna görə "davatdari-möhri-əngüştər" (üzük möhrünü daşıyan davatdar) adlandığını yazırlar. O, fərman və tuğralara "afitab-əsər" (günəştəsirli) adlı möhürü vururdu.

I Şah Abbasdan başlayaraq uzun müddət ərzində Səfəvilər sarayında davatdar vəzifəsini *Qacar* tayfasından olan əyanlar yerinə yetirmişlər.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.226; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.120-121; Lüğətnameyi-Dehxuda, VII, 11157.*

DƏBBABƏ (TAXTA QÜLLƏ) – orta əsrlərə aid hərb-istehkam qurğusu, mühasirə qülləsi. Ağacdan hündür qüllə şəklində hazırlanır, təkərlər üzərində hərəkət etdirilirdi. Dəbbabələrdən qala və bürclərin fəthi zamanı geniş istifadə edilirdi. Bəzən qala divarları hündürlüyündə hazırlanan dəbbabələr daxildən pilləkənlərlə əlaqələndirilən bir neçə mərtəbədən ibarət olurdu. Üstdən qalın taxtalarla, onun üzərindən qum doldurulmuş kisələr və dəri ilə üzlənmiş dəbbabələrin içində əsgərlər gizlənirdi, hətta bəzən qoçbaşı və mancanaqları da dəbbabənin içərisində gizlədirdilər. Dəbbabəni təkərlər vasitəsilə qala divarlarına yaxınlaşdırır, içindəki əsgərlər ya divarı qoçbaşı vasitəsilə dəlir, ya da endirilən körpü ilə divarların üzərinə enirdilər. Orta əsrlərdə həm Qərb, həm də Şərq dünyasında, o cümlədən Səfəvi dövlətində qala mühasirəsi və fəthi zamanı dəbbabələrdən tez-tez istifadə edilirdi.

XVII əsrdə yaşamış *Oruc bəy Bayat* xatirələrində Osmanlıların əlində olan Təbrizin mühasirəsi zamanı (1585) Səfəvi qoşunundakı dəbbabəni ətraflı şəkildə təsvir etmişdir. Qalanı almaq üçün həyata keçirilən uğursuz cəhdlərdən sonra Şah Məhəmməd Xudabəndə gecəyarısı Oruc bəy Bayatın atası Sultanəli bəyin başçılığı altında 300 döyüşçünün gizləndiyi dəbbabə vasitəsilə qalanı almaq əmrini verdi. Qala divarları hündürlüyündə hazırlanmış dəbbabənin üzəri taxta lövhələr və qum doldurulmuş kisələrlə örtülmüşdü. Hərəkət zamanı səs salmamaq üçün dəbbabənin təkərlərini yağlamış, üzərinə pambıq sarımış, məşəllərin görünməməsini təmin etmişdilər. Lakin qaladakı osmanlılar vaxtında duyuq düşərək dəbbabəni yanar oxlardan atəşə tutdular, qaladan çıxan döyüşçülər də digər tərəfdən onu hücuma məruz qoydular. Nəticədə Səfəvilərin bu həmlə cəhdi də uğursuzluqla bitdi, dəbbabə yandırılıb dağıdıldı, Sultanəli bəy və tabeliyindəki döyüşçülərin əksəriyyəti həlak oldu.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.186-187; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.225-226; İzahlı dini terminlər lüğəti (baş redaktor: Aqil Şirinov), s.66.*

DƏDƏ QARKIN DÖYÜŞÜ – *bax:* **QOÇHİSAR DÖYÜŞÜ.**

DİVAN – müsəlman Şərq dövlətlərində idarəçiliyi həyata keçirən qurum. Divanlar idarəçilik sisteminin ayrı-ayrı sahələrini əhatə edirdi, bunları müasir anlamda nazirlik qurumları ilə müqayisə etmək olar. Xilafətdə divan quruluşunun Sasani və Bizans imperiyalarına məxsus dövlətçilik ənənələri ilə tanışlıqdan sonra onların təsiri ilə yarandığını yazırlar. Əməvi və Abbasi xilafətlərində divan qurumu get-gedə təkmilləşmiş, xüsusilə Abbasilər dövründə divan qurumları özünün çiçəklənmə mərhələsini yaşamışdır.

Səfəvi zamanında "divan" sözü adətən ümumilikdə dövlətçilik anlamında işlənmişdir. Dövlət fonduna aid olan daşınmaz əmlakı divan torpaqları da adlandırırdılar. (Şahın səltənət payı sayılan "xassə" torpaqlarından fərqli olaraq).

Səfəvilər zamanında sarayda toplanan, mühüm dövlət işlərinin müzakirə edildiyi və qərarların verildiyi məşvərət şurasına da "divan" və ya "ali məclis" deyirdilər (başqa adları: *cəngi* və gənəşik yığıncağı).

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.284; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, IX, 397-399; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 33-34.*

DİVANBƏYİ – Səfəvilər dövlətində yüksək dövlət vəzifəsi, dövlət məmurlarının *müqərrəb əl-xaqan* (hökmdara yaxın) təbəqəsinə aid idi. Mühüm qərarların qəbul edildiyi məclisin *(cəngi)* daimi üzvü sayılırdı. O, həftənin dörd günündə keşikxana adlı sarayda *sədrin* başçılığı altında adam öldürmək, namusa təcavüz, göz çıxarmaq və diş sındırmaqdan ibarət olan dörd cinayət barədə günahkarların işinə baxırdı. Həftənin qalan iki günündə isə öz evində şikayətçiləri qəbul edirdi. Divanbəyi əyalətlərdə baş verən ədalətsizlikləri, əhalinin 4-5 tüməndən artıq pul iddiası barədə şikayətlərini də təhqiq edirdi. Şəriət hökmlərinin icrası, şəhərlərdə nizam-intizamın qorunması, həbsxanalara nəzarət də divanbəyiyə tapşırılmışdı. Bütün şikayətlər ona göndərilirdi, ölkə ərazisində qanunların icrası onun səlahiyyətlərinə aid idi.

Daxil olan şikayət əsasında divanbəyi öz tabeliyində olan məmurlardan birinə təliqə (dərkənar) yazır və işin araşdırılmasını ona həvalə edirdi.

Divanbəyinin hökmləri məmləkətin bütün böyükləri, xan və hakimlər tərəfindən qəbul olunaraq icra edilirdi.

Divanbəyiyə dövlət vergiləri, baş vəzirə tabe olan məmurlarla bağlı şikayətlər daxil olduqda bunları *baş vəzirə* göndərirdi. Şikayətçi tərəflərdən biri *qorçu*, *qulam* kimi ordu qulluqçusu, yaxud dövlət işçisi olduqda divanbəyi hər idarənin öz başçısına müraciət edirdi. Şəhər və kənd əhalisi ilə bağlı olan əksər mübahisəli məsələləri divanbəyi özü sərbəst şəkildə yoluna qoyurdu. *Bəylərbəyi* və

sultanlardan şikayət daxil olanda divanbəyi məsələni şaha təqdim edirdi.
Səfəvilər zamanında divanbəyi vəzifəsinə əksər hallarda qızılbaş tayfalarına mənsub əmirlər təyin edilirdi. I Şah İsmayılın zamanında *Hüseyn bəy Lələ Şamlu* bir müddət divanbəyi olmuşdu. Şah Məhəmməd Xudabəndə dövründə adətən *Ustaclu* əmirləri, I Şah Abbasın zamanında *Şamlu* əmirləri divanbəyi vəzifəsini tuturdular.

Mənbələr: *Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.109-110; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.176-179; Aləmarayi-Səfəvi, s.608; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.320-321; Lüğətnameyi-Dehxuda, VIII, 11440.*

DİVANİ-İNŞA – Səfəvilər zamanında dəftərxanaya deyilirdi. Münşilər və mirzələr burada işləyirdilər.
bax: **MÜNŞİ əl-MƏMALİK.**

DUCUM DÖYÜŞÜ (1733) – bax: **SAMİRRA DÖYÜŞÜ.**

EŞİKAĞASI – Səfəvilər zamanında saray xidmətçisi. Saray daxilində, xüsusilə şahın iştirak etdiyi məclislərdə nizam-intizamın qorunması, hər şeyin yerində və qaydasında olmasına nəzarət onlara tapşırılırdı. Eşikağasılar saray reqlamentinin icraçısı idilər. Onlara *eşikağasıbaşılar* rəhbərlik edirdi. Şah sarayından əlavə, bölgələrdəki *bəylərbəyi* saraylarında da eşikağasılar vardı.
bax: **EŞİKAĞASIBAŞI.**

EŞİKAĞASIBAŞI – Səfəvilər sarayında yüksək vəzifələdən biri, eşikağasılara başçılıq edirdi. Sarayda iki eşikağasıbaşı xidmət edirdi: bunlardan biri divan eşikağasıbaşısı, o biri isə hərəm eşikağasıbaşısı idi.
Divan eşikağasıbaşısının sarayın baş reqlament məmuru kimi əlində böyük ixtiyar var idi. Sarayda xidmət edən *eşikağasılar*, *qapıçılar*, *carçılar* və *yasavullar* onun tabeliyində idilər. Divan eşikağasıbaşı sarayın daxili reqlamentini, vəzifələrin icrasını nizamlayırdı. Xüsusilə şahın iştirak etdiyi məclislərdə (*cəngi* şuraları) səliqə-sahmanı gözləmək məclisin daimi üzvü kimi ona tapşırılmışdı. Məclis üzvlərinin iştirakının təmin edilməsi, sıra ilə onlardan ötrü ayrılmış yerlərdə oturdulması, iyerarxik pilləyə riayət edilməsi divan eşikağasıbaşısının birbaşa səlahiyyət dairəsinə aid olan məsələlərdən sayılırdı. Saray məmurlarının, hətta *qullarağasının* vəzifəyə təyin edilməsi, onun tabeliyindəki ştatlara məvacib ayrılması *qorçubasının* tövsiyəsi və *baş vəzirin* imzasından sonra divan eşikağasıbaşısının möhürü və imzası ilə təsdiq olunmalı idi.
Şahın hüzuruna daxil olmaq istəyən hər kəsin gəlişini divan eşikağasıbaşısı uca səslə elan edib icazə istəyirdi, yalnız bundan sonra həmin adam şahın hüzuruna daxil ola bilərdi. Sarayda təşkil edilən mərasim və şənliklərdə eşikağasılar xidmət edirdilər, divan eşikağasıbaşısı isə onların hamısının işini nizamlayır və əlaqələndirirdi. Məclisdə süfrənin salınması və yığılması onun elanı ilə baş verirdi. I Şah Səfi zamanında İs-

fahana səfər etmiş alman səyyahı Adam Oleari yazırdı ki, şahın hüzurunda onun iştirak etdiyi ziyafət bitdikdən sonra eşikağasıbaşı türk dilində uca səslə bunu söyləmişdi: "Süfrə haqqına, şah dövlətinə, ğazilər qüvvətinə Allah deyəlim, Allah-Allah!"

Səfəvi şahlarının zamanında divan eşikağasıbaşısı vəzifəsinə adətən qızılbaş *Şamlu* tayfasının nümayəndələri təyin edilirdi. Müxtəlif zamanlarda bu tayfanın *Bəgdilü*, *İnallu*, *Biçərlü* və digər qollarına mənsub olan Uğurlu xan, Qulu xan, Zeynal xan, İmamqulu xan və b. divan eşikağasıbaşısı vəzifəsini yerinə yetirmişlər. Səfəvi mənbələrindən belə nəticəyə gəlmək olur ki, divan eşikağasıbaşıları adətən *qorçu* yüzbaşılarının arasından seçilirdi.

Divan eşikağasıbaşısı hərəmə daxil ola bilməzdi, bu səlahiyyət hərəm eşikağasıbaşısına verilmişdi. Bununla belə, mənbələrdəki məlumatlardan hərəm eşikağasıbaşısının divan eşikağasıbaşısına tabe olduğu qənaəti yaranır. *Müqərrəb əl-həzrət* təbəqəsinə aid olan hərəm eşikağasıbaşısı hərəmağalarının, *xacəbaşıların* və hərəm qapıçılarının başçısı idi. *Söhbət yasavullarının* hansı eşikağasıbaşıya aid olmaları barədə mənbələrdəki məlumatlar qarışıqdır.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.200-203, 227-230; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.256; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.317; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.100-101.*

ƏLƏMDAR – Səfəvi ordusunda hərbi vəzifə. Ələmdar mənsub olduğu qoşun növünün bayrağını (ələmini) daşıyrdı. Bu vəzifə orduda çox məsuliyyətli və şərəfli hesab edilirdi. Çünki bayraq ordunun həm şərəfi, həm də döyüş zamanı ruh yüksəkliyinin əsas amili idi. Bayrağın çökməsi döyüşçülərin ruh düşkünlüyünə və məğlubiyyətinə səbəb olur, bayrağın düşmən əlinə keçməsi rüsvayçılıq sayılırdı. Ona görə də ələmdarlar canları-qanları bahasına bayrağı qoruyurdular.

Şahın səfərlərində ələmdarlar onun qarşısında bayraqları gəzdirirdilər. Xarici qonaqların qəbulu, təmtəraqlı mərasimlər, hərbi keçidlər (paradlar) zamanı da bayraqlar meydana gətirilirdi.

Səfəvi ordusunda bayraq bəzi simvolik mənalara da malik idi. Adətən bayraq min nəfərlik hərbi qüvvəni ifadə edirdi. Çox zaman uzaqdan görünən bayraqların sayı ilə yaxınlaşan qoşunda nə qədər döyüşçü olduğunu təyin edirdilər. Həmçinin bayraq sərkərdənin mövqeyini və gücünü nümayiş etdirirdi. Əyalətlərdəki əmirlərin ən güclüləri bayraq gəzdirmək, yürüş zamanı kərənay (iri şeypur) və təbil çaldırmaq haqqına sahib idilər.

Ələmdarların rəhbəri *ələmdarbaşı* adlanırdı. Ələmdarbaşı bəzən döyüşlərdə də fəal iştirak edirdi. Məsələn, 1510-cu ildə I Şah İsmayıl ələmdarbaşı Danə Məhəmməd bəy Əfşarı Mərv üzərinə hərəkət edən qızılbaş ordusunun ön dəstəsinə komandan təyin etmişdi.

Mənbələr: *N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.322; Aləmarayi-Səfəvi, s.294.*

ƏLƏMDARBAŞI – *bax:* **ƏLƏMDAR.**

ƏMİR – Səfəvi dövlət idarəçiliyində yüksək təbəqə sahiblərinə verilən ləqəb. Ümumilikdə *vali*, *bəylərbəyi*, *xan* və *sultan* titulunu daşıyanların hamısına əmir deyilirdi. Əmirlər əsasən iki hissəyə bölünürdü. Onların bəziləri bölgələrdə idarəetmə aparatında xidmət göstərir və "sərhəd əmirləri", yaxud "qeyri-dövlətxanə əmirləri" adlanırdı. İsgəndər bəy Münşi I Şah Təhmasibin vəfatı zamanı Səfəvilər dövlətinin nüfuzlu əyanlarından söz açaraq yazırdı: "Əmirlik rütbəsi daşıyan böyük əmirlərin, yüksək dərəcəli xanların, kiçik və böyük sultanların əksəri təbil, ələm, süvari qoşun və məiyyət sahibi idilər. Ali divanın dəftərlərindəki qeydlərdən aydın olur ki, həmin vaxt onların sayı 114 nəfər olmuşdur". Sonra müəllif hər qızılbaş tayfasının ən görkəmli nümayəndələri haqqında qısaca məlumat verir. Əsərdə verilmiş məlumatdan aydın olur ki, əmir və sultanların bir qismi ələm (bayraq), təbil və nağara sahibi idilər, yəni tabeliklərində kifayət qədər hərbi qüvvə var idi və həmin qüvvəni idarə etmək üçün adıçəkilən atributlardan istifadə etmək ixtiyarını qazanmışdılar.

Yerlərdəki qızılbaş əmirlərindən biri vəfat edib öz yerinə canişin qoymadığı zaman saraydakı əmir və sultanların arasından bacarığı ilə seçilən biri onun yerinə təyin olunurdu. Bu təbəqədən olan mühüm əmirlərin sayı 21 nəfər idi. Beləliklə, qeyri-dövlətxana əmirləri adətən irsi qaydada deyil, öz bacarıq və ləyaqətlərinə əsasən vəzifə alırdılar. Çox zaman döyüşlərdə fərqlənən şəxslərə ali rütbələr verilirdi. Bəzən adi kəndli təbəqəsindən olan cəsur döyüşçü öz şücaətinə və şaha xidmətinə görə xan titulu qazanırdı.

İkinci dəstədən olan əmirlərə "dövlətxanə əmirləri" deyilirdi, onlar sarayda xidmət edirdilər. Ən müxtəlif saray vəzifələrini tutan şəxslər (hətta *miraxurbaşı* və *mirşikarbaşı*, mətbəx işlərinə baxan əmirlər) bura daxil idi. Dövlətxana əmirlərinin təyinatında bəzən irsi amil rol oynayırdı. Dövlətxana əmirlərinin bir qismi dövlətin ali məşvərət şurası olan məclisdə (gənəşik şurası, *cəngi*) iştirak edirdi.

Mənbələr: *Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.77-78; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.303; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.308-309.*

ƏMİR ƏL-ÜMƏRA – Səfəvilər dövlətində yüksək hərbi vəzifə. Tərcüməsi "əmirlər əmiri" və ya "baş əmir" deməkdir. Səfəvilər dövlətinin ilk dövrlərində digər əmirlərdən fərqləndirmək üçün bəzi sərkərdələrə bu rütbə verilirdi. I Şah İsmayıl öz *lələsi* (dünyəvi məsələlər üzrə tərbiyəçisi) *Hüseyn bəy Lələ Şamluya* və öz *dədəsi* (təriqət məsələləri üzrə tərbiyəçisi) *Abdal bəy Dədə Zülqədərə* bu rütbəni vermişdi.

Əmir əl-üməra rütbəsi əvvəlcə Səfəvilər dövləti ordusunun baş komandanı mənasını da verirdi. I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində bu vəzifəni

ələ keçirmək uğrunda qızılbaş əmirləri arasında ciddi mübarizə gedir, bəzən əmir əl-üməralıq səlahiyyəti iki nəfərin arasında bölünürdü (*Div sultan Rumlu-Köpək sultan Ustaclu, Hüseyn bəy Rumlu-Abdullah xan Ustaclu*). Sonralar Səfəvi dövlətinin inzibati və hərbi quruluşu təkmilləşdikcə ordunun baş komandanı səlahiyyətləri *sipəhsalara* verildi. Əmir əl-üməralıq isə *bəylərbəyliklərin* hərbi dəstəsinin *(çərik)* komandanı mənasında qəbul edildi. Ənənəyə görə, inzibati vilayətlərin idarəçiliyi üçün iki ali vəzifə nəzərdə tutulmuşdu: bəylərbəyi və əmir əl-üməra. Əksər hallarda eyni adam hər iki vəzifəni əlində cəmləyir, bəzən isə bu vəzifələr iki fərqli adama həvalə edilirdi. Ənənəvi olaraq Azərbaycan (Təbriz) bəylərbəyi ümumilikdə Səfəvi ordusunun əmir əl-ümərası (baş komandanı) sayılırdı.

Səfəvilər dövlətinin ilk onilliklərində nizami ordu yox idi, hərbi əməliyyatların əsas gücü tamamilə yerli hakimlərin tabeliyində olan qoşun hissələrindən (çərik) ibarət idi. Buna görə də həmin dövrdə istər ordunun baş komandanı, istərsə də yerli hərbi qoşunların komandanı mənasında əmir əl-üməralıq vəzifəsi qızılbaş əmirlərinə məxsus idi. Türk qızılbaş əmirləri ümumiyyətlə hərb sənətini öz inhisarlarında hesab edir, qeyri-türk millətindən olanların (*"tacik"* adlandırılan farsların) hərbi işə qarışmasını yolverilməz sayırdılar. Sonralar I Şah Abbas qeyri-müsəlman mənşəli (sonradan İslamı qəbul etmiş) döyüşçülərdən ibarət qullar korpusunu yaratdı, həmin hərbi birlikdə xidməti karyera keçmiş bəzi əmirlər sipəhsalar vəzifəsinədək yüksəldilər.

Beləliklə, ordu baş komandanı mənasında əmir əl-üməra vəzifəsi Səfəvilər dövlətinin ilk onilliklərində aktual olmuşdur. Bu anlayış daha sonralar öz yerini *qorçubaşı* və sipəhsalar vəzifələrinə vermiş, vilayətlərdəki hərbi dəstə başçısı mənası ilə məhdudlaşmışdır.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.247; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.307; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.275; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.120-123; Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.94-95.*

ƏRDƏBİL – Səfəvilər dövlətinin ən mühüm şəhərlərindən biri. Ərdəbil Səfəvilər dövlətinin təriqət ocağı, özəyi idi. Şəhər burada yerləşən Şeyx Səfiəddin türbəsinin hesabına çox inkişaf etmişdi. Ölkənin hər tərəfindən bura zəvvarlar axışıb gəlirdi. Səfəvilər dövlətinin ərazisində qızılbaş tayfalarının məskunlaşdığını və bu tayfalar arasında Şeyx Səfi kultunun geniş yayıldığını nəzərə alaraq ziyarətgahın insanlar üçün nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək mümkündür. Şeyx Səfi kompleksi yalnız Məşhəddəki İmam Rza (ə) hərəmindən geri qalırdı.

Şeyx Səfi ocağının çox zəngin *vəqf* əmlakı vardı. Ölkə ərazisindəki bütöv kəndlər, onlarla dükan, bazar, karvansara, əkin sahəsi bura vəqf edilmişdi və onların gəliri ocağa verilirdi. Ərdəbil şəhəri

və ətrafı xassə mülkiyyətinə (yalnız şahın tabeliyində olan qeyri-dövlət mülkiyyətinə, səltənət mülkünə) aid idi, onun hakimləri yalnız şaha tabe idilər və onun qarşısında hesabat verirdilər. Ərdəbil ocağı bütün vəqf mülkiyyəti ilə birlikdə vergilərdən tam azad edilmişdi. Şah mütəmadi olaraq fərman verməklə şəhər əhalisini də bəzi vergilərdən azad edirdi.

Ərdəbil şəhəri Səfəvilər dövlətinin ticari-iqtisadi həyatında müstəsna rol oynayırdı. Şirvan və Gilandan Təbrizə, oradan da ölkənin içərilərinə uzanan tranzit ipək yolunun üzərində yerləşməsi sayəsində şəhər böyük gəlir əldə edirdi.

Ərdəbilin mərkəzində uzunluğu 300, eni 150 addım olan iri bazar meydanı vardı, bazarın hər iki tərəfində sıra ilə dükanlar yerləşirdi. Bundan əlavə, şəhərdə Qeysəriyyə adlı üstüörtülü bazar da fəaliyyət göstərirdi. Qərb səyyahları Ərdəbil bazarında avropalı, hindistanlı, tatar, türk, hətta çinli tacirlərin ticarətlə məşğul olduqlarını yazırdılar. Əcnəbi tacirlərin qalmasından ötrü şəhərdə böyük karvansaralar tikilmişdi.

Xalq arasında böyük ehtiramı və kəramətləri barədə yayılmış rəvayətləri sayəsində Şeyx Səfi ocağı və bütünlükdə Ərdəbil şəhəri hətta Osmanlı işğalları zamanı da dağıntıdan və qarətdən amanda qalmışdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.229; Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.115-119; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.417; Azərbaycan tarixi (7 cilddə), III, 208; E.Nəciyev. Səfəvilərin sufi dərgahı – Ərdəbil ("İslam maarifçiliyi və müasir dövr" beynəlxalq elmi konfransın materialları, 16-17 aprel 2015-ci il, Bakı), s.493-498.*

FƏRRAŞBAŞI – Səfəvilər dövlətində yüksək vəzifələrdən biri, mühüm *sahibcəm* (maliyyə idarə müdiri). Fərraşxana onun rəhbərliyi altında fəaliyyət göstərirdi və o, şaha yaxın olan ən yüksək təbəqəyə *(müqərrəb əl-həzrət)* aid idi. Fərraşxananın işçi personalı fərraş və saraydarlardan ibarət olurdu. Fərraşlar sarayda əsasən xalçalara qulluq etmək, şahın çadırlarını quraşdırıb-yığmaq və s. vəzifələri icra edirdilər, saraydaxili təsərrüfat işləri də onların vəzifəsinə daxil idi. Saraydarlar daha ağır işlərin öhdəsindən gəlirdilər. Fərraşxananın daxili nizam-intizamına darğa baxırdı. Bəzən *məşələxana* da fərraşxana ilə birləşdirilir və onlara bir nəfər rəhbərlik edirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.248; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.128.*

GƏNCƏ MÜQAVİLƏSİ (1735) – 1735-ci il martın 21-də Rusiya imperiyası ilə Səfəvi dövlətinin nümayəndələri arasında Nadir xanın (gələcək *Nadir şah Əfşar*) Gəncə yaxınlığındakı düşərgəsində imzalanmış müqavilə. Bundan 3 il əvvəl (1732-ci il) Rəşt şəhərində Səfəvi dövlətinin təmsilçisi olan Nadir xanla Rusiya imperiyası arasında müqavilə imzalanmışdı. Bundan sonrakı müddət

ərzində Nadir xan Osmanlı dövləti ilə müharibədə yeni uğurlar qazandı. Bölgədə geosiyasi vəziyyətin dəyişməsi Səfəvi-Rusiya münasibətlərinə yenidən baxılmasını tələb edirdi.

Müqavilənin imzalandığı ildə Nadir xan Gəncə qalasını almışdı və Osmanlı qüvvələri ilə döyüşlər gedirdi. Müqaviləni Səfəvilər tərəfdən Nadir xan Əfşar, Rusiya tərəfdən knyaz Sergey Qolıtsin imzalamışdı.

Müqavilənin şərtlərinə əsasən, rus qoşunları Xəzərsahili vilayətləri (Kürün axarından Dərbəndədək) tamamilə tərk edir, burada əvvəlki inzibati idarə üsulu bərpa olunurdu. Rus tacirlərinin Səfəvi dövləti ərazisində sərbəst və gömrüksüz ticarət imtiyazları bir daha təsdiq edildi. Nadir xan Rusiyanın daimi müttəfiqi olmağı, qaytarılmış torpaqları heç vaxt Osmanlılara verməməyi öz üzərinə götürdü. Solaq qalasından keçən xətt Rusiya ilə Səfəvi dövlətləri arasında sərhəd elan edildi.

1747-ci ildə Nadir şahın ölümündən sonra Gəncə müqaviləsi öz qüvvəsini itirdi.

Mənbələr: *Y.Mahmudov, K.Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828), s.120-125; Azərbaycan tarixi (7 cilddə), III, 346-347; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.492-493; R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda), s.263-264.*

HALVAÇIBAŞI – Səfəvilər sarayındakı vəzifələrdən biri. Sarayın şirniyyat ustalarının (halvaçı) başçısı sayılırdı. Şahın və eləcə də digər saray sakinlərinin yemək rasionundakı şirniyyatların hazırlanması və süfrəyə gətirilməsi onun nəzarəti altında baş verirdi.

I Şah İsmayılın zamanında orduda və dövlət idarəsində mühüm mövqe tutmuş əmirlərin siyahısında *Təkəlü* tayfasından olan *İlyas bəy Halvaçıoğlu, Həsən bəy Halvaçıoğlu* və Yaqub bəy Halvaçıoğlunun adları çəkilir.

II Şah İsmayıl Səfəvi Həsən bəy Halvaçıoğlunun evində dünyasını dəyişmişdir (1577-ci il).

Səfəvilər sarayında mətbəxlə bağlı digər vəzifələr də mövcud idi. Süfrədəki içəcəklərin hazırlanması və gətirilməsi *şirəçibaşı* və ya şərbətdarbaşının səlahiyyətində idi. Şahın və digər əyanların təamlarını dadan, zəhərli olub-olmadığını, eləcə də dadını yoxlayan xidmətçilərə *tuşmal* deyilirdi. Onların başçısı *tuşmalbaşı* şahın süfrəsinə aparılan təamlara nəzarət edirdi. Şah müqəddəs sayıldığından onun süfrəsindən artıq qalan yeməkləri tuşmalbaşı bəzən təbərrük kimi satırdı. Yeməkləri gətirib süfrəyə düzənlər və hər kəsin boşqabına yemək çəkənlər (müasir anlamda ofisiantlar) çaşnigir adlanırdı. Onlara *çaşnigirbaşı* nəzarət edir və şahın süfrəsinə xidmət göstərirdi. Mənbələrdə Səfəvi sarayında qurulan yemək süfrələri ilə bağlı vəzifələr sırasında süfrəçilərdən və onların başçısı olan süfrəçibaşıdan da bəhs edilir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.258-261; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.262; Namiq Mu-*

salı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.318-320; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.133-134.

HƏKİMBAŞI – Səfəvilər zamanında mühüm saray vəzifələrindən biri, *müqərrəb əl-xaqan* (şahın yaxını) təbəqəsinə aid idi. Bütün Şərq dövlətlərində olduğu kimi, Səfəvi şahlarının da sarayında həkimlər fəaliyyət göstərirdi, onlara həkimbaşı rəhbərlik edirdi. Həkimbaşı daim şahın sağlamlığına nəzarət edirdi. Şahın nəbzini yoxlamaq icazəsi yalnız ona verilmişdi. Şah yeməyə oturanda həkimbaşı süfrənin yanında hazır dayanırdı ki, yemək zamanı şah qidaların faydaları və xüsusiyyətləri barədə ondan soruşanda cavab versin.

Yüksək rütbəli dövlət adamlarının məclisində *(cəngi)* həkimbaşı da iştirak edirdi. Saraydakı əttarxananın (əczaxana) xərci, pəhriz siroplarının hazırlanması üçün məsrəflər, əttar və həkimlərin məvacibi, mükafatları onun tərəfindən yazılıb təqdim edilirdi. Bölgələrdəki *bəylərbəyi* və *valilərin* də sarayında həkim ştatına ehtiyac yarananda həkimbaşıya müraciət edirdilər və onun təqdimatı əsasında bölgəyə həkim ezam olunurdu. Şah Sultan Hüseyn zamanında həkimbaşıya tabe olan saray məmurlarının ümumi sayı 68 nəfər idi. XVII əsrin 80-ci illərində Səfəvilər dövlətində olmuş alman təbiətşünası və səyyahı Engelbert Kempfer yazırdı ki, dünyanın heç bir ölkəsində həkimlərə burada olduğu kimi ehtiram göstərilmir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.213-215; Nəsrullah Fəlsəfi. Birinci Şah Abbasın həyatı, II, 409; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.328; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.129.*

HƏMƏDAN SÜLH MÜQAVİLƏSİ (1727) – Səfəvilər dövlətini işğal etmiş əfqanlarla Osmanlı dövləti arasında bağlanmış sülh müqaviləsi.

1722-ci ildə *Mir Mahmud Hutəki* Səfəvilər dövlətinin paytaxtı İsfahanı tutaraq, *Şah Sultan Hüseyni* hakimiyyətdən saldı və özünü şah elan etdi. 1725-ci ildə o öldürüldükdən sonra *Mir Əşrəf şah* hakimiyyətə keçdi. O, əvvəlcə Osmanlılara qarşı çıxsa da, hərbi gücünün azlığını nəzərə alaraq 1727-ci ildə sülh təklifi ilə çıxış etdi.

Əfqan elçisi İsmayıl bəylə Osmanlı ordusu komandanı Əhməd paşa və Hələb hakimi Übeydullah Əfəndi arasında bağlanmış 12 bənddən ibarət sülhün şərtlərinə görə, Osmanlı sultanı dünya müsəlmanlarının başçısı kimi, Əşrəf isə İran şahı kimi tanınırdı. Xütbələrdə Əşrəf şahın adının çəkilməsi, adına pullar kəsilməsi, hər il Məkkə ziyarətinə göndərilən həcc karvanına onun tərəfindən əmir təyin edilməsi də nəzərdə tutulmuşdu. Həmədan sülh müqaviləsinə görə, Kirmanşah, Həmədan, Sinandic, Ərdəlan, Nəhavənd, Xürrəmabad, Luristan, Mukri, Marağa, Xoy, Təbriz, Gəncə, Qarabağ, İrəvan, Ordubad, Naxçıvan, Tiflis, Şamaxı, bütöv Gürcüstan

vilayətləri, Hüveyzə və əvvəlki illərdə zəbt olunmuş Əbhər və Tarım məntəqələri Osmanlıların ixtiyarında qalırdı.

Mənbələr: *Y.Mahmudov, K.Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828), s.106; R.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda), s.136-137; D.Balland. Ashraf Gilzay (Encyclopedia Iranica).*

XACƏ – Səfəvilər dövlətində saray qulluqçusu. I Şah Abbasa kimi xacələr adətən qaradərili hindulardan seçilirdi. Onların hərəmə girişi azad olduğu üçün mütləq xədim edilirdilər. I Şah Abbasın zamanından etibarən sarayda ağdərili xacələr də görünməyə başladı. Onları qeyri-müsəlman millətlərin arasından seçirdilər. Xədim olmalarına baxmayaraq, ağdərili xacələr hərəmxanaya daxil ola bilməzdilər. I Şah Abbasın zamanında sarayda hindularla yanaşı 100 nəfər ağdərili xacə xidmət edirdi, hər dəstənin ayrı başçısı vardı, ona yüzbaşı deyirdilər.

Rəsmi görüş və qəbullar zamanı görünüşcə yaraşıqlı və təmtəraqlı geyinmiş yeniyetmə xacələrdən 10 nəfər şahın taxtının arxasında əllərini sinəsinə qoyub heykəl kimi tərpənməz halda dururdu. Onlardan arxada yaşlı xacələr tüfənglə silahlanmış halda dayanırdılar. Xacəbaşının yeri isə şahın sağ tərəfi idi. Xacələrin təlimi ilə məşğul olan saray qulluqçusuna "lələbəy" deyirdilər.

Şahın xəzinələrinin ixtiyarı da xacələrin arasından seçilən *sahib-cəmdə* olurdu. Hətta Şah Süleyman və Şah Sultan Hüseyn zamanında da bəzi mühüm dövlət vəzifələri (nazir, *cəbbədarbaşı*) ağdərili xacələrdən seçilirdi.

Sarayda xacə (xədim) olmayan xidmətçilər (qulamlar) də var idi. Sayları min nəfərə yaxın olan bu xidmətçilər uşaq və yeniyetmə yaşlarından sarayda qulluq göstərir, böyüdükdən sonra müxtəlif vəzifələrə göndərilirdilər. Bu xidmət dövrü onlar üçün saray reqlamenti ilə tanışlıq və təcrübə rolunu oynayırdı. Sarayda onlara "oğul" və ya "xanzadə" deyilirdi, onlar xanəgahda qalırdılar.

Səfəvilər zamanında "xacə" sözü həm də ehtiram və yüksək məqam mənasında işlədilirdi. Adətən, yüksək rütbəli saray məmurlarının, alimlərin, şair və sənətkarlarının adının əvvəlinə "xacə" kəlməsi artırılırdı. Bu söz qətiyyən onların xədim olmalarını və real xacə qismində xidmət etmələrini göstərmirdi, hörmət əlaməti sayılırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.209-213; Nəsrullah Fəlsəfi. Birinci Şah Abbasın həyatı, II, 408-409; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.127-128.*

XACƏBAŞI – Səfəvilər zamanında yüksək saray vəzifələrindən biri. Sarayda qulluq göstərən xidmətçi *xacələrə* başçılıq edirdi. Adətən hər 100 xacəyə bir yüzbaşı təyin olunur, onların hamısına isə xacəbaşı rəhbərlik edirdi. Sarayda qara (zənci) və ağ xacələrin ayrı-ayrı xacəbaşısı vardı. Xacəbaşılar xədim olduqları üçün hərəmxanaya mane-

əsiz şəkildə daxil olurdular; xüsusilə qara xacəbaşının və tabeliyində olan xacələrin əsas xidmət yeri hərəmxana idi.

Ağ xacəbaşı (ona *mehtər* də deyirdilər) *müqərrəb əl-xaqan* (şahın yaxını) təbəqəsinə aid idi, hər yerdə şahı müşayiət edirdi. Həm *divan* məclislərində, həm də şəxsi apartamentdə o, şahın yanında olurdu. Şahın paltarını soyundurub-geyindirmək, zinət əşyalarını saxlamaq onun vəzifəsinə daxil idi. Şah kimə isə pul vermək istəyəndə onun tapşırığı ilə xacəbaşı özündə saxladığı pulu verirdi. Xacəbaşı kəmərindən asdığı qabuq adlı ləl-cavahiratla və qızıl saplarla bəzənmiş çantada iki-üç ağ dəsmal, ətir və ədviyyat gəzdirirdi ki, şaha lazım olanda ona versin. Xacəbaşı şaha ən məhrəm xidmətçi olduğu üçün kimi isə tərifləmək, yaxud gözdən salmaq istəyəndə onun köməyindən istifadə edirdilər. Xüsusilə əgər şah azyaşlı və ya zəif iradəli idisə, asanlıqla xacəbaşının sözlərinin təsiri altına düşürdü.

Əmirlərdən gələn müraciətlər əvvəlcə hərəm *eşikağasıbaşısına* təqdim edilir, o da xacəbaşıya göndərirdi. Xacəbaşı yazıları şaha oxuyub fikrini öyrənir və dərkənar qoyurdu, sonra kağızları eşikağasıbaşıya qaytarırdı, o da əmirləri çağırıb cavabları onlara elan edirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.209-213; Nəsrullah Fəlsəfi. Birinci Şah Abbasın həyatı, II, 408-409; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.319; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.127-128.*

XAN – Səfəvilər dövlətində ali titul. Səfəvilər dövlətinin ilk dövrlərində əmirlər bəy titulunu dasıyırdılar, yüksək təbəqədən olan sərkərdələrə də "bəy" deyə müraciət edilirdi. Bəzi məlumatlara görə, I Şah İsmayıl Xorasan yürüşündə olarkən öz sərkərdələrinə xan və *sultan* titullarını vermişdir. Xan titulu sultandan daha yüksək sayılırdı. Səfəvi mənbələrini araşdırarkən aydın olur ki, bəzi əmirlər öz xidməti karyeralarının əvvəlində sadəcə bəy adlandırılır, sonra sultan, daha sonra xan titulunu qazanırdılar. Bu bölgü bəzən şərti xarakter də daşıyırdı.

bax: **ƏMİR, SULTAN.**

Mənbələr: *Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.303 Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.308-309; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.24.*

XƏLİFƏT əl-XÜLƏFA – Səfəvilər dövlətində mühüm fiqurlardan biri, yüksək məqamlı sufi, Səfəvi şahının təriqət məsələləri üzrə müavini. Bu vəzifəni daşıyan şəxs Səfəvi təriqətinə mənsub *xəlifələrin* başçısı sayılırdı (adı da buradandır). Xəlifət əl-xüləfaya qısaca xüləfa da deyirdilər.

Xəlifət əl-xüləfa böyük bir şəbəkənin rəhbəri idi, hər an hərəkət etməyə hazır olan yüzlərlə xəlifə və onların sözünü eşidən daha on minlərlə təriqət üzvü onun tabeliyinə verilmişdi. Bu qüvvə Səfəvi şahlarının əsas dayağı sayılırdı, sufilər şahı *mürşidi-kamil* bildikləri üçün siyasi tabelikdən əlavə həm də mənəvi

tabeliklə ona bağlı idilər və xəlifət əl-xüləfa bu bağlılığı daim güclü saxlamağa cavabdeh idi. Şah təriqətlə bağlı göstərişlərini xəlifət əl-xüləfaya söyləyir, o, göstərişləri xəlifələrə çatdırır, onlar da sıravi təriqət üzvlərinə ötürürdülər. Beləcə, saraydan çıxan hər bir mənəvi tapşırıq şəbəkə boyunca asanlıqla yayılırdı.

Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, xəlifət əl-xüləfa idarəsi səfəviyyə təriqətinin teokratik təşkilatının qalığı olaraq uzun müddət dövlət idarəçiliyində mühüm yer tutdu. Lakin sonralar bu idarə sarayda mövqeyini itirdi və sufilərin işləri ilə bağlı bir katibliyə çevrildi.

Şeyx Səfiəddin Ərdəbilinin zamanında xəlifət əl-xüləfa onun əmri ilə həftənin cümə axşamı günlərində dərvişləri təkkədəki tövhidxana adlı otağa toplayırdı, onlar uca səslə "la ilahə illəllah" *zikrini* oxuyurdular. O, həmiçinin dərvişlərin yeməyini ayırıb paylayırdı. Tövhidxanada daim iki xəlifə, bir neçə xadim (xidmətçi) və onların başçısı (xadimbaşı) olurdu. Xəlifət əl-xüləfa bölgələrə göndərilən xəlifələrin təyinatına da cavabdeh idi.

İsfahandakı sarayın girişinə yaxın yerdə də tövhidxana vardı və sufilər burada toplanırdılar. Onların bir vəzifəsi də sarayı qorumaq idi, çox vaxt sufilər şikayətə gələn camaatla söhbət edirdilər. Şah saraydan çıxanda onlar şahı dövrəyə alır, qoruyurdular.

I Şah İsmayıl zamanında onun ən yaxın köməkçilərindən biri, məşhur sərkərdə *Xadim bəy Xüləfa* bu vəzifəni yerinə yetirirdi. Talış millətinin yetirməsi olan Xadim bəy eyni zamanda sarayda *divanbəyi* idi, İraq fəth edildikdən sonra həm də Bağdad *bəylərbəyi* təyin olundu. O, digər bir neçə məşhur sərkərdə ilə birlikdə *Çaldıran savaşında* həlak olmuşdur. I Şah Təhmasib dövründə xəlifət əl-xüləfa vəzifəsini *Rumlu* tayfasından *Hüseynqulu xəlifə* daşıyırdı. Onun tabeçiliyi altında Qəzvində 10 min nəfər sufi vardı, bu nüfuzdan ehtiyat edən II Şah İsmayıl onun gözlərini çıxartdırıb kor etmişdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.414-419; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.257-258; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.321-322; Roger Savory. Səfəvilər dövrü İran tarixi barədə araşdırmalar, s.349-358; М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, том IV, стр.37; Süleyman Heydəri. Tövhidxana və Səfəvilər dövründə onun rolu ("Rüşdi-amuzeşi-tarix" dərgisi, il: 4, sayı: 11), s.48-51.*

XƏZİNƏDAR – Səfəvilər dövlətində yüksək vəzifələrdən biri, mühüm *sahibcəm* (maliyyə idarə müdiri). Vəzifənin rəsmi adı "sahibcəmi-xəzineyi-amirə"-dir. O, şaha ən yaxın təbəqəyə *(müqərrəb əl-həzrət)* aid idi. Sarayın xəzinəsi onun ixtiyarına verilmişdi; həm əndərun (sarayın məhrəm hissəsi), həm də birun (sarayın ümumi hissəsi) bölümlərinin xəzinəsinə nəzarət edirdi. Xəzinədar *xacələrin* arasından seçilirdi, ən etibarlı və dürüst xacə xəzinədar olurdu. O, saraydakı hörmətinə görə *xacəbaşı* (xacəsara) ilə bərabər sayılırdı. Xəzinədar xəzinə-

yə əmanət edilmiş pul və əşyaları qoruyur, ödənişlər üçün nəzərdə tutulan məbləğin xəzinədən çıxışına nəzarət edirdi. Xəzinənin kiliddarı ona tabe idi; kiliddar qaradərili zəncilərdən seçilirdi. Xəzinədarın tabeliyində fəaliyyət göstərən işçilər yalnız onun əmrinə itaət edirdilər və digər məmurların qarşısında müstəqilliklərini qoruyurdular.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.245; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.110-111.*

İRƏVAN – qədim Azərbaycan şəhəri. Orta əsr yazılı mənbələrində şəhərin adı Rəvan, İrəvan, İrivan kimi qeyd edilir. XIX əsrin əvvəllərində şəhər rus qoşunları tərəfindən işğal edildikdən sonra adı Erivan formasına salınmış, 1920-ci ildə Ermənistan Respublikası yaradıldıqdan sonra respublikanın paytaxtı Yerevan adlandırılmışdır.

Erməni tarixçiləri hazırda şəhərin tarixini Urartu çarı I Argiştinin dövründə (e.ə. 782-ci ildə) salınmış Erebuni (İrpuni) qalasının adı ilə bağlamağa çalışırlar. Halbuki urartuluların ermənilərə heç bir aidiyyəti olmadığı kimi, yalnız hərbi-istehkam məqsədilə inşa edilmiş Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə məkan, nə də tarix baxımdan əlaqəsi var.

Bu yerlərin XV əsrin əvvəllərində Rəvan torpaqları adlanması barədə bəzi məlumatlar olsa da, tarixi faktlara əsasən, I Şah İsmayıl 1509/10-cu illərdə Zəngi çayının sahilində, strateji əhəmiyyətli məkanda qala tikilməsi barədə sərkərdə *Rəvanqulu xana* göstəriş vermiş, o da 7 il ərzində qalanı tikdirərək adını "Rəvan" qoymuşdur. Sonralar bir çox sözlərdə olduğu kimi, "Rəvan" sözünün də əvvəlinə "i" hərfi artırılaraq "İrəvan" şəklinə düşmüşdür.

İrəvan şəhəri Səfəvi-Osmanlı müharibələri gedişində 14 dəfə əldən-ələ keçmiş, bir neçə dəfə şəhəri tutan Osmanlı qoşunu tərəfindən qarət olunmuşdur. Orta əsrlərdə baş vermiş güclü zəlzələlər də şəhərə çoxlu ziyan vurmuşdur. Səfəvilər dövlətinin tərkibində olduğu zamanlarda İrəvan şəhəri Çuxursəd bəylərbəyliyinin paytaxtı idi. Müxtəlif dövrlərdə *Rumlu, Şamlu, Ustaclu, Qacar* qızılbaş tayfalarının başçıları, eləcə də gürcü və dağıstanlı əmirlər Çuxursəd bəylərbəyi təyin edilmişlər.

İrəvan şəhəri dörd əsas məhəllədən ibarət idi: Qala, Şəhər (Şəhri), Təpəbaşı və Dəmirbulaq. Qala məhəlləsi tarixi Rəvan qalasını əhatə edirdə və İrəvanın ən qədim hissəsi sayılırdı. Şəhri məhəlləsi Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasınadək uzanırdı. Şəhərin mərkəzi bazarı və bütün meydanları, karvansara və hamamların çoxu burada yerləşirdi. Təpəbaşı məhəlləsi Zəngi çayı ilə Şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi, bu iki məhəlləni gözəl bağlar ayırırdı. Dəmirbulaq məhəlləsi Şəhri məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi. Sayca mütləq azlıq təşkil edən ermənilər yalnız şəhərin ətrafındakı bəzi qəsəbələrdə yaşayırdılar.

XVII əsr fransız səyyahı J.Şarden öz sə-

yahətnaməsində qeyd edirdi: "Qala (İrivan qalası) kiçik bir şəhərdən böyükdür. O, oval formadadır, dairəsi dörd min addım olub, təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı Səfəvilər yaşayır".

XIX əsrin əvvəllərində İrəvan şəhərində 7 karvansara, 8 hamam və 15 məscid mövcud idi. Cənubi Qafqazın ən böyük dini ibadət məkanı olan Göy məscid burada yerləşirdi.

Səfəvilər dövlətinin süqutundan sonra İrəvan şəhəri *Nadir şah* tərəfindən Osmanlılardan alındı. Nadir şahın ölümündən sonra bütün Azərbaycan ərazisində olduğu kimi, keçmiş Çuxursəd bəylərbəyliyi də müstəqil xanlığa çevrildi. 1827-ci ildə Rusiya imperiyası İrəvan xanlığının torpaqlarını işğal etdi. Rusiya tabeliyi dövründə İrəvan şəhəri və ətrafındakı müsəlman abidələrinin dağıdılması və ya tarixlərinin dəyişdirilməsi prosesi başlandı. İrəvan şəhərinin texniki B.Mehrabovun 1906/11-ci illərdə tərtib etdiyi plana görə, şəhərdə artıq 15 yox, 8 məscid binası var idi (Təpəbaşı, Şəhər (Zal xan), Sərtip xan, Göy məscid (Hüseynəli xan), Hacı Novruzəli bəy, Qala məscidi (Abbas Mirzə məscidi), Dəmirbulaq, Hacı Cəfər məscidləri).

Rusiya işğalı altında keçən 200 il ərzində qədim Azərbaycan şəhəri İrəvana kənardan ermənilərin köçürülməsi nəticəsində onların say çəkisi süni surətdə artırıldı. XX əsrin əvvəllərində Səfəvilər dövrü tarixi memarlıq abidələrinin əksəriyyəti erməni millətçilərinin əli ilə tamamilə dağıdıldı. Azərbaycanlılara qarşı törədilmiş 1905-06-cı illər kütləvi qırğınları, 1918-20-ci illər soyqırımı, 1948-53-cü illər və 1988-89-cu illər deportasiyaları İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə tamamilə dəyişdirdi.

Mənbələr: *Nazim Mustafa. İrəvan şəhəri, s.5-38; İrəvan xanlığı, s.37-43; E.Qarayev. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu – XIX yüzilliyin ortalarında); İ.Bayramov. Qədim Azərbaycan şəhəri İrəvan, Ankara, 2023; Jan Şardən. Parisdən İsfahana səyahətnamə (fransız dilindən tərcümə edən: V.Aslanov), s.21.*

İSFAHAN – Səfəvilər dövlətinin üçüncü paytaxtı (Təbriz və Qəzvindən sonra). İsfahan qədim yaşayış məskənlərindən biri kimi Midiya, Əhəmənilər, Sasanilər dövründə bölgənin ən iri şəhərlərindən sayılmışdır. Səlcuqlar zamanında bir müddət paytaxt olmuş, sonralar monqollar və Əmir Teymur tərəfindən talan edilmişdir. I Şah İsmayıl 1503-cü ildə Ağqoyunlu hökmdarı Sultan Murada qalib gəldikdən sonra İsfahan şəhəri də Səfəvilər dövlətinin tərkibinə qatıldı.

1598-ci ildə I Şah Abbas paytaxtı *Qəzvindən* İsfahana köçürdü. Mənbələrdə bunun səbəbini fərqli izah etmişlər. Bir nəzəriyyəyə görə, şahın məqsədi paytaxtı imperiyanın mərkəzinə doğru Osmanlı sərhədlərindən uzaq daha təhlükəsiz yerə çəkmək idi. Digər nəzəriyyəyə görə, Qəzvinin təbii su mənbələrindən uzaqda yerləşməsi və iqlimi şahı qane etmirdi. Daha bir məlumata görə, münəccimlər şaha xəbər vermişdilər ki, əgər Qəzvində qalmağa davam etsə, yaxın zamanda öləcək. I Şah Abbasın astroloq-

lara çox inandığını nəzərə alsaq, paytaxtın Qəzvindən köçürülməsində sonuncu səbəbin də mühüm rol oynadığı inandırıcı görünür.

Şah paytaxtı İsfahana köçürmək barədə bir neçə il ərzində düşünmüş, dəfələrlə bura səfər etmiş və İsfahanın coğrafi şəraitini çox bəyənmişdi. Zayəndərud çayının sahilində yerləşən İsfahanın havası, suyu, iqlimi, məhsulları I Şah Abbası tam qane edirdi. O, paytaxtı İsfahana köçürməklə Əmir Teymurun dəhşətli hücumundan sonra hələ də özünə gəlməmiş şəhərə ikinci həyat bəxş etdi.

İsfahanın məskun ərazisi Zayəndərud çayının şimal sahilini əhatə edirdi. I Şah Abbas şəhərin sahəsini çayın cənub sahilinə doğru böyütdü. Bunun üçün *qullarağası Allahverdi xan Undiladzenin* vəsaiti hesabına onun adını daşıyan möhtəşəm körpü tikildi, sonralar Xacu körpüsü də bura əlavə olundu. Çayın şimal sahilində salınmış iri bağın eynisi cənub sahilində də təkrar edildi (Çaharbağ parkı). Bundan əlavə, şəhərdə nəhəng ölçülərə malik *Nəqşicahan meydanı* inşa edildi, onun dörd tərəfində unikal memarlıq quruluşuna malik tikililər – *Şah məscidi, Şeyx Lütfullah məscidi, Ali qapu sarayı* və bazara açılan *Qeysəriyyə alaqapısı* ucaldıldı. I Şah Abbasın göstərişi ilə Zayəndərud çayından şəhərə arxlar və kəhrizlər çəkildi. İsfahanda planlı şəkildə tikinti işləri həyata keçirildi, köhnə binalar təmir olundu. Səfəvilər zamanında İsfahan son dərəcə gözəl və zəngin şəhərə çevrildi. İsfahanı "nisficahan", yəni dünyanın yarısı adlandırır, buranı gəzməyi dünyanın yarısını gəzməklə eyni tuturdular. Qərb səyyahları şəhərin gözəlliyi qarşısında heyranlıqlarını gizlətmirdilər.

İsfahanın cənub hissəsində I Şah Abbasın əmri ilə iri məhəllələr salınmışdı. Təbrizdən köçürülmüş min ailənin məskunlaşdığı məhəllənin adı Abbasabad idi. Səadətabad, Fərəhabad, Yeni Culfa və Xacu məhəlləsi sayəsində şəhərin ərazisi xeyli genişləndi.

İsfahan həm də Səfəvilər dövlətinin elm və sənət mərkəzi rolunu oynayırdı. İsfahan hövzəsində o dövrün ən görkəmli din alimləri fəaliyyət göstərir, təkcə Səfəvilər dövlətinin hər guşəsindən deyil, qonşu ölkələrdən də dini təhsil almaq istəyən tələbələr bura axışırdılar. İsfahan fəlsəfə məktəbinin yetirmələri olan *Mir Damad, Şeyx Bəhai, Molla Rəcəbəli Təbrizi, Fendereski, Molla Sədra* və başqalarının elmi irsi bu gün də tədqiqatçılar tərəfindən diqqətlə araşdırılır. Təbriz miniatür məktəbinin layiqli davamçısı olan İsfahan rəssamlıq məktəbində *Rza Abbasi* və oğlu *Şəfi Abbasi, Müin Müsəvvir, Əlirza Abbasi, Sadiq bəy Əfşar, Məhəmməd Qasim Təbrizi, Məhəmməd Zaman, Əliqulu Cəbbədar* kimi istedadlı nəqqaş və xəttatlar bir-birindən gözəl sənət əsərləri yaradırdılar.

İsfahan şəhəri 1722-ci ildə əfqanların hücumuna məruz qalmış, şəhərdə dəhşətli qırğınlar törədilmişdi. Səfəvilər dövlətinin süqutundan sonra İsfahan əvvəlki əhəmiyyətini və ehtişamını itirdi.

Səfəvilər dövrünün yadigarı olan Nəqşicahan meydanı (Şah meydanı) UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmişdir.

Mənbələr: *Sirus Şəfəqi. Səfəvilər dövründə İsfahanda şəhərsalmanın əsasları ("Fərhəngi-İsfahan" dərgisi, 1379 h.-ş., №15), s.35-51; Hüseyn Yəzdi. Səfəvi paytaxtının İsfahana köçürülməsi: səbəb və nəticələr ("Rüşdiamuzeş" dərgisi, 1385 h.-ş., №23), s.42-45; S.M.Müdərris Mütləq. İsfahan fəlsəfə məktəbi, s.7-13; Roger Savory. Səfəvilər dövrünün İranı (fars dilinə tərcümə: P.Kambizi), s.151-173.*

İSTANBUL SÜLH MÜQAVİLƏSİ (1590) – *Səfəvi-Osmanlı müharibələrinin* ikinci mərhələsinə (1578-1590) son qoymuş sülh müqaviləsi. 12 il davam etmiş hərbi əməliyyatlar gedişində Osmanlı qüvvələri xeyli üstünlük əldə etmişdi. Gürcüstan torpaqları, Şamaxı, Gəncə, Bakı da daxil olmaqla Azərbaycan, hətta Təbriz Osmanlıların əlində idi. Səfəvilər dövlətini siyasi böhran bürümüşdü, qızılbaş əmirləri arasında ciddi rəqabət vardı. Qızılbaş və *tacik* (fars) əmirləri arasındakı münasibət düşmənçilik həddinə çatmışdı. Səfəvi dövlətinin şərq sərhədləri özbəklərin ardıcıl hücumlarına məruz qalırdı, Herat və Məşhəd onların əlində idi.

1587-ci ildə Şah Məhəmməd Xudabəndə hakimiyyətdən devrildi və oğlu Abbas şahlıq taxtına oturdu. I Şah Abbas müvəqqəti sabitlik əldə etmək və güc toplamaq məqsədilə Osmanlı dövləti ilə sülh bağladı. 1590-cı ildə İstanbulda bağlanmış sülh müqaviləsinin şərtlərinə görə, Azərbaycan torpaqları Osmanlı və Səfəvi dövlətləri arasında bölündü. Şirvan, Qarabağ, Təbriz və onun ətraf nahiyələri, Sərab, Marağa və daha qərbdə yerləşən bütün vilayətlər Osmanlı imperiyasına verildi, Qaradağ, Ərdəbil və Talış vilayətləri isə Səfəvilər dövlətinin tərkibində qaldı. Osmanlı hakimiyyət orqanları zəbt olunmuş ərazilərdə yeni inzibati idarə vahidləri yaratdılar, vilayətlərə hakimlər təyin etdilər, Azərbaycanın iri yaşayış məntəqələrində hərbi hissələr yerləşdirdilər, vergi və mükəlləfiyyətlərin növlərini, məbləğini müəyyənləşdirdilər. Səfəvilər dövlətində əhli-sünnə inancının və müqəddəslərinin təhqir edilməsi qadağan olundu.

1590-cı il İstanbul sülh müqaviləsi Səfəvilər dövləti üçün çox əlverişsiz olsa da, I Şah Abbasa öz gücünü toplamaq və növbəti Səfəvi-Osmanlı müharibəsinə hazırlaşmaq imkanı verdi. Bunun sayəsində Səfəvilər dövləti aldığı zərbələrdən özünə gəldi və itirdiyi torpaqların hamısını təqribən 30 ildən sonra qaytardı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.193-195; Фарах Адиль кызы Гусейн. Османо-Сефевидская война 1578-1590 гг., стр. 92-93; Azərbaycan tarixi (7 cilddə), III, 194; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.399.*

İSTANBUL SÜLH MÜQAVİLƏSİ (1612) – *Səfəvi-Osmanlı müharibələrinin* üçüncü mərhələsinə (1603-1612) son qoymuş sülh müqaviləsi. I Şah Abbas hakimiyyətdə möhkəmləndikdən sonra 1578-90-cı illər müharibəsində itirilmiş torpaqları geri qaytarmaq üçün Osmanlı dövləti ilə yeni müharibəyə başladı. Ötən illər ərzində Səfəvilər dövləti gücləndiyi halda, Osmanlı dövləti ciddi siyasi və

hərbi böhranlar yaşayırdı. Sultan I Əhmədin Avstriyada apardığı hərbi əməliyyatlar əvvəlki qədər uğurlu deyildi, ölkəni cəlali üsyanları bürümüşdü.

I Şah Abbas 1603-07-ci illər ərzində Təbriz, Gəncə, İrəvan, Şamaxı, Culfa, Naxçıvan şəhərlərini və Şərqi Gürcüstanı osmanlılardan geri aldı, Bakı və Dərbənd əhalisi bu şəhərlərdəki Osmanlı qarnizonunu qovdu. Bir neçə il ərzində Səfəvilər dövlətinin işğal altında olan əraziləri, o cümlədən Azərbaycan torpaqları tamamilə azad edildi. Qarşı tərəf məğlubiyyətlə barışmadığı üçün üstünlüyü ələ keçirməyə uğursuz cəhdlər etsə də, nəhayət, 1612-ci ildə mövcud vəziyyətlə barışmalı oldu. İstanbul şəhərində bağlanmış müqavilə bundan 22 il əvvəl elə bu şəhərdə imzalanmış əvvəlki müqavilənin bütün şərtlərinin üzərindən xətt çəkdi. Bu müqavilə ozamankı Osmanlı sədri-əzəminin (baş vəzir) adına uyğun olaraq Nasux paşa müqaviləsi kimi tarixə düşmüşdür. (Bundan əvvəlki 1590-cı il İstanbul sülh müqaviləsi də Osmanlı mənbələrində ozamankı Osmanlı qüvvələrinin baş komandanının adı ilə "Fərhad paşa müqaviləsi" kimi qeyd edilir).

1612-ci il İstanbul sülh müqaviləsində 1555-ci il *Amasya müqaviləsinin* şərtləri və o zaman təsbit edilmiş sərhəd xətləri əsas götürüldü. Müqavilənin şərtlərindən biri də bu idi ki, Səfəvilər hər il Osmanlı dövlətinə 200 tay ipək parça verməli idilər. Növbəti il tərəflər arasında yenidən mübahisə yarandı, bununla da növbəti Səfəvi-Osmanlı müharibəsinə yol açıldı.

Mənbələr: *Kılıç, R. Osmanlılar ile Safevîler Arasında Nasuh Paşa (1612) ve Serav (1618) antlaşmaları. Niğde Üniversitesi Eğitim Fakültesi Eğitim ve Bilim Dergisi, s.2, Niğde, ss.124-134; Ö.Küpeli. Osmanli-Safevi münasebetleri (1612-1639), Doktora tezi, s.46; Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti. 1501-1736-cı illər, s.91-92; Azərbaycan tarixi (7 cilddə), III, 232-238; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.403-405.*

İSTANBUL SÜLH MÜQAVİLƏSİ

(1736) – Səfəvi-Osmanlı müharibələrinin sonuncu mərhələsinin yekunları əsasında *Nadir xan Əfşarla* Osmanlı dövləti arasında bağlanmış sülh müqaviləsi. 1730-cu ildə Nadir xanın əfqanlarla döyüşə başının qarışmasından istifadə edən Səfəvi hökmdarı *II Şah Təhmasib* Osmanlılarla müharibəyə başlayıb məğlub oldu və 1732-ci ildə Kirmanşahda ağır şərtlər altında sülh müqaviləsini imzaladı. Lakin Nadir xan həmin müqavilənin şərtlərini tanımaqdan imtina etdi və 1732-ci ilin sonunda döyüşlər yenidən şiddətləndi. 1733-cü ilin dekabrında hələ Osmanlıların əlində olan Bağdadda barışıq əldə edildi. Bu barışığa görə, Osmanlı dövləti son 10 il ərzində tutduğu bütün torpaqları geri qaytarmalı, 1639-cu il *Qəsri-Şirin müqaviləsində* nəzərdə tutulmuş sərhəd xətləri bərpa edilməli idi. Lakin Osmanlı sultanı Bağdad anlaşmasını qəbul etməkdən boyun qaçırdı. Cavab olaraq Nadir xan hərbi əməliyyatları daha artıq şiddətlə davam etdirdi. Nəhayət, *III Şah Abbası* taxtdan salaraq özünü şah elan etmiş Nadir 1736-cı il oktyabrın 17-də Osmanlı dövləti ilə yeni müqaviləyə imza atdı. Os-

manlı dövləti bundan sonra Səfəvi hakimiyyəti altında olan torpaqlara müdaxilə etmək fikrindən həmişəlik əl çəkdi və bir daha müharibənin təşəbbüskarı kimi çıxış etmədi.

Mənbələr: *Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.488-493; R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda), s.269; Azərbaycan tarixi (7 cilddə), III, 346-348.*

KƏRKÜK DÖYÜŞÜ (1733) – 1733-cü ilin oktyabrında hələ özünü şah elan etməmiş, Səfəvilər dövlətinin sərkərdəsi kimi fəaliyyət göstərən *Nadir xan Əfşarla* Osmanlı ordusu arasında baş vermiş və Səfəvi qoşununun qələbəsi ilə başa çatmış döyüş.

1733-cü ilin iyulunda İraqın şimal hissəsində baş vermiş döyüşdə *(Samirra və ya Ducum savaşı)* Nadir xan Osmanlı dövlətinin keçmiş sədri-əzəmi Topal Osman paşaya məğlub olmuşdu. Nadir xan bu uğursuzluğun əvəzini çıxmaq üçün Osmanlı sərkərdəsi ilə ikinci dəfə savaş meydanında qarşılaşmaq qərarına gəldi. Bu dəfə döyüş məkanı olaraq Kərkük ətrafı seçildi. Topal Osman paşa Məmiş paşa adlı sərkərdənin başçılığı altında 12 min nəfərlik avanqard bölüyünü irəli göndərmişdi, özü də digər istiqamətdən ordunun əsas hissəsi ilə hərəkət edirdi. Nadir xan Məmiş paşanı aldadaraq tələyə saldı və onun dəstəsini tamamilə məhv etdi. Bundan sonra hər iki ordunun əsas qüvvələri döyüş meydanında üz-üzə gəldi. Nadir xan piyadaları iki cərgədə düzmüşdü, birinci cərgə tüfənglərdən atəş açdıqdan sonra arxada durmuş ikinci cərgə atəşi davam etdirir, bununla da ilk sıradakı döyüşçülərə silahları doldurmaq üçün vaxt qazandırırdı. Beləliklə, Osmanlı ordusu Səfəvi atıcılarının sərrast atəşi altında qaldı. İki saata yaxın davam edən atışmada Osmanlı tərəfdən xeyli yeniçəri həlak oldu. Bu manevrlə Osman paşanın başını qatan Nadir xan sağ və sol cinahlardan 15 min süvarini düşmən üzərinə göndərdi. Cinahlardan mərkəzə doğru sıxışdırılan, burada isə gülləbaran altına düşən Osmanlı qoşununun sıraları dağıldı. 20 min döyüşçünü və bütün artilleriyanı itirən Topal Osman paşa güllə ilə vuruldu, onun başını kəsib Nadir xana təqdim etdilər. Nadir xan yeganə məğlubiyyətinin səbəbkarına ehtiram əlaməti olaraq başını bədəni ilə birlikdə Bağdadda hörmətlə dəfn etməyi tapşırdı.

Kərkük döyüşü qələbə ilə başa çatsa da, Nadir xan dövlətin daxilində güclü üsyan qalxdığını eşidib geri qayıtmalı oldu. Beləliklə, o, Bağdadı fəth edə bilmədi. Bununla belə, Kərkük qələbəsi və ondan sonra əldə edilmiş digər hərbi uğurlar Nadir xana imkan yaratdı ki, 1736-cı ildə əlverişli şərtlər daxilində İstanbul sülh müqaviləsini imzalamağa Osmanlı dövlətini vadar etsin.

Kərkük savaşını bəzən tarixi mənbələrdə Ağdərbənd və ya Leylan döyüşü adı altında təqdim etmişlər.

Mənbələr: *L.Lockhart. Nadir şah (farsca tərcümə: Müşfiq Həmədani), s.97-106; Mehman Süleymanov. Nadir şah, s.230-252; Enver Cebeci. Topal Osman Paşa ve Osmanl-İran Savaşlarındakı Rolü (1664-1733) (Yüksek Lisans Tezi), s.60-75.*

KİRMANŞAH SÜLH MÜQAVİLƏSİ (1732) – Səfəvi-Osmanlı müharibələri gedişində *II Şah Təhmasiblə* Osmanlı dövləti arasında bağlanmış sülh müqaviləsi. 1730-cu ildə Səfəvi hökmdarı II Şah Təhmasib *Nadir xanın* əfqanlarla döyüşməsindən istifadə edərək onun təsirindən qurulrmaq və təşəbbüsü ələ almaq məqsədilə Osmanlı dövlətinə qarşı yeni müharibə mərhələsini başlatdı. Lakin hərbi əməliyyatlar Səfəvi ordusunun məğlubiyyəti ilə başa çatdı. II Şah Təhmasib 1732-ci il yanvarın 10-da Kirmanşahda ağır şərtlər altında Osmanlı dövləti ilə sülh müqaviləsini bağladı. Müqavilənin şərtlərinə görə, Araz çayının cənub və şərq tərəfindəki torpaqlar, Təbriz, İrəvan, Gəncə, Şirvan, Naxçıvan, Tiflis, Kartli, Kaxeti, Dağıstanın böyük hissəsi Osmanlı dövlətinin ixtiyarına verildi, bununla da Nadir xanın əldə etdiyi bütün uğurlar heçə endirildi. Yürüşdən qayıdan Nadir xan, təbii ki, bu müqavilənin şərtlərini tanımaqdan imtina etdi. II Şah Təhmasib taxtdan salınaraq azyaşlı *III Abbas* şah elan edildi və Nadir xan Səfəvilər dövlətini şahın naibi olaraq idarə etməyə başladı. 1732-ci ilin sonunda başlamış hərbi əməliyyatlar 1736-cı ildə Nadir şahın qələbəsi ilə başa çatdı və İstanbulda yeni müqavilə imzalandı.

bax: **İSTANBUL SÜLH MÜQAVİLƏSİ** (1736).

Mənbələr: *Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.488-493; R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda), s.269; Azərbaycan tarixi (7 cilddə), III, 346-348.*

QABAQ OYUNU – Səfəvilər zamanında keçirilən qədim türk oyunu. Oğuz, Parfiya, Məmlük, Osmanlı dövlətlərində geniş yayılmışdı. Qabaq oyununda cəmiyyətin bütün təbəqələrindən olan şəxslər iştirak edirdi. Səfəvilər zamanında bu oyun adətən orduda və ya saray əyanları arasında keçirilirdi. Qabaq oyununun əsas məqsədi ox atmaq bacarığını inkişaf etdirmək, cəmiyyəti və ordunu düşmən hücumuna qarşı müdafiəyə daim hazır saxlamaq idi. Cəmiyyət üzvlərini bir-birinə yaxınlaşdırmaq və ünsiyyət yaratmaq baxımından da bu tədbir mühüm əhəmiyyət kəsb edirdi. Səfəvilər zamanında qabaq oyunu əsasən əyləncə xarakteri daşımışdır.

bax: **SƏFƏVİLƏR DÖVRÜNÜN OYUN VƏ ƏYLƏNCƏLƏRİ.**

Mənbələr: *Eralp Erdoğan. Safevilerde Okçuluk ve Kabak Oyunu'na Genel Bir Bakış ("Türk Tarihine Dair Yazilar II"), s.741-745; Mutlu Özgen. Osmanlı Şenliklerinde Bir Gösteri Sporu: Kabak Oyunu ("Acta Turcica" Çevrimiçi Tematik Türkoloji Dergisi, II/1, Ocak 2010); İbrahim Yıldıran. Osmanlılarda Atlı Hedef Okçuluğu Kabak Oyunu ("Anadolu Uygarlıklarında Spor"), s.158-159; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (hicri 940-cı ilin hadisələri), s.498.*

QAPUÇU – Səfəvilər zamanında saray qulluqçusu. Adından da göründüyü kimi, onlar saray qapılarını qoruyurdular. Səfəvilər zamanında İsfahandakı şah sarayının quruluşu və bəzi qapıların yeri mənbələrdəki yazılar və Qərb səyyahları tərəfindən çəkilmiş rəsmlər sayəsində təsbit edilmişdir. *Nəqşicahan meydanının* qərb tərəfində yerləşən *Ali qapu*

sarayın baş darvazası sayılırdı; saraya rəsmi giriş buradan idi. Bundan əlavə, daha 5 qapının olduğu məlumdur. Onlardan biri divanxana işçilərinin ümumi girişi üçün nəzərdə tutulmuşdu. *Xəlvətxana* adlı xüsusi apartamentə giriş yalnız icazəsi olanlar üçün açıq idi. Daha bir qapı mətbəxə məxsus idi. Qapuçular bütün qapıları və Nəqşicahan meydanının qərb perimetri boyunca yerləşən divarı qoruyurdular. Onlar iki qismə bölünmüşdülər. Divan qapuçuları divanxana işçilərinin daxil olduğu ümumi girişi, sarayın daxili həyətinin perimetrini və mətbəx qapısını mühafizə edirdilər. Xəlvətxana qapısına, daxili apartamentlərə və hərəmə gedən cığıra nəzarət hərəm qapuçularına tapşırılmışdı.
Qapıçıların işinə *qapuçubaşılar* rəhbərlik edirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.230, 233; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.121; Təzkirət əl-müluk (nəşrə hazırlayan: M.Dəbirsəyaqi), s.28; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.319; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (II kitab), s.2066.*

QAPUÇUBAŞI – Səfəvi sarayında xidməti vəzifə. Sarayın qapılarını qoruyan *qapuçulara* başçılıq edirdi. Qapuçular iki hissəyə bölündüyü üçün onlara ayrı-ayrı iki əmir rəhbərlik edirdi: divan qapuçubaşısı və xəlvət qapuçubaşısı. Qapuçubaşılar *müqərrəb əl-xaqan* təbəqəsindən daha aşağı olan *müqərrəb əl-həzrət* (həzrətin yaxını) təbəqəsinə aid idilər.
Sarayın bütün qapılarından giriş-çıxışa nəzarət etmək qapuçubaşıların səlahiyyət dairəsində idi. Onlar da öz növbəsində *eşikağasıbaşılara* tabe idilər (divan və hərəm eşikağasıbaşıları). Qapuçuların və hətta qapuçubaşıların maaş cədvəlləri eşikağasıbaşılar tərəfindən təsdiq edilirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.230, 233; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.121; Təzkirət əl-müluk (nəşrə hazırlayan: M.Dəbirsəyaqi), s.28; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.319; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (II kitab), s.2066.*

QAYÇIDARBAŞI – Səfəvilər dövlətində yüksək vəzifələrdən biri, mühüm *sahib-cəm* (maliyyə idarə müdiri). Sarayda bu sahədə iki qurum fəaliyyət göstərirdi: xassə (xüsusi) qayçıxana və əmirlərə aid qayçıxana. Bu qurumlara qayçıdarbaşılar rəhbərlik edirdi. Qayçıxanalar dərzi emalatxanalarından ibarət idi. Xassə qayçıxanada şah və hakim sülalə üzvləri üçün geyimlər tikilirdi, onun başçısı şaha ən yaxın təbəqədən *(müqərrəb əl-həzrət)* sayılırdı. Burada çalışan dərzilər ən bahalı parçalardan ləlcavahiratla işlənmiş qəba və taclar tikirdilər. İkinci qayçıxanada nisbətən ucuz materiallardan əmirlər üçün libaslar hazırlanırdı. *Qızılbaş tacları* da qayçıxanaların məhsulu idi.

Müasirlərinin verdiyi məlumata görə, I Şah Təhmasib gün ərzində dəfələrlə libasını dəyişirdi, sonra onun geyindiyi libaslar təbərrük kimi əmirlərə çox baha qiymətə satılırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.246-248; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.126-127.*

QAZIƏSGƏR – Səfəvilər dövlətində yüksək hərbi vəzifələrdən biri. Səfəvilər dövlətinin ilk dövrlərində qazıəsgər *divanbəyinin* keşikxanasında (sarayında) oturur və ordu ilə bağlı şəriət məsələlərində fətva verirdi. Daha sonralar *sədr* vəzifəsinin təsis edilməsi ilə bağlı bu vəzifə divanbəyiyə verildi və qazıəsgərin keşikxanaya gəlişinə son qoyuldu. Bu arada qazıəsgərin vəzifəsi sırf bürokratik mahiyyət daşıyırdı, o, hərbçilərin maaş cədvəllərini təsdiq etməli idi. Səfəvi hakimiyyətinin sonlarında qazıəsgər yalnız hərbçilərin məhkəmə işlərinə baxırdı. Bu mənada Səfəvilər dövlətində qazıəsgərin səlahiyyətləri və mövqeyi Osmanlı dövlətindəkinə nisbətən daha aşağı dərəcədə idi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.411-412; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.161.*

QAZİ (əslində ğazi) – ğəzvədə, yəni döyüşdə iştirak edən şəxs. İslam tarixində din adına aparılmış davalarda həlak olanlara şəhid, diri qalanlara qazi demişlər. Qazilik mərtəbəsi çox ucadır. Səfəvi ordusundakı döyüşçülər də qazi adlanırdılar.

Şah İsmayıl Xətainin divanında "ğazi" sözünə dəfələrlə rast gəlinir. Böyük sərkərdə qazi döyüşçüləri ilə fəxr edir, onları ən gözəl ifadələrlə tərifləyirdi:

Quşansa qazilər seyfü silahi,
Münafiq caninə xovfü xətərdir.
Münafiq ləşgəri bir ğazi görsə,
Qoyun ki qurd toxur, ondan bətərdir.
Cahangir ğazilər meydanə girsə,
Xəvariclər əyaqda payisərdir.
Çü rəhmət yağmuri irdi zəminə,
Ki hər bir ğazinin yüz nami vardır.
Qızıl ələm, qızıl bayraq, qızıl tac,
Geyinsə ğazilər, ol gün həzərdir.
Ləşgərim, ğazilərim, sufilərim, pirlərim,
Can ilə baş bu yolda mənə inkar degil.

Qazilik elə bir şərəfdir ki, şah da özünü qazi adlandırmaqdan fəxr duyurdu:

Biz imam qullarıyüz sadiqanə,
Şəhidlik, ğazilik nişanımızdır.

(Xətai)

Qızılbaşlıqda qazi anlayışı təkcə müharibələrdə iştirak etməklə məhdudlaşmırdı, daha dərin və mistik mənaya malik idi. Belə ki, *təriqət* yolunda səy göstərən hər kəs öz *nəfsi* ilə cihad edir *(cihadi-əkbər)*, bununla da qazi olur.

Mənbələr: *Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 129-131, 134 və 327.*

QƏSRİ-ŞİRİN SÜLH MÜQAVİLƏSİ (1639) – *Səfəvi-Osmanlı müharibələrinin* beşinci mərhələsinin (1623-39) sonunda bağlanmış sülh müqaviləsi. I Şah

Abbasın apardığı uğurlu islahatlar nəticəsində Səfəvilər dövləti getdikcə güclənir, bunun əksinə olaraq Osmanlı dövlətini daxili böhran əldən salırdı. Cəmi 6 il ərzində Osmanlı taxtında 3 sultan bir-birini əvəz etdi (I Mustafa, II Osman, daha sonra yenə I Mustafa və IV Murad). 1623-cü ildə 11 yaşlı IV Murad hakimiyyətə gətirildi.

1623-cü ildə osmanlıların əlində olan Bağdadda Bəkir Subaşı özünü vali elan etdi, amma onun hakimiyyət hüququ sultan tərəfindən tanınmadı. Onu cəzalandırmaq üçün İstanbuldan Bağdada ordu göndərildiyini eşidən Bəkir Subaşı I Şah Abbasdan yardım istədi. Şah Abbas Səfiqulu xanın başçılığı altında Bağdada qoşun yeritdi. Qısa müddət ərzində Bağdad, Nəcəf, Kərbəla, Mosul, Kərkük, Bəsrə şəhərləri Səfəvilərin əlinə keçdi. Qoşun Anadolu torpaqlarına adlayıb Mardinədək irəlilədi. Osmanlı ordusu Bağdadı uzun müddət mühasirədə saxlasa da, tuta bilmədi. Osmanlı dövləti ərazisində başlamış üsyanlar hərbi gücü İraqda toplamağa mane olurdu. Beləliklə, I Şah Abbasın vəfatınadək (1629) Səfəvilər dövləti Gürcüstan və İraq istiqamətində əldə etdiyi uğurları qoruyub saxlaya bildi.

I Şah Səfinin zamanında baş vermiş döyüşlərdə gah bu, gah da o biri tərəf uğur qazanırdı, amma Səfəvilər müəyyən üstünlüklərə malik idilər.

1638-ci ildə gənc sultan IV Murad çoxsaylı Osmanlı ordusunun başında İraqa yürüş etdi. Səfəvi qarnizonu Bağdadı uzun müddət qoruya bilsə də, axırda ərzaq çatışmazlığı üzündən şəhər təslim edildi. Osmanlılar Bağdadın şiə əhalisinin bir qismini başqa yerlərə köçürüb, yerinə Anadoludan əhli-sünnə camaatı yerləşdirdilər.

1639-cu il may ayının 17-də Qəsri-Şirində tərəflər arasında müqavilə imzalandı. Danışıqları Osmanlı dövləti tərəfdən sədri-əzəm sərdar Kamankeş Qara Mustafa, Səfəvilər tərəfdən Saru xanla Məhəmmədqulu xan aparırdılar. Müqavilənin şərtlərinə görə, Bağdad, Bəsrə, Şəhrizur da daxil olmaqla İraqi-Ərəb torpaqları Osmanlı dövlətinə verildi. İraq ərazisinin bir qismi, *İrəvan* şəhəri Səfəvilərin, Mesxeti bölgəsi Osmanlıların ixtiyarında qaldı. Sərhəd zonasındakı Van, Maku, Qars ətrafında yerləşən bəzi qalalar tərəflərdən heç birinin orada güclənməməsi üçün dağıdıldı.

Son araşdırmalar nəticəsində sübut edilmişdir ki, I Şah Səfi və Sultan IV Murad tərəfindən imzalanmış Qəsri-Şirin müqaviləsinin mətni Azərbaycan dilində tərtib edilmişdi.

Qəsri-Şirin müqaviləsi Səfəvi və Osmanlı dövlətləri arasında bağlanmış müqavilələr arasında ən uzunömürlü sənəd sayılır, onun şərtlərinə təqribən 85 il ərzində riayət edilmişdir.

Qəsri-Şirin müqaviləsini mənbələrdə bəzən Zəhab müqaviləsi də adlandırırlar.

Mənbələr: *Remzi Kılıç. Osmanlı-İran Arasında Kasr-i Şirin Barış Antlaşması (1639), Fırat Universitesi İlahiyat Fakültesi Dergisi, 2000, Sayı 5, s.265-283; Azərbaycan tarixi (7 cilddə), III, 241-242; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.406; Özer Küpeli. Osmanli–Safevi münasebetleri (1612-1639), Doktora tezi, s.196-199; Nizami Süleymanov. Azər-*

baycan Səfəvi dövləti. 1501-1736-cı illər, s.97; İsgəndər bəy Türkman Münşi və Məhəmməd Yusif Müvərrix. Zeyli-Tarixi-aləmarayi-Abbasi, s.219-223.

QƏZVİN – Səfəvilər dövlətinin ikinci paytaxtı. I Şah Təhmasibin əmri ilə 1555-ci ildə paytaxtın Təbrizdən Qəzvinə, 1587-ci ildə isə I Şah Abbasın əmri ilə Qəzvindən İsfahana köçürülməsi arasındakı 32 il ərzində Qəzvin Səfəvilər dövlətinin mərkəz şəhəri funksiyasını yerinə yetirmişdir. 1555-ci ildə Osmanlı imperiyası ilə bağlanmış *Amasya sülh müqaviləsindən* sonra I Şah Təhmasib yaranmış nisbi sakitlikdən istifadə edərək paytaxtı Osmanlı sərhədindən daha uzağa və ölkənin içərilərinə doğru köçürdü ki, buradan dövləti idarə etmək daha asan olsun. Ondan sonra hakimiyyətdə olmuş II Şah İsmayıl və Şah Məhəmməd Xudabəndə dövründə, eləcə də I Şah Abbasın hakimiyyətinin ilk 10 ili ərzində Qəzvin şəhəri Səfəvilər dövlətinin paytaxtı olmuşdur. Səfəvilər zamanında Qəzvinin fəxri adı "dar əs-səltənə" (səltənət evi, yəni dövlətin paytaxtı) idi. Səfəvilər dövlətinin ilk onilliklərində Qəzvin şəhəri inzibati bölgü baxımından müstəqil *bəylərbəylik* sayılırdı, sonralar bura xassə torpaqlar (yəni şahın ixtiyarında olan səltənət mülkü) sırasına daxil edildi. Şəhəri şah tərəfindən təyin olunan darğa idarə edirdi.

Qəzvin bölgədə ən qədim şəhərlərdən biri sayılırdı və Səfəvilərdən əvvəl də güclü inkişaf dövrü yaşamışdı. I Şah Təhmasibin paytaxtı Qəzvinə köçürməsi nəticəsində şəhər daha da inkişaf edib çiçəkləndi. Bununla belə, qeyd etməliyik ki, Qəzvin özündən əvvəlki paytaxt şəhəri Təbriz qədər məşhur olmamış və onun yerini tuta bilməmişdir. I Şah Təhmasibin zamanında Qəzvində xeyli abadlıq işləri aparılmış, bir neçə məşhur memarlıq abidəsi, o cümlədən *Qəzvin Çehelsütun sarayı* tikilmiş, Cənnət bağı salınmışdı. I Şah İsmayılın zamanında tikintisinə başlanmış Şah məscidi də şəhərə xüsusi yaraşıq verirdi.

XVII əsrin əvvəllərində Səfəvilər dövlətinə səfər etmiş italyan səyyah-diplomatı Pietro Della Valle öz xatirələrində yazırdı ki, Qəzvin iri şəhərdir və Azərbaycan əyalətinin böyük hissəsinin mərkəzi hesab olunur, amma şəhərin ətrafında qala divarları yoxdur. Qəzvinin geniş şəhər meydanı və onun girişində yerləşən böyük baştağ (Şah darvazası) səyyahların diqqətini xüsusi cəlb edirdi. Ölçüləri 225x80 metr olan meydanda I Şah Təhmasibin zamanında çövkən oyunları təşkil olunurdu, meydanın iki tərəfində yerləşən saray binalarından oyunlara tamaşa edirdilər. Şah sarayının qarşısındakı geniş həyət ağaclarla dolu idi, səhərlər şahın saraydan çıxmasını gözləyən əyanlar bu ağacların kölgəsində daldalanırdılar. Ətrafdakı binalarda yeməkxanalar və gözətçi otaqları yerləşirdi. Qəzvində dövlət adamları və saray əyanları özləri üçün yaraşıqlı imarətlər inşa etdirmişdilər.

Qəzvin əhalisi əsasən ticarətlə məşğul olurdu, şəhərdəki bazar və dükanlar hər cür ərzaq və geyimlə dolu idi. Şəhərdə 12 min ev vardı, əhalinin sayı 100 min nəfərə çatırdı. Qəzvinin elmi həyatında

mühüm rol oynamış mədrəsələr arasında Xəlifə Sultan mədrəsəsi daha çox seçilirdi.

Qəzvin dağların arasında yerləşdiyi və təbii su ehtiyatları az olduğu üçün şəhərin havası bürkülü və ağır idi. Gündüzlər hava çox isti, axşamlar isə əksinə, soyuq olurdu. Amma şəhər ətrafında su bol olduğundan hər yer yaşıllıqla örtülmüşdü. Səfəvi şahları qış fəslini adətən Qəzvində keçirir, yayda isə şəhər ətrafında, Elbrus dağının ətəklərində yerləşən yaylaqlarda qalırdılar.

I Şah Abbasın paytaxtı Qəzvindən İsfahana köçürməsinin səbəbi bəlkə də şəhərin əlverişsiz iqlimi ilə bağlı olmuşdur. Bəzi məlumatlara görə, münəccimlər ona xəbər vermişdilər ki, əgər Qəzvində qalsa, burada onun başına ağır fəlakətlər gələcək.

Mənbələr: *Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.93-99; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.206-208; Pərviz Vərcavənd. Qəzvinin tarix və mədəniyyət siması, s.182-232.*

QOÇBAŞI – qədim hərb-istehkam aləti (digər adı "taran"). Qala qapılarını aralamaq və divarları dağıtmaq üçün istifadə edilirdi. Hədəfə vurulan ucuna adətən dəmir qoç kəlləsi fiquru bərkidilmiş uzun və ağır taxta tirdən ibarət idi (adı da buradandır). Qoçbaşının uzunluğu 4-5 m, diametri 30-40 sm olurdu. Qalaya hücum edən döyüşçülər əllərində qoçbaşını tutaraq irəli-geri hərəkətlər etməklə onu qapıya çırpır, bununla da bağlı darvazanı qırıb açmağa çalışırdılar. Bəzən qoçbaşını təkərlər üzərində hərəkət edən dayaqdan iplərlə asırdılar. Qoçbaşının üstü qalxanlarla örtülürdü ki, mexanizmi hərəkətə gətirən döyüşçülər qala divarlarından atılan ox və daşlardan qoruna bilsinlər. Qoçbaşıdan qədim dövrlərdə və orta əsrlərdə, demək olar ki, bütün ölkələrdə istifadə edilirdi. O cümlədən Səfəvilər zamanında qala mühasirəsi və hücumu zamanı digər hərbi mexanizmlərlə bir sırada qoçbaşılar ən çox istifadə edilən alətlərdən sayılırdı. Qoçbaşıları öküz və ya at arabalarında (ərradə) daşıyırdılar. Odlu silahın (topun) tətbiqindən sonra qoçbaşılar tədricən istifadədən çıxmışdır.

Mənbələr: *T.Nejat Eralp. Tarih Boyunca Türk Toplumunda Silah Kavrami ve Osmanlı İmparatorluğunda Kullanılan Silahlar, s.49-50; Azərbaycan dilinin izahlı lüğəti, III, 169; К.Носов. Осадная техника античности и средневековья, стр. 88-110.*

QOÇHİSAR DÖYÜŞÜ (1516) – *Səfəvi-Osmanlı müharibələrinin* birinci mərhələsinin əvvəllərində baş vermiş və Osmanlı qüvvələrinin qələbəsi ilə nəticələnmiş döyüş.

Çaldıran savaşından (1514) sonra I Şah İsmayıl Səfəvilər dövlətinin tərkibində olan Diyarbəkir əhalisinin Osmanlı tabeliyinə keçmək cəhdlərindən xəbər tutdu və dərhal şəhəri geri almaq məqsədilə *Qara xan Ustaclunun* başçılığı altında oraya qoşun göndərdi. Qara xan Çaldıran döyüşündə həlak olmuş Diyarbəkir *bəylərbəyi Məhəmməd xan Ustac-*

lunun qardaşı idi. Öz qardaşının yerinə Diyarbəkir bəylərbəyliyinə təyinat almış Qara xan şəhərdə möhkəmləndi. O, tabeliyindəki 4 min nəfərlik dəstə ilə 10 minlik Osmanlı qoşununu darmadağın etdi. I Sultan Səlim Qara xana təslim olmağı təklif etsə də, ondan bu cavabı aldı: "Biz İsmayıl Bahadurun nökəriyik, sufiyik, bu ocağın bəndəsiyik. *Sufini* və *müridi* öz *mürşidi-kamilindən* döndərmək mümkün deyil". Diyarbəkrin kürd əhalisi qala divarının bir hissəsini söküb Osmanlıları içəri salmaq istədi, amma onların bu cəhdinin qarşısı alındı. Sultanın göndərdiyi 30 minlik Osmanlı ordusunun sərkərdəsi Bıyıklı Mehmet paşa (Səfəvi mənbələrində Bığlı Mustafa bəy) Diyarbəkri çətinliklə qızılbaşların əlindən aldı. Qara xan Mardin qalasına çəkildi.

1516-cı il may ayının 25-də Mardinin cənubundakı Qoçhisar məntəqəsində Osmanlı və qızılbaş qoşunları toqquşdu. Bu yerlər Dədə Qarkın düzənliyi adlandığı üçün döyüş bu adla da tanınır. Osmanlı yeniçərilərinin tüfəngdən açdıqları atəş nəticəsində xeyli qızılbaş döyüşçüsü, o cümlədən Qara xan Ustaclu həlak oldu. Səfəvi ordusu bu döyüşdə məğlubiyyətə uğradı. Qara xanın qardaşı Süleyman xan Mardin qalasını bir ilə yaxın qoruya bilsə də, sonda qala Osmanlıların əlinə keçdi.

Qoçhisar döyüşü nəticəsində şimaldan Harput və Bidlislə, cənubdan isə Rəqqə və Mosulla sərhədlənən böyük bir ərazi Osmanlı dövlətinin tərkibinə qatıldı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.59; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.259-260; Aləmarayi-Səfəvi, s.513-527; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.379.*

QORÇUBAŞI (QORÇİBAŞI) – Səfəvilər dövlətində ən yüksək hərbi vəzifələrdən biri. Şahın şəxsi qvardiyası sayılan xüsusi təyinatlı elit qorçu birliyinin başçısı idi. Tarixi mənbələrdən məlum olur ki, Səfəvi ordusunda qorçubaşı vəzifəsi I Şah İsmayılın zamanında təsis edilmişdir. İlk qorçubaşı I Şah İsmayılın *dədəsi* (təriqət məsələləri üzrə tərbiyəçisi) *Abdal Dədə bəy Zülqədər* idi. Vəzifədən azad edildikdən sonra (1511) onun yerini *Saru Pirə bəy Ustaclu* tutdu. Saru Pirə bəyin tabeliyindəki 5000 nəfərlik qorçu dəstəsi *Çaldıran savaşında* qoşunun *çərxçi* (avanqard) bölüyünü təşkil edirdi, bu döyüşdə Saru Pirə bəy igidliklə vuruşub həlak oldu. I Şah İsmayıl zamanında Yegan bəy Təkəlü, I Şah Təhmasibin hakimiyyətinin əvvəlindəki qarışıqlıq zamanı həmin tayfadan Pərvanə bəy, Tataroğlu, Dura bəy, eləcə də *Şamlu* tayfasından Oğlan xəlifə ləqəbli Məhəmməd bəy və b. bu vəzifəni tutmuşlar. 1539/40-cı illərdə *Əfşar* tayfasından olan və "Gilan sofuları"ndan (I Şah İsmayılın uşaqlıq dövründə onu qorumuş qızılbaşlardan) sayılan *Sevindik bəy* bu mənsəbə təyinat aldı, bununla da 40 ildən artıq müddət boyunca qorçubaşı vəzifəsi Əfşar tayfasının mənsublarına verildi (Qulu bəy, Yusif xan, Bədr xan, Vəli xan). 1591-ci ildə Allahqulu bəy Qapanoğlu Qacar, 1611-ci ildə Səfəvilər sülaləsindən *Məsum bəyin* nəvəsi

İsa bəy (vəf. 1632), daha sonralar Çıraq xan (1632-33), Əmir xan Söklən Zülqədər, Canı xan Şamlu (vəf. 1645), *Mürtəzaqulu sultan Şamlu* (vəf. 1649), Mürtəzaqulu xan Qacar (vəf. 1663), Kəlbəli xan, Saru xan Səhəndlü (vəf. 1691), *Şahqulu xan Zəngənə* (1691-99) və b. bu vəzifədə xidmət etmişlər.

Qorçubaşı tabeliyində olan qorçuların bütün işlərinə görə məsuliyyət daşıyırdı. O, qorçuların xidmətə götürülməsinə nəzarət edir, maaş, mükafat və hədiyyə cədvəllərini təsdiqləyir, qorçular arasındakı mübahisəli məsələləri nizamlayır, şahın, hərəmxananın, eləcə də Səfəvi ailə üzvlərinə məxsus türbələrin mühafizəsini təşkil edirdi. Bu işlərdə ona bir neçə məmur yardım edirdi; belə ki, digər dövlət qurumları kimi, qorçu xidmətinin də *vəziri*, *mustovfisi* (hesabdarı), *münşiləri* (katibləri), *carçıları* və qasidləri vardı.

Hər il şahın ad günündə qorçubaşı ona öz malından 300 tümən miqdarında (bir hissəsi nağd pul, bir hissəsi də ərzaq və geyim şəklində) hədiyyə təqdim edirdi. Nağd pul əmanət şəklində xəzinəyə göndərilir, hədiyyələr isə fəqirlərə paylanırdı. Həmin gün şahın əynində olan geyim qorçubaşıya peşkəş edilirdi. Bundan əlavə, qorçubaşı şahın ad günündə 3 nəfər günahkarın həbsdən və cəzadan azad olunması barədə xahiş etmək (amnistiya) hüququna sahib idi. Qorçubaşı *cəngi* məclisində (ali məşvərət şurasında) şahın sol tərəfində əyləşir, döyüşlərdə öz yaşıl bayrağının altında şahın sağ tərəfində dururdu. Ənənəyə görə, qorçubaşı həm də Kirman vilayətinin hakimi təyin edilir, amma bir qayda olaraq sarayda xidmət edir, buradan kənara çıxmırdı. Yalnız şah tərəfindən hər hansı hərbi yürüşün komandanı təyin edildiyi zaman qoşunun başında həmin bölgəyə yola düşürdü.

XVI əsrin birinci yarısında qorçubaşının dövlətdə real gücü o qədər də çox deyildi, sonralar bu vəzifə daha çox əhəmiyyət qazanmağa başladı. XVII əsrdə qorçubaşı Səfəvilər dövlətinin güc strukturunu təşkil edən üç yüksək vəzifə sahibindən biri sayılırdı (*qullarağası* və *tüfəngçiağası* ilə birlikdə), səlahiyyət və güc baxımından o, *baş vəzirdən* də üstün idi. *Əmir əl-üməra* vəzifəsi tədricən sıradan çıxdıqdan sonra onun səlahiyyətləri qorçubaşıya verildi. Hətta bəzi mənbələrdə qorçubaşı vəzifəsi *sipəhsalarla* (ordu baş komandanı) tam eyniləşdirilir.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.98-103; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin qurulуşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.93-99; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.248; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.188-194; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.310-311; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.123-124 və 151; Cahanbəxş Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.8-16.*

QORÇULAR (qorçilər) – Səfəvilər dövlətinin hərbi sistemində ordunun

zərbə gücünü təşkil edən qüvvələr. Qorçu birliklərinin təyinatı, vəzifəsi və sayı barədə klassik mənbələrdə bəzən fərqli məlumatlara rast gəlinir. Hələ I Şah İsmayıl dövrünə aid hadisələrin təsvirində "qorçu" və *"qorçubaşı"* ifadələri işlədilir. *Taclu bəyimlə* toyunda şah qorçulara ikiqat məvacib vermişdi. *Çaldıran savaşında* Səfəvi ordusunun *çərxçi* (avanqard) dəstəsi *Saru Pirə bəy Ustaclunun* başçılıq etdiyi 5 min nəfər qorçudan ibarət idi. Lakin qorçu birlikləri haqqında məlumatlar əsasən XVI əsrin ortalarından daha sıx şəkildə qarşıya çıxır. "Qorçu" sözünün etimologiyası barədə nəzəriyyələr müxtəlif olsa da, geniş yayılmış rəyə görə, bu söz "qorumaq" feilindən qaynaqlanan "qorucu" sözündəndir. Qorçular xüsusi təlim görmüş elit hərbi birləşmə idi və şahın şəxsi qvardiyası sayılırdı, bu mənada onlar şahın qoruyucuları idi.

Səfəvilər dövlətində qorçu birlikləri əsasən tayfa mənsubiyyəti əsasında təşkil edilirdi. Mənbələrdə "Ustaclu qorçuları", "Şamlu qorçuları" kimi ifadələrə rast gəlirik. Klassik Səfəvi mənbələrində ilk dəfə 1500-cü ildə Bakı qalasının mühasirəsində iştirak edən qorçu birliyinin adı çəkilir. Qorçulardan hərbi əməliyyatlar zamanı çətin tapşırıqların yerinə yetirilməsində zərbə qüvvəsi kimi istifadə edilirdi. Bəzi Qərb səyyahları xatirələrində qorçuları ordunun oxçu bölümü kimi təqdim etmişlər.

Qorçular xüsusi hərbi təlim keçmiş, döyüş sənətini mükəmməl bilən süvari qızılbaş döyüşçüləri idi. Şaha son dərəcə sədaqətli olan qorçular onun başçılığı altında savaşır, müharibələrdə onu qoruyur, sarayın mühafizəsini həyata keçirir, şahın əmr və göstərişlərini əyalətlərə çatdırır və icra edirdilər. "Qorçular döyüşkənlikdə və şücaətdə elə bir ad çıxarmışdılar ki, əgər bir döyüşdə yüz nəfər şah qorçusu olsaydı, onlar min nəfər digər qoşun təbəqəsinə bərabər olardılar" ("Tarixi-aləmarayi-Abbasi").

Təxminən I Şah Təhmasibin hakimiyyətinin ikinci yarısından etibarən qorçular orduda arapıcı mövqeyə sahib oldular, onların sərkərdəsi olan qorçubaşı, faktiki olaraq, *əmir əl-ümərа* rütbəsinin səlahiyyətlərini mənimsədi. Lakin I Şah Abbas qorçuların hakimiyyət üçün təhlükə törədə biləcəyi ehtimalını əsas tutaraq onlara qarşı təzyiqlərə başladı, həmçinin müvazinəti saxlamaq məqsədilə qeyri-müsəlmanlardan ibarət *qulamlar* korpusu yaratdı.

Səfəvi ordusunda müxtəlif zamanlarda bir neçə min nəfər qorçu xidmət etmişdir. (I Şah Təhmasib zamanında 4500-5000, I Şah Abbas dövründə 12000, Səfəvi hakimiyyətinin sonlarında təxminən 8000 nəfər). Bəzi Qərb səyyahları xatirələrində qorçuların sayını 20-30 min nəfər hüdudunda göstərmiş, hətta əvvəllər bundan bir neçə qat artıq olduğunu yazmışlar. Lakin ehtimala görə, onlar nizamlı ordu olan qorçuları bölgələrdən səfərbər edilən *çəriklə* və qulamlarla qarışıq salmışlar. Çünki mükəmməl təlim görmüş, yüksək məvacib alan və ordunun zərbə gücünü təşkil edən elit döyüşçü dəstəsinin sayının çox olmasına ehtiyac yox idi; həm də bu, külli miqdarda vəsait tələb edərdi.

Qorçular başlarına 12 zolaqlı *qızılbaş tacı* qoyur, döyüşdə lazım olan bütün silah növlərini üzərlərində daşıyırdılar. Mükəmməl silahlanmaya malik idilər, silahları qızıl və daş-qaşla bəzənirdi. Şahın hüzurunda xidmət edən qorçuların qiyafəsi xüsusilə dəbdəbəli olurdu. Qorçular yüksək məvacib alır və yüksəktəminatlı hərbi xidmətçilərdən sayılırdılar. Yürüşlərdə onların hər birinin öz çadırı, yüklərini daşımaq üçün bir neçə at-qatırı və dəvəsi olurdu, şəxsi xidmətçiləri onlara qulluq edirdi. Qorçular qızılbaş ənənəsinə uyğun olaraq uzun bığ saxlayırdılar. Onlar yalnız şahın icazəsi ilə ailə qura bilərdilər.

Qorçu birliyi onbaşı, yüzbaşı və minbaşıların rəhbərlik etdiyi dəstələrdən ibarət olurdu, bunların hamısının başçısı qorçubaşı idi. Saray xidmətçiləri arasında bir neşə fərqli vəzifəsi olan qorçuların adı çəkilir. Daha yüksək təbəqədən sayılan və şahın hüzurunda olan *müqərrəb əl-həzrət* (həzrət şaha yaxın olan) qorçular bütün məşvərət toplantılarında iştirak edirdilər. Onlara müqərrəb əl-həzrət qılınc qorçusu, sadaq (oxyay çantası) qorçusu, ox-yay qorçusu, şeşpər (gürz) qorçusu, xəncər qorçusu, zireh qorçusu, qalxan qorçusu, tüfəng qorçusu, mizraq qorçusu, naçaq (döyüş baltası) qorçusu aid idi. Adlarından da göründüyü kimi, bunlar şahın şəxsi silahlarını daşıyırdılar. Bunlardan əlavə, daha aşağı təbəqəyə mənsub olan qorçular da şaha xidmət edirdilər: ayaqqabı, çətir, kürsü, nargilə, qədəh, dəsmal, çövkən qorçuları və s. Bunlar hərbi qulluqçudan daha çox mülki saray xidmətçisi sayılırdılar və şahın adıçəkilən şəxsi əşyaları onlarda olurdu. Üzəngi qorçusu adlanan xidmətçi adətən kürd *Zəngənə* tayfasından təyin edilirdi. Şah nə zaman səfər məqsədilə ata minirdisə, üzəngi qorçusu mütləq onun yanında durur, bir əli ilə atın üzəngisini tutub o biri əli ilə şahın ata minməsinə yardım edirdi.

Qorçuların bir hissəsi xassə mülkiyyətdən (şahın əmlakından) yüksək məvacib alırdı, onların əksəriyyətinə isə mülklər bağışlanmışdı. Bəzi qorçuların vilayətlərdən gələn vergilərdən qanuni payı vardı. Qorçuların yeri sarayın girişindəki keşikxana adlı otaq idi. Paytaxtdakı saray qorçularından əlavə bölgələrdə *bəylərbəyilərin* (hakimlərin) tabeliyində olan hərbi dəstələrdə də qorçular xidmət edirdi. Sərhəd bölgələrində xidmət edən qorçulara "daş qorçuları" deyirdilər.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.48-62; Eralp Erdoğan. Safevi Ordusunda Bir Birlik-Kurçiler (Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, №55/2, 2015), s.75-88; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.271; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.311-312; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.310-311; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.93.*

QULAM – Səfəvilər dövlətində xidmət edən və qul təbəqəsindən sayılan hərbi və mülki xidmətçi. Birmənalı olaraq

qeyri-müsəlman xalqlara mənsub idilər. Səfəvilər dövründə qulamlar əsasən gürcü, çərkəz, erməni, həbəş (zənci) və digər millətlərdən olurdu. Onların bir qismi hərbi yürüşlər nəticəsində əsir düşənlərdən seçilir, bir qismi ölkə xaricindən satın alınır, bir qismi də hədiyyə olaraq saraya gətirilirdi. I Şah Abbasın hakimiyyətinədək Səfəvilər sarayında əsasən qaradərili zənci qullar xidmət edirdi. I Şah Abbas ağdərili qafqazlılardan ibarət qulamlar korpusu təsis etdi; bu da Qafqazda hərbi əməliyyatların çoxalması və Səfəvi təsirinin artması ilə əlaqəli idi. Bu bölgədəki amansız qanunlar da qulamların sayının çoxalmasına şərait yaradırdı. Belə ki, gürcü əyanları günahkar şəxsləri cəzalandırmaq üçün onları Səfəvilərə satmağa üstünlük verirdilər. Hətta bəzən ailədə bir tərəfin təqsiri üzündən boşanma baş verirdisə, kilsə nikahı ləğv etdikdən sonra günahkar tərəf qul (və ya kəniz) kimi satılırdı. Qulam korpusunun təsis edilməsi Səfəvilər dövlətində yeni güc mərkəzinin yaranması demək idi; türk *(qızılbaş)* və fars *(tacik)* qütblərinə daha biri – nə türk, nə də fars olan qulamlar əlavə edildi.

Qulamların hamısı İslam dinini qəbul edib müsəlman olur, əksər hallarda müsəlman adını qəbul edirdi. Onlara verilən adlarda "qulu", "bəndə", "verdi" kimi şəkilçilərə sıx-sıx rast gəlinirdi (Allahverdi, İmamqulu, Əliqulu və s.). Qulamlar sarayda mükəmməl şəkildə dini və dünyəvi təhsil alır, etiket qaydaları üzrə təlim keçirdilər. Bu müddətdə onların arasından ən bacarıqlıları seçilir və daha yüksək səviyyəli xidmət üçün ayrılırdı. Qalan qulamlar ordudakı qulam korpusunda hərbi xidmətə cəlb edilirdilər. Bacarıqlı qulamlar dövlət xidməti karyerasında irəliləyərək saray daxilində yüksək mənsəblərə, hətta bölgə valiliyinə təyinat alırdılar. Səfəvi mənbələrində iri vilayətlərin hakimi olmuş çoxlu qulam mənşəli şəxs haqqında məlumatlar verilir. Bir vilayətin hakimi dünyasını dəyişəndən sonra yaxın qohumları arasında onu əvəz edə biləcək şəxs yoxdursa, onun vəzifəsinə qulamlardan biri göndərilirdi. Bəzən bir bölgənin əhalisini, müəyyən tayfanı cəzalandırmaq üçün onlara qulamlardan hakim təyin edilirdi. Bununla həm tayfanın şəxsiyyəti alçaldılmış olur, həm də həmin bölgədə qohumbazlıq və tərəfkeşlik ehtimalları aradan qaldırılırdı. Adətən qulamlar hakim təyin edildikləri bölgədə yerli hakimlərə nisbətən daha artıq laqeydlik və soyuqqanlılıqla davranır, bəzən bu davranış qəddarlıq səviyyəsinə çatırdı.

I Şah Abbas zamanında və sonralar Səfəvilər dövlətində qulamların nüfuzu çox güclü idi. Onların bəziləri şahın dərin etimadını qazanmış, vəzir məqamınadək yüksəlmişdi. Daha yüksək vəzifəyə keçən qulam yaxın qohumunun xidməti pillə üzrə ucalmasına yardım göstərirdi. Təsadüfi deyil ki, Səfəvi sarayında və bölgələrdə xidmət edən qulamlar arasında eyni nəslə mənsub şəxslərə çox rast gəlinir, bu qohumluq bəzən klan həddinə çatırdı (Undiladze, Saakadze klanları və s.).

I Şah Abbasın vəfatı ərəfəsində Səfəvi-

lər dövlətində hakim vəzifədə olmuş 90-dan artıq əmirin 21 nəfəri qulamlardan ibarət idi. Şirvan, Qarabağ, Kuhgiluyə, Astarabad, Məşhəd, Lar bölgələri və digər bir çox məntəqə qulamlar tərəfindən idarə edilirdi. Qulam korpusunun komandanı *qullarağası* dövlətin üç əsas güc strukturundan birinin başçısı sayılırdı (*qorçubaşı* və *tüfəngçiağası* ilə birlikdə).

Qulamlar Səfəvilər dövlətinin siyasi-iqtisadi və mədəni həyatında mühüm yerə malik idilər. Bir neçə möhtəşəm memarlıq abidəsi onların sifarişi ilə tikilmişdir (İsfahandakı *Allahverdi xan körpüsü* bu qəbildəndir). Səfəvilər dövrünün məşhur rəssamlarından sayılan *Səyavuş bəy* gürcü əsilli qulam idi. *Rüstəm xan sipəhsalar, Qərəçəqay xan, Allahverdi xan, İmamqulu xan* və b. Səfəvilər dövlətinin tarixində özünəməxsus rol oynamışlar.

Səfəvilər zamanında qulamlarla rəftar, onların hüquq və vəzifələri, ictimai mövqeləri barədə ayrıca risalə də qələmə alınmışdır (Məhəmməd Saleh Xatunabadi – "Adab əs-səniyyə").

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.196-198; R.Cəfəriyan Səfəvilər dövründə qulam və kənizlər barədə yeni məlumatlar ("Pəyami-baharistan" dərgisi, 1390 h.-ş., №14) s.1833-1924; Ə.Müslimi və b. Səfəvi hökumətinin siyasi və ictimai quruluşunda qulamların yerinin təhlili (Tarix elmi-araşdırma dərgisi, 1398 h.-ş., №55), s.217-235; Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.104-105; Cahanbəxş Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.18-21.*

QULLARAĞASI – Səfəvilər dövlətində sarayda ən yüksək vəzifələrdən biri. I Şah Abbas zamanında təşkil edilmiş qeyri-türk və qeyri-müsəlman mənşəli (gürcü, ləzgi, çərkəz və s.) *qulamlar* korpusunun başçısı. Bütün qulamlar kimi, o da mütləq İslamı qəbul etməli idi. Qullarağası xidmətdə fərlənmiş qulamların arasından seçilirdi. O, həm sarayda müxtəlif vəzifələrdə xidmət edən qullara, həm də hərbi qulam korpusuna başçılıq edirdi, tabeliyində minlərlə şəxs olduğuna görə *qorçubaşı* və *tüfəngçibaşı* ilə birlikdə dövlətin üç güc mərkəzini təşkil edirdi. Klassik Səfəvi mənbələrində qullarağasının rükn əd-dövlə (dövlətin dayağı) ləqəbini daşıdığı yazılır. Qullarağası dövlətin ali məşvərət şurasının *(cəngi)* və əmirlər məclisinin daimi üzvü idi. Vəzifəyə təyin edildiyi zaman şah ona xələt və tac bağışlayırdı. Qullarağası qulam korpusunu yüzbaşılar və minbaşılar vasitəsilə idarə edirdi. Qulam korpusuna aid olan bürokratik aparat (qullar *vəziri*, qullar *müstovfisi*, *münşilər*) da bütünlükdə onun tabeliyinə verilmişdi.

Qullarağası dövlət idarəçiliyində böyük ixtiyar sahibi idi. O, müxtəlif vilayətlərə məsul vəzifələrə göndərilən qulamların təqdimatını hazırlayır, məvacib cədvəllərini möhürlə təsdiq edirdi. Şah məsuliyyətli vəzifələrə tez-tez qullarağasını və ya qulam korpusunun qabaqcıl nümayəndələrini seçirdi. Bəzən şah müəyyən tayfanı cəzalandırmaq üçün onun məskunlaşdığı bölgəyə qullardan

birini (və ya qullarağasını) hakim təyin edir, bununla da həmin tayfanın üsyankar ruhu əzilmiş olurdu. (Bir qulamın qızılbaşlara başçılıq etməsi təhqir sayılırdı). Həmçinin qulam həmin tayfa üzvləri ilə heç bir qohumluq əlaqəsinə sahib olmadığı üçün tərəfkeşlik, rüşvət kimi mənfi halların qarşısı alınırdı. Lakin bununla yanaşı, bəzən qulamın həmin bölgədə əsassız yerə amansız davranması və öz səlahiyyətlərindən suiistifadə etməsi halları da müşahidə edilirdi. Şah nüfuzlu qızılbaş əmirlərindən birini aradan götürmək istədikdə çox zaman bunu qətiyyətli və barışmaz xarakterə malik qulamların əli ilə edirdi. Buna görə qızılbaşlar qulamları sevmir, onlara təhqir mənasında "qaraoğlu" deyirdilər.

Qullarağasının idarəçiliyi altında olan qulamların ümumi sayı, alman səyyahı Adam Oleariyə görə, 8 min nəfərə çatırdı. Beləliklə, qullarağası öz ixtiyarında minlərdən ibarət nizami dəstə saxlayan və istədiyi an bu qüvvədən istifadə etmək imkanına malik ən güclü dövlət adamlarından biri hesab edilirdi. Təsadüfi deyil ki, qullarağası bəzən Səfəvi şahının taxt-tac uğrunda mübarizəsində həlledici söz sahibi olurdu. (I Şah Səfinin hakimiyyətə gəlişində gürcü mənşəli qullarağası *Xosrov xanın (Rüstəm xan)* mühüm rolu olmuşdur). 1716-cı ildə qullarağası *Fəthəli xan Dağıstani* hətta *baş vəzir* vəzifəsinə yiyələnmişdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.196-198; Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.104-105; C.Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.18-21.*

LEYLAN DÖYÜŞÜ (1733) – *bax:* **KƏRKÜK DÖYÜŞÜ.**

LƏLƏ – Səfəvilər dövlətində hakim sülalə nümayəndələrinə uşaqlıq və yeniyetməlik yaşlarında təhkim edilmiş tərbiyəçi. *Dədə* vəzifəsinin daşıyıcıları ilə yanaşı fəaliyyət göstərirdilər; belə ki, dədə təriqət həyatı ilə bağlı işlərdə təlim-tərbiyə verir, lələ isə dünyəvi məsələlərdə tərbiyəçi rolunu oynayırdı. Səfəvilərdən əvvəl də türk dövlətlərində bu vəzifəni daşıyan şəxslər mövcud olmuşdur. Məsələn, Səlcuq dövlətində şahzadələr atabəyin tərbiyəsinə verilirdi. Bəzi Səfəvi mənbələrində "lələ" sözü ilə yanaşı "atabəy" və "atalıq" ifadələrinə də rast gəlinir.

Səfəvilər dövlətində lələ təsisatının tarixini iki əsas mərhələyə bölmək mümkündür: Səfəvilər dövlətinin əvvəlindən I Şah Abbasın hakimiyyətinədək olan dövr və I Şah Abbasın zamanından dövlətin süqutuna kimi davam edən dövr.

Birinci mərhələdə lələlər dövlətdə ən mühüm söz sahiblərindən sayılırdılar. Səfəvilər tarixində lələ adlandırlan ilk şəxs I Şah İsmayılın tərbiyəçisi *Hüseyn bəy Lələ Şamlu* olmuşdur (vəf. 1514). *Şeyx Heydər* tərəfindən əvvəlcə böyük oğlu *Sultan Əli Mirzənin* lələsi təyin edilmiş Hüseyn bəy Sultan Əli Mirzənin ölümündən sonra İsmayıl Mirzə üçün eyni vəzifəni daşımışdır. Bundan sonra hakim sülalənin hər yeni doğul-

muş körpəsinə qızılbaş türk sərkərdələrindən birinin lələ təyin edilməsi ənənə halını aldı. Maraqlıdır ki, şahlar təkcə oğul övladları üçün deyil, qız övladları üçün də lələ təyin edirdilər. Şahzadələr körpəlikdən ölkənin müxtəlif vilayətlərinə hakim təyin edilib həmin məntəqəyə göndərilirdilər. Təbii ki, bu yaşda öz vəzifəsini yerinə yetirməyə qadir olmayan şahzadənin qəyyuma ehtiyac vardı. Şahzadə ilə birlikdə bölgəyə gedən lələ orada həm onun təlim-tərbiyəsi ilə məşğul olur, həm də idarəçilikdə yardım göstərirdi. Lələnin əsas vəzifəsi şahzadəni gələcək şah kimi yetişdirmək, dövlət idarəçiliyinin sirlərini ona öyrətmək, onun təhsil və hərbi hazırlıq prosesinə nəzarət etmək idi. Şahzadənin dünyagörüşünün formalaşmasında, şahlara layiq xasiyyət və keyfiyyətlərə yiyələnməsində, tabeliyində olanlarla necə rəftar etmək qaydalarını mənimsəməsində lələnin müstəsna xidmətləri vardı. Adətən, şahzadə hansı tayfanın mənsubu olan lələdən tərbiyə alırdısa, həmin tayfaya daha çox bağlanır və hakimiyyətə keçdikdən sonra da bu tayfanın mənsublarına daha çox etibar edirdi. Əksinə, qəyyumluq mərhələsində öz lələsi ilə yola getməyən şahzadələrdə lələnin mənsub olduğu tayfaya qarşı nifrət və etimadsızlıq yaranırdı. Lələ vəzifəsini daşıyan şəxslər adətən dövlətdə böyük ixtiyar sahibi olur, şahın etibarından istifadə edərək öz qohum və dostlarını yüksək vəzifələrə yerləşdirirdilər. I Şah İsmayılın lələsi Hüseyn bəy Lələ Şamlu, I Şah Təhmasibin lələsi *Div sultan Rumlu*, Şah Məhəmməd Xudabəndənin lələsi *Məhəmməd bəy Şərəfəddinoğlu Təkəlü*, I Şah Abbasın lələsi *Əliqulu xan Şamlu* yüksək nüfuz sahibi idilər. Lakin bu nüfuz lazım olan anda onların cəzalanmasına mane olmurdu. Məsələn, I Şah İsmayılın lələsi və dövlətdə şahdan sonra birinci sima sayılan *vəkil* mənsəbinin sahibi Hüseyn bəy Lələ Şamlu 1507-ci ildə bütün üstünlüklərini, həm vəkil, həm də *əmir əl-üməra* vəzifələrini itirdi. I Şah Təhmasib üzərində güclü təsiri olan, lələlikdən əlavə həm də vəkil vəzifəsini daşıyan Div sultan Rumlu 1527-ci ildə 13 yaşlı şahın əmri ilə öldürüldü.

Tarixi mənbələrdən məlum olur ki, bəzən eyni şahzadəyə bir neçə lələ təhkim olunur, bəzən də bir qızılbaş əmiri iki şahzadəyə lələlik edirdi. Səfəvi mənbələrində lələ kimi xatırlanmış qızılbaş əmirlərindən bəziləri bunlardan ibarətdir: *Əmir xan Mosullu-Türkman* (Təhmasib Mirzənin (gələcək I Şah Təhmasib) lələsi), Qazi xan Təkəlü (Bəhram Mirzənin lələsi), *Bədr xan Ustaclu* (Əlqas Mirzənin lələsi), *Durmuş xan Şamlu* və *Ağzıvar xan Şamlu* (Sam Mirzənin lələləri), *Məhəmməd bəy Şərəfəddinoğlu Təkəlü* və *Gökçə sultan Qacar* (İsmayıl Mirzənin (gələcək II Şah İsmayıl) lələləri), *Şahqulu sultan Yegan Ustaclu* (Sultan Məhəmməd Mirzənin (gələcək Şah Məhəmməd Xudabəndə) lələsi), Mahmud bəy Əfşar (*Pərixan xanımın* lələsi), *Seyid Məsum bəy Səfəvi* (*Heydər Mirzənin* lələsi), *Əliqulu xan Qıçoğlu Ustaclu* (*Əbu Talib Mirzənin* lələsi), Vəli sultan Qalxançıoğlu Zülqədər (*Şah Şücanın* lələsi), *Pirə Məhəmməd xan Ustaclu* (*İmamqulu Mirzənin* lələsi), Teymur xan Us-

taclu (*Bədiüzzaman Mirzənin* lələsi), *Allahqulu sultan Eycəkoğlu Ustaclu* (*Mahmud Mirzənin* lələsi), *Şahqulu sultan Qarınca oğlu Ustaclu* (*Salman xan Ustaclunun* lələsi), *İbrahim sultan Ziyadoğlu-Qacar* (*Əli Mirzənin* lələsi), *Aras sultan Rumlu* (*Mahmud Mirzənin* lələsi), Şahəli bəy Şamlu (*Zeynəb bəyimin* lələsi) və b. Statistik məlumatlara görə, lələ təyin edilənlər arasında *Ustaclu* tayfasının nümayəndələri üstünlük təşkil edirdi (11 nəfər).

Bəzən qeyri-türk mənşəli əmirlərdən də şahzadələrə lələ təyin olunurdu. Məsələn, I Şah Abbasın oğlu *Hüseyn Mirzənin* lələsi kürd mənşəli *Budaq xan Çigini*, Şah Məhəmməd Xudabəndənin oğlu *Təhmasib Mirzənin* lələsi gürcü mənşəli Keyxosrov bəy idi.

I Şah Abbasın həyata keçirdiyi islahatlardan sonra sarayda qeyri-türk mənşəli xidmətçilərin nüfuzu xeyli artmışdı. Artıq şahzadələr, əvvəllər olduğu kimi, bölgələrə hakim təyin edilmir və saraydan kənarda, lələnin nəzarəti altında təlim keçmirdilər. Onların tərbiyəsi ilə saray daxilində, hərəmxanada xüsusi *qulamlar* məşğul olurdu. Bu dövrdə sarayda iki cür lələ vəzifəsi mövcud idi. Daha yüksək statusa malik olan birinci dərəcəli lələlər (bunlara yüzbaşı da deyilirdi) şahzadələrə, onlardan aşağı dərəcədə olan lələlər isə qulamlara təhkim edilmişdilər. Beləliklə, sarayda həm qulamların, həm də hakim sülalə nümayəndələrinin təlim-tərbiyəsi həyata keçirilirdi.

Mənbələr: *M.Bəhramnəjad və S.Darabzadə. Səfəvilər dövründə lələnin ictimai-tərbiyəvi rolunun təhlili: qızılbaş əmirləri və hərəmxana qulamları ("Mütaliati-tarixi-fərhəngi" dərgisi, 1393 h.-ş., №19), s.23-45; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.315-317; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.47; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.44-45; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXVII, 70-71; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu.*

LƏŞKƏRNƏVİS – Səfəvi ordusunun bürokratik aparatında mühüm vəzifələrdən biri. Sözün fars dilindən tərcüməsi "ordunu yazan, yəni qeydə alan"dır. Orduda hərbçilərin sayını, hərbi hissələrin komplektləşdirilməsini, hərbi qulluqçuların vəzifə başında olmasını ləşkərnəvis yoxlayır və qeydə alırdı. Orduya aid bütün sənədlər onun nəzarətindən keçir və onun möhürü ilə təsdiq olunurdu. Hər bir ordu bölüyünün vəziyyəti haqqında real məlumata sahib olduğu üçün böyük nüfuzu və hörməti vardı, hətta qoşun böyükləri də ondan çəkinirdilər. Bəzi tədqiqatçılar onu qoşun kargüzarı adlandırmışlar. Ləşkərnəvis sarayın girişindəki otaqda fəaliyyət göstərirdi, orduya aid mühüm toplantılar burada keçirilirdi.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.260; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.278-280.*

MEHMANDARBAŞI – Səfəvi sarayında vəzifələrdən biri. Mehmandarbaşı, adından da göründüyü kimi, saraya

gələn qonaqlara göstərilən xidmətin başçısı idi. Əsasən ölkə xaricindən gələn elçilər, səfirlər, səyyah və diplomatlar mehmandarbaşı tərəfindən qəbul edilirdi. O, qonaqların rütbə və missiyalarına uyğun şəkildə yerləşdirilməsi, onlar üçün şəraitin hazırlanması, gəzdirilməsi, yeməklə təchizi və əyləncəsi kimi işlərə nəzarət edirdi. Mehmandarbaşı xarici qonaqlarda təsir buraxmaq üçün xüsusilə səliqəli və təmtəraqlı geyinirdi. XVII əsrin sonlarında Səfəvilər dövlətinə səfər etmiş fransız missioner Samson mehmandarın baş geyimini təsvir etmişdir. Maraqlıdır ki, bu, *qızılbaş tacından* fərqli və daha bəzəkli papaq idi. Ləl-cavahiratla bəzənmiş araqçından ibarət olan bu baş geyiminin ucu hilal şəklindəydi, aşağı tərəfi qızıl və gümüş naxışlarla işlənmişdi. Papağı yaraşıqlı quş lələyi bəzəyirdi. Rəsmi mərasimlərdə qızılbaş xanları da başlarına bu papaqdan qoyardılar. Səyyah qeyd edirdi ki, qeyri-türkmanlar bu papaqdan istifadə etmirdilər.

Mənbə: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.247; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.327.*

MEHTƏR – Səfəvilər dövründə saray xidmətçisi. Mehtər sözü iki mənada qəbul edilirdi. Şahın və saray əyanlarının minik atlarına, eləcə də ordunun süvari bölümünün döyüş atlarına və ordu ləvazimatının daşınma vasitəsi kimi istifadə edilən qoşqu atlarına qulluq edən xidmətçilər mehtər adlanırdı. Mehtərlərə *mehtərbaşı (miraxurbaşı)* rəhbərlik edirdi, onların işə qəbulu, məvacib və mükafatlarının təyin olunması, xidmət yerlərinin müəyyənləşdirilməsi mehtərbaşının səlahiyyətində idi.

Mehtər sözü bəzən saray xidmətçiləri olan *xacələrin* başçısı *xacəbaşıya* da şamil edilirdi. Mehtər (bu vəzifənin bütöv adı mehtəri-rikabxana idi) şahın şəxsi əşyalarını daşıyır, bütün məclislərdə onun hüzurunda dururdu. O, şahın libaslarını soyunub-geyinməsinə yardım göstərir, yatağını hazırlayır, süfrəsini sərirdi. *Cəngi* məclisində mehtər *eşikağasıbaşının* arxasında otururdu. Mehtəri-rikabxana şaha ən yaxın təbəqənin *(müqərrəb əlhəzrət)* üzvü olmaqla həm də *sahib-cəm* statusu daşıyırdı.

bax: **XACƏBAŞI, MİRAXURBAŞI.**

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.252; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.128-129; Nəsrullah Fəlsəfi. Birinci Şah Abbasın həyatı, II, 408-409.*

MEHTƏRBAŞI – *bax:* **MİRAXURBAŞI.**

MEMARBAŞI – Səfəvilər zamanında mühüm dövlət vəzifələrindən biri. Memarbaşı dövlət ərazisində ucaldılan binaları layihələndirir, onların tikintisinə rəhbərlik edirdi. Hərbi yürüşlər zamanı zərurət halında körpü və s. qurğuların da tikilməsi onun nəzarəti altında aparılırdı. Hər il payızın əvvəlində o, *naziribüyutatın* təqdimatı ilə ayrılmış vəsait hesabına təmirə ehtiyacı olan binaların vəziyyətini yoxlayır və lazımi tədbirlər

görürdü.
Bəzən dövlətin digər mühüm vəzifələrində çalışan şəxslər də memarlıqla məşğul olurdu. I Şah İsmayılın zamanında hökmdardan sonra birinci dövlət adamı sayılan *vəkil Mirzə Şah Hüseyn İsfahani* (vəf. 1523) həm də memar idi.
I Şah Abbasın dövründə *şeyxülislam* vəzifəsini daşımış məşhur din alimi *Şeyx Bəhai* riyaziyyat, fizika, optika, akustika kimi sahələri mükəmməl bilirdi, İsfahanın bəzi məşhur tikililərinin layihə müəllifi odur.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.239; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.108; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.119.*

MƏCLİS – Səfəvilər zamanında məşvərətşi dövlət orqanı, *divan*. Məclislər həm şahın iştirakı, həm də onsuz keçirilirdi. Şah bir çox məsələləri özü təkbaşına həll etmək hüququna malik idi, amma ən mühüm məsələlərdə məclis çağırıb səlahiyyətli şəxslərin fikrini soruşurdu. Şahın başçılıq etdiyi şuraya məclisi-əla (yüksək məclis) deyirdilər, bu məclis 12 nəfər üzvdən ibarət idi. Şahzadələr və yüksəkrütbəli dövlət məmurları şahın hüzurunda əyləşib müzakirəyə çıxarılan məsələ barədə fikir bildirirdilər. Sağ tərəfdə *vəziri-əzəm, qullarağası, naziri-büyutat, divanbəyi, əmiraxurbaşı* və *həkimbaşı*, sol tərəfdə *tüfəngçiağası, məclisnəvis, əmirşikarbaşı, münəccimbaşı* və iki *xacəbaşı* əyləşirdi, bəzən onların arasında *eşikağasıbaşı*, *mehtər* və *qorçubaşı* dururdu. Söz alan hər kəs ayağa qalxıb şaha yaxınlaşır və öz fikrini ucadan bəyan edirdi. Danışılanlar katib tərəfindən qeydə alınırdı. Məclisdə son və həlledici söz şaha məxsus idi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.155-157, 186-187; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.244; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.79.*

MƏCLİS YASAVULU – Səfəvilər dövlətində saray vəzifəsi. Yasavullar iki hissəyə bölünürdü: məclis yasavulları və *söhbət yasavulları*. Məclis yasavulları söhbət yasavullarından daha aşağı təbəqədən sayılırdılar. Onlar xüsusi məclisə buraxılmır, şahın tapşırıqlarını yerinə yetirir, fərmanlarını saray əhlinə çatdırırdılar. *Eşikağasıbaşıya* tabe idilər, onların məvacibini və xidmət yerini də eşikağasıbaşı müəyyən edirdi.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259-260; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.108; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.193, 230-232; Z. Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.101-102.*

MƏMALİKİ-MƏHRUSƏ – Səfəvilər dövrünə aid mənbələrdə tez-tez rast gəlinən ifadə. Tərcüməsi "qorunan məmləkətlər" deməkdir. Burada həm dövlətin himayəsi və mühafizəsi altında qərar tutan əyalətlər, həm də Allahın qorudu-

ğu torpaqlar nəzərdə tutula bilər. Məmaliki-məhrusə anlayışı I Şah Abbasın zamanından etibarən mənbələrdə gözə çarpır. Bu məfhumun dəqiq mənası barədə fikirlər fərqlidir. Bəzi kitablarda bütün Səfəvi dövləti ərazisinin məmaliki-məhrusə adlandığı yazılır. Bəzi mənbələrdə xassə (səltənət) torpaqlarından başqa məmləkət torpaqlarının belə adlandığı bildirilir. Daha bir nəzəriyyə isə bundan ibarətdir ki, məmaliki-məhrusə dörd əsas iri bölgədən ibarət idi: Azərbaycan, Fars, İraq və Xorasan torpaqları.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.294-296; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.254.*

MƏRV DÖYÜŞÜ (1510) – I Şah İsmayılın sərkərdəliyi altında qızılbaş qoşunu ilə *Məhəmməd* (Şeybək, Şibək və ya Şahibəy) *xan Şeybaninin* rəhbərliyi altında özbək ordusu arasında baş vermiş və qızılbaşların tam qələbəsi ilə nəticələnmiş döyüş.

Səfəvilərlə münasibəti pozmamağa çalışan Teymuri hökmdarı *Sultan Hüseyn Bayqaranın* vəfatından (1506) sonra övladlarının zəifliyindən istifadə edən özbək *Şeybanilər* sülaləsinin hökmdarı Məhəmməd xan Şeybani Orta Asiyadan hücum çəkərək Xorasanı işğal etdi və Teymuri hakimiyyətinə son qoydu. Bundan sonra Səfəvilər dövlətinin şərq sərhədləri ciddi təhlükə altına düşdü. Özbəklər sərhədyanı torpaqlarda iğtişaş yaradır, Səfəvi şəhərlərinə hücumlar edir və Səfəvi dövlətini müharibə ilə hədələyirdilər. Məhəmməd xan Şeybani I Şah İsmayıla göndərdiyi məktubda nəhəng qoşunla Səfəvilər dövlətinin ərazisindən keçib həcc ziyarətinə getmək fikrində olduğunu bildirmişdi. O, I Şah İsmayılı məktubda təhqiramiz şəkildə "İraq darğası" adlandıraraq tələb etmişdi ki, özbək qoşununun keçəcəyi yolları abadlaşdırsın. I Şah İsmayıl təmkinlə davranaraq çalışırdı ki, vəziyyət müharibə həddinə çatmasın. Lakin özbəklərin Səfəvi torpaqlarına hücumu kəsilmirdi, 1509/10-cu ilin qışında onlar artıq Kirman və Yəzd şəhərlərinə basqın etdilər. Səfəvi-Şeybani münasibətləri son dərəcə kəskinləşmiş və müharibə qaçılmaz olmuşdu. Məhəmməd xanın I Şah İsmayıla əsa və *kəşkül* göndərərək onun *sufi* nəslindən olduğuna işarə etməsi, ölkədə onun adına xütbə oxudub sikkə vurdurmasını tələb kimi qarşıya qoyması gərginliyi son həddə çatdırdı.

I Şah İsmayıl strateji fənd işlədərək özbək xanına Novruz bayramından sonra müharibəyə hazır olması barədə məktub yolladı. Özü isə düşmənin sayı, yeri və vəziyyəti barədə əsaslı məlumat topladıqdan sonra qəfildən böyük qoşunla Təbrizdən çıxıb Xorasan üzərinə hərəkətə keçdi. Bu zaman müharibənin yaxın zamanda gözlənilməməsindən arxayınlaşmış Şeybaninin əsas qüvvələri Orta Asiyada, özü isə kiçik bir qoşunla Heratda idi. I Şah İsmayıl Xorasan sərhədinə çatanda əvvəlcə *Həsən bəy Halvaçıoğlunun*, daha sonra Mirzə Məhəmməd Talışın başçılığı altında Səfəvi ordusunun *çərxçi* (avanqard) dəstələri qarşılarına çıxan özbək qüvvələrini darmadağın etdi.

Qızılbaş ordusu Damğan, Bistam, Səbzəvar və Nişapur şəhərlərini tutdu. Özbək qarnizonu Məşhəd şəhərini tərk etib getdiyi üçün şəhər asanlıqla Səfəvilərin əlinə keçdi, I Şah İsmayıl burada İmam Rzanın (ə) məzarını ziyarət edib özü ilə gətirdiyi hədiyyələri hərəmə verdi.

Şeybanilərin ətrafındakı mühasirə halqası getdikcə daralırdı, artıq onların əlində Herat və Mərv də daxil olmaqla cəmi bir neçə şəhər qalmışdı. Səfəvilərin yaxınlaşdığını eşidən Məhəmməd xan Şeybani Heratdan çıxıb Orta Asiyadakı əsas qüvvələrinə daha yaxın yerləşən və nisbətən yaxşı müdafiə imkanına malik Mərv qalasına sığındı. 1510-cu ilin noyabrında I Şah İsmayıl Mərvə çatıb şəhəri mühasirəyə aldı. Onun açıq döyüş təklifi Şeybani xan tərəfindən rədd edildi. Bu arada xanın çağırışı ilə Orta Asiyadan böyük bir ordunun yola çıxması xəbəri gəlib çatdı. Mühasirəni uzatmağın təhlükəli olduğunu görən şah bu dəfə də hərbi manevr işlətdi. O, belə bir xəbər yaydı ki, soyuqlar düşməsi və Osmanlıların Azərbaycana hücum etməsi üzündən mühasirəni dayandırıb geri qayıdır. Həqiqətən, qızılbaşlar Mərv ətrafından geri çəkilərək düşməni bu manevrə inandıra bildilər. Özbək hökmdarı qarışıqlıqdan istifadə edərək qaladan çıxıb Səfəvi ordusuna qəfil zərbə vurmaq qərarına gəldi. Xan öz dəstəsi ilə qaladan çıxdıqdan sonra şahın əmri ilə qızılbaşlar onun Mərvə doğru yolunu kəsdilər. Səfəvi qoşunu hər tərəfdən özbəkləri mühasirəyə aldı. 1510-cu il dekabrın 2-də Mərv şəhərindən təxminən 15 km məsafədə yerləşən Mahmudabad məntəqəsində həlledici döyüş baş verdi. Üç saata yaxın davam edən qarşıdurmada özbək qoşununun cinahları sıradan çıxarıldı, döyüşçülər özlərini Mahmudi çayına atıb qarşı sahilə keçməyə çalışdılar. Onların bir hissəsi çayda boğuldu, qalanları isə yaxınlıqdakı bataqlıqda həlak oldu. Hələ XII əsrdə Səlcuq hökmdarı Sultan Səncər bu bataqlığın yerini təyin etmək üçün üç tərəfdən ətrafına divar hördürmüşdü. Qaçan özbək döyüşçüləri bundan xəbərsiz idilər, onlar divarın arxasında sığınacaq tapacaqlarını düşünüb bataqlığa doğru axışdılar. Şeybani xan da onların arasında idi. Atı bataqlıqda ilişib qaldığı üçün hərəkət edə bilməyən özbək xanını I Şah İsmayılın mehtəri öldürdü.

Mərv savaşından sonra Xorasan torpaqları Səfəvilərin hakimiyyəti altına düşdü. Lakin sonralar Orta Asiyanın özbək və qazax sərkərdələri dəfələrlə Xorasana hücum etmiş, bu torpaqlar bir neçə dəfə əldən-ələ keçmişdir.

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.181-207; F.Sərxeyl, Ə.Vələvi. Şah İsmayıl Səfəvi və Şeyban xan özbək arasındakı məktublaşmada hakimiyyət hüququ barədə polemikalar ("Tarixi araşdırmalar" dərgisi, 1396 h.-ş., №1), s.55-77; Həsən bəy Rumlu. Əhsənüt-təvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.404-411; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.103-107.*

MƏŞƏL SAVAŞI (1583) – *Səfəvi-Osmanlı müharibələrinin* ikinci mərhələsində baş vermiş və Osmanlıların qələ-

bəsi ilə nəticələnmiş döyüş. 1583-cü ilin mayında Samurçayın sahilində, Baştəpə adlı məntəqədə üç (və ya dörd) gün davam etmiş toqquşmada gecələr hər iki tərəf məşəllərin işığında savaşdığı üçün döyüşə bu ad verilmişdir.

Döyüş Osmanlı və Səfəvi dövlətləri arasında sülh şərtləri müzakirə ediləndə baş vermişdir. Səfəvi ordusu *Mollahəsən döyüşündəki* qələbənin nəticələrini qoruyub saxlaya bilmədi. Bir yandan Osmanlı ordusunun əks-hücumları, bir yandan da Krım tatarlarının ardıcıl soyğunçu basqınları bəhrəsini verdi, Azərbaycan torpaqlarının böyük hissəsi yenə Osmanlıların əlinə keçdi. Səfəvilər dövləti daxilində baş vermiş qarışıqlıq, qızılbaş əmirləri ilə baş vəzir *Mirzə Salman xan Cabiri* arasındakı gərginlik və sonuncunun qətli ilə nəticələnən hakimiyyət böhranı da Səfəviləri sülh bağlamaq məcburiyyəti qarşısında qoydu.

Danışıqlar prosesi getdiyi bir zamanda Osmanlı ordusunun komandanı Özdəmiroğlu Osman paşa Səfəvilər tərəfindən onlara pusqu qurulduğunu elan etdi. Buna cavab olaraq İstanbuldakı Səfəvi səfiri həbs olundu, danışıqlar pozuldu. Osman paşanın köməyinə göndərilən Silistriya sancaqbəyisi Yaqub bəyin qoşununu qızılbaş ordusu darmadağın etdi və Osman paşa özü Dərbənddən çıxıb münaqişə zonasına tərəf istiqamət aldı.

1583-cü ilin mayında tərəflər qarşılaşdı. Şahzadə *Həmzə Mirzənin* ümumi komandanlığı altında hərəkət edən 50 min nəfərlik Səfəvi ordusunun sağ cinahına Rüstəm bəy Hüsamoğlu və Şirvanşahlar nəslindən İbn Bürhan, sağ cinaha isə Qarabağ bəylərbəyi *İmamqulu xan Qacar* başçılıq edirdi. Ordunun mərkəzi hissəsi *qorçu* dəstələrindən ibarət idi. Osman paşanın komandanlıq etdiyi qarşı tərəfin ixtiyarında 30 döyüş topu vardı. 3 və ya 4 gün davam etmiş döyüş gecələr də məşəl işığında aparılırdı, yalnız gecə yarıdan sonra tərəflər bir qədər dincəlməyə fürsət tapırdılar. Döyüş gah bu, gah da o biri tərəfin cüzi üstünlüyü ilə keçirdi. Sonuncu gün Osmanlı ordusu üstünlüyü ələ alıb qızılbaşları sıxışdırdı. Səfəvi döyüşçüləri pərakəndə halda geri çəkilməyə başladılar. Məşəl savaşında 7000-dən çox qızılbaş döyüşçüsü öldürüldü, təxminən 3500 nəfər əsir düşdü. Səfəvilər dövlətində siyasi sabitliyin pozulması Osmanlı ordusuna daha bir qələbə qazandırdı və onların Səfəvi dövləti daxilindəki mövqelərini möhkəmlətdi. Fərhad paşanın başçılıq etdiyi digər Osmanlı ordusunun Çuxursəd istiqamətindəki uğurları da Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsinin nəticələrində həlledici rol oynadı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.176; Azərbaycan tarixi (7 cilddə), III, 192-193; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXIII, 472; Ибрахим Эфенди Печеви. История (извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.; перевод и примечения: акад. З.Буниятова), стр. 55-56; Joseph von Hammer. Büyük Osmanlı Tarihi, VII, 82-83; İsmail Hakkı Uzunçarşılı. Osmanlı Tarihi, III, 60.*

MƏŞƏLƏDARBAŞI – Səfəvilər dövlətində mühüm saray vəzifələrindən biri.

Sarayın işıqlandırma və isitmə sisteminə nəzarət edirdi. Əyləncə ilə bağlı bütün məsələlər də məşələdarbaşının nəzarətinə verilmişdi, musiqiçilər də ona tabe idilər. Musiqi ləvazimatının saxlandığı nağaraxana, işıqlandırma və pirotexnika avadanlığı anbarı olan məşələxana onun ixtiyarında idi. (Çıraqxananın ona, ya da çıraqbaşıya tabe olduğunu yazırlar). Saray nağaraxanasında xidmət edən nağaraçı və kərənayçıların fəaliyyəti məşələdarbaşı tərəfindən tənzimlənirdi. Hər gün günəş çıxanda və batanda şah sarayının qarşısında nağara vurulur, kərənay çalınırdı. II Şah Abbas kərənayçıları Qəndəhardan gətirdirdi. Məşələdarbaşının tabeliyindəki fərraşlar qumar oynayan və əxlaqsızlıq edənləri də tutub cəzalandırırdılar.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.254-255; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.135.*

MİRAB – Səfəvilər zamanında kəndlərdə su təchizatına və su bölgüsünə nəzarət edən məmur. Fars dilində "su ağası" mənasını verir.

Orta əsrlərdə hər yerdə olduğu kimi, Səfəvilər dövlətində də süni suvarma kənd təsərrüfatının idarə olunmasını şərtləndirən əsas amillərdən idi. Ölkə ərazisində meliorasiya sistemi güclü şəkildə inkişaf etmişdi. Dağların başındakı qarların əriməsi nəticəsində yaranan su arxlarla əkin sahələrinə gətirilir, eləcə də yerlərdə su quyuları qazılır, bulaqlar çəkilirdi. Süni göllərdə toplanan su ehtiyatı alçaq bəndlər vasitəsilə əkin yerlərinə ötürülürdü. Bunun nəticəsində Səfəvilər dövlətində səfərdə olmuş Qərb səyyahları bu yerlərdə torpağın çox bərəkətli olduğunu və bol məhsul verdiyini yazırdılar.

Dövlət məmurları suvarma qurğularının daim işlək vəziyyətdə olmasına diqqət yetirir, müharibələr nəticəsində dağılmış və xidmət müddətini başa vurmuş qurğuları təmir edirdilər. Səfəvi şahları əyalətlərə göndərdikləri bəylərbəyilərə suvarma işinə xüsusi diqqətlə yanaşmağı tapşırırdılar. Bu işlər mirablar tərəfindən həyata keçirilirdi. Suvarma kanallarına nəzarətçilər təyin etmək, kanalları və kiçik çayları təmizləmək, çayın suyunun hər yerə bərabər çatmasını təmin etmək mirabın vəzifəsi sayılırdı. O, ayrı-ayrı şəxslərin və ərazilərin su üzərində hüquqları və su bölgüsü ilə bağlı mübahisə və iddiaları da həll edirdi.

Yerlərdəki mirablar bəylərbəyliklərin mirabına tabe idi. Xüsusilə İsfahan mirablığı çox gəlirli vəzifə idi, İsfahan mirabının maaşı (tabeliyindəki işçilərin məvacibi nəzərə alınmadan) 4000 tüməndən çox idi; bu, o zaman üçün böyük məbləğ idi. Kəndlilərdən mirabi vergisi tutulurdu ki, onun da böyük hissəsi miraba çatırdı.

Səfəvi dövlətinin bəzi mühüm dövlət adamları xidməti karyeralarına mirab kimi başlamışdılar. Məsələn, II Şah Abbasın hakimiyyəti zamanı Qarabağ və Gəncə bəylərbəyi təyin edilmiş *Uğurlu xan Ziyadoğlu-Qacar (Müsahib Gəncəvi)* bundan əvvəl İsfahanda mirab vəzifəsində çalışmışdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.339; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.221; Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti: təsərrüfatı, ticarət əlaqələri, maliyyə sistemi, s.12-14.*

MİRAXURBAŞİYİ-CİLOV – Səvəfi dövlətində xidməti vəzifə. Şahın və onu müşayiət edən əyanların, eləcə də şah qvardiyasının minik atlarına qulluq və nəzarəti həyata keçirən. Cilov – atı idarə etmək üçün ağzına keçirilən yüyən deməkdir. Miraxurbaşiyi-cilov şahın yaxın məsafələrə süvari halda hərəkəti zamanı mütləq onu müşayiət edir və atının yüyənini tuturdu. Ondan əlavə, tabeliyində olan daha 30 nəfər xidmətçi də şahın ardınca hərəkət edirdi. Şahın ata minib-düşməsinə yardım etmək miraxurbaşiyi-cilovun vəzifəsi idi. At axurlarının vəziyyətinə nəzarət, mehtər, qasid və suçuların işə qəbulu, məvaciblərinin təyini ona tapşırılmışdı. Miraxurbaşiyi-cilov nalbəndlərin və baytarların işə qəbulunu və vəzifə bölgüsünü də nizamlayırdı. Tabeliyində olan işçilərin məvacib və mükafat qeydləri yazılmış dəftərlər onun imzası ilə təsdiqləndikdən sonra divan vəzirinə təqdim edilir, onun əsasında maliyyə ayrılırdı.

Miraxurbaşiyi-cilovla yanaşı minik atlarına qulluqla bağlı digər vəzifələr də nəzərdə tutulmuşdu. Məsələn, zeyndarbaşı (yəhərçibaşı), üzəngidarbaşı və s. Bunlar miraxurbaşının tabeliyi altında fəaliyyət göstərirdilər.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.205-206; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.94.*

MİRAXURBAŞİYİ-SƏHRA – Səvəfi dövlətində xidməti vəzifə. Miraxurbaşiyi-cilovdan fərqli olaraq, o, saraydan kənardakı at ilxılarına nəzarət edir, hər il dövlət (səltənət) balansındakı səhra ilxılarına və şahın mülkiyyətində (xassə) olan ilxılara baxış keçirir, hesabat yazıb yuxarı dairələrə təqdim edirdi. O, at ilxıları üçün yem və s. tədarükünün də hesabatını aparırdı, onun təqdimatı üzrə bu istiqamətlərdə illik maliyyə ayrılırdı. Miraxurbaşiyi-səhra *naziri-dəvvabla* (heyvanlara nəzarət edən xidmətin başçısı) əlaqəli şəkildə fəaliyyət göstərirdi.

Mənbələr: Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.206-208; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.94-95.

MİRAXURBAŞI (ƏMİRAXURBAŞI) – Səfəvi dövlətində xidməti vəzifə. Səfəvi şahının, əyanların və şəxsi qvardiyanın minik atlarının saxlanması, təlimi və təchizinə nəzarət edən. Bununla bağlı saray hüdudları daxilində və kənarda fəaliyyət göstərən *miraxurbaşiyi-cilov* və *miraxurbaşiyi-səhra* vəzifə bölgüləri aparılmışdı. Nalbəndlər, baytarlar, suçular, zeyndarbaşı və üzəngidarbaşı (yəhər və üzəngi hazırlayanların başçısı) miraxurbaşıya tabe idilər. Şahın at üstündə hərəkəti zamanı miraxurbaşı mütləq onu müşayiət edirdi, ardınca da 30 nəfərdən artıq piyada dəstə irəliləyirdi. Miraxurbaşı *naziri-dəvvab* (yük heyvanlarının

nəzarətçisi) ilə əlaqəli şəkildə fəaliyyət göstərirdi. I Şah İsmayılın zamanında Şahqulu bəy Türkman "mehtəri-rikabxaneyi-mübarəkə" (mübarək tövlənin başçısı) və ya *miraxurbaşı* vəzifəsini icra edirdi. O, dövlət xəzinəsindən külli miqdarda vəsaiti mənimsəmiş, amma *vəkil Şah Hüseyn İsfahaninin* araşdırması nəticəsində işin üstü açılmışdı. Şahqulu bəy vurduğu ziyanı ödədikdən sonra azad buraxılmış, amma qisas məqsədilə vəkili öldürüb Şirvana qaçmışdı. Az sonra onu ələ keçirib şahın hüzuruna gətirmiş və mühakimədən sonra edam etmişdilər.
Mənbələrdə bu vəzifə *mehtərbaşı* kimi də qeyd edilir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.203-204; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.324; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.126-127.*

MİRŞİKARBAŞI (ƏMİRŞİKARBAŞI) – Səfəvilər sarayında vəzifələrdən biri. Səfəvi şahının ov tədbirlərinin təşkili onun öhdəsində idi. Mirşikarlar (ov təşkilatçıları), ovçubəyilər, quşçular (şahin təlimçiləri), səgbanlar (ov iti təlimçiləri) ona tabe idilər. Tabeliyində min nəfərdən artıq adam olurdu və mirşikarbaşı onların bütün problemləri ilə yaxından maraqlanır, mükafatlandırılmaları üçün təqdimatlar yazıb dəftərxanaya ötürürdü. I Şah İsmayılın zamanında mirşikarbaşı *İlyas bəy Halvaçıoğlu* idi. Döyüşlər zamanı mirşikarbaşı tabeliyində olanlarla birbaşa hərbi əməliyyata qatılmır, qarovulda dururdu. Yürüş vaxtı ovçular ov təşkil etməklə ordunun ərzaq ehtiyatını görürdülər.
Səfəvilər zamanında ov mühüm tədbir sayılırdı və təkcə əyləncə mahiyyəti daşımırdı. Ovda şah və əyanlardan əlavə on minlərlə döyüşçü, heyvanları qovub şikargaha gətirən kəndlilər iştirak edirdi. Ov tədbiri çox böyük əraziləri əhatə edirdi. Bəzən gələcək döyüşlərin taktikası ov əsnasında hazırlanırdı, bu baxımdan ovlar hərbi manevrləri xatırladırdı. I Şah İsmayıl tez-tez ova çıxır, bəzən iri vəhşi heyvanları (aslan, ayı) təkbaşına ovlayırdı. Səfəvi miniatürlərində ov səhnələri mühüm yer tutur, bunların bəzilərində şahların (xüsusilə I Şah İsmayıl və I Şah Təhmasibin) fiqurları mərkəzi yerdə durur.
Səfəvilər dövlətinin ilk dövrlərində mirşikarbaşı vəzifəsi ovçubaşı da adlanırdı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.257; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.203-204; N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.323-324.*

MİRZƏ – Səfəvilər dövlətində dəftərxana vəzifəsi; *münşi* ilə eyniyyət təşkil edirdi.
Ənənəyə əsasən, Səfəvi şahzadələrinin də adına "mirzə" ləqəbi qoşulur, bütün şahzadələr bu ləqəblə çağırılırdı (məsələn, Həmzə Mirzə, Abbas Mirzə, Heydər Mirzə). Hətta yalnız şahzadələrə deyil, şah nəslindən olan (şah qanını daşıyan) hər kəsə bu qayda tətbiq edilirdi.
Seyid nəslindən olanların da adları klas-

sik mənbələrdə "mirzə" ləqəbi ilə qeyd edilirdi.

bax: **MÜNŞİ.**

MOLLABAŞI – Səfəvilər dövlətində mühüm dini vəzifələrdən biri. Səfəvilər dövlətinin sonunda (1713-cü il) *Şah Sultan Hüseyn* tərəfindən təsis edildiyini yazırlar. Mollabaşı din tələbələrinin təqaüdlərini təşkil etmək, ehtiyaclılara maddi yardım göstərmək, məzlumların haqqını qorumaq, günahkar şəxslərin bağışlanması üçün şahın hüzurunda şəfaətçi kimi çıxış etmək, şəriət məsələləri barədə fikir bildirmək səlahiyyətinə sahib idi. Bütün ruhanilər ona tabe idi. Mollabaşı daim şahın yanında olar, şaha yaxınlıq baxımından heç kim onu üstələyə bilməzdi. Mollabaşının hüquq və vəzifələri müəyyən mənada *şeyxülislamın* hüquq və vəzifələri ilə üst-üstə düşürdü.

Mollabaşılar şaha yaxınlıqlarından istifadə edərək saray intriqalarına qatılır, vəliəhd seçiminə müdaxilə edir, əyanların mübarizəsində tərəflərdən birini dəstəkləyirdilər. Səfəvilər dövlətinin sonlarında hiss edilən hərc-mərclik və zəiflik dövlət idarəetmə aparatındakı vəzifə bölgülərində də bəzi qarışıqlıqlara səbəb olmuşdu. Şeyxülislam və mollabaşının səlahiyyət dairəsinin kəsişməsi buna sübutdur.

Şah Sultan Hüseyn zamanında mollabaşı vəzifəsinə təyin edilmiş ilk şəxs *Mir Məhəmməd Baqir Xatunabadi İsfahani* (vəf. 1715) olmuşdur. Lakin mərkəzi hakimiyyətin zəifliyindən istifadə edən bəzi əyanlar 1715-ci ildə İsfahandakı qıtlıq zamanı bunun günahını mollabaşının üzərinə ataraq onun evini qarət etdilər. Bu hadisədən az sonra dünyasını dəyişmiş mollabaşı Xatunabadinin yerini Məhəmməd Hüseyn Təbrizi İsfahani tutdu.

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXX, 238; Lüğətnameyi-Dehxuda, XIV, 21426; M.Zeynali və b. Səfəvilər dövründə əsas dini vəzifələr ("Hünəri-İslami", dövrə: 18, №43), s.268-287.*

MOLLAHƏSƏN DÖYÜŞÜ (1578) – *Səfəvi-Osmanlı müharibələrinin* ikinci mərhələsində Osmanlı imperiyasının vassalı olan Krım xanlığının qoşunu ilə Səfəvi ordusu arasında baş vermiş və Səfəvilərin qələbəsi ilə nəticələnmiş döyüş. Ağsu çayının sahilində Mollahəsən adlı məntəqədə baş vermişdir.

Lala Mustafa paşanın başçılığı altında Səfəvi dövlətinin ərazisinə soxulmuş Osmanlı ordusu qızılbaş əmirləri arasındakı rəqabətdən istifadə edərək üstünlüyü ələ almışdı. *Çıldır savaşındakı* (1578) qələbədən sonra osmanlıların Gürcüstana yolu açıldı və Mustafa paşa Tiflisi ələ keçirdi. Qızılbaş əmirləri məğlubiyyətdən nəticə çıxararaq birləşib düşmənə zərbə vurmağa çalışdılar, amma ciddi uğur qazana bilmədilər. Yolun çətinliyi, yeniçərilər arasındakı narazılıq Osmanlı ordusunun işini çətinləşdirsə də, onlar Ərəş, Şamaxı, Bakı, Salyan, Mahmudabad, Qəbələ və Şabran şəhərlərini işğal edə bildilər. Şirvan bəylərbəyliyinin torpaqları Osmanlılar tərəfindən işğal edildi. Bundan sonra bəylərbəyi *Aras xan Rumlu* Şamaxını tərk edərək Kür

çayının sahilində düşərgə saldı. Lakin Mustafa paşa Şamaxıda möhkəmlənə bilmədi, ağır itkilər, ərzaq qıtlığı, Səfəvi ordusunun aramsız hücumları qarşısında o, yerinə Özdəmiroğlu Osman paşanı təyin edib Tiflis-Ərzurum yolu ilə Osmanlı dövlətinin ərazisinə qayıtdı.

Yeni sərkərdə Osman paşa Dərbənd şəhərini özünə iqamətgah seçərək oradan ətraf məntəqələrə yürüşlər etməyə başladı. Onun Gəncəyə talançı yürüşünə cavab olaraq Şirvan qoşunu Ərəşi geri aldı.

Hakimiyyətə təzə keçmiş Şah Məhəmməd Xudabəndə oğlu *Həmzə Mirzənin* və vəzir *Mirzə Salman xan Cabirinin* başçılığı altında Şirvana böyük ordu göndərdi. Lakin onlar gəlib çatmamış Aras xan Rumlu Osmanlı ordusunu Şirvan torpaqlarından qovmaq qərarına gəldi. Bu yolla o, Şamaxını tərk etməsinin təqsirini yumağa çalışırdı.

1578-ci il noyabrın 9-da Aras xanın başçılıq etdiyi Şirvan qoşunu ilə Osmanlı ordusunun döyüşü başladı. Döyüşün üçüncü günündə 15 min nəfərlik tatar qoşunu ilə özünü çatdırmış Adil Gəray (Krım xanının qardaşı) Osmanlılarla birləşib qızılbaşları ağır məğlubiyyətə uğratdı. Şirvan bəylərbəyi Aras xan Rumlu oğlu ilə birlikdə əsir düşərək edam edildi. Bundan bir neçə gün sonra Adil Gəray döyüşdən canını qurtarmış Şirvan qoşununun düşərgəsinə qəfil hücum edib xeyli adam öldürdü və bol qənimət əldə etdi.

Nəhayət, şahın göndərdiyi ordu Şirvana çatdı, əsgərlərin ümumi sayının 50-100 min nəfər arasında olduğu yazılır. Səfəvi döyüşçüləri Şamaxı şəhərindəki Osmanlı qarnizonunu mühasirəyə aldılar. Osman paşa Adil Gəraya məktub yazıb onu təcili köməyə çağırdı. Səfəvi ordusu bundan xəbər tutdu, Şamaxının mühasirəsi üçün 3 min nəfərlik dəstə ayrıldı, qalan bütün hərbi qüvvə Mirzə Salman xanın başçılığı altında Adil Gərayla döyüşmək üçün cənuba üz tutdu.

1578-ci il noyabrın 28-də Mollahəsəndə iki ordu üz-üzə gəldi. Adil Gəray və qardaşlarının başçılığı altında 12 min tatar və daha 4-5 min nəfər ləzgi və şirvanlı birləşmişdi. Səfəvi ordusuna Mirzə Salman xan Cabirinin ümumi komandanlığı altında *qorçubaşı* Qulu bəy Əfşar, *Şahrux xan Zülqədər möhürdar,* Məhəmməd xan Türkman, *Pirə Məhəmməd xan Ustaclu, Sultan Hüseyn xan,* Müseyib xan Təkəlü, Gəncə və Qarabağ bəylərbəyi *İmamqulu xan Qacar*, *çərxçibaşı* Həmzə xan Ustaclu (*Abdullah xan Ustaclunun* oğlu) kimi sərkərdələr başçılıq edirdi. Səhərdən-axşamadək davam edən döyüşdə Səfəvilər qalib gəldilər. Tatar ordusunun bir hissəsi qırıldı, təqribən 2 min nəfər döyüşçü və 30 nəfər zadəgan, o cümlədən Adil Gəray əsir düşdü. Bölgəni yaxşı tanıyan şirvanlı və ləzgilərin bir hissəsi dağlara qaçmaqla canını qurtardı. Tatarların bir neçə gün əvvəl Şirvan düşərgəsində ələ keçirdiyi bütün qənimət geri qaytarıldı.

Adil Gərayın məğlubiyyət xəbərini eşidən Şamaxıdakı Osmanlı qarnizonunu ruh düşkünlüyü bürüdü, əsgərlər xidməti buraxıb fərarilik etməyə başladılar. Osman paşa bir dəstə ilə Şamaxıdan çıxıb Dərbəndə getdi, onu şəhərə burax-

maq istəməyən dərbəndlilərin müqavimətini çətinliklə qırıb şəhərə daxil oldu. Osmanlıların topxanası və bütün hərbi ləvazimatı Səfəvi qoşununun əlinə keçdi. Bunun ardınca Şirvanın bir çox bölgələri də Səfəvi döyüşçüləri tərəfindən geri qaytarıldı.

Mollahəsən döyüşü Səfəvi ordusu üçün çox uğurlu əks-hücum əməliyyatının başlanğıcı ola bilərdi, lakin sonrakı mərhələdə ordu bu üstünlüyü qoruyub saxlaya bilmədi. Qızılbaş sərkərdələri Dərbəndə hücum edib çətin vəziyyətdə olan Osman paşanı ölkədən çıxarmaq əvəzinə yenə bəylərbəylik vəzifəsi üstündə intriqalara qurşandılar. Nəticədə bütün əmirlər Şirvan torpağını buraxıb Qəzvinə qayıtdı və Azərbaycan torpaqları bu dəfə də Osmanlı hücumu qarşısında müdafiəsiz qaldı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.148-157; Azərbaycan tarixi (7 cilddə), III, 191; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.521-526; Farah Hüseyn. 1578-1590 Osmanlı-Safevî Savaşı ve Kırım Hanlığı, Akademik Tarih ve Düşünce Dergisi, 2019, №6(2), ss.964-983; Фарах Адиль кызы Гусейн. Османо-Сефевидская война 1578-1590 гг., стр.56-60.*

MÖHÜRDAR – Səfəvilər dövlətinin idarəçilik aparatında yüksək vəzifələrdən biri. "Möhürdari-möhri-humayun", yəni "əlahəzrət möhürünün mühafizəçisi" adlanırdı. Şahın möhürünü mühafizə etmək səlahiyyəti onda idi. Cavahiratla işlənmiş qızıl zəncirli möhür onun boynundan asılı olurdu. Möhürdar yüksək vəzifələrə (*vəzir, mustovfi*, kələntər) təyinat fərmanlarına, eləcə də əmir və hakimlərə bağışlanan *soyurqal* və *tiyul* sənədlərinə şahın möhürünü vururdu.

Möhürdar Səfəvi sarayında böyük nüfuz sahibi idi. "Tarixi-aləmarayi-Abbasi"dən məlum olur ki, bəzən hətta Səfəvi şahzadələri bu vəzifəyə təyin edilirdilər.

I Şah İsmayıl zamanında möhürdar vəzifəsini *Təkəlü* tayfasından *Sarı Əli bəy* (1506-cı ildə hərbi yürüşlərin birində dünyasını dəyişmişdi), *Əmir xan Mosullu*, Şahrux sultan Əfşar daşımışlar.

Ümumiyyətlə, Səfəvi şahlarının 4 və ya 5 möhürünün olduğunu yazırlar. Səfəvilər dövlətində uzun müddət yaşamış fransız səyyahı Jan Şarden (1643-1713) xatirələrində şahın 5 möhürünü ayrı-ayrılıqda təsvir etmişdir. Bu möhürlər həm ölçüsünə, həm yazısına, həm də materialına görə fərqlənirdi və müxtəlif sənədlərə vurulurdu. Bəzi tədqiqatçılar möhri-humayun adlanan əsas möhürün heç kimdə deyil, şahın özündə saxlandığını yazırlar. Bəzi məlumatlara görə isə, möhri-humayun şahın anasında olurdu, həftə sonlarında şah hərəmxanaya gedir və orada möhürü anasından alıb sənədlərə vururdu.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.224-226; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.256; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.320; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.92; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.118-120.*

MÜƏYYİR əl-MƏMALİK – Səfəvilər sarayında mühüm dövlət vəzifələrindən biri. "Müəyyir" sözünün tərcüməsi əyar vuran deməkdir. Göründüyü kimi, bu vəzifənin daşıyıcısı olan əmir ölkədə zərb edilən sikkələrin əyarına nəzarət edirdi. Bu işdə, o cümlədən sikkələr üçün xammal qızıl tapmaqda *sərrafbaşı* ona kömək edirdi. Sikkəxananın müdiri *zərrabbaşı* ona tabe idi. Sikkələrin hazırlanma prosesi doqquz mərhələdən keçirdi və bu mərhələlər üzrə çalışan ustaların hamısı müəyyir əl-məmalikin əmrlərini qeyd-şərtsiz icra etməli idilər. Dövlətin etibarını təyin edən amillərdən biri də zərb edilən sikkələrin saflığı idi, ona görə də müəyyir əl-məmalik sarayda böyük hörmət sahibi sayılırdı, istədiyi zaman şahın hüzuruna daxil olmaq və sözünü demək hüququ vardı.

Mənbələr: Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.217-220, 257; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.110.

MÜHTƏSİB – Səfəvilər dövlətinin bürokratik aparatında vəzifə. "Hesab" sözündən götürülmüşdür, adından da göründüyü kimi, mühtəsiblər *divanlarda* (dövlət idarələrində) inventarın və mədaxil-məxaricin hesablanması ilə məşğul olurdular. Hər divan qurumunun öz mühtəsibləri vardı, onlar həm iqtisadi, həm də hərbi sferada fəaliyyət göstərirdilər. Məsələn, orduda hərbçilərin sayını, hərbi hissələrin komplektləşdirilməsini, hərbi qulluqçuların vəzifə başında olmasını *ləşkərnəvis* yoxlayır və qeydə alırdı. Məvaciblərin miqdarını, ödənişini isə *sərxətnəvis* nəzarətdə saxlayırdı.
Mühtəsiblər bazarlarda ədəb-ərkanın qorunmasına da nəzarət edirdilər. Sərxoşluq edənlər, qumar oynayanlar, ətrafı zibilləyənlər, söyüş söyüb söz atanlar mühtəsib tərəfindən ciddi cəzalandırılırdı. Günahkarlara qarşı falaqqa və digər üsullar tətbiq edilirdi. Cəzalardan biri də "taxta-külah" adlanırdı, təqsirkarın başına taxta papaq qoyub şəhərdə gəzdirir, rüsvay edirdilər.
Dövlətin ən yüksək vəzifəli mühtəsibi *mühtəsib əl-məmalik* vəzifəsini daşıyırdı.

bax: **MÜHTƏSİB əl-MƏMALİK.**

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.338-339.*

MÜHTƏSİB əl-MƏMALİK – Səfəvilər dövlətində mühüm vəzifələrdən biri. Şəhər bazarlarına nəzarət edirdi. Bazarlarda asayişin qorunması, ticarət zamanı çəkiyə düzgün əməl edilməsi mühtəsib əl-məmalikin məsuliyyətində idi. O, bazarda qiymətləri təsdiq edir, möhtəkirliyin qarşısını almaq üçün tədbirlər görürdü. Mühtəsib əl-məmalik öz səlahiyyətlərini tabeliyindəki çoxlu mühtəsib vasitəsilə həyata keçirirdi.
Mühtəsib əl-məmalikin bütün bölgələrdə nümayəndələri vardı. Vəzifələrinin icrası zamanı asayişi qorumaq və lazım gələrsə fiziki güc tətbiq etmək üçün onlara fərraşlar ayrılırdı.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.338-339.*

MÜQƏRRƏB əl-HƏZRƏT – həzrətin (yəni şahın) yaxını deməkdir. Səfəvi sarayında *müqərrəb əl-xaqan* təbəqəsindən sonra gələn, amma başqalarından daha üstün olan vəzifə sahiblərinə deyilirdi. Tədqiqatçılar bu iki dəstənin arasındakı fərqi tam izah etməyə çətinlik çəkirlər. Müqərrəb əl-həzrət məmurlara aşağıdakı şəxslər aid idi: *hərəm eşikağasıbaşısı, məclis eşikağasıları*, *yasavullar*, *qapuçular*, *naziri-büyutat* və *sahibi-cəmlər*.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.227.*

MÜQƏRRƏB əl-XAQAN – xaqanın (şahın) yaxını deməkdir. Səfəvi sarayında ali dövlət vəzifələrindən (*sədr, vəzir, eşikağasıbaşı, divanbəyi* və s.) sonra o birilərdən daha üstün olan vəzifə sahiblərinə deyilir. Müqərrəb əl-xaqan təbəqəsinə aid olan məmurlar bilavasitə şahın hüzurunda olmaq, onunla eyni məclisdə oturmaq şərəfinə malik idilər, ali məşvərət məclisində (*cəngi*, gənəşik) iştirak edirdilər. Müqərrəb əl-xaqan məmurlara aşağıdakı şəxslər aid idi: *xacəbaşı, həkimbaşı, münəccimbaşı, müəyyir əl-məmalik, münşi əl-məmalik, möhürdar* və *davatdar*.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.208.*

MÜNƏCCİMBAŞI – Səfəvilər sarayında mühüm vəzifələrdən biri. Şaha yaxın məqamlardan sayılır və *müqərrəb əl-xaqan* (hökmdara yaxın) təbəqəsinə aid edilirdi. Şərq dövlətlərinə xas ənənəyə görə, hər bir Səfəvi şahının şəxsi münəccimi olurdu. Münəccimlərdən ötrü ölkənin bir neçə məntəqəsində rəsədxanalar tikilirdi. Bu rəsədxanalarda yüzlərlə alim göy cisimləri üzərində müşahidələr aparır, astronomik cədvəllər tərtib edirdilər.

Mühüm hərbi yürüşlərə çıxmazdan, səfərə getməzdən, mühüm tikinti layihələrinə başlamazdan, özünə təzə paltar tikdirməzdən əvvəl şah mütləq münəccimbaşı ilə məsləhətləşir və bu işlər üçün "uğurlu" tarix seçilirdi. Münəccimbaşı şahın və yüksək dərəcəli əyanların yuxularını yozurdu, Günəş və Ay tutulmaları, təbii fəlakətlər barədə qabaqcadan xəbər verir, bu münasibətlə saray xəzinəsindən sədəqə paylanmasını təşkil edirdi.

I Şah İsmayılın zamanında münəccimbaşı vəzifəsini Mövlana Nəsir Kaşani yerinə yetirirdi. Salnamələrdən məlum olur ki, Səfəvi şahlarının övladı doğularkən onun hansı bürc altında dünyaya gəldiyi və gələcək taleyi də münəccimlərdən soruşulurdu. I Şah Təhmasibin və I Şah Abbasın tərcümeyi-halını yazanlar bu məsələyə diqqət çəkmişlər.

"Tarixi-aləmarayi-Abbasi"də məlumat verilir ki, 1549-cu ildə Xorasanın Qain vilayətinin bəzi kəndlərində güclü zəlzələ olmuşdu. Həmin yerin qazısı Mövlana Baqi həm də münəccim idi və zəlzələ barədə camaata qabaqcadan xəbər-

darlıq etdi. Amma əhali onun sözünü qulaqardına vurub ehtiyat tədbirləri görmədi. Qazı da camaata tabe olmağa məcbur qaldı. Nəticədə zəlzələ o yerin əhalisinə xeyli zərər vurmuşdu.

Yenə həmin kitabda xəbər verilir ki, II Şah İsmayılın ölümündən bir qədər əvvəl Qövs (Oxatan) bürcündə Zuzbabə adlı komet göründü və şah bununla bağlı münəccimlərin fikrini soruşdu. Münəccimlər bu kometin görünməsinin Səfəvi dövləti üçün deyil, Rum ölkəsi (Osmanlı dövləti) üçün təhlükəli olduğunu söyləyib şahın zənnini azdırdılar; hadisədən az sonra şah vəfat etdi.

Səfəvilər dövründə münəccimlərlə bağlı baş vermiş ən mühüm hadisələrdən biri də I Şah Abbasın zamanında *Yusif Tərkeşduzun (Yusif Sərrac)* üçgünlük şahlığıdır.

bax: **YUSİF TƏRKEŞDUZ** (Yusif Sərrac)**.**

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.327; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.264, 442; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.111, 215-216; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.129-130; Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, II, 341-343, 409-410.*

MÜNŞİ – Səfəvilər zamanında divani-inşada çalışan dəftərxana işçilərinə deyilirdi. Münşi əl-məmalikə tabe idilər. *"Mirzə"* anlayışı ilə eyniləşdirilir.

bax: **MÜNŞİ əl-MƏMALİK.**

MÜNŞİ əl-MƏMALİK – Səfəvilər sarayında mühüm dövlət vəzifələrindən biri. Səfəvilər sarayında dəftərxana "divani-inşa" adlanırdı, burada çalışanlara *münşi* və *mirzə* deyirdilər. Münşi əl-məmalik (yəni məmləkətlərin, bölgələrin qeydlərini aparan) *müqərrəb əl-xaqan* (hökmdara yaxın) təbəqəsinə aid idi və ali məşvərət şurasının (*cəngi*, gənəşik) məclislərində iştriak edirdi. Onun rəhbərliyi altında 28 nəfərin xidmət etdiyini yazırlar. Divani-inşaya işə götürülən münşi və mirzələri o yoxlayır, məvaciblərini müəyyən edirdi. Seyidlərin şəcərənaməsi, sufilərin silsiləsi, *soyurqal* və *tiyulların* qeydə alınması, xidmətə götürülmə barədə fərmanlar, məvacib təqdimatları onun nəzarəti altında yazılırdı. Şahın xarici ölkə hökmdarlarına yazdırdığı məktubları münşi əl-məmalik qələmə alır və onlara tuğra çəkirdi. Dövlətin sənəd arxivinin idarəçiliyi də onun ixtiyarına verilmişdi.

Münşi əl-məmalikin digər münşilərdən bir üstünlüyü də bu idi ki, o, şahın məktublarını bilavasitə yazıya alırdı, çünki yazı və tuğralarda mürəkkəb kimi işlədilən qızıl suyundan və qırmızı mürəkkəbdən yalnız o, istifadə edə bilərdi.

Mənbələrdə rast gəlinən vaqeənəvis vəzifəsi ilə bərabərhüquqlu olduğu ehtimal edilir.

Bölgələrdə *vali* və *bəylərbəyilərin* də öz münşiləri vardı və onlara rəis əl-katib deyilirdi.

I Şah İsmayıl dövründə münşi əl-məmalik vəzifəsini Xacə İmadəddin ləqəbli Mir Məhəmməd Hadi Şirazi tuturdu. Azərbaycanlı xəttat *Xacə Ətiq Ordu-*

badi də divani-inşada münşi vəzifəsində çalışmış və tuğrayi-şahi adlı xətt növünü yaratmışdı.

Mənbələr: *Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.117; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.258; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.324-325; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.220-223.*

MUSTOVFİ – Səfəvi dövlət idarəçiliyi bürokratik aparatında məsul vəzifələrdən biri. Mustovfilər dövlətin maliyyə sisteminin əsas əməkdaşları sayılırdılar. Sözün mənası da "hər şeyi əhatə edən" və ya "öz haqqını bütöv şəkildə alan" deməkdir. Divanxanalardakı bütün hesabat işləri mustovfilərin öhdəsində idi. Onlar dövlət qurumlarının, ordunun, əyalətlərin büdcəsini tərtib edir, mədaxil və məxaricini hesablayırdılar. Bütün qeydlər onların möhürlənmiş dəftərlərində aparılırdı. Həm saraydakı divanların hər birində, həm də bölgə hakimlərinin saraylarında mustovfilər xidmət edirdi. Dövlətdə ən yüksək mustovfi vəzifəsi *mustovfi əl-məmalik* sayılırdı.

bax: **MUSTOVFİ əl-MƏMALİK.**

Mənbələr: *Fərhəngi-farsiyi-Müin, III, 2799; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.273.*

MUSTOVFİ əl-MƏMALİK – Səfəvilər zamanında yüksək dövlət vəzifələrindən biri, sarayda yazı və qeydiyyat işləri üzrə ixtisaslaşmış məmur. Onu münşilərin (katiblərin) başçısı da hesab etmək olar. Bütün vilayətlərdə aparılan mühüm alış-verişlər, xəzinəyə daxil olan vergilər onun nəzarətindən keçir, imzası olmayan heç bir maaş, mükafat, vergi sənədi etibarlı sayılmırdı. Bölgələrdəki *vali* və *bəylərbəyilər*, *xan* və *sultanlar* mustovfi əl-məmalikin göndərdiyi sənədlər əsasında hərəkət edirdilər. Hətta onun xəbəri olmadan *vəziri-əzəm (baş vəzir)* maliyyə divanından heç nə ala bilməzdi. Mustovfi əl-məmalik bölgələrdəki məmurlara maliyyə işləri ilə bağlı təlimat da verirdi. Onun əsas fəaliyyət sahəsi vergilərlə bağlı idi; o, idarə vergi aparatının işinə, dövlət büdcəsinin tərtib edilməsinə rəhbərliyi həyata keçirir, vergi siyahılarını təsdiq edirdi. *Nazir-büyutat, sahibi-tovcih, avaracənəvis* kimi nüfuzlu vəzifə sahibləri onun tabeliyi altında fəaliyyət göstərirdilər. Mustovfi əl-məmalik dövlətin maliyyə vəziri sayılırdı və yalnız baş vəzirə tabe idi. Bəzi məlumatlara görə Səfəvilər zamanında mülkiyyətin iki növü (məmalik və xassə) olduğu üçün dövlət idarəçiliyində də mustovfi əl-məmaliklə yanaşı mustovfi əl-xassə vəzifəsi mövcud idi. Bunların birincisi dövlət mülkiyyətinin (divan torpaqları), ikincisi isə səltənət (şah) mülkiyyətinin işlərini aparırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.264-272; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.254-255; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.324; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.113-114.*

NAZİRİ-BÜYUTAT – Səfəvilər zamanında *müqərrəb əl-həzrət* təbəqəsinə aid yüksək dövlət vəzifələrindən biri. *Mustovfi əl-məmalikə* tabe idi. Səfəvi sarayında hər bir qurum (karxana) "beyt" adlanırdı, bunların cəminə "büyutat" deyilirdi. Büyutat işçilərinə və beytlərin *"cəm"* adlanan xəzinələrinə naziri-büyutat nəzarət edirdi. Naziri-büyutat Səfəvilər dövlətində o qədər böyük səlahiyyət sahibi idi ki, bir çox məsələlərdə *baş vəzirlə* paralel çalışır, vəzifələri onunla bölüşürdü. Şah və ailəsi də daxil olmaqla, bütün saray əhlinin xərclərini qeydə alır, saraydakıların yeməyini, geyimini, miniyini, əyləncəsini tədarük edən beytlər (emalatxanalar) onun ayırdığı və təsdiq etdiyi büdcə əsasında fəaliyyət göstərirdi. Bütün məvaciblər, hədiyyə və mükafatlar onun tərəfindən təsdiq edilməli idi. Mətbəxə, toxuma və tikiş atelyelərinə, sikkəxanaya və zərgərxanaya, cəbbəxana və topxanaya, tövlə və ilxıya – ümumilikdə 33 quruma nəzarət etmək baxımından naziri-büyutat əslində sarayın təsərrüfat müdiri funksiyasını yerinə yetirirdi.

Naziri-büyutat vəzifəsinin sahibləri külli miqdarda maddi vəsaitə nəzarət edirdilər, buna görə bəzən əliəyriliyə yol verir və cəzalandırılırdılar.

I Şah İsmayılın zamanında şahdan sonra ən yüksək vəkillik məqamının sahibi olmuş *Nəcmi-sani* (Yar Əhməd Xuzani) bundan əvvəl naziri-büyutat və mustovfi əl-məmalik vəzifələrini icra etmişdi.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.255-256; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.233-244; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.325-326; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.106-109.*

NAZİRİ-DƏVVAB – Səfəvi dövlətində xidməti vəzifə. Adının mənası "yük heyvanlarına nəzarət edən" deməkdir. Bütün ölkədə, o cümlədən saray tövlələrində mövcud olan yük heyvanlarının (at, qatır, dəvə, kəl) hesabı, onlara veterinar qulluğun təşkili naziri-dəvvabın nəzarəti altında idi. Naziri-dəvvab *mir-axurbaşiyi-səhra* ilə əlaqəli şəkildə fəaliyyət göstərirdi, işi çox və məsuluyyətli olduğu üçün maaşı da onun məvacibindən artıq idi.

Minik və yük heyvanlarından əlavə yemlik buynuzlu heyvanlara nəzarət üçün də vəzifə ayrılmışdı, ona naziri-çapar deyirdilər.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.206; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.94-95.*

NƏQBÇİ (nəqqab) – ərəb dilində "nəqb" (lağım) sözündəndir. Səfəvi ordusunda qala mühasirəsi zamanı işə cəlb edilən şəxslərə deyilirdi. Nəqbçilər düşmən qalasına doğru yeraltı lağım qazıyırdılar. Lağım hazır olduqdan sonra döyüşçülər gizlicə yerin altı ilə hərəkət edir və o biri tərəfdən qalanın içinə çıxırdılar. Bəzən lağımı qala divarlarının altına kimi qazıyır, sonra içərisini barıtla doldurub partladırdılar, partlayış nəticəsində

qala divarı dağılır və qoşun həmin yerdən içəri daxil olurdu.

Klassik mənbələrdən məlum olur ki, nəqbçi işinə ordudan kənar mülki şəxslər cəlb edilirdi. 1585-ci ildə Osmanlıların əlində olan Təbrizin mühasirəsi zamanı Azərbaycan məmləkətindən "belvuran (yerqazan) və külüngdar adamları" qala ətrafına gətirmək üçün fərman verilmişdi. Qala divarlarına atəş açmaq üçün iri top hazır olanadək qala kənarındakı "Həsən padşah mədrəsəsinin ortasından lağım atmaq qərarına gəldilər ki, bu lağım qalanın ortasına gedib çatmış olsun. Dəmir pəncəli lağımçılar (nəqbçilər) lağım atmaq işinə başladılar" ("Tarixi-aləmarayi-Abbasi" kitabından). Lağım əməliyyatı bəzən uğursuzluqla da nəticələnirdi. Təbrizin mühasirəsi zamanı nəqbçilər bir müddət işlədikdən sonra lağımın o biri tərəfindən çıxarkən hesabatın düzgün aparılmadığını və istədikləri yerə çıxmadıqlarını gördülər. Bundan sonra top hazırlananadək işləri bir qədər təxirə salmağı qərara aldılar. Bu zaman Osmanlıların tərəfinə keçən *qorçubaşı* Qulu bəy Əfşar və qardaşı oğlu Cabbarqulu bəy onlara lağım haqqında məlumat verdilər. Osmanlılar lağımın o biri başını aşkar etdikdən sonra yerin altı ilə gəlib lağımın girişindən çıxdılar. Səfəvi düşərgəsinə qarışıqlıq düşdü, qəfil hücum zamanı xeyli itki baş verdi. Osmanlı döyüşçüləri gəldikləri yolla qayıtdılar, mühasirəyə başçılıq edən şahzadə *Həmzə Mirzə* əmr verdi ki, lağıma saman doldurub odlasınlar, sonra da içərisini su ilə doldursunlar. Nəticədə üç aylıq zəhmətin məhsulu olan lağım dağıdıldı. Bu hadisəni Təbriz mühasirəsinin iştirakçısı olan *Oruc bəy Bayat* da öz kitabında təsvir etmişdir.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.616-620; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.223-224; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.49.*

OVÇUBAŞI – *bax:* **MİRŞİKARBAŞI.**

OXÇU – qızılbaş ordusunda hərbi vəzifə. Oxçular ordunun mühüm hissəsini təşkil edir, bəzən döyüşlərdə həlledici rol oynayırdılar. Səfəvi ordusunda həm piyadalar, həm də süvarilər ox-yayla silahlanırdılar. Hətta bəzi Qərb səyyahları Səfəvi ordusunun elit birliyi və şahın şəxsi qvardiyası olan *qorçuları* süvari oxçu adlandırmışlar.

Yay (kaman) buynuzdan və ya çinar ağacından hazırlanır, heyvan mənşəli əzələlərlə birləşdirilir, üzərinə ağac qabığından üzlük çəkilirdi. Səfəvi yayları çox sərt olur, onu gərmək döyüşçüdən böyük fiziki güc tələb edirdi. Yayın möhkəmliyini yoxlamaq üçün ona yük bağlayıb divardan asırdılar. Yayın kirişi qələm qalınlığında ipək saplardan toxunurdu. Oxlar möhkəm qamışdan hazırlanır, ucuna metal ucluq taxılırdı. Səfəvi oxçuları düşmənin qalın zirehini oxla deşməyə qadir idilər. Bəzən mahir oxatanlar öz oxlarının üzərinə adlarını yazırdılar. Ox və yay qabları (sadaq) dəridən hazırlanır, üzərinə bəzək vurulurdu. Səfəvilər dövlətində səfərdə olmuş Qərb

səyyahları buradakı ox-yay ustalarının məharətini çox tərifləmişlər.
Səfəvi ordusunda istifadədə olan yaylar adətən qısa olurdu, bu da süvari halda ox atmağı asanlaşdırırdı. Çevik atlı dəstələri lazım olan anda ox atmağı dayandırıb qılınc döyüşünə keçə bilirdilər.
Oxçular barmaqlarını zədələnməkdən qorumaq üçün zihgir taxırdılar. Barmağa taxılan üskük şəkilli zihgir mərmər, yəşim və ya əqiqdən yonulurdu.
Adi ox-yaydan əlavə, Səfəvi qoşununda tatar yayı adlanan, Avropa ordusundakı arbaletə uyğun gələn silah da istifadədə idi. Tatar yayının kirişi əllə deyil, xüsusi alətlə dartılırdı. Tatar yayı adi kamana nisbətən daha dəqiq nişan almağa, daha uzaq məsafəyə sərrast və öldürücü atəş açmağa imkan verirdi.
Səfəvi şahlarının şəxsi silahlarına da ox-yay daxil idi, sarayda xidmət edən ox-yay qorçusu və sadaq (ox-yay qabı, tirkeş) qorçusu şaha məxsus bu silahları daşıyırdı.
Odlu silahın geniş yayılması nəticəsində ox-yay Səfəvi ordusunda əvvəlki rolunu itirsə də, tam ləğv edilməmişdi.
Döyüşçülərin oxçuluq məharətini artırmaq üçün Səfəvilər dövründə tez-tez *"qabaq oyunu"* adlı əyləncə-idman tədbiri keçirilirdi.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.175-177; Eralp Erdoğan. Safevilerde Okçuluk ve Kabak Oyunu'na Genel Bir Bakış ("Türk Tarihine Dair Yazilar II"), s.741-745.*

SAHİBCƏM – Səfəvilər dövlətində mühüm vəzifə. "Cəm" sözü toplamaq mənasını verirdi, Səfəvilər zamanında inventarı olan maliyyə qurumları (beytlər, büyutat) bu cür adlandırılırdı. Cəmlərə sahibcəmlər başçılıq edirdi. Sahibcəmlər dürüst və etibarlı şəxslərdən seçilirdi. Tarixi mənbələrdə *müqərrəb əlhəzrət* (şaha ən yaxın) təbəqəsindən 18 sahibcəm vəzifəsi haqqında məlumat verilir; bunlardan əlavə, daha aşağı səviyyəli digər sahibcəmlər də vardı. Müqərrəb əl-həzrət sahibcəmlər aşağıdakılardan ibarətdir:
1. *Xəzinədari*-xəzineyi-amirə (şaha məxsus olan xüsusi xəzinənin müdiri);
2. *Cəbbədarbaşı* (silah-sursat anbarının müdiri);
3. Qayçıxaneyi-xassə başçısı (şah və hakim sülalə üzvləri üçün geyimlərin tikildiyi dərzi emalatxanasının rəhbəri);
4. Qayçıxaneyi-ümərа başçısı (əmirlər üçün geyimlərin tikildiyi dərzi emalatxanasının rəhbəri, *qayçıdarbaşı*);
5. *Fərraşbaşı* (saray xidmətçilərinə başçılıq edir, inventarı nəzarətdə saxlayırdı);
6. Sahibcəmi-meyvəxana (sarayın meyvə və çərəz təminatının müdiri);
7. Sahibcəmi-ğənat (vəzifənin mahiyyəti aydın deyildir);
8. Sahibcəmi-abdarxana (sarayın su təchizatını idarə edirdi);
9. Sahibcəmi-şütürxan (dəvə sürülərinə nəzarət edirdi);
10. Sahibcəmi-qəhvəxana (sarayın istirahət guşəsi olan qəhvəxana bölümünün müdiri);
11. Mustovfiyi-ərbabi-təhavil (büdcə ödənişlərinin hesabatını aparırdı);
12. Sahibcəmi-rikabxana (şahın şəxsi əşyalarının və geyiminin nəzarətçisi idi);
13. *Məşələdarbaşı* (sarayın istilik və işıq-

landırma sisteminə, əyləncə və pirotexnika vasitələrinə nəzarət edirdi);
14. Sahibcəmi-anbar;
15. Sahibcəmi-istəbl (sahibcəmi-anbarla birlikdə yem, arpa-saman anbarına nəzarət edirdi);
16. Sahibcəmi-şərbətxaneyi-xassə (sarayın içəcəklərlə təminat müdiri);
17. *Zərrabibaşı* (pul sikkələrinin zərb edildiyi emalatxananın müdiri);
18. *Sərrafbaşı* (zərbxananın bahalı metalla təminatı və qızılın əyarının təyini ilə məşğul idi).

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.245-257; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.125-133.*

SAHİBİ-TOVCİH – Səfəvilər zamanında dövlət məmuru, ödəniş idarəsinin başçısı. *Mustovfi əl-məmalikin* tabeliyində fəaliyyət göstərən sahibi-tovcih əsasən vergilərin qeydiyyatı ilə məşğul olurdu. O, nəzarət edirdi ki, şahın fərmanına əsasən təyin edilən vergilər bölgələrdəki məmurlar tərəfindən artırılıb-azaldılmasın. Borclu torpaq sahiblərinin ödədiyi borc məbləğləri də sahibi-tovcihin dəftərində qeydə alınırdı. O, şahın xüsusi əmlakını, miras mülklərini də yazırdı. Sahibi-tovcih *münşilərdən* sayılırdı və dəftərxanada çalışırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.282-284; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.261.*

SAMİRRA DÖYÜŞÜ (1733) – 1733-cü ilin iyulunda Səfəvilər dövlətinin sərkərdəsi kimi fəaliyyət göstərən *Nadir xan Əfşarla* Osmanlı ordusu arasında baş vermiş və Osmanlıların qələbəsi ilə başa çatmış döyüş. Samirra savaşı Nadirin hərbi karyerasında yeganə məğlubiyyət sayılır.

1733-cü ilin əvvəllərindən etibarən Nadir xan Bağdad şəhərini mühasirəyə aldı. Qala qarnizonu uzun mühasirədən yorularaq təslim olmağa hazırlaşanda Topal Osman paşanın başçılığı altında 80 min nəfər yeniçəridən və 100 topdan ibarət böyük bir ordunun Bağdada köməyə gəlməsi xəbəri yayıldı. Nadir xan qoşunun bir hissəsini mühasirəni davam etdirmək üçün saxlayıb 70 min nəfərlə Samirra yaxınlığında düşməni qarşıladı (19 iyul 1733-cü il). Osman paşa Dəclə çayının sahilində əlverişli mövqe tutmuşdu. O, gizlicə ordunun ehtiyat bölümünü gücləndirdi. Nadir xan Osmanlıların sol cinahına hücum etdi, lakin burada ciddi müqavimətlə qarşılaşdı. Bundan sonra o, 50 min nəfərlə Osmanlı ordusunun mərkəzinə hücum çəkdi, amma burada onu gizləndiyi yerdən çıxan ehtiyat qoşun gözləyirdi. Səfəvi ordusunun susuzluğu, onların istiqamətində qopan səhra tufanı kimi amillər döyüşün taleyinə təsir etdi. Savaş meydanına çıxan Nadirin atdan yıxılması da əsgərlərdə ruh düşkünlüyü yaratdı. Beləliklə, ordusunun yarısını itirən Nadir xan Samirra döyüşündə həyatında yeganə məğlubiyyəti yaşadı.

Samirra döyüşünü bəzi mənbələrdə Ducum savaşı adlandırırlar.

Mənbələr: *L.Lockhart. Nadir şah (farsca tərcümə: Müşfiq Həmədani), s.97-106; M.Sü-*

leymanov. Nadir şah, s.230-252; Enver Cebeci. Topal Osman Paşa ve Osmanlı-İran Savaşlarındakı Rolü (1664-1733) (Yüksek Lisans Tezi), s.60-75.

SƏDR – Səfəvilər dövlətində ən yüksək vəzifələrdən biri. Səfəvilərdən əvvəl Teymuri, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində də sədr vəzifəsi mövcud olmuşdur. Sədrin funksiyası dövlətin dini siyasətinin həyata keçirilməsinə başçılıq etməkdən ibarət idi. O, dini idarəyə rəhbərlik edir, bölgələrdə mərkəzi hakimiyyətə qarşı baş verən hərəkatların yatırılması, şiə ideologiyasının yayılması və gücləndirilməsi üçün məsuliyyət daşıyırdı. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" əsərində qeyd edir ki, Səfəvilər zamanında sədrin vəzifəsi seyidləri və ruhaniləri himayə etmək, onların işlərinə cavabdeh olmaq, *vəqflərin* idarə olunması və şəriətin yayılması üçün vəsaitləri xərcləməkdən ibarət idi. Bu vəzifəyə yüksək dərəcəli və təqvalı seyidlərdən savayı kimsəni təyin etməzdilər.

Səfəvilər dövründə sədr vəzifəsinə təyinat almış ilk şəxs *Mövlana Şəmsəddin Lahici (Gilani)* olmuşdur. I Şah İsmayıl Lahicanda, Kərkiya Mirzə Əlinin sarayında qalarkən Mövlana Şəmsəddin ona tərbiyə vermiş, Quran oxumağı öyrətmişdi. Mövlana Şəmsəddin 1501-cı ildə sədr təyin olunmuş və təqribən üç il bu vəzifəni icra etmişdir. I Şah İsmayılın zamanındakı növbəti sədrlər bu şəxslərdən ibarət idi: Qazi Məhəmməd Kaşani, Seyid Şərifəddin Əli Şirazi, *Əmir Nizaməddin Əbdülbaqi Yəzdi*. Sonuncu 1514-cü ildə *Çaldıran savaşında* həlak olduqdan sonra sədrlik məqamı bir müddət boş qaldı. Daha sonralar Azərbaycanın tanınmış seyidlərindən olan Şəhabəddin Abdulla Lalə və Əmir Cəmaləddin Məhəmməd Astarabadi vəzifəyə gətirildilər. Sonrakı dövrlərdə sədrlik vəzifəsini bəzən iki nəfər icra edirdi. Bəzi tədqiqatçılar bunu sədrlərin öz vəzifəsindən suiistifadə etmə hallarının qarşısını almaq cəhdi kimi dəyərləndirirlər. Amma, ehtimala görə, eyni zamanda sədrlik etmiş şəxslərin səlahiyyətləri tam bərabər deyildi, hər birinin fərqli fəaliyyət dairəsi vardı. Bəzi mənbələrdə sədri-xassə (xüsusi, daha üstün) və sədri-ammə (ümumi) vəzifələrindən bəhs edilir. Ola bilər ki, bu iki vəzifənin sahiblərinin birinə *divan* (dövlət) torpaqlarının, o birinə isə xassə (səltənət) torpaqlarının idarəçiliyi tapşırılırdı. Səfəvi hakimiyyətinin müəyyən dövründə isə sədrlərin səlahiyyəti ərazilər üzrə bölünürdü. İraq, Fars, Xuzistan və Şirvan bölgələrinə bir sədr, Xorasan və Azərbaycan bölgələrinə isə digər sədr nəzarət edirdi.

Sarayda *sədri-əzəm (baş sədr)* vəzifəsi şahın ən yaxın adamı sayılırdı. Bölgələrdə sədarət qurumunun nümayəndələri fəaliyyət göstərirdi. Bəzi ağır cinayətlərin məhkəməsi sədrin iştirakı olmadan keçirilə bilməzdi.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.251-254; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.314; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.402-409; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.311; Z.Bayramlı. Azərbaycan Səfəvi*

dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.164-171; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.153; Emin Kırkıl. Şah İsmail Dönemi İktidar Mücadelelerinde İki Dinsel Kurum ("Alevilik Araştırmaları" Dergisi, Yaz 2012, Sayı: 3), s.177-184.

SƏFƏVİ-AĞQOYUNLU MÜHARİBƏLƏRİ – Hələ XV əsrin ortalarında *Şeyx Cüneyd* Ağqoyunlu hökmdarı *Uzun Həsənin* simasında güclü bir müttəfiq qazanmış, özünün və tərəfdarlarının təqiblərdən qorunması, tədricən güclənməsi və təsir dairəsini genişləndirməsi üçün imkan əldə etmişdi. 1460-cı ilin yazında Şeyx Cüneyd həlak olanda bir yaşı tamam olmamış oğlu Heydər onun yerini tutdu. Səfəvilərlə münasibət Uzun Həsənin Azərbaycan Qaraqoyunlu dövlətinə son qoyaraq Təbrizdə möhkəmlənməsi ilə daha da gücləndi. 1470-ci ildə Uzun Həsən bacısı oğlunu – 10 yaşlı *Şeyx Heydəri* Ərdəbildə *səfəviyyə təriqətinin* rəhbərliyinə gətirdi. Uzun Həsənin qızı *Aləmşah bəyimlə* evlənməsi nəticəsində Şeyx Heydərin siyasi nüfuzu daha da artdı. Uzun Həsənin ölümündən sonra Şeyx Heydər atasının yolunu davam etdirmək üçün başladığı fəaliyyəti tədricən daha da siyasiləşdirdi və *müridlərini* silahlandırmağa başladı, lakin daha ehtiyatla davranaraq Şirvanşaha qarşı birdən-birə hücuma keçməyə cürət etmədi. Şeyx Heydərin çərkəzlər üzərinə ilk yürüşləri uğurlu olmuş, onun artmaqda olan nüfuzu Ağqoyunlu hökmdarı Sultan Yaqubu təşvişə salmışdı. 1488-ci il iyulun 9-da Şeyx Heydər Tabasarana üçüncü yürüşü zamanı Şahdağın ətəklərində Ağqoyunluların, şirvanlıların və tabasaranlıların birləşmiş qüvvələri ilə döyüşdə öldürüldü.

Bundan sonra Uzun Həsənin oğlu Sultan Yaqubun əmri ilə Şeyx Heydərin Ərdəbildə olan üç oğlu anaları ilə birlikdə həbs edilərək Şiraz yaxınlığındakı İstəxr qalasında zindana salındı. 1492-ci ilin mayında Uzun Həsənin nəvəsi Rüstəm padşah hakimiyyətə gəldi. O, Şeyx Heydərin ailəsini həbsdən azad edərək Təbrizə gətirdi. Onun məqsədi Ağqoyunlu şahzadəsi Baysunqura qarşı mübarizədə qızılbaşların köməyindən yararlanmaq idi. Şeyx Heydərin böyük oğlu *Sultan Əli Mirzənin* başçılığı altında qızılbaşlar Baysunqur üzərində qələbə qazandılar. Bundan sonra Sultan Əli Mirzəni öz hakimiyyəti üçün təhlükə hesab edən Rüstəm padşah onu və qardaşlarını aradan götürmək fikrinə düşdü. Bu plandan xəbər tutan Sultan Əli Mirzə qardaşları və yaxın silahdaşları ilə birlikdə qaçdı, amma Ərdəbil yaxınlığında Ağqoyunlu qüvvələri tərəfindən haqlanaraq öldürüldü. Həlak olmazdan əvvəl o, qızılbaş əmirlərini toplayıb kiçik qardaşı İsmayılı varis təyin etdi.

Səfəvi müridləri Şeyx Heydərin oğulları İbrahim və İsmayılı 40 gün ərzində Ərdəbil şəhərində Ağqoyunlulardan gizlətdilər. Daha sonra İsmayıl Lahicanda, Gilanın Biyəpiş hakimi Mirzə Əli Kərkiyanın sarayında 6 ilə yaxın qaldı. Bu dövrdə Ağqoyunlu taxt-tacı uğrunda davam edən mübarizə Səfəvilərin güclənməsinə şərait yaratdı. 1499-cu ilin avqustunda İsmayıl yaxın silahdaşları ilə Lahicandan Ərdəbilə, oradan Astaraya

gəldi, 1500-cü ilin yazında özünə tərəfdar toplamaq üçün Ərzincana yürüş etdi. Həmin ilin sonunda *Cabanı döyüşündə* Şirvanşah Fərrux Yasar öldürüldü, Şamaxı və Bakı ələ keçirildi.

Ağqoyunlu Əlvəndin qızılbaşların Kürü keçməsinə mane olmaq, habelə Gəncə, Qarabağ, Ərdəbil və Qaradağ bölgələrini İsmayıla qarşı ayağa qaldırmaq cəhdi baş tutmadı. Ağqoyunluları qabaqlayaraq Kürü keçən qızılbaş qoşunu sürətli həmlə ilə Naxçıvana doğru yönəldi. Tozqoparan ləqəbli *Qara Piri bəy Qacarın* və *İlyas bəy Halvaçıoğlunun* başçılıq etdikləri qızılbaş avanqard dəstəsi Ağqoyunlu sərkərdəsi Osman bəy Mosullunu məğlub edib əsir tutdu. 1501-ci ilin payızında Naxçıvan yaxınlığındakı Şərur düzündə təqribən 7 min döyüşçüdən ibarət qızılbaş qoşunu Ağqoyunlu Əlvənd Mirzənin 30 minlik ordusunu məğlubiyyətə uğratdı. Bunun ardınca İsmayıl Təbrizdə şah elan edildi.

Şərur məğlubiyyətindən sonra Əlvənd Mirzə Əlaüddövlə Zülqədərin yardımı ilə Ərzincanda yeni döyüş üçün əsgər toplamağa başladı. O, Təbrizlə Şərqi Anadolu arasındakı köç və ziyarət yolunu bağlamışdı. Buna görə I Şah İsmayıl 1502-ci ilin mayında Ərzincana yürüş etdi, Əlvəndın qoşunu məğlub olub qaçdı. Əlvənd Mirzə Təbrizdə qarət törətsə də, Səfəvi qoşununun gəlişini eşidib Həmədan yolu ilə Bağdada qaçdı. Əlvənd Mirzə üzərindəki qələbədən sonra I Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin 1499-1502-ci illəri əhatə edən və Azərbaycanın birləşdirilməsi məqsədini daşıyan ilk mərhələsi başa çatdı.

I Şah İsmayıl özünü babası Uzun Həsənin qanuni varisi hesab etdiyi üçün cənubdakı Ağqoyunlu hakimlərinə məktub yazaraq itaət göstərmələrini tələb etdi və tabe olacaqları təqdirdə hakim olduqları ərazilərin onların ixtiyarında qalacağına söz verdi. Bu hakimlərdən ən təhlükəlisi 70 minlik ordu toplamış Ağqoyunlu Sultan Murad idi. O, Osmanlı dövlətinə güvənərək itaət göstərməkdən imtina etdi. 1503-cü ilin yayında Həmədan yaxınlığında baş vermiş *Almabulağı döyüşündə* Sultan Muradın ordusu qızılbaşlara məğlub oldu. Adlı-sanlı Ağqoyunlu əmirləri döyüşdə öldürüldü, 10 min itki verən Sultan Murad qaçıb xilas ola bildi.

Səfəvilərin tərəfinə keçən Ağqoyunlu əmiri Mənsur bəy Pörnak və İlyas bəy Halvaçıoğlu Şiraza qaçmış Sultan Muradın üzərinə göndərildilər. Sultan Murad əvvəlcə Şüştərə sığındı, daha sonra Bağdada doğru gerilədi. Bununla da Fars və Əcəm İraqının fəth edilməsi mərhələsi də uğurla sona çatdı, İsfahan, Kaşan, Qum, Yəzd, Kirman, Şiraz, Kazerun və Şüştər bölgələri qızılbaş ordusunun əlinə keçdi.

1507-ci ildə I Şah İsmayıl Sultan Muradın müttəfiqi olan *Zülqədəroğulları bəyliyinin* qoşununu məğlub etdi, Şərqi Anadolu Səfəvilər dövlətinin tərkibinə qatıldı, bir sıra keçmiş Ağqoyunlu əmiri Səfəvi hakimiyyəti altına keçdi. 1508-ci ildə Şah İsmayılın həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Sultan Muradın sığındığı Bağdad da daxil olmaqla Ərəb İraqı qızılbaşlar tərəfindən fəth edildi. Bununla da vaxtilə Ağqoyunlu

dövlətinin tərkibində olmuş bütün torpaqlar Səfəvi bayrağı altında birləşdi.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, I, 83-102; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar, s.33-37; Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.373-400; K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara), s.80-87; О.Эфендиев. Образование Азербайджанского государства Сефевидов в начале XVI века, стр.72-96; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.49-51; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında), s.104-110, 132-152, 160-167; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.21-31; T.Gündüz. Son Kızılbaş Şah İsmayıl, s.29-51, 65-67; H.R.Roemer. Kızılbaş Türkmenler: Safevi Teokrasisinin Kurucuları ve Kurbanları, s.85; T.H.Nəcəfli. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, s.265-280.*

SƏFƏVİ BAYRAQLARI – Səfəvi ordusunda müxtəlif formalı və yazılı bayraqlardan istifadə edilirdi. Hərbi yürüşlərdə üzərində “Ya Əli vəliyullah mədəd” yazılmış qəhvəyi haşiyəli üçbucaq formalı ağ bayraqlar qaldırırdılar. Səfəvilərdə qırmızı rəngli döyüş bayraqları da vardı. Bunu Şah İsmayıl Xətainin aşağıdakı misraları təsdiq edir:

Qızıl ələm, qızıl bayraq, qızıl tac
Geyinsə qazilər, ol gün həzərdir.
(Ş.İ.Xətai)

Səfəvi bayraqlarının üzərində qırmızı rəngli *Zülfüqar* qılıncı da təsvir edilirdi. Zülfüqar İmam Əliyə (ə) məxsus qılınc olmaqla həm şiəliyi, həm də qətiyyət və gücü simvolizə edirdi. Bəzən Səfəvilər dövlətinin iriölçülü mərasim bayraqları beşbucaqlı formaya malik olurdu. Qırmızı haşiyəli bu bayrağın mərkəzində Zülfüqar təsviri çəkilir və dini şüarlar yazılırdı.

Qızılbaş ordusunun bəzi bayraqlarının üzərində ay-ulduz təsviri vardı. *Çaldıran döyüşündən* sonra isə üzərində “Əlqisas” yazılmış qara bayraqlara rast gəlinirdi.

Səfəvilər dövrünün bayraqları haqqında ən dolğun və düzgün məlumat verən mənbələrdən biri də həmin dövrdə yaradılmış miniatür rəsmlərdir. Səfəvilər dövrünün rəssamları şahidi olduqları hadisələri təsvir edərkən bayraqlara da yer ayırmağı unutmurdular. Səfəvi ordusunun və şahların şücaətini əks etdirən döyüş səhnələrində, səfirlərin qəbul mərasimlərinin təsvirində fərqli ölçü və rənglərə malik bayraq rəsmlərini görürük.

İlk Səfəvi hökmdarı I Şah İsmayılın şəxsi bayrağı (standart) iri ağ qumaş parçadan hazırlanmışdı. Bayrağın üzərində Qurani-Kərimin “Səf” surəsinin 13-cü ayəsi həkk edilmişdi: “Nəsrun min Allahi və fəthun qərib” (Kömək Allahdandır, fəth (qələbə) yaxındır).

Səfəvilərin əsas dövlət bayrağı yaşıl rəngli dördbucaqlı parçadan ibarət idi. Bayrağın yuxarı hissəsində ortada sarı rəngli dairə vardı, bu dairə Günəşi simvolizə edirdi. Hələ I Şah İsmayıl dövrünə aid mənbələrdə qızılbaş qoşununun yaşıl bayraq qaldırması barədə məlumatlar mövcuddur.

I Şah Təhmasibin zamanında yaşıl fon üzərində qoç və onun arxasında yüksəlməkdə olan Günəş təsviri dövlət bay-

rağı oldu. Bayrağın üzərindəki qoç təsvirini I Şah Təhmasibin astroloji təqvimi (zayicə) ilə bağlayırlar.
Ehtimala görə, Səfəvilər bayrağına aslan və Günəş *(şirü xurşid)* təsviri I Şah Abbasın zamanında daxil edilmişdir.
Səfəvi ordusunda hər bayraq min nəfərin əlaməti sayılırdı. Uzaqdan gələn dəstənin bayraqlarını saymaqla əsgərlərin sayını bilirdilər.
Səfəvi ordusunda bayraqları gəzdirən şəxslərə *ələmdar* deyilirdi. Ələmdarlıq ən məsuliyyətli və şərəfli vəzifələrdən sayılırdı. Onların başçısı olan *ələmdarbaşı* şahın əsas bayrağını gəzdirirdi.
bax: **ŞİRÜ XURSİD.**

Mənbələr: *Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin bayraqlarına dair, "Geostrategiya" ictimai-siyasi, elmi-populyar jurnalı, iyul-avqust 2017, №4 (40), s.11-16; MEB İslam Ansiklopedisi ("arslan" maddəsi), I, 608; Həmid Neyyir Nuri. Hicri XIII əsrin əvvəlindən indiyə kimi İran bayrağı və simvollarının dəyişiklik və inkişaf tarixçəsi, "Hünər və mərdüm" dərgisi, 1347 h.-ş., №47, s.73; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.322-323.*

SƏFƏVİ-BUXARA XANLIĞI MÜNASİBƏTLƏRİ – Xorasan Səfəvilərin hakimiyyəti altına keçdikdən sonra Səfəvilərlə Buxara xanları arasında münasibətlər gərgin olaraq qalırdı. Həştərxanilər sülaləsindən olan Baqi Məhəmməd xanın (1599-1605) Pir Məhəmməd üzərində qələbə qazanaraq Buxarada möhkəmlənməsi tərəflər arasında gərginliyi daha da artırdı. Bundan sonra I Şah Abbas keçmiş Şeybani mülkləri ilə bağlı planlarını həyata keçirmək üçün taktikanı bir qədər dəyişdi. O, Canı bəy oğullarından Məhəmməd İbrahimi Bəlxdə taxta çıxarmaqda qərarlı idi. 1600-cü ilin iyul ayında I Şah Abbasın yardımı ilə Məhəmməd İbrahim keçmiş *Şeybanilər* dövlətinin ən vacib bölgələrindən birini təşkil edən Bəlxin hakimi oldu. Lakin o, Bəlxdə yalnız bir il hökm sürdükdən sonra öldü, 1601-ci ilin noyabrında qardaşı Vəli Məhəmməd xan onun yerini tutdu.
Bu zaman I Şah Abbas Mərv hakimi Nur Məhəmməd xanın Baqi Məhəmməd xanla sıx əlaqələrinin olduğunu öyrəndi. Nur Məhəmməd xanın şahın çağırışına cavab verməməsi, hüzuruna gəlməkdən inadla imtina etməsi I Şah Abbası onun Mərvdəki müstəqil hakimiyyətinə son qoymağa vadar etdi. Əbivərd qalasının fəthindən sonra Səfəvi ordusu Mərv ətrafında düşərgə qurdu. Qızılbaş ordusunun gəlişindən və Əbivərd qalasının fəth olunmasından xəbər tutan Nur Məhəmməd xan təslim olmaqdan başqa çıxış yolu görmədi. O, *Hatəm xan Ordubadinin* və Bistam ağanın müşayiəti ilə şahın hüzuruna gələrək təslim oldu. Beləliklə, uzun illər boyunca Səfəvilərin tabeliyindən çıxmış Mərv şəhəri yenidən onların nəzarətinə keçdi.
I Şah Abbas Mərv başda olmaqla, Xarəzmin cənubundakı bölgələrdə vəziyyəti öz xeyrinə dəyişdirdi və bu yerlərə adamlarını təyin etdi. Artıq Mavəraünnəhrə yürüş etmək üçün heç bir maneə qalmamışdı. Münbit, təbii resurslarla zəngin və iqtisadi cəhətdən inkişaf etmiş Bəlxə yiyələnməklə Səfəvi dövləti əlve-

rişli hərbi-strateji mövqelər əldə edəcək, həm də özbək xanlıqlarının əsas mərkəzlərini – Buxara və Səmərqəndi təhdid etmək fürsəti qazanacaqdı. Lakin I Şah Abbasın 1602-ci ildə təşkil etdiyi Bəlx səfəri uğursuz oldu. Səfəvi ordusu Əndixud və Şibirğandan keçib Bəlxə yaxınlaşdı. İsti hava şəraiti, su və təchizat çatışmazlığı, yorğunluq və xəstəlik şahı döyüşə girmədən geri çəkilməyə vadar etdi.

Səfəvilərin Bəlxi ələ keçirmək təşəbbüsünün uğursuz olması özbək əmirlərinin mövqeyini xeyli gücləndirdi və onların Xorasana növbəti hücumlarına şərait yaratdı. 1607-ci ilin payızında Vəli Məhəmməd xanın qoşunu Mərvi və Bağdisi qarət etməyə çalışsa da, uğur qazana bilmədi.

İmamqulu xanın (1611-1641) Buxara taxtında möhkəmlənməsi nəticəsində Səfəvi imperiyası ilə münasibətlərdə uzunmüddətli sakitlik dövrü başlandı. Lakin Səfəvi-Osmanlı müharibəsindən istifadə edən Bəlx hakimi Nədr Məhəmməd xanın Xorasana talançı hücumları iki dövlət arasındakı münasibətləri gərginləşdirdi. 1620-ci ildə I Şah Abbas özbəkləri cəzalandırmaq üçün Xorasan istiqamətində yürüşə çıxdı. Səfəvi ordusunun gəlişindən xəbər tutan özbək xanları peşmançılıqla üzr istəməyə başladılar. 1621-ci ildə Şah Abbasla İmamqulu xan arasında barışıq imzalanması nəticəsində Buxara və Bəlx istiqamətindən Səfəvi torpaqlarına hücumlar dayandırıldı, dağıdılmış şəhər və kəndləri bərpa etməyə imkan yarandı. I Şah Abbasın ölümünə (1629) qədər Buxara xanlığı ilə Səfəvilər arasında qarşıdurma baş verməsi, sülh şəraiti qorunub saxlanıldı.

Mənbələr: *İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1100-1103, 1129-1145, 1513-1514, 1595-1596; A.Burton. The Bukharans: a dynastic, diplomatik and commercial history 1550-1702, p.116-117, 127-136, 151-162; T.H.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.211-215; T.H.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin Türküstan xanlıqları ilə siyasi əlaqələri, s.141-142, 155-158, 178-180, 191-192; M.Süleymanov. Səfəvilər (I Şah Abbas), VII, 485-488; C.Aydoğmuşoğlu. Şah Abbas ve Zamanı, s.208-219; Систани Малик-шах-Хусайн. Хроника воскрешения царей, стр. 360-361; Муниш Мухаммад Юсуф. Мукимханская история, стр.81; Н.Д.Миклухо-Маклай. Балхский поход шаха Аббаса I, стр.159-160; Н.Н.Туманович. Герат в XVI-XVIII веках, стр.141-151.*

SƏFƏVİ-ƏFQAN MÜHARİBƏSİ – XVIII əsrin əvvəllərində Səfəvi imperiyasını çoxsaylı qiyamlar bürümüşdü. Bunların arasında Qəndəhar vilayətində məskunlaşmış ğilzayi əfqan tayfasının üsyanı daha geniş miqyas aldı. 1709-cu ildə ğilzayi tayfa başçısı Mir Üveys xan gürcü mənşəli Səfəvi valisi Şahnəvaz (Gorgin) xanı öldürərək Qəndəharda hakimiyyəti ələ keçirdi. Mir Üveysi cəzalandırmaq üçün göndərilən qoşuna Şahnəvaz xanın qardaşı oğlu, İsfahan darğası Keyxosrov xan komandan təyin edildi. Onun sərəncamında 12 min nəfərlik qızılbaş və gürcü kontingenti var idi. Heratda əfqan abdali tayfa başçısı Abdullah xan Sədozayi da öz qüvvələri ilə ona birləşdi. İki aylıq mühasirədən

sonra Mir Üveys Qəndəhar qalasını təslim etmək haqqında Keyxosrovun tələbini rədd etdi. Dezinteriya epidemiyası, eləcə də əfqanların ətraf yaşayış məntəqələrindəki ərzaq ehtiyatını məhv etmələri nəticəsində Səfəvi qoşunu zəifləyərək mühasirəni dayandırdı. 1711-ci ilin oktyabrında geri çəkilən Keyxosrov xan Mir Üveysin qüvvələri tərəfindən hücuma məruz qaldı. Toqquşma zamanı şah ordusu mərdliklə vuruşsa da, Keyxosrovun atdan yıxılması və Abdullah xanın tabeliyindəki abdali qüvvələrin döyüş meydanından qaçması döyüşün taleyini həll etdi. Səfəvi ordusu ciddi itki verdi, bütün sursat və cəbbəxana üsyançıların əlinə keçdi.

Bu məğlubiyyət İsfahanda böyük təşvişə səbəb oldu. Uzun müzakirələrdən sonra Mir Üveysə qarşı yaşlı *qorçubaşı* Məhəmməd Zaman xan Şamlunun göndərilməsi qərara alındı. Lakin bu ekspedisiya da uğursuz oldu. Məhəmməd Zaman xan Məşhəddə xəstələnərək Heratda vəfat etdi, Səfəvi ordusu döyüşə girmədən dağıldı. Bu vəziyyət Mir Üveysin ölənə kimi (1715) Qəndəharda hökmranlıq etməsinə imkan verdi.

Mir Mahmud xanın dövründə (1716-1725) əfqanlar Səfəvi sarayına qarşı daha sərt mövqe nümayiş etdirib qonşu vilayətlərə talançı yürüşlər təşkil etməyə başladılar. Səfəvi ordusunun uğursuzluğu abdali tayfa başçısı Abdullah xanın və oğlu Əsədullah xanın mərkəzi hakimiyyətə qarşı çıxmasına səbəb oldu. Herat valisi Abbasqulu xan Şamlu onları həbs etsə də, hər ikisi qızılbaş qarnizonunun qiyamından istifadə edərək qaça bildi. Üsyançılar Abbasqulu xanı tutub İsfahana göndərdilər, onu əvəz edən Cəfər xan Ustaclu isə Əsədullah xanla döyüşdə məğlub olub əsir alındı. Məşhəd hakimi Mənsur xan Şahsevənin abdalilərin qiyamını yatırmaq cəhdi də uğursuz oldu və 1716-cı ilin sentyabrında Fəthəli xan Türkman onun yerinə təyinat aldı. Lakin o da Küsüyə kəndi yaxınlığında üsyançılarla döyüşü uduzdu. İki ay davam edən Məşhəd mühasirəsi nəticəsiz qaldı, üsyançılar Herata geri çəkilən zaman Qədəmgah qalasını dağıtdılar. İsfahan darğası Səfiqulu xan Türküstanoğlunun rəhbərliyi altında göndərilən növbəti Səfəvi ordusu Məşhəd-Herat yolunda Kafirqala ətrafında pusquya düşərək məğlub oldu, Səfiqulu xan intihar etdi.

Bu müddət ərzində Səfəvi saray əyanlarının təhriki ilə baş vəzir *Fəthəli xan Dağıstani* zindana salınaraq kor edilmiş, onun qardaşı oğlu, istedadlı sərkərdə Lütfəli xanın ordusu buraxılmışdı. Vəziyyətdən istifadə etməyə çalışan və abdali əfqanları üzərində qələbədən sonra öz ətrafına çoxlu sayda qoşun toplayan Mir Mahmud Səfəvilər dövlətinə qarşı yürüşə çıxmaq fikrinə düşdü. Onun Kirman və Yəzd yürüşü uğursuz olsa da, İsfahana yaxınlaşan əfqan dəstələri 1722-ci il martın 8-də Gülnabad döyüşündə Səfəvi ordusunu darmadağın edib paytaxtı mühasirəyə aldı. 3 minlik dəstəsi ilə mühasirə halqasını yararaq İsfahana daxil olan Astarabad hakimi *Fəthəli xan Qacar* əfqanlarla döyüşdü, onlardan min nəfərini məhv etdi. Lakin bu uğur sarayda həsədlə qarşılandı, Fəthəli xanın

həbsinə əmr verildi. Bundan xəbər tutan Fətəli xan sağ qalmış 1500 nəfər döyüşçüsünü də götürüb İsfahandan uzaqlaşdı. 7 aydan artıq mühasirədə qalan İsfahan 1722-ci il oktyabrın 22-də təslim oldu, *Şah Sultan Hüseyn* öz hökmdarlıq tacını Mir Mahmuda təhvil verdi. Beləliklə, siyasi hakimiyyət əfqanların nəzarətinə keçdi.

1726-cı ilin oktyabrında *Nadir xan Əfşar* Məşhəd şəhərini əfqanlardan azad etdi. 1727-ci ilin payızında Behdadin və Sənqan qalaları geri alındı. Nadir xan 1729-cu ilin sentyabrında Mehmandust, noyabrında isə Murçəxurt döyüşündə *Mir Əşrəf şahın* ordusunu məğlub etdi və İsfahan əfqanlardan təmizləndi. Dekabrda Zənqan düzündə baş verən döyüşdə Nadir xan növbəti dəfə qələbə qazandı, Mir Əşrəf şah Qəndəhara qaçdı. Bununla da Səfəvi dövlətinin ərazisi əfqan qiyamçılarından tamamilə azad edildi.

Mənbələr: *Y.T.Kruşinski. Xristian səyyahın tarixi, s.38-41, 44-46, 52-53, 60-61, 68-70, 77-79; J.Tiflisli. Vaqiati-Mir Veys və Şah Hüseyn, s.25-45; R.İ.Dadaşova. Səfəvilərin son dövrü, s.204-207; T.Mustafazadə. XVIII yüzillik-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s.18; T.Mustafazadə. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri, s.23, 41-42; M.Süleymanov. Nadir şah, s.69-74, 80-87; T.Nəcəfli. Nadir xan Əfşarın Səfəvi imperiyasının ərazisini işğaldan azad etmək uğrunda mübarizəsi, s.161; Roger Savory. Safeviler Devrinde İran, s.274-279; Т.Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века, стр.22; L.Lockhart. The fall of the Safavi dynasty and the Afghan occupation of Persia, p.90-99.*

SƏFƏVİ-MOĞOL MÜHARİBƏLƏRİ

– Səfəvi-Moğol münaqişəsinin əsas obyekti indiki Əfqanıstan ərazisində yerləşən Qəndəhar şəhəri idi. Xorasandan Sində, Kabildən Hindistana gedən yollar üzərində yerləşməklə mühüm strateji mövqeyə malik olan, Kabilin və Xorasanın təhlükəsizliyi üçün önəmli rol oynayan Qəndəhar kimi alınmaz qalaya sahib olmaq Moğollar və Səfəvilər üçün olduqca vacib idi. 1558-ci ildə Böyük Moğol hökmdarı Əkbər şahın başının daxili mübarizəyə qarışmasından istifadə edən I Şah Təhmasib qardaşı *Bəhram Mirzənin* oğlu *Sultan Hüseyn Mirzə* ilə Şiraz valisi *Əli sultan Tatıoğlunun* rəhbərliyi altında Səfəvi ordusunu Qəndəhar qalasının fəthinə göndərdi. Qalanın kutvalı (hakimi) Şah Məhəmməd Qəlati qızılbaşlara ciddi müqavimət göstərsə də, axırda şəhərin açarlarını təslim edib Əkbərin hüzuruna, Aqraya yollandı. Sultan Hüseyn Mirzə Qəndəhar hakimi təyin olundu.

1595-ci ilin martında Qəndəhar şəhəri Moğollar tərəfindən geri alındı. I Şah Abbas ölkədaxili problemlərin həlli və özbəklərin təhdidi ilə məşğul olduğu üçün buna mane ola bilmədi, amma 1622-ci ilin aprelində Qəndəhara yürüş təşkil etdi. Xorasana hərəkət edən Səfəvi ordusuna *Əliqulu xan Şamlu* və *İsa xan qorçubaşı* kimi tanınmış sərkərdələr başçılıq edirdi. Moğol hökmdarı Cahangir (1605-1627) Səfəvi dövləti ilə dostluq münasibətlərinə arxalanaraq Qəndəharda cəmi 5 min nəfərlik qüvvə saxlamışdı. I Şah Abbas yürüş boyu ətrafa ova çıxması ilə bağlı məlumatlar yaydığı

üçün Moğollar əvvəlcə bu hücuma inanmadılar. Yaxınlıqdakı Zəmindavarın fəthini Xosrov sultan Mir Pazukiyə həvalə edən I Şah Abbas Qəndəhara yaxınlaşdı. Qala hakimi Əbdüləziz xan hücum qarşısında yalnız üç həftə davam gətirə bildi, iyunun 21-də şəhər qızılbaşlar tərəfindən ələ keçirildi.

1638-ci ildə Osmanlı ordusunun Bağdada güclü hücumu ilə əlaqədar I Şah Səfi Qəndəharın müdafiəsini lazımi şəkildə təşkil edə bilmədi. Şəhər hakimi *Əlimərdan xan* qalanı Moğollara təslim etdi. 1647-ci ildə Moğolların Bəlxdən geri çəkilməsi Səfəvilərin Qəndəharı geri almasına şərait yaratdı. 1648-ci ildə II Şah Abbas (1642-1666) Qəndəhar uğrunda hərbi əməliyyata başladı. Şah Cahanın (1627-1658) sarayına elçi qismində göndərilən Maqsud bəyin oğlu Qulu bəy vasitəsilə Qəndəharın qaytarılması tələbi çatdırıldı. Lakin bu tələb razılıqla qarşılanmadı, əksinə, Şah Cahan Qəndəhara əlavə qüvvə göndərdi, özü də Kabilə yola düşdü. Moğol əmirləri qış yaxınlaşdığı üçün II Şah Abbasın hücum etməyəcəyini düşünürdülər, buna görə də Lahurda qışlamağı qərara aldılar. Ancaq II Şah Abbas sürətlə hərəkət edib 1648-ci ilin dekabrında Qəndəharı mühasirəyə aldı. Hərbi əməliyyatlar üçün qışın seçilməsi təsadüfi deyildi, Moğolların ilk dəstələri Qəndəhara yalnız dörd aydan sonra gəlib çata bilərdi. 1649-cu ilin fevralında Səfəvi ordusu tərəfindən Qəndəhar ələ keçirildi, şəhərin idarəsi Astarabad hakimi Mehrab xana, Zəmindavər isə Dostəli Sultan Zəngənəyə tapşırıldı.

Səfəvi şahı Herata qayıtdıqdan sonra Qəndəhar bəylərbəyi Mehrab xanla abdali tayfasının əmiri Şah Hüseyn sultan arasında münaqişə baş verdi. Bəylərbəyidən inciyən Şah Hüseyn sultan Şah Cahana sığınaraq onu Qəndəharı tutmağa təşviq etdi. 1649-cu ilin mayında Moğol şahı oğlu Övrəngzibi böyük qoşunla göndərdi, özü də böyük oğlu və vəliəhdi Dara Şükuhla Kabilə gəldi. Övrəngzib Qəndəhara çatıb şəhəri mühasirəyə aldı, digər sərkərdələri də ətraf məntəqələrin fəthinə yolladı.

II Şah Abbas Heratda ikən Mehrab xandan Moğolların hücumu barədə məktub aldı. Onun əmri ilə Ərdəbil hakimi Əli xan, *əmiraxurbaşı* Nəcəfqulu bəy Zəngənə, Azərbaycan bəylərbəyi *Pirbudaq xan Qacar*, Astara hakimi Saru xan bölgəyə həmlə edib Moğollarla döyüşdə böyük qəhrəmanlıq göstərdilər. Övrəngzib qızılbaşların şücaətindən və topçuların üstünlüyündən qorxaraq qaçmağa məcbur oldu. *Qullarağası Siyavuş bəy* onu təqib etsə də, ələ keçirə bilmədi.

1652-ci ildə Şah Cahan yenidən şahzadə Övrəngzibi və vəzir Sədullah xanı güclü ordu, çoxlu fil və topla Qəndəharı tutmağa göndərdi. Moğol ordusu may ayında şəhərə çatdı və qalaya daxil olmaq üçün cəhd göstərdi. Moğollarla müqayisədə daha dəqiq atəş imkanına malik tüfənglərlə silahlanmış qızılbaşlar ciddi müqavimət göstərdilər. 1652-ci ilin iyulunda Övrəngzib uğur qazanmadan Kabilə çəkildi. Beləliklə, Moğolların ikinci Qəndəhar yürüşü də nəticəsiz qaldı.

1653-cü ilin yazında moğollar Qəndəharı ələ keçirmək uğrunda üçüncü hü-

cumu başladılar. Bu dəfə ordu komandanlığı Övrəngzibə deyil, qardaşı və vəliəhd Dara Şükuha həvalə olundu. O, 70 minlik ordunun başında Multan yolu ilə yürüşə başladı, yol boyunca köməkçi qüvvələr də ona qoşuldu. II Şah Abbas Bəxtan bəyə əmr etdi ki, Herat və Xorasan qoşunu ilə Qəndəhara getsin. Şah həmçinin Astarabad bəylərbəyi Mənuçöhr xanla Azərbaycan bəylərbəyi Əliqulu xana da təcili yola düşmələrini tapşırdı. Səfəvi ordusu geri çəkilən Moğolları təqib edərək onların xeyli hissəsini qırdı, çoxlu qənimət və iki fil ələ keçirdi. Moğol qoşunu 1653-cü ilin aprelində bir daha Qəndəharı mühasirəyə alsa da, altı aydan sonra ordudakı ciddi narazılıq Dara Şükuhu mühasirəni dayandırmağa vadar etdi. Beləliklə, Moğol ordusunun üçüncü yürüşü də Səfəvilərin qələbəsi ilə başa çatdı. Bölgədə Azərbaycan Səfəvi dövlətinin hərbi üstünlüyü təmin edildi, Moğollar Qəndəharın itirilməsi ilə barışmaq məcburiyyətində qaldılar.

Mənbələr: *Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.530-531 və 585; İsgəndər bəy Münşi. Tarix-i alamara-yi Abbasi, I, 179-181, 205, 207; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1124, 1128-1131; K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara), s.119; T.H.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.227-228, 233, 243-244, 249-252; Roger Savory. Safeviler Devrinde İran, s.38-40; C.Aydoğmuşoğlu. Şah Abbas ve Zamanı, s.132-136; M.Süleymanov. Səfəvilər (Şah Təhmasib), V, 500-502; Z.Həsənəliyev və Z.Bayramlı. II Şah Abbasın hakimiyyəti dövründə Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti, s.57-65; S.A.Əzimova. Azərbaycan Səfəvi dövləti II Şah Abbasın hakimiyyəti dövründə, s.131-145; H.A.Abdullayev. Azərbaycan Səfəvilər dövlətinin daxili və xarici siyasəti, s.141, 144; А.Фарзалиев, Р.Мамедова. Сефевиды и Великие Моголы в мусульманской дипломатике, стр.68, 103-104.*

SƏFƏVİ ORDUSUNUN DÖYÜŞ TAKTİKALARI – Səfəvi ordusunun döyüş taktikaları hər vəziyyətə uyğun olaraq fərdi qaydada tətbiq edilirdi. Bu zaman coğrafi şərait, təbii amillər, döyüşən tərəflərin canlı qüvvəsinin sayı və digər amillər nəzərə alınırdı.

Döyüşlə bağlı qərarlar, bir qayda olaraq, müşavirə əsasında verilirdi. Əgər hərbi əməliyyata şah özü başçılıq edirdisə, adətən yüksək rütbəli hərbçilərdən və əmirlərdən ibarət şura toplanır və onların hamısının rəyi soruşulurdu. Son qərarı vermək ixtiyarı şaha məxsus idi. Məsələn, *Çaldıran savaşından* əvvəl sərkərdə *Məhəmməd xan Ustaclu* hərbi müşavirə zamanı təklif etmişdi ki, düşmən hələ mövqe tutmazdan əvvəl basqın həyata keçirilsin, bununla da qəfil hücum effekti sayəsində üstünlük əldə olunsun. Lakin *Durmuş xanın* bu plana etirazından sonra I Şah İsmayıl da onu dəstəkləmiş, nəticədə döyüş qızılbaşların məğlubiyyəti ilə başa çatmışdı. Bir qayda olaraq, şahın başçılıq etdiyi hərbi əməliyyatlarda uğursuzluq baş verdikdə bunun məsuliyyəti şahın üzərinə düşür, o, məzəmmət və ya cəzadan kənarda qalır, başqalarına qarşı da cəza tətbiq edilmirdi. Lakin hərbi əməliyyat şahın

deyil, *sipəhsaların (əmir əl-üməranın)* və ya sərkərdələrdən birinin komandanlığı altında aparılırdısa, məğlubiyyətə görə o, vəzifəsindən və hərbi sferadakı yüksək mövqeyindən məhrum olur, hətta bəzi hallarda edam edilirdi. Ona təhkim edilmiş qalanı qoruya bilməyib düşmənə təslim edən əmirə qarşı da eyni cəza tədbirləri tətbiq olunurdu. Məsələn, 1513-cü ildə Mərv şəhərini özbəklərin ixtiyarına buraxıb qaçmış *Abdal Dədə bəy Zülqədərə* qadın paltarı geyindirib üzünə ənlik-kirşan vurmuş, uzunqulağın belində tərsinə otuzdurub xalq arasında rüsvayçılıqla gəzdirmişdilər. II *Zeynal xan Şamlu* isə Həmədan uğrunda döyüşdə Osmanlılara uduzduğu üçün I Şah Səfi tərəfindən edam edilmişdi.

Səfəvi ordusunun bir sıra hərbi əməliyyatlarda uğursuzluğu komanda heyəti arasındakı fikir ayrılığı, taktiki planın hamı tərəfindən qəbul edilməməsi nəticəsində baş vermişdir. 1578-ci ildə Osmanlıların Gürcüstana yolunu bağlamağa çalışan Çuxursəd bəylərbəyi *Məhəmməd xan Toxmaq* öz qüvvələrini birləşdirmək barədə Azərbaycan bəylərbəyi *Əmir xan Türkmana*, Gəncə və Qarabağ bəylərbəyi *İmamqulu xan Qacara* müraciət etdi. Lakin Əmir xan yardımı gecikdirdi, nəticədə iki bəylərbəyliyin birləşmiş qüvvələri *Çıldır savaşında* Osmanlılara məğlub oldu. Həmin il Şirvan bəylərbəyi *Aras xan Rumlu* Şamaxı şəhərini Osmanlılara təhvil verməsinin günahını yumaq üçün əsas qoşunun gəlişini gözləmədən öz ixtiyarındakı qüvvələrlə düşmənə hücum etdi, amma məğlub olaraq öldürüldü. Az sonra özünü çatdırmış Səfəvi qoşunu Şamaxını mühasirəyə alsa da, bu arada Adil Gərayın başçılıq etdiyi Krım tatar qüvvələrinin gəlişini eşidərək mühasirəni saxlayıb tatarlarla döyüşə yollandı. *Mollahəsən* məntəqəsində baş vermiş savaş Səfəvilərin qələbəsi ilə başa çatdı, lakin onlar bu qələbəni möhkəmlədə bilmədilər. Azərbaycanın şimal bölgələrinə sığınmış Osmanlı ordusunu məğlub edib ölkə sərhədlərindən qovmaq imkanı var ikən qızılbaşlar arasında fikir ayrılığı yarandı. Bir hissə Dərbənd üzərinə yürüşə tərəfdar olsa da, digərləri buna etiraz etdilər. Nəticədə qoşun sərkərdələri öz dəstələrini götürüb Qəzvinə qayıtdılar, Azərbaycan torpaqlarını Osmanlılardan azad etmək imkanı boşa çıxdı.

Səfəvi ordusunun taktikası hər şeydən əvvəl cəld yerdəyişmə və qəfil hücum prinsipinə əsaslanırdı. Əsasən yüngül süvari bölümlərindən ibarət olan qızılbaş qoşunu dövrünün ən mobil ordularından sayılırdı. Səfəvi ordusunun ən mühüm uğurları da bu mobillik sayəsində əldə edilmişdi. Klassik mənbələrdə bu xüsusiyyəti ifadə edən "ilğar" kəlməsinə tez-tez rast gəlinir. Qoşunun sürətli manevr nəticəsində qəfil hücumunu bu kəlmə ilə ifadə edirdilər.

Zaman amili, iqlimdən öz xeyrinə və düşmənin ziyanına istifadə etmək Səfəvi qoşununun taktikasında mühüm yer tuturdu. I Şah Təhmasibin zamanında Osmanlı ordusu qışın sərt soyuğuna dözməyib bir neçə dəfə yürüşü dayandırmalı, ya geri qayıtmalı, ya da qışın bitməsini gözləməli olmuşdu.

Döyüşdən əvvəl hər iki tərəfin *çərxçi* (avanqard) hissələrinin toqquşması da o dövrün hərbi ənənələrindən idi. Bütün müharibələrdə ordunun müəyyən hissəsi çərxçi qüvvələri qismində ayrılır və irəliyə göndərilirdi. Çərxçi qüvvələrin toqquşmasının nəticəsi ümumilikdə döyüşün taleyinə ciddi təsir göstərirdi.

Qızılbaş qoşunu əsasən süvari bölmələrindən ibarət olduğundan düzənlik ərazidə döyüşmək onun üçün daha asan idi. Dağlıq ərazilərdə baş verən döyüşlər Səfəvi qoşunu üçün o qədər də uğurlu olmurdu. Məsələn, 1508-ci ildə Luristan bölgəsində itaətsizlik göstərən *Rüstəm Məlikşaha* qarşı yürüş zamanı qızılbaşlar əvvəlcə ciddi uğursuzluğa düçar olmuş, daha sonra üstünlüyü ələ keçirə bilmişdilər. Bu da düşməni dağlardan aşağıya – düzənlik əraziyə endirmək sayəsində mümkün olmuşdu.

Qızılbaş qoşununun ən çox müraciət etdiyi hərbi manevrlərdən biri "qurd oyunu" adlandırılan fənd idi. Qədim türk döyüş ənənəsindən götürülmüş bu manevr qurd (canavar) kultunun güclü olduğu türk xalqları tərəfindən təbiətdən mənimsənilmişdi. Canavar sürüsünün ovunun modelləşdirilməsindən ibarət olan "qurd oyunu"nun əsasında düşmənlə ilk qarşılaşmadan sonra yalançı geriləmə effekti yaratmaq, düşmən qüvvələrini öz ordusunun içərisinə doğru cəlb etmək və sonda qəfil əks-hücumla onun axırına çıxmaq məqsədi dururdu. Qızılbaş qoşununun cinahları adətən çox möhkəm qurulur, döyüş meydanından kənarda da xeyli ehtiyat qüvvə pusquda dururdu. Qızılbaşların mərkəzi qüvvələri ilk toqquşmadan sonra geriləyir və düşməni də öz ardınca çəkirdi. Bu zaman cinahlar düşmənin arxasına doğru manevr edir, "qaçan" mərkəzi qüvvələr də qəfildən geri dönərək əks-hücuma keçirdi. Mühasirəyə düşmüş düşmən ehtiyat bölümün qəfil hücumu ilə də rastlaşanda tam çaşqınlığa düşərək üstünlüyü əldən verirdi.

1603-cü ilin sonlarında Bağdada hücum etmiş qızılbaş qoşunu şəhərin ciddi şəkildə müdafiə olunduğu barədə məlumatlı idi. Səfəvi sərkərdələri qoşunun az bir hissəsini qalanın yaxınlığına göndərdilər. Bağdad müdafiəçiləri qızılbaşların sayının bununla məhdudlaşdığını düşünüb qaladan çıxdılar. Manevr dəstəsi geri çəkilərək, təqibçiləri də öz ardınca əsas Səfəvi qoşununun mövqe tutduğu yerə gətirdi. Burada baş vermiş döyüşdə qızılbaşlar qalib gəlib müdafiəsiz qalmış Bağdadı ələ keçirdilər.

Müharibə taktikasının daha bir növü "yandırılmış torpaq müharibəsi" adlanan manevr idi. Bu üsul I Şah Təhmasibin zamanında Osmanlılara qarşı müharibələrdə dəfələrlə sınaqdan çıxarılmışdı. Qızılbaş qoşunu geriləmə effekti yaradaraq düşməni öz ardınca ölkənin içərilərinə doğru gətirirdi. Amma qoşun geri çəkildikcə yol üzərindəki əhalini də kənarlara köçürür, ərzaq ehtiyatını məhv edir, əkinləri yandırır, su quyularını doldurur və ya zəhərləyir, yolları, körpüləri dağıdırdı. Osmanlı ordusu bir yandan sürətli təqib yürüşündən yorulur, bir yandan da kommunikasiya yollarının bərbadlığı üzündən ləngiyirdi. Yol boyunca ərzağı tükənmiş qoşun qida ehti-

yatını yerli resurslar hesabına təmin edə bilmirdi. Gecə hücumları, təxribat xarakterli əməliyyatlar, partizan mübarizəsi də düşməni hövsələdən çıxarırdı. Bu taktika I Şah Abbasın zamanında da dəfələrlə tətbiq edilmişdi. (O cümlədən, 1607-ci ildə Bağdad ətrafında, 1609-cu ildə Van-Təbriz yolu boyunca və s). Eyni taktiki fənd IV Sultan Muradın Təbrizə hücumu zamanı (1635) I Şah Səfi tərəfindən həyata keçirilmiş, su ehtiyatından məhrum olan və soyuqdan əziyyət çəkən Osmanlı qoşunu təcili geri dönmək məcburiyyəti qarşısında qalmışdı.

I Şah Təhmasibə aid edilən təzkirədə şah "yandırılmış torpaq müharibəsi"ni tətbiq edərkən "hərb hiylədir" hədisinə əsaslandığını bildirirdi. O, düşmənin sayı barədə aldığı kəşfiyyat xarakterli məlumatları diqqətlə analiz edərək hesablamışdı ki, 300 min nəfərlik Osmanlı qoşununun canlı qüvvəsinin və minik heyvanlarının qida ehtiyatı cəmi bir ay müddətində çatacaq, bundan sonra ordu ciddi azuqə çatışmazlığı hiss edəcək. "Şah Təhmasib təzkirəsi"ndə yazılıb: "Mən əmirlərin yanında dəfələrlə demişəm ki, Rum ordusu atəşək (sifilis) xəstəliyi kimidir. Əgər ilk mərhələdə onu sağaltmaq istəsən, xəstəni öldürər. Əgər onu diqqətdən kənar qoysan da, pis nəticə verər. Elə isə onu diqqət altında saxlamaq lazımdır. Bir müddət keçdikdən sonra asan bir yolla sağalacaq. Onları (Osmanlı ordusunu) azuqə qıtlığından başqa hansı üsulla aciz və məğlub etmək olar?"

"Yandırılmış torpaq müharibəsi" böyük iqtisadi ziyanlara gətirib çıxarsa da, tərəflərin sayca qeyri-bərabər, açıq döyüşün əlverişsiz olduğu zamanlarda hərbi baxımdan çox uğurlu idi. Bu üsul Səfəvilərdən əvvəl və sonrakı dövrlərdə də müxtəlif ordular tərəfindən uğurla tətbiq edilmişdir; Napoleonun Rusiya yürüşünün uğursuzluqla nəticələnməsinin əsas səbəblərindən biri də məhz bu taktika olmuşdur.

1626-cı ildə Bağdadı mühasirəyə alan Osmanlı qoşununu əldən salmaq üçün I Şah Abbas onlara ərzaq çatdırılan Diyarbəkir-Mosul və Hələb yollarını tam nəzarət altına almış, hətta dəniz yolu ilə ərzaq gətirməyə çalışan gəmilərin bütün yükünü ələ keçirmişdi.

Düşməni ərzaq ehtiyatından məhrum etməklə yanaşı, yol boyunca ona qəfil hücumlar, gecə basqınları həyata keçirilirdi. Bununla qarşı tərəf daim gərginlikdə saxlanılır və psixoloji təzyiq mexanizmi işə salınırdı. Fransız səyyahı Şarden qeyd edirdi ki, basqınlardan sonra geri çəkilən qızılbaşları təqib etmək çox təhlükəli idi. Çünki onlar dördnala at çapdıqları halda yəhər üstündən arxaya ox atmaqda mahir idilər. Həm də qızılbaşlar adətən qabaqcadan pusqu yerləri hazırlayır və düşmən süvarilərini öz arxalarınca pusquya cəlb edirdilər.

Səfəvi şahlarının müraciət etdikləri üsullardan biri də düşmən qüvvələri arasında çaşdırıcı xəbərlərin yayılması, təxribat xarakterli informasiyaların qarşı tərəfə ötürülməsi idi. Bu baxımdan I Şah İsmayılın ən böyük qələbələrindən olan *Mərv savaşı* (1510) xüsusi əhəmiyyətə malikdir. Ümumilikdə I Şah İsmayılın Xorasan yürüşündə bir neçə taktiki pla-

nın məcmusunu görürük. Əvvəla, şah zaman və məsafə amillərini uğurla həll etməyə nail olmuşdu. *Məhəmməd xan Şeybani* ixtiyarında olan ordunun böyük hissəsini qışlamaq üçün Orta Asiyaya göndərmiş, özü az sayda qüvvə ilə Xorasanda qalmışdı. I Şah İsmayıl bundan məharətlə istifadə etmiş, Orta Asiyadakı ordunun qısa zamanda köməyə gələ bilməyəcəyini nəzərə alaraq sürətli yerdəyişmə (ilğar) ilə Xorasana yürüş etmişdi. Bundan əvvəl o, Məhəmməd xana məktub yazaraq gələn ilin yazında hücum edəcəyini bildirmiş, bununla da onu hərbi əməliyyatların tezliklə baş verməyəcəyi barədə arxayın etmişdi. Qızılbaş ordusu qısa müddət ərzində çevik manevrlə hərəkət edərək özbək xanını qəfil yaxalamışdı. Mərv qalasına çəkilmiş Məhəmməd xan ordusu gəlib çatana kimi mühasirəni uzatmaq fikrində idi. I Şah İsmayıl bu fürsəti ona qazandırmamaq üçün hərbi hiyləyə əl atmış, guya Osmanlıların qəfil hücumu və Azərbaycanda qiyam qalxması barədə saxta məktub yazdırmış, bu məktubun qəsdən özbəklərin əlinə keçməsinə imkan vermişdi. Qızılbaşlar təcili olaraq düşərgəni yığışdırıb guya öz mövqelərini tərk etmələri mənzərəsini yaratdılar. Bu manevrə aldanan özbəklər qızılbaşları arxadan qəfil hücumla haqlayıb məhv etmək qərarına gəldilər. I Şah İsmayıla da onların qaladan çıxması lazım idi. Əvvəlcədən seçilmiş əlverişli məkanda – Mahmudabad kəndinin yaxınlığında özbəkləri qızılbaş qüvvələri qarşıladı. Döyüş gedişində qızılbaşlar düşməni planlaşdırılmış şəkildə bataqlığa və üç tərəfi hasarla bağlı olan əraziyə sıxışdırdılar. Burada Məhəmməd xan Şeybani də daxil olmaqla özbək qoşununun böyük hissəsi məhv edildi. Beləliklə, Mərv savaşında I Şah İsmayıl tərəfindən qızılbaş döyüş taktikalarından bir neçəsi – ilğar, "qurd oyunu", dezinformasiya və s. tətbiq edilmiş oldu.

Səfəvi ordusunun bəzi döyüş taktikaları mühasirə əməliyyatları ilə bağlıdır. Qızılbaş qoşunu hücum sahəsində ixtisaslaşmışdı, mühasirə əməliyyatları onlar üçün kontaktlı döyüş qədər rahat deyildi. Buna görə də qızılbaşlar mühasirə zamanı daha az və gec uğur qazana bilirdilər. Düşmən qalasının mühasirəsi zamanı qarşı tərəfi ox yağışına tutmaq, top atəşi ilə qalanı dağıtmağa səy göstərmək, qala divarlarının altından lağım qazımaq kimi üsullardan çox istifadə edilirdi. I Şah İsmayıl 1501-ci ildə Bakı qalasını mühasirədə saxladığı zaman divarın altından iri lağım qazıtdırmışdı, lağımçılar qarşılarına çıxan böyük qaya parçasını sirkə ilə parçalayıb qala bürclərindən birini uçurmuşdular. Şah qala ətrafındakı xəndəyin bir hissəsinin doldurulmasını və həmin yerdə torpaqdan hündür təpə yaradılmasını da əmr etmişdi. Həmin təpə üzərindəki qızılbaş döyüşçüləri qala qarnizonunun bir qismini oxla zərərsizləşdirdikdən sonra Bakının müdafiəçiləri təslim olmağa qərar vermişdilər. 1585-ci ildə osmanlıların əlində olan Təbrizin mühasirəsi zamanı Səfəvi qoşunu lağım qazımaq, taxta qüllədən *(dəbbabə)* istifadə etmək, qalanı top atəşinə tutmaq kimi üsullardan istifadə etsə də, bunların heç biri fayda ver-

məmişdi. Qızılbaşların qazıdığı lağımın koordinatları xəyanət nəticəsində qarşı tərəfin əlinə keçmiş, onlar həmin lağımla əks tərəfdən hücum edib Səfəvi düşərgəsində xeyli adamı öldürmüşdülər. *Oruc bəy Bayatın* atası da daxil olmaqla, onlarla qızılbaş döyüşçüsü qala divarlarının qarşısına sürülmüş taxta güllənin içində yanar oxlarla vurulmuşdu. Təbriz qalasının qarşısında quraşdırılan iri bir topu isə Osmanlılar qəfil hücumla ələ keçirib şəhərə aparmışdılar.

Qalanın mühasirəsi zamanı bəzən düşmənin gücünü tükətmək və iradəsini qırmaq üçün ərzaq və su ehtiyatının qalaya daxil olmasının qarşısını alırdılar. Əgər qalanın su təminatı çay vasitəsilə həyata keçirilirdisə, çayın məcrasını dəyişməklə müdafiəçiləri susuz qoyub təslim olmağa məcbur edirdilər (1504-cü ildə Marankuh dağında yerləşən Usta qalasına sığınmış *Əmir Hüseyn Kiya Çəlavinin* tərəfdarlarını təslim etmək üçün bu yoldan istifadə olunmuşdu).

Səfəvilər dövlətində qalaların sayı az idi, yalnız bəzi iri şəhərlər möhkəm qala divarı ilə əhatələnmişdi. Əsas qalalar Qəndəhar, İrəvan, Van, Lur (Kirman) məntəqələrində yerləşirdi. Qızılbaşlar bəzi qalaların müdafiəsində uğurlu nəticələr əldə edirdilər. Mühüm strateji mövqeyə malik olan Herat şəhəri özbəklərin hücumuna bir neçə dəfə məruz qalsa da, əksər hallarda bu hücumların qarşısında davam gətirə bilmişdi. Şəhər hakimləri *Durmuş xan* və qardaşı *Hüseyn xan Şamlu* uğurlu müdafiə taktikası seçməyi bacarmış və düşməni Herata buraxmamışdılar.

Müdafiə xarakterli bəzi döyüşlər isə şəhərlərin daxilində aparılırdı. 1513-cü ilin sonlarında I Şah İsmayılın Xorasan səfərində atdan yıxılıb öldüyü barədə şayiələrə inanan *Süleyman Mirzə* (*Şeyx Heydərin* oğlu, şahın ögey qardaşı) paytaxt Təbrizi ələ keçirib hakimiyyətə yiyələnmək üçün şəhərin üzərinə qoşun çəkdi. Şəhərdəki *əxi* dərnəyinin üzvləri *Halvaçıoğlu Hüseyn bəyin* başçılıq etdiyi qızılbaş qarnizonuna qoşulub müdafiəyə qalxdılar. Qış mövsümü olduğu üçün Təbrizin küçələri buz bağlamış, süvarilərin hərəkəti çətinləşmişdi. Şəhər əhalisi keçid mövqelərinin qarşısında barrikadalar qurdu, evlərin damından daş və ox atıldı. Nəticədə Süleyman Mirzə Təbrizdə küçə döyüşlərini uduzub şəhərdən çıxdı və burada pusquya düşərək öldürüldü. Bu hadisədən bir neçə il sonra Osmanlıların tərəfinə keçmiş *Ulamə sultan Təkəlü* də I Şah Təhmasibin Təbrizdən uzaqda olmasından istifadə edərək şəhərə hücum çəkdi, lakin həlledici üstünlük qazana bilmədi, Səfəvi ordusunun yaxınlaşdığını eşidəndə Osmanlı sərhədinə doğru geri çəkildi.

Mühasirə xarakterli hərbi əməliyyatlarda içəridəki satqınların köməyi ilə şəhərə soxulmaq taktikasından həm qızılbaş tərəfi, həm də onların düşmənləri istifadə edirdilər. Bəzi hallarda isə şəhəri müdafiə edən qızılbaş əmiri şəhərdəki ərzaq ehtiyatına qənaət etmək məqsədilə yerli əhalini şəhərdən kənara çıxarırdı, bu zaman evlərdəki ərzaq da müsadirə edilir və qala qarnizonunun üzvləri arasında bölünürdü. (I Şah Abbas 1616-cı ildə Təbriz və Ərdəbil şəhərləri ilə bağ-

lı bu cür qərar qəbul etmişdi).
Alman səyyahı Adam Oleari hətta Səfəvi ordusu tərəfindən kimyəvi silahdan istifadə olunması barədə öz səfərnaməsində məlumat vermişdir. Onun yazdığına əsasən, 1633-cü ildə Osmanlıların əlində olan *İrəvan* qalasının mühasirəsi zamanı Səfəvi döyüşçüləri kiçik şüşə qablara xüsusi kimyəvi maddə doldurараq şüşələri oxların ucuna bağlamış və şəhərə doğru atmışdılar. Şüşə qablar yerə dəyib sındıqdan sonra kimyəvi maddə havada yayılmış, qala müdafiəçilərinin əlləri və ayaqları şişərək yara salmışdı. Müdafiə qabiliyyətini itirən Osmanlı qarnizonu bundan sonra İrəvanı təslim etməyə məcbur olmuşdu.

Mənbələr: *R.Ş.Q.Xeyli və İ.Müşfiqifər. Səfəvilər dövrü hərbi taktikasının araşdırma və təhlili (“Mütaliati-tarixiyi-cəng”, 1399 h.-ş., №2/12), s.75-99; S.H.Ağacəri və İ.Müşfiqifər. I Şah Abbas dövründə İranın hərbi strategiyasının və onun komponentlərinin təhlili (“Əncüməni-İraniyi-tarix” araşdırma dərgisi, 1379 h.-ş., №4), s.75-99; Abdullah Mütəvəlli. Səfəvilər dövrünün müharibələrində hərbi rəhbərliyin meyarlarına baxış (“İran və İslam tarixi araşdırmaları” dərgisi, 1392 h.-ş., №12), s.153-178; Eralp Erdoğan. Safevi Devleti’nin Askeri Teşkilatı (Doktora Tezi), s.156-170; Şah Təhmasib təzkirəsi, s.51-52; Adam Olearіusun səfərnaməsi (2 cilddə, farsca tərcümə edən: M.H.Kürdbeççə), II, 742; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.67.*

SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ

– XVI əsrin əvvəllərində I Şah İsmayılın dövlət quruculuğu sahəsində əldə etdiyi hərbi-siyasi uğurlar Osmanlı imperiyasını narahat etməyə başladı. Osmanlı sultanı II Bayezid 1504-cü ildə Azərbaycan Səfəvi dövlətini rəsmən tanısa da, onun oğlu I Sultan Səlimin dövründə (1512-20) Osmanlı-Səfəvi münasibətləri xeyli kəskinləşdi və aşkar düşmənçilik xarakteri aldı. Osmanlı hakim dairələri Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın və İranın təbii sərvətlərlə zəngin ərazilərinə yiyələnməyə, eləcə də Azərbaycandan keçən yüksək gəlirli Avropa-Asiya tranzit ticarət yolları üzərində nəzarəti ələ keçirməyə çalışırdı. Bursanı Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzi olan Təbrizlə birləşdirən, Osmanlı iqtisadiyyatının şah damarı olan Təbriz-Toqat-Bursa ipək yolu Osmanlı işğallarını şərqə doğru istiqamətləndirən əsas amil idi. Bu zaman gerçək siyasi və iqtisadi mənafelər dini-məzhəbi səbəblərlə ört-basdır edilir, bidətçiliyə qarşı, İslamın təmizliyi uğrunda cihad kimi qələmə verilirdi. Osmanlı-Səfəvi münasibətlərinin kəskinləşməsini şərtləndirən digər başlıca amil Qərbi Avropa ölkələrinin türk imperiyalarını bir-biri ilə düşmən etməyə yönələn siyasəti idi.
1514-cü ildə Osmanlı ordusu I Sultan Səlimin başçılığı altında Səfəvi torpaqlarına daxil oldu. Həmin ilin avqustunda *Çaldıran düzündə* (Maku şəhəri yaxınlığında) tərəflər arasında baş vermiş döyüşdə odlu silahlardan (top və tüfəngdən) istifadə edən Osmanlı ordusu qalib gəldi. Osmanlılar Təbrizi ələ keçirsələr də, əhalinin müqaviməti və Səfəvi ordusunun toplanması sultanı cəmi 8 gündən sonra şəhəri tərk etməyə məcbur etdi.

Çaldıran döyüşü Azərbaycan Səfəvi dövlətinin hərbi-siyasi nüfuzuna zərbə vurdu və son nəticədə Şərqi Anadolu Osmanlıların nəzarəti altına keçdi.

I Sultan Səlimin I Şah İsmayıla qarşı apardığı müharibədə yeganə ciddi nailiyyəti 1515-16-cı illərdə Şərqi Anadoludakı fəthlər oldu. I Sultan Səlim Təbrizi tərk etdikdən sonra I Şah İsmayıl paytaxta qayıtdı və dərhal *Qara xan Ustaclunu* Diyarbəkir bəylərbəyi təyin edərək 4 min nəfərlik qoşunla həmin bölgəyə yolladı. Qara xan Həsən paşanın 10 min nəfərlik qoşununu məğlub edərək 1515-ci ilin yazında Diyarbəkrə daxil oldu, lakin həmin ilin sentyabrında Bıyıklı Mehmet paşa Diyarbəkri ələ keçirdi. 1516-cı ilin may ayında Mardin yaxınlığındakı *Qoçhisar* (Dədə Karqın) düzündə Bıyıklı Mehmet paşanın 30 minlik ordusu ilə baş vermiş döyüşdə Qara xan Ustaclu öldürüldü. 1517-ci ilin aprelində Mardin qalasının Osmanlılar tərəfindən fəth olunması nəticəsində bu bölgələrdə qızılbaş müqavimətinə son qoyuldu.

Osmanlı sultanı I Süleyman Qanuni (1520-66) Azərbaycana bir neçə dəfə hərbi yürüş etmişdir. 1534-35-ci illərdə həyata keçirilmiş ilk yürüşlər Osmanlı ordusu üçün uğursuz oldu. I Şah Təhmasibin əsaslı döyüşdən imtina edərək "yandırılmış torpaq" taktikasını seçməsi Osmanlı dövlətinə 30 min əsgər, 22 min minik və yük heyvanı, böyük çaplı 100 top itkisi bahasına başa gəldi. I Sultan Süleymanın İraqeyn səfəri Səfəvi dövlətinin varlığına son qoymağın mümkün olmadığını göstərdi, onun Səfəvi təhlükəsini ortadan qaldırmaq və Yaxın Şərqdə öz qeyd-şərtsiz hakimiyyətini təmin etmək niyyəti gerçəkləşmədi.

Azərbaycana üçüncü yürüşü zamanı sultan 1548-ci il iyulun 27-də ciddi müqavimətə rast gəlmədən Təbrizə daxil oldu, lakin ərzaq çatışmazlığı nəticəsində minlərlə atın və qatırın öldüyünü görərək şəhərdə qalmağın və ya irəliləməyin fəlakət olacağını anladı, avqustun 1-də Təbrizi tərk etdi. Bu yürüş nəticəsində Van gölü ətrafındakı Van, Ərciş, Adilcevaz, Əxlat və digər qalalar Osmanlı idarəçiliyinə keçdi. Lakin Səfəvi ordusu 1551-54-cü illərdə Van istisna olmaqla, digər qalaları geri alaraq Muşa qədər əraziləri qarət etdi. Səfəvi şahının bu viranedici yürüşlərdən məqsədi qarşı tərəfi sülh bağlamağa məcbur etmək idi.

I Şah Təhmasibin həyata keçirdiyi tədbirlər Osmanlı sultanını 1554-cü ildə Azərbaycan üzərinə növbəti yürüşə çıxmağa vadar etdi. Lakin I Sultan Süleymanın Naxçıvan səfəri kimi tanınan bu yürüşü də nəticə vermədi. Səfəvi şahı onunla açıq döyüşə girməkdən çəkindi, bu taktika Osmanlı ordusunun ölkənin içərilərinə doğru irəliləməsinə imkan vermədi. Kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan od vurub yandırdığı Naxçıvanı tərk etdi və Ərzuruma qayıtdı. 1555-ci ildə tərəflər arasında imzalanmış *Amasya sülh müqaviləsi* iki dövlət arasındakı müharibə vəziyyətinə son qoydu.

II Şah İsmayılın ölümündən (1577, noyabr) və hakimiyyətə Şah Məhəmməd Xudabəndənin (1578-87) keçməsindən yararlanan Osmanlı sultanı III Murad Səfəvilərə qarşı müharibəyə qərar verdi.

1578-ci ilin avqustunda 100 minlik Osmanlı ordusu Mustafa Lələ paşanın rəhbərliyi altında *Çıldır döyüşündə* qızılbaşlara qalib gələrək Gürcüstana daxil oldu və Tiflisi ələ keçirdi. Mustafa Lələ paşa sentyabrın 9-da Qanıq döyüşündə Əmir xan Türkmanı məğlub edərək Şirvan bölgəsinə daxil oldu, Şəki, Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyan şəhərlərini asanlıqla ələ keçirdi.

1578-ci il noyabrın 11-də Şirvan bəylərbəyi *Aras xan Rumlu* Şamaxı yaxınlığında Osman paşanın və Krım xanının qardaşı Adil Gərayın birləşmiş ordusu ilə döyüşdə məğlub oldu və əsir düşərək öldürüldü. Şahzadə *Həmzə Mirzənin* başçılığı altında Səfəvi ordusu noyabrın 28-də *Mollahəsən döyüşündə* mühüm qələbə qazandı, Adil Gəray və Ərəş hakimi Piyalə paşa əsir alındı. 1579-cu ilin payızında Krım xanı Məhəmməd Gəray əsir düşmüş qardaşını xilas etmək üçün 100 minlik ordu ilə Dərbəndə gəldi, birləşmiş Osmanlı-tatar qüvvələri Şamaxıya və Bakıya yürüş etdi.

1583-cü ilin yazında *İmamqulu xan Qacar* Niyazabad döyüşündə Osmanlı ordusunu məğlub etsə də, mayın 8-11-də *Məşəl savaşını* uduzdu. 1583-cü ilin avqustunda Fərhad paşa *İrəvan* qalasını, 1585-ci ilin sentyabrında Osman paşa *Təbriz* şəhərini ələ keçirdi. Həmzə Mirzənin Təbrizi azad etmək təşəbbüsləri uğursuz oldu. Osmanlı ordusu 1588-ci ilin sentyabrında Gəncəni, növbəti ildə isə Naxçıvanı işğal etdi. 1578-90-cı illər Osmanlı-Səfəvi müharibəsi Osmanlı imperiyasının üstünlüyü ilə başa çatdı, 1590-cı ilin martında tərəflər arasında *İstanbul sülhü* imzalandı. Azərbaycanın əksər əraziləri, Gürcüstan və İranın bəzi qərb vilayətləri Osmanlıların nəzarəti altına keçdi.

1603-cü ilin sentyabrında Osmanlılara qarşı müharibəyə başlayan I Şah Abbas əvvəlcə Təbrizi, ardınca Culfa və Naxçıvanı azad etdi. 8 aylıq mühasirədən sonra 1604-cü il iyunun 8-də İrəvan qalası ələ keçirildi.

1605-ci il noyabrın 7-də *Sufiyan döyüşündə* I Şah Abbas Cığaloğlu Sinan paşanın ordusunu ağır məğlubiyyətə uğratdı. Bu qələbə Səfəvi ordusunun Qarabağa irəliləməsinə şərait yaratdı. 1606-cı il iyulun 4-də dörd aylıq mühasirədən sonra Gəncə Osmanlı işğalından azad edildi. 1607-ci ilin yazında Bakı və Dərbənd, iyunun 27-də Şamaxı şəhəri Səfəvi ordusu tərəfindən geri alındı. Beləliklə, 1603-07-ci illər ərzində Azərbaycan ərazisi tamamilə işğaldan azad olundu. 1610-cu ildə Osmanlı sultanı hərbi əməliyyatları bərpa etdi, lakin Quyucu Murad paşanın Təbrizə yürüşü uğursuzluqla nəticələndi. Tərəflər arasında başlanan danışıqlar 1612-ci il noyabrın 20-də *İstanbul sülhünün* imzalanması ilə sona çatdı, Amasya müqaviləsinin şərtləri bərpa olundu.

Bu uğursuzluqla barışmayan Osmanlı dövləti 1615-ci ilin yayında Səfəvilərə qarşı yenidən hərbi əməliyyatlara başladı. 1616-cı ilin sentyabrında Mehmet paşanın rəhbərliyi altında Osmanlı ordusu İrəvanı mühasirəyə alsa da, xeyli itki verərək Ərzuruma çəkilməyə məcbur oldu. 1617-ci ilin iyununda Xəlil paşa

ilə Krım xanının müştərək yürüşü də uğursuz oldu. 1618-ci il sentyabrın 10-da Sərab vilayətində Sınıq körpü adlı yerdə baş vermiş həlledici döyüşdə Osmanlı ordusu 15 min nəfər itki verərək məğlub oldu. Döyüşdə iştirak edən Osmanlı bəylərbəyilərindən üçü öldürüldü, ikisi əsir düşdü. Hərbi uğursuzluq Osmanlı sultanını sülh bağlamağa vadar etdi. 1618-ci ilin sentyabrında *Sərab (Mərənd) sülhü* imzalandı və iki dövlət arasında beş il davam etmiş sülh dövrü başlandı.

1622-ci ilin mayında sultan II Osmanın öldürülməsi, I Mustafanın taxta çıxması və Bağdadda baş verən hadisələr I Şah Abbasa Ərəb İraqında möhkəmlənmək imkanı yaratdı. Müharibə 1623-cü ildə Səfəvi ordusunun hücumu ilə başladı. 1623-24-cü illərdə I Şah Abbas Ərəb İraqını ələ keçirdi, Bağdad, Mosul, Nəcəf, Kərbəla, Bəsrə şəhərləri Səfəvilər tərəfindən tutuldu. 1625-ci ilin noyabrında Hafiz Əhməd paşanın ordusu Bağdad şəhərini mühasirəyə aldı, lakin 8 aylıq mühasirə nəticə vermədi. 1626-cı il iyulun 4-də Osmanlı ordusu geri çəkilməyə məcbur oldu. Beləliklə, 1624-26-cı illərdə Bağdad uğrunda müharibə Səfəvilərin qələbəsi ilə başa çatdı.

I Şah Abbasın vəfatından (1629, yanvar) sonra Osmanlılar hərbi əməliyyatlara yenidən başladılar. Amma 1629-cu ilin iyulunda onların Bağdada yürüşü uğursuzluqla bitdi, oktyabr ayında Bağdada növbəti hücum da nəticə vermədi, 6-7 min nəfər itki verən Osmanlı ordusu geri çəkilməyə məcbur qaldı. 1630-cu ildə Xosrov paşanın Bağdadı tutmaq cəhdi də iflasa uğradı. 1635-ci ilin avqustunda Osmanlı ordusu İrəvanı, sentyabrda isə Təbrizi ələ keçirdi, lakin ərzaq çatışmazlığı, qışın yaxınlaşması və Səfəvi ordusunun hücum təhlükəsi Sultan IV Muradı Təbrizdən çıxmağa məcbur etdi. Səfəvi ordusu 4 aylıq mühasirədən sonra 1636-cı il aprelin 2-də İrəvanı azad etdi. Osmanlı-Səfəvi münaqişəsinin növbəti mərhələsi də qızılbaşların qələbəsi ilə başa çatdı.

Sonrakı illərdə Səfəvi sarayındakı çəkişmələr, ölkəni bürüyən üsyanlar, Moğol dövləti ilə Qəndəhar uğrunda başlamış hərbi əməliyyatlar qızılbaş qüvvələrinin birləşməsinə mane olurdu. *Sipəhsalar Rüstəm xanın* və Gəncəli *Şahverdi xanın* qoşunları Osmanlı ordusunun Bağdad üzərinə yürüşünü dayandıra bilmədi. 1638-ci il noyabrın 15-də Bağdad mühasirəyə alındı. Bektaş xanın başçılığı altında Səfəvi qoşunu dekabrın 25-nə kimi şəhəri müdafiə etdi. Döyüşdə Osmanlı dövlətinin baş vəziri Təyyar Mehmet paşa və İsmayıl Əfəndi öldürüldülər. Lakin xəyanət nəticəsində Osmanlı ordusu Bağdadı ələ keçirdi. Sultan IV Murad Bağdadın işğalından sonra hərbi əməliyyatları davam etdirmədən İstanbula qayıtmağa əmr verdi. I Şah Səfi ordunun bir hissəsinin Qəndəharda Moğollara qarşı hərbi əməliyyata cəlb olunduğunu nəzərə alaraq Osmanlıların yeni hücum təhlükəsindən çəkindi və Bağdadın itirilməsi ilə barışaraq Osmanlıların sülh təklifini qəbul etdi. 1639-cu il mayın 17-də *Qəsri-Şirində* Səfəvi elçisi Saru xanla Osmanlı sərkərdəsi Qara Mustafa paşa arasında sülh müqaviləsi

imzalandı. İki dövlət arasındakı sərhədlər 1612-ci ilin sülh müqaviləsi əsasında təsdiq olundu.

Beləliklə, 1578-ci ildə Osmanlı ordusunun Azərbaycana yürüşü ilə başlamış və fasilələrlə 60 il davam etmiş müharibə tərəflərə heç nə qazandırmadı, əksinə, hər iki ölkəni yorub gücdən saldı. Qəsri-Şirin sülhündən sonra Osmanlı-Səfəvi sərhədində uzun illər sakitlik yarandı, qarşılıqlı münasibətlər yoluna düşdü.

XVIII əsrin əvvəllərində Səfəvi dövlətində mərkəzi hakimiyyətin zəifləməsi və tənəzzül dövrünün yaşanması qonşu dövlətlərin işğalçılıq planlarını reallaşdırmasına əlverişli şərait yaratdı. 1722-ci ilin oktyabrında əfqanlar tərəfindən paytaxt İsfahan ələ keçirildi. 1723-cü ilin yazında Osmanlı ordusunun üç istiqamətdə hərbi yürüşü başladı. İyul ayında İbrahim paşa Tiflisi tutdu. Həmin ilin oktyabrında o, Gəncəni ələ keçirsə də, şəhəri tərk etməli oldu. 1724-cü ilin iyununda Arifi Əhməd paşa 60 minlik ordu ilə İrəvan şəhərini mühasirəyə aldı. Əliqulu xanın rəhbərlik etdiyi qala müdafiəçiləri uzun müddət ciddi müqavimət göstərdilər, amma oktyabrın 7-də iç qala süqut etdi və İrəvan osmanlıların əlinə keçdi.

1724-cü ilin yayında Köprülü Abdullah paşa Salmas, Xoy, Çors, Təsuc və Mərəndi ələ keçirərək Təbrizə yaxınlaşdı. Avqust ayında Təbrizin mühasirəsi uğursuz oldu, amma növbəti ilin avqustunda ciddi müqavimətə baxmayaraq, Təbriz şəhəri ələ keçirildi. 1725-ci ilin sentyabrında Osmanlı ordusu Gəncəni, dekabrında isə Ərdəbili işğal etdi. Beləliklə, 1723-25-ci illərdə Osmanlı imperiyası Luristan dağ silsilələrindən İrəvana, Gəncə və Muğan düzünə qədər geniş ərazini tutmuş oldu.

1730-cu ilin iyulunda *Nadir xan Əfşar* Həmədanla Kirmanşahı, az sonra Sənəndic, Savucbulaq, Urmiya, Marağa və Dehqarqanı Osmanlılardan azad etdi. Həmin ilin avqustunda Təbriz, 1731-ci ilin yanvarında isə Ərdəbil şəhəri Səfəvilərin nəzarətinə keçdi. Nadir xan Əfşar 1734-cü ilin avqustunda Şamaxını, 1735-ci ilin iyulunda Gəncəni, sentyabrında Tiflisi, oktyabrında isə İrəvanı Osmanlı işğalından azad etdi.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, I, 103-112, 131-159; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar, s.52, 57-61, 69; Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.373-396; K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara), s.80-87; Şerefhan Bitlisi. Sefername. Osmanlı-İran tarihi, II, 222-224, 234-237; О.Эфендиев. Образование Азербайджанского государства Сефевидов в начале XVI века, стр.116-117; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.49-51; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında), s.132-152, 160-167; Ş.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası, s.132-133; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.21-24; Roger Savory. Safeviler Devrinde İran, s.43-46, 66-69, 78-80, 93-99; B.Kütükoğlu. Osmanlı-İran Siyasi münasibetleri, s.55-63, 89-91, 129-131, 164-167, 261-269; T.T.Mustafazadə. XVIII yüzillik-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s.65-71; T.H.Nəcəfli. Səfəvi–Osmanlı münasibətləri, s.141-150, 188-202,*

239-261, 295-298, 306-317, 323-332, 381-383; T.H.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.50-53, 63-69, 90-101, 116-117, 136-141, 164-183; T.Nəcəfli. Nadir xan Əfşarın Səfəvi imperiyasının ərazisini işğaldan azad etmək uğrunda mübarizəsi, s.158-166; Ö.Küpeli. Safevi-Osmanlı Münasebetleri, s.91-114, 213-228, 255-262.

SƏFƏVİ-PORTUQAL MÜHARİBƏLƏRİ – aralarındakı məsafə minlərlə kilometrlərlə ölçülən iki dövlətin hərbi münaqişəsi XVI əsrin əvvəllərində başlamışdır. 1501-ci ildə Portuqaliya donanması İran körfəzinə daxil olaraq bölgədəki ən mühüm ticarət mərkəzi və körfəzə açılan qapı olan Hörmüzü işğal etməyə çalışdı. İran körfəzinin girişində yerləşən Hörmüz Azərbaycan Səfəvi dövləti üçün Hind okeanına mühüm çıxış məntəqəsi sayılırdı. Hörmüz hakimi Səfəvilərdən asılı idi və xəzinəyə illik xərac ödəyirdi. 1507-ci ilin oktyabrında admiral Afonsu d'Albukerkinin başçılıq etdiyi Portuqaliya donanması Hörmüzə hücum etdi. Bu zaman I Şah İsmayıl *Zülqədəroğulları bəyliyi* üzərinə yürüşə çıxdığı üçün Hörmüz əmirinə yardım göstərə bilmədi. Hörmüzlülər Xacə Əttarın başçılığı altında inadla müqavimət göstərsələr də, Portuqaliya artilleriyası şəhəri təslim olmağa məcbur etdi. Hörmüz hakimi Əmir Seyfəddin Portuqaliya asılılığını qəbul etdi, təzminat olaraq 5 min qızıl əşrəfi pul verdi və hər il 15 min əşrəfi xərac ödəməyi öhdəsinə götürdü. Hörmüzdə Portuqaliyanın ticarət faktoriyası açıldı və Portuqaliya qarnizonu üçün qala inşa olunmağa başlandı. Portuqaliya hakimiyyət orqanlarının icazəsi olmadan heç bir ölkənin ticarət gəmisi İran körfəzinə daxil ola bilməzdi. Hörmüzün itirilməsi Səfəvi dövlətinin Hind okeanı hövzəsindəki ölkələrlə ticarət əlaqələrinin məhdudlaşmasına səbəb oldu.

I Şah İsmayıl Hörmüz münaqişəsini diplomatik yolla nizama salmağa təşəbbüs göstərsə də, bu, arzuolunan nəticəni vermədi. D'Albukerki Portuqaliyanın gücünə və Səfəvi ordusunun zəif cəhətinə işarə olaraq şaha bir qədər top mərmisi, tüfəng gülləsi və barıt göndərdi.

Lakin portuqallar yerli əhalinin şiddətli müqaviməti nəticəsində İran körfəzində möhkəmlənə bilmədilər. Portuqaliya gəmiləri körfəzi tərk edən kimi Hörmüzdə yenidən Səfəvi təsiri bərpa olundu. Bir müddətdən sonra Əmir Seyfəddin öldü, onu qardaşı Turanşah əvəz etdi. Hörmüz əmirinin Səfəvilərə meyil göstərməsi Portuqaliyanı çox narahat edirdi. Bunu bəhanə edən Afonsu d'Albukerki qardaşı oğlu Pyedronun başçılığı altında hərbi dəniz qüvvələrini Hörmüzə göndərdi, lakin portuqal gəmiləri Turanşahın başçılığı ilə hörmüzlülərin müqavimətini qıra bilməyib geri qayıtmağa məcbur oldu.

I Şah İsmayılın *Çaldıran döyüşündə* məğlub olmasından və Səfəvi ordusunun Şərqi Anadoluda Osmanlılara qarşı hərbi əməliyyatları davam etdirməsindən istifadə edən admiral d'Albukerki 1515-ci il fevralın 20-də 26 gəmidən və 2200 nəfərlik heyətdən ibarət hərbi donanma ilə yenidən Hörmüzə hücum etdi. Bu dəfə Hörmüz qəti olaraq Portuqaliya müstəmləkə imperiyasının tərkibinə qatıldı. I Şah İsmayıl Osmanlı dövləti ilə

müharibə vəziyyətində olduğu üçün Portuqaliya ilə mövcud razılığa əməl etməli oldu və Hörmüz münaqişəsinə qarışmadı. Səfəvi dövlətinin zəifləməsindən istifadə edən Portuqaliya Hörmüzü fəth edərək İran körfəzinin girişini 100 il ərzində nəzarəti altına aldı. Hörmüzü işğal etməklə Səfəvi-Hindistan ticarətini öz nəzarətinə alan portuqallar istədikləri vaxt Səfəvi tacirlərini Hörmüz limanına buraxmırdılar.

I Şah Abbas hakimiyyətinin ilk illərində portuqalların körfəzlə bağlı bütün təkliflərini qəbul etmiş və onların ipək ticarətindən böyük gəlir əldə etməsinə göz yummuşdu, çünki Osmanlılarla apardığı savaşlarda Portuqaliyanın hərbi yardımına böyük ümid bəsləyirdi. Amma Portuqaliya bu ümidi doğrultmadı; üstəlik, onlar Hörmüzdə Səfəvi tacirlərini incidirdilər. İran körfəzini yerli və əcnəbi tacirlərin üzünə açmağa çalışan I Şah Abbas Avropa dövlətləri arasındakı rəqabətdən istifadə edərək 1602-ci ildə Bəhreyni tutdu, 1607-ci ildə Fars bəylərbəyi *Allahverdi xan* portuqalların istehkamlar tikdiyi ərazini – Bəndər-Abbas yaxınlığındakı quyuları ələ keçirdi. (Hörmüzün su təchizatı buradan keçirdi). 1613-cü ildə Allahverdi xan Haburnu, 1615-ci ildə Bəndər-Abbası portuqallardan azad etdi. 1616-cı ildə Sohar, 1619-cu ildə Rəs əl-Haym fəth olundu.

İran körfəzində Səfəvi dövlətinin vaxtilə itirmiş olduğu mövqeyi bərpa etməyə çalışan I Şah Abbas portuqalların hökmranlığına son qoymaq üçün ingilislərlə yaxınlaşdı. 1621-ci il noyabrın 21-də Səfəvi dövləti ilə İngiltərə arasında bağlanmış və Portuqaliyaya qarşı yönəlmiş yeni müqavilənin beşinci maddəsində Hörmüz tutulduqdan sonra İran körfəzində iki ölkə arasında qurulacaq iqtisadi əlaqələrin tənzimlənməsi qaydaları müəyyən olunmuşdu. Müqaviləyə əsasən, ingilis donanması Hörmüzü almaqda Səfəvilərə yardım göstərməyə razı oldu.

1620-ci ilin sonlarında İran körfəzi Hörmüz limanı istiqamətindən Allahverdi xanın, Bəndər-Abbas istiqamətindən isə onun oğlu *İmamqulu xanın* qüvvələri tərəfindən mühasirəyə alındı. 1621-ci ilin dekabrında hərbi əməliyyatlar başladı. 1622-ci ilin fevralında İmamqulu xan Bəndər-Abbas sahillərində duran ingilis gəmilərinin kapitanlarına müraciət edərək dənizdən onları dəstəkləməyi və Portuqaliya gəmilərinin qarşısını almağı xahiş etdi. Fevralın 18-də Səfəvilər Kəşm qalasını portuqallardan azad etdilər və burada Səfəvi qarnizonu yerləşdirildi. Səfəvi qoşunu Hörmüz qalasını mühasirəyə aldı. Qalanın mühasirəsi iki ay davam etdi, aprelin 23-də portuqalların təslim olması nəticəsində Səfəvi döyüşçüləri Hörmüzü ələ keçirdilər. 1625-ci ildə portuqallar Hörmüzü geri qaytarmağa cəhd göstərsələr də, bu niyyət baş tutmadı. (Hərbi əməliyyatların qızışdığı dövrdə Portuqaliya İspaniya krallığı ilə uniya halında mövcudluğunu davam etdirirdi və əslində İspaniya kralının hakimiyyəti altında idi. XVII əsrin birinci rübündə baş vermiş Səfəvi-Portuqaliya müharibəsi mahiyyətcə Səfəvi-İspaniya müharibəsi sayılır).

Mənbələr: *İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevi-*

rən: Ş.Fərzəliyev, II kitab), s.1120-1122, 1740-1745; Y.Mahmudov. Azərbaycan diplomatiyası, s.197-200, 211-212, T.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.322-328; Roger Savory. Safeviler Devrinde İran, s.114, 126-127, 128; C.Aydoğmuşoğlu. Şah Abbas ve Zamanı, s.126-130; Ə.Vilayəti. Şah İsmayıl dövründə İranın xarici əlaqələr tarixi, s.232-238; M.Süleymanov. Səfəvilər (I Şah Abbas), VIII, 100, 108-109, 112-113; H.Abdullayev. Azərbaycan Səfəvilər dövlətinin daxili və xarici siyasəti, s.148-151; Н.Н.Туманович. Европейские державы в Персидском заливе в XVI-XIX вв., стр.36, 48.

SƏFƏVİ-RUSİYA MÜNAQİŞƏLƏRİ

– XVII əsrin ortalarınadək Səfəvi dövlətinin Böyük Moskva knyazlığı ilə münasibətləri dostluq xarakteri daşımışdır. Lakin sonralar rus hakim dairələri dövlətin cənub sərhədlərini genişləndirmək siyasətini getdikcə daha aşkar şəkildə yeritməyə başladı. Moskva knyazları İngiltərənin Səfəvi dövləti hüdudlarında nüfuz qazanmaq cəhdlərinə qısqanclıqla yanaşır, Osmanlı imperiyası ilə Səfəvi dövləti arasında daim gərginlik yaşanmasına can atırdılar.

II Şah Abbasın (1642-1666) hakimiyyəti dövründə Don kazaklarının Xəzərsahili Azərbaycan torpaqlarına qarətedici yürüşləri iki dövlət arasında ciddi gərginlik yaratdı. 1647-ci ildə Don kazakları Bakı ətrafında dənizdə Fərahabadlı tacir Hacı Bağırın mallarını qarət etdilər. Rus kazaklarının Xəzəryanı bölgələrə hücumları sonrakı zamanlarda da davam etmişdir.

1653-cü ildə Səfəvi dövlətinə tabe olan Kaxetiyada baş verən üsyan yatırılanda vilayətin hakimi Teymuraz xan Moskvaya qaçmış və Səfəvilərə qarşı hərbi yardım istəmişdi. Bu avantüraya uyan Moskva hökuməti Şimali Qafqaz xalqları ilə Səfəvilərin əlaqəsini pozmaq və gələcək müstəmləkəçilik planlarını reallaşdırmaq üçün Səfəvi dövlətinin sərhəd məntəqələrində Qoysu çayı üzərində bir neçə qala inşa etdirib, burada mühafizə dəstələri yerləşdirdi. Ruslar tərəfindən Şimali Qafqazda strateji məqsəd daşıyan qalaların inşa edilməsi Səfəvi sarayında narahatlığa və etiraza səbəb oldu. II Şah Abbas rusların həyata keçirdiyi tədbirlərə mane olmaq məqsədilə 1653-cü ildə Şirvan bəylərbəyi *Xosrov xanın* başçılığı altında Çuxursəd, Qarabağ, Dərbənd, Ərdəbil hakimlərinin, Dağıstan şamxalı Surxay xanın, Abbasqulu xan Usminin qüvvələrinin yardımı ilə Dərbənd ətrafındakı tikililəri məhv etdirdi, amma iki dövlət arasındakı barışığı pozmamaq üçün Terek qalalarını dağıtmağa razılıq verməndi.

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin düşdüyü ağır sosial-iqtisadi, siyasi böhrandan qonşu dövlətlər öz maraqları naminə istifadə etməyə çalışırdı. Rusiya çarı I Pyotrun Xəzəryanı məntəqələrə yürüş planı vardı, amma İsveçlə aparılan Şimal müharibəsi bu planı gerçəkləşdirməyə imkan vermirdi. I Pyotrun sərəncamı ilə Xəzərin cənub-qərb sahillərini və regionda hərbi-siyasi şəraiti öyrənmək üçün A.P.Volınski 1716-1718-ci illərdə şah sarayına göndərildi. Rusiyaya qayıdan Volınski I Pyotra Səfəvi dövlətinin acınacaqlı vəziyyətini təsvir edərək Xəzəryanı vilayətlərə yiyələn-

mək məqsədilə yubanmadan hərbi əməliyyatlara başlamağı təklif etdi.

I Pyotr Şimal müharibəsi başa çatan kimi Cənubi Qafqaz istiqamətində Xəzər boyu yürüş üçün hazırlıq tədbirlərini sürətləndirdi. Rus qoşunlarının Xəzər sahili boyunca cənuba yürüşü 1722-ci il iyulun 29-da başladı. Həmin gün imperatorun rəhbərlik etdiyi piyada hissələrini daşıyan rus donanması Həştərxandan yola düşdü. Bundan əvvəl I Pyotr xüsusi mətbəədə Azərbaycan dilində "Qafqaz və İran xalqlarına manifest" adlı müraciət çap etdirərək öz işğalçı yürüşünün məqsədini ört-basdır etməyə çalışdı. Müraciətdə o, guya Şamaxıda Hacı Davudun rəhbərliyi altında başlamış üsyanı yatırmaq, qeyri-müsəlman əhalini qorumaq, bölgəyə sülh, əmin-amanlıq gətirmək niyyətində olduğunu bildirirdi. Rus qoşunları Dərbəndə çatanda hakim Alxas sultan şəhəri tərk etdiyindən yerli qarnizonun komandiri İmamqulu bəy avqustun 23-də Dərbəndi ruslara təslim etdi. Bir həftə istirahətdən sonra, avqustun 30-da I Pyotr Bakı istiqamətində hərəkətə keçdi. Lakin ordu üçün ərzaq daşıyan gəmilər dənizdə şiddətli fırtınaya düşdüyü üçün isti iqlim, yem çatışmazlığı üzündən döyüş atları qırıldı. Bu arada Peterburqdan saray əyanları arasında ixtilaflar başladığı barədə məlumat gəldi. İmperator sentyabrın 7-də polkovnik Yungerin başçılığı altında Dərbənddə qarnizon saxlayıb geri döndü. 1722-ci ilin noyabrında Gilanın Rəşt şəhərini tutmaq üçün polkovnik Şipovun komandanlığı altında iki tabordan ibarət ekspedisiya təşkil olundu və dekabr ayında şəhər ələ keçirildi. 1723-cü il iyulun sonunda rus eskadrası Bakıya yaxınlaşdı. General Matyuşkin şəhərin təslim olmasını tələb etdi, şəhər hakimi Məhəmməd Hüseyn bəyin rədd cavabından sonra Bakı toplardan atəşə tutuldu. Bir neçə günlük müqavimətdən sonra şəhər təslim oldu, bir qədər sonra rus hərbçiləri Salyanı da işğal etdilər. II Təhmasibin Peterburqa göndərdiyi elçi Rusiya dövləti ilə imzaladığı müqavilədə Xəzər dənizinin qərb və cənub sahillərinin Rusiyaya verilməsini təsdiq etdi. (Bu müqavilənin Səfəvi səfiri tərəfindən özbaşına imzalandığını yazırlar). Bu vəziyyət *Nadir xanın* Səfəvilər dövləti ərazisini yadelli işğalçılardan təmizləmək və dövlətin əvvəlki sərhədlərini bərpa etmək uğrunda apardığı müharibələrin sonunadək davam etdi, Nadir xanla Rusiya arasında bağlanmış Rəşt (1732) və Gəncə (1735) müqavilələrinin şərtlərinə görə, Rusiyanın əlində olan bütün torpaqlar geri qaytarıldı.

Mənbələr: *Azərbaycan tarixi (7 cilddə), III, 359-362; T.Mustafazadə. XVIII yüzillik-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri, s.27-30, 51; T.Mustafazadə. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri, s.32-36; M.Süleymanov. Nadir şah, s.98-102, 104; T.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.298-299; П.Г.Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг., I, 25-26; В.И. Козубский. История города Дербента, стр.79; В. Комаров. Персидская война 1722-1725 гг., стр.577-579; О.П.Маркова. Россия, Закавказье и международные отношения в XVIII веке, стр.26-27; Т.Мустафазаде. Азербайджан*

и русско-турецкие отношения в первой трети XVIII века, стр.44-47, 71-72.

SƏFƏVİ-ŞEYBANİ MÜHARİBƏLƏRİ – XVI əsrin əvvəllərində I Şah İsmayılın dövlətin qərb istiqamətində hərbi əməliyyatlarla məşğul olmasından istifadə edən özbək əmiri *Məhəmməd xan Şeybani* Xorasanı işğal etdi və şaha təhqiredici məktublar göndərərək Azərbaycana və İraqa hücum edəcəyi ilə onu hədələdi. Bu təhdidlərə cavab olaraq I Şah İsmayıl 1510-cu ilin payızında öz ordusu ilə Xorasana doğru hərəkət etdi. Dekabrın 2-də Mərv yaxınlığında baş vermiş döyüşdə Məhəmməd xan Şeybani məğlub olaraq öldürüldü, Herat, Mərv, Urgənc və Bəlx şəhərləri fəth olundu. Buxara hakimi Übeydullah xan və Səmərqənd hakimi Məhəmməd Teymur sultanla 1511-ci ilin yazında bağlanmış sülhə görə, Amudərya çayı Səfəvi və Şeybani dövlətləri arasında sərhədə çevrildi.

Lakin sülh tezliklə özbək xanları tərəfindən pozuldu. 1512-ci il noyabrın 12-də Qicduvan yaxınlığında Buxara hakimi Übeydullah xan *vəkil Nəcmi-saninin* rəhbərlik etdiyi qızılbaş ordusu üzərində qələbə qazandı, Nəcmi-sani ələ keçirilərək öldürüldü.

1513-cü ilin fevral ayında Übeydullah xanla Canı bəy Heratı mühasirəyə alsalar da, iki ay davam edən mühasirə nəticə vermədi. Mürğabda Übeydullah xanla Məhəmməd Teymur xanın qüvvələrinin birləşməsi Xorasan üzərinə yürüşə şərait yaratdı. Heratla yanaşı Mərv, Məşhəd, Tus və İsfərayin də özbəklərin əlinə keçdi, lakin həmin ilin yayında Səfəvi ordusu bu şəhərləri geri qaytara bildi. 1513-cü ilin payızında I Şah İsmayıl Bəlx şəhərindən 13 fərsəx kənarda özbək xanlarına yardıma gəlmiş Dəşti-Qıpçaq qazaxlarının hökmdarı Qasım xanın oğlu Əbülxeyr xanı məğlubiyyətə uğratdı, Amudərya çayı yenidən tərəflər arasında sərhəd oldu.

1514-21-ci illərdə Übeydullah xanın başçılığı altında Şeybanilərin Xorasana yürüşləri yerli qızılbaş hakimlərinin ciddi müqaviməti nəticəsində uğursuzluqla nəticələndi.

I Şah İsmayılın vəfatından (1524) sonra qızılbaş tayfa başçıları arasında hakimiyyət uğrunda on il davam etmiş çəkişmələr dövləti xeyli zəiflətdi. Bundan faydalanan Şeybani hökmdarı Übeydullah xan yenidən Xorasanı ələ keçirməyə çalışdı. O, I Şah Təhmasibin hakimiyyətə gəlişindən sonrakı on iki il ərzində altı dəfə Xorasana yürüşlər təşkil etdi. Übeydullah xan və müttəfiqləri Xorasan bəylərbəyi *Durmuş xan Şamlunun* ciddi müqaviməti nəticəsində geri oturduldular, lakin Durmuş xanın vəfatından (1525) sonra Xorasandakı qızılbaş əmirləri arasında başlamış çəkişmələr özbəklərin yeni yürüşünə yol açdı. 1526-cı ildə Übeydullah xan Astarabad yaxınlığında Səfəvi qoşununu məğlub edərək şəhəri ələ keçirdi, bununla belə, o, növbəti ildə Heratı tuta bilmədi.

1528-ci ilin sentyabrında Cam döyüşündə I Şah Təhmasib Übeydullah xan üzərində parlaq qələbə qazandı. Cam zəfəri Səfəvi imperiyasının bölgədəki mövqelərini xeyli gücləndirdi. 1535-ci ilin yayında Übeydullah xanın Məşhədi

ələ keçirmək cəhdi uğursuz oldu. Lakin 1536-cı ilin yanvarında Nişapur yaxınlığındakı Abdulabad kəndində baş vermiş toqquşmada o, qələbə qazandı. Həmin ilin yazında Übeydullah xanın ordusu Herat şəhərini mühasirəyə aldı. Mühasirə avqustun ortalarınadək davam etdi. Xızır Çələbinin rəhbərliyi altında qızılbaşlar düşmənə ciddi müqavimət göstərsələr də, avqustun 16-da xəyanət nəticəsində şəhər ələ keçirildi. Özbəklər şəhəri talan etməyə, qətl-qarətə başladılar, Xızır Çələbi adamları ilə İxtiyarəddin qalasına çəkildi.

I Şah Təhmasibin Xorasana gəldiyini eşidən Übeydullah xan 1537-ci ilin yanvarında tələsik Buxaraya qayıtdı. Qızılbaş ordusu 1537-ci ilin martında Herata daxil oldu. I Şah Təhmasib altı ay Xorasan vilayətində qaldı. Bu müddətdə o, bölgəni möhkəmləndirmək və idarəetmə mexanizmini nizama salmaq üçün müəyyən tədbirlər gördü. 1537-ci ilin avqustunda şah Heratı tərk edib Təbrizə qayıtdı.

1540-cı ildə Übeydullah xanın vəfat etməsi ilə Xorasan vilayətində müvəqqəti sabitlik yarandı. 1543-45-ci illərdə Din Məhəmməd xanın və qardaşı Əli sultanın qoşunları Məşhədə və Astarabada yürüşlər etdilər. Astarabad hakimi *Şahqulu sultan Ustaclu* 700 nəfərlik qızılbaş dəstəsi ilə Gürgan ətrafında Əli sultanla qarşılaşdı. Baş verən döyüşdə özbəklər məğlub olub qaçdılar.

1550-ci ildə özbək qoşunlarının Xorasana böyük hücumu baş verdi. Səmərqənd hakimi Əbdüllətif xan, Daşkənd hakimi Büraq xan və Hisari-Şadman hakimi Şah Məhəmməd sultan 40 minlik qoşunla Xorasan vilayətinin hüdudlarını aşdılar. Übeydullah xanın vəfatından sonra özbəklər ilk dəfə idi belə böyük miqyasda hücuma keçirdilər. *Məhəmməd xan Şərəfəddinoğlu* təhlükənin qarşısını almaq üçün bütün imkanları səfərbərliyə aldı, şəhər darvazalarının və divarların müdafiəsini gücləndirdi. 1550-ci ilin mayiyun aylarında Herat ətrafında baş vermiş döyüşlər özbəklərin məğlubiyyəti ilə başa çatdı. Şah Məhəmməd sultanın öldürülməsi ilə ümidsizliyə düçar olan Büraq xan Herat ətrafından geri çəkilmək məcburiyyətində qaldı.

Din Məhəmməd xanın vəfatından sonra onun yerinə Xarəzm hakimi seçilmiş qardaşı Əli sultan da bir neçə dəfə Xorasana hücum təşkil etdi. 1558-ci ilin yayında I Şah Təhmasib Astarabad vilayətinə ardıcıl basqınlar etməklə əhaliyə böyük ziyan vuran türkmən tayfalarını cəzalandırmaq üçün *Şahqulu xəlifə möhürdarın* və *Bədir xan Ustaclunun* komandanlığı altında bölgəyə qoşun göndərdi. Bu qoşun Astarabad hakimi *İbrahim xan Zülqədərin* və Kuhgiliyə hakimi Rüstəm xan Əfşarın qüvvələri ilə birləşdi. Bundan xəbər tutan türkmənlər Xarəzm hakimi Əli sultana sığındılar. Qızılbaş qoşunu Astarabada yaxınlaşan zaman türkmənlər Ətraq çayının arxasına çəkildilər. Əli sultan 3 minlik qüvvə ilə türkmənlərin yardımına yetişdi. Döyüşdə qızılbaşlar məğlub oldular, onların böyük hissəsi Ətraq çayını keçəndə suda boğuldu.

1559-cu ildə Əli sultan dəstəsi ilə İsfərayin üzərinə basqın etdi. İsfərayin ha-

kimi Qənbər sultan Asayişoğlu döyüşdə məğlub oldu, oğlu və qardaşı oğlu qətlə yetirildi, özü isə əsir kimi Xarəzmə aparıldı. Növbəti ildə Əli sultan Nişapuru qarət etmək məqsədilə yeni qoşun göndərdi, lakin Budaq sultan Qacar və Süleyman bəy Məlkənoğlu Zülqədərin rəhbərliyi altında qızılbaşlar bu qoşunu məğlub etdilər.

1563-cü ildə Bəlx hakimi Pir Məhəmməd xan, daha sonra Əli sultan Xorasana hücumlar edərək Məşhəd, Nişapur, Tərşiz, Zavə və digər məntəqələrdə qətl-qarət törətdilər.

Buxara və Bəlx hakimlərinin Xorasana aramsız hücumlarına və bölgənin qarət olunmasına baxmayaraq, I Şah Təhmasib qarşılıqlı əlaqələrin tamamilə kəsilməsində maraqlı olmadığını nümayiş etdirirdi. 1563-cü ildə özbək qoşunlarının aramsız hücumları müqabilində Məvəraünnəhrin tanınmış şəxsləri, özbək sultanları həcc ziyarətini yerinə yetirmək üçün Qəzvinə gəldilər, hörmətlə qarşılanaraq Hicaza yola salındılar.

1564-cü ildə I Şah Təhmasib *Məsum bəy Səfəvini* orduya baş komandan təyin edərək Xorasan istiqamətində hərbi yürüşə yolladı. Xəbuşan vilayəti, Nəsa və Əbivərd şəhərləri özbəklərdən azad edildi. Əli sultanın ölümündən (1566) sonra Hacım xan Xarəzm hakimi oldu. Onun təmkinli siyasəti nəticəsində Xorasan üzərinə hücumlara bir müddət ara verildi.

1567-ci ildə Buxara hakimi İsgəndər xan öz oğlu Abdullah sultanın rəhbərliyi altında Xorasana ordu göndərdi. Türbət qalasını ala bilmədən geri dönən özbəklər Mərv şəhərini ələ keçirməyə çalışdılar, lakin şəhərin mühasirəsi nəticə vermədi.

1569-cu ildə Özbək sultanın qoşunları Xorasana yürüş edərək Cam vilayətini ələ keçirdi. Vilayət bir müddət özbəklərin nəzarəti altında qaldı. 1571-ci ildə Hacı sultanın rəhbərliyi ilə qızılbaşlar Özbək sultanı öldürüb vilayəti azad etdilər. I Şah Təhmasib Cam şəhərinin idarəsini Hacı sultana tapşırdı.

I Şah Təhmasibin vəfatından (1576) sonra özbəklərin Xorasana yürüşləri intensiv xarakter aldı. 1578-ci ildə Xarəzm hakimi Cəlal xan Xorasana yürüş etsə də, iyunun 3-də Cam vilayətindəki Bəndi-Fəriman məntəqəsində baş vermiş döyüşdə qızılbaş sərkərdəsi *Mürtəzaqulu xan Pörnak* tərəfindən məğlub edilib öldürüldü.

1583-cü ildə Şeybanilər dövlətində hakimiyyəti ələ keçirmiş II Abdullah xan (1583-1597) Xorasan uğrunda mübarizəyə başladı. Şah Məhəmməd Xudabəndə özbəklər arasındakı rəqabətdən istifadə edərək Xarəzmlə Xivə xanlarını öz tərəfinə çəkməyə çalışdı.

Bu zaman Mürtəzaqulu xan Pörnakla Herat hakimi *Əliqulu xan Şamlu* arasında Xorasanda möhkəmlənmək uğrunda mübarizə kəskin hal almışdı. Mürtəzaqulu xan Məşhəd hakimi vəzifəsindən azad edildi və şahın bacısı oğlu *Salman xan Ustaclu* onun yerinə təyinat aldı. Mürşidqulu xan Ustaclu onun təcrübəsizliyindən yararlanaraq Məşhəddə möhkəmləndi. Herat hakimi Əliqulu xan Şamlu ilə Məşhəd hakimi Mürşidqulu xan Ustaclu arasında baş vermiş döyüşdə Əliqulu xan məğlub oldu. Bundan is-

tifadə edən II Abdullah xan 1587-ci ilin yazında böyük qoşunla Xorasana yürüş etdi. Əliqulu xan II Abdullah xanın təslim olmaq barədə tələbini rədd edərək müdafiə olunmağa qərar verdi. Heratın mühasirəsi təxminən on ay davam etdi, şəhərdə aclıq və xəstəlikdən 4 min nəfər həlak oldu. Əliqulu xan Pirbudaq sultanı *Hatəm xan Ordubadinin* qardaşı və daha bir neçə nəfərlə birlikdə II Abdullah xanla sülh şərtlərini müzakirə etmək üçün danışığa göndərdi. Elçilərin öldürülməsi yolverilməz sayılsa da, II Abdullah xan onları topun lüləsinə qoyub qalaya tərəf atəş açmaqla faciəli şəkildə qətlə yetirdi.

1588-ci il fevralın 17-də xəyanət nəticəsində Herat şəhəri özbəklər tərəfindən ələ keçirildi. Əliqulu xan İxtiyarəddin qalasına sığınsa da, iki gündən sonra aman vədinə inanaraq qalanı tərk etdi və öldürüldü. Herat şəhərində talanlar və kütləvi qətllər başladı.

1589-cu ilin aprelində Əbdülmömin xan Məşhəd şəhərini mühasirəyə aldı. Məşhəd hakimi Əmət xan Ustaclu I Şah Abbasdan yardım istədi. Şah sentyabrın əvvəlində Qəzvindən Məşhədə doğru hərəkətə başladı, amma yolda xəstələndiyi üçün bir müddət Reydə dayanmalı oldu. Bu müddət ərzində Əmət xan Ustaclu Məşhədi cəsarətlə müdafiə etdi. Lakin beş aylıq mühasirədən sonra 1589-cu il sentyabrın 30-da ərzaq çatışmazlığından və köməksizlikdən zəifləmiş şəhər müdafiəçiləri təslim oldular. Əmət xan və yaxın ətrafı müqəddəs İmam Rza (ə) hərəminə sığınsalar da, özbəklər bura pənah gətirmiş hər kəsi (seyidlər, din xadimləri və sadə xalq da daxil olmaqla) çölə çıxarıb qılıncdan keçirdilər. Hərəmdəki qiymətli əşyalar qarət olundu. Məşhəddə qarət üç gün davam etdi, mənbələr bu faciə zamanı 2-3 min nəfərin öldürüldüyünü qeyd edir.

1592-ci ilin payızında I Şah Abbasın Xorasana hərbi səfəri uğurla başa çatdı, Nişapur, İsfərayin və Səbzəvar azad edildi. Məşhəddəki İmam Rza (ə) hərəmi dağıntıya məruz qalmasın deyə, eləcə də qışın yaxınlaşdığını, ərzaq və yem ehtiyatının tükəndiyini nəzərə alaraq şah Qəzvinə qayıtdı.

1593-cü ildə Əbdülmömin xan I Şah Abbasın Gilanda olmasından istifadə edərək yenidən Xorasana yürüş etdi. O, bir neçə şəhəri ələ keçirib Nişapuru mühasirəyə aldı. Nişapurun müdafiəsinə Dərviş Məhəmməd xan Rumlu başçılıq edirdi. Özbəklər qala bürclərindən birini dağıdıb şəhərə girsələr də, tüfəngçilər tərəfindən geri oturduldular. 1593-cü ilin iyununda ərzaq ehtiyatının tükəndiyini görən Dərviş Məhəmməd xan Rumlu xalqı çətin vəziyyətə salmamaq üçün əlindəki əsirlərə güvənərək şəhəri özbəklərə təhvil verdi.

1595-ci ilin aprelində I Şah Abbas *Fərhad xan Qaramanlunu* Xorasan hakimi təyin edib 5 min nəfərlik qüvvə ilə bölgəyə göndərdi. Səfəvi hökmdarı Xar, Simnan, Damğan, İsfərayin, Həzarcərib və Firuzkuh şəhərlərini də onun nəzarətinə verdi. Bu zaman Əbdülmömin xan İsfərayin qalasını mühasirəyə almışdı. Bunu eşidən I Şah Abbas Qəzvindən Xorasana doğru yürüşə çıxdı, Firuzkuhda Fərhad xanın qüvvələri ilə birləşərək

ordunun sayını 20 minə çatdırdı. Bu sürətli hücumu gözləməyən Əbdülmömin xan Səfəvi elçisini öldürərək Məşhədə çəkildi. I Şah Abbas İsfərayini və Səvzəvarı azad etdi, amma qış mövsümünün yaxınlaşması, ərzağın azalması və Əbdülmömin xanın Bəlxə qaçması şahın Qəzvinə qayıtmasına səbəb oldu.

1596-97-ci illərdə Buxara hakimi II Abdullah xanla I Şah Abbas arasında elçi mübadiləsi baş versə də, sülh bağlanmadı. Hakimiyyətdə möhkəmlənmiş, hərcməcliyə son qoymuş, hərbi islahat nəticəsində ordunu gücləndirmiş şah artıq Xorasanı özbək işğalından azad etməyin vaxtı çatdığını düşünürdü.

1598-ci ilin fevralında II Abdullah xan Səmərqənddə vəfat etdi. Özbək sərkərdələri arasında hakimiyyət uğrunda mübarizənin başlamasından istifadə edən I Şah Abbas itirilmiş əraziləri geri qaytarmaq məqsədilə mayın 9-da İsfahandan yürüşə başladı. O, Fərhad xan Qaramanlu ilə Azərbaycan bəylərbəyi Zülfüqar xanı 10 minlik qüvvə ilə yollayaraq özü də onların ardınca hərəkət etdi. Əvvəlcə Nişapur şəhəri, daha sonra özbəklərin tərk etdiyi Məşhəd şəhəri geri qaytarıldı. I Şah Abbas 1598-ci il iyulun sonunda Məşhədə daxil oldu və üç gün ərzində şəhərdə qaldı. O, İmam Rza (ə) hərəmini ziyarət etdikdən sonra azad olunmuş şəhərlərə hakimlər göndərdi. Bu arada Əbdülmömin xanın öldürülməsindən xəbər tutan I Şah Abbas Nur Məhəmməd xanı Budaq xanla birlikdə Nəsa, Əbivərd və Mərv istiqamətində göndərdi, özü isə avqustun 1-də Məşhəddən Herata doğru hərəkətə keçdi. 1598-ci il avqustun 10-da Herat yaxınlığındakı Puli-Salar məntəqəsində qızılbaş ordusu ilə Din Məhəmməd xanın başçılıq etdiyi özbək qoşunu arasında döyüş baş verdi. Savaşda özbəklər məğlub oldular, Din Məhəmməd xan və əksər özbək əmirləri öldürüldü. Beləliklə, Xorasan uğrunda yüz ilə qədər davam etmiş qarşıdurma Səfəvi dövlətinin qələbəsi ilə başa çatdı.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, I, s.103-112, 131-159; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar, s.32; Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.364-396; Abdüllatif Kazvini. Safevi Tarihi, s.34; K.A.Gaffari Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara), s.52-61, 89-95; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.49-51; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.132-152, 160-167; T.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.191, 208-209; T.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin Türküstan xanlıqları ilə siyasi əlaqələri, s.26-49, 57-68, 74-124; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.31; Roger Savory. Safeviler Devrinde İran, s.38-40, 91-95; C.Aydoğmuşoğlu. Şah Abbas ve Zamanı, s.175-204; G.K.Çinar. İki Böyük Türk Hakanı Şah İsmail ve Şeybani Han Arasında Söz Düellosu, s.84-85; M.S.Süleymanov. Səfəvilər, IV, 85-115; VII, 433-446; О.Эфендиев. Образование Азербайджанского государства Сефевидов в начале XVI века, стр.109-111; Н.Туманович. Герат в XVI-XVIII веках, стр.101.*

SƏFƏVİ-ŞİRVANŞAH MÜHARİBƏSİ – 1499-cu ilin yayında *Şeyx Heydərin* oğlu 12 yaşlı İsmayıl qızılbaş tayfalarını öz ətrafına toplamaq, hərbi qüv-

vələrini artırmaq üçün kiçik dəstə ilə Ərdəbildən Ərzincana hərəkət etdi. Ərdəbildən Qarabağa və Göyçəyə doğru yol boyunca ona hər gün çoxlu könüllü qoşuldu. Ərzincanda qızılbaş ağsaqqallarının müşavirəsində hərbi yürüşün istiqaməti müzakirə olunan zaman Şirvanşah Fərrux Yasara qarşı yürüş etmək istəyənlər üstünlük qazandı. Yürüş üçün siyasi vəziyyət çox əlverişli idi. Ağqoyunlu dövləti iki yerə parçalanmış, *Şirvanşahlar dövləti* meydanda tək qalmışdı. Qızılbaş hərəkatı təkcə Azərbaycanda deyil, Anadoluda, Əcəm və Ərəb İraqında geniş yayılmış, burada yaşayan türk tayfaları Səfəvi sülaləsinə güc və qoşun verən bir dayağa çevrilmişdilər.

1500-cü ilin yayında *Şamlu, Ustaclu, Rumlu, Təkəlü, Zülqədər, Əfşar, Qacar, Varsaq* və b. tayfalardan yardım almış İsmayıl Şirvana yürüş etdi. O, Kür çayının Qoyunölümü adlanan çətin keçidini at üzərində ilkin olaraq keçdi, bununla tərəddüd edənləri ruhlandırdı. 1500-cü ilin dekabr ayında Fərrux Yasarın və İsmayılın qoşunları arasında Şamaxı yaxınlığındakı *Cabanı* düzündə həlledici döyüş baş verdi. Döyüşdə Şirvanşahın ordusu darmadağın edildi, Buğurd qalasına qaçıb gizlənmək istəyən Fərrux Yasar öldürüldü. İsmayıl üç gün döyüş yerində qaldıqdan sonra Şamaxıya yollandı, şəhərin ətrafında seyidlər, qazılar, əhali və əyanlar onu qarşılamağa çıxdılar.

Muğanda Mahmudabad yaxınlığındakı qışlağa gedən İsmayıl Bakını tutmaq üçün *Məhəmməd bəy Ustaclu* və *İlyas bəy Xınıslu* başda olmaqla qoşun göndərdi. 1501-ci ilin yazında Bakı şəhərinin sakinləri qızılbaşlara inadlı müqavimət göstərdilər və xərac verməkdən boyun qaçırdılar. Bakının təslim olması haqqında qızılbaş elçisinin tələbinə cavab olaraq şəhərin qadın hakimi onun edamı haqqında əmr verdi, ardınca qalanı təslim etməyi təklif edən şəhər darğası da öldürüldü. Bakı sakinlərinin güclü müqaviməti İsmayılı şəxsən hücuma qatılmağa vadar etdi. Qızılbaşlar qazılmış lağım vasitəsilə şəhərə daxil oldular. Şəhər böyüklərinin bir hissəsi boyun əyərək əllərində Quran İsmayılın yanına gəldi. Bakı sakinləri dövlət xəzinəsinə qanbahası şəklində 1000 tümən ödədilər. Şirvanşahların Bakı sarayında saxlanılan zəngin xəzinəsi ələ keçirildi və bir hissəsi qızılbaş döyüşçülərinə paylanıldı.

Şirvanlılar Gülüstan, Buğurd və Surxab qalalarında müqaviməti davam etdirirdilər. Buna görə qızılbaşlar ikinci əsas müqavimət mərkəzi olan Gülüstan qalasını mühasirə edənlərin köməyinə yollandılar. Gülüstan qalasının mühasirəsi davam edən zaman Ağqoyunlu Əlvənd Mirzənin qoşun toplayaraq şirvanlılarla birləşmək üçün hərəkət etməsi xəbəri gəldi. İsmayıl "səltənətin dirəkləri" sayılan qızılbaş əmirlərini hərbi müşavirəyə çağırdı və onlardan soruşdu: "Sizə Gülüstan qalası lazımdır, yoxsa *Azərbaycan taxtı*?" Əmirlər ikincini seçdikdən sonra İsmayıl Azərbaycan məmləkətini Əlvənd Mirzədən almaq üçün Şirvandan hərəkət etdi.

Beləliklə, bu yürüş nəticəsində Şirvanşahlar dövlətinə ağır zərbə vuruldu, lakin onun mövcudluğuna son qoyulmadı. Şirvanşahlar illik vergi ödəyərək Sə-

fəvilərdən asılı vəziyyətə salındılar.
Fərrux Yasar öldürüldükdən sonra Şirvanda hakimiyyətə oğlu Bəhram bəy keçdi. Bir ildən sonra onu qardaşı Qazi bəy əvəz etdi, o da bir neçə aydan sonra oğlu Sultan Mahmud tərəfindən öldürüldü. Cabanı döyüşündən sonra Gilana qaçmış Şeyxşah (Fərrux Yasarın digər oğlu) 1502-ci ildə II İbrahim adı ilə Şirvanşahlar taxtında oturdu. Sultan Mahmud isə kömək almaq üçün Səfəvilər sarayına gəldi. Qızılbaş qoşunu ilə Şirvana qayıdan Sultan Mahmud məğlub oldu və öz xidmətçisi tərəfindən öldürüldü (1505/06).
I Şah İsmayıl öz tərbiyəçisi *Hüseyn bəy Lələni* Şirvana canişin təyin etmişdi. Şeyxşah Şirvanda hakimiyyəti ələ keçirdikdən sonra hökmdara hədiyyələr göndərib vergi verəcəyini və ona sədaqətli olacağını bildirmişdi. Lakin o, I Şah İsmayılın *Zülqədəroğulları bəyliyinə* yürüşündən istifadə edərək xəracı verməkdən boyun qaçırdı və elçilərə ehtiram göstərmədi. Buna görə I Şah İsmayıl 1509-cu ilin sonunda ikinci dəfə Şirvana yürüş etdi, Kür çayını ponton körpülər vasitəsilə keçdi. Şahın gəldiyini eşidən Şeyxşah Buğurt qalasına çəkildi. I Şah İsmayıl əmirləri Şamaxını tutmağa göndərdi, özü isə Bakıya yollandı. Bakı qalasının hakimi hədiyyələrlə şahın hüzuruna gələrək itaət göstərdi və şəhərin açarlarını ona təqdim etdi. Şah Bakıdan Şabrana getdi, vilayətin valisi və digər Şirvan qalalarının hakimləri də onun hüzuruna tələsərək öz itaətlərini bildirdilər. Şah həmin qalaların idarə olunmasını Hüseyn bəy Lələ Şamluya həvalə etdi və Dərbəndi mühasirəyə aldı. Şahın pişvazına çıxmayan Əmir Yarəhməd ağa və Məhəmməd bəy müqavimətin mənasız olduğunu görərək təslim olmağa razılaşdılar. Mənsur bəy Dərbənd hakimi təyin edildi.
Şirvanı yenidən özünə tabe edən I Şah İsmayıl Kürü adlayıb qışı Qarabağda keçirdi, baharda isə Təbrizə qayıtdı. Şahın uğurlarını və qələbələrini görən Şeyxşah xərac verməyə razı oldu. 1518-ci ildə Şeyxşah böyük oğlu Sultan Xəlili girov olaraq Təbrizə göndərdi, I Şah İsmayıl qızı *Pərixan xanımı* ona ərə verdi. 1523-cü ildə isə I Şah İsmayıl Şeyxşahın qızı ilə evləndi. Bununla iki dövlət arasındakı siyasi gərginlik aradan qalxdı. Lakin oğul varisi olmayan II Xəlilüllah 1535-ci ildə öldükdən sonra Şirvanın yerli əyanları Şeyxşahın nəvəsi, 15 yaşlı Şahruxu taxta çıxardılar. Şirvanda daxili çəkişmələr getdikcə artırdı. Bu çəkişmələr zamanı Mahmudabad və Salyanda özünü Şeyxşahın oğlu Sultan Məhəmməd adlandıran *qələndər* dərvişin başçılığı ilə üsyan başladı (1537-38). O, Salyanı ələ keçirərək Şamaxıya yaxınlaşdı. Yerli əmirlər və Şahrux Buğurd qalasına çəkildilər. Qələndərin dəstəsi Şamaxını tutdu, az sonra Şahruxun dəstəsi Salyan yaxınlığında baş verən döyüşdə üsyançıları dağıtdı.
Bu zaman Pərixan xanım *qorçubaşı* Padarı qardaşı I Şah Təhmasibin yanına göndərməklə Şirvandakı çəkişmələrə son qoymaq üçün ondan kömək istədi. 1538-ci ildə I Şah Təhmasib qardaşı *Əlqas Mirzənin* başçılığı altında hərbi dəstəni Şirvana yolladı. Onlar Şamaxı, Surxab,

Qəbələ və Gülüstanı tutdular. Şahruxun vəkili Hüseyn bəy başda olmaqla bir neçə Şirvan əyanı öldürüldü, Şirvanşahlar dövlətinə son qoyuldu, Əlqas Mirzə Şirvan bəylərbəyi təyin edildi.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, I, 83-83; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar, s.32; Həsən bəy Rumlu. Əhsən ət-təvarix, s.364-367; K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara), s.78-79; G.Sarwar. History of Shah Ismail Safawi, p.211; Abdullatif Kazvini. Safevi Tarihi, s.34; О.Эфендиев. Образование Азербайджанского государства Сефевидов в начале XVI века, стр.86-89, O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.45-49, 126-133; S.Aşurbəyli. Şirvanşahlar dövləti, s.230-244; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında), s.128-132; F.Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.17-21; T.Gündüz. Son Kızılbaş Şah İsmayıl, s.61-65; Roger Savory. Safeviler Devrinde İran, s.27-28.*

SƏFƏVİLƏR DÖVLƏTİNDƏ SOSİAL-İQTİSADİ VƏZİYYƏT – Səfəvilər dövlətinin meydana gəlməsi ərəfəsində Azərbaycanda sosial-iqtisadi vəziyyət böhran halına gəlmişdi. Mərkəzi hakimiyyətin (Ağqoyunlu dövlətinin) zəifləməsi, daxili müharibələr kənd və şəhərlərin qarət olunmasına, əkin sahələrinin sıradan çıxmasına, əhalinin əmək qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdu. Müharibələr on minlərlə işçi qüvvəsinin həyatına son qoymuşdu. Belə bir zamanda hakimiyyətə keçmiş I Şah İsmayıl əhalinin vəziyyətini yüngülləşdirmək və iqtisadiyyatı inkişaf etdirmək üçün bir sıra güzəştlər həyata keçirdi. I Şah Təhmasibin hakimiyyəti dövründə Osmanlı işğalı ilə əlaqədar yenidən çətin vəziyyət yarandı, güclü düşmənə qarşı “yandırılmış torpaq” taktikasından istifadə etmək zərurəti meydana çıxdı. Lakin şah bölgələrdə yüngülləşdirmə siyasətini ardıcıl olaraq tətbiq etməklə vəziyyəti nisbətən stabilləşdirməyə nail oldu. I Şah Abbasın apardığı dərin islahatlar nəticəsində Səfəvilər dövlətinin hərbi-siyasi və iqtisadi gücü artdı, sonrakı hökmdarlar bu yüksəliş tempini çətinliklə də olsa XVII əsrin sonlarına kimi qoruya bildilər.

Səfəvilər dövlətində yerli əhalinin əksər hissəsi oturaq həyat tərzi sürsə də, köçüb gəlmiş türk qızılbaş tayfaları əsasən köçəri həyat tərzi sürürdü, onların oturaq həyat tərzinə keçid prosesi ləng də olsa getməkdə idi. Əsas məşğuliyyəti əkinçilikdən və heyvandarlıqdan ibarət olan əhali dövlətdən və ya yerli feodallardan icarəyə götürdüyü torpağı əkib-becərirdi. Yağıntının miqdarı az olduğu üçün əkinləri süni yolla suvarırdılar, bu zaman həm çaylardan çəkilmiş kanallardan, həm də kəhriz və quyu suyundan istifadə edilirdi. Orta əsr mənbələri təkcə Təbriz mahalında 900 kəhrizin mövcudluğundan xəbər verir. İndiki həm Şimali, həm də Cənubi Azərbaycan torpaqlarında buğda, arpa, düyü, müxtəlif növ meyvə və tərəvəz, göyərti əkilirdi. Bağ-bostan təsərrüfatı xalqın əsaq qazanc yerlərindən biri sayılırdı. Orta əsrlərin ən mühüm ticarət məhsullarından olan pambığın əkini də geniş yayılmşdı; belə ki, XVII əsr Osmanlı səyyahı Öv-

liya Çələbi təkcə Naxçıvanda yeddi pambıq növünün becərildiyini yazırdı. Xamna (xam ipək) istehsalına görə Azərbaycan məntəqədə aparıcı yerdə idi. Əcnəbi tacirlər Şirvan mahalında, indiki Yevlax rayonunun ərazisində yerləşmiş qədim Ərəş şəhərinə hər tərəfdən axışıb gəlir, buradan xam ipək alıb ölkələrinə aparırdılar. Azərbaycan ipəyi bütün Avropa ölkələrində yüksək qiymətləndirilirdi. Bəzi hesablamalara görə, ipəkçilik sənayesinin mərkəzlərindən olan Şamaxıda hər il 20 min xalvara yaxın ipək satılırdı. (Xalvar qədim çəki vahidi olub təqribən 400 kq-a bərabərdir).

Səfəvilər dövlətində torpaq mülkiyyətinin aşağıdakı növləri daha çox yayılmışdı: dövlət (divan) torpaqları, hakim sülalənin (şahın) xüsusi mülkləri (xassə torpaqlar), iri ziyarətgahlara təhkim edilən *vəqf* mülkiyyəti, yerli feodalların ixtiyarına verilən *tiyul* torpaqlar, əsasən din xadimlərinə verilən *soyurqal* torpaqlar. Bunların hesabı iki əsas qurum vasitəsilə həyata keçirilirdi: divani-məmalik və divani-xassə. Hər iki qurumun bürokratik aparatı minlərlə məmurdan (*vəzirlər*, *mustovfilər*, *münşilər* və s.) ibarət idi, bölgələrdəki yerli qurumlar saraydakı mərkəzi idarə qarşısında məsuliyyət daşıyır və vaxtında hesabatları təqdim edirdilər.

Divan torpaqlarının vergi və gəlirləri dövlət xəzinəsinə daxil olurdu. XVII əsrdən etibarən feodal özbaşınalığına son qoymaq, yerli hakimləri mərkəzi hakimiyyətə tabe etdirmək və dövlət xəzinəsini möhkəmləndirmək məqsədilə tiyul ərazilərin bir çoxu dövlət ixtiyarına verildi. Bu məqsədlə hətta iri inzibati vahidlər olan *bəylərbəyiliklərin* bir neçəsi ləğv edildi. Artıq həmin bölgələri yarımmüstəqil hakimlər – bəylərbəyiləri və onun vassalları deyil, dövlət tərəfindən təyin edilən darğalar idarə edirdilər.

Şahın mütləq ixtiyarı altında olan torpaqlar xassə (xüsusi) mülkiyyət adlanırdı, bunların gəlirləri yalnız şaha məxsus idi və dövlət xəzinəsinə qatılmırdı. Şah öz mülkü ilə istədiyi kimi rəftar edə, oradan qazandığı gəlirdən hədiyyələr, bəxşişlər verə bilirdi. İlk xassə torpaqlara Ərdəbil və ətrafı aid idi, I Şah İsmayıldan sonrakı hökmdarların zamanında digər bölgələrdə də iri xassə mülkləri meydana gəldi.

Yerli hakimlərin əksəriyyəti tiyul adlı daşınmaz əmlak mülkünə sahib idi. Hərbi xidmətdə fərqlənən əmirlər dövlət fondunun (divan torpaqlarının) və ya şah mülkünün (xassə) hesabına tiyulla mükafatlandırılırdılar. Lakin tiyul sahibi (tiyuldar) bu torpaqlara irsən deyil, müvəqqəti olaraq yiyələnirdi. O, vəfat etdikdə xüsusi fərman olmadan varisləri bu torpaqdan miras ala bilməzdilər, şah istədiyi an tiyul torpağı sahibindən geri ala və başqa feodala bağışlaya bilərdi. Tiyuldar ixtiyarında olan ərazidən topladığı verginin bir qismini xəzinəyə ödəyir, qalanını özündə saxlayır, əvəzində həmin torpaqların bütün idarəçilik xərclərini, öhdəsində olan hərbi dəstənin məsrəfini qarşılayırdı. Müharibə zamanı çağırış əsasında o, mükəlləf olduğu sayda silahlanmş hərbi dəstəni səfərbərlik məntəqəsinə gətirməli və hərbi əməliyyatlara qoşulmalı idi. Tiyuldarlar vəzi-

ədə qalmaq xatirinə çox zaman şaha peşkəş adı ilə rüşvət göndərirdilər, peşkəş ilin müəyyən əlamətdar günlərində (bayramlar, şahın ad günü və s.) saraya çatdırılırdı.

Bundan fərqli olaraq, əsasən din xadimlərinə soyurqal qismində verilən torpaq sahələri (bəzən daşınar əmlak və malqara şəklində də olurdu) irsi olaraq öz sahibinin mülkiyyəti sayılırdı. Soyurqala layiq olmaq üçün hərbi xidmətdə deyil, dövlət qulluğunda fərlənmək və ya şərəfli seyid nəslindən olmaq kifayət edirdi. Soyurqal sahibi qazandığı gəliri tamamilə mənimsəmək haqqına sahib idi, bunun əvəzində yalnız öz torpaqlarında əmin-amanlığı qorumaq onun vəzifəsi sayılırdı. Soyurqal mülkiyyət forması dövlətin maraqlarına o qədər də uyğun gəlmədiyi üçün getdikcə sıradan çıxmış və yerini tiyula vermişdi.

Səfəvilər dövründə geniş yayılmış mülkiyyət formalarından biri də vəqf sayılırdı. Ərdəbil xanəgahı, Məşhəddəki İmam Rza (ə) ziyarətgahı və Qumdakı Fatimeyi-Məsumə hərəmi öz daşınar və daşınmaz kapitalına görə birinci yerləri tuturdu. Azərbaycandakı vəqflər arasında Təbrizdə yerləşən Həsən padşah məscidinin, Cahan şah məscidinin (Müzəffəriyyə) vəqfləri və Qazan xan vəqfi xüsusi seçilirdi. Bölgələrdəki ticarət və ya iaşə əhəmiyyətli obyektlər (bazar və dükanlar, karvansara və hamamlar), hətta bəzən bütöv kəndlər köklü seyid nəsillərinə, möhtərəm ruhani ailələrinə, ziyarətgah və ocaqlara, məscid və mədrəsələrə vəqf olaraq təhkim edilirdi. Bu obyektlərin bütün qazancı və vergisi vəqf sahiblərinə çatırdı. Buradan vəqf işçilərinin məvacibi təmin edilir, qalan məbləğ xeyriyyə işlərinə xərclənirdi. Səfəvilər dövründə hakim sülaləyə mənsub şəxslər və yüksəkrütbəli dövlət məmurları arasında öz mülklərini vəqf etmək ənənəsi geniş yayılmışdı, xüsusilə Səfəvi xanədanının qadın nümayəndələri bu təcrübədən geniş yararlanırdılar.

Səfəvilər dövründə bəzi şəhərlər yüksək səviyyədə inkişaf edərək bölgənin ən iri ticarət və sənaye mərkəzinə çevrilmişdi. İsfahan, Şiraz, Yəzd, Kirman, Kaşan, Herat, Məşhəd, Gilan, Astarabad, Qəndəhar, eləcə də Azərbaycan şəhərləri olan Təbriz, Qəzvin, Həmədan, Marağa, Xoy, Ərdəbil, Şamaxı, Bakı, İrəvan, Gəncə, Culfa, Bərdə, Dərbənd, Ərəş, Ordubad iri yaşayış məskənləri kimi tanınırdı. Bu şəhərlərdə xalçaçılıq, toxuculuq, dulusçuluq, boyaqçılıq, zərgərlik, dəmirçilik kimi sənət sahələri inkişaf etmişdi. İpək yolu vasitəsilə daşınan mallar bu şəhərlərə gətirilir, burada istehsal edilən mallar isə xaricə göndərilirdi. İri ticarət dövriyyəli şəhərlər dünyanın hər nöqtəsindən tacirləri özünə cəlb edirdi. Avropa, Rusiya, Hindistan, Osmanlı tacirləri Səfəvi bazarlarında sərfəli ticarət imkanları əldə etmək üçün rəqabətə girirdilər. Ən çox gəlir gətirən əmtəə Şirvan vilayətində istehsal edilən xam ipək (xamna) idi. Azərbaycanda istehsal edilən ipək və ümumilikdə toxuculuq məhsulları Avropa tacirləri tərəfindən yüksək dəyərləndirilir, iri həcmdə alınıb xaricə daşınırdı. Ölkə xaricində bu parça növlərinin adı "qızılbaş" əlavəsi ilə tanınırdı (məsələn, qızılbaş atlası, qızılbaş məx-

məri və s.). XVII əsrin 70-ci illərində təkcə hollandlar hər il 500-600 min livr məbləğində xam ipək alıb Avropaya göndərirdilər. Səfəvilər dövlətindən ixrac olunan mallar arasında dəri məmulatı, dəvə yunu, xalçalar, müxtəlif növ parçalar, zəfəran, saxsı qablar, zərgərlik məmulatları, qiymətli daşlar (xüsusilə firuzə), soyuq silah, meyvə qurusu, tütün və s. üstünlük təşkil edirdi. Səfəvilər dövlətində bəslənilən cins at və qoyun növləri qonşu ölkələrdə yüksək qiymətə malik idi.

Səfəvilər dövlətinin vergi sistemi barədə məlumatlar tam dəqiq deyil, bunun səbəblərindən biri klassik mənbələrdəki dolaşıqlıqdır. Məlum olan budur ki, ən azı XVI əsrin sonlarınadək vergi sistemində Ağqoyunlu dövlətinin təcrübəsindən geniş surətdə istifadə olunmuşdur. Uzun Həsənin tərtib etdiyi "Qanunnamə" uzun müddət qüvvədə qalmış, idarəçilik məsələlərində ona istinad olunmuşdur. Səfəvi mənbələrində adına rast gəlinən əsas vergi növləri bunlardan ibarət idi: malcəhət, dəhyeki-əvamil, ixracat, mirabi, ülufə, xırman-bəhrə, xanənüzul, çuvallıq, çərik, biyar, cizyə, şikar, çıraqlıq, peşkəş, məvaşi, sərşümar, çobanbəyi, salami, novruzi, kah, rəsm əlmöhr, ulaq və s. Bu vergilərin bir qismi bürokratik aparat məmurlarının xeyrinə toplanırdı. Vergilərin bir qismi məhsul (kənd yerlərində), bir qismi də pul şəklində tutulurdu. Mənbələrdə adına rast gəlinən onlarla vergi növünün heç də hamısı əhalidən eyni zamanda və eyni məkanda alınmırdı. Vergi siyahısında tez-tez dəyişikliklər edilir, bəzi vergilər ləğv olunur, bəzən onların yerini yeniləri tuturdu. Ayrı-ayrı bölgələrdən alınan vergi növləri də bəzən fərqlənirdi. Səfəvi şahları ölkənin ağır iqtisadi vəziyyətini, viranedici müharibələri, qəhətlik və susuzluq illərini, təbii fəlakətləri, müəyyən bölgələrin əhalisinin dövlət qarşısında xüsusi xidmətlərini nəzərə alaraq bəzi vergi növlərini tamamilə və ya qismən ləğv edirdilər. Adətən bu münasibətlə şah fərman imzalayır, həmin fərmanın mətni bölgələrə göndərilib elan edilirdi, bəzən bu fərmanları daş üzərində həkk edib tikililərin divarlarında yerləşdirirdilər. İçərişəhərdəki Cümə məscidinin minarəsinin divarına həkk edilmiş 1556/57-ci il tarixli I Şah Təhmasibin fərmanında ölkənin bütün vilayətlərində malcəhət və vücuhat vergilərinin ləğv edilməsi yazılmışdır. Həmçinin I Şah Təhmasib 1565-ci ildə şəhərlərin iqtisadi yüksəlişinə təkan vermək üçün 30 min tümən məbləğindəki tamğa vergisini birdəfəlik ləğv etmiş, 1571-72-ci illər üsyanından sonra Təbriz əhalisinin bütün vergilərdən azad olunması (məafi) barədə fərman imzalamışdı. I Şah Abbas Osmanlılara qarşı müharibədə xüsusi şücaət göstərdiyinə görə 1606-cı ildə Ordubad, 1607-ci ildə Dərbənd və Bakı əhalisini bütün vergilərdən azad etmiş, İraqi-Əcəm əhalisinin 100 min İraq tüməni məbləğində vergi yükünü, 20 min tümən məbləğində çobanbəyi vergisini, darğalar üçün alınan beşdəbir dinar vergisini hesab dəftərlərindən sildirmişdi.

Səfəvilər dövlətində möhtəkirliyə qarşı ciddi mübarizə aparılırdı. I Şah İsmayıl 1514-cü ilin qışında İsfahanda olduğu

zaman əhali buğdanın azlığından şikayət edib, yeni məhsulun hələ zəmilərdən toplanmadığını, köhnə buğdanın isə satılmasına imkanlı adamlar tərəfindən qadağa qoyulduğunu bildirdi. Məlum oldu ki, möhtəkirlər qiyməti daha da yüksəltmək üçün məhsulun bazara çıxarılmasına mane olurlar. Qəzəblənmiş şah fərman verdi ki, taxılı olanlar özləri üçün yalnız bir illik məhsul saxlayıb, qalanını indiyədək olandan da ucuz qiymətə satışa çıxarsınlar. Lazımi nəticə alınmadıqda əmr verildi ki, evləri yoxlayıb gizlədilmiş taxılı toplasınlar. Ardınca car çəkildi ki, əgər bundan sonra da kimsə taxılı gizlətsə, üstü açılanda həm özü edam ediləcək, həm də əmlakı müsadirə olunacaq. Bundan qorxuya düşən imkanlılar gizlətdikləri bütün məhsulu bazara daşıdılar. Nəticədə şəhərdəki ərzaq çatışmazlığı aradan qalxdı və möhtəkirliyin qarşısı alındı.

Səfəvilər dövlətinin bazarlarındakı qayda-qanun və nizam-intizam əcnəbi səyyahları heyrətə salırdı. XVII əsrdə Səfəvilər dövlətinə səfər etmiş türk səyyah Övliya Çələbi Təbriz bazarı haqqında yazarkən burada "Şeyx Səfi qanunu"nun, yəni Şeyx Səfiəddin Ərdəbilinin buyruqlarının bərqərar olduğunu qeyd edirdi. Ticarətdə saxtakarlıq ən ağır şəkildə cəzalandırılırdı, ifşa olunmuş fırıldaqçının gözlərinə mil çəkilir, başına qızmış daş qoyulurdu.

XVII əsrin 60-cı illərində Səfəvilər dövlətində uzun müddət yaşamış fransız səyyah J.Şarden müşahidələri əsasında yazırdı: "Həm şəhərlərdə, həm də kəndlərdə əhali yaxşı yeyir, yaxşı geyinir, hər cür həyat şəraitinə malikdir, hərçənd onlar bizim ölkədəki (yəni Fransadakı) rəiyyətin yarısı qədər də işləmirlər. Ən kasıb qadınların əl-ayağında gümüş zinət əşyaları var, bəzilərinin isə boynundan iri qızıl sikkələr asılıb. Mənim fikrimcə, buranın hökumətini totalitar və mədəniyyətdən uzaq bir hökumət kimi tanıtmaq insafdan və həqiqətdən uzaq olar".

Lakin Şah Süleymanın hakimiyyət dövründən etibarən Səfəvilər dövlətinin son onilliklərində ölkədə iqtisadi vəziyyət kəskin surətdə mənfiyə doğru dəyişdi, aclıq, səfalət, qiymət artımı, dövlət xəzinəsində kəskin çatışmazlıq yarandı, xəstəliklər çoxaldı. Məmurlar arasında geniş yayılmış rüşvət və korrupsiya halları dövlətin hərbi-siyasi gücünə də ciddi zərbə vurdu. Şarden Səfəvilər dövlətinə ikinci səfəri zamanı ordunun sayca xeyli azaldığını və zəiflədiyini qeyd edərək yerli məmurlara istinadən yazırdı ki, bölgələrdə 80 min nəfərin hərbçi kimi məvacib almasına baxmayaraq, zərurət halında şahın tələbi ilə cəmi 10 min nəfər döyüşçü toplanırdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.196-232; Z.Bayramlı və B.Şabiyev. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər), s.294-325; N.Süleymanov. Azərbaycan Səfəvi dövləti (1501-1736-cı illər), s.166-190; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.73-87; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.344-368; Övliya Çələbi səyahətnaməsi, II, 261; С.Мамедов. Азербайджан по источникам XV-первой половины XVIII вв., стр.21-72;*

Н.В.Пигулевская и др. История Ирана с древнейших времен до конца 18 века, стр.278-291; Roger Savory. Səfəvilər dövrünün İranı (fars dilinə tərcümə: P.Kambizi), s.174-200; N.Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.143-198; Ehsan İşraqi. Səfəvilər dövründə ipək ticarətinin əhəmiyyəti ("İranşənaxt", 1376 h.-ş., №5), s.130-151; Nəsrullah Fəlsəfi. Şah Abbasın həyatı, III, 240; Şardenin səyahətnaməsi (10 cilddə, tərcümə edən: M.Abbasi), VIII, 223; Adil Baxşəliyev. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri; N.Süleymanov. Azərbaycan Səfəvi dövləti: təsərrüfatı, ticarət əlaqələri, maliyyə sistemi.

SƏFƏVİLƏR DÖVLƏTİNDƏ TÜRK DİLİ – Səfəvi şahları mənşə etibarilə türk olduqları üçün ana dillərini heç zaman unutmamış, hakimiyyətə çatdıqdan sonra da bu dildə ünsiyyət qurmuş və öz əhatələrində türk dilinin hakim mövqeyini qoruyub saxlamışlar. Səfəvilər dövlətinin qurulmasında iştirak etmiş və I Şah İsmayıla hərbi-siyasi dəstək vermiş tayfaların, demək olar ki, hamısı türk mənşəli idi. Bu tayfalar şaha sədaqətlərini dönə-dönə sübuta yetirmişdilər və buna görə də ən yüksək dövlət vəzifələrində təmsil olunurdular. Səfəvi əmirlərinin əksəriyyəti türk mənşəli qızılbaş tayfalarının yetirməsi idi. Səfəvilər dövrü tarixinin öyrənilməsi baxımından ən mühüm mənbələrdən hesab edilən İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" kitabındakı I Şah Təhmasibin və I Şah Abbasın vəfatları ərəfəsində (1576-cı və 1628-ci illər) dövlətdə yüksək vəzifə tutmuş əyanların siyahılarında adları çəkilən əmirlərin böyük əksəriyyətini qızılbaş türk tayfalarının yetirmələri təşkil edir. İki siyahının müqayisəsi söyləməyə əsas verir ki, I Şah Abbasın zamanında guya qızılbaşların dövlət idarəçiliyindən sıxışdırılması, türk mənşəli dövlət adamlarının öz yerini farslara verməsi, türk dilinin işlənmə dairəsinin daralması kimi iddiaların tarixi əsası yoxdur.

I Şah Abbasın zamanında qeyri-müsəlman millətlərdən (gürcü, çərkəz və s.) seçmə gənclər *qulam* qismində hərbi xidmətə qəbul edilirdi. Qulamlar arasından ən bacarıqlıları seçilərək xüsusi təlim görür, sonralar bəzi bölgələrə əmir təyin olunurdu. I Şah Abbasın bu addımı bir növ Osmanlı ordusundakı yeniçəri təcrübəsinin tətbiqi demək idi. "Tarixi-aləmarayi-Abbasi"də vəzifəyə göndərilmiş qulamların sayının 21 olduğu göstərilir və onlardan 15-i haqqında konkret məlumat verilir. Qulamlar müxtəlif millətlərdən olsalar da, bir çoxunun adı türk mənşəli idi (İmamqulu xan, Səfiqulu sultan, Xosrov xan, Fərrux sultan, Cəmşid sultan, Uğurlu sultan, Novruz sultan və s.). Tarixi məlumatlardan bəlli olur ki, qulamlar fars dilində, demək olar, danışmağı bacarmır və yalnız türk dilində ünsiyyət qururdular. Bunu Səfəvilər dövlətində bir müddət yaşamış italyan diplomatı Petra della Vallenin xatirələrində də oxuyuruq: "Qoşun qızılbaşlardan və şahın qulamlarından ibarətdir. Bunların birincisi kök etibarilə türkdür. İkinci dəstə isə müxtəlif millətlərə və qövmlərə mənsubdur; onlar öz aralarında türk dilində danışırlar və fars dilində

heç nə bilmirlər. Nəinki yalnız onların sərkərdələri, sözləri anlaşılsın deyə öz fərmanlarını türkcə verməli olurlar, həmçinin vaxtının çoxunu əsgərlərlə birlikdə keçirən şaha da öz əmrlərini türkcə ifadə etmək daha rahatdır. Nəticədə getgedə türk dili elitanı təşkil edən əyanların, dövlət və ordu adamlarının dilinə çevrilmişdir". Deməli, I Şah Abbasın vəfatı zamanı yüksək vəzifədə olan daha 21 qulam da əslində türkdilli sayılırdı. Unutmaq olmaz ki, Səfəvilər imperiyası bircinsli milli tərkibə malik deyildi. Bu dövlətin rəiyyətləri sırasına türklərlə yanaşı, farslar, kürdlər, lurlar, talışlar, ərəblər, hətta qeyri-müsəlman xalqlar da daxil idi. Çoxmillətli, çoxdilli imperiyanın elitasında türklərin və türk dilinin böyük üstünlüklə təmsil edilməsi bu dilin hakim sülalə tərəfindən sevilməsinin və yüksək dəyərləndirilməsinin göstəricisidir.

Görkəmli ingilis şərqşünası David Blow I Şah Abbasa həsr etdiyi monoqrafiyada yazırdı: "Sarayın əsas dili türk dili idi, amma bu, İstanbulda istifadə edilən türk dili deyildi. Bu, indi də İranın şimal-qərbində, Azərbaycan vilayətində danışılan, qızılbaş türkmanların dili olan türk şivəsi idi".

Səfəvilər dövlətində türk dilinin rolunu düzgün təsəvvür etmək üçün tamamilə bitərəf olan şəxslərin – Səfəvilər dövlətinə səfər etmiş Avropa səyyah və diplomatlarının xatirələrini oxumaq kifayətdir. Adam Oleari, Pyetra della Valle, Jan Batist Tavernye, Engelbert Kempfer, Jan Şarden, don Qarsiya de Silva Fiqerao, Cemelli Karreri, Sanson və başqalarının səfər xatirələrini vərəqlərkən onilliklər boyunca Səfəvi sarayında və saray əyanlarının məişətində türk dilinin hakim olduğunu görürük.

İtalyan diplomatı Petra della Valle 18 dekabr 1617-ci il tarixində İsfahan şəhərindən dostu Mario Eskipanoya ünvanladığı məktubda yazırdı: "Frs dilindən daha çox türk dilində danışırlar. Əslində türk dili saray əyanlarının və dövlət xadimlərinin dilidir".

Petra della Valle 17 mart 1617-ci il tarixli məktubunda bunu da yazırdı ki, şah türk dilində yaxşı danışa bilməsi ilə fəxr edir. Bu fakt I Şah Abbasın öz ana dilinə böyük dəyər verdiyini bir daha təsdiq edir. Nəzərə almalıyıq ki, səyyahın bu xatirələri I Şah Abbasın hakimiyyətinin təqribən 30-cu ilində qələmə alınmışdır. Beləliklə, guya I Şah Abbasın türk dilinə və türk millətinə aşağılayıcı münasibət bəslədiyi barədə iddialar ciddi şübhə altına düşür.

Şah Abbasın zamanında Səfəvilər dövlətinə diplomatik səfər etmiş İspaniya elçisi don Qarsiya de Silva Fiqerao da şah sarayında baş vermiş bir məzəli əhvalatı təsvir edərkən şahla əyanlar arasında söhbətin türk dilində getdiyini vurğulamışdır.

1637-ci ildə İsfahanda I Şah Səfi ilə görüşmüş alman səyyahı və diplomatı Adam Oleari xatirələrində İsfahanda onların şərəfinə verilmiş ziyafəti təsvir edərkən yazırdı ki, saat yarımlıq ziyafət başa çatdıqdan və hamıya əllərini yumaq üçün ilıq su verildikdən sonra *fərraşbaşı* türk dilində uca səslə söylədi: "Süfrə həqqinə, Şah dövlətinə, qazılar

qüvvətinə Allah deyəlim!" Bundan sonra hamı xorla dedi: "Allah! Allah!" Olearinin səyahətnaməsində bu sözlər latın hərfləri ilə verilmişdir. Bu da həmin şüarın məhz yazıldığı şəkildə, türk dilində söyləndiyini sübut edir.

Səyyah yazır: "İsfahandakı şah sarayında da türk dili geniş yayılıb, orada türk dilində danışığı daha çox eşidərsən, nəinki fars dilində. Bir ölkənin sarayında başqa dildə danışılması dəb halını alıb. Necə ki, Türkiyə sarayında slavyan dilində, Hindistan sarayında isə fars dilində danışırlar".

XVII əsrin ikinci yarısında Şərqə səyahət etmiş və uzun müddət Səfəvi torpaqlarında, o cümlədən, İsfahanda yaşamış fransız səyyahı Jan Şarden xatirələrində yazırdı: "Fars dili camaatın şeir və ədəbiyyat dilidir, türk dili isə ordu və saray dilidir. Sarayda, böyük (nüfuzlu) adamların mülklərində bütün qadınlar və kişilər türk dilində danışırlar. Çünki bütün saray (əhli) Azərbaycandan və türkdilli türkman soyundandır. Ərəb dili din və yüksək elm dilidir".

Alman səyyahı Engelbert Kempfer də XVII əsrin 80-90-cı illərində Səfəvilər dövlətinə səfəri zamanı ölkə ərazisində türk dilinin böyük təsir dairəsinə malik olması faktı ilə qarşılaşmışdı. O, xatirələrində yazırdı: "Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək günah sayılır. Türk dili bütün şərq dillərindan asandır. Türkcənin danışıq tərzindəki vüqar və əzəmət onun sarayda və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır".

İngilis səyyahı və taciri Antoni Cenkinson yazırdı ki, I Şah Təhmasiblə ziyafət süfrəsi arxasında görüşü zamanı şah onu Azərbaycan dilində "xoş gəldin" sözü ilə salamlamışdı.

İtalyan səyyahı Petra della Valle də yazırdı ki, I Şah Abbas onu qəbul edərkən türk dilini bilib-bilmədiyini soruşmuş, müsbət cavab aldıqdan sonra "xoş gəldi, səfa gəldi" söyləmişdi. Səyyahların müşahidələrindən məlum olur ki, saray əyanları şaha "qurban olum, başına dönüm" kimi ifadələrlə müraciət edirdilər.

1694-cü ildə Səfəvilər dövlətini ziyarət etmiş italyan səyyahı Covanni Françesko Cemelli Karreri səyahətnaməsində qeyd edir ki, bu ölkədə əsasən üç dil daha çox işlədilir: fars, türk və ərəb dilləri. Səyyah yazırdı ki, fars dili söz ehtiyatı baxımından zəngin deyil, ərəb dili alimlərin və elmin dilidir, saray adamları isə türk dilində danışırlar.

Maraqlıdır ki, Səfəvilər dövlətinə səfər etmiş səyyahların türk dilində salamlanması ilə yanaşı Avropaya səfər etmiş Səfəvi elçilərini qarşılayarkən də onları türk dilində salamlayırdılar. 1715-ci ildə Şah Sultan Hüseyn İrəvan bəylərbəyliyinin kələntəri Məhəmməd Rza bəyi diplomatik heyətin başında Fransaya göndərmişdi. Diplomatik heyətə Səfəvi-Fransa ticarət əlaqələrinin nizama salınması və Osmanlı dövlətinə qarşı mübarizədə iki dövlətin müttəfiqliyi barədə

razılıq əldə edilməsi barədə danışıqlar aparmaq tapşırılmışdı. Məhəmməd Rza bəyi Versalın məşhur Güzgülü qalereyasında qarşılayan saray məmuru Arno onu "xoş gəldün, səfa gəldün" sözləri ilə qarşılamışdı. Fransız mənbələrində bu ifadə "thoch geldun, safa geldun" formasında qeyd edilmişdir.

Səfəvi sarayında türk dilinin kifayət qədər yayılmış olduğunu xarici ölkə hökmdarlarına göndərilmiş məktublar da təsdiq edir. Səfəvi şahları nəinki XVI, hətta XVII əsrdə də diplomatik yazışmalar zamanı türk dilindən istifadə edirdilər. Bu gün dünya muzeylərini və arxivləri bəzəyən bəzi məktub və sənədlər bunu əyani şəkildə sübuta yetirir. Səfəvi şahları öz ana dillərini o qədər çox sevirdilər ki, yalnız onların dilini başa düşən hökmdarlara deyil, Avropa krallarına da türk dilində məktub yazırdılar. I Şah Səfinin 1628/29-cu illərdə Avstriya ershersoqu II Ferdinanda ünvanladığı türkcə məktub Avstriyanın paytaxtı Vyana şəhərində qorunur. Şah Sultan Hüseynin 1695/96-cı illərdə Saksoniya kürfürstü və Varşava hersoqu I Fridrix Avqusta yazdığı məktub isə Almaniyanın Drezden şəhər arxivində mövcuddur. Hər iki məktub ozamankı saray etiketinə uyğun olaraq dəbdəbəli, şahanə ifadələrlə zəngindir. Əlbəttə, bu məktubların dilini təmiz danışıq türkcəsi kimi qəbul etmək olmaz, onların arasında ərəb və fars mənşəli sözlər çoxdur. Hər iki məktub haqqında tədqiqatçı Fekete Layoş İstanbul Universitetinin Türkiyyat Məcmuəsinin 1936-cı il tarixli V cildində 9 səhifəlik məqalə ilə çıxış etmiş, məktubların fotosurətini də məqalənin sonunda vermişdir.

Səfəvilər dövrünə aid aşkar olunmuş başqa rəsmi məktublar XVI-XVII əsrlərdə ölkədaxili və beynəlxalq yazışmalarda da türk dilindən istifadə edildiyini göstərir. Mövzu ilə bağlı mənbələrdə bir neçə sənədin adı çəkilir. Məsələn, I Şah İsmayılın əmir Musa Durğut oğluna yazdığı türkcə məktub, Zeynalabidin Əli Əbdi bəyin "Təkmilat əl-əxbar" əsərinin yazılması haqda I Təhmasibin fərmanı, II Şah Abbasın Şirvan bəylərbəyi Hacı Məniçöhr xana məktubu, I Şah Təhmasibin Osmanlı şahzadəsi II Səlimə məktubu, I Şah Səfinin rus çarı Mixail Romanova məktubu və s.

Səfəvilər dövrünə aid rəsmi yazışmalardan danışarkən Osmanlı sarayının yazışma təcrübəsi ilə müqayisələr aparmaq yerinə düşər. Bununla bağlı XVI əsrdə tərtib olunmuş, Osmanlı sultanlarının daxili və xarici yazışmalarını əhatə edən "Mecmua-i münşeat-i Feridun bey" və ya "Münşeatü's-selatin" adlı sənədlər toplusuna nəzər salmaq kifayətdir. Bu kitabda Osmanlı sultanlarının qonşu hökmdarlara məktubları, onlara göndərilən namələr, sultanların vəliəhdlər və təbəələri ilə yazışmaları öz əksini tapmış, namələrin (bəzi istisnalarla) orijinal mətnləri verilmişdir. Kitabı vərəqlədikcə aydın olur ki, XIV-XV əsrlərdə müsəlman dövlətlərinin beynəlxalq yazışmalarında fars dilindən kifayət qədər çox istifadə edilmişdir. Hətta Osmanlı sultanları Orxan Qazı, Sultan I Murad, İldırım Bayezid, I Mehmet, II Murad, II Mehmet Fatih, II Bayezid zamanlarında

(XIV-XV əsrlər) saray dəftərxanasında fars dili üstün mövqe tutmuşdur, türk dili isə ölkədaxili yazışmalarda daha çox istifadə edilirdi. Hindistan hökmdarları, Cəlairilər və Teymurilər də Osmanlı sultanlarına məktubu fars dilində yazırdılar. Teymurləngin İldırım Bayezidə 5 məktubundan 4-ü fars, biri ərəb dilindədir. Onun xələfləri Şahrux Mirzə, Uluğbəy və başqaları da Osmanlı sarayına fars dilində müraciət edirdilər. Anadolunun böyük bir hissəsində hökm sürən Qaramanoğulları mənşə etibarilə türk olsalar da, Osmanlı sarayına fars dilində məktub yazırdılar. Azərbaycan torpaqlarında hakimiyyət sürən Qaraqoyunlu və Ağqoyunlu hökmdarları, Şirvanşahlar da Osmanlı sultanlarına məktubu fars dilində yazır və onlardan bu dildə cavab alırdılar. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Səfəvi şahlarının beynəlxalq yazışmalarda türk dili ilə yanaşı fars dilindən istifadə etmələri o dövrün reallığından doğan bir hadisə idi.

I Şah İsmayıl və I Sultan Səlimin türkcə yazdıqları iki məktub misalında Səfəvi və Osmanlı sarayında işlədilən türkcənin üslub fərqi aydın görünür. I Şah İsmayılın hicri 7 rəbiül-əvvəl 918-ci ildə (1512, may) Musa bəy Durğut oğluna göndərdiyi məktubda deyilir:

"Bismillahir-Rəhmanir-Rəhim. Əbül-müzəffər İsmayıl Bahadur. Sözümüz. Əmiri-əzəmi-əkrəm Musa Durğut oğlı inayət və şəfqətimizə ümidvar olandan sonra şöylə bilsün kim, iftixarül-əazim vəl-əyan Əhməd Ağa Qaramanlu ol tərəfə göndərdük və ol yerin ixtiyarlığın kəndüyə şəfqət etdük. Gərək kim, müşarün-ileyh sözündən və məsləhətindən çıxmasun və mütabiət və yardım ona qılsun kim, inşaallahi-Taala, hər nə kim etmək müradı və istəgi olsun, hasildür. Gündən-günə hər iş vaqe bulsa, Əhməd Ağa ittifaqi ilə dərgahi-müəllamizə bildürsünlər kim, hər növ buyuruğımız olsa, əməl etsün, gönlümüzü xoş tutub, mərhəmətimizə ümidvar olsun. Təhriran 7 rəbi əl-əvvəl, sənə 918".

Sultan Səlim Yavuzun hicri 920-ci il cəmadi əl-əvvəl ayının axırlarında (1514, iyul) I Şah İsmayıla göndərdiyi üçüncü məktub isə bu cür başlayır: "İsmayıl bahadur, əsləhallahü şənuhu. Misali-lazimül-əmsal vasil olıcaq məlum ola ki, hətki-pərdeyi-İslam və hədəmi-şəriəti-Seyyidül-ənam etməyə (əleyhis-səlatü vəs-salam) qiyami-tam göstərdigin həddi-təvatürə yetişüb nöqteyi-tinəti-məzərrət-nihadını ki mərkəzi-daireyi-fitnəvü fəsaddır, səfheyi-xütteyi-ruzigardən əzfari-xəncərü tiği-abdarlə həkk eyləmək kaffeyi-müsliminə ümumən və səlatiniülul-əmr və xəvaqini-zülqədərə xüsusən cümleyi-vacibatdən uyduğuna əimmə və üləma kəssərəllahü əmsalihim ila yövmil-cəza bi-isrihim fətva verüb..."

Göründüyü kimi, eyni dövrün məhsulu olmalarına baxmayaraq, I Şah İsmayılın məktubu daha anlaşıqlı, səlis və təmiz türkcədə qələmə alınmışdır. Lakin Sultan Səlimin məktubunda ərəb-fars ibarələri qat-qat çoxdur, məktubun dili ağır, cümlələri uzundur.

XV-XVI əsrlərdə türk dövlətlərində türk dilində (fars dili ilə yanaşı) gözəl şeir nümunələri yaradılırdı. O zamanlar təkcə xalq arasında deyil, saraylarda da

türkdilli ədəbiyyat kifayət qədər geniş yayılmışdı. Hökmdarlar və vəzirlər belə türkcə şeir yazır, hətta bu dildə divan yaradırdılar. Xorasanda *Əmir Hüseyn Bayqaranın* vəziri Əlişir Nəvai, daha sonralar Şeybani xanları (o cümlədən, *Məhəmməd Şeybani*, Übeyd xan) cığatay dilində yazırdılar. Böyük Moğol imperiyasının banisi *Babur şah* türkcə gözəl şeir və nəsr nümunələri yaradırdı. Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın "Həqiqi" təxəllüsü ilə türkcə divanı vardır. Osmanlı sultanları II Mehmet Fatih, Süleyman Qanuni (təxəllüsü Mühübbi), III Murad (təxəllüsü Muradi), şahzadələr Cəm Sultan (təxəllüsü Cəm) və Bayezid (təxəllüsü Şahi) farsca ilə yanaşı türkcə də divan sahibi idilər. Bəzi təzkirələrdə bunlardan əlavə II Sultan Bayezidin (təxəllüsü Ədli), II Səlimin (təxəllüsü Səlim), şahzadə Mustafanın (təxəllüsü Müxlisi), III Sultan Muradın (təxəllüsü Murad) türkcə bütöv və natamam şeirləri vardır. Maraqlıdır ki, I Sultan Səlim türkcə az şeir demiş, əsasən fars dilində yaratmışdır. Bunun səbəbi aşağıdakı şəkildə izah edilir: "Divanını türkcə deyil, farsca şeirlər söyləyərək tərtib etməsi onun fərqli cəhətidir. Rəvayətə görə, Şah İsmayılın "Xətai" təxəllüsü ilə türkcə şeirlər söyləyərək, türk millətinin hökmdarlığına təkbaşına yiyələnmək istəməsi qarşısında Yavuz Sultan Səlim də türkcə və farsca danışan bölgə xalqının tək hökmdarı olduğunu təsdiqləmək məqsədilə farsca şeirlər söyləmişdir" (Hasan Gültekin. Yavuz Sultan Selim'in Farsça Beyitleriyle Tercümeleri).

Səfəvi hökmdarları saray ünsiyyətində türk dilinə üstünlük verdikləri kimi, ədəbi fəaliyyətdə də bu dilin dəyərini qoruyub saxlamağa çalışırdılar. Şah İsmayılın *"Xətai"* təxəllüsü ilə yazdığı gözəl qəzəllər, dördlüklər, *"Dəhnamə"* poeması, *"Nəsihətnamə"* məsnəvisi ədəbiyyat tariximizin şah əsərləri sayılır. Onun dörd oğlunun hamısı (I Şah Təhmasib, *Bəhram Mirzə, Sam Mirzə* və *Əlqas Mirzə*), II Şah İsmayıl, I Şah Abbas, II Şah Abbas şair təbli idilər.

Azərbaycan Xalq Cümhuriyyətinin lideri Məhəmməd Əmin Rəsulzadə "Bolşeviklərin Şərq siyasəti" əsərində Şah İsmayıl Xətai haqqında yazırdı: "Həqiqətdə bir türk sufisi və azərbaycanlı bir şairdi, istinad etdiyi qüvvət də tamamilə türk qüvvəti idi. Onun sadə bir türkcə ilə yazılan ilahiləri rəsmi hüdudların çox irəlilərində belə türk topluluqlarının ruhları üzərində müəssir olurdu. Şah İsmayılın sarayı Azəri türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi... Səfəvi sarayının rəsmi dili də türkcə idi. Rəsmi türk dövlətlərində misalı yox ikən, çevrəsindəki türkdilli şairlər Şah İsmayıla "türki-tacdar" (taclı, yəni hökmdar türk) deyə xitab edirlərdi".

Azərbaycanda Səfəvilərədək türkdilli ədəbiyyat ənənəsi formalaşmış olsa da (İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin, Qasimi-Ənvar, Hamidi, Qul Əli, İmadəddin Nəsimi, Cahan şah Həqiqi və b.), Səfəvilər zamanında bu ənənə daha da inkişaf etmişdir. I Şah İsmayıl Xətainin sarayında *məlik əş-şüəra* (şairlər başçısı) vəzifəsi Azərbaycan şairi *Həbibiyə* məxsus idi. Sarayda *Süruri*, *Tü-*

feyli, *Qasimi*, *Şahi* kimi şairlər böyük hörmət sahibi olmuşlar. Səfəvilər zamanında *Fədai, Yusif bəy Ustaclu*, Təbrizli Xəlifə, Fəzli, *Həqiri, Rəhməti,* Ruhi, *Əmani, Məczub Təbrizi, Qövsi Təbrizi, Saib Təbrizi, Vəhid Qəzvini, Vaiz Qəzvini,* Əbdürrəzzaq Nəşə və b. ya bütünlükdə, ya da qismən Azərbaycan dilində yazıb-yaratmışlar. Şah Süleymanın və Şah Sultan Hüseynin zamanında Səfəvi sarayında Mirzə Möhsün Təsir Təbrizi məlik əş-şüəra idi. II Şah Abbasın və Şah Süleymanın baş vəziri Məhəmməd Tahir Vəhid Qəzvini, II Şah Abbasın sarayında xidmət etmiş *Tərzi Əfşar*, Şah Süleymanın katibi *Mələk bəy Avçı*, I Şah Abbasın, sonralar isə Moğol şahlarının həkimi olmuş *Məsihi*, Səfəvi sarayının kitabxanaçısı *Sadiq bəy Əfşar*, XVII əsrdə Səfəvilər sarayında məsul vəzifələr tutmuş *Mürtəzaqulu sultan Şamlu (Zəfər)* həm də öz qələmlərini şeir sahəsində uğurla sınamış və türkcə gözəl şeirlər yazmışlar. Saraydan kənarda, vilayətlərdə yüksək vəzifədə çalışan bəzi əyanların da şairliyi vardı (Təbriz şeyxülislamı Mirzə Saleh Təbrizi, Qum darğası və Gəncə–Qarabağ bəylərbəyi *Müsahib Gəncəvi*, Məşhəd valisi və Herat bəylərbəyi *Səfiqulu bəy Şamlu (Səfi)* və b.).

Mənbələr: *Petra della Vallenin səfərnaməsi (farsca tərcümə edən: Şüaəddin Şifa), s.87-88 və 229; I Şah Abbasın sarayındakı İspaniya səfiri don Qarsiya de Silva Fiqeraonun səfərnaməsi (farsca tərcümə edən: Qulamrza Səmii), s.363; Adam Oleariusun səfərnaməsi (2 cilddə, farsca tərcümə edən: M.H.Kürdbeççə), II, 553 və 678; Şardenin səyahətnaməsi (10 cilddə, farsca tərcümə edən: M.Abbasi), V, 53-57; Cemelli Karrerinin səfərnaməsi (farsca tərcümə edən: Abbas Naxçıvani və Əbdülali Karəng), s.148; Н.В.Мамедова. Эпоха азербайджанского ренессанса периода Сефевидов (по материалам французских исследователей) (Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, 2021, c.69, №1), стр.147-158; Maurice Herbette. Une Ambassade Persane Sous Louis XIV, p.55; Turxan Gəncəyi. Səfəvilər dövləti və türk dili (fars dilinə tərcümə: N.Salihi, "Pəyami-baharistan" dərgisi, 1388 h.-ş., №6), s.293-298; Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçi: S.Əliyarlı), s.169-175 və 201; Xaqan Balayev. Səfəvilər dövründə Azərbaycan dili (Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən, XVI-XX əsrlər); Tofiq Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi, s.264; Mecmua-yi münşeat-i Feridun bey (İstanbul, Takvimhane-yi Amire, hicri 1265-74-cü, miladi 1848-58-ci illər); Şadi Aydın. Farsça Divan Sahibi Osmanlı Sultanları ve Divânlarının Nüshaları (Şarkiyat Araştırmaları Dergisi, Nüsha, Yıl: II, Sayı: 6, Yaz 2002), s.45-56; Hasan Gültekin. Yavuz Sultan Selim'in Farsça Beyitleriyle Tercümeleri (Turkish Studies, International Periodical for The Languages, Literature and History of Turkish or Turkic, Volume 10/8 Spring 2015), pp. 1217-1246; D.Blow. Shah Abbas, The Ruthless King Who Became an Iranian Legend, p.165; Mehmet Nuri Çinarcı. Sefevi Sarayında Türkçe Şiir Yazan Bir Şehzade (Türkiye Sosyal Araştırmalar Dergisi, Yıl:19, Sayı:3), s.168-169; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.63; XVII əsr Azərbaycan lirikası (antologiya, tərtibçilər: P.Kərimli və M.Hüseyni); M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti, s.53.*

SƏFƏVİLƏR DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ və SƏFƏVİ DİPLOMATİYASI – Azərbaycanın tarixi torpaqlarını ilk dəfə vahid mərkəzdə birləşdirməyə nail olmuş Səfəvilərin istər dövlətçiliyimizin inkişafında, istərsə də diplomatiya tariximizdə müstəsna rolu vardır. Səfəvi imperiyası təkcə Azərbaycanın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm yer tutmaqla yanaşı, Avropa-Şərq qarşılıqlı əlaqələrində də çox fəal rol oynamışdır.

Səfəvi şahları digər ölkələrlə diplomatik münasibətləri müəyyən tapşırıqla göndərilən elçiliklər vasitəsilə qurur və inkişaf etdirirdilər. Bu elçilər daşıdıqları missiyanın əhəmiyyətinə, göndərildikləri ölkə ilə münasibətlərin məzmun və xarakterinə görə fərqlənirdilər. Diplomatlar adətən şəxsi keyfiyyət və bacarıqlarına görə bu vəzifəyə layiq görülürdülər.

Səfəvi şahı dövlətin mütləq hökmdarı kimi öz diplomatik təmsilçilərini şəxsən seçmək ixtiyarına malik idi. Bununla belə, elçi təyinatından öncə şahın *divan* üzvləri və əmirlərin tövsiyələrini də nəzərə aldığını güman etmək olar. Elçilik vəzifəsinə bir neçə namizəd olduqda vəzirlər və ya digər mühüm mənsəb sahibləri onlardan hər hansı birini dəstəkləməklə şahın seçiminə müəyyən dərəcədə təsir göstərə bilirdilər. Antoni Şirlinin məlumatına görə, 1599-cu ildə I Şah Abbasın baş vəziri *Hatəm bəy Ordubadi* onun (Şirlinin) elçi təyin edilməsinin əleyhinə çıxmışdı.

Elçilər göstərdikləri xidmətin müqabilində Səfəvi sarayı tərəfindən müxtəlif formalarda mükafat alırdılar. Məsələn, 1580-ci ildə elçi təyin ediləndə Hacı Məhəmmədə şah tərəfindən kəndlərin birində torpaq sahəsi ilə birlikdə iyirmi ev bağışlanmışdı.

I Şah Abbas çox zaman səfir heyətinin rəhbərliyinə iki nəfəri təyin edirdi. Onlardan biri baş elçi, digəri isə onun katibi (müavini) olurdu. Baş elçinin əsas vəzifəsi Səfəvi hökmdarını əcnəbi saraylarda təmsil etmək və onun məktubunu həmin dövlətin başçısına təqdim etmək idi. Baş elçi öldükdə, həbs olunduqda, bu və ya digər səbəbdən missiyasını həyata keçirə bilmədikdə onun vəzifələrini katibi və ya ikinci elçi öz üzərinə götürürdü.

I Şah Abbasın dövründə Səfəvi tacir-elçi zümrəsi arasında gərəkyaraqlar üstünlük təşkil edirdi. Gərəkyaraqlar bilik və təcrübələrinə görə saray təsərrüfatının tədarükçüsü vəzifəsinə təyin edilirdilər. Diplomatik missiyaları müşayiət etmələri sayəsində tacirlər bir çox imtiyazlarla bərabər gömrük rüsumlarından yayınmaq imkanı da əldə edirdilər.

Səfəvi hökmdarları Avropa dövlətlərinə göndərdikləri elçilərə nisbətən daha yüksək mənsəb sahiblərini Osmanlı və Moğol saraylarına yollayırdılar. Çox zaman sülh danışıqlarının aparılması hər iki tərəfdən yüksək rütbəli saray əyanlarına həvalə edilirdi. Hərbi-siyasi rəqabətə baxmayaraq, Səfəvi və Osmanlı saraylarında elçilər adətən xüsusi ehtiramla qarşılanırdı.

Osmanlı dövləti ilə münasibətlər

XVI əsrin başlanğıcında Osmanlı-Səfəvi münasibətləri I Şah İsmayılın öz rəqibləri üzərində qazandığı qələbələr nəticəsində xeyli gərginləşdi. 1503-cü ildə onun Ağqoyunlu Sultan Murad üzərində qələbəsi Osmanlı sultanı II Bayezidi Səfəvilər dövlətini rəsmən tanımağa vadar etdi. Lakin I Sultan Səlimin (1512-20) hakimiyyətə gəlməsi ilə Səfəvi-Osmanlı münasibətləri düşmənçilik xarakteri aldı. 1514-cü ilin avqust ayında *Çaldıran döyüşündə* odlu silahlardan istifadə edən Osmanlı ordusu qalib gəldi. I Şah İsmayıl I Sultan Səlimlə sülh bağlamağa cəhd göstərdi. Lakin İstanbula göndərilən elçilər Nurəddin Əbdülvəhhab, Qazi İsa və Şükrullah Muğani həbsə atıldılar. I Şah İsmayılın məktubunu sultana çatdıran Kəmaləddin Hüseyn və Bəhram ağanın elçiliyi də cavabsız qaldı.

I Şah İsmayılın ölümü və hakimiyyətə azyaşlı I Təhmasibin keçməsi ilə Səfəvi-Osmanlı münasibətlərində gərginlik artmağa başladı. I Sultan Süleymanın (1520-66) Azərbaycana təşkil etdiyi dörd yürüş gözlənilən nəticəni vermədi. 1555-ci ilin iyununda *Amasya sülhünün* imzalanması ilə iki dövlət arasında yarım əsrdən çox davam edən düşmənçiliyə ara verildi. I Şah Təhmasibin sülhsevər, ağıllı və ədalətli siyasəti nəticəsində sülh qorunub saxlanıldı. Şah Amasya sülhünün şərtlərinə sadiq qalaraq Osmanlı imperiyası ilə əmin-amanlığı qoruyub saxlamaq üçün İstanbul sarayına ardıcıl elçilər göndərməkdə davam etdi. Bir qayda olaraq, yeni sultanın taxta çıxması, uğurlu hərbi əməliyyatların və möhtəşəm memarlıq layihələrinin başa çatması münasibətilə qiymətli hədiyyələrlə elçilərin göndərilməsi ənənəyə çevrilmişdi. (Süleymaniyyə camesinin istifadəyə verilməsi, II Sultan Səlimin taxta oturması və s.). 1568-ci ildə *Şahqulu Sultan Ustaclunun* rəhbərliyi altında İstanbula böyük elçi heyəti göndərildi. Elçinin sultana və Osmanlı əyanlarına apardığı hədiyyələr 44 dəvə yükü həcmində idi. 1576-cı ildə İstanbula göndərilən elçi *Məhəmmədi xan Toxmaq Ustaclunun* apardığı hədiyyələr arasında dirəyi qızıldan olan və qiymətli daşlarla bəzədilmiş humayun çadır, 60 şeir divanı, cildləri qiymətli daşlarla bəzədilmiş Quran və "Şahnamə" nüsxələri, 40 xalça, brilyant, mirvari, zümrüd və yaqut daşlarla dolu 6 mücrü və digər hədiyyələr vardı. Bu, türk diplomatiya tarixinin ən dəbdəbəli elçi heyəti kimi şöhrət qazanmışdır.

1576-cı ildə I Şah Təhmasibin ölümü və hakimiyyət uğrunda mübarizə Osmanlı hakim dairələrini müharibəyə başlamağa cəsarətləndirdi. 1578-90-cı illər Osmanlı-Səfəvi müharibəsi birinci tərəfin qələbəsi ilə başa çatdı. 1590-cı il *İstanbul sülhünə* görə, Azərbaycanın əksər əraziləri Osmanlıların nəzarətinə keçdi; iki dövlət arasında müəyyən olunmuş sərhədlərin dəqiqləşdirilməsi, İstanbulda girov saxlanılan Səfəvi şahzadəsi Heydər Mirzənin aqibəti qarşılıqlı diplomatik əlaqələri gücləndirdi.

Səfəvi elçiləri Osmanlı sarayına böyük heyətlə səfər edirdilər. Osmanlı sarayına göndərilən missiyanın məqsədindən və əhəmiyyətindən asılı olaraq müşayi-

ətçilərin sayı 700-800, bəzən hətta 1000 nəfərə çatırdı. 1596-cı ildə I Şah Abbas Zülfüqar xan Qaramanlunun başçılığı altında 1000 nəfərlik elçi heyətini Osmanlı sarayına göndərmişdi.

I Şah Abbasın Osmanlı imperiyasına qarşı apardığı müharibələr (1603-12, 1616-18, 1623-26-cı illər) uğurla başa çatdı, itirilən ərazilər azad edildi. Sultan IV Muradın 1638-ci ildə Bağdadı fəth etməsi tərəfləri sülh bağlamağa vadar etdi. 1639-cu il *Qəsri-Şirin sülhü* qarşılıqlı əlaqələrin inkişafı üçün geniş imkanlar yaratdı. Avropa dövlətlərinin bütün səylərinə baxmayaraq, sonrakı Səfəvi şahları da Osmanlı dövləti ilə bağlanmış sülhə sadiq qalaraq müharibəyə başlamaqdan imtina etdilər.

Qəsri-Şirin sülhündən sonra qarşılıqlı əlaqələr daha da intensiv xarakter aldı, yeni hökmdarın hakimiyyətə gəlişi və digər mühüm hadisələrlə bağlı qiymətli hədiyyələrlə elçi göndərmək ənənəsi davam etdirildi.

Şeybanilər dövləti ilə münasibətlər

Yarandığı vaxtdan etibarən Səfəvi və Şeybani dövlətləri arasında mənfi münasibət hökm sürmüşdür. Bu, ilk növbədə başlıca siyasi güc olan türk hərbi-köçəri əyanlarının işğalçılıq səyləri ilə bağlı idi. İki türk sülaləsinin toqquşmasını əks etdirən və bütün XVI əsr boyunca davam edən bu mübarizə əsasən Xorasanda hökmranlıq qazanmaq uğrunda aparılırdı. Çingiz xanın nəslindən olması ilə lovğalanan, özünü "zəmanənin imamı" hesab edən *Məhəmməd xan Şeybaninin* Yaxın və Orta Şərqdə geniş işğalçılıq planları var idi və bunun üçün ilk növbədə Səfəvilər dövlətinə qarşı ərazi iddiaları irəli sürürdü. O, I Şah İsmayılın hakimiyyətini tanımır və onu müstəqil hökmdar kimi qəbul etmirdi. Məhəmməd xan Heratı ələ keçirərək Teymurilər dövlətinə son qoyduqdan (1506) sonra I Şah İsmayıla yazdığı təhqiredici məktublarda onu həqarətlə "İran darğası İsmayıl Mirzə" adlandırmaqdan çəkinmirdi. 1510-cu ilin dekabrında I Şah İsmayılın *Mərv döyüşündə* qələbə qazanaraq Məhəmməd xanı öldürməsindən sonra Xorasan vilayəti Səfəvi dövlətinin nəzarətinə keçdi. 1511-ci ilin yazında I Şah İsmayılla özbək sultanları arasında sülh bağlandı, Amudərya çayı Səfəvilərlə Şeybanilər arasında sərhədə çevrildi. Lakin bu müqavilə gərginliyi azalda bilmədi. 1512-ci ilin noyabrında özbəklərlə baş vermiş Qicduvan savaşında qızılbaş ordusu ağır məğlubiyyətə uğradı. Növbəti ildə özbəklər mühasirədən sonra Herat və Məşhəd şəhərlərini, daha sonra Xorasan vilayətinin əksər ərazisini ələ keçirdilər. Lakin elə həmin il I Şah İsmayıl şəxsən qoşunun başında yürüş edərək şəhərləri geri aldı, Xorasanda yenidən Səfəvi hakimiyyəti möhkəmləndi, Amudərya çayı Səfəvi və Şeybani dövlətləri arasında sərhəd elan olundu.

İki dövlət arasındakı gərginlik sonrakı dövrlərdə də davam etmişdir.

Moğol dövləti ilə münasibətlər

Şeybanilər üzərində Mərv qələbəsindən sonra I Şah İsmayıl Kabildə hökmranlıq edən Teymuri şahzadəsi *Babur şahla* əlaqələr yaratmağa təşəbbüs göstərdi.

Mərv döyüşündə azad edilmiş əsirlərin arasında Baburun bacısı Xanzadə bəyim də vardı. I Şah İsmayıl ona ehtiramla yanaşdı və qardaşının qərargahına yola saldı.

Babur yaxşı anlayırdı ki, Şeybanilər nə qədər zəifləsələr də, o, təkbaşına onlar üzərində qələbə qazana bilməyəcək, Səfəvilərlə ittifaq yaratmaq Babur üçün zəruri idi. O, Şeybanilərə qarşı ittifaq yaratmaq məqsədilə öz elçisi Xan Mirzəni qiymətli hədiyyələrlə I Şah İsmayılın yanına göndərdi. Səfəvi şahı Xan Mirzəni hörmətlə qarşıladı, Mavəraünnəhrə birgə hücum barədə təklifi qəbul etdi və özbəklərə qarşı mübarizədə Babura hərbi kömək göndərəcəyini bildirdi. Babur şah qızılbaş *Bayram bəy Baharlunu* dəvət edərək oğlu Humayunun tərbiyəçisi təyin etdi. Lakin 1512-ci ilin payızında Qicduvan döyüşündə Baburun döyüş mövqeyini tərk etməsi I Şah İsmayılla onun arasında ciddi soyuqluq yaratdı.

I Şah İsmayılın ölümündən sonra (1524) taxta keçən I Şah Təhmasibi təbrik etmək və diplomatik əlaqələri canlandırmaq məqsədilə Babur şah elçisi Xacə Əsədi Səfəvi sarayına göndərdi. 1526-cı ilin dekabrında Xacə Əsəd Səfəvi elçisi Süleyman ağa ilə birlikdə geri qayıtdı. 1527-ci ilin mayında Babur şah onları qiymətli hədiyyələrlə yenidən I Şah Təhmasibin hüzuruna yolladı. 1529-cu ilin yanvarında I Şah Təhmasib tərəfindən Həsən Çələbi Hindistana səfir göndərildi.

Taxt-tacdan məhrum edilmiş Humayun şahın hərbi yardım almaq məqsədilə 1544-cü ildə I Şah Təhmasibə sığınması və Səfəvi şahının yardımı ilə hakimiyyətini bərpa etməsi Səfəvi-Moğol münasibətlərini daha da möhkəmlətdi. Lakin 1558-ci ildə mühüm strateji məntəqə olan Qəndəharın qızılbaşlar tərəfindən ələ keçirilməsi ənənəvi dostluq əlaqələrinin pozulmasına səbəb oldu. 1559-cu və 1564-cü illərdə iki dəfə Moğol sarayına göndərilmiş Səfəvi elçisi Seyid bəy də uğur qazana bilmədi. Bu dövrdən etibarən Səfəvi-Moğol münasibətlərində durğunluq müşahidə olunmağa başladı.

I Şah Abbas dövründə (1587-1629) Səfəvi-Moğol münasibətləri yenidən intensiv xarakter aldı. 1591-ci ildə Səfəvi hökmdarı Yadigar Əli sultan Rumlunu məktubla Əkbər şahın sarayına göndərdi. Səfəvi elçisi hörmətlə qarşılansa da, Şeybanilərə qarşı mübarizədə ittifaq yaratmaq təklifi cavabsız qaldı. 1595-ci ildə moğolların Qəndəharı fəth etməsi münasibətlərdə növbəti soyuqluq yaratdı, Səfəvi elçisi 5 ilə yaxın Əkbər şahın sarayında saxlanıldı. I Şah Abbas *eşikağasıbaşı* Mənuçöhr bəy vasitəsilə göndərdiyi məktubda Qəndəharın geri qaytarılmasını tələb etsə də, rədd cavabı aldı. Bütün bunlara və XVI əsrin sonu-XVII əsrin əvvəllərində Osmanlı imperiyası ilə mehriban münasibətlərinə baxmayaraq, Moğol imperiyası sona qədər Səfəvi-Osmanlı müharibələrinə qarışmamağı üstün tutdu.

Böyük Moskva knyazlığı ilə münasibətlər

Moskva knyazlığı ilə ilk diplomatik əlaqələr 1521-ci ildə yaranmış, 1553-cü ildə

növbəti Səfəvi elçisi Seyid Hüseynin Moskvaya gəlişi ilə davam etmişdir. XVI əsrin ikinci yarısında rus çarı IV İvan Kazan və Həştərxan xanlıqlarını işğal edib Volqa-Xəzər su yolunu ələ keçirdikdən sonra Qafqazın Xəsərsahili bölgələri ilə əlaqələri gücləndirmək və gələcəkdə öz təsirini bu regiona yaymaq arzusunda idi. O, 1568-ci ildə elçisi Aleksey Xoznikovu Səfəvi sarayına göndərdi.

XVI əsrin ikinci yarısında Azərbaycan Səfəvi dövləti ilə Böyük Moskva knyazlığı arasında sabit ticarət əlaqələri mövcud idi. Şamaxı, Ərəş və Təbrizdə istehsal olunan xam ipək və ipək məmulatları Azərbaycandan Moskva dövlətinə ixrac edilirdi. Moskva knyazlığı ilə ticarət əlaqələri əsasən Şamaxı və Bakı vasitəsilə həyata keçirilirdi.

1578-90-cı illər Səfəvi-Osmanlı müharibəsi zamanı Osmanlı ordusunun Azərbaycanın əksər torpaqlarını və Dağıstanın Xəzərsahili ərazilərini ələ keçirməsi nəticəsində Volqa-Xəzər ticarət yolu bağlandı və iki dövlət arasında iqtisadi əlaqələrə ciddi zərbə dəydi. Rus çarının Osmanlılara qarşı düşmən münasibəti və onların Cənubi Qafqaz hüdudlarından qovulmasında maraqlı olması, eləcə də Volqa-Xəzər ticarət yolunun Osmanlı nəzarətindən azad edilməsi kimi vacib məsələdə mənafelərin kəsişməsi Səfəvi dövləti ilə Moskva knyazlığının yaxınlaşması üçün zəmin yaradırdı. XVI əsrin 90-cı illərində intensiv diplomatik əlaqələrə baxmayaraq, I Şah Abbas Moskva dövlətinin heç bir yardımı olmadan Osmanlılar üzərində tam qələbə qazanaraq işğal olunmuş Azərbaycan ərazilərini azad etdi, bununla da Moskva dövləti ilə Osmanlılar əleyhinə ittifaq bağlamaq məsələsi öz əhəmiyyətini itirdi.

XVII əsrin başlanğıcında Moskva dövlətində baş vermiş iğtişaşlar və Polşa-Litva müdaxiləsi Səfəvi dövləti ilə iqtisadi-siyasi əlaqələrə də mənfi təsir göstərdi. 1613-cü ildə Romanovlar sülaləsi hakimiyyətə gəldikdən sonra Mixail Romanov (1613-45) tərəfindən ardıcıl olaraq Tixonov, Brexov, Afanasyev, Şaxmatov, Leontiyev, Timofeyev və Baryatinski elçi kimi I Şah Abbasın sarayına göndərildilər. Məqsəd qarşılıqlı əlaqələri nizama salmaq və I Şah Abbasdan maliyyə yardımı almaq idi.

XVII əsrin ortalarında Don kazaklarının Xəzərsahili Azərbaycan torpaqlarına qarətedici yürüşləri iki dövlət arasında ciddi gərginlik yaratdı. II Şah Abbas (1642-1666) xüsusi elçisi Məhəmmədqulu bəyi Moskvaya göndərərək kazakların Xəzər dənizindəki fəaliyyətinə son qoyulması üçün qəti addımlar atılmasını tələb etdi. Rusların Terek çayı ətrafında olduğu kimi, Dərbənd ətrafında da qalalar inşa etməyə çalışması iki dövlət arasında gərginliyi daha da artırdı. 1653-cü ildə Şirvan bəylərbəyi *Xosrov xanın* Dərbənd ətrafındakı tikililəri dağıtması münasibətləri müharibə vəziyyətinə çatdırdı. Siyasi gərginlik 1662-ci ilədək davam etsə də, tərəflərin göstərdiyi diplomatik səylər münaqişəni aradan qaldırmağa və mövcud əlaqələri qoruyub saxlamağa imkan verdi. Lakin XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin daxilən zəifləməsi rus çarı I Pyotrun Cə-

nubi Qafqazı ələ keçirmək və Səfəvi ərazilərini bölüşdürmək uğrunda Osmanlı imperiyası ilə mübarizəyə qoşulmasına əlverişli şərait yaratdı və Rusiyanın işğalçılıq niyyətləri üstünlük qazanmağa başladı.

Qərbi Avropa dövlətləri ilə münasibətlər

Venesiya Respublikası və Papalıqla əlaqələr

Səfəvi dövlətinin Qərbi Avropa ilə ilk diplomatik təması Səfəvilər dövlətinin qurulmasından əvvəl, Venesiya-Osmanlı müharibəsi (1499-1502) dövründə venesiyalı diplomat Konstantino Laskarinin Ərzincandakı Səfəvi düşərgəsinə gəlişi ilə başlamışdır. 1499-1502-ci illərdə Venesiya ilə müharibədə Osmanlı sultanı qalib gəldi və sülh bağlandı. Bundan sonra Venesiya Respublikası Səfəvilərlə diplomatik əlaqələrə daha az maraq göstərməyə başladı.

I Şah İsmayıl *Zülqədəroğulları bəyliyi* üzərinə yürüşdən sonra Osmanlı imperiyasına qarşı Venesiyanın yardımını əldə etmək üçün fəaliyyətini xeyli genişləndirdi. O, beş nəfərlik elçi heyətini top ustaları əldə etmək və Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaratmaq təklifi ilə Venesiyaya göndərdi. 1509-cu ilin mayında Səfəvi diplomatik korpusu Venesiyaya gəldi, lakin danışıqlar real nəticə vermədi. Venesiya hökumətinin başı İtaliya müharibələrinə (1494-1559) qarışdığı üçün Osmanlı imperiyasını Səfəvi dövlətinin əli ilə zəiflətməyə çalışır, özü isə həm Osmanlı dövləti, həm də məmlüklərlə normal münasibətlər saxlamaq siyasəti yeridirdi.

1514-cü ildə *Çaldıran döyüşündəki* uğursuzluqdan sonra I Şah İsmayıl Avropa dövlətləri ilə Osmanlı imperiyasına qarşı hərbi ittifaq yaratmaq istiqamətində daha fəal tədbirlər görməyə başladı. 1515-ci ildə o, elçi vasitəsilə Rodos adasında yerləşən İoannitlər ordeninin başçısına Osmanlılara qarşı ittifaq bağlamaq təklifini çatdırdı. I Şah İsmayıl V Karl Habsburqla və Macarıstan kralı II Lüdoviklə əlaqə yaratdı. Lakin Avropa dövlətləri arasındakı siyasi-iqtisadi ziddiyyətlər onların bir ittifaqda birləşməsinə və vahid qüvvə kimi çıxış etməsinə imkan vermədi.

1537-ci ilin avqustunda Osmanlı ordusunun Venesiyanın mülkü olan Korfu adasına hücumu iki dövlət arasında 1503-cü ildən bəri davam edən sülhü pozdu. 1538-ci ilin fevralında Roma papası III Pavel tərəfindən Osmanlı imperiyasına və Fransaya qarşı Papalıq, Venesiya, Almaniya və Avstriyadan ibarət "Müqəddəs liqa" yaradıldı. Venesiyanın "Onlar şurası"nın qərarı ilə elçi Mikele Membre Səfəvi sarayına göndərildi. 1539-cu ildə elçi dojun məktubunu Təbrizə gətirdi. Venesiya hökuməti ikili siyasət yürüdərək İstanbulda Osmanlı dövləti ilə danışıqlar apardığına görə I Şah Təhmasib qəzəblənərək M.Membrenin öz ölkəsinə qayıtmasını əmr etdi.

XVI əsrin ikinci yarısında Osmanlı imperiyası ilə Venesiya arasında müharibənin yenidən başlaması diplomatik əlaqələrin canlanmasına səbəb oldu. Lakin Venesiyanın Səfəvi dövlətini Os-

manlılara qarşı qaldırmaq planı bu dəfə də baş tutmadı. 1571-ci ildə italyan diplomatı Vinçenso Alessandrinin missiyası uğursuz oldu, I Şah Təhmasib *Amasya sülhünü* pozmamaqda qərarlı olduğunu nümayiş etdirdi.

1599-cu ildə Osmanlı imperiyasının Habsburqlarla müharibə vəziyyətində olduğunu bilən I Şah Abbas başqa Qərb dövlətlərini də müharibəyə cəlb etmək üçün Hüseynəli bəy Bayatı Antoni Şirlinin müşayiəti ilə Avropaya göndərdi. Lakin bu təşəbbüs özünü doğrultmadı. Hüseynəli bəy Bayat istisna olmaqla, XVII əsrdə Venesiyaya göndərilmiş Səfəvi elçiləri nisbətən aşağı statusa malik tacir silkindən idilər və onlara hər hansı siyasi mövzuda danışıqlar aparmaq icazəsi verilməmişdi. Onların əsas vəzifəsi şahın məktubunu Venesiya dojuna çatdırmaq və ticarət işləri ilə məşğul olmaq idi. Müharibə dövründə belə başqaları üçün bağlı olan sərhədlər tacirlərin üzünə açıq olduğu üçün onlar bu hərəkət azadlığından istifadə edirdilər. XVII əsrdə Venesiyaya səfər etmiş diplomat və tacir vəzifələrini özündə birləşdirən elçilərə Səfəvi saray təsərrüfatına məxsus olan ipəyi satmaq və saray üçün lazımi əşyaları almaq həvalə olunurdu.

I Şah Abbas 1603-12-ci illərdə Osmanlı imperiyasına qarşı müharibəni kənar yardım olmadan uğurla başa çatdırdı, 1639-cu ildə Səfəvi və Osmanlı dövlətləri arasında *Qəsri-Şirin sülhü* bağlandı. Bununla da Qərb dövlətlərinin, o cümlədən Venesiya Respublikasının və Papalığın Səfəvi şahını Osmanlılara qarşı yeni müharibəyə cəlb etmək siyasəti nəticəsiz qaldı.

Portuqaliya ilə münasibətlər

Hind okeanında inhisar mövqeyini gücləndirməyə çalışan Portuqaliya 1515-ci ilin fevralında İran körfəzindəki adaları, o cümlədən Hörmüzü ələ keçirdi. Hörmüzdə Portuqaliyanın ticarət faktoriyası açıldı və qala inşa olundu. Portuqaliya hakimiyyət orqanlarının icazəsi olmadan heç bir ölkənin ticarət gəmisi İran körfəzinə daxil ola bilməzdi. Hörmüzün itirilməsi Səfəvi dövlətinin Hind okeanı hövzəsindəki ölkələrlə ticarət əlaqələrinin məhdudlaşmasına səbəb oldu.

I Şah İsmayıl Portuqaliyanın İran körfəzində möhkəmlənməsi ilə razılaşmaq məcburiyyətində qaldı və bu hadisədən Osmanlı imperiyasına qarşı Portuqaliya ilə hərbi ittifaqa girmək üçün istifadə etdi. Səfəvi elçisinin Hörmüzdə admiral d'Albukerkinin nümayəndəsi Miquel Ferreyra ilə apardığı danışıqlar Səfəvi-Portuqaliya müqaviləsinin bağlanması ilə başa çatdı. Faktiki olaraq, Səfəvi dövləti Osmanlı imperiyasına qarşı odlu silah əldə etmək xatirinə İran körfəzində hegemonluğu Portuqaliyaya vermiş oldu. 1515-ci ilin mayında Fermao Qomes de Lemosun, 1523-cü ilin sonunda isə Baltazar Pessoanın başçılığı ilə elçi heyətləri Səfəvi sarayına göndərildi. I Şah İsmayılın vəfatından sonra güclənmiş daxili çəkişmələr Səfəvi-Portuqaliya münasibətlərinin inkişafına mane oldu. XVI əsrin 30-50-ci illərində Səfəvi-Osmanlı qarşıdurması Portuqaliyanın siyasi və iqtisadi maraqlarına tam cavab verirdi.

Səfəvi dövlətinə ehtiyac duyduğu silah, maliyyə yardımı, hətta hərbi qüvvə verəcəyini vəd edən Portuqaliya Osmanlı ərazisindən keçən ənənəvi Şərq-Qərb karvan ticarət yolunun yenidən dirçəlməsini istəmirdi.

1551-ci ildə Səfəvi dövləti ilə güzəştli ticarət müqaviləsi bağlamaq üçün Portuqaliya kralı III Xuanın elçisi Qəzvin sarayına gəldi, lakin müqavilə bağlanmadı. 1555-ci ildə *Amasya sülhünün* imzalanmasından sonra Səfəvi sarayına göndərilən Avropa diplomatları şahı Osmanlı sultanına qarşı müharibəyə təhrik etsələr də, buna nail ola bilmədilər. Hətta 1558-ci ildə Portuqaliya kralının bu məqsədlə göndərdiyi elçi heyətini I Şah Təhmasib qəbul etmədi. 1572-ci ildə Miquel Dabreu de Liman Portuqaliya kralı Sebastyanın, İspaniya kralı II Filippin və Papa V Piyin məktublarını Səfəvi sarayına çatdırdı. 1574-cü ildə Səfəvi sarayına göndərilmiş növbəti elçi heyəti də nəticəsiz geri döndü.

I Şah Abbas (1587-1629) hakimiyyətinin ilk illərində Osmanlılarla müharibədə Portuqaliyanın hərbi yardımına böyük ümid bəslədiyi üçün onların körfəzlə bağlı bütün təkliflərini qəbul etdi və ipək ticarətindən böyük gəlir əldə etmələrinə göz yumdu. Lakin portuqallar bu ümidi doğrultmadılar, üstəlik, Hörmüzdə Səfəvi tacirlərini incitməyə başladılar. I Şah Abbas Avropa dövlətləri arasındakı rəqabətdən istifadə edərək 1602-ci ildə Bəhreyni, 1613-cü ildə isə Haburnu portuqallardan geri aldı. (Hərbi əməliyyatların qızışdığı dövrdə Portuqaliya İspaniya krallığı ilə uniya halında mövcudluğunu davam etdirirdi və əslində İspaniya kralının hakimiyyəti altında idi. XVII əsrin birinci rübündə baş vermiş Səfəvi-Portuqaliya müharibəsi mahiyyətcə Səfəvi-İspaniya müharibəsi sayılır).

1618-ci ildə İspaniya elçisi Don Qarsiya Səfəvi dövlətinin Osmanlı, İngiltərə və Avropanın digər dövlətləri ilə iqtisadi əlaqələrini pozmaq məqsədilə I Şah Abbasla danışıqlar aparsa da, nəticə əldə etmədi. I Şah Abbas portuqalların İran körfəzindəki hökmranlığına son qoymaq üçün ingilislərlə yaxınlaşmağa başladı və 1621-ci ilin noyabrında İngiltərə ilə müqavilə bağladı. 1622-ci ilin aprelində ingilis donanmasının yardımı ilə Səfəvi ordusu Hörmüz və Kiş adalarını portuqallardan azad etdi.

1625-ci ildə portuqallar Hörmüzü yenidən ələ keçirməyə cəhd göstərsələr də, buna nail olmadılar. Portuqaliya İran körfəzindəki keçmiş müstəmləkələrini itirməklə barışdı. Bunun əvəzində I Şah Abbas Kişdə toplanan gömrüyün 25 min livr dəyərində hissəsini onlara güzəştə gedəcəyini vəd etdi.

İspaniya və Almaniya ilə münasibətlər

Mərkəzi Avropa istiqamətində Osmanlı işğalının genişlənməsi, I Sultan Süleymanın Belqradı və Rodosu fəth etməsi Avropa dövlətlərinin Azərbaycan Səfəvi dövləti ilə əlaqələrini yenidən canlandırdı. I Şah İsmayıl 1523-cü ilin avqustunda macar elçisi Petrus de Montenin vasitəsilə imperator V Karla məktub göndərdi. Lakin Almaniya imperatoru-

nun cavab məktubu Təbrizə şahın vəfatından bir il sonra gəlib çatdı.

Qanuni Sultan Süleymanın Vyana səfərinə hazırlaşmasından xəbər tutan V Karl 1529-cu il fevralın 15-də elçisi Yohan Balbi vasitəsilə I Şah Təhmasibə məktub göndərərək Osmanlı dövlətinə qarşı ittifaq bağlamağı təklif etdi. 1533-cü ilin iyununda sultanın Avstriya ilə bağladığı "əbədi sülh" müqaviləsi, eləcə də Osmanlı-Səfəvi müharibələrinin yeni dalğası Səfəvilərin Avropa dövlətləri ilə diplomatik münasibətlərini ləngitdi. Bu münasibətlər XVI əsrin ikinci yarısında yenidən canlanmağa başladı. İspaniya kralı II Filipp (1555-1598) əmisi, Müqəddəs Roma imperiyasının imperatoru Ferdinandı inandırmağa çalışırdı ki, Osmanlı sultanı ilə sülh bağlamaqdansa, I Şah Təhmasiblə ittifaq yaratmaq daha vacibdir. Lakin I Sultan Süleymanın I Şah Təhmasiblə razılığa gələrək şahzadə Bayezidi və oğlanlarını qətl etdirməsi, 1564-cü ildə imperator Ferdinandın ölümü və hakimiyyətə keçən II Maksimilianın 1562-ci ildə Osmanlı dövləti ilə imzalanmış sülhü uzatması bu planın reallaşmasına imkan vermədi.

XVI əsrin son rübü-XVII əsrin ilk rübü ərzində Qərbi Avropa dövlətləri Osmanlı təhlükəsinə qarşı Səfəvilərlə ittifaq yaratmağa ciddi şəkildə çalışırdı. 1582-ci ildə İspanya kralı II Filippin və Roma papası XIII Qriqorinin elçisi, Avqustinlər ordeninin üzvü Simon, 1585-86-cı illərdə eyni missiyanın daşıyıcısı Covanni Battista Vekyetti, 1598-ci ildə keşişlər Alfonsu Kordero və Nikola de Malo bu məqsədlə Səfəvilər sarayında danışıqlar apardılar. Səfəvilərlə fəal diplomatik əlaqə saxlayan Avropa dövlətlərinin başında İspaniya dururdu. 1603-cü ilin fevralında Avqustin ordeninin keşişləri Antonio de Qouvea, Jeronimo de la Kruz və Kristobal del Espirutu Santodan ibarət İspaniya elçiləri, 1604-cü ilin iyununda Luis Pereyra de la Kerdanın başçılıq etdiyi 50 nəfərlik ispan elçi heyəti İsfahanda oldu. I Şah Abbas əcnəbi elçiləri ölkələrinə yola salarkən öz nümayəndələrini də onlarla birlikdə göndərirdi. Allahverdi bəy Türkman, Mehdiqulu bəy, İmamqulu xan Pakizə Türkman və digər qızılbaş əmirləri Avropa saraylarına diplomatik missiya ilə yola düşmüşlər. İspaniya elçisi Antonio de Qouvea ilə birlikdə göndərilən və Dəngiz bəy Rumlunun başçılıq etdiyi Səfəvi diplomatik heyəti 1609-cu ilin iyununda Praqada imperator II Rudolf tərəfindən, 1610-cu ilin yanvarında isə Madriddə Kral III Filipp tərəfindən qəbul edildi. İspaniya kralına təqdim olunan məktubda I Şah Abbas Osmanlılara qarşı ittifaq yaratmaq üçün verilən təəhhüdlərin yerinə yetirilməsini və ipək ticarət yolunun Hind okeanına keçirilməsini təklif etmişdi. Diplomatik qaydaları pozduğuna, kraliçanın yas məclisinə qızılbaş libasında deyil, başqa paltarda qatıldığına, satmaq üçün nəzərdə tutulmuş 50 tay ipəyi III Filippə hədiyyə etdiyinə, missiyanın bəzi üzvləri öz dinlərini dəyişdiyinə görə Dəngiz bəy Rumlunun missiyası uğursuz olduğundan geri qayıtdıqdan sonra o, edam olundu.

1618-ci il iyunun 19-da I Şah Abbas İsfahanda İspaniya, Moskva, Moğol və

Osmanlı elçilərini təntənəli şəkildə qəbul etdi. Şahla danışıqlar zamanı İspaniya elçisi Bəhreyn adalarının və Hörmüzün şimalında yerləşən torpaqların qaytarılmasını, ölkə bazarlarından ingilislərin və digər avropalı tacirlərin çıxarılmasını tələb etdi. Bundan qəzəblənən I Şah Abbas elçinin gətirdiyi məktubu cırdı, Avropa hökmdarlarının verdikləri sözlərə əməl etmədiklərini və Osmanlılara qarşı hər hansı addım atmadıqlarını söylədi. Bir neçə ildən sonra Səfəvilər ingilislərin yardımı ilə Hörmüz adasını portuqallardan geri aldılar, bununla da Səfəvi-İspaniya əlaqələrində fasilə yarandı.

İngiltərə ilə münasibətlər

Dəniz yollarında ağalıq edən İspaniya və Portuqaliyaya, həmçinin Aralıq dənizi hövzəsini öz nəzarəti altında saxlayan Osmanlı imperiyasına qarşı hərbi-siyasi rəqabətə qadir olmayan İngiltərə Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu, Azərbaycan və İran vasitəsilə Hindistanla birbaşa əlaqə yaratmaq niyyətində idi.

Səfəvi dövlətinin İngiltərə ilə əlaqələri XVI əsrin ikinci yarısında təşəkkül tapmağa başladı. "Moskva şirkəti" nümayəndələri ingilislər üçün güzəştli ticarət şərtlərinə nail olmaq məqsədilə 1562-81-ci illərdə Səfəvi sarayına gəlsələr də, uğur qazana bilmədilər. I Şah Təhmasib ingilislərlə ticarət rəqabətinin doğuracağı nəticələri, Osmanlıların və venesiyalıların etirazını nəzərə alaraq bu təklifi müsbət qarşılamadı. Livoniya müharibəsində (1558-83) İngiltərəni öz tərəfinə çəkə bilməyən IV İvan ingilis tacirlərinə verdiyi ticarət imtiyazlarını ləğv etdi, onların Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu ilə Şərqə getmələrinə əngəl törətdi.

XVI əsrin sonlarında İspaniya donanmasına sarsıdıcı zərbə vuran İngiltərə Hind okeanında Portuqaliya ilə rəqabət apardığı üçün Səfəvi dövləti ilə əlaqələri möhkəmləndirməkdə maraqlı idi. İngilis hökuməti adından Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq və iki dövlət arasında ticarət münasibətlərini yeniləmək üçün 25 nəfərlik heyətlə gələn Antoni və Robert Şirli qardaşları 1598-ci ilin dekabrında I Şah Abbas tərəfindən qəbul edildilər. R.Şirli 1611-ci ildə Polşa kralı III Sigizmund, Almaniya imperatoru II Rudolf, Papa V Paul və İspaniya kralı III Filiplə danışıqlar apardıqdan sonra oktyabrda İngiltərə kralı I Yakovla (1603-1625) görüşərək I Şah Abbasın məktubunu ona çatdırdı.

1612-ci ildə Osmanlı dövləti ilə müharibə başa çatdıqdan sonra Hörmüzün geri alınması I Şah Abbasın xarici siyasətinin başlıca məsələsinə çevrildi, lakin hərbi donanmanın olmaması bu planı həyata keçirməyə imkan vermirdi. 1616-cı ilin dekabrında Ost-Hind şirkətinə məxsus iki gəmi İran körfəzinə daxil olaraq I Şah Abbasa diplomatik və ticarət layihəsi təklif etdi. Aparılan danışıqlar nəticə verdi. 1617-ci ilin ortalarında İngiltərə kralının Hindistandakı səfiri Tomas Roy ipək ticarətini Osmanlı dövlətinin nəzarətindən çıxarmaq üçün Səfəvi sarayına öz nümayəndəsi

Edvard Konnoku göndərdi. O, Osmanlı limanlarından keçməyən, daha ucuz və etibarlı yeni ipək yolunun Hind okeanı ilə deyil, Moskva torpaqlarından keçməsinə üstünlük verirdi. 1619-cu ildə I Şah Abbas Ost-Hind şirkətinə İran körfəzində ipək ticarəti ilə məşğul olmaq üçün müstəsna hüquq verdi. Bunun əvəzində Səfəvi şahı ingilislərdən portuqalları Hörmüzdən sıxışdırıb çıxarmaqda yardımçı olmalarını istədi. Danışıqlar nəticəsində 1621-ci ilin sonunda müqavilə imzalandı. 1622-ci il fevralın 10-da ingilis donanmasının yardımı ilə Hörmüz əməliyyatı başlandı. Öncə Kiş qalası, aprelin 23-də isə Hörmüz azad edildi. I Şah Abbas qələbə münasibətilə ingilislərə ticarət imtiyazları ilə bərabər Bəndər-Abbasda ticarət faktoriyası açmağa da icazə verdi.

Növbəti illərdə Səfəvilər dövləti ilə İngiltərə arasında bir neçə diplomatik səfər mübadiləsi həyata keçirildi, Nağdəli bəy İngiltərəyə, Dormer Kotton Səfəvilər dövlətinə səfər etdi. Lakin 1628-ci ildə tərəflər arasında iqtisadi sahədə aparılan danışıqlar ingilis elçisinin İsfahanda vəfatı üzündən nəticəsiz qaldı.

Hollandiya ilə münasibətlər

XVII əsrin ilk rübündə Səfəvi dövləti İspaniya ilə müharibədə üstünlük qazanan və Hind okeanında öz mövqeyini getdikcə möhkəmləndirən Hollandiya ilə münasibətlər yaratmağa başladı. 1623-cü ildə I Şah Abbasın razılığı ilə Bəndər-Abbasda ticarət faktoriyasını təsis edən hollandlar Səfəvi dövlətinin ipək ticarətində iştirak etmək hüququ qazandılar. Hollandiyadan İsfahana göndərilən elçi Hobert Visnixin apardığı danışıqlar nəticəsində İsfahanda Hollandiya Ost-Hind şirkətinin nümayəndəliyi açıldı. Həmin il noyabrın 21-də tərəflər arasında 23 maddədən ibarət ticarət müqaviləsi imzalandı. Müqaviləyə görə, holland tacirlərinə Səfəvi dövləti ərazisində ticarət sahəsində müstəsna hüquqlar verilirdi.

Üç il sonra (1626) I Şah Abbas öz elçisi Musa bəyi xüsusi məktubla Hollandiyaya göndərdi. Şah Hollandiyanın Osmanlı dövləti ilə əlaqələri kəsərək öz donanmasını portuqalların hakimiyyəti altında olan Məsqəti ələ keçirmək üçün Səfəvi dövlətinin istifadəsinə verməsini istəyirdi. Səfəvilər dövlətindəki ticarət imtiyazlarını itirmək istəməyən Hollandiya rəsmiləri Osmanlı dövləti və İspaniya ilə problem yaranmasına da razı deyildilər. Bir ilə qədər Hollandiyada qalmasına baxmayaraq, Musa bəyin lazımi diplomatik təcrübəyə malik olmaması, heç bir Avropa dilini bilməməsi danışıqların nəticəsiz qalmasına öz təsirini göstərdi.

1630-cu ildə I Şah Səfinin (1629-42) göstərişi ilə İsfahanda yaşayan holland Jan Van Hasser diplomatik missiya ilə öz ölkəsinə göndərildi. 1631-ci il fevralın 7-də imzalanmış doqquz maddədən ibarət müqavilədə Hollandiyada ticarət edən Səfəvi tacirləri üçün I Şah Abbasın vaxtilə hollandlara verdiyi hüquqlar təsbit olundu.

İran körfəzində ingilisləri sıxışdıran və tədricən ədviyyat ticarəti üzərində nəzarəti ələ keçirən hollandlar 1642-ci ildə

Səfəvilərlə yeni ticarət müqaviləsi bağladılar. Hollandiya Ost-Hind şirkətinə əlverişli qiymətə xam ipək alveri etmək icazəsi verildi və onlar gömrükdən azad edildilər. II Şah Abbas (1642-66) dövründə artıq hollandların Bəndər-Abbasdan başqa İsfahan və Bəsrədə də ticarət faktoriyaları fəaliyyət göstərirdi. Portuqalların Məsqətdən qovulub çıxarılması ilə hollandların üstünlüyü daha da gücləndi. Şah Süleyman (1666-94) dövründə Hollandiyanın Səfəvi dövləti ilə ticarət əlaqələri genişləndi. XVII əsrin sonlarında İran körfəzində Hollandiyanın İngiltərə ilə rəqabəti daha da kəskinləşdi. Şah Sultan Hüseyn (1694-1722) körfəzdə hollandların nüfuzunu sarsıtmaq üçün 1699-cu ildə İsfahandakı ingilis ticarət faktoriyasına yeni imtiyazlar verdi.

Fransa, Polşa və İsveçlə münasibətlər

XVII əsrin ikinci rübündə Səfəvi dövləti ilə ipək ticarətində mühüm imtiyazlar almaq uğrunda rəqabətə Fransa da qoşuldu. 1628-ci ildə göndərilmiş fransız elçiləri Pyer Pasifik de Provins və Pyer Qabriel de Şinon I Şah Abbas tərəfindən hörmətlə qarşılandılar. I Şah Səfinin (1629-42) hakimiyyətinin ilk illərində Fransa ipək ticarəti ilə bağlı müəyyən güzəştlər əldə etdi.

"Karmelit xronikası"nın verdiyi məlumatdan aydın olur ki, II Şah Abbasın zamanında 1653-cü ildə yezuit ordeninin nümayəndəsi fransız mənşəli rahib Fransiz Riqordi Səfəvi sarayına göndərilmişdir. Fransa hökuməti yezuit ordeni üzvlərinin vasitəçiliyi ilə Azərbaycan Səfəvi imperiyası ilə qarşılıqlı əlaqələr qurmağa təşəbbüs göstərmiş və bu təşəbbüslər getdikcə intensiv xarakter almağa başlamışdı.

1665-ci ildə Fransa kralı XIV Lüdovikin iki elçisi ilə Ost-Hind şirkətinin üç nümayəndəsi II Şah Abbas tərəfindən mehribanlıqla qarşılandı. Şahın fərmanı ilə onlar 3 il müddətinə ödənc və gömrük vergisindən azad edildilər, ingilislərə və hollandlara verilmiş ticarət imtiyazlarına oxşar hüquqlar qazandılar.

XVII əsrin sonlarında Fransa Ost-Hind şirkəti Səfəvi dövləti ərazisində öz fəaliyyətini daha da genişləndirdi. 1698-ci ildə Fransanın İstanbuldakı səfiri Şatunaf bacarıqlı tacir Jan Bilin de Kansevilsi İsfahana, kapusin missiyasına katib göndərdi. XVIII əsrin əvvəllərində Fransa hökuməti ticarət müqaviləsi bağlamaq məqsədilə Səfəvilər dövlətinə xüsusi missiya yolladı. 1705-ci ilin martında Jan Batist Fabrenin başçılığı altında yola düşən heyət növbəti ilin yanvarında İrəvanda bəylərbəyi Məhəmməd xan tərəfindən qəbul edildi. J.B.Fabre isitmə xəstəliyindən öldüyü üçün heyətin rəhbərliyi Mariya Petitə keçdi. 1708-ci ildə fransız elçisi Pyer Viktor Mişelin İsfahanda Şah Sultan Hüseynlə apardığı danışıqlar uğurla başa çatdı. İngilis və Hollandiya Ost-Hind şirkətlərinin kəskin müqavimətinə baxmayaraq, 1708-ci il sentyabrın 16-da Səfəvi dövləti ilə Fransa arasında ticarət müqaviləsi bağlandı. 31 maddədən ibarət bu müqaviləyə görə, fransız tacirlərinin ölkəyə gətirdikləri ticarət malları hər cür vergidən azad edildi, Fransa elçisi konsulluq səlahiyyəti və 5 illiyə gömrükdən azad

olmaq hüququ əldə etdi. 1714-cü ilin mayında İrəvan kələntəri Məhəmməd Rza bəy Fransaya yola düşdü və növbəti ilin fevralında Versalda XIV Lüdovik tərəfindən qəbul edildi. Aparılan danışıqlar nəticəsində həmin ilin avqustunda yeni ticarət müqaviləsi imzalandı. Səfəvi-Polşa əlaqələrinin gerçəkləşdirilməsi 1599-cu ildə Hüseynəli bəy Bayata həvalə olunmuşdu. Bundan altı ay əvvəl V.V.Tyufyakinin elçi qismində gəlişinə cavab olaraq Pirqulu bəy Moskvaya göndərilmişdi. Hüseynəli bəy Bayat və A.Şirli Polşadan deyil, Murmanskdan keçərək Praqaya getməli olduqlarına görə Polşa ilə əlaqə yaratmaq mümkün olmadı. Moskvadan geri dönən Pirqulu bəy şaha yalan söyləyərək Varşavada da olduğunu söylədi, lakin yalanı üzə çıxdıqdan sonra cəzalandırıldı. Polşa kralı III Sigizmundun 1601-02-ci illərdə Səfər Muratoviçin rəhbərliyi altında Səfəvi sarayına ticarət missiyası göndərməsi ilə iki dövlət arasında əlaqələr yaranmağa başladı. 1604-cü ilin avqustunda Səfəvi elçisi *Zeynal xan Bəgdilü-Şamlu* Krakovda Polşa kralı ilə görüşdü. 1605-ci ildə Mehdiqulu bəy Türkman şahın Osmanlı sultanı üzərində qələbə xəbərini Varşavaya gətirdi. I Şah Abbas dövründə Polşa dövləti ilə yaradılmış diplomatik əlaqələr I Şah Səfi və II Şah Abbas dövründə də davam etdirildi. Səfəvi şahları Polşa kralına türk dilində məktub göndərirdilər; Polşa kralı III Sigizmunda I Şah Abbasın 1624-cü il sentyabr tarixli naməsi və I Şah Səfinin 1629-cu ilin yayında göndərdiyi məktub türk dilində yazılmışdır.

XVII əsrin sonlarına yaxın İsveç dövləti də Azərbaycan Səfəvi dövləti ilə diplomatik əlaqələr yaratmağa təşəbbüs göstərdi. Bu məqsədlə 1679-cu ildə rus və fars dillərini yaxşı bilən Lüdviq Fabritsius Moskvaya və Səfəvi dövlətinə səlahiyyətli elçi qismində göndərildi. Onun missiyasının əsas məqsədi Şah Süleymanı Osmanlılara qarşı hücuma təhrik etmək idi. Lakin danışıqlar uğursuz oldu, Fabritsius 1682-ci ildə nəticə əldə etmədən İsveçə qayıtdı. Bir ildən sonra İsveç kralı XI Karl onu yenidən Səfəvi dövlətinə göndərdi. Gənc alman həkim Engelbert Kempfer də elçilik heyətinin katibi kimi səfərdə iştirak edirdi. Lakin Fabritsiusun bu və növbəti diplomatik missiyası da uğursuzluqla bitdi, Səfəvi şahını Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etmək planı iflasa uğradı.

Mənbələr: *T.Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti; Həsən bəy Rumlu. Əhsən ət-təvarix; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, I və II kitablar; Şah Təhmasibin təzkirəsi; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti; O.Əfəndiyev. XVI əsrin başlanğıcında Osmanlı-Səfəvi münasibətlərinə dair, s.132; O.Efendiyev. Sultan II Bayazit ve Şah İsmayıl, s.90; C.Aydoğmuşoğlu. I Şah Abbas ve zamanı; Y.Mahmudov. Azərbaycan diplomatiyası, s.197-212; Y.Mahmudov. Səyyahlar, kəşflər, Azərbaycan, s.228; N.Süleymanov. Səfəvi dövlətinin təsərrüfat həyatı, s.241-268; M.Süleymanov. Səfəvilər, IV, 84-240 və V, 456-509; R.Dadaşova. Səfəvilərin son dövrü, s.247, 261-270, 317-324; B.Əhmədov. XVII əsrin birinci yarısında İngiltərənin Şərq siyasəti, s.57-84; A.Baxşəliyev. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri, s.237, 240;*

N.Musalı. I Şah İsmayılın hakimiyyəti, s.189-252; Y.Məmmədova. Şah İsmayıl-Babur alyansına dair, s.97-103; T.Necefli. 1590 İstanbul Barış Antlaşmasından sonra Safevi–Osmanlı diplomatik ilişkileri, s.1603-1622; T.Nəcəfli. XVII əsrin I yarısında Səfəvi-Polşa əlaqələri tarixindən, s.112-126; Ə.Vilayəti. Şah İsmayıl dövründə İranın xarici əlaqələr tarixi, s.48-66, 232-239; Venesiyalılar Şah Təhmasibin sarayında, s.36-94; H.İnalcık. Osmanlı imperatorluğunun ekonomik ve sosyal tarihi, I, 304; Ş.Tekindağ. Yeni Kaynak ve Vesikalar Işığı Altında Yavuz Sultan Selimin İran Seferi, s.75; B.Kütükoğlu. Osmanlı-İran siyasi münasibətləri (1578-1612), s.53-70; R.Kılıç. XVI ve XVII Yüzyıllarda Osmanlı-İran siyasi Antlaşmaları, s.25; R.Kılıç. Kanuni devri Osmanlı-İran münasebetleri (1520-1566), s.117, 354; Roger Savory. Safeviler Devrinde İran, s.241-248; Roger Savory. Iran under The Safavids, pp.119-126; Ö.Küpeli. Safevi Ülkesinin İngilis Konukları, s.373-385; Ö.Küpeli. Safevi-Osmanlı Münasebetleri, s.81-82; G.Rota. Safevi İranı ile Venedik Cumhuriyeti Arasındakı Diplomatik İlişkilere Genel Bir Bakış, s.899-906; S.Özbaran. Portekizli Seyyahlar İran, Türkiye, İrak, Suriya ve Mısır Yollarında, s.24, 25; A.Allouche. Osmanlı-Safevi ilişkileri, s.100-101; H.Bayur. Hindistan Tarihi, II, 98, 144-151, 188-194; О.Эфендиев. Образование Азербайджанского государство Сефевидов в начале XVI века, s.106-111; П.П.Бушев. История посольства и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг., стр.18-20, 36-57, 458; Ф.А.Гусейн. К вопросу об обещании шаха Аббаса уступить Московскому государству Дербент, Баку и Шемаху, стр.113-124; Я.Я.Стрейс. Три путешествия, стр.232; Н.В.Пигулевская, А.Ю.Якубовский, И.П.Петрушевский и др. История Ирана с древнейших времен до конца 18-го века, стр.539; А.Фарзалиев, Р.Мамедова. Сефевиды и Великие Моголы в мусульманской дипломатике, стр.51-108; L.Lockhart. The Fall of The Safavid Dynasty and The Afghan Occupation of Persia; The Cambridge History of Iran, vol. 6, pp.402-407; D.Kolodziejczyk. The Relations Between The Polisi i-Lithuanian Commonwealth and Safavid Iran, pp.35-46, 72-73, 140-165; R.Matthee. Distant Allies: Diplomatic Contacts Between Portugal and Iran in The Reign of Shah Tahmasb, pp.219-248; A Chronicle of Carmelites in Persia: The Safavids and The Papal Mission on the 17 and the 18 centuries, pp.259, 313, 399; R.Islam. Indo-Persian Relations, pp.56-96; C.Edwards. Relations of Shah Abbas The Great of Persia with The Mogul Emperors Akbar and Jahangir, pp.254-260; G.N.Curzon. Persia and Persian Question. Vol. 2, pp.547-552; A.Wilson. The Persian Gulf, p. 173; R.Matthee. Anti-Ottoman Politics and Transit Rights The Seventeenth-Century Trade in Silk Between Safavid Iran and Moscow, pp.739-762; T.Najafli. From The History of Safavid-Poland Relations in The First Half of The 17th Century, pp.111-129.

SƏFƏVİLƏRİN ETNİK MƏNSUBİYYƏTİ – Səfəvilər sülaləsinin etnik mənsubiyyəti ilə bağlı tarixşünaslar arasında 3 əsas nəzəriyyə geniş yayılmışdır. Tədqiqatçıların bir qrupu Səfəvilərin kürd, bir qrupu türk mənşəli olduğunu müdafiə edir, daha bir qisim isə onların seyidliyi ilə bağlı mövqeyi bölüşür. Səfəviləri kürd mənşəli hesab edən tədqiqatçılar sırasında Pəhləvilər dövrü İran tarixşünaslığının aparıcı simalarından və ideoloqlarından olan Əhməd Kəsrəvi (1890-1946) ilk sırada durur. O, 3 məqalədən ibarət olan "Şeyx Səfi və nəsli" kitabçasında Şeyx Səfiəddin Ərdəbili-

nin *İmam Musa Kazimin (ə)* nəslindən gəlməsi və *seyid* olması barədə fikirləri Səfəvilər zamanında uydurulmuş əfsanə sayır. Ə.Kəsrəvinin fikrincə, I Şah Təhmasibin hakimiyyəti zamanı *"Səfvət əs-səfa"* kitabını redaktə etmiş Əbülfəth Hüseyni əsərin bəzi bölümlərində ciddi təhriflər həyata keçirmiş, sülalənin seyid olması barədə rəvayətləri bura artırmışdır. Ə.Kəsrəvi öz araşdırmasını 3 əsas nəticə ilə yekunlaşdırmışdır: Səfəvilər seyid deyil, kürd mənşəli olmuşlar; Şeyx Səfiəddin Ərdəbili sünni əqidəsində (şafii məzhəbində) olmuş, sonralar Səfəvi sülaləsi şiəliyi qəbul etmişdir; Şeyx Səfinin zamanında və xeyli sonralar bu sülalənin üzvləri fars dilində danışmış, türk dilini çox-çox sonralar qəbul etmişlər. Lakin bir çox tədqiqatçıların fikrincə, müəllifin gəldiyi qənaətlər mübahisəlidir və əks arqumentlərlə rədd edilir.

Səfəvilər sülaləsinin kürd mənşəli olduğu nəzəriyyəsini müdafiə edənlərin istinad etdikləri əsas sübut bu sülalənin tarixi barədə ən məşhur mənbələrdən sayılan "Səfvət əs-səfa" kitabındakı qeyddir. Əsərin bəzi nüsxələrində yazılıb ki, Səfəvilər sülaləsinin ulu əcdadlarından biri *Firuz şah Zərrinkülah* Azərbaycan torpaqlarına yürüş etmiş və bu yerlərin əhalisini müsəlmanlaşdırmış qoşunun tərkibinə qatılmışdı. Qoşuna böyük sufi İbrahim Ədhəmin övladlarından biri sərkərdəlik edirdi. O, fəth etdiyi ərazilərə hakimlər təyin edərkən Ərdəbilin idarəçiliyini Firuza tapşırmışdı. "Səfvət əs-səfa"nın bəzi nüsxələrində bu qoşunun kürd ləşkəri olduğu və Səncan ətrafından gəldiyi, Firuzun da kürd olduğu yazılmışdır. Lakin bu nəzəriyyəni doğru qəbul etmək üçün əsas yoxdur. Çünki kürdlük məsələsi kitabın yalnız bəzi nüsxələrində qeyd edilmişdir, bir çox qədim nüsxələrdə isə buna rast gəlinmir. "Səfvət əs-səfa"nın mövcud nüsxələri arasında ikisi zaman etibarilə daha qədimdir. Bunlardan biri 1485-ci ildə köçürülmüş Leiden nüsxəsi, digəri isə 1491-ci ildə köçürülmüş Ayasofya nüsxəsidir. Tarix baxımından daha qədim olan Leiden nüsxəsində Səfəvi soyunun kürd mənşəli olması barədə heç bir məlumat mövcud deyildir, bu məlumat daha sonrakı Ayasofya nüsxəsində mövcuddur. Bu fərqliliklər Səfəvilərin kürd mənşəli olması barədə iddianın Ağqoyunlu Sultan Yaqubun göstərişi ilə kitaba əlavə edildiyi ehtimalını irəli sürməyə əsas verir. *Şeyx Heydərin* ölümündən sonra Sultan Yaqub onun xanımı *Aləmşah bəyimi* (öz bacısını) oğulları ilə birlikdə həbsə almışdı. Məhz həmin dövrdə Sultan Yaqub "Səfvət əs-səfa" kitabının düzəlişlərlə yenidən köçürülüb yayılması barədə göstəriş vermiş, bu iş onun vəfatından 3 ay sonra tamamlanmışdı (1491). Bu addımı atmaqla Ağqoyunlu hökmdarı Səfəvi sülaləsinin şəcərəsini saxtalaşdırmaq, onları türk köklərindən qoparmaq, bununla da Şeyx Heydərin övladlarının gələcək hakimiyyət iddialarını puça çıxarmaq məqsədi güdürdü. Çünki türkman əsilli qızılbaş tayfalarının kürd mənşəli bir sülaləyə tabe olması, onları *mürşidi-kamil* sayması mümkün deyildi).

Ayasofya nüsxəsində Şeyx Səfiəddin Ər-

dəbilinin seyid olmasına işarə edilsə də, şəcərəsi verilməmişdir. İmam Musa Kazimədək (ə) uzanan seyidlik şəcərəsinə "Səfvət əs-səfa"nın 1508-ci ildə köçürülmüş və Ayasofiya kitabxanasında saxlanılan daha bir nüsxəsindən etibarən rast gəlinir. Bu da Səfəvilərin seyidlik məsələsinin guya I Şah Təhmasib sifarişi ilə kitaba əlavə olunması ittihamını rədd edir. Çünki 1508-ci ildə I Şah Təhmasib nəinki hakimiyyətdə deyildi, ümumiyyətlə, hələ doğulmamışdı.

"Səfvət əs-səfa"nın bəzi nüsxələrində Firuzla bağlı hissədəki "kürd" sözü digər nüsxələrdə "zikr" şəklində verilmişdir. (Ərəb qrafikasında bu iki söz oxşar yazılış formalarına malikdir və katiblərin səhvi üzündən yanlış şəkildə köçürülməsi mümkündür). "Səfvət əs-səfa"nın XVI əsrdə Azərbaycan dilinə tərcümə edilmiş nüsxəsində nə Azərbaycana yürüş etmiş qoşunun, nə də Firuzun kürd mənşəyi barədə hər hansı bir məlumat var.

Ə.Kəsrəvi də daxil olmaqla, bəzi müəlliflər Firuzun qatıldığı qoşunun Diyarbəkir ətrafındakı kürdlər yaşayan Səncardan gəldiyini iddia etmişlər. Halbuki "Səfvət əs-səfa"nın bir çox nüsxəsində bu şəhərin adı Səncan formasında qeyd edilmişdir. Yaqut əl-Həməvi və digər məşhur səyyahların əsərlərinə əsasən, Səncan qədim türk şəhəri olan Mərv yaxınlığında yerləşən məntəqələrdən birinin adıdır. Bundan əlavə, Nişapur və hətta Dərbənd yaxınlığında da Səncan qəsəbələri mövcud olmuşdur. Beləliklə, Firuz şah Zərrinkülahın guya kürd mənşəli olması barədə irəli sürülən iddia zəif və tutarsızdır.

Ə.Kəsrəvi Səfəvilər sülaləsinin kürd mənşəli və farsdilli olduğunu iddia etsə də, Səfiəddin Ərdəbilinin gilək (Gilan) dilində danışdığını yazır. Bununla da o, özünü dolaşdıraraq gəldiyi qənaətlərdə ziddiyyətə yol verir.

Səfəvilərin kürd mənşəli olması nəzəriyyəsini başqırd alimi, Türkiyədə mühacir həyatı yaşamış Əhməd Zəki Vəlidi Toğan (1890-1970) və "Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü" əsərinin müəllifi, türkiyəli tədqiqatçı-alim Faruk Sümer (1924-1995) də müdafiə etmişlər.

Səfəvilərin kürd mənşəli olması iddiasını rədd edən dəlillərdən biri də bundan ibarətdir ki, I Şah İsmayıl qızılbaş dövlətinin əsasını qoyduğu dövrdə onun ətrafında kürd tayfalarının olması barədə məlumat yoxdur. Səfəvilər dövlətinin hərbi-siyasi gücünün əsasını türk (Azərbaycan) mənşəli tayfalar təşkil edirdi. (Talışlar da onlarla bir sırada fəaliyyət göstərirdilər). Əksinə, dövlət quruculuğunun ilk illərində I Şah İsmayıl *Sarom xan Kürdün* başçılığı altında ona itaətsizlik göstərən kürd tayfaları ilə döyüşmüşdür. Dövləti dəstəkləyən tayfaların sırasına *Çigini (Çəkəni),* Ruzəki, Mükri, Pazuki, Siyahmənsur, Zəngənə, Zig, Ərdəlan tayfalarının qoşulması sonrakı dövrlərə təsadüf etmişdir. Səfəvilər dövlətinin, demək olar ki, bütün mövcudluq müddəti boyunca mərkəzi hakimiyyətə qarşı çıxan kürd tayfalarına qarşı cəza tədbirləri mütəmadi olaraq həyata keçirilmişdir; lakin nəzərə almaq

lazımdır ki, bu cür cəza tədbirləri təkcə kürdlərə qarşı deyil, itaətsizlik göstərən qızılbaş tayfalarına qarşı da baş verirdi.

Səfəvilər sülaləsinin seyidliyi barədə nəzəriyyə klassik Səfəvi mənbələrində ciddi şəkildə müdafiə edilir. *"Silsilət ən-nəsəbi-Səfəviyyə"* kitabında bu sülalənin Şeyx Səfiəddindən yuxarı nəsil şəcərəsi aşağıdakı şəkildə verilir: Şeyx Səfiəddin ibn Şeyx Əminəddin Cəbrail ibn Qütbəddin ibn Saleh ibn Məhəmməd Hafiz ibn Əvəz ibn Firuz şah Zərrinkülah ibn Məhəmməd ibn Şərəf şah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmail ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasim ibn Seyid Əbülqasim Həmzə ibn İmam Musa Kazim (ə).

I Şah İsmayılın oğlu *Sam Mirzə* tərəfindən qələmə alınmış *"Töhfeyi-Sami"* təzkirəsində, Səfəvilər sülaləsinin tarixinə aid ilkin mənbələrdən olan "Səfvət əs-səfa" kitabında, eləcə də son dövrlərdə aşkar edilmiş, XV əsrin ortalarında Nəcəfdə yaşamış Əli ibn Qasim Musəvi Nəcəfi adlı nəssabənin (şəcərəşünas alimin) tərtib etdiyi "Ərdəbil şeyxlərinin nəsəbi" adlı şəcərədə bu silsilə bəzi fərqlərlə verilib. Hələ Səfəvilərin hakimiyyətə gəlməsindən əvvəl Şeyx Səfiəddinə həsr edilmiş bəzi şeir nümunələrində onun seyidliyi qeyd edilirdi. Sonrakı dövrlərdə yaşamış bir çox kitabda da Səfəvilər sülaləsinin seyidliyinin təsdiqi öz əksini tapmışdır. Məsələn, tarix və hədis sahəsində dərin bilik sahibi olan Şeyx Abbas Qumi "Müntəha-l-amal" kitabında İmam Musa Kazimin (ə) nəslindən bəhs edərkən Səfəvilərdən geniş söhbət açmışdır.

Şah İsmayıl Xətai də bəzi şeirlərində özünün Peyğəmbər nəslindən gəldiyini iddia edirdi:

Şahi-mərdanın, Əlinin aliyəm, övladiyəm,
Zülfüqarü tacü Düldül uş nişanı məndədür.
(Ş.İ.Xətai)

Səfəvilər nəslinin seyidliyi onların azərbaycanlı olmasını inkar etmir. Milli mənsubiyyət əsrlərlə formalaşmış bir dəyərdir. Bu gün dünyanın bir çox ölkəsində yaşayan böyük nəsillərin seyidliyi onların etnik kökləri ilə ziddiyyət təşkil etmir. Azərbaycanda yaşayan seyidlər azərbaycanlı, İranda yaşayan seyidlər də azərbaycanlı və ya fars sayılmaqda davam edirlər. Səfəvilər nəslinin şəcərəsi VIII əsrdə yaşamış İmam Musa Kazimə (ə) bağlansa da, sonrakı əsrlərdə tamamilə azərbaycanlılaşmış və azərbaycanlı kimliyi qazanmışdır. Səfəvilər dövlətini qurmuş I Şah İsmayıl və onun xələfləri özlərini Azərbaycan türkü olaraq görür, bu dildə danışır və ünsiyyət qururdular. Səfəvilər dövlətinin idarəçiliyində hakim dil Azərbaycan türkcəsi idi, bu dövlətin hərbi-siyasi gücü də türk qızılbaş tayfalarının üzərində qurulmuşdu.

Rus etnoqrafı və səyyahı N.N.Mixluko-Maklay yazırdı: "XVI əsrdə yaranmış Səfəvilər dövləti XV əsr Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətlərinin xələfi kimi təşəkkül tapmışdı, həm də real əsaslara istinad edirdi; yəni Səfəvilər

dövləti İran dövləti deyildi və ona heç elə də baxılmırdı".

Görkəmli şərqşünas V.V.Bartold Səfəvilər sülaləsinin mənşəyi haqqında bu fikirdə idi: "Şübhəsiz, Ərdəbil dərvişləri fars deyil, türk mənşəli idilər". Digər görkəmli rus şərqşünası İ.P.Petruşevski də araşdırmaları nəticəsində eyni qənaətə gəlmişdi: "Səfəvilərin əsli azərbaycanlı idi və ana dilləri Azərbaycan dili olmuşdur". Məşhur fransız şərqşünası Louis Massignon (1883-1962) da səfəviyyə təriqətini sührəvərdiyyə dərviş ordeninin Azərbaycan qolu hesab edirdi.

Ənənəvi olaraq İran tarixşünaslığında Səfəvi imperiyasını İranın milli dövləti kimi təqdim etməyə cəhd göstərilir və belə bir fikir formalaşdırılır ki, guya Səfəvilər dövləti İranın milli maraqlarını ifadə edən bir qurum olmuşdur. Lakin bu nəzəriyyə dünya tarixşünaslığında getdikcə daha az müdafiə edilir və öz yerini Səfəvilər dövlətinin azərbaycanlı mahiyyətini əsas tutan konsepsiyaya verir. F.Sümer "Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü" əsərinin ilk səhifəsində Səfəvilər dövlətinin milli xarakterini farslaşdırmaq cəhdlərini qətiyyətlə rədd edərək yazırdı: "Səfəvilər dövlətinin "milli bir İran dövləti" olduğu görüşünün indi ciddi elm adamları arasında tərəfdarı, demək olar ki, qalmamışdır. Səfəvilər tarixi yaxından tədqiq edildikdə bu görüşün necə ortaya atıldığına heyrət etməmək mümkün deyil".

İran alimi Nəsrullah Fəlsəfi I Şah Abbasın həyatından bəhs edən çoxcildli kitabında I Şah İsmayılın guya "İranın qədim qüdrət və əzəmətini dirçəltməyə, İran milliyyətinin bünövrəsi üzərində duran vahid dövlət qurmağa" çalışdığı barədə təsəvvürü yanlış sayaraq yazırdı: "Şah İsmayıl ata tərəfdən özünü seyid və Əli övladı sayır, bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o, türkman Həsən bəy Ağqoyunlunun *(Uzun Həsənin)* nəvəsi idi və haqlı olaraq özünü bu sülalənin qanuni varisi hesab edirdi... Fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dövrdə Şah İsmayıl türk dilini İran sarayının rəsmi dili etmişdi. Hətta o özü də yalnız türk dilində şeirlər yazırdı. Nəticədə türk dili Səfəvilər sarayında elə geniş yayıldı ki, bu sülalənin hakimiyyətinin sonunadək sarayın rəsmi dili olaraq qaldı. Buna görə tamamilə aydındır ki, türk hökumətlərini yıxan və vahid dövlət yaradan I Şah İsmayılın məqsədi İranın milli və siyasi birliyini bərpa etmək deyildi".

Səfəvilər dövrünə aid mühüm mənbələrdən sayılan adıçəkilən "Səfvət əssəfa" kitabında Şeyx Səfiəddin Ərdəbiliyə öz zamanında "piri-türk" (türk piri) deyə müraciət edildiyi qeyd olunmuşdur. Şeyx Səfi təkkəsində türk millətinə mənsub şəxslərə xüsusi ehtiram göstərilirdi. Xanəgahın qeyri-türk qonaqlarına qara çörək və su verildiyi halda, türk müsafirlərə ağ çörək və bal ikram edilirdi.

Mənbələr: *Mirza Abbaslı. Safevilerin Kökenine Dair (Belleten, 40/158), s.287-330; Nihat Çetinkaya. Kızılbaş Türkler (Tarixi Oluşumu ve Gelişimi), s.359-362; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.33-*

39; Ə.Kəsrəvi. Şeyx Səfi və nəsli; İbn Bəzzaz Ərdəbili. Səfvət əs-səfa, s.72 və 75; Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi), s.47; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.44-45; Şeyx Hüseyn Pirzadə Zahidi. Silsilət ən-nəsəbi-Səfəviyyə, s.10-11; Ali Rıza Özdemir. Şeyh Safiyyüddin-i Erdebilî'nin Etnik Kökeni ve İnanci Hakkinda Bazi Değerlendirmeler (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, Kış 2021, Sayı: 100), s.235-252; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.1; Sam Mirzə. Töhfeyi-Sami, s.7; Ə.Heydəri, N.B.Bidəhəndi. Səfiəddin Ərdəbilinin seyidliyi mövzusuna baxış, "Tarix dər ayineyi-pejuheş" dərgisi, 2011, №2, s.59-82; Z.Bayramlı və B.Şabiyev. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər), s.17-25; Z.Bayramlı. Səfəvi dövlətinin etnik mənsubiyyətinə dair ("Azərbaycan xalçaları", cild 5, №17, 2015), s.67-75; Tofiq Nəcəfli. Səfəvilərin etnik mənsubiyyəti məsələsi müasir Türkiyə tarixşünaslığında ("Geostrategiya", mart-aprel 2014, №02/20), s.27-33; H.Əhmədova. Azərbaycan Səfəvi dövlətinin etnik kimliyi (Pyetro della Vallenin "Səyahətnamə"si əsasında) ("Geostrategiya", 2020, №5/6, 59/60), s.44-49; M.Ə.Kərimzadə Təbrizi. Səfəvi nəslinin şəcərəsi ("Tarixi araşdırmalar", il; 9, sayı: 4), s.29-36; Rəsul Fəthiməcd. Şah İsmayıl Səfəvinin bir şəcərəsi (Təbriz Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin dərgisi, №140-141, 1370 h.-ş.), s.98-107; Zülfiyye Veliyeva. Safevilerin Menşei ve Kızılbaşça ("Journal of Azerbaijani Studies"), s.332-344; Ə.Xeyrəndiş. Səfəvilərin başlanğıcı və bu barədə araşdırmalar ("Kitabnameyi-tarix və coğrafiya", 1379 h.-ş., aban və azər ayları), s.82-85; K.Morimoto. Ənsab kitabında Səfəvilərin seyidliyi barədə ilk nişan (farsca tərcümə: Əli Xakpur, "Pəyami-baharistan" dərgisi, 1390 h.-ş., №11), s.241-263; Şeyx Abbas Qumi. Müntəha-l-amal, II, 793-858; Şah İsmayıl Səfəvi. Əsərləri, I, 141; Академик В.В.Бартольд. Сочинения, том 2, часть 1, стр.748; И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв., стр.36; İ.P.Petruşevski. XV əsrdə Azərbaycan dövlətləri ("Tarix və Fəlsəfə İnstitutunun əsərləri", 5 cilddə), I, 99; Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, I, müqəddimə və s. 169.

SƏRAB SÜLH MÜQAVİLƏSİ (1618) – *Səfəvi-Osmanlı müharibələrinin* dördüncü mərhələsinin sonunda bağlanmış sülh müqaviləsi. 1612-ci il *İstanbul sülh müqaviləsi* Səfəvilər dövləti üçün bundan əvvəlki müqaviləyə (1590-cı il) nisbətən xeyli sərfəli olsa da, onun bütün şərtləri I Şah Abbası qane etmirdi. Şah 1555-ci il *Amasya sülh müqaviləsi* ilə təsbit edilmiş sərhəd xəttinə dəqiq riayət edilməsini istəyirdi. 1612-ci il İstanbul müqaviləsi bu şərtlərə müəyyən dərəcədə cavab versə də, Şərqi Mesxeti və Axalsiq, eləcə də Kürdüstan və Bağdad vilayətlərinin bir hissəsi, Şəhrizur hələ də Osmanlıların əlində idi. I Şah Abbas 1613-cü ildə Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüş etdi. Həmin il əvvəlki müqavilədə nəzərdə tutulmuş 200 tay ipək parça da İstanbula göndərilmədi. Buna cavab olaraq Osmanlı dövləti müharibəyə hazırlaşmağa başladı. I Şah Abbas müharibəyə yol verməmək üçün vəd edilmiş 200 tay ipəyi göndərdi, amma 1616-cı ildə Qara Mehmed paşanın başçılığı altında 100 min nəfərlik Osmanlı ordusu İrəvan qalasını mühasirəyə aldı. Səfəvilər böyük

döyüşdən yayınaraq Osmanlı qoşununun ərzaq yollarını bağladılar və qəfil hücumlarla düşməni zəiflətdilər. Mühasirəni başa çatdıra bilməyən və aclıqdan əziyyət çəkən Osmanlı ordusu bir neçə aydan sonra geri çəkildi.

1617-ci ildə sədri-əzəm Xəlil paşa növbəti yürüşə çıxdı. 15 min nəfərlik Krım tatarları da şimaldan Azərbaycan torpaqlarına soxulub Gəncə, Naxçıvan və Culfanı talayaraq Osmanlı qoşunu ilə birləşdilər. I Şah Abbas yenə sürətli yerdəyişmə və qəfil hücum manevrləri ilə düşməni əldən salmağa nail oldu. Nəhayət, Sərab yaxınlığında baş vermiş döyüşdə Səfəvilər Osmanlı-tatar birləşmiş qüvvələri üzərində qələbə çaldılar. Döyüşdə 15 min əsgərini itirdikdən sonra Xəlil paşa müharibəni davam etdirməyin mənasız olduğunu görüb sülh təklifini irəli sürdü. 1618-ci il sentyabrın 26-da Mərənddə I Şah Abbasla Osmanlı ordusunun komandanı sədri-əzəm Xəlil paşa arasında müqavilə imzalandı. Bu müqavilə Mərənddə bağlansa da, tarixdə Sərab müqaviləsi kimi tanınır. Onun 1612-ci il İstanbul sülh müqaviləsindən əsas fərqi 200 tay ipək xəracın həcminin 100 taya endirilməsi idi, həmçinin Osmanlılar Gürcüstan istiqamətindəki Səfəvi-Osmanlı sərhəd dəyişikliyi ilə də barışmalı oldular. Müqavilə sənədi növbəti ildə İstanbulda Sultan II Osman tərəfindən təsdiqləndi.

Mənbələr: *Kılıç, R. Osmanlılar ile Safevîler Arasında Nasuh Paşa (1612) ve Serav (1618) antlaşmaları. Niğde Üniversitesi Eğitim Fakültesi Eğitim ve Bilim Dergisi, s.2, Niğde, ss.124-134; Özer Küpeli. Osmanli-Safevi münasebetleri (1612-1639), doktora tezi, s.64-70; Azərbaycan tarixi (7 cilddə), III, 239; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.405.*

SƏRXƏTNƏVİS – Səfəvi ordusunun bürokratik aparatında mühüm vəzifələrdən biri. *Eşikağasıbaşının* rəhbərliyi altında işləyirdi. Onun səlahiyyət dairəsi *ləşkərnəvislə* kəsişməsə də, eyni sferada fəaliyyət göstərirdilər. Sərxətnəvis ordudakı məvaciblərin miqdarını və ödənişini nəzarətdə saxlayır, gündəlik xərcləri qeydə alırdı. Onun vəzifə maaşı ləşkərnəvisin maaşından daha yüksək olsa da, onun kimi əlavə gəlirləri az idi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.280; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.138-139.*

SƏRRAFBAŞI – Səfəvilər dövlətində yüksək vəzifələrdən biri. Şaha yaxın olan təbəqəyə *(müqərrəb əl-həzrət)* mənsub idi. Pul sikkələrinin hazırlanması üçün zərbxananı xammal materialı (qızıl və gümüş) ilə təmin edir, hazırlanan sikkələrin əyarını da yoxlayırdı. Sərraflar əsasən xarici dövlətlərin sikkələrini topdan alıb zərbxanaya təhvil verirdilər, burada həmin sikkələr əridilib təmiz qızıl alınırdı. Bu materialı Səfəvi pullarının zərb edilməsinə, eləcə də saray üçün zinət əşyaları, qızıl və gümüş qabqacaq alınmasına sərf edirdilər.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.257; Səfəvi hökumətinin idarəetmə*

sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.133.

SİPƏHSALAR – Səfəvilər dövlətində ən yüksək hərbi rütbə, qızılbaş ordusunun ali baş komandanı. Fars dilində qoşun mənasını verən "sipah" və sərkərdə mənasını verən "salar" sözlərinin birləşməsidir. Səfəvilər dövlətinin ilk dövrlərində bu rütbəni daşıyanlara *"əmir əl-üməra"* deyilirdi. I Şah Təhmasibin zamanında bəzən iki nəfər şərikli surətdə əmir əl-üməra vəzifəsini icra edirdi. I Şah Abbasın hakimiyyət dövründən etibarən ordunun ali baş komandanı mənasında "sipəhsalar" terminindən istifadə edilməyə başlandı. Adətən Azərbaycan vilayətinin hakimi sipəhsalar rütbəsinə layiq görülürdü, yaxud sipəhsalar vəzifəsinə gətirilmiş şəxs azacıq müddətə də olsa Azərbaycan hakimliyini icra edirdi. Bəzi dövrlərdə sipəhsalarlıq daimi deyil, müvəqqəti xarakter daşımışdır; müharibə zamanı yüksəkrütbəli əmirlərdən biri bu vəzifəyə təyin edilir, müharibə bitdikdən sonra isə vəzifədən götürülürdü.

Sipəhsalar vəzifəsinə təyinat almış şəxsə şah tərəfindən tac, at, qızıl geyim və silah hədiyyə edilirdi. Hərbi əməliyyatlar zamanı ordunun bütün bölümləri qeyd-şərtsiz olaraq sipəhsaların tabeliyi altında hərəkət edirdi; o, həm nizami ordunun (*qorçular, tüfəngçilər* və *qulamlar*), həm də əyalət hakimlərinin toplayıb gətirdiyi hərbi hissələrin *(çərik)* komandanı sayılırdı. Hərbi əməliyyatların strategiyasını işləmək, döyüş yerini seçmək, qoşun bölmələrinə başçılar təyin etmək onun birbaşa səlahiyyət dairəsində idi. Yürüşdə şah da iştirak edirdisə, sipəhsalar ya onun tabeliyində hərəkət edir, ya da şahın icazəsi ilə ona fəaliyyət azadlığı verilirdi; şahın qatılmadığı yürüşlərdə isə mütləq söz sahibi sipəhsalar sayılırdı.

Sipahsalar ləqəbi ilə mənbələrdə xatırlanan ilk şəxsin qeyri-müsəlman qullar *(qulamlar)* təbəqəsindən olan Qərəçəqay xanın olduğunu yazırlar. O, 1625-ci ildə I Şah Abasın əmri ilə Gürcüstanda hərbi missiyanı yerinə yetirərkən Georgi Saakadze (Böyük Mouravi) tərəfindən xəyanətlə öldürülmüşdü.

I Şah Səfinin zamanında *II Zeynal xan Şamlu* qısa müddətə sipəhsalar olmuş, Osmanlılarla döyüşdə məğlubiyyətə uğradığına görə edam edilmişdir (1630).

Sonrakı dövrlərdə ardıcıl olaraq sipəhsalar vəzifəsinə İslamı qəbul etmiş qulamlar gətirildi: gürcü əsilli *Rüstəm xan* Saakadze (vəf. 1643) və qardaşı Əliqulu xan (1650-55), *Allahverdi xan*, II Rüstəm xan və b. Səfəvilərin son dövründə də qeyri-türk mənşəli əmirlərin sipəhsalar vəzifəsinə təyin edilməsi ənənəsi davam edirdi (*Şeyxəli xan Zəngənə, Fəthəli xan Dağıstani*, Lütfəli xan Dağıstani və b.).

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.95-98; Cahanbəxş Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.29-31; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.284.*

SOYURQAL – orta əsrlərdə Şərq ölkələrində, o cümlədən Səfəvilər dövlətində mövcud olmuş irsi mülkiyyət növü. Soyurqallar daha çox kənd və yaşayış məntəqələrindən ibarət kiçik sahələr olub, şiə ruhanilərinə məxsus idi. Bəzən torpaq deyil, pul və mal formasında da soyurqallar verilirdi. Tiyuldan fərqli olaraq, soyurqal yalnız hərbi xidmətdə fərqlənmə müqabilində verilmirdi, mülki xidmətin əvəzində, yaxud sosial statusa uyğun olaraq din xadimlərinə və ya mülki şəxslərə (möhtərəm seyidlərə və s.) bağışlanırdı və irsən ötürülürdü. Tiyuldar qazancının bir hissəsini dövlətə vergi şəkilndə ödəməli olduğu halda, soyurqal sahibi xüsusi mülkiyyət hüququndan istifadə edirdi, onun vergi və inzibati-məhkəmə toxunulmazlığı vardı. Soyurqal sahibi mülkünün qazancına yiyələnmək hüququna sahib idi. Bunun müqabilində o, öz torpaqlarını hücumlardan qorumaq vəzifəsini daşıyırdı. Bu məqsədlə soyurqal sahibləri hərbi dəstə saxlayırdılar, bəzən döyüşdə ələ keçirilmiş əsirlər onlara xidmət üçün verilirdi. Soyurqal modeli dövlət üçün o qədər də mənfəətli olmadığından getdikcə tiyulla əvəz edilmiş və sıradan çıxmışdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.208; Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.321-324; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.52-54; N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.352.*

SÖHBƏT YASAVULU – Səfəvilər dövlətində saray vəzifəsi. *Yasavullar* iki hissəyə bölünürdü: *məclis yasavulları* və söhbət yasavulları. Söhbət yasavulları *müqərrəb əl-həzrət* təbəqəsinə (şaha yaxın olan ikinci təbəqəyə) aid olub, şahın iştirak etdiyi qapalı məclislərdə (məclisi-xass) xidmət göstərirdilər, çünki qapalı məclisə *eşikağasılar* qatılmırdı. Açıq yığıncaqlarda isə məclisi eşikağası idarə edir, yasavullar əllərində zərli əsa tutmuş halda şahın qarşısında səf çəkib dururdular. İlk dövrlərdə onların sayı 8, ya 9 nəfəri keçmirdi və hamısı Səfəvi dövlətində xüsusi yeri olan türk əmirlərinin övladları idi. Eşikağasıbaşının rəhbərliyi altında fəaliyyət göstərir, onun təyin etdiyi məvaciblə və onun göstərdiyi məkanda xidmət edirdilər.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259-260; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.108; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.193, 230-232; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.101-102.*

SUFİYAN DÖYÜŞÜ (1605) – *Səfəvi-Osmanlı müharibələrinin* üçüncü mərhələsində baş vermiş və Səfəvilərin parlaq qələbəsi ilə nəticələnmiş döyüş.

I Şah Abbas ölkə daxilində uğurlu islahatlar aparmaqla iqtisadi vəzyyəti xeyli yaxşılaşdırmağa nail olmuş, ölkənin şərq sərhədlərində özbəklərlə müharibədə uğur qazanmışdı. Bundan sonra şah 1590-cı il *İstanbul sülh müqaviləsinin* şərtlərinə əsasən Osmanlılara verilmiş torpaqları geri qaytarmaq qərarına gəldi. Beləliklə, 1603-cü ildə təqribən 9 il

davam etmiş Səfəvi-Osmanlı müharibələrinin üçüncü mərhələsi başlandı. Bu mərhələnin həlledici savaşı Sufiyan döyüşüdür.

Təbriz ətrafındakı Sufiyan kəndi yaxınlığında baş vermiş savaşa Osmanlılar tərəfdən Sinan paşa, Səfəvilər tərəfdən şəxsən I Şah Abbas sərkərdəlik edirdi. Osmanlı ordusunun sayı 100 min nəfəri keçdiyi halda Səfəvi qoşununun sayı 60 min nəfər civarında idi. 1605-ci il noyabrın 5-də baş vermiş döyüşdən qabaq I Şah Abbas öz zəkalı bibisi *Zeynəb xanımla* da məşvərət edib döyüşməyi qəti surətdə qərara aldı. O, sayca çox olan düşmənə qalib gəlmək üçün irimiqyaslı döyüşdən qaçaraq, kiçik toqquşmalarla düşmənin gücünü sarsıtmaq istəyirdi.

Sufiyan savaşında *çərxçi* (avanqard) qüvvələrinə şah rəhbərlik edirdi. Süvari dəstələr *Allahverdi xanın* tabeliyi altında idi. I Şah Abbas Səfəvi əsgərlərini azsaylı qruplar halında düşmənin çətin müşahidə edə bildiyi məkanlarda yerləşdirdi, Osmanlı sərkərdəsi həmin qruplaşmaların müdaxiləsinin qarşısını almaq üçün dəstələr göndərməli oldu, bununla da onların gücü parçalandı. Daha sonra şahın göstərişi ilə Səfəvi qoşununun bir hissəsi döyüşə atıldı, sonra tədricən geri çəkilməyə başladı. Osmanlı süvariləri bunu qarşı tərəfin məğlubiyyəti kimi dəyərləndirib hücuma keçdilər. I Şah Abbas onların hücum dalğasını qəbul etdikdən sonra əmr verdi ki, Səfəvi süvarilərinin bir hissəsi sol cinahdan həmlə edib düşmənin arxasına keçsin. Sinan paşa düşmən hücumunun bundan ibarət olduğunu düşünərək əmr verdi ki, döyüşçülər irəliləməyi dayandırsınlar və onların arxasına keçmiş qızılbaşları məhv etsinlər. Beləliklə, Osmanlı ordusunun həmləsi dayandırıldı və onlar geriyə tərəf istiqamət aldılar. Bu zaman I Şah Abbasın əmri ilə qızılbaş qoşunu var gücü ilə hücuma keçdi. Osmanlılar iki tərəfdən şiddətli basqı arasında qaldılar. Onların böyük bir hissəsi döyüşdə öldürüldü, bir hissəsi əsir alındı. 100-ə yaxın hərbi top Səfəvilərin əlinə keçdi.

Bu ağır məğlubiyyətdən sonra Sinan paşanın ürəyinin partlayıb öldüyünü yazırlar. Osmanlı tərəfi təcili olaraq sülh danışıqlarına başlamaq istəyini bildirdi. Sultan I Əhməd İstanbulda əsir kimi saxladığı gürcü çarının arvadı Gülsarənin vasitəçiliyi ilə Şah Abbasın bibisi Zeynəb xanıma xəbər göndərib xahiş etdi ki, şahı sülh bağlamağa razı salsın. Lakin şah qazandığı üstünlüyü qurban vermək istəmirdi.

Sufiyan döyüşündən sonrakı illər ərzində Şah Abbas bir-birinin ardınca hərbi uğurlar qazandı. Gəncə, Tiflis şəhərləri, Şirvan, Bacarkeçər, Gürcüstan torpaqları geri qaytarıldı. Bakı və Dərbənd əhalisi üsyan qaldırıb şəhərdən Osmanlıları qovdu. Beləliklə, müharibənin bu mərhələsinin sonunda Osmanlı dövləti 1590-cı il müqaviləsinə əsasən əldə etdiyi, demək olar ki bütün üstünlükləri itirdi, faktiki olaraq, 1555-ci il *Amasya sülh müqaviləsində* təsbit edilmiş sərhədlər yenidən qüvvəyə mindi.

I Şah Abbas qazandığı qələbələrin şərəfinə 1607-ci ildə piyada Məşhəd ziyarətinə yollandı. O, İmam Rzanın (ə) hərə-

minə və Ərdəbildəki Şeyx Səfi təkkəsinə külli miqdarda daşınar və daşınmaz əmlak vəqf etdi.

Kanadalı tədqiqatçı alim, Səfəvilər tarixi üzrə mütəxəssis Roger Savory Sufiyan savaşında I Şah Abbasın hərbi uğurlarını yüksək qiymətləndirdikdən sonra qeyd edirdi: "Hicri 1608-ci ilə (miladi 1615/16-cı illər) kimi, yəni şahın Osmanlılar əleyhinə hücumundan keçən beş ildən də az müddət ərzində sonuncu Osmanlı döyüşçüsü 1555-ci il Amasya sülh müqaviləsində müəyyən edilmiş dövlət ərazisindən qovulub çıxarıldı".

Osmanlı tarixçisi İbrahim Əfəndi Peçevi I Şah Abbasın uğurlarından hiddətlənərək yazırdı: "İslam ordusunun on-on iki il boyunca əldə etdiyi uğurlar beləcə əldən çıxıb itirildi. O dinsiz şah iki il içində hamısını geri aldı".

Mənbələr: *Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1259-1265; D.Blow. Shah Abbas, The Ruthless King Who Became an Iranian Legend, pp.81-84; Peçevi İbrahim Efendi. Peçevi Tarihi, II, 251; Roger Savory. Səfəvilər dövrünün İranı (farsca tərcümə: Kambiz Əzizi), s.85.*

SULTAN – Səfəvilər dövlətində ali titul. Bəzən Səfəvi hökmdarları da sultan titulu ilə yad edilir. *Xandan* daha aşağı pillədə dururdu. Əmirlərin arasından bəzilərinə xüsusi olaraq sultan deyilirdi (məsələn, *Div sultan, Çuxa sultan,* Aca sultan, *Çayan sultan, Köpək sultan,* Qarınca sultan, *Məntəşa sultan,* Burun sultan, *Badincan sultan, Qudurmuş* sultan və b.). Bu şəxslərin hər birinin öz adı olmuş, lakin müəyyən hadisələrdən sonra ləqəblər qazanmış və adlarına "sultan" sözü əlavə edilmişdir. Sultanlar əsil-nəsəb, hərbi güc sarıdan fərqlənirdilər, "böyük və kiçik sultan" anlayışları mövcud idi.

Mənbələrdə deyilir ki, xan və sultan titulları 1513-cü ildən başlayaraq I Şah İsmayıl Xorasanda olarkən əmirlərə verilmişdir. Bundan əvvəl qızılbaş əmirləri sadəcə bəy titulu daşıyırdılar.

Mənbələr: *Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.303; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.308-309; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.24.*

SÜFRƏÇİBAŞI – *bax:* **ÇAŞNİGİRBAŞI.**

ŞAHBƏNDƏR – Səfəvilər zamanında tacirlərin başçısına deyilirdi. Şəhərdəki tacirlərin arasından bir nəfər bu vəzifəyə seçilir və mübahisəli məsələlərdə onun verdiyi hökmə əməl edilirdi. Şahbəndər şəriətlə bağlı olmayan, sırf mali və ticari məsələlərdə söz sahibi idi. Tacirlər onun verdiyi hökmə tabe olurdular. Osmanlı dövləti ilə həmsərhəd bölgələrdə şahbəndər yerli tacirlərlə xarici tacirlərin arasındakı mübahisələri həll edirdi. Şahbəndərlərin başçısına şahbəndərağası deyirdilər və o, zəngin tacirlər təbəqəsinə rəhbərlik etdiyi üçün böyük nüfuz sahibi idi. Orta əsr mənbələrindəki məlik ət-tüccar vəzifəsi şah-

bəndərlə eynidir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.336; Lüğətnameyi-Dehxuda, IX, 14063.*

ŞAHİ – I Şah İsmayılın hakimiyyət illərində zərb edilməyə başlamış və Səfəvilər dövlətində dövriyyədə olmuş pul sikkəsi onun şərəfinə "şahi" adlanırdı. Hicri-qəməri 1508-ci ildə (miladi 1502/03-cü illər) tədavülə buraxılmışdır. Nominal dəyəri 50 dinara bərabər idi. Gümüş şahi sikkələrin çəkisi əvvəlcə iki misqal (təqribən 9.2 qr) idi, sonralar yarım şahı, dörddəbir şahı, səkkizdəbir şahı, iki şahı, dörd şahı nominalında sikkələr də tədavülə buraxıldı. İlk şahilərin üzərində I Şah İsmayılın adı ("Sultan adil (ədalətli), hadi (hidayətedici), vali (hökumət sahibi) Əbül-müzəffər Şah İsmail Bahadur xan"), kəlmeyi-şəhadətin hər üç cümləsi və 12 imamın adları həkk edilirdi. Sonrakı dövrlərdə zərb edilmiş şahilərin üzərində hakimiyyətdə olan Səfəvi şahının adı və ləqəbləri, eləcə də şiə məzhəbinə məxsus elementlər nəqş edilirdi.

Səfəvilərdən sonrakı zamanlarda da bu söz "şahı" şəklində 5 qəpiklik pul vahidi kimi işlənmişdir.

Mənbə: *Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, III, 259-261; Əli Əkbər Yəzdani. Səfəvilər dövründə İran pulları ("Pəyami-baharistan" dərgisi, 1391 h.-ş., №15), s.1070-1074; Fərzanə Qaini. Səfəvi sikkələri ("Mirasi-fərhəngi" dərgisi, №17), s.39-41; Rza Şapuriyan. Səfəvi sikkələrinin yazıları ("Xirəd və kuşiş"), s.94-112; Q.Ə.Pirquliyeva. Numizmatikanın əsasları, s.48-49.*

ŞAH İSMAYIL-SULTAN SƏLİM MƏKTUBLAŞMASI – Səfəvilər tarixinin ilk onilliklərini və Səfəvi-Osmanlı münasibətlərini öyrənmək baxımından Osmanlı sultanı I Səlimlə Səfəvi şahı I İsmayıl arasındakı məktublaşmalar böyük əhəmiyyət kəsb edir. Bundan əvvəl I Şah İsmayılla I Sultan Səlimin atası, ozamankı Osmanlı sultanı II Bayezid arasında da məktub mübadiləsi baş vermişdi. Həmin namələrdə tərəflər bir-birinə kifayət qədər ehtiramla yanaşmış, ədəb və siyasi etiket qaydalarını pozmamışdılar. Lakin I Sultan Səlim-I Şah İsmayıl yazışması fərqli səviyyədə aparılmışdır.

Rəqib dövlətlərin hökmdarları bir-birinə 6 və ya 7 məktub ünvanlamışlar. Əvvəlcə I Sultan Səlim I Şah İsmayıla 3 məktub göndərmiş, şah bunlara bir məktubla cavab vermiş, bunun ardınca sultanın dördüncü məktubu yazılmışdır. Bu məktubların hamısının tarixi *Çaldıran savaşından* azacıq əvvələ təsadüf edir. Çaldıran savaşından sonra I Şah İsmayılın İstanbula yenə bir məktub yolladığı məlumdur. Bəzi tədqiqatçılar bundan əvvəl şah tərəfindən sultana daha bir namə yazıldığını qeyd edirlər, amma təəssüf ki, həmin məktub itib-batmışdır və mətni məlum deyildir. I Sultan Səlimin dörd məktubundan ikisi fars, ikisi türk dilində, I Şah İsmayılın iki məktubu fars dilində yazılmışdır.

I Sultan Səlimin ilk məktubu hicri 920-ci ilin səfər ayında (1514-cü ilin aprelində) yazılmışdır, bu zaman Osmanlı ordusu artıq Ədirnədən çıxmışdı. Sultan məktubun əvvəlində özünü təntənəli ad-

larla təqdim edirdi: "Xilafət məqamlı cənab, kafirlərin və müşriklərin qatili, din düşmənlərini məğlub edən, fironların burunlarını yerə sürtən, sərkərdə və xaqanları torpağa sərən, mücahid və qazilərin sultanı, Firudin kimi şərəfli, İsgəndər kimi cahangir, Keyxosrov kimi ədalətli, Dara kimi uca soylu Sultan Məhəmmədin nəvəsi Sultan Bayezidin oğlu Sultan Səlim". Bunun müqabilində I Şah İsmayıl aşağı dərəcəli ifadələrlə adlandırılmışdır: "Əcəmin hakimi, böyük sərkərdə, əzəmətli komandan, zəmanənin Zöhhakı, müharibə meydanının Darası, dövranın Əfrasiyabı şöhrətli əmir İsmayıl". Məktubun davamında sultan I Şah İsmayılı zülm törətməkdə, fitnə-fəsad yaymaqda, şəriətin hökmlərini pozmaqda günahlandırmış, ona qarşı qətiyyən həqiqətə uyğun olmayan, iftira xarakterli ittihamlar irəli sürmüşdür: "Zinanı halal etmək, haqsız yerə qan tökmək, məscid və minbərləri sökmək, qabiristanlıqları və məqbərələri yandırmaq, Peyğəmbər övladlarına və alimlərə hörmətsizlik etmək, müshəfləri (Quranları) pisliklər içərisinə atmaq, iki şeyxə (Əbu Bəkr və Ömərə) söyüş söymək kimi pis davranış və hərəkətlərin haqqında hər kəs danışır. Din rəhbərləri və hidayət edən alimlər sənin və ardıcıllarının mürtəd olması haqqında yekdilliklə fətva verdilər ki, bu da qətl edilməyə səbəb olur". Osmanlı sultanı Səfəvi torpağına soxulmasını "dini gücləndirmək, məzlumlara yardım etmək, əzab çəkənlərə kömək etmək, ilahi əmrlərə itaət və padşahlığın şərəf qaydaqanunlarını bərpa etmək" bəhanələri ilə pərdələyir, I Şah İsmayılın qarşısında ağlasığmaz tələblər qoyurdu: "...Səmimi qəlbdən tövbə və istiğfar etsən, ötən zamanda bizim qalib ordunun dördayaqlılarının ayağı dəydiyi qala və məkanları Osmanlı məmləkətinin tabeliyinə verərək bizim əzəmətli himayəmizdə olan bəndələrə tapşırsan, daha yaxşı olar". Şah bu göstərişə əməl etməyəcəyi təqdirdə bütün hakimiyyətini itirəcəyi ilə hədələnirdi.

I Şah İsmayıl sultanın bu addımını sükutla qarşılamış, ona cavab verməmişdi. I Sultan Səlim özünün ikinci məktubunda qarşı tərəfə sayğısızlığını daha ağır ifadələrlə nümayiş etdirir: "(Bu məktub) Əcəm məmləkətinin padşahı, zülm və sitəm diyarının ağası, şərin sevinci və şər sahiblərinin rəhbəri, zəmanənun Darası, dövrün Zöhhakı, Qabilin tayı əmir İsmayıla yazıldı". Bu məktubda da Səfəvi şahının ünvanına haqsız və gülünc ittihamlar yağdırılmaqda davam edir: "Öz çirkin şiəni (tərəfdarlarını) nəməhrəm qadınları halal etməyə və günahsız qanlar axıtmağa təhrik etmisən... Haqqı batildən ayıran açıqlayıcı Quranı keçmiş xalqların əsatiri adlandırmısan". Sultan bu dəfə də öz hücumuna haqq qazandırmaq üçün qarşı tərəfi kafir adlandırır, "Yer üzündə bir nəfər belə kafir qoyma" (Nuh, 26) ayəsinin hökmünü rəhbər tutaraq hərəkət etdiyini yazırdı. Şahın qarşısında bir daha tövbə etmək, "pak və doğru sünni təriqətinin ardıcılı olan millət və məzhəbdən olmaq", öz ixtiyarında olan "ölkələri və onlardan asılı olanları Osmanlı ərazilərindən hesab etmək" tələbi qoyulurdu. Buna əməl

etməsə, sultan Quran ayələrində kafirlərə və münafiqlərə yönəlmiş ayələrə əsaslanaraq onu məhv edəcəyi ilə hədələyirdi.

Osmanlı sultanının bu məktubu da şah tərəfindən özünəməxsus səbir və ədəblə cavabsız qoyuldu. I Sultan Səlim cəmadi əl-əvvəl ayının sonlarında (iyul ayının ikinci yarısı) Ərzincandan yazdığı üçüncü məktubun əvvəlində şahı sadəcə "İsmayıl bahadur" adlandırır. Bu məktub şahı hövsələdən çıxarmaq üçün daha ağır təhqiredici tonda idi, hökmdarlıq qürurunu aşağılayan ifadələr üstünlük təşkil edirdi: "Hazırda Azərbaycanda olan dağ və təpələrdə qalib ordunun dördayaqlılarının dırnaq izi aypara ilə dolu səmaya dönmüşkən hələ ki nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmusan ki, varlığınla yoxluğun arasında fərq yoxdur... Belə bir vəziyyətdə gizlənərək bir küncə sıxılıb gözə görünməmənin səbəbi, böyük ehtimalla, müqayisəolunmaz dərəcədə güclü qoşunumdan qorxub çəkinməndir". Sultan guya düşmənə güzəşt edərək ordusundan 40 min nəfəri ayırıb Kayseri (Qeysəriyyə) ilə Sivas arasında saxladığını, bununla da yürüşə çıxan ordunun sayını azaltdlğını yazır və məktubunu bu ifadələrlə bitirirdi: "Əgər səndə az da olsa qeyrət varsa, gəlib şanlı və qalib əsgərlərimizə qarşı dur".

I Şah İsmayıl Osmanlı sultanının hədə və təhqirlə dolu üç məktubuna ədəb və nəzakətlə qələmə alınmış namə ilə cavab verdi. Şahın bu məktubunda qızılbaş *mürşidinə* və türk hökmdarına yaraşan alicənablıq özünü aydın şəkildə göstərir. Məktub "cənnətə layiq olan, İslamın pənahı, səltənət sahibi, Allahın (lütf) nəzərində olan, dövlət və səltənət, dünya və din yolunda mübarizə aparan Sultan Səlim şaha (Allah onun dövlətini əbədi, səadətini davamlı etsin)" ünvanlanmışdır. Göründüyü kimi, Osmanlı sultanından fərqli olaraq, I Şah İsmayıl qarşı tərəfə dərin hörmət bildirən ifadələrlə müraciət etmişdir. O, sultana xatırladır ki, atası II Sultan Bayezidin zamanında Osmanlı və Səfəvi dövlətləri arasında dostluq münasibəti mövcud idi. "Hazırkı kin-küdurətin səbəbi isə məlum deyil... İki səbəbdən sizin torpaqlarınızda gözümüz yoxdur. Birincisi, o diyarın əksər sakinləri bizim əsil-nəcabətli əcdadımızın *müridlərimizdir*. İkincisi, sizin qazi ailəyə hörmətimizin tarixi qədimdir. Olub-keçənlərə görə incimirik, niyə də inciyək? Sultanlar arasında ədavətin olması qədim ənənədir... Allahın yardımı ilə qəzavü-qədərdə yazılanlar həyata keçəcək. Heç kimin sözünə əhəmiyyət vermə, ciddi şəkildə düşün! Sonrakı peşmançılıq fayda verməz".

I Şah İsmayıl sultanın ədəbsiz sözlərini onun özünə yaraşdırmır və bu ifadələrin tiryək çəkməyə aludə olan katiblər tərəfindən sultandan xəbərsiz şəkildə məktuba əlavə edildiyinə inanmaq istədiyini bildirir: "(Sultanlara) yaraşmayan ifadələrə gərək yoxdur. Şübhəsiz ki, həmin dinsiz ifadə və fikirlər katiblərinin və tiryək çəkməkdən beyinləri qurumuş mirzələrinin yazdığı uydurmalardır. (Cavabımın) bu qədər ləngiməsi də səbəbsiz deyildi. Buna görə də möhürümüzlə möhürlənmiş keyfiyyətli tiryəklə dolu

qızıl mücrünü ən yaxın və etimad etdiyimiz Şahqulu ağa ilə göndərdim ki, əgər lazım olsa, istifadə edərsən". Şah qarşı tərəfə ciddi əhəmiyyət vermədiyini göstərmək üçün bu məktubu İsfahan ətrafında ovla məşğul olduğu zaman yazdığını bildirmiş və məktubu bu sözlərlə başa vurmuşdur: "Əgər bu iş müharibə ilə nəticələnəcəksə, süstlük edib yubanma, lakin sonunu da düşün".

I Şah İsmayılın məktubundakı bu beyt də qarşı tərəfi məzhəbi zəmində düşmənçilikdən çəkindirmək cəhdi baxımından maraqlıdır:

Bu mükafat dünyasında çox təcrübə etdik,
Hər kim Əli övladına qarşı çıxdısa, məhv oldu.

Nəhayət, I Sultan Səlim Çaldıran döyüşündən cəmi bir neçə gün əvvəl dördüncü məktubu göndərmiş və onu yenə "İsmayıl bahadur" ifadəsi ilə başlamışdır. Sultan əvvəlki məktublarda olduğu kimi, bu dəfə də I Şah İsmayılı müxtəlif təhqiramiz ifadələrlə aşağılamağa çalışır: "İdarəçiliyi altında olan məmləkətlər onların (hökmdarların) namusu (kəbinində olan qadınlar) kimidir. Kişilikdə pay sahibi, mərdlikdə bəhrəsi, heç olmasa daxilində zərrə qədər özəyi olan bir şəxs üçün başqasının onun namusuna hücum etməsinə dözmək ehtimalı yoxdur. Elədirsə, neçə gündür ki, güclü və qalib əsgərlərim məmləkətinə daxil olub səfa sürürlər, nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən... Əgər bundan sonra da keçmişdə olduğu kimi qorxu və dəhşətdən bir küncə sıxılsan, igid adı sənə haramdır. Dəbilqə yerinə örtük, zireh yerinə çarşab seçərsən, rəhbərlik və sərkərdəlik sevdasından vaz keçərsən".

Bəzi məlumatlara görə, sultan bu məktubla birlikdə I Şah İsmayıla qadın paltarı və yaşmaq göndərmiş, bununla da onu qorxaqlıqda ittiham edərək hövsələdən çıxarmağa çalışmışdı. Lakin Səfəvi şahı provakasiyaya uymadan soyuqqanlılığını qorumuş və bu təhqiri də cavabsız buraxmaqla ən gözəl əxlaq dərsi vermişdi.

Çaldıran döyüşündən bir müddət sonra I Şah İsmayılın Osmanlı sultanına göndərdiyi sonuncu məktub tarixi mənbələrdə fərqli şəkillərdə dəyərləndirilir. Osmanlı mənbələri adətən şahın bu məktubu peşmançılıq və üzrxahlıq məqsədilə yazdığını iddia edirlər, lakin məktubda peşmançılıqdan daha çox şahanə alicənablıq, sülh və barışıq istəyi duyulur. Şah öz naməsini sultanın ünvanına ən hörmətli ifadələrlə və dualarla başlayır, II Sultan Bayezidin zamanında iki ölkə arasında dostluq və mehribanlıq əlaqələrinin hakim olduğunu bir daha diqqətə çatdırır. Daha sonra qarşı tərəfi keçmiş dostluq əlaqələrini pozmaqda məzəmmət edir, Çaldıran savaşındakı məğlubiyyəti də onun tərəfindən belə qəfil və namərd bir hücumu gözləmədiyi ilə əlaqələndirir: "Haqqınızda bu məmləkətdə nə qədər dostluğa zidd və insafsız xəbərlər eşidilsə də, qəti şəkildə etimad edilmir və görməzdən gəlinirdi. Bu sözün doğru olduğunun nümunəsi budur ki, sizin də eşitdiyiniz kimi, o vaxt ətraf bölgələrdən əsgərlər toplan-

madı, aldığımız o xəbərlərin həqiqi olduğunu anladıqdan sonra bir dəstə süvari əsgər və Diyarbəkir ətrafından toplanan az sayda insanla təcili qarşılaşmaq üçün yola çıxdıq". Şah İstanbula göndərdiyi elçi Əbdülvəhhabın hələ də geri qayıtmamasından narahatlığını bildirir, daha iki nəfər elçi vasitəsilə sülh istəklərini çatdırdığını bəyan edir. Məktubdakı bu cümlə şahın nə qədər uzaqgörən düşüncəyə və sülhpərvər xarakterə malik olduğunu göstərir: "Dindar sultanlar arasında ixtilaf din və iman düşüncəsinin zədə almasına, küfr və günah əhlinin cürət və cəsarət qazanmasına səbəb olar".

I Şah İsmayılın elçi qismində Osmanlı dövlətinə göndərdiyi elçi Əbdülvəhhab diplomatik toxunulmazlıq qaydasının əksinə olaraq, I Sultan Səlim tərəfindən zindana atılmış, onun vəfatından sonra oğlu I Sultan Süleyman Qanuni tərəfindən azad edilmişdi. 7 il həbs həyatı yaşamış Əbdülvəhhab səhhətindəki pozuntular üzündən vətənə qayıtmazdan əvvəl İstanbulda vəfat etdi və Sultan Eyyub məzarlığında torpağa tapşırıldı.

I Şah İsmayıl-I Sultan Səlim məktublaşmasının tam mətni Osmanlı saray yazışmalarını əhatə edən "Məcmueyi-münşəat əs-səlatini-Fəridun bəy" adlı kitabın birinci cildində öz əksini tapmışdır.

Mənbələr: *Məcmueyi-münşəat əs-səlatini-Fəridun bəy, I, 379-386 və 413-414; Şah İsmayıl Səfəvi (tarixi-diplomatik sənədlər toplusu), s.74-91; Ə.Ə.Vilayəti. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi, s.132-152 və 185-187.*

ŞEYXÜLİSLAM – Səfəvilər zamanında mühüm dini vəzifə. Səfəvilərdən daha əvvəl Osmanlı dövlətində təsis edilmişdir. Şeyxülislam adətən evində oturub görüşünə gələnlərə, o cümlədən şah və şahzadələrə moizə edir, əmr bi-l-məruf və nəhy əni-l-münkərlə (insanları yaxşı işlərə doğru çağırıb pis işlərdən çəkindirməklə) məşğul olur, şəriət məsələlərində fətva verirdi, hüzurunda talaq oxunur, sahibsiz və ya sahibinin istifadəsində olmayan əmlak (yetim malı və s.) onun ixtiyarına verilirdi. Şəriətlə bağlı suallara cavab vermək, mübahisəli məsələləri dini cəhətdən həll etmək də onun səlahiyyətləri çərçivəsində idi. Bütün iri şəhərlərin şeyxülislamı vardı, bunların ən mühümü və nüfuzlusu İsfahanın şeyxülislamı sayılırdı.

Şeyxülislam Səfəvi şahının mənəvi ustadı məqamında idi. Şah daim onunla məsləhətləşir, nəsihətlərini qəbul edir, məzəmmətlərini dinləyir, mənəvi aramlıq tapmaq üçün onunla söhbətləşirdi.

Şeyxülislamlar Səfəvilər zamanında o qədər böyük nüfuz və ixtiyar sahibi idilər ki, qeybdə olan on ikinci *İmam Mehdinin (ə)* rəsmi naibi və canişini sayılırdılar. Onların İmam Mehdi (ə) tərəfindən müsəlmanlar üzərində hakimiyyət sürdükləri iddia edilirdi. Hətta Səfəvi şahları şeyxülislamların xeyir-duası və təsdiqi ilə hakimiyyət sürürdülər və əsl hakimiyyətin şaha deyil, şeyxülislama məxsus olduğunu etiraf edirdilər.

Təsadüfi deyil ki, Səfəvilər dövründə ən mühüm din alimləri şeyxülislamlıq vəzifəsini daşımışlar. Məsələn, I Şah Təhmasibin zamanında *Mühəqqiq Kərəki*,

I Şah Abbasın zamanında *Şeyx Bəhai*, II Şah Abbas və Şah Süleymanın zamanlarında *Mühəqqiq Səbzəvari* və *Ağa Hüseyn Xansari*, Şah Sultan Hüseynin dövründə *Əllamə Məclisi* və kürəkəni *Mir Məhəmməd Saleh Xatunabadi* şeyxülislam olmuşlar. Bu şəxslərin bir çoxu Səfəvilər dövlətinin daxili və xarici siyasətinin bəzi kontur xətlərini cızacaq qədər nüfuz sahibi idi.

Səfəvilər dövlətinin ilk şeyxülislamı Mövlana Əhməd Ərdəbili idi. I Şah İsmayıl tərəfindən Təbriz fəth edildikdən sonra o, Ərdəbili məsciddə şahın adına xütbə oxuyaraq dövlətin din siyasətinin əsaslarını elan etmişdi.

Mənbələr: *Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.409-410; N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.327; Aləmarayi-Səfəvi, s.64; М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, IV, 35.*

ŞƏHİD – Allah, din, peyğəmbər, imam yolunda, müqəddəs dəyərlərin qorunması uğrunda savaşıb həlak olan şəxs. Sözün mənası müxtəlif cür izah edilir. Bəzilərinin fikrincə, şəhid həlak olan anda mələklər onun başı üstündə hazır durub bu hadisəyə şahid olarlar. Digər nəzəriyyəyə görə, şəhid Allah dərgahında diridir və dünyada baş verənləri şahid kimi izləyir: "Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəblərinin yanında ruzi əta olunur. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar" (Ali-İmran, 169-171).

Şəhidlər İslamda çox uca məqama malikdirlər. Hədislərdə şəhidin savabı barədə buyurulur: "Bəndənin nail ola biləcəyi ən böyük yaxşılıq budur ki, Allah yolunda savaşıb şəhid olsun. Bundan üstün bir hal ola bilməz". "Şəhidin borcdan başqa bütün günahları Allah tərəfindən bağışlanar". "Cənnətə daxil olan heç kəs, hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, bunları daha da artırmaq üçün on dəfə dünyaya qayıdıb öldürülməyi arzu edər".

Digər təbəqələr kimi, şəhidlik təbəqəsi də dərəcələrə bölünür. Din uğrunda aparılan cihadda öldürülən, peyğəmbəri və imamı qorumaq yolunda canını verən şəxs ən yüksək şəhidlik dərəcəsinə mənsubdur. Öz vətənini, ailəsini, namusunu, müsəlman qardaşını, hətta əmlakını qorumaq uğrunda qətlə yetirilən şəxsə də şəhidin savabı qədər savab verilər. Hədislərdə hətta elm öyrəndiyi halda vəfat edən, suda batan insan, doğuş vaxtı rəhmətə gedən qadın da şəhidlərin sırasına aid edilib. Şiə və qızılbaş inancına görə, şəhidlərin sərvəri (başçısı) İmam Hüseyndir (ə).

Səfəvi qoşununun əsasını təşkil edən qı-

zılbaşlar şəhidliyin uca məqamını dərk edir və bu məqama çatmaq üçün can atırdılar. Onlar ölümdən qorxmur, onu şəhidlik məqamını qazanmağın vasitəsi kimi qəbul edirdilər. Səfəvi salnamələrində düşmənlə savaşda həyatını itirənlər şəhid adlandırılır. Səfəvilər nəslinin ən böyük şəhidləri *Şeyx Cüneyd* və *Şeyx Heydər* sayılırdı. "Tarixi-aləmarayi-Abbasi"də Şeyx Cüneydin ölümü haqqında yazılır: "O həzrət (Cüneyd) döyüşün qızğın vaxtında əcəl saqisinin əlindən şəhidlik şərbəti içdi. O həzrətin adamlarından bir hissəsi döyüşə davam edib, şəhidlik qanı ilə üzlərini qızartdılar". Həmçinin Şeyx Heydər sonuncu döyüşdə öz tərəfdarlarına belə demişdi: "Mənim ömrümün günəşi batmaq üzrədir və mən şəhidlik şərbəti içəcəyəm".

I Şah Abbasın qardaşı vəliəhd *Həmzə Mirzə* qiyamçı Təkəlü və Türkman tayfaları ilə müharibə zamanı döyüşçülərini irəli apararaq demişdi: "Kim şəhid olmaq meylindədirsə, mənə yoldaş olsun!" Bundan əvvəl ruh düşkünlüyünə qapılmış döyüşçülər şahzadənin çağırışına cavab olaraq hücuma keçmiş və qələbə qazanmışdılar.

Səfəviyyə təriqətinin nizamnaməsi sayılan, Şeyx Səfiəddin Ərdəbilinin öyüdlərini özündə ehtiva edən *"Qara məcmuə"də* şəhid anlayışı təriqət çərçivəsində izah edilir. Şeyx Səfinin düşüncəsində Allaha sevgi duyaraq bu əqidə ilə dünyasını dəyişən şəxs şəhiddir: "Hər kim Dost (yəni Allah) eşqində ölə, şəhid olmuş olur. "Mən matə min əl-eşq fəqəd matə şəhidən" (Tərcüməsi: Kim eşqdən ölürsə, o, şəhid kimi ölür)... Dost məclisində hər kimsə qurban ola, anın arzusunda şəhid olub yeni can bulur". Həmçinin öz mürşidinin yolunda, onun razılığını qazanaraq ölən mürid də şəhid hökmündədir: "Hər kim övliya yolunda baş və candan keçərsə, yəqindir ki, şəhid olar".

Şah İsmayıl Xətainin şeirlərində də şəhidlik motivinə tez-tez rast gəlinir:

Yarın yolunda xəstə Xətai yoruxmə tiğ,
Olgil şəhidi-dəşti-biyabani-Kərbəla.

Biz imam qullarıyüz sadiqanə,
Şəhidlik, ğazilik nişanımızdır.
Yolumuz incədir, incədən-incə,
Bu yolda baş verək ərkanımızdır.

Qeybi-mütləqdən təmaşayi-rüxi, ziba üçün
Bu şəhadət mülkinə seyranə gəlmişlərdənüz.
(Ş.İ.Xətai)

Mənbələr: *Məhəmməd Reyşəhri. Mizan əl-hikmə (12 cilddə), V, 2003-2014; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.64, 69 və 650; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 252; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 92, 134-135 və 273; Qara məcmuə, s.27 və 81.*

ŞƏRUR DÖYÜŞÜ (1501) – I Şah İsmayılın başçılığı altında Səfəvi qızılbaş qoşunu ilə Ağqoyunlu Əlvənd Mirzənin qüvvələri arasında baş vermiş və Səfəvilərin qələbəsi ilə nəticələnmiş döyüş.

Döyüş ərəfəsində Şah İsmaıyıl artıq bir neçə hərbi uğura imza atmışdı. 1500-cü ildə Şirvanşah Fərrux Yasarın ordusu məğlub edilmiş, Bakı qalası alınmışdı.

Şirvanşahların müqavimətini tam qırmaq məqsədilə Gülüstan qalasını mühasirəyə alan Şah İsmayıl Ağqoyunlu Əlvənd Mirzənin hücuma hazırlaşdığını eşidib Gülüstan qalasının mühasirəsini dayandıraraq cənub istiqamətində Əlvənd Mirzəyə qarşı hərəkətə keçdi. Ağqoyunlular qızılbaşların Kür çayını keçməsinə mane olmaq istəsələr də, bacarmadılar.

Ağqoyunlu qoşununun sayı 30 min nəfərdən artıq idi, qızılbaş əsgərlərinin sayı isə 7 min nəfəri aşmırdı. Say barədə məlumat fərqləri olsa da, tarixçilər Ağqoyunluların Səfəvilərdən sayca dörd dəfə çox olduğunu yazırlar. Qızılbaş qoşununun *çərxçilərinə* (avanqard) Tozqoparan *Qara Piri by Qacar* və *İlyas bəy Halvaçıoğlu* başçılıq edirdilər. İlyas bəy Halvaçıoğlu Əlvənd Mirzənin sərkərdəsi Osman bəy Mosullunu məğlub edib əsir tutdu. (Bəzi məlumatlara görə isə öldürdü). Əlvənd Mirzə Şah İsmayıla məktub yazıb təklif etdi ki, Şirvana qayıtsın və oraya hökmranlıq etməklə kifayətlənsin. Lakin şah bu təklifi rədd etdi, döyüşün qaçılmazlığı məlum oldu.

1501-ci ilin ortalarında Naxçıvandakı Şərur düzündə tərəflər qarşılaşdı. Qızılbaş qoşununun cinahlarına *Hüseyn bəy Lələ, Dədə bəy Talış, Xadim bəy Xüləfa, Məhəmməd bəy Ustaclu, Bayram bəy Qaramanlu, Əbdi bəy Şamlu,* Qaraca İlyas Bayburtlu, *əmirşikarbaşı* İlyas bəy Halvaçıoğlu, *İlyas bəy Xınıslu, Sarı Əli bəy Təkəli möhürdar, Div Sultan Rumlu* kimi məşhur sərkərdələr başçılıq edirdi. Mərkəzi qüvvələrə Şah İsmayıl rəhbərlik edirdi. Əlvənd Mirzə döyüşçülərinin sədaqətinə və hərbi bacarığına tam əmin olmadığı üçün əmr vermişdi ki, qoşunun arxasında dəvələri cərgə ilə düzüb zəncirlə bir-birinə bağlasınlar. Bu yolla o, qoşunun döyüş meydanından qaçmasının qarşısını almaq istəyirdi. Ağqoyunlu qoşununa Əlvənd Mirzə ilə birlikdə Lətif bəy, Sidi Qazi bəy, Musa bəy, Qərəçəqay bəy, Qulabı bəy, Xəlil bəy, Qaraca Mahmud bəy kimi əmirlər başçılıq edirdi. Bu sərkərdələrin bir çoxu qızılbaşların qətiyyətli həmlələri nəticəsində öldürüldü. Döyüş meydanında böyük igidlik göstərən Şah İsmayıl qızılbaşları qələbəyə ruhlandırdı. Ağqoyunlu döyüşçüləri vahimə içində qaçmağa üz qoydular, Əlvənd Mirzə çətinliklə xilas olub Ərzincana qaçdı. Səfəvilər zəngin qənimət əldə etdilər. Şərur qələbəsindən sonra 1501-ci ilin payızında Şah İsmayıl təntənə ilə Təbrizə daxil olub özünü şah elan etdi.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.49-50; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.132-134; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.84-85; Həsən bəy Rumlu. Əhsənüttəvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.373-375.*

ŞİRƏÇİBAŞI – Səfəvi sarayında xidməti vəzifələrdən biri. Sarayda təşkil edilən yemək məclislərinin içəcəklərlə təchizatına nəzarət edirdi. Yemək süfrələrinə su, şərbət və şirələri şiräçilər gətirib düzürdü; şiräçibaşı onların rəhbəri idi. *Çaşnigirbaşı*, *tuşmalbaşı*, süfräçibaşı ilə yanaşı şiräçibaşı da sarayın qida təchizatı sektorunda mühüm yer tutur-

du. Yemək süfrəsində şaha xidmət etmək böyük şərəf sayıldığı üçün şirəçibaşı vəzifəsi də fəxrli mənsəblərdən idi. İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabının əlavəsində (zeyl) xəbər verir ki, I Şah Abbas zamanında Bayındır bəy Qaracadağı şirəçibaşı vəzifəsində xidmət etmiş, sonra ona sultanlıq rütbəsi verilərək Qaracadağ bölgəsinə əmir qismində göndərilmişdi.
Şirəçibaşı vəzifəsi mənbələrdə şərbətdarbaşı şəklində də qeyd edilmişdir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.261-162; İsgəndər bəy Münşi. Zeyli-Tarixi-aləmarayi-Abbasi, s.278-279; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.135.*

ŞİRÜ XURŞİD – Səfəvi bayraqlarında və dövlət atributlarında rast gəlinən simvol. Aslan və onun arxasında doğmaqda olan Günəş təsvirindən ibarət idi. Ehtimala görə, Səfəvi bayrağına şirü xurşid təsviri I Şah Abbasın zamanında daxil edilmişdir. Bu təsvir Səfəvilərdən əvvəlki dövlətlərin bayraqlarında və digər simvollarında da öz əksini tapmışdı. Astroloji təsəvvürə görə, hər planeti bir canlı simvolizə edirdi, günəşin simvolu aslan sayılırdı. Əlavə olaraq, Səfəvi bayrağındakı aslan təsvirini *İmam Əlinin (ə)* simvolik obrazı kimi də qəbul edirlər. (İmam Əlinin (ə) məşhur ləqəbləri olan "Heydər", "Əsədullah", "Qəzənfər" sözlərinin mənası ərəb dilindən tərcümədə aslan deməkdir).
Səfəvilər dövlətinin bayrağındakı şirü xurşid təsviri sonralar Qacarlar və Pəhləvilər dövrünün bayraqlarında və dövlət simvollarında təkrar edilmişdir.
bax: **SƏFƏVİ BAYRAQLARI.**

Mənbələr: *Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin bayraqlarına dair, "Geostrategiya" ictimai-siyasi, elmi-populyar jurnalı, iyul-avqust 2017, №4 (40), s.11-16; MEB İslam Ansiklopedisi ("arslan" maddəsi), I, 608; Həmid Neyyir Nuri. Hicri XIII əsrin əvvəlindən indiyə kimi İran bayrağı və simvollarının dəyişiklik və inkişaf tarixçəsi, "Hünər və mərdüm" dərgisi, 1347 h.-ş., №47, s.73; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.322-323.*

TACİK – Səfəvilər zamanında fars millətindən olanlara verilən ad. Bəzən bu məqsədlə "tat" sözündən də istifadə edilirdi. Adətən türk qızılbaş əmirləri dövlət işlərində əsas rəqibləri olan fars mənşəli əyanları bu cür adlandırırdılar. Dövlət idarəçiliyində möhkəmlənməyə çalışan fars əyanları qızılbaşları özlərinə rəqib görür və onlara qısqanclıqla yanaşırdılar. Qızılbaş əmirləri də milli kökə və təriqət bağlılığına əsaslanaraq özlərini şaha daha yaxın bilir, bu üstünlüyü fars mənşəli əyanlarla bölüşmək istəmirdilər. Onların düşüncəsində belə bir fikir formalaşmışdı ki, taciklər (farslar) yalnız yazı-pozu işləri ilə məşğul olmalı, dəftərxanada fəaliyyət göstərməlidirlər; çünki bu işləri faha yaxşı bacarırlar; taciklərin yüksək dövlət vəzifələrinə, orduya aidiyyəti olmamalıdır. Qızılbaşlar bəzən bu düşüncəni açıq şəkildə ifadə etməkdən çəkinmirdilər. II Şah İsmayılın və Şah Məhəmməd Xu-

dabəndənin dövründə *baş vəzir* (vəzir-i-əzəm) olmuş fars mənşəli *Mirzə Salman xan Cabiri* daim qızılbaş əmirləri şahın gözündən salmağa, onları taxt-tac üçün təhlükə mənbəyi kimi göstərməyə çalışırdı. Buna görə də o, 1583-cü ildə yaranmış qarışıqlıq zamanı qızılbaşlar tərəfindən öldürüldü. Salnamələrdə qeyd edilir ki, bundan əvvəl şahla görüşən qızılbaş əmirləri vəzirdən şikayət edərkən məhz onun tacik olduğunu əsas gətirərək demişdilər: "Mirzə Salman bir tacik kişidir; hesab və divan işlərinin icrasından savayı ondan başqa heç nə təvəqqe olunmurdu. Ordu və qoşun toplayaraq özbaşına surətdə səltənət işlərinə müdaxilə edib fitnə-fəsada bais olmaq onun işi deyildi". Göründüyü kimi, Cabirinin hesab və divan işləri ilə kifayətlənməyib sərkərdə kimi hərbi yürüşlərə qatılması qızılbaş əmirlərini hiddətləndirmişdi.

Səfəvilər dövrünə aid klassik mənbələrin çoxunda saray əyanları, hətta sənət adamları və şairlər milli mənsubiyyət bölgüsü əsasında türk və tacik qrupları şəklində təqdim edilir. Məsələn, *Sadiq bəy Əfşar "Məcmə əl-xəvas"* təzkirəsində üçüncü bölümü "Səltənət sütunu olan türklər haqqında", dördüncü bölümü isə "Səltənət sütunu olan taciklər haqqında" adlandırıb. *İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi"* kitabında da türk-tacik bölgüsü dəfələrlə qabardılır, hətta bəzi qızılbaş əyanlarının dövlətdəki uca mövqeyinə taciklərin həsəd apardığı vurğulanır.

Mənbələr: *Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.383; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.563-564; Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, I, 169; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.216.*

TAXTA QÜLLƏ – *bax:* **DƏBBABƏ.**

TƏBRİZ – Səfəvilər dövlətinin ilk paytaxtı. Təbriz ümumilikdə 54 il ərzində (I Şah İsmayılın hakimiyyəti dövründə və I Şah Təhmasibin hakimiyyətinin ilk 31 ili boyunca) Səfəvilər dövlətinin hərbi-siyasi mərkəzi rolunu oynamışdır. I Şah İsmayıl 1501-ci ildə Təbrizə daxil olaraq şəhərin camesində başına tac qoyub özünü şah elan etmiş, 1555-ci ildə I Şah Təhmasib Səfəvilər dövlətinin mərkəzinə daha yaxın olmaq üçün paytaxtı Təbrizdən *Qəzvinə* köçürmüşdü.

Təbriz şəhəri Səfəvilərdən əvvəl də Rəvvadilər, Eldənizlər, Elxanilər, Cəlayirilər, Qaraqoyunlular və Ağqoyunlular zamanında (bəzən məhdud zaman kəsimində) paytaxt olmuşdur. Elxanilər dövründə Təbrizin yaxınlığında Şənbi-Qazan şəhərciyi, şəhərin özündə elmi mərkəz rolunu oynayan Rəşidiyyə məhəlləsi salınmışdı. Azərbaycan xalqının sosial-iqtisadi, siyasi və mədəni həyatında müstəsna rol oynamış ən qədim şəhərlərdən biri olmaqla Təbriz Səfəvilər zamanında xüsusilə inkişaf etmişdi. Hətta I Şah Təhmasib 1555-ci ildə paytaxtı Qəzvinə köçürdükdən sonra da Təbriz aparıcı rola malik şəhərlərdən biri olaraq qalmışdı. 1568-69-cu illərdə Səfəvilər dövlətinə səfər etmiş ingilis taciri Təbrizi hələ də paytaxt adlandırmışdı.

Bəzi mənbələrə görə, Səfəvilər dövlətinin yaranması ərəfəsində Təbriz əhalisinin sayı 300 min nəfərdən artıq olmuşdur. Əhalinin əksər hissəsi tacirlər, sənət və sənaye adamları zümrəsinə mənsub idi. Səfəvilər dövrünün başlanğıcında Təbrizdə ipəktoxuma, həllaclıq (yunçırpma), pambıq parça istehsalı, boyaqçılıq yüksək dərəcədə inkişaf etmişdi. İstehsal olunan məhsulun xeyli hissəsi uğurla beynəlxalq bazara çıxarılırdı. Xüsusilə buradan xaricə – Şam (Suriya) və Osmanlı dövləti bazarlarına, Avropa şəhərlərinə qumaş və ipək parçalar idxal edilirdi.

Təbriz həm də Azərbaycanın və bütövlükdə Səfəvilər dövlətinin mədəniyyət mərkəzi idi. Bundan əvvəl Ağqoyunlu hökmdarlarının, daha sonralar I Şah İsmayılın və I Şah Təhmasibin himayəsi altında sarayda Şərqin ən böyük şairləri, rəssam və xəttatları yorulmadan fəaliyyət göstərirdi. *Təbriz miniatür məkəzi* Yaxın və Orta Şərqin mədəni inkişafında aparıcı rol oynayırdı. Bu baxımdan müsəlman Şərqi üçün Təbriz sarayının əhəmiyyətini Avropa üçün Florensiyadakı Mediçilər sarayının əhəmiyyəti ilə müqayisə etmək olar.

Bu da qeyd edilməlidir ki, Təbrizin dəfələrlə Osmanlı hücumlarına məruz qalması və ələ keçirilməsi şəhərin inkişafına mənfi təsir göstərmişdi. 1514-cü ildə Təbrizi tutan I Sultan Səlim burada möhkəmlənə bilməsə də, şəhəri tərk edərkən özü ilə yüzlərlə (bəzi məlumatlara görə, 3 min nəfər) elm və sənət adamını Osmanlı dövlətinə apardı. Vətənindən didərgin düşmüş xeyli şair, rəssam, sənətkar Osmanlı dövlətinin sərhədləri daxilində türk mədəniyyəti intibahına xidmət etməli oldu. Osmanlı işğalına qarşı mübarizədə Səfəvilərin tətbiq etdikləri "viran edilmiş torpaq" taktikası da Təbriz və ətraf kəndlərin vəziyyətinə fəlakətli zərər vururdu. Artıq XVI əsrin ikinci yarısında Təbriz öz ticarət-sənətkarlıq əhəmiyyətini xeyli dərəcədə itirmişdi. Qərb səyyahları xatirələrində Təbrizi Səfəvilər dövlətinin ən böyük şəhəri kimi təsvir etsələr də, Osmanlı basqınları nəticəsində tənəzzülə uğradığını təəssüf hissi ilə qeyd edirdilər.

1565-ci ildə I Şah Təhmasibin ölkədə tamğa vergisini ləğv etməsi, 1571-73-cü illər üsyanından sonra Təbriz şəhərinin vergilərdən azad olunması (məafi fərmanı) şəhərin iqtisadi vəziyyətini yaxşılaşdıra bilmədi, çünki bütünlükdə Səfəvilər dövləti ağır siyasi-iqtisadi böhran içində idi. Paytaxtın Qəzvinə köçürülməsi, Osmanlı basqınları, artmaqda olan gömrük rüsumları, eləcə də Osmanlılar tərəfindən Suriya və Aralıq dənizi sahilindəki liman şəhərlərinin işğal edilməsi nəticəsində Təbrizin payına düşən ticarət dövriyyəsinin azalması şəhərin sürətlə zəifləməsinə şərait yaradırdı. Əhali Təbrizi tərk edib daha təhlükəsiz ətraf məntəqələrdə məskunlaşırdı. 1585-ci ildə Osmanlı qoşunlarının yeni hücumu ərəfəsində şəhər əhalisinin sayı 100 min nəfərə enmişdi. Bundan sonrakı 18 illik Osmanlı işğalı (1585-1603) Təbrizə ən böyük zərbəni vurdu. XVII əsrdə Təbrizin yetirməsi olan minlərlə şair və ədib, alim və sənətkar

dövlətin digər iri şəhərlərində (xüsusən İsfahanda) yaşayıb-yaradır və Səfəvilər dövlətinin elmi-mədəni həyatına mühüm töhfələr verirdi. Hətta İsfahanda mühacir təbrizlilərdən ötrü Abbasabad adlı ayrıca məhəllə də salınmışdı.

Təbrizin qədim məscidləri, iri karvansaraları, yaraşıqlı binaları həmişə Şərqdə dillər əzbəri olmuşdur. Monumental şəhərsalma planına görə Təbriz digər şəhərləri üstələyirdi. Hətta tənəzzül dövründə də Qərb səyyahları Təbrizin möhtəşəmliyi qarşısında heyrətlərini gizlətmirdilər. XVII əsrin ikinci yarısında Səfəvilər dövlətinə səfər etmiş fransız səyyahı Şarden şəhərin ciddi dağıntılara məruz qaldığını qeyd etməklə yanaşı yazırdı ki, Təbriz meydanı onun gördüyü bütün dünya şəhərlərinin meydanlarından daha böyükdür. Osmanlı işğalı zamanı bu meydanda 30 min nəfərlik qoşuna baxış keçirilirdi. Səyyah Təbriz meydanında təşkil edilən ümumxalq gəzintisini və əyləncə tədbirlərini də müfəssəl şəkildə təsvir etmişdir. Şardenin yazdığına görə, o zamanlar Təbrizdə 15 min ev, bir o qədər dükan, 300 karvansara, çeşidli mallarla dolu çoxlu bazar var idi. Fransalı səyyah Təbriz əhalisinin sayı barədə əlində dəqiq məlumatın olmadığını, amma şəxsi qənaətinə görə, əhalinin 550 min nəfərdən az olmadığını qeyd edir. Əgər bu məlumat doğrudursa, deməli, şəhər Osmanlı işğalından aldığı zərbələrdən sonra artıq özünə gəlməyə və çiçəklənməyə başlamışdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.224-228; Azərbaycan tarixi (7 cilddə), III, 246-253; N.Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.114-115; Jan Şardən. Parisdən İsfahana səyahətnamə (fransız dilindən tərcümə edən: V.Aslanov), s.51-59; Ə.Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.416; Dilber Usul. Orta Çağ'da Tebriz (Uluslararası Uygur Araştırmaları Dergisi, Sayı: 2021/18), s.82-106.*

TƏHVİLDAR – Səfəvilər dövlətinin bürokratik aparatında maliyyə işçisi. Vəzifənin mahiyyəti və səlahiyyət dairəsi barədə tədqiqatçıların fikirləri fərqlidir. Bəzi tədqiqatçılara görə, təhvildar geniş anlam daşıyır, bütün *mühtəsib* və *münşilər* təhvildar sayılırdı. Təhvildar ümumi xəzinə müfəttişi funksiyasını icra edir, şah üçün alınan malların dəyərini təxmini olaraq müəyyənləşdirirdi. Lakin xüsusi olaraq mustovfiyi-ərbabi-təhavil adlandırılan məmur şaha ən yaxın təbəqədən *(müqərrəb əl-həzrət)* sayılırdı və dövlətdə ən yüksək rütbəli təhvildar idi. Mustovfiyi-ərbabi-təhavil büyutat (maliyyə idarələri) *mustovfilərinə* həvalə olunmuş sikkə zərb edilməsi, əmtəə və xammal işlərinə, eləcə də şah sarayının müxtəlif büyutatları arasında bölüşdürülmüş mülkiyyətə nəzarət edirdi.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.250-251; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.130-131; Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.261-262.*

TƏVAÇI – Səfəvi ordusunda qoşun bölmələrindən biri. Təvaçılar əsasən müharibə qabağı öhdələrində olan əya-

lətlərə gedir və orada hərbi qüvvə toplayırdılar. Onlar döyüşçüləri səfərbər edir, ordunun yerini bildirir, bununla da qoşun dəstələri arasında əlaqəçi rolunu oynayırdılar. Tədqiqatçıların fikrincə, "təvaçı" qədim türk sözü olub, "qıvraqlıq", "cəldlik" mənalarını verən "tavraqçı" sözündən əmələ gəlmişdir; bu ad təvaçıların fəaliyyət növünə uyğun olaraq seçilmişdir.

Döyüşçülərin sayı və ordunun müharibə qüdrəti təvaçı dəftəri adlanan xüsusi kitablarda qeyd edilirdi. Şahlarla yanaşı şahzadələrin də təvaçıları vardı, eləcə paytaxtdan ezam olunan təvaçılarla bərabər ayrı-ayrı əyalətlərdə daimi təvaçılar də fəaliyyət göstərirdi. Onların ayrıca divanı (idarəsi) vardı. Təvaçılara *təvaçıbaşı* rəhbərlik edirdi.

Mənbələr: *Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüttəvarix" əsəri üzrə), səh. 47-48; N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.323.*

TƏVAÇIBAŞI – Səfəvi ordusunda yüksəkrütbəli hərbçi, *təvaçıların* komandiri. I Şah İsmayılın yaxın silahdaşı *Əbdi (Abidin) bəy Şamlu* "təvaçıbaşı" ləqəbi ilə tanınırdı. Şah Məhəmməd Xudabəndənin zamanında isə *Şamlu* tayfasından *Sultan Hüseyn xan* (*Durmuş xanın* nəvəsi), daha sonra Vəli xəlifə Avcı Şamlunun oğlu *İsmayılqulu xan* təvaçıbaşı idilər.

bax: **TƏVAÇI.**

TİYUL – ilk Səfəvilər dövründə meydana gəlmiş şərti torpaq mülkiyyətinin yeni forması. XVI-XVII əsrlərdə geniş yayılmışdı. Tiyul ondan əvvəl mövcud olmuş iqta və *soyurqal* təsisatlarını əvəz etmişdir. Xidmətləri müqabilində bir şəxsə mükafat olaraq verilən torpaq tiyul adlanırdı.

Tiyul sahibi (tiyuldar) tiyulun tamhüquqlu sahibi deyildi, həmin torpaqdan toplanılan vergi məbləği (bütövlükdə yaxud qismən) ona irsən deyil, müvəqqəti olaraq və yaxud ömürlük peşkəş edilirdi. Tiyuldarın ölümündən sonra övladlarının həmin torpaq üzərində heç bir hüququ qalmırdı. Şah istədiyi vaxt tiyulu geri ala bilərdi, tiyuldar vəzifəsindən çıxarılanda tiyul da əlindən alınırdı. Tiyuldar torpaqda möhkəmlənmək, torpaq mülkiyyətçisinə çevrilmək imkanından məhrum idi, torpağı sata və bağışlaya bilməzdi. O, əldə etdiyi gəlirin bir hissəsini əmtəə və ya pul şəklində saraya vergi verir, digər hissəsini isə ixtiyarında saxlayaraq, özünə və yerli idarə orqanlarına xərcləyirdi.

Tiyul yalnız dövlət fonduna aid olan divan torpaqlarından deyil, bəzən şahın şəxsi torpaqlarından da (xassə, səltənət) bağışlanırdı.

Güclü və nüfuzlu əmirlər bəzən başqalarının tiyullarını mənimsəyirdilər. I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində onun *vəkili Div sultan Rumlu* Gürcüstan yürüşündə olan *Köpək sultan Ustaclunun* Naxçıvan və Çuxursəddəki tiyul torpaqlarını tutaraq, öz tayfasının əmirlərinin arasında bölüşdürmüşdü. Ən çox tiyul sahibi olan tayfaların başında *Şamlu* tayfası gəlirdi. *Ustaclu* tayfasının bəzi tiyuldar əmirləri də təbil, bayraq və

qoşun sahibi idilər.
Adətən yeni şah taxta çıxandan sonra dövlət vəzifələrinə yeni təyinatlar təsdiq ediləndə tiyullar da əmirlər arasında bölüşdürülürdü.
Tiyuldar öz mülkünü düşmən basqınından qorumaq vəzifəsini daşıyırdı. Öz hakimiyyətini möhkəmlətmək üçün o, bəzən tabeliyində olan kiçik əmirlərə tiyul torpaqlarından bəxşişlər ayırırdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.205-208; Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.325-327; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.293; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.353-354; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.54-55. N.Süleymanov. Azərbaycan Səfəvi dövləti: təsərrüfatı, ticarət əlaqələri, maliyyə sistemi, s.153-154; Azərbaycan tarixi (7 cilddə), III, 204.*

TOP – ağır artilleriya silahı, ağır mərmiləri uzaq məsafələrə atmaq üçün istifadə olunan odlu silah. İlk dəfə Çində hazırlandığı yazılır. Təqribən XIII əsrdən başlayaraq müsəlman dövlətlərinin ordusunda toplardan istifadə edilmişdir. Xüsusilə Osmanlı ordusunun mühüm bölmələrindən birini artilleriya təşkil edirdi.
Səfəvi ordusunda da artilleriya bölümü mövcud olmuşdur, bu bölüm ümumilikdə *topxana* (və ya topxaneyi-mübarək) adlanırdı. Artilleriya bölümünün bütün xərcləri şahın xüsusi mülkiyyətindən (xassə) ödənilirdi. Topların hazırlanması, döyüşdə istifadəsi və qulluğu ilə *topçular* məşğul olurdu, onların da ümumi başçısı *topçubaşı* idi.
Səfəvi ordusunda topçu bölümlərinin meydana gəlməsi və orduda artilleriyanın yeri barədə məlumatlar ziddiyyətlidir. Bəzi tədqiqatçılar Səfəvi ordusunda topçu bölümünün I Şah Abbas zamanında Qərb mütəxəssislərinin yardımı və iştirakı ilə yarandığını yazsalar da, bu məlumat yanlışdır. Çünki bundan əvvəlki dövrə aid mənbələrdə Səfəvi ordusundakı toplardan və topçu vəzifəsindən danışılır. Həmin məlumatlara əsaslanaraq deyə bilərik ki, Səfəvi ordusunda topçu bölümləri hələ I Şah İsmayılın zamanından mövcud olmuşdur. Lakin burada toplar heç zaman Osmanlı ordusundakı kimi aparıcı rola malik olmamışdır. Onlardan əsasən iri şəhərlərin mühasirəsi zamanı qala divarlarını dağıtmaq məqsədilə istifadə edilirdi. Səhra döyüşlərində isə qızılbaşlar düşmənin canlı qüvvəsini məhv etmək üçün topların köməyindən çox da yararlanmırdılar. Səbəblərdən birini bu şəkildə izah edirlər ki, qızılbaşlar döyüşdə qol gücünə və hərbi məharətə üstünlük verirdilər, qılınc, nizə, ox kimi silahlarla döyüşmək onlar üçün mərdlik əlaməti idi. Əksinə, uzaq məsafədən düşməni top mərmiləri ilə məhv etməyi mərdlikdən uzaq sayırdılar. İkinci səbəb isə Səfəvi ordusunun xarakterinə və döyüş taktikasına topların uyğun gəlməməsi ilə bağlıdır. Səfəvi ordusu çevik yerdəyişmə və hücum əməliyyatları edən mobil qoşun idi, onların döyüş taktikasının əsa-

sını da bu təşkil edirdi. On və daha artıq at tərəfindən çətinliklə aparılan ağır toplar ordunun çevikliyinə mane olur, onun mobil hərəkətini ləngidirdi. Bununla belə, I Şah Abbasın zamanında orduda 500 ədəd mis topun olduğu tarixi mənbələrdə qeyd edilib.

Səfəvi ordusundakı toplar bir neçə növə bölünürdü. Bu topların böyük qismi Təbrizdəki emalatxanalarda tökülürdü, topxananın əsas kontingenti də əsasən təbrizlilərdən ibarət idi. Topların bir hissəsi Osmanlılarla, bir qismi də avropalılarla (Fars körfəzindəki Portuqaliya qarnizonu) döyüşlər zamanı ələ keçirilmişdi. Topları ərradə adlı arabalarda daşıyırdılar, ərradəyə 10, bəzən 20 at qoşulurdu. Avropa mənşəli kiçik toplar "firəngi zərbzən" adlanırdı (bunlara "qaladöyən top" da deyirdilər). Ordudakı "balyeməz" adlandırılan uzaq mənzilli topların adı Avropa mənşəlidir. Bu sözün həmin topların yaradıcısı olan italyan ustası Balyamezzinin adından, yaxud avstriyalıların təbirincə desək, "balimoz"dan götürüldüyü ehtimal olunur. Top növlərindən birinin də adı "şirhacı" idi. Bu top növlərinin adlarına Səfəvilər tarixinə aid klassik mənbələrdə, o cümlədən "Tarixi-aləmarayi-Abbasi"də rast gəlirik. 1585-ci ildə Təbrizdə möhkəmlənmiş Osmanlı döyüşçüləri şəhəri mühasirəyə almış Səfəvi ordusunun qala qarşısında quraşdırdığı "kəlləguş" adlı iri topu ələ keçirmişdilər. *Oruc bəy Bayatın* yazdığına görə, Təbrizin mühasirəsi zamanı istifadə edilən topların lüləsinin uzunluğu 5 yard (təqribən 4.5 m), diametri 1 yard (90 sm) idi. Uzaq məsafəli toplar böyük ölçüyə malik və çox ağır idi, dəmirdən və ya tuncdan tökülürdü. Top mərmiləri adətən dəmirdən və ya daşdan hazırlanırdı, çəkiləri 25 mənə çatırdı. (Mən ölçü vahidi olub, müxtəlif növləri vardı və 3-12 kq arasında dəyişirdi. Təbriz məni təqribən 3 kq-a bərabərdir). Orduda "qumbara" adlanan içiboş dəmir mərmilərdən də istifadə edilirdi, buna görə bəzi mənbələrdə "qumbaraçılar" adlı döyüşçü dəstələrinin adı çəkilir. Onların da topxanaya və topçubaşıya tabe olduqları ehtimal edilir.

Mənbələr: *Şafak Tunç. Tophane-i Amire ve Osmanlı Devletinde Top Döküm Faaliyetleri; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.393-394; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.151-154; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev), s.541; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.223; Laurence Lockhart. Safevi Döneminde İran Ordusu ("Cihannüma" Tarih ve Coğrafya Araştırmaları Dergisi, Sayı II/2, Aralık 2016), s.177-188.*

TOPÇU – Səfəvi ordusunun özəyini təşkil edən 4 əsas qoşun növündən biri (*qorçular*, qullar *(qulamlar)* və *tüfəngçilərlə* yanaşı). Adından da göründüyü kimi, ordunun artilleriya bölümünü təşkil edirdilər. Səfəvi mənbələrinə görə, topçular digər qoşun növlərindən daha az məvacib alırdılar, bu da orduda artilleriyaya çox önəm verilməməsi ilə izah oluna bilər. Topçular da tüfəngçilər və qullar kimi şah qoşunundan sayılır-

dılar, yəni *qorçulardan* fərqli olaraq, onların məvacibi xassə mülkiyyətindən (şaha məxsus olan kapitaldan) ödənirdi. Topçular yüzbaşı və minbaşıların rəhbərliyi altında fəaliyyət göstərirdilər, hamısının başçısı isə *topçubaşı* idi.

Qərb səyyahları Səfəvi ordusunda 12 min nəfər topçunun xidmət etdiyini, amma 1638-ci ildə Bağdad şəhəri (və onunla birlikdə İraq torpaqları) Osmanlılar tərəfindən ələ keçirildikdən sonra onların sayının xeyli azaldıldığını yazırlar. Daha sonralar – 1655-ci ildə topçubaşı Hüseynqulu xan vəfat etdikdən sonra II Şah Abbas bu vəzifəyə heç kimi təyin etmədi, topxanaya nəzarət *cəbbədarbaşıya* və digər əyanlara verildi. Bu zaman, böyük ehtimalla, ordunun artilleriya bölümü tamamilə ləğv edilmişdi. Lakin Səfəvilər dövlətinin sonlarına yaxın – Şah Sultan Hüseynin zamanında aparılmış hərbi əməliyyatların təsvirində yenidən toplar və topçular haqqında məlumatlara rast gəlirik; bu da orduda artilleriya bölümünün bərpa edildiyini düşünməyə əsas verir.

bax: **TOP**, **TOPÇUBAŞI.**

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.393-394; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.140 və 148; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.153.*

TOPÇUBAŞI – Səfəvi ordusunda yüksək vəzifələrdən biri, *topçuların* komandanı, topxaneyi-mübarəkin (şah topxanasının) rəisi. Ordunun artilleriya qanadına rəhbərlik edirdi və *cəngi* əmirlərindən sayılırdı. (Dövlət əmirlərinin müşavirə məclisi olan cənginin daimi üzvü idi). Ordudakı topların hazırlanması, döyüşə hazır vəziyyətə gətirilməsi, sursatların tədarük edilməsi, ümumiyyətlə, topxana ilə bağlı bütün işlər onun nəzarəti altında idi. Topçubaşı öz tabeliyində olan yüzbaşı, minbaşı və *carçıbaşıların* vəzifəyə təyini və ya vəzifədən azad olunması, hərbi personalın məvacib və mükafatlarının qeydə alınması barədə lazım olan təqdimat və raportları yazıb baş vəzirə göndərirdi. Bu sənədlərin etibarlı sayılması üçün topçubaşının imzası və möhürü tələb olunurdu. Topçubaşının raportları topçu bölümünün *mustovfisi* və *vəziri* tərəfindən şahın hüzurunda oxunurdu.

Topçubaşı orduda *qorçubaşı*, *tüfəngçiağası* və *qullarağasıdan* sonra ən yüksək hərbi vəzifə idi. Dəniz döyüşləri zamanı komandanlıq topçubaşıya verilirdi. Lakin Səfəvi ordusunun sabit hərbi dəniz donanması yox idi, yalnız Xəzər dənizindəki bir neçə ticarət gəmisində kiçik toplar quraşdırılmışdı. Ona görə də dəniz döyüşləri nadir hallarda baş verir və topçubaşının köməyindən də az istifadə edilirdi.

"Tarixi-aləmarayi-Abbasi"də toptökmə işinin ustası Ustad Şeyxi bəyin və topçubaşı vəzifəsini daşımış Bərxudar bəy, Süleyman bəy, Dərviş bəy, Murad bəy, Mürşid bəy və İsmayılqulu xanın adları çəkilir. (Topçubaşıların böyük bir qismi adətən təbrizli olurdu).

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.393-394; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.140 və 148; Laurence Lockhart. Safevi Döneminde İran Ordusu ("Cihannüma" Tarih ve Coğrafya Araştırmaları Dergisi, Sayı II/2, Aralık 2016), s.177-188.*

TOPXANA (topxaneyi-mübarək) – Səfəvi ordusunda artilleriya avadanlıqlarının (top, mərmi) hazırlandığı mərkəz. Topxananın Təbrizdə yerləşdiyini yazırlar. Burada məharətli ustalar müxtəlif təyinatlı və ölçülü toplar hazırlayırdılar. Topxana da "cəm" adlanan dövlət qurumlarından biri idi. Topxana ilə bağlı bütün məsələlər *topçubaşının* nəzarətinə verilmişdi.

bax: **TOP**, **TOPÇUBAŞI.**

TUŞMALBAŞI – Səfəvi sarayındakı vəzifələrdən biri. Şahın və digər əyanların təamlarını dadan, zəhərli olub-olmadığını, eləcə də dadını yoxlayan xidmətçilərə tuşmal deyilirdi. Onların başçısı tuşmalbaşı şahın süfrəsinə aparılan təamlara nəzarət edirdi. Şah müqəddəs sayıldığından onun süfrəsindən artıq qalan yeməkləri tuşmalbaşı bəzən təbərrük kimi satırdı. I Şah Abbasın zamanında *II Zeynal xan Bəgdilü-Şamlu* (vəf. 1630) sarayda tuşmalbaşı vəzifəsini icra etmişdir.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.259; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.319-320; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.133.*

TÜFƏNG – Səfəvi ordusunda istifadə edilən odlu silah növü. Səfəvilər tarixinin ilk dövrlərindən etibarən tüfəng istifadədə olmuşdur. Hələ I Şah İsmayıl zamanında Səfəvi qoşununun hərbi təchizatında az da olsa tüfəng var idi. 1500-cü ildə Bakının mühasirəsi, 1501-ci ildə *Şərur savaşı*, 1502-ci ildə Təbrizin Ağqoyunlu Əlvənd Mirzədən müdafiəsi, 1505-ci ildə Yəzdin alınması, 1506-cı ildə *Sarom xan Kürdə* qarşı və 1508-ci ildə *Zülqədəroğulları bəyliyinə* qarşı yürüşlərdə, 1512-ci ildə *Nəcmi-saninin* Xorasana hücumu zamanı tüfəngdən istifadə edilmişdir.

Səfəvilər dövlətinin ilk dövrlərində orduda tüfəng də daxil olmaqla odlu silahların geniş yayılmamasının səbəblərindən biri onlardan istifadənin çətinliyi olmuşdur. Xarakter etibarilə mobil qoşun növü olan qızılbaş ordusunun döyüşlərdə əsas uğuru cəld yerdəyişmə qabiliyyəti və qəfil hücum bacarığı idi. Süvari hissələrin üstünlük təşkil etdiyi orduda odlu silahdan istifadə döyüşçülərin mobil manevr imkanlarını məhdudlaşdırırdı. Ümumiyyətlə, Səfəvi ordusu uzunmüddətli, üzücü hərbi manevrlərə çox hazır deyildi və mühasirə tipli əməliyyatlarda o qədər də uğur qazanmırdı. Odlu silahdan məhdud istifadənin ikinci səbəbi bu idi ki, qızılbaşlar qol gücünə, təkbətək qarşılaşmaya əhəmiyyət verir, uzaqdan atəş açmaqla düşməni məhv etməyi namərdlik sayırdılar.

Bununla belə, tarixi mənbələr göstərir ki, qızılbaş ordusunda tüfəngdən kifayət qədər uğurlu şəkildə istifadə edilmişdir. Xüsusilə XVII əsrdə I Şah Abbasın başladığı hərbi islahatlar gedişində ordunu Qərb standartlarına bacardıqca çox uyğunlaşdırmağa cəhd edilmiş, Avropa ölkələrindən dəvət edilən hərbi mütəxəssislərin nəzarəti altında orduya odlu silahdan istifadə üzrə təlimlər keçilmişdir.

Səfəvi ordusunda əsasən 6 qarış (120-140 sm) uzunluğunda çaxmaqlı fitil mexanizminə malik tüfənglər istifadədə idi. Güllə mərmilərinin ağırlığı 90 qrama çatırdı. Tüfəngi qatlanıb-açılan dirsəkşəkilli dayağın üzərinə qoyaraq nişan alıb atəş açırdılar. Mahir tüfəngçilər həm ayaq üstə, həm yerə uzanmış halda, həm də at üzərindən sərrast atəş açmağı bacarırdılar. Bundan əlavə, I Şah Abbas zamanında müəyyən miqdarda qısalüləli tüfəngin də ordu təminatına alınmasına qərar verilmişdi.

Orduda tüfəngçilər adlı xüsusi bölük vardı və onlara *tüfəngçibaşı* rəhbərlik edirdi.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.178-181; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.271-272; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.334-336; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.16; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.148-149.*

TÜFƏNGÇİ – Səfəvi ordusunda xidmət edən hərbi qulluqçu. Hələ XVI əsrin əvvəllərindən etibarən Səfəvi ordusunda tüfəngdən istifadə olunsa da, tüfəngçi bölümünün əsl formalaşma prosesi I Şah Abbasın zamanında aparılmış hərbi islahatdan sonraya təsadüf etmişdir. Tüfəngçilər əsasən əhalinin fiziki cəhətdən güclü fərdləri arasından seçilir, burada fars millətindən olanlar üstünlük təşkil edirdi. Yerli feodallara (hakimlərə) bağlı olan *çərikdən* fərqli olaraq, tüfəngçi bölümü daimi və nizami qoşun növü idi. Nizami ordu *qorçu*, *topçu* və *tüfəngçi* bölükləri üzərində qurulmuşdu. Digər qoşun növlərində olduğu kimi, tüfəngçilər də yüzbaşı və minbaşıların rəhbərliyi altında xidmət edirdilər. Onların baş komandanı olan *tüfəngçiağası* da *qorçubaşı* və *qullarağası* ilə birlikdə dövlətin üç güc strukturunun başçısı sayılırdı. I Şah Səfinin hakimiyyəti dövründə tüfəngçilərin ümumi sayı 12 minə çatırdı.

Tüfəngçilər əvvəlcə piyada qoşun növü kimi yaradılmış, sonralar süvari qoşun tərkibinə keçirilmişdi. Onlar tüfəngdən əlavə qılınc və xəncərlə də silahlanırdılar. Tüfəngçi birliyinin bayrağı yaşıl haşiyəli ağ parçadan ibarət idi.

XVII əsr Qərb səyyahı Alessandri Səfəvi döyüşçülərinin tüfəngdən istifadə bacarığını tərifləyərək yazırdı: "Onları elə asanlıqla idarə edirlər ki, bu, nə yay tutmağa, nə də əgər şərait tələb edərsə, yəhərlərinə bərkitdikləri qılıncdan yapışmağa mane olur. Odlu silahı arxada gizlədirlər, belə ki, bir silah o birindən istifadə edilməsinə mane olmur".

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.178-181; C.Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi*

vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.21-22; Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.198-199; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.148-149; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.271-272.

TÜFƏNGÇİAĞASI – Səfəvi ordusunda üç əsas güc strukturundan biri olan *tüfəngçi* bölüyünün baş komandanı. *Qorçubaşı* və *qullarağası* ilə birlikdə orduda ən yüksək rütbəli məmur sayılırdı (*sipəhsalardan* sonra), ali dövlət şurasının *(cəngi)* daimi üzvü idi.

Tüfəngçiağası tabeliyində olan bütün hərbi qulluqçuların (sıravi tüfəngçilər, yüzbaşı və minbaşılar, carçı və qasidlər) maaş və mükafatlarının ödənişinə nəzarət edir, baş vəzirin hazırladığı ödəmə cədvəlinə öz möhürünü vurur, tüfəngçilərin mülki mübahisələrinə baxırdı. Tüfəngçi birliyinə aid olan bütün vəzifə təyinatlarını o, təsdiq etməli idi. Tüfəngçiğası hərbi yürüşlər zamanı düşərgənin, xüsusilə şaha və hərəmxanaya məxsus çadırların mühafizəsinə rəhbərlik edirdi. Tüfəngçi *vəziri* və tüfəngçi *müstovfisi* (münşiləri ilə birlikdə) ona tabe idi.

Tüfəngçiağası ilə birlikdə Səfəvi ordusunda daha iki yüksəkrütbəli hərbi vəzifə mövcud idi. Bunlardan biri – qolçiyicilov tüfəngçilərinin minbaşısı səfərlər və hərbi yürüşlər zamanı tüfəngçiağasına yardım edirdi. İkincisi İsfahan tüfəngçilərinin minbaşısı idi və şah səfərdə ikən paytaxtda xidmət edir, ayıq-sayıq şəkildə sarayda növbə çəkirdi.

Bu üç sərkərdənin hər biri başında tac gəzdirirdi. Tüfəngçiağası vəzifəyə təyin olunduğu zaman şah tərəfindən ona xələtlə birlikdə qızıl işləməli tüfəng də hədiyyə edilirdi. Tüfəngçiağası ali məclisdə *(cəngi)* şahın yanında əyləşirdi.

Mənbələr: *Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati, s.105-108; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.198-200; C.Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, 1391 h.-ş., 14-cü sayı), s.21-22; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.105.*

TÜFƏNGÇİBAŞI – bəzi Səfəvi mənbələrində xatırlanan hərbi vəzifə. Tüfəngçiağası məfhumu ilə eyni məna daşıdığı və sinonim kimi işlədildiyi mümkündür. Lakin bu sözün bəzən cəm halında işlədilməsi onu düşünməyə əsas verir ki, tüfənçibaşı adı altında sıravi tüfəngçilərdən daha yüksək səviyyədə olan hərbi qulluqçular (zabitlər): yüzbaşılar və ya minbaşılar nəzərdə tutulurdu. *bax:* **TÜFƏNGÇİ**, **TÜFƏNGÇİAĞASI.**

VALİ – *bax:* **VİLAYƏT.**

VƏKİL – Səfəvi hakimiyyətini ilk dövrlərində ən yüksək dövlət vəzifələrindən biri, şahdan sonra dövlətdə birinci şəxs sayılırdı. Adından da göründüyü kimi, vəkil şahın tam səlahiyyətli nümayəndəsi idi, sarayda qeyd-şərtsiz olaraq hamı onun tabeliyi altında qərar tutmuş-

du. Vəkil şahın həm dünyəvi, həm də dini məsələlərdə birinci dərəcəli yardımçısı və müşaviri idi. Sonralar dini sferadakı səlahiyyətləri vəkildən alınıb *xəlifət əl-xüləfaya* verildi, bundan sonra *mürşidi-kamilin* (şahın) dini məsələlər üzrə köməkçisi xəlifət əl-xüləfa oldu.

I Şah İsmayıl 1501-ci ildə hakimiyyətə keçib özünü şah elan etdikdən sonra *lələsi Hüseyn bəy Şamlu* "vəkili-nəfsi-nəfisi-humayun" (müqəddəs nəfəs sahibi şahın vəkili) və "naib əs-səltənət" ləqəbləri alaraq vəkil təyin edildi. 6 ildən sonra o, vəzifəsindən azad edildi və *Nəcməddin Məsud Gilani* vəkil mənsəbinə təyinat aldı (vəf. 1509/10). Daha sonra *Nəcmi-sani* (Yar Əhməd Xuzani, özündən əvvəlki vəkildən fərqlənmək üçün "İkinci nəcm" ləqəbini almışdı), onun döyüşdə ölümündən (1512-ci il) sonra köməkçisi, nemətullahi şeyxi *Nizaməddin Əbdülbaqi Yəzdi* vəkil təyin edildi. 1514-cü ildə *Çaldıran savaşında* həlak olmuş Yəzdinin yerini *Hüseyn İsfahani* tutdu. Bu vəzifədə sələflərinə nisbətən daha çox qalmış İsfahani işinin öhdəsindən uğurla gəldiyinə görə getdikcə nüfuzu artırdı. O, saraydakı bütün iri maliyyə əməliyyatlarına nəzarət edir, xəzinədən xərclənən vəsaitin dəqiq sənədini tələb edirdi. Vəkil İsfahani bəzi əyanların korrupsiyaya qurşanmasının üstünü açmışdı. Buna görə 1523-cü ildə saray intriqası nəticəsində vəkil Hüseyn İsfahani *miraxurbaşı* Şahqulu bəy Türkman tərəfindən öldürüldü. Deyirlər ki, vəkilin ölümü I Şah İsmayıla ağır təsir etmişdi, o, qatili cəzalandırmaqla kifayətlənməmiş, ömrünün sonunadək ona lənət oxumuşdu. Hüseyn İsfahani I Şah İsmayılın yanında tam etibar sahibi idi, belə ki, şah özündən sonra oğlu Təhmasib Mirzə hakimiyyətə keçdiyi zaman İsfahaninin onu himayə etməsini istəyirdi. I Şah İsmayıl zamanında vəkillərin qeyri-türk millətindən seçilməsi qızılbaş əmirlər tərəfindən qısqanclıqla qarşılanırdı. Hətta şah öldürülmüş vəkilin oğlunu onun yerinə təyin etmək istəyəndə o, əmirlərin düşmənçiliyindən qorxaraq şahı bu fikirdən daşındırmaq üçün yalvarmışdı.

İsfahaninin yerinə keçən vəkil *Xacə Cəlaləddin Məhəmməd Təbrizi* də ömrünü faciəli şəkildə başa vurdu; I Şah İsmayılın vəfatından sonra I Şah Təhmasibin yaşının azlığından istifadə etməklə, faktiki olaraq, hakimiyyəti öz əlinə keçirmiş qızılbaş əmiri *Div sultan Rumlu* vəkili öldürdü. Bundan sonra nüfuzlu qızılbaş əmirləri Div sultan Rumlu, *Çuxa sultan Təkəlü, Ulamə sultan Təkəlü* və *Hüseyn xan Şamlu* vəkil vəzifəsinə yiyələnmək üçün qanlı mübarizəyə başladılar. Bu mübarizənin sonunda vəzifəyə Hüseyn xan Şamlu (I Şah Təhmasibin dayısı oğlu) keçdi, daha sonra Səfəvilər sülaləsindən olan *Məsum bəy* vəkil məqamına yüksəldi. XVI əsrin ortalarından etibarən vəkillik vəzifəsi aktuallığını itirdi, onun səlahiyyətləri tədricən *baş vəzirə* verildi. Yalnız Səfəvilər dövlətinin sonunda, II Şah Təhmasibin zamanında vəkil mənsəbinin bərpa cəhdi ilə bağlı məlumatlara rast gəlinir.

Əyalətlərdə də vəkillər fəaliyyət göstərirdilər, onlar hakimin canişini sayılırdılar.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.172-176; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.245-247; N.Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.303-307; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.30; Emin Kırkıl. Şah İsmail Dönemi İktidar Mücadelelerinde İki Dinsel Kurum, Alevilik Araştırmaları Dergisi, Yaz 2012, Sayı 3, ss. 177-184.*

VƏQF – ərəb dilindən tərcüməsi "təcrid olub saxlanmaq", "həbs edilmək", "durmaq"dır. Terminoloji mənada müsəlman cəmiyyətində xeyriyyə məqsədilə bir qrup insan üçün ayrılmış və yalnız həmin insanların xeyrinə istifadə edilən əmlaka vəqf deyilir. Vəqf olaraq kitab, məişət əşyaları, torpaq sahəsi və s. verilə bilər. İslam tarixi boyunca həm ayrı-ayrı şəxslərin özünə və nəslinə, həm məscid və mədrəsə icmalarına, həm də bir şəhərin və ya bölgənin əhalisinə vəqflər edilmişdir. Vəqf ya həmişəlik, ya da müddətli olur. Adətən hər hansı daşınar və ya daşınmaz əmlakı vəqf edərkən vəqfnamə adlı sənəd də tərtib olunub təsdiqdən keçirilir.

Vəqfin tarixi çox qədimdir. Hələ Həzrət Mühəmməd Peyğəmbərin (s) zamanında bəzi səhabələr öz torpaqlarının gəlirini (məhsulunu) ya bəlli ailələrə və nəsillərə, ya da müsəlman icmasının ehtiyaclarına vəqf edirdilər. Həzrət Əlinin (ə) Mədinə ətrafında öz əlləri ilə qazdığı, müsəlman ümmətinə vəqf etdiyi, günümüzə qədər fəaliyyət göstərməkdə olan bulaqlar və quyular məşhurdur.

Orta əsrlər müsəlman Şərqində vəqf ənənəsi çox güclü inkişaf etmişdi. Abbasi xəlifələri vəqflərə nəzarət edən xüsusi dövlət qurumu *(divan)* yaratmışdılar. Vəqf mədəniyyətinin ən parlaq tərəqqisi Səfəvilər zamanına təsadüf etmişdir.

Səfəvilər zamanında vəqfin iki növü vardı: sünnəti və vacibi. Sünnəti vəqflərdə gəlirin konkret olaraq hara xərclənməsi göstərilmədiyi üçün onların nəzarətçisi şah özü idi, vəqfin gəlirləri onun göstərişi ilə xərclənirdi. Bu zaman şah hamı tərəfindən qəbul olunmuş şəriət normalarını rəhbər tuturdu. Vacibi (yəni sərf edilmə yeri konkret məlum olan) vəqfləri isə mütəvəllilər (idarəçilər) idarə edirdi. Vəqf idarəsinə hökumətdə şahdan sonra ilk yerdə duran *sədr* nəzarət edirdi, mütəvəllilər də sədr tərəfindən təyin olunurdu.

Səfəvilər zamanında Məşhəddəki İmam Rza (ə), Qumdakı Fatimeyi-Məsumə, Reydəki Şah Əbdüləzim hərəmlərinin, Ərdəbildəki Şeyx Səfiəddin təkkəsinin, Təbrizdəki Qazan xan türbəsinin, Həsən padşah (Uzun Həsən) məscidinin vəqfləri və "Cahanşahiyyə" vəqfi məşhur idi. Onların mülkü digər vəqflərin mülkündən qat-qat artıq idi. Fransız səyyahı Şarden İmam Rza (ə) hərəminin vəqf əmlakının ümumi dəyərinin 800.000 dinar (Fransa pulu ilə 36 milyon livr) olduğunu heyrətlə yazırdı.

Ərdəbildəki Şeyx Səfiəddin təkkəsinin Ərdəbil, Marağa, Talış, Muğan bölgələrində, hətta İsfahan və Həmədanda iri vəqf torpaqları vardı. Yüzlərlə dükan, karvansara, hamam, bazar, hətta bütöv kəndlər təkkəyə vəqf edilmişdi. Avropa

səyyahlarından biri bildirirdi ki, Ərdəbil təkkəsinin illik gəliri 40 min qızıl lirədən artıq idi, ümumi varidatın qiyməti isə milyon tümənlərlə ölçülürdü. Zəmanənin hökmdarları (o cümlədən Əmir Teymur) bir neçə kəndi Şeyx Səfiəddin nəslinin kişi davamçılarına vəqf etmişdi. Hətta I Sultan Səlimdən əvvəlki bəzi Osmanlı sultanları hər il Ərdəbil təkkəsinə nəzir və bəxşiş göndərirdilər.

Şeyx Səfiəddin təkkəsi Səfəvilərin ata ocağı, təriqət mərkəzi idi. Ona görə də bu təkkənin vəqf idarəsinə başçılıq etmək böyük fəxr sayılırdı.

Yerlərdəki ziyarətgah, türbə və məscidlərə də iri torpaq sahələri vəqf edilirdi. Məsələn, I Şah Təhmasibin 1555-ci ildə imzaladığı fərmanla Bakı yaxınlığındakı Bibiheybət ziyarətgahına Zığ kəndi bütün əmlakı ilə birlikdə vəqf edilmişdi. Vəqf torpaqları vergidən tam azad idi, onların inzibati toxunulmazlıq hüququ vardı. Buna görə bəzi torpaq sahibləri öz mülklərini müsadirədən qorumaq üçün vəqf edir, mütəvəlli statusu qazanaraq vergidən azad olurdular.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.203-204; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.167-168, 184-190; Ali Sinan Bilgili. Devletlik Pir: Şeyh Safiyyüddin-i Erdebili Vakfı, "Türk Kültürü ve Hacı Bektaş Veli" dergisi, 2009, №49, s.47-94.*

VƏZİR – Səfəvilər dövlətində yüksək saray vəzifəsi. Vəzirlər adətən *divanlara* (dövlət qurumlarına) rəhbərlik edirdi. Hər divanın ayrıca vəziri var idi; o, həmin divanın bütün işçi heyətinə başçılıq edirdi. Vəzirlər də *baş vəzirə* (vəziri-əzəm) tabe idilər. Bəzən klassik mənbələrdə baş vəzir vəzifəsi də qısa şəkildə vəzir kimi qeyd edilir.

Səfəvilər dövlətində vəzir vəzifəsi adətən qeyri-türk millətlərin mənsublarına verilirdi. Xüsusilə farslar divan işində uğur qazanmışdılar. *İsgəndər bəy Münşi* vəzirlər zümrəsini "tacikiyyə" və "qələm sahibləri" adlandırır.

Şah sarayından əlavə, əyalətlərdəki hakimlərin *(bəylərbəyilərin)* də sarayında eyni sistem qurulmuşdu, onların da saray xidmətçiləri vəzirin ümumi rəhbərliyi altında fəaliyyət göstərirdilər.

bax: **BAŞ VƏZİR.**

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.166; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.248-251.*

VƏZİRİ-ƏZƏM: *bax:* **BAŞ VƏZİR, VƏZİR, VƏKİL.**

VİLAYƏT – Səfəvilər dövlətində iri inzibati bölgü vahidlərindən biri. *Bəylərbəyliklərin* ərazisi vilayətlərə aid deyildi. Mənbələrdə əsasən 4 vilayətdən bəhs edilir: Ərəbistan (Xuzistan), Luristan, Gürcüstan və Kürdüstan (bəzi mənbələrdə bu 4 vilayətdən sonra Bəxtiyar eli də qeyd edilir). Bəzi məlumatlara görə, əvvəllər vilayətlərin sayı daha çox olmuş, sonralar onların bir qismi bəylərbəyiliyə çevrilmişdi. Səfəvilər dövlətində olmuş bəzi Qərb səyyahları qeyd etmişlər ki, bir neçə bəylərbəylik daha nüfuzlu və qədim olduğu üçün onların

hakiminə *vali* deyilirdi. Ərəbistan valisi şəxsi şücaətinə və elinin nüfuzuna görə şan-şöhrətli, həm də yüksək rütbə sahibi idi. Luristan valisi, Baqrat(ioni) nəslindən olan Gürcüstan valisindən fərqli olaraq, müsəlman idi, buna görə dövlət qarşısında xidmətlərinə görə ondan daha etibarlı hesab edilirdi və ikinci yerdə dururdu. Nüfuzuna görə üçüncü yeri tutan Gürcüstan valisindən sonra dördüncü yerdə Kürdüstan valisi dayanırdı. Bəzən valilər mərkəzi hökumətə qarşı itaətsizlik göstərəndə yaxınlıqdakı bəylərbəyiyə tapşırılırdı ki, qoşun çəkib onu cəzalandırsın və asayişi bərpa etsin. Məsələn, Qarabağ və Gəncə bəylərbəyi çox zaman Gürcüstan vilayətinə də nəzarət edirdi.

Vilayəti idarə edənlər vali adlanırdı. Valilik vəzifəsi irsən ötürülürdü. Valilər dövlətə vergi ödəmirdi, yalnız şaha hədiyyələr göndərir və müharibə zamanı hərbi yardım edirdilər.

Mənbələr: *Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.204-205; Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.299-301.*

YASAVUL – Səfəvilər dövründə yüksək rütbəli saray xidmətçisi. Bu ad qədim türk mənşəli "yasa" (qayda-qanun) sözündən qaynaqlanır. Yasavullar şahın yavərləri sayılırdı. Onlar yüksəkrütbəli əmirlərin oğullarının arasından seçilir, sarayda təlim-tərbiyə alırdılar. Yasavullar iki dəstəyə bölünürdü. Birinci dəstə *"söhbət yasavulları"*, ikinci dəstə *"məclis yasavulları"* adlanırdı.

Yasavullar uşaq yaşlarında hərəmxanada xidmət edirdilər. Bu müddət ərzində onların əxlaqı, sədaqəti yoxlanılırdı. Onlara hərb sənətinin sirləri, oyunlar (o cümədən *çövkən*) öyrədilirdi. I Şah Təhmasib hakimiyyətinin əvvəllərində yasavullara rəsm öyrətməyi də tapşırmışdı.

Bütün yasavullar *eşikağasıbaşıya* tabe idi, onların məvacibini və xidmət yerini də eşikağasıbaşı müəyyən edirdi.

Səfərlərdə yasavullar şahın atının qabağında qaçaraq ona yol açır və təhlükəsizliyini təmin edirdilər.

Bəzi mənbələrdə yasavulların sayı 700, hətta 2000 nəfər göstərilir. Onlar məhkəmələrdə səssizliyi təmin edir, edam hökmünün icrasının təşkilinə yardım göstərir, gecələr sarayı qoruyur, dövlət adamlarının mülklərini mühafizə edirdilər. Onların "qor yasavulları" adlandırılması bunu söyləməyə əsas verir ki, yasavulların sayını və vəzifələrini təsvir edən bu mənbələr əslində onlarla *qorçuları* qarışıq salmışlar.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259-260; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.108; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.193, 230-232; Z.Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.101-102.*

ZƏRBXANA – pul sikkələrinin hazırlandığı (basıldığı, zərb edildiyi) emalatxana. Dövlətin ən böyük və ən varlı *cəmlərindən* (maliyyə qurumu) biri idi. Zərbxananın müdiri olan *zərrabibaşı* şaha yaxın olan təbəqədən *(müqərrəb*

əl-həzrət) sayılırdı və *müəyyir əl-məmalikə* tabe idi. Zərbxana çox zaman icarə müqaviləsi əsasında fəaliyyət göstərirdi, hər ay icarəçiyə pul ödənilirdi. (İcarəçi bəzən zərrabibaşının özü, bəzən də başqa adam olurdu). İcarəçi pul zərb etmək hüququnu (lisenziya) əldə etmək üçün şaha vergi ödəyirdi. Bu vergiyə "vacibi" deyirdilər. Vacibinin miqdarı zərb olunan pulun dövriyyəsindən asılı idi. Qızılın hər misqalı üçün 30 dinar, gümüşün hər misqalı üçün 2 dinar vacibi ödənilirdi, sonralar bu məbləğ artaraq 50 və 5 dinar oldu. Zərbxana özünümaliyyələşdirmə mexanizmi əsasında işləyirdi, görülən işə görə bütün işçilərə maaş verilir, vergilər və s. çıxıldıqdan sonra qalan məbləğ icarəçiyə çatırdı. *Sərrafbaşı* və *zərgərbaşı* da zərbxananın məsul işçilərindən sayılırdı.

Mənbələr: *O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.259; Z.Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.219 və 256, 257; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-mü luk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.110 və 133.*

ZƏRGƏRBAŞI – Səfəvilər dövlətində yüksək vəzifələrdən biri. İcazə istəmədən istədiyi zaman saraya girə bilirdi. Dövlət ərazisindəki zərgərlik məmulatları ilə bağlı bütün məsələlər onun nəzarəti altında idi. Vaxtaşırı İsfahan zərgərlərinin işini təftiş edir, zərgərlik məmulatlarının qiymətini nizamlayırdı. Zərgərbaşı şahın iştirak etdiyi məclis və ziyafətlərdə onun adından ləl-cavahirat paylayırdı.

Zərgərbaşı dövlətin ən sərvətli məmurlarından sayılırdı. Saraya satılan hər zərgərlik məmulatının qiymətinin 2%-i, saraydan kənarda satılanların qiymətinin 1%-i ona çatırdı. O, həmçinin ölkəyə daxil olan və ölkədən çıxarılan bütün ləl-cavahiratın qiymətinin 2%-i məbləğində haqq alırdı.

Mənbələr: *Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.256-257; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları), s.110-111.*

Yeddinci bölüm

Səfəvilər dövlətində din, ədəbiyyat və incəsənət



SƏFƏVİLƏR DÖVLƏTİNİN DİN SİYASƏTİ və SƏFƏVİLƏR DÖVLƏTİNDƏ DİNİ TOLERANTLIQ – Səfəvilər dövləti möhkəm dini təməllər üzərində qurulmuş, *şiə cəfəri* məzhəbini özünə rəsmi dini ideologiya seçmiş unikal dövlət nümunəsi idi. Səfəvilər dövlətinin başçısı olan şahlar özlərində həm dünyəvi hakimiyyəti, həm də *səfəviyyə tərigətinin mürşidi-kamili* (ən üstün, kamil rəhbəri) olaraq ali ruhani hakimiyyəti birləşdirirdilər. Səfəvilər dövlətində din amili həlledici yüksək mövqeyə malik idi, bütün məsələlərdə dini amil mütləq mənada nəzərə alınırdı. Dövlətin din siyasətinin əsasını İslamın ənənəvi əqidə məktəblərindən və fiqh (şəriət) məzhəblərindən olan şiəliyin cəfərilik qolu (*on iki imam* şiəliyi) təşkil edirdi. Səfəvilər hökm etdikləri ərazidə ilahi ədalətə yaxın olan, şəriət qanunları əsasında idarə edilən hakimiyyət qurmaq iddiasında idilər, Səfəvi şahları on ikinci imamın naibi (canişini) sayılan müctəhidlərin icazəsi ilə hökm sürdüklərini elan edir və bu müctəhidlər vasitəsilə öz hakimiyyətlərinə dini legitimlik qazandırırdılar.

Bəzi tədqiqatçılar *Səfəvilər sülaləsinin* XV əsrin ortalarınadək əhli-sünnə əqidəsində olduğunu, ilk dəfə *Şeyx Cüneydin*, daha sonra oğlu *Şeyx Heydərin* şiəliyi qəbul etdiklərini yazırlar. Bunun əksinə olaraq, bəzi tədqiqatçılar Səfəvi sülaləsini yeddinci *imam Musa Kazimin (ə)* nəslinin nümayəndələri olaraq ənənəvi şiə sayır, *Şeyx Səfiəddin Ərdəbili* də daxil olmaqla, səfəviyyə şeyxlərinin şiə məzhəbinə inandıqlarını, amma təhlükəsizlik səbəbləri üzündən bunu bəzən gizlətməyə məcbur olduqlarını (təqiyyə) iddia edirlər. Hər iki mövqeyin tərəfdarları klassik tarixi mənbələri, o cümlədən *"Səfvət əs-səfa"* kitabının fərqli nüsxələrindəki ifadələri sübut gətirirlər. Hər bir halda XV əsrin birinci yarısından etibarən səfəviyyə şeyxləri bölgənin siyasi həyatında fəal iştirak etmişlər. Həmin əsrin ortalarında Şeyx Cüneyd şiə məzhəbini açıq şəkildə təbliğ etməyə başlamış, Yaxın Şərqin şiə-ələvi icmaları ilə sıx əlaqələr qurmuşdur. Şeyx Heydərin öz ardıcıllarına 12 imamı simvolizə edən 12 zolaqlı qırmızı papaq *(qızlbaş papağı)* geyindirməsi nəticəsində səfəvilik qəti şəkildə şiə siması almışdır.

I Şah İsmayıl Səfəvi dövlətini qurmaq uğrunda apardığı mübarizəni qeyb aləmində imamlardan aldığı göstərişlərlə əlaqələndirirdi. Təsadüfi deyil ki, klassik mənbələrdə Səfəvilər tarixinin ən həssas dönəmlərində müəyyən addımları atmazdan qabaq I Şah İsmayılın *İmam Əlinin (ə)* ruhundan və ya *İmam Mehdidən (ə)* yardım istəməsi və bu müqəddəs şəxslərin ona yol göstərmələri qeyd edilir. Şah deyirdi: "Mən vilayət şahının nökəriyəm, onun icazəsi olmadan su da içmərəm, bu müddət ərzində hər nə etdimsə, onun izni ilə etdim". "Mən Allahın və məsum imamların tərəfindən rüsxət almışam ki, cahanı zülm və tüğyan əhlinin vücudundan təmizləyim". Unutmaq olmaz ki, Şeyx Heydər də 12 zolaqlı qızılbaş papağının hazırlanma qaydasının yuxuda ona İmam Əli (ə) tərəfindən öyrədildiyini iddia etmişdi.

Səfəvilərin dövlət quruculuğu prosesində

əsaslandıqları əsas qüvvələr *ələvi-bektaşi* inancında olan türkman qəbilələri idi. Həm indiki Şimali və Cənubi Azərbaycan torpaqlarında və İran ərazisində məskunlaşmış, həm də Anadoludan köçüb gəlmiş tayfaların hərbi-siyasi dəstəyi ilə I Şah İsmayıl şiə ideologiyasına əsaslanaraq Şirvanşahları və Ağqoyunluları məğlub etmişdir. Dövrün klassik mənbələrı bu döyüşlərə məzhəbi xarakter verməkdən çəkinmir. Sonralar Səfəvilərin *Şeybani* xanları və *Osmanlı* sultanları ilə apardıqları müharibələr də adətən dini kontekstdə təqdim edilirdi (hər iki tərəfdən). *Məhəmməd xan Şeybaninin* və I Sultan Səlimin I Şah İsmayıla ünvanladıqları məktublarda dini amil qabardılır, qarşıdurmaya dini don geydirməyə çalışılırdı; bu məktublarda Səfəvi şahı əsl İslamdan dönməkdə, dinə bidətlər gətirməkdə, müsəlmanlara qarşı zülm törətməkdə, əhli-sünnə inancını təhqir etməkdə təqsirləndirilir və bunun əvəzində cəzalanacağı ilə təhdid olunurdu. İrəli sürülən ittihamlarda həddən artıq təhrif edilmiş, həqiqətdən uzaq maddələrin olması bu məktubların hərbi müdaxiləyə bəhanə qazandırmaq məqsədilə yazıldığını düşünməyə əsas verir. Şiəliyi təmsil edən səfəvilərlə sünniliyi təmsil edən Osmanlıların bir-birinə münasibətində *Əhli-beyt* amili mühüm rol oynayırdı. Osmanlı müəllifləri qızılbaşları Əhli-beyti ilahiləşdirməkdə, Səfəvi müəllifləri isə Osmanlıları Əhli-beytə düşmənçilik etməkdə günahlandırırdılar. Tərəflərin bir-birinə müraciətində *"rafizi"* (dindən çıxmış) və "nasibi" (Əhli-beytə kin bəsləyən) kəlmələri tez-tez işlədilirdi. Qonşu dövlətlərin geosiyasi maraqlarının toqquşmasından yaranan müharibələrin din pərdəsi altında rafizilərə və nasibilərə qarşı müqəddəs cihad kimi təqdim edilməsi o dövr üçün tamamilə normal hal sayılırdı.

XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin yetirməsi olan bəzi şiə alimləri inancları üzündən qətlə yetirilmişlər. Xorasanın özbəklər tərəfindən işğalı zamanı Herat şəhərinin camesinin xadimləri Molla Şəmsəddin Nəhci və Molla Həbibullah, Herat qazısı və həm də şair olmuş Seyid Hüseyn Həzin, şair Mövlana Hilali Cığatayi, Məşhəddə yaşayan görkəmli alim Mövlana Abdullah Şüştəri, Böyük Moğollar dövlətində işgəncə ilə öldürülmüş məşhur alim *Qazı Nurullah Şüştəri* və b. bu qəbildəndir.

Səfəvilər dövründə məzhəblərarası mübahisələr geniş yayılmışdı, Səfəvilər dövlətində yaşayan şiə müctəhidlərlə Osmanlı imperiyasında yaşayan sünni müftilər qarşı tərəfin əqidəsinə etiraz bildirən kitablar (rəddiyyələr) yazırdılar. Bu istiqamətdə Qazı Nurullah Şüştərinin qələmə aldığı risalələr diqqətəlayiqdir. (Əhli-sünnə alimi Ruzbehan Xunciyə cavab olaraq yazdığı "İhqaq əl-həqq", İbn Həcər Heysəmiyə rəddiyyə olaraq yazdığı "Əs-Səvarim əl-mühriqə" əsərləri və s.).

Səfəvilərin hakimiyyətə gəlişindən əvvəl bölgədə həm ənənəvi, həm də heterodoks şiə inancını daşıyan irili-xırdalı dövlətlər mövcud idi (Büveyhilər, Həmdanilər, Cüstanilər, Üqeylilər, İsmaililər, Mərəşilər, Elxanilər (Ölcaytu dövrü), Sərbedaranlar, Qaraqoyunlular, Müşəşəilər, Salarilər və s). Lakin bunların hamısın-

dan daha geniş ərazidə və daha uzun müddətə şiə inancını bərqərar etmək yalnız Səfəvilərə nəsib olmuşdur. Uzun əsrlər ərzində bu torpaqlarda hökm sürmüş Səlcuq, Xarəzmşah, Teymuri, Ağqoyunlu dövlətlərinin dini ideologiyası bölgəyə əhli-sünnə siması qazandırmışdı. Səfəvilər dövlətinin hərbi-siyasi gücünün özəyini təşkil edən *qızılbaşların* dini inancı da sxolastik şiəlikdən fərqli olaraq "xalq şiəliyi" adlandırıla biləcək ələvi-bektaşilik formasında təzahür etmişdi. Belə bir şəraitdə I Şah İsmayıl və daha sonra I Şah Təhmasib *Cəbəli-Amil* (indiki Livan) ərazisində yaşayan şiə üləmasını ölkəyə dəvət etdilər. Bir neçə onillik ərzində köçüb gəlmiş onlarla yüksək dərəcəli şiə müctəhid ölkə ərazisində ənənəvi şiə (cəfəri) məzhəbinin yayılması prosesini başlatdı. Onlardan dərs alan yerli alimlər dini kadr sahəsindəki boşluğu qısa müddətdə doldurmağa nail oldular. Beləliklə, Səfəvilər dövlətinin dini ideologiyası qızılbaş (ələvi-bektaşi) inancının, səfəviyyə sufi təriqətinin və ənənəvi cəfəri məzhəbinin təməlləri üzərində quruldu. Səfəvilər dövlətinin tənəzzülünədək bu təməllər öz təsirlərini bərabər şəkildə qoruyub saxlamış və müvazinət halında mövcud olmuşdur.

I Şah İsmayıl 1501-ci ildə Təbriz şəhərinin Cümə məscidində öz şahlığını elan edərkən 12 imamın adına xütbə oxutmuş, bununla da dövlətin rəsmi dini ideologiya xəttini açıq şəkildə göstərmişdir. Bəzi rəvayətlərə görə, bundan sonra "təbərra" adlı dini ayinin icrasına başlanmışdır. Təbərra – imtina etmək, özünün hansısa əqidədən və ya şəxsdən uzaq olduğunu, onunla razılaşmadığını elan etməkdir. Təbərra ayini Həzrət Məhəmməd Peyğəmbərdən (s) sonrakı üç xəlifənin (Əbubəkr, Ömər və Osman) hakimiyyətini qəbul etməmək, onların xilafəti Həzrət Əlidən (ə) zor gücünə aldıqlarına inanmaqdan ibarət idi. Hətta bəzi şəxslər könüllü surətdə "təbərrayi" adlı qruplar təşkil edir, bölgələri gəzib xalq arasında uca səslə Əhli-beytin düşmənlərinə lənət oxuyurdular. Kütləvi ibadətlər, *Aşura* və bayram mərasimləri zamanı mütləq təbərra ayini icra olunurdu. Bəzi tədqiqatçılara görə, bu ayin Osmanlı dövlətində qızılbaşların sıxışdırılmasına, xüsusilə I Sultan Səlimin əmri ilə on minlərlə qızılbaş türkmanın qətlə yetirilməsinə və ya sürgün edilməsinə, Osmanlı müftiləri tərəfindən qızılbaşları rafizi (dindən çıxmış) və kafir adlandıran fətvaların imzalanmasına cavab olaraq meydana gəlmişdi. Lakin I Şah İsmayıl dövründə əhli-sünnənin müqəddəs saydığı tarixi şəxslərə və sünni inancına qarşı hər hansı ciddi təhqir və ya təqib həyata keçirildiyini təkzib edən sübutlar da vardır. Məsələn, bəzi məlumatlara görə, *Əllamə Kərəki* hicri 917-ci ildə (miladi 1511/12-ci illər) birinci və ikinci xəlifələrə lənət oxumağın icazəli olması barədə "Əsrar əl-lahut fi lən əl-cibt və-l-tağut" adlı risalə yazmış və onu I Şah İsmayıla təqdim etmiş, lakin şah risalədə yazılanların tətbiqini qəbul etməmişdi.

Bəzi araşdırmalarda Səfəvilər dövlətində şiəliyin yalnız zor gücünə yayılması, əhli-sünnə müsəlmanların kütləvi qırğın və təzyiqlərə məruz qoyulması barədə

iddialar səsləndirilir. Səfəvi və Osmanlı mənbələrində rast gəlinən bəzi informasiyalar bu iddianın əsası kimi göstərilir. Lakin unutmaq olmaz ki, orta əsr mənbələrinin o dövrün tarixi şəraitindən və düşüncə tərzindən qaynaqlanan özünəməxsus dili və üslubu vardır. Səfəvi müəllifləri şahları daha güclü və əzmkar göstərmək üçün onların apardıqları müharibələri çox dramatik üslubda təsvir edir, bölgələrdə üsyanların yatırılması vaxtı atılmış addımları qanlı boyalarla əks etdirirdilər. O zamanın düşüncəsinə uyğun olaraq, şahın öz əleyhdarlarını amansız şəkildə cəzalandırması onun gücünün göstəricisi sayılırdı. Şiə məzhəbinin yayılması istiqamətində qətiyyət və hətta amansızlıq göstərmək də məzhəbə xidmət kimi dəyərləndirilirdi. Osmanlı mənbələri isə Səfəvilər dövlətinə qarşı aparılan hərbi əməliyyatlara, anti-qızılbaş təbliğatına, Anadoluda qızılbaş qırğınlarına haqq qazandırmaq üçün Səfəvilər dövlətində sünnilərin dözülməz şəraitdə yaşadıqlarını və qəddarlıqla məhv edildiklərini yazırdı.

Həm Səfəvilər dövründə, həm də sonralar bölgədəki iri əhli-sünnə icmalarının mövcudluğu da sünnilərin zorla öz məzhəbini dəyişməyə məcbur edilmələri iddiasını təkzib edir. Səfəvilər dövlətinin iri inzibati vahidlərindən biri olan Ərəbistan vilayətində (Xuzistan bölgəsi) əsasən əhli-sünnə əhali məskunlaşmışdı, ölkə ərazisində xeyli sünni kürdlər yaşayırdı. *Şirvanşahlar dövlətinin* və Şəki hakimliyinin ilhaqına baxmayaraq, əhalinin dini inancına hörmətlə yanaşılırdı. Azərbaycanın mərkəzi və şimal bölgələrində əhli-sünnə əhali üstünlük təşkil edirdi, sünni əyanlar Səfəvilər dövlətində yüksək vəzifələr tuturdular. XVII əsrin sonları-XVIII əsrin əvvəllərində baş vəzir və ordu komandanı da daxil olmaqla, yüksək dövlət vəzifələri çərkəz, dağıstanlı və gürcü əmirlərin əlində cəmləşmişdi (Zəngənələr, Dağıstanilər nəsli). Səfəvi şahları əhli-sünnə əqidəsində olan əmirlərlə qohumluq əlaqələri qurur, qızlarını sünni hakimlərə ərə verir, həmçinin sünni hakimlərin qızları ilə evlənirdilər.

Səfəvilər dövlətinin din siyasəti bəzi mühüm atributlar formasında təzahür edirdi. Bunların ən mühümləri azanın mətnində "Əşhədu ənnə Əliyyən vəliyyullah" (Şahidlik edirəm ki, Əli Allahın dostudur) cümləsinin deyilişi, xütbələrdə 12 imamın adının mütləq çəkilməsi, sikkələrin üzərində yuxarıdakı azan cümləsinin və 12 imamın adlarının həkk olunması, Aşura mərasiminin və Qədir-Xüm bayramının böyük təntənə ilə keçirilməsi, dövlət və döyüş bayraqlarının üzərində "ya Əli mədəd", "Əliyyən vəliyyullah" kimi şüarların yazılması və *Zülfüqar* qılıncının şəklinin çəkilməsi idi. Şahların rəsmi məktublara vurduqları möhürlərdə imamlara məhəbbəti və şiə məzhəbinə bağlılığı göstərən qısa şeir parçaları həkk edilirdi. Səfəvi şahları özlərini "Əhli-beytin nökəri" adlandırmaqdan fəxr duyurdular; I Şah Abbas hətta rəsmi dövlət sənədlərində belə özünü "Kəlbi-asitani-Əli" (Əlinin astanasının iti; Qurandakı Əshabi-kəhf əhvalatına işarədir) ləqəbi ilə təqdim edirdi. Demək olar ki, istisnasız olaraq Səfəvi

şahlarının hamısı müqəddəs ziyarətgahlara hörmət göstərir, nümayişkaranə şəkildə ziyarət səfərlərinə yollanır (bəzən hətta piyada və ayaqyalın halda), hərəmlərin binalarında təmir işləri aparır, müqəddəs hərəmlərə bol *vəqf* əmlakı ayırır və qiymətli hədiyyələr verirdilər. Xüsusilə İraqdakı şiə imamlarının məzarları üzərindəki türbələrin təmirində Səfəvi şahları ilə Osmanlı sultanları arasında gizli rəqabət mövcud idi.

Şiə məzhəbi daxilində yaranmış bəzi xurafatçı və *ğulat* (ifrat şiə) düşüncə və ayinlərin meydana gəlməsini bəzən Səfəvilər dövrü ilə bağlayırlar. Bunların mühüm hissəsini Aşura mərasiminin icrası zamanı yol verilən bir sıra hallar, əhli-sünnənin müqəddəs şəxsləri ilə əlaqəli mərasimlər, imamların adı ilə bağlı meydana çıxmış bir sıra mövhumatçı inanclar, tarixi həqiqətə uyğun gəlməyən ziyarət məkanları və s. təşkil edir.

Səfəvilər dövlətində din xadimləri yüksək səlahiyyətlərə malik idi. Məhkəmələr yerlərdə *qazılar* tərəfindən şəriət hökmləri əsasında aparılırdı. Dövlətin din siyasətinin həyata keçirilməsinə *sədr* başçılıq edirdi. Sədr dini idarəyə rəhbərlik edir, şiə ideologiyasının yayılması və gücləndirilməsi üçün məsuliyyət daşıyırdı, ruhaniləri müdafiə etmək, onların hüquqlarını qorumaq, vəqf qurumlarının fəaliyyətinə nəzarəti həyata keçirmək də onun səlahiyyət dairəsinə aid idi. Ölkənin bütün iri şəhərlərində *şeyxülislamlar* fəaliyyət göstərirdi, paytaxtdakı şeyxülislam onların işlərinə nəzarət edirdi. Şeyxülislam mühüm mübahisəli məsələlərdə fətva verir, şaha, şahzadələrə və bölgə hakimlərinə moizə ilə nəsihət edib onları ədalətə çağırır, sahibsiz əmlakın sərf edilmə yollarını nizamlayır, yetim malı və s. əmlakı əmanət olaraq saxlayırdı. Səfəvilər dövlətinin sonlarına yaxın ali ruhani mənsəb olan *mollabaşı* vəzifəsi təsis edildi, bəzi məsələlərdə onunla şeyxülislamın səlahiyyət dairələri kəsişirdi.

Paytaxtdakı şeyxülislamın çox böyük səlahiyyəti var idi, İmam Mehdinin (ə) naibi (nümayəndəsi) sayılırdı, hətta Səfəvi şahı onun təsdiqi ilə hakimiyyəti qəbul edirdi. Şahın cülus (taxta çıxma) mərasimində şeyxülislam onun belinə hakimiyyət qılıncını bağlayır, xütbə oxuyur və şaha xeyir-dua verirdi. Şiə məzhəbinin görkəmli alimləri *Mühəqqiq Kərəki, Şeyx Bəhai, Mühəqqiq Səbzəvari, Ağa Hüseyn Xansari, Əllamə Məclisi* və b. müxtəlif dövrlərdə şeyxülislam vəzifəsini icra etmişlər. I Şah İsmayıl hər il Mühəqqiq Kərəkiyə 70 min dinar məbləğində vəsait ayırırdı ki, şiə məzhəbinin təbliği və ölkədə dini nizamı qorumaq üçün lazım bildiyi istiqamətlərdə xərcləsin. I Şah Təhmasib isə alimə İraqi-Ərəb mülkündən 700 min tümən dəyərində *soyurqal* bəxş etmişdi. Mühəqqiq Kərəkinin səlahiyyətləri mövzusunda I Şah Təhmasib tərəfindən imzalanmış fərmanda deyilirdi ki, alimin vəzifəyə təyin etdiyi heç bir şəxs bu mənsəbdən kənarlaşdırıla bilməz, onun vəzifədən uzaqlaşdırdığı heç kim işə bərpa olunmaz. Mühəqqiq Kərəkiyə şah da daxil olmaqla hamı "Müctəhid əz-zamani" fəxri ləqəbi ilə müraciət edirdi.

Qeyd etmək lazımdır ki, dünyəvi şəxsin

başçılıq etdiyi dövlətlə həmkarlıq etməyin dini baxımdan icazəli olub-olmaması barədə hər zaman olduğu kimi, o dövrdə də fikir ayrılığı mövcud idi. Mühəqqiq Kərəki və onun məktəbinin yetirməsi olan ruhanilər bu məsələdə mötədil mövqe tutaraq dövlətlə əməkdaşlığa hazır olduqlarını bildirmiş, dövlətdən məvacib alaraq dini vəzifələrdə təmsil olunmuşlar. Onlara əks mövqedə duran bəzi alimlər isə (onların əksəriyyəti ölkə xaricində məskunlaşmışdı) dövlətlə hər cür əməkdaşlığı yolverilməz sayır, bunu hakimiyyətə satılmaq və öz müstəqilliyini itirmək kimi dəyərləndirirdilər. Səfəvilər dövlətinin əvvəllərində bu mövzuda Mühəqqiq Kərəki ilə qarşı tərəfin nümayəndələri (Şeyx İbrahim Qətifi və b.) arasında ciddi qarşıdurma olmuş, şahın dəstəyi ilə Mühəqqiq Kərəki bu mübahisələrdə uğur qazanaraq mövqeyini möhkəmləndimişdi.

Şah həm də səfəviyyə təriqətinin mürşidi-kamili və bütün qızılbaşların təriqət rəhbəri sayılırdı. O, sıravi qızılbaşlarla yerlərdəki *"xəlifə"* adlı nümayəndələrin başçısı olan *xəlifət əl-xüləfa* vasitəsilə rabitə saxlayırdı. Dövlətdə güclü şah kultu mövcud idi, qızılbaşlar şaha son dərəcə sədaqət nümayiş etdirirdilər, həm qızılbaş əmirləri, həm də ordudakı döyüşçülər onun yolunda tam səmimiyyətlə ölümə getməyə hazır idilər. Qərb səyyahları xatirələrində şaha olan sevgini heyrətlə təsvir edirdilər. Onların yazılarından məlum olur ki, şah İmam Əlinin (ə) nəslindən olduğu üçün təbəələri onun cəhənnəmdə yanmayacağına inanırdılar; belə bir düşüncə hakim idi ki, əgər şah dini məsələlərdə xətaya yol versə belə, (nə dünyada, nə də axirətdə) sorğu-suala çəkilə bilməz. Qızılbaşlar I Şah İsmayıla sevgilərini göstərmək üçün zirehlərini soyunub "şeyx, şeyx" nərəsi ilə döyüşə girirdilər. Bəzi Qərb səyyahları bu sevginin mahiyyətini anlamaqda çətinlik çəkdikləri üçün onu yanlış şəkildə izah edirdilər; qızılbaşların I Şah İsmayılı guya İmam Mehdi (ə) saymaları və ona sitayiş etmələri barədə məlumatlar da buradan qaynaqlanır. Əslində nə I Şah İsmayıl, nə də sonrakı Səfəvi şahları özlərini İmam Mehdi (ə) adlandırmamış, əksinə, dövləti onun naibləri olan müctəhidlərin icazəsi ilə idarə etdiklərini, bəzi mühüm addımları isə İmam Mehdinin (ə) əmri ilə atdıqlarını söyləmişlər. Səfəvi müəllifləri Səfəvilər dövlətinin İmam Mehdinin (ə) zühur etdikdən sonra quracağı ədalətli dövlətə müqəddimə olduğunu düşünürdülər; bəzi mənbələrdə I Şah İsmayılın qurduğu hökumətin İmam Mehdi (ə) hökuməti ilə davam edəcəyi barədə istək və dualar gözə çarpır.

Səfəvilər dövründə dini elmlər yüksək dərəcədə inkişaf etmiş, ölkə ərazisində minlərlə mədrəsə fəaliyyət göstərmişdir. Bu dövrdə *əxbarilik* cərəyanı xeyli güclənmiş və *üsuli* əqidəsini kölgədə buraxmışdı. Bəzi tədqiqatçılar əxbariliyi şiə məzhəbinin durğunluq mərhələsi saysalar da, Səfəvilər zamanında fiqh, hədis, təfsir, kəlam, əqaid, fəlsəfə sahələrində dəyərli araşdırmalar aparılmış, fundamental əsərlər qələmə alınmışdır. Mühəqqiq Kərəki, *Mir Damad,* Şeyx Bəhai, *Feyz Kaşani, Hürr Amili, Molla*

Xəili Qəzvini, *Molla Abdullah Şüştəri,* Ağa Hüseyn Xansari, *Ağa Camal Xansari,* Mühəqqiq Səbzəvari, *Molla Sədra, Mirzə Şirvani, Molla Saleh Mazandarani,* Əllamə Məclisi, *Nemətullah Cəzairi* kimi görkəmli din alimləri Səfəvilər dövlətinin hüdudları daxilində yaşayıb-yaratmış, *"Bihar əl-ənvar", "Vəsail əş-şiə",* "əl-Vafi" adlı hədis məcmuələri, "Safi", "Nur əs-səqəleyn", "Minhəc əs-sadiqin" kimi təfsir kitabları qələmə alınmışdır.

Din amili Səfəvilər dövrünün ədəbiyyat və incəsənətində də mühüm yerə malik olmuş, ədəbiyyat, memarlıq, xalçaçılıq, nəqqaşlıq, xəttatlıq və musiqinin inkişafına yardım etmişdir. Səfəvi ustalarının yaratdıqları sənət əsərlərində dini motivlər üstünlük təşkil edirdi. Dini mövzuda qələmə alınmış şeir və nəsr nümunələri, İslam müqəddəslərinin həyatından səhnələri təsvir edən miniatür və xalılar, ayə və hədislərdən ibarət nəfis xəttatlıq əsərləri, dini mərasimlər üçün bəstələnmiş musiqilər Şərq mədəniyyətinin şah əsərləri sayılır. Sırf dini zəmində yaradılmış sənət növləri arasında məhərrəmlikdə icra edilən *röyzə* və şəbih mərasimləri mühüm yerə malik idi.

Səfəvilər dövlətində xristian və yəhudi icmaları şəriətə uyğun olaraq "əhli-kitab" (yəni səmavi müqəddəs kitabı olan dinin ardıcılları) sayılırdı. Cizyə ödəmək və dövlətin daxili qanunlarına tabe olmaq şərti ilə onlara həyat və fəaliyyət azadlığı verilmişdi. Səfəvilər dövlətinin tabeliyi altında olan bölgələrdən biri də Gürcüstan idi; gürcü feaodallarının mərkəzi hakimiyyətə qarşı qaldırdıqları üsyanları yatırmaq üçün bölgəyə tez-tez hərbi səfərlər təşkil edilirdi. Səfəvi şahları burada ədaləti qorumağa və xalqı narazı salacaq tədbirlər görməməyə çalışırdılar. I Şah Abbasın apardığı islahatlar nəticəsində gürcü, çərkəz və digər Qafqaz xalqlarının nümayəndələrindən ibarət *qulam* korpusu yaradılmışdı. İslamı qəbul etmiş qulamlar hərbi karyera pilləsi üzrə sürətlə irəliləyir və bəzən hətta iri bölgələrin hakimi təyin edilirdilər. Səfəvi ordusunun baş komandanı *(sipəhsalar)* da bəzən qulamlar arasından seçilirdi (Qərəçəqay xan, *Rüstəm xan Saakadze, Allahverdi xan, Şeyxəli xan Zəngənə, Fəthəli xan Dağıstani,* Lütfəli xan Dağıstani və b).

Xristianlar daxili ticarətdə mühüm çəkiyə malik idilər, xüsusilə xam ipək ticarətində fərqlənirdilər. Xristian tacirlərin əlində iri məbləğdə kapital cəmləndiyi üçün ölkədə onlardan ötrü sərfəli ticarət şəraiti yaradılmışdı. Hətta paytaxt İsfahana bitişik, Zayəndərud çayının cənub sahilində qeyri-müsəlmanlardan ötrü Yeni Culfa adlı iri məhəllə (şəhərcik) salınmışdı.

Səfəvilər dövlətində xristianlara münasibət o qədər müsbət idi ki, Avropa dövlətləri buraya bir neçə dəfə iri missioner heyətləri göndərmişdilər. İsfahanda katolik xristianların karmelit və kapusin icmaları onilliklər boyunca fəaliyyət göstərmişdir. Avropanın fərqli ölkələrindən göndərilmiş missioner rahiblər azad şəkildə dini həyatlarını yaşayır və ibadətlərini icra edirdilər. Müsəlmanlar arasında xristianlığı yaymağın qeyri-mümkün dərəcədə çətin olduğunu anla-

yan missonerlər diqqətlərini əsasən yerli xristian əhaliyə və Səfəvilər dövlətində öz xidməti vəzifələrini icra edən xarici diplomatik korpus nümayəndələrinə yönəldirdilər.

Səfəvilər dövlətində qeyri-müsəlmanlara göstərilən tolerant münasibət orta əsrlərdə Avropada həyata keçirilmiş rekonkista siyasətinin və müsəlmanları aşkara çıxarıb onlara işgəncə verməyi qarşısına məqsəd qoymuş inkivizisiya məhkəməsinin davranışları ilə tam ziddiyyət təşkil edirdi. Hətta bəzi Avropa səyyahları Səfəvilər dövlətində ispan dilində danışan yəhudilərlə rastlaşdıqlarını yazmışlar; söhbət zamanı məlum olmuşdu ki, onların ulu babaları vaxtilə İspaniyadan təqibdən qaçaraq Səfəvilər dövlətinə sığınmışlar. Əsasən Səfəvilər dövlətinin cənub bölgələrində məskunlaşan yəhudi tacirlərin portuqallara, həmin bölgədən köçürüldükdən sonra isə özbəklərə silah satmalarına baxmayaraq, I Şah Abbas Mazandaran bölgəsində, Sari şəhəri yaxınlığında Fərəhabad şəhərciyini inşa etdirmiş, Gürcüstandan köçüb gəlmiş yəhudiləri Şirvan və Qarabağ xristianları ilə yanaşı burada məskunlaşdırmışdı. Lakin sonralar Avropadan gələn diplomatlar Qərb dövlətlərində xristianlarla yəhudilər arasındakı düşmənçiliyi Səfəvilər dövlətində də təbliğ etdilər, bunun nəticəsində xristian dövlətləri ilə yaxşı münasibət saxlamağa çalışan Səfəvi hökmdarlarının yəhudilərə münasibəti mənfiyə doğru dəyişdi. Bəzi məlumatlara görə, böyük din alimi Feyz Kaşani yəhudilərə qarşı Kaşan valisinin insafsız davranışlarına etiraz məqsədilə İsfahana gəlmiş və I Şah Süleymana şikayət etmişdi.

Səfəvilər dövlətində zərdüştilər də, xristian və yəhudilər kimi, dövlətə cizyə ödəyirdilər, amma onlardan fərqli olaraq, zərdüştilər özləri üçün məbəd tikmək və dini təbliğat aparmaq sahəsində daha məhdud ixtiyara sahib idilər. Bəzi dövrlərdə onlar yaşadıqları yerlərdən köçürülmüşlər. (Köçürülmə siyasəti təkcə qeyri-müsəlmanlara deyil, qızılbaş türkman tayfalarına da tətbiq edilirdi). XVII əsr fransız səyyah Tavernye Kirman bölgəsində 10 min nəfər, paytaxt İsfahanda da bir o qədər zərdüştinin yaşadığını qeyd edərək yazırdı ki, zərdüştilər əsasən yun emalı ilə məşğul olur, Hindistanla ticarət əlaqələri saxlayır, ölkənin iqtisadi yüksəlişinə yardım göstərdikləri üçün hakimiyyət tərəfindən təzyiqə məruz qalmırdılar.

Mənbələr: *Mehmet Çelenk. Safevilerin Din Politikası ve İran'ın Şiileşme Seyri (Çanakkale Onsekiz Mart Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2014, sayı: 4), s.7-35; Kamil Mustafa Şeybi. Şiəlik və sufilik, s.393; Aləmarayi-Səfəvi (nəşrə hazırlayan: Y.Şükri), s.111, 291-292; Seyid Möhsün əl-Əmin. Əyan əş-şiə, VIII. 209; Ə.Abdullah. Səfəvilər dövründə din və dövlət ("Yanaşma: birinci xətt" dərgisi, 1386 h.-ş., №1), s.94-118; Mehdi Dehqani. Səfəvilər dövrü alimlərinin sosial mahiyyəti (Sistan və Bəlucistan Universitetinin İslam və İran tarixi araşdırmaları dərgisi, 1401 h.-ş., №1), s.183-206; Q.Mənsurbəxt və S.M.Tahiri Müqəddəm. Səfəvilər dövlətində alimlərin yeri ("Tarixi-İran" dərgisi, 1389 h.-ş., №5/64), s.123-144; M.Hacıbabayi və İ.Aslani. Ruhanilərlə Səfəvilərin qarşılıqlı əlaqələrinin təhlili ("Tarixi-İran" dərgisi, 1388 h.-ş., №5/62), s.28-46; Beh-*

zad Kərimi. Səfəvilər dövründə din və dövlət ("Kitabi-mah: tarix və coğrafiya", 1389 h.-ş., №147), s.67-72; Gülnar İbadova. Qızılbaş dövlətində din-dövlət nizamı ("Azərbaycan – milli kimliyin tarixi məsələləri" kitabından), s.268-300; S.Ə.Münəvvəri. Din-dövlət münasibətləri və İranın Osmanlı dövləti ilə xarici əlaqələrinin yaranma mərhələsi ("Tarix və rəvabiti-xarici" dərgisi, 1396 h.-ş., №73), s.71-103; H.Zəndiyyə, Ə.Cəfəri və S.M.H.Şahturabi. Səfəvilər dövründə şiə dini ayinlərinin keçirilməsinin nəticələri ("İran və İslam tarixi araşdırmaları" dərgisi, 1392 h.-ş., №13), s.37-56; Ə.Cəfəripur və İ.Türki Dəstgərdi. Səfəvilər dövlətinin dini azlıqlarla (yəhudi və zərdüştilərlə) rabitəsi ("Miskəveyh" dərgisi, 1387 h.-ş., №9); Ə.Təhməzi və b. Büveyhi və Səfəvi hakimlərinin dini azlıqlarla qarşılıqlı əlaqələri ("Pejuheşnameyi-tarix" elmi dərgisi, 1399 h.-ş., №61), s.159-178; Cihat Aydoğmuşoğlu. Safevi Hükümdarı Şah Abbas'ın Dinî Siyaseti (Turkish Studies – International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 6/3 Summer 2011), pp.1329-1337; Halil İbrahim Bulut. Safevîlerin Ehl-i Sünnet Karşıtı Politikaları (Türk Kültürü ve Hacı Büktaş Veli Araştırma Dergisi, Yıl: 2015, Sayı: 76), s.15-30; Mehmet Dağlar. Şah Tahmasb'ın Dini Siyaseti (1524-1576) (doktora tezi); C.Novruzi və Ş.Ramazani. Səfəvi şahlarının şiə alimləri ilə rabitələrinin səbəb və nəticələri ("Pejuheşnameyi-tarixi-İslam" elmi araşdırma dərgisi, 1394 h.-ş., №19), s.5-24; Gülay Karadağ Çınar. Safevî Devleti'nde Dini Otoritenin Temsilcisi Şahlar ve Şiî Ulemayla İlişkileri (İran Çalışmaları Dergisi, 2017, Cilt: 1, Sayı: 1), s.11-51; A.Mütəvəlli. Səfəvilər dövründə İran-Osmanlı münasibətlərinə məzhəbin təsiri ("Pejuheşnameyi-tarixi-İslam" elmi araşdırma dərgisi, 1395 h.-ş., №21), s.35-58; A.Mütəvəlli. Səfəvi dövlət quruluşunda istifadə edilən dini təbliğatın metod və simvolları ("Şiəşünaslıq" elmi araşdırma dərgisi, 1391 h.-ş., №40), 171-202; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar (fars dilinə tərc.: A.Qəffarifərd və M.B.Aram), s.254-259; M.K.Rəhməti. İranda din dəyişikliyi: Səfəvilər dövründə din və qüdrət ("Kitabi-mah: din", 1383-84 h.-ş., №89-90), s.88-97; S.Nəcəfinəjad. I Şah İsmayıl Səfəvinin mehdilik iddiası nəzəriyyəsinin tənqidi və təhlili ("Məşriqi-mövud" dərgisi, 1400 h.-ş., №60), s.21-40; Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar (nəşrə hazırlayan: M.Bəhramnəjad), s.117; Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fütuhati-şahi (nəşrə hazırlayan: M.R.Nəsiri), s.175; "Tarixi-elçiyi-Nizamşah" (nəşrə hazırlayanlar: M.R.Nəsiri, K.Hanəda), s.63-64; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (müqəddimə: Əbdülhüseyn Nəvayi), s.165; Sasan Təhmasibi. Səfəvilər dövründə Xorasanda şiə məzhəbinin rəsmiləşməsi ("İranın lokal tarixi" dərgisi, 1393 h.-ş., №2), s.105-113; Şahı Ahmedov. Azerbaycan'da Şiîliğin Yayılma Süreci (Doktora Tezi); M.Əfruğ və Ə.Novruzitələb. Səfəvilər dövrü incəsənətində dini məfhumlar ("Nameyi-pejuheşi-fərhəngi", 1389 h.-ş., №10), s.7-49.

ABDULLAH ƏFƏNDİ (vəf. 1718) – XVII əsrin ikinci yarısı-XVIII əsrin əvvəllərində Səfəvilər dövlətində yaşamış görkəmli azərbaycanlı biblioqraf və din alimi. Mənbələrdə Təbrizi və ya İsfahani nisbəsi ilə xatırlanır. Mirzə Abdullah ibn İsa bəy Təbrizdə doğulmuş, kiçik yaşlarından təhsildə uğur qazanmış, əvvəlcə atasından və böyük qardaşından dərs almışdır. Sonra İsfahan hövzəsində *Əllamə Məclisi, Mühəqqiq Səbzəvari, Ağa Hüseyn Xansari, Fazil Hindi* və *Mirzə Məhəmməd Şirvani* kimi böyük alimlərin dərslərinə qatılmışdır. Ömrünün yarısını səyahətlərdə keçirmiş, Türkiyə, Xo-

rasan, Azərbaycan, İraq, Şam, Hicaz, Misir, Hindistan, İndoneziya və sair diyarlara səfərlər etmişdir. Bir müddət İstanbulda yaşadığı üçün "Əfəndi" ləqəbi ilə məşhurlaşmışdır. Alimin tərcümeyi-halını yazan tədqiqatçılar qeyd etmişlər ki, o, İstanbulda yaşadığı zaman Osmanlı sultanının dərin hörmətini qazanmış, hətta onun xahişi ilə sultan Məkkə şərifini (Ərəbistanı idarə edən Osmanlı valisini) vəzifəsindən kənarlaşdırmışdı. Sultan özü ona hörmətlə "əfəndi" deyə müraciət edirdi.

Abdullah Əfəndi müxtəlif elmlər üzrə, xüsusilə də rical və biblioqrafiya sahəsində misilsiz məharət sahibi olmuşdur. Təqribən 15 kitabın, o cümlədən, IX-XVII əsrlərdə yaşamış alimlərin həyatından bəhs edən "Riyaz əl-üləma və hiyaz əl-füzəla" ("Alimlər bağçası və fazillər çeşməsi") adlı irihəcmli əsərin müəllifidir. Əsər Səfəvilər dövründə yaşamış şəxsiyyətlərin tərcümeyi-halı mövzusunda mühüm mənbələrdən sayılır. Kitabda alimin öz müasirləri haqqında verdiyi məlumatlar diqqətəlayiqdir.

Mənbələr: *Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla (7 cilddə), I, 11-25 (Ayətullah Mərəşi Nəcəfinin yazdığı tərcümeyi-hal); Müfərris Təbrizi. Reyhanət əl-ədəb, I, 161-163; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, I, 98-101.*

AĞA MİRƏK İSFAHANİ – XVI əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış nəqqaş, miniatür ustası, Təbriz miniatür məktəbinin görkəmli nümayəndəsi. *Kəmaləddin Behzaddan* sənət dərsi almışdır. Əsl adı Ağa Cəlaləddin Mirək Hüseyni İsfahanidir, seyid olduğuna görə adını qısaldılmış şəkildə "Ağa Mirək" kimi yazırlar. Ağa Mirək I Şah Təhmasibin saray kitabxanasında, *Sultan Məhəmmədin* başçılıq etdiyi rəssamlıq emalatxanasında fəaliyyət göstərmişdir. O, I Şah Təhmasibin sifarişi ilə hazırlanmış nəfis tərtibatlı "Şahnamə" və "Xəmsə" nüsxələrinə bir neçə illüstrasiya çəkmişdir. Ağa Mirəkin qələmindən çıxan "Məcnun səhrada", "İki həkimin mübahisəsi" miniatürləri *Təbriz miniatür məktəbinin* ən gözəl nümunələrindən sayılır. Ağa Mirək uzun müddət Təbrizdə yaşayıb-yaratmış, I Şah Təhmasibin incəsənətə himayəsi kəsildikdən sonra Məşhədə – şahzadə *İbrahim Mirzənin* sarayına köçmüş, paytaxt Qəzvin şəhərinə keçirildikdən sonra burada məskunlaşmışdı. Ağa Mirək İsfahani şeir yazır, fil dişi üzərində oyma ilə məşğul olurdu. Gözəl xətti vardı, çəkdiyi miniatürlərin yazılarını çox zaman nəstəliq xətti ilə özü yazırdı.

Müasirləri onu zərif təbli, aşiqanə xislətli bir şəxs kimi xarakterizə etmişlər. Bu səbəbdən I Şah Təhmasiblə çox yaxın idi və onun məclislərinə tez-tez qatılırdı. Ağa Mirək I Şah Təhmasib üçün gərəkyaraq vəzifəsini də icra edirdi. Bu vəzifənin səlahiyyətləri ilə tanışlıqdan sonra belə bir ehtimal yaranır ki, gərəkyaraq *naziri-büyutat* vəzifəsinin türkcə adı idi, yaxud buna çox yaxın bir vəzifə sayılırdı.

I Şah İsmayılın oğlu, sənət bilicisi *Sam Mirzə* təzkirəsində onun haqqında yazırdı: "İsfahanın seyidlərindəndir. Planlaşdırma və təsvir sahəsində öz zəmanə-

sində tayı-bərabəri yoxdur, hazırda şahın xidmətindədir və rəssamların başçısıdır".

Mənbələr: *Sam Mirzə. Töhfeyi-Sami, s.47; "Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, 1388 h.-ş., 15-ci dəftər), s.114; Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 132-135; III, 1338-1339.*

ALİ-ƏBA – ərəb dilindən tərcüməsi "əba əhli" (yəni əbanın altında olanlar) deməkdir. Həzrət Mühəmməd Peyğəmbər (s) və *Əhli-beytin* 4 üzvünü *(İmam Əli, Fatimeyi-Zəhra, İmam Həsən və İmam Hüseyn (ə))* birlikdə Ali-əba adlandırırlar.

Bir gün həzrət Mühəmməd Peyğəmbər (s) nəvələri Həsənlə (ə) Hüseyni (ə), qızı Fatiməni (ə) və əmisi oğlu, kürəkəni Əlini (ə) öz əbasının altına alaraq buyurdu: "Ey Əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz etmək istər".

Bu hadisə cüzi fərqlərlə həm əhli-sünnə, həm də şiə mənbələrində ətraflı şəkildə təsvir edilmişdir. Elə bir klassik təfsir və hədis məcmuəsi tapmaq çətindir ki, orada bu hadisə xatırlanmasın.

Bu hadisədən sonra Qurani-Kərimin "Təthir ayəsi" kimi məşhur olan aşağıdakı ayəsi nazil oldu: "...Ey Əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz etmək istər" (Əhzab, 33). Təbəri, Zəməxşəri, Fəxr Razi, Süyuti və başqaları öz təfsirlərində bu ayənin nazil olma səbəbini məhz yuxarıdakı şəkildə təsvir etmişlər.

Dini mənbələrdə bu ifadə "ali-kisa" və ya "əhli-kisa" şəklində də qeyd edilir ("Kisa" ərəb dilində paltar, geyim deməkdir).

"Təthir ayəsi"nin qeyd edilmiş şəkildə Əhli-beyt haqqında nazil olması barədə rəvayətlər təvatür həddindədir, yəni bu hadisə çoxlu sayda səhabələr vasitəsilə müxtəlif sənəd zəncirləri ilə rəvayət olunur. Hadisəni rəvayət edənlər sırasında İmam Əli ibn Əbu Talib (ə), İmam Həsən (ə) və Fatimeyi-Zəhra (ə) ilə yanaşı, peyğəmbərin (s) həyat yoldaşları Ümmi-Sələmə və Aişə, məşhur səhabələr Ənəs ibn Malik, Bəra ibn Azib, Cabir ibn Abdullah Ənsari, Əbu Səid Xüdri, Səd ibn Əbu Vəqqas, Abdullah ibn Abbas, Abdullah ibn Cəfəri-Təyyar və Əbu Hüreyrənin də adları vardır.

Şiəliyin bütün qollarında olduğu kimi, qızılbaşlıqda da Ali-əba müqəddəs sayılır. Qızılbaş dərvişlər təriqət ayinlərində, qızılbaş şairlər şeirlərində Ali-əbanı mədh etmişlər. Şah İsmayıl Xətai *"Nəsihətnamə"də* 12 imamın adlarını sıra ilə çəkərkən yazır:

Musa Kazim, Əli Musa Rizayə
Riza vergil yəqin Ali-əbayə.

Mənbələr: *Beyhəqi. Əs-Sünən əl-kübra, II, 149; Əhməd ibn Hənbəl. Müsnəd, I, 331; III, 285; IV, 107; VI, 292; Hakim Həskani. Şəvahid ət-tənzil, II, 18-140; Hakim Nişaburi. Əl-Müstədrək əla-l-Səhiheyn, II, 489; III, 171-173 və 179; İbn əl-Əsir. Üsüd əl-ğabə fi mərifət əs-səhabə, II, 12 və 20; III, 413; IV, 29; V, 66, 174 və 521; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 17; Lüğətnameyi-Dehxuda, I, 194; Mühibbüddin Təbəri. Zəxair əl-*

üqba fi mənaqib zəvi-l-qürba, s.21-24; Seyid Mürtəza Firuzabadi. Fəzail əl-xəmsə min əs-sihah əs-sittə (3 cilddə), I, 270-289; Səhih Müslim, 6261-ci hədis; Sünən ət-Tirmizi, 3205, 3206 və 3787-ci hədislər; Təyalisi. Müsnəd, III, 538; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, II, 306-307; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), II, 378.

ALİ QAPU – *İsfahan* şəhərində Səfəvilər dövrünə aid tarixi bina. İsfahanın mərkəzində, *Nəqşicahan meydanının* qərb tərəfində, *Şeyx Lütfullah məcsidi* ilə üzbəüz yerləşir. Ali qapu (yəni uca qapı və ya alaqapı) Səfəvilər dövlətinin paytaxtı *Qəzvindən* İsfahana köçürüldükdən sonra I Şah Abbasın əmri ilə 1595-97-ci illər arasında tikilmişdir. Səfəvilər dövründə bu saraya "dövlətxana" da deyirdilər. Müqayisə üçün qeyd edək ki, Osmanlı sultanlarının İstanbuldakı sarayı "Babi-ali" adlanırdı (bu sözün də ərəb dilindən tərcüməsi "uca qapı" deməkdir).

Bina əvvəlcə nisbətən sadə quruluşa malik olmuş, sonrakı şahların zamanında ona əlavələr edilmiş, təmir və bəzək işləri həyata keçirilmişdir. Ali qapu Səfəvi şahlarının iqamətgahı və qəbul sarayı kimi nəzərdə tutulmuşdu. Kütləvi mərasimlər zamanı şah sarayın eyvanında oturur, xarici qonaqları sarayda qəbul edirdi. I Şah Abbas bəzən saray eyvanında əyləşib meydanda *çövkən* oynayan qızılbaşlara baxırmış.

Ali qapu Səfəvilər dövrü memarlığının şah əsərlərindən sayılır. Binanın uzunluğu 48 metrə çatır və orijinal plana malikdir. Belə ki, qarşıdan baxdıqda bina ikimərtəbəli, arxadan baxdıqda beşmərtəbəli, yanlardan baxdıqda isə üçmərtəbəli kimi görünür. Əslində isə kürsü ilə birlikdə bina 6 mərtəbədən ibarətdir.

Ali qapu sarayının yuxarı mərtəbələrinə 2 vintvari və bir adi pilləkən vasitəsilə qalxmaq mümkündür, sonuncu pilləkəndən şah istifadə edirdi. Binanın daxilindəki otaqlar son dərəcə gözəl interyerə malikdir. Divarlarda Səfəvilər dövrü nəqqaşlarının rəsmləri göz oxşayır. Bəzi divar rəsmlərinin Avropadan dəvət olunmuş rəssamlar tərəfindən çəkildiyi ehtimal edilir.

Ali qapunun böyük eyvanında iri hovuz vardır. Buradakı fəvvarələrə xüsusi mexanizm vasitəsilə su vurulurdu.

Ali qapunun ən üst mərtəbəsində Musiqi talvarı adlı otaq yerləşir. Buranın interyeri Ərdəbildəki Şeyx Səfi təkkəsinin çinixanasını xatırladır. Divarlarda musiqi alətlərinin konturuna uyğun yüzlərlə zərif taxça yerləşdirilib. Bu taxçalar otağa vizual gözəllik gətirməklə yanaşı akustika rolunu da oynayır, bunun sayəsində Musiqi talvarında ifa edilən musiqilər xüsusilə gözəl səslənir.

Mənbələr: *L.Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.84-85; H.Purnadiri. Dövlətxaneyi-Nəqşicəhan Ali qapunun yaranması və formalaşması ("Süffə" dərgisi, 1389 h.-ş., №4), s.23-30; M.Əmin ər-Rəaya. Ali qapu sarayı – İsfahanın incəsənət xəzinəsi; Fəzlullah Həqiq. İsfahanın Ali qapusu ("İraniemruz", №9, il: 2), s.31-36.*

ALLAHVERDİ XAN KÖRPÜSÜ – *İsfahan* şəhərində yerləşən XVII əsrin əvvəllərinə aid Səfəvi memarlığı abidəsi. Zayəndərud çayının üzərində tikil-

miş bu körpü İsfahanın məşhur Çaharbağ parkının şimal və cənub hissələrini birləşdirir. Körpü I Şah Abbasın zamanında İslamı qəbul etmiş gürcü mənşəli dövlət xadimi *Allahverdi xan Undiladze* tərəfindən inşa edilmişdir. Körpünün tikilmə tarixini 1597-1602-ci illər arasında qeyd etmişlər, 1019-cu ildə körpü artıq hazır idi. Xalq arasında bu nadir memarlıq abidəsini "Şah Abbas körpüsü", "33 çeşmə" də adlandırırlar.

Allahverdi xan körpüsünün uzunluğu 295 m, eni 13.5 m-dir. Körpü 33 tağdan ibarətdir. *İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"* kitabında körpünün 40 tağdan ibarət olduğunu yazır. Körpü ikimərtəbəlidir, yuxarı mərtəbə süvarilərin və karvanların hərəkəti üçün, aşağı mərtəbə isə piyadalardan ötrü nəzərdə tutulub. Yuxarı mərtəbədə mərkəzi orta yoldan əlavə yanlarda ensiz cığırlar da olub. Maraqlı cəhət budur ki, piyadalar öz hərəkətləri boyunca pilləkənlər vasitəsilə körpünün ən hündür nöqtəsindən ən aşağı səthinə kimi (suya yaxın) yerlərini dəyişə bilirdilər, amma bu zaman süvarilərə maneçilik törətmirdilər. Körpünün hər iki tərəfindən küləkdən qorunmaq və ətrafdan mühafizə olunmaq üçün divarlar mövcuddur. Körpünün başlanğıcında və sonunda möhkəm bürclər tikilmişdi ki, lazım gəldikdə körpünü bağlamaq və gediş-gəlişə tam nəzarət etmək mümkün olsun. Körpü üzərində bir neçə yerdə istirahət və əyləncə üçün məkanlar da hazırlanıb. Səfəvilər dövründə Novruz bayramı şənlikləri adətən Allahverdi xan körpüsünün üzərində keçirilirdi.

Allahverdi xan körpüsü Zayəndərud çayının ən geniş və aşağı sürətlə axan hissəsində inşa edilib, bu da onun konstruktiv möhkəmliyini artırır. Daş sütunlar üzərində ucaldılmış tikilinin yuxarı hissələri yanmış kərpicdəndir. Körpünün möhkəmliyi onun uzun müddət təmir edilməsinə ehtiyac yaratmamış, yalnız 200 ildən sonra onun bəzi hissələrində təmir işləri aparılmağa başlanmışdır.

Mənbələr: *Dairətül-məarifi-büzürgi-İslami, X, 83-85 (məqalənin müəllifi: Hüseyn Purnadiri); L.Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.96; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.721; Sirus Şəfəqi. Səfəvilər dövrü İsfahanında şəhərsalmanın əsasları ("Fərhəngi-İsfahan", 1379 h.-ş., №15), s.48-50.*

AŞIQ – türk xalqlarında el ağsaqqalı və xalq sənətçisi. Aşıqlar saz (qopuz) çalaraq irfani bilikləri sadə dildə xalq arasında təbliğ etmişlər. Əvvəllər bu rolu *ozanlar* ifa edirdilər, təxminən XVI əsrdən etibarən onların yerini aşıqlar tutdu. *Miskin Abdal* qopuzdan saza, ozanlıqdan aşıqlığa keçid mərhələsinin banisi sayılır. Aşıq və ozan məfhumları, demək olar ki, eyni mənaya malikdir, aralarındakı fərq ifaçılıq texnikası və instrumental alətlə bağlıdır. Aşıq ələvi-bektaşi və qızılbaş ənənəsində xüsusi yerə malikdir; uzun əsrlər boyunca ələvi-bektaşi və qızılbaş inancı məhz aşıqlar (ozanlar) vasitəsilə yayılmışdır. Ustad aşıqlar *"dədə", "baba",* "ata" ləqəbləri ilə məşhur olmuş, xalq şənliklərində fəal iştirak etmişlər, sözü eşidilən müd-

rik ağsaqqal kimi onlara həmişə hörmət olunmuşdur. Bu gün də türk xalqlarının (o cümlədən azərbaycanlıların) məişətində və şifahi xalq ədəbiyyatının yayılmasında aşıqlar mühüm rol oynayırlar.
bax: **OZAN.**

Mənbələr: *Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 2014, 1 (44), s.48-62; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, III, 547-549.*

AŞIQ ABBAS TUFARQANLI – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış Azərbaycan *aşığı*. Həyatı haqqında dəqiq məlumat yox dərəcəsindədir. Abbas Həsən oğlu XVII əsrin əvvəllərində Təbriz yaxınlığındakı Tufarqan kəndində doğulmuşdur. Sadə xalq dilində qoşma, gəraylı və təcnislər yazmışdır. Əsərlərində fəlsəfi-didaktik və lirik motivlər üstünlük təşkil edir. Bəzi əsərlərini Pəri adlı qadına həsr edib. Aşıq Abbas Tufarqanlı kifayət qədər geniş bilik sahibi olmuşdur; bu, aşığın yaradıcılığında hiss olunur. O, irfan və təsəvvüfün əsaslarını da dərindən mənimsəmişdi.
Qoşma və ustadnamələrindəki bəzi misralar zərbi-məsəl kimi işlədilir:

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən,
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırar.

Aşıq öz yaradıcılığında "Abbas" təxəllüsü ilə yanaşı "Qul Abbas", "Şikəstə Abbas", "Bikəs" təxəllüslərini də işlətmişdir.
Aşıq Abbas Tufarqanlı "Abbas və Gülgəz" məhəbbət dastanının qəhrəmanıdır.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 353-360; Azərbaycan dastanları, II, 107-164; Azərbaycan aşıq şeirindən seçmələr, I, 95-131.*

AŞURA – ərəb dilindən tərcüməsi "onuncu" deməkdir. Hicri-qəməri təqvimlə məhərrəm ayının 10-cu gününü dini mənbələrdə belə adlandırırlar.
Aşura gününün mahiyyəti və İslam mədəniyyətində yeri barədə məzhəblərin baxışları fərqlidir. Əhli-sünnə mənbələri Aşura gününü keçmiş peyğəmbərlərin həyatında baş vermiş sevindirici hadisələrlə bağlayır (məsələn, Həzrət Adəmin (ə) tövbəsinin qəbul edilməsi, Həzrət Nuh peyğəmbərin (ə) gəmisinin tufandan sonra quruya oturması, Həzrət Yusif peyğəmbərin (ə) quyudan xilas olması, Həzrət Musanı (ə) təqib edən fironun dənizdə batması, Həzrət Yunus peyğəmbərin (ə) balığın qarnından nicat tapması və s.). Həmçinin əhli-sünnə məzhəbində Aşura günü oruc tutmaq müstəhəb sayılır (bəyənilir).
Lakin şiə məzhəbində bu inanclar doğru sayılmır. Şiə məzhəbində Aşura günü hər şeydən əvvəl qanlı Kərbəla faciəsinin ildönümü deməkdir. Buna görə də şiələr Aşura günündə kədərli olur, İmam Hüseynin (ə) və silahdaşlarının başına gələnləri yada salır, təziyə məclisləri təşkil edirlər.
Səfəvilər dövründə Aşura ən böyük matəm günü kimi dövlət səviyyəsində qeyd edilirdi. Bütün ölkə ərazisində ticarət və iş dayandırılır, dükanlar bağlanır, hamı

məscid və təkkələrə axışırdı. İri şəhər meydanlarında izdihamlı Aşura yürüşləri keçirilir, şəbih tamaşaları təşkil edilirdi. Sadə camaatla yanaşı yüksək rütbəli əyanlar, din xadimləri və şəxsən şah da təziyə mərasiminə qatılırdı.

1667-ci ilin iyulunda Şah Süleymanın zamanında İsfahanın Şah meydanında *(Nəqşicahan meydanı)* keçirilmiş Aşura mərasiminin şahidi olan fransalı səyyah Jan Batist Tavernye bu möhtəşəm tədbirin detallı təsvirini vermişdir. Onun təsvirinə əsasən, şah əyanlarla birlikdə gəlib hündürdə qurulmuş talvarda əyləşdi, bundan sonra tədbiri idarə edən şəxs öz köməkçiləri ilə birlikdə meydanda nizam-intiam yaratmağa başladı. Təziyə yürüşündə iştirak etmək üçün şəhər sakinləri məhəllələr üzrə 12 qrupa bölünmüşdü. Hər dəstənin üstübağlı arabası vardı, onu meydana çəkib hərəkət etdirirdilər. Arabalarda tabut qoyulmuşdu, bəzi arabalarda iki uşaq uzanmışdı, bunlar Müslimin şəhid edilmiş iki oğlunu simvolizə edirdilər. Dəstələrin hər biri "Həsən, Hüseyn" deyərək ağlayır, sinə vura-vura meydanı dolanır, yerini növbəti dəstəyə verirdi. Ortaya qarışıqlıq düşəndə camaatın fikrini yayındırıb sakitləşdirmək üçün meydana 5 fil çıxartdılar. Hindistandan şaha hədiyyə olaraq göndərilmiş bu fillər bahalı parça və daş-qaşla bəzədilmişdi. Fillər şahın bərabərinə çatanda onları idarə edən təlimçilərin komandası ilə dizlərini yerə qoyub üç dəfə təzim etdilər və xortumlarını yuxarı qaldırıb şahı "salamladılar".

Yürüş bitəndən sonra şahın oturduğu talvarın yanında, ondan bir qədər aşağı səviyyədə kətil qoydular və *rövzəxan* oturub Kərbəla faciəsini təsvir edən *rövzə* oxumağa başladı. Təxminən yarım saat davam edən rövzənin sonunda şah ona və yardımçılarına ənamlar verdi. Bundan sonra şah meydanı tərk edib saraya qayıtdı, meydandakılar bir az da əzadarlıq edib dağılışdılar. Səyyah yazırdı ki, mərasim səhər saat 7-də başlayıb günortaya kimi davam etmişdi.

Aşura günündə şəhərdə təşkil edilən yürüşlərdə şah da təziyədarlara qoşulub sinə vurur, hətta başına gil yaxmaqla öz kədərini bildirirdi.

Səfəvilər zamanında keçirilən Aşura əzadarlıqları insanlarda şiə ideologiyasına bağlılığı artırmağa xidmət edir, xalqın şahla birliyinin nümayişinə çevrilirdi. Təziyə mərasimindən siyasi məqsədlər üçün də istifadə olunurdu. Tavernye yazır ki, mərasimin başlanğıcında döyüşdə öldürülmüş bir neçə özbək əsgərinin kəlləsini nizələrin ucunda gətirib meydanı dolandırmış, xalqa göstərmişdilər. Şah həmin kəllələri gətirən əsgərlərə ənam vermişdi. Sonra Osmanlılarla sərhəd bölgələrindən qaçıb gəlmiş 300 nəfərə yaxın kəndli meydana gəldi. Kəndlilər Osmanlıların onlara verdikləri zülmdən şikayət edib şaha yalvardılar ki, onlara ölkədə qalmağa icazə versin. Şah kəndlilərin hər birinə pul və torpaq paylanmasını əmr etdi.

Bu mərasimlər zamanı bəzi təhriflər və xoşagəlməz ayinlər də icra olunurdu. Bu təhriflər sonralar – Qacarlar zamanında daha da inkişaf etdi.

Mənbələr: *The Six Voyages of John Baptista Tavernier, a Noble Man of France Now Living, Through Turky Into Persia, and The East-Indies, book IV, pp.161-162; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 19-20; M.Ə.Pərğu, S.Qulamzadə. Səfəvilər dövründə əzadarlığın ziyanlarının öyrənilməsi istiqamətində bir araşdırma ("Tarixi-İslam" rüblük elmi jurnalı, 1394 h.-ş., №63), s.35-69.*

BABA EŞQİ TƏBƏRRAYİ – I Şah İsmayılın zamanında yaşamış təbrizli dərviş, şair. Həyatı haqqında məlumat azdır və demək olar ki, "Aləmarayi-Səfəvi"də yazılanlarla məhdudlaşır. Təxəllüsündəki "təbərra" sözü şiə məzhəbinin əqidə əsaslarındakı "təvəlla-təbərra" məfhumu ilə bağlıdır. Şiə əqidəsində olan şəxs Allahın dostlarını sevdiyini dilində və əməlində göstərməli (təvəlla), Allahın dostlarından narazılıq və bizarlıq etməlidir (təbərra).

I Şah İsmayıl 1501-ci ildə Təbriz məscidində öz şahlığını elan etdikdən sonra onun əmri ilə məscidə toplaşmış insanlara əhli-sünnə əqidəsində müqəddəs və möhtərəm bilinən şəxslərdən təbərra etmək əmr olundu. İlk təbərra edənlərdən biri də Baba Eşqi idi. O, əlində sufi dərvişlərə məxsus təbərzinlə (balta) irəli çıxıb uca səslə təbərra etdi və şiə əqidəsinə keçdiyini bildirdi. Bu hadisədən sonra ona "təbərrayi" deyirdilər.

Baba Eşqi I Şah İsmayılın İraqa yürüşündə də iştirak etmiş, müqəddəs yerlərin ziyarəti zamanı hökmdarın yanında olmuşdu. Nəcəfdə, *İmam Əlinin (ə)* məzarının yanında o həzrətə həsr etdiyi bir şeirini I Şah İsmayıl üçün oxumuş, şah şeiri çox bəyənərək ona şahanə xələt və 100 tümən qızıl pul ənam etmişdi.

Şahın yaxın silahdaşı *Hüseyn bəy Lələ Şamlu* Herat şəhərində hakim *(bəylərbəyi)* olanda Baba Eşqi onun xidmətində idi. 1513-cü ildə özbəklər Herat şəhərini mühasirəyə alanda Baba Eşqi Təbərrayi yaşadığı kənddən şəhərə 14 ulaq yükü buğda gətirməyə müvəffəq oldu. Amma özbəklər onu ələ keçirib şəhər qalasının qarşısında doğradılar.

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.284; Aləmarayi-Səfəvi, s.403-404.*

BABA FƏĞANİ ŞİRAZİ (vəf. 1519) – XV-XVI əsrlərdə yaşamış görkəmli şair. Şirazda doğulmuş, *irfana* meyil etmiş, zərif şeirlər yazmışdır. Bəziləri onu dindar və *şiəliyə* bağlı, bəziləri isə şəraba meyilli şəxs kimi tanıtmışlar. Ağqoyunlu Sultan Yaqubun zamanında Təbrizdə yaşamış və sarayda böyük şöhrət qazanmışdı. Belə ki, ona "Babayi-şüəra" (Şairlərin babası) deyirdilər ("baba" sözü burada *ələvi-bektaşi* düşüncəsindəki şeyx mənasını daşıyır). Ağqoyunluların süqutundan sonra Əbivərd şəhərində yaşamış, ömrünün sonuna yaxın Məşhəd ziyarətinə gedərək orada *xəlvətə* (inzivaya) çəkilmiş və bir müddətdən sonra vəfat etmişdir. *İmam Əlinin (ə)* şəninə şeirlər söyləmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 215; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.2057; Qazi Nurullah Şüştəri. Məcalis əl-möminin, II, 689-692.*

BABA SAMİD MƏQBƏRƏSİ – Sabirabad rayonu (keçmiş Cavad qəzası) ərazisində, Şıxlar kəndi yaxınlığında yerləşən Səfəvilər dövrü memarlıq abidəsi. XVI əsrdə aid edilən bu məqbərənin üzərindəki kitabədən məlum olur ki, burada İmam Rzanın (ə) nəslindən olan seyid Baba Samid ibn Bektaş ibn Sultanəli dəfn edilmişdir. Baba Samidin *bektaşi* təriqətinə mənsub olduğu və Səfəvilərə xidmət etdiyi məlumdur. Xalq inancına görə o, Səfəvi qoşununun tərkibində bölgəyə gəlmiş, Kür çayını keçərkən qızdırma xəstəliyinə tutulmuş və burada dünyasını dəyişmişdir. Üzərindəki kitabədən məlum olur ki, türbə 1535-ci ildə I Şah Təhmasibin zamanında Şirvan *bəylərbəyi Abdullah xan Ustaclunun* göstərişi ilə ucaldılmışdır.

Bina iki hissədən ibarətdir: məzarın yerləşdiyi türbə və ona bitişik olan kvadrat planlı namaz zalı.

Türbənin həyətində qədim qəbiristanlıq yerləşir, burada Səfəvilər dövrünə və sonralara aid məzar daşları mövcuddur. Səfəvi qoşunundan bir neçə şəxsin, o cümlədən, döyüşçü və silah ustalarının, din alimi və şeyxlərin burada dəfn edildiyi söylənilir. Bəzi məzarların başdaşındakı silah, at təsvirləri də qəbirdə basdırılan şəxsin silah ustası və ya döyüşçü olduğunu söyləməyə əsas verir. Türbənin həyətində ilk Şamaxı xanı Ağası xan Xançobanlı-Sərkarın (1731-88) bir neçə oğlu da torpağa tapşırılıb.

Baba Samidin müridləri olan bektaşi dərvişləri Səfəvilər dövründə bölgədə çox yayılmışdılar, onların burada böyük icması və ehtimala görə, təkkəsi də olmuşdur. Kəndin adı (Şıxlar-Şeyxlər) burada Baba Samid türbəsinin mütəvəlli şeyxlərinin məskunlaşdığını göstərir.

***Mənbələr**: Tofiq Hüseyn. Baba Samid türbəsi ("Respublika" qəzeti, 08 yanvar 2023-cü il, №03/7473), s.5; Azərbaycan tarixi (7 cilddə), III, 285.*

BEHZAD, Kəmaləddin (1455-1536) – XV-XVI əsrlərdə yaşamış məşhur miniatür ustası, nəqqaş, Səfəvilər dövrü mədəniyyətinin görkəmli nümayəndəsi. Kiçik yaşlarında valideynlərini itirmiş, Mirək Nəqqaş Xorasani və Pir Seyid Əhməd Təbrizi adlı nəqqaşlardan dərs almışdır. Behzadın yaradıcılığının ilk mərhələsi Xorasanda keçmişdir. O, Herat şəhərində Teymuri hakimi *Sultan Hüseyn Bayqaranın* himayəsi altında fəaliyyət göstərirdi, saray kitabxanasının idarəçiliyi ona tapşırılmışdı. Behzad ən gözəl əsərlərinin bir qismini Herat miniatür məktəbinin ustadı olaraq yaratmışdır. 1507-ci ildə *Məhəmməd xan Şeybani* Heratı ələ keçirdikdən sonra Behzada olan münasibət, demək olar ki, dəyişməmiş və o, Şeybanilər sarayında xidmətini davam etdirmişdir.

1510-cu ildə Şeybani Məhəmməd xanın ölümündən sonra Kəmaləddin Behzad mövcud siyasi vəziyyəti və özünün yaradıcılıq perspektivlərini düzgün qiymətləndirərək Səfəvilər dövlətinin paytaxtı *Təbrizə* gəlir. Behzadın Təbrizə gəlişindən az sonra sarayda xidmətə başladığını göstərən bəzi mənbələr olsa da, I Şah İsmayılın ömrünün son illərində ona sarayda vəzifə verməsi barədə məlumatlar həqiqətə daha uyğundur. Səfəvilər döv-

rünün tarixçisi *Budaq Münşi "Cəvahir əl-əxbar"* kitabında yazırdı ki, Behzaddan əvvəl I Şah İsmayılın sarayında rəsm emalatxanasına və kitabxanaya böyük miniatür ustası *Sultan Məhəmməd* Təbrizi nəzarət edirdi. Şah 1519-cu və ya 1522-ci ildə Kəmaləddin Behzadı saray kitabxanasının müdiri təyin edir. I Şah İsmayılın imzaladığı fərmanda rəssam "əsrin yeganəsi, təsvir ustalarının başçısı və bəzək ustalarının ülgüsü Ustad Kəmaləddin Behzad" ifadələri ilə tərifləndir.

Bunu nəzərə alaraq, *Çaldıran döyüşündən* əvvəl Sultan Səlimin əlinə keçməsinlər deyə I Şah İsmayıl tərəfindən Behzadın və saray xəttatı Şah Mahmud Nişapurinin mağarada gizlədilməsi barədə deyilənlər tarixi həqiqətdən uzaq görünür.

I Şah İsmayılın vəfatından sonra Behzad I Şah Təhmasibin himayəsi altında fəaliyyətini davam etdirir. O, Təbriz miniatür məktəbinin çiçəklənməsi üçün çalışaraq, Dost Məhəmməd (ona Dost Divanə də deyirdilər), Rüstəm Əli, Mühibb Əli və *Müzəffər Əli* kimi şagirdlər yetişdirmişdir (Axırıncı üç nəfər Behzadın qohumları idi).

Behzadın yaradıcılığı öz həyatiliyi ilə seçilir, moğol miniatür ənənələrindən realizmə doğru mühüm keçid təşkil edir. Onun yaratdığı Sultan Hüseyn Bayqara və Şeybani xanın portretləri, Nizami, Cami, Əttar Nişapuri, Nəvai əsərlərinə illüstrasiyalar Herat və Təbriz miniatür məktəblərinin şah əsərləri sayılır.

Mənbələr: *Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 107-120; "Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, h.-ş. 1388, 15-ci dəftər), s.107-120; G.Qardaşova. Azərbaycan miniatür rəngkarlığının inkişafında Ustad Behzadın rolu ("Elmi iş" dərgisi, 2019, №2/3), s.135-137; Azərbaycan tarixi (7 cilddə), III, 290; Basil Gray. Persian Painting.*

"BİHAR əl-ƏNVAR" – XVII əsrdə Səfəvilər dövlətində tərtib edilmiş hədis külliyyatı. Öz həcminə görə elm tarixində uzun müddət ən iri hədis məcmuəsi sayılmışdır. Kitabın bütöv adı "Bihar əl-ənvar əl-camiə li-dürər əxbar əl-əimmət əl-əthar"dır ("Nur dənizləri. Pak imamların qiymətli hədislərinin məcmusu"). Kitabın tərtibçisi Səfəvilər dövründə İsfahanda yaşamış, dövlətin baş *şeyxülislamı* vəzifəsində xidmət etmiş *Əllamə Məhəmməd Baqir Məclisidir* (vəf. 1699/1700). Əllamə Məclisi "Bihar əl-ənvar" üzərində işləməyə Şah Süleymanın zamanında başlamış, 36 ildən sonra, Şah Sultan Hüseynin hakimiyyəti dövründə işi tamamlamışdır (1693). O, şiə hədis irsini itib-batmaqdan qorumaq və bütün məlum hədisləri bir kitabda toplamaq məqsədilə bu fundamental layihəni həyata keçirmişdir. O vaxtadək müxtəlif tarixi dövrlərdə klassik şiə mənbələrinin bir hissəsi itib-batmışdı; belə ki, imamların zamanında tərtib olunmuş və sayı 400-ə çatan "əsl" adlı hədis kitabçalarının az bir hissəsi Əllamə Məclisinin dövrünə gəlib çatmışdı. Şiə mənbələrinin məhv olmaq təhlükəsi XVII əsrin sonlarında xüsusilə aktual idi. Zəifləmiş Səfəvi dövləti Osmanlıların və Rusiyanın, xüsusilə özbək və əfqan tay-

falarının ardıcıl hücumlarına məruz qalırdı. Müharibələr zamanı ən çox ziyan görən binalar kitabxanalar idi. O dövrün ənənəsinə uyğun olaraq, fərqli məzhəblərin hakim olduğu dövlətlərin müharibəsi zamanı qalib tərəf məğlub tərəfin dini kitablarını yandırıb məhv edirdi. Tarix qısa müddətdən sonra Əllamə Məclisinin fəaliyyətinin nə qədər yerində olduğunu göstərdi. "Bihar əl-ənvar" yazılarkən Əllamə Məclisinin istifadəsində olmuş əsərlərin bir hissəsi bu gün kitab şəklində mövcud deyil, onları yalnız "Bihar əl-ənvar"da nəql olunmuş fraqmentlər əsasında oxuya bilirik.

Əllamə Məclisi "Bihar əl-ənvar" məcmuəsini tərtib edərkən o zamana kimi məlum olan bütün əsas hədis kitablarını əhatə etməyə çalışmışdır. Onun istifadə etdiyi mənbələrin sayı 400-ə yaxındır. Müəllif kitabı 25 iri cild halında toplamağı planlaşdırmışdı. Hər cildə içindəki mövzulara uyğun olaraq ad verilmişdi. Sonralar Əllamə 15-ci cildi iki qismə ayırmış, beləliklə, kitab 26 cild şəklinə düşmüşdü. Hədislər dəqiq mövzular üzrə 2500-ə yaxın babda (fəsildə) təsnif edilib. Əllamə Məclisi əvvəlcə hər mövzu barədə Quran ayələrini qısa təfsirlə birlikdə vermiş, daha sonra mövzuya uyğun hədisləri ardıcıl olaraq nəql etmişdir. Alim bəzi mövzulara özündən kifayət qədər geniş şərhlər də yazmışdır, bu şərhlər mövzunun başa düşülməsində oxucuya yardımçı olur. Əllamə Məclisi müxtəlif mövzulu hədislərə yazdığı şərhlərdə özünün dərin biliyini, tədqiqatçılıq bacarığını, özündən əvvəl yaşamış alimlərin nəzəriyyələrindən xəbərdarlığını ortaya qoymuşdur.

Bu böyük layihənin həyata keçirilməsində Əllamə Məclisiyə bəzi tələbələri və dostları da yardım göstərmişlər. Rəvayətə görə, istinad olunması nəzərdə tutulan bəzi nadir nüsxələri əldə etmək üçün Əllamə Məclisi digər ölkələrə (hətta Yəmənə) adamlar göndərmişdi. Əsərin böyük hissəsinin üzərində iş müəllifin sağlığında yekunlaşmış və yazıların üzü köçürülmüşdü. Bir neçə cildi isə onun ölümündən sonra əlyazmalarının qaralaması əsasında şagirdləri tamamlamışlar.

"Bihar əl-ənvar" kitabı onilliklər boyunca xəttatlar tərəfindən köçürülüb yayılmış, araşdırmaçı alimlərin müraciət mənbəyi olmuşdur. XIX əsrin sonlarında kitabı Əmin əz-zərb ləqəbli Hacı Məhəmməd Həsən Kompani öz vəsaiti hesabına Tehranda daşbasma üsulu ilə nəşr etdirdi. Sonralar "Bihar əl-ənvar" 110 cild həcmində mətbəə üsulu ilə çap edilmişdir.

"Bihar əl-ənvar" kitabının bəzi cildləri başqa dillərə tərcümə edilmiş, onun bəzi qisimlərinə şərh və haşiyələr yazılmışdır. XX əsrin böyük hədis alimlərindən Şeyx Abbas Qumi "Bihar əl-ənvar"dan istifadəni asanlaşdırmaq üçün kitabın əhatəli fehristini (mündəricatını) hazırlamışdır ("Səfinət əl-Bihar").

"Bihar əl-ənvar" kitabı şiə hədis irsinin toplanması və tədqiqi istiqamətində çox faydalı bir addım olsa da, bəzən içindəki zəif hədislərə görə ciddi şəkildə tənqid edilir. Lakin kitabın tərtib edildiyi dövrün siyasi şəraitini, müəllifiin mötədil *əxbari* inancında olduğunu və

digər amilləri nəzərə alaraq sərt tənqidləri yersiz hesab edənlər və Əllamə Məclisinin xidmətlərini yüksək dəyərləndirənlər üstünlük təşkil edir. "Bihar əl-ənvar" kitabı bu gün də elmi araşdırmalarda mənbə rolunu oynayır, onun üzərində tədqiqatlar davam edir.

Şiə hədis irsinin digər irihəcmli toplu-ları olan Şeyx Hürr Amilinin "Vəsail əş-şiə" və Feyz Kaşaninin "əl-Vafi" əsərləri də Səfəvilər zamanında tərtib edilmişdir.

Mənbələr: *Cavad Hisari Müqəddəm. Əllamə Mühəmməd Baqir Məclisi ("Amuzeşi-tarix" dərgisi, 1389 h.-ş., №4), s.35-36; Həsən Tarimi. Əllamə Məclisi, s.135-178; Ağa Büzürg Tehrani. Əz-Zəriə ila təsanif əş-şiə, III, 16-27; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VI, 139-141.*

BUDAQ QƏZVİNİ – XVI əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli tarixçi və ədib. Həyatı haqqında məlumatı özünün qələmə aldığı *"Cəvahir əl-əxbar"* kitabındakı tərcümeyi-haldan əldə etmək mümkündür. Budaq Qəzvini I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində təxminən 14 yaşında ikən sarayda xidmətə başlamışdı. (Bu qeydə əsasən onun təqribən 1510-cu ildə doğulduğu anlaşılır). İstedadı sayəsində xidməti vəzifədə sürətlə irəliləyən Budaq Qəzvini dürüstlüyü və eyni zamanda katiblik işində məharəti ilə seçilmiş, maliyyə divanında aparıcı yer qazanmışdı. Dayısı Bağdad valisi *Məhəmməd xan Şərəfəddinoğlunun* vəziri olduğu üçün Budaq Qəzvini onun təqdimatı ilə Məhəmməd xanın sarayında uzun müddət divan *münşisi* (katibi) vəzifəsində xidmət etmişdir. Məhəmməd xan Herat hakimi təyin edildikdən sonra Budaq Qəzvini ondan ayrılmış, bir müddətdən sonra şahzadə *Bəhram Mirzənin* qulluğuna daxil olmuşdur. 14 il boyunca şahzadəyə katiblik etmiş Budaq Qəzvini onun dərin etibarını qazanmışdı, hətta Bəhram Mirzə onu Savucbulaq kələntəri təyin etmişdi. Budaq Qəzvini daha sonra 10 il müddətində Xorasan hakiminin yanında xidmət etmiş, daha 10 il də Səbzəvar, Turşiz və İsfərayin hakimi Mustafa xan Varsağın vəziri olmuşdur. Mustafa xandan da ayrıldıqdan sonra Budaq Qəzvini müvəqqəti olaraq müxtəlif işlərdə çalışmış, amma kiçik maliyyə korrupsiyalarında təqsirli bilinərək cərimə olunmuşdur. 1576-cı ildə təxminən 68 yaşında ikən öz tərcümeyi-halını yazmış müəllif işsiz və kasıb halda ömür sürdüyünü qeyd etmişdir. Müəllifin bundan sonrakı həyatı haqqında məlumat yoxdur.

Budaq Qəzvini Səfəvilər tarixinə aid mühüm mənbələrdən sayılan "Cəvahir əl-əxbar" kitabının müəllifidir.

Mənbələr: *Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar (müqəddimə: M.Bəhramnejad), s.13-29; Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.181-190; C.Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.39-41; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.18-19.*

CƏBƏLİ-AMİL ALİMLƏRİ – əsasən XVI əsrdə I Şah İsmayılın və I Şah Təhmasibin dəvəti ilə (və qismən daha sonralar) hazırkı Livanın Cəbəli-Amil məntəqəsindən Səfəvilər dövlətinə köçüb gəlmiş, burada şiə məzhəbinin təşəkkül

tapmasında mühüm rolu olmuş cəfəri alimləri.

I Şah İsmayıl Səfəvilər dövlətinin qurulması prosesində təkcə hərbi uğurların həlledici rol oynamadığını yaxşı başa düşürdü. Yeni yaradılmış dövlətin uğurla idarə edilməsi üçün vahid ideologiya əsasında elmi-dini bazanın və dini idarəetmə şəbəkəsinin qurulmasına ehtiyac var idi. Bu məqsədlərin həyata keçirilməsi üçün yerli imkanlar kifayət etmirdi. Səfəvilər dövlətinin ideoloji rəhbərliyini hamı tərəfindən qəbul ediləcək dərəcədə savada və nüfuza malik bir din xadimi öhdəsinə almalı, o da bu missiyanı öz komandası vasitəsilə həyata keçirməli idi.

Səfəvilər dövlətinə mühacirət etmiş ilk Cəbəli-Amil alimi *Mühəqqiq Kərəki* (vəf. 1534) olmuşdur. Səfəvi şahları Mühəqqiq Kərəkiyə "Müctəhid əz-zəmani" ləqəbini vermişdilər. I Şah Təhmasib ona hədsiz dərəcədə ehtiram göstərir, hətta öz hakimiyyətinə onun icazəsi və razılığı ilə legitimlik qazandırmağa çalışırdı. Hakimiyyətlə əməkdaşlığı təqvaya zidd sayan bəzi alimlərlə Mühəqqiq Kərəkinin arasında onun ictimai-siyasi məzmunlu fətvaları (cümə namazının vacibliyi, Səfəvi şahına itaətin zəruriliyi və s.) ilə bağlı ziddiyyət yarananda şah onu açıq şəkildə müdafiə etmişdi.

Cəbəli-Amil məntəqəsi XVI əsrin əvvəllərində şiə (cəfəri) məzhəbinin ən mühüm elmi mərkəzlərindən sayılırdı. Burada şiə alimlərinin sayı o qədər çox idi ki, dəfn mərasimlərində 70 nəfər yüksəksəviyyəli müctəhid iştirak edirdi. Özü Cəbəli-Amildən olan böyük alim Hürr Amili "Əməl al-Amil" kitabında yazırdı ki, Cəbəli-Amilin şəhərlərinin sayı müsəlman dünyasının şəhərlərinin sayının yüzdə-biri qədər olsa da, buranın alimləri bütün şiə dünyasının alimlərinin beşdə-birini təşkil edirdi. Sahəsi 3200 kv.km-ə çatan bu bölgədə 350-dən artıq şəhər və kənd yerləşirdi. Bunların ən məşhurları Seyda, Sur, Cizzin, Nəbətiyyə, İsgəndəriyyə, Ədlun, Cəbə, Şəqif, Kərək, Məşğəra və s. idi. Cəbəli-Amil torpaqlarında şiə məzhəbinin yayılmasını xəlifə Osmanın zamanında bura sürgün edilmiş Əbuzərlə bağlayırlar.

1516-cı ildək Cəbəli-Amil inzibati baxımdan Misir məmlük dövlətinə tabe idi. I Sultan Səlim həmin il Misir məmlük dövlətini işğal etdikdən sonra bu torpaqlar da Osmanlı hakimiyyəti altına keçdi. Bundan sonra Cəbəli-Amil alimlərinin öz vətənlərini tərk edərək qonşu ölkələrə üz tutma halları çoxaldı. Mənbələrdəki məlumatlar söyləməyə əsas verir ki, Cəbəli-Amildən müxtəlif ölkələrə pənah aparmış alimlərdən yalnız Səfəvi dövlətinə sığınanlar əlverişli şəraitlə üzləşmişdilər. O dövrdə Livanın 143 nəfər şiə aliminin sonrakı həyatı barədə xəbərlər məlumdur. Onların 45 nəfəri öz ölkəsində qalmağa üstünlük vermiş, qalan 98 nəfərdən 7-si sair ölkələrə köçsə də, sonralar yenə Cəbəli-Amilə qayıtmışdır. 31 alim Hicaz, Yəmən, Hindistan, İraq və sair vilayətlərə üz tutmuş, amma həmin yerlərdə əmin-amanlıq görməyib mütəmadi olaraq öz məskənini dəyişmişdir. 60 fəqih isə Səfəvi dövlətinə sığınmış, buranın əlverişli şəraitini bəyənib məskunlaşmışdır.

Cəbəli-Amildən mühacirət etmiş şiə alimlərin bir çoxu ailə üzvləri ilə birlikdə köçdüyü üçün onların övladları da sonralar Səfəvilər dövlətində mühüm dini vəzifələr tutmuşlar. Cəbəli-Amil yetirmələri Səfəvilər dövlətinin müxtəlif şəhərlərində *şeyxülislam*, *qazı* və *sədr* mənsəblərində xidmət edirdilər.

Cəbəli-Amildən Səfəvilər dövlətinə köçmüş və burada məskunlaşmış şiə alimlərindən bunlar xüsusilə tanınmışlar:

Əli ibn Hüseyn Amili (Mühəqqiq Kərəki), oğulları Şeyx Əbdül-ali və Şeyx Həsən;

Hüseyn ibn Əbdüssəməd Harisi Cəbəli Amili, qardaşı Əli ibn Əbdüssəməd və oğlu Bəhaüddin Məhəmməd ibn Hüseyn *(Şeyx Bəhai)*;

Şeyx Əli Minşar Kərəki (Şeyx Bəhainin qayınatası);

Şeyx Lütfullah Meysi;

Kəmaləddin Dərviş Amili;

Şəhidi-saninin nəslindən Şeyx Hüseyn ibn Əli, Şeyx Əli ibn Məhəmməd, Şeyx Əli ibn Zeynəddin, Şeyx Həsən ibn Zeynəddin və Şeyx Zeynəddin ibn Məhəmməd;

Seyid Heydər Musəvi Cəbəi ("Sahibi-Mədarik" ləqəbli məşhur alimin qardaşı oğlu);

Şeyx Məhəmməd ibn Həsən *Hürr Amili* ("Vəsail əş-şiə" kitabının müəllifi) və qardaşları Əhməd, Zeynülabidin, oğlu Məhəmməd Rza, əmisi Şeyx Hüseyn ibn Əli;

Mirzə Həbibullah Amili Kərəki və b.

Cəbəli-Amil alimləri Səfəvilər dövlətində dini rəhbərliyi icra etməklə yanaşı ciddi şəkildə tədris fəaliyyəti ilə məşğul olmuş, yerli əhali arasından şagirdlər yetişdirmişlər. Səfəvilər dövlətində nüfuz sahibi olmuş din alimlərinin böyük əksəriyyəti Cəbəli-Amil mühacirlərinin dərslərində püxtələşmişdir.

Mənbələr: *Hürr Amili. Əməl əl-Amil, I, 15; Əli Mürüvvə. Ət-Təşəyyö beynə Cəbəl Amil və İran, s.41-156; M.F.Münfərid. Səfəvilər dövrü: Şiə alimlərinin mühacirəti ("İran" qəzeti, 07.12.1996, №541), s.6; M.N.Səlim. Cəbəli-Amillilərin Səfəvilər dövlətinə mühacirəti: əfsanə, ya həqiqət ("Ayineyi-pejuheş" dərgisi, 1392 h.-ş., №143-144), s.55-64; Ə.R.Müfrəd. Səfəvi hakimiyyətinin güclənməsində və İranda şiə məzhəbinin yayılmasında Cəbəli-Amil alimlərinin rolu ("Humanitar araşdırmalar" dərgisi, 1394 h.-ş., №37), s.107-123; D.C.Stüart. Səfəvilər dövründə Amil fəqihlərinin İran mühacirəti barədə məqamlar (farsca tərcümə, "Kitabi-mah: din", 1381 h.-ş., №56-57), s.82-99; R.Cordi. Cəbəli-Amil alimləri Səfəvilər dövlətində (farsca tərcümə, "Hökuməti-İslami" dərgisi, 1377 h.-ş., №7), s.208-240; Ə.İ.Dərviş. Cəbəli-Amil 1516-1697-ci illər arasında: siyasi və mədəni həyat; M.T.Fəqih. Cəbəli-Amil tarixdə.*

CƏFƏRİLİK – şiə məzhəbinin əsas qollarından biri. Altıncı şiə imamı *Cəfər Sadiqin (ə)* adı ilə adlandırılmışdır. Bir çoxlarının təsəvvürünə rəğmən, cəfəri məzhəbi İmam Cəfər Sadiq (ə) tərəfindən icad edilməmişdir. Şiə inancına görə, İmam Sadiq (ə) İslamın ilk əsrlərində yaranmış çoxsaylı məzhəblərə cavab olaraq Həzrət Mühəmməd Peyğəmbərin (s) Əhli-beyt vasitəsilə ötürülən əsl şəriətini sistemləşdirmişdir. Cəfəri məzhəbinin təməlini təşkil edən hədislərin böyük əksəriyyətinin məhz İmam Sadiqdən

(ə) rəvayət edilməsinin səbəbi budur ki, o, Əməvi və Abbasi sülalələrinin hakimiyyət uğrunda mübarizəsi zamanı yaranmış nisbi sərbəstlikdən uğurla yararlanaraq Əhli-beyt məzhəbini yaymışdır. İmam Cəfərin (ə) şagirdləri Hişam ibn Həkəm, Möminüt-taq (Mühəmməd ibn Əli ibn Nöman Bəcəli), Müfəzzəl ibn Ömər Cüfi, Əban ibn Təğlib, Zürarə ibn Əyün və qardaşları Həmranla Bəkr, Süleyman ibn Mehran Əməş, Məhəmməd ibn Saib Kəlbi və oğlu Hişam, Cabir ibn Yezid Cüfi, Əbu Həmzə Sümali, Cəmil ibn Dərrac, Cabir ibn Həyyan və başqaları öz fəaliyyətləri ilə cəfəri məzhəbini yaymışlar.

"Cəfəri" sözü hələ İmam Cəfər Sadiqin (ə) zamanında istifadə edilirdi. Rəvayətlərdən məlum olur ki, Əbus-Səbah Kinani adlı bir nəfər İmam Sadiqə (ə) deyir: "Bizi Kufədə "cəfəri" adlandırıb tənə edirlər". İmam Cəfər Sadiq (ə) ona cavab verir: "Sizin aranızda Cəfərin əshabı azdır. Cəfərin əshabı o adamdır ki, şiddətlə haramdan çəkinir və hər nə edirsə, Allaha xatir edir".

Cəfəri məzhəbi kəlam, üsuli-fiqh, fiqh və hədis sahələrində özünəməxsus prinsiplərə malikdir; bu, əhli-sünnə məzhəblərindən, eləcə də şiəliyin digər qollarından fərqlənir. Məsələn, cəfəri əqidəsinə görə, Allahın sifətləri Zatından ayrı deyil, Allah nə bu dünyada, nə də axirətdə gözlə görünməz, Quran əzəli deyil. Cəfərilər iradə azadlığı məsələsində nə əşərilər kimi bəşəri iradəni rədd edir, nə də mötəzililər kimi insanı hüdudsuz ixtiyar sahibi sayırlar. Cəfərilərin əqidəsincə, peyğəmbərlər və imamlar mütləq mənada məsumdurlar, onlar peyğəmbərlik və imamlıq dövründən əvvəl də hər cür günahdan, səhvdən, nöqsandan uzaq idilər. Cəfəri məzhəbində Həzrət Mühəmməd Peyğəmbərdən (s) sonra Əli ibn Əbu Talibl ə (ə) başlayıb İmam Mehdi (ə) ilə bitən 12 məsum şəxsin imamlığına etiqad mövcuddur. Bunların imamlığı Allahın əmri və Peyğəmbərin vəsiyyəti ilə təsbit edilmişdir. Əhli-sünnədən fərqli olaraq, cəfərilikdə səhabələrin həyatı daha ciddi şəkildə araşdırılır, Peyğəmbəri görmək heç bir şəxs üçün üstünlük sayılmır. Hər hansı səhabənin və hədis ravisinin dəyərləndirilməsində onun Əhli-beytə münasibəti də əsas göstəricilərdən biri kimi götürülür.

Cəfərilikdə bütün dini hökmlərin ilk ana mənbəyi Quran və sünnədir. Bundan sonra şiə alimlərinin icması (əgər zəmanə imamının da onların rəyi ilə razı olması ehtimal edilərsə) və ağıl (məntiq) əsas götürülür. İctihad qapısı qiyamətədək açıqdır, müctəhidlər Peyğəmbərin və imamların canişinləri sayılırlar. Şəriətdə nəzərdə tutulmuş şərtlərə cavab verən müctəhidin fətvaları ictihad edə bilməyən şiələr üçün keçərlidir. Cəfəri məzhəbində qiyas batil sayılır.

Cəfərilər dəstəmaz alarkən ayaqların üzərinə məsh çəkir, zöhrlə əsr, məğriblə işa namazlarını ardıcıl qılmağı (cəm) caiz bilir, namazda qollarını çarpazlamır, torpağa və ya möhürün üzərinə səcdə edir, namazın qiraətindən sonra amin demir, mütə nikahını məqbul sayır, səfər halında oruc tutmur və namazları qısa qılır, cümə və bayram namazlarının 12-ci İmamın zühurundan sonra vacib olacağına

inanırlar. Cəfəri ənənəsinə görə, məhərrəm və səfər aylarında İmam Hüseynin (ə) şəhadətinin xatirəsi kimi 40 gün matəm tutulur, Qədir-Xüm bayramı, məsum imamların mövlud günləri təntənə ilə qeyd edilir.

Hazırda dünya şiələrinin böyük əksəriyyətini cəfərilər təşkil edir. Cəfəri məzhəbi İran, İraq, Livan və Azərbaycan ərazilərində geniş yayılmışdır. Dünyanın başqa ölkələrində də cəfəri icmaları mövcuddur (Bəhreyn, Əfqanıstan, Türkiyə, Suriya və s.).

Cəfəri məzhəbinin ardıcıllarını bəzən isna əşərilər (on ikiçilər) adlandırırlar ki, bu da on iki imam doktrinası ilə əlaqədardır.

Səfəvilər dövlətinin rəsmi məzhəbi cəfərilik idi. Bu coğrafiyada əvvəllər də şiəliyin cəfəri və digər qollarından olanlar irili-xırdalı dövlətlər qurmuşdular, lakin Səfəvilər hakimiyyətə gəldikdən sonra cəfəri məzhəbi çox sürətlə, iri miqyasda və azad şəkildə yayılmağa başladı. Əsasən Cəbəli-Amil məntəqəsindən hicrət etmiş alimlər Səfəvilər dövlətində cəfəriliyin dini-ideoloji bünövrəsini işləyib-hazırlamış, sonralar onların yetirdiyi yerli kadrlar bu prosesi uğurla davam etdirmişlər. Cəfəri məzhəbinə aid dini ədəbiyyatın mühüm hissəsi Səfəvilər zamanında yazılmış, bu gün də davam etməkdə olan şiə yönümlü ədəbiyyat və incəsənət ənənələrinin əsas kontur cizgiləri o dövrdə cızılmışdır. Şiə (cəfəri) mədəniyyətinin nümunələri olan iri məscid və mədrəsələr, xəttatlıq və dini ədəbiyyat nümunələri, dini matəm və bayram ənənələri Səfəvilər dövrünün yadigarıdır. Səfəvilər dövrü (xüsusilə XVI-XVII əsrlər) tədqiqatçılar tərəfindən cəfəri məzhəbinin çiçəklənmə və tərəqqi mərhələsi sayılır.

Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai qəsidələrinin birində bütün məzhəblərdən uzaq olduğunu deyir və özünü haqq olan cəfəri məzhəbinə aid edrdi:

Münəzzəh məzhəbindən hər güruhin,
Məvali məzhəbəm, həqq cəfəriyəm.
(Ş.İ.Xətai)

Mənbələr: *Əllamə Məclisi. Bihar əl-ənvar, LXI, 166; Mühəmməd əl-Hüseyn Ali-Kaşif əl-ğita. Əsl əş-şiə və üsuliha; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VII, 4-10; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 43-44; Əhməd Səbri Həmədani. İslamda Cəfəri məzhəbi və İmam Cəfər Sadiqin buyruqları; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 39.*

CƏLALİLƏR – XVI-XVII əsrlərdə Osmanlı dövlətini bürümüş xalq hərəkatının ümumi adı. "Cəlali" sözü 1519-cu ildə Tokat ətrafında üsyan qaldırmış Boz Oklu Şeyx Cəlalın adından götürülmüşdür, "Cəlalın tərəfdarı" deməkdir. Boz Oklu Şeyx Cəlal hərəkatı Osmanlı dövləti tərəfindən yatırılsa da, sonralar dövlət əleyhinə qaldırılan hər bir üsyana bu ad verildi. Osmanlı dövləti ərazisində haqsızlığa qarşı mübarizə şüarı ilə qalxmış bütün xalq hərəkatı iştirakçılarının ümumiləşdirilmiş adı "cəlali" idi. Üsyanlar adətən müxtəlif bölgələrdə fərqli şəxslərin başçılığı altında bir-biri ilə koordinasiya edilməmiş şəkildə başlanırdı. Osmanlı dövləti cəlali üsyanlarının təş-

kilində Səfəvi dövlətini günahkar bilirdi. Üsyan iştirakçılarının böyük bir qisminin *qızılbaş* əqidəsində olduğunu və qiyamların Osmanlı dövlətini zəiflətmək məqsədi daşıdığını nəzərə alaraq, onların qələbəsində Səfəvi dövlətinin maraqlı olması təbiidir. XVI əsrin ilk rübünə aid həm Səfəvi, həm də Osmanlı mənbələrindəki yazılardan məlum olur ki, şahın təyin etdiyi *xəlifələr* onunla Anadolu torpaqlarındakı qızılbaşların arasında daim əlaqə yaradır, onların təşkilatlanmasına yardım edir, könüllü verilən ianələri toplayırdılar.

Osmanlı müəllifləri cəlali üsyanlarının meydana çıxma səbəblərini nə qədər xarici amillərlə (qızılbaş təxribatı ilə) bağlamağa çalışsalar da, əsas səbəb ölkədəki sosial ədalətsizlik, iqtisadi tənəzzül və siyasi böhranla əlaqəli idi. Hakimiyyət uğrunda şahzadələr arasında baş verən müharibələr nəticəsində əsas ziyan xalqa dəyirdi. Ağır vergilər, rüşvət, məmur özbaşınalığı əhalidə ciddi narazılıq doğururdu. Xəzinəni doldurmaq üçün vergi məmurları kəndlilərin məhsul qazancını qəsdən reallıqdan çox göstərir, bunun sayəsində onlardan artıq vergi alırdılar. Ayrı-ayrı bəyliklərin əraziləri Osmanlı imperiyasına qatıldığı zaman yerli mülkədarların bir çoxü öz var-dövlətindən, torpağından məhrum olurdu. Müəyyən səbəblərdən cəzaya düçar olmuş və mülkləri əlindən alınmış şəxslər hakimiyyətdən narazı idilər. Ölkə daxilində qızılbaşlara qarşı həyata keçirilən təzyiqlər və məzhəb ayrı-seçkiliyi də sabitliyin pozulmasına şərait yaradırdı. Hətta ordu döyüşçüləri və sərkərdələr əllərindəki silahdan talançılıq üçün istifadə edirdilər. Osmanlı dövlətində işsizlər və asan qazanc həvəskarları soyğunçu dəstələr şəklində birləşirdilər. Ticarət yollarındakı əmin-amanlıq pozulmuşdu, karvanlar qarət edilir, iri tacirlərdən zor gücünə pul alınırdı. Belə bir şəraitdə XVI əsrin əvvəllərindən XVII əsrin ortalarınadək keçən dövr ərzində Boz Oklu Şeyx Cəlal, Baba Zünnun, Domuzoğlan, Yenice, Vəli xəlifə, Qələndər çələbi, Seydi bəy, İnciryeməz, Qarayazıçı Əbdülhəlim, Dəli Həsən, Təvil Əhməd, Canpoladoğlu, Qələndəroğlu, Qara Heydər, Heydəroğlu, Qatırçıoğlu, Gürcü Əbdünnəbi və başqalarının rəhbərliyi altında onlarla cəlali üsyanı baş verdi. Osmanlı dövləti bu üsyanları yatırmaqda çox çətinlik çəkirdi. Hökumət qüvvələri ilə üsyançılar arasında baş verən döyüşlərdə dinc əhali qırılır, şəhər və kəndlər qarət edilir, əkin yerləri yandırılırdı. XVII əsrin əvvəllərində Anadoludakı vəziyyəti "böyük qaçqınlıq" adı ilə xarakterizə edirlər. Xalq yurdunu atıb əmniyyətli yerlərə köçürdü, Anadolu torpaqları xarabalığa çevrilmişdi.

Əksər cəlali üsyanlarında *qızılbaşlıq*, *bektaşilik* və *ələvilik* izləri aydın görünürdü. Hökumət qüvvələri ilə döyüşdə məğlub olub sağ qalmış cəlali liderlərinin bir çoxu Səfəvilər dövlətinə pənah gətirirdi. Osmanlı dövləti bəzən üsyanları yatırmaq üçün hərbi gücün yetərli olmadığını görür, digər üsullara əl atırdı. Üsyan başçılarına vəzifələr, mülklər vəd edilir, bu yolla onlar hərəkatdan kənarlaşdırılırdı.

Cəlali hərəkatının təsiri folklorda da hiss

edilirdi. Bəzi tədqiqatçıların fikrincə, *"Koroğlu" dastanının* qəhrəmanları cəlali liderlərinin prototipləridir. Onların bəzilərinin adı cəlali üsyanı iştirakçısı olan real tarixi şəxsiyyətlərin adları ilə uzlaşır (Dəli Həsən, Giziroğlu Mustafa bəy və b.).

Mənbələr: *Mustafa Akdağ. Türk Halkının Dirlik ve Düzenlik Kavgası – Celali İsyanları; Elif Gül Akman. Onaltıncı Asır Osmanlı Toplumunda Beli-Başlı Kızılbaş İsyanları (Yüksek Lisans Tezi); Mehmet Herkiloğlu. 16. Yüzyil Başlarında Ramazanoğlu Piri Mehmet Paşa Döneminde Anadolu ve Çukurova Bölgesinde Meydana Gelen İsyanlar (Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, 30. Yıl Özel Sayısı, Eylül/September 2022), s.109-131; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VII, 252-257.*

CƏZAİRİ, SEYİD NEMƏTULLAH (1640/41-1700) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şiə alimi. *İmam Kazimin (ə)* nəslindən idi, indiki İraq ərazisində Cəzair bölgəsində doğulmuşdu. Gənc yaşlarında *İsfahana* gəlmiş, burada *Əllamə Məclisi*, Seyid Haşim Bəhrani, *Ağa Hüseyn Xansari, Mühəqqiq Səbzəvari, Feyz Kaşani* və digər böyük alimlərdən dərs almışdır. Cəzairi Əllamə Məclisinin seçilmiş şagirdlərindən idi, *"Bihar əl-ənvar"* hədis ensiklopediyasının toplanmasında ona yardım etmişdi. Sonralar Cəzairi Şüştər şəhərinə köçmüş, burada məskunlaşaraq elmi fəaliyyətlə məşğul olmuşdur. O zamanlar Kuhgiluyə bəylərbəyi vəzifəsində xidmət edən *Fəthəli xan Dağıstani* (gələcək *qullarağası* və *baş vəzir*) onu ehtiramla qarşıladı. Cəzairidən ötrü Şüştərdə karvansara tikildi, lakin alim həmin binanı mədrəsəyə çevirdi.

Seyid Nemətullah Cəzairi hədis, fiqh, tarix, təfsir, ədəbiyyat sahələrində, hətta metafizik elmlərdə dərin bilik sahibi idi, mötədil *əxbari* cərəyanının nümayəndəsi hesab edilirdi. O, klassik hədis kitablarına, həmçinin *"Nəhc əl-bəlağə"* və *"Səhifət əs-Səccadiyyə"yə* şərhlər yazmışdır. "Əl-Ənvar ən-nömaniyyə" kitabı xüsusilə məşhurdur. Dörd cilddən ibarət olan kitabda pərakəndə şəkildə müxtəlif mövzular işıqlandırılır (əxlaq, imamət, dua, axirət və s.).

Seyid Nemətullah Cəzairi 1700-cü ildə Məşhəd ziyarətindən qayıdarkən dünyasını dəyişmiş, Luristanın Püldüxtər məntəqəsində dəfn edilmişdir. Oğlu Seyid Nurəddin və nəvəsi Seyid Abdullah da görkəmli din alimi olmuşlar.

Mənbələr: *Seyid Nemətullah əl-Cəzairi. Əl-Ənvar ən-nömaniyyə (4 cilddə, müqəddimə: Məhəmməd Əli Qazi Təbatəbai), s.6-13; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 113-115; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VIII, 150-159.*

ÇEHELSÜTUN (İsfahan) – XVII əsr Səfəvi memarlığının şah əsərlərindən biri. İsfahanda yerləşən bu monumental memarlıq abidəsinin adı fars dilindən tərcümədə "qırx sütun" mənasını verir. Çehelsütun sarayı 67.000 kv.m sahəsi olan bağın mərkəzində yerləşir. Kompleksin tikintisinə I Şah Abbasın zamanında başlanılmış, II Şah Abbasın və sonrakı hökmdarların dövründə əsaslı əlavə və təmir işləri aparılmışdır. Kitabədə sarayın tikilmə tarixi miladi təq-

vimlə hicri 1057-ci (miladi 1647-ci) il göstərilib.

Çehelsütun sarayına şöhrət gətirən elementlərdən biri onun qarşı tərəfində giriş rolunu oynayan geniş talvardır. Talvarın tavanı 18 ədəd taxta sütun üzərində durur, sütunlar çinar ağacındandır (*Ali qapu* sarayının eyvanındakı kimi). Talvarın tavanı gözəl naxışlarla bəzədilib. Mərkəzdəki sütunların oturacağında dörd ədəd aslan heykəli vardır, keçmişdə onların ağzından ortadakı hovuza su fəvvarə vururmuş. Sarayın giriş hissəsinin tavanı daha iki əlavə sütun üzərində qərar tutub. Giriş hissəsinin tavanı son dərəcə zərif güzgü şəbəkəsi ilə örtülüb, bura "Aynalı talvar" deyilir.

Çehelsütun sarayı Səfəvi şahları tərəfindən əsasən xarici qonaqların qəbulu məqsədilə istifadə edilirdi. Sarayın günbəzlə örtülmüş geniş salonu son dərəcə gözəl interyerə malikdir. Burada divar və tavan başdan-başa ornamentlərlə və rəsmlərlə örtülüdür. Divarlarda Səfəvilər dövrü rəssamlığının şah əsərləri sayılan, şahların şücaətini və dəbdəbəli həyatını əks etdirən təsvirlər çəkilib. Çehelsütun sarayının əsas divar rəsmlərində I Şah İsmayılın *Mərv* və *Çaldıran savaşları*, Nadir şahın Kərnal döyüşü, I Şah Təhmasibin Moğol hökmdarı Humayun şahı qəbul etməsi, I Şah Abbasın və II Şah Abbasın Türküstan əmirlərini qəbul etmələri və s. hadisələr təsvir edilib. Bu divar rəsmlərindən Səfəvilər dövrünün silahları, döyüş qaydaları, geyimləri, saray etiketi, musiqi alətləri və s. haqqında qiymətli məlumatlar əldə etmək mümkündür.

Çehelsütun sarayının qarşısında həyətdə iri hovuz yerləşir. Əslində Çehelsütun sarayı 40 deyil, talvarı saxlayan 20 sütundan ibarətdir. Bu 20 sütunun hovuz suyundakı əksi ilə birlikdə sayı 40 edir. Həm də Şərq düşüncəsində 40 ədədi çoxluq rəmzi olduğu üçün saraya bu ad verilmişdir.

İsfahandakı Çehelsütun sarayından əvvəl *Qəzvin* şəhərində də eyniadlı saray kompleksi mövcud olmuşdur.

Mənbələr: *L.Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.86-88; M.Razani. Çehelsütunun rəsmləri və rəssamları ("Fərhəngi-İsfahan" dərgisi, 1387 h.-ş., №40), s.9-14; Lüğətnameyi-Dehxuda, XII, 17929-17930.*

ÇEHELSÜTUN (Qəzvin) – XVI əsr Səfəvi memarlığının ən görkəmli nümunələrindən biri. İsfahandakı Çehelsütun sarayından əvvəl *Qəzvin* şəhərində də eyniadlı saray kompleksi mövcud olmuşdur. Paytaxtın Qəzvin şəhərinə köçürülməsindən sonra I Şah Təhmasibin əmri ilə tikilmiş bu kompleksin yalnız bir hissəsi dövrümüzə gəlib çatmışdır. "Şah Təhmasib külafirəngisi" adı ilə də tanınan binanın niyə "Çehelsütun" (qırx sütun) adlandırılmasının səbəbi tam aydın deyil, İsfahandakı Çehelsütun sarayından fərqli olaraq, burada 20 və ya 40 sütun yoxdur. Qəzvin Çehelsütun sarayı səkkizbucaqlı plana malikdir, ikimərtəbəlidir. Sarayın interyeri naxışlarla çox gözəl bəzədilmişdir, amma İsfahandakı saray qədər dəbdəbəli deyil, divar rəsmləri azdır və yaxşı qorunmamışdır. Taxta şəbəkəli pəncərələrdəki rəngli şüşələrdən yığılmış mozaikalardan düşən gün

işığı içəridə gözəl mənzərə yaradır. Qəzvin Çehelsütun sarayında xəttatlıq sərgisi fəaliyyət göstərir.

Mənbələr: *S.M.Dəbirsəyaqi. Qəzvin şəhərinin və binalarının tarixi, s.492-494; M.Cabbari, S.Fəthi. Qəzvin Çehelsütun sarayının funksional icmalı ("Arnamşəhr" dərgisi, 1387 h.-ş., №10), s.66-75.*

ÇÖKƏK HAMAM – Gəncə şəhərində *Şah Abbas məscidinin* yaxınlığında yerləşən XVII əsr Səfəvi memarlığı nümunəsi. 1606-cı ildə I Şah Abbasın əmri və *Şeyx Bəhainin* layihəsi əsasında tikilmişdir. Xalq arasında "Şah Abbas hamamı" kimi də tanınır. Suyun təzyiqini təmin etmək üçün çökək ərazidə inşa edildiyinə görə bura "çökək hamam" deyirlər.

Hamamın tikintisində qırmızı kərpic, yumurta ağı, gil və əhəng qarışığından istifadə edilmişdir. Hamam iç-içə iki zaldan ibarətdir; mərkəzində çarhovuz və fəvvarə olan əsas zal istirahət üçün, kiçik zal isə yuyunmaq üçün nəzərdə tutulub. Hamamın damı iki böyük və bir kiçik tağlı günbəzlə örtülüb. Böyük gümbəzlərin ətrafında ventilyator rolunu oynayan yarımgünbəzlər vardır.

Hamam binasının altındakı zirzəmi qızdırıcı soba rolunu oynayırdı, burada iki buxar qazanı yerləşirdi. Qazanların altında yandırılan odunun tüstüsü zirzəmiyə yönəldilir, buxar vasitəsilə hamamın altının və divarlarının qızdırılması təmin edilirdi. İsti su saxsı borularla divarın içərisindən keçərək istifadə nöqtəsinə çatdırılırdı. Divarlarda və hamamın döşəməsində quraşdırılmış keramik borularla buxar da zallara ötürülürdü. Buxar bərabər ölçüdə dövr edir və bütün otaqları qızdırırdı. Bu sistem üç əsr yarım boyunca 1963-cü ilədək mükəmməl şəkildə işləmişdir. Bir giriş qapısı olan hamamın arxa tərəfdən tunelə oxşar yolu mövcuddur.

2013-cü ildə əsaslı təmir edilmişdir.

Mənbələr: *Gəncənin maddi mədəniyyət abidələri, s.49; Gəncə abidələri, s.29.*

"DƏHNAMƏ" – I Şah İsmayıl Xətainin Azərbaycan dilində məsnəvi janrında yazdığı irihəcmli poema. 1506-cı ildə əruz vəzninin həzəc bəhrində qələmə alınmışdır, bütövlükdə 1532 beytdən ibarətdir. Azərbaycan ədəbiyyatında məsnəvi janrında yazılmış ilk bədii əsərlərdən hesab edilir. Xətaidən təqribən 200 il əvvəl digər Azərbaycan şairi Əvhədi Marağayi fars dilində "Dəhnamə" (digər adı "Məntiq əl-üşşaq") məsnəvisini yazmışdır. Lakin Xətainin əsəri həm ana dilində qələmə alınması, həm də həcminin genişliyi baxımından ədəbiyyat tariximiz üçün daha böyük əhəmiyyət kəsb edir. Poemanın adının mənası "On məktub" deməkdir. Əsərin baş qəhrəmanları olan aşiqlə sevgilisi bir-birinə 10 məktub göndərdikləri üçün poema bu cür adlanır. Klassik poeziya ənənələrinə uyğun olaraq "Dəhnamə" minacat (Allaha müraciət), nət (peyğəmbərin tərifi) və meracnamə ilə başlayır. Müəllif şiə əqidəsinə sadiq qalaraq, *Həzrət Əlini (ə)* və digər imamları mədh edir və poemanı "Bahariyyə" hissəsi ilə davam etdirir.

Poemada aşiqlə sevgilisinin hissləri romantik tərzdə təsvir edilib. Hər fəsil müstəqil və bitkin "məktub-müraciət"

formasındadır. Əsər birinci şəxsin – aşiqin dilindən yazılıb. Bu əsərdə aşiq, məşuq, bağban kimi realist obrazlarla yanaşı səba, huş, ah, göz yaşı kimi alleqorik obrazlara da rast gəlinir.

"Dəhnamə" həm Şah İsmayıl Xətai yaradıcılığında, həm də orta əsrlər Azərbaycan ədəbiyyatı tarixində müstəsna yer tutur. Leksik quruluş, üslub, poetik vasitələrin bolluğu baxımından poema böyük əhəmiyyət kəsb edir və XVI əsr Azərbaycan ədəbi dilinin öyrənilməsi üçün zəngin material hesab olunur.

Mənbələr: *Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), II cild; Yaqub Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.441-445.*

DƏRVİŞ HÜSEYN HAFİZ (vəf. 1589) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli azərbaycanlı alim. Təbrizlidir. Kərbəlayı Baba Fərəc adı ilə də tanınır, təxəllüsü Xadimdir. Atası Dərviş Həsən Baba Fərəci də irfan əhli idi.

Dərviş Hüseyn Hafizin gözəl xətti olmuş, xəttatlığı Əlaəddin Əli bəydən öyrənmişdir. Ömrünün bir qismi səfərlərdə və qürbətdə keçmişdir. Dəməşq yolu ilə həcc ziyarətinə getmiş, Təbrizə qayıtdıqdan sonra yenə Dəməşqə yola düşmüşdür. Ömrünün sonunadək burada yaşamış, bir neçə görkəmli alimlə, o cümlədən orada səfərdə olan *Şeyx Bəhai* ilə görüşmüşdür. Məzarı Dəməşq şəhərindədir.

Dərviş Hüseyn Hafiz Təbriz şəhərindən və ətrafından çıxmış görkəmli alimlərin və övliyaların məqbərələri barədə "Rəvəzat əl-cinan və cənnat əl-cənan" kitabını yazmışdır. Əsər bir müqəddimə, səkkiz rövzə (bölmə) və bir xatimədən ibarətdir. Müəllif kitabı 1567-ci ildə tamamlamışdır.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.81-82; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, II, 879-880, III, 1326-1328.*

DƏŞTƏKİ, Qiyasəddin Mənsur Həsəni Hüseyni (vəf. 1541) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli alim. Məşhur filosof Seyid Məhəmməd Sədrəddin Dəştəkinin (vəf. 1498) oğlu və tələbəsidir. Yüksək elmi məqamına görə "Xatəm əl-hükəma" (Hikmət sahiblərinin möhrü, yəni sonuncusu) ləqəbini qazanmışdı. Yeniyetmə yaşlarında ikən elmi fəaliyyətə başlamış, 20 yaşında təhsilini başa vurmuşdur. I Şah Təhmasibin zamanında sarayda ən yüksək vəzifələrdən olan *sədr* rütbəsini daşıyırdı. Sonralar məscidlərin qiblə istiqamətinin düzgün təyin edilməsi və digər məsələlər barədə *Mühəqqiq Kərəki* ilə aralarında olan rəqabət üzündən vəzifəsindən istefa vermiş, Şiraza köçərək orada atasının qurmuş olduğu Mənsuriyyə mədrəsəsinə rəhbərlik etmişdir. Hikmət, məntiq, təfsir, əxlaq, astronomiya, tibb, əqaid mövzularında çoxlu əsərləri vardır.

Oğlu Sədrəddin Seyid Məhəmməd də görkəmli alim olmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 258-260; Qazı Nurullah Şüştəri. Məcalis əl-möminin, II, 230-233.*

DİVAN – klassik Şərq ədəbiyyatında şairlərin şeir külliyyatına deyilir. Divan bəzən yalnız qəzəllərdən ibarət olur,

bəzən isə qəzəllərlə yanaşı qəsidə, rübai, təxmis, qitə kimi digər janrlarda yazılmış şeir nümunələri də divana daxil edilirdi. Divanda qəzəlləri ilk misranın son hərfinə əsasən ardıcıllıqla düzürlər. Yəni ərəb əlifbasının sırasına uyğun olaraq əvvəlcə misraları "əlif" hərfi ilə bitən qəzəllər, bunun ardınca misraları "be" hərfi ilə, sonra "te" hərfi ilə qurtaran qəzəllər gəlir və s. Klassik şairlərin heç də hamısının divanı olmamışdır. Çünki şair o zaman divan tərtib edə bilərdi ki, ərəb əlifbasının bütün hərfləri ilə bitən qəzəllər yazmış olsun. Azərbaycan klassik ədəbiyyatında *Nəsimi, Xətai, Füzuli,* Seyid Əzim Şirvani və başqalarının divanları məşhurdur.

Səfəvilər dövrü divan ədəbiyyatının yüksəliş dövrü sayılır. Bu dövrdə yaşamış bəzi şairlər bir neçə divan tərtib etmişdilər. Məsələn, *Saib Təbrizinin* ümumi həcmi 200 min beyti keçən 7 divan tərtib etdiyini yazırlar. *Vəhid Qəzvininin* ədəbi irsinin həcmini isə 90 min və ya 100 min beyt şəklində qiymətləndirirlər. Bu dövrdə yaşamış bəzi şairlərin müxtəlif dillərdə divanları olub. Məsələn, Füzulinin həm türkcə (azərbaycanca), həm də farsca divanı vardır. Səfəvilər zamanında yaşamış azərbaycanlı şairlər, bir qayda olaraq, həm ana dilində, həm də farsca yazırdılar, fars dili ədəbi dil sayıldığı üçün bu dildə yazılan şeir nümunələri və divanların fars dilində olan bölümləri üstünlük təşkil edirdi. Səfəvilər dövrünün ədəbi mühitini və *qızılbaş* düşüncəsini ən gözəl xarakterizə edən divan nümunəsi I Şah İsmayılın Azərbaycan dilindəki divandır.

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, IX, 397-399; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 33-34.*

DON XUAN (JUAN) PERSİYALI (İRANLI) – XVI-XVII əsrlərdə yaşamış Səfəvi müəllifi və səyyahı. Qızılbaş *Bayat* tayfasına mənsub idi. Əsl adı Oruc bəy Bayatdır. Gəncliyində Səfəvilər dövlətinin hərbi-siyasi həyatında, o cümlədən Səfəvi-Osmanlı müharibəsində fəal iştirak etmişdir. 1599-cu ildə Hüseynəli bəyin başçılıq etdiyi diplomatik qrupun tərkibində Avropaya səfərə çıxmış, İspaniyada İslam dinindən xristianlığa keçmişdir. Xaç anası İspaniya karilçəsinin özü olan Oruc bəy Bayat xristian inancına keçdikdən sonra Don Xuan (Juan) adını qəbul etmiş və Avropada bu adla tanınmışdır.

bax: **ORUC BƏY BAYAT.**

Mənbələr: *Книга Орудж бека Байата, Дон Жуана Персидского (перевод с английского, введение и комментарии: О.Эфендиев, А.Фарзалиев); O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.28-29; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.5-49.*

ƏBDİ BƏY ŞİRAZİ (1515-80) – Səfəvilər dövründə yaşamış görkəmli tarixçi, ədib və şair. Xacə Zeynalabdin Əli bəy mənbələrdə Şirazi kimi təqdim edilsə də, Təbrizdə doğulmuşdur. 1514-cü ildə *Çaldıran savaşı* ərəfəsində Əbdi bəyin ana tərəfdən babası Xacə Nizaməddin Məhəmməd ailəsini qorumaq üçün Ərdəbildən Təbrizə gəlmiş, lakin Təbrizi ələ keçirən Osmanlılar onu əsir

edib aparmışlar. Əbdi bəy babasının Ərdəbildəki Şeyx Səfi xanəgahında vəzir (mütəvəlli) kimi xidmət etdiyini yazır.

Əbdi bəyin babasının Ərdəbildə xidmət etməsi, ailəsinin Təbrizdə yaşaması, özünün də bu şəhərdə doğulması onun Şirazdan köçüb gəlmiş türklərdən olduğunu düşünməyə əsas verir.

Əbdi bəyin yazılarından məlum olur ki, onun ata-babaları I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində güclü qızılbaş əmirləri *Çuxa sultan Təkəlü* və *Hüseyn xan Şamlu* ilə yaxın olmuşlar. 1531-ci ildə Çuxa sultan öldürüldükdən sonra Hüseyn xan Şamlu onun dul qalmış arvadı Xanxanım (*Abdullah xan Ustaclunun* bibisi) ilə evləndi. Əbdi bəyin atası Əbdülmömin ibn Sədrəddin Məhəmməd Qəvami Şirazi Xanxanımla qohum olduğu üçün onun vasitəsilə Hüseyn xanın yaxın ətrafına yol tapdı. Hüseyn xan Şamlu yeni doğulmuş şahzadə *Məhəmməd Mirzənin* (gələcək Şah Məhəmməd Xudabəndə) *lələsi* idi, Əbdi bəy də şahzadənin xidmətçiləri sırasına qəbul edilib sarayda qulluğa daxil oldu. O, hətta Səfəvilər dövlətinin ilk şeyxülislamı olan *Mühəqqiq Kərəkidən* dərs almağa başlamışdı. Lakin az sonra atasını itirən Əbdi bəy Hüseyn xanın yanındakı əyanlarla yola getmədiyi üçün həmin dairədən ayrılmalı oldu və saray dəftərxanasında hesabdar kimi qulluq etməyə başladı. 35 il dəftərxana xidmətindən sonra 1566-cı ildə Əbdi bəy işindən ayrılaraq Qəzvindən Ərdəbilə köçdü və burada vaxtilə babasının idarəçiliyi altında olmuş Şeyx Səfi xanəgahının *vəqf* sənədlərini toplamağa başladı. Bu zəhmətin nəticəsi olaraq "Sərih əl-mülk" adlı risalə meydana gəldi. Həmçinin Şeyx Səfi ziyarətgahının zəngin kitabxanası ona "Təkmilət əl-əxbar"ın yazılışı zamanı xeyli kömək etdi.

Əbdi bəyin *"Təkmilət əl-əxbar"* əsəri klassik salnaməçilik ənənələri əsasında qələmə alınmış ümumtarix kitabıdır. Burada dünyanın yaradılışından başlayaraq 1570-ci ilədək baş vermiş hadisələr təsvir edilir. "Təkmilət əl-əxbar"ın son cildlərini təşkil edən Səfəvilər tarixi bölümündə I Şah İsmayıl və I Şah Təhmasibin hakimiyyət illəri barədə kifayət qədər dolğun və obyektiv informasiyalar öz əksini tapmışdır. Müəllif bu əsəri I Şah Təhmasibin qızı *Pərixan xanıma* ithaf etmişdir.

Əbdi bəy salnaməçilikdən əlavə bədii yaradıcılıqla da məşğul olmuşdur. Məhsuldar şair olan Əbdi bəyin 55 min beytlik divanı və Nizami Gəncəviyə cavab olaraq hər biri 5 poemadan ibarət 3 "Xəmsə"si vardır. Bunlardan əlavə, daha bir neçə məsnəvi də qələmə almış, ərəb dilindən farscaya tərcümələr etmişdir. Təxəllüsü "Nəvidi" idi. Əbdi bəyin əsərlərinin böyük hissəsi I Şah Təhmasibə həsr edilmiş və şah tərəfindən bəyənilmişdir. Müəllif əsərlərini şəxsən şahın hüzurunda oxuduğunu qeyd edir.

Əbdi bəyin Sədəddin İnayətullah adlı bir qardaşı, Məhəmməd Mömin və Cəlaləddin adlı iki oğlu olmuşdur. 1580-ci ildə Təbrizdə dünyasını dəyişmişdir.

Mənbələr: *Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (tərcümə Ə.Rəhimli), müqəddimə bölümü; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (müqəddimə: Əbdülhüseyn Nəvayi), s.14-23; Sam Mirzə. Töhfeyi-Sami, s.59-60.*

ƏBÜLFƏTH TƏBRİZİ – Səfəvilər dövlətində yaşamış azərbaycanlı həkim. Tibdən əlavə başqa elmləri də mükəmməl bilmişdir. I Şah Təhmasibin və II Şah İsmayılın hakimiyyət dövrlərində sarayda *həkimbaşı* kimi xidmət etmişdir. Xəstəliklərə heyrətamiz dərəcədə düzgün diaqnoz qoyurdu, bu zaman xəstədən nə isə soruşmağa ehtiyac qalmırdı. Əbülfəth həkim xəstənin nəbzini yoxlamaqla onun xəstəliyinin nədən ibarət olduğunu və nədən qaynaqlandığını dəqiq ayırd edirdi. O, bir müddət Azərbaycan *əmir əl-ümərası* və Təbriz hakimi *Əmir xan Mosulluya* da xidmət etmişdir. Şah Məhəmməd Xudabəndənin zamanında Əmir xan vəzifəsindən çıxarıldıqdan sonra sarayda Əbülfəth Təbriziyə münasibət də dəyişdi. "Tarixi-aləmarayi-Abbasi"də II Şah İsmayılın ölümü ilə bağlı baş vermiş hadisələrin təsvirində həkim Əbülfəth Təbrizinin adına rast gəlirik. Şahın uzun müddət otaqdan şıxmadığını görənlər həkimbaşını çağırmış, o da qapı arxasından vəziyyəti öyrənməyə cəhd etmişdi. Daha sonra qapını sındırıb içəri girmiş və şahın öldüyünü görmüşdülər.

Əbülfəth Təbrizinin ləqəbi "Kiçik həkim" idi, alçaqboy olduğuna görə ona bu ləqəbi vetrmişdilər.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.116; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, II, 693; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.358.*

ƏHLİ ŞİRAZİ (vəf. 1535/36) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şair. Şiraz şəhərində doğulmuş və orada zahidanə tərzdə yaşamışdır. Əhli Şirazinin şeirləri ədəbiyyat biliciləri tərəfindən yüksək dəyərləndirilir. O, ədəbiyyat nəzəriyyəsini dərin bilmiş, əruz və qafiyə elmləri barədə risalə yazmışdır. 12 min beytlik *divanı* və daha bir neçə məsnəvisi vardır. Əhli Şirazinin bəzi şeirləri "zül-qafiyəteyn" və "zülbəhreyn" qismindədir. Yəni bu şeirləri əruz vəzninin iki bəhrində oxumaq mümkündür və hər beytin iki qafiyəsi vardır. Əhli Şirazi Əhli-beyt imamlarının mədhində gözəl qəsidələr yazmışdır. Şair 1535/36-cı illərdə Şirazda dünyasını dəyişmiş və Hafiz Şirazinin qəbrinin yanında dəfn olunmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 215; Qazi Nurullah Şüştəri. Məcalis əl-möminin, II, 693; Sam Mirzə. Töhfeyi-Sami, s.103-104.*

ƏHLİ-BEYT – ərəb dilindən tərcüməsi "ev əhli, ev sakinləri" deməkdir. Həzrət Mühəmməd Peyğəmbərin (s) yaxın qohumlarından bir qrupuna verilən addır. "Əhli-beyt" anlayışının mənşəyi Quran-Kərimin aşağıdakı ayəsidir: "Ey Əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz etmək istər" (Əhzab, 33). Ayənin nazil olma şəkli "kisa (əba) hədisi"ndə təsvir edilmişdir (*bax:* **ALİ-ƏBA**).

Əhli-beytin kimlərdən ibarət olması barədə şiə və əhli-sünnə məzhəbləri arasında fikir ayrılığı vardır. Əhli-sünnə məzhəbində Peyğəmbərin həyat yoldaşları, digər yaxın qohumları da Əhli-beytdən sayılır. Şiə məzhəbinə görə isə,

Əhli-beyt yalnız İmam Əli, Həzrət Fatimə, İmam Həsən, İmam Hüseyndən (ə) və onların nəslindən ibarətdir. Peyğəmbərin həyat yoldaşlarını və başqa qohumlarını şiələr Əhli-beytə aid bilmirlər. Bunun üçün bir neçə sübut gətirilir ki, onlardan biri də Peyğəmbərin xanımı Ümmi-Sələmə ilə bağlıdır. Məlum olduğu kimi, "Əhzab" surəsinin 33-cü ayəsi onun evində nazil olmuşdur. Bu zaman Ümmi-Sələmə Peyğəmbərdən soruşmuşdu: "Mən də onlarla (yəni Əhli-beytlə) birlikdəyəmmi?" Peyğəmbər isə ona belə cavab vermişdi: "Sən öz yerində dur! Sən, sadəcə olaraq, yaxşı (xeyir-bərəkətli) insansan" (*bax:* Sünən ət-Tirmizi, 3205-ci və 3787-ci hədislər). Həzrət Mühəmməd Peyğəmbər (s) Əhli-beytini sevməyi və ona tabe olmağı dəfələrlə müsəlmanlara tapşırmış, Qurani-Kərimlə yanaşı Əhli-beytini də onların arasında əmanət qoyduğunu və bunlara hansı münasibət göstərmələri ilə bağlı qiyamətdə cavab verəcəklərini bildirmişdir ("Səqəleyn" hədisi).

Əhli-beyt sevgisi İslamda əsas mövzulardan biridir. Əhli-sünnə müsəlmanlar Əhli-beytə mənsub şəxsiyyətləri məsum imam saymasalar da, sevir və onlara dərin ehtiram bəsləyirlər. Əhli-beytə sevgi ənənəvi sünni inancının tərkib hissəsidir. Lakin şiə məzhəbində Əhli-beytə sevgi xüsusi yerə malikdir. Əhli-beytə mənsub olan şəxslərin (*12 imam* və Həzrət Fatimə) məsumluğuna inanc şiə (cəfəri) məzhəbinin əqidə əsaslarından biridir. Şiə məzhəbinə görə, Əhli-beyt imamlarının söz və hərəkətləri Allahın iradəsini əks etdirir və Peyğəmbərin hədisləri qədər mötəbərdir.

Orta əsrlərdə Əhli-beytə münasibət məsələsi şiə və sünni müsəlmanlar arasında əsas mübahisə mövzularından biri olmuşdur. Bu mövzu Səfəvi-Osmanlı münasibətlərində də aparıcı rol oynamışdır. Səfəvilər Osmanlıları Əhli-beyti sevməməkdə, səhabələri onlara tay və hətta onlardan üstün bilməkdə günahkar sayır, Osmanlılar da onları Əhli-beytə ifrat sevgi bəsləməkdə, Əhli-beyt imamlarını ilahiləşdirməkdə ittiham edirdilər. XVI-XVII əsrlərdə Səfəvi və Osmanlı müəlliflərinin qələmə aldıqları qarşılıqlı ittiham xarakterli risalə və fətvalarda bu iki yanaşma tərzi qabarıq şəkildə görünürdü.

Əhli-beyt sevgisi *səfəviyyə* təriqətində və *qızılbaşlıq* inancında müstəsna yerə malikdir. *"Şeyx Səfi təzkirəsi"ndə* yazılıb: "Həzrət Şeyxdən sual qıldular kim, nə məzhəbün var? Buyurdu kim, dərvişlərün məzhəbi Həqqün məzhəbidür və fərzənd gərək atasınun məzhəbində ola. Çün dədələrimizün məzhəbi kim sıratül-müstəqimdür və mömin övliyalar ol yola varubdurlar və bir qılca Mustafa ilə Mürtəzanun (ə) buyurduğından çıxmayubdurlar, biz dəxi anlarun ardınca varub doğru yoldan dönməzüz, inşaallah. Bir yola varuruz kim, məhşərün günündə Nəbi ilə Vəsi və Əhli-beytləri yanında xəcalət çəkməyəcəgüz".

Səfəvilər zamanında zərb edilmiş sikkələrin üzərində Ali-əbanın, bəzən onlarla yanaşı digər imamların (14 məsumun hamısının) da adları həkk edilirdi.

Mənbələr: *Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II,*

70-71; İslam: tarix, fəlsəfə və hüquq. Ensiklopedik lüğət (tərtibçi müəlliflər: A.Əlizadə, E.Səmədov), s.67; Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi), s.687; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, X, 498-501; Hasan Gümüşoğlu. Ehl-i Sünnet ve İmamiyye Şiasının Ehl-i Beyt Kavramına Yükledikleri Anlamlar (Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi, 18), s.291-318; Harun Yıldız. Ehl-i Beyt İnanışının Anadolu Alevileri Üzerindeki İzdüşümleri ("Marife", Yıl: Kış 2004, Sayı: 3), s.297-317; Əllamə Təbatəbai. İslamda şiəlik, s.204-205; Abdulcabbar Adıgüzel. Şiî-İmâmiyye'nin Ehl-i Beyt Tasavvuru ve Dinî Referansları (SİİRT Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt: 2, Sayi: 1), s.119-149.

ƏXBARİLİK – şiə məzhəbinin daxilində mövcud olmuş cərəyanlardan biri. Əxbarilər əsasən fiqh sferasında *üsuliyyə* məktəbindən fərqli metodologiyaya malik idilər. Adından da göründüyü kimi, əxbariyyə cərəyanında əxbara, yəni məsumlardan rəvayət edilən hədislərə xüsusi önəm verilirdi.

Bəzi tədqiqatçılar hələ İslamın ilk əsrlərində yaşayıb-yaratmış şiə alimlərinin baxışlarında əxbari düşüncəsinin izlərinə rast gəlindiyini iddia edirlər. Bu nəzəriyyəyə görə, təqribən X əsrin sonlarınadək şiə məzhəbindəki fiqhi çalışmalar əsasən əxbarilik istiqamətində getmiş, bundan sonra İbn Cüneyd İskafi, İbn Əbi Əqil, Şeyx Müfid, Şərif Mürtəza, Şeyx Tusi, daha sonralar Mühəqqiq Hilli, Əllamə Hilli, Nəsirəddin Tusi kimi alimlər tərəfindən üsuliyyə ənənələri hakim mövqeyə gətirilmişdir.

Əxbariliyin ikinci və ciddi yüksəliş dövrü XVI əsrin sonlarında başlamışdır. Bu dövrədək şiə aləmində üsulilər üstünlüyə malik idilər. XVI əsrin birinci yarısında Səfəvi şahlarının dəvəti ilə *Cəbəli-Amil* məntəqəsindən köç edib gəlmiş alimlər də üsuli cərəyanının nümayəndələri və ictihad sahibləri idi. Sistemləşdirilmiş və əsaslandırılmış əxbariyyə düşüncəsinin banisi Məhəmməd Əmin ibn Məhəmməd Şərif Astarabadi (vəf. 1624 və ya 1627) sayılır. O, bir müddət Şirazda təhsil aldıqdan sonra Nəcəfə getmiş, orada elmini təkmilləşdirmiş, daha sonra Məkkəyə köçmüşdür. Astarabadi əxbari əqidəsinin nəzəri əsaslarını "Əl-Fəvaid əl-Mədəniyyə" əsərində izah etmişdir. Astarabadinin fikrincə, üsuli ənənəsi şiəliyə X əsrin sonlarından etibarən İskafi, İbn Əbi Əqil, Şeyx Müfid, Seyid Mürtəza və Şeyx Müfid tərəfindən gətirilmiş, özü də əhlisünnə məzhəbindən əxz edilmişdir.

Əxbari əqidəsi ilə üsulilik arasında 40-dən çox, bəzi mənbələrə görə isə, 80-dən artıq ziddiyyətli mövzunun olduğu qeyd edilir. Bunların ən mühümləri aşağıdakılardır:

Əxbarilər qeyri-məsum şəxsə təqlid etməyi günah sayırdılar. Onlar üsuli ənənəsinə görə şəriət hökmlərinin istinbatında (əsaslandırılmasında) mənbə rolunu oynayan Quran, sünnə, icma və əqlin (ağlın) yalnız ilk ikisini qəbul edir, icmanı yetərli mənbə saymır və əqlin istinbat səlahiyyətini qəbul etmirdilər. Əxbarilər zənnə deyil, yalnız qəti elmə əsaslanmağı icazəli bilirdilər. Onlar ictihad və təqlidi batil saydıqları üçün üsuli-fiqh elmini də batil hesab edirdilər. Əxbarilərin fikrincə, şiə məzhəbinin

4 əsas hədis məcmuəsindəki (kütübi-ərbəə) bütün hədislər səhihdir (etibarlıdır). Əxbarilərin Quran təfsiri metodologiyası ayələri hədislərlə şərh etmək prinsipinə əsaslanırdı, onlar ayələrin zahiri mənası ilə yanaşı batini mənalarını da (təvil) əsas sayırdılar. Bu metod XVII əsrdə qələmə alınmış bəzi təfsirlərdə də aydın görünürdü. Belə ki, əxbari yönümlü alimlərin tərtib etdikləri "Bürhan" (Seyid Haşim Bəhrani), "Safi" (Feyz Kaşani), "Nur əs-səqəleyn" (Hüveyzi) təfsirləri yalnız bu və ya digər ayələr barədə məsumlardan rəvayət edilən hədislərin sadalanmasından ibarət idi, bunlarda müəllifin heç bir şərhinə və fikrinə, demək olar ki, rast gəlinmirdi.

Əxbariyyə cərəyanı XVIII əsrin əvvəllərindən başlayaraq təqribən yarım əsr boyunca xüsusilə güclənmiş və şiə məzhəbində üstünlüyü ələ keçirmişdi. XVIII əsrin sonlarından Vəhid Bəhbəhani, Bəhr əl-ülum, Kaşif əl-ğita kimi üsuli alimləri əxbariliyin nəzəri əsaslarını ciddi şəkildə tənqid etmiş, bundan sonra əxbarilər getdikcə zəifləyərək mövqelərini itirmişlər. Hazırda İran, Bəhreyn, İraq və Hindistan bölgələrində kiçik əxbari icmaları mövcuddur, onların dini sferaya müdaxiləsi məhdud səviyyədədir.

Mənbələr: *Dairət əl-məarifi-təşəyyü, II, 7-13; C.Səvaqib. Üsuli və əxbari məktəblərinin inkişaf prosesi ("Pejuheşnameyi-tarixi-İslam" dərgisi, 1392 h.-ş., №9), s.35-79; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, I, 490-491.*

ƏLİQULU CƏBBƏDAR – XVII əsrin ikinci yarısı-XVIII əsrin ilk rübündə Səfəvilər sarayında yaşayıb-yaratmış görkəmli rəssam. Həyatı haqqında məlumat azdır. Qeyri-müsəlman mənşəli olması dəqiqdir, bəzi əsərlərində gürcü dilində yazılar olduğuna görə tədqiqatçıların bir qismi onu bu millətə mənsub edir. Bəzi mənbələrdə onun arnavutlu (albaniyalı) olduğu bildirilir. Ləqəbinə əsasən ehtimal etmək olar ki, *qulam* qismində xidmətə alınmış, İslam dinini qəbul edərək cəbbədar vəzifəsində çalışmışdır. İlk dəfə Lütfəli bəy Azər öz təzkirəsində onu "firəngi" ləqəbi ilə xatırladır ki, bu da rəssamın qeyri-müsəlman mənşəyini təsdiq edir.

Əliqulu Cəbbədar I Şah Süleymanın, II Şah Təhmasibin və Nadir şahın hakimiyyət dövründə sarayda nəqqaşbaşı (baş rəssam) vəzifəsində xidmət etmişdir. Rəssam uzun ömür sürmüş, qocaldıqda gözləri zəifləmişdir.

Əliqulu Cəbbədar Qərb rəssamlıq ənənələrinə meyilli olmuş, "ferəngi-sazi" (Avropa üslubu) cərəyanının öncüllərindən sayılmışdır. Onun əsərlərində Qərb rəssamlığına məxsus dəqiqlik, portretçilik hiss olunur, klassik miniatür ənənələrinin əksinə olaraq, perspektivə riayət etmək cəhdləri duyulur. Onun 1670-ci ildə çəkdiyi "Şah Süleyman və saray əyanları" əsəri deyilən cəhətləri özündə tam əks etdirir.

Əliqulu Cəbbədarın oğlu Məhəmməd Əli bəy də Nadir şahın saray rəssamı olmuşdur.

Mənbələr: *Həsən Qulupur, Pərviz Hasili. Avropa ilə mədəni əlaqələrin İsfahan rəssamlıq məktəbinə təsiri barədə araşdırma ("Pejuheşi-hünər" dərgisi, №17, 1397 h.-*

ş.); Farangi sazi (Encyclopaedia Iranica Online, Columbia University); Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 388-397.

ƏLİRZA ABBASİ (Şahnəvaz xan) – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli azərbaycanlı xəttat. Əslən təbrizli olan sənətkar Məhəmməd Hüseyn Təbrizidən xəttatlığın sirlərini öyrənmişdi. Osmanlı qoşunları Şah Məhəmməd Xudabəndənin zamanında Təbrizi müvəqqəti ələ keçirəndə Əlirza Abbasi Qəzvinə köçdü. O, Qəzvin camesinin kitabələrini gözəl xətlə yazmış, bununla da Səfəvi sarayının diqqətini özünə cəlb etmişdi. I Şah Abbasın hakimiyyətinin əvvəllərində dövlətdə böyük nüfuz qazanmış sərkərdə *Fərhad xan Qaramanlu* Əlirzanı himayə edirdi, Fərhad xanın edamından sonra öz himayədarını itirmiş xəttat şahın xidmətinə keçdi.

Əlirza Abbasi bütün xətt növlərində, o cümlədən, nəstəliq və nəsx xətlərində, xüsusilə süls xəttində məharət sahibi idi. O, I Şah Abbasın sevimli xəttatı sayılırdı, şah onun emalatxanasına tez-tez baş çəkir, işləməsinə baxırdı. Hətta deyirlər ki, Əlirza işləyəndə şah əlində çıraq tutaraq onun başı üzərində dayanırdı ki, sənətkar işıq altında rahat işləsin. Əlirza Abbasi öz təxəllüsünü də I Şah Abbasın şərəfinə seçmişdi. Şaha yaxınlığına görə onu "Sahnəvaz xan" ləqəbi ilə də çağırırdılar.

Sadiq bəy Əfşardan sonra saray kitabxanasına Əlirza Abbasi başçılıq etmişdir. Onun rəhbərliyi altında burada görkəmli sənətkarlar çalışırdı (Əbdülbaqi Təbrizi, Məhəmməd Rza İmami, Məhəmməd Saleh İsfahani və b).

İsfahanda hökumət tərəfindən tikilmiş bütün iri binaların kitabələrinin yazılışı, interyer bəzəkləri Əlirza Abbasinin başçılığı altında icra edilirdi. Səfəvilər dövrünün nadir memarlıq inciləri olan *Şah məscidinin* və *Şeyx Lütfullah məscidinin*, eləcə də İmam Rza (ə) hərəminin kitabələrindəki və daxili divarlarındakı yazılar onun əl işləridir.

Əlirza Abbasi saray kitabxanasına ondan əvvəl rəhbərlik etmiş Sadiq bəy Əfşarla və I Şah Abbasın ondan qabaqkı sevimli rəssamı *Mir İmad Qəzvini* ilə rəqabətdə idi. Əlirza Abbasi şeirə də həvəs göstərir, zərif qəzəllər yazırdı.

Xəttatın iki oğlu da onun sənətini davam etdirmişdir. Oğullarından Bədiüzzaman nəstəliq xəttinin, digər oğlu Məhəmməd Rza isə nəsx xəttinin ustadı olmuşlar.

Əlirza Abbasinin dəqiq ölüm tarixi məlum deyil. I Şah Səfinin hakimiyyətinin sonlarınadək yaşadığı məlumdur, bu hesabla vəfatı 1640-cı illərə təsadüf edir.

Bəzən Əlirza Abbasini müasiri olan rəssam *Rza Abbasi* ilə eyni şəxs hesab edirlər. Əlirza Abbasi saray kitabxanasının müdiri olaraq həm xəttatlıq, həm də rəssamlıq bölməsinin başçısı sayılırdı. Kitabxanaya daxil olan rəsm əsərini də o, qəbul edir və bunlar barədə hesabat dəftərində qeydlər aparırdı. Ola bilər ki, həmin qeydlərdəki ad oxşarlığı iki sənətkarın qarışdırılmasına səbəb olmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 323-324; Məhəmmədəli Kərimzadə*

Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 185-197; David Blow. Shah Abbas, The Ruthless King Who Became an Iranian Legend, pp.219-221.

ƏMANİ, Məhəmməd (1536-1610) – Səfəvilər zamanında yaşamış dövlət xadimi, şair və ədib. *Bayburt* mahalındandır. I Şah Abbasın bir neçə hərbi yürüşündə iştirak etmiş, Yəzd şəhərinin valisi olmuşdur. Yaradıcılığında *Füzuli* təsiri duyulur. Əmani həm klassik şeir ənənələrinə uyğun qəzəllər, həm də xalq yaradıcılığı üslubunda qoşma və gəraylılar yazmışdır. Didaktik məzmunlu mənzum hekayələri xüsusilə diqqətəlayiqdir. Əmaninin yaradıcılığı Füzulidən sonrakı Azərbaycan ədəbiyyatı tarixində mühüm səhifə təşkil edir. *Sadiq bəy Əfşar* təzkirəsində ona "Səltənət sütunu olan türklər" bölümündə yer vermişdir.

Mənbələr: *Məhəmməd Əmani. Əsərləri, s.4-12; Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), VI, 20; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.550-561; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.47.*

ƏMİR MAHMUD XONDƏMİR – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli tarixçi. "Rövzət əs-səfa" adlı tarix kitabının müəllifi Mirxondun nəticəsi, "Həbib əs-siyər" əsərinin müəllifi Qiyasəddin Xondəmirin oğludur. O, gənclik illərində atasına yaradıcılıq işlərində kömək edirdi. Əmir Mahmudun həyatı barədə məlumat yox dərəcəsindədir. Hətta atasının Hindistana səfəri zamanı onu müşayiət edib-etmədiyi də dəqiq məlum deyil. Tədqiqatlar Əmir Mahmudun Hindistana səfər etmədiyini, ya da atası ilə birlikdə gedib onun vəfatından sonra geri qayıtdığını düşünməyə əsas verir. Bununla belə, bəzi kitablarda Əmir Mahmudun öz tarix əsərini tamamladıqdan (1550) sonra Hindistana köçdüyü ehtimalı qeyd edilmişdir.

Əmir Mahmud Xondəmir atasının vəfatından sonra onun "Həbib əs-siyər" adlı tarix kitabını Herat şəhərində tamamlamışdır. Orta əsrlərin ədəbi ənənələrinə uyğun olaraq, "zeyl" (haşiyə, əlavə) şəklində yazılmış kitabda Əmir Mahmud Xondəmir atasının verdiyi tarixi məlumatları daha da dolğunlaşdırmağa, diqqətdən kənarda qalmış məsələlərə aydınlıq gətirməyə nail olmuşdur. "Zeyli-Həbib əs-siyər" kitabı üzərində o, təqribən 4 il işləmişdir (1546-50). Xondəmir kitabı I Şah Təhmasib tərəfindən Herat hakimi və şahzadə Məhəmməd Mirzənin (gələcək Şah Məhəmməd Xudabəndə) *lələsi* təyin edilmiş *Məhəmməd xan Şərəfəddinoğlu Təkəlünün* maddi dəstəyi ilə qələmə almışdır. Əsər I Şah İsmayıl və I Şah Təhmasib dövründə baş vermiş hadisələrin ətraflı təsviri baxımından böyük əhəmiyyət kəsb edir. "Zeyli-Həbib əs-siyər" kitabında Səfəvi sülaləsinin keçmiş tarixi, I Şah İsmayılın hakimiyyətə gəlişi, XVI əsrin əvvəllərində Xorasanın ictimai-siyasi durumu haqqında maraqlı informasiyalar vardır.

Mənbələr: *A.Xürrəmabadi. Əmir Mahmud Xondəmirin həyatı və onun "Zeyli-tarixi-Həbibüs-siyər" əsəri ("Tarix və onun problemləri" dərgisi, №2, 2014), s.334-341; Şah İsmayıl və Şah Təhmasib Səfəvinin tarixi (Zeyli-tarixi-Həbib əs-siyər, təshih və haşiyə: Məhəmməd Əli Cərrahi), müqəddimə.*

ƏŞRƏF MAZANDARANİ, Məhəmməd Səid (1620-1704) – Səfəvilər dövründə yaşamış görkəmli şair. Məşhur din alimi *Məhəmməd Saleh Mazandaraninin* (vəf. 1670/71) oğlu idi. Dini elmləri mükəmməl mənimsəmişdi. "Əşrəf" təxəllüsü ilə şeirlər yazır, ədəbiyyatda hind üslubunu *(səbki-hindi)* izləyirdi. Əşrəf Mazandarani *Saib Təbrizini* özünə ustad sayır, şeirlərini əvvəlcə ona oxuyub rəyini öyrənirdi. Əşrəf Mazandarani istedadlı xəttat kimi də tanınırdı, bu sənəti *Mir İmad Qəzvininin* bacısı oğlundan öyrənmişdi. O, *Məhəmməd Tahir Vəhid Qəzvini* ilə müasir və dost idi. Əşrəf Mazandarani oğlunun vaxtsız ölümündən sarsıntı keçirərək təqribən 1660-cı ildə ailəsini də buraxıb Hindistana köçmüş, Böyük Moğol hökmdarı Övrəngzib tərəfindən hörmətlə qarşılanmışdı. Övrəngzib onu öz qızı Zib ən-nisanın müəllimi təyin etmişdi. 13 il Hindistanda yaşadıqdan sonra vətənə qayıtmaq üçün icazə alan Mazandarani Xorasana, oradan İsfahana gəlmiş, amma burada etinasızlıqla qarşılanaraq bir daha (bu dəfə ailəsi ilə birlikdə) Hindistana qayıtmışdı. Ömrünün sonuna yaxın həcc ziyarətinə gedərkən yolda dünyasını dəyişmişdir.

bax: **MAZANDARANİ, MƏHƏMMƏD SALEH.**

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 146-149; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, IV, 118-120; Seyid Mühsin Əmin. Əyan əş-şiə, X, 234; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 110; Külliyyatü-Əşrəf Mazəndarani, s.21-60.*

ƏTİQ ORDUBADİ – XV əsrdə yaşamış məşhur azərbaycanlı xəttat və Səfəvilər dövrünün dövlət xadimi. Mənbələrdə adı Xacə Ətiq Ordubadi kimi qeyd edilir. Nəsirəddin Tusinin nəslindən olduğu üçün onu bəzən "Tusi" nisbəsi ilə də təqdim edirlər. Adı Əli olmuşdur. I Şah İsmayılın və I Şah Təhmasibin zamanında fəaliyyət göstərmişdir. "Danişməndani-Azərbaycan" kitabında "Gülüstani-hünər" əsərinə istinadən onun haqqında yazılır: "Xacə Ətiq səlis qələm sahibi olmuşdur. O, Şah İsmayılın dəftərxanasında *münşilik* təcrübəsi alıb inkişaf etmiş, hal-hazırda işlədilən tuğrayi-şahi adlanan yazını ixrita etmişdir. Xacə Ətiq dəftərxanadakı vəzifəsini tərk etdikdən sonra Məşhəd məqbərəsi ziyarətgahının işlər müdiri olmuş, orada yaşayaraq Şahrux mədrəsəsinin yanında özü üçün yüksək bir məqbərə tikdirmişdir".

Xacə Ətiq nəstəliq xəttində xüsusi məharət sahibi idi, I Şah İsmayılın zamanında "inşa divanı"nda xidmət edirdi. Saraydan uzaqlaşıb Məşhəddə xidmətə başladıqdan sonra özünün külli miqdarda daşınar və daşınmaz əmlakını İmam Rza (ə) hərəminə *vəqf* etmişdi (1525-ci il). Sonralar onun nəslinin nümayəndələri vəqfi idarə etmişlər.

Orta əsrlərdə hökmdarların ad və ləqəblərini özündə ehtiva edən, məktub və fərmanların əvvəlində yazılan monoqramlara tuğra deyilirdi. Quruluş baxımından tuğralar eyni struktura tabe idi, buna görə də hökmdarların tuğraları görünüşcə bir-birinə bənzəyir, amma yazıları fərqlənirdi. Tuğraları hazırlamaq və

çəkmək üçün sarayda xüsusi vəzifə təsis edilirdi. Tuğralar eyniadlı xətt növündə yazılırdı. Yuxarıdakı məlumatdan aydın olur ki, Səfəvilər dövlətində tuğra xəttini azərbaycanlı sənətkar Ətiq Ordubadi ixtira etmişdir. Mənbələrdən məlumdur ki, I Şah İsmayılın tuğrasında şahın adı "Əbül-müzəffər İsmail Bahadır" şəklində yazılmışdı, həmçinin tuğrada "Sözümüz" ifadəsi də qeyd edilmişdir.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.135; K.Ə.Mühacir və S.Kelher. İranın hökumət tuğra və möhürlərinin vizual tədqiqi ("Hünərhayi-təcəssümi" dərgisi, 1391 h.-ş., payız, №3), s.49-58; Fatimə Hacıabadi. Ətiqi vəqfinin mütəvəlliləri ("Pejuheşnameyi-mütaliati-sənədi və arşivi" dərgisi, 1401 h.-ş., №1), s.134-150.*

FAZİL HİNDİ, Bəhaəddin Məhəmməd ibn Həsən İsfahani (1652-1725) – XVII-XVIII əsrlərdə Səfəvilər dövlətində yaşamış böyük İslam alimi. Uşaq ikən atası ilə birlikdə Hindistana səfər etdiyi və bir neçə il orada yaşadığı üçün "Hindi" ləqəbi ilə tanınırdı. Yeniyetmə yaşlarında Səfəvi torpaqlarına qayıtmasına baxmayaraq, üzərində bu ləqəb qalmışdı. Fazil Hindi çox kiçik yaşlarından elm sahəsində uğurlar əldə etmiş, deyilənə görə, hətta 12 yaşında ictihada çataraq ilk kitabını yazmışdır. Ümumilikdə əsasən fiqh, kəlam, əqaid mövzularını əhatə edən 80-dən artıq əsəri vardır. Ən məşhur kitabı fiqh mövzusunda qələmə aldığı "Kəşf əl-lisam" əsəridir ki, Əllamə Hillinin "Qəvaid əl-əhkam" risaləsinin geniş şərhindən ibarətdir. Bu kitab sonrakı dövrlərdə də cəfəri alimləri üçün mənbə rolunu oynamışdır. Fazil Hindi nadir əlyazma nüsxələrindən ibarət zəngin kitabxana toplamışdır. O, *Əllamə Məclisidən* dərs almış, "Riyaz əl-üləma" əsərinin müəllifi *Abdullah Əfəndiyə* dərs demişdir. Əllamə Məclisinin və *Ağa Camal Xansarinin* vəfatından sonra Fazil Hindinin müctəhid kimi şöhrəti və nüfuzu daha da artmışdır. Alim 1725-ci ildə İsfahanda əfqanların törətdiyi qırğın zamanı həlak olmuş və həmin şəhərdə dəfn edilmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 284-285; Fazil Hindi. Kəşf əl-lisam ən qəvaid əl-əhkam (11 cilddə), I, 5-70.*

FAZİL TUNİ, Molla Abdullah ibn Məhəmməd (vəf. 1660) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli İslam alimi. Şiəliyin mötədil *əxbarilik* cərəyanına mənsub olmuşdur. Xorasan əyalətinin Tun məntəqəsində anadan olmuş, bir müddət İsfahanda, daha sonra Məşhəddə dini təhsil almışdır. Qardaşı Molla Əhmədlə birlikdə İraq ziyarətinə gedərkən yolda Qəzvin şəhərində *Molla Xəlil Qəzvini* ilə görüşmüş və onun xahişi ilə bir müddət burada məskunlaşmışlar. Sonra İraq ziyarətini başa vurmuş, vətənə qayıtmışdır. Müasirləri Fazil Tunidən zahidanə həyat tərzi sürən son dərəcə gözəl əxlaq sahibi kimi söz açmış, hətta onu ikinci *Müqəddəs Ərdəbili* adlandırmışlar. Fazil Tuni radikal əxbarilərdən fərqli olaraq, ictihadı və üsuli-fiqh elmini inkar etməmiş, hətta "Vafiyə" kitabını üsuli-fiqh mövzusunda qələmə almışdır. Abdullah Əfəndi yazır ki, o, qeybət dövründə cümə na-

mazı qılmağın qadağan olduğu əqidəsində idi. Fazil Tuni 1660-cı ildə Kirmanşahda dünyasını dəyişmişdir. Qardaşı Molla Əhməd Tuni də din alimi kimi tanınırdı, "Lümə" adlı məşhur fiqh kitabının şərhinə haşiyə yazmış, Məşhəddə yaşamış, qardaşından sonra vəfat etmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 355-356; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, III, 237-238.*

FENDERESKİ, Mir Əbülqasim ibn Mirzə bəy Musəvi Hüseyni (1562-1640) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. Babası Mir Sədrəddin Astarabadın hörmətli seyidlərindən idi, sonralar Xəzər dənizinin cənub-şərq sahillərinə yaxın olan Fenderesk şəhərinə köçmüşdü. Onun oğlu (haqqında danışılan alimin atası) Mirzə bəy I Şah Abbasın zamanında sarayda böyük hörmət sahibi olmuşdu.

Mir Əbülqasim Fendereski fəlsəfə, hikmət, irfan, şəriət elmlərində, eləcə də dünyəvi elmlərin bir çox sahəsində dərin bilik sahibi idi. Səfəvi şahları I Şah Abbas və I Şah Səfinin zamanında İsfahanda elmi fəaliyyət və tədrislə məşğul olurdu. O, *Şeyx Bəhai, Mir Damad* kimi böyük alimlərlə müasir və dost idi. İbn Sinanın "Qanun" və "Şifa" kitablarını xüsusi məharətlə tədris edirdi. Deyirlər ki, bir dəfə Fendereskinin yanında Nəsirəddin Tusinin həndəsə mövzusundakı kitabından çətin bir məsələ müzakirə edilərkən o, bədahətən (heç bir hazırlığı olmadan) bir neçə yeni həll üsulu təklif etmişdi. Məsələnin bu həll üsullarının heç biri Tusinin kitabında qeyd olunmayıbmış.

Fendereski bir müddət Hindistana səfər etmiş, orada da böyük şöhrət qazanmışdı. Amma dəbdəbədən kənar həyat sürməyə üstünlük verdiyi üçün harada tanınırdısa, tez yerini dəyişib başqa məntəqəyə köçürdü. Fendereski Səfəvilər sarayında böyük hörmət sahibi olmasına baxmayaraq, dövlət adamları ilə ünsiyyətdən qaçmış, sadə və zahidanə həyat tərzi sürmüşdür.

Mir Əbülqasim Fendereski bir neçə kitab yazmışdır, onlardan biri də Səfəvilərin tarixinə aiddir. Alimin zərif şairlik təbi vardı, irfani mövzuda gözəl şeirlər yazırdı.

Fendereski 1640-cı ildə təqribən 80 yaşında İsfahanda dünyasını dəyişmiş, Təxti-fulad qəbiristanlığında, bu gün ziyarətgah olan məqbərədə dəfn olunmuşdur. Vəsiyyətinə əsasən şəxsi kitabları I Şah Səfinin dövlət kitabxanasına verilmişdi.

Nəvəsi Mirzə Əbu Talib Fendereski də görkəmli din alimi kimi tanınırdı, Əllamə Məclisidən dərs almışdı. Mirzə Əbu Talib dini mövzuda bir neçə kitab qələmə almış (o cümlədən, "Beyzavi təfsiri"nə şərh, "Şərhi-Lümə"nin farsca tərcüməsi, nücum haqqında risalə), İmam Əlinin (ə) müharibələrini nəzmə çəkmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 357-360; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma, V, 499-502; Lüğətnameyi-Dehxuda, I, 541.*

FEYZ KAŞANİ (1598/99-1680) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış gör-

kəmli şiə alimi. Məhəmməd Möhsin ibn Mürtəza Kaşani ruhani alim ailəsində anadan olmuş, ilk təhsilini atasından almışdır. Daha sonra Seyid Macid Bəhrani, *Şeyx Bəhai, Molla Sədra, Molla Xəlil Qəzvini, Molla Saleh Mazandarani,* Şəhidi-saninin nəvəsi Şeyx Məhəmməd kimi böyük alimlərin dərslərinə qatılmış, bəzi məlumatlara görə, *Mir Damaddan* da bəhrələnmişdir.

Ona "Feyz" ləqəbini verən öz ustadı və qayınatası Molla Sədra olmuşdur. Molla Sədra iki qızını iki ən bacarıqlı tələbəsinə ərə vermişdi. Bunlar Məhəmməd Möhsin Kaşani və *Molla Əbdürrəzzaq Lahici* idi. Alim kürəkənlərindən birinə "Feyz", o birinə isə "Fəyyaz" ləqəbini vermişdi.

Feyz Kaşani dini elmlərin hamısında mahir idi. Fiqh, təfsir, hədis, əqaid, kəlam, hikmət, əxlaq, irfan mövzularında 100-dən artıq dəyərli kitab qələmə almışdır. Ədəbiyyatı mükəmməl bilir, özü şeir yazırdı. İrfan sahəsində də söz sahibi idi. Ən məşhur əsərləri bunlardır: "Safi", "Əsfa" və "Müsəffa" adlı üç Quran təfsiri, "əl-Vafi" adlı irihəcmli hədis külliyyatı, "Məhəccət əl-beyza" adlı əxlaq kitabı (Qəzzalinin "İhya ülum əd-din" kitabının əsasında yazılmışdır) və s. Alim dini-fəlsəfi və əxlaqi məzmunlu "Ayineyi-şahi" əsərini II Şah Abbasa ithaf etmişdir.

Feyz Kaşani *Əllamə Məclisinin* və *Seyid Nemətullah Cəzairinin* ustadı və hədis şeyxi olmuşdur. Mötədil *əxbari* cərəyanın nümayəndəsi kimi tanınmışdır. Atası Şah Mürtəza Kaşani, qardaşları Nurəddin və Molla Əbdülğəfur, həmçinin onların övladları da Səfəvilər dövrünün böyük alimlərindən sayılmışlar.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 369-379; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 180-182; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VI, 79-103; Natiq Rəhimov. İrfan əlifbası, s.149-152; Böyük İslam ensiklopediyası (fars dilində), II, 293-294.*

FƏDAİ TƏBRİZİ – XV-XVI əsrlərdə yaşamış Azərbaycan şairi. Həyatı barədə məlumat yox dərəcəsindədir. Azərbaycan dilində "Bəxtiyarnamə" adlı poemanın müəllifidir. "Bəxtiyarnamə" eyniadlı qədim dastanın motivləri əsasında yazılmışdır. Əsərin qəhrəmanı şahzadə Bəxtiyar çoxlu çətinliklərdən keçərək axırda hakimiyyətdə atasının yerini tutur. Fədai Təbrizinin bu poemanı Qaraqoyunlu hökmdarı Cahanşaha ithaf etdiyini yazırlar. Əsərdəki hadisələrin bir qismi Şirvanda baş verir. Poemada həm Təbriz, həm də Şirvan bölgələrinin şivəsinə xas olan sözlər işlənmişdir. Buna görə tədqiqatçılar müəllifin Təbrizdən, ya Şirvandan olması barədə fərqli mülahizələr irəli sürmüşlər. *Sam Mirzənin "Töhfeyi-Sami"* təzkirəsində Fədai Təbrizi adlı bir şairdən qısa şəkildə bəhs edilir: "Adıçəkilən şəhərin (Təbrizin) əyanlarındandır, yaxşı şeirləri vardı". Sonra Sam Mirzə onun fars dilində iki beytini təqdim edir. Burada haqqında danışılan şairlə "Bəxtiyarnamə" müəllifinin eyni şəxs olduğu dəqiq deyildir.

Mənbələr: *Sam Mirzə. Töhfeyi-Sami, s.169-170; Fədai. Bəxtiyarnamə, s.4-6; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.354.*

FÜZULİ, Məhəmməd (1483-1556) – Azərbaycan klassik ədəbiyyatının korifeylərindən və türk dünyasının ən qüdrətli şairlərindən biri. Qızılbaş *Bayat* soyundan olduğu, ailəsinin Azərbaycandan İraqa köçdüyü mənbələrdə qeyd edilmişdir. Atası Süleyman İraqın Hillə şəhərində qazı vəzifəsində xidmət etmişdir. Füzulinin həyatı haqqında mənbələrdəki məlumatlar az və qeyri-dəqiqdir. Onun Bağdad, Nəcəf, Kərbəla və ya Kərkükdə doğulduğu haqqında fərqli nəzəriyyələr mövcuddur. Mükəmməl dini təhsil almış, gənc yaşlarından ədəbiyyata həvəs göstərmişdir. Gəncliyində böyük Azərbaycan şairi, I Şah İsmayılın sarayında *məlik əş-şüəra* (şairlərin başçısı) kimi xidmət edən *Həbibinin* və məşhur türk şairi Əlişir Nəvainin yaradıcılıqları ona güclü təsir göstərmişdir.

Füzulinin həyatı Yaxın Şərq coğrafiyasında ciddi ictimai-siyasi dəyişikliklər dövrünə təsadüf edirdi. Yaşadığı məntəqə (İraq) Ağqoyunlu, Səfəvi və Osmanlı dövlətləri arasında çəkişmələrin meydanı olmuş, dəfələrlə əldən-ələ keçmişdi. Dövrünün siyasi mənzərəsi şairin əsərlərində də müəyyən qədər öz əksini tapmışdır.

Füzuli klassik ədəbiyyatın bütün şeir növlərində (qəzəl, qəsidə, tərcibənd, tərkibbənd, mürəbbe, müxəmməs, müsəddəs, təxmis, rübai, qitə, müəmma, məsnəvi) qələmini uğurla sınamışdır. O, "Bəngü badə", "Rindü zahid", "Səhhət və mərəz", "Şikayətnamə", "Ənis əl-qəlb" poemalarını yazmış, Ə.Caminin "Hədisi-ərbəin" əsərini Azərbaycan türkcəsinə nəzmlə tərcümə etmişdir. *Əhli-*beytin müsibətlərindən və Kərbəla faciəsindən bəhs edən "Hədiqət əs-süəda" əsəri nəzmlə nəsrin növbələşməsindən ibarətdir və Hüseyn Vaiz Kaşifinin "Rövzət əş-şühəda" əsərindən bəhrələnərək qələmə alınmışdır. Füzuli "Mətlə əl-etiqad" risaləsində yalnız İslam fəlsəfi fikir tarixinin deyil, dünya fəlsəfi irsinin xülasəsini verməyə nail olmuşdur. Şairə dünya şöhrəti gətirən "Leyli və Məcnun" poeması türkdilli irfan ədəbiyyatının şah əsərlərindən sayılır. İraqın Osmanlılar tərəfindən fəthindən sonra ona təyin edilmiş 9 ağça məvacibi ala bilməyən böyük sənətkar "Şikayətnamə" əsərini yazmağa məcbur olmuşdur.

Füzuli Səfəvilər dövlətinə rəğbətlə yanaşmışdır. İraqın 1508-ci ildə I Şah İsmayıl tərəfindən fəth edilməsindən 1534-cü ildə Osmanlıların əlinə keçməsinədək davam etmiş dövr Füzuli yaradıcılığının çiçəklənmə mərhələsidir. O, 1527/28-ci illərədək Səfəvilərin Bağdad hakimi İbrahim xan Mosullunun himayəsi altında yazıb-yaratmışdır.

Füzuli "Bəngü badə" poemasını I Şah İsmayıla həsr etmişdir. Poemanın qəhrəmanları olan alleqorik bəng və badə obrazları Osmanlı sultanı II Bayezidlə I Şah İsmayılı simvolizə edir. Əsərin əvvəlində şair hökmdarı bu misralarla vəsf edir:

Məclizəfruzi-bəzmgahi-Xəlil,
Cəmi-əyyam, Şah İsmail.
Ondan asudədir ğəniyyü gəda,
Xələdəllahu mülkəhu əbəda.
(Allah onun mülkünü əbədi etsin).

Füzuli Azərbaycan türkcəsi, fars və ərəb

dillərində yazıb-yaratmış və şeir divanları tərtib etmişdir. Tədqiqatçılar onun türkcə divanının ədəbi cəhətdən daha üstün olduğunu qeyd etmişlər ki, bu da şairin öz fikrini ana dilində daha sərbəst və bədii formada ifadə edə bilməsi ilə bağlıdır. Füzuli fitri istedadına görə hələ sağlığında müasirləri arasında böyük şöhrət qazanmışdır.

Füzuli möhkəm əqidəli, cəfəri məzhəbinə bağlı şəxs olmuşdur. İslam dininin əsaslarını, irfan və təsəvvüfü mükəmməl şəkildə mənimsəmiş və əsərlərində tərənnüm etmişdir. Şərq klassik ədəbiyyatını, həndəsə, heyət, tibb, fəlsəfə elmlərini yüksək səviyyədə bilmişdir. Ömrünün bir hissəsini Kərbəlada İmam Hüseyn (ə) hərəmində xidmətçiliklə keçirmiş şair hərəmin işıqlandırma işlərinə məsul idi. O, 1556-cı ildə taun xəstəliyindən vəfat etmiş və vəsiyyətinə əsasən hərəmin həyətində dəfn olunmuşdur. Ziyarətgahın genişləndirilməsi nəticəsində hazırda şairin məzarı İmam Hüseyn (ə) hərəminin qiblə qapısının yanında yerləşir; burada şairin xatirə lövhəsi də quraşdırılmışdır. Mənbələrin verdiyi məlumata əsasən, elektrik xətləri çəkilməzdən əvvəl hər gün axşam İmam Hüseyn (ə) hərəminin xidmətçiləri Füzulinin məzarı üzərindəki çıraqları yandırır, oradan od götürüb hərəmin şam və çıraqlarını həmin odla alışdırırmışlar.

Füzuli Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin banisi, XVI əsrdə Bağdadda mövcud olan Azərbaycan ədəbi mühitinin lideri sayılır. Füzulinin yaradıcılığı özündən sonrakı şairlər üzərində ciddi təsir qoymuş, onların ilham mənbəyinə çevrilmişdir. Şah İsmayıl Xətainin *oğlu Sam Mirzə "Töhfeyi-Sami"* təzkirəsində yazırdı: "Mövlana Füzuli Darüssalam Bağdaddandır və oradan (Bağdaddan) ondan üstün bir şair çıxmayıb". XIX əsrdə yaşamış şotlandiyalı şərqşünas Gibb (1857-1901) "Osmanlı poeziyasının tarixi" adlı fundamental həcmli əsərində Füzulini "xələflərindən heç birinin getmədiyi, sələflərindən heç birinin kəşf etməyə qadir olmadığı" yolun sahibi adlandıraraq əlavə edir: "O, qədim türk ədəbiyyatında Könül Şairi kimi tək yerdə durur". Görkəmli ədəbiyyatşünas M.F.Köprülü şairin türk ədəbiyyatına təsirini bu sözlərlə ifadə etmişdir: "Türk ədəbiyyatının müxtəlif sahələri üzərində əsrlərdən bəri Füzuli qədər icrayi-təsir etmiş şair azdır. Nəsimi və Nəvaidən sonra ancaq Füzulidir ki, türk aləminin hər tərəfinə əsərləri yayılmış, oxunmuş, sevilmiş, təqlid və tənzir edilmişdir".

Füzuli elə qüdrətli söz sahibidir ki, hər millət onu özününküləşdirməyə çalışmış və şairin milli mənsubiyyət məsələsi mübahisələrə səbəb olmuşdur. Onu Osmanlı ədəbiyyatının nümayəndəsi, türkman şairi, hətta kürd millətinin mənsubu kimi təqdim etmək iddiaları ilə yanaşı əksər tədqiqatçıların gözündə Füzuli Azərbaycan şairidir.

Məhəmməd Füzuli ələvi-bektaşi ənənəsinə görə, *yeddi ulu ozandan* biridir.

Mənbələr: *Həmid Araslı. Füzuli, s.3-59; F.B.Köçərli. Azərbaycan ədəbiyyatı, I, 84-99; Fuzuli Divanı (hazırlayan: Abdulbaki Gölpınarlı), müqəddimə bölümü; Türkiye Di-*

yanet Vakfı İslam Ansiklopedisi, XIII, 240-246; Məhəmməd Füzuli. Əsərləri, III, 239; Sam Mirzə. Töhfeyi-Sami, s.136; E.J.W.Gibb. A History of Ottoman Poetry, volume 3, p.79; M.F.Köprülü. Süleyman Nəzifin "Füzuli" kitabına müqəddimə, s.21; Ortaq mədəniyyətin övladları – İraq türkmanları və Azərbaycan (məqalə müəllifi – N.Rəhimov), s.79-98.

HƏBİBİ (vəf. 1519/20) – görkəmli Azərbaycan şairi. Təqribən 1470-ci illərdə Göyçayın Bərgüşad kəndində doğulmuşdur. *Sam Mirzənin "Töhfeyi-Sami"* təzkirəsində Həbibinin uşaq yaşlarında ikən Ağqoyunlu Sultan Yaqubla qarşılaşması və öz hazırcavablığı ilə onu heyrətə salması təsvir edilir. Bundan sonra Ağqoyunlu sarayı ilə yaxınlaşmış Həbibi gəncliyindən özünü istedadlı şair kimi göstərir. Onun yaradıcılığı Füzuliyəqədərki mərhələnin mühüm səhifəsini təşkil edir. Səfəvilər hakimiyyət başına gəldikdən sonra Həbibi Şah İsmayılın sarayında fəaliyyət göstərmiş, hətta sarayda *"məliküş-şüəra"*, yəni şairlərin başçısı vəzifəsini qazanmışdı. Xətai ona dərin hörmət bəsləyir, onu ərkyana "Gürzəddin bəy" çağırırdı. Ehtimala görə, *Çaldıran döyüşündən* sonra Təbrizdən Osmanlı torpaqlarına aparılmış sənət adamlarının cərgəsində qərar tutmuşdur. (Bəzi məlumatlar bundan daha əvvəl Osmanlı torpaqlarına gəldiyini xəbər verir). Həbibi İstanbulda da böyük hörmət qazanmış, Sultan Səlim Yavuz tərəfindən "Sultanüş-şüəra" (Şairlərin sultanı) ləqəbinə layiq görülmüşdür. Bir əfsanəyə görə, Məhəmməd Füzuli Həbibinin qızına aşiq olmuşdur. Füzulinin bir neçə şeiri Həbibinin təsiri altında qələmə alınıb. Həbibinin şeirlərinin böyük hissəsi günümüzə gəlib çatmayıb. Şair 1519/20-ci illərdə İstanbulda vəfat etmişdir.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 356; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.381-382; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.393-394; S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.283-291.*

HƏQİRİ (vəf. 1585) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış Azərbaycan şairi. "Danişməndani-Azərbaycan" kitabında müasirlərinə istinadən onun haqqında yazılıb: "Seçilmiş, bədii və məlahətli sözlər deməkdə Azərbaycan söz ustadları içərisində üstünlüyü var idi". Dərvişyana həyat sürmüş, ibadətlə məşğul olmuşdur. Təbrizdə doğulmuş, 14 il Kaşan şəhərində yaşamış, məşhur şair *Möhtəşəmlə* dostluq etmişdir. Sonra Məşhəd ziyarətini yerinə yetirib öz şəhərinə dönmüşdür. 1585-ci ildə Osmanlı ordusunun Təbrizə hücumu zamanı həlak olmuşdur. Altı min beytlik divanın və "Leyli və Məcnun" poemasının müəllifidir. Amma əsərlərinin çox hissəsi itib-batmışdır.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 495; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.384-385.*

HƏSƏN BƏY RUMLU – Səfəvilər dövründə yaşamış görkəmli tarixçi və ədib. Rumlu tayfasından nüfuzlu qızılbaş dövlət xadimi Əmir xan Rumlunun nəvəsi idi. Həyatı haqqında məlumat

"Əhsən ət-təvarix" kitabında yazdığı pərakəndə yazılardan əldə edilir. Özünün yazdığına görə, I Şah Təhmasib Qəzvin və Savucbulaq bölgələrini tiyul olaraq onun babası Əmir sultan Rumluya vermişdi. Həsən bəy təqribən 1530-cu ildə Qum şəhərində doğulmuş, sonra babasının mülkü olan Qəzvin şəhərinə köçərək orada böyümüşdür. (O zaman Qəzvin hələ paytaxt deyildi). 9 yaşında ikən himayədarı olan babasını itirmiş, daha sonra şahın şəxsi qvardiyasında – *qorçu* birliyində xidmətə başlamışdır. Həsən bəy I Şah Təhmasibin hakimiyyəti dövründə ordunun tərkibində hərbi əməliyyatlara qatılmış, 1541/42-ci illərdə Düzfula, 1546/47-ci illərdə Gürcüstana, 1550-ci ildə Ərdəlan kürdləri üzərinə yürüşlərdə iştirak etmişdir. 1544/45-ci illərdə Böyük Moğol hökmdarı Humayun şahın I Şah Təhmasib tərəfindən qarşılanma mərasimində iştirak etməsi qızılbaş əmirləri arasında yüksək mövqedə durduğunu göstərir. Özünün yazdığına görə, Həsən bəy Rumlu 1572/73-cü illərədək baş vermiş bütün hərbi əməliyyatlarda şahı müşayiət etmişdir.

Hərbi xidmətlə yanaşı, Həsən bəy Rumlu dini və ədəbi təhsil almağa da müvəffəq olmuşdur. Yazılarından məlum olur ki, o, "Şərhi-Təcrid" (Nəsirəddin Tusinin "Təcrid əl-etiqad" adlı əqaid kitabının şərhi) və "Şərhi-Şəmsiyyə" (Qütbəddin Razinin məntiq kitabı) əsərlərini ustadların yanında oxumuşdur.

1576-cı ildə I Şah Təhmasibin vəfatından sonra qızılbaş əmirlərinin bir hissəsi şahzadə *Heydər Mirzənin*, digər hissəsi isə İsmayıl Mirzənin (gələcək II Şah İsmayılın) hakimiyyətə gətirilməsini dəstəklədi. Həsən bəy mənsub olduğu əksər Rumlularla ikinci qrupda qərar tutdu. II Şah İsmayıl hakimiyyətə gəldikdən sonra qorçuların I Şah Təhmasib zamanından ödənilməmiş 14 illik məvacibini verdi, bu da bütün qorçular kimi, Həsən bəyin də ona daha artıq rəğbətlə yanaşmasına səbəb oldu. Həsən bəy Rumlu "Əhsən ət-təvarix" kitabında II Şah İsmayılı tərifləmiş və əsəri ona ithaf etdiyini yazmışdır.

II Şah İsmayılın cəmi bir il davam etmiş hakimiyyətindən sonra şah seçilmiş Məhəmməd Xudabəndə yaşadığı Şiraz şəhərindən paytaxt Qəzvinə səfər etdiyi zaman (1577) Həsən bəy Rumlu da Qum şəhərində ona qoşulmuş məiyyətin arasında idi. Həsən bəyin bundan sonrakı taleyi barədə məlumat yoxdur. Onun qələmə aldığı "Əhsən ət-təvarix" kitabında təsvir edilən hadisələr də Şah Məhəmməd Xudabəndənin hakimiyyətə gəlişi ilə bitir. Yeni şahın zamanında II Şah İsmayılın əksər tərəfdarlarının təzyiqə məruz qaldığını nəzərə alaraq ehtimal edilir ki, Həsən bəy Rumlu bundan sonra ya həbs edilmiş, ya da aradan götürülmüşdür.

Həsən bəy Rumlunun fundamental həcmli "Əhsən ət-təvarix" salnaməsi 10 və ya 12 cilddən ibarət olmuş, günümüzə yalnız son iki cildi gəlib çatmışdır. Bu cildlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi, o cümlədən I Şah İsmayıl, I Şah Təhmasib və II Şah İsmayılın hakimiyyət dövrləri kifayət qədər ətraflı şəkildə ilbəil işıqlandırılmışdır.

Mənbələr: *Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.5-8; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.24; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (təshih: Ə.Nəvayi), s.14-22.*

HƏSƏN BƏY ŞƏKƏROĞLU BAHARLU (vəf. 1600/01 və ya 1605/06) – qızılbaş əsilli şair və dövlət xadimi. *Baharlu* tayfasının nüfuzlu *Əlişəkəroğulları* nəslinə mənsub idi. Bu nəsil Qaraqoyunlu Cahan şahın ailəsinə bağlanırdı; belə ki, nəslin başçısı Əlişəkər bəy Baharlu Qaraqoyunlu hökmdarı Cahan şahın (və ya oğlu Məhəmməd Mirzənin) qayınatası idi. Həsən bəy Şəkəroğlu Baharlu 1590-cı ildə Hindistana getmiş, 1600/01-ci və ya 1605/06-cı illərdə dünyasını dəyişmişdir. Həyatı haqqında məlumat azdır. "Müqimi" təxəllüsünü qəbul etmiş, "Yusif və Züleyxa" məsnəvisini qələmə almışdır. Şücaətli və səxavətli insan olmuş, bir neçə musiqi alətində məharətlə ifa etməyi bacarmışdır. *Sadiq bəy Əfşar "Məcmə əl-xəvas"* təzkirəsində onun haqqında məlumat vermişdir.

Mənbələr: *Sadiq bəy Əfşar. Məcməül-xəvas (nəşrə hazırlayan: Əkrəm Bağırov), s.140-141; M.Təbriyət. Danişməndani-Azərbaycan, s.388-389.*

HƏŞT BEHİŞT (Səkkiz behişt) – İsfahan şəhərində böyük sahəyə malik bağın içində yerləşən Səfəvilər dövrünə aid məşhur saray. 1669/70-ci illərdə Şah Süleymanın göstərişi ilə tikilmişdir. İsfahandakı Həşt behişt sarayı bu adı daşıyan ilk bina olmamışdır. Ondan təqribən iki əsr əvvəl Ağqoyunlu Sultan Yaqubun zamanında Təbrizdə eyniadlı yaraşıqlı bir saray tikilmişdi.

Bağın "Səkkiz behişt" adlanmasının səbəbi barədə deyirlər ki, İslam təsəvvürünə əsasən, cənnət 8 hissədən ibarətdir və buna uyğun olaraq 8 qapısı vardır. Rəvayətə görə, Həşt behişt sarayında şahın 8 xanımı məskunlaşmışdı.

Həşt behişt sarayı dördmərtəbəlidir, hər mərtəbədə çoxlu otaq mövcuddur. Mərkəzdə çox hündür və enli tağ şəklində giriş qapısı yerləşir. Binanın əsas fasadı şimal tərəfə baxır. Həşt behişt elə tikilmişdir ki, həcminin böyüklüyünə baxmayaraq, bütöv bir ansambl təsiri bağışlayır. Mərtəbələrdəki hovuzlar və divar buxarıları ümumi memarlıq üslubu ilə orqanik şəkildə uyuşur.

Saray tikilərkən divarları və tavanı son dərəcə gözəl təsvirlərlə bəzədilmişdi. Burada insan təsvirləri ilə yanaşı, heyvan və bitki rəsmləri də göz oxşayırdı. Tavanın işlənməsində mozaika və güzgüdən də məharətlə istifadə edilmişdi. Sonrakı dövrlərdə sarayın planında və interyerində çoxlu dəyişiklik edilmişdir. Bu dəyişikliklər nəticəsində divar bəzəklərinin bir hissəsi və bəzi memarlıq elementləri aradan götürülmüşdür.

"Tarixi-aləmarayi-Abbasi" əsərində Həşt behişt sarayının adı bir neçə dəfə çəkilir. Həmin qeydlərdən məlum olur ki, Səfəvilər zamanında gözdən düşmüş bəzi əyanları həbsdən əvvəl burada müvəqqəti olaraq saxlayırdılar.

Mənbələr: *Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.91; Tarix-i aləmarayi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev,*

N.Musalı), s.586; Lüğətnameyi-Dehxuda, XV, 23479; R.Mojtahedzadeh and Z.Namavar. Golden Section in the Persian-Islamic Architecture. Case study: Hasht Behesht Palace, Isfahan, Iran (Mathematics Interdisciplinary Research 4/2019), pp.107-127.

HİKMƏTİ-MÜTƏALİYƏ – Səfəvilər dövründə yaşamış böyük filosof *Sədrəddin Şirazinin (Molla Sədra)* yaratdığı fəlsəfi təlim. Adın mənası "uca hikmət" deməkdir. Təlimin bu cür adlanmasının səbəbi Molla Sədranın onu "əmr aləmi" adlı fövqəlbəşər aləmə bağlaması, "bürhani-ərşi", "tövhidi-ərşi", "hikməti-ərşiyyə" kimi anlayışlar üzərində qurmasıdır. Ehtimala görə, Molla Sədra bu adı məşhur filosof İbn Sinanın "əl-İşarat və-l-tənbihat" kitabının X bölümündə işlətdiyi eyni ifadədən iqtibas etmişdir. Nəsirəddin Tusi həmin kitabı şərh edərkən ("Şərh əl-İşarat və-l-tənbihat") qeyd edir ki, məşşai (peripatetik) hikmət yalnız məntiq və əsaslandırmaya bağlıdırsa, hikməti-mütəaliyə həm məntiq, həm də "kəşf və zövq" üzərində qurulub, yəni onun iki dayağından biri *irfandır*.

Hikməti-mütəaliyənin digər fəlsəfi təlimlərdən əsas fərqi onun irfana meyilliliyidir. Burada ağılla (əql) vəhy bir-birinə tam uyğundur, insanın əmr aləmindən yardım almaqla əldə etdiyi əqli nəticələr vəhylə heç bir ziddiyyət təşkil etmir. İnsan elm və mərifətini ağıl cövhəri vasitəsilə əmr aləmindən əxz edir. Bəşər hissiyyatı xəlq (yaradılış) aləmi, yəni maddi dünya ilə məhdudlaşır, ağıl isə əmr aləminə bağlıdır. Molla Sədranın fikrincə, elə bir elm yoxdur ki, onun kökü və cüziyyatı, əvvəli və sonu Qurandа mövcud olmasın. Molla Sədraya kimi fəlsəfədə *nəfs* mövzusu təbiiyyat (təbiət bölümü, Aristotelin klassik təqdimatındakı fizika) bölümünə aid edilirdi, Molla Sədra onu ilahiyyat (teologiya) bölümündə yerləşdirdi. Hikməti-mütəaliyə sisteminin formalaşmasında Sührəvərdi və İbn Ərəbi düşüncələrinin Molla Sədraya böyük təsiri olmuşdur. Ümumiyyətlə, tədqiqatçılar hikməti-mütəaliyə təliminin özündən əvvəlki 4 əsas təlimdən ciddi şəkildə bəhrələndiyini qeyd edirlər. Belə ki, Molla Sədra Aristotel və İbn Sinanın məşşai fəlsəfəsindən (peripatetizm), Sührəvərdinin *işraq* təlimindən, İbn Ərəbinin nəzəri irfan görüşlərindən və ənənəvi kəlam elmindən bəhrələnərək öz təlimini yaratmışdır.

Molla Sədra hikməti-mütəaliyə təlimini əsasən "əl-Hikmət əl-mütəaliyə fi-l-əsfarəl-əqliyyət əl-ərbəə" (Ağlın dörd səfəri barədə uca hikmət) adlı kitabda izah etmişdir. Burada ağlın dörd səfərindən (təkamül mərhələsindən) bəhs edilir.

İrfan kitablarında *seyrü-süluk* yolu boyunca nəfsin 4 səfərə çıxması, yəni 4 mərhələdən keçməsi təsvir edilir:

1. Məxluqatın arasından Haqqa doğru səfər (min əl-xəlq ilə-l-Həqq).
2. Haqq ilə birlikdə Haqda olan səfər (bi-l-Həqq fi-l-Həqq).
3. Haqq ilə birlikdə Haqdan xalqa (məxluqata) sarı olan səfər (min əl-Həqq ilə-l-xəlq bi-l-Həqq).
4. Haqla birlikdə xalq arasında olan səfər (bi-l-Həqq fi-l-xəlq).

Molla Sədra nəfsin bu 4 səfərini irfandan fəlsəfəyə gətirmiş, onun müqabilində ağlın 4 səfərindən bəhs etmişdir.

İlahiyyat barədə ümumi mövzular irfandakı birinci səfərə uyğun gəlir. Xüsusi mənada ilahiyyat, yəni tövhid, ilahi sifətlər bəhsi ikinci səfərlə əlaqəlidir. Nəfsin üçüncü səfərinə varlıqlar və ağıllar aləmi, Allahın feilləri kimi mövzularda ağlın axtarışları müvafiq gəlir. Dördüncü yerdə nəfs və məad bəhsləri durur.

Molla Sədranın hikməti-mütəaliyə təlimi təqribən bir əsr boyunca çox təbliğ edilməmiş, hətta Səfəvilər dövrünün bəzi görkəmli filosof və din alimləri tərəfindən tənqid edilmişdir (*Rəcəbəli Təbrizi, Mühəqqiq Xansari, Mühəqqiq Səbzəvari, Əbdürrəzzaq Lahici* və b.). Həmin dövrdə bu təlimin azsaylı tərəfdarları sırasında Molla Sədranın şagirdi *Feyz Kaşani* də vardı. XVIII əsrin ikinci yarısından etibarən hikməti-mütəaliyə təlimi yayılmağa və özünə tərəfdarlar qazanmağa başladı. O vaxtdan hikməti-mütəaliyə təlimi filosof və ariflər tərəfindən geniş şərh edilmiş, bu mövzuda çoxlu kitab qələmə alınmışdır. Bidabadi, Molla Əli Nuri, Molla Hadi Səbzəvari, Mirzə Mehdi Aştiyani, Ayətullah Kompani, Əllamə Şərani, Əllamə Təbatəbai və b. bu təlimi öz elmi çalışmaları ilə zənginləşdirmişlər.

bax: **ƏSFARİ-ƏRBƏƏ** (əl-Əsfar əl-ərbəə).

Mənbələr: *M.Mütəhhəri. İslam elmləri külliyyatı, I, 158-160; Seyid Cəfər Səccadi. İrfani söz, termin və ibarələr lüğəti, s.88-89; Seyid Kamal Heydəri. Əl-İrfan əş-şii, s.119-134; Mehdi Hairi Yəzdi. "Əsfar" kitabına giriş ("İranname" dərgisi, 1368 h.-ş., №1), s.48-57; Seyyed Hossein Nasr. Mulla Sadra: His Teachings (in Seyyed Hossein Nasr and Oliver Leaman, eds. History of Islamic Philosophy), pp.643-662; Lüğətnameyi-Dehxuda, XIV, 21436; Molla Sədra. Əsfar (fars dilinə tərcümə: M.Xacuyi, 7 cilddə).*

HÜRR AMİLİ (1624-93) – Səfəvilər dövlətində yaşamış görkəmli şiə alimi. Məhəmməd ibn Həsən Amili İmam Hüseynin (ə) tərəfində Kərbəlada şəhid olmuş *Hürr ibn Yezid Təmimi Riyahinin* nəslindən idi. *Cəbəli-Amil* məntəqəsində doğulmuş, hər biri böyük alim olan atasından, əmisindən, babasından və atasının əmisindən dərs almışdır. Təqribən 40 yaşınadək Cəbəli-Amildə yaşamış, elmi mühitdə kifayət qədər məşhurlaşmış, iki dəfə həcc səfərinə getmişdir. Şah Süleymanın zamanında Səfəvilər dövlətinə mühacirət etmiş, əvvəlcə Məşhəddə məskunlaşmışdır. Burada Məşhəd şəhərinin *şeyxülislamı* və qazılar qazısı vəzifələrində bir müddət xidmət etmiş, daha iki dəfə də həcc ziyarətində olmuş, sonra şahın dəvəti ilə paytaxt İsfahana köçmüşdür. Şah Süleyman və *Əllamə Məclisi* tərəfindən böyük ehtiramla qarşılanan Hürr Amili *İsfahan hövzəsinin* qabaqcıl ustadlarından biri kimi fəaliyyət göstərmişdir.

İxtisasca hədis alimi olan Hürr Amili bundan əlavə fiqh, əqaid, hətta həndəsə sahəsində dəyərli əsərlər qələmə almışdır. Hədisi-qüdsilərin toplusundan ibarət olan "Əl-Cəvahir əs-səniyyə", Cəbəli-Amil alimlərinin həyatından bəhs edən "Əməl əl-amil" kitabları xüsusilə məşhurdur. Hürr Amilinin ən çox tanınan əsəri *"Vəsail əş-şiə"* adlı hədis məcmuəsidir (kitabın bütöv adı: "Təfsil vəsail əş-şiə ila təhsil məsail əş-şəriə").

Hürr Amili irfan və təsəvvüfə meyil edir, irfani məzmunlu şeirlər yazırdı. 1693-cü ildə Məşhəddə dünyasını dəyişmiş və İmam Rzanın (ə) hərəminin həyətində dəfn edilmişdir.

Qardaşı Əhməd ibn Həsən Hürr Amili də Səfəvilər dövlətində görkəmli din alimi kimi tanınmış, qardaşından sonra Məşhəd şəhərinin şeyxülislamı vəzifəsində xidmət etmişdir.

Mənbələr: *Hürr Amili. Təfsil vəsail əş-şiə ila təhsil məsail əş-şəriə (nəşrə hazırlayan: Müəssəsət Al əl-beyt li-ihya ət-tiras), I, 73-87; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 30-33; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 63-75; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VII, 96-105.*

HÜRR İBN YƏZİD RİYAHİ TƏMİMİ

(vəf. 680) – Kərbəla şəhidlərindən biri. Əvvəlcə *İmam Hüseynə (ə)* əks cəbhədə qərar tutmuşdu, İbn Ziyadın sərkərdələrindən idi. Kufə yoluna nəzarət etmək üçün ayrılmış min nəfərlik dəstələrin birinə o, başçılıq edirdi, İmam Hüseyni (ə) Kərbəlada köç salmağa məcbur etmiş və mühasirədə saxlamışdı. O, İmam Hüseynin (ə) öldürüləcəyini gözləmir, işin barışıqla sona çatacağına ümid edirdi. *Aşura* günü döyüş başlamazdan əvvəl İmam Hüseynlə (ə) savaşacaq qoşunun başçısı olan Ömər ibn Sədlə söhbətdə Peyğəmbərin nəslinə qarşı soyqırımı hazırlandığını başa düşən Hürr qoşundan ayrılıb İmam Hüseynin (ə) hüzuruna gəldi və etdiklərindən peşman olduğunu, tövbə etdiyini, onun tərəfində döyüşüb şəhid olmaq istədiyini bildirdi. Aşura günündə o, İmamın silahdaşları ilə çiyin-çiyinə durub düşmənin ilk həmləsini dəf etdi. Sonra təkbətək döyüşlərin ilk mərhələsində meydana girdi. Əvvəlcə süvari halda döyüşdü, atını oxla vurub öldürəndən sonra piyada savaşdı. Uzun müddət şücaətlə döyüşdükdən sonra şəhid oldu. İmam Hüseyn (ə) Hürrün cəsədi üstə gəlib onun başını dizinin üstünə aldı və buyurdu: "Anan sənə Hürr (azad) adını verdi, sən dünyada və axirətdə azadsan". Sonra İmam onun üzünü toz-torpaqdan təmizləyib, öz dəsmalı ilə yaralı başını sarıdı.

Hazırda Hürrün məzarı qalan şəhidlərin məqbərəsindən kənarda – Nəvavis adlı məntəqədə yerləşir. I Şah İsmayıl İraqı fəth etdikdən (1508-ci il) sonra xalq arasında guya Hürrün tövbəsinin qəbul edilmədiyi barədə şayiələr yayıldığını eşitdi və şübhələrə son qoymaq üçün onun məzarını açmağı əmr etdi. Qəbri açanda Hürrün çürüməmiş cəsədi ilə qarşılaşdılar, onun başı dəsmalla sarınmışdı. I Şah İsmayıl İmam Hüseynin (ə) yadigarı olan dəsmalı təbərrük kimi özünə götürmək istədi, amma dəsmalı açanda Hürrün başındakı yaradan alqan açıldı. Yaranı başqa dəsmalla bağlamaq istəsələr də, qan kəsilmədi. Onda dəsmalı iki yerə böldülər, yarısını şah özü üçün saxladı, o biri yarısı ilə yenə Hürrün yarasını bağlayıb qəbrin üstünü örtdülər. Bununla da Hürrün tövbəsi barədə şübhələrə son qoyuldu. Çünki hədislərdən məlumdur ki, əsl *şəhidlərin*, möminlərin və Allah dostlarının cəsədi torpaq altında çürüməz.

Bu hadisəni XVIII əsr Səfəvilər dövrünün müəllifi *Seyid Nemətullah Cəzairi*

"əl-Ənvar ən-nömaniyyə" əsərində yazmış, Ayətullah Maməqani və Şeyx Abbas Qumi kimi sonrakı müəlliflər də həmin kitabdan nəql etmişlər.

Deyilənlərə görə, bu hadisədən sonra I Şah İsmayıl Hürrün məzarını açmağına görə peşman olmuş, özünə *"Xətai"* təxəllüsünü götürmüş və qəzəllərinin birində yazmışdır:

Şah Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini,
Bar-ilaha, əfv qıl kim, tövbəkaram, doğrusu.

Mənbələr: *Seyid Nemətullah Cəzairi. Əl-Ənvar ən-nömaniyyə, III, 228-229; Şeyx Abbas Qumi. Nəfəs əl-məhmum və nəfsət əl-məsdur, s.125; Cavad Mühəddisi. Fərhəngi-Aşura, s.144-145; Natiq Rəhimov. Aşura şəhidləri, s.41; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 588.*

HÜVEYZİ, Əbdi-Əli ibn Cümə Ərusi (vəf. 1662-ci ildən sonra) – XVII əsrdə Səfəvilər dövründə yaşamış görkəmli şiə alimi. Xuzistan vilayətində doğulmuş, *Müşəşəilərin* zamanında Şiraz şəhərində yaşamışdır. Öz zəmanəsində böyük hədis, fiqh və təfsir alimi kimi tanınırdı, *əxbari* cərəyanına mənsub idi. *Seyid Nemətullah Cəzairiyə* dərs demişdir. Şiə məzhəbində ən mühüm rəvayi təfsirlərdən sayılan "Nur əs-səqəleyn" əsərinin müəllifidir. Kitabda Quran-Kərimin ayələri yalnız məsumların hədisləri vasitəsilə təfsir edilir.

Hüveyzinin həyatı barədə məlumat azdır. Hətta vəfat tarixi də dəqiq deyildir, məlum olan budur ki, 1662-ci ildən sonra vəfat etmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 89; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, III, 147-148; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, IV, 213-218.*

XANSARİ, Ağa Camal (vəf. təqr. 1713) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. *Ağa Hüseyn Xansarinin* oğludur. Adı Məhəmməd, ləqəbləri Cəmaləddin və Cəmal əl-mühəqqiqindir. *İsfahan hövzəsinin* yetirməsidir, atasından və dayısı *Mühəqqiq Səbzəvaridən,* həmçinin *Məhəmməd Təqi Məclisidən* dərs almışdır. Müasirləri onun elmi məqamını yüksək dəyərləndirirdilər. Səfəvi sarayında ehtiram sahibi idi, hətta şahlar bəzi dini məsələləri şəxsən ondan soruşur, suallarına yazılı şəkildə risalə formasında cavab verməsini xahiş edirdilər. Xansarı Səfəvilər sarayında bəzi mühüm qərarların verilməsində, yüksək vəzifə təyinatlarında məsləhətçi qismində çıxış edirdi. Elmi mühitdəki yüksək məqamını göstərən sübutlardan biri də budur ki, *Əllamə Məclisinin* cənazə namazını qılmaq Ağa Camal Xansariyə həvalə edilmişdi. Əsərlərinin əksəriyyəti məşhur dini mətnlərə şərh və haşiyələrdən ibarətdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 54; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma, I, 114; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, II, 214-215.*

XANSARİ, Ağa Hüseyn ibn Cəmaləddin (1607-1687) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi, *şeyxülislam*. Həm əqli, həm də nəqli

elmlərdə eyni dərəcədə məharət sahibi olduğu üçün "Ustad əl-küll fi-l-küll" (bütün elmlərdə mütləq ustad) ləqəbini qazanmışdır. Mənbələrdə Mühəqqiq Xansari kimi xatırlanır. Onun son dərəcə iti zehniyyətə və dərin tədqiqatçılıq bacarığına malik olduğunu yazırlar. Səfəvi sarayında da böyük nüfuz sahibi idi, hətta Şah Süleyman İsfahanı müvəqqəti tərk edəndə onu şəhərdə öz yerinə canişin qoyurdu. Xansari Səfəvi dövlətində ən yüksək dini məqam sayılan şeyxülislam vəzifəsini icra edirdi. Sairlikdə də qələmini sınamış və dərin məzmunlu irfani şeirlər yazmışdır.

Mühəqqiq Xansari İsfahanda *Mir Fendereski, Mühəqqiq Səbzəvari, Məhəmməd Təqi Məclisi* və başqalarından dərs almışdır. Səfəvilər dövrünün bir neçə böyük elm xadimi onun şagirdi olmuşdur (*Mirzə Məhəmməd Şirvani, Seyid Nemətullah Cəzairi, Hürr Amili, Mirzə Abdullah Əfəndi*, öz oğlu *Ağa Camal Xansari* və b.). Fəlsəfə, hikmət, fiqh sahələrində dəyərli əsərlər qələmə almış, özündən əvvəlki müəlliflərin kitablarına şərh və haşiyələr yazmışdır. Ustadı Mühəqqiq Səbzəvarinin bacısı ilə ailə qurmuş, bu izdivacdan görkəmli din alimi Ağa Camal Xansari doğulmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 239-242; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, II, 57-60.*

XATUNABADİ, Mir Məhəmməd Baqir (vəf. 1715) – XVII əsrin ikinci yarısı – XVIII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi, Səfəvilər dövlətinin ilk *mollabaşısı*. *İmam Zeynülabidinin (ə)* nəslindən olan Xatunabadilər sülaləsinə mənsub olmuşdur. O, eyni nəslin nümayəndəsi olan *Mir Məhəmməd Saleh Xatunabadinin* bir il *şeyxülislamlıqdan* azad edildiyi müddətdə həmin vəzifəni icra etmişdir. Daha sonralar Şah Sultan Hüseyn tərəfindən mollabaşı təyin edilmiş və bu mənsəbə ilk dəfə o, təyinat almışdır. Lakin şəhərdə qıtlıq baş verəndə hakimiyyətin zəifliyindən istifadə edən əyanlar xalq arasında şayiə yaydılar ki, bunun təqsirkarı mollabaşıdır. Camaat Xatunabadinin evini qarət etdi, mollabaşının özü də təhqirə məruz qaldı. Bu hadisədən sonra Mir Məhəmməd Baqir Xatunabadi xəstələnərək tezliklə dünyasını dəyişdi.

bax: **XATUNABADİ**, Mir Məhəmməd Saleh.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 99-102; Lüğətnameyi-Dehxuda, VI, 9270.*

XATUNABADİ, Mir Məhəmməd Saleh (vəf. 1714) – XVII əsrin ikinci yarısı-XVIII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. Xatunabadilər *İmam Zeynülabidinin (ə)* nəslindən, İsfahan yaxınlığındakı Xatunabad məntəqəsindən idilər. Mir Məhəmməd Saleh Xatunabadi məşhur alim *Əllamə Məclisinin* bacısı oğlu və kürəkəni idi, *Mirzə Məhəmməd Şirvanidən* və Əllamə Məclisidən dərs almışdı. Əllamə Məclisinin vəfatından sonra 5 il müddətində *Ağa Hüseyn Xansarinin* kürəkəni Şeyx Cəfər Hüveyzi, ondan sonra isə Xatunabadi İsfahan şəhərinin *şeyxülislamı* vəzifəsinə təyin edilmişdir. Xatunabadi 9 il

müddətində bu vəzifəni daşımış, sonra vəzifəsindən azad edilmiş, bir ildən sonra yenidən vəzifəsinə qaytarılmışdır. Xatunabadinin müxtəlif dini mövzularda, o cümlədən, əqaid, fiqh və təqvim barədə dəyərli əsərləri vardır.

Mir Məhəmməd Saleh Xatunabadinin oğlu Mir Məhəmməd Hüseyn (vəf. 1739) və həmin nəsildən olan Mir Əbdülğəni Xatunabadi (vəf. 1748) də görkəmli din alimi idilər, onların hər ikisi Nadir şahın dövründə İsfahanın şeyxülislamı olmuşdur. Mir Məhəmməd Saleh Xatunabadinin bir il şeyxülislamlıqdan azad edildiyi müddətdə eyni nəslin digər nümayəndəsi *Mir Məhəmməd Baqir Xatunabadi* (vəf. 1715) həmin vəzifəni icra etmişdir.

Bu nəslin digər nümayəndələri də Səfəvilər, Nadir şah və Qacarlar dövründə böyük alim kimi tanınmışlar.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 99-102; Lüğətnameyi-Dehxuda, VI, 9270.*

XƏTAİ – Səfəvilər dövlətinin banisi *I Şah İsmayılın* ədəbi təxəllüsü. Onun *divanındakı* bütün qəzəllər və qoşmalar, *"Dəhnamə"* poeması və *"Nəsihətnamə"* məsnəvisi bu təxəllüslə imzalanmışdır.

"Xətai" sözünün mənşəyi barədə məlumatlar fərqlidir. Əksər kitablarda bu söz ərəb əlifbasındakı qalın "ta" hərfi ilə yazılır ki, bunun da mənası "xətalı, təqsirkar" deməkdir. Bəzən bu sözü iki nöqtəli "te" hərfi ilə də yazır və Xəta (Xətay) məntəqəsinə aid edirlər. Xəta (Xətay) Çinin şimal-qərbində böyük bir vilayətin və orada yaşayan xalqın adıdır. Tarixi ədəbiyyatda bu xalqı "kidanlar" da adlandırır, "Kitay" sözünün buradan qaynaqlandığını yazırlar. Xətaylar X-XI əsrlərdə böyük dövlət qurmuş, daha sonralar Qaraxitay dövlətini (1125-1211) yaratmışdılar. I Şah İsmayılın özünü xətaylara aid etməsi nəzəriyyəsini dəstəkləyənlərin sübutu tam aydın deyil.

Başqa nəzəriyyəyə görə, I Şah İsmayıl xətalarla dolu bir dünyada yaşadığı üçün özünə "Xətayi" təxəllüsünü götürmüşdür. Daha bir nəzəriyyəyə görə, 1508-ci ildə İraqı fəth edərkən Kərbəla şəhərində dəfn olunmuş sərkərdə *Hürr ibn Yezid Riyahi Təmiminin* qəbrini açdırmış, sonra peşman olaraq bu təxəllüsü qəbul etmişdir. Sonuncu nəzəriyyəni doğru saymayanlar da vardır, çünki Xətainin İraq fəthindən əvvəl yazdığı şeirlərdə (o cümlədən, 1506-cı ildə tamamladığı "Dəhnamə" poemasında) "Xətai" təxəllüsünü görürük.

Görkəmli ədəbiyyatşünas Salman Mümtaz 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalında dərc etdirdiyi məqalədə fərqli nəzəriyyə irəli sürmüşdür: "Xəta Təbrizin yaxınlığında bir fərəhəfza kəndin adıdır ki, bu gün dəxi abaddır".

Tədqiqatçılar I Şah İsmayıldan əlavə "Xətai" təxəllüslü daha iki şairdən də bəhs etmişlər. Bunlardan biri XV əsrdə yaşamış, Ağqoyunlu Sultan Yaqubun şərəfinə azərbaycaca "Yusif və Züleyxa" poemasını yazmış, digəri isə cığatay ləhcəsində dini məzmunlu məsnəvi qələmə almışdır. "Xətai" təxəllüsündən istifadə etmiş daha bir şairin Hindistana mühacirət etdiyi və Qucarat bölgəsində yaşadığı deyilir.

Şah İsmayıl Xətainin şeirləri vaxtilə *qızılbaşlar* tərəfindən *təriqət* dərsliyi səviyyəsində oxunmuş, sevilmiş və təbliğ olunmuşdur. Onun şeirləri *təkkələrdə dərvişlərin* dilinin əzbəri idi, qızılbaş əsgərləri döyüş meydanında şahın gəraylılarını oxuyaraq igidlik göstərirdilər. Xətai *bektaşilikdə* xüsusi ehtiram olunan *yeddi ulu ozandan* biridir. Bu gün də ələvi-bektaşi məclislərində onun şeirləri ayin ədəbiyyatı çərçivəsində oxunur. Görkəmli tədqiqatçı A.Gölpınarlı yazırdı: "Zatən ələvilər Xətainin bu məxlasi o qədər xüsusilikdən çıxarmışlar, o qədər ümumiləşdirmişlər ki, hər hansı bir şeirin şairini soruşarkən "bu şeirin xətaisi kimdir?" deyə soruşurlar. Xətai təxəllüslü hər hansı bir şeir oxunarkən məclislərdə qadınlar ayağa qalxar, kişilər diz çökər".

bax: **HÜRR.**

Mənbələr: *Soltan Hüseynqulu oğlu. Şah İsmayıl Xətai, s.58; İ.Aslanoğlu. Şah İsmail Hatayi (Divan, Dehname, Nasihatname ve Anadolu Hatayileri), s.14-15; S.N.Ergun. Hatayi Divanı, s.23-24; Şah İsmayıl Xətai (2 cilddə), I, 13; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 139; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.366; S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.309.*

XƏTAİ DİVANI – Səfəvilər dövlətinin banisi *I Şah İsmayılın* Azərbaycan türkcəsində yazdığı əsərlərin məcmusu. Xətai divanı Səfəvilər dövrünün ədəbi mühitini və *qızılbaş* düşüncəsini ən gözəl xarakterizə edən mənbələrdən biri sayılır. I Şah İsmayılın şeirlərindən məlum olur ki, hələ onun öz sağlığında divanı mövcud imiş:

Çün Xətaiyəm, şəhin vəsfini daim söylərəm,
Sidq ilən bel bağlaram, dəftərlə divan məndədir.

Bu Xətai şeirinə tən etmə, ey nakəs həsud,
Cümlə üşşaq əhlinə həmdəm onun divanıdır.

Xətai divanının məlum olan ən qədim nüsxəsi müəllifin vəfatından cəmi 11 il sonra (1535-ci il) məşhur xəttat Şah Mahmud Nişapuri tərəfindən köçürülmüş Daşkənd nüsxəsi sayılır. Şah İsmayıl Xətai divanının 1966-cı ildə Bakıda nəşr olunmuş elmi-tənqidi mətni Azərbaycan türkcəsində 15 qəsidə, 371 qəzəl və 11 rübaidən, farsca bir qəzəl, bir təxmis (Hafiz Şirazidən) və kiçik şeir parçalarından ibarətdir. Daha bir neçə şeirin də Xətaiyə aid olması mübahisəlidir. Şairin qoşmaları və heca vəznində yazdığı digər şeirlər, *"Dəhnamə"* və *"Nəsihətnamə"* məsnəviləri bura daxil deyil.

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, IX, 397-399; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 33-34; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 16.*

XONDƏMİR (1475-1535) – XV-XVI əsrlərdə yaşamış görkəmli tarixçi. Qiyasəddin ibn Hümaməddin Xondəmir məşhur tarixçi, "Rövzət əs-səfa" kitabının müəllifi Mirxondun (1433-98) qız nəvəsidir. (Bəzən onu yanlış olaraq Mirxondun oğlu hesab edirlər). Atası bir müddət Səmərqənddəki son Teymuri hökmdarı Sultan Mahmudun vəziri olmuşdur. Xondəmir Heratda Teymuri hökmdarı *Sultan Hüseyn Bayqaranın*, daha sonra

oğlu Baysunqur Mirzənin sarayında fəaliyyət göstərmiş, Əmir Əlişir Nəvainin qayğısı ilə əhatə olunmuşdur. Özbək xanı *Şeybani* Herat üzərinə hücum edərkən Xondəmir şəhər əhalisinin adından məktub yazaraq qardaşı oğlu vasitəsilə Şeybani xana yollamışdı. Özbək işğalı zamanı alim kəndlərin birinə çəkilib yaradıcılıqla məşğul oldu, Herat qızılbaşlar tərəfindən fəth edildikdən sonra isə yerli Səfəvi hakimlərinin himayəsi altında yazıb-yaratmağa davam etdi.

Xondəmir babasının "Rövzət əs-səfa" əsərini tamamlamış, özü "Həbib əs-siyər" adlı fundamental tarix kitabını yazmışdır. Bu əsər üzərində müəllif təqribən 3 il işləmişdir (1521-24). Xondəmir kitabı müəllimi Həbibullah Ərdəbiliyə, yaxud Herat hakimi *Durmuş xan Şamlunun* vəziri Xacə Həbibullah Savəciyə həsr etmişdir; kitabda Həbibullah Savəci gözəl ifadələrlə tərifləmir. (Əsərin adındakı "Həbib" sözü də bununla bağlıdır). "Həbib əs-siyər" salnamə tipli ümumtarix kitabıdır, dünyanın yaranışından I Şah İsmayılın hakimiyyətinin sonunadək olan dövrü əhatə edir. Xondəmir bundan əlavə "Xülasət əl-əxbar", "Dəstur əl-vüzəra" və digər kitabların da müəllifidir.

Xondəmir təqribən 1526-cı ildə Xorasanda baş vermiş siyasi dəyişikliklərlə əlaqədar Hindistana köçməyə məcbur olmuşdur. O, əvvəlcə Böyük Moğol hökmdarı *Babur şahın*, daha sonra oğlu Humayun şahın diqqət mərkəzində ömür sürmüş, "Qanuni-Humayun" əsərini ona həsr etmişdir. 1535-ci ildə hökmdarın Qucarat yürüşü zamanı (və ya yürüşdən geri qayıdarkən) dünyasını dəyişmiş tarixçi Dehlidə, Nizaməddin Övliya və Əmir Xosrov Dehləvinin məqbərəsində dəfn olunmuşdur. Oğlu Əmir Mahmud Xondəmir də salnaməçi idi, "Həbib əs-siyər" əsərinə zeyl (əlavə, tamamlama) yazmışdı.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 186-187; Xondəmir. Həbib əs-siyər (müqəddimə: Cəlaləddin Humayi), s.71-75; Xondəmir. Dəstur əl-vüzəra (müqəddimə: Səid Nəfisi); A.Xürrəmabadi. Əmir Mahmud Xondəmirin həyatı və onun "Zeyli-tarixi-Həbibüs-siyər" əsəri ("Tarix və onun problemləri" dərgisi, №2, 2014), s.334-341; Şah İsmayıl və Şah Təhmasib Səfəvinin tarixi (Zeyli-tarixi-Həbib əs-siyər, təshih və haşiyə: M.Ə.Cərrahi), müqəddimə bölümü.*

İBN BƏZZAZ ƏRDƏBİLİ – XIV əsrdə yaşamış görkəmli tarixçi və ədib, Səfəvilər tarixi üzrə ən mühüm mənbələrdən sayılan, *səfəviyyə* təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin* həyatından bəhs edən *"Səfvət əs-səfa"* əsərinin müəllifi, səfəviyyə təriqətinin üzvü. Əsl adı Dərviş Təvəkküli ibn İsmail ibn Hacı Məhəmməd Ərdəbili idi. Həyatı haqqında ətraflı məlumat yoxdur. Adıçəkilən əsəri Şeyx Səfiəddinin oğlu və canişini *Şeyx Sədrəddinin* sifarişi və xahişi ilə qələmə almışdır. İbn Bəzzaz bu əsərdə 1326-cı ildə gənc ikən ustadı Şəmsəddin Təvəkküli Vaiz Ərdəbili ilə birlikdə Marağaya səfəri zamanı Şeyx Səfiəddini gördüyünü yazır, lakin kitabın heç bir yerində onun şeyxdən birbaşa nəqlinə və ya özəl xatirəsinə rast gəlmirik. İbn Bəzzazın əmisi və ya dayısı Pirə Əhməd Müəzzin Ərdəbili Şeyx Sə-

finin *müridlərindən* olmuşdur. "Səfvət əs-səfa" kitabından görünür ki, İbn Bəzzaz səfəviyyə təriqətinin əsaslarını, ümumilikdə təsəvvüf biliklərini mükəmməl şəkildə mənimsəmiş, Şeyx Səfiəddinin şəxsiyyətinə səmimi şəkildə bağlı olmuşdur. İbn Bəzzazın bundan başqa təsəvvüf inancına həsr edilmiş "Kəşf əl-qülub" adlı daha bir kitab yazdığı da deyilir.

"Səfvət əs-səfa" əsərinin 1358-ci ildə tamamlandığını nəzərə alaraq deyə bilərik ki, İbn Bəzzaz həmin il sağ olmuş, bu tarixdən sonra dünyasını dəyişmişdir.

Mənbələr: *İbn Bəzzaz Ərdəbili. Səfvət əs-səfa (müqəddimə: Q.Təbatəbaiməcd), s.16-17; Lüğətnameyi-Dehxuda, I, 343; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XIX, 378-379.*

İLAHİ ƏRDƏBİLİ (vəf. 1543) – XVI əsrin birinci yarısında Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli Azərbaycan filosofu, din alimi və arif. Kəmaləddin Hüseyn ibn Şərəfəddin Ərdəbili gənc yaşlarında *Sultan Heydərə* qoşulmuş, onun məsləhəti ilə Şiraza və Xorasana elm ardınca səfər etmişdir. Bu bölgələrdə o, Əllamə Dəvanidən dərs almış, Əlişir Nəvainin xidmətində olmuşdur. Əllamə Dəvani İlahi Ərdəbilini özünün ən üstün tələbələrindən biri kimi qəbul edirdi.

Alim təhsilini başa vurduqdan sonra Ərdəbildə Şeyx Səfi təkkəsində xidmət etmişdir. 70 ildən çox yaşamış, Ərdəbil şəhərində torpağa tapşırılmışdır.

İlahi Ərdəbilinin fəlsəfə və *irfanda* çox yüksək məqama çatdığını yazırlar. İmamların fəzilətləri barədə risalə və *"Nəhcül-bəlağə"yə* şərh yazaraq hər iki kitabı I Şah İsmayıla ithaf etmişdi. Farsca bütöv, ərəbcə natamam Quran təfsiri də vardır. O, Əllamə Dəvaninin, Nəsirəddin Tusinin, Cüveyninin, Seyid ibn Tavusun, Əllamə Hillinin əsərlərinə şərh və haşiyələr yazmış, irfan mövzusunda məşhur kitablardan sayılan Şəbüstərinin "Gülşəni-raz" məsnəvisini şərh etmişdir. İmamət mövzusunda türk dilində risaləsi olduğunu yazırlar. Zərif şairlik təbinə sahib idi. Ədəbi irsi ümumilikdə 30 cild kitabdan və iki min beyt həcmində şeirdən ibarətdir. Bəziləri onu fars dilində şiə məzhəbinə uyğun ilk şəriət kitabı yazmış müəllif hesab edirlər.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.168-170; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, II, 690-693; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 168-169; Əliyar Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.442.*

İMAM MUSA KAZİM (745-799) – şiələrin yeddinci imamı. Atası altıncı *imam Cəfər Sadiq* (ə), anası Həmidə adlı kəniz idi. Hicri 128-ci il səfər ayının 7-də (miladi 745-ci il) doğulmuşdur. Məşhur ləqəbləri Kazim (Qəzəbini udan), Əbd əs-saleh (Əməlisaleh bəndə), Bab əl-həvaicdir (Ehityacların ödəndiyi qapı).

İmam Kazim (ə) 20 yaşında ikən atası vəfat etmiş, bundan sonra şiə məzhəbi daxilində parçalanmalar baş vermişdir. İmamın qardaşı İsmail hələ atasının sağlığında dünyasını dəyişsə də, onun və oğlu Məhəmmədin imamlığını dəstəkləyənlər az deyildi. Həzrət Kazimin (ə) daha bir qardaşı Abdullah Əftəh də imamət iddiası ilə çıxış etmiş, lakin ətrafına çox tərəfdar toplaya bilməmişdi.

İmam Musa Kazim (ə) Abbasi xəlifələrinin zamanında daim təzyiq altında yaşamışdır. O, xəlifə Mehdinin zamanında (775-785) bir müddət Bağdadda nəzarət altında saxlandıqdan sonra Mədinəyə qaytarıldı. Harun ər-Rəşid (786-809) hakimiyyətə keçdikdən sonra İmam Kazimin (ə) nüfuzundan narahat olmağa başladı. Onun əmri ilə imamı əvvəlcə Bəsrədə, daha sonra Bağdadda həbsə aldılar. İmam Kazimin (ə) saxlanıldığı həbsxanaların rəisləri onun məsum şəxsiyyətini görüb, ona əziyyət verməkdən imtina edirdilər, buna görə Harun ər-Rəşid imamın yerini tez-tez dəyişirdi. Nəhayət, hicri 183-cü il rəcəb ayının 25-də (miladi 799-cu il) Bağdad zindanda imama zəhərli xurma yedizdirib şəhid etdilər. O, Bağdad yaxınlığındakı Qüreyş məzarlığında dəfn edildi; hazırda bura Bağdadın Kazimiyyə məhəlləsi kimi tanınır. (Məhəllənin adı da İmam Kazimin (ə) ləqəbindən götürülmüşdür).

İmam Musa Kazimin (ə) 37 (18-i oğlan olmaqla), yaxud 60 (23-ü oğlan olmaqla) övladı olduğunu yazırlar. İmam Kazimin (ə) övladlarının çoxu sonralar Səfəvilər dövlətinə daxil olan ərazilərdə vəfat edib dəfn olunmuşlar. Bu da İmam Rzanın (ə) Xorasana gətirilməsindən sonra qardaş və bacılarının onu görmək üçün Mədinədən yola çıxmaları ilə bağlıdır. İmam Kazimin (ə) oğullarından İmam Rza (ə) Məşhəddə, "Şahçıraq" ləqəbli Əhməd Şirazda, Səfəvilər nəslinin banisi olan Həmzə Rey şəhərində dəfn olunmuşlar. Qızlarından Həzrət Fatimeyi-Məsumənin Qum şəhərindəki məzarı böyük ziyarətgahdır. Daha bir qızı Həkimə xanımın məzarı Bibiheybətdə yerləşir. "Musəvi" nəsəbli seyidlər İmam Musa Kazimin (ə) övladlarıdır.

İmam Musa Kazim (ə) *Səfəvilər sülaləsinin* ulu əcdadıdır. Bu sülalənin *seyid* olmasına qarşı bəzi iddialar irəli sürülsə də, bunlara tutarlı arqumentlərlə cavablar verilmişdir. *"Silsilət ən-nəsəbi-Səfəviyyə"* kitabında bu sülalənin *Şeyx Səfiəddindən* yuxarı nəsil şəcərəsi aşağıdakı şəkildə verilir: Şeyx Səfiəddin ibn *Şeyx Əminəddin Cəbrail* ibn *Qütbəddin* ibn *Saleh* ibn *Məhəmməd Hafiz* ibn *Əvəz* ibn *Firuz şah Zərrinkülah* ibn Məhəmməd ibn Şərəf şah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmail ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasim ibn Seyid Əbülqasim Həmzə ibn İmam Musa Kazim (ə).

Mənbələr: *Şeyx Hüseyn Pirzadə Zahidi. Silsilət ən-nəsəbi-Səfəviyyə, s.10-11; İbn Bəzzaz Ərdəbili. Səfvət əs-səfa, s.75; Şeyx Abbas Qumi. Müntəha-l-amal, II, 793-858.*

İMAMƏT – ərəb dilindən lüğəti tərcüməsi "öndə durmaq, başçılıq etmək" deməkdir. Ümumi anlamda camaat namazı qılanlara öz aralarından daha savadlı və ədalətli bir adamın başçılıq etməsinə imamət deyilir. Bir millətin, təriqətin, dini-siyasi hərəkatın rəhbəri də "imam" adlandırıldığı üçün onun liderlik vəzifəsi imamət sayılır (məsələn, İmam Şamil, İmam Əbu Hənifə və s).

Daha dar anlamda imamət *şiə* məzhəbinin əqidə əsaslarından biridir. Şiə inancına görə, imamət Allahın Öz seçilmiş

bəndələrinə verdiyi, nübüvvətdən fərqli bir məqamdır. Həzrət İbrahim (ə) peyğəmbərliyə təyin olunduqdan çox sonra imamət məqamına yüksəlmişdi: "Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Allah ona): "Səni insanlara imam təyin edəcəyəm", – dedi..." (Bəqərə, 124).

Şiə əqidəsinə görə, imamlar Allahın yer üzündə insanlara hüccətidir (nişanəsi, əlamətidir) və Allah yer üzünü heç zaman hüccətsiz qoymaz. Hüccət ya peyğəmbər, ya da imamdır. Sonuncu peyğəmbər Həzrət Mühəmmədin (s) vəfatından sonra vəhy kəsilmişdir, amma yer üzünün imamsız qalması mümkün deyil. Şiə əqidəsinə görə, imamların sayı 12-dir, sonuncu imam Həzrət Mehdi (ə) diridir, Allahın məsləhət bildiyi vaxt zühur edəcək və onun hakimiyyəti Qiyamət gününədək davam edəcək.

Peyğəmbər vəfat etdikdən sonra dini hökmləri insanlara çatdırmaq, Quranın və sünnənin qaranlıq tərəflərinə aydınlıq gətirmək, bidət və təhriflərə etiraz etmək üçün imamın mövcudluğu zəruridir. Allah-Taala insanlara qarşı mehriban olduğu üçün onları başsız və rəhbərsiz qoymaz. Həmçinin insanlar günahdan və səhvdən uzaq olmadıqları üçün gərək mütləq bir nəfər onlara rəhbərlik etsin, yolunu azanları doğru yola qaytarsın. Bu məsuliyyəti daşımağa səlahiyyəti çatan imam, əvvəla, peyğəmbər tərəfindən bu məqama təyin edilməlidir ki, ona etiraz edən olmasın. İkincisi, imam adamların gözündə eyib və nöqsan sayılan bütün sifətlərdən uzaq olmalıdır (yəni məsum olmalıdır). Üçüncüsü, imam hər kəsdən daha bilikli olmalı, dini və şəriəti hamıdan yaxşı bilməli, bütün sualları düzgün cavablandırmağı bacarmalıdır. Dördüncüsü, imam öz imamətini sübuta yetirmək üçün Allahın yardımı ilə möcüzə göstərməyə qadir olmalı, onunla imamət davası edən şəxsləri aciz qoymalıdır.

İmamət şiə məzhəbinin 5 əsas əqidə prinsipindən biridir (tövhid, nübüvvət, məad və ədllə yanaşı). Geniş yayılmış təsnifata görə, bunlardan üçü (tövhid, nübüvvət və məad) dinin əsasları (üsulidin) sayılır. Qalan iki prinsip (imamət və ədl) isə məzhəbin əsasları (üsuliməzhəb) hesab edilir.

İmamət inancının izahına, mübahisəli məsələlərin çözülməsinə həsr edilmiş kitabların bir çoxu Səfəvilər dövründə qələmə alınmışdır. Səfəvilər zamanında yaşamış alimlər imamət inancına qarşı irəli sürülən iddiaları öz kitablarında ətraflı şəkildə cavablandırmışlar. Bu kitabların bir hissəsi müstəqil əsər, bir qismi isə əvvəlki alimlərin yazılarına haşiyə və şərhlərdən ibarətdir.

Mənbələr: *Nəsirəddin Tusi. Təcrid əl-etiqad, s.135-150; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 106-107; Lüğətnameyi-Dehxuda, III, 3307.*

İMAMLAR – *şiə* əqidəsinə görə, Həzrət Mühəmməd Peyğəmbərdən (s) sonra müsəlmanların rəhbəri olan, aşağıda adları çəkilən 12 müqəddəs və məsum şəxs:

1. İmam Əli ibn Əbu Talib (598-661).
2. İmam Həsən (624/625-670).
3. İmam Hüseyn (626-680).

4. İmam Əli Zeynülabidin (659-713).
5. İmam Mühəmməd Baqir (676/677-733).
6. İmam Cəfər Sadiq (702-765).
7. İmam Musa Kazim (745-799).
8. İmam Əli Riza (766-818).
9. İmam Mühəmməd Təqi (811-835).
10. İmam Əli Nəqi (827/828-868).
11. İmam Həsən Əsgəri (846-874).
12. İmam Mehdi (doğ. 869).

Səfəvilər sülaləsinin şəcərəsini yeddinci *İmam Musa Kazimə (ə)* bağlayırlar.

bax: **ON İKİ İMAM, İMAMƏT, İMAM MUSA KAZİM.**

Mənbələr: *Əllamə Təbatəbai. İslamda şiəlik, s.221-256; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 125-141; Dairət əl-məarifi-təşəyyö, II, 334-377; Seyid Möhsün Əmin. Əyan əşşiə, I, 323-677 və II, 5-49; Şeyx Abbas Qumi. Müntəha-l-amal; Mehdi Pişvayi. Məsum imamların həyatı; Ə.Əhmədov. Allahın hücətləri; Şeyx Müfid. Əl-İrşad fi mərifət hücəc-Allah əla-l-ibad.*

İSFAHAN HÖVZƏSİ – XVII əsrdə Səfəvilər dövlətinin paytaxtı İsfahan şəhərində mövcud olmuş elm mərkəzi. İsfahan şəhərində bundan əvvəl də elmi mərkəzlər mövcud olmuş, Büveyhilər və Səlcuqlar zamanında burada ciddi elmi fəaliyyətlər həyata keçirilmişdir. 20 il ərzində (1023-1037) İsfahanda yaşayıb-yaratmış məşhur filosof İbn Sinanın araşdırmaları, Səlcuq vəziri Nizam əl-mülkün təşəbbüsü ilə yaradılmış Nizamiyyə mədrəsəsində təşkil edilən dərslər bu şəhəri bütün İslam dünyasında məşhurlaşdırmışdı.

Hələ XVI əsrin ikinci yarısında Səfəvilər dövlətinin paytaxtı Qəzvin olsa da, İsfahan şəhəri böyük elmi-mədəni əhəmiyyət daşıyırdı. Təsadüfi deyil ki, I Şah Təhmasibin dəvəti ilə *Cəbəli-Amildən* Səfəvilər dövlətinə hicrət etmiş *Şeyx Əli Minşar* kimi böyük alim İsfahanın *şeyxülislamı* vəzifəsinə təyin edilmişdi. *Şeyx Bəhainin* atası Şeyx Hüseyn ibn Əbdüssəməd Harisi də Səfəvilər dövlətinə qədəm basanda əvvəlcə İsfahana gəlmiş, burada 3 il yaşamışdı.

I Şah Abbas tərəfindən Səfəvilər dövlətinin paytaxtının Qəzvindən İsfahana köçürülməsi (1598) ilə İsfahan şəhərinin elmi həyatında yeni bir mərhələ başladı. Sarayla birlikdə elm və sənət adamları da yeni paytaxta köçdü. I Şah Abbas Məşhəd şəhərində məskunlaşmış *Şeyx Abdullah Şüştərini* israrla İsfahana dəvət etdi, hətta onun üçün şəhərdə mədrəsə tikdirdi. Tezliklə Şüştərinin ətrafında xeyli tələbə toplaşdı. İsfahana gələndə onun tələbələrinin sayı cəmi əlli nəfər olsa da, vəfatı zamanı (1612) bunların sayı min nəfəri ötüb keçmişdi. Sonralar ensiklopedik bilikli alim və İsfahanın şeyxülislamı Şeyx Bəhai də ustadların cərgəsinə qoşuldu. XVII əsr şiə dünyasının ən parlaq simaları İsfahan hövzəsində yetişmiş və tədris fəaliyyəti ilə məşğul olmuşlar. İsfahan hövzəsinin yetirmələri arasında adları sadalanan alimlər ilk cərgədə dururlar: *Mir Damad, Mir Fendereski, Molla Sədra, Rəcəbəli Təbrizi, Məhəmməd Təqi Məclisi* və oğlu *Əllamə Məhəmməd Baqir Məclisi*, *Ağa Hüseyn Xansari* və oğlu *Ağa Camal Xansari, Lütfullah Meysi, Mühəqqiq Səbzəvari, Feyz Kaşani, Hürr Amili, Molla*

Xəlil Qəzvini, Molla Saleh Mazandarani, Qazı Səid Qumi, Fazil Hindi, Fazil Tuni, Mirzə Məhəmməd Şirvani, Mirzə Abdullah Əfəndi, Seyid Nemətullah Cəzairi və b.

Səfəvilər dövründə İsfahan hövzəsinin hansı səviyyədə olduğunu təsəvvür etmək üçün bu fakta diqqət yetirmək kifayətdir ki, təşkil edilən elm məclislərində ən azı 60 nəfər yüksək dərəcəli müctəhid iştirak edir və elmi mövzularda müzakirələr aparırdı.

İsfahan hövzəsində *əxbarilik* inancı güclü idi, buranın yetirmələri arasında əxbari yönümlü alimlərə çox rast gəlinirdi. Lakin Bəhreyn, İraq və Hicaz ərazisində yaşayıb-yaradan əxbari alimlərinə nisbətən onlar daha mülayim və mötədil mövqe tuturdular. XVII əsrdə İsfahan hövzəsində *üsuli* məktəbi də kifayət qədər nüfuza malik idi və bunlarla əxbarilərin arasında ciddi qarşıdurma müşahidə edilmirdi. Yalnız Səfəvilər dövlətinin süqutuna yaxın (XVIII əsrin əvvəlləri) ziddiyyətlər özünü kəskin şəkildə göstərməyə başladı.

İsfahan hövzəsində aparılan araşdırmalar bütün İslam dünyası, xüsusilə şiə aləmi üçün mühüm töhfələrlə nəticələnmişdir. Molla Sədra tərəfindən əsası qoyulmuş *hikməti-mütəaliyə* fəlsəfəsi, Əllamə Məclisi tərəfindən tərtib edilmiş *"Bihar əl-ənvar"*, Hürr Amili tərəfindən toplanmış *"Vəsail əş-şiə"* hədis məcmuələri, eləcə də fiqh, hədis, rical, təfsir, fəlsəfə, kəlam, irfan, astronomiya, tibb, riyaziyyat mövzularında qələmə alınmış yüzlərlə dəyərli əsər İsfahan hövzəsinin məhsuludur.

Mənbələr: *M.Müdərris Mütləq. İsfahan fəlsəfə məktəbi, s.81-133; S.H.Müvəhhid Əbtəhi. İsfahan elm hövzəsinin şiə kökləri və təzahürləri tarix boyunca, s.553-555; Leyla Pəhləvanzadə. Şərqin elm şəhəri İsfahan Səfəvilər dövründə ("İctimai coğrafiyaya yeni baxış" dərgisi, 1391 h.-ş., №3), s.63-86.*

İSGƏNDƏR BƏY MÜNŞİ (1560/61-1634) – Səfəvilər dövlətində yaşamış görkəmli tarixçi və ədib, Səfəvilər tarixinə aid ən mühüm mənbələrdən sayılan *"Tarixi-aləmarayi-Abbasi"* ("Dünyanı bəzəyən Abbasın tarixi") kitabının müəllifi. Qızılbaş *Türkman* tayfa ittifaqından idi, mənbələrdə adı Türkman verildiyi üçün konkret hansı tayfaya mənsub olduğu məlum deyil. İsgəndər bəy 1560/61-ci illərdə doğulmuş, uşaqlıq və yeniyetmə yaşlarında mükəmməl ümumi təhsil almışdır. Daha sonralar o, mühasibatlığa aid siyaq (hesabdarlıq) sahəsində ixtisaslaşmağı qərara almış, bu sahəni, o cümlədən inşa (yazı) sənətini mükəmməl mənimsəmişdir. Getdikcə vəzifə karyerasında irəliləyən İsgəndər bəy I Şah Abbasın zamanında saray dəftərxanasında *münşi* (katib) vəzifəsində xidmətə daxil olmuşdur. "Tarixi-aləmarayi-Abbasi"dəki qeydlərdən məlum olur ki, İsgəndər bəy saray həyatında kifayət qədər yaxından iştirak etmiş, hakim dairələrdə baş verən proseslərdən, qızılbaş əyanları arasında hökm sürən rəqabət və intriqadan xəbərdar olmuş, mühüm dövlət vəzifələrində xidmət edən şəxslərin, müasiri olduğu elm və sənət adamlarının əksəriyyətini şəxsən tanımışdır. O, 1580-ci ildə *Salman xan Ustaclunun* Gilan yürüşünə, 1585-

ci ildə Şah Məhəmməd Xudabəndənin ordusunun tərkibində Təbrizin mühasirəsinə qatılmışdır. 1586-cı ildə şahzadələr *Həmzə Mirzə* ilə *Təhmasib Mirzənin* tərəfdarları arasında baş vermiş döyüşdə nizə ilə silahlanmış süvari dəstənin tərkibində o da var idi.

1592/93-cü illərdə İsgəndər bəy Səfəvilər dövlətinin baş vəziri, Nəsirəddin Tusi nəslinin yetirməsi, Etimad əd-dövlə *Hatəm xan Ordubadinin* təqdimatı ilə böyük münşi vəzifəsinə təyinat alır. Bundan sonra o, İsfahan şəhərində xidmət göstərməyə başlayır. İsgəndər bəy Hatəm xanın dərin hörmətini qazanmış, hətta 1607-ci ildə Ordubadda onun qonağı olmuşdur. Bu dövrdə o, özbəklərə və Osmanlılara qarşı hərbi səfərlərdə saray məmuru qismində iştirak etmişdir. Hatəm xanın vəfatından (1610) sonra onun yerini tutmuş oğlu *Əbu Talib xanla* da İsgəndər bəyin münasibətləri yaxşı idi.

Tarixçi 1626-cı ildə I Şah Abbasın, 1630/31-ci illərdə I Şah Səfinin yanında Bağdad yürüşlərinə yollanmışdır. I Şah Abbasadək hakimiyyətdə olmuş Səfəvi şahlarının tarixini əhatə edən, daha çox I Şah Abbasın üzərində fokuslanan "Tarixi-aləmarayi-Abbasi" kitabını yazıb bitirdikdən sonra İsgəndər bəy Münşi növbəti hökmdarın – I Şah Səfinin tarixini qələmə almağa başlamış *("Zeyli-Tarixi-aləmarayi-Abbasi")*, lakin 1634-cü ildə Təbrizdə dünyasını dəyişmişdir.

İsgəndər bəy Münşi müasirləri tərəfindən yüksək qiymətləndirilirdi. Səfəvilər dövrünün digər məşhur tarixçisi *Qazı Əhməd Qumi* "Gülüstani-hünər" kitabında onun şəxsi və peşəkarlıq keyfiyyətləri haqqında geniş söhbət açaraq yazır: "Onun xoşagələn xüsusiyyətləri və tərifəlayiq xasiyyəti vardır. O, təliq, nəstəliq və şikəstə xətləri ilə çox yaxşı yazır. Şah dəftərxanasında siyaq elmini onun qədər bilən ikinci bir ustad katib yox idi. O, məktub yazmaqda və sənədlərin tərtibində müqayisəyəgəlməzdir. Sultanların yazışmalarının, fərmanlarının və məktublarının qələmə alınması işi onun öhdəsindədir. Onun divan işlərində böyük təcrübəsi var. Sürətli yazmağı mükəmməl dərəcədə bacarır. Dar əl-inşada işlər ondan asılıdır. Sürətlə və zərif kitablar yazmaqda dünyada yeganədir".

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.4-9; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.24-25; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXII, 563-564; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.6-7; Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.59-62.*

İSNA ƏŞƏRİYYƏ – ərəb dilindən tərcüməsi "on iki" deməkdir. *Şiə* məzhəbinin qolları (zeydiyyə, ismailiyyə, şeyxiyyə və s.) arasında ən geniş yayılmış, tərəfdarlarının sayı ən çox olan, tarixdə ən mühüm rol oynamış qoldur. Məzhəbin əqidə əsaslarının mərkəzində *12 imamın* məsumluğuna və Peyğəmbərdən sonra ilahi hakimiyyət haqqına malik olduğuna inanc durur, ona görə də bu adla tanınır. İsna əşəri (on iki imamçı) şiələr dünya şiələrinin böyük əksəriyyətini təşkil edirlər, dini mənbələrdə,

eləcə də ümumi istifadədə "şiə" sözü xüsusi qeydlər olmadan işlənərsə, isna əşəri şiələr nəzərdə tutulur. Dini mətnlərdə "isna əşəriyyə" sözü *cəfəri* məzhəbinin sinonimi kimi işlədilir, bunların arasında fərq yoxdur. Səfəvilər dövrünə aid mənbələrdə də "isna əşəriyyə" sözü şiəlik və cəfərilik mənasında işlədilir, haqq olan məzhəb kimi təqdim edilir.

I Şah İsmayılın Təbriz cümə məscidində şahlığını elan etməsi "isna əşəri" xütbə oxunması ilə müşayiət olunmuşdu, yəni xütbədə Allaha həmd-sənadan, Peyğəmbərə salavatdan sonra 12 imamın adları çəkilmiş, bununla da adından xütbə oxunan hökmdarın "isna əşəriyyə" məzhəbində olduğu elan edilmişdi.

Səfəvilər dövrünə aid ən mühüm tarixi mənbələrdən olan *"Tarixi-aləmarayi-Abbasi"də* I Şah İsmayılın hakimiyyətə gəlməsi və Səfəvilər dövlətini qurması bu ifadələrlə təsvir edilir: "Süleyman şanlı xaqan isə zəfərlə Təbriz darüs-səltənəsinə çataraq, padşahlıq taxtına əyləşdi və İslamın isna əşəri haqq məzhəbi zühura gəldi. Minbərlərdən imamiyyə xütbəsi eşidildi, pulların üstündə "La ilahə illəllah və Mühəmmədən rəsulillah və Əliyyən vəliyullah" yazıldı və sikkələr "Allah" sözü ilə bəzəndi".

Mənbələr: *Dairət əl-məarifi-təşəyyö, IV, 273-274; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən tərcümə edən: Ş.Fərzəliyev), s.84; Aləmarayi-Səfəvi, s.64.*

KƏLƏXANA TÜRBƏLƏR KOMPLEKSİ – Şamaxı rayonu ərazisində Səfəvilər dövrünə aid nadir memarlıq abidəsi. Şamaxı şəhərindən 6 km məsafədə, Kələxana kəndi yaxınlığında, 250x 150 m sahədə yerləşir. Kompleks əvvəllər 9 türbədən ibarət olmuş, onlardan biri tamamilə dağılmışdır. Qalan 8 türbədən biri yarıuçulmuş vəziyyətdədir, digər yeddisinin vəziyyəti yaxşıdır. Türbələr XVII əsrin ikinci yarısında tikilmişdir. 1636-cı ildə Şamaxıda olmuş alman səyyahı A.Oleari kompleks haqqında heç bir məlumat vermədiyindən tikintiyə bundan sonra başlandığı aydın olur. XVIII əsrin əvvəllərində burada olmuş səyyahlar isə kompleksin təsvirini öz kitablarında vermişlər. Türbələrdən yalnız birinin girişindəki salamat qalmış kitabədə tikiliş tarixi hicri 1074-cü il (miladi 1663/64-cü illər) göstərilib. Həmin türbədə Çilgər şeyxlərindən İsrafilin nəslindən Əmir Əhmədin oğlu Şeyx İbrahim dəfn edilib. Türbənin memarı sərkar Əbdüləzimdir. Türbələr səkkizguşəli prizma planına malikdir, yuxarıdan səkkizguşəli piramida ilə tamamlanır. Tikililərin hamısına səliqə ilə yonulmuş ağ daşdan üz çəkilib. Quruluş baxımından türbələr bir-birinə oxşasa da, arada fərqlər mövcuddur. Bütün tikintinin birdəfəyə, qısa vaxt ərzində və eyni memarın rəhbərliyi altında aparıldığı ehtimal edilir.

Kompleks XVII əsr Səfəvi memarlığının Azərbaycan ərazisindəki ən gözəl nümunələrindən sayılır və bu dövrün memarlıq ənənələrinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

Mənbələr: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр. 42-46; Azərbaycan tarixi (7 cilddə), III, 309-310; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.98.*

KƏRƏKİ, Şeyx Əli ibn Hüseyn və ya Əli ibn Əbdül-ali Amili (vəf. 1534) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şiə alimi və dövlət xadimi. İndiki Livan ərazisində yerləşən və şiələrlə məskunlaşmış *Cəbəli-Amil* məntəqəsinin Kərək-Nuh kəndində doğulmuş, vətənində ibtidai təhsil aldıqdan sonra Dəməşq və Qüdsdə oxumuşdur. O, Misirdə əhli-sünnə məzhəbini də mükəmməl öyrəndikdən sonra İraqda, müqəddəs Nəcəf şəhərində elmini təkmilləşdirmişdir. Kərəkini dini mənbələrdə "Mühəqqiqi-sani" (İkinci mühəqqiq) ləqəbi ilə xatırlayırlar. Bu ləqəblə ilk tanınan Mühəqqiq Hilli ilə müqayisə edilməsi elm aləmində ona qədər yüksək dəyər verildiyini göstərir.

Səfəvi dövlətində şiə məzhəbli alimlərin azlığı və yüksəksəviyyəli şiə müctəhidin varlığına olan ehtiyac üzündən I Şah İsmayıl 1510/11-ci illərdə Mühəqqiq Kərəkini ölkəyə dəvət etdi. Bəzi mənbələr I Şah İsmayılın bundan əvvəl də Kərəki ilə görüşdüyünü yazır. 1508-ci ildə İraq fəth edilərkən Kərəki nüfuzlu seyidlərdən olan *Kəmunə* ilə birlikdə Bağdad hakimi *Barik bəy Pörnak* tərəfindən Nəcəf şəhərində quyuda həbs edilmişdi və şah onları xilas edərək İraqın idarəçiliyində bəzi səlahiyyətləri onlara tapşırmışdı. Amma I Şah İsmayıl tərəfindən İraq fəth edilərkən Mühəqqiq Kərəkinin quyuda həbsdə olması faktı mənbələrin bir çoxunda əksini tapmayıb. Nəcəfdən Təbrizə gələn Mühəqqiq Kərəki böyük təntənə ilə qarşılandı və dərhal Səfəvilər dövlətinin ideoloji rəhbərliyini ələ aldı. Az sonra onun dəvəti ilə daha bir neçə böyük alim (oğlu Şeyx Əbdülali, tələbələri *Şeyx Əli Minşar*, *Şeyx Bəhainin* atası Hüseyn ibn Əbdüssəməd Harisi və b.) də Səfəvilər dövlətinə köçüb burada şiə məzhəbinin sistematik səviyyədə təbliğinin əsasını qoydular.

Mühəqqiq Kərəki həm I Şah İsmayılın, həm də I Şah Təhmasibin zamanında böyük ehtiram sahibi idi. I Şah İsmayıl hər il ona 70 min dinar həcmində vəsait ayırırdı və bu vəsait dini təbliğata sərf edilirdi. I Şah Təhmasib Mühəqqiq Kərəkini bütün ölkədə 12-ci İmam Mehdinin (ə) naibi (canişini) kimi təqdim edir və əsl hakimiyyətə məhz onun haqqı çatdığını, özünün isə Kərəkinin icazəsi ilə hakimiyyət sürdüyünü bildirirdi. Səfəvilər dövlətində *şeyxülislam* vəzifəsinə təyinat almış ilk şəxs də Mühəqqiq Kərəki olmuşdur. Dini məsələlərdə ona hüdudsuz ixtiyar verilmişdi. I Şah Təhmasibin fərmanında Kərəki "müctəhidlərin möhrü, Peyğəmbərin elminin varisi və məsum imamların naibi" adlandırılır, onun əmrlərinə tabe olmayanlar lənətə və ağır cəzaya layiq bilinir, tabelik etməyənlərin davranışı hətta şirkə (Allaha şərik qoşmağa) bərabər tutulurdu. Səfəvilər dövlətinə aid klassik mənbələrdə Kərəki "Müctəhid" və "Müctəhid əz-zamani" ləqəbləri ilə xatırlanır. Kərəkinin nüfuzu dini sahədəki kadr siyasətində də nəzərə alınırdı, onunla müxalifət edənlər sıxışdırılıb vəzifədən çıxarılır, onun məsləhət bildikləri isə yüksək məqamlara təyinat alırdı.

Kərəkini Səfəvilər dövlətinin din siyasətini müəyyənləşdirmiş əsas şəxslər-

dən hesab etmək olar. O, qısa müddətdə ölkə ərazisinə nümayəndələr göndərməklə ən ucqar vilayətləri də öz dini hakimiyyəti altına ala bildi. Mühəqqiq Kərəkinin qələmindən çıxmış risalələr Səfəvilər dövlətinin din siyasətinin və şəriət idarəçiliyinin kontur xətlərini əhatə edirdi (cümə namazının qılınmasının vacibliyi, dini ödənişlərin (xüms və s.) toplanmasının qanuniliyi və s. məsələlər).

Səfəvi mənbələrində Mühəqqiq Kərəkinin adı ilə bağlı xeyli rəvayət mövcuddur. Bunlardan birində deyilir ki, Osmanlı sultanı hənəfi məzhəbli bir neçə ruhanini Təbrizə göndərərək onlara I Şah İsmayılı və ətrafındakıları şiə məzhəbindən dönməyə inandırmağı tapşırmışdı. Şah gələn elçilərlə şiə alimlərini görüşdürüb onlar arasında diskussiya təşkil etdi. Əhli-sünnə məzhəbli alimlər I Şah İsmayılın hakimiyyətə keçdiyi hicri 906-cı (miladi 1501-ci) ilin əbcəd hesabı ilə "məzhəbi-nahəqq" (haqsız məzhəb) ifadəsinə uyğun olduğunu söylədilər. Bu zaman Mühəqqiq Kərəki onlara cavab verdi ki, bizim dinimizin dili ərəb dilidir, ona görə də bu ifadəni "məzhəbuna həqq" (məzhəbimiz haqdır) şəklində oxumaq lazımdır.

Mühəqqiq Kərəki və şagirdləri Səfəvilər dövlətində yerli dini kadrların hazırlanması işini yüksək səviyyədə təşkil etməyə nail oldular. *Məhəmməd Təqi Məclisi* (*Əllamə Məclisinin* atası), *Şeyx Bəhai, Mir Damad, Mir Fendereski, Hüseyn Xansari, Mühəqqiq Səbzəvari, Feyz Kaşani, Əllamə Məclisi, Abdullah Şüştəri, Xəlil Qəzvini, Saleh Mazandarani, Molla Sədra, Mirzə Şirazi* və b. alimlər əsası Mühəqqiq Kərəki tərəfindən qoyulmuş məktəbin yetirmələri sayılır.

Mühəqqiq Kərəki 1534-cü ildə Nəcəfə səfər zamanı vəfat etmişdir. Bəzi mənbələrdə zəhərlə öldürüldüyü yazılıb.

Mühəqqiq Kərəkinin oğlu Şeyx Əbdülali də zəmanəsinin böyük din alimlərindən olmuş, Kaşanda məskunlaşmış, 1585-ci ildə vəfat etmişdir.

Mühəqqiq Kərəkinin qızı böyük filosof Mir Damadın anasıdır. Mir Damadın atası buna görə "Damad" (farsca kürəkən deməkdir) ləqəbi ilə tanınırdı, Mir Damada da bu ləqəb atasından qalmışdı.

Mühəqqiq Kərəkinin digər qızının nəslindən olanlar da ("xatəm əl-müctəhidin" nəsli) Səfəvilər dövlətində yüksək nüfuz sahibi idilər. Bu nəslin bir neçə nümayəndəsi İsfahan, Qəzvin, Tehran şəhərlərinin şeyxülislamı, *sədr*, Qum və Şah Əbdüləzim ziyarətgahlarının mütəvəllisi (müdiri) vəzifələrində çalışmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 244-249; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, III, 441-460; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, IV, 360-375; Seyid Möhsin Əmin. Əyan əş-şiə, VIII, 208-213; Mirzə Məhəmməd Məsum. Tarixi-səlatini-Səfəviyyə (nəşrə hazırlayan: S.Ə.H.Abidi), s.8-9; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (tərcümə: Ş.Fərzəliyev), s.287; R.Cəfəriyan. Səfəvilər dövlətinin qurulmasında alimlərin iştirakına bir baxış ("Hökuməti-islami" dərgisi, 1382 h.-ş., №28); K.M.Şeybi. Şiəlik və sufilik, s.393-394.*

KİŞVƏRİ – XV əsrin sonları-XVI əsrin əvvəllərində yaşamış Azərbaycan şairi. Deyləmqan (indiki Cənubi Azərbayca-

nın Salmas) şəhərində doğulmuşdur. *Sam Mirzə* onun qəzvinli olduğunu və nəstəliq xəttini gözəl şəkildə yazdığını qeyd edir. Onun Kişvərini "mövlana" kimi xatırlatması də şairə ehtiramın göstəricisidir. Bir müddət Ağqoyunlu sarayında fəaliyyət göstərmiş, Ağqoyunlu Sultan Yaqubun himayəsi altında yazıb-yaratmışdır. Ağqoyunluların süqutundan sonra hakimiyyət tərəfdən dəstəyini itirmiş, ömrünü çətinlik içində başa vurmuşdur. Azərbaycan və fars dillərində yazmış Kişvərinin yaradıcılığı Füzuliyəqədərki Azərbaycan ədəbiyyatında mühüm yerə malikdir. Onun əsərlərində Əlişir Nəvainin təsiri də aydın sezilir. Kifayət qədər genişhəcmli divanı vardır. Müasirləri ilə, xüsusilə şair *Həbibi* ilə dostluq etmişdir.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 301; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.380-392; Yaqub Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.389-404; Sam Mirzə. Töhfeyi-Sami, s.151.*

"KOROĞLU" DASTANI – Səfəvilər dövlətinin hakimiyyəti dövründə XVII əsrdə yaranmış türkdilli qəhrəmanlıq eposu. "Koroğlu dastanı" yalnız türk deyil, bəzi qeyri-türk xalqların da müştərək xalq yaradıcılığı nümunəsi, ortaq dəyəridir. Dastanın əsas üç qədim nüsxəsi elm aləminə məlumdur: Cənubi Azərbaycan, Paris və Tiflis nüsxələri. Ən qədim variant olan Cənubi Azərbaycan nüsxəsi təqribən 200 il bundan əvvəl qələmə alınmışdır, bundan əvvəl dastan şifahi şəkildə dildən-dilə keçib aşıqlar tərəfindən oxunmuşdur.

"Koroğlu" dastanı məzmun və süjet fərqinə görə əsasən üç yerə bölünür: Azərbaycan, türkmən və Kiçik Asiya (Anadolu) variantları. Variantlardakı boyların (fəsillərin) sayı və məzmunu fərqlidir. Bütün variant və versiyaların kökünü Azərbaycan eposu təşkil edir. Dastanın əsas süjet xəttinin Azərbaycanda təşəkkül tapması da bu fikri təsdiq edir. Azərbaycan variantının əsasında digər Qafqaz versiyaları (gürcü, erməni, kürd, ləzgi, avar və s.) yaranmışdır. Bunlardan əlavə, dastanın türkmən, özbək, tacik, qazax versiyaları da mövcuddur. Ümumilikdə "Koroğlu" dastanı müxtəlif etnik soya malik 15-ə yaxın xalqın şifahi və yazılı irsində qeydə alınmışdır. Bəzi tədqiqatçılar "Koroğlu" eposunu İslamdan əvvəlki qədim türk əsatirləri ilə bağlamağa çalışmışlar. Bəzi araşdırmalarda isə Koroğlu və Babək personajlarının oxşar cəhətləri diqqət mərkəzinə gətirilir. (Babəkin anası kimi, Koroğlunun atasının da kor olması, həm Bəzz qalasının, həm də Çənlibelin alınmaz, möhkəm istehkam kimi təsvir edilməsi, Cavidanın gənc Babəki Bəzz qalasına gətirməsi ilə Koroğlunun gənc Eyvazı Çənlibelə gətirməsi arasındakı oxşarlıq, Koroğlu-Giziroğlu və Cavidan-Əbu İmran paralelləri və s). Dastanın baş qəhrəmanı Azərbaycan versiyasında paşanın əmri ilə gözləri çıxarılmış Alı kişinin oğlu Koroğludur, digər xalqlara məxsus versiyalarda isə bu ad Goroğlu (qəbirdə doğulduğu üçün), Qoroğlu, Qaraoğlu və digər formalarda verilir.

Tarixdən məlumdur ki, XVI əsrin sonu-

XVII əsrin əvvəllərində o zamanlar Osmanlı imperiyasına tabe olan bölgələri irimiqyaslı *cəlali* hərəkatı bürümüşdü. Bu hərəkatın nümayəndələri olan real tarixi şəxsiyyətlərin arasında "Koroğlu" dastanının bəzi qəhrəmanlarının da adlarına rast gəlirik. Belə ki, cəlali qiyamının başçısı, Urfa əsilli Qara Yazıçı 1601-ci ildə Bağdad valisi Hasan paşa ilə döyüşdə məğlub olub qısa müddətdən sonra vəfat etmiş, yerini qardaşı Dəli Həsən tutmuşdu. Qara Yazıçının silahdaşlarından birinin adı Gizir Mustafa idi. Cəlali sərkərdələrinin, o cümlədən Qara Yazıçının silahdaşlarının ləqəbləri "Koroğlu" dastanındakı dəlilərin adları ilə səsləşir. O dövrün tarixi mənbələrini araşdıran tədqiqatçıların böyük bir qisminin fikrincə, Koroğlu XVI əsrin sonları-XVII əsrin əvvəllərində cəlali hərəkatının ön sıralarında yer almış real tarixi şəxsiyyətdir.

"Koroğlu" dastanının versiyalarının birinə görə, Koroğlu Muradbəylidəndir (Azərbaycan Respublikasının Ağdam və Sabirabad rayonlarında eyniadlı kəndlər vardır). Atası Alı kişi əvvəlcə Şah Abbasa mehtərlik edib, sonra Osmanlı məmləkətinə köçərək xotkarın (valinin) baş mehtəri olub.

Osmanlı dövlətinə aid sənədlərdə XVI əsrin 80-ci illərində Anadolunun şimal-qərbində əsl adı Rövşən olan Koroğlunun öz ətrafına xeyli adam toplayıb soyğunçuluqla məşğul olduğu yazılır. Həmin dövr *Səfəvi-Osmanlı müharibələrinin* ikinci mərhələsinə təsadüf edirdi, bu qiyamın Səfəvilərin təşviqi ilə başlaması ehtimalı da mümkündür. Buna görə də Osmanlı mənbələrində Koroğlu qiyamının soyğunçuluq kimi bəsit formada təqdim edilməsi anlaşılandır.

Maraqlıdır ki, Səfəvilər dövrünə aid ən mühüm mənbələrdən olan *"Tarixi-aləmarayi-Abbasi"də* I Şah Təhmasibin vəfatı zamanı (1576-cı il) ən qüdrətli qızılbaş əmirlərinin adları mənsub olduqları tayfalar üzrə sadalanarkən Əfşar tayfası əmirlərinin sırasında Xorasandan Xosrov sultan Koroğlunun adı çəkilir. Buradakı "Koroğlu" sözünün Xosrov sultanın şəxsi ləqəbi, yoxsa Əfşar tayfasının bir qolu olması aydın deyildir.

Səfəvilər dövrünə aid klassik mənbələrdən daha biri də Molla Cəlaləddin Münəccimin yazdığı "Tarixi-Abbasi" əsəridir. Müəllif kitabda 1603/04-cü illərin hadisələrini təsvir edərkən yazır ki, "atababasının ilikləri bu xanədanın (Səfəvilərin) duz-çörəyi ilə bəsləndiyi halda" Osmanlıların tərəfinə keçmiş Əliqulu bəy Sədlünü Pasin məntəqəsində Koroğlu ələ keçirib I Şah Abbasın hüzuruna göndərmişdi. Burada da haqqında danışılan Koroğlunun kim olduğu məlum deyil. Əgər o, "Koroğlu" dastanının qəhrəmanıdırsa, bəzi mənbələrdə (o cümlədən dastanın Tiflis nüsxəsində) iddia edildiyi kimi, Səfəvilərə qarşı döyüşməmiş, əksinə, I Şah Abbasın tərəfində olmuşdur. Koroğluya aid edilən qoşmaların birində Şah Abbasın adı müsbət mənada çəkilir, onun intiqam almaq üçün (yəqin ki, öldürülmüş əsgərlərin qisasını almaqdan ötrü) müharibə apardığı deyilir:

Koroğlu, gəldilər savaş qurmağa,
Qoçaqların muradını verməyə,

Kos, nağara çalınır qan almağa,
O Şeyx oğlu Şah Abbasın günüdür.

"Koroğlu" dastanının boylarında İmam Əli (ə) obrazının bu və ya digər formada təsviri ilə qarşılaşırıq. Koroğlu dəfələrlə onunla rastlaşır və ondan güc alır. Qoşmalarının birində baş qəhrəman belə deyir:

Koroğluyam, budu sözümün sağı,
Onun hökmündədi Kövsər bulağı.
Adı həzrət Əli, dinin dayağı,
Düldülünə süvar oldu da getdi.

Dastan qəhrəmanının İmam Əliyə (ə) sığınıb ondan güc alması *qızılbaş*-şiə mənsubiyyətindən xəbər verməklə yanaşı, Koroğlu hərəkatının Səfəvilərin dini və siyasi maraqlarına uyğun gəldiyini sübut edir.
Koroğlu özünə tərəfdar toplamaq üçün qızılbaş Təkə-Türkman elinə pənah gətirmiş və oğulluğu Eyvazı da onların arasından seçmişdi:

Varıban gedərək Təkə-Türkmana,
Ollam Əli qullarının yek rəngi.

Mənbələr: *Koroğlu (mətni hazırlayıb tərtib edənlər: İ.Abbaslı, B.Abdulla), s.4-46; Molla Cəlaləddin Münəccim. Tarixi-Abbasi, s.254; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.198; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.309; А.С.Тверитинова. Восстание Кара Языджи-Дели Хасана в Турции, стр.52-77; MEB İslam Ansiklopedisi, VI, 339-33; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXVI, 268-270; E.İsmayılova. "Koroğlu" Avropa dillərində ("Azərbaycan dünya ədəbiyyatında" Beynəlxalq Simpoziumun materialları), s.123-136; Azərbaycan tarixi (7 cilddə), III, 228-229.*

QASİMİ-ƏNVAR (1356-1433) – XIV-XV əsrlərdə yaşamış görkəmli Azərbaycan şairi, *səfəviyyə* təriqətinin ardıcılı. Əsl adı Seyid Müinəddin Əli ibn Nəsir Hüseyni olan şair Təbriz şəhəri yaxınlığındakı Sərab məntəqəsində anadan olmuş, təhsilini Təbrizdə almış, Ərdəbildə təsəvvüfün sirlərinə yiyələnmişdir. O, "Qasim", "Qasimi", "Qasimi-Ənvar" təxəllüsləri ilə Azərbaycan və fars dillərində irfani mövzulu şeirlər yazırdı. Şair səfəviyyə təriqətinin ozamankı başçısı, *Şeyx Səfiəddinin* oğlu *Şeyx Sədrəddin Ərdəbilinin müridi* olmuş və ömrünün sonunadək bu təriqətdə qalmışdır. Təriqətdəki yüksək mövqeyinə görə ona "Şah" ləqəbi verilmiş və "Şah Qasimi-Ənvar" kimi tanınmışdır.
"Qasimi-Ənvar" ləqəbinin ona *mürşidi* Şeyx Sədrəddin tərəfindən verildiyini yazırlar. Rəvayətə görə, o, şeyxin məsləhəti əsasında *xəlvətxanaya* çəkilib 40 gün ayaq üstə zikr etdikdən sonra yuxuda görür ki, əlində şam tutaraq Ərdəbil məscidində dayanıb. Bütün məscid əlindəki şamın şöləsi ilə işıqlanıb. Ətrafdakı hər kəs ona yaxınlaşaraq öz əlindəki şamı onun əlindəki şamın şöləsi ilə alışdırır və beləcə, onun şamının işığı hamının arasında paylaşılır. Öz yuxusunu Şeyx Sədrəddinə danışdıqda şeyx ona "Qasimi-Ənvar" (Nurları bölən, paylayan) ləqəbini verir.
Qasimi-Ənvar çoxlu səfərlərdə olmuş, hər yerdə irfan sahibləri tərəfindən hörmətlə qarşılanmışdır. Onun böyük sufi şeyxləri Şah Nemətullah Vəli və Bəhaəddin Nəqşbəndlə görüşdüyü barədə məlumatlar vardır. Heratda olduğu zaman

Əmir Teymurun oğlu Şahrux tərəfindən əvvəlcə böyük ehtirama layiq görülmüş, amma Şahruxa qarşı *hürufilərin* həyata keçirdikləri sui-qəsd cəhdindən sonra şairin də hürufilərlə əlaqəsi olduğu aşkara çıxarılaraq Səmərqəndə sürgün edilmişdi. O, Səmərqənddə Teymuri əmiri, şeir-sənət hamisi Uluğbəyin himayəsi altında bir müddət yaşamış, daha sonra yenidən Xorasana qayıtmışdır. Əbdürrəhman Caminin yurdu olan Xərcürd kəndində məskən salan şair 1433-cü ildə burada vəfat etmişdir, məzarının üzərində Əlişir Nəvainin tikdirdiyi türbə sufilər tərəfindən ziyarətgah sayılırdı. Divanından əlavə "Ənis əl-arifin", "Səd məqam", "Sual-cavab", "Təvəccöhnamə" və s. əsərləri də vardır.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 235-236; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.356-361; Y.Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.338-342; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.62; S.Z.Səccadi. İrfan və təsəvvüfün əsaslarına giriş, s.209-211; Ş.H.Pirzadə Zahidi. Silsilət ən-nəsəbi-Səfəviyyə, s.40-41; R.Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar, s.71-78.*

QAZI SƏİD QUMİ, Məhəmməd Səid ibn Məhəmməd Müfid (vəf. 1692) – "Həkimi-kiçik" (Kiçik həkim) ləqəbi ilə tanınırdı. XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli İslam alimlərindəndir. *Feyz Kaşani, Əbdürrəzzaq Lahici* və *Rəcəbəli Təbrizidən* dərs almışdır. Həm şəriət elmlərində, həm də irfanda dərin bilik sahibi idi. Qum şəhərində qazılıq vəzifəsini icra edirdi. II Şah Abbasın yanında böyük hörməti vardı. Qumi müxtəlif mövzularda orijinal əsərlər və özündən əvvəlki alimlərə şərhlər yazmışdır, xüsusilə ibadət əməllərinin batini irfani mənaları barədə yazdığı risalələr məşhurdur. Qardaşı Məhəmməd Hüseyn də görkəmli alim idi, Quran təfsiri yazmışdı, həmçinin Şah Süleymanın zamanında sarayda təbib vəzifəsini icra edirdi.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 412-413; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, II, 284.*

QEYSƏRİYYƏ ALAQAPISI – İsfahan şəhərində Səfəvilər dövrünə aid nadir memarlıq abidəsi. *Nəqşicahan meydanının* şimal tərəfində yerləşir. Qeysəriyyə alaqapısı İsfahan bazarı üçün giriş funksiyası daşıyırdı, monumental ölçülü darvazanın arxasında kifayət qədər böyük sahəsi olan bazar meydançası yerləşirdi. Bazarın mərkəzində fəvvarə quraşdırılmışdı. Qeysəriyyə alaqapısı üç mərtəbədən ibarət idi, birinci mərtəbədə dükanlar, ikinci mərtəbədə bazar rəhbərliyinin iş otaqları yerləşirdi. Üçüncü mərtəbə nağaraxananın ixtiyarına verilmişdi; burada günün müəyyən saatlarında təbil döyülməklə vaxtı bildirirdilər. Nağaraxana mərtəbəsi sonralar baxımsızlıq üzündən dağılmışdır. Səfəvilər zamanında Fars körfəzində yerləşən Hörmüz adası portuqallardan geri alındıqdan sonra oradan qənimət olaraq gətirilmiş kilsə zəngi ilə divar saatını Qeysəriyyə alaqapısının üzərində quraşdırmışdılar. Qeysəriyyə alaqapısının divarları Səfəvi saray rəssamlarının (Rza Abbasi və b.) əl işi olan gözəl ornamentlərlə bəzədilib.

Mənbələr: *L.Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.75; Ə.Şəhabinəjad və b. İsfahan Nəqşicahan meydanının formalaşma və dəyişmə tarixi ("Restavrasiya və mədəni irs bilikləri" dərgisi, 1393 h.-ş., №3), s.45-64; Lüğətnameyi-Dehxuda, II, 2766.*

QƏLƏNDƏROĞLU (vəf. 1610) – XVII əsrin əvvəllərində Osmanlı dövlətində baş vermiş *cəlali* üsyanının başçısı. Ankara ətrafından olan Qələndəroğlu, Osmanlı mənbələrinə əsasən, gənclik illərində soyğunçuluqla məşğul olmuş, sonralar əfv edilərək orduda xidmətə başlamış, müəyyən vəzifələrədək yüksəlmişdi, hətta ona sancaqbəyliyi vəd edilmişdi. Lakin vəd olunmuş vəzifəni ala bilməyən Qələndəroğlu 1604-cü ildə cəlalilərə qoşuldu, ətrafına xeyli tərəfdar toplayaraq Aydın və Manisa bölgələrini ələ keçirdi. Üzərinə göndərilmiş Anadolu bəylərbəyliyinin qoşununu məğlub etdikdən sonra Qələndəroğlunun şöhrəti daha da artdı. Osmanlı dövlətinin baş vəziri (sədri-əzəm) Kuyucu Murad paşa onu tabeliyində olan ərazilərdən uzaqlaşdırıb zəiflətmək məqsədilə aldadaraq Ankara sancaqbəyliyinə təyin edilməsi haqqında xəbər göndərdi. Qələndəroğlu Ankara üzərinə yürüdü, lakin şəhər valisi onu sancaqbəyi kimi tanımaqdan imtina edərək şəhərə buraxmadı. Qələndəroğlu aldadıldığını və baş vəzirin böyük qoşunla yaxınlaşmaqda olduğunu anlayıb Bursa istiqamətində geri çəkildi və qarşısına çıxan şəhərləri qarət etdi. Lakin 1608-ci ildə Mərəş ətrafında məğlub olaraq tərəfdarlarının çoxunu döyüşdə itirdi. Qələndəroğlu ətrafındakı kiçik dəstə ilə Səfəvilər dövlətinə sığınmış və 1610-cu ildə ölmüşdür.

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXIV, 256-257; Tahsin Şahin. Bir Osmanlı Başkentinde Celâliler: Bursa'da Celâli İstilası ve Yarattığı Tahribat (Uludağ Üniversitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 23/43), s.785-820; Tahsin Şahin. Celali Kuşatması Altında Bursa (Yüksek Lisans Tezi), s.60-72.*

QƏNBƏR – İmam Əlinin (ə) ən yaxın tərəfdarlarından biri və xidmətçisi olmuşdur. Qənbərin əsil-nəsəbi barədə məlumatlar fərqlidir. Bəzi mənbələrdə onun qara zənci, bəzi mənbələrdə fars əsilli, bəzilərində isə Bəni-Həmdan adlı ərəb qəbiləsinə mənsub olduğunu yazırlar.
Tarixdə Qənbərin adı İmam Əliyə (ə) sədaqətin rəmzi kimi xatırlanır. İmam Əli (ə) Qənbərə qabaqcadan xəbər vermişdi ki, gələcəkdə onun başını kəsib şəhid edəcəklər. Həqiqətən, Əməvilər dövründə çoxlu Əhli-beyt tərəfdarını vəhşiliklə qətlə yetirmiş zalım Kufə valisi Həccac ibn Yusif Səqəfinin əmri ilə Qənbərin başını kəsib şəhid etdilər. Suriyanın Hims, İranın Nişapur, İraqın Kufə və Bağdad şəhərlərində Qənbərə aid edilən ziyarətgahlar mövcuddur.
Klassik Şərq ədəbiyyatında İmam Əliyə (ə) həsr edilmiş şeirlərdə Qənbərin adına tez-tez rast gəlinir. İmam Əlinin ləqəblərindən biri də "xaceyi-Qənbər"dir (Qənbərin ağası). Şah İsmayıl Xətai də şeirlərində Qənbərin adını bir neçə dəfə çəkmiş, hətta özünü "Əlinin Qənbərinin Qənbəri" adlandırmaqla fəxr etmişdir:

Mənəm kim, canü dildən Heydəriyəm,
Həbibi-Zülcəlalın çakəriyəm.

Qulami-xanədani-Əhmədəm mən,
Əlinin Qənbərinin Qənbəriyəm.

Mənbələr: *Seyid Əbülqasim Xoyi. Möcəm rical əl-hədis, XV, 87-91; Reyşəhri. Movsuət əl-İmam Əliyy bin Əbi Talib, XII, 251-253; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 39.*

QƏZVİNİ, MOLLA XƏLİL (1593-1678) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. *Şeyx Bəhaidən* və *Mir Damaddan* dərs almışdır. Təqribən 30 yaşlarında ikən Reydəki Şah Əbdüləzim ziyarətgahının vəqf idarəsinə rəhbər təyin edilmiş, bir müddət orada elmi fəaliyyət və tədrislə məşğul olmuşdur. Daha sonra həcc ziyarətinə yollanmış, Məkkədə "Məcmə əl-bəyan" təfsirinə haşiyə yazmışdır.

Molla Xəlil Qəzvini *əxbari* əqidəsinə mənsub idi, On ikinci imamın qeyb dövründə cümə namazı qılınmasını haram bilir, tənbəki və tütündən istifadəni günah sayırdı, hətta axırıncı mövzuda risalə də qələmə almışdı. Deyirlər ki, müəllif həmin risalənin nüsxəsini zərif ipək parçaya büküb *Əllamə Məclisiyə* göndərmişdi. Əllamə Məclisi tütündən istifadəni icazəli bilir və özü də qəlyan çəkirdi. Qəzvini ümid edirdi ki, Məclisi risaləni oxuyub onun gətirdiyi sübutlara dəyər verər və tütündən istifadəni tərgidər. Amma Əllamə Məclisi risalənin məzmunundan xəbərdar olduqda həmin ipək parçanın arasına yüksəkkeyfiyyətli tənbəki töküb aşağıdakı məzmunlu məktubla geri göndərmişdi: "Risaləni oxudum, amma zəhmətinizin əvəzini vermək üçün belə düşündüm ki, mənim tərəfimdən ən gözəl hədiyyə onun əvəzinə sizə yüksəkkeyfiyyətli tütün göndərmək olar".

Molla Xəlil Qəzvini son dərəcə yüksək əxlaq və təvazö sahibi idi. Deyirlər ki, Kaşan şəhərində *Feyz Kaşaninin* qonağı olarkən onunla bir dini məsələdə müzakirə aparmış və öz mövqeyini israrla müdafiə etmişdi. Amma Qəzvinə qayıtdıqdan sonra araşdırıb görmüşdü ki, həmin məsələdə Feyz Kaşani haqlı imiş. Molla Xəlil piyada Qəzvindən Kaşana gəlib Feyz Kaşanidən üzr istəmiş, məqsədinin səmimiyyəti pozulmasın deyə evə daxil olmadan geri qayıtmışdı.

Molla Xəlil Qəzvini şiə məzhəbinin mötəbər hədis məcmuələrindən olan "əl-Kafi" kitabına iki şərh yazmışdır. "Əş-Şafi" adlı ərəbcə şərhi görkəmli alim və dövlət adamı *Xəlifət əs-sultanın* xahişi ilə qələmə almış, "əs-Safi" adlı farsca şərhi isə II Şah Abbasa ithaf etmişdir.

Alim 1678-ci ildə Qəzvində vəfat etmiş və öz adını daşıyan mədrəsədə torpağa tapşırılmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 450-452; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, II, 261-266; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, III, 269-274.*

QÖVSİ TƏBRİZİ, Əlican (1568-1640) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli Azərbaycan şairi, *Füzuli* ədəbi məktəbinin ən tanınmış nümayəndələrindən biri. Ədəbiyyat tarixində "Qövsi" təxəllüsü ilə şeir yazmış üç azərbaycanlı şair məlumdur. Akademik Həmid Araslının araşdırmalarına görə,

onların üçü də eyni nəsildən – baba, ata və nəvədir.

Əlican İsmayıl oğlu Təbrizi Səfəvilər dövlətinin ilk paytaxtı olan Təbriz şəhərində sənətkar və şair ailəsində doğulmuşdur. Atası İsmayıl Təbrizi ağacdan müxtəlif alətlər, o cümlədən qövslər (ox kamanları) hazırlayırdı, buna görə də özünə "Qövsi" təxəllüsünü götürmüşdüə (Əlican Qövsi Təbrizini bəzi mənbələrdə "Kəmangər" (Kamandüzəldən) ləqəbi ilə təqdim edirlər). İsmayıl Qövsi azərbaycanca və fars dilində şeirlər yazmışdır. Ədəbi zövqünü atasından irsən almış Əlican Qövsi Təbrizi gənc ikən İsfahana getmiş, orada *Mühəqqiq Xansarinin* yanında dini təhsil almışdır. Daha sonralar şair Hindistana səfər etmiş (Böyük Moğol hökmdarı Əkbər şahın zamanında), orada da öz istedadı ilə şöhrət qazanmışdır.

Qövsinin yaradıcılığında Füzulinin və Nəvainin təsiri aydın duyulur. Şairin 6 min beytlik iki divanı ədəbiyyat aləminə məlumdur. Qövsi Təbrizinin azərbaycanca divanında klassik şeir ənənələri ilə sadə xalq dili üzvi şəkildə çulğaşır. Şairin qəzəllərində atalar sözlərinə və zərb-məsəllərə tez-tez rast gəlirik. O öz əsərlərində lirik-didaktik motivlərlə yanaşı Vətən həsrətini də dilə gətirir, dövrünün sosial ədalətsizliklərini tənqid atəşinə tuturdu.

Qövsi Tərizi Qarabağ və Gəncə bəylərbəyi *Uğurlu zan Ziyadoğlu-Qacar* ilə yaxşı münasibətdə olmuşdur. Özü də şair olan Uğurlu xan (təxəllüsü *Müsahib*) Qövsini himayə edir, ona maddi yardım göstərirdi. Görkəmli ədəbiyyat tədqiqatçısı F.B.Köçərli heyrətlə qeyd edirdi ki, Qövsi əslən təbrizli olsa da, şeirlərində Şimali Azərbaycan (Qafqaz) əhalisinin dili daha bariz formada hiss edilir.

Müasirləri Qövsini çox əxlaqlı, dindar, irfan düşüncəli, bir qədər bədbin xasiyyətli insan kimi tanıtmışlar, bu xüsusiyyətlər şairin zahiri görünüşünə də təsir edərək belini bükmüşdü.

Qövsi Təbrizi qəzəl və qəsidələrdən əlavə, gəraylılar da yazmışdır.

Oğlu İsmayıl da şair olmuşdur.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), VI, 216-267; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.70-71; Təzkireyi-Nəsrabadi, s.280-281; F.B.Köçərli. Azərbaycan ədəbiyyatı, I, 219-227; Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, 106-112; Hafiz Hüseyn Kərbəlayi Təbrizi. Rəvəzat əl-cinan və cənnat əl-cənan, II, 169.*

QUL HÜMMƏT – ələvi-bektaşi ənənəsində böyük ehtirama layiq olan *yeddi ulu ozandan* biri. Qul Hümmət XVI əsrdə Anadoluda yaşamış, Tokat bölgəsində doğulmuş xalq ozanıdır. Həyatı haqqında məlumat azdır. *Pir Abdal Hüseynlə* və Şah İsmayıl Xətai ilə müasir olmuşdur. Onu Pir Sultan Abdalın *mürşidi* hesab edənlər də vardır. *Səfəviyyə* təriqətinə mənsub olduğu, çətinliklərlə dolu həyat yaşadığı, dəfələrlə həbsə atıldığı yazılır. Təsəvvüf əxlaqını, sevgi və dostluğu tərənnüm etmişdir. 150-yə yaxın şeiri məlumdur.

Mənbələr: *İsmail Özmen. Alevi-Bektaşi Şairleri Antolojisi (5 cilddə); Abdulbaki Gölpınarlı. Pir Sultan Abdal, s.6-12; Abdulbaki*

Gölpınarlı, Pertev Naili Boratav. Pir Sultan Abdal, s.3-46; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXVI, 352; Reyhan Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi ("Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi", 2017, Sayı: 83), s.49-79; Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan.

QUMİ ŞİRAZİ, Molla Məhəmməd Tahir ibn Məhəmməd Hüseyn (vəf. 1687) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimlərindən biri. Şiraz şəhərinin yetirməsi idi, Qumda məskunlaşmışdı. *Əxbari* əqidəsinə mənsub olmuş, xüsusilə filosoflara və sufilərə qarşı amansız mövqedə durmuşdur. Əsərlərinin bir hissəsi təsəvvüf və irfana qarşı yazılmışdır. Şah Süleymanın zamanında Qum şəhərinin *şeyxülislamı* vəzifəsini icra edirdi. *Əllamə Məclisi, Hürr Amili* onun dərslərindən bəhrələnmişlər. Qumi Şirazi cümə namazı qılınmasının qatı tərəfdarı idi, əks mövqedə olanlarla, o cümlədən müasiri olan *Molla Xəlil Qəzvini* ilə bu mövzuda mübahisə etmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV, 489-490; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 111.*

QURBANİ (1477-1550) – Səfəvilər zamanında yaşamış məşhur Azərbaycan aşığı. 1477-ci ildə doğulduğu və 1550-ci ildə vəfat etdiyi ehtimal olunur. İndiki Cəbrayıl rayonunun Diri kəndində anadan olmuş, "Dirili Qurbani" kimi tanınmışdır. I Şah İsmayılla müasir olduğu və onun sarayında fəaliyyət göstərdiyi deyilir. I Şah İsmayılın Şirvan səfəri zamanı ona qoşulmuş, hərbi yürüşlərdə onu müşayiət etmişdir. *Çaldıran savaşından* sonra Təbrizi ələ keçirmiş Osmanlı qüvvələri İstanbula qayıdanda onu da özləri ilə aparmışdılar. Bir müddət İstanbulda yaşamış Qurbani sonralar vətənə qayıdb Diri kəndində məskunlaşır, orada da vəfat edir və eyniadlı dağın zirvəsindəki Mazannənə pirində dəfn olunur.

Görkəmli tədqiqatçı alim Salman Mümtaz Qurbaninin haqqında qısa məlumat verərək onun adını "Qurban" şəklində yazır, aşığın Şah İsmayıl zamanında vəzirlərdən birinin qəzəbinə tuş gələrək obasından sürgün edildiyini bildirir. Qurbani hadisəni məktubla şeir şəklində I Şah İsmayıla yazmış, o da aşığı azad edərək öz xidmətinə götürmüşdü. "Qurbanın Şah İsmayıla yazdığı şeirlərdən bunu başa düşürük ki, Şeyx oğlu Şah İsmayıl Qurbanın *mürşidi-kamili* və *piri* imiş. Habelə başa düşmək olar ki, Şah İsmayıl Qurbanı tanıyırmış".

Qurbani gəraylılarının birində I Şah İsmayıl barədə belə deyirdi:

Gözəl şahım şeyx oğludu,
Şah Xətai, Şah Xətai!
Şahi-mərdana bağlıdı,
Şah Xətai, Şah Xətai!

Bu dünyada bir haqq divan,
O dünyada cənnətməkan,
Qoy var olsun türki-zəban
Şah Xətai, Şah Xətai!

Əfsanəyə görə, Qurbani yuxuda Pəri adlı qıza aşiq olmuş və ona aşıqlıq istedadı verilmişdi. O həm də "Qurbani" adlı məhəbbət dastanının qəhrəmanıdır. Qurbani ilə Pəri xanımın mə-

həbbət əhvalatı üzərində qurulmuş dastan kifayət qədər genişhəcmlidir, əsas variantından əlavə Diri versiyası da mövcuddur.

Mənbələr: *Qurbani. Əsərləri, ön söz və s. 44; Azərbaycan dastanları, I, 37-124; S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.305-308.*

QÜLÜVV (ğülüvv) – ərəb dilindən tərcüməsi həddi aşmaq, ifrata varmaqdır. Dini terminologiyada müəyyən şəxsi ilahiləşdirmək, tövhid inancının əksinə olaraq ona ilahi sifətləri aid etmək qülüvv sayılır. Ğülüvv terminə həm şiə, həm də əhli-sünnə mənbələrində rast gəlirik. Şiə mənbələrində bu ifadə əsasən ilk əsrlərdə bəzi imamları ilahiləşdirən şəxslərlə bağlı işlədilir. İmamların özləri qülüvv əqidəsinə əks olmuş, qülüvv edənləri (bunlara ğali və ya ğulat deyilir) özlərindən uzaqlaşdırmış, hətta lənətləmişlər. Bu mənada ğülüvv ənənəvi şiəlikdə qəbuledilməzdir, küfrə bərabərdir.

Tarix boyunca şiəliyin qülüvv edən qolları kimi təqdim edilən bəzi qrupların əslində mövcud olmadığı, məzhəbi düşmənçilik zəminində şiəliyə qarşı ideoloji təbliğat aparan qüvvələr tərəfindən uydurulduğu sübut edilmişdir (Abdullah ibn Səbə, ğurabiyyə və s.). Həm qeyri-şiələr tərəfindən şiəliyə aid edilən, həm də özünü şiə sayan bəzi qruplaşmaların isə əslində şiəliklə heç bir əlaqəsi yoxdur. Əliallahilik, əhli-həqq adlandırılan cərəyanlar ənənəvi şiəlik tərəfindən rədd edilir.

Məzhəbi qarşıdurmaların xüsusilə şiddətli olduğu orta əsrlərdə təkcə həqiqi mənada ğülüvv edən cərəyanların ardıcılları deyil, ənənəvi şiələr də çox zaman ğülüvv əhli kimi tanıdılırdı. *Səfəvi-Osmanlı müharibələri* gedişində qələmə alınmış bəzi Osmanlı mənbələrində şiələrin guya imamları tanrı saymaları, şahı ilahiləşdirmələri iddia edilirdi. Bəzən dini savadı dərin olmayan insanların imamlara ifrat sevgisindən qaynaqlanan xurafatçı davranışları, *qızılbaşların* öz şahlarına sarsılmaz sevgisi və sədaqəti ğülüvv kimi təqdim olunurdu. Halbuki bu kimi halları küfr və ğülüvv saymaq yanlışdır. Bu cür yanlış addımlarla Səfəvi dövlətinin şahları və böyük alimləri də mübarizə aparırdılar. Tarixdən məlumdur ki, I Şah İsmayıl ifrat şiə əqidəsində olan və Xorasanda müstəqil dövlət yaradan *müşəşəilərə* qarşı döyüşmüş və onların dövlətinə son qoymuşdu. I Şah Abbas zamanında da ifrat əqidəyə malik olan bəzi sufi və *qələndəri* təriqətlərinin ardıcılları ciddi şəkildə cəzalandırılmış, bu kimi əqidələrə inanmaq ölkədə qadağan edilmişdi.

Mənbələr: *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.176; K.N.Bürzgər, M.İdrisi və M.Mütəllibi. Səfəvilərin ğülüvv düşüncələrinin kökü və inkişafı: Şeyx Cüneyddən Şah İsmayıla ("Regional İran tarixi" araşdırmalar dərgisi, il: 4, №8), s.5-14; S.A.Arjomand. Safevi Dönemi İran'ında Dini Taşkınlık (Ğülüvv), Sufilik ve Sünnilik (1501-1722) (Cappadocia Journal of History. Vol. 7. Ahlen, 2016), s.160-195.*

LAHİCİ, Əbdürrəzzaq (vəf. 1662) – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-

yaratmış görkəmli filosof, hikmət sahii, ədib və şair. Gilan yaxınlığındakı Lahic məntəqəsində doğulmuşdur. O, məşhur filosof *Molla Sədranın (Sədrəddin Şirazi)* ən istedadlı tələbələrindən biri və kürəkəni idi. Molla Sədra iki kürəkəninin birinə "Feyz", o birinə "Fəyyaz" ləqəbi vermişdi. "Feyz" məşhur hədis alimi, "əl-Vafi" və "Təfsiri-Safi" kitablarının müəllifi Məhəmməd (Möhsin) ibn Mürtəza Kaşani, "Fəyyaz" isə Əbdürrəzzaq Lahicinin ləqəbi idi.

Lahici Qum şəhərində yaşayıb-yaratmış, əsasən fəlsəfə və kəlam mövzularında kitablar qələmə almış, o cümlədən Nəsirəddin Tusinin bir neçə əsərinə şərh yazmışdır. Kəlam, əxlaq və irfan mövzularına aid səlis və sadə üslubda fars dilində qələmə aldığı "Gövhəri-murad" risaləsini II Şah Abbasa ithaf etmişdir. Fəlsəfədə məşşayi (Şərq peripatetizmi) xəttini izləmişdir. "Fəyyaz" təxəllüsü ilə şeirlər yazan alimin bir neçə min beytlik *divanı* vardır.

Alim 1662-ci ildə Qum şəhərində dünyasını dəyişmiş və Fatimeyi-Məsumənin (ə) hərəmində torpağa tapşırılmışdır. Əbdürrəzzaq Lahicinin oğulları Mirzə Həsən, Molla Məhəmməd Baqir və Mirzə İbrahim də görkəmli din alimi kimi tanınmışlar.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, IV. 361-363; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, III, 114-115; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, IV, 196-197.*

LALƏVİ, Bədrəddin Əmir Seyid Əhməd ibn Əmir Seyid Məhəmməd (1436-1506) – XV əsrin ikinci yarısı-XVI əsrin əvvəllərində yaşamış görkəmli Azərbaycan alimi. 1436-cı ildə Şirvanda doğulmuş, 1468-ci ildən Təbriz yaxınlığındakı Lalə kəndində məskunlaşmışdır. *İmam Musa Kazimin (ə)* nəslindən idi. Şirvan, Təbriz və Xorasanda dini və dünyəvi elmləri mükəmməl şəkildə öyrənmiş, fəlsəfə, məntiq, riyaziyyat, kəlam, üsul, fiqh, hədis və təfsir sahələrində yüksək məqama çatmışdı. 1473-cü ildə həcc səfərindən qayıdan Əbdürrəhman Cami Təbrizdə Seyid Əhmədlə görüşmüş və ona böyük ehtiram göstərmişdi. Gözəl şairlik təbi vardı, irfani görüşlərini mənzum əsərlərdə bəyan etmişdir.

M.Tərbiyət "Danişməndani-Azərbaycan" kitabında yazır ki, I Şah İsmayıl Mövlana Seyid Əhmədə həmişə yaxşı münasibət bəsləmiş və Azərbaycanda onu öz nümayəndəsi təyin etmişdi.

Alim 1506-cı ildə dünyasını dəyişmiş və Təbrizin Kəcil qəbiristanlığında dəfn edilmişdir. Üç oğlu da elmi fəaliyyətlə məşğul olmuşdur.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.45-47; Zakir Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi, s.243.*

LÜTFULLAH MEYSİ – XVI-XVII əsrlərdə Səfəvilər dövlətində yaşamış görkəmli İslam alimi. O, Livanın *Cəbəli-Amil* məntəqəsindəki Meys kəndindən idi. Bu nəsil böyük alimlər sülaləsi kimi tanınırdı. Şeyx Lütfullahın babası Şeyx Əli ibn Əbdülali və atası Şeyx Əbdülkərim Cəbəli-Amilin hörmətli alimləri idilər. Şeyx Lütfullah Meysi I Şah

Abbasın dəvəti ilə Səfəvilər dövlətinə hicrət etmiş, əvvəlcə Məşhəd və Qəzvin şəhərlərində, daha sonra İsfahanda məskunlaşmışdı. Şeyx Lütfullah dini elmlərdə dərin biliyi ilə seçilirdi, gözəl şeirləri vardı, zahidanə həyat tərzi sürürdü. O, *Şeyx Bəhai* ilə müasir və dost olmuşdur. Şah 1602-19-cu illərdə ondan ötrü İsfahanda böyük bir məscid tikdirmişdi, həmin məscid bu gün də Şeyx Lütfullahın adını daşıyır. Meysi on ikinci imamın qeybət dövründə cümə namazı qılınmasının vacibliyini müdafiə edirdi. O, həmin məsciddə qılınan cümə və camaat namazlarına imamlıq edir, tədrislə məşğul olurdu.

Şeyx Lütfullah Meysinin oğlu Şeyx Cəfər də görkəmli din alimi idi.

Şeyx Lütfullahın guya I Şah Abbasın qayınatası olması barədə deyilənlərin mötəbər mənbələrdə sübutu yoxdur. XVII əsrin böyük alimlərindən olan Mirzə Abdullah Əfəndi Şeyx Lütfullah Meysinin iki qızı olduğunu yazdıqdan sonra onların kiminlə ailə qurduqlarını da qeyd edir. Meysinin qızlarından biri Seyid Ağa Mirzə Məhəmməd Mömin Üqeyli Astarabadi ilə ailə qurmuşdu. Alim o biri qızını isə *Mühəqqiq Kərəkinin* nəslindən olan, I Şah Səfinin zamanında *sədr* vəzifəsini daşımış Mirzə Həbibullah Amiliyə ərə vermişdi. Bu izdivacdan doğulmuş iki oğuldan (yəni Şeyx Lütfullahın nəvələrindən) biri Mirzə Mehdi vəzir vəzifəsinə yüksəlmiş, Mirzə Əli Rza isə İsfahan şəhərinin *şeyxülislamı* olmuşdur.

Şeyx Lütfullah Meysi 1622-cı ildə dünyasını dəyişmiş, vəsiyyətinə əsasən cənazəsi Kərbəla şəhərinə aparılaraq orada torpağa tapşırılmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VIII, 221-222; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, IV, 417-420; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1788-89.*

MAZANDARANİ, MƏHƏMMƏD SALEH (vəf. 1670/71) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. Molla Məhəmməd Saleh ibn Molla Əhməd Mazandaranlı kasıb bir ailədən çıxmışdı, elm ardınca İsfahana getmiş, burada *Məhəmməd Təqi Məclisinin* (*Əllamə Məclisinin* atası) dərslərinə qoşulmuşdu. Tezliklə şagirdlərin arasında seçilən Məhəmməd Saleh ustadın o qədər rəğbətini qazanır ki, öz qızı Aminə bəyimi ona ərə verir. Mazandarani İsfahanda *Molla Abdullah Şüştəridən* də dərs almışdır. Dini mövzuda bir neçə dəyərli əsəri vardır, ən məşhurları şiə məzhəbinin mötəbər hədis məcmuələri olan "Əl-Kafi" və "Mən la yəhzuruh əl-fəqih" kitablarına yazdığı geniş şərhlərdir.

Alimin böyük oğlu Hadi Mazandarani də dini elmlərlə məşğul olmuş, zəmanəsinin görkəmli elm xadimlərindən biri kimi tanınmışdır. Qurani-Kərimi fars dilinə tərcümə etdiyi üçün ona "mütərcim" deyirdilər.

Məhəmməd Saleh Mazandaraninin digər oğulları Nurəddin Məhəmməd (böyük şiə alimi Vəhid Bəhbəhaninin babası), Həsən Əli, Əbdülbaqi, Məhəmməd Hüseyn və Əli Nəqi də dini elmlərdə mahir olmuşlar. Alimin daha bir

oğlu *Məhəmməd Səid Əşrəf Mazandarani* (1620-1704) də dini elmləri mükəmməl mənimsəmiş, "Əşrəf" təxəllüsü iə şeirlər yazmış, ədəbiyyatda hind üslubunu (səbki-hindi) izləmişdir.

Mazandaraninin həyat yoldaşı (Əllamə Məclisinin bacısı) Aminə bəyim savadlı qadın idi, hətta bəzi elmi məsələlərdə həyat yoldaşı ilə rəqabət aparacaq səviyyəsi vardı. Mazandaraninin qızı Zəkiyyə də dini elmlərdə yüksək dərəcəyə çatmışdı, kitab müəllifi idi.

Molla Məhəmməd Saleh Mazandarani 1670/71-ci illərdə İsfahanda dünyasını dəyişmiş, Məclisilərin məqbərəsində dəfn edilmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 146-149; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, IV, 118-120; Seyid Mühsin Əmin. Əyan əş-şiə, X, 234; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 110; Külliyyatü-Əşrəf Mazəndarani, s.21-60.*

MEHDİ – ərəb dilindən tərcümədə "mehdi" hidayət olunmuş, doğru yola yönəldilmiş deməkdir. Dini anlamda mehdi – dünyanın sonuna yaxın, zülm və haqsızlığın cövlan etdiyi bir vaxtda zühur edəcək, dinsiz və azğın dəstələri bir-birinin ardınca məğlubiyyətə uğradıb, yer üzündə ədalətli hökumət quracaq şəxsiyyətin ləqəbidir. Mehdi inancı İslamdan əvvəlki bir çox dinlərdə də mövcud olmuşdur. Hinduizmin müqəddəs kitabı olan Vedlərdə, Zərdüştün şagirdi Camasbın kitabında, Zənd-Avestada dünyanın sonuna yaxın xilaskar bir qüvvənin gələcəyinə inam ifadə edilib. Yəhudi dinində dini və dünyəvi hakimiyyətin simvolu olan məsihə (meşşiyax) inam əsas yerlərdən birini tutur.

İslam ənənəsində də mehdi inancı bütün məzhəblər və cərəyanlar tərəfindən qəbul edilmişdir. Bəzən mehdinin gəlişinə inanmaq doktrinasını səhv olaraq yalnız şiəliklə bağlayırlar. Əslində mehdi inancı əhli-sünnə məzhəbinə məxsus hədis və əqidə kitablarında da geniş şəkildə əksini tapmışdır. Sünni mənbələrində dünyanın sonuna yaxın Həzrət Mühəmməd Peyğəmbərin (s) nəslindən, daha konkret desək, Fatimə (ə) soyundan Peyğəmbərin adını və künyəsini daşıyan bir nəfərin zühur edərək ədalət uğrunda mübarizəyə başlayacağı, Həzrət İsa Peyğəmbərin (s) yardımı ilə bu mübarizədə qələbə qazanacağı bildirilir. Bu mövzuda Həzrət Mühəmməd Peyğəmbərdən (s) rəvayət edilmiş hədislərin sayının 100-dən artıq olduğunu bildirirlər, bu hədislər 45-dən artıq məşhur səhabə tərəfindən rəvayət edilmişdir. Onlarla İslam alimi mehdi haqqında hədislərin mütəvatir (yəni təkzib edilməyəcək dərəcədə çoxlu rəvayət zənciri ilə nəql edilmiş hədis) olduğunu söyləmişdir.

Əhli-sünnə inancına görə, mehdi Fatimeyi-Zəhranın (ə), daha dəqiq ifadə etsək, İmam Hüseynin (ə) nəslindəndir (bəzi rəvayətlər İmam Həsənin (ə) nəslindən olduğunu bildirir), adı Peyğəmbərin adı, künyəsi Peyğəmbərin künyəsidir. O, qiyamətə yaxın dövrdə doğulub normal yaşda zühur edəcək. Şiə əqidəsinə görə isə, mehdi on birinci İmam Həsən Əsgərinin (ə) oğludur, hicri 260-cı (miladi 874-cü) ildə 5 yaşında ikən

qeybə çəkilmişdir, hazırda diridir və yalnız Allaha məlum olan vaxtda zühur edəcək.

Mənbələr: *Cemil Hakyemez. Mehdi Düşüncesinin İtikadileşmesi Üzerine (Gazi Üniversitesi Çorum İlahiyat Fakültesi Dergisi, 2004/1, c.III, sayı: 5), s.127-144; Faruk Gün. Mehdîlik İnancı Üzerine Bir İnceleme (Artuklu Akademi, 2017/4-1), s.99-129; Mustafa Çağrıcı. İslam Kültüründe Mehdi İnancı: İnanışın Kaynağı Mahiyeti ve Etkileri, s.1-83; Əllamə Təbatəbai. İslamda şiəlik, s.253-259; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 171-172; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXVIII, 369-374.*

MEHDİLİK – guya mehdi olduğu barədə bəzi şəxslər tərəfindən irəli sürülən iddia. Mehdi inancı müsəlmanlar arasında o qədər güclü olmuşdur ki, orta əsrlərdə xeyli insan öz məqsədini həyata keçirmək və ətrafına tərəfdar toplamaq məqsədilə özünün mehdi olduğunu iddia etmişdir. Mehdinin zühuru zamanı ona yardım göstərmək və tabe olmaq hər bir müsəlmanın vacib vəzifəsi sayılır. Buna görə də mehdilik iddiası edən şəxslər asan yolla özlərinə tərəfdar toplayır və öz hərəkətlərinə sorğu-sualsız haqq qazandırmış olurdular.

Mehdilik iddiasında olduğu deyilən bəzi şəxslər əslində belə bir iddia irəli sürməmişlər, onlar vəfat etdikdən sonra yaxınları onların ölümü ilə razılaşmamış və guya qeybə çəkildikləri barədə şayiə yaymışlar (məsələn, Muxtar, şəhid Zeyd, Əbu Müslim Xorasani, Məhəmməd Nəfs əz-zəkiyyə və b).

Bəzi mənbələrdə mehdilik iddiasında olduğu söylənilən 46 nəfər haqqında məlumat verilir. Onların böyük bir hissəsi məğrib (Şimali Afrika) əsillidir. Bunların arasında 1881-98-ci illərdə Sudanda ingilis işğalına qarşı silahlı qiyam qaldırmış və dövlət qurmuş "Sudanlı mehdi" ləqəbli Mühəmməd Əhməd xüsusilə məşhurdur.

Səfəvilər tarixinə aid bəzi araşdırmalarda guya I Şah İsmayıl Xətainin özünü mehdi elan etməsi, ətrafındakı şəxslərin və qızılbaş döyüşçülərin də onu bu cür qəbul etdikləri yazılır. Hətta bəzi tədqiqatçılar onun peyğəmbərlik və allahlıq iddiasında olduğunu da qeyd etmişlər. Amma bu iddiaların heç bir tutarlı sübutu yoxdur. Bu məlumatların əksəriyyəti Səfəvilər sarayında olmuş, İslam dinini və qızılbaş əqidəsini yaxşı bilməyən Qərb səyyahlarının xatirələrinə və Səfəvilərlə düşmən mövqedə duran mənbələrin yazılarına əsaslanır. Heç bir klassik Səfəvi mənbəyində I Şah İsmayılın özünü mehdi, peyğəmbər və ya tanrı elan etməsi barədə kiçicik işarə belə yoxdur. Şahın ətrafında olan, hələ düzgün şiə əqidəsini mənimsəməmiş, ifrat batini əqidələrin təsirindən qurtula bilməmiş bəzi ayrı-ayrı şəxslərin belə bir düşüncədə olması mümkündür. Amma bu cür düşüncələrin geniş yayılması və I Şah İsmayıl tərəfindən dəstəklənməsi barədə heç yerdə məlumat yoxdur. Əksinə, I Şah İsmayılın tərəfdarlarından bəzilərinin onun haqqında ifrat fikirdə olduqlarını yazan Qərb səyyahları dərhal bunu da qeyd edirlər ki, şah özü bu cür fikirlərdən çox narazıdır.

I Şah İsmayılın guya mehdilik iddiasın-

da olması barədə fikirlərə Səfəvi tarixini araşdırmış bəzi Qərb alimlərinin kitablarında rast gəlirik. Onlar da əksər hallarda Şah İsmayıl Xətainin şeirlərinə istinad edir, amma bu zaman həmin şeirlərin simvolik dilini nəzərə almırlar. İrfani məzmunlu şeirlərdə qeyri-ənənəvi İslam mövqeyindən yozula biləcək məqamlar çox olur, amma bu kimi məqamlar zahiri və birbaşa mənada qəbul edilməməli, onların məğzi simvolik şəkildə açılmalıdır.

Ümumiyyətlə, I Şah İsmayılın və I Şah Təhmasibin zamanında şahın mehdi olması deyil, mehdinin zühuruna müqəddimə olan bir dövlət qurması inancı mövcud idi. Həmin inanca görə, İmam Mehdi (ə) Səfəvilər dövlətində zühur edəcəkdi.

Şah İsmayıl Xətainin bəzi şeirlərində aydın görünür ki, o, özünü qətiyyən mehdi elan etməmiş, əksinə, onun barəsində həmişə ikinci və üçüncü şəxs qismində söz açmışdır:

Məhəmməd Mehdiyi-sahibzəmanın,
Eşigində gədaidir Xətai.

Ya Mühəmməd Mehdiyi-sahibzaman,
eylə zühur,
Nəslini qət eylə müşriklər ilə kafərlərin.
(Ş.İ.Xətai)

Mənbələr: *Səid Nəcəfi-nəjad. I Şah İsmayıl Səfəvinin mehdilik iddiası nəzəriyyəsi barədə tənqidi araşdırma ("Məşriqi-mövud" dərgisi, 1400 h.-ş., №60), s.21-40; A.M.Abadani. Dünya dinləri və məzhəbləri tarixi, III, 1111-1122; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 171-172; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 532 və 582.*

MƏCLİSİ, Məhəmməd Baqir İsfahani (1627/28-1699/1700) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış məşhur şiə alimi. Atası *Məhəmməd Təqi Məclisi* öz zəmanəsində görkəmli din alimi kimi tanınmışdı. Əllamə Məclisi İsfahanda doğulmuş, ilk təhsilini atasından almış, daha sonra *İsfahan hövzəsinin* digər ustadlarının dərslərinə qatılmışdır.

Əllamə Məclisinin ərəb və fars dillərində yazdığı 170-ə yaxın kitabın adları elm aləminə məlumdur. Şagirdlərindən biri onun qələmindən çıxmış əsərlərin ümumi həcminin 1 milyon 400 min sətri aşdığını xəbər vermişdir. O, hədis elmləri üzrə ixtisaslaşsa da, fiqh, tarix, əqaid, təfsir və s. elmlərdə dərin bilik sahibi olmuşdur. Əllamə Məclisi öz əsərlərinin böyük bir qismini fars dilində yazmaqla sadə xalqın bu kitabları oxumasına və dini maarifə yiyələnməsinə şərait yaratmışdır. Onun qələmindən çıxmış "Zad əl-məad" adlı dualar məcmuəsi, İslam əxlaqına həsr edilmiş "Hilyət əl-müttəqin", İslam müqəddəslərinin həyatından bəhs edən "Həyat əl-qülub" və "Cila əl-üyun", üsuliddin barədə "Həqq əl-yəqin" kitabları sadə və anlaşıqlı dildədir. Alim klassik mənbələrin bir neçəsinə haşiyə və şərhlər də yazmışdır.

Əllamə Məclisinin hədisçilik elminə ən böyük xidməti fundamental həcmli *"Bihar əl-ənvar"* məcmuəsini tərtib etməsidir. Səfəvilər dövlətinin siyasi-iqtisadi və hərbi baxımdan böhran yaşadığı, əfqan hücumları nəticəsində kitabxanaların məhv edildiyi bir zamanda o, şiə hədis irsini bir toplu halında toplamaqla

onlarla hədis məcmuəsini itib-batmaqdan qorumuşdur.

Əllamə Məclisi İsfahan hövzəsinin məşhur ustadlarından idi, bəzi məlumatlara görə, min nəfərə dərs demişdi. *Fazil Hindi, Mirzə Abdullah Əfəndi, Mir Məhəmməd Saleh Xatunabadi, Seyid Nemətullah Cəzairi,* Tünikabuni kimi böyük alimlər onun şagirdi olmuşlar.

Əllamə Məclisi mötədil *əxbari* cərəyanına mənsub idi, sufiliyə və fəlsəfəyə mənfi münasibət bəsləyir, əsərlərində də bu mövqeyi təbliğ edirdi.

Səfəvi hökmdarları Şah Süleyman və Şah Sultan Hüseyn ona böyük ehtiram bəsləyirdilər. Xüsusilə Şah Sultan Hüseyn onun məsləhət və tövsiyələrinə ciddi əməl edirdi. Əllamə Məclisi Səfəvilər dövlətinin son dövrlərində dini ideoloq vəzifəsini icra edir, bütün səyləri ilə dövlətin tənəzzülünü ləngitməyə çalışırdı. O, uzun müddət paytaxt İsfahanın *şeyxülislamı* mənsəbini daşımaqla dövlətin baş ruhanisi sayılmışdır.

Mənbələr: *Əllamə Məclisi. Bihar əl-ənvar, I, 37-67; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 191-197; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 39-40; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, II, 78-94; Cavad Hisari Müqəddəm. Əllamə Mühəmməd Baqir Məclisi ("Amuzeşi-tarix" dərgisi, 1389 h.-ş., №4), s.32-41; Həsən Tarimi. Əllamə Məclisi, s.11-21.*

MƏCLİSİ, Məhəmməd Təqi İsfahani (1594/95-1660) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şiə alimi. Məhəmməd Təqi ibn Məqsud Əli Məclisi İsfahani ata tərəfdən məşhur alim Əbu Nüeym İsfahaninin nəslindəndir. Atası Məqsud Əli İsfahani həm ruhani alim, həm də şair idi, cəmiyyət içində çox olduğundan və məclislərdə tez-tez iştirak etdiyindən özünə "Məclisi" təxəllüsünü götürmüşdü. Məhəmməd Təqi ilk təhsilini atasından almış, sonra *Şeyx Bəhai, Molla Abdullah Şüştəri, Mir Damad* kimi böyük alimlərin yanında elmini təkmilləşdirmiş, bir müddət Nəcəf şəhərində də oxumuşdur. Məhəmməd Təqi Məclisi *"Bihar əl-ənvar"* adlı fundamental hədis məcmuəsini tərtib etmiş *Əllamə Məhəmməd Baqir Məclisinin* atasıdır.

Məhəmməd Təqi Məclisi dini elmlərin, demək olar ki, hamısında məharət sahibi idi. Fiqh, təfsir, hədis, rical elmlərində zəmanəsinin ən böyük alimlərindən sayılırdı; xüsusilə hədis elmlərində mütəxəssis idi. Hətta bəzi mənbələrdə onu Səfəvilər zamanında hədisşünaslıq sahəsində ciddi fəaliyyət göstərmiş ilk alim kimi qəbul edirlər. O, bir neçə irihəcmli əsərin müəllifidir. Bunların arasında *cəfəri* məzhəbinin dörd əsas hədis məcmuəsindən biri olan Şeyx Səduqun "Mən la yəhzuruh əl-fəqih" kitabına yazdığı ərəbcə "Rövzət əl-müttəqin" və farsca "Ləvamei-sahibqirani" adlı şərhlər, Şeyx ət-taifə Tusinin "Təhzib əl-əhkam" kitabına yazdığı ərəbcə "İhya əl-əhadis" şərhi, *"Səhifət əs-Səccadiyyə"*-yə yazdığı ərəbcə və farsca şərhlər xüsusi qeyd olunmağa layiqdir.

Məclisini məşhur edən xüsusiyyətlərdən biri də *irfan* və *seyrü-sülukda* özünəməxsus fikir sahibi olmasıdır. Hətta buna görə onu sufilikdə ittiham edirdi-

lər. Lakin oğlu Əllamə Məhəmməd Baqir Məclisi bu ittihamları qəti şəkildə rədd etmişdir. Məhəmməd Təqi Məclisinin çoxlu kəramətləri olmuş, bunların bəzilərini özü, bəzilərini də oğlu nəql etmişdir.

Məhəmməd Təqi Məclisi dəyərli şagirdlər yetişdirmişdir: oğlu Əllamə Məhəmməd Baqir Məclisi, *Ağa Hüseyn Xansari*, kürəkənləri *Molla Mühəmməd Saleh Mazandarani* və *Molla Məhəmməd Şirvani* və b. Onun qızları da elm əhli olmuşlar; xüsusilə qızı Aminə bəyimin dini elmlərdə çox savadlı olduğunu yazırlar.

Məhəmməd Təqi Məclisini oğlu Əllamə Məhəmməd Baqir Məclisidən fərqləndirmək üçün klassik mənbələrdə "Məclisiyi-əvvəl" (Birinci Məclisi) kimi təqdim etmişlər.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 198-201; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 47; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, II, 118-123; Natiq Rəhimov. İrfan əlifbası, s.178-181.*

MƏCZUB TƏBRİZİ (vəf. 1682) – Şərəfəddin Mirzə Məhəmməd (və ya Məhəmməd Rza) ibn Məhəmməd Rza Məczub Təbrizi XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli şairlərdəndir. Mükəmməl dini biliyi olmuş, əsərlərində İslam dinini və şiə ideologiyasını təbliğ etmişdir. M.Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində onun haqqında yazır: "O, yüksək dünyagörüşlü və təsəvvüf təriqətində bilikli adam idi. Təbrizdə elmsevənlər hər gün onun məclisinə toplaşıb şirin danışıqlarından faydalanırdılar. Mirzə Məhəmmədin məlahətli qəzəlləri və rəvan dilli məsnəviləri vardır". 1654-cü ildə divanını yazıb bitirmişdir. Üç min beytlik "Şahrahi-nəcat" adlı məsnəvisi ədəbiyyat biliciləri tərəfindən yüksək dəyərləndirilir. "Təyidat" adlı mənzum risaləsini Şah Süleymana ithaf etmişdir. Şairin azərbaycanca şeirlərindən əlavə 4 min beyt həcmində farsca divanı da vardır.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.221-222; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 188; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, II, 885-887; Dairət əlməarifi-təşəyyö, IV, 82; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.68-69.*

MƏHƏMMƏD HÜSEYN TƏBRİZİ (vət. 1577) – XVI əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli Azərbaycan xəttatı. Təbrizli idi, atası Molla İnayətullah Azərbaycan vilayətinin *şeyxülislamı* vəzifəsində xidmət edirdi. Məhəmməd Hüseyn Məşhəddə dövrünün böyük xəttatlarından dərs almış, Təbrizdə məskunlaşmış, *Mir İmad Qəzvini* və *Rza Abbasi* kimi məşhur xəttatlara müəllimlik etmişdi. Onun sənətini yüksək dəyərləndirirdilər, müasirləri arasında "Məhin ustad", yəni "Böyük ustad" ləqəbi ilə tanınırdı. Məhəmməd Hüseyn Təbrizi xüsusilə II Şah Abbasın zamanında kitabət yazıları ilə məşğul olurdu, həmin dövrdə ucaldılmış məşhur binaların bir çoxunun kitabəsini o yazmışdı. Nəstəliq xəttinin incəliklərinə mükəmməl şəkildə yiyələnmiş sənətkar gənc yaşlarında dünyasını dəyişmişdir. Bəzi mənbələr onun "Məhzun" təxəllüsü ilə

şeirlər yazdığını da xəbər verir.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.217; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.361-362; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, III, 1713; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 326-327; Dairət əl-məarifi-təşəyyö, IV, 88.*

MƏHƏMMƏD QASİM TƏBRİZİ (vəf. 1659) – Səfəvilər zamanında yaşamış görkəmli Azərbaycan rəssamı, miniatür ustası. "Səracay ustad" ləqəbi ilə tanınırdı. Həyatı haqqında məlumat azdır. Əslən təbrizli olmuş, İsfahanda fəaliyyət göstərmişdir. Onu tanınmış nəqqaş *Rza Abbasinin* şagirdi də hesab edirlər, amma daha düzgün nəzəriyyəyə görə, o, Rza Abbasinin müasiri və sənət dostu olmuşdur. Məhəmməd Qasim Təbrizinin ən məşhur əsəri I Şah Abbasın xidmətçisi ilə birlikdə portretidir.

Məhəmməd Qasim Təbrizi Firdovsinin "Şahnamə", *Vəhşi Bafqinin* "Fərhad və Şirin", Novinin "Suzü güdaz" poemalarının, Hafiz divanının əlyazma nüsxələrini miniatürlərlə bəzəmişdir. Onun əsərlərində *Sultan Məhəmmədin* oğlu *Məhəmmədinin* təsiri duyulur, bu üslubda rəng bolluğuna deyil, təsvirin detallı və realist olmasına daha çox diqqət yetirilir.

Məhəmməd Qasim Təbrizi İsfahandakı *Çehelsütun sarayının* bir neçə divar rəsminin də müəllifidir.

Mənbələr: *Adamova A.T. Muhammad Qasim and the Isfahan School of Painting, Society and culture in the early modern Middle East, pp.193-212; Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1061-1067.*

MƏHƏMMƏD ZAMAN – XVII əsrdə Səfəvilər sarayında yaşayıb-yaratmış nəqqaş, miniatür ustası. Səfəvilər dövründə eyniadlı bir neçə rəssamın yaşadığı məlumdur, lakin XVII əsrin ikinci yarısında yaşamış Məhəmməd Zamanın yaradıcılığı daha artıq diqqətə layiqdir. Həyatı haqqında məlumat azdır, bilinən budur ki, 1701-ci ildə artıq həyatda deyildi. II Şah Abbas, Şah Süleyman və Şah Sultan Hüseynin hakimiyyət illərində sarayda fəaliyyət göstərmiş sənətkar Səfəvi mədəniyyəti tarixində kətan üzərində işləyən ilk rəssam sayılır.

Məhəmməd Zamanı özündən əvvəlki və müasiri olan rəssamlardan fərqləndirən ən mühüm cəhət onun Qərb üslubuna meyil göstərməsidir (ferəng-sazi). Əsərlərində Avropa rəssamlıq ənənələrinin, xüsusilə XVII əsr flamand rəssamlarının təsiri aydın hiss olunur. O, Qərbə xas peyzaj təsvirləri çəkməklə, detalların kölgəsini rəsmdə əks etdirməklə klassik miniatür ənənələrindən uzaqlaşmışdır. Məhəmməd Zamanın əsərlərində detalların təsviri dəqiq verilir, qədim əsatir süjetlərinin qəhrəmanları müasir geyimdə canlandırılır.

Rəssamın maraqlı işlərindən biri də "Şahnamə"yə çəkdiyi illüstrasiyalardır. I Şah Təhmasibin zamanında köçürülmüş, *Behzad, Sultan Məhəmməd, Mirzə Əli* kimi ustadların miniatürləri ilə bəzənmiş "Şahnamə" nüsxəsi o vaxtadək tamamlanmamışdı və rəsmlər üçün bir neçə səhifə boş yer qalmışdı. Məhəmməd Zamanın həmin səhifələrdə çəkdiyi üç miniatür özündən əvvəlki rəssamların əsərlərindən tam fərqlənir və Səfəvi

dövrü rəssamlığında yeni üslubun meydana gəlməsindən xəbər verir.
Bəzi mənbələrdə Məhəmməd Zamanın II Şah Abbas tərəfindən Qərb rəssamlığını öyrənmək məqsədilə İtaliyaya göndərildiyi, orada xristianlığı qəbul edərək Paolo Zaman adı ilə geri döndüyü yazılsa da, müasir tədqiqatlar bu məlumatın həqiqətdən uzaq olduğunu göstərir.

Mənbələr: *Həsən Qulupur, Pərviz Hasili. Avropa ilə mədəni əlaqələrin İsfahan rəssamlıq məktəbinə təsiri barədə araşdırma ("Pejuheşi-hünər" dərgisi, h.-ş., №17); Farangi sazi (Encyclopaedia Iranica Online, Columbia University); M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, II, 727-813; Landau, Amy S. "From Poet to Painter: Allegory and Metaphor in a Seventeenth-Century Persian Painting by Muhammad Zaman, Master of Farangi-Sazi" (Muqarnas: An Annual on the Visual Culture of the Islamic World 28, 2011), pp.101-132;*

MƏHƏMMƏDİ – XVI əsrdə Səfəvilər sarayında yaşayıb-yaratmış görkəmli rəssam, miniatür ustası. Məşhur nəqqaş *Sultan Məhəmmədin* oğlu və şagirdidir. Məhəmmədinin həyatı barədə dəqiq məlumat azdır. Bəzi müəlliflər onun Sultan Məhəmmədin şagirdi olmasını təsdiq etsələr də, oğlu olmasını şübhə altına alırlar.
Məhəmmədi çoxfiqurlu kompozisiyalar işləməkdə xüsusi məharət sahibi idi. Mövcud əsərlərinin yaradılma tarixini incələyəndə aydın olur ki, rəssam uzun ömür yaşamış, 50 ildən artıq sənətlə məşğul olmuşdur. Məhəmmədinin yaradıcılığının ən məhsuldar və püxtələşmiş dövrü XVI əsrin son rübünə təsadüf edir. Onun əsərlərində Sultan Məhəmmədin təsiri hiss olunsa da, müstəqil yaradıcılıq axtarışları daha güclüdür. Məhəmmədinin sadə kənd həyatından götürdüyü süjetlər realist üslubu baxımdan tamaşaçıya çox yaxın və doğmadır ("Kənd həyatı", "Dərvişlərin rəqsi" və s). Bu baxımdan sənətşünaslar Məhəmmədini yeni bir rəssamlıq üslubunun, hətta müstəqil məktəbin banisi sayırlar.

Mənbələr: *Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.74-75; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1103-1110.*

MƏLİK BƏY AVCI – Səfəvilər zamanında yaşamış azərbaycanlı şair. Ləqəbindən də göründüyü kimi, qızılbaş *Şamlu* tayfasının *Avcı* oymağından idi. Həyatı və yaradıcılığı haqqında geniş məlumat yoxdur. Hətta bəzi tədqiqatçılar mənbələrdəki qarışıq məlumatlara əsaslanaraq bu adı daşıyan iki şəxs olduğunu ehtimal etmişlər. Şairin yaradıcılığı haqqında məlumat uzun müddət qədim şeir toplularından birində qeyd edilmiş bir beytlə məhdudlaşırdı. Bu beytdə şair özünün məşhur şair və ya əsilzadə olmadığını yazaraq, sadəliyi ilə fəxr edir:

Nə Nəvai, nə Füzuli, nə Məlik, nə Adəməm,
Bəndeyi-şahəm Məlik adlu, nə künyə, nə ləqəb.

Məlik Avcı II Şah Səfəvinin taxta çıxması münasibətilə qəsidə yazmışdır. Onun azərbaycanca 377 beytlik 63 qəzəldən ibarət kiçik divanı elm aləminə mə-

lumdur. Məlik bəy Avcının yaradıcılığı ilə əsasən Türkiyədə mühacir həyatı yaşamış Azərbaycan əsilli ədəbiyyatçı alim Əhməd Cəfəroğlu məşğul olmuşdur.
Səfəvilər dövrünə aid klassik mənbələrdə Məlik bəy Avcı haqqında geniş məlumat tapmaq çətindir. "Tarixi-aləmarayi-Abbasi"də *qorçuların* vəziri Məlik bəydən danışılır. Amma İsgəndər bəy Münşi onun Həmədan yaxınlığındakı Əsədabad məntəqəsinin məlikzadələrindən olduğunu yazır. Məlik bəy gənc yaşlarında Xorasanda xidmətə başlamış, əvvəlcə qorçu *mustofvisi*, daha sonra isə vəfat etmiş Hüseynqulu xanın yerinə qorçu vəziri olmuşdur. Ölümündən bir neçə il əvvəl həcc ziyarətinə getmişdir. I Şah Abbasın zamanında sidik kisəsi daşı xəstəliyindən əziyyət çəkərək, 1611/12-ci illərdə vəfat etmiş, Məşhəd şəhərində torpağa tapşırılmışdır. "Tarixi-aləmarayi-Abbasi" müəllifi Məlik bəyi xoşəxlaq, "türki və farsi şeirlərə əlaqəli" adam kimi təsvir edir. Bu, haqqında danışılan şəxsin şairlik təbinə malik olduğunu göstərir və onun Məlik bəy Avcı ilə eyni şəxs olduğunu düşünməyə ehtimal yaradır.

Mənbələr: *A.Caferoğlu. XVII Asirda Azeri Şairi Melik Bey Avci; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1526; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.50.*

MƏLİK ƏŞ-ŞÜƏRA – ərəb dilindən tərcümədə şairlərin hökmdarı, başçısı deməkdir. Şərq dövlətlərinin bir çoxunda saray şairlərinin başçısına verilən fəxri ləqəbdir. Adətən, hökmdar tərəfindən ən istedadlı sayılan şairə bu ləqəb verilirdi. Məlik əş-şüəra şeir məclislərinə rəhbərlik edir, sarayda qurulan bayram məclislərinə qatılır, hökmdarı mədh edir, mühüm hadisələr münasibətilə şeirlər yazıb şahın hüzurunda oxuyurdu. "Onun (məliküş-şüəranın) vəzifəsi bu idi ki, hər il Günəş Qoç bürcünə daxil olanda qabaqcadan padşahın tərifinə, yaxud baharın təsvirinə həsr olunmuş bir qəsidə yazsın və *Novruz bayramı* günü onu gətirib hamının yanında padşahın müqəddəs hüzurunda oxusun, padşahın yeni tikilən bina və imarətləri barədə "maddeyi-tarix" desin və şərəfli əmrin verildiyi istənilən mövzuda məsnəvi və qəsidə qələmə alsın".
Xüsusilə Səfəvi və Qacar dövlətlərində məlik əş-şüəra sarayda böyük hörmət sahibi olmuşdur. I Şah İsmayılın zamanında *Həbibi* bu vəzifəni daşımışdır.
Digər böyük Azərbaycan şairi Saib Təbrizi də XVII əsrin ortalarında Səfəvi sarayının məlik əş-şüərası idi.

Mənbələr: *Azərbaycan dilinin izahlı lüğəti, III, 334; Azərbaycan tarixi, III, 317; Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.287; Turxan Gəncəyi. Səfəvilər dövləti və türk dili (fars dilinə tərcümə: N.Salihi, "Pəyami-baharistan" dərgisi, 1388 h.-ş., №6), s.298.*

MƏRCEYİ-TƏQLİD – ərəbcədən tərcüməsi "*təqlid* üçün müraciət edilən şəxs" deməkdir. Bir zəmanədə ictihada çatmış minlərlə müctəhid yaşaya bilər, amma onlardan yalnız bir neçəsinə təqlid olunur. Çünki mərceyi-təqlid digər sıravi müctəhidlərlə müqayisədə daha dərin elmi və əxlaqi səviyyəyə malik olmalıdır.

Mərceyi-təqlidliyə namizədlik adətən yüksəksəviyyəli müctəhidlərin yazılı və ya şifahi razılığı əsasında irəli sürülür. Dərin elmi dərəcəli alimlər və ya elmi müəssisələr müctəhidin mərcəlik səviyyəsində olduğunu təsdiq edir və müsəlmanları ona təqlid etməyə çağırırlar. Bəzən də müəyyən bölgədə bir müctəhid şöhrət qazanır və o bölgənin camaatı müəyyən səbəblər üzündən (müctəhidin həmin bölgəyə mənsub olması, yaxud siyasi bir səbəb də burada rol oynaya bilər) ona təqlid etməyə başlayırlar. Tədricən başqa bölgələrin əhalisi arasında da həmin müctəhidin təqlidi yayılır və beləliklə, o, mərceyi-təqlidə çevrilir. Mərceyi-təqlidin ona təqlid edilən bölgələrdə nümayəndəlikləri olur; bunlar camaatın dini suallarına cavab verir, məişət zəminində yaranmış problemləri mərceyi-təqlidin fətvaları əsasında həll edir, xüms və zəkat pullarını toplayırlar. Səfəvilər dövlətinin ilk mərhələsində *Cəbəli-Amil* məntəqəsindən ölkəyə dəvət edilmiş *"Mühəqqiq Kərəki"* ləqəbli Şeyx Əli Kərəki Amili (vəf. 1534) mərceyi-təqlid sayılırdı, ona "müctəhid əzzəmani" ləqəbi ilə müraciət edirdilər. I Şah Təhmasib ona hədsiz ehtiram bəsləyir, onu İmam Mehdinin (s) canişini olaraq qəbul edir, hətta öz hakimiyyətinə onun icazəsi ilə legitimlik qazandırırdı. Mühəqqiq Kərəkinin ictimai-siyasi məzmunlu fətvaları (cümə namazının vacibliyi, Səfəvi şahına itaətin lazımlığı, dini vergi və ödənişlər) o zamanın bəzi elm adamları tərəfindən qəbul edilməsə də, şahın dəstəyi ilə həmin qüvvələr susduruldu.

XVII əsrdə Səfəvilər dövlətində *əxbariyyə* cərəyanı geniş yayıldığı üçün təqlid institutu zəifləmiş və mərcəiyyət məsələsi öz əhəmiyyətini xeyli dərəcədə itirmişdir. XVIII əsrin sonlarından etibarən *üsuli* əqidəsinin əxbariliyə üstün gəlməsi nəticəsində təqlid məsələsi və mərceyi-təqlid avtoriteti yenidən aktuallıq qazandı.

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXIX, 172-174; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 165; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.331.*

MƏSİHİ, RÜKNƏDDİN MƏSUD (1580-1655/56) – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış azərbaycanlı şair və həkim. Kaşanda doğulmuş, ixtisasca həkim olmuşdur. İsfahanda təhsil aldığı yazılır. Həm də gözəl şeir təbinə malik olmuş, ixtisasına uyğun olaraq özünə "Məsihi" (sağalmaz xəstələrə şəfa verən İsa Məsih peyğəmbərə (ə) işarədir) təxəllüsü götürmüşdür. Digər ləqəbi "Həkim Rükna"dır. Məsihinin atası Nizaməddin Əli də həkimliklə məşğul olmuş, Səfəvi və Moğol saraylarında xidmət etmiş, hətta "Məlik əl-hükəma" (Həkimlərin başçısı) ləqəbini qazanmışdı. Məsihinin özü də əvvəllər I Şah Abbasın sarayında hörmət sahibi olmuş, şahla dəfələrlə görüşmüş, onun məclislərində iştirak etmişdi. *Sadiq bəy Əfşar* şairin haqqında yazırdı: "Xoşxasiyyət və xoşrəftar gəncdir. Bütün şeir növlərində yazır". Daha sonra S.B.Əfşar Məsihinin "Xosrov və Şirin"ə cavab olaraq poema üzərində işlədiyini bildirir.

Məsihi ömrünün böyük bir hissəsini Böyük Moğollar imperiyasında həkim kimi yaşamışdır. Bunun səbəbini Səfəvi sarayı tərəfdən himayədən məhrum qalması ilə izah edirlər. Məsihi 1611/12-ci illərdə Hindistana mühacirət etmiş, Moğol hökmdarı Cahangir şahın, daha sonra Şah Cahanın sarayında (Dəkən və Caypur şəhərlərində) həkim kimi fəaliyyət göstərmişdir. 1632-ci ildə vətənə qayıdan Məsihi bu dəfə saray tərəfindən unudulmuş halda ömür sürmüş və Kaşanda dünyasını dəyişmişdir.

Məsihinin ədəbi irsi zəngindir. Yüz min beytdən artıq şeir yazdığı deyilsə də, bunların yalnız bir hissəsi günümüzə gəlib çatıb. Şairin divanı, "Vərqa və Gülşa", "Xosrov və Şirin" poemaları onun istedadı barədə dolğun təsəvvür yaradır. Məsihi iki dildə – azərbaycanca və farsca yazmışdır, divanının bir hissəsi və "Vərqa və Gülşa" poeması azərbaycancadır. Klassik məhəbbət dastanları ənənəsinə sadiq şəkildə yazılmış "Vərqa və Gülşa" məsnəvisini müəllif 1628/29-cu illərdə 51 yaşında ikən yazıb bitirmişdir. Əruz vəzninin həzəc bəhrində yazılmış poema məsnəvi janrında olsa da, arada müəllif qəzəllərdən də istifadə edib. Bu baxımdan "Vərqa və Gülşa" *Füzulinin* "Leyli və Məcnun" poemasına bənzəyir. Hər iki poemanın süjeti ərəb folklorundan götürülsə də, "Vərqa və Gülşa" nikbin finalla bitir.

Məsihi tibb mövzusunda "Zabitət əl-əlac" adlı risalə də yazmışdır.

Mənbələr: *Ə.Səfərli. Məsihi, s.28-40; Məsihi. Vərqa və Gülşa, s.4-20; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.67; Yaqub Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.632-648; Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), VI, 53.*

MİNŞAR, Zeynəddin Əli ibn Əhməd Kərəki Amili (vəf. 1576) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi, İsfahan *şeyxülislamı*. Ulu babasının adı ilə İbn Hilal Amili kimi də tanınır. O, Cəbəli-Amil alimlərindən və *Mühəqqiq Kərəkinin* tələbəsi idi. Bir müddət Hindistanda və İraqda təhsil aldığını yazırlar. Kərəki Səfəvilər dövlətinə hicrət etdikdən sonra Minşarı da yanına dəvət etdi. Minşar özü ilə 4 min cilddən artıq zəngin kitabxana da gətirmişdi. Kərəkinin vəfatından sonra o, İsfahan şəhərinin şeyxülislamı təyin edilərək Səfəvilər dövlətində ən yüksək dini vəzifənin sahibi oldu.

Şeyx Əli Minşar *Şeyx Bəhainin* qayınatası idi. O, Şeyx Bəhainin atası ilə dost olmuş və onu Səfəvilər dövlətinə dəvət etmişdi. Onun məsləhəti əsasında Şeyx Bəhainin atası Qəzvin şəhərinin şeyxülislamı təyin edilmişdi. Minşarın yeganə qız övladı da fiqh və hədis elmlərində çox savadlı idi, qadınlara dərs deyirdi.

Alim dini mövzuda bir neçə kitab yazmışdır. O cümlədən, I Şah Təhmasibin xahişi ilə təharət mövzusunda risalə qələmə almış, daha bir risaləsində qeybət dövründə cümə namazı qılınmasının vacib olmadığını əsaslandırmışdır.

Minşar 1576-cı ildə İsfahanda dünyasını dəyişmiş, Məşhəddə dəfn olunmuşdur.

Mənbələr: *Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, IV, 266-268; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 14-15.*

MİR DAMAD, MİR MƏHƏMMƏD BAQİR ASTARABADİ (1561/62-1631/32) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli filosof, din alimi. Gürganın məşhur seyidlərindən olan atası Mir Şəmsəddin Məhəmməd Səfəvilər dövrünün ilk *şeyxülislamı Mühəqqiq Kərəkinin* kürəkəni olduğu üçün "Damad" (kürəkən) ləqəbini qazanmışdı. (Rəvayətə görə, öz qızını Şəmsəddin Məhəmmədə ərə vermək Kərəkiyə yuxuda İmam Əli (ə) tərəfindən vəhy edilmiş və bu izdivacdan gələcəkdə son dərəcə bilikli bir alimin doğulacağı xəbər verilmişdi. Mühəqqiq Kərəkinin Mir Damadda ərdə olan birinci qızı övlad dünyaya gətirmədən vəfat etmiş, yuxuda alimə ikinci qızını eyni adama ərə verməsi bildirilmiş və nəzərdə tutulan övladın bu qızdan doğulacağı buyurulmuşdu. Mir Damad bu evlilikdən dünyaya gəlmişdir). Onun ölümündən sonra oğlu da bu ləqəbi daşımışdır. Mir Damadın I Şah Abbasın qızı ilə evli olduğu və buna görə Damad ləqəbini aldığı barədə bəzi mənbələrdəki məlumat yanlışdır.

Mir Damad gənclik dövründə Məşhəddə və Qəzvində təhsil almış, bir müddət Kaşanda yaşamış, daha sonra İsfahanda məskunlaşmışdır. Mühəqqiq Kərəkinin oğlu Şeyx Əbdülali (yəni öz dayısı), *Şeyx Bəhainin* atası Şeyx İzzəddin Amili və *Molla Abdullah Şüştəri* ona dərs demişlər.

Mir Damad *İsfahan hövzəsinin* ən mühüm elmi simalarından sayılır. Müxtəlif elmlərdə (fiqh, hikmət, kəlam, təfsir, rical, hədis, riyaziyyat və s.) dərin biliyə sahib olmuş alim əsasən fəlsəfədə ixtisaslaşmışdır. Filosoflar arasındakı uca məqamına görə ona "Müəllim əs-salis" (Üçüncü müəllim) ləqəbi verilmişdi (fəlsəfə aləmində birinci müəllim Ərəstu (Aristotel), ikincisi isə Farabi sayılır). O, *Molla Sədra, Feyz Kaşani, Məhəmməd Təqi Məclisi, Molla Xəlil Qəzvini* kimi bir neçə məşhur alimə dərs demişdir.

Mir Damad 100-dən artıq müstəqil əsər, şərh və haşiyə qələmə almışdır ki, bunların ən məşhuru fəlsəfə mövzusunda "Əl-Qəbəsat" kitabıdır. O, İbn Sinanın məşşailik təlimi ilə Sührəvərdinin *işraqiyyə* fəlsəfəsini İslam (şiə) təlimləri ilə uzlaşdırmağa çalışmış, bunların sintezini özünün icad etdiyi "fəlsəfət əl-yəmani" termini ilə adlandırmışdır.

Mir Damad incə təbli şair idi, irfani məzmunlu şeirlərini "İşraq" təxəllüsü ilə yazırdı. Müasiri olan böyük alim Şeyx Bəhai ilə səmini dostluğu barədə bəzi rəvayətlər kitablarda qeyd edilib. Bəzi məlumatlara görə, Şeyx Bəhai ilə yanaşı Mir Damad da I Şah Abbasın vəziri olmuşdur.

Mir Damad Astarabadi 1631-ci və ya 1632-ci ildə İraq ziyarəti zamanı vəfat etmiş, cənazəsi Nəcəf şəhərində, babası Mühəqqiq Kərəkinin qəbrinin yanında dəfn olunmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 56-62; Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 40-41; Naim Döner. Mîr Dâmâd ve Emânet-i İlahî Risalesi (DÜİFAD, 2016, 18/1), s.51-79; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VIII, 435-436; T.İzutsu. Mir Damad ve Metafiziği (Eski Yeni: Anadolu İlahiyat Akademisi Araştırma Dergisi, 2015, vol: 30), s.175-184.*

MİR İMAD HƏSƏNİ SEYFİ QƏZVİNİ (1554-1615) – Səfəvilər dövründə fəaliyyət göstərmiş görkəmli xəttat. Seyid nəslindən idi, Qəzvində doğulmuş, Təbrizdə sənət dərsləri almışdı. Ustadlarından biri də Məhin ustad ləqəbli *Məhəmməd Hüseyn Təbrizi* idi. Mir İmad Osmanlı dövlətinə və Ərəbistana səfərlər etmişdi. Onun əl işi olan yazı nümunələri təkcə Səfəvilər dövlətində deyil, Osmanlı məmləkətində və Hindistanda da məşhur idi. Mir İmad bir müddət Herat hakimi *Fərhad xan Qaramanlunun* sarayında xidmət etmiş, onun qətlindən sonra İsfahana köçmüşdür. I Şah Abbasın zamanında sarayda hörmət sahibi olmuş, daha sonralar sənətinə həsəd aparanların yaydığı şayiələr sayəsində hörmətdən düşüb saraydan uzaqlaşmışdı. Deyirlər ki, I Şah Abbas ona 70 dinar göndərib "Şahnamə"ni köçürməsini tapşırmışdı. Bir ildən sonra Mir İmad "Şahnamə"dən köçürdüyü 70 beyti şaha göndərib dedi ki, verdiyiniz pula yalnız bu qədər yazı düşür. Şah bu cavabdan qəzəblənib Mir İmadın yazısını geri göndərdi, xəttat da qayçı ilə yazını hissələrə doğrayıb, hər beyti bir dinara satdı və şahın pulunu qaytardı. Bu hadisədən sonra I Şah Abbasın sənətkara nifrəti daha da çoxaldı. Bu nifrətin daha bir səbəbi xəttatın öldürülmüş Herat hakimi Fərhad xan Qaramanluya xidmət etməsi və şayiələrə görə, sünni məzhəbinə mənsub olması idi. 1615-ci ildə gecə vaxtı Qəzvin küçələrinin birində evinə gedən Mir İmadı *Şahsevən* tayfasının başçısı Maqsud bəy öldürdü.

Mir İmad Qəzvininin yazısı o qədər məşhur və bəyənilən idi ki, nəstəliq xəttində onun üslubuna "xətti-Mir" deyirdilər. Xəttatlıq barədə "Adab əl-məşq" adlı kitab yazmışdır.

Mir İmad Qəzvini Şah İsmayıl Xətainin də divanını köçürmüşdür. Həmin divanın natamam nüsxəsi Əfqanıstanın Məzari-şərif şəhərindəki Baxtər muzeyində saxlanılır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 72-76; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1597-1598; Lüğətnameyi-Dehxuda, IX, 16318; Təzkireyi-Nəsrabadi, s.207-208; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 40-41.*

MİR LOVHİ, Seyid Məhəmməd ibn Məhəmməd Musəvi Səbzəvari İsfahani – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli *şiə (cəfəri)* alimi. *İmam Musa Kazimin (ə)* nəslindən idi, Səbzəvar şəhərində doğulmuş, İsfahanda yaşayıb-yaratmışdır. *Şeyx Bəhaidən* və *Mir Damaddan* dərs almışdır. "Mütəhhər" və "Nəqibi" ləqəbləri ilə tanınırdı. Ən məşhur əsəri on ikinci imam Həzrət Mehdiyə (ə) həsr etdiyi 40 hədis və şərhindən ibarət "Kifayət əl-mühtədi fi mərifət əl-Mehdi" kitabıdır. Mir Lovhi müasirləri olan *Məhəmməd Təqi Məclisini* və oğlu *Əllamə Məclisini* ciddi tənqid edirdi. Buna görə, eləcə də sufiliyə mənfi münasibət bəslədiyi, bir kitabında Əbu Müslim Xorasani barədə mənfi fikir yürütdüyü üçün müasirləri tərəfindən xoş qarşılanmamışdır. Bəzi alimlər onun İmam Mehdi (ə) ilə görüşdüyünü yazmışlar. Təzyiq və çətinlik içində yaşadığı, hətta sui-qəsd nəticəsində öldü-

yü deyilir. Oğlu Seyid Məhəmməd Hadi də din alimi olmuşdur.

Mənbələr: *Mir Lovhi. Kifayət əl-mühtədi fi mərifət əl-Mehdi (müqəddimə); Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 235-236; Ağa Büzürg Tehrani. Əz-Zəriə ila təsanif əş-şiə, I, 427.*

MİR MÜSƏVVİR – XVI əsrdə Səfəvilər sarayında yaşamış məşhur nəqqaş, miniatür ustası. Orta Asiyanın Bədəxşan vilayətindən, Tirmiz şəhərindən olduğunu yazırlar. Bəzi mənbələrə görə, adı Mənsur idi. I Şah Təhmasibin sarayındakı kitabxanada, rəssam emalatxanasında çalışır, *Sultan Məhəmməd, Ağa Mirək İsfahani* və b. ilə yanaşı sarayın ən qüdrətli nəqqaşlarından sayılırdı. Bir neçə nadir əlyazma nüsxənin, o cümlədən I Şah Təhmasib zamanında hazırlanmış Nizami "Xəmsə"sinin ərsəyə gəlməsində yaxından iştirak etmisdir. Bu nüsxə üçün çəkdiyi "Ənuşirəvan və bayquşların söhbəti" kompozisiyası Mir Müsəvvir yaradıcılığının zirvəsi hesab edilir.
Mir Müsəvvir təkcə Səfəvi sarayında deyil, bütün müsəlman Şərqində şöhrət qazanmışdı. Böyük Moğol hökmdarı Humayun şah hakimiyyətdən kənarlaşdırılıb Səfəvilər dövlətinin himayəsi altında yaşadığı zamanlarda Mir Müsəvvirin istedadına heyran olmuşdu. Hakimiyyətə qayıtdıqdan sonra o, I Şah Təhmasibə yazmışdı ki, əgər Mir Müsəvvirin Hindistana köçməsinə icazə versə, min tümən peşkəş verməyə hazırdır. Salnaməçi *Budaq Münşi Qəzvini* yazır ki, Mir Müsəvvirin oğlu *Mir Seyid Əli* ondan daha üstün (istedadlı) olduğu üçün ondan əvvəl Hindistana köçdü, Mir Müsəvvir də daha sonra oğlunun ardınca getdi. Beləliklə, bu məlumatdan aydın olur ki, Mir Müsəvvir Səfəvilər dövlətindən ayrılaraq fəaliyyətini Böyük Moğol imperiyasında davam etdirmişdir. Bəzi müəlliflər Mir Müsəvvirin həyatının sonlarında halının "pərişan" olduğunu yazırlar ki, bunu yaradıcılıq depressiyası və psixoloji yorğunluq mənasında qəbul etmək olar. Tədqiqatçıların bir qisminin fikrincə, Mir Müsəvvir Səfəvilər dövlətini tərk etməmişdir.
Görkəmli miniatür ustası Mir Seyid Əlinin atası və ustadıdır.

Mənbələr: *"Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, h.-ş. 1388, 15-ci dəftər), s.114; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1343-54; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.72.*

MİR SEYİD ƏLİ (vəf. 1569-cu ildən sonra) – XVI əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış məşhur nəqqaş və miniatür ustası, Təbriz və Moğol miniatür məktəblərinin nümayəndəsi. Görkəmli nəqqaş *Mir Müsəvvirin* oğlu və şagirdi idi. I Şah Təhmasibin sarayında və himayəsi altında fəaliyyət göstərirdi. Mir Seyid Əlinin əsərləri təkcə *Təbriz miniatür məktəbinin* deyil, ümumilikdə orta əsrlər Şərq mədəniyyətinin incilərindən sayılır. I Şah Təhmasib zamanında hazırlanmış Nizami "Xəmsə"sinə çəkdiyi "Məcnun Leylinin çadırı yanında" illüstrasiyası və daha üç əsər onun yaradıcılığının zirvəsi hesab edilir. Ən nəfis "Xəmsə" nüsxələrindən sayılan və 1539-43-cü illərdə hazırlanmış bu kitabın tər-

tibatında dövrün ən məşhur xəttat, nəqqaş və müzəhhiblər (kitabı naxışlarla bəzəyən, yazıları qızıl suyu ilə işləyən sənətkar) iştirak etmişdilər (*Sultan Məhəmməd, Ağa Mirək İsfahani, Mir Müsəvvir, Mirzə Əli, Müzəffər Əli,* Şah Mahmud Nişapuri və b.).

Mir Seyid Əli Təbrizi daha sonralar öz yaradıcılığını Hindistanda davam etdirmişdir. Böyük Moğol hökmdarı Humayun şah (1530-40 və 1555-56) çevriliş nəticəsində hakimiyyətdən kənarlaşdırıldıqdan sonra Səfəvilər dövlətinə sığınmışdı. Burada o, böyük sənətkarlarla və onların əsərləri ilə tanış olur, öz ölkəsində də belə bir ab-hava yaratmaq qərarına gəlir. Hakimiyyəti özünə qaytardıqdan sonra Humayun şah Səfəvi dövlətinin bəzi sənətkarlarını Hindistana dəvət edir. Bu zaman I Şah Təhmasibin incəsənət adamları üzərindəki himayəsi zəifləmişdi. Belə bir şəraitdə Mir Seyid Əli və rəssam dostu Əbdüssəməd Şirazi dəvəti qəbul edib Hindistana köçür və Dehlidəki şah sarayında fəaliyyətə başlayırlar. Onlar 50-dən artıq şagird yetişdirməklə Moğol miniatür məktəbinin əsasını qoyurlar. Beləliklə, Moğol miniatür məktəbi *Təbriz miniatür məktəbinin* nümayəndələri tərəfindən yaradılır.

Mir Seyid Əli Hindistanda Humayun şahın və xələfi I Əkbər şahın (1556-1605) himayəsi altında özünün ən gözəl əsərlərini yaradır, saray kitabxanasına başçılıq edirdi. Moğol hökmdarı dünyanın ən böyük kitab layihələrindən sayılan və 12 (və ya 14, yaxud 16) cilddə planlaşdırılan "Həmzənamə" kitabının illüstrasiyalarını çəkməyi Mir Seyid Əliyə və ətrafındakı rəssamlara tapşırır. Böyük ölçülü kitabın hər cildində 100 miniatürün olması nəzərdə tutulurdu. Kitab üçün çəkilmiş xeyli miniatür günümüzə gəlib çatmışdır, bunların bir hissəsi Mir Seyid Əlinin qələminə məxsusdur.

Mir Seyid Əlinin yaradıcılığında atası Mir Müsəvvirin və ustadı *Sultan Məhəmmədin* təsiri aydın duyulur. Hindistanın dövlət və elm adamları ona dərin hörmət bəsləyirdilər. Humayun şah ona "Nadir əl-mülk" (Dövlətin yeganəsi) ləqəbini vermişdi. *Sadiq bəy Əfşar* onun haqqında yazırdı: "Öz sənətində dövrünün böyük ustadı və mərhum şahın kitabxanasının əshabələrindən olan Mir Müsəvvirin oğludur. Mir özü də olduqca bacarıqlı nəqqaş və rəssam idi... Şeir təbi olduqca yaxşıdır". Mir Seyid Əli "Cüdai" təxəllüsü ilə şeirlər yazmışdır.

Təqribən 1569-cu ildə Mir Seyid Əli həcc ziyarətinə yollanır. Bəzi məlumatlara görə, bu səfər zamanı, digərlərinə görə isə, Hindistana qayıtdıqdan az sonra dünyasını dəyişmişdir.

Mənbələr: *M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1313-1334; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.123; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.73; Basil Gray. Persian Painting, p. 71.*

MİRZƏ ƏLİ TƏBRİZİ (1510-1576) – XVI əsrdə Səfəvilər sarayında yaşayıb-yaratmış görkəmli rəssam, miniatür ustası. Məşhur nəqqaş *Sultan Məhəmmədin* oğlu və şagirdidir. Hələ gənc yaşlarından Təbriz kitabxanasında köçürülmüş nəfis əlyazma kitablara illüstrasiyalar çəkməyə başlamışdı. I Şah Təh-

masibin göstərişi ilə hazırlanmış və *Təbriz miniatür məktəbinin* şah əsərləri sayılan "Şahnamə" və "Xəmsə" nüsxələrinə onun da bir neçə miniatürü daxil edilmişdi. Mirzə Əlinin qələmindən çıxmış "İsgəndərin təsviri Nüşabəyə göstərilir" və "Xosrov Barbədin musiqisini dinləyir" miniatürləri onun sənətinin zirvəsi hesab edilir.

I Şah Təhmasibin sənətə himayəsi zəifləndikdən sonra Mirzə Əli də, bir çox sənətkar kimi, şahzadə *İbrahim Mirzənin* sarayına köçmüşdü. 1558-ci ildə dövlətin paytaxtı Qəzvin şəhərinə köçürüləndə Mirzə Əli Təbrizi yenə saray kitabxanasında xidmətini davam etdirdi.

Mirzə Əlinin yaradıcılığı hələ orta əsr müəllifləri tərəfindən yüksək qiymətləndirilir, Səfəvilər dövrünün rəssamları arasında adı ilk sırada çəkilirdi. Təəssüf ki, bəzi mənbələrdə onu Hindistana mühacirət etmiş digər görkəmli rəssam *Mir Seyid Əli* ilə qarışıq salırlar.

Mənbələr: *Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.70-71; "Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, 1388 h.-ş., 15-ci dəftər), s.114; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1295-1304.*

MİRZƏ SALEH TƏBRİZİ – XVII əsrdə Səfəvilər dövlətində yaşamış Azərbaycan şairi və din xadimi. Mükəmməl dini təhsil almış, Təbriz şəhərinin *şeyxülislamı* vəzifəsini icra etmişdir. Azərbaycan dilində və farsca gözəl şeirləri vardır. Təzkirə müəllifləri onun *Füzuli* və Nəvai ədəbi məktəbindən bəhrələndiyini, şeirlərinin Səfəvilər zamanında çox məşhur olduğunu bildirirlər. "Təzkireyi-Nəsrabadi"də şair haqqında yazılıb: "Mirzə Saleh Təbrizin böyüklərindəndir. Onun ata-babaları da həmin diyarın başçıları olublar. İnsaniyyət, düzgünlük və mülayimliyin kamillik zirvəsindədir. Ömrü boyunca heç bir nafilə və sünnət ibadətini heçə verməyib. Təbriz şeyxülislamı vəzifəsində elə davranıb ki, heç kimin ondan şikayəti yoxdur. Onun şəxsiyyəti əxlaqi kamilliklə və dini elmləri bilməklə zinətlənib. Türk və fars dillərində şeir qoşmaqda təbi qüdrətlidir".

Şairin həyatı haqqında məlumat azdır, dəqiq təvəllüd və vəfat tarixi məlum deyildir.

Mənbələr: *Təzkireyi-Nəsrabadi, s.103; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.82.*

MİRZƏ ŞƏFİA, Məhəmməd Şəfi Hərəvi Hüseyni (1578-1670) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış məşhur xəttat. Herat (Xorasan) seyidlərindən idi, Xorasanda yaşayırdı. Həyatı haqqında məlumat azdır. Şikəstə nəstəliq xəttini ixtira etmiş, bu xətlə müstəsna dərəcədə gözəl yazmışdır. Bəziləri bu xəttin Herat *hakimi Murtuzaqulu xan Şamlu (Zəfər)* tərəfindən yaradıldığını yazırlar. Mirzə Şəfia Murtuzaqulu xanın xidmətində baş *münşi* vəzifəsində işləmişdir. Şikəstə nəstəliq xəttinin Mirzə Şəfia tərəfindən yaradıldığını iddia edənlər bu xəttin uzun müddət "şəfiayi" adlandırılmasını sübut gətirirlər.

Mirzə Şəfia bir müddətdən sonra Heratdan ayrılaraq Hindistana səfər etmiş,

sonra İsfahana gəlmiş və II Şah Abbasın xidmətinə qəbul olunmuşdur. Sarayda olduğu müddətdə bəzi əl işlərinə şahın şərəfinə "Abbasi" imzasını qoyurdu. Ömrünün sonlarında Herata qayıtmış, 1670-ci ildə Məşhəd şəhərində vəfat etmişdir.

Onun əl işləri həm müasirləri, həm də özündən sonrakılar tərəfindən yüksək dəyərləndirilmişdir. Şeir təbi də vardı.

Şagirdləri sonrakı Səfəvi şahlarının sarayında xidmət etmişlər. Əslən Talqandan olan, İsfahanda yaşayan Dərviş Əbdülməcid (vəf. 1771) şikəstə xəttini daha da təkmilləşdirmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 228; Lüğətnameyi-Dehxuda, IX, 14333.*

MİSKİN ABDAL, Seyid Hüseyn Məhəmməd oğlu (1430-1535) – Səfəvilər dövlətində yaşamış Azərbaycan aşığı, sufi-şair, təriqət piri. Göyçə mahalının Sarıyaqub (Zərgərli) kəndində doğulmuşdur. Ulu babaları *səfəviyyə* şeyxlərinin *müridi* olmuş və Göyçə mahalında təsəvvüf ideyalarını yaymışdılar. Bu nəsil bölgədə *təkkə* sahibi idi. Seyid Hüseyn gənc yaşlarından *ozan*-aşıq kimi məşhurlaşmış, Təbrizə gedib orada Sənubər adlı qızla evlənmişdi. Amma tezliklə həyat yoldaşı dünyasını dəyişmiş, bundan sonra Seyid Hüseyn 50 yaşınadək ailə qurmamış, ahıl yaşlarında yenidən evlənərək 4 övlad sahibi olmuşdur.

Miskin Abdal Təbrizdə I Şah İsmayılın sarayında uzun müddət fəaliyyət göstərmiş, şahın *mürşidi* və *piri* kimi tanınmışdır. Onu ən yüksək sufi məqamı olan *"Abdal"* ilə yanaşı *"Pir"*, *"Ata"* və *"Şeyx"* ləqəbləri ilə də çağırırdılar. Şeirlərini "Seyid", "Miskin", "Ocaqzadə", "Qərib" və s. təxəllüslərlə söyləmişdir. O, I Şah İsmayıl tərəfindən bir neçə dəfə diplomatik səfərlərə göndərilmişdir (Dağıstana, Osmanlı dövlətinə). 1515-ci ildə I Şah İsmayıl tərəfindən Miskin Abdal haqqında yazılmış və möhürlənmiş fərmanda onun uca məqamı təsdiq edilir.

Aşığın "Miskin" təxəllüsü təsəvvüfdə hər şeyini Allah yolunda sərf edib, Ondan başqa hər şeydən əl üzmək, öz "mən"indən keçib tərkidünya olmaq məqamı ilə bağlıdır. Türk dünyasının bir çox sufi mütəfəkkirləri, o cümlədən Yunus Əmrə, Yəsəvi, *Nəsimi, Xətai, Füzuli* və b. şeirlərində özlərini "miskin" adlandırırlar.

1524-cü ildə I Şah İsmayılın vəfatından sarsılan Miskin Abdal sarayı tərk edib öz yurduna qayıdır, burada məktəb açıb dərs deməyə başlayır. O, 1535-ci ildə Göyçə mahalının Sarıyaqub kəndində 105 yaşında vəfat etmiş, məzarı uzun müddət ziyarətgah olmuşdur.

Miskin Abdal qopuzdan saza, ozanlıqdan aşıqlığa keçid mərhələsinin banisi sayılır. O, I Şah İsmayılın zamanında dövlət məclisinin *(divanın)* açılışında ifa olunan "Baş divani" aşıq havasının, şahın tapşırığı ilə Sultan Səlimlə danışıq apardığı zaman ifa etdiyi "Osmanlı divanisi"nin müəllifi hesab edilir.

Mənbələr: *M.Allahmanlı. Miskin Abdal – Səfəvilərin böyük ideoloqu, sufi şeyxi, s.5-33 (ön söz); T.Hüseynzadə. Səfəvilərin böyük övliyası – Miskin Abdal.*

MOLLA ABDULLAH ŞÜŞTƏRİ, İzzəddin Abdullah ibn Hüseyn (vəf. 1612) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din və əxlaq alimi, arif. Şüştər şəhərində doğulmuş, Nəcəf hövzəsində oxumuşdur. *Müqəddəs Ərdəbili, Mühəqqiq Kərəki* (Səfəvilər dövlətinə gəlməzdən əvvəl, Nəcəfdə olduğu müddətdə) ona dərs demişlər. Abdullah Şüştəri Nəcəfdə 30 il təhsil aldıqdan sonra vətəninə dönmüş, əvvəlcə Məşhəddə, daha sonra I Şah Abbasın dəvəti ilə paytaxt İsfahanda məskunlaşmışdır. Onu İsfahan hövzəsinin qurucusu hesab etmək olar. Deyirlər ki, Şüştəridən əvvəl İsfahanda 50 nəfərə yaxın dini tələbə olduğu halda, o, vəfat edən zaman hövzədə tələbələrin (yaxud hətta ustadların) sayı min nəfəri ötmüşdü. Zamanının nəhəng alimləri olan *Mir Damad, Məhəmməd Təqi Məclisi* (*Əllamə Məclisinin* atası), *Ağa Hüseyn Xansari, Mühəqqiq Səbzəvari* və b. Molla Abdullah Şüştəri məktəbinin yetirmələridir. O, fiqh və üsuli-fiqh mövzularında dəyərli kitablar yazmışdır, əsərlərinin mühüm hissəsi özündən əvvəlki kitablara haşiyə, şərh və tamamlamalardır. Abdullah Şüştəri on ikinci İmamın qeybi dövründə cümə namazı qılmağı vacib bilirdi və bu barədə risalə yazmışdı.

I Şah Abbasın yanında alimin böyük hörməti vardı. İsfahanın ozamankı ən böyük məscidi olan *Şeyx Lütfullah məscidini* şah onun xahişi ilə tikdirmişdi. Həmçinin Molla Abdullah Şüştəridən ötrü İsfahanda böyük bir mədrəsə də tikilmişdi, o, həmin mədrəsədə dərs deyirdi. Bu təhsil ocağı sonralar Molla Abdullah mədrəsəsi kimi tanınırdı.

Bəzi məlumatlara görə, I Şah Abbasın zamanında İsfahan şəhərinin *şeyxülislamı* vəzifəsini icra etmişdir.

Molla Abdullah Şüştəri sadə həyat tərzi sürür, çox ibadət edir, gecə namazını tərk etmir, gündüzlər oruc tutub gecələri ibadətlə keçirirdi. Deyirlər ki, ömrü boyu yalnız vacib və müstəhəb əməllər etmişdir. Müasirləri arasında təqva cəhətdən nümunə sayılırdı. Kitablarda çoxlu kəraməti qeyd edilib.

1612-ci ildə dünyasını dəyişmiş, cənazə namazını Mir Damad qılmışdır. Dəfnində yüz min nəfərdən artıq insan iştirak etmişdir. Hətta şah və əyanları cənazənin daşınmasına qatılmaq istəsələr də, izdihamın çoxluğu üzündən bunu edə bilməmişdilər. Cənazəsi İmamzadə İsmayıl ziyarətgahında əmanət (müvəqqəti) olaraq dəfn edilmiş, sonralar Kərbəlaya aparılaraq İmam Hüseynin (ə) hərəmində torpağa tapşırılmışdır. Bu zaman cəsədində heç bir çürümə əlaməti görünməmişdir.

Oğlu Molla Həsənəli də görkəmli alim idi, Şeyx Bəhaidən dərs almış, Əllamə Məclisiyə dərs demişdi. I Şah Səfi və II Şah Abbasın zamanında İsfahanda elmi fəaliyyətlə məşğul olmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 334-336; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, III, 195-205; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, IV, 234-243.*

MOLLA FƏTHULLAH KAŞANİ, ibn Molla Şükrüllah (vəf. 1580) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış gör-

kəmli din alimi. I Şah Təhmasibin dövründə Kaşan şəhərində yaşayıb-yaratmışdır. Həyatı barədə məlumat azdır. Son dərəcə gözəl əxlaq sahibi, həyalı və utancaq şəxs imiş, bəziləri onun çox məşhur olmamasını da bununla əlaqələndirirlər. Ən məşhur əsəri Qurani-Kərimin fars dilində "Minhəc əs-sadiqin fi ilzam əl-müxalifin" təfsiridir. Bu təfsir Səfəvilər zamanında və sonralar çox məşhur idi, uzun müddət Quranın farsca yeganə şərhi sayılırdı. Bundan əlavə, müəllif Qurani-Kərimi fars dilinə tərcümə etmiş, daha iki təfsir yazmış, *"Nəhc əl-bəlağə"ni* farsca şərh etmiş, Təbərsinin "İhticac" kitabını fars dilinə çevirmişdir.

1580-ci ildə Kaşanda vəfat etmiş və orada dəfn edilmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 20; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, IV, 318-319.*

MOLLA SƏDRA, Sədrəddin Şirazi (vəf. 1640) – Səfəvilər zamanında yaşamış böyük filosof, *hikməti-mütəaliyə* adlandırılan fəlsəfi-irfani təlimin banisi. Sədrəddin Məhəmməd ibn İbrahim təqribən 1571-ci ildə Şirazda doğulmuşdur. İsfahanda *Şeyx Bəhai, Mir Damad, Mir Fendereski* kimi böyük alimlərdən kəlam, fəlsəfə, hədis və təfsir elmlərini, irfan və təsəvvüfün əsaslarını mükəmməl şəkildə mənimsəmişdir. Molla Sədra özü *Feyz Kaşaninin* və *Fəyyaz Lahicinin* ustadı olmuşdur. (Bu iki alim həm də Molla Sədranin kürəkəni idilər, onlara Feyz və Fəyyaz ləqəblərini də Molla Sədra vermişdi). Onun əsərlərinin böyük hissəsi fəlsəfə mövzusundadır, lakin Quranın ayrı-ayrı surələrinə yazdığı təfsirlər və "Üsuli-Kafi"yə yazdığı natamam şərh təfsir və hədis elmlərində də dərin biliyə malik olduğunu göstərir.

Molla Sədranın ən məşhur əsəri "əl-Hikmət əl-mütəaliyə" kitabıdır ki, onu "əl-Əsfar əl-ərbəə" də adlandırırlar. Bu kitabda müəllif hikməti-mütəaliyə təliminin əsaslarını geniş şəkildə izah etmişdir. Kitaba sonrakı alimlər tərəfindən çoxlu şərh və haşiyə yazılmışdır. Dini ədəbiyyatda Molla Sədranı "Sədr əl-mütəəllihin" (Allahı vəsf edən alimlərin başçısı) ləqəbi ilə yad edirlər.

Molla Sədra yeddi dəfə piyada həcc ziyarətinə getmiş, sonuncu həcc səfərində Bəsrə şəhərində dünyasını dəyişərək orada dəfn olunmuşdur. Vəfat tarixi barədə fərqli nəzəriyyələr vardır, 1636-41-ci illər arasında dünyasını dəyişdiyi məlumdur. Oğlu Mirzə İbrahim Şirazi də şəriət elmlərində və fəlsəfədə dərin bilik sahibi olmuş, amma atasının fəlsəfi təliminə əks çıxmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 417-420; Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 15; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, IV, 120-122; Seyid Kamal Heydəri. Əl-İrfan əş-şii, s.119-134; Lüğətnameyi-Dehxuda, X, 14888.*

MÖHTƏŞƏM KAŞANİ (Kaşi) (1499/1500-1588) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şair. Nəraq şəhərindən idi, əsasən Kaşanda yaşayıb-yaratmışdır. Möhtəşəm Kaşaninin atası toxucu idi, o da cavanlığında bu sənətlə məşğul olmuşdur. Şair bir müddət İsfa-

handa fəaliyyət göstərmiş, I Şah Təhmasiblə görüşmüşdür. Şeirlərini "Cəlaliyyə", "Səbaiyyə", "Şəbabiyyə", "Şeybiyyə" kimi məcmuələrdə toplamış, "Came əl-lətaif" adlı *divan* tərtib etmişdir.

Möhtəşəm Kaşani mərsiyə ədəbiyyatının ən görkəmli nümayəndələrindən sayılır. Rəvayətə görə, həcc səfərində vəfat etmiş qardaşı üçün mərsiyə yazmış, İmam Hüseyn (ə) yuxusuna girərək onun haqqında mərsiyə yazmasını şairdən istəmişdir. Möhtəşəmin Kərbəla müsibətinə həsr edilmiş 12 bəndlik farsca şeiri bu gün də çox məşhurdur, hətta qara parçaların üzərinə yazılaraq təziyə məclislərində divarlardan asılır. Deyilənə görə, bu mərsiyənin ilk bəndini ona yuxuda Həzrət Əli (ə) söyləmiş, şeiri yazarkən çətinliyə düşdüyü zaman imamlar yuxusuna girərək bəzi misraları ona ilham etmişlər.

Möhtəşəm Kaşani maddeyi-tarix söyləməkdə də məharət sahibi idi. (Maddeyi-tarix hər hansı mühüm hadisənin tarixinin əbcəd hesabı ilə sözlər vasitəsilə ifadə edilməsidir). II Şah İsmayılın taxta çıxması (hicri 984-cü il) münasibətilə 6 rübai yazmışdı ki, hər rübainin hər misrasının əbcəd hesabı ilə qarşılığı həmin tarixi göstərirdi. Bu rübailərin bir özəlliyi də budur ki, hər misradakı nöqtəli hərflərin əbcəd qarşılığı həmin misradakı nöqtəsiz hərflərin əbcəd qarşılığı ilə bərabərdir.

Mənbələrdə Möhtəşəm Kaşaninin əsl adı adətən qeyd edilmir. Amma şeirlərindən məlum olur ki, adı Əli, atasının adı Xacə Mir Əhməd imiş.

Səfəvilər dövrünün görkəmli təzkirə müəllifi *Sadiq bəy Əfşar "Məcmə əl-xəvas"* əsərində Möhtəşəm Kaşanini "Mövlana Möhtəşəm" adı ilə təqdim edərək yazır: "Kaşanlıdır, çox tanınmışdır. Özəməti və böyüklərə xas olan bir görkəmi var. Lakin səfərlərdə olmadığından ünsiyyət qanun-qaydalarında bir qədər təcrübəsizlik göstərirdi. Şeirdə yeni bir üslub tutmuşdu".

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 225-231; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.179-180; Təzkireyi-Nəsrabadi, s.472-474.*

MÜRTƏZAQULU XAN ŞAMLU (vəf. 1689) – Səfəvilər dövlətində yaşamış dövlət xadimi və xəttat. Atası Həsən xan Şamlu da gözəl xəttat və şair idi, I Şah Abbas tərəfindən Herat *bəylərbəyi* təyin edilmişdi. O, elm və sənət hamisi idi, özü gözəl şikəstə nəstəliq xətti ilə yazırdı. Bəzi tədqiqatçıların fikrincə, daha sürətli yazmaq üçün nəstəliq xəttinə dəyişiklik edib şikəstə nəstəliq xəttini yaradan da o olmuşdur. Bəziləri isə bu ixtiranı onun sarayında baş *münşi* olan *Mirzə Şəfiaya* aid edirlər. Mürtəzaqulu xanın rəvan təbi vardı, "Mürtəza" təxəllüsü ilə şeirlər yazırdı, *divanının* həcmi 4 min beytdən artıqdır. Gözəl əl qabiliyyəti vardı, rəsmlər çəkirdi.

Qeyd edək ki, XVII əsrdə Səfəvilər dövlətində Mürtəzaqulu xan Şamlu adlı daha bir dövlət adamı və şair yaşamış, "Zəfər" təxəllüsü ilə şeirlər yazmışdır. Bu iki şəxsin tərcümeyi-halları barədə məlumatlar oxşar olsa da, mənbələrdə ("Təzkireyi-Nəsrabadi", "Lüğətnameyi-Dehxuda" və s.) onlar ayrı-ayrı şəxslər

kimi təqdim edilir. "Zəfər" təxəllüslü Mürtəzaqulu xan I Şah Səfi zamanında *İrəvan* qalasında göstərdiyi şücaətə görə *eşikağasıbaşı* və *divanbəyi*, II Şah Abbas zamanında *qorçubaşı* və Kirman hakimi vəzifələrini yerinə yetirmiş, sonra işdən kənarlaşdırılmış, daha sonra əfv edilərək Ərdəbilə Şeyx Səfi ocağının mütəvəllisi vəzifəsinə göndərilmişdi.

Mənbələr: *Lüğətnameyi-Dehxuda, IX, 14041; Ağa Büzürg Tehrani. Əz-Zəriə ila təsanif əşşiə, IX (3), 1027; Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1144-1145; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.37-38, 49, 64-66; Mürtəzaqulu xan Şamlu. Divan (ön söz); Təzkireyi-Nəsrabadi, s.23-24 və 27.*

MÜHƏQQİQ SƏBZƏVARİ, Molla Məhəmməd Baqir ibn Məhəmməd Mömin (vəf. 1679) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli din alimi. Dini elmlərdə dərin tədqiqatçılıq bacarığına görə ona "Mühəqqiq" ləqəbi verilmişdi. *Şeyx Bəhaidən, Məhəmməd Təqi Məclisidən* və *Mir Fendereskidən* dərs almışdı, *Ağa Camal Xansarinin* dayısı idi. İsfahanda məskunlaşmışdı, burada *Molla Abdullah Şüştəri* mədrəsəsində dərs deyir, məsciddə cümə namazına başçılıq edirdi. Fiqh, üsul və əqaid mövzularında dəyərli əsərlər qələmə almış, klassik mənbələrə şərhlər yazmışdır. "Zəxirət əl-məad" və "Kifayət əl-əhkam" adlı fiqh kitabları xüsusilə məşhurdur və alimlər tərəfindən yüksək dəyərləndirilir. II Şah Abbasın xahişi ilə əxlaqi dəyərlər, hökumət və dövlət idarəçiliyi qaydaları barədə "Rövzət əl-ənvari-Abbasi" risaləsini yazmışdır. Mühəqqiq Səbzəvari İsfahanın *şeyxülislamı* idi. II Şah Abbas və dövlət adamları ona hədsiz ehtiram bəsləyirdilər. 1679-cu ildə İsfahanda dünyasını dəyişmiş, Məşhəddə torpağa tapşırılmışdır.
Mühəqqiq Səbzəvaridən sonra, ənənəyə görə, onun nəslindən olan alimlər İsfahan şəhərinin şeyxülislamı təyin edilirdilər.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 243-244; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 44-45.*

MÜİN MÜSƏVVİR – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli miniatür ustası. İsfahanda yaşamış, şəhəri tərk etməmişdir. Müin Müsəvvir zamanının görkəmli nəqqaşı *Rza Abbasidən* dərs almış, onun emalatxanasında çalışmışdır. Ustadının portretini yaratdığı məlumdur. Müin Müsəvvir sənət aləmində "Müina" ləqəbi ilə də tanınırdı və bəzi əsərlərini bu cür imzalayırdı. O, I Şah Abbasın və sonrakı hökmdarların dövründə sarayda fəaliyyət göstərmiş, bir neçə kitaba, o cümlədən Firdovsi "Şahnamə"sinin fərqli nüsxələrinə illüstrasiyalar çəkmişdir. Həmçinin "Şah İsmayıl tarixi"ni *("Aləmarayi-Səfəvi")* də rəsmlərlə bəzəmişdir. Sənətkar bu kitabda I Şah İsmayılın döyüş şücaətlərini təsvirə almış, onun mərd, qətiyyətli şəxsiyyətini bacarıqla ifadə etmişdir. Müin Müsəvvir məhsuldar nəqqaşlardan sayılır, 300-dən artıq miniatür və rəsm onun qələminə aid edilir. Buna baxmayaraq, həyatı və yaradıcılığı barədə mənbələrdə məlumat azdır. Rəssam uzun ömür yaşamış, 1693-cü ildən

sonra vəfat etmişdir.

Mənbələr: *M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1174-1199.*

MÜQƏDDƏS ƏRDƏBİLİ (vəf. 1585) – XVI əsrdə yaşamış məşhur azərbaycanlı din alimi. Əhməd ibn Məhəmməd Ərdəbili Nəcəf şəhərində yaşamış və dərs demişdir. Gözəl əxlaqına və kəramətlərinə görə ona "Müqəddəs" ləqəbini vermişdilər. Həmçinin dini elmlərdəki biliyinə və diqqətcilliyinə görə ona "Mühəqqiq Ərdəbili" də demişlər.

Müqəddəs Ərdəbilinin kəramətləri barədə mənbələrdə xeyli məlumat vardır. Deyilənlərə görə, dini mövzuda çətin bir məsələ ilə qarşılaşanda İmam Əlinin (ə) məzarına təvəssül edər və müəyyən vasitələrlə öz sualına cavab alardı. Qeybdə olan on ikinci İmam Həzrət Mehdi (ə) ilə bir neçə dəfə görüşdüyünü yazırlar.

Müqəddəs Ərdəbili dəbdəbədən uzaq, zahidanə həyat sürmüşdür. Səfəvi şahları onu ölkəyə dəvət etsələr də, təklifi qəbul etməmiş və İmam Əlinin (ə) məzarının yanından ayrılmayacağını bildirmişdi. Buna baxmayaraq, Səfəvi şahlarının yanında onun hədsiz hörməti vardı. I Şah Təhmasibin qəzəbinə tuş gəlmiş bir nəfər Müqəddəs Ərdəbilidən xahiş etmişdi ki, onu cəzadan xilas etsin. Alim şaha məktub yazıb həmin adamın bağışlanmasını xahiş etdi, məktubu da "qardaşım" sözü ilə başladı. Şah Təhmasib xahişi dərhal yerinə yetirdi, həmin məktubun da dəfn zamanı sinəsinin üstünə qoyulmasını vəsiyyət etdi: "Qəbirdə sorğu-sual mələkləri mənə əzab vermək istəsələr, məktubu göstərib deyəcəyəm ki, Müqəddəs Ərdəbili məni "qardaşım" adlandırıb". I Şah Abbas da Müqəddəs Ərdəbiliyə dərin hörmət bəsləyir, ona sığınan günahkarlara aman verirdi.

Müqəddəs Ərdəbilinin fiqh mövzusunda qələmə aldığı "Zübdət əl-bəyan" əsəri xüsusilə məşhurdur. Azərbaycan türkcəsində əqaid kitabı yazdığı da məlumdur. Müqəddəs Ərdəbili 1585-ci ildə Nəcəf şəhərində vəfat etmiş, İmam Əlinin (ə) hərəmində dəfn olunmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 366-370; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, I, 56-57; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, I, 79-85; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.142.*

MÜQƏTTƏƏ HƏRFLƏR – ərəb dilindən tərcüməsi "kəsik, tək-tək hərflər" deməkdir. Bəzən "təhəcci" (heca) hərfləri də adlandırılır. Qurani-Kərimin 29 surəsinin əvvəlində işlədilən, hər hansı mənanı ifadə etməyən ayrı-ayrı hərflərə deyilir.

Müqəttəə hərflər ərəb əlifbasının 14 hərfini əhatə edir: əlif, he, ha, ta, ye, kaf, lam, mim, nun, sin, ayn, qaf, sad və ra. Bu hərflər bəzən tək, bəzən cüt halda, bəzən də üç, dörd və beş hərfin kombinasiyası şəklində işlədilib. Məsələn: qaf, ya-sin, əlif-lam-mim, əlif-lam-mim-sad, ha-mim-ayn-sin-qaf.

Müqəttəə hərflərin hansı mənanı ifadə etdiyi barədə çoxlu fərqli nəzəriyyə irəli sürülmüşdür. Nəzəriyyələrin birinə görə, Allah surələrin əvvəlinə adi ərəb hərflərini əlavə etməklə insanlara başa sal-

maq istəyir ki, Quran onların danışdıqları adi hərflərdən təşkil olunsa da, onlar bu hərflər vasitəsilə Quranın mislini yaratmağa qadir deyillər. Bəziləri müqəttəə hərfləri gizli və dərkolunmaz sirr saymış, bunun üçün İmam Əlinin (ə) aşağıdakı hədisini əsas gətirmişlər: "Hər kitabın seçilmiş hissələri var. Bu kitabın (Quranın) da seçilmiş hissəsi təhəcci hərfləridir". Abdullah ibn Məsud isə belə demişdir: "Bu hərflər gizli elm və pərdəli sirdir, Allah bu hərfləri bəyənib". Bəzi təfsirçilər müqəttəə hərfləri surələrin adı kimi, bəziləri isə surələri bir-birindən ayıran əlamət kimi dəyərləndiriblər. Bu hərfləri ismi-əzəmin rəmzi sayanlar, Allahın adlarının əlamətləri kimi qəbul edənlər də olub. Son zamanlar Qurani-Kərimin riyazi möcüzələrinin açılması istiqamətində aparılmış tədqiqatlar nəticəsində belə bir fərziyyə də irəli sürülüb: Müqəttəə hərflər onu göstərir ki, həmin surədə ən çox işlənən hərflər məhz bunlardır. Məsələn, "Bəqərə" surəsində ("əlif-lam-mim"lə başlayır) ən çox "əlif" hərfi, ondan sonra "lam", daha sonra isə "mim" hərfi işlənib. Müqəttəə hərfləri Allahın adlarından ibarət cümlələrin baş hərfi kimi mənalandırmaq cəhdləri də olub. Məsələn, "əlif-lam-mim" hərflərini "Əna Allahü ələm" (Mən ən elmli Allaham) ifadəsinin rəmzi kimi izah edirlər. Bu zaman "əna" sözünün ilk hərfi, "Allah" sözünün orta hərfi, "ələm" sözünün isə son hərfi götürülür.

Tədqiqatçıların bir hissəsi isə bu fikirdədir ki, Allah-Taala insanların diqqətini Özünə cəlb etmək üçün surələrin əvvəlində müqəttəə hərfləri işlədib. İnsan adəti üzrə diqqəti özünə çəkmək üçün söhbətinin əvvəlində bəzi kəlmələrdən istifadə edir. (Məsələn, "bax", "hə" və s.). Ərəblər söhbətdən əvvəl "ha", "əla" və "ima" kəlmələrini işlədirlər. Müqəttəə hərflər də Quranı dinləyən şəxslərin diqqətini cəmləşdirməyə xidmət edir.

Müqəttəə hərflər təsəvvüf aləmində də mühüm yerə malikdir. Bu hərflərin mənası barədə yekdil fikrin olmaması onların ətrafında çoxlu mistik düşüncələrin yaranmasına səbəb olmuşdur. Sufi şair və ədiblərin əsərlərində müqəttəə hərflərə fərqli mənalar yükləmək cəhdi ilə yanaşı onları heç kimin anlaya bilməyəcəyi mübhəm bir sirr kimi təqdim etmək cəhdini də görürük.

Şah İsmayıl Xətai öz yaradıcılığında müqəttəə hərflərə dönə-dönə müraciət etmiş, onları hər dəfə orijinal, fərqli çalarda işlətməyə çalışmışdır:

Dilbəra, "şəmsüz-züha"dür şöleyi-rüx-sariniz,
Ayəti-"Taha"vü "Yasin" surəti-didariniz.

Surətin "Əlhəmd"urur, vəsfi-cəmalın "Vəzzüha",
Çün sifatın sureyi-Quranda "Qaf" olmuş durur.
(Ş.I.Xətai)

Mənbələr: *S.M.B.Hüccəti. Qurani-Kərimin tarixi barədə araşdırma, s.111-136; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XVIII, 401-408; Təfsiri-nümunə, I, 91-95.*

MÜSAHİB GƏNCƏVİ – XVII əsrdə Səfəvilər zamanında yaşamış azərbay-

canlı dövlət xadimi və şair *Uğurlu xan Ziyadoğlu-Qacarın* (vəf. 1686-cı ildən sonra) ədəbi təxəllüsü. Müsahib təxəllüsünün mənşəyini fərqli şəkillərdə izah etmişlər. Bəziləri bunu şairin II Şah Abbasın nədimi (yaveri) olması ilə əlaqələndirirlər, guya şahla çox vaxt keçirdiyinə görə özünə Müsahib təxəllüsünü götürmüşdür. Digər fikrə görə, Müsahib ləqəbi bu nəslin nümayəndələrinə xeyli əvvəl verilmişdir. I Şah Təhmasib *Qacar* tayfasının Ziyadlı *(Ziyadoğlu)* oymağından *Kəmaləddin Şahverdi sultanı* Qarabağa *bəylərbəyi* təyin etmişdi. Şah xatirini əziz tutduğu üçün ona Müsahib (yoldaş, rəfiq) deyirdi. I Şah Təhmasib fərman vermişdi ki, Şahverdi xandan sonra onun nəslindən Qarabağ bəylərbəyi olacaq hər kəs Müsahib adlandırılsın və bu ləqəb bütün fərmanlarda bəylərbəyinin adından sonra yazılsın. Bu qaydaya sonrakı dövrlərdə ciddi şəkildə riayət edilmişdir.

bax: **UĞURLU XAN ZUYADOĞLU-QACAR.**

Mənbələr: *Firəngiz Xəlilova. Müsahib Gəncəvinin divanı; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.234; Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s.228; Təzkireyi-Nəsrabadi, s.25; A.A.Bakıxanov. Gülüstani-İrəm, s.212.*

MÜZƏFFƏR ƏLİ – XVI əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli miniatür ustası. I Şah Təhmasibin himayəsi altında saray kitabxanasında fəaliyyət göstərmişdir. *Kəmaləddin Behzadın* bacısının nəvəsi idi. (Atası Heydər Əli ustad Behzadın bacısı oğlu və şagirdi olmuşdur. Eyni zamanda, ustad Behzadın digər bacısının oğlu xəttat Rüstəm Əli onun dayısı idi). Kitablarda "Türbəti" nisbəsi ilə xatırlanır; Türbəti-Heydəriyyə Xorasan vilayətinin şəhərlərindən biridir.

Behzad Heratdan Təbrizə köçəndə Müzəffər Əli dayısı ilə birlikdə onu müşayiət etmişdi. Müasirləri onu hərtərəfli sənətkar kimi yüksək dəyərləndirirdilər. Çünki Müzəffər Əli gözəl rəssam olmaqla yanaşı istedadlı xəttat idi, nəstəliq xəttinin mahir katiblərindən sayılırdı, rənglərlə işləməyi və təzhibi (bəzək işlərini) yüksək səviyyədə bacarırdı. Onu Behzada bərabər, hətta ondan da üstün hesab edənlər vardı. Bir salnamədə yazıldığı kimi, Behzaddan üstün olmasa da, bütün başqa nəqqqaşlardan daha məharətli idi.

"Tarixi-aləmarayi-Abbasi"də qeyd edilir ki, Müzəffər Əli divar rəsmləri (freskalar) də çəkmişdir, belə ki, İsfahanda şah sarayının və *Çehelsütun eyvanının* divar rəsmləri onun əl işidir. Müəllif Müzəffər Əlinin adını ustad rəssamların sırasında birinci qeyd edərək onu "dövrün nadiri və zəmanənin vahidi" adlandırır.

Müzəffər Əli dərin erudisiyaya sahib idi, yaxşı şahmat oynayır, şeir yazırdı.

Müzəffər Əlinin şagirdi, Səfəvilər dövrünün görkəmli nəqqaş və xəttatlarından olan *Sadiq bəy Əfşar "Məcmə əl-xəvas"* təzkirəsində onu ustad sənətkarlara xas "Mövlana" ləqəbi ilə xatırlayaraq yazırdı: "Nəqqaşlıqda mənim ustadımdır. Elmdə, hünərdə hərtərəfli insan idi. Bir balaca talesizlikdən başqa heç bir qüsuru yox idi. Mərhum şahdan (yəni I

Şah Təhmasibdən) dəfələrlə eşitmişdim ki, onu ustad Behzaddan üstün tutur. Xəttin ustadları sayılan *Mövlana Mir Əli* və *Mövlana Sultan Əlinin* qitələrini (xəttatlıq işlərini) elə köçürürdü ki, qitə sahibləri bu sənətin biliciləri olmalarına baxmayaraq, ayıra bilmirdilər. Əmr olunmuşdu ki, öz qitələrində "Nəqqaşi-Şahi" (imzasını) yazsın". Sadiq bəy ustadın Qəzvində vəfat etdiyini və Şahzadə Hüseyn qəbiristanlığında dəfn olunduğunu yazır. "Məcmə əl-xəvas" təzkirəsinin 1597-98-ci illərdə qələmə alındığını nəzərə alsaq, Müzəffər Əlinin bu tarixdən əvvəl, XVI əsrin ikinci yarısında dünyasını dəyişdiyini qəbul etməliyik.

Mənbələr: *Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.299; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, III, 1164-1171; "Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, h.-ş. 1388, 15-ci dəftər), s.114; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.71-72; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.368-369.*

NAXÇIVAN İMAMZADƏ TÜRBƏSİ

– Naxçıvan şəhərinin cənub-şərq hissəsində XVIII əsrin birinci yarısına, Səfəvilər dövlətinin sonlarına aid memarlıq abidəsi, ziyarətgah kompleksi. Naxçıvan-Marağa memarlıq ənənələri üslubunda tikilmiş kompleksin əsasını türbə təşkil edir. Aşağıdan kvadrat plana malik olan türbənin gövdəsi silindr formasındadır, günbəzə keçid stalaktitlər vasitəsilə həll edilmişdir. Türbənin xarici divarında memar ustalıqla qırmızı və tünd bənövşəyi rəngli kərpiclərlə dəfələrlə təkrarlanan epiqrafik motiv – "Allah" sözünü yaratmışdır. Bundan əvvəl eyni dekorativ bəzək üslubundan Ərdəbildəki Şeyx Səfi məqbərəsində də istifadə edilmişdir.

Türbənin içərisində uzunluğu 150, hündürlüyü 88, eni 115 sm olan sənduqə tipli qəbir yerləşir, xalq inancına görə, bu qəbirdə səkkizinci imam Həzrət Rzanın (ə) oğlu dəfn edilmişdir.

İmamzadənin qəbri olan əsas tikiliyə bitişik dördbucaq plana malik iri otaq, ondan sonra isə daha geniş sahəli ibadət zalı yerləşir, onun tavanı iri günbəzlə örtülmüşdür. Burada vaxtilə Naxçıvan xanları və onların nəslindən olanlar dəfn edilmişlər.

Kompleksdən bir qədər şimal tərəfdə bişmiş kərpicdən inşa edilmiş, aşağıdan kvadrat, yuxarıdan altıbucaqlı plana malik, üstü günbəzli daha bir türbə vardır. Hazırda burada heç bir məzar yoxdur.

Vaxtilə türbənin şimal-qərb divarında nəsx xətti ilə yazılmış kitabə mövcud olmuşdur. Kitabə 1920-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sifarişi ilə epiqraf İ.Əzimbəyov tədqiq etmişdir. Tədqiqatlardan məlum olmuşdur ki, türbə Səfəvi hökmdarı II Şah Təhmasibin hakimiyyət dövründə (1722-1732-ci illər) Hacı Fulad bəyin oğlu Həzrət Rüfai bəyin əmri ilə inşa edilmişdir.

İmamzadə kompleksinin ətrafında XVII əsrə və daha sonralara aid qəbirlər mövcuddur. Kompleks 2008-ci ildə əsaslı təmir edilmişdir.

Naxçıvanda Şərur rayonunun Parçı, Babək rayonunun Nehrəm kəndlərində də

XVII-XVIII əsrlərə aid imamzadə ziyarətgahları yerləşir.

Mənbələr: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр. 58-59; Ə.V.Salamzadə, K.M.Məmmədzadə. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, s.191; V.Baxşəliyev, F.Quliyeva. Naxçıvanın tarixi abidələri, s.189-191.*

"NƏHC əl-BƏLAĞƏ" – İmam Əli ibn Əbu Talibə (ə) mənsub olan xütbələrin, məktubların və hikmətli kəlamların toplandığı kitab. Mənası "bəlağət cığırı" deməkdir. Kitaba bu adı tərtibçisi Seyid Rəzi vermişdir. Belə bir fikir vardır ki, İmam Əlinin (ə) sözləri Allah kəlamından aşağıda, amma bəşər kəlamından yüksəkdə durur.

Hələ Həzrət Əlinin (ə) sağlığında bəzi səhabələr (Haris Əvər Həmdani, Əsbəğ ibn Nübatə Mücaşei, Kümeyl ibn Ziyad Nəxəi, Novf Bükali və b.) onun xütbələrini hafizələrinə həkk edərək əzbərləmişdilər. İmam Əlinin (ə) müasiri olmuş Zeyd ibn Vəhəb Cəhni o həzrətin minbərdən söylədiyi xütbələri toplamış və "Əmirəlmöminin bayramlarda, məclislərdə və başqa şəraitdə minbər üstə söylədiyi xütbələr" kitabını tərtib etmişdi. Məşhur tarixçi Məsudi "Müruc əzzəhəb" kitabında yazırdı ki, imamın xütbələrinin 480 ədəddən çoxunu camaat əzbər bilir. Maraqlıdır ki, bu ədəd hazırkı "Nəhc əl-bəlağə"də olan xütbələrin sayından təqribən iki dəfə çoxdur. Seyid Rəzi də kitabın müqəddiməsində İmam Əlinin (ə) kəlamlarının hamısını topladığını iddia etmir.

Seyid Rəzi ləqəbi ilə tanınan Seyid Əbülhəsən Məhəmməd ibn Əbu Əhməd Hüseyn (970-1015) ata tərəfdən *İmam Musa Kazimin (ə)*, anası tərəfdən isə İmam Zeynülabidinin (ə) nəslindən idi. Buna görə ona "Zi-l-həsəbeyn" (İki böyük nəslin yetirməsi) ləqəbini vermişdilər. Seyid Rəzi ədəbiyyat, fiqh və əxlaqda yüksək məqama sahib idi. 10 yaşından şeir yazmağa başlamış, 30 yaşında bütün Quranı əzbər bilmişdir. Seyid Rəzi ömrü boyu heç kəsdən mükafat almır, şahların hörmət mənası ilə göndərdikləri hədiyyələri də geri qaytarırmış. Onun böyük qardaşı Seyid Mürtəza "Ələm əl-hüda" (Hidayət bayrağı) ləqəbini almış görkəmli şiə alimidir. Hər iki qardaş Şeyx Müfiddən dərs almışdı. (Onların dərsə başlamasının təfsilatı tarix kitablarında qeyd edilib). Seyid Rəzi 1015-ci ildə Bağdadda vəfat etmiş, cənazəsi əvvəlcə Kərx məhəlləsindəki öz evində torpağa tapşırılmış, daha sonra qardaşının cənazəsi ilə birlikdə Kazimeyndə dəfn edilmişdir.

"Nəhc əl-bəlağə" üç hissədən ibarətdir. Birinci hissədə İmam Əlinin (ə) söylədiyi 241 xütbə, ikinci hissədə müxtəlif şəxslərə göndərdiyi 79 məktub, üçüncü bölümdə isə ona mənsub 488 qısa hikmətli kəlam (aforizm) toplanıb.

"Nəhc əl-bəlağə"nin tarixi, tərcüməsi, şərhi mövzusunda müxtəlif dillərdə (ərəb, fars, türk, urdu, ingilis, fransız) 400-ə yaxın əsər yazılmışdır. Bu kitaba yazılmış şərhlərin sayı 100-dən artıqdır. Ən məşhur şərhlər Qütbəddin Ravəndi, Meysəm Bəhrani, İbn Əbil-hədid Şafii, Seyid Həbibullah Xoyi, Əllamə Müğniyə, Şeyx Mühəmməd Əbduh və Əllamə

Məhəmmədtəqi Cəfərinin qələminə mənsubdur. Seyid Rəzinin "Nəhc əl-bəlağə"yə daxil etmədiyi kəlamları Şeyx Məhəmməd Baqir Mahmudi "Nəhc əs-səadə" adlı 8 cildlik kitabda toplamışdır.

"Nəhc əl-bəlağə" istiqamətində aparılmış araşdırmaların mühüm bir hissəsi Səfəvilər dövrünə təsadüf edir. Görkəmli filosof *İlahi Ərdəbili* (vəf. 1543) "Nəhc əl-bəlağə"yə fars dilində "Minhəc əl-fəsahə" adlı şərh yazaraq I Şah İsmayıla təqdim etmişdi. "Nəhc əl-bəlağə"ni şərh edənlər arasında Səfəvilər dövlətində yaşamış görkəmli din alimləri *Şeyx Bəhai, Seyid Nemətullah Cəzairi, Molla Fəthullah Kaşani, Fazil Hindinin* atası Molla Tacəddin Həsən İsfahani, *Şeyx Zahid Gilaninin* nəslindən olan Mirzə Məhəmməd Əli Zahidi Gilani, *Əllamə Məclisinin* qardaşının nəvəsi Mirzə Məhəmməd Təqi Şəmsabadi, xəttat Əbdülbaqi Təbrizi və b. da vardır.

Mənbələr: *Məsudi. Müruc əz-zəhəb, II, 326; Nəhcül-bəlağə (tərcüməçilər: A.Mehdiyev, D.Cəfərli və E.Quliyev), I cild, müqəddimə bölümü; S.Ə.Hüseyni Xətib. Məsadir Nəhc əl-bəlağə və əsaniduh, I, 202-254.*

NƏQŞBƏND YƏZDİ, Qiyasəddin Əli (vəf. 1609/10) – Səfəvilər zamanında yaşamış görkəmli sənətkar, iş adamı, şair. Yəzd şəhərində doğulmuş, gənc yaşlarından istedadı ilə şöhrət qazanmışdır. Əsasən dekorativ parça tərtibatı ilə məşğul olmuşdur. "Nəqşbənd" ləqəbinin kökü də buradandır. I Şah Abbasın sevimli sənətkarlarından biri olmuşdur. Saray əyanları və şah ailəsi onun eskizləri əsasında toxunan parçalardan istifadə edirdilər. Şah tərəfindən İsfahandakı parçatoxuma manufakturalarının idarəçiliyi ona verilmişdi. Sonralar Yəzd şəhərində məskunlaşmış və öz sənəti ilə məşğul olmuşdur. Onun eskizləri əsasında toxunan dekorativ rəsmli parçalar təkcə Səfəvilər dövlətinin ərazisində deyil, ölkə xaricində də yüksək dəyərləndirilirdi. Nəqşbənd Yəzdi ömrünün sonlarına yaxın idarəçilik işlərindən kənara çəkilmiş, şairliklə məşğul olmuşdur.

Sadiq bəy Əfşar "Məcmə əl-xəvas" təzkirəsində onu "Xacə Qiyas Nəqşbənd" kimi təqdim edir, amma şirazlı və Sədi Şirazinin nəslindən olduğunu yazır. O, Xacə Qiyasın həm istedadlı və hazırcavab, həm fiziki cəhətdən çox güclü və cəld, həm də mərhəmətli və səxavətli olduğunu qeyd edir: "Onun bir gün qonağı olmasaydı, yeyib-içməyi ona nuş olmazdı".

Mənbələr: *Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.71-73; Nəqş və nəqşbənd (Məqalələr toplusu, tərtib edən: Mənijə Kəngərani).*

NƏQŞİCAHAN MEYDANI – İsfahan şəhərinin mərkəzində Səfəvilər dövrünə aid unikal quruluşlu meydan. Hələ Səfəvilərdən əvvəl burada eyniadlı bağ mövcud olmuşdur. Səlcuqlar, Teymurilər və Ağqoyunlular zamanında burada təntənəli dövlət tədbirləri, edam mərasimləri, eləcə də *Novruz* şənlikləri keçirilirdi. I Şah Abbasın zamanında Nəqşicahan meydanının ərazisi təmizlənmiş və böyüdülmüşdür. Şah öz əli ilə burada bir neçə ağac da əkmişdir. I Şah Abbasın zamanında Nəqşicahan meydanının əsas binaları tikilməyə başlamış,

sonrakı hökmdarların dövründə tikinti və təmir işləri davam etmişdir. Səfəvilər dövründə burada çövkən oyunları, Novruz şənlikləri, ordunun hərbi keçidləri (parad) təşkil edilirdi. Keçmişdə ondan xeyli aralıda başqa bir meydan da var idi (Köhnə meydan), lakin sonralar Nəqşicahan öz ölçülərinə və mövqeyinə görə həmin meydanı üstələmişdir.

Nəqşicahan meydanını "Şah meydanı" da adlandırırlar, hazırda bura "İmam meydanı" adlanır.

Nəqşicahan meydanının uzunluğu 500, eni 150 metrdən artıqdır, dörd tərəfi Səfəvilər dövrünün ən gözəl memarlıq inciləri ilə bəzənmişdir. Nəqşicahan meydanının cənubunda *Şah məscidi*, şərqində *Şeyx Lütfullah məscidi*, qərbində *Ali qapu*, şimalında *Qeysəriyyə alaqapısı* yerləşir. (Bu tikililərin hər biri barədə kitabda müstəqil məqalələr şəklində məlumat verilir). Meydanın bütün perimetri boyunca divar şəklində ikimərtəbəli silsilə portallar mövcuddur, buradakı hücrələrin ümumi sayı 200-dür.

Nəqşicahan meydanı UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmişdir.

Mənbələr: *Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.75; Ə.Şəhabinəjad və b. İsfahan Nəqşicahan meydanının formalaşma və dəyişmə tarixi ("Restavrasiya və mədəni irs bilikləri" dərgisi, 1393 h.-ş., №3), s.45-64; Lüğətnameyi-Dehxuda, II, 2766.*

"NƏSİHƏTNAMƏ" – I Şah İsmayılın Azərbaycan dilində yazdığı təlimi-didaktik məzmunlu məsnəvi. Azərbaycan ədəbiyyatında bu mövzuda yazılmış ilk məsnəvilərdən sayılır. Əsərin süjet xətti yoxdur, 168 beytdən ibarətdir, dövrünün həyat təcrübələri ilə bağlı xalq ifadə və məsəllərini də özündə əks etdirir. Burada güclü sufilik təsiri hiss edilir. "Nəsihətnamə"də iradə və qəhrəmanlıq, səxavət və doğruculluq kimi xüsusiyyətlər insan üçün ən vacib sifətlər kimi təqdim edilir. Əsərin əsas qayəsi qızılbaş əsgərlərini öz məsləki uğrunda mübarizədə cəsarətli olmağa, müharibə meydanlarında qəhrəmanlıq göstərməyə ruhlandırmaqdır:

Mürid oldur ola əhli-iradət,
Hər işdə var ala pirdən icazət.
Haram edə uyğusun dost yoluna,
Yana pərvanətək eşqin oduna.

Görkəmli ədəbiyyat bilicisi Salman Mümtaz "Nəsihətnamə"yə həsr etdiyi məqalədə bu əsərin "təsəvvüf əhli yanında çox qiymətli" olduğunu və "hənuz bəziləri üçün qiyməti-ədəbiyyəsini hifz etdiyini" yazırdı.

Mənbələr: *Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), II, 15-18, 358-394; Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.334-337; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.425-426; Y.Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.439-441.*

NƏSİMİ, Seyid İmadəddin (1369-1417) – Azərbaycan klassik ədəbiyyatının korifeylərindən və türk dünyasının ən qüdrətli şairlərindən biri. Şamaxı şəhərində doğulmuş, Şirvanşahlar dövlətinin iri şəhərləri olan Şamaxıda və Bakıda yaşayıb-yaratmışdır. Gənc yaşlarında "Seyid" və "Hüseyni" təxəllüsləri ilə yaz-

mış, daha sonra ustadı Fəzlullah Nəiminin təsiri altında, onun təxəllüsü ilə səsləşən "Nəsimi" təxəllüsünü qəbul etmişdir. Nəsimi Fəzlullahın ən sadiq və istedadlı müridlərindən olmuş, *hürufilik* ideyalarının Azərbaycanda və ümumiyyətlə, müsəlman Şərqində yayılması üçün səy göstərmişdir.

Nəsimi öz yaradıcılığında hürufi ideyaları ilə lirikanı üzvi şəkildə birləşdirməyə nail olmuşdur. Onun şeirləri təsəvvüf simvolikası ilə nə qədər zəngin olsa da, sadədir, rahat anlaşılandır. Bu şeirləri oxuduqca Azərbaycan dilinin təkamül prosesini, bu gün arxaizm kimi lüğətlərə köçmüş əski Azərbaycan sözlərinin məna qatlarını anlamaq mümkündür. Nəsiminin şeirlərində müəllifin iç dünyası və düşüncələri, daxilindəki fikir burulğanları və güclü temperamenti aydın hiss olunur. O, şeirlərində sanki hər kəsdən əvvəl özü ilə danışır. Nəsimi ondan əvvəlki şairlərin azərbaycanca şeirlərində rast gəlinən vəzn pozuntularını cilalamış və bu dilin əruz vəznindəki bədii imkanlarını zənginləşdirmişdir.

İmadəddin Nəsimi azərbaycancadan başqa fars və ərəb dillərində də yazmışdır. Qəzəl və qəsidələrlə yanaşı, onun yaradıcılığında türk xalqları ədəbiyyatına məxsus tuyuq növünün çoxlu nümunələrinə də rast gəlirik.

Nəiminin edamından sonra (1394) Azərbaycanda hürufilik amansız şəkildə təqib edildiyi üçün Nəsimi vətənindən didərgin düşərək türkmanların kompakt yaşadıqları Suriyaya köçmüş və orada təbliğatına davam etmişdir. 1417-ci ildə hürufi əqidəsini yaydığına görə (və ya siyasi səbəblər üzündən) Hələb şəhərində edam edilmişdir. Tam sübuta yetməmiş məlumata görə, edamdan qabaq dərisi soyularaq işgəncəyə məruz qoyulmuşdur.

Nəsiminin yaradıcılığı özündən sonrakı şairlərə və aşıqlara güclü təsir etmişdir. Hətta başqa şairlər Nəsimi təxəllüsü ilə şeirlər yazıb xalq arasında yaymışlar. 1926-cı ildə şairin divanını nəşr etdirmiş görkəmli ədəbiyyatşünas Salman Mümtaz Nəsimiyə böyük dəyər verərək yazırdı: "Bütün Azərbaycan ədəbiyyatı içərisində tam mənası ilə şöhrətlənib adsan qazanan dörd böyük şairimiz vardır ki, onların birisi Seyid İmadəddin Nəsimidir... Nəsiminin bütün xlaq ədəbiyyatına olan təsirindən başqa, bir də klassik cığatay, Osmanlı və Azərbaycan ədəbiyyatına böyük xidməti və təsiri olmuşdur".

Hürufilik təriqətinin inkişafında böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin xüsusi xidmətləri olmuşdur. Hətta bəzi müəlliflərə görə, "Nəsimi öz ustadı Nəiminin açıb deyə bilmədiklərini söyləmiş, özündən əvvəl heç kimin çata bilmədiyi məqama çatmışdı; Nəsimi olmasaydı, hürufilik məhv olub aradan gedərdi".

İmadəddin Nəsimi, ələvi-bektaşi ənənəsinə görə, *yeddi ulu ozandan* biridir. Onun əsərləri Şah İsmayıl Xətainin yaradıcılığına da güclü təsir göstərmişdir. Xətai qoşmalarının birində Nəsiminin faciəsinə toxunaraq yazırdı:

Mehrü vəfa biri-birindən azdı,
Bəhlul bayquşliyin viranda gəzdi.

Seyid Nəsimini zahidlər üzdü,
İncinmədi Haqdan gələn cəfayə.
(Ş.İ.Xətai)

Mənbələr: *Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.153-159; K.E.Kürkçüoğlu. Nesimi Divanı'ndan Seçmeler, s.21; Abbas Əzzavi. Tarix əl-İraq beyn ihtilaleyn, III, 47-57; Natig Rahimov. Azerbaijan's Contribution to İslamic Culture. An Undicsovered Treasure ("Contributions of The Eurasian Nations to İslamic Culture"), pp.185-186, 191-192; Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), V, 5-23; Q.Paşayev. Nəsimi haqqında araşdırmalar; İmadəddin Nəsimi. Əsərləri (2 cilddə, elmitənqidi mətnin tərtibi və müqəddimə: C.Qəhrəmanov), I, 5-13.*

NOVRUZ BAYRAMI – Şərq xalqlarının bir çoxunun böyük təntənə ilə keçirdiyi bayram. Tərcüməsi "yeni gün" mənasını verən Novruz günündə Şimal yarımkürəsində astronomik yaz girir, gecə-gündüz bərabərləşməsi baş verir. Astronomiya dili ilə desək, Günəş şərq zodiak sistemindəki Hut (Balıq) bürcündən çıxıb, Həməl (Qoç) bürcünə daxil olur.

Dünyanın bir çox xalqları bu günü baharın gəlişi, təbiətin oyanışı kimi qeyd etmişlər. Slavyanlar xristianlığı qəbul etməzdən əvvəl yaz gecə-gündüz bərabərliyi günündən (yəni Novruzdan) bir həftə əvvəl və bir həftə sonra Maslenitsa bayramını keçirirdilər. Xristian kilsəsi sonralar bu bayramın vaxtını bir qədər irəli – Böyük Orucun (Velikiy Post) başlanğıcından əvvələ çəkdi. Yaz gecə-gündüz bərabərliyi bayramı hətta Yaponiyada da dövlət səviyyəsində qeyd olunur. Bu mənada Novruz bayramını təkcə İslamla deyil, ümumiyyətlə hər hansı dinlə bağlamaq düzgün olmaz. Bu gün çox yayılmış fikrin əksinə olaraq, Novruz atəşpərəst bayramı da deyil.

İslam dini özündən əvvəlki bir çox adət-ənənələr kimi, Novruz bayramını da qadağan etməmiş, ona yeni rəng qatmışdır. İslamın ilk dövrlərində yaşamış müqəddəslər Novruz gününü xoş sözlərlə yad etmişlər. Rəvayət edirlər ki, Həzrət Əli ibn Əbu Talibin (ə) xilafət illərində ona hədiyyə olaraq Novruz şirniyyatı gətirdilər. Əli (ə) bu hədiyyənin hansı münasibətlə verildiyini soruşanda Novruz bayramı olduğunu söylədilər. İmam hədiyyəni qəbul edib buyurdu: "Hər günümüzü Novruz edin". Bu hədisin fərqli variantları Şeyx Səduqun "Mən la yəhzuruh əl-fəqih" (III, 300), Beyhəqinin "əs-Sünən əl-kübra" (IX, 392), Səmaninin "əl-Ənsab" (III, 37) kitablarında mövcuddur. Əbu Reyhan Biruni "əl-Asar əl-baqiyə" və "ət-Təfhim" kitablarında, Ömər Xəyyam "Novruznamə" risaləsində bu bayramdan ətraflı bəhs etmişlər.

Bəzən Novruz bayramını Səfəvilərin adı ilə bağlayır və onların hakimiyyəti dövründən etibarən bu günün dini bayram kimi qeyd edilməyə başlandığını düşünürlər. Halbuki Novruz bayramının Qədir-Xüm günü ilə üst-üstə düşməsi Səfəvilərdən çox-çox əvvəl də məlum idi. Vəfatına təqribən 70 gün qalmış sonuncu həcc səfərindən qayıdan Həzrət Məhəmməd Peyğəmbər (s) Məkkə ilə Mədinə şəhərləri arasındakı Qədi əl-Xüm adlı yerdə onunla birlikdə həcdən gələn 100 min nəfər müsəlmanın qarşısında

İmam Əli ibn Əbu Talibi (ə) özündən sonra xəlifə (canişin) elan etmişdir. Bu hadisə hicri təqvimlə 10-cu il zilhiccə ayının 18-də, miladi təqvimlə 632-ci il mart ayının 20-sində (digər məlumatlara görə, 18-i və ya 19-da) baş vermişdir. İslamın ilk dörd əsrində yaşamış böyük şiə alimlərinin topladıqları hədis məcmuələrində Novruz bayramının məhz həmin il Qədir-Xüm günü ilə üst-üstə düşməsi barədə imamlardan hədislər mövcuddur. Miladi XI-XII əsrlərdə yaşamış Şeyx Tusi, İbn İdris və başqa məşhur şiə fəqihlərinin kitablarında Novruz gününün müstəhəb əməllərindən bəhs edilir. Səfəvilərdən bir əsr əvvəl yaşamış görkəmli məşhur nücum və şəriət alimi Qiyasəddin Cəmşid Kaşani (1380-1429) "Risaleyi-Ğədiriyyə" kitabında Qədir-Xüm hadisəsinin məhz Novruz bayramı gününə (yəni mart ayının 20-nə) təsadüf etdiyini tarix, şəriət, astronomiya və riyaziyyat elmləri baxımından sübuta yetirmişdir.

Səfəvilər milli baxımdan Novruzu böyük bayram hesab edən Azərbaycan xalqına, dini baxımdan şiə məzhəbinə mənsub olduqları üçün onların hakimiyyəti dövründə bu bayramın xüsusi təntənə ilə keçirilməsi tamamilə məntiqi və normaldır. Səfəvilər zamanında Novruz ən yüksək səviyyədə, dövlət bayramı kimi qeyd edilirdi. Novruz şənliklərinə sarayın bütün əyanları, o cümlədən şah da mütləq qatılırdı.

Görkəmli tədqiqatçı alim Mühəmməd Mühit Təbatəbai yazır ki, Səfəvilər zamanında alimlər hicri 10-cu il zilhiccə ayının 18-nin yezdəgirdi təqvimlə (qədim Sasani təqvimi ilə) 9-cu il fərvərdin ayının ilk gününə (yəni Novruz bayramına) təsadüf etdiyini təsbit etdilər. Bu iki bayramın həmin il üst-üstə düşməsi sübuta yetdikdən sonra Novruzu imamət bayramı kimi qeyd etmək ənənəsi şəriət alimləri tərəfindən də əsaslandırıldı.

Novruz şənliyinin Səfəvilər dövlətində geniş vüsət tapması bu ölkəyə səfər etmiş Qərb səyyahlarının (Jan Şarden, Adam Oleari, Engelbert Kempfer və b.) səfərnamələrində də əksini tapmışdır.

XVII əsrin 60-70-ci illərində Səfəvilər dövlətində uzun müddət yaşamış fransız səyyahı Jan Şarden (1643-1713) xatirələrində Novruz bayramı adətlərinə geniş yer ayırmışdır. O yazırdı: "Bu bayram Novruz, Sultaniyyə adlanır. Bu da "şahanə yeni il" və ya "imperiya yeni ili" deməkdir... Bayram səkkiz gün davam edirdi. Birinci gün şah xalqın xeyir-duasını qəbul edirdi. İkinci gün alimlərə, xüsusilə münəccimlərə, üçüncü gün ruhanilərə, dördüncü gün məhkəmə idarəsi qulluqcularına, beşinci gün əyalət hakimlərinə, altıncı gün özünün valideynlərinə, sonrakı gün ərzində isə arvadlarının valideynlərinə, öz uşaqlarına xeyir-dua verib onların yeni ilini təbrik edirdi... Yeni il bayramını xalqa artilleriya və muşket atəşləri ilə xəbər verirlər. Paytaxtda və böyük şəhərlərdə belə olur. Bayram paltarı geymiş münəccimlər şah sarayına və ya yerli hakimlərin iqamətgahına gedirlər. Gecə-gündüz bərabərliyi anını müşahidə etmək üçün ora bir-iki saat əvvəl gəlirlər. Onlar gecə-gündüz bərabərliyini yastı damlarda və ya meydançada üstürlab vasitəsilə təyin

edirlər. Onlar işarə edən kimi yaylım atəşləri acılır, musiqi alətləri – nağaralar, şeypurlar səsləndirilir.

Krallığın zəngin ailələrində və bütün böyüklərin evlərində məclislər keçirilib şadyanalıq edilir, mahnılar oxunur. İsfahanda şah sarayı qarşısında bütün bayram günləri ərzində musiqi calınır, rəqs edirlər, tonqal qalayırlar, məzhəkə göstərirlər. Yarmarkada olduğu kimi, hər kəs bu səkkiz günü təsvirə gəlməyəcək bir şadyanalıqla kecirir... Elə bir kasıb, elə bir yoxsul adam yoxdur ki, təzə paltar geyməmiş olsun... Şəhər kənarında, müxtəlif yerlərdə səkkiz günün səkkizində də gəzinti təşkil edilir, orada sözün əsl mənasında böyük müsabiqə keçirilir. Hamı bir-birinə hədiyyələr göndərir, bayram başlanandan bəri birbirinə boyanmış və qızıl suyuna çəkilmiş yumurtalar göndərirlər. Elə yumurtalar olur ki, pula çevirəndə qiyməti üç qızıl dukata qədər olur...

Gecə-gündüz bərabərliyi baş verəndən sonra böyüklər (yüksək vəzifəli şəxslər) şahın yeni ilini təbrik etməyə gəlirlər. Şah mümkün olan tərzdə məharətlə bəzədilmiş, daş-qaş içində bərq vuran tacını və ya şahanə araqçını başına qoyur. Hər kəs öz hədiyyəsini ona təqdim edir. Bu hədiyyələr cavahiratdan, qaş-daşdan, parçadan, ətriyyatdan, nadir tapılan şeylərdən, atdan, gümüşdən ibarət olur. Hər kəs öz qulluğuna uyğun, var-dövlətinə uyğun hədiyyə verir... Şah bu hədiyyələrin bir hissəsini böyük bir dünyanı – sarayı təşkil edən şəxslərin hamısına yeni il hədiyyəsi verməyə xərcləyir. Bütün bayram günləri şah böyük əyanlarla xoş rəftar edir. Böyük əyanlar da öz növbələrində öz evlərində bu cür edirlər. Çünki onlar günün qalan hissəsini öz evlərində kecirir, adamları qəbul edir, həmçinin özlərinə tabe olan adamlardan hədiyyələr qəbul edirlər".

J.Şarden xatirələrində Novruz bayramının Qədir-Xüm günü və İmam Əli (ə) ilə əlaqələndirilməsinə toxunaraq yazır: "Başqa bir şey də yeni il bayramının təntənəli olduğu qədər məşhur olmasına çox kömək edir. Bu, Məhəmmədin varisi Əlinin xatirəsinin yad edilməsi ilə əlaqədardır. Məhəmmədilər belə hesab edirlər ki, Məhəmməd Peyğəmbər öz ordusu qarşısında yazda, gecə-gündüzün bərabərliyi günündə Əlini varisi elan etmişdir. Digər dini bayramların ay təqviminə əsasən keçirilməsinə baxmayaraq, təkcə bu bayram – Əlinin Peyğəmbərin varisi elan edilməsi bayramı Günəş təqvimi ilə yeni ilin birinci gününə düşur".

Səfəvilər dövrünə aid ən mühüm tarixi mənbələrdən sayılan *İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi"* əsərində hadisələr illər üzrə sıralanır. Müəllif hadisələri hicri təqvim üzrə bölməklə yanaşı, həmin ilin qədim türk təqvimində hansı heyvan (zodiak bürcü) üzərində təhvil olmasını da qeyd edir, eləcə də məşhur hadisələrin bir çoxunun (məsələn, şahların təvəllüdünün) həm hicri-qəməri, həm də qədim türk təqvimi ilə qarşılığını göstərir. O, hər ilin hadisələrinin təsvirindən əvvəl başlanğıcda Novruz bayramının keçirilməsini qısaca da olsa xatırladır. İ.B.Münşinin yazılarından məlum olur ki, I Şah Abbasın

zamanında – 1610-cu ildə İsfahanın *Nəqşicahan meydanında* qurulmuş köşklərdə Novruz şənlikləri 9 gecə-gündüz davam etmişdi. Növbəti il (1611-ci il) Novruz bayramı məhərrəm ayının 6-na təsadüf etdiyi üçün ölkə ərazisində bayram şənlikləri qurulmadı, təziyələr keçirildi. Amma Aşura mərasimləri başa çatdıqdan sonra şahın əmri və iştirakı ilə bayram şənlikləri başlandı. 1612-ci ilin yayında isə I Şah Abbas gilanlıların bayram şənliklərinə tamaşa etmək üçün oraya səfər etdi. Müəllif yazır ki, "gilanlılar hər il bahar fəslinin üç ayı bitdikdən sonra əcəm əhli arasında "susəpənlər günü" (ruzi-abpaşan) adlandırılan və beş gün davam edən mərasimi bayram edir, böyük-kiçik, kişi-qadın dərya kənarına gələrək həmin beş günü şənliklə keçirirlər. Hamı ağır libaslarını soyunur, öz adamlarıyla birlikdə suya girir, suda oynayır, şadlanır. Həqiqətən də maraqlı tamaşadır". Qeyd edək ki, sonrakı illərdə İsfahanda da Novruz bayramında su ilə bağlı şənliklər keçirilirdi, bu şənliklərin əsas məkanı *Allahverdi xan körpüsü* idi və şah da bayram şənliklərinə tamaşa etmək üçün bura gəlirdi.

Novruz bayramı Səfəvilər dövlətində həm də böyük amnistiya günü sayılırdı. Bayram münasibətilə şah əfv fərmanı imzalayıb günahkarları azadlığa buraxırdı. 1613-cü ilin Novruz günlərində I Şah Abbasın əmri ilə İsfahan əhalisinin 3 illik vergilərinin böyük bir hissəsi onlara bağışlanmışdı.

Səfəvilər zamanında 20-dən artıq "Novruziyyə" və ya "Novruznamə" risalələri qələmə alınmışdır ki, bunların müəllifləri arasında *Feyz Kaşaninin, Xatunabadilər* nəslinin bir neçə nümayəndəsinin adlarına rast gəlirik. Bir qayda olaraq, həmin risalələrin müqəddiməsində əsərin hansı Səfəvi şahına ithaf olunduğu qeyd edilirdi.

Mənbələr: *Lüğətnameyi-Dehxuda, XV, 22832-22835; Şardən. Parisdən İsfahana səyahət, s.33-36; Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1402, 1486, 1528; R.Cəfəriyan. Şiə mədəniyyətində Novruz ("Nameyi-müfid" dərgisi, 1376 h.-ş., №9), s.201-220; Seyid Məhəmməd Mühit Təbatəbai. Cəfəri islami Novruz ("Vaçar" dərgisi, 1400 h.-ş., №1), s.29-30.*

ON DÖRD MƏSUM – Həzrət Məhəmməd Peyğəmbər (s), qızı Fatimeyi-Zəhra (ə), İmam Əli (ə) və nəslindən olan 11 imam birlikdə on dörd məsum adlandırılır. Bu 14 nəfərin məsumluğuna inanc yalnız *şiə* məzhəbində mövcuddur. Əhli-sünnə məzhəbinin ardıcılları Peyğəmbərin məsumluğu barədə bir qədər fərqli inancdadırlar, siyahıdakı digər şəxsiyyətləri isə, onlara böyük ehtiram duymaqla yanaşı, məsum hesab etmirlər. On dörd məsumun dini və dünyəvi hakimiyyətinə (vəlayət) etiqad şiə *(cəfəri)* inancının əsasını təşkil edir.

Səfəviyyə təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbili* müridlərinə tövsiyə edirdi ki, hər gün səhər yuxudan oyandıqdan sonra dəstəmaz alıb 14 məsumun adlarını salavatla zikr etsinlər.

Səfəvilər dövründə 14 məsum kultu çox güclü olmuşdur. Bu dövrdə yaşayıb-yaratmış alimlər 14 məsumun həyatı və onların vəlayətinin isbatı barədə yüzlər-

lə kitab qələmə almış, şairlər bu mövzuda bir-birindən gözəl əsərlər ərsəyə gətirmişlər. Səfəvilər dövründə tikilmiş iri memarlıq abidələrinin kitabələrində və bəzək işlərində, bina interyerlərində 14 məsumun adları ən gözəl formalarda yazılırdı. Xəttatların ən çox müraciət etdikləri mövzulardan biri 14 məsumun adı idi. Hətta dövlət atributu sayılan pul sikkələrinin də üzərində 14 məsumun ad və ləqəbləri mütləq həkk olunurdu.

İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi" kitabında 1606/07-ci illərin hadisələrindən bəhs edərək yazır ki, həmin il I Şah Abbas öz mülkiyyətinin (xassə əmlak) hamısını 14 məsuma *vəqf* etmişdi: "(Şah) qərara aldı ki, bütün xassə əmlak və xassə vəsaitini müqəddəs on dörd məsum həzrətlərinə vəqf etsin... Onların qiyməti yüz min tümən İraq şahisi məbləğindədir... O cümlədən şahın İsfahanda inşa etdiyi uca binalar, *Qeysəriyyə*, İsfahanın *Nəqşicahan meydanının* ətrafındakı dörd bazar və hamamlar on dörd məsuma vəqf olundu". Şahın əmri ilə bütün mülkiyyəti 14 hissəyə ayırıb hər hissəni məsumlardan birinə vəqf etdilər. Vəqfin idarəçiliyi şaha, ondan sonra nəslindən olan digər şahlara həvalə olundu. *Şeyx Bəhai* tərəfindən tərtib edilmiş vəqfnamənin şərtlərinə görə qərara alındı ki, vəqflərdən gələn gəlir əsasən ziyarətgahlarda qulluq edən xidmətçilərin, zəvvarların, alim və seyidlərin, tələbələrin xərclərinə sərf edilsin "və onun savabı on dörd müqəddəs məsumun ruhuna hədiyyə olunsun". Şahın əmri ilə baş vəzir *Hatəm xan Ordubadi* 14 məsumun adına ayrı-ayrı möhürlər hazırlatdı və vəqflərə aid sənədləri bu möhürlərlə təsdiq etmək qərara alındı. Şahın mülkiyyətində olan ərəb dilindəki bütün kitablar İmam Rza (ə) hərəminə, fars dilində olan bütün kitablar və Çindən hədiyyə göndərilmiş çini qablar Ərdəbildəki Şeyx Səfi xanəgahına göndərildi, qiymətli daş-qaşlar, qızılgümüş qablar, cins at və dəvə ilxıları da vəqf təyinatı üzrə verildi.

Mənbələr: *Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab), s.1368-69; Qara məcmuə, s.21; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VIII, 227-228; Lüğətnameyi-Dehxuda, VI, 7361.*

ON İKİ İMAM – *şiə (cəfəri)* məzhəbinə görə, Həzrət Mühəmməd Peyğəmbərdən (s) sonra müsəlmanların rəhbəri olan 12 müqəddəs şəxs. Şiə inancına görə, bu imamların adları Peyğəmbər tərəfindən açıqlanmışdır. İmamların birincisi Əli ibn Əbu Talib (ə), on ikincisi qeybdə olan Həzrət Mehdidir (ə). İmamlar Allahın əmri ilə bu məqama təyin edilmişlər, məsumdurlar. 12 imam Həzrət Fatimeyi-Zəhra (ə) və Həzrət Mühəmməd Peyğəmbərlə (s) birlikdə 14 məsumu təşkil edir. 12 imamın dini və dünyəvi rəhbərliyini qəbul etmək şiə inancının əqidə əsaslarından (imamət) biridir.

Əhli-sünnə mənbələrində də Peyğəmbərin dilindən, ondan sonra 12 xəlifənin olacağı barədə hədislər mövcuddur. Lakin əhli-sünnə məzhəbinə görə, Peyğəmbər 12 xəlifənin adlarını söyləməmiş, yalnız onların hamısının Qüreyş soyundan olacağını bildirmişdir. Əhli-sünnə alimləri Qüreyşdən olan 12 xəlifənin

adları və kimlikləri barədə fərqli izahlar vermişlər.

12 imam anlayışı şiə müsəlmanların ədəbiyyatında və incəsənətində mühüm yer tutur. Əsrlər boyunca şiə şairlər tərəfindən ərəb, fars və türk dillərində 12 imamın adlarının sadalandığı şeirlər yazılmış, imamların adları xəttatlıq əsərlərinin mövzusu olmuşdur. Xalq dilində "on iki imam haqqı" ifadəsi geniş yayılmış andlardan biridir.

"Qara məcmuə"də yazılana əsasən, *səfəviyyə* təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbili* buyurmuşdur: "Pəs təriq əhli olan qardaşlara vacibdir ki, hər gün sabah olduqda yerindən durub pak təharət ilə abdəst alıb on iki imamı və çəhardəh məsumi-pakları zikr edib... on iki imama iqrar edib, *mürşidə* iradət gətirə, ta kim, imanı dürüst ola".

Səfəvilər dövlətində 12 imam kultu çox güclü olmuş, dövlət ideologiyasının mühüm tərkib hissəsi kimi təqdim edilmişdir. Hətta bu ənənəni pozmuş II Şah İsmayıl Səfəvi mənbələrində qınaq hissi ilə yad edilir. *Molla Sədra, Qazı Səid Qumi* kimi böyük şiə alimləri əsərlərində 12 imam inancını mistik baxımdan araşdırmağa çalışmış, bu inancın insan mənəviyyatındakı təsirlərini irfan işığında təhlil etmişlər. Belə ki, Molla Sədraya görə, 14 məsum mahiyyətcə bütün varlıqların ontoloji səbəbidir, Qazı Səid Qumi isə 14 məsumu ilahi ərşin ətrafında dövr edən üstün bəşəriyyət (bəşər əlavali) adlandırırdı.

Səfəvilər dövründə buraxılmış pul sikkələrinin, demək olar ki, hamısının üzərində 12 imamın adları və ləqəbləri həkk edilirdi. Bu dövrdə yazılmış şeir nümunələrində tez-tez 12 imamın adına və tərifinə rast gəlirik. Klassik müsəlman ədəbiyyatı ənənələrinə görə, iri əsərlər (poemalar) müəllifin Allah-Taalaya həmdsənası (minacat) və Peyğəmbərin tərifi (nət və meracnamə) ilə başlayırdı. Səfəvilər zamanında buraya İmam Əlinin (ə), bəzən 12 imamın tərifinə həsr edilmiş daha bir bölüm əlavə edilirdi. Şairlərin divanının əvvəlindəki qəsidələr bölümündə 12 imamın şəninə həsr edilmiş ən azı bir qəsidə mütləq olurdu.

Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin şeir divanında "on iki imam" ifadəsinə müxtəlif formalarda və ədəbi biçimlərdə dəfələrlə rast gəlmək mümkündür:

On iki şahzadənin imlası pünhanımdadır,
Sayə salmış üstümə mehri-dirəxşanımdadır,
Mustafanın ümmətiyəm, sevgisi canımdadır,
Həm Əliyyi-Mürtəzanın dərdi dərmanımdadır...

On iki məsumi-paki piş edən ümmətlərə,
Mürtəzani heydəri-kərrar edən Pərvərdigar...

Mühübbəm on iki şahə əzəldən,
Vəleykin bu dükanə şimdi gəldim.

Şah İsmayılın divanındakı bir neçə şeir 12 imamın adlarını özündə ehtiva edir ("Bizə şəmi-təcəlla Mustafadur", "Təalallah, gəl ey gör kim, yenə nuri-Xuda gəldi", "Mənəm kim, canü dildən heydəriyəm", "Dəryayi-Nəcəf gövhərinə kan Əlidür", "Həqiqət bəhri-zati-əkbər oldu",

"Ol əlif qəddinə mənzil gəldi xətti-istiva", "Şəfiül-müznibin həqdən Mühəmməd Müstafa gəldi", "Yəqin bil kim, xudaidir Xətai" misraları ilə başlayan qəzəl və qəsidələr).

Şah İsmayılın "Dəhnamə" poeması ənənəvi minacatdan və Peyğəmbərin nətindən sonra İmam Əlinin (ə) tərifi və "Haqq olan imamlarını adlarının zikri" fəsli ilə başlayır.

bax: **İMAMLAR.**

Mənbələr: *Qara məcmuə, s.21; Navid İqbal, Fehmida Baloch. Rivayetler Çerçevesinde Kureyş'in Durumuna Siyasi Bir Bakış (Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, XLIV, 2018/1), s.59-77; M.S.Hatiboğlu. Hilafet'in Kureyşliliği (Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi), №3-4, Cilt: 23, 1978), s.121-213; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 7, 365, 599 və II, 40-42; Əli Kurani. Peyğəmbərin 12 imam barədə müjdə hədisi əhli-sünnə mətnlərində ("İmamət Araşdırmaları" dərgisi, İl: 3, №12), s.89-123; Q.Zeynəli. On iki canişin hədisi ("Kəlami-İslami" dərgisi, 1393 h.-ş., №92), s.49-75; D.Şarigan. Anri Korbin. İran İslamında mənəvi təfəkkürün üfüqləri, s.159-166; Əllamə Hilli. Cəza gününün mənfəət veräni (tərcümə edən: Şirzad Pənahov), s.103-105.*

ORUC BƏY BAYAT – XVI-XVII əsrlərdə yaşamış Səfəvi müəllifi. Qızılbaş *Bayat* tayfasına mənsub olmuş, Avropada İranlı (Persiyalı) Don Xuan (Juan) kimi tanınmışdır. Oruc bəyin həyatı haqqında məlumat özünün qələmə aldığı xatirələrdən əldə edilir. O, gəncliyində atası Sultanəli bəy Bayatla birlikdə Şah Məhəmməd Xudabəndənin ordusunda xidmət etmiş, atası 1585-ci ildə Osmanlıların əlində olan Təbriz qalasının mühasirəsi zamanı taxtadan hazırlanmış qüllə şəkilli qurğunun içində həlak olmuşdu. Bu zaman Oruc bəyin 18 və ya 25 yaşında olduğu ehtimal edilir.

Oruc bəy əvvəlcə şahzadə *Həmzə Mirzənin* xidmətində olmuş, *Türkman-Təkəlü* tayfa birliyi ilə Həmzə Mirzə tərəfdarlarının döyüşündə ikinci dəstənin tərkibində iştirak etmişdir. Bundan sonra o, I Şah Abbasın hərbi yürüşlərinə qatılmış, 1589-cu ildə özbəklərə qarşı döyüşdə fərqlənmişdir.

XVI əsrin sonlarında Avropa dövlətləri Osmanlılara qarşı mübarizədə Səfəviləri özlərinə müttəfiq etməyə çalışırdılar. Bu məqsədlə Səfəvi sarayına Avropadan tez-tez elçi və səfirlər gəlirdi. Nəhayət, 1599-cu ildə I Şah Abbas Avropa ölkələrinə diplomatik nümayəndə heyəti göndərmək qərarına gəldi. Hüseynəli bəyin başçılıq etdiyi qrupa 4 nəfər katib və 15 nökər daxil idi. (Onlara yüzbaşı Dəniz bəy Rumlunun başçılıq etməsi barədə də məlumatlar vardır). Diplomatik missiyanın baş katibliyi Oruc bəy Bayata həvalə olundu, onun yaxın dostu (Hüseynəli bəyin qohumu) Əliqulu bəy də bu səfərdə onu müşayiət edirdi. Öz vətənlərinə qayıtmalı olan Avropa səfirləri də yol boyunca onlara bələdçilik etməyə razılıq verdilər. Səfəvi elçiləri Almaniya, Roma, İspaniya, Fransa, Polşa, Venesiya, İngiltərə və Şotlandiyada diplomatik görüşlər keçirməli idilər.

1599-cu ildə heyət yola çıxdı. Onlar böyük çətinliklə Xəzər dənizi və Volqa çayı boyunca, daha sonra quru yolla hərəkət edərək Moskvaya çatdılar. 1600-cü ilin payızında onlar artıq Almaniya-

da, növbəti ildə isə İtaliyada idilər. Səfəvi diplomatik heyətinin İtaliyadakı fəaliyyəti bir o qədər uğurlu olmadı, Venesiya doju onları qəbul etməkdən boyun qaçırdı, Sienada Hüseynəli bəy onları müşayiət edən ingilis elçisi Şirli ilə mübahisəyə girdi, qrupa daxil olan 3 nəfər müsəlman Vatikanda qalıb xristianlığı qəbul etdi. Səfəvi elçiləri Fransanı adlayıb İspaniya torpağına qədəm basdılar. İspaniyanın ozamankı paytaxtı Valyadolliddə Kral III Filipp onları iki ay sarayında qonaq saxladı. Yolun gözlənilməz çətinliklərindən yorulmuş Hüseynəli bəy digər ölkələrə səfər etmədən vətənə qayıtmaq qərarına gəldi. Lakin o, daha bir neçə xoşagəlməz halla qarşılaşmalı oldu. Nümayəndə heyətinə daxil olan bir nəfər naməlum şəraitdə öldürüldü, daha 3 nəfər isə İspaniyada qalaraq katolik dinini qəbul etdi. Xristianlığa keçənlər Oric bəy Bayat, onun dostu Əliqulu bəy və Bünyad bəy idi. Onlara Don Xuan, Don Filipp və Don Dieqo adları verildi; Oruc bəyin xaç anası kraliçanın özü oldu.

Bəzi mənbələrdə Oruc bəyin 1605-ci ildə İspaniyada öldürüldüyü yazılsa da, bu məlumat yanlışdır. Oruc bəy (Don Xuan) 1606-cı ildə Kral III Filippin məiyyətində Valyadolliddən Madridə köçmüşdür, onun sonrakı taleyi haqqında məlumat yoxdur. Müasirlərinin yazdığına görə o, artıq İspaniyaya çatmazdan əvvəl yolda ispan dilini kifayət qədər yaxşı öyrənə bilmişdi. Oruc bəy xatirələrini əvvəlcə fars dilində qələmə almış, sonra ispan dostlarının köməyi ilə tərcümə etmişdi.

Mənbələr: *Книга Орудж бека Байата, Дон Жуана Персидского (перевод с английского, введение и комментарии: О.Эфендиев, А.Фарзалиев), стр.5-20; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.28-29; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.5-49.*

OZAN – türk xalqlarının məişətində özünəməxsus yeri olan, qopuz çalıb oxuyan, nəsihətləri ilə insanları irşad edən xalq sənətçisi, el ağsaqqalı. Sözün mənşəyi barədə fikirlər fərqlidir. Bəziləri onu "çox danışan adam", bəziləri isə "öncül, qabaqda gedən" mənasında izah etmişlər. "Divanü lüğat it-türk"də "ozıtğan" (atını daim irəli sürüb keçən) və "ozuk at" (yarışı udan at) sözlərinə rast gəlirik. M.Fuad Köprülü qədim türk mənbələrindəki "ozmak" (öndə gəlmək, irəli keçmək) kökündən gələn "ozğan" (sürüdə qabaqda gələn köpək) sözünə diqqət yetirmiş, oğuz türkcəsində adətən "ğ" səsinin düşdüyünü və nəticədə "ozan" sözünün yarandığını bildirmişdir. Türkdilli ədəbiyyatın ən qədim nümunələrindən sayılan "Kitabi-Dədə Qorqud"un qəhrəmanı Dədə Qorqud da xalq ozanıdır. Türklərdə ozan el şənliklərini idarə edir, dastanlar söyləyib xalq qəhrəmanlarının igidliyini nəzmə çəkir, ibrətamiz nəğmələr vasitəsilə xalqa yaxşı ilə pisi başa salırdı. Ozan böyük hörmətə malik el ağsaqqalı idi, onun küsülüləri barışdırmaq, hətta yeniyetmələrə ad seçmək səlahiyyəti vardı.

İrfan-təsəvvüf dünyasında da ozanlar xüsusi yerə sahib idilər, onlar pir, təriqət şairi kimi fəaliyyət göstərir, sadə xalq dlində təriqət adabını insanlara çat-

dırırdılar. *Ələvi-bektaşi* ənənəsində *yeddi ulu ozanın* şəxsiyyəti və əsərləri xüsusi əhəmiyyətə malikdir.

XVI əsrdən etibarən ozanlar öz yerini aşıqlara, qopuz yerini saza verməyə başladı. Əslində ozan və qopuz məfhumlarının tarixi məna yükü olduğu kimi qaldı, terminologiya, ifaçılıq texnikası zamana uyğun olaraq dəyişdi. Azərbaycanda bu prosesin banisi *Aşıq Qurbani* sayılır.

Qızılbaş Səfəvi düşüncəsində ozan xüsusi yerə malikdir. Unutmaq olmaz ki, digər təriqətlər kimi, *qızılbaşlıq* da xalq arasında ozanların sayəsində yayılmışdı. Ozanların sadə və anlaşıqlı, sazlı-sözlü çıxışları xalq kütlələri tərəfindən asanlıqla başa düşülür və sevilirdi. I Şah İsmayılın sarayında klassik üslubda yazıb-yaradan şairlərlə yanaşı, ozan-aşıqlar da fəaliyyət göstərirdi. Şah el aşığı Dirili Qurbanini özünə *mürşid* və *pir* sayırdı. Mühüm dövlət iclasları (*divan* məclisləri) aşıqların ifasında "Baş Divani" havası ilə açılırdı. Hətta orduda digər ritual musiqi ifaçıları (təbilçi, zurnaçı) ilə yanaşı aşıqların da xidmət etdiyini yazırlar. Aşıqlar döyüşdən qabaq ordunun qarşısında saz çalıb oxuyur, əsgərləri qələbəyə ruhlandırırdılar. Orduda xidmət edən aşıqların xüsusi geyim forması var idi. İndi də aşıqların hərbi geyimdə (kitel, qalife şalvar, uzunboğaz çəkmə) çıxış etmələri bəlkə də buradan qaynaqlanır. I Şah İsmayılın qoşma və gəraylıları ozan-aşıqların repertuarında əsas yeri tuturdu.

Teymuri hökmdarı *Sultan Hüseyn Bayqara* I Şah İsmayıla bir neçə musiqiçi göndərmişdi. Heratdan gəlmiş ozanlar məharətlərini göstərəndən sonra Səfəvi şahı da öz ölkəsində oxunan və dinlənən musiqiləri nümayiş etdirmək üçün qızılbaş aşıqlardan bir dəstə toplayıb Bayqaranın hüzuruna yollayır. Qızılbaş aşıqları Heratda bir neçə gün öz məharətlərini göstərəndən sonra çoxlu hədiyyə ilə geri dönürlər.

Mənbələr: *Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 2014, 1 (44), s.48-62; Mahmud Kaşğari. Divanü Lüğat-it-türk, IV, 400; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXIV, 18.*

PİR SULTAN ABDAL – ələvi-bektaşi ənənəsində böyük ehtirama layiq *yeddi ulu ozandan* biri. XVI əsrdə yaşamış ozan-şair Pir Sultan Abdalın əsl adının Heydər olduğu, Sivas bölgəsində doğulduğu ehtimal edilir, amma şeirlərinin birində Xoy məntəqəsindən olduğunu yazır. Rəvayətə görə, yuxuda Hacı Bektaş Vəlini görmüş və təxəllüsünü ondan almışdır. Pir Sultan Abdal Ərdəbildə təriqətin sirlərini öyrənmiş, sadə xalq dilində şeirlər yazmışdır. Şeirlərində *ələvi* inancı, *Əhli-beyt* sevgisi, *təriqətin* təbliği və irşad motivləri güclüdür. Osmanlı dövləti əleyhinə üsyana qatılmaq, Səfəvilərə casusluq etmək ittihamı ilə Sivas valisi tərəfindən edam olunmuşdur. Ölüm səbəbinin "Çəkə sancağı, gətirə, şah İstanbula otura" misralarının olduğunu yazırlar. Onun "Açılın, qapılar, şaha gedəlim", "Katib, əhvalımı şaha böylə yaz", "Mən də bu yayladan şaha gedərəm" şeirləri Şah İsmayıl Xətaiyə dərin sevgidən və möhkəm bağlılıqdan xəbər verir.

Bəzi tədqiqatçılar Pir Sultan Abdal təxəllüsünü qəbul etmiş 6, ya 8 və ya 10 şairin olduğunu göstərirlər. Bəzilərinin fikrincə, o, real şəxsiyyət deyil, simvolik obraz, ədəbi qəhrəmandır.

Mənbələr: *İsmail Özmen. Alevi-Bektaşi Şiirleri Antolojisi (5 cilddə); Abdulbaki Gölpınarlı. Pir Sultan Abdal, s.6-12; Abdulbaki Gölpınarlı, Pertev Naili Boratav. Pir Sultan Abdal, s.3-46; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXIV, 277-278; Reyhan Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi ("Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi", 2017, Sayı: 83), s.49-79; Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan.*

PİRHƏSƏN TÜRBƏSİ – Bakı şəhəri yaxınlığında Mərdəkan qəsəbəsi ərazisində yerləşən, Səfəvilər dövrünə aid tarixi tikili, memarlıq abidəsi. Türbənin giriş qapısı üzərindəki kitabədə onun I Şah Abbas zamanında – hicri 1021-ci/ miladi 1612-13-cü illərdə inşa edildiyi yazılıb. Digər kitabədə memarın adı (Nadir Əli) həkk edilib.

Pir Həsənın XVII əsrdə yaşamış nəcib seyidlərdən olduğu, çıldağ üsulu ilə insanları müalicə etdiyi deyilir. Ziyarətgahda hal-hazırda da çıldağ fəaliyyət göstərir.

Əsas türbə binası planda kvadrat formaya malikdir, 2.2 metr qabağa çıxan giriş hissəsi oxvari tağtavanla örtülmüşdür. Türbənin daxilində dörd küncdə yerləşən qoşa çıxıntılar yelkənə keçir. Türbə binasının üzərini örtən günbəz həmin yelkənlər tərəfindən dəstəklənir. Tikili həm daxildən, həm də xaricdən yaxşı yonulmuş qumdaşı ilə üzlənmişdir.

Türbənin yaxınlığında daha bir neçə məqbərə yerləşir. Bunlardan biri yeddinci *İmam Musa Kazimin (ə)* qızı Xədicə xanıma aid edilir. Yaxınlıqda görkəmli din xadimi Axund Hacı Mirzə Əbuturab Axundzadə (1817-1910) dəfn edilmiş, Bakı milyonçusu M.Muxtarov onun məzarının üzərində türbə tikdirmişdir. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev 1924-cü ildə vəfat edərkən öz vəsiyyətinə əsasən Axund Əbuturabın qəbrinin yanında (ayaq tərəfində) torpağa tapşırılmışdır. H.Z.Tağıyevin qızı Sara xanımın və onun əri, repressiya qurbanı Zeynal bəy Səlimxanovun məzarları da orada yerləşir.

Mənbə: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр.52.*

RAFİZİLİK – ərəb dilindən tərcüməsi "kənarlaşmaq, uzaqlaşmaq, tərk edib getmək" mənalarını verir. Mənbələrdə "rafizi" kəlməsinin yaranmasını zeydiyyə məzhəbinin banisi Zeyd ibn Əli ilə bağlayırlar. Zeydi dəstəkləyən şiələr qiyamın əvvəlində onun Əbu Bəkr və Ömər haqqında fikrini öyrənməyə çalışmış, Zeyd bu iki xəlifə barədə müsbət fikirdə olduğunu bildirəndə onun ətrafından dağılışıb getmişdilər. Bu zaman Zeyd "məni buraxıb getdiniz" mənasını verən "rəfəztümuni" sözünü işlətmişdi. Bundan sonra ilk iki xəlifəyə qarşı mənfi münasibətdə olan şəxsləri rafizi adlandırmağa başladılar.

İslamın ilk əsrlərindən başlayaraq bütünlükdə *şiəlik* təəssübkeş əhli-sünnə müəllifləri tərəfindən rafiziyyə kimi tanıdılırdı. Əhli-sünnə müəlliflərinin əsərlərində on iki imamçı cəfəri *(isna əşə-*

riyyə) məzhəbi də "rafiziyyə" adı altında təqdim edilirdi.

Şiə mənbələrində isə "rafizi" kəlməsi müsbət mənada işlədilir. İmamlar öz ardıcıllarını bu addan utanmamağa çağırırdılar. İmam Cəfər Sadiqin (ə) hədislərində buyurulur ki, tarixdə ilk dəfə "rafizi" (kənar olmuş) adını əvvəllər fironun tərəfində olmuş, sonra isə tövbə edib Həzrət Musa Peyğəmbərə (ə) qoşulmuş sehrbazlara veriblər. Firon həmin sehrbazları ondan ayrılıb Həzrət Musaya (ə) qoşulduqlarına görə rafizi adlandırmışdı.

Bu kimi hədislərin təsiri altında şiələr rafizi adını daşımağı özlərinə fəxr bilirdilər. Şafii məzhəbinin banisi İmam Şafii şeirlərinin birində onu rafizi adlandıranlara cavab olaraq demişdir: "Əgər Ali-Mühəmmədi (s) sevmək rafizilikdirsə, qoy bütün insanlar və cinlər şahid olsunlar ki, mən rafiziyəm!"

XVI-XVIII əsrlərə aid Osmanlı mənbələrində Səfəvilərə, ümumilikdə bütün şiələrə, Anadolu torpaqlarında *qızılbaş* üsyanı qaldıranlara, *ələvilərə*, *qələndər* kimi tanınan sufilərə "rafizi" adı verilirdi. Bütün Osmanlı dövlətinin ərazisində I Şah İsmayıl və onun tərəfdarları bu adla tanıdılır, onların dindən çıxmış sayılması barədə fətvalar verilirdi. I Sultan Səlim dövründə qazıəsgər, I Sultan Süleyman Qanuni dövründə şeyxülislam olmuş Kamal Paşazadə (İbn-i Kemal, 1469-1534) hətta bu mövzuda bir neçə risalə qələmə almışdı: "Risalə fi ikfar əş-şiə" ("Şiələrin kafir elan edilməsi barədə risalə"), "Risalə fi təkfir ərrəvafiz" ("Rafizilərin kafir sayılması barədə risalə"), "Risalə fi ikfari-Şah İsmail" ("Şah İsmayılın kafir elan edilməsi barədə risalə") və s. Bu risalələrdə Osmanlı şeyxülislamı Səfəvi dövlət başçılarını və onun təbəələrini həm malik olduqları ənənəvi şiə əqidəsinə görə, həm də uydurma iftiralara əsasən kafir elan edir, onların canını və malını halal bilirdi: "Onların hökmü mürtədlərin hökmü kimidir. Öylə ki, onların şəhərləri ələ keçirilərsə, oralar dar əl-hərb (kafir ölkəsi) olur, müsəlmanlara onların malları, qadınları və uşaqları halal olur... Bu bilinməlidir ki, onlara qarşı cihad etmək onlarla savaşa gücü yetən bütün müsəlmanlara fərzi-eyndir (vacib dini vəzifədir)". İbn Kamalın şiələrə nifrəti o qədər güclü idi ki, hətta şiələrlə savaşmağı digər kafirlərlə savaşmaqdan daha mühüm sayır, qırmızı *qızılbaş papağını* qoymağın küfrə gətirib çıxaracağını iddia edirdi. Onun fətvasına görə, qızılbaşlara qoşulan adam ölmüş hökmündədir, onun əmlakını varislərinin arasında bölmək olar, qadını da başqasına ərə gedə bilər. Osmanlı din xadimlərindən şeyxülislamlar Əbussüud əfəndi (1490-1574), Ərzurumlu Feyzullah əfəndi, Yenişehirli Abdullah əfəndi və Damadzadə Əbülxeyr əfəndi, İstanbul müftisi Sarigörez Nurəddin əfəndi (vəf. 1522), Sunguri Həsən ibn Ömər, Əli ibn Əbdülkərim və başqaları da şiələrin əleyhinə oxşar məzmunlu sərt fətvalar vermişlər.

Mənbələr: *Muhammet Ali Özkan. Fetvalar ve Belgeler İşığında Osmanlıda Kızılbaşlık Meselesi (Yüksek Lisans Tezi), s.127-163; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi,*

XXXIV, 396-397; A.Y.Ocak. Türk Heterodoksi Tarihinde "zındık", "harici", "rafizi", "mülhit" ve "ehl-i bidat" Terimlerine Dair Bazi Düşünceler (Tarix Enstitüsü Dergisi, sene: 1981-81, sayı: 12), s.514-516; Halil İbrahim Bulut. Osmanlı-Safevi Mücadelesinde Ulemanın Rolü: Kemal Paşazade Orneği (Dini Araştırmalar, cilt: 7, sayı: 21), s.179-195; Sayın Dalkıran. İran Safevî Devletinin Kuruluşuna Sii İnançlarin Etkisi ve Osmanli'nin İran'a Bakisi; Cafer Acar. İbn Kemal'in Şah İsmail'e Yönelik Tekfirinin Siyâsî Boyutları Üzerine (Danisname 5, Eylül/September 2022), s.105-131; Reyhan Erdoğdu Başaran. Does Being Rafidi Mean Shi`ite? The Representation of the Kızılbaş Belief in the Sixteenth Century Ottoman Records (Trabzon İlahiyat Dergisi, TİD, cilt: 6, sayı: 1, Bahar 2019), s.315-339; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 219; Lüğətnameyi-Dehxuda, VIII, 11746; İbn Həcər Heysəmi. Əs-Səvaiq əl-mühriqə, s.117; Fəxr Razi. Təfsir əl-kəbir, XXVII, 167; Əbu Nüeym İsfahani. Hilyət əl-övliya, IX, 152-153.

RƏCƏBƏLİ TƏBRİZİ – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli Azərbaycan filosofu. Həyatı haqqında məlumat azdır. Təbrizdə doğulmuş, İsfahanda yaşayıb-yaratmışdır. *Mir Fendereskinin* tələbələrindəndir. II Şah Abbas ona xüsusi ehtiram göstərir, onunla tez-tez məsləhətləşir, hətta görüşmək üçün evinə gedirdi. Əvvəlcə İsfahanın Abbasabad məhəlləsində yaşamış, sonra şah ona şəhər xaricində, Şəmsabad məntəqəsində ev bağışlamışdı. Rəcəbəli Təbrizi uzun müddət İsfahandakı Şeyx Lütfullah mədrəsəsində dərs demişdir.

Yazdığı kitablardan "Vacib varlığın isbatı" və "əl-Üsul əl-Asəfiyyə" risalələri xüsusi qeyd edilir. Bir çox müasirlərindən fərqli olaraq, fəlsəfədə *işraq* təlimini izləməmiş, məşşailiyə (peripatetizm) üstünlük vermişdir. *Molla Sədranın* bəzi fəlsəfi fikirlərini etirazla qarşılamışdır. Rəcəbəli Təbrizinin "Vahid" təxəllüsü ilə şeir yazdığını deyənlər olsa da, böyük ehtimalla, onlar I Şah Abbasın zamanında yaşamış başqa bir alimlə onu qarışdırırlar.

Mənbələr: *Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, II, 283-284; Əlәddin Məlikov. Azərbaycanlı filosof Molla Rəcəbəli Təbrizi ("Elm" qəzeti, 15 sentyabr 2020-ci il); Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 285; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.58; Dairət əl-məarifi-təşəyyö, IV, 80-81.*

RƏHMƏTİ TƏBRİZİ (vəf. 1616) – XVI əsrin sonu-XVII əsrin əvvəllərində yaşamış görkəmli Azərbaycan şairi. Azərbaycan və fars dillərində yazıb-yaratmışdır. Təbriz şəhərindən idi. Müasirləri onun 7-8 min beytlik divanı olduğunu yazmışlar. Azərbaycanca qəzəllərində *Füzuli* və *Xətainin* təsiri hiss olunur. Gözəl xətti var, nəsx və süls xətlərini yazmaqda mahir idi.

Şair dövrün qarışıq siyasi vəziyyətindən baş götürüb Hindistana getmiş, 1616-cı ildə Aqra şəhərində vəfat etmişdir.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 515; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.273; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası.*

RÖVZƏ – ərəb dilindən tərcüməsi "bağça, bağ" deməkdir. İslam müqəddəslərinin vəfatından bəhs edən, nəsrlə

nəzmin qarışığından ibarət olan dini mətnlərə rövzə deyilir. Rövzələrin böyük əksəriyyəti Kərbəla faciəsinə həsr olunur və məhərrəmlik mövsümündə dini məclislərdə oxunur. Eyni mənanı ifadə edən "məqtəl" sözü də işlədilir.

Rövzəxanlıq ənənəsi təqribən 500 il bundan əvvəl yaranmışdır. Rövzə ədəbiyyatının ilk məşhur nümunəsi XV əsrdə yaşamış Vaiz Hüseyn Kaşifinin qələmə aldığı "Rövzət əş-şühəda" ("Şəhidlər bağçası") kitabı sayılır. Həmin kitabdan hissələri avazla camaat üçün oxuyan şəxslərə *rövzəxan* (rövzə oxuyan) deməyə başladılar. Böyük Azərbaycan şairi *Füzuli* də "Hədiqət əs-süəda" əsərini "Rövzət əş-şühəda"dan ilhamlanaraq qələmə almışdır.

Səfəvilərin hakimiyyəti dövründə rövzə oxumaq ənənəsi geniş yayılmış, çoxlu rövzə kitabları yazılmışdır ("Təsliyət əl-mücalis və ziynət əl-məcalis" (Seyid Məhəmməd Kərəki Hairi), "əl-Müntəxəb" (Türeyhi) və s.). "Təsliyət əl-mücalis" kitabının əvvəlində müəllif I Şah İsmayılı uzun-uzadı mədh edir və şiə məzhəbinin yayılması yolunda xidmətlərini tərifləyir.

Hazırda azərbaycanca və digər dillərdə çoxlu rövzə kitabları mövcuddur. Rövzələrdə adətən şeirlə nəsr növbələşir. Belə ki, rövzəxan təsirli səslə Kərbəla faciəsinin ən həssas anlarını təsvir edir və arada şeir nümunələrindən də faydalanır. Rövzəxanların şəxsi improvizasiyası sayəsində yeni-yeni rövzələr yaranmaqda davam edir. Məhərrəmlik tədbirlərindən əlavə yas məclislərində də rövzə demək ənənəyə çevrilib.

Bəzi rövzələrdə (o cümlədən "Rövzət əş-şühəda" kitabında da) Kərbəla faciəsi barədə həqiqətdən uzaq xeyli məlumatlara rast gəlmək olur.

Mənbələr: *Dairət əl-məarifi-təşəyyö, VIII, 383-394 ("Rovzə və rovzəxani" məqaləsi); Cavad Mühəddisi. Fərhəngi-Aşura, s.189-190; Seyid Məhəmməd Kərəki Hairi. Təsliyət əl-mücalis və ziynət əl-məcalis, s.45; M.Ə.Pərğu, S.Qulamzadə. Səfəvilər dövründə əzadarlığın ziyanlarının öyrənilməsi istiqamətində bir araşdırma ("Tarixi-Eslam" rüblük elmi jurnalı, 1394 h.-ş., №63), s.35-69; Rəsul Cəfəriyan. Səfəviyyə din, mədəniyyət və siyasət meydanında, II, 876-878.*

RÖVZƏXANLIQ – Kərbəla faciəsinin təsvirindən ibarət olan *rövzələrin* oxunma ənənəsi. XV əsrdə yaşamış Vaiz Hüseyn Kaşifinin "Rövzət əş-şühəda" kitabından hissələri avazla oxumaq ənənəsi Səfəvilər zamanında yaranmışdır. Bu kitabı məhərrəmlik mövsümündə kütləvi ibadət məkanlarında (məscid və hüseyniyyələrdə, təkkələrdə) camaat üçün oxuyan şəxslərə rövzəxan deyirdilər. Sonralar Kərbəla müsibəti barədə qələmə alınmış digər kitabları da təziyə məclislərində oxuyan şəxsləri rövzəxan adlandırdılar.

bax: **RÖVZƏ.**

Mənbələr: *Dairət əl-məarifi-təşəyyö, VIII, 383-394 ("Rovzə və rovzəxani" məqaləsi); Cavad Mühəddisi. Fərhəngi-Aşura, s.189-190; Seyid Məhəmməd Kərəki Hairi. Təsliyət əl-mücalis və ziynət əl-məcalis, s.45; M.Ə.Pərğu, S.Qulamzadə. Səfəvilər dövründə əzadarlığın ziyanlarının öyrənilməsi istiqamətində bir araşdırma ("Tarixi-Eslam" rüblük elmi jurnalı, 1394 h.-ş., №63), s.35-69; Rəsul Cəfəriyan. Səfəviyyə din, mədəniyyət və siyasət meydanında, II, 876-878.*

RZA ABBASİ (1565-1635) – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli rəssam. Atası Əli Əsğər Kaşani də rəssam idi, Səfəvi şahzadəsi *İbrahim Mirzənin*, daha sonra II Şah İsmayılın sarayında xidmət etmişdi. Rza Abbasi kiçik yaşlarından sənətə bağlanmış, İsfahanda mükəmməl rəssamlıq təhsili almışdı. Onun qələmindən çıxmış əsərlər bu gün dünya muzeylərinin ekspozisiyalarını və şəxsi kolleksiyaları bəzəyir. Rza Abbasi siyahqələm üslubunda işləməyi (karandaşla ağ-qara rəsmlər çəkmək) xoşlayırdı. Deyirlər ki, təsvirə dolğunluq və həcm vermək məqsədilə müxtəlif qalınlıqlı xətlərdən istifadə etmək də onun ixtirasıdır.

Müasiri olan təbrizli xəttat Əlirza kimi, Rza da I Şah Abbasın şərəfinə özünə "Abbasi" təxəllüsünü götürmüşdür.

Rza Abbasi yaradıcılığının müəyyən mərhələsində saray mühitindən bezərək oranı tərk etmiş, bir neçə il ərzində sadə xalqın həyatını əks etdirən silsilə əsərlər yaratmışdır. Daha sonra yenidən saraya qayıtmışdır. Rəssam bir neçə əlyazma kitab nüsxələrinin miniatürləri üzərində işləsə də, əsasən portret janrına üstünlük vermişdir. Saraydakı ikinci yaradıcılıq mərhələsində onun əsərləri daha realist və bir qədər bədbin xarakter almışdır.

Onun yaradıcılığı həm müasirlərinin, həm də sonrakı rəssamların üzərində güclü təsir qoymuşdur. Uzun müddət Səfəvilər dövrü rəssamlığında Rza Abbasi üslubu təqlid edilmişdir. Rəssamın oğlu Məhəmməd Şəfi də onun sənətini davam etdirmişdir.

Bəzi kitablarda onu müasiri olan məşhur xəttat *Əlirza Abbasi* ilə eyni şəxs hesab etmiş və bu iki sənətkar haqqındakı məlumatları qarışdırmışlar.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 323-324; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 185-197; David Blow. Shah Abbas, The Ruthless King Who Became an Iranian Legend, pp.219-221.*

SADİQ BƏY ƏFŞAR (1533-1609/10) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli ədib, şair və rəssam, sənət nəzəriyyəçisi. Mənbələrdə onu *Əfşar* tayfasının, amma eyni zamanda *Xudabəndəlü* oymağının nümayəndəsi kimi təqdim edirlər. Lakin Sadiq bəy yazılarında özünü "Şamluyi-fəqir" adlandırmış və aid olduğu tayfanın Şam diyarından köçüb gəldiyini qeyd etmişdir. Xudabəndəlü (Xarbəndəlü, Xarmandalu) *Şamlu* tayfasının böyük oymaqlarından sayılır. Sadiq bəyin həm Əfşara, həm də Xudabəndəlüyə aid edilməsi onu göstərir ki, qızılbaş tayfaları bir-biri ilə çox qaynayıb-qarışmış, eyni oymaq fərqli tayfalara aid edilmişdir.

Sadiq bəy 1533-cü ildə Təbriz şəhərinin Vərciz məhəlləsində anadan olmuşdur. 20 yaşında ikən atası öldürülmüşdür. Rəssamlıqla məşğul olan Sadiq bəy paytaxt Qəzvinə gəlmiş, I Şah Təhmasibin zamanında saray kitabxanasında işə düzəlmişdir. Bir neçə əlyazma nüsxənin miniatürləri üzərində işləyərək özünü bacarıqlı rəssam kimi göstərən Sadiq bəy II Şah İsmayılın hakimiyyəti dövründə (1576-77) sarayda nüfuzunu daha da yüksəltməyə nail olmuşdur. Lakin son-

ralar Şah Məhəmməd Xudabəndənin sənətə və sənətkarlara laqeydliyi üzündən Sadiq bəy sifariş əsasında rəsmlər çəkməyə başlamış, bunları satmaqla dolanmışdır. Tarixi mənbələrdən məlumdur ki, Sadiq bəyin qələmindən çıxmış rəsm əsərləri hələ sağlığında yüksək qiymətləndirilir, hətta ölkə xaricində baha satılırdı. Onunla bağlı xatirələrin birində deyilir ki, rəssamın ən sadə şəkildə çəkdiyi rəsm cizgiləri Hindistanda üç tümən qiymətə malik idi. (Tümən o zaman üçün kifayət qədər yüksək məbləğ sayılırdı).

Sadiq bəy bir müddət psixoloji böhran yaşayaraq sənətdən ayrılmış, əyalətlərdəki qızılbaş əmirlərinin (Həmədan hakimi *Əmir xan Mosullu-Türkman*, Astarabad hakimləri Bədr xan Əfşar və qardaşı İsgəndər xan) yanında xidmət etmiş, hətta döyüşlərə qatılaraq böyük şücaət göstərmişdir. I Şah Abbas hakimiyyətə gəldikdən sonra şeir və sənətə qayğı göstərildiyini eşidən Sadiq bəy saraya qayıtmış, özünü nümunəvi və istedadlı sənət bilicisi kimi göstərərək saray kitabxanasının müdiri təyin edilmişdir. (Mənbələrdə onu "Kitabdar" ləqəbi ilə təqdim edirlər). O zamanlar saray kitabxanası həm kitab xəzinəsi, həm də rəssamlıq və xəttatlıq emalatxanası kimi fəaliyyət göstərirdi. Sarayda zərif sənətlərlə məşğul olanların hamısı kitabxana müdirinə tabe idi. Sadiq bəy Əfşar I Şah Abbasın sifarişi ilə hazırlanmış "Şahnamə" nüsxəsinin yaradılma prosesində iştirak etmiş, "Ənvari-Süheyli" nüsxəsinin 107 ədəd miniatürünün hamısını özü təkbaşına çəkmişdir.

Sadiq bəyin sənəti I şah Abbas tərəfindən yüksək qiymətləndirilirdi. Lakin sonralar görkəmli xəttat *Əlirza Abbasi* şahın daha artıq rəğbətini qazanmış və kitabxana müdirliyi ona həvalə edilmişdir. Sadiq bəyin təqaüdü öz yerində qalsa da, o, Əlirza Abbasi ilə rəqabəti davam etdirmişdir.

Sadiq bəy Əfşar çoxşaxəli yaradıcılığa malik olmuşdur. O, incə təbli şair ("Sadiqi" təxəllüsündən istifadə edirdi), istedadlı rəssam, mahir xəttat, gözəl sənət bilicisi, musiqi xiridarı, bəlağətli ədib, bacarıqlı idarəçi idi. Azərbaycan dilində və farsca şeirlər yazır, ədəbiyyat nəzəriyyəsini, özündən əvvəlki şairlərin əsərlərini mükəmməl bilirdi. Öz dövrünün böyük rəssamı, *Kəmaləddin Behzadın* bacısı nəvəsi *Müzəffər Əlidən* rəsm sənətinin sirlərini öyrənmişdi. M.Tərbiyət "Danişməndani-Azərbaycan" kitabında Sadiq bəy Əfşar haqqında kifayət qədər geniş bəhs açmış, onun hərtərəfli istedadını tərifləmişdir: "Mövlana Sadiqi fars və türk dillərində nəzm və nəsr yazmaqda, eləcə də *münşilikdə* məharətli olmuş və iki dildə də səlis və fəsahətli əsərlər yaratmışdır. Onun yaratdığı rəssamlıq əsərləri məşhurdur". Səfəvilər dövrünün müəllifləri *İsgəndər bəy Münşi Türkman*, Nəsrabadi və b. da əsərlərində Sadiq bəy Əfşar haqqında yüksək fikir bildirmişlər.

Sadiq bəyin çəkməyə başladığı rəsmlərdən birini (Teymur xan Türkmanın portreti) onun vəfatından sonra Müin Müsəvvir tamamlamışdır (1684). Hazırda bu əsər Sankt-Peterburqun Şərq Əlyazmaları İnstitutunda saxlanılır.

Sadiq bəy Əfşar tibb sahəsində də öz bacarığını sınamış, bəzi saray əyanlarının müalicəsi ilə məşğul olmuş, hətta tibb alətləri ixtira etmişdir.

Sadiq bəy Əfşar saray xidmətindən uzaqlaşdıqdan sonra xatirələrini və biliklərini qələmə almağa başlamışdır. Onun *"Məcmə əl-xəvas"* təzkirəsi Səfəvilər dövründə yaşamış 480 şair haqqında məlumatları özündə ehtiva edir. Sadiq bəyin yazılarından görünür ki, bu şairlərin xeyli hissəsini o, şəxsən tanıyırmış.

Sadiq bəy Əfşarın rəssamlıq sənətinin incəliklərinə həsr edilmiş "Qanun əs-süvər" əsəri nəzmlə yazılmışdır və incəsənət nəzəriyyəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Sadiq bəy I Şah Abbasın hərbi uğurlarını "Şahnamə" üslubunda "Fəthnameyi-Abbasi-namdar" adlı məsnəvidə nəzmə çəkmişdir. Bunlardan əlavə, onun külliyyatına daha bir neçə məsnəvi-poema, şeir divanı, rübai, müəmma və mənzum hekayələr toplusu, məktublar və divanxana materialları aiddir.

Sadiq bəy Əfşar 1609/10-cu illərdə təqribən 77 yaşında İsfahanda dünyasını dəyişmişdir.

Mənbələr: *Gülnihal Küpeli. Savaşçı Bir Sanatkârın Kaleminden Safevî Sarayındaki Müzehhib ve Nakkaşlara Dair Notlar (Akdeniz Sanat Dergisi, Cilt: 13, Sayı: 24), s.63-81; Sadiq bəy Əfşar. Məcməül-xəvas (hazırlayan: Əkrəm Bağırov), s.3-4; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas (müqəddimə: Əbdürrəsul Xəyyampur); Sadiq bəy Əfşar. Şeirlər (nəşrə hazırlayan: Paşa Kərimov), s.3-32; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.279-281; İsgəndər bəy Münşi. Tarix-i aləmarayi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.369-371; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 365-383; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.75-77.*

SAİB TƏBRİZİ (1601-1670/71 və ya 1676) – XVII əsrdə yaşamış görkəmli Azərbaycan şairi, Səfəvilər dövründə yaranmış hind ədəbi üslubunun *(səbki-hindi)* ən məşhur nümayəndələrindən biri. Adı Mirzə Məhəmməd Əlidir. Atası Mirzə Əbdürrəhim tacir idi, xəttatlıqla məşğul olan əmisi Şəmsəddin isə Şirinqələm ləqəbi ilə tanınırdı. İsfahan paytaxt edildikdən sonra I Şah Abbasın əmri ilə Təbrizdən bura köçürülüb Abbasabad adlı məhəllədə məskunlaşmış min ailənin arasında Saibin ailəsi də vardı. Saib İsfahanda böyüyərək ədəbiyyatın sirlərinə burada yiyələnmişdir. Gənc yaşlarında həcc ziyarətinə yola düşmüş, qayıtdıqdan sonra Hindistana səfər etmiş, bir neçə il bu ölkədə yaşamışdır. Böyük Moğol hökmdarı Şah Cahan (1628-58) onun istedadını yüksək qiymətləndirmiş, ona "Müstəidd" ("istedad" sözü ilə eyni kökdəndir) ləqəbini vermişdi. Hindistanda 6 il qaldıqdan sonra Saib Təbrizi atasının xahişi ilə vətəninə qayıtmış, burada istedadlı və yetkin bir şair kimi qarşılanmışdır. Saib Təbrizi II Şah Abbasın zamanında sarayda *məlik əş-şüəra* (şairlərin başçısı) mənsəbini qazanmış, hətta bəzi qeyri-mötəbər məlumatlara görə, onun vəziri olmuşdur. Şaib Təbrizi II Şah Abbasın Qəndəhar uğrunda Cahan şahla apardığı müharibəni və qazandığı qələbəni (1649) "Qəndəharnamə" adı ilə nəzmə çəkmişdir. Azərbaycan və fars

dillərində eyni bacarıqla şeir yazmış Saib Təbrizinin, təəssüf ki, ana dilindəki əsərlərindən cəmi 17 qəzəl qalmışdır. Onun qəzəlləri təkcə vətənində deyil, Hindistanda və Osmanlı dövlətində də məşhur idi.

Saib Təbrizi məhsuldar şair olmuşdur. Ədəbi irsinin 100 min, hətta 200 min beyt həcmində olduğunu yazırlar; bunun bir qismi hazırda ədəbiyyat aləminə məlumdur. Tədqiqatçı M.Tərbiyət Saib Təbrizinin 120 min beytlik *divanını* gördüyünü, Hindistanda 40 min beytlik divanın çap olunduğunu yazmışdır. Şair bir neçə divan tərtib etmiş, hər birinə fərqli adlar vermişdir. Saib "Mahmud və Ayaz" adlı poema yazmış, özündən əvvəlki və müasiri olduğu 800-dən artıq şairin seçilmiş əsərlərindən ibarət "Bəyaz" ("Səfineyi-Saib") adlı müntəxəbat tərtib etmişdir. O öz yaradıcılığı ilə ədəbiyyatda yeni bir səhifə açmağa nail olmuş, sonrakı şairləri təsiri altına almışdır. O həm də mahir tədqiqatçı idi, "Məsnəvi" və "Xəmsə" nüsxələrini təshih (korrektə) etmişdi.

Şah Süleyman hakimiyyətə gəldikdən sonra ondan etinasızlıq görən Saib Təbrizi saraydan uzaqlaşmış, 1670/71-ci illərdə və ya 1676-cı ildə İsfahanda dünyasını dəyişmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 340-343; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.601-614; Y.Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.649-663; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.281-289; М.Л.Рейснер, А.Н.Ардашникова. Персидская литература IX-XVIII веков, II, 222-240; М.Казимов. Персоязычная поэзия XVI-XVII веков, стр.257-289.*

SEYİD (seyyid) – ərəb dilindən tərcüməsi "ağa" deməkdir. Ümumiyyətlə, ərəb dilində bu söz ehtiram əlaməti olaraq işlədilir. Məsələn, fars dilində "ağa", türk dilində "əfəndi" kəlməsi hansı mənaya malikdirsə, ərəb dilində də "seyid" kəlməsi həmin mənanı verir.

Dini terminologiyada Həzrət Mühəmməd Peyğəmbərin (s) ulu babası Haşimin nəslindən olanları seyid adlandırırlar. Bura Haşimin nəslindən ata xətti ilə gələn hər kəs aiddir. Amma xalq təsəvvüründə yalnız Həzrət Mühəmməd Peyğəmbərin (s) nəslindən olanlar seyid sayılır. O həzrətin nəsli yalnız qızı Fatimənin (ə) İmam Əli (ə) ilə izdivacından doğulmuş Həsən (ə), Hüseyn (ə) və Zeynəb vasitəsilə davam etmişdir. Bu gün dünyanın müxtəlif ölkələrində on milyonlarla seyid yaşayır. Təbatəbai, Musəvi kimi böyük nəsillər də bura aiddir.

Keçmiş dövrlərdə Ərəbistandan xeyli seyid Azərbaycana gəlmiş və ya qəbilə şəklində köçürülmüş, burada məskunlaşmışdır. Azərbaycan ərazisində yerləşən bəzi yaşayış məntəqələrinin adındakı "seyid" kəlməsi də buradan yaranıb. Məsələn: Seyidli kəndi (Ağdam rayonu), Seyidlər kəndi (Samux, Laçın, Zəngilan və Kəlbəcər rayonları), Seyidbazar kəndi (Cəlilabad rayonu), Seyidyurd dağı (Şəki rayonu) və s. Bir çox yaşayış məntəqələrində seyidlər ayrıca məhəllələrdə kompakt şəkildə məskunlaşmışlar.

İslam dinində seyidlərə ehtiram göstərmək çox təkid olunmuşdur. Seyidlərlə ailə qurmağın fəziləti haqqında Peyğəmbərdən hədislər mövcuddur. Məclislərdə seyidi yuxarı başda əyləşdirmək, onun

qulluğunda durmaq ənənəyə çevrilmişdir. Tarix boyunca cəmiyyətdə nüfuzlu seyidlərin sözü insanlar üçün qanun, onların evi ocaq və sığınacaq sayılıb. Cəfəri məzhəbinə görə, xümsün yarısı da ehtiyaclı seyidlərə verilməlidir.

Seyidlər İslam tarixinin, demək olar ki, bütün dövrlərində hörmət sahibi olmuş, hökmdarlar və sadə xalq tərəfindən sevilmişlər. Əksər dövlətlərdə seyidlərlə bağlı xüsusi dövlət qurumu – nəqabət divanı mövcud olmuşdur. Nəqabət divanına ölkənin ən nüfuzlu seyidləri (nəqiblər) başçılıq edirdilər. Seyidlərin şəcərəsini aydınlaşdırmaq, onların hüquqlarını qorumaq, xüms pulunu seyidlərin arasında paylamaq, günahkar seyidləri tənbeh etmək, imamzadə *vəqflərini* idarə etmək nəqiblərin vəzifəsi sayılırdı. Hökmdarlar nəcabətli seyidlərə hər il iri məbləğdə pul və ya hədiyyə göndərir, onların görüşünə gedirdilər. Bu ənənə Səfəvilər dövründə də mövcud olmuşdur. Səfəvi sülaləsinin şəcərəsi *İmam Musa Kazimə (ə)* bağlandığı üçün şahlar da seyid sayılırdı. Səfəvilər dövlətində nəqib müəssisələri çox inkişaf etmişdi.

Seyidlik mövzusu Səfəvilər dövründə dini müstəvidə də təhlil edilirdi. Bu dövrdə yaşamış böyük din alimləri *Müqəddəs Ərdəbilinin* "Məcmə əl-faidə", *Mühəqqiq Kərəkinin* "Came əl-məqasid", *Mühəqqiq Səbzəvarinin* "Kifayət əl-əhkam" risalələrində seyidlərlə bağlı fiqhi hökmlər öz əksini tapmışdır. Səfəvilər zamanında seyidlik mövzusu ilə bağlı əhatəli araşdırmalar aparılmış, müstəqil kitablar qələmə alınmışdır. *Mir Damadın* qız nəvəsi *Seyid Məhəmməd Əşrəf İsfahaninin* "Fəzail əs-sadat", Mühəqqiq Kərəkinin nəslindən olan Seyid Hüseyn Kərəkinin "Əl-İşraf əla siyadət əl-əşraf" risalələri bu qəbildəndir. Səfəvi dövrünün bəzi alimləri əsərlərində Həzrət Fatimənin (ə) nəslindən olanların digər seyidlərdən üstünlüyünü, seyidliyin yalnız ata xətti ilə deyil, ana vasitəsilə ötürüldüyünü də əsaslandırmağa çalışmışlar.

Səfəvilər dövründə seyidlərin şəcərəsi və əsil-nəsəbi (ənsab) sahəsində də dəyərli araşdırmalar həyata keçirilmişdir. Əhməd Kiya Gilaninin "Sirac əl-ənsab", Seyid Siracəddin Muxtari Səbzəvarinin "Əl-Əsədiyyə" risalələri bunların bariz nümunəsidir.

Seyidlərə ehtiram Səfəvilər dövründə qələmə alınmış digər kitablarda da əksini tapmışdır. *İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"* kitabında, *Valeh İsfahani "Xüldi-bərin"* əsərində o dövrün görkəmli şəxsiyyətləri, dövlət xadimləri, sənət adamları barədə məlumat verərkən seyidlərə ayrıca fəsildə yer ayırmışlar.

Mənbələr: *S.H.Ağacəri, H.Allahyari. Səfəvilər dövründə seyid məfhumunun təkamülü və müxtəlifliyi ("Mütaliati-tarixi-İslam", 1390 h.-ş., №9), s.7-25; H.Allahyari, P.Ə.Qoşqayi. Səfəvilər dövrünün tarix yazılarında seyidliyin yeri və seyidlərin rolu ("Tarixi-İslam" elmi-araşdırma dərgisi, 1399 h.-ş., №40), s.119-140; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 228-229; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXVII, 40-43.*

SEYİD MƏHƏMMƏD KƏMUNƏ (vəf. 1514) – Seyid Məhəmməd ibn Hü-

seyn ibn Nasirəddin ibn Əli Hüseyni Kəmunə Səfəvilər zamanında yaşamış ərəb mənşəli ruhani şiə lideridir. Bəni-Kəmunə İraqın məşhur seyid nəsillərindən idi, şəcərələri dördüncü İmam Həzrət Zeynülabidinə (ə) dayaqlanır. Bəni-Kəmunə seyidləri uzun əsrlər boyunca Nəcəf seyidlərinin başçısı (nəqibi) vəzifəsini icra etmiş, İmam Əli (ə) hərəminin kiliddarı olmuşlar.

I Şah İsmayılın İraq səfəri ərəfəsində Seyid Məhəmməd Kəmunə Nəcəfdə şiələrin liderlərindən sayılırdı. Nəcəf şiələrinin Səfəvilərə dəstək verəcəyindən narahat olan İraq valisi *Barik bəy Pörnak* Seyid Məhəmməd Kəmunəni quyuya saldırdı. Şəhər Səfəvilər tərəfindən fəth edildikdən sonra (1508-ci il) Kəmunə azad edildi. Salnamələrdən məlumdur ki, I Şah İsmayıl Nəcəfdə Həzrət Əlinin (ə) məqbərəsini ziyarət edərkən Seyid Məhəmməd Kəmunə onu müşayiət etmişdir. Şah ona xüsusi ehtiram göstərirdi. İraqdakı müqəddəs ziyarətgahların idarəçiliyi ona həvalə edilmişdi. Ondan sonra Bəni-Kəmunə nəslinin nümayəndələri bu vəzifəni icra etmişlər. Seyid Məhəmməd Kəmunə *Çaldıran döyüşündə* həlak olmuşdur.

Mənbələr: *Qazı Nurullah Şüştəri. Məcalis əl-möminin, I, 143-145; Təbrizi. Reyhanət əl-ədəb, VIII, 421-422; Zirikli. Əl-Əlam, VI, 102; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.360.*

SƏBKİ-HİNDİ (hind ədəbi üslubu) – XVII-XVIII əsrlərdə əsasən Səfəvilər dövlətində yaşamış şairlər tərəfindən yaradılmış və inkişaf etdirilmiş farsdilli ədəbi üslub. Bundan əvvəl fars ədəbiyyatında Xorasan üslubu (Rudəki, Firdovsi, Ünsüri, Sənai və b.), İraq üslubu (Əttar Nişapuri, Mövlana Rumi, Sədi Şirazi, Hafiz Şirazi, Əbdürrəhman Cami və b.), Azərbaycan üslubu (Xaqani Şirvani, Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani və b.) dəbdə olmuşdur. XVI əsrin sonlarından etibarən hind üslubu özündən əvvəlki ədəbi üslublardan fərqli formada meydana çıxmışdır. Bu ədəbi cərəyanı mənbələrdə hind üslubu ilə yanaşı İsfahan və hətta Səfəvi üslubu da adlandırırlar.

Səbki-hindini özündən əvvəl ədəbiyyatda hakim olmuş səbki-iraqidən fərqləndirən əsas cəhətlər onun meydana gəldiyi tarixi şəraitlə bağlıdır. Səfəvilər dövründə ədəbiyyat daha çox dini-əxlaqi xarakter almış, dünyəvi mövzulara, lirika və təhkiyə janrlarına maraq azalmışdı. Təsadüfi deyil ki, Səfəvilər dövrü ədəbiyyat tarixində mərsiyə və qəsidə şairi kimi tanınmayan və hind üslubuna mənsub olmayan şairlərə az rast gəlirik. Belə bir şəraitdə şairlər istedadlarını inkişaf etdirmək üçün iki yol qarşısında qaldılar. Onlar ya azad ədəbiyyata daha çox dəyər verilən ölkəyə köçməli, ya da ölkədə qalaraq sadə xalqın başa düşdüyü dildə və mövzularda şeir yazmalı idilər. Çiçəklənməkdə olan *Böyük Moğol imperiyasının* ədəbiyyat və sənət adamlarına qucaq açması Səfəvi dövrü şairlərinin böyük qismini Hindistana səfər etməyə həvəsləndirdi. Onlar Hindistana yeni üslubla, yeni ifadə vasi-

tələri ilə, yeni yaradıcılıq axtarışları ilə gəldilər. Səbki-hindi özündən əvvəlki ənənəni kənara qoyaraq orijinal ədəbi təsvir vasitələri, metaforik obrazlar meydana gətirdi. Bunlar oxucu üçün daha anlaşıqlı və əlçatan idi. Səbki-hindi nümunələrində yüksək emosionallıq, dərin hissiyyat, kədər motivləri güclüdür. Səbki-hindinin xarakterik cəhətləri əsasən bunlardan ibarət idi: şairin xəyal gücünün daha bariz şəkildə ortaya çıxması, sadə xalq həyatından alınmış ifadə və anlayışların ədəbiyyata gətirilməsi, gündəlik həyat motivlərinin işıqlandırılması, təzadların şişirdilməsi, atalar sözü və zərbi-məsəllərə tez-tez müraciət edilməsi, kiçik həcmlə (bəzən tək beytdə) yaddaqalan dərin mənaların ifadəsi, məsnəviyə deyil, qəzələ daha çox müraciət edilməsi, formaya deyil, məzmuna daha artıq diqqət yetirilməsi, digər mədəniyyətlərlə (məsələn, hind fəlsəfəsi ilə) qaynayıb-qarışma və s.

Səbki-hindinin ən görkəmli nümayəndələri *Saib Təbrizi*, Ürfi Şirazi, Kəlim Kaşani, *Təsir Təbrizi*, *Məsihi*, Həzin Lahici, Bidil Dehləvi və b. olmuşlar. Göründüyü kimi, bu üslubun yaranmasında və formalaşmasında azərbaycanlı şairlərin böyük rolu vardır. Xüsusilə Saib Təbrizi səbki-hindinin ən məşhur və qüdrətli nümayəndələrindən sayılır.

Mənbələr: *Nüzhət Əhmədi. Səfəvilər dövründə İsfahan (hind) üslubu (“Fərhəngi-İsfahan” dərgisi, 1383 h.-ş., №27-28), s.132-137; Hüseyn Xosrovi. Hind üslubunun xüsusiyyətlərinə yeni baxış (“Ədəbi tənqid və stilistika araşdırmaları” dərgisi, 1397 h.-ş., 1/31), s.75-106; Həsən Ənuşə. Fərhəngnameyi-ədəbiyyi-farsi, II, 795-796; М.Л. Реüснер, А.Н.Ардашникова. Персидская литература IX-XVIII веков, II, 169-175; М.Язимов. Персоязычная поэзия XVI-XVII веков, стр.15-40.*

SƏBKİ-İSFAHANİ (İsfahan ədəbi üslubu) – XVII-XVIII əsrlərdə meydana çıxmış və farsdilli ədəbiyyatda üstünlük qazanmış ədəbi üslub. Paytaxtı İsfahan olan Səfəvilər dövlətində yarandığı, əsas nümayəndələri İsfahan mənşəli şairlərdən ibarət olduğu üçün bu adla da tanınır. Daha geniş yayılmış adı *səbki-hindidir* (hind ədəbi üslubu).

bax: **SƏBKİ-HİNDİ.**

SƏBKİ-SƏFƏVİ (Səfəvi ədəbi üslubu) – XVII əsrlərdə meydana gəlmiş, XVII-XVIII əsrlərdə inkişaf edərək yayılmış və farsdilli ədəbiyyatda hakim olmuş ədəbi üslub. Əsasən Səfəvilər dövlətinin yetirməsi olan şairlər tərəfindən yaradılıb inkişaf etdirildiyi üçün bəzən Səfəvi üslubu da adlandırılır. Ədəbi üslubları məkan və ya xalq adı ilə adlandırmaq ənənəsi bundan əvvəl mövcud olsa da (İraq üslubu, Xorasan üslubu, Arran (Azərbaycan) üslubu), dövlət adı ilə adlandırılmasına yalnız bu halda rast gəlinir. Mənbələrdə *səbki-İsfahani* və daha çox *səbki-hindi* kimi xatırlanır.

bax: **SƏBKİ-HİNDİ.**

SƏDRƏDDİN ŞİRAZİ – *bax:* **MOLLA SƏDRA.**

SƏFƏVİLƏR DÖVRÜNÜN OYUN VƏ ƏYLƏNCƏLƏRİ – Səfəvilər dövründə fiziki hazırlığın yüksəldilməsi, döyuş qabiliyyətinin yaxşılaşdırılması

məqsədilə oyun və yarışmalar keçirmə ənənəsi geniş vüsət almışdı. Bu oyun növlərinin əksəriyyəti milli xarakterə malik idi və dərin tarixi köklərə, milli ənənələrə əsaslanırdı.

Səfəvilər dövrünün ən mühüm idman növlərindən biri güləş idi. Güləş cəmiyyətin bütün təbəqələri arasında geniş yayılmışdı. Bu idman növü ilə sufi və *əxilər* də məşğul olurdu. XV əsrdə yaşamış Mövlana Hüseyn Vaiz Kaşifi Səbzəvariyə aid edilən və əxi dərnəklərinin nizamnaməsi sayılan "Fütüvvətnameyi-sultani" kitabında güləş peyğəmbərlərin və imamların məşğul olduqları idman növü kimi təqdim edilir. Səfəvilər dövlətində bütün iri şəhərlərdə zorxana adlı idman mərkəzləri fəaliyyət göstərirdi. Zorxanalarda mütəmadi olaraq idman tədbirləri, xüsusilə güləş yarışları keçirilirdi. Yüksək vəzifəli əyanların sarayında da zorxanalar vardı.

Bəzi idman yarışları İsfahanın əsas meydanlarından olan *Nəqşicahan (Şah) meydanında* təşkil edilirdi. Bu meydanın iri ölçüləri hər növ idman yarışlarının keçirilməsinə imkan verirdi. Meydanın kənarında yerləşən *Ali qapu* sarayının hündür eyvanında oturan şah və saray əyanları da oyunu izləyirdilər. Kütləvi oyun tədbirlərinin keçirilmə mövsümü adətən *Novruz bayramı* günlərinə təsadüf edirdi. Adi günlərdə Nəqşicahan meydanında ticarət piştaxtaları qurulur və yarmarkalar təşkil olunurdu. Novruz bayramından 20 gün əvvəl bütün piştaxtalar yığışdırılır, meydan şumlanır və idman tədbirləri üçün hazırlanırdı.

XVII əsrdə Səfəvilər dövlətində olmuş fransız səyyahı Jan Şarden İsfahanın Nəqşicahan meydanında keçirilən oyun və əyləncə tədbirləri barədə kifayət qədər geniş məlumat vermişdir. Onun yazılarında camaat üçün nümayiş etdirilən ov səhnələri təsvir edilir. Meydana çıxarılan vəhşi heyvanlar (aslan və s.) vəhşi öküzlərin üzərinə yönəldilirdi, bütün ov prosesi xüsusi təlimçilərin nəzarəti altında baş verirdi. Şarden qeyd edir ki, meydana çıxarılan erkək aslan şahı təmsil edirmiş. Bu cür teatral xarakterli ov və döyüş səhnələri yalnız aslanlar və öküzlər arasında deyil, fillər arasında da keçirilirdi.

Ov nümayişindən sonra meydana çövkən oyunçuları çıxırdı. Süvari oyunçular iki bərabər dəstəyə (komandaya) bölünür, hər birinə ucu bir qədər əyilmiş çövkən ağacı təqdim olunurdu. Hər komandanın oyunçusu "guy" adlanan topu qarşı tərəfdəki iki sütunun arasından keçirməyə çalışır, bu zaman o biri komanda ona mane olurdu. Topa zərbəni at hərəkətdə olan zaman vurmaq lazım idi, hərəkətsiz vəziyyətdə topu vurmaq nöqsan sayılırdı. Komanda üzvlərinin sayı 4 və ya 6 nəfər olur, bunların biri qapıda dururdu. Nəqşicahan meydanının hər iki tərəfində çövkən qapılarını göstərən daş sütunlar indiyədək qalır.

Meydan oyunlarından biri də nizəatma yarışı idi. Bu oyun da komandalar şəklində təşkil edilir, komanda üzvləri qoşauclu kiçik nizələri uzağa atmaqda yarışırdılar. XVII əsr fransız səyyahı J.B.Tavernye Səfəvi süvarilərinin at qoşanala çapdığı halda yəhərin üzərindən əyilib yerdən nizəni necə məharətlə gö-

türmələrini təsvir edərkən heyranlığını gizlətmirdi. Qərb səyyahları yəhər üzərində ayaq üstə durmuş halda at çapan və meydanda üç dəfə dövrə vuran süvarilərdən də heyranlıqla söz açırdılar.

Geniş yayılmış yarışlardan biri də qılıncdöyüşdürmə nümayişi idi. İştirakçılara bəzən döyüş, bəzən də yarış qılıncları verilirdi. Döyüşçülərin qol gücünü artırmaq üçün onların biləklərinə yük bağlayırdılar. Fiziki yükü artırmaq və yaralanmanın qarşısını almaq üçün onların çiyinlərinə at nalı formasında dəmirlər bərkidilirdi.

Səfəvilər dövrünün ən məşhur oyunlarından biri qabaq oyunu idi. Bu oyun adətən döyüşçülər və ya saray əyanları arasında keçirilir, bəzən sıravi insanların iştirakı ilə də təşkil edilirdi. Oyunun əsas məqsədi döyüşçüdə dəqiq ox atmaq bacarığını inkişaf etdirmək idi. Kütləvi xarakter daşıyan bu oyun cəmiyyət üzvlərini bır cərgədə birləşdirmək və onlar arasında mehribanlıq yaratmaq baxımından da mühüm əhəmiyyət kəsb edirdi.

Qabaq oyununun qaydaları sadə idi: meydanın ortasındakı hündür dirəyin üzərinə qabaq, yemiş və s. meyvə qoyulurdu. İştirakçıların statusundan asılı olaraq hədəf dəyişə bilərdi. Bəzən qabaq əvəzinə şüşə və ya qızıl qabdan da istifadə edilirdi. Şahın qatıldığı qabaq oyunlarında qızıldan ya gümüşdən düzəldilmiş alma fiquru, qızıl sikkələrlə dolu torba hədəf seçilirdi. Hədəflər dəyişsə də, oyun öz adını qoruyub saxlamışdı. İştirakçılar bir-bir at üzərində çaparaq gəlir və uzaqdan hədəfə ox atırdılar. Hədəfi keçdikdən sonra yəhərin üstündə geri çevrilib ox atmaq və hədəfi vurmaq daha böyük məharət sayılırdı. Qiymətli hədəfi vura bilən adama həmin hədəf hədiyyə edilirdi, pul kisəsi vurulanda içindəki sikkələri xidmətçilərə paylayırdılar. Səfəvi şahlarının özləri də bu yarışda iştirak etməyi xoşlayırdılar, I Şah İsmayıl və I Şah Səfinin qabaq oyununda məharət göstərdiyi salnamələrdə qeyd edilmişdir. I Şah İsmayıl 1508-ci ildə Təbrizdə təşkil edilmiş qabaq oyununda 10 qızıl almadan 6-sını vurmuşdu. I Şah Səfi isə 5 atışdan 3-ündə hədəfə dəyməyi bacarmışdı.

Səfəvi şahları qabaq oyununda qalib gələnlərə bahalı hədiyyə və xələt verirdilər. I Şah Səfinin zamanında qabaq oyununun qalibi olan Saru Saltuq oğlu Səfiqulu bəy Bəgdilüyə mükafat olaraq *söhbət yasavulu* vəzifəsi verilmişdi. Şah adətən qabaq oyununda qalib gəlmiş şəxsin evinə təbrik üçün gedir, orada şam yeməyi yeyir, hətta qonaqlığın xərcliyi kimi ev sahibinə əvvəlcədən pul da göndərirdi.

Qabaq oyunu bəzən günlərlə davam edir, iştirakçılar üçün yemək süfrələri təşkil edilir, musiqi məclisləri qurulurdu. Qəzvin, Şiraz, İsfahan şəhərlərində qabaq oyunundan ötrü iri meydanlar qurulmuşdu. I Şah Abbas İsfahandakı Səadətabad, Sahibabad və Nəqşicahan meydanlarında keçirilən qabaq oyunlarına tamaşa edirdi.

Bəzən bu oyun zamanı bədbəxt hadisə də baş verirdi. *Əbdi bəy Şirazi "Təkmilət əl-əxbar"* kitabında yazır ki, 1533-cü ildə *Zülqədər* tayfasının *Qavurğalı*

oymağından Mahmud bəy *möhürdar* qabaq oyunu zamanı atdan yıxılıb ölmüşdü. (*Həsən bəy Rumlu "Əhsən ət-təvarix"* əsərində bu hadisənin çövkən oyunu zamanı baş verdiyini yazır və bunu Səfəvilər dövrünün böyük alimi, ilk *şeyxülislam Mühəqqiq Kərəkinin* kəraməti kimi qeyd edir. Mahmud bəy alimin ən qatı düşmənlərindən idi. Sahibabad meydanında yarış keçirilərkən Mühəqqiq Kərəki meydanda at çapan möhürdarın şərini aradan qaldırmaq üçün "seyfi" duasını oxudu. Bu zaman Mahmud bəyin atı büdrədi, o da yerə yıxılıb at tapdağı altında qaldı).

Oyunlardan biri də iştirakçıların at çapmaq bacarığını və qol gücünü artırmağa yönəlmişdi. Bir qoçu buynuzlarınadək torpağa basdırır, sonra iştirakçıların hər biri meydanın o biri başından atını çaparaq gəlirdi. O, qoça çatanda yəhərin üstündən əyilməli, qoçun buynuzlarından tutub torpaqdan çıxarmalı və meydanın o biri başınadək aparmalı idi. I Şah İsmayıl şəxsən bu yarışmaya qatılır və xüsusi məharət nümayiş etdirirdi. O, qoçu torpaqdan çıxarandan sonra başı üzərinə qaldıraraq üç dəfə hərləyir və qabağa tullayırdı. Qoçu o qədər uzaq məsafəyə atırdı ki, o, yerə düşənədək at həmin yerə çata bilmirdi. Bu hünərinə görə I Şah İsmayıla "Qoçqapan" ləqəbini vermişdilər.

Şah Süleyman Səfəvinin idman yarışlarına xüsusi maraq göstərdiyi mənbələrdə qeyd edilmişdir. Sağlam bədən quruluşuna malik şah şəxsən qabaq, çövkən, güləş yarışlarına qatılır, gözəl nəticələr göstərirdi.

İdman növlərindən bəziləri müəyyən dövlət qulluğuna qəbul edilənlərdən ötrü nəzərdə tutulmuşdu. Şatır adlanan qasid və çaparlar uzunmüddətli təlim keçirdilər. Onlar qaçış, cəld yerimə, yükdaşıma təmrinlərini yerinə yetirir, çətin şəraitdə öz vəzifəsini icra edə bilmək və böhran hallarında sağ qalmaq bacarığını öyrənirdilər. Şatırlar yeddi yaşından etibarən çətin isti və soyuq hava şəraitinə, özünümüdafiəyə, əl altında olan vasitələrdən həyati əhəmiyyət daşıyan məqsədlər üçün istifadə etmə qabiliyyətinə yiyələnirdilər. Daim daşımalı olduqları un payı, sac və su tuluğu ilə cəld hərəkət etmək xüsusi bacarıq tələb edirdi. Bu imtahanlardan keçmiş namizədlər üçün son sınaq mərasimi təntənəli şəkildə, şahın iştirakı ilə təşkil edilirdi. Qurşağa kimi soyunmuş, kəmərinə üç zınqırov bərkidilmiş şatır Şah meydanından İsfahan kənarındakı Səfə təpələrinədək məsafəni 12 dəfə o baş-bu başa qət etməli idi. Nəzarətçilər yol boyunca onu gözdən qoymurdular. Səfə təpəsinə hər dəfə çatanda şatıra bir ox verilirdi, o da oxu Şah meydanına gətirirdi. Günün sonunda toplanmış oxlar sayılır və şatırın nə qədər məsafə qət etdiyi, bu vəzifəyə layiq olub-olmadığı şahın hüzurunda aydınlaşdırılırdı. Son imtahandan keçmiş şatırlara qiymətli hədiyyələr təqdim edilirdi.

Şahın hüzurunda mütəmadi olaraq ordu təlimləri keçirilirdi. 1654-cü ildə Qəzvində II Şah Abbasın qarşısında təşkil edilmiş ordu təlimində döyüşçülər hissə-hissə atçapma və oxatma məharətlərini nümayiş etdirmişdilər. 10 gündən

artıq davam etmiş təlimin sonunda ən yaxşı nəticə göstərmiş döyüşçülərin məvacibi artırıldı. Tavernye bu təlimə qatılmış bir qızılbaş süvarinin məharətindən xüsusi heyranlıqla bəhs etmişdir. Həmin döyüşçü ox qabından iki ox çıxarıb birini dişində tutmuş, nişangahdan xeyli uzaqlaşdıqdan sonra yəhərin üstündə geri dönüb birinci oxu düz hədəfə vurmuşdu. Xidmətçilər oxu nişangahdan çıxaranadək o, meydanın qarşı tərəfinə at çapıb ikinci oxu oradan atmışdı. Nişangahı yoxlayan zaman görmüşdülər ki, ikinci ox da düz birinci oxun keçdiyi dəliyə sancılıb.

Səfəvilər dövrünün əyləncələrindən söz açarkən ilk növbədə ov tədbirlərini xatırlatmaq yerinə düşər. Ov şahların və saray əyanlarının ən əsas əyləncəsi idi. Böyük təntənə və yüzlərlə adamın iştirakı ilə keçirilən ovlar günlərlə davam edirdi. Səfəvi sarayında ov tədbirlərini təşkil edən *mirşikarlar* (ovçular) və onların rəhbəri olan *mirşikarbaşı* (ovçubaşı) xidmət edirdi. Ov zamanı ov itlərindən, şahinlərdən istifadə olunurdu. I Şah İsmayıl mahir ovçu kimi tanınmışdı, tez-tez iri ov mərasimləri təşkil edirdi. Hətta ölümünə az qalmış Şirvanda ovda olmuş, burada xəstələnərək bir neçə gündən sonra dünyasını dəyişmişdi. I Şah İsmayıl bəzən təkbaşına iri vəhşi heyvanların ovuna çıxırdı. O, dəfələrlə bəzi bölgələrdə camaatı qorxudan aslan, pələng və ayıları təkbaşına öldürmüşdü.

Əksər tarixi mənbələrdən məlum olur ki, I Şah İsmayıl və I Şah Təhmasib əyləncəyə o qədər də meyilli olmamış, ruhani məsləhətçilərin təsiri altında qərar tutaraq musiqi və əyləncə mövzusunda ənənəvi dini yanaşmaya riayət etməyə çalışmışlar. Teymuri hökmdarı *Sultan Hüseyn Bayqara* Səfəvilər dövlətinə musiqiçilərdən və rəqqasələrdən ibarət böyük bir qrup göndərdiyi zaman I Şah İsmayıl onların çıxışını dinləmədən geri qaytarılmalarını əmr etmiş və öz növbəsində döyüşlərdən qabaq qızılbaş qoşununun qarşısında çıxış edən aşıq-ozanlardan bir neçəsini Herata göndərmişdi. Bununla o, özünəməxsus əzəmət və vüqarı qorumuş, əyləncə deyil, fütuhat və döyüş əhvali-ruhiyyəsində olduğunu bildirmişdi. I Şah Təhmasib də hakimiyyətinin əvvəllərində bir neçə il incəsənətə meyil duyduqdan sonra tövbə etmiş və sarayda əyləncə məşğuliyyətlərinə qadağan qoymuşdu. *İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"* kitabında I Şah Təhmasib zamanında saraydaxili reqlamentə uyğun olaraq nağaraxanada xidmət edən təbilçi və zurnaçılardan savayı bütün musiqi xadimlərinin saraydan uzaqlaşdırıldığını (şahzadələr onlara meyil göstərməsin, saray əyanlarının xasiyyəti pozulmasın və orduda günah çoxalmasın deyə) yazır. Bununla belə, bölgələrdəki bəzi valilər (məsələn, Gilan hakimi Xan Əhməd Gilani, Məşhəd valisi *İbrahim Mirzə*) musiqiçiləri və digər sənət adamlarını himayə edirdilər. II Şah İsmayılın zamanında musiqiçilər yenidən saraya qayıtdılar. İsgəndər bəy Münşi daha sonra həmin musiqiçilərin bir neçəsinin adını çəkərək onların barəsində bir qədər ətraflı məlumat verir. Onun yazdıqlarından məlum olur ki, II Şah İsmayıl za-

manında saray musiqiçilərinin başçısı *(çalğıçıbaşı)* vəzifəsində Hafiz Cəlacil Baxərzi adlı xanəndə xidmət edirdi; o, I Şah Abbasın zamanında da öz mövqeyini qoruyub saxlamışdı. Xanəndələrdən Müzəffər Qumi, Haşim Qəzvini, Şəms Şirazi, Mövlana Mütrübi Qəzvini, sazəndələrdən Mirzə Məhəmməd Kamança, Məsum Kamança, Məlik Qasim Kamança, Heydərqulu Udi, Məhəmməd Rza Udi, Məhəmməd Mömin (ud), Sultan Mahmud Tənburə, Mirzə Hüseyn Tənburə, Mir Fəzlullah Tənburnəvaz, Şahsuvar (tənbur), Ustad Sultan Məhəmməd Çəngi (çəng), Şəmsi Şütürğuhi və b. Səfəvilər sarayında böyük şöhrət qazanmışdılar. Şah Murad Xansari, Mövlana Səburi Şirazi, Ustad Məhəmməd Nayi Təbrizi, Ağa Mömin Müsənnif və başqalarının bəstələdikləri təsniflər I Şah Abbasın hüzurunda ifa edilirdi. Şahın *lələsi Əliqulu xan Şamlunun* Heratdakı sarayında xidmət edən Durə bəy Kərami bəstəkar, ifaçı və şair olmaqla yanaşı musiqi nəzəriyyəsi barədə qısa bir risalə qələmə almışdı. Səfəvilər dövründə musiqi mövzusunda "Ənis əl-ərvah" (İbrahim Kaşifəddin Məhəmməd Yəzdi) və "Behcət ər-ruh" (Əbdülmömin ibn Səfiəddin) adlı risalələr də yazılmışdır.

I Şah Abbas zamanında xarici qonaqların şərəfinə təşkil edilən qarşılama mərasimlərində və ziyafətlərdə, şahın bölgələrə səfəri zamanı qurulan məclislərdə, eləcə də böyük qələbələrin şərəfinə keçirilən şənliklərdə musiqiçilər fəal şəkildə iştirak edirdilər. Bu cür məclislərin təsvirinə həmin dövrə aid miniatür nümunələrində, eləcə də İsfahandakı *Çehelsütun sarayının* divar rəsmlərində rast gəlmək mümkündür.

Səfəvilər dövrünün klassik musiqisi 12 məqam, 6 avaz və 24 şöbə üzərində qurulmuşdu. Vokal musiqisi ifaçıları bir neçə təbəqəyə bölünürdü. Muğam ifaçılarını xanəndə, təsnif oxuyanları guyəndə adlandırırdılar. Xanəndəlik sənəti Xorasanda, guyəndəlik sənəti İraqda (Səfəvilər dövlətinin mərkəzi bölgələri) daha çox inkişaf etmişdi, bəzi sənətkarlar hər iki məktəbin ənənələrini birləşdirməyə nail olmuşdular. Nəqqal (nəql edən) adlanan sənətkarlar "Şahnamə" və digər dastanları avazla oxuyurdular; onlara Şahnaməxan da deyilirdi.

Səfəvilər dövründə musiqi məclislərində istifadə edilən əsas çalğı alətləri bunlardan ibarət idi: saz, ud, rübab, kamança, tənbur, çəng, çağanə, ney, zurna, ərğənun, şütürğu, balaban, dairə (dəf), dümbək, nağara və s.

Sarayda xidmət edən təlxəklər Səfəvi şahlarının əyləncə və zarafata olan tələbatlarını ödəyirdilər. I Şah Abbasın bir neçə təlxəyi vardı: Keçəl İnayət, Səg Ləvənd, Keçəl Mustafa Dəlalə qızı və b. Bunlar şahın qəzəbli və pərişan olduğu hallarda öz zarafatları ilə onu güldürüb qəm-qüssəsini dağıdırdılar. Təlxəklər heç kəsin cəsarət etmədiyi mövzularda öz sözlərini deyə bilir, bəzən şahın qəzəbinə düçar olmuş şəxsləri cəzadan xilas edirdilər. I Şah Abbasın təlxəkləri ilə bağlı lətifələr bəzi tarixi mənbələrdə əksini tapmışdır.

Mənbələr: *Nüsrətullah Bəxtəvərtaş. Səfəvilər dövründə ordu idmanından seçmələr ("Tarixi rəylər", il: 5, say: 5), s.115-124;*

Şardenin səyahətnaməsi (10 cilddə, farsca tərcümə edən: M.Abbasi), III, 253-254; B.Məhəmmədi və Ə.Fazili. Cövkən oyununda iranlıların məharəti ("İranın idman tarixi" məcmuəsindən), s.249-262; Eralp Erdoğan. Safevilerde Okçuluk ve Kabak Oyunu'na Genel Bir Bakış ("Türk Tarihine Dair Yazilar II"), s.741-745; Qiyas Şükürov. Safevîlerde Av Geleneğinin Oluşumu ve I. Şah İsmail Dönemi Av Merasimleri (ACTA Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, Yıl:1, Sayı:1, Ocak 2009), s.56-71; Mutlu Özgen. Osmanlı Şenliklerinde Bir Gösteri Sporu: Kabak Oyunu (ACTA Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, II/1, Ocak 2010); İbrahim Yıldıran. Osmanlılarda Atlı Hedef Okçuluğu Kabak Oyunu ("Anadolu Uygarlıklarında Spor"), s.158-159; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (hicri 940-cı ilin hadisələri), s.498; P.Мехмиев. Шах Исмаил Сефеви: портрет правителя и воина, стр.41; H.V.Kaşifi Səbzəvari. Fütüvvətnameyi-sultani (nəşrə hazırlayan: M.C.Məhcub), s.306-312; Hüseyn Nurbəxş. Şah Abbasın təlxəklərinin məzhəkələri ("Güzariş" dərgisi, 1376-77 h.-ş, №85-86), s.42-44; M.K.Y.Cəmali. Səfəvilər dövrünün əvvəllərində musiqi və əyləncə (İsfahan Universiteti Ədəbiyyat və himanitar elmlər fakültəsinin elmi araşdırma dərgisi, 1380 h.-ş., №26-27), s.199-208; Hüseyn Meysəmi. Səfəvilər dövrü musiqisinə bir baxış ("Gülüstani-hünər" dərgisi, 1384 h.-ş., №2), s.141-147; Məryəm Kəşmiri. Səfəvilər zamanında ifaçıların yeri (Təsviri incəsənət və musiqi nəşriyyəsi, 1397 h.-ş., №2), s.23-34;. M.Ə.Sadiqi Gəndümani və M.H.Şahi. I Şah Abbas və musiqi sənəti ("İslamdan sonra İran tarixi" elmi araşdırma dərgisi, 1396 h.-ş., №13), s.111-135.

SƏFƏVİLƏR DÖVRÜNÜN MEMARLIĞI – Səfəvilər dövrü memarlığı müsəlman Şərqinin memarlıq tarixinin parlaq səhifələrindən birini təşkil edir. Özündən əvvəlki memarlıq ənənələrinin ən qabaqcıl nailiyyətlərini uğurla mənimsəmiş Səfəvi sənətkarları yeni memarlıq məktəbinin əsasını qoymağa nail olmuşlar. İsfahan memarlıq məktəbi adlanan bu ənənə Səfəvilərdən sonra da Əfşar, Zəndi və Qacarlar dövründə davam etmişdir. (Qeyd etmək lazımdır ki, Səfəvilərdən əvvəl bölgənin memarlıq həyatında Azərbaycan üslubu hakim olmuşdur. Elxanilər dövründə inkişaf etmiş bu üslub Təbriz sənətkarları tərəfindən təkmilləşdirilmişdir. Səfəvilər dövrü memarlarının böyük əksəriyyəti milliyyətcə azərbaycanlı olduğu üçün əslində İsfahan memarlıq məktəbi də Azərbaycan memarlıq ənənələrinin bir variantı kimi qəbul edilməlidir). İsfahan memarlıq məktəbini özündən əvvəlkilərdən fərqləndirən əsas cəhətlər bunlardan ibarətdir: monumentallıq, sadəlik, simmetriyaya tabelik, mərkəzdə iri həyət olmaqla dörd tərəfdən eyvanlarla əhatələnmiş plan, məscid binalarında hündür minarələrlə yanaşı baştağın yuxarı hissəsində iki simmetrik kiçik qüllənin mövcudluğu, baştağların mürəkkəb stalaktit quruluşuna malik olması, tavanın güzgü parçaları ilə örtülməsi, divar bəzəklərində daha əlvan rənglərə üstünlük verilməsi, tikililərin həm çöl tərəfdən (eksteryer və fasad), həm də daxildən (interyer) kaşı ilə bəzədilməsi, memarlıq abidələri ilə yanaşı relyefin işlənməsinə, bağsalma və suvarma texnologiyalarına xüsusi diqqət ayrılması və s. Səfəvilər dövrünün memarlıq layihələri irihəcmli və monumental olmaqla yanaşı, mükəmməl estetik quruluşa və

"yüngüllüyə" malikdir. Bu dövrün tikililərində işıqlandırma və akustika problemləri son dərəcə gözəl şəkildə həll edilmişdir.

Səfəvilər dövrünün memarlığını ümumi şəkildə dini memarlıq kimi səciyyələndirmək olar. Bu dövrdə ucaldılmış tikililər arasında dini təyinatlı binalar (məscid, mədrəsə, türbə, xanəgah və s.) üstünlük təşkil edirdi. Səfəvi memarları xüsusilə məscid binalarının tavanını örtən nəhəng ölçülü günbəzlərin tikilişində böyük uğur qazanmışdılar. Günbəzlər öz iri ölçülərinə rəğmən konstruktiv baxımdan yüngül idi, buna görə də əsas zalda əlavə sütunlara, günbəzi saxlayan çarpaz tağlara ehtiyac yaranmırdı.

Səfəvilər dövlətində memarlıq sahəsində işlər hələ I Şah İsmayılın hakimiyyət illərində aparılmağa başlanmışdır. Ədəbiyyata və incəsənətə böyük həvəs göstərən, özü istedadlı şair, xəttat və musiqi bilicisi olan şah bir neçə iri memarlıq layihəsinin həyata keçirilməsinə, o cümlədən Ərdəbildəki Şeyx Səfi kompleksinin ərazisində genişləndirmə işləri aparılmasına göstəriş vermişdir. Onun zamanında tikilmiş Dar əl-hədis binası xanəgahda aparılan hədis araşdırmaları üçün elmi mərkəz rolunu oynayırdı. I Şah İsmayıl zamanındakı memarlıq layihələrinin bir çoxuna görkəmli dövlət xadimi *Mirzə Şah Hüseyn İsfahani* başçılıq edirdi. Şahın bacısı oğlu *Durmuş xan Şamlu Çaldıran döyüşündən* əvvəl İsfahan hakimi vəzifəsində xidmət edərkən Mirzə Şah Hüseyn onun vəziri olmuş və faktiki olaraq, bölgəni onun adından idarə etmişdir. Peşəkar memar olan vəzir İsfahanda fəaliyyət göstərdiyi müddətdə İmamzadə Haruni-vilayət türbəsini layihələndirmiş, Əli məscidinin tikintisini tamamlamışdır. Sonralar Mirzə Şah Hüseyn dövlətdə şahdan sonra ən yüksək məqam olan *vəkillik* mənsəbinə yüksəlmişdi.

Səfəvilər zamanında dövlətin bütün ərazisində, hətta ucqar bölgələrdə də intensiv tikinti işləri aparılırdı. İndiki Azərbaycan Respublikasının ərazisi Səfəvilər dövlətinin şimal-qərb ucqarında yerləşsə də, burada Səfəvilər dövrünün xatirəsini yaşadan onlarla gözəl memarlıq abidəsi mövcuddur. Bunların arasında XVII əsrə – Səfəvi memarlığının yüksəliş mərhələsinə aid tiklililər üstünlük təşkil edir. Gəncə, İrəvan, Ordubad şəhərlərində, Bakı və Tovuzun kəndlərində I Şah Abbas zamanında inşa edilmiş və onun adını daşıyan məscidlər mövcuddur. Gəncə şəhərindəki *Şah Abbas və Uğurlu xan karvansaraları,* Azərbaycanın şimal bölgələrindəki *Şeyx Cüneyd* və *Şeyx Heydər türbələri, Naxçıvan İmamzadə türbəsi* də Səfəvilər dövrünün memarlıq abidələrindəndir. *İrəvan* şəhərində Səfəvi hakimiyyəti zamanı tiklimiş, sonradan dəfələrlə yenidənqurmaya məruz qalmış *Sərdar sarayı*, Şah Abbas məscidi, *Div sultan* və *Zal xan* məscidləri, I Şah İsmayıl və I Şah Təhmasib zamanlarında tikilmiş məscidlər XX əsrin əvvəllərində erməni vandallarının əli ilə məhv edilmişdir.

İraq ərazisindəki Nəcəf, Kərbəla və Kazimeyn ziyarətgahlarının hazırkı binaları da Səfəvi hakimiyyəti dövründə (I Şah İsmayıl, I Şah Abbas və I Şah Səfinin

zamanlarında) tiklimiş, sonralar Osmanlı, Əfşar və Qacar hökmdarlarının əmri ilə genişləndirilmiş və təmir edilmişdir.

Səfəvi memarlığının şah əsərlərinin əksəriyyəti dövlətin paytaxtı olan İsfahan şəhərində yerləşir. I Şah Abbas paytaxtı *Qəzvindən İsfahana* köçürdükdən sonra şəhərin quruluşunda köklü dəyişikliklər etmiş, İsfahanı Şərqin ən gözəl şəhərlərindən birinə çevirmişdi.

XVII əsrin ikinci yarısında bir neçə il Səfəvilər dövlətində yaşamış və dövlətin sosial-iqtisadi, elmi-mədəni həyatı barədə çox maraqlı məlumatları qələmə almış fransız səyyahı Jan Şarden yazırdı ki, İsfahanda azərbaycanlılardan ötrü salınmış və onların məskunlaşdığı Abbasabad məhəlləsində iki mindən artıq yaşayış evi, 12 məscid, 19 hamam, 24 karvansara və 5 mədrəsə var idi. Abbasabad məhəlləsinin bütünlükdə I Şah Abbas zamanında salındığını nəzərə almaqla aydın olur ki, bu qədər tikili 50-60 il ərzində inşa edilmişdir. Şarden İsfahan şəhərinin binalarının ümumi sayının 38 mini keçdiyini yazır. Onun hesablamalarına görə, şəhərdə 162 məscid, 48 mədrəsə, 1.802 karvansara, 273 hamam və 12 qəbiristanlıq var idi.

İsfahan şəhərinin mərkəzində yerləşən *Nəqşicahan (Şah) meydan* kompleksi Səfəvi memarlığının klassik ənənələrini özündə tam nümayiş etdirir. UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş bu möhtəşəm kompleks 500x150 metr ölçüdə meydanın dörd tərəfində yerləşən dörd tarixi binadan ibarətdir: *Şah məscidi, Şeyx Lütfullah məscidi, Ali qapu və Qeysəriyyə bazarının alaqapısı.* Bu dörd bina Səfəvilər dövlətinin dörd əsas sütununu simvolizə edir. Şah məscidi mütləq şah hakimiyyətinə, Şeyx Lütfullah məscidi dini dəyərlərə, Ali qapu ordu və güc strukturlarına, Qeysəriyyə bazarının alaqapısı isə iqtisadiyyata işarədir.

I Şah Abbas o vaxtadək Zayəndərud çayının yalnız şimal sahilində yerləşən İsfahan şəhərinin ərazisini çayın cənub sahillərinə doğru genişləndirdi. Bu məqsədlə çay üzərində *Allahverdi xan*, Xacu körpüləri tikildi. Bu körpülər çay üzərindən keçidi təmin etməklə yanaşı, həm də bayram günlərində xalqın istirahət məkanına çevrilmişdi. Nəqşicahan meydanının qərbindəki Ali qapudan (şah iqamətgahından) içəri keçən şəxsin gözləri qarşısında *Həşt behişt, Çehelsütun* və digər sarayların mənzərəsi açılırdı. Saraydan başlanğıcını götürən Çaharbağ xiyabanı cənuba doğru Zayəndərud çayına tərəf uzanırdı. Hər tərəfdən yaşıl ağaclarla əhatələnmiş, su novdanları, fəvvarələr quraşdırılmış, gül-çiçəklə bəzədilmiş xiyaban təqribən 1,6 km məsafədə cənuba uzanır, daha sonra Allahverdi xan körpüsü vasitəsilə çayın o biri sahilinə birləşir, cənub sahilində daha 3 km boyunca yeni məhəllələri əhatə edirdi. Burada Həzar-cərib adlı digər iri bağ ona qovuşurdu. Xiyabanın kənarlarında dövlət adamlarının malikanələri yerləşirdi. Bununla belə, Çaharbağ və Həzar-cərib xiyabanları əhali üçün açıq idi, hər kəs burada gəzişərək təbiətin gözəlliklərini seyr edə bilirdi.

Bu gün İranda mövcud olan bəzi şəhərlər Səfəvilər zamanında salınmışdır.

İsfahanın 25 kilometrliyində yerləşən Nəcəfabad şəhəri I Şah Abbasın göstərişi və *Şeyx Bəhainin* layihəsi əsasında inşa edilmişdir. Mazandaran bölgəsindəki Fərəhabad və Əşrəf (indiki Behşəhr) şəhərləri də I Şah Abbasın şəhərsalma siyasətinin yadigarıdır. Şah öz anası *Məhdi-ülya* Xeyrənnisa bəyim Əşrəf əl-mülukun şərəfinə adlandırdığı Əşrəf şəhərini yay iqamətgahı etmişdi.

Səfəvilər dövrünün sonlarına yaxın İsfahan şəhərinin əhalisi çoxalaraq yer darısqallığı yaranmış, Şah Sultan Hüseyn Zayəndərud çayının cənubunda, Həzar-cərib parkının cənub-qərbində Fərəhabad adlı yeni məhəllə saldırmışdı. Yolu Marnan körpüsündən keçən Fərəhabad iki hissəyə bölünürdü, şimalda əhalinin evləri, cənubda isə şaha və əyanlara məxsus saraylar yerləşirdi. Şah Sultan Hüseyn buranı özünün yay iqamətgahı etmişdi. Fərəhabad məhəlləsi getdikcə genişlənərək 200 min nəfər əhaliyə malik qəsəbə ölçüsünə çatmışdı. Təəssüf ki, bu məhəlləyə aid heç bir tikili günümüzə gəlib çatmamışdır. İsfahanı işğal etmiş əfqanlar *Nadir xanın* hücumları qarşısında şəhəri tərk edib getməzdən əvvəl Fərahabadı tamamilə yandırıb kül etmişdilər.

Səfəvilər dövründə tikilmiş bəzi binalar öz orijinal konstruksiyaları, qeyri-adi xüsusiyyətləri ilə indi də görənləri təəccübə salır. İsfahan şəhərində Şeyx Bəhainin layihəsi əsasında tiklidiyi iddia edilən və bircə şamla qızdırılan hamam, şəhər kənarında mövcud olan və yenə Şeyx Bəhaiyə aid edilən *Yellənən minarələr məscidi*, heyrətamiz akustikaya malik Ərdəbil Şeyx Səfi xanəgahındakı çinixana binası, Səfəvilər dövrünün tarixini əks etdirən divar rəsmləri ilə bəzənmiş İsfahan *Çehelsütun sarayı*, kölgə vasitəsilə dəqiq vaxtın və tarixin təyin edilməsinə imkan verən konstruksiyalar bura aiddir.

Səfəvilər dövrünün memarlığı digər incəsənət sahələrinin inkişafına da təkan verirdi. Binaların xarici və daxili divarlarını ornamentlər və freskalarla bəzəmək ehtiyacı rəssamları yeni-yeni sənət əsərləri yaratmağa ruhlandırırdı. Xəttatlar bir-biri ilə yaradıcı rəqabətə girərək kitabə və dini mətnlərin yazılışı sahəsində gözəl sənət əsərləri meydana gətirirdilər.

Mənbələr: *Robert Hillenbrand. Safavid Architecture (The Cambridge History of Iran, vol. 6, pp.759-842); Sussan Babaiye. Building on the Past: the Shaping of Safavid Architecture, 1501-76 ("Hunt for Paradise: Court Arts of Safavid Iran, 1501-1576"), p.27-47; Kishwar Rizvi. Architecture and the Representations of Kingship During the Reign of the Safavid Shah 'Abbas I ("Every Inch a King: Comparative Studies on Kings and Kingship in the Ancient and Medieval World"), pp.371-397; Architecture of The Islamic World (edited by George Michell), p.251-258; Francis D.K. Ching, Mark M. Jarzombek, Vikramaditya Prakash. A global history of architecture, pp.514-515; Farshid Emami. Religious Architecture of Safavid Iran ("The Religious Architecture of Islam", Volume 1), pp.256-273; Şardenin səyahətnaməsi (10 cilddə, farsca tərcümə edən: M.Abbasi), VIII, 57 və 121; Lətifullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.58-104; Sirus Şəfəqi. Səfəvilər dövrü İsfahanında şəhərsalmanın əsasları ("Fərhəngi-İsfahan", 1379 h.-ş., №15), s.35-51; A.B.*

А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв, стр.8-94.

SƏFİQULU XAN ŞAMLU (Səfi) – XVII əsrdə yaşamış Azərbaycan şairi və Səfəvi dövlət xadimi. Həyatı haqqında məlumat azdır. Şair haqqında görkəmli tədqiqatçı Salman Mümtaz 1925-ci ildə məqalə yazaraq "Maarif və mədəniyyət" qəzetində çap etdirmişdir. Səfiqulu xan *Şamlu* tayfasına mənsub Zülfüqar xanın oğludur. Atası Səfəvilər dövlətinin 13 bəylərbəyliyindən biri olan Qəndəharda hakim *(bəylərbəyi)* və *əmir əl-üməra* vəzifəsini icra edərək 1662-ci ildə vəfat etmiş, cənazəsi Məşhədə aparılıb orada torpağa tapşırılmışdı. Qəndəharın idarəçiliyi Zülfüqar xanın qardaşına (Səfiqulu xanın əmisinə) keçmişdi.

Səfiqulu xanın əvvəlcə Qəndəhar, daha sonra Herat bəylərbəyi təyin olunduğu məlumdur, amma bu təyinatların dəqiq tarixini aydınlaşdırmaq çətindir. S.Mümtaz bir mənbəyə əsaslanaraq Səfiqulu xanın 1659/60-cı illərdə Məşhəd hakimi təyin edildiyini yazıb. 1677-ci ildə baş vermiş hadisələrin təsviri zamanı onun artıq Herat bəylərbəyi olduğunu oxuyuruq.

Səfiqulu xan igidliyi ilə tanınırdı, hətta *"Təzkireyi-Nəsrabadi"də* yazıldığına əsasən, döyüşlərin birində göstərdiyi ağlasığmaz şücaətə görə onu Dəli adlandırmışdılar.

Səfiqulu xanın həm də şairliyi vardı və "Səfi" təxəllüsü ilə şeirlər yazırdı. Kiçikhəcmli *divanında* azərbaycanca və farsca şeirlər toplanıb.

Səfiqulu xan hərtərəfli istedad sahibi olmuşdur. S.Mümtaz onun "musiqidən xəbərdar" olduğunu qeyd edərək yazırdı ki, Şah Sultan Hüseyn zamanında "milli musiqimizə dair yazılan daha mühüm bir əsərdə onun türkcə təsnifləri vardır ki, sözlərini özü söyləmiş və özü də bəstələmişdir".

Səfiqulu xanın yaradıcılığı özündən sonrakı bəzi şairlərə, o cümlədən Əbülqasim Nəbatiyə güclü təsir göstərmişdir. "Nəbati başlıca Səfiqulu xanın peyrəvidir (ardıcılıdır); onun şeirlərində bu təsir tamamilə göz çarpmaqdadır".

Mənbələr: *S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.337-340; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.83-87; Təzkireyi-Nəsrabadi, s.29.*

"SƏHİFEYİ-SƏCCADİYYƏ" – dördüncü İmam Həzrət Əli Zeynülabidinə (ə) məxsus olan duaların toplandığı kitab. Keçmişdə kitablar çox zaman ayrı-ayrı səhifələr halında olub cildlənmədiyi üçün onlara "səhifə" və ya "müshəf" deyirdilər. "Səccadiyyə" kəlməsi bu kitabın İmam Zeynülabidinə (ə) məxsus olduğunu bildirir; çünki o həzrətin ləqəblərindən biri də "Səccad" (çox səcdə edən) idi. "Səhifeyi-Səccadiyyə"-ni "Əhli-beytin Zəburu" adlandırırlar.

"Səhifeyi-Səccadiyyə" ümumilikdə 54 duadan ibarətdir. Dualar müxtəlif təyinatlıdır: Allaha həmd-səna, günahların bağışlanması, çətinliklərin həll olması üçün, imamın özü, valideyni və övladlarından ötrü duaları, qonşu və dostlardan ötrü dua, xəstəlikdən sağalmaq, borcu qaytarmaq, ruzini artırmaq niyyətilə oxunan dualar, Ramazan ayının baş-

lanğıcında və sonunda, Fitr bayramı, Ərəfə günü, Qurban bayramı və cümə günlərində oxunan dualar və s.

"Səhifeyi-Səccadiyyə"nin müqəddiməsində kitabın sənədi ətraflı şəkildə verilmişdir. Həmin müqəddimədən məlum olur ki, İmam Zeynülabidinin (ə) oğlu Zeydin faciəli şəhadətindən sonra onun oğlu Yəhya ibn Zeyd Xorasan istiqamətində yolda ikən Mütəvəkkil ibn Harun adlı bir nəfərlə görüşür. Yəhya Mütəvəkkilin həcc səfərindən qayıtdığını eşidəndə öz qohumlarının, xüsusilə əmisi oğlu İmam Cəfər Sadiqin (ə) vəziyyətini ondan soruşur. Söhbət əsnasında Mütəvəkkil Yəhyaya söyləyir ki, İmam Sadiq (ə) onun da atası kimi qiyam qaldırıb şəhid olacağını qabaqcadan xəbər verib. Yəhya imamın üstün elmə malik olduğunu etiraf etdikdən sonra qıfılla bağlanmış və möhürlənmiş sandıqdan bir kitab çıxarır, öpüb gözünün üstünə qoyur və deyir: "Bu, babam İmam Səccadın (ə) dualarıdır ki, atam Zeyd onun diktəsi ilə köçürüb". Sonra Yəhya Mütəvəkkildən xahiş edir ki, kitabı İmam Həsənin (ə) nəticələri Məhəmməd Nəfs əz-Zəkiyyə ilə İbrahimə təhvil versin.

Mütəvəkkil kitabı götürüb Mədinəyə qayıdır və İmam Cəfər Sadiqlə (ə) görüşür. İmam onun əlindəki kitabı görəndə özündə olan buna bənzər bir kitabı gətirdir və həmin kitabın atası İmam Məhəmməd Baqirdən (ə) yadigar qaldığını bildirir. Məlum olur ki, bu da Yəhyanın verdiyi kitabın başqa bir nüsxəsidir. İmam Zeynülabidin (ə) həmin duaları iki oğluna – İmam Baqirə (ə) və Zeydə diktə edib yazdırıbmış. Mütəvəkkil hər iki nüsxəni müqayisə edib görür ki, aralarında bircə hərf fərqi belə yoxdur.

İmam Cəfər Sadiq (ə) Məhəmmədlə İbrahimi yanına çağırtdırır, Yəhyanın Mütəvəkkilə əmanət buraxdığı nüsxəni onlara təhvil verir, kitabı qorumağı tapşırır və hər iki qardaşın gələcəkdə qiyam qaldırıb şəhid olacağını söyləyir.

Sonra İmam Cəfər Sadiq (ə) "Səhifeyi-Səccadiyyə" dualarını Mütəvəkkil üçün oxuyur. Bu cür hədis rəvayətinə o zamanlar "imla" deyilirdi. Hədisi rəvayət edən şəxs onu aramla söyləyir, dinləyənlər ya yazıya alır, ya da hafizələrinə həkk edib əzbərləyirdilər. Mütəvəkkil qeyd edir ki, dualarn əksəriyyətini əzbərləməyə müvəffəq olmuş, amma bir neçəsini unutmuşdu.

"Səhifeyi-Səccadiyyə" müxtəlif alimlər tərəfindən dəfələrlə şərh olunmuşdur (40-dan artıq). Bu istiqamətdə görülmüş işlərin böyük bir qismi Səfəvilər zamanına təsadüf etmişdir. Bu dövrdə "Səhifeyi-Səccadiyyə"yə yazılmış şərhlər arasında Şeyx *Bəhainin, Məhəmməd Təqi Məclisinin, Seyid Nemətullah Cəzairinin* və Seyid Əli xan Mədəni Şirazinin şərhləri məşhurdur. *Hürr Amili* və *Mirzə Abdullah Əfəndi* klassik "Səhifeyi-Səccadiyyə" mətninə daxil edilməmiş duaları bura əlavə edərək, daha irihəcmli məcmuələr hazırlamışlar. *Əllamə Məclisi* və *Mir Damad* isə "Səhifeyi-Səccadiyyə"yə haşiyə yazmışlar.

Mənbələr: *Səhifeyi-Səccadiyyə (farsca tərcümə: Hüseyn Ənsariyan), s.13-28; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 231.*

SƏRDAR KABİLİ, Heydərqulu xan (1876-1952) – görkəmli şiə tədqiqatçı alimi. Əfqanıstanın Kabil şəhərinin qızılbaşlar məhəlləsi kimi tanınan Çəndavul hissəsində anadan olmuşdur. Çəndavul məhəlləsinin adının etimologiyası barədə yazırlar ki, türk dilində qoşunun arxasınca gələn hissə bu cür adlanırdı. Qoşunun ön bölmələrinə (avanqard) "qarovul", axırda gələn qapadıcı bölmələrə "çəndavul" deyirdilər. Heydərqulu xan əfqanıstanlı qızılbaşlar nəslindəndir. Atası hərbçi idi, xidməti vəzifə ilə əlaqədar Lahur şəhərinə köçmüş, Heydərqulu xan da ilk təhsilini Lahurda almışdı. Daha sonralar ailə İraqın Bəsrə şəhərində məskunlaşdı. Heydərqulu xan Nəcəf hövzəsində dini təhsilə başlayaraq altı ildən sonra ictihad icazəsi aldı. O, fars, ərəb, ingilis, urdu, ibrani (yəudi), latın, sanskrit dillərini mükəmməl şəkildə mənimsəmişdi, xristian və yəhui alimlərlə elmi mübahisələr aparırdı. Ənənəvi xristian əqidəsindən fərqlənən "Barnaba İncili"ni fars dilinə çevirib çap etdirmişdi. Sərdar Kabili həm dini, həm də bir sıra dünyəvi elmləri dərindən bilirdi, gözəl xətti vardı, nəstəliq və şikəstə xətlərini məharətlə yazırdı. Hətta qəraib elmləri (rəml, əlkimya, hüruf elmi və s.) də mənimsədiyini yazırlar. Heydərqulu xan astronomik və coğrafi hesablamaları son dərəcə dəqiqliklə apara bilirdi; onun iri şəhərlər üçün qiblənin istiqamətini açıqlayan kitabı vardır. Mədinə məscidinin mehrabının qiblə istiqamətinə uyğun olub-olmaması barədə şübhələr ortaya çıxanda alim möhkəm elmi dəlillərlə mehrabın düz qibləyə sarı yönəldiyini isbat etmişdi. Qızılbaşlar nəslinin görləmli nümayəndəsi olan Heydərqulu xan Sərdar Kabili uzun müddət Kirmanşahda yaşamış, orada dünyasını dəyişmişdir. Vəsiyyətinə əsasən cənazəsini Nəcəfdə Vadi əs-salam qəbiristanlığında dəfn etmişlər.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 13-15; Əllamə Təbatəbai. Təfsir əl-mizan, I, 336.*

SƏRDAR SARAYI – Səfəvilər dövlətinin ərazisinə daxil olan Çuxursəd bəylərbəyliyində, *İrəvan* (Rəvan) qalasının şimal-şərq tərəfində yerləşən saray. Bundan əvvəl də İrəvan qalasının daxilində saraylar mövcud olmuşdur. Sərdar sarayı, adından da göründüyü kimi, sərdarın (Çuxursəd bəylərbəyinin) iqamətgahı olaraq inşa edilmişdi. Sarayın tikilmə tarixi (1578-ci il) Çuxursəd bəylərbəyi *Məhəmməd xan Toxmaq Ustaclunun* hakimiyyət dövrünə təsadüf edirdi. Məşhur səyyah Övliya Çələbi qeyd edirdi ki, bundan 5 il sonra İrəvanı ələ keçirmiş Osmanlı sərkərdəsi Fərhad paşa digər qala tikililəri ilə birlikdə Sərdar sarayını da uçurub yerində təzə saray tikdirmişdi. İrəvanı geri alan Səfəvilər saray binasını əsaslı təmir etdirdilər. Çuxursəd bəylərbəyi *Əmirgünə xan Qacar* (1604-25) sarayın ərazisini genişləndirdi, yaxınlıqda pul zərb olunan sikkəxana, karvansara və s. tikdirdi. İrəvan qalası ilə üzbəüz, Zəngi çayının sağ sahilində yaraşıqlı, iri bağ salındı. 1679-cu ildə baş vermiş güclü zəlzələ nəticəsində saray dağılsa da, qısa müddət ərzində tam təmir edildi. Budəfəki təmi-

rin təşəbbüskarı bəylərbəyi *Zal xan* idi.
Sərdar sarayı bir neçə tikilidən ibarət kompleks idi. Kompleksin mərkəzində şahın qarşılanması üçün nəzərdə tutulmuş trapesiya planlı ikimərtəbəli köşk dururdu. Kompleksə hərəmxana, hamam, məscid binaları, yay köşkü və s. daxil idi. Sarayın interyeri son dərəcə nəfis tərtibatla bəzədilmişdi, xüsusilə güzgülü zal görənləri heyran edirdi.
XVIII əsrin ikinci yarısında saray İrəvan xanları tərəfindən təmir edilmiş, əlavə tikililər artırılmışdır. 1827-ci ildə xanlığın Rusiya tərəfindən işğalı zamanı saray ciddi xəsarət aldı. Daha sonrakı təmirlər zamanı sarayın təqribən bir hektar sahəni əhatə etdiyi qeyd olunur. XX əsrin əvvəllərindən etibarən erməni vandallarının ardıcıl təcavüzünə məruz qalan tarixi abidə 1918-ci ildə tamamilə yerlə yeksan edildi. Səfəvilər və Qacarlar dövrünün memarlıq incilərindən sayılan Sərdar sarayının bəzi eksponatları xilas edilərək Tiflisə aparılmışdır.

Mənbələr: *Nazim Mustafa. İrəvan şəhəri, s.207-225; E.Qarayev. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu – XIX yüzilliyin ortalarında), s.420-440.*

SULTAN əl-ÜLƏMA, Seyid Hüseyn ibn Mirzə Rəfiəddin Mərəşi Amuli (vəf. 1654) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şiə alimi və dövlət xadimi. İmam Zeynülabidinin (ə) nəslindən və Mərəşi seyidlərindən idi. Atası I Şah Abbasın ana tərəfdən qohumu və şah sarayında *sədr* vəzifəsində idi. Seyid Hüseyn ilk təhsilini atasından almış, daha sonra *Şeyx Bəhainin* tələbəsi olmuşdur. O, I Şah Abbasın qızı Xanağa bəyimlə ailə qurmuşdu, bu izdivacdan bir neçə oğlu var idi. I Şah Abbasın hakimiyyətinin son 5 ilində *vəzir* vəzifəsində sarayda xidmət etmişdir. Eyni dövrdə bir ailədən iki nəfərin (ata-oğul) yüksək dövlət vəzifəsində olmasını tarixçilər xüsusi vurğulamışlar. I Şah Abbasın vəfatından sonra I Şah Səfinin hakimiyyətinin ilk iki ilində öz vəzifəsində qalmış, sonra uzaqlaşdırılaraq Qum şəhərinə göndərilmişdi (1631). I Şah Səfinin hakimiyyət dövründə Sultan əl-üləmanın övladları I Şah Abbasın nəvəsi olduqlarına və Səfəvi qanını daşıdıqlarına görə taxt-taca təhlükə sayılaraq kor edildilər.
II Şah Abbasın zamanında baş vəzir *Saru Tağı* sui-qəsd nəticəsində öldükdən (1645) sonra Sultan əl-üləma saraya qaytarılmış və həyatının sonunadək baş vəzir vəzifəsini daşımışdır. Uca elmi məqamına görə "Sultan əl-üləma" (Alimlərin sultanı), şah ailəsi ilə qohumluğuna görə "Xəlifə sultan" ləqəblərini qazanmışdı. 1654-cü ildə Qəndəhar yürüşündən qayıdarkən Mazandaran şəhərlərinin birində dünyasını dəyişmiş, cənazəsi Nəcəfdə dəfn edilmişdir.
Sultan əl-üləmanın dini mövzuda bir neçə dəyərli kitabı vardır ki, əksəriyyəti özündən əvvəlki alimlərin əsərlərinə şərh və haşiyələrdən ibarətdir.
Oğulları da mükəmməl dini təhsil almış və dövrünün böyük alimi olmuşlar. Oğlu Mirzə İbrahim Səfəvilər sarayında xidmət edirdi. Bəzi məlumatlara görə, Mirzə İbrahimin üç yaşından gözləri tutulmuş və bütün elmləri kor halda əldə

etmişdir. Bəzi müəlliflər Şah Süleyman tərəfindən gözlərinin çıxarıldığını yazırlar. Mirzə İbrahim təqr. 1686-cı ildə 60 yaşında vəfat etmişdir.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 56-57; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, II, 51-56; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, II, 346-349.*

SULTAN MƏHƏMMƏD (vəf. 1555) – XVI əsrdə Səfəvilər sarayında yaşayıb-yaratmış görkəmli nəqqaş, miniatür ustası, *Təbriz miniatür məktəbinin* əsasını qoyanlardan biri. XV əsrin 70-ci illərində Təbrizdə doğulmuş, I Şah İsmayılın zamanında saray kitabxanasına rəhbərlik etmişdir. (Rəssamlıq emalatxanası da saray kitabxanasında yerləşirdi). Mənbələr xəbər verir ki, I Şah İsmayılın hakimiyyətinin sonlarında *Kəmaləddin Behzad* saray kitabxanasının müdiri təyin ediləndə artıq bura Sultan Məhəmmədin rəhbərliyi altında tam gücü ilə fəaliyyət göstərirdi. I Şah Təhmasib hakimiyyətə keçdikdən sonra Sultan Məhəmməd yenidən kitabxananın rəhbərliyinə qaytarıldı. Sultan Məhəmməd I Şah Təhmasibə rəsm öyrədirdi və şahın müəllimi sayılırdı.

Sultan Məhəmməd müsəlman Şərq mədəniyyətinin ən mühüm mərkəzlərindən sayılan Təbriz miniatür məktəbinin banisidir. O, Qaraqoyunlular və Ağqoyunlular zamanında "türkman üslubu" kimi tanınmış rəsm texnikasını Herat rəssamlıq məktəbinin ənənələri ilə uğurla sintez edərək Təbriz miniatür məktəbinin əsasını qoymuşdur. Səfəvilər sarayında onun rəhbərliyi altında onlarla istedadlı nəqqaş möhtəşəm sənət əsərləri yaradırdı. *Ağa Mirək İsfahani, Mir Müsəvvir, Müzəffər Əli, Mir Seyid Əli, Mirzə Əli, Məhəmmədi,* Fərrux bəy, *Siyavuş bəy,* Mir Zeynalabdin kimi böyük sənətkarlar bu sənət məbədinin yetirmələridir.

Sultan Məhəmmədin rəhbərliyi və fəal iştirakı ilə hazırlanmış "Xəmsə" və "Şahnamə" nüsxələrinin ən parlaq miniatürləri məhz onun qələmindən çıxmışdır. Nizaminin poemalarına çəkdiyi "Sultan Səncər və qarı", "Peyğəmbərin meracı" illüstrasiyaları Sultan Məhəmməd yaradıcılığının şah əsərləri sayılır. Onun əsərləri öz zəngin koloriti, həyatiliyi, dəqiqliyi, eyni zamanda klassik miniatür ənənələrinə sadiqliyi ilə seçilir.

Səfəvilər dövrünün görkəmli tarixçisi *Budaq Münşi Qəzvini* Sultan Məhəmməd barədə verdiyi məlumatı onun təbrizli olması barədə qeydlə başlayaraq yazır: "Təbrizdəndir. Ustad Behzad İraqa (Səfəvilər dövləti nəzərdə tutulur) gələndə Sultan Məhəmməd artıq kitabxananı sahmana salmışdı. O, dinin pənahı olan şahın müəllimi idi. Ustadlarımızdan eşitmişik ki, deyirdilər: Sultan Məhəmməd geyim, at, silah kimi təsvirləri qızılbaş üslubunda (başqalarından) daha yaxşı çəkir". Müəllif Sultan Məhəmmədin çəkdiyi at rəsmlərini xüsusi tərifləyir.

Sultan Məhəmmədin iki oğlu – *Mirzə Əli* və *Məhəmmədi* onun sənətini uğurla davam etdirmiş, Təbriz miniatür mərkəzinin ustadları kimi tanınmışlar.

Sultan Məhəmməd 1555-ci ildə vəfat et-

miş və Təbrizdə, Behzadın məzarının yanında dəfn olunmuşdur.

Bəzi müəlliflər Sultan Məhəmmədin Səfəvilər sarayından əvvəl Heratda *Sultan Hüseyn Bayqaraya* xidmət etdiyini, iti zəkaya və ixtiraçılıq məharətinə sahib olduğunu yazmışlar. Onların verdiyi məlumata görə, Sultan Məhəmməd Sultan Hüseyn Bayqara üçün iri bir saat düzəltmişdi, hər saatın tamamında cihazın içindən bir insan fiquru çıxır və əlindəki çubuqla nağaranı döyəcləyirdi, zərbələrin sayından saatın neçə olduğu bilinirdi. Lakin Sultan Məhəmmədin Səfəvilərdən əvvəl Heratda Teymurilərə xidmət etməsi barədə deyilənlər əksər mənbələrdə təsdiqini tapmır.

Mənbələr: *"Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, 1388 h.-ş., 15-ci dəftər), s.114; M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 218-225; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.67-70; Lüğətnameyi-Dehxuda, IX, 13727.*

SUSƏNİ BƏY – XVI əsrdə Səfəvilər zamanında yaşamış azərbaycanlı şair və hərbçi. Həyatı haqqında məlumat azdır. *Sadiq bəy Əfşar* təzkirəsində yazır ki, Susəni bəy türkmandır. Bu məlumata əsasən onun *Türkman* tayfa birliyinə daxil olan *Mosullu, Baharlu, Pörnak* kimi tayfalardan birinə mənsub olması ehtimal edilir. O, I Şah Təhmasibin zamanında orduda böyük *qorçu* vəzifəsini daşımışdır. "Seçmə qızılbaş cavanları arasında öz yeri olan bir gənc idi". Lakin sonralar bəzi zərərli vərdişlərinə görə vəzifədən uzaqlaşmış və əvvəlki hörmətini itirmişdir. Bununla belə, gözəl şeir təbinə malik olduğunu yazırlar. Əsərlərində Əlişir Nəvai məktəbinin izləri görünür. Həmədanda vəfat etmişdir. *Divanı* natamam və dağınıq şəkildə olmuş, Sadiq bəy Əfşar Türkman əyanlarından birinin xahişi ilə divanı toplayıb tamamlamışdır.

Sam Mirzə təzkirəsində Susəni bəyi Ağqoyunlu böyüklərindən biri adlandırır, verdiyi məlumatlardan görünür ki, şair haqqında mənfi fikirdə imiş.

Mənbələr: *Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.147; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.408; Sam Mirzə. Töhfeyi-Sami, s.187-188.*

SÜRURİ (vəf. 1520) – Azərbaycan türkcəsində yazıb-yaratmış şair. *Hürufilik* təriqətinə mənsub olmuş, XV əsrin sonları – XVI əsrin əvvəllərində Təbrizdə yaşamışdır. I Şah İsmayılın hakimiyyəti dövründə sərbəst şəkildə öz fikirlərini yaymış və şeir aləmində şöhrət qazanmışdır. *Çaldıran döyüşündən* sonra Təbrizi ələ keçirən Osmanlı qoşunu şəhəri tərk edəndə özləri ilə sənət adamlarını da apardılar; onların sırasında Süruri də var idi. Şair ömrünün son illərini Osmanlı dövlətində yaşamışdır. Sürurinin yaradıcılığında *Nəsiminin* təsiri aydın görünür. Eyni təxəllüsü daşıyan şairlərdən fərqləndirmək üçün onun adını mənbələrdə "Süruriyi-əcəm" kimi qeyd etmişlər. Qəzəlləri hürufilik ideyalarının təbliğinə və lirik mövzulara həsr edilib. Süruri *divanının* bir neçə nüsxəsi xarici ölkə kitabxanalarında (Vatikan, Sankt-Peterburq, Süleymaniyyə və s.) qorunur; bu nüsxələr Azərbaycan tədqiqatçıları tərəfindən araşdırılmışdır.

Mənbələr: *Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, 490; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.351-352; Y.Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.316-317; Azərbaycan tarixi (7 cilddə), III, 276.*

ŞAH ABBAS KARVANSARASI (Gəncə) – Gəncə şəhərində yerləşən, XVII əsrdə Səfəvi hakimiyyəti zamanında tikilmiş memarlıq abidəsi. 1606-14-cü illərdə I Şah Abbasın fərmanı ilə *Şeyx Bəhainin* layihəsi əsasında inşa edilmişdir. Vaxtilə Gəncədə ən iri karvansara binası hesab edilirdi. Bu tikilidən Şah Abbas məscidinə, Çökək hamama və yaxınlıqdakı *Uğurlu xan karvansarasına* yeraltı yollar mövcud idi.

Karvansara binası ikimərtəbəlidir və qırmızı kərpicdən inşa edilib. Binanın həyətində 114 tikili, içərisində isə 54 təkadamlıq və 15 böyük otaq var idi.

1905-ci ildə ermənilərin Gəncədə törətdikləri qırğın zamanı karvansara yandırılmış, sonralar bir neçə dəfə təmir edilmiş və qeyri-təyinat üzrə istifadəyə verilmişdir. Hazırda Şah Abbas və Uğurlu xan karvansaraları kompleks şəklində fəaliyyət göstərir.

Mənbə: *N.Kərimova. Gəncə karvansaraları ("Qobustan" jurnalı, 2/2015), s.69-70.*

ŞAH ABBAS MƏSCİDİ (Gəncə) – Gəncə şəhərində yerləşən, XVII əsrdə Səfəvilər zamanında tikilmiş dini ibadət ocağı və memarlıq abidəsi. Gəncənin tarixi mərkəzində, iri meydanda yerləşir. Aran memarlıq məktəbinin ənənələri əsasında inşa edilmiş məscidin tikiliş tarixi hicri 1015/miladi 1606-cı ilə aid edilir. Məscidin, onun ətrafında yerləşən Şah Abbas mədrəsəsi və Çökək hamamın layihəsini görkəmli din alimi və memar *Şeyx Bəhai* vermişdir.

Məscid binası kvadrat plana malik olub 25.30x25x28 metr ölçülü mərkəzi modelli zal və ona birləşən yan nişlərdən ibarətdir. Tikilinin bütün kompozisiyası 204 kv.m sahəyə və 13 metr hündürlüyə malik mərkəzi zala tabe edilib.

Binanın əsas girişi şimal divarında, mehrab isə cənub divarında yerləşir. Zalın qərb və şərq divarlarında daha iki qapı vardır. Məscidin ətrafında hər biri 12 kv.m sahəyə malik altı xarici hücrə, həmçinin mərkəzi zalın dörd küncündə eyni sahəyə malik daha 4 hücrə yerləşir. Gəncə cümə məscidi kərpic və gəcdən tikilmişdir, bəzi yerlərdə divarların qalınlığı 3 metrə çatır. Təməldə düzbucaqlı olan konstruksiya 8 metr hündürlükdə çoxbucaqlıya, daha sonra səkkizbucaqlıya keçərək oxvari profilli və düz kərpic səthli olan günbəzlə tamamlanır. Günbəzin diametri 14 metrdir.

Məscidin daxilində yerdən 4.2 metr hündürlükdə 3 divar boyunca qadınların ibadət etməsi üçün loja şəkilli əlavə ibadət yerləri vardır.

Məscidin girişinin hər iki tərəfində 22 metr hündürlükdə minarələr yerləşir. Gözəl memarlıq quruluşuna malik minarələrin daxilindəki 64 pillə azan verənin durması üçün nəzərdə tutulmuş dairəvi meydançalara aparır.

Gəncə cümə məscidinin maraqlı cəhətlərindən biri də budur ki, Günəş zöhr (zenit) anında olanda məscidin qərb divarından düşən kölgə itir, bununla da

zöhr namazının vaxtı dəqiq məlum olur. Məscidin həyətində Gəncə xanı Cavad xanın türbəsi yerləşir.

Mənbə: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр. 26-28.*

ŞAH ABBAS MƏSCİDİ (İrəvan) – *İrəvan* şəhərində mövcud olmuş, XVII əsrdə Səfəvilər zamanında tikilmiş dini ibadət ocağı və memarlıq abidəsi. Şah Abbas məscidi, İrəvanın bir sıra qədim tarixi abidələri kimi, erməni vandalları tərəfindən tamamilə dağıdılmışdır və hazırda mövcud deyil.

1604-cü ildə I Şah Abbas İrəvan qalasını Osmanlı imperiyasından geri aldıqdan sonra məscidin tikintisinə başlanmışdır. Məscidin tikinti tarixi 1606-cı ilə aid edilir. İrəvan xanına məxsus *Sərdar sarayının* şərq tərəfində yerləşmiş bu ibadət ocağının da layihəsi öz dövrünün böyük din alimi və memarı *Şeyx Bəhai* tərəfindən verilmişdir. Məscid kompleksinə mədrəsə, kitabxana, mehmanxana və müxtəlif obyektlər daxil idi. İrəvan xanlığı dövründə məscidin aş evində kasıblara gündə üç dəfə yemək verilirdi. Bura dini məkan olmaqla bərabər, həm də ictimai qurumların toplanış yeri olub. 1918-ci ilədək Şah Abbas məscidi yarıuçuq vəziyyətdə mövcud olsa da, sonralar tamamilə məhv edilmişdir.

Tədqiqatçılar bu məscidin mənbələrdə rast gəlinən Sərdar məscidi ilə eyni olduğunu, sonralar Qacar sülaləsinin vəliəhdi Abbas Mirzə tərəfindən təmir edildiyi üçün onun adı ilə "Abbas Mirzə məscidi" kimi tanındığını yazırlar.

Tarixi mənbələr təsdiq edir ki, İrəvan şəhərində Səfəvilər dövrünə məxsus daha bir neçə məscid olmuşdur. 1510-cu ildə, I Şah İsmayıl zamanında inşa edilmiş, 1918-ci ildə içərisinə pənah gətirmiş müsəlman əhali ilə birlikdə yandırılmış məscid, Şah Məhəmməd Xudabəndə zamanında qırmızı kərpicdən tikilmiş və Şah Süleyman zamanında (1685-ci il) təmir edilmiş məscid, XVI əsrdə Çuxursəd bəylərbəyi *Div sultan* tərəfindən tikdirilmiş və onun adını daşıyan məscid, İrəvanın Köhnə şəhər məhəlləsində Çuxursəd bəylərbəyi *Zal xan* tərəfindən 1687-ci ildə inşa edilmiş Zal xan məscidi, şəhərin Dəmirbulaq məhəlləsində yerləşən, Günlüklü məscid adı ilə tanınan məscid və s. Bu tarixi abidələrin hamısı erməni vandalları tərəfindən məhv edilmişdir.

Mənbələr: *İrəvan xanlığı, s.196-197; Nazim Mustafa. İrəvan şəhəri, s.227-236; Nazim Mustafa. İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri.*

ŞAH ABBAS MƏSCİDİ (Keşlə) – Bakının Keşlə qəsəbəsində yerləşən, XVII əsrdə Səfəvilər zamanında tikilmiş dini ibadət ocağı və memarlıq abidəsi. Adından göründüyü kimi, Səfəvi hökmdarı I Şah Abbasın zamanında və onun əmri ilə inşa edilmişdir. Həmin dövrdə tikilmiş digər memarlıq abidələri kimi, bu məscidin layihəsinin də *Şeyx Bəhai* tərəfindən verildiyi deyilir.

Keşlə məscidi xaricdən hər tərəfi 12 metr uzunluğa malik kvadrat formasındadır. Tikilinin planı Abşeron məscidləri üçün xarakterik olan sxemi təkrarla-

yır: binanın mərkəzində günbəzlə örtülmüş əsas zal yerləşir, onun dörd tərəfində isə zala bitişən tağ-tavan örtüklü kiçik hücrələr vardır. Bu kiçik hücrələr sayəsində ümumi plan kvadrat formasını alır.

Memar portalın bölünməsini binanın ümumi həcminin bölünməsi ilə əlaqələndirməyə çalışmışdır. Bunun üçün binanın karnizi portal çərçivəsinin davamı kimi layihələndirilmişdir. Məscidin divarları ilə kürsü arasındakı maililik 60 dərəcə təşkil edir. Giriş portalı sadədir, stalaktit yarımtağ yoxdur.

Giriş qapısının üstündə ərəbcə daş kitabə mövcuddur. İbadət zalı dörd böyük tağla örtülüb. Tağlar məscidin dairəvi formada olan günbəzi ilə sonlanır. Günbəzin oturacağı 12 guşəlidir, bu da *on iki imama* işarədir. Mehrab və minbər sal daşlardan yonulub. İki laydan ibarət olan pəncərələrin birinci layı taxta, ikinci layı isə bütöv yonulmuş daşla işlənib. Məscidin maraqlı cəhətlərindən biri də budur ki, onun divarında adi gözlə çətin görünən "şirü xurşid" nişanı (Səfəvi gerbi) həkk olunubmuş. Günəş zöhr (zenit) nöqtəsinə çatanda gün şüaları bu nişanın üzərinə düşərək onu aydın göstərirmiş. Məscid binasında edilən sonrakı dəyişikliklər zamanı bu unikal memarlıq elementi aradan getmişdir.

Mənbələr: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр. 28; V.Həbiboğlu. Keşlə və keşləlilər, Bakı, 1995.*

ŞAH ABBAS MƏSCİDİ (Ordubad cümə məscidi) – XVII əsrdə Səfəvilər zamanında tikilmiş dini ibadət ocağı və memarlıq abidəsi. Ordubad şəhərinin mərkəzi meydanında, ən yüksək yerdə inşa edilmişdir. Üzərindəki kitabədə I Şah Abbasın əmri ilə hicri 1012/miladi 1604-cü ildə tikildiyi bildirilir. Bəzi tədqiqatlar onun yerində daha əvvəllər də qədim məscid binası olduğunu göstərir. Naxçıvan-Marağa memarlıq məktəbinin ənənələri əsasında ucaldılmış məscid binası qumdaşı ilə üzlənmiş, hündür qaya üzərində inşa edilmişdir; bu da onun süni stilobat üzərində tikilməsi effektini yaradır. Bunun nəticəsində məscid ətraf binalar arasında daha yüksək və təntənəli görünüş əldə etmişdir. Ordubad cümə məscidi ətrafındakı mədrəsə, zorxana və s. tikililərlə birlikdə kompleks xarakteri daşıyır. Keçmişdə burada karvansara və dükanlar da yerləşirdi.

Tikilinin nüvəsini təşkil edən üçnefli mərkəzi ibadət zalı binanın ən qədim hissəsidir. Mərkəzi zalın günbəz örtüyü istisna olmaqla, binanın digər hissələrinin dam örtüyü düzdür. Fasadların memarlıq həlli tamamilə XVII əsrə aiddir. Tağların düzbucaqlı çərçivəsi arasında yerləşdirilmiş dərin tağlı niş motivi həmin dövr Səfəvi memarlığı üçün xarakterikdir. Məscid divarları qumdaşıdan tikilmiş və bişmiş kərpiclə üzlənmişdir.

Məscidin kitabəsində Ordubadda yaşayan sənətkarlardan, eləcə də bağ və əkin yerlərindən, dəyirmanlardan alınan vergilərin tədricən azaldılması və ləğv edilməsi barədə I Şah Abbasın fərmanı da həkk olunub.

Mənbələr: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр.28; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.98.*

ŞAH ABBAS MƏSCİDİ (Yanıqlı, Tovuz) – Tovuz rayonunun Yanıqlı kəndində yerləşən, XVII əsrdə Səfəvi hakimiyyəti zamanında tikilmiş dini ibadət ocağı və memarlıq abidəsi.

Məscid xarici görünüşünə görə kvadrat formadadır; daxildən binanın şərq tərəfindəki künclərdə birmərtəbəli, qərb tərəfindəki künclərdə isə ikimərtəbəli hücrələr yerləşdirilib. Zalın mərkəzi hissəsi günbəzlə, kənarlar isə tağ-tavanla örtülmüşdür. Kvadrat planına görə Gəncədəki Şah Abbas məscidinə bənzəsə də, arada bəzi ciddi fərqlər də mövcuddur. Belə ki, Yanıqlı kəndi Şah Abbas məscidinin divarları xeyli qalındır, Gəncədəki Şah Abbas məscidindən fərqli olaraq, xarici həcmdə dərin portal nişləri yoxdur və onlar binanın daxili həcminə keçirilmişdir. Məscidin divarları və dam örtüyü kvadrat formalı bişmiş kərpiclə tikilmiş, bünövrənin inşasında qumdaşıdan istifadə olunmuşdur. Əksər məscid mehrablarından fərqli olaraq, burada mehrab adi divar səthi əvəzinə dərin niş daxilində yerləşdirilmişdir, bu da onun xüsusi vurğulanmasını təmin edir.

Sovet dövründə məscid binasından qeyri-təyinat üzrə istifadə edilmiş, sonralar burada əsaslı təmir işləri aparılmışdır.

Məscidin kitabəsi günümüzə gəlib çatmasa da, memarlıq üslubu onun XVII əsrin əvvəllərində I Şah Abbasın hakimiyyəti dövründə Şeyx Bəhainin layihəsi əsasında tikilmiş ibadət ocaqlarından biri olduğunu düşünməyə əsas verir.

Mənbə: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр.29-30.*

"ŞAH XƏTAİ" – Azərbaycan aşıq havalarından biridir. I Şah İsmayılın şərəfinə adlandırılmışdır. Azərbaycan aşıq havalarından bir neçəsinin Səfəvilər zamanında yaradıldığı ehtimal edilir ("Şah Xətai", "Şahsevəni", "Şahdurğuzan", "Şahsarayı", "Baş Divani" və s). "Sultanı" aşıq havası I Şah İsmayılın böyük qardaşı Sultan Əlinin şərəfinə adlanır.

"Şah Xətai" həm də Azərbaycan muğam guşələrindən birinin adıdır. Müxtəlif təsnifatlara əsasən "Şur", "Bayatı-Qacar", "Segah-Zabul", "Şahnaz" və "Dügah" muğamlarının tərkibinə aid edilir. Hazırda əsasən "Şur" muğam dəsgahında instrumental guşə kimi ifa olunur.

Mənbələr: *Azərbaycan muğam ensiklopediyası, s.244; Valeh Kərimov. Səfəvilər dövründə təşəkkül tapmiş "Şah Xətai" muğam guşəsinin mahiyyətinə dair ("Konservatoriya" jurnalı, 2022-ci il, №1/54), s.34-49.*

"ŞAH İSMAYIL" DASTANI – Azərbaycan məhəbbət dastanlarından biri. Səfəvilər dövlətinin banisi I Şah İsmayılın adı ilə bağlıdır. Bəzi tədqiqatçılar baş qəhrəmanın Səfəvi şahı II İsmayılın prototipi olduğunu iddia edirlər. Dastanın süjet xətti İsmayılla atası Aslan şahın münasibətləri və İsmayılla Gülzarın sevgisi üzərində qurulub. "Şah İsmayıl" dastanının 10-a yaxın fərqli variantları məlumdur.

Dastanın xülasəsi belədir: Qəndəhar hökmdarı Ədil şahın uzun müddət övladı olmur. Mal-mülkünün çoxunu sədəqə paylayandan sonra bir dərvişin verdiyi alma ilə xanımı hamilə qalır. Ədil şah oğluna İsmayıl adı qoyur və

onu hamıdan gizli saxlayır. Sonralar İsmayıl cəmiyyət içinə çıxır, ovda türkman elindən Gülzar adlı qızı görüb ona aşiq olur. Geri qayıdandan sonra Gülzarın ardınca səfərə çıxır, yolda Rəmdar Pəri və Ərəbzəngi ilə qarşılaşır. Nəhayət, Gülzarı tapıb özü ilə vətəninə gətirir. Ədil şahın Gülzara gözü düşür, ona yiyələnmək üçün İsmayılın gözlərini oyub quyuya atır. Təsadüfən quyunun yanından keçənlər İsmayılı xilas edib gözlərini sağaldırlar. İsmayıl Ərəbzəngi ilə birləşib Ədil şahın üzərinə gedir. Döyüşdə Ədil şah öldürülür, İsmayıl Gülzara qovuşur və atasının yerinə hakimiyyətə keçir.

Göründüyü kimi, dastanın süjet xətti tarixi faktlar üzərində qurulmayıb, təxəyyülün məhsuludur. "Şah İsmayıl" dastanı bu gün də ustad aşıqlar tərəfindən söylənilir. Dastanın motivləri əsasında bəstəkar M.Maqomayev eyniadlı opera bəstələmişdir.

Mənbə: *Azərbaycan dastanları, III, 123-158.*

"ŞAH İSMAYIL" OPERASI – görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin (1885-1937) eyniadlı Azərbaycan dastanı əsasında bəstələdiyi opera. Opera 1916-cı ildə yaradılmış, ilk dəfə 1919-cu ildə səhnələşdirilmişdir. Libretto Mirzə Əbdülqadir İsmayılzadə Vüsaqi (1865-1914, Mikayıl Müşfiqin atası) və M.Maqomayev tərəfindən yazılmış, sonralar bəstəkar tərəfindən bir neçə dəfə redaktə edilmişdir. "Şah İsmayıl" operası hazırda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarındadır.

Əsərin mövzusu I Şah İsmayıl haqqında tarixi faktlara deyil, təxəyyülə əsaslanır. Operanın baş qəhrəmanları Şah İsmayıl, Aslan şah, Gülzar, Ərəbzəngi və digər obrazlardır. Əsərdə muğam partiyaları mühüm yer tutur.

Mənbələr: *Z.Səfərova. Azərbaycan musiqi tarixi, II, 205-216.*

"ŞAH İSMAYIL ORDENİ" – Azərbaycan Respublikasının ali hərbi ordeni. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri təltif edilirlər.

"Şah İsmayıl" ordeni aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkilində və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə;
- Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində xüsusi xidmətlərinə görə;
- görkəmli sərkərdəlik fəaliyyətinə görə;
- respublikada fövqəladə halların nəticələrinin aradan qaldırılmasında xüsusi xidmətlərinə görə.

"Şah İsmayıl" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "İstiqlal" ordenindən sonra taxılır.

"Şah İsmayıl" ordeni düzgün səkkizguşəli ulduz şəklindədir, gümüşdəndir. Ulduzun mərkəzində üzü qızıl suyuna çəkilmiş və minalanmış, səkkiz bərabər küncü olan lövhə fonunda Şah İsmayılın əksi profildən təsvir edilmişdir. Arxa tərəfi hamar səthlidir, ortasında "Şah İsmayıl" yazılmışdır, ondan aşağıda or-

denin nömrəsi həkk olunmuşdur.
Orden həm boyundan asıla, həm də paltara bərkidilə bilər.
"Şah İsmayıl" ordeni Azərbaycan Respublikasının yeganə dövlət təltifidir ki, bu ordenlə heç kim təltif edilməyib (hazırkı dövrə kimi olan məlumat).

Mənbələr: *Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statusunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (6 dekabr 1993-cü il, №755); "Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (18 dekabr 2015-ci il, №64-VQD).*

ŞAH İSMAYILIN PORTRETİ – XVI əsr italyan rəssamı tərəfindən çəkilmiş portret. I Şah İsmayılın naturaya ən çox uyğun olan portreti sayılır. Uzun müddət əsərin italyan rəssamı Centile Bellini (1429-1507) tərəfindən yaradıldığı qəbul edilirdi. Bellini 1479-cu ildə Müqəddəs Roma imperiyasının imperatoru III Fridrix tərəfindən Osmanlı dövlətinə ezam edilmişdi. O, İstanbulda iki il qalaraq Osmanlı sultanlarının portretlərini çəkmişdi. Bəlkə də bu səbəbdən I Şah İsmayılın portretini də onun fırçasına aid etmişlər. Amma əslində bu portretin müəllifi digər italyan rəssamı Cristofano dell'Altissimodur (1525-1605). Dell'-Altissimo Florensiyada Pontormo və Bronzino kimi məşhur rəssamlardan sənət dərsi almışdı, zadəgan-mesenat Kozimo de Mediçinin himayəsi altında fəaliyyət göstərirdi.
1512-ci ildə italyan ruhanisi, alim və həkim Paolo Giovio (1483-1552) görkəmli şəxsiyyətlərin portretlərini rəssamlara sifariş etməyə başlamışdı. Dünyasını çoxdan dəyişmiş şəxslərdən tutmuş Giovionun müasirlərinə kimi 484 nəfər məşhur alim, şair, hökmdar və rəssamın portretləri çəkilərək kolleksiya halına gətirildi. Elmi ədəbiyyatda bu portretləri Giovio seriyası adlandırırlar. Giovio hazırda diri olan şəxslərin portretini naturadan çəkdirməyə üstünlük vermiş, həyatda olmayan şəxslərin əksini isə rəssamın təxəyyülünün öhdəsinə buraxmışdı. Giovio bu portretlər üçün ayrıca bina da tikdirmişdi və əsərlər orada nümayiş olunurdu. 1546-cı ildə o, kolleksiyanın təsvirini kitab halında nəşr etdirdi. Lakin 1552-ci ildə Paolo Giovio öldükdən sonra kolleksiya hissələrə bölünərək ayrı-ayrı şəxslər tərəfindən mənimsənildi. Bundan sonra həmin əsərlərin orijinalının izi itmişdir.
Xoşbəxtlikdən Kozimo de Mediçi bundan əvvəl Giovio seriyasının surətini yaratmağı Cristofano dell'Altissimoya sifariş etmişdi. Rəssam bir neçə illik gərgin əmək nəticəsində portretlərin təqribən yarısının yerini təsbit edərək onların surətlərini çıxardı və 1587-ci ildə əsərlər Uffisi qalereyasında nümayişə qoyuldu. Hazırda Giovio seriyası həmin muzeydə nümayiş etdirilir. I Şah İsmayıla aid edilən portret də Giovio seriyasındandır.
Uffisi qalereyasındakı portret I Şah İsmayılın vəfatından 44 il sonra çəkilib (1568), buna görə də onu naturadan çəkilmiş hesab etmək olmaz. Giovio seriyasının orijinalı isə bundan daha əvvəl

yaradıldığı üçün naturadan çəkilmə ehtimalı vardır. Məlumdur ki, Giovio portret kolleksiyası üçün sifarişləri 1512-ci ildən verməyə başlamışdı; bu zaman I Şah İsmayıl hələ həyatda idi. Bəzi məlumatlara görə, portret yaradılarkən I Şah İsmayılın sağlığında Səfəvilər dövlətinə səfər etmiş və onunla görüşmüş səyyah Giovanni Maria Angiolellonun xatirələri əsas tutulmuş və səyyahın təsviri əsasında şahın xarici görünüşünün əsas cizgiləri portretdə öz əksini tapmışdır.

I Şah İsmayılın portreti 60 sm x 45 sm ölçüdə taxta lövhə üzərində çəkilib. Hökmdar başına ağ çalma qoymuş, əyninə qızılı işləməli köynəyin üstündən xəz kürk geyinmişdir. Profildən təsvir edilmiş obraz sarışındır, uzun bığlı, saqqallıdır. Diqqətçəkici cəhət budur ki, Qərb dövlətləri Səfəvilərə Osmanlı imperiyasının rəqibi və Sultan Səlimin Qərbə doğru yönəlməsinin maneəkarı kimi rəğbət bəsləyirdilər. Buna görə də seriyadakı Osmanlı sultanlarının portretlərindən fərqli olaraq, I Şah İsmayılın obrazı daha cazibədar şəkildə təsvir edilmişdir.

Uffisi qalereyasında, Giovio kolleksiyasında eyni rəssamın qələmindən çıxmış I Şah Təhmasibin portreti də qorunur. Hər iki əsər 2018-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıya gətirilərək Heydər Əliyev Mərkəzində təşkil edilmiş "Əbədiyyət xəzinəsi" sərgisində bir müddət nümayiş etdirilmişdir.

Mənbələr: *Elşad Əliyev. I Şah İsmayılın Uffizi Qalereyasında saxlanılan portreti haqqında ("Mədəniyyət.az", 1/2019), s.43-44; Б.Жермен. История истории искусства: от Вазари до наших дней, стр. 29-30.*

ŞAH MAHMUD NİŞAPURİ (vəf. 1564/65) – XVI əsrdə Səfəvilər sarayında fəaliyyət göstərmiş məşhur xəttat. I Şah İsmayılın ən sevimli xəttatlarından idi. Hətta rəvayətə görə, *Çaldıran döyüşündən* əvvəl Osmanlı ordusuna əsir düşməsinlər deyə şah ustad rəssam *Kəmaləddin Behzadı* və Şah Mahmud Nişapurini mağarada gizlətmişdi. Behzadın bundan xeyli sonra saraya gəldiyini nəzərə alaraq hadisənin onunla bağlı hissəsinin həqiqətə uyğun olmadığını düşünürük.

Şah Mahmud Nişapuri məşhur xəttat Əbdi Nişapurinin şagirdi və bəzi məlumatlara görə, qardaşı oğlu idi. *Sam Mirzə* yazırdı ki, o, Əbdinin şagirdi olsa da, ustadını ötüb keçmişdi. Son dərəcə gözəl xətti olduğuna görə "zərrinqələm" (qızıl qələmli) ləqəbini qazanmışdı. Nəstəliq xətti ilə yazıları müstəsna gözəllikdə idi. Onun ən məşhur əsərləri Caminin "Həft övrəng"inin və Nizami "Xəmsə"sinin nüsxələridir. Nizami "Xəmsə"sinin həmin nüsxəsi dövrün böyük rəssamlarının (o cümlədən Behzadın) miniatürləri ilə bəzənmişdi. Salnaməçilər yazırlar ki, saray kitabxanasına daxil olan kitablar bəzən hədiyyə olaraq başqa hökmdarlara göndərilirdi, təkcə həmin "Xəmsə" nüsxəsinin heç yerə göndərilməsinə icazə verilmirdi.

I Şah Təhmasibin gənclik illərində Şah Mahmud Nişapuri onun dərin hörmətini qazanmışdı və saray kitabxanasının mühüm ustadlarından idi. Sonralar o, Məş-

hədə köçmüş və təqribən 20 il burada yaşadıqdan sonra dünyasını dəyişmişdir.

Mənbələrdə ehtiram əlaməti olaraq onun adını "Mövlana Şah Mahmud" şəklində yazmışlar. Təmtəraqdan uzaq həyat yaşamış, şeirlər də yazmışdır.

Mənbə: *"Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, 1388 h.-ş., 15-ci dəftər), s.113; Sam Mirzə. Töhfeyi-Sami, s.81.*

ŞAH MƏSCİDİ (İsfahan) – İsfahan şəhərində Səfəvilər dövrünə aid nadir memarlıq abidəsi. *Nəqşicahan meydanının* cənub tərəfində, *Qeysəriyyə alaqapısı* ilə üsbəüz yerləşir. Buranı Abbasi məscidi də adlandırırdılar, hazırkı adı İmam məscididir. İsfahan Şah məscidi 1611-16-cı illər arasında I Şah Abbasın göstərişi ilə tikilmişdir, şah bu məscidi babası I Şah Təhmasibin ruhuna ithaf etmişdi. Şah məscidinin memarı Əliəkbər İsfahani, xəttatlıq və nəqqaşlıq işlərinin müəllifi *Rza Abbasi* və sənət dostlarıdır. Tikintinin son mərhələsi və bəzək işləri sonrakı şahların zamanında davam etmişdir. Məscid qapılarının qızıl və gümüşlə işlənmiş taylarının üzərindəki şeirdən məlum olur ki, qapılar 1628-43-cü illər arasında (təqribən I Şah Səfinin zamanında) hazırlanmışdır. Məscidin həyətində Nasiri və Süleymaniyyə adlı iki mədrəsə vardır.

Məscidin monumental alaqapısının hündürlüyü 27 metr, onun iki tərəfindəki minarələrin yerdən hündürlüyü 42 metrdir. Məscidin özünün qoşa minarələrinin hündürlüyü 48 metrə bərabərdir, məscid günbəzi isə bundan daha yüksəkdir (52 metr). Minarələrin üzəri naxış şəklində "Mühəmməd" və "Əli" sözləri ilə dövrələnir. Şah məscidinin həm çöl, həm də iç divarları başdanbaşa ornamentlərlə bəzənmiş, kaşı üzərində çəkilmiş naxışlarda qızıl suyundan bol istifadə edilmişdir.

Şah məscidinin böyük günbəzinin altında səs güclü akustika yaradır. Məscidin qibləsi *Şeyx Bəhai* tərəfindən dəqiq şəkildə təyin edilmişdir. Cənub-qərb tərəfdəki Süleymaniyyə mədrəsəsinin həyətində zöhr anını (şəriətə uyğun olaraq günorta namazının vaxtını) dəqiq göstərən daş şaxis (sütun) yerləşir, bu şaxis Şeyx Bəhainin hesabatları əsasında quraşdırılmışdır.

Mühəqqiq Səbzəvari, Şeyx Bəhai, Feyz Kaşani, Məhəmməd Təqi və *Məhəmməd Baqir Məclisilər*, *Məhəmməd Saleh* və *Məhəmməd Hüseyn Xatunabadilər, Sultan əl-üləma* və digər böyük alimlər müxtəlif dövrlərdə Şah məscidinin imamcamaatı olmuş və burada dərs demişlər.

Mənbələr: *Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.78-81; Lüğətnameyi-Dehxuda, II, 2766.*

ŞAHİ – XV-XVI əsrlərin qovşağında yaşamış Azərbaycan şairi. Səfəvilər dövründə ədəbi yaradıcılığa başlamış, I Şah İsmayılın şərəfinə özünə "Şahi" təxəllüsünü götürmüşdür. Şah İsmayıl Xətainin sarayında fəaliyyət göstərdiyi ehtimal edilir. Sonralar İstanbulda yaşamış, ehtimala görə, *Çaldıran döyüşündən* sonra Təbrizi ələ keçirmiş Osmanlı

ordusu tərəfindən aparılmışdır. Şahinin şeirləri sadə xalq dilindədir, bununla yanaşı, dərin irfani yükə malikdir. *Ələvi-bektaşi* dərvişlər tərəfindən çox oxunmuş və sevilmişdir. Təzkirələrdə adı "Əcəmi Şahi" və "Şahiyi-şərqi" kimi qeyd edilir. Həyatı haqqında məlumatlar və yaradıcılığından nümunələr azdır. Təzkiräçi Lətifi onu "öz tərzində (üslubunda) yeniliklər sahibi" adlandıraraq I Şah İsmayılın yaxınlarından saymış və şahın ən güclü şairlərindən hesab etmişdir. Yaradıcılığında Əlişir Nəvai təsiri də duyulur.

Mənbələr: *Lətifi. Təzkirət əş-şüəra və təbsirət ən-nüzəma, s.201; Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə), III, s.493; Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi, s.408-409; Y.Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.318; Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.341-344.*

"ŞAHSEVƏNİ" – Azərbaycan aşıq havalarından biridir. Səfəvilər zamanında yaradıldığı və *Şahsevən* tayfasının şərəfinə adlandırıldığı deyilir.

ŞAİR SƏFƏVİLƏR – Səfəvi şahlarının hamısı şeirə və sənətə bağlı olmuş, istedadlı şairləri himayə etmiş, sarayda şeir məclisləri təşkil etmişlər. Hətta Səfəvilər sarayında şairlərin başçısı olan *məlik əş-şüəra* vəzifəsi də təsis edilmişdi. Orta əsrlərə aid təzkirə kitablarında adları çəkilən şair və ədiblərin böyük əksəriyyəti Səfəvi sarayında yaşamış, yaxud Səfəvi şahlarının himayəsi altında yaradıcılıqla məşğul olmuşlar.

Səfəvi sülaləsi nümayəndələrinin bir çoxunun şeir təbi var idi. Onlar həm öz ana dilləri olan Azərbaycan dilində, həm də o dövrün ədəbi dili olan farsca şeir yazırdılar. Səfəvi şahlarının şeirləri (Şah İsmayıl Xətai istisna olmaqla) ədəbi dəyər baxımından o dövrün görkəmli qələm sahiblərinin əsərləri ilə müqayisə edilməsə də, ədəbiyyatşünaslıq elmi üçün maraqlı və qiymətlidir.

Səfəvilər sülaləsinə mənsub olan aşağıda adları çəkilən şəxslərin az və çox sayda şeirləri qalmışdır:

Şeyx Səfiəddin Ərdəbili – "Səfi" təxəllüsü ilə Azərbaycan türkcəsində, farsca və Gilan ləhcəsində (gilək dili) yazmışdır.

I Şah İsmayıl – təxəllüsü "Xətai". Azərbaycan dilində kifayət qədər irihəcmli (qəzəllərin sayı 370-dən artıqdır) divanı, *"Dəhnamə"* və *"Nəsihətnamə"* məsnəviləri vardır. I Şah İsmayılın 4 oğlu olmuş (I Şah Təhmasib, Bəhram Mirzə, Əlqas Mirzə və Sam Mirzə), onların hamısı şeir sahəsində qələmlərini sınamışdır.

I Şah Təhmasib – "Adil" təxəllüsü ilə şeirlər yazmışdır. *Sadiq bəy Əfşar* onun haqqında yazır: "Ruh oxşayan sözləri başdan-başa lətif və zərif idi. İstəsəydi, bütün ömrü boyu gözəl şeirlər deyərdi. Şeir deməkdə ardıcıllıq göstərməsə də, təbinin dəryasından çıxan hər bir gövhər dünya əhlinin qulağında sırğa olub qalırdı".

Şah Məhəmməd Xudabəndə – təxəllüsü "Fəhmi" idi. *"Məcmə əl-xəvas"da* deyilir: "Rəssamlıq, şeir qaydaları və musiqi istilahlarından çox baxəbər bir şəxs idi".

II Şah İsmayıl – şeirlərində "Adili" təxəllüsünü işlətmişdir. Sadiq bəy Əfşarın

sözləri ilə desək, "şeirin hər bir növündə məharəti var idi".

I Şah Abbas – "Abbas" təxəllüsü ilə şeirlər yazmışdır.

I Şah İsmayılın oğlu şahzadə *Bəhram Mirzə* – "...şeiri rəngarəng, dediyinin yerini bilən, hər kəlmədə məna güdən, şeiri sevən, şairə qiymət verən bir mirzə idi". Təxəllüsü "Bəhrami" idi.

I Şah İsmayılın oğlu şahzadə *Əlqas Mirzə* – Sadiq bəy onu "yaxşı şeir təbi var idi" sözləri ilə xarakterizə edir.

I Şah İsmayılın oğlu *Sam Mirzə* – "Məcmə əl-xəvas"da onun haqqında belə yazılıb: "Müxtəlif nəzm və nəsr növlərində şux və möhkəm təbi olub. *"Töhfeyi-Sami"* adlı bir şairlər təzkirəsi yazdı. Axırda Şeyx Səfiəddin məqbərəsinə çəkilib şairliklə məşğul oldu". Təxəllüsü "Sami" idi.

I Şah İsmayılın nəvəsi, Bəhram Mirzənin oğlu *İbrahim Mirzə* – "Cahi" təxəllüsü ilə şeirlər yazmışdır. Məşhəd valisi olarkən sarayı sənət adamlarının fəaliyyət məkanı idi.

Bəhram Mirzənin digər oğlu *Bədiüzzaman Mirzə* – "Məcmə əl-xəvas"da qeyd edilir ki, "təbində böyük şuxluq var".

I Şah Təhmasibin oğlu *Mustafa Mirzə* – eyni mənbədə onun haqqında deyilir: "təbi çox incə və aşiqanədir".

I Şah Abbasın qardaşı *Həsən Mirzə* – Sadiq bəy Əfşar onun "yumşaq şeir təbinin" olduğunu yazır.

Mənbələr: *Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.19-37; Sam Mirzə. Töhfeyi-Sami, s.7-10.*

ŞEYX BƏHAİ (1547-1620/21) – XVI-XVII əsrlərdə Səfəvilər dövlətində yaşayıb-yaratmış ensiklopedik bilikli alim və din xadimi. Əsl adı Bəhaüddin Məhəmməd ibn İzzəddin Hüseyn Harisi Cəbəli Amilidir, "Şeyx Bəhai" ləqəbi ilə tanınmışdır. Bu nəslin şəcərəsi İmam Əlinin (ə) məşhur səhabəsi Haris Əvər Himdaniyə bağlandığı üçün "Harisi" kimi tanınırdılar. Şeyx Bəhainin atası Şeyx İzzəddin Hüseyn *Cəbəli-Amil* məntəqəsinin nüfuzlu alimlərindən olmuş, məşhur şiə alimi Şəhidi-sanidən dərs almışdır. Ustadının faciəli qətlindən sonra Şeyx Hüseyn yaşadığı bölgədə qalmağın təhlükəli olduğunu görərək ailəsi ilə birlikdə Səfəvilər dövlətinə köçmüşdür (1548). Şeyx Bəhai Qəzvində təhsil almağa başlamış, qısa müddətdə bu şəhərin elmi mühitində fərqlənməyi bacarmışdır.

Sonralar atası ondan bir qədər əvvəl Cəbəli-Amildən köçüb gəlmiş və İsfahan *şeyxülislamı* vəzifəsinə təyin edilmiş *Şeyx Əli Minşarın* təqdimatı əsasında Məşhəd və Heratın şeyxülislamı mənsəbinə təyinat aldı. Şeyx Hüseyn II Şah İsmayılın zamanında həcc səfərinə yola düşdü və geri qayıtmadan yolda dünyasını dəyişdi. Bundan sonra Şeyx Bəhai əvvəlcə atasının əvəzinə Herat şeyxülislamı, ustadı və qayınatası Şeyx Əli Minşarın vəfatından sonra isə İsfahan şeyxülislamı təyin olundu.

I Şah Abbas hakimiyyətə gəldikdən sonra Şeyx Bəhaini vəzir mənsəbinə gətirdi. Şeyx Bəhai sarayda çox böyük nüfuz sahibi idi, şah bütün məsələlərdə onunla məsləhətləşir və tövsiyələrinə əməl edirdi. Alim səyahət etməyi xoşlayırdı; Hicaz, İraq, Şam, Fələstin, Mi-

sir, Azərbaycan, Aran məntəqələrinə səfərlər etmiş, hər bölgədə elm xadimləri ilə görüşüb müzakirələr aparmışdı. I Şah Abbas Osmanlılar üzərində qələbə naminə dediyi nəzirə uyğun olaraq Məşhədə ziyarətə piyada yola düşəndə Şeyx Bəhai də onu müşayiət etmişdi (1599/1600).

Şeyx Bəhai ensiklopedik bilikli alim idi, dini elmlərlə yanaşı dünyəvi elmləri də mükəmməl şəkildə mənimsəmişdi. Onun ərəb və fars dillərində müxtəlif elm sahələrinə həsr olunmuş 100-dən çox əsərinin adı mənbələrdə qeyd edilmişdir. Şeyx Bəhainin fiqh, üsuli-fiqh, hədis, təfsir, əqaid, hesab, astronomiya, həndəsə, ədəbiyyat və s. mövzularda əsərləri, klassik kitablara yazdığı şərh və haşiyələr həmişə diqqət mərkəzində olmuşdur. I Şah Abbasın xahişi ilə şəriət hökmlərinin fars dilində sadə izahını ehtiva edən "Camei-Abbasi" risaləsi, riyaziyyat sahəsində öz dövrünün elmi nailiyyətlərini üstələyən "Xülasət əl-hesab" əsəri, müxtəlif mövzularda hikmətli kəlam və ibrətli qissələrdən, şeir parçaları və faydalı məlumatlardan ibarət "Kəşkül" məcmuəsi, ərəb dilinin sintaksis (nəhv) qaydaları barədə "Səmədiyyə" kitabı xüsusilə məşhurdur. Şeyx Bəhai metafizik elmləri də mükəmməl bilirdi, bəzi təbii fəlakətləri və digər bəlaları dəf etməkdən ötrü onun tərtib etdiyi tilsimlər haqqında rəvayətlər xalq arasında məşhur olmuşdur. Bəzi qeyri-adi xüsusiyyətləri ilə seçilən memarlıq abidələrinin layihəsi də ona aid edilir (İsfahanda bir şam ilə qızınan *hamam*, *yellənən minarələr*, Nəcəf şəhərində zöhr vaxtını dəqiqliklə göstərən divar və s. Lakin bu kimi layihələrin Şeyx Bəhaiyə aidliyi son zamanlarda bəzi araşdırmalar nəticəsində şübhə altına alınmışdır).

Molla Xəlil Qəzvini, Feyz Kaşani, Molla Sədra Şirazi, Mühəqqiq Səbzəvari, Məhəmməd Təqi Məclisi kimi böyük alimlər Şeyx Bəhai məktəbinin yetirmələridir.

Şeyx Bəhai həm də incə təbli şair idi, onun bir neçə məsnəvisi ("Çörək və halva", "Çörək və pendir", "Süd və şəkər", "Pişik və siçan") və kiçikhəcmli şeirləri qalmışdır. Bəhai təxəllüsü ilə yazmış alimin bədii yaradıcılığı ədəbiyyat biliciləri tərəfindən yüksək dəyərləndirilir.

Şeyx Bəhai 1620-ci və ya 1621-ci ildə İsfahanda vəfat etmiş, Məşhəddə İmam Rza (ə) hərəmində torpağa tapşırılmışdır. Müasirlərinin yazdığına görə, alimin cənazə namazına 50 min nəfərdən artıq insan qatılmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 301-320; Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 88-97; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat, VII, 56-83; S.H.Əmin. Ensiklopedik bilikli böyük alim Şeyx Bəhai ("Məcmueyi-məqalat", 1387 h.-ş, №57), s.15-23; Seyid Zahir Hüseyni. Şeyx Bəhainin memarlıq əsərlərinin təhlili ("Süxəni-tarix" dərgisi, 1389 h.-ş., №9), s.59-75; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, III, 60-61.*

ŞEYX BƏHAİ HAMAMI – İsfahan şəhərində XVII əsrdə Səfəvilər dövrünün böyük alimi *Şeyx Bəhainin* layihəsi əsasında tikilmiş tarixi memarlıq abidəsi.

Xalq arasında "bir şamla qızdırılan hamam" adı ilə tanınır. Hamamın giriş qapısı üzərindəki kaşı kitabədə tikinti tarixini əbcəd hesabı ilə ifadə edən şeir (maddeyi-tarix) həkk edilib. Oradakı yazını fərqli metodlarla hesablayanda hicri 1065-ci və ya 1025-ci il alınır. Birinci tarix Şeyx Bəhainin vəfatından 35 il sonraya, ikinci tarix isə vəfatından 5 il əvvələ təsadüf edir. Bəzi tədqiqatçılar birinci hesablama variantını əsas götürərək, hamamın Şeyx Bəhai tərəfindən tikildiyini şübhə altına qoyurlar.

Hamam İsfahan şəhərinin qədim camesindən cənubda, Dərdəst məhəlləsində yerləşir. Yaxınlıqda Şeyx Bəhainin təşəbbüsü ilə tikilmiş əssarxanə (yağ istehsal edilən emalatxana) mövcuddur. Burada müxtəlif məqsədlər üçün, o cümlədən yanacaq kimi işlədilən yağ emal edilirdi.

XVIII əsrin sonlarında hamamın işləmə qaydasını öyrənməyə çalışan əcnəbilər onun zirzəmisini sökmüş və isitmə mexanizmini çıxarıb İngiltərəyə aparmışlar. Bunun nəticəsində hamamın isitmə sistemi sıradan çıxmışdır.

Hamamın fəaliyyət sistemi barədə müxtəlif fərziyyələr irəli sürülmüşdür. Hətta Şeyx Bəhainin atom enerjisindən xəbərdar olması və hamamın isitmə sistemini bunun əsasında qurması da iddia edilib. Xalq arasında yaranmış təsəvvürə görə, Şeyx Bəhai guya hamamın su anbarının altında adi bir şam yerləşdirmişdi və bu şam gecə-gündüz yanaraq bütün xəznədəki suyu qızdırırmış.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, yaxınlıqda yerləşən camenin təharətxanasında işlənən su və axıntılar yeraltı zirzəmiyə tökülür, burada təbii proses nəticəsində tullantılardan metan qazı və kükürd oksidi ayrılırdı. Həmin qazlar saxsı borular vasitəsilə hamamın altındakı xüsusi fəzaya nəql edilir və burada yandırılırdı. Bəzi məlumatlara görə, yalnız camenin deyil, bütünlükdə İsfahan şəhərinin kanalizasiya sistemində ayrılan qazlar bura yönəldilmişdi. Hamamın yaxınlığında yerləşən əssarxanənin fəaliyyəti nəticəsində yaranan qazları da bura əlavə etsək, xeyli miqdarda yanacaq məhsulu alınar ki, bu da hamamın suyunun isidilməsi üçün kifayət edərdi. Qazanxana və suyu ötürən borular qızıldan hazırlanmışdı, çünki qızıl ən yüksək istilikkeçirmə qabiliyyətinə malik metaldır və onu müəyyən dərəcəyədək isitmək üçün başqa materiallara nisbətən dəfələrlə az enerji kifayət edir. Hamamın günəş enerjisi hesabına işlədiyini irəli sürən nəzəriyyələr də mövcuddur.

İsfahandakı hamamın layihəsi əsasında onun bənzəri (surəti) tikilmişdir. Bu layihə beynəlxalq ixtira müsabiqələrində qızıl medallara layiq görülmüşdür.

Son illərdə İsfahandakı hamamda təmir və bərpa işləri aparılmışdır.

Mənbələr: *M.Haşimiyan. Şeyx Bəhai hamamının istilik sisteminin layihələndirilməsi istiqamətində araşdırmalar (ICONFAAA materialları); Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 305; Hüseyn Ğəzzali İsfahani. Bir baxışda İsfahan, s.494-495.*

ŞEYX CÜNEYD TÜRBƏSİ – Azərbaycanın Qusar rayonunun Həzrə kəndi ərazisində yerləşən XVI əsrə aid tarix-

memarlıq abidəsi. 1460-cı ildə Şirvanşah I Xəlilullahın ordusu ilə *Şeyx Cüneydin* (I Şah İsmayılın babası) rəhbərlik etdiyi qızılbaş qoşunu arasında baş vermiş döyüşdə Şeyx Cüneyd həlak olmuş və burada dəfn edilmişdir. *İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"* kitabında yazırdı: *"Fütuhat-i Əmin"də* yazılmışdır ki, Səfəviyyə xanədanının sufiləri o həzrətin (Cüneydin) möhtərəm cəsədini darül-irşad Ərdəbilə gətirib müqəddəs bağçada dəfn etdilər. Bu həqirə (İsgəndər bəy Münşiyə) məlum olduğuna görə isə, həmişə bu ali sülalənin tərəfdarı olan Tabasaran əhalisindən bəzi kəslər o həzrətin mübarək cəsədini hərb meydanından çıxararaq Quba Gülhan mahalına aid olan Quryan kəndində münasib bir yerdə dəfn etmişdilər. İndi o şərəfli məkan feyz və rəhmət nurunun məskən tutduğu yerdir və o vilayətin xalqının ziyarətgahıdır. "Həbib əs-siyər" əsərinin müəllifi o həzrətin dəfn yerini qeyd etməyib. Yəqin ki, o, zamanın tələbinə uyğun olaraq və düşmənlərin onun məzarına zərər vuracağından qorxaraq bu məsələnin gizli qalmasına çalışmış və o həzrətin dəfn yerini o vaxt məxfi saxlamışdır". Burada adı çəkilən Quryan kəndi hazırda Həzrə adlanır.

Məzarın üzərindəki türbənin qərb fasadında yerləşdirilmiş kitabədən aydın olur ki, türbə 1544/45-ci illərdə I Şah Təhmasibin əmri ilə tikilmişdir. Şeyx Cüneyd türbəsi tərəfləri 7.23 metr olan kvadrat plana malikdir. Bişmiş kərpicdən tikilmiş türbə binasında dörd tərəfdə qapı yeri vardır. Qapıların eni 4.67 metr, dərinliyi 2.90 metrdir. Bunun sayəsində girişin hər iki tərəfində kiçik hücrələr yaranmışdır. Həmin hücrələrin birindən günbəzə pilləkən qalxır. Daxili divarlar 1.42 metr hündürlüyə kimi kvadrat şəkilli, şahmat formasında düzülmüş mavi və qara-bənövşəyi kaşılarla üzlənib, divarların yuxarı hissəsi suvaqla örtülüb. Kvadrat formalı divarlardan dairəvi günbəzə keçidi stalaktitlər təmin edir. Türbənin dəbilqəyə bənzər günbəzi çöl tərəfdən rəngli kaşılarla bəzədilmişdir.

Türbənin daxilində simvolik qəbir daşının üzərində şəbəkə formalı taxta sənduqə qoyulub. Divarda mehrab oyuğu vardır.

Şeyx Cüneyd türbəsinin həyətində qədim qəbiristanlıq yerləşir, burada hündür başdaşları olan qəbirlər mövcuddur.

Tarixi məlumatlara əsasən, I Şah Təhmasibin zamanında Şeyx Cüneydin cənazəsinin qalıqları Ərdəbil şəhərinə aparılmış və orada Səfəvilərin ailəvi məzarlığında dəfn edilmişdir. Həzrə kəndindəki məzarın yerində isə xatirə məqsədilə hazırkı türbə inşa edilmişdir.

Mənbələr: *А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр.48-50; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.97; М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, IV, 82-83; Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.65-65.*

ŞEYX HEYDƏR TÜRBƏSİ – Azərbaycanın Xızı royununun Tıxlı kəndindən 3 km məsafədə, Beşbarmaq dağının arxasında yerləşən XVI əsrə aid tarix-

memarlıq abidəsi. 1488-ci ildə Şirvanşah Fərrux Yasarla Ağqoyunlu Sultan Yaqubun birləşmiş qoşunları ilə döyüşdə *Şeyx Heydər* (I Şah İsmayılın atası) həlak olmuş və burada dəfn edilmişdir. Türbənin üzərindəki kitabədən məlum olur ki, məzarın yeri uzun müddət naməlum qalmış, sonra İmam Əli (ə) I Şah İsmayılın yuxusuna gələrək məzarın yerini ona bildirmişdir. Qazıntı işlərindən sonra Şeyx Heydərin qəbri aşkara çıxmışdır. Kitabə 1639/40-cı illərdə hazırlanmışdır. I Şah İsmayıl məzarı aşkar etdikdən sonra yaxınlıqda Təkəlü və Şıxlar kəndlərini saldırmış, türbəyə mütəvəllilər təyin etmişdir. Əhalisi son zamanlarda buranı tərk edib sənaye şəhərlərinə köçdüyü üçün həmin kəndlər dağılmış haldadır.

Şeyx Heydər türbəsi hazırda uçulmuş vəziyyətdədir və təmirə ehtiyacı var. Naxçıvan-Marağa memarlıq üslubunda bişmiş kərpicdən tikilmiş bina iki otaqdan ibarət olmuş, tavanı günbəzlə örtülmüşdür. Türbənin ətrafında qədim qəbir daşları yerləşir.

Şeyx Heydərin cənazəsinin qalıqları Səfəvilər zamanında buradan götürülərək Ərdəbil şəhərinə aparılmış və *Şeyx Səfi kompleksindəki* ailə məzarlığında dəfn olunmuşdur. *İsgəndər bəy Münşi "Tarixi-aləmarayi-Abbasi"* kitabında yazır ki, Şeyx Heydərin ölümündən 22 il sonra I Şah İsmayıl Şirvanşah Şahruxu cəzalandırmaq üçün Tabasarana yürüş edəndə cənazəni qəbirdən çıxarmış və Ərdəbilə apararaq əcdadlarının qəbrinin yanında torpağa tapşırmışdır.

Mənbələr: *М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, том IV, стр.89.*

ŞEYX LÜTFULLAH MƏSCİDİ – İsfahan şəhərində Səfəvilər dövrünə aid nadir memarlıq abidəsi. İsfahanın mərkəzində, *Nəqşicahan meydanının* şərq tərəfində, *Ali qapu* sarayı ilə üzbəüz yerləşir. Burada əvvəllər də qədim bir məscidin olduğunu, sonra baxımsızlıq üzündən uçulub dağıldığını yazırlar. Məscid I Şah Abbasın göstərişi ilə 1602-1619-cu illər arasında tikilmişdir. *Şeyx Lütfullah Meysi* XVI əsrin sonlarında *Cəbəli-Amildən* Səfəvilər dövlətinə köçüb gəldikdən sonra I Şah Abbas bu məscidi onun şərəfinə və onun fəaliyyət göstərməsi üçün tikdirmişdi. Digər rəvayətə görə, məscid *Molla Abdullah Şüştəridən* ötrü tikilmiş, amma o, İsfahanın qədim camesində ibadət və tədrislə məşğul olduğu üçün yeni məscidi Şeyx Lütfullah Meysinin ixtiyarına vermişdi.

Şeyx Lütfullah məscidinin memarı Məhəmməd Rza İsfahanidir, məscidin kitabələri və əksər divar yazıları məşhur rəssam və xəttat *Rza Abbasinin* əl işləridir.

Şeyx Lütfullah məscidini digər məscidlərdən fərqləndirən cəhətlər, onun böyük ölçülərinə və əhəmiyyətinə baxmayaraq, minarəsiz və həyətsiz olmasıdır.

Məscidin interyeri başdan-başa zərif naxışlarla örtülmüşdür. Səfəvilər dövrü incəsənətinin ən gözəl nümunəsini təşkil edən bu naxışlar parlaq rəngə malikdir. Divarlarda İslam müqəddəslərinin

adları və onların kəlamları süls xətti ilə yazılmışdır. Məscidin daxili divarlarının və mehrabın bəzəkləri, günbəzin kaşı örtüyü burada işləmiş memar və nəqqaşların yüksək sənətkarlığından xəbər verir. Şeyx Lütfullah məscidinin qoşataylı qapısı çinar ağacından hazırlanmışdır, hələ də öz gözəlliyini və funksiyasını qoruyur. Əvvəllər məscidin qarşısında səkkizguşəli hovuz olmuş, sonrakı planlaşdırmalar zamanı hovuz ləğv edilmişdir.

Mənbələr: *Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.82-83; Lüğətnameyi-Dehxuda, II, 2765-2766.*

ŞEYX SƏFİ KOMPLEKSİ – Səfəvilər dövrünə aid nadir memarlıq kompleksi, Azərbaycan memarlıq tarixinin şah əsərlərindən biri. Kompleks Ərdəbil şəhərində, Səfəvilər sülaləsinin ulu əcdadı *Şeyx Səfiəddin Ərdəbilinin* qurmuş olduğu *təkkənin* ətrafında mərhələlərlə inşa edilmişdir. Hazırda kompleksin ümumi sahəsi təqribən 6000 kv.m təşkil edir. Ərdəbil təkkəsi qızılbaşların təriqət ocağı, Səfəvilər dövlətinin mənəvi özəyi idi. Səfəvi hökmdarları bura xüsusi əhəmiyyət verir, vaxtaşırı ziyarət edir, kompleksin inkişafı üçün əllərindən gələni əsirgəmirdilər. Dövlətin ən hörmətli şəxsləri Ərdəbil ocağının mütəvəllisi (müdiri) təyin edilirdi. Ölkənin ən iri *vəqf* qurumu Şeyx Səfi ocağına məxsus idi. Şeyx Səfi ocağının o qədər böyük hörməti var idi ki, şahın qəzəbindən qorxan şəxslər burada sığınacaq tapır və toxunulmazlıq əldə edirdilər.

Səfəvilər hakimiyyətə gəlməzdən əvvəl də Ərdəbil ocağı dövrünün hökmdarlarının diqqət və qayğı mərkəzində qərar tutmuşdu. Şeyx Səfiəddin öz vəsiyyətinə əsasən *zikr* və *xəlvət* ayinlərini icra etdiyi məkanın yaxınlığında oğlu *Şeyx Sədrəddin* tərəfindən dəfn edilmişdir. Həmin türbə və səkkizbucaqlı plana malik Cənnətsəra məscidi kompleksin ən qədim tikililəri hesab edilir. Şeyx Səfi məqbərəsi bir neçə tikilidən ibarət olan, komponentləri bir-biri ilə harmonik şəkildə əlaqələndirilmiş kompleks halındadır. Kompleksə zərif naxışlı kaşılarla bəzədilmiş böyük baştağ (giriş portalı), Şeyx Səfiəddin türbəsi, Cənnətsəra məscidi, Dar əl-hüffaz (Quran evi), Dar əl-hədis (Hədis evi), çinixana, qəndilxana, hərəmxana, *xəlvətxana*, şahnişin, şəhidgah və s. daxildir.

Şeyx Səfiəddin Ərdəbilinin məzarı üzərində ucaldılmış 17 metr hündürlükdə silindrik formalı türbənin fasadı qırmızı və şirələnmiş mavi kərpiclərin fiqurlu hörgüsü ilə bəzədilmişdir. Kərpiclərin düzümü nəticəsində türbənin fasadında "Allah" sözü çoxlu sayda təkrarlanır. Buna görə tikilini "Allah-Allah günbəzi" də adlandırırlar. Türbənin daxilində Şeyx Səfiəddinin iri ölçülü taxta sənduqəsi, oğlu Şeyx Sədrəddinin və onun nəvəsi *Şeyx İbrahimin* nisbətən kiçik sənduqələri yerləşir. Kompleksin girişindən Şeyx Səfinin qəbrinin yerləşdiyi məkanadək yeddi qapıdan keçmək lazımdır, bəzən bunu *nəfsin* 7 təkamül mərtəbəsi ilə bağlayırlar. Şeyx Səfi məqbərəsinin daxili divarları yerdən 2 metr hündürlüyədək taxta ilə üzlənib, ondan yuxarıya isə naxışlı parçalardan divar

kağızları yapışdırılıb. Üstündən yüzilliklər keçməsinə baxmayaraq, divar kağızları hələ də öz orijinal rəngini və təravətini qorumaqdadır.

I Şah İsmayılın məzarı çöldən silindrik, daxildən 2.5x3.5 metr ölçüyə malik dördbucaq planlı salonda yerləşir. Türbə Şeyx Səfi günbəzinin arxasında ucaldılıb və ondan daha kiçikdir. Şahın məzarının üzərində fil dişi, səndəl ağacı, firuzə və qızıl suyu ilə işlənmiş son dərəcə gözəl sənduqə quraşdırılıb. Divardakı əl izi *Ali-əbanın* 5 üzvünün sayını simvolizə edir.

Şah İsmayılın atası *Şeyx Heydərin* və anası *Aləmşah bəyimin*, həyat yoldaşı *Taclu bəyimin*, *I Şah Təhmasiblə* həyat yoldaşı *Sultanağa xanımın* və digər Səfəvi xanədanı üzvlərinin məzarları da kompleks ərazisində (üstüörtülü tikililərin daxilində və həyətlərdə) yerləşir.

Kompleksin yerləşdiyi ərazinin qarşısında kvadrat formalı bazar meydanı vardır. Binaların arasındakı ərazilər bir neçə həyət əmələ gətirir. Kompleksin girişindəki zərif naxışlı kaşılarla bəzədilmiş böyük baştağ (giriş portalı) geniş ölçülü bağa (21x100 metr) açılır. Bağ 6x14 metr ölçülü kiçik həyət vasitəsilə daha böyük həyətə (16x31 metr) birləşir. Həyətlərin mərkəzində mütənasib ölçülü hovuzlar vardır. Tikililərin arxasındakı həyət "şəhidgah" adlanır, burada *Çaldıran döyüşünün* şəhidləri dəfn edilib.

Kompleksə daxil olan binaların interyeri son dərəcə gözəl və rəngarəng naxışlarla başdan-başa örtülmüşdür. Kompleksin şərq tərəfində yerləşən, I Şah Abbasın zamanında inşa edilmiş, bir tərəfdən böyük məscid binasına bitişik olan çinixana xüsisi maraq doğurur. Çinixana xaricdən kəsik künclərə malik kvadrat formaya malikdir, daxildən isə mərkəzi kvadrat formalı otaq və künclərdə yerləşən yarımsəkkizbucaqlı apsida formalı nişlərdən ibarətdir. Bütün divar boyu nişlər taxta stalaktit üzlüklə örtülmüşdür. Stalaktitlərdə yaradılmış dərin oyuqlar çini qablar üçün nəzərdə tutulmuşdur. İnteryerin bütün həcmi – stalaktitlər, nişlər və günbəz divar rəsmləri ilə bəzədilmişdir. Əvvəllər oyuqları I Şah Abbasa çinli tacirlər tərəfindən hədiyyə verilmiş müxtəlif ölçülü yüzlərlə çini qab bəzəyirdi. Təkkənin zəngin və nadir kitabxanası da burada yerləşirdi. XVII əsrdə Ərdəbildə olmuş Qərb səyyahları buradakı nadir kitabxana fondundan heyrətlə söz açırdılar. 1828-ci ildə Şeyx Səfiəddin kompleksinin kitabxanası tədqiq edilmək bəhanəsi ilə Sankt-Peterburqa aparılmış, bir daha geri qaytarılmamışdır. Dünya şöhrətli *"Şeyx Səfi" xalçası* da vaxtilə burada mövcud olmuşdur, XIX əsrdə İngiltərə şirkətlərinin birinə satılmış xalça hazırda Londonun Viktoriya və Albert muzeyindədir.

Şeyx Səfiəddin Ərdəbilinin təriqət *xirqəsi*, Səfəvilərin altıguşəli mərmər gerbi də kompleksdə mühafizə edilir.

Bakıdakı Şirvanşahlar sarayı ilə yanaşı Şeyx Səfi məqbərəsi də Azərbaycanın orta əsrlər memarlıq komplekslərinin dövrümüzə tam şəkildə çatmış nadir nümunələridir. 2010-cu ildə kompleks UNESCO tərəfindən Ümumdünya irsi

siyahısına daxil edilmişdir.

Mənbələr: *A.B. Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв., стр.15-21; Rəuf Musəvi. Ərdəbil Səfəvilər dövründə, s.92-119; Sheikh Safi al-Din Khanegah and Shrine Ensemble in Ardabil (Iranian Cultural Heritage, Handicrafts and Tourism Organization); Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.116-119; E.Nəciyev. Səfəvilərin sufi dərgahı – Ərdəbil ("İslam maarifçiliyi və müasir dövr" beynəlxalq elmi konfransın materialları, 16-17 aprel 2015-ci il, Bakı), s.493-498.*

"ŞEYX SƏFİ" XALÇASI – XVI əsrdə Təbrizdə toxunmuş məşhur xalça. "Ərdəbil xalçası" adı ilə də tanınır. Təbriz xalçaçılıq məktəbinin məhsulu olan bu nadir sənət əsəri 1539-cu ildə I Şah Təhmasibin göstərişi ilə Ərdəbildəki Şeyx Səfi ocağı üçün hazırlanmışdır. Xalça "türk-baf" texniki üslubunda toxunmuşdur və üzərində 32 milyon ilmə vardır. Ölçüləri 5.34x10.51 metr olan xalçanın sahəsi 56 kv.m-dən artıqdır. "Şeyx Səfi" xalçası uzun müddət dünyada ən böyük ölçülü xalça sayılıb. 1891-ci ildə Şeyx Səfi ocağının ciddi təmirə ehtiyacı yaranır və təmirin xərclərini ödəmək üşün xalçanı Böyük Britaniyanın İranda fəaliyyət göstərən "Vincent Robinson & Co" şirkətinə satırlar. Şirkət isə öz növbəsində bu nadir əsəri Londondakı Viktoriya və Albert muzeyinə satır. Hazırda xalça həmin muzeyin eksponatları arasında qərar tutur.

Son dövrdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Şeyx Səfi" xalçasının surəti toxunmuşdur, həmin surət Bakıdakı Müasir İncəsənət Muzeyində nümayiş etdirilir.

"Ləçəkturunc" kompozisiyalı xalçanın bəzəkləri gül-çiçək rəsmlərindən ibarətdir. Burada zəngin rəng çalarları vəhdət təşkil edir. Xalının mərkəzində yerləşən qönçə günəşi, onun ətrafında dairə şəklində düzülmüş xırda güllər haləni, yaşıl, qırmızı, sarı rəngli 16 kiçik dairəvi qübbə isə günəş şüalarını əks etdirir. Kompozisiyanın yuxarı və aşağı hissələrində zəngin bəzəkli, qırmızı və şəkəri rəngli qəndil təsviri vardır. Ətrafdakı saysız-hesabsız əlvan naxışlar Kainatdakı ulduzların rəmzidir.

Bu xalçanın bir qədər kiçik ölçüdə daha bir tayı vardır. Kompozisiya baxımından birinci xalçanı demək olar ki, təkrar edən ikinci xalça ABŞ-də, Los-Anceles İncəsənət Muzeyində saxlanılır.

Mənbələr: *Azərbaycan Milli Ensiklopediyası, s.780; Azərbaycan tarixi (7 cilddə), III, 297; Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.82.*

ŞƏFİ ABBASİ, MƏHƏMMƏD ŞƏFİ İSFAHANİ – XVII əsrdə Səfəvilər sarayında yaşayıb-yaratmış görkəmli rəssam və xəttat. Məşhur rəssam *Rza Abbasinin* oğlu və şagirdi olmuşdur. Atasının yarımçıq qalmış əsərlərini tamamlamış, əsasən "gül-bülbül" janrında rəsmlər çəkmişdir. Şah Süleyman Səfəvinin və II Şah Abbasın zamanında sarayda onların himayəsi altında fəaliyyət göstərmişdir. Rəssam bəzi əsərlərinə öz adını da ehtiva edən "Mühəmməd şod şəfii-hər du aləm" (Mühəmməd hər iki dünyanın şəfaətçisi oldu) yazılmış mö-

hür vururdu. Onun əsərlərində Avropa rəssamlığının təsiri də duyulur, bu rəsmlər öz reallığı və rəngarəngliyi ilə seçilir. Şəfi Abbasi bir neçə irihəcmli əsər üzərində də işləmişdir (o cümlədən, *Çehelsütun sarayı* üçün nəzərdə tutulmuş "Yusif və Züleyxa" kompozisiyası).
Rəssamın Hindistana səfər etdiyini və 1674/75-ci illərdə orada dünyasını dəyişdiyini yazırlar.

Mənbə: *M.Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran, I, 243-245.*

ŞƏMSAYİ GİLANİ (Molla Şəmsa) – Şəmsəddin Məhəmməd ibn Nemətullah Gilani XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli filosof və İsfahan fəlsəfə məktəbinin nümayəndəsidir. Həyatı haqqında məlumat azdır. Məşhur filosof *Mir Damaddan* dərs almışdır. *Molla Sədra* ilə eyni mədrəsədə təhsil aldığını yazırlar. Fəlsəfi mövzuda 50-yə yaxın kitabı məlumdur. Çoxlu səyahət etmiş, əsərlərinin bir çoxunu səfərlərdə yazmışdır. Molla Sədra Şəmsa haqqında yüksək fikirdə olmuş və yazılarında onu tərifləmişdir. Molla Şəmsa məşşai (peripatetizm) cərəyanına mənsub olmuş, öz düşüncələrini dini mənbələrdəki məlumatlarla uzlaşdırmağa çalışmışdır.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 383; Əli Ovcəbi. Şəmsayi Gilani və İsfahan fəlsəfə məktəbi ("Ayineyi-miras" dərgisi, 1384 h.-ş., №3-4), s.101-129.*

ŞİƏLİK – İslamın iki əsas əqidə məzhəbindən biri (sünniliklə yanaşı). "Şiə" sözünün ərəb dilindən tərcüməsi tərəfdar, dəstə deməkdir. Qurani-Kərimdə də bu söz həmin mənada işlənmişdir (Məryəm, 69; Qəsəs, 15; Saffat, 83 və s.). Terminoloji mənada şiə Həzrət Məhəmməd Peyğəmbərin (s) vəfatından sonra Əli ibn Əbu Talibin (ə) xəlifəliyini qanuni və zəruri sayan, hakimiyyətə *Əhli-beytin* daha layiq olduğuna inanan şəxslərə deyilir. Şiəliyin yaranma tarixi barədə mülahizələr fərqlidir. Bir nəzəriyyəyə görə, şiəlik xəlifə Osman ibn Affanın hakimiyyətinin sonlarında özünü Əli ibn Əbu Talibin (ə) tərəfdarı kimi qələmə verən Abdullah ibn Səbə adlı yəhudi tərəfindən yaradılmışdır. Bu nəzəriyyə şiəliyin tarixi köklərini sarsıtmaq, bu məzhəbi qeyri-mötəbər və saxta mənbələrə bağlamaq məqsədilə uydurulmuşdur və hazırda da məzhəbi düşmənçiliyi yayan qüvvələr tərəfindən ciddiyyətlə müdafiə edilir.
Şiə mövqeyinə görə, hələ Həzrət Məhəmməd Peyğəmbərin (s) sağlığında bəzi səhabələr Əli ibn Əbu Talibə (ə) duyduqları sevgi və ehtiram üzündən "Əli şiəsi" kimi tanınırdılar. Onlar Peyğəmbərdən sonra Əlini (ə) müsəlman cəmiyyətinin ən elmli və imanlı üzvü sayırdılar. Əli şiəsinə Salmani-Farsi, Əbuzər, Miqdad, Əmmar ibn Yasir, Əbu Əyyub Ənsari, Abdullah ibn Məsud, Cabir ibn Abdullah Ənsari, Xüzeymə ibn Sabit Zü-l-şəhadəteyn, Peyğəmbərin əmisi Abbas kimi məşhur səhabələr daxil idi. Cabir ibn Abdullah Ənsari rəvayət edir ki, Həzrət Məhəmməd Peyğəmbər (s) Əlini (ə) göstərərək buyurmuşdu: "İxtiyarında olduğum Allaha and olsun ki, bu (yəni Əli) və onun şiəsi Qiyamət günündə nicat tapanlardan ola-

caqlar". Abdullah ibn Abbas "İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır" (Beyyinə, 7) ayəsi nazil olduqdan sonra Peyğəmbərin Əliyə (ə) bunu söylədiyini rəvayət etmişdir: "Bu ayədə haqqında danışılan sən və sənin şiəndir ki, Qiyamət günündə razı qalacaqsınız, Allah da sizdən razıdır". Həmçinin Həzrət Mühəmməd Peyğəmbər (s) Əliyə (ə) buyurmuşdur: "Sən və şiən cənnətdəsiniz".

Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından Əli ibn Əbu Talibin (ə) hakimiyyətə gəlişinədək keçən 25 il ərzində şiəlik inkişaf edib təşkilatlandı. Bu müddətdə şiələrin sıraları Malik Əştər, Mühəmməd ibn Əbu Bəkr, Səsəə ibn Suhan, Kümeyl ibn Ziyad, Hücr ibn Ədiyy Kindi, Abdullah ibn Abbas, Üveys Qərəni, Qeys ibn Səd Ənsari kimi şəxsiyyətlərlə zənginləşdi. Həzrət Əlinin (ə) apardığı Cəməl, Siffeyn və Nəhrivan savaşlarında şiələr özlərini möhkəm təşkilatlanmış bir cəbhə kimi nümayiş etdirdilər. İmam Əlinin (ə) şəhadətindən sonra Əməvilərin hakimiyyətə keçməsi nəticəsində şiələrə qarşı təzyiqlər şiddətləndi. Buna görə İmam Həsənin (ə) və İmam Hüseynin (ə) siyasi mübarizələrində bəzi şiələr nəinki iştirak etmədilər, hətta Əhli-beytə xəyanət mövqeyini tutdular. İslam tarixinin ilk əsrində vahid mövqedən çıxış edən şiəliyin daxilində VIII əsrin əvvəllərindən etibarən bir neçə ciddi parçalanma baş verdi. Əvvəlcə zeydilər, daha sonra ismaililər ənənəvi şiəlikdən ayrıldılar. Sonrakı dövrlərdə də məsum imamın şəxsiyyəti ilə bağlı fikir ayrılıqları şiəlik daxilində parçalanmalara səbəb oldu. Hazırda şiəliyin ən geniş yayılmış qolları *cəfərilik (isna əşəriyyə)*, zeydilik və ismaililiklikdir. XVII-XVIII əsrlərdə cəfəriliyin daxilində *əxbariyyə* və şeyxiyyə adlı cərəyanlar yaranmış, lakin sonrakı əsrlərdə bunların təsiri xeyli azalmışdır.

Şiə məzhəbinin yarandığı məkan Ərəbistan yarımadası olsa da, qısa müddət ərzində şiələr ətraf bölgələrə yayılmışlar. Zeydilər Yəməndə, ismaililər isə Şimali Afrika, İran və sairə məntəqələrdə məskunlaşmışlar. Müsəlman sülalələrdən İdrisilər (789-926), Fatimilər (909-1171), Həmdanilər (905-1004), Üqeylilər (990-1096), Büveyhilər (934-1062), Məzyədilər (961-1150), Mərəşilər (1359-1596), Sərbedaranlar (1337-1381), zeydi əqidəli Rəssilər (IX əsr-1962), Qaraqoyunlular (1380-1468) şiə təmayüllü idilər, İsmaililər (1090-1273) və *Müşəşəilər* (1435-1508) ifrat şiə əqidəsinə idilər.

Şiəliyin həm ideoloji, həm də praktik prinsiplərini qoruyanlar əsas etibarilə cəfərilər olmuşlar. Buna görə də dini ədəbiyyatda şiə deyərkən adətən cəfəri şiələri nəzərdə tutulur. IX-X əsrlərdə Bağdad (İraq), Rey və Qum (İran) şəhərləri böyük şiə alimlərinin məskəni kimi tanınırdı. XI-XII əsrlərdə cəfəriliyin elmi və siyasi paytaxtı Hələb (Suriya), XIII-XIV əsrlərdə isə Kufə və Bağdad şəhərləri arasında yerləşən Hillə (İraq) şəhəri oldu. Mühəqqiq Hillinin (1206-1277) 400 nəfər müctəhid yetişdirdiyi rəvayət olunur. Nəhayət, XIV-XVI əsrlərdə indiki Livan ərazisində yerləşən *Cəbəli-Amil* məntəqəsində görkəmli cəfəri alimlər yetişdilər. Tarixi

məlumatlara görə, XVI əsrdə Cəbəli-Amildə məhəlli xarakterli məclislərdə 70 nəfər yüksəksəviyyəli müctəhid iştirak edirmiş.

XVI əsrin əvvəllərində Səfəvilər dövləti qurulduğu zaman şiəlik rəsmi dövlət məzhəbi elan edilmiş, cəfəri əqidəsi geniş surətdə təbliğ olunmağa başlamışdır. Xüsusilə Cəbəli-Amildən köçüb gəlmiş böyük müctəhidlərin sayəsində Səfəvilər dövlətində şiəlik çiçəklənməyə, İsfahan şəhəri şiə məzhəbinin əsas elm ocağı kimi tanınmağa başladı. Səfəvilər dövlətinin süqutundan sonra şiəliyin elmi mərkəzi uzun müddət İraqdakı Nəcəf hövzəsi olmuş, XX əsrin birinci rübündə Qum hövzəsi təsis edilmişdir.

Hazırda dünya şiələrinin ümumi sayı 150-200 milyon nəfər arasındadır. Onlar əsasən İran, İraq, Azərbaycan, Livan, Türkiyə, Pakistan, Əfqanıstan, Hindistan, Yəmən, Nigeriya, Bəhreyn, Suriya, Səudiyyə Ərəbistanı, Tanzaniya, ərəb körfəz ölkələri və bəzi Avropa dövlətlərində məskunlaşmışlar.

Mənbələr: *Alusi. Ruh əl-məani, XXX, 207; Dairət əl-məarifi-təşəyyü, IV, 271-399; Əllamə Təbatəbai. İslamda şiəlik; Əllamə Müzəffər. Şiəliyin tarixi, s.247; Heysəmi. Məcmə əz-zəvaid və mənbə əl-fəvaid, IX, 177-178; Xətib Bağdadi. Tarixi-Bağdad, XII, 284 və 353; İbn əl-Əsir. Ən-Nihayə fi-l-ğərib əl-hədis və-l-əsər, IV, 106; İbn Həcər Heysəmi. Əs-Səvaiq əl-mühriqə fi-l-rədd əla əhl əl-bid və-l-zindiqə, səh. 135 və 204; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 253-255; Lüğətnameyi-Dehxuda, X, 14709-14710; Süyuti. Əd-Dürr əl-mənsur, XV, 577; Şövkani. Fəth əl-qədir, s.1644; Təbərani. Əl-Möcəm əl-kəbir, I, 319; Təbəri təfsiri, XXIV, 556; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXXIX, 111-123.*

ŞİRVANİ, MİRZƏ MƏHƏMMƏD (1624-1687/88) – Səfəvilər dövründə yaşamış görkəmli Azərbaycan alimi. (Bəzi müəlliflər onun Xorasan vilayətində yerləşən Şirvan məntəqəsindən olduğunu iddia edirlər). "Molla Mirza" və "Müdəqqiq Şirvani" ləqəbləri ilə tanınmışdır. Ömrünün əksər hissəsini İsfahan şəhərində keçirmişdir. Şirvani əsasən *Ağa Hüseyn Xansaridən* dərs almış, sonra təhsilini Nəcəf şəhərində davam etdirmişdir. Bir müddət sonra o, I Şah Süleyman Səfəvinin dəvəti ilə İsfahana qayıdır. Alimlərin həyatından bəhs edən kitablarda onu "dərin bilikli, yüksək ixtisaslı, araşdırıcı alim, elm və əməl sahibi, əqli və nəqli elmləri özündə birləşdirən, fiqh, hədis, kəlam, hikmət və elmi mübahisə sahələrində tayı-bərabəri olmayan" bir şəxs kimi təsvir etmişlər. Hətta bəzi alimlər onu imamət mövzusunda Seyid Mürtəza, Şeyx Müfid və Şeyxüt-taifə Tusi ilə, nücum, həndəsə və riyaziyyat sahəsində Nəsirəddin Tusi ilə bərabər tutmuşlar.

Mirzə Şirvani "Riyaz əl-üləma" kitabının müəllifi *Mirzə Abdullah Əfəndiyə*, Vəhid Bəhbəhaninin atası Molla Məhəmməd Əkməl Bəhbəhaniyə, "Tənqih əl-məqal" əsərinin müəllifi Şeyx Həsən Bəlağı Nəcəfiyə, *Mir Məhəmməd Saleh Xatunabadiyə* dərs demişdir. O, həm də *Əllamə Məclisi* və *Fazil Tuni* kimi böyük alimlərə rəvayət icazəsi vermişdir.

Şirvani *"Bihar əl-ənvar"* hədis məcmuəsinin müəllifi *Əllamə Məhəmməd Baqir*

Məclisinin bacısı ilə ailə qurmuş, iki oğlu və bir qızı olmuşdur. Böyük oğlu Molla Heydər Əli nüfuzlu din xadimi kimi şöhrət qazanmış, Əllamə Məclisinin, yəni öz dayısının qızı ilə evlənmişdir.

Mirzə Məhəmməd Şirvani irili-xırdalı 41 risalənin müəllifidir. Onun risalələri fiqh, üsuli-fiqh, təfsir, əqaid, kəlam, hədis, sərf-nəhv, astronomiya, həndəsə və sair elm sahələrini əhatə edir.

Müasirləri qeyd edirlər ki, Şirvaninin ərəb dilində yazdıqları farsca yazılarına nisbətən daha səlis və bəlağətlidir. Bunun səbəbini onun türkdilli olması ilə izah etmişlər ki, bu da alimin xorasanlı deyil, azərbaycanlı olduğunu sübut edir.

Şirvani 1687-ci və ya 1688-ci ildə İsfahanda vəfat etmiş, cənazəsi böyük təntənə ilə, dövlət adamlarının və alimlərin əhatəsində Məşhəd şəhərinə aparılmış, İmam Rza (ə) hərəminin yaxınlığında dəfn olunmuşdur.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, V, 386-388; Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, I, 91-92; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.212-213; A.A.Bakıxanov. Gülüstani-İrəm, s.212; N.Rəhimov. Azərbaycanın din alimləri, s.18-26.*

TƏBRİZ MİNİATÜR MƏKTƏBİ – Şərq miniatür sənəti tarixində mühüm yer tutmuş, xüsusilə XVI əsrdə Səfəvilər zamanında özünün ən yüksək inkişaf mərhələsinə çatmış, spesifik xüsusiyyətlərə və ənənələrə malik olmuş miniatür məktəbi.

Təbrizdə miniatür və xəttatlıq sənətinin gözəl nümunələri hələ bundan xeyli əvvəl – XIV əsrdə yaradılmağa başlamışdır. Elxanilərin Təbriz yaxınlığında inşa etdikləri Rəşidiyyə şəhərciyində o dövrün ən görkəmli ustadları fəaliyyət göstərirdi. 1328-36-cı illər ərzində burada hazırlanmış və bütün dünyada "Demott Şahnaməsi" kimi tanınan unikal əlyazma "Şahnamə" nüsxəsi son dərəcə gözəl miniatür rəsmləri ilə bəzədilmişdi (Demott – həmin əlyazmanı alaraq cildini sökmüş və səhifə-səhifə satmış qərbli tacirin soyadıdır).

Qaraqoyunlular və Ağqoyunlular zamanında "türkman üslubu" adlı spesifik ənənələrə malik rəssamlıq üslubu formalaşmışdı. Ağqoyunlu *Uzun Həsənin* saray kitabxanasında 58 nəfər mahir rəssam və xəttat çalışırdı. Bu yüksəliş xətti təkcə Təbrizdə deyil, Şirvanşahlar dövlətinin ərazisində də, rəssamlar Şeyxi, Dərviş Məhəmməd, Əbdülbaqi Bakuvi və başqalarının yaradıcılığında müşahidə edilirdi. 1468-ci ildə tamamlanmış "Şamaxı antologiyası"nı bəzəyən 8 miniatür bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Səfəvilərdən əvvəl Təbriz sənətkarları bir çox lokal rəssamlıq mərkəzlərinin yaranmasında və inkişafında həlledici rol oynamışlar. Belə ki, Teymurləng Təbrizi ələ keçirdikdən sonra Bağdada qaçmış Sultan Əhməd Cəlayiri özü ilə çoxlu təbrizli rəssamı da aparmışdı. Bir müddətdən sonra Teymurləng Bağdadı da ələ keçirərək oradakı sənətkarların bir qismini Səmərqəndə apardı, rəssamların bir qismi isə Şiraza sığındı. Bağdad və Şiraz miniatür məktəbləri kimi tanınan sənət ocaqlarının əsas bazasını

məhz həmin köçkün təbrizli ustadlar təşkil edirdilər.

Elmi ədəbiyyatda bəzən Təbriz miniatür məktəbinin Herat miniatür məktəbi əsasında yarandığı iddia edilir və Təbriz məktəbi Herat məktəbinin mexaniki davamı kimi təqdim olunur. Doğrudur, I Şah İsmayılın *Şeybanilər* dövlətini məğlub etməsindən sonra burada yaşayıb-yaradan xeyli sənətkar Səfəvilər dövlətinə üz tutdu. Lakin bundan əvvəl Herat məktəbinin formalaşmasında azərbaycanlı ustaların rolu da az olmamışdır. *Behzad* özü Heratda təbrizli rəssam Pir Seyid Əhməd Təbrizidən dərs almışdır. Heratda Teymurilərin, daha sonra Şeybanilərin himayəsi altında nəqqaşlar Seyid Əhməd və Qiyasəddin Pir Əhməd, nəstəliq xəttinin ustadları Əzhər Təbrizi, Mahmud Xəyyam və Məhəmməd Xəyyam Təbrizi, Zərkub İbrahim Təbrizi, dekorativ sənət ustaları Kəmaləddin Məsud Şirvani, Şəmsəddin Bərdal, Ziya Təbrizi, İsmayıl Təbrizi və b. fəaliyyət göstərirdilər. Teymuri hökmdarı Baysunqur Mirzə Heratda nəfis tərtibatlı cüng (şeir antologiyası) hazırlatdırmaq istədikdə bunun üçün Təbrizdən rəssam, xəttat və cildçi dəvət etmişdi.

Heratın I Şah İsmayıl tərəfindən fəthindən sonra Səfəvilər dövlətinə üz tutmuş sənətkarların başında Kəmaləddin Behzad dururdu. Behzad və onunla birlikdə Təbrizə gələn rəssam və xəttatlar bu şəhərin sənət mühitini xeyli zənginləşdirdilər. Lakin unutmaq olmaz ki, 1520-ci illərin əvvəlində Behzad saraya qəbul ediləndə burada təbrizli Sultan Məhəmməd saray kitabxanasını yaratmışdı və bu mərkəz artıq fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, I Şah İsmayılın və I Şah Təhmasibin sarayında rəssamlıq və xəttatlıq emalatxanalarını da özündə birləşdirən kitabxanaya, kiçik fasilələri çıxmaq şərti ilə, məhz Sultan Məhəmməd başçılıq etmişdir. Təbriz miniatür məktəbinin inkişafına Herat məktəbinin və Behzad yaradıcılığının təsiri olmuşsa da, bu təsir həlledici deyildir. Belə ki, Şeybanilər dövlətinin süqutundan sonra digər ölkələrə pənah aparmış sənətkarlar öz yaradıcılıqlarında Herat ənənələrini, demək olar ki, olduğu formada davm etdirmişlər. Səfəvilər dövlətinə köçmüş rəssamlar isə yerli ənənələrin təsiri altına düşmüş və Təbriz miniatür məktəbi üslubunda çalışmışlar.

Təbriz miniatür məktəbi dünyaya səpələnmiş azərbaycanlı və qeyri-azərbaycanlı sənətkarları bir araya toplayan, onların istedadını kəşf edən böyük bir mərkəz idi. Burada azərbaycanlı rəssamlar *Sultan Məhəmməd*, oğulları *Mirzə Əli* və *Məhəmmədi*, *Sadiq bəy Əfşar*, digər millətlərdən olan Kəmaləddin Behzad, onun şagirdləri Dost Məhəmməd, Rüstəm Əli, *Müzəffər Əli, Mir Müsəvvir* və oğlu *Mir Seyid Əli, Şah Mahmud Nişapuri*, *Ağa Mirək İsfahani* və b. çiyin-çiyinə fəaliyyət göstərirdilər. Təbriz miniatür məktəbində orta əsrlər müsəlman Şərq rəssamlığının şah əsərlərindən sayılan məşhur "Xəmsə" və "Şahnamə" nüsxələri ərsəyə gəlmişdi. I Şah Təhmasibin göstərişi ilə hazırlanmış "Xəmsə" nüsxəsinin (1529-43) səhifələrini 14 ədəd miniatür bəzəyir. 1537-ci ildə tamamlanmış "Şahnamə" isə 258

ədəd miniatürü ilə Təbriz məktəbinin ehtişamını göstərir.

Təbrizdə çalışan sənətkarların əksəriyyəti rəssamlıqdan əlavə xəttatlığın da sirlərini mükəmməl şəkildə mənimsəmişdi. Hətta bəzi rəssamlar çəkdikləri miniatürlərin üzərindəki mətni də özləri yazırdılar. Rəssamların bir neçəsi hərtərəfli istedada malik idi. Rəssam, xəttat və sənət tarixçisi Dost Məhəmməd, rəssam və dekorativ sənət ustası Sultan Məhəmməd bunlara nümunədir.

Təbriz məktəbinin nümayəndələri yeni yaradıcılıq axtarışları apararaq miniatür sənətində spesifik üslub yaratmağa nail olmuş, dünya rəssamlıq tarixini öz əsərləri ilə zənginləşdirmişlər. Onilliklər boyunca Şərq miniatür mərkəzinin inkişaf cizgilərini məhz təbrizli ustalar diktə etmişlər. Təbriz miniatür mərkəzinin ənənələri və bazası əsasında XVII əsrdə İsfahan məktəbi yaranmış və tərəqqi etmişdir. İshafanda yaşayıb-yaratmış sənətkarların bir qismi təbrizli idi, amma ümumilikdə burada fəaliyyət göstərən rəssamlar özlərindən əvvəlki Təbriz ustadlarının əsərlərini diqqətlə öyrənir, onlara yaradıcı surətdə yanaşaraq sənətdə püxtələşirdilər. Təbrizli rəssamlar Osmanlı və Hindistan (moğol) miniatür məktəblərinin formalaşmasında da yaxından iştirak etmişlər.

Mənbələr: *Rasim Əfəndi. Azərbaycan incəsənəti, s.60-67; Дж.Гасанзаде, А.Эфендиев. Большое Тебризское "Шах-наме" и тебризская живопись 1330-40 гг. (журнал "Искусство-IRS", №3 (51), 2011, стр.18-22; C.Həsənzadə. Təbrizin sehrli nağılları; Azərbaycan tarixi (7 cilddə), III, 289-293; Ə.Səfərli. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər, s.445-448; N.Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında), s.196-198; Basil Gray. The Arts in The Safavid Period (The Cambridge History of Iran, vol. 6, pp.877-912).*

TƏBRİZİ İSFAHANİ, MƏHƏMMƏD ZAMAN (vəf. 1719 və ya 1725) – XVII əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli İslam alimi. Məhəmməd Zaman ibn Kəlbəli Təbrizinin atası Təbrizin adlı-sanlı alimlərindən idi, II Şah Abbas onu yanına çağırıb görüşmüşdü. Məhəmməd Zaman Təbrizi *İsfahan hövzəsində* yetişmiş, *Əllamə Məclisi*, *Mühəqqiq Xansari*, *Məhəmməd Saleh Xatunabadi* kimi böyük alimlərdən dərs almışdı. Şah Sultan Hüseyn onu İsfahandakı Şeyx Lütfullah mədrəsəsinə müdir təyin etmişdi. Məhəmməd Zaman vaxtilə özünün təhsil aldığı həmin mədrəsənin idarəçiliyi ilə məşğul olurdu. Təbrizi "əl-Kafi" və "Təhzib əl-əhkam" kitablarına haşiyə yazmış, 1715-ci ildə İsfahanda baş vermiş dəhşətli qıtlıq zamanı bazar məzənnələrinin təyin olunması ilə bağlı risalə qələmə almışdır. Ən məşhur əsəri Səfəvilər dövrünün məscid və mədrəsələrindən, təhsil sistemindən bəhs edən "Fəraid əl-fəvaid dər əhvali-mədaris və məsacid" kitabıdır.

Məhəmməd Zaman Təbrizi 1719-cu və ya 1725-ci ildə vəfat etmişdir.

Mənbələr: *Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, III, 350-352; Ağa Büzürg Tehrani. Təbəqat əlam əş-şiə (əl-Kəvakib əl-müntəşirə), IX, 292-293; Dairət əl-məarifi-təşəyyö, IV, 90.*

TƏFRİŞİ, SEYİD MUSTAFA ibn HÜSEYN – XVII əsrdə Səfəvilər dövlətində yaşayıb-yaratmış görkəmli İslam alimi. İmam Zeynülabidinin (ə) nəslindən idi. Həyatı haqqında məlumat azdır. Məlum olan budur ki, 1634-cü ildə həyatda imiş. *Molla Abdullah Şüştəridən* və *Əllamə Kərəkinin* oğlu Şeyx Əbdüləlidən dərs almış, *Şeyx Bəhai* ilə müasir olmuşdur. Təfrişi hədisşünaslıq və rical (hədis ravilərinin həyatını araşdıran elm) sahələrində xüsusi məharət sahibi idi. Onun 1606-cı ildə yazıb bitirdiyi "Nəqd ər-rical" kitabı bu mövzuda qələmə alınmış əsərlər arasında ilk yerlərdən birini tutur və mütəxəssislər tərəfindən yüksək dəyərləndirilir. Müəllif kitabda 6600 nəfərdən artıq ravi haqqında məlumat vermişdir, əsərin sonunda bəzi mövzuları əhatə edən faydalı araşdırmalar da mövcuddur. Təfrisi özündən əvvəlki alimlərin gəldiyi nəticələrə tənqidi yanaşmış, araşdırdığı mövzular barədə dəqiq məlumatlar verməyə çalışmışdır. "Nəqd ər-rical" kitabına *Əllamə Məclisi, Seyid Nemətullah Cəzairi* və başqa alimlər haşiyə yazmışlar.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 402-403; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 212; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VII, 167-168; Dairət əl-məarifi-təşəyyö, IV, 467-468; Təfrişi, Seyid Mustafa. Nəqd ər-rical (5 cilddə), I, 7-11.*

TƏQLİD – *cəfəri* məzhəbinin fiqhində mühüm yerə malik olan məfhum. Cəfəri fiqhinə görə, özü ictihad səviyyəsinə çatmamış şəxs ya ehtiyata əməl etməli (yəni halal-haram məsələlərində şübhəli məqamlardan tam uzaq olan yolu tutmalı), ya da ən savadlı və ən ədalətli bir müctəhidə təqlid etməlidir. Burada təqlid deyərkən şəriət hökmlərini həmin müctəhidin fətvaları əsasında yerinə yetirmək nəzərdə tutulur. ("Təqlid" sözünün ərəb dilində lüğəvi mənası boyuna boyunbağı bağlamaq deməkdir. Simvolik ifadə ilə desək, müctəhidə təqlid edən şəxs öz boynuna onun itaət ipini bağlayır, yəni şəriət məsələlərində tamamilə ona tabe olur). XII imam Həzrət Mehdinin (ə) belə buyurduğu rəvayət edilir: "Fəqihlərdən (fiqh alimlərindən) hər hansı biri özünə qarşı diqqətli davransa, dinini qorusa, nəfsani istəklərini boğsa, ağasının (yəni zəmanənin imamının) əmrinə tabe olsa, sıravi insanlar gərək ona təqlid etsinlər". Şəriət məsələlərində sıravi insanların təqlid etdikləri ən elmli və ədalətli müctəhid *"mərceyi-təqlid"* (təqlid üçün müraciət edilən şəxs) adlandırılır.

bax: **MƏRCEYİ-TƏQLİD.**

Mənbələr: *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXIX, 172-174; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), I, 165; Əllamə Məclisi. Bihar əl-ənvar, II, 88; Əhməd ibn Əli Təbrisi. Əl-İhticac, II, 225; İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.331.*

TƏRZİ ƏFŞAR (vəf. 1678) – XVII əsrdə Səfəvilər dövründə yaşayıb-yaratmış Azərbaycan şairi. Şah Süleyman və II Şah Abbas zamanında yaşamışdır.

Əfşar tayfasına mənsub olan şair Urmiya şəhərinin yaxınlığındakı Tərzlu kəndində doğulmuş, sonralar İsfahana köçmüş, uzunmüddətli səyahətlərə çıxmışdır. Tərzi Əfşar Orta Asiya, İraq, İran, Ərəbistan və Kiçik Asiya torpaqlarını gəzmiş, Azərbaycanda olmuşdur. Nəhayət, şair İsfahana qayıdır və sarayda xidmət etməyə başlayır. Ömrünün sonlarında maddi sıxıntı içində yaşayan şair Şah Süleymanın göstərişi ilə təqaüd almağa başlayır. Tərzi yaradıcılığının ən mühüm və orijinal cəhəti onun özünəməxsus dili, ifadə tərzidir. Poeziyada yeni üslub (tərz) və ifadə vasitələri axtarışında olduğu üçün bəzi tədqiqatçılar onun təxəllüsünün mənasını da bununla izah etmişlər. M.Tərbiyət onun haqqında yazır: "Yaradıcılıqda onun xüsusi şivəsi vardır. O, zarafatcıl olaraq məzəli sözlər qoşur, şeirlərində özündən düzəltdiyi məsdərlər və ifadələr işlədir".

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.330-331; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 49-50; Yaqub Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s.598; Е.Э.Бертельс. Избранные труды, V, 446-467.*

TƏSİR TƏBRİZİ, Mirzə Möhsin (vəf. 1719) – XVII əsrin ikinci yarısı-XVIII əsrin əvvəllərində yaşamış Azərbaycan şairi. Ulu babası I Şah Abbasın zamanında Təbrizdən İsfahana köçmüş, şair də İsfahanda doğulmuşdur. Səfəvilər zazamanında sarayda müxtəlif vəzifələrdə çalışmış, bir müddət Yəzd şəhərində maliyyə vəziri olmuşdur. Tarixi mənbələrdən aydın olur ki, o, faktiki olaraq, Şah Süleyman Səfəvi və Şah Sultan Hüseynin zamanında sarayda *məlikü̇ş-şüəra* vəzifəsini icra etmişdir. Azərbaycan və fars dillərində yazmışdır, 10 min beyt həcmində *divanı*, çoxlu qəsidə və məsnəvisi olduğunu yazırlar. Şeirlərinin böyük bir hissəsi müqəddəs şəxslərin mədhinə, zamanında baş vermiş mühüm hadisələrin təsvirinə aiddir. Ədəbiyyat biliciləri onu *Saib Təbrizi* ilə müqayisə etmişlər. M.Tərbiyət "Danişməndani-Azərbaycan" kitabında əksər şairlər haqqında qısa söz açdığı halda Təsir Təbriziyə geniş yer ayırmışdır.

Mənbələr: *M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.331-335; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 315; P.Kərimov. Təsir Təbrizinin anadilli lirikası; M.N.Çinarcı. Tesiri Tebrizinin Külliyyatı ve Türkçe Şiirleri (Turkish Studies, International Periodical for The Languages, Literature and History of Turkish or Turkic Volume 7/4, Fall 2012), s.1245-1267.*

TÜFEYLİ – XV-XVI əsrlərdə yaşayıb-yaratmış Azərbaycan şairi. Mənbələrdə adı Mir Cəlayir və Əmir Cəlayir şəklində də qeyd edilir, ləqəbi Tüfeylidir. Atası Teymuri şahzadəsi Yadigar Məhəmməd Mirzəyə xidmət etmişdir. Tüfeyli atasından sonra onun vəzifəsini davam etdirmək istəməmiş, tərkidünya olaraq sufilik yolunu tutmuşdur. I Şah İsmayıl tərəfindən ehtiramla qarşılanmış, onun hakimiyyəti altında fəaliyyət göstərmişdir. Həyatı və yaradıcılığı haqqında məlumatlar az və ziddiyyətlidir, fərqli dövrlərdə yaşamış bir neşə şair bu təxəllüslə xatırlanır. *Sam Mirzə* öz təzkirəsində "Tüfeyli abdal" adlı bir şair-

dən qısaca söz açaraq yazır: "Xorasan türklərindəndir. Əvvəllər *abdal* geyimində gəzərdi, hazırda əmirlərdən birinin xidmətindədir". (Əlyazma nüsxələrin bəzisində "türk əmirlərdən birinin xidmətindədir" yazılıb). Sonra Sam Mirzə onun iki beytlik azərbaycanca şeirini verir, həmin şeirdə müəllif özünü "Mir Tüfeyli" kimi təqdim edir. Bəzi mənbələrdə Mir Cəlayir Tüfeylinin 1519-cu ildə vəfat etdiyi yazılsa da, haqqında Sam Mirzənin məlumat verdiyi Tüfeyli ilə eyni şəxsdirsə, 1519-cu ildə vəfat etməsi həqiqətə uyğun görünmür.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, I, 416-417; Sam Mirzə. Töhfeyi-Sami, s.186.*

TÜNİKABÜNİ, Məhəmməd ibn Əbdülfəttah (1630/31-1713) – XVII əsrin ikinci yarısı-XVIII əsrin əvvəllərində Səfəvilər dövlətində yaşamış görkəmli alim. Fazili-Sərab ləqəbi ilə tanınır. Sərab şəhərində anadan olmuş, elm ardınca İsfahana gəlmiş, burada *Əllamə Məclisi, Mühəqqiq Xansari, Mühəqqiq Səbzəvri* və *Rəcəbəli Təbrizidən* dərs almışdır. Tünikabüni əqaid və fiqh sahələrində ixtisaslaşmışdı, əsərlərinin çoxusu da bu mövzulardadır. O, on ikinci İmamın qeyb dövründə cümə namazı qılınmasının vacibliyi barədə risalə qələmə almış, *Müqəddəs Ərdəbilinin* "Zübdət əl-bəyan" əsərinə, "Şərh Lümət əd-Diməşqiyyə" adlı məşhur fiqh kitabına haşiyələr yazmışdır. İmamət mövzusuna həsr etdiyi "Səfinət ən-nicat" və "Ziya əl-qülub" kitabları da elm adamları tərəfindən yüksək dəyərləndirilir. 1713-cü ildə İsfahanda dünyasını dəyişmiş, Təxti-fulad qəbiristanlığında dəfn edilmişdir. Oğulları Məhəmməd Sadiq və Məhəmməd Rza da görkəmli alim kimi tanınmışlar.

Mənbələr: *Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VII, 106-110; Ağa Büzürg Tehrani. Təbəqat əlam əş-şiə (əl-Kəvakib əl-müntəşirə), IX, 671-673; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, III, 5; Bihar əl-ənvar, CV, 96; Seyid Möhsin Əmin. Əyan əş-şiə, IX, 381.*

UĞURLU XAN KARVANSARASI (Cəncə) – Gəncə şəhərində yerləşən, XVII əsrdə Səfəvilər zamanında tikilmiş memarlıq abidəsi. Qarabağ və Gəncə bəylərbəyi, həm də *Müsahib* təxəllüslü şair *Uğurlu xan Ziyadoğlu-Qacar* tərəfindən XVII əsrin ikinci yarısında inşa edilmişdir. Şah Abbas karvansarasının yaxınlığında yerləşir. Binanın tikintisində yumurta ağı ilə gil-əhəng qarışığı və bişmiş qırmızı kərpicdən istifadə olunmuşdur. Karvansara binasının bir hissəsi şərbatçılar (kəlağayı hazırlayanlar) tərəfindən icarəyə götürüldüyü üçün "şərbatçılar karvansarası" da adlanmışdır. Sovet hakimiyyəti illərində qeyri-təyinat üzrə istifadə edilmişdir. Son dövrdə Gəncədəki digər tarixi abidələrlə (*Şah Abbas karvansarası, Şah Abbas məscidi, Çökək hamam* və s.) birlikdə əsaslı təmir edilmişdir. Hazırda Şah Abbas və Uğurlu xan karvansaraları kompleks şəklində fəaliyyət göstərir.

Mənbə: *N.Kərimova. Gəncə karvansaraları ("Qobustan" jurnalı, 2/2015), s.69-70.*

ÜSULİLİK – *şiə* fiqhində hakim mövqedə olan cərəyan. Üsulilik çox zaman *əxbariliyə* alternativ metodologiya kimi təqdim edilir. İslamın ilk əsrlərində şiə məzhəbinin əxbarilik, yoxsa üsulilik istiqamətində inkişaf etməsi barədə tədqiqatçılar arasında fikir ayrılığı vardır. Bəziləri məsum imamların zamanında səhabələrin heç bir ictihad çalışmasına yol vermədən yalnız məsumların hədisləri əsasında fətva verdiklərini iddia edir. Digər nəzəriyyəyə görə, məsum imamlar bilikli səhabələrinə ictihad əsasında fətva vermək ixtiyarı vermişdilər. İmamdan uzaqda, fərqli bir məntəqədə yaşayan səhabənin hər məsələ barədə onun rəyini öyrənməsi mümkün deyildi. Onlar məsum imamdan öyrəndikləri metodlar (üsullar) əsasında şəriət hökmlərini əasaslandırır və onlara müraciət edənlərə yol göstərirdilər. Hər halda, ilk əsrlərdə şiə alimlərinin qələmə aldıqları kitabların böyük əksəriyyəti məsumların hədislərinin mövzular üzrə qruplaşdırılmış toplularından ibarət idi.

X əsrdə şiə alimi İbn Əbi Əqil Ümmani (Əmmani), ondan azacıq sonra İbn Cüneyd İskafi əsərlərində ictihad metodunu əsaslandıraraq üsuli-fiqh elminin bünövrəsini qoydular. Daha sonra Şeyx Müfid, Şərif Mürtəza, Şeyx ət-taifə Tusi, İbn əl-Bərrac, Kəraciki, Səllar Deyləmi və digər fəqihlər bu istiqamətdə fəaliyyət göstərərək üsuli düşüncəsini gücləndirdilər. Nəhayət, Əllamə Hilli şiə məzhəbinin fiqhi əsaslarını sistemləşdirərək üsuli-fiqh elminin dəqiq təsvirini verdi.

Əxbarilərdən fərqli olaraq, üsulilər ictihadı icazəli, hətta vacibi-kifayi hesab edirlər; yəni hər zəmanədə heç olmasa bir nəfər şəriət elmlərinin əsaslandırılma metodlarını öyrənib ictihada çatmalı və bunu edə bilməyənlərə öz fətvaları ilə yol göstərməlidir. Üsuliyyə məktəbinə görə, hökmlər 4 mənbəyə əsasən verilir: Quran, sünnə, icma və əql (ağıl). Üsulilər hədis mənbələrində mövcud olan bütün rəvayətləri səhih (etibarlı) saymırlar, hətta 4 mühüm şiə hədis məcmuəsindəki rəvayətlərin də hamısı səhih deyil. Üsulilər üçün Quran ayələrinin yalnız zahiri hökmü hüccətdir (sübutdur). Sıravi şiələrin *təqlid* etdikləri müctəhidlər *(mərceyi-təqlidlər)* qeyb halında olan on ikinci İmam Mehdinin (ə) canişini və nümayəndəsi sayılırlar.

Səfəvilər zamanında (XVII əsr) Məhəmməd Əmin Astarabadinin əsasını qoyduğu yeni əxbari dalğası nəticəsində üsulilərin mövqeyi zəifləməyə başladı. Bu dövrdə yaşayıb-yaratmış şiə alimlərin böyük hissəsi əxbari əqidəsini daşıyırdı; onların arasında həm mötədil, həm də radikal əxbarilər vardı. Lakin Səfəvilər zamanında üsuli məktəbi heç zaman tam tənəzzül etməmişdir. *Əllamə Kərəki, Şeyx Bəhai, Mir Damad, Molla Abdullah Şüştəri, Mühəqqiq Xansari, Ağa Camal Xansari, Mühəqqiq Səbzəvari, Fazil Tuni, Mirzə Məhəmməd Şirvani* kimi üsuliyyə alimləri öz araşdırmaları ilə bu məktəbi davam etdirmişlər. Səfəvilər zamanında üsulilərlə əxbariləri mühüm fiqhi mövzularla yanaşı həm də tütündən istifadə və cümə namazlarının qılınması kimi nisbətən kiçik mövzular da fərqləndirirdi. Belə ki, üsuli və bəzi mülayim əxbari yönümlü

fəqihlər adətən cümə namazı qılınmasını vacib və ya icazəli bilir, tütündən istifadəyə də icazə verirdilər. Radikal əxbari alimləri isə bu işləri haram sayır və qarşı tərəfi də haramları yaymaqda günahlandırırdılar.

XVIII əsrin əvvəllərində fiqh sahəsində üstünlük əxbarilərin əlinə keçdi. Onlar hətta üsuli alimləri aşağılayır və küfrdə ittiham edirdilər. Belə bir ağır şəraitdə böyük üsuli alimi Məhəmməd Baqir Vəhid Bəhbəhani əxbarilərlə ideoloji mübarizəyə başladı. Onun və şagirdləri Seyid Məhəmməd Mehdi Bəhr əl-ülum, Şeyx Cəfər Kaşif əl-ğita, Hüccətülislam Şifti, Nəraqi, Seyid Əli Təbatəbai (Sahibi-Riyaz), Kərbasi, Mirzə Quminin səyləri ilə nəinki əxbari hücumlarının qarşısı alındı, üstəlik onların bütün iddialarına tutarlı cavablar verildi. Beləliklə, XIX əsrin əvvəllərində üsuli məktəbi yenidən şiə fiqhində aparıcı mövqeyə keçdi. XIX əsrin sonlarında Şeyx Ənsarinin çalışmaları bu mövqeyi daha da möhkəmləndirdi və şiə fiqhinin yeni mərhələsinin başlanğıcını qoydu.

Mənbələr: *C.Səvaqib. Üsuli və əxbari məktəblərinin inkişaf prosesi (“Pejoheşnameyi-tarixi-İslam” dərgisi, 1392 h.-ş., №9), s.35-79; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XLII, 214-215; Dairət əl-məarifi-təşəyyü, II, 246-250.*

VAİZ QƏZVİNİ, **MOLLA RƏFİƏDDİN** (vəf. 1678) – XVII əsrdə Səfəvilər dövründə yaşayıb-yaratmış azərbaycanlı şair, ədib və alim. “Molla Rəfi” ləqəbi ilə tanınmışdır. Qəzvin yaxınlığındakı Səfiabad məntəqəsindən idi. Mükəmməl dini təhsil almış, gözəl əxlaqı ilə müasirləri arasında məşhurlaşmışdır. İnsanlara əxlaqi mövzuda nəsihət və moizə etdiyi üçün “Vaiz” ləqəbi ilə tanınırdı, bu adı özünə təxəllüs seçmişdi. Əxlaq və moizə mövzusunda “Əbvab əlcinan” (Cənnətin qapıları) kitabını yazmışdır. Müəllif bu əsəri cənnətin qapılarının sayına uyğun olaraq 8 cilddə yazmağı planlaşdırırdı. Əsərin birinci cildini II Şah Abbasın, növbəti cildini Şah Süleymanın hakimiyyəti dövründə yazmışdır. Kitabı bitirmədən vəfat etmiş, oğlu Molla Məhəmməd Şəfi onu yazıb bitirmişdir. Məhəmməd Şəfi də məşhur vaiz idi, hətta paytaxt İsfahanın məscidlərində çıxışlar edirdi, gözəl şairlik təbi vardı.

Azərbaycan və fars dillərində Vaiz təxəllüsü ilə şeirlər yazmış Vaiz Qəzvininin *divanının* 7 min beytdən artıq olduğunu deyirlər.

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 293-294; Təzkireyi-Nəsrabadi, s.171-173; P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası, s.82.*

VALEH QƏZVİNİ İSFAHANİ, Məhəmməd Yusif – XVII əsrdə Səfəvilər zamanında yaşamış görkəmli dövlət xadimi, tarixçi, şair və xəttat. Vəhid Qəzvininin kiçik qardaşıdır. I Şah Səfinin sarayında tovcih dəftərinin katibi, sonralar II Şah Abbasın Məşhəd dəftərxanasının *münşisi* işləmişdir. II Şah Abbas ordu islahatı apararaq *topxana* sistemini ordudan ayırdı və müstəqil qurum etdi, 1651/52-ci illərdə Məhəmməd Yusif Qəzvini bu qurumun rəhbərliyinə gətirildi.

O, bir sıra hərbi yürüşlərə həm saray məmuru, həm də hərbçi kimi qatılmışdır. "Valeh" təxəllüsü ilə şeir yazırdı, gözəl xətti vardı. "Xüldi-bərin" adlı irihəcmli tarix kitabının müəllifidir, kitabın sonuncu bölümləri Səfəvilərin hakimiyyət dövrünü əhatə edir.
Valeh Qəzvini 1680-ci illərdə vəfat etmişdir.

Mənbələr: *Lüğətnameyi-Dehxuda, XV, 23105; Məhəmməd Yusif Valeh İsfahani. Xüldi-bərin (nəşrə hazırlayan: M.Mühəddis), s.13-14; C.Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.78.*

VARSAĞI – aşıq şeirinin və musiqisinin geniş yayılmış biçimlərindən biri. *Varsaq* adlı qızılbaş tayfasının adı ilə bağlıdır. Keçmişdə bu tayfaya mənsub olan el aşıqlarını ümumilikdə varsaq adlandırır, onların xüsusi biçimdə söylədikləri şeirlərə isə varsağı deyirdilər. Varsağı quruluş baxımından qoşma və gəraylıya oxşayır, onlar kimi dörd misralıq bəndlərdən ibarətdir və heca vəzninə tabedir. Lakin varsağının misraları abab, cccb, çççb şəklində qurulur, yəni birinci bəndin ikinci misrası həmin bəndin dördüncü misrasında və o biri bəndlərin son misrasında təkrarlanır. Varsağı 8 və ya 11 hecadan ibarət olur, lirik, irfani və ya ibrətamiz məzmun daşıyır. Varsağı qızılbaş tayfaları arasında geniş yayılmışdı, xalq aşıqları bu şeir biçiminə tez-tez müraciət edirdilər. Səfəvilər zamanında yaşayıb-yaratmış qızılbaş aşıqların, demək olar ki, hamısı, o cümlədən I Şah İsmayıl varsağı qoşmuşlar. Osmanlı mənbələri xəbər verir ki, hətta XVII əsrdə Sultan IV Murad da varsağı söyləyirdi.
"Varsağı" adlı saz havası da aşıqlar tərəfindən tez-tez ifa olunur.

Mənbələr: *M.Qasımlı, M.Allahmanlı. Aşıq şeirinin poetik biçimləri və çeşidləri, s.192-195; Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə), IV, 466; Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü, s.50.*

VƏDUD TƏBRİZİ – XV-XVI əsrlərdə Səfəvilər dövlətində yaşamış görkəmli Azərbaycan alimi, *işraq* fəlsəfəsinin nümayəndəsi. Vədud ibn Məhəmməd Təbrizinin həyatı barədə məlumat azdır. Şeyx Sührəvərdinin "Əlvah İmadiyyə" risaləsinə yazıb 1524-cü ildə bitirdiyi ərəbcə şərhdən onun elmi fikirləri və dünyagörüşü haqqında təsəvvür əldə etmək mümkündür. Görkəmli fransız filosofu, islamşünas Henry Corbin Vədud Təbrizini bir alim və arif kimi yüksək dəyərləndirmiş, adıçəkilən şərhdən böyük bir hissəni tərcümə və nəşr etdirmişdir.
Vədud Təbrizi Sührəvərdinin "Hikmət əl-işraq" əsərinə də haşiyə yazmışdır, amma bu haşiyə günümüzə gəlib çatmayıb.

Mənbələr: *Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan, II, 685-689; Henry Corbin. Azərbaycanın üç filosofu: Sührəvərdi, Vədud Təbrizi, Rəcəbəli Təbrizi (farscaya tərcümə: Məhəmməd Ğərəvi), s.161-196.*

VƏHİD QƏZVİNİ, Məhəmməd Tahir (1606/07-1700/01) – Səfəvilər dövlətində fəaliyyət göstərmiş şair və tarixçi. Məhəmməd Yusif Valeh Qəzvininin qardaşıdır. Qəzvin şəhərində doğulmuş, Səfəvi sarayında xidmətə başlayaraq II Şah

Abbasın saray tarixçisi vəzifəsinə təyin edilmişdir. 1691-ci ildə Şah Süleyman tərəfindən *baş vəzir* (vəziri-əzəm) mənsəbinə gətirilmiş, "imad əd-dövlə" (dinin sütunu) ləqəbini daşımışdır. Şah Sultan Hüseynin hakimiyyəti dövründə də bir müddət bu vəzifəni icra etmişdir (1699-cu ilədək). Səfəvilər dövlətinin başlanğıcından II Şah Abbasın hakimiyyətinə kimi dövrün tarixini əhatə edən "Riyaz ət-təvarix" adlı kitab yazmışdır, onun son bölümü "Abbasnamə" adlanır.

O, bütün elmlərdə və ədəbi istedadda tayı-bərabəri olmadığına görə özünə "Vəhid" təxəllüsünü götürmüşdür. Azərbaycan və fars dillərində yazmışdır. Şeirlərində Səfəvilər dövrü ədəbiyyatına xas *hind üslubu* sezilir. Ədəbi irsi çox böyükdür (90 min beyt olduğunu yazırlar), irihəcmli *divanı* və bir neçə məsnəvisi vardır.

Mənbələr: *P.Kərimov. Vəhid Qəzvini və onun türkcə divanı (ön söz); Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 310-311.*

VƏHŞİ BAFQİ (1532-1583) – XVI əsrdə Səfəvilər dövlətində yaşamış görkəmli şair. Yəzd şəhəri yaxınlığında doğulmuş, Yəzd, Kaşan şəhərlərində təhsil almış, müxtəlif vilayətlərə, o cümlədən Hindistana səfər etmişdir. Vəhşi Bafqi Kaşan şəhərində bir müddət müəllimlik də etmişdir. Qələm əhli olan, gənc yaşlarında dünyasını dəyişmiş qardaşı onun yaradıcılığına güclü təsir göstərmişdir. Şair Səfəvi hökmdarlarından I Şah Təhmasib, II Şah İsmayıl və Şah Məhəmməd Xudabəndə ilə müasir olmuş, Kirman bəylərbəyi *Bektaş bəy Əfşara* məddhiyyə yazmışdır.

Vəhşi Bafqinin yaradıcılığı XVI əsr ədəbiyyatında mühüm yerə malikdir. 9 min beytdən artıq həcmə malik divanı, Nizami Gəncəviyə nəzirə olaraq qələmə aldığı "Xüldi-bərin", "Fərhad və Şirin" (sonrakı şairlər tərəfindən tamamlanmışdır) poemaları, "Nazir və Mənzur" adlı məhəbbət məsnəvisi, mədhiyyə və həcvləri vardır.

Sadiq bəy Əfşar onun haqqında belə yazır: "Xoştəb və püxtə (yetişmiş) şairdir. Şeirin bütün sahələrində bacarığı var, xüsusən qəzəldə".

Mənbələr: *Müdərris Təbrizi. Reyhanət əl-ədəb, VI, 307-309; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.172; Theodore S. Beers. The Biography of Vahshi Bafqi (d. 991/1583) and the Tazkera Tradition (Journal of persianate studies, 8/2015), pp.195-222; Türkiye Diyanet Vakfi İslam Ansiklopedisi, XLII, 449-450; М.Л.Рейснер, А.Н.Ардашникова. Персидская литература IX-XVIII веков, II, 180-189; Мехти Кязимов. Персоязычная поэзия XVI-XVII веков, стр.74-96.*

"VƏSAİL ƏŞ-ŞİƏ" – Səfəvilər dövründə tərtib edilmiş ən böyük hədis məcmuələrindən biri. Kitab bütöv şəkildə "Təfsil vəsail əş-şiə ila təhsil məsail əş-şəriə" adlanır. Müəllifi Məhəmməd ibn Həsən *Hürr Amilidir* (1624-93). Alim 18 il müddətində qələmə aldığı bu kitabda şiə məzhəbinin 4 məşhur hədis toplusunda (kütübi-ərbəə) və 180-dən artıq digər mənbədə mövcud olan hədis irsini mövzular üzrə bölmüşdür. 36 minə yaxın hədisin toplandığı "Vəsail əş-şiə" kitabı *Əllamə Məclisinin* tərtib etdiyi *"Bihar əl-ənvar"*, *Feyz Kaşaninin* ha-

zırladığı "əl-Vafi" əsərləri ilə yanaşı ən böyük hədis məcmuələrindən sayılır.

Mənbələr: *Hürr Amili. Təfsil vəsail əş-şiə ila təhsil məsail əş-şəriə (nəşrə hazırlayan: Müəssəsət Al əl-beyt li-ihya ət-tiras), I, 88-98; Müdərris Təbrizi. Reyhanət əl-ədəb, II, 30-33; Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla, V, 63-75; Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-s-sadat, VII, 96-105.*

VİRANİ – *ələvi-bektaşi* ənənəsində böyük ehtirama layiq olan *yeddi ulu ozandan* biri. Virani XVI əsrin sonları-XVII əsrin əvvəllərində yaşamışdır. İndiki Yunanıstan ərazisində yerlşən Eğriboz adasında doğulmuş, mükəmməl təhsil görmüş, ərəb və fars dillərini də mənimsəmişdir. Nəcəf şəhərində İmam Əlinin (ə) hərəmində xidmət etmiş, Kərbəla ziyarətində olmuş, bektaşiliyin ikinci şeyxi Balım Sultanla və I Şah Abbasla görüşmüşdür. Uzun müddət səfərlərdə olmuş, təriqət şeyxlərindən icazələr almışdır. Virani Karlıovadakı Hafizzadə türbəsində vəfat edərək orada torpağa tapşırılmışdır. *Divanındakı* qəzəllər əruz vəznindədir, amma dərvişlər arasında heca vəznli şeirləri daha çox yayılmışdır.

Mənbələr: *İsmail Özmen. Alevi-Bektaşi Şiirleri Antolojisi (5 cilddə); Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XLIII, 109-110; Reyhan Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi ("Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi", 2017, Sayı: 83), s.49-79; Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan.*

YEDDİ ULU OZAN – ələvi-bektaşi ənənəsində böyük ehtirama layiq olan, əsərləri təriqət məclislərində oxunan yeddi böyük şair. Yeddi ulu ozanın dünyagörüşü və əsərləri *ələviliyin* və *bəktaşiliyin* inkişafına mühüm təsir göstərmişdir. Onların ədəbi irsi sonrakı *ozanlar* və şairlər tərəfindən tədqiq edilmiş və nümunə götürülmüşdür.

Yeddi ulu ozan bunlardır:

1. İmadəddin Nəsimi.
2. Şah İsmayıl Xətai.
3. Məhəmməd Füzuli.
4. Yəmini
5. Virani
6. Pir Sultan Abdal
7. Qul Hümmət.

Ulu ozanların sayının yeddi olmasını İslamda və xüsusilə sufilikdə mistik məna daşıyan yeddi rəqəmi ilə bağlamaq cəhdləri də vardır. Bu izaha görə, yeddi yer, yeddi göy, yeddi iqlim, insan üzündəki yeddi xətt, yeddi ayə və s. anlayışlar kimi, yeddi ozan mövzusu da təsəvvüfdə mistik məna yükü daşıyır.

Yeddi ulu ozanın hər biri haqqında eyniadlı maddələrdə ətraflı məlumat verilmişdir.

Mənbələr: *İsmail Özmen. Alevi-Bektaşi Şiirleri Antolojisi (5 cilddə); Abdulbaki Gölpınarlı. Pir Sultan Abdal, s.6-12; Abdulbaki Gölpınarlı, Pertev Naili Boratav. Pir Sultan Abdal, s.3-46; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXVI, 352, XXXIV, 277-278, XLIII, 109-110, 420-421; Reyhan Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi ("Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi", 2017, Sayı: 83), s.49-79; Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan.*

YELLƏNƏN MİNARƏLƏR MƏSCİDİ – İsfahandan 7 km qərbdə, Nəcəfabad

şəhəri istiqamətində yerləşən Kardalan qəsəbəsindəki Səfəvilər dövrünə aid nadir memarlıq abidəsi. Farsca bu məscidi "Mənari-cünban" (Yellənən minarələr) adlandırırlar. Memarlıq quruluşu baxımından XIV əsrin əvvəllərinə – Elxanilər dövrünə aid edilən, firuzəyi rəngdə kaşılarla bəzədilmiş bu məscidə ümumdünya şöhrəti gətirən cəhət onun qeyriadi konstruksiyaya malik qoşa minarələridir.

Məscid öz zamanında mömin və zahid şəxs kimi tanınmış Əmu Abdullah ləqəbli Abdullah ibn Mühəmməd ibn Mahmud Səqəlanın məzarı üzərində tikilmişdir. Əmu Abdullah Elxani hökmdarı Sultan Məhəmməd Xudabəndə Öljaytunun zamanında yaşamış, 1317-ci ildə vəfat etmişdir.

Məscidin oturacağı kvadrat şəkillidir və tərəfləri təqribən 10 metrdir. Elxanilər dövrünün memarlıq ənənələrinə uyğun olaraq, giriş hündür və yaraşıqlı baştağ şəklindədir. Məscidin ikimərtəbəli daxili fəzası bir-birinin üzərində yeləşən iki kiçik otaqdan ibarətdir. Uzun müddət məscid minarələrsiz mövcud olmuşdur. Qoşa minarələrin sonralar – Səfəvi hakimiyyətinin sonlarında tikildiyi barədə məlumatlar vardır. Məscidin cinahlarında yerləşən, yer səthindən hündürlüyü 17 metrə çatan, məscidin damından cəmi 5 metr hündürlüyə ucalan qoşa minarənin I Şah Abbasın vəziri, ensiklopedik alim *Şeyx Bəhainin* (1547-1621) layihəsi əsasında inşa edildiyi deyilir. Bu məlumatı təkzib edən mənbələr də vardır.

Çox kiçik sahəli en kəsiyinə baxmayaraq, minarələr öz funksionallığını hələ də qoruyub saxlayır. Minarələrin yuxarı hissəsində bir nəfərin zorla yerləşəcəyi qədər kiçik ölçülü dairəvi meydança vardır. Minarələrin daxili divarına dəstək bərkidilib. Meydançada dayanan şəxs həmin dəstəkdən tutaraq güclü təkanla silkələdikdə həm bu, həm də o biri minarə uyğun amplitudlu rəqsi hərəkətə başlayıb yırğalanır. Müşahidələr göstərir ki, hərəkət təkan verilən minarədən başlayır, daha sonra məscidin binasına, oradan da digər minarəyə ötürülür.

Minarələrin hərəkətini daha qabarıq nümayiş etdirmək üçün onların gövdəsindən iri zınqırovlar asılıb. Minarələr hərəkətə gələndə zınqırovlar tərpənib səs salır. Bundan başqa, məscidin içində, Əmu Abdullahın ağ mərmərdən yonulmuş və "Yasin" surəsi ilə bəzədilmiş sənduqəsinin üzərinə də su ilə dolu kasa qoyulur. Məscidin binası yırğalandıqca kasadakı suyun səthində titrəyişlər müşahidə edilir.

Minarələrin tez-tez fiziki təsirə məruz qalması ziyanlı olduğu üçün son dövrlərdə minarələrə hər kəs deyil, yalnız məscidin xidmətçisi daxil ola bilir. O, hər saatdan-bir seyrçilərin gözü qarşısında minarələri hərəkətə gətirir.

Minarələrin yellənməsini bəziləri Əmu Abdullahın qəbrinin kəraməti ilə izah edirlər. Məscidin sirrini anlamaq istəyənlər dəfələrlə minarələri sökməyə cəhd etmişlər. Qazıntılar zamanı məzar bir neçə dəfə zədələnərək uçulub. Amma hər dəfə Əmu Abdullahın cəsədi çürüməmiş halda aşkara çıxıb və bu mənzərəni görənləri heyrətə salıb.

Minarələrin tərpənmə səbəbi barədə fərqli

nəzəriyyələr irəli sürülmüşdür. Bəziləri bunu məscidin özülünün xüsusi konstruksiyası ilə əlaqələndirirlər. Bəzi mütəxəssislərin fikrincə isə, minarələrin gövdəsinə oturacaqda və yuxarı hissədə, adamın durması üçün nəzərdə tutulmuş meydança bərabərində dördbucaqlı şəklində bərkidilmiş taxtalar tikilini hərəkətə gətirir. Bu taxtalar minarələr üçün sanki həncama (şarnir) rolunu oynayır.

Mənbələr: *Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq, s.92-93; Lüğətnameyi-Dehxuda, II, 2780; Əli Əkbər Mehdipur, Əcsadi-cavidan, s.166-168.*

YƏMİNİ – ələvi-bektaşi ənənəsində böyük ehtirama layiq olan *yeddi ulu ozandan* biri. Yəmini XV əsrin sonları-XVI əsrin əvvəllərində yaşamış xalq ozanıdır. Həyatı haqqında məlumat azdır. Adının Fazil oğlu Məhəmməd və ya Əli olduğunu yazırlar. Bəzi məlumatlara görə, Quran hafizi olmuşdur. Yəmini əsasən sadə xalq dilində, heca vəznində yazmışdır, amma əruz vəznli şeirləri də mövcuddur. 7300 beytdən ibarət olan, İmam Əlinin (ə) fəzilətlərinə (üstünlüklərinə) həsr edilmiş "Fəzilətnamə" əsəri köhnə Anadolu türkcəsi şivəsindədir. *Ələvilər* və *bektaşilər* arasında bu əsər "Kitabi-ərdəm" (gözəl əxlaq kitabı) adı ilə tanınır. Yəmininin yaradıcılığında *hürufi* əqidəsi və Nəsimi təsiri duyulur.

Mənbələr: *İ.Özmen. Alevi-Bektaşi Şiirleri Antolojisi (5 cilddə); Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XLIII, 420-421; R.Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi ("Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi", 2017, Sayı: 83), s.49-79; Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan.*

YUSİF BƏY USTACLU – XVI əsrdə Səfəvilər dövlətində yaşamış Azərbaycan şairi və hərbçi. *Ustaclu* tayfasının *Çavuşlu* oymağından I Şah İsmayılın məşhur sərkərdəsi *Məhəmməd xan Ustaclunun* qohumu, Baba Süleyman bəyin oğludur. I Şah İsmayılın oğlu *Sam Mirzənin* yaxın ətrafından sayılırdı. Sam Mirzə təzkirəsində Yusif bəyin artıq 12 ildir ona xidmət etdiyini, bu müddət ərzində ondan heç bir pis əməl görmədiyini yazır, paklıq və təqva sarıdan bütün deyilənlərdən daha yüksəkdə durduğunu qeyd edir. Sam Mirzə onun hərb sahəsində də bacarıqlı və şücaətli olduğunu diqqətə çatdıraraq bildirir ki, "davranışda onun kimisi türk və tacik (fars) arasında az tapılar".

Sam Mirzənin I Şah Təhmasibə qarşı çıxmasından sonra Yusif bəy şah tərəfindən əfv edilmiş və Təbriz üsyanını (1571-73) yatırmaq üçün göndərilən qoşuna başçılıq etmişdir. Ustalıqla hərəkət edərək üsyanı az itki ilə yatırmağa nail olmuş, buna görə xalq tərəfindən razılıqla qarşılanmışdır.

Sadiq bəy Əfşarın "Məcmə əl-xəvas" təzkirəsində də Yusif bəy Ustacluya xüsusi diqqət ayrılmış və yüksək dəyər verilmişdir. Onun adını "Səltənət sütunu olan türklər" bölümündə "Yusif bəy Çavuşlu" şəklində qeyd edən müəllif yazır: "Qızılbaşın istedad sahibləri içində seçilən bir şəxs idi. Darüs-səltənə Təbrizdə bir neçə gün hakimlik etdi. Şeir təbi Mövlana Füzuliyə yaxındır".

Yusif bəy Ustaclu "Yusif" təxəllüsü ilə Azərbaycan və fars dillərində şeir yazmışdır. Hələlik qısahəcmli divanı nəşr

edilmişdir, daha irihəcmli divanının da olduğu məlumdur. Əsərlərində Füzuli və Nəvai təsiri aydın görünür.

Mənbələr: *Töhfeyi-Sami, s.184; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas, s.45; Yusif bəy Ustaclu. Divan (ön söz); Azərbaycan ədəbiyyatı tarixi (10 cilddə), III, 932-943.*

YUSİF TƏRKEŞDUZ (YUSİF SƏRRAC) – I Şah Abbasın hakimiyyəti zamanı baş vermiş bir hadisənin əsas iştirakçısı. *"Tarixi-aləmarayi-Abbasi"də* deyilir ki, I Şah Abbasın zamanında (hicri 1002/miladi 1594-cü il) münəccim *Mövlana Cəlaləddin Yəzdi* göy cisimlərinin hərəkətini izləyib belə xəbər vermişdi ki, üç gün müddətində şahın həyatı üçün ciddi təhlükə vardır və gərək bu üç gün ərzində taxt-tac müvəqqəti olaraq başqa bir adama verilsin. Məsləhət görüldü ki, ölümə məhkum edilmiş bir cinayətkarı üç gün ərzində şah elan etsinlər, qoy ulduzların qəzəbi onun üzərində cəmləşsin. Bu arada ifrat əqidədə olan nöqtəviyyə sufi təriqətinə qarşı bütün ölkədə cəza tədbirləri həyata keçirilirdi. Həbsdə olan təriqət üzvlərindən Yusif Tərkeşduz adlı bir nəfəri taxta çıxarıb hakimiyyəti simvolik olaraq ona təslim etdilər. Yusif üç gün şahlıq məqamında oturduqdan sonra onu taxtdan salıb edam etdilər və I Şah Abbas hakimiyyətə qayıtdı. Bu hadisəni M.F.Axundov "Aldanmış kəvakib" povestində bədii şəkildə təsvir etmiş, hadisənin qəhrəmanının adını Yusif Sərrac kimi vermişdir.

Mənbələr: *İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev), s.802-804; Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı, II, 341-343; M.F.Axundov. Bədii və fəlsəfi əsərləri, s.171-192.*

ZÜLFÜQAR – İmam Əli ibn Əbu Talibin (ə) məşhur qılıncının adıdır. Ərəb dilindən tərcüməsi "fəqərəli" deməkdir. Qılıncın tiyəsinin üzərində onurğa fəqərəsinə bənzər naxışlar olduğu üçün ona bu ad verilmişdir.

Zülfüqar Məkkə müşriklərindən Münəbbeh ibn Həccaca (yaxud As ibn Münəbbeh Səhmiyə) mənsub idi. Bədr döyüşündə İmam Əli (ə) onu öldürüb qılıncını qənimət olaraq Həzrət Mühəmməd Peyğəmbərə (s) təhvil vermişdi. Ühüd savaşında İmam Əli (ə) elə şücaətlə döyüşürdü ki, əlində bir neçə qılınc sınmışdı. Bu zaman Peyğəmbər Zülfüqarı onun belinə bağlayıb savaş meydanına göndərmişdi. Dini mənbələrdə yazılıb ki, həmin gün Peyğəmbər Əlinin (ə) şücaətini seyr edərək belə buyurdu: "La fəta illa Əli, la seyfə illa Zülfiqar" (Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur). Bu cümlənin vəhy mələyi Cəbrail (ə) tərəfindən Həzrət Mühəmməd Peyğəmbərə (s) buyurulduğu rəvayət edilir.

Digər rəvayətə görə, Həzrət Mühəmməd Peyğəmbər (s) Əlini (ə) Yəmənə göndərmişdi ki, oradakı bütü sındırıb altındakı polad oturacağı (pyedestalı) gətirsin. Həmin poladdan iki qılınc düzəltdilər. Bunlardan Mixzəm adlı birini Peyğəmbər özünə götürdü, o biri qılıncı, yəni Zülfüqarı isə Həzrət Əliyə (ə) verdi. Peyğəmbər vəfat etdikdən sonra Mixzəm də Əliyə (ə) qaldı.

Zülfüqarın uzunluğu yeddi, eni bir qarış idi. Geniş yayılmış təsəvvürün əksinə olaraq, Zülfüqar ikitiyəli, haça uclu deyildi, onun tiyəsinin hər iki tərəfi iti idi. Yəni bu qılıncla deşici zərbə vuranda hər iki istiqamətdə yara əmələ gətirirdi, bu da silahın öldürücü gücünü artırırdı. İmam Əlinin (ə) Zülfüqarla vurduğu zərbələr elə dəqiq olurdu ki, ikinci zərbəyə ehtiyac qalmırdı. Buna baxmayaraq, İslam incəsənətində Zülfüqar adətən ikitiyəli qılınc formasında təsvir edilir.

Bəzilərinin fikrincə, İstanbulun Topqapı sarayında Müqəddəs Əmanətlər Ekspozisiyasında saxlanılan qılınclardan biri də Zülfüqardır. Lakin şiə mənbələrində göstərilir ki, Zülfüqar imamlara nəsildən-nəslə keçmişdir və hal-hazırda on ikinci *İmam Mehdidədir (ə).* Mehdinin (ə) zühur əlamətlərindən biri də Zülfüqara sahib olmasıdır.

Zülfüqar qızılbaş-səfəvi ənənəsində də mühüm yerə malikdir. XVI əsrə aid miniatür nümunələrində Səfəvi döyüşçülərinin əlindəki üçkünc bayraqların üzərində qırmızı rəngdə haçalı Zülfüqar təsviri vardır. Qızılbaş düşüncəsində Zülfüqar simvolik məna daşıyır. O, qızılbaş əqidəsini yayanların qarşısında duran qüvvələri cəzalandırmaq üçün bir vasitədir. Səfəvi mənbələrində I Şah İsmayılın döyüşlərdə şücaətini təsvir edərkən onun Heydər (İmam Əli) kimi Zülfüqar qılıncı ilə düşmənləri tar-mar etdiyi yazılır. Burada şahın əlində Zülfüqar qılıncı tutması həqiqi yox, simvolik mənada qəbul edilir. Şah İsmayıl Xətainin şeirlərində müxtəlif poetik ifadə vasitələri formasında tez-tez Zülfüqarın adına rast gəlirik. O, qılıncını Zülfüqar adlandırmaqla özünü İmam Əlinin (ə) mənəvi varisi kimi təqdim edir və mübarizəsinin haqq olduğunu vurğulayır:

Şahi-Mərdanın, Əlinin aliyəm, övladiyəm,
Zülfüqarü tacü Düldül uş bu nişan məndədir.

Mühəmməd möcüzi, Şah Zülfüqarı
Əlimdədir nişanə, şimdi gəldim.

Cuş etdi Zülfüqarım, qında durmaz,
Kim inkar əhlidir imanə gəlsün.

Yenə oynaya Şahın Zülfüqarı,
Müti ola onun əmrinə varı.

(Ş.İ.Xətai)

Mənbələr: *Lüğətnameyi-Dehxuda, VIII, 11541-11542; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XLIV, 553-556; Divani-Əmirəlmöminin Əli ibn Əbitalib (farsca tərcümə: Mustafa Zamani), s.223; Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə), II, 288-289; Şah İsmayıl Xətai. Əsərləri (2 cilddə), I, 141, 365, 405; II, 381.*

Sakkizinci bölüm

Səfəvilər dövrünün tarixi mənbələri



SƏFƏVİLƏR DÖVRÜNÜN TARİXİ MƏNBƏLƏRİ – Bəzi Qərb tədqiqatçılarının irəli sürdükləri nəzəriyyəyə görə, Səfəvilər dövründə ədəbiyyat tənəzzül mərhələsini yaşamış, diqqətəlayiq əsərlər meydana gəlməmişdir. Lakin daha obyektiv araşdırmalar bunu söyləməyə əsas verir ki, Səfəvi müəllifləri və əcnəbi yazarlar tərəfindən dövrün ictimai-siyasi, elmi-mədəni, iqtisadi və hərbi mənzərəsini əks etdirən kifayət qədər əsər qələmə alınmışdır. Məşhur şərqşünas B.B.Bartold qeyd edirdi ki, XVI-XVIII əsrlər tarixini tədqiq edən araşdırmaçıların üzləşdiyi əsas çətinlik mənbələrin azlığı deyil, əksinə, dünya kitabxanalarına səpələnmiş, tənqidi yanaşma və ən əsası, tənqidi nəşr tələb edən materialların bolluğudur.

Səfəvilər dövrünə aid mənbələri aşağıdakı təsnifat üzrə qruplaşdırmaq olar:

1. Səfəvi salnaməçiləri tərəfindən qələmə alınmış əsərlər;
2. Qonşu müsəlman ölkələrin diplomat və səyyahları tərəfindən yazılmış kitablar;
3. Səfəvilər dövlətinə səfər etmiş Qərb diplomat və səyyahlarının xatirələri.

Səfəvi müəlliflərinə məxsus olan tarixi mənbələrin əksəriyyəti narrativ xarakter daşıyan salnamə formatında qələmə alınmışdır. Bəzi müəlliflər ümumtarix kitabı yazmağı qarşılarına məqsəd qoymuş, buna görə klassik İslam tarixşünaslığı ənənələrinə sadiq qalaraq hadisələri ya dünyanın yaradılışından, ya da Həzrət Mühəmməd Peyğəmbərin (s) həyatından başlayaraq təsvir etmişlər. Bəzi müəlliflər Səfəvi tarixinə başlamazdan əvvəl qədim dünyanın böyük dövlət və sülalələrindən də söhbət açmış, o cümlədən, Səfəvi imperiyasının meydana gəlməsi üçün zəmin rolunu oynamış Elxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular haqqında məlumat vermişlər. (Bu qisim mənbələrin bariz nümunəsi Əbdi bəy Şirazinin *"Təkmilət əl-əxbar"* kitabı sayıla bilər. Həsən bəy Rumlunun *"Əhsən ət-təvarix"* kitabının da əlimizdə olan son iki cildindən əvvəlki cildlərin ümumtarix xarakterli olduğu məlumdur, amma həmin hissələr dövrümüzə gəlib çatmamışdır). Səfəvi müəlliflərinin bəziləri təsvir etdikləri hadisələrin canlı şahidi olduqları üçün onların verdiyi informasiyalar, bir qayda olaraq, çox təfərrüatlıdır (bəzən yorucu dərəcədə). Bir çox müəllif keçmiş hadisələrin təsvirini özündən əvvəlki digər məşhur mənbələrdən nəql edir. Məzələn, İsgəndər bəy Münşi *"Tarixi-aləmarayi-Abbasi"* kitabında Həsən bəy Rumlunun "Əhsən ət-təvarix" əsərinə dəfələrlə müraciət etmiş, bəzən oradakı məlumatları təkrarlamaqla kifayətlənmiş, bəzən isə düzəlişlər vermişdir.

Səfəvi müəlliflərinin yazılarında şahlar və şahzadələr, yüksək vəzifə sahibləri adətən idealizə edilir, onların hərbi şücaəti, şəxsi keyfiyyətləri, ədalət və səxavəti mübaliğəli şəkildə göstərilir. Hərbi əməliyyatların təsviri zamanı qızılbaş döyüşçülərinə rəğbət, düşmənə nifrət açıq hiss olunur, bunu hər iki tərəfin ünvanına işlədilən bədii ifadələrdə də aydın sezmək mümkündür. Səfəvi ordusunun hərbi uğurlarını təsvir edərkən müəlliflər adətən rəqəmləri şişirdir, qarşı tərə-

fin sayını və itkilərini daha böyük miqdarda təqdim edirlər. Bu xüsusiyyətlər müasir dövrdə qeyri-obyektiv və qeyri-humanist görünsə də, orta əsrlərin tələbi baxımından tamamilə normal idi.

Müəlliflərin bir çoxu Səfəvi sarayında xidmət etdiyi, əsərini şahın və ya əyanlardan birinin sifarişi ilə yazdığı üçün hadisələrə tam obyektiv qiymət verməyi bacarmamışdır. Bu, hərbi uğursuzluqlarda hökmdarın təqsirini gizlətmək və günahı sərkərdələrin üzərinə qoymaq, şahın ədalətsiz rəftarına və amansız cəzalarına haqq qazandırmaq şəklində əsərlərdə təzahür edir. Ölkədəki haqsızlıqlara qarşı qalxan qiyamlar şaha xəyanət kimi təqdim edilir və hakim rejimin nöqteyi-nəzərindən dəyərləndirilir. Dövrün tələblərinə uyğun olaraq Səfəvi mənbələrində güclü formada dini amil, məzhəbi zəmində təəssübkeşlik, hadisələrə və şəxslərə şiə nöqteyi-nəzərindən yanaşma, qarşı məzhəbin daşıyıcılarına və dəyərlərinə qarşı barışmazlıq duyulur. Bununla belə, diqqətli tədqiqatçı təsvir edilən dövr və hadisələr barədə digər mənbələri araşdırıb tutuşdurmaqla obyektiv nəticələr əldə edə bilir.

Səfəvi müəllifləri tərəfindən qələmə alınmış əsərləri müharibə tarixi də adlandırmaq olar. Bu əsərlərin xarakterik cəhətlərindən biri bundan ibarətdir ki, hərbi əməliyyatların gedişi çox ətraflı şəkildə verilir, lakin o dövrün sosial-iqtisadi mənzərəsinə, elmi-mədəni tərəqqisinə, xalqın dolanışıq tərzinə və adət-ənənələrinə xeyli az yer ayrılır. Qərb səyyahlarının xatirələrində bu nöqsan daha az hiss olunur.

Səfəvi mənbələrinin xarakterik cəhətlərindən biri də mətn boyunca yeri gəldikcə Quran ayələrinə, hədislərə, şeir parçalarına tez-tez müraciət edilməsidir. Bəzi kitablarda mövzuya uyğun olaraq şahın imzaladığı əmr və fərmanların, məktub və vəqfnamələrin mətnləri də olduğu şəkildə təqdim edilir. Əksər Səfəvi mənbələrini ədəbi və poetik baxımdan da gözəl sənət əsəri saymaq olar, mübaliğəli ifadə vasitələri, maraqlı təşbehlər, cümlədaxili qafiyələşmə onları daha da cazibədar edir.

Aşağıda adları qeyd edilmiş kitablar Səfəvilər dövrünün mühüm tarixi mənbələrindən sayılır:

"Tarixi-aləmarayi-Abbasi" (İsgəndər bəy Münşi Türkman), *"Əhsən ət-təvarix"* (Həsən bəy Rumlu), *"Təkmilət əl-əxbar"* (Əbdi bəy Şirazi), "Aləmarayi-Şah İsmayıl" və ya *"Aləmarayi-Səfəvi"* (anonim), *"Aləmarayi-Şah Təhmasib"* (Mülayim bəy Mərəşi Təbrizi), *"Xülasət ət-təvarix"* (Qazı Əhməd Qumi), *"Zübdət ət-təvarix"* (Məhəmməd Möhsin Mustovfi), *"Fütuhati-şahi"* (Sədrəddin Əmini), *"Cəvahir əl-əxbar"* (Budaq Qəzvini), *"Məcmə ət-təvarix"* (Mirzə Məhəmməd Xəlil Mərəşi Hüseyni), *"Şah Təhmasib təzkirəsi"* (I Şah Təhmasibə aid edilir), *"Abbasnamə"* (Vəhid Qəzvini), *"Xüldi-bərin"* (Valeh Qəzvini), *"Cahangüşayi-xaqani"* (anonim və ya Bicən), *"Nüsəxi-cahanara"* (Qazı Əhməd Qəffari), *"Qisəs əl-xaqani"* (Vəliqulu bəy Şamlu), *"Lübb ət-təvarix"* (Yəhya Qəzvini), *"Tarixi-sultani"* (Seyid Həsən Hüseyni Astarabadi), *"Xülasət əs-siyər"* (Məhəmməd Məsum ibn Xacəgi İsfahani),

"Molla Kamal tarixi", *"Nəqavət əl-asar"* (Mahmud Nətənzi), *"Tarixi-səlatini-Səfəviyyə"* (Məhəmməd Məsum), *"Fəvaid əs-Səfəviyyə"* (Əbülhəsən Qəzvini), *"Zeyli-Həbib əs-siyər"* (Əmir Mahmud Xondəmir), *"Rövzət əs-Səfəviyyə"* (Mirzə bəy Cünabədi), *"Ruznameyi-Molla Cəlal"*, *"Rüstəm ət-təvarix"* (Məhəmməd Haşim İsfahani), *"Tarixi-Həzin"* (Məhəmməd Əli) və s. I Şah Abbasın Avropa ölkələrinə göndərdiyi diplomatik korpusun tərkibində yola çıxmış, lakin İspaniyada xristianlığı qəbul edərək geri qayıtmamış *Oruc bəy Bayatın* (Don Juan) yazdığı kitab da bütün yanlışlıqları ilə yanaşı, Səfəvilər dövləti barədə mühüm mənbələrdən biridir.

Səfəvilər dövründə qələmə alınmış kitabların bir qismində həmin dövrün elmi-mədəni mühiti, görkəmli ədəbiyyat və incəsənət xadimlərinin həyatı haqqında qənaətbəxş məlumatlar verilmişdir. I Şah İsmayılın oğlu *Sam Mirzəyə* mənsub olan "Töhfeyi-Sami", *Sadiq bəy Əfşarın* yazdığı *"Məcmə əl-xəvas"*, Qazı Əhməd Quminin *"Gülüstani-hünər"*, Məhəmməd Tahir Nəsrabadinin *"Təzkireyi-Nəsrabadi"*, Qazı Əhməd Qəffarinin *"Nigaristan"*, Əmin Əhməd Razinin *"Həft iqlim"* əsərləri bu qəbildəndir.

Bəzi əsərlər salnamə xarakterli olmasa da, Səfəvilər dövlətinin quruluşu, idarəçilik ənənələri, bürokratik aparatı, ölkənin sosial-iqtisadi durumu barədə ətraflı məlumat vermək baxımından böyük əhəmiyyət daşıyır. Bunların bir qismində o dövrün dövlət sənədlərindən, şah fərmanlarından nümunələr də verilmişdir (Mirzə Səmianın *"Təzkirət əl-müluk"*, Mirzə Rəfianın *"Dəstur əl-müluk",* Mirzə Əli Nəqi Nəsiri Ordubadinin *"Əlqab və məvacib"*, Əbdülhüseyn Nəsiri Tusinin *"Münşəat"* və ya "Töhfeyi-şahi", Məhəmməd İbrahim Nəsirinin *"Dəsturi-şəhriyaran"*, Heydər bəy Evoğlunun *"Məcmə əl-inşa"* əsərləri bunların ən məşhurlarıdır).

Tədqiqatlar zamanı Səfəvilər dövlətinin quruluşundan əvvəlki dövrün mənzərəsini əks etdirən, səfəviyyə şeyxlərinin həyat və fəaliyyətindən söhbət açan mənbələr də diqqətdən kənarda qalmamalıdır. *Şeyx Səfiəddin Ərdəbilinin* ömür yolundan və fikir dünyasından bəhs edən *"Səfvət əs-səfa"* əsəri, onun XVI əsrdə Azərbaycan dilinə çevrilmiş tərcüməsi *("Şeyx Səfi təzkirəsi")* və *"Qara məcmuə"* kitabı, səfəviyyə sülaləsi nümayəndələrinin həyat tarixçəsini ehtiva edən *"Silsilət ən-nəsəbi-Səfəviyyə"*, qızılbaş tayfaların ensiklopediyası adlandırla biləcək *"Tarixi-qızılbaşan"* bu baxımdan müstəsna əhəmiyyət daşıyır.

Yuxarıda adları çəkilən əsərlərin böyük əksəriyyəti barədə müstəqil məqalələr şəklində ətraflı məlumat verilir. Ayrıca məlumat verilməmiş bəzi kitabları da, Səfəvilər dövrü tarixşünaslığı üçün əhəmiyyət daşıdığını nəzərə alaraq, burada xatırlatmağı lazım bilirik.

Gəncəli Hacı Məhəmmədqulu xan Qacarın 1685/86-cı illərdə qələmə aldığı 23 fəsildən ibarət "Lübb əl-lübab" əsəri ümumtarix kitabı olub, İslamın gəlişindən etibarən müsəlman dünyasında baş vermiş hadisələrin təsvirini və müsəlman sülalələrin hakimiyyət dövrü barədə məlumatları özündə əks etdirir. Kita-

bın 22-ci bölümü I Şah İsmayılın hakimiyyətə gəlişindən I Şah Abbasın vəfatınadək olan dövrü ehtiva edir. Hələ nəşr olunmamış kitabın elm aləminə məlum olan iki nüsxəsindən biri Londondakı Britaniya muzeyində, digəri isə Tehran Universitetinin Ədəbiyyat İnstitutunun kitabxanasında saxlanılır. Əsəri maraqlı edən cəhətlərdən biri də onun son bölümündə məşhur şairlər sırasında Səfəvilər dövründə yaşamış ədiblər haqqında da məlumat verilməsidir.

Şeyx Səfiəddin Ərdəbilinin mürşidi *Şeyx Zahid Gilaninin* nəslindən olan Sultan Mahmud ibn Sultan Bürhanəddin Gilaniyə mənsub "Əqaidi-övliyayi-səbə" adlı həcmi o qədər də geniş olmayan risalə, adından da göründüyü kimi, yeddi böyük övliyanın təsəvvüf görüşlərini əks etdirir: Şeyx Zahid Gilani, Şeyx Səfiəddin Ərdəbili, onun oğlu *Şeyx Sədrəddin* və nəvəsi *Xacə Əli (Siyahpuş)*, Şeyx Zahidin oğlu Şeyx Cəmaləddin, onun oğlu Sultan Bürhanəddin və nəvəsi Sultan Mahmud. Əsrlər boyunca əlyazma şəklində mövcud olduğu üçün araşdırmalara cəlb edilməmiş kitabın elmitənqidi mətni son dövrlərdə Azərbaycanda çap olunmuşdur.

Nadir şah Əfşarın həyatından bəhs edən klassik mənbələr də Səfəvilər dövlətinin süqutu və Nadir xanın Səfəvi sərkərdəsi kimi hərbi-siyasi fəaliyyəti barədə məlumatları özündə əks etdirmək baxımından diqqətəlayiqdir. Nadir şahın rəsmi katibi və tarixçisi Mirzə Mehdi Astarabadinin qələmə aldığı "Tarixi-cahangüşayi-Nadiri" əsəri, Mərv şəhərinin maliyyə vəziri Mirzə Məhəmməd Kazimin yazdığı üçcildlik "Aləmarayi-Nadiri" kitabı həmin dövrün hadisələrini müfəssəl şəkildə təsvir edən əsas mənbələrdən sayılır.

Səfəvilər dövrünün öyrənilməsində orta əsrlər Osmanlı mənbələri də mühüm tarixi əhəmiyyət kəsb edir. İki dövlətin həmsərhəd olması və bir-birinə qarşı uzunmüddətli hərbi əməliyyatlarda iştirak etməsi Osmanlı müəlliflərinin Səfəvilər barədə verdikləri məlumatları dəyərli edir. Osmanlı mənbələrinin baxış tərzi adətən bu imperiyanın siyasi maraqlarını əks etdirirdi, lakin hadisələrə birtərəfli yanaşmanın qarşısını almaq üçün Səfəvi salnaməçiləri ilə yanaşı onları da araşdırmaq faydalıdır. Osmanlı mənbələrində Səfəvilərə qarşı aparılmış müharibələrin təsviri üstünlük təşkil edir, bəzi mənbələrdə o dövrün düşüncəsinə uyğun olaraq Səfəvilərə (o cümlədən Səfəvi hökmdarlarına) qarşı təəssübkeş düşmənçilik, Osmanlı ordusunun hərbi uğurlarına mübaliğəli yanaşma açıq hiss olunur. Bu qəbildən olan mənbələrin ən məşhurları bunlardır: Kamal Paşazadənin və Lütfi paşanın eyniadlı "Təvarixi-ali-Osman", Xacə Sədəddin Əfəndinin "Tac ət-təvarix", İbrahim Əfəndinin "Peçevi tarixi", Əbubəkr ibn Abdullahın "Osman paşa tarixi", Övliya Çələbinin "Səyahətnamə", Əhməd Dədənin "Came əd-düvəl" ("Münəccimbaşı tarixi"), Gelibolulu Mustafa Əlinin "Künh əl-əxbar", Qaraçələbizadənin "Süleymannamə" və "Zəfərnamə", Firudin bəyin "Münşəat əs-səlatin" əsərləri, "Solakzadə tarixi", Cəlalzadə Mustafa Çələbinin (Koca Nişançı) tarixi, "Tarixi-

Sələniki", "Münşəati-ətiq" (anonim) və s.
Səfəvilər dövrü tarixi ilə bağlı mühüm mənbələrdən biri də Anadolunun şərqində, Van gölü yaxınlığında yerləşən Bidlis şəhərinin valisi Şərəf xanın nəvəsi (babasının adını daşımışdır), eyni zamanda Səfəvilər sülaləsi ilə qohum olan *Əmir xan Mosullunun* qız nəvəsi Şərəf xan Bidlisinin qələmə aldığı "Şərəfnamə" əsəridir. Mənşəcə kürd olan Şərəf xan Bidlisi Səfəvi sarayında böyüyüb tərbiyə almış, I Şah Təhmasibin zamanında yüksək dövlət vəzifələri qazanmış, lakin sonralar osmanlıların tərəfinə keçmişdir. Onun Osmanlı xidmətinə keçdikdən sonra yazmağa başladığı "Şərəfnamə" əsəri kürd tayfalarının və xüsusilə Bidlisdə hakimiyyət sürmüş sülalə mənsublarının tarixinə həsr edilsə də, bu məntəqənin siyasi həyatı Səfəvilərlə sıx bağlı olduğundan kitabda Səfəvilər tarixinə aid xeyli dəyərli məlumat mövcuddur.
Hindistanın Əhmədnəgər vilayətində hakimiyyət sürmüş Nizamşahlar sülaləsinə xidmət edən Xurşah ibn Qubad Hüseyninin yazdığı "Tarixi-elçiyi-Nizamşahi" əsəri də Səfəvilər dövrü tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb edir. Əsərin müəllifi 1546-cı ildə diplomatik missiya ilə Səfəvilər dövlətinə gəlmiş və burada 19 il yaşamışdır. Ümumtarix mövzusunda qələmə alınmış əsərin altıncı bölümü I Şah İsmayılın və I Şah Təhmasibin hakimiyyət dövrlərindən, eləcə də bölgələrdə hökm sürən məhəlli dövlətlərin tarixindən bəhs edir.
Səfəvilər dövrünün bəzi mənbələri müasir tədqiqatçılar tərəfindən çox, bəzilərisə daha az araşdırılmışdır. Xüsusilə XX əsrdən klassik mənbələr fəal şəkildə tədqiqatlara cəlb edilmiş, onların elmi-tənqidi mətnləri nəşr olunmuşdur. Bu istiqamətdə Türkiyə və İran tarixçiləri ilə yanaşı Rusiya, Avropa və Amerikanın şərqşünas alimləri də böyük səy göstərmişlər. Təəssüf ki, klassik mənbələrin az qismi Azərbaycan dilinə tərcümə edilib çapa verilmişdir. ("Tarixi-aləmarayi-Abbasi", "Əhsən ət-təvarix", "Təkmilət əl-əxbar", "Məcmə əl-xəvas" və s.).

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.8-36; Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.17-24; Н.В.Пигулевская и др. История Ирана с древнейших времен до конца 18 века, стр. 247-250, 266-270; Namiq Musalı. XVII əsrdə Qarabağ bəylərbəyliyində yaşayıb-yaratmış üç tarixçi haqqında ("Qarabağ dünən, bu gün və sabah" VI Respublika elmi-əməli konfransının materialları), s.220-225; Namiq Musalı. XVII əsr Azərbaycan tarixçisi Gəncəli Hacı Məhəmmədqulu xan Qacarın "Lübbül-lübab" əsərinin Tehran nüsxəsi haqqında ("Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları" (akad. V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları), s.268-270; Vüsalə Musalı. Azərbaycan təzkirəçilik tarixi, s.64-65; Rza Halili. Sultân Mahmûd bin Sultân Burhâneddîn Geylânî'nin 'Akâ'id-i Evliyâ'-i Seb'a İsimli Eseri (İnceleme-Metin-Dizin, Yüksek Lisans Tezi), s.2-11; Şərəf xan Bidlisi. Şərəfnamə (nəşrə hazırlayan: V.V.Zernov), müqəddimə bölümü; Ə.Mirənsari. Səfəvi dövrü təzkirələri bu dövrün şair, musiqişünas və ifaçılarının tanınması üşün dəyərli mənbə kimi*

("Nameyi-fərhəngistan", 1/14), s.51-61; Zəhra Əliməmmədi. Səfəvi tarixyazarlığı ("Kitabimah, tarix və coğrafiya", 1388 h.-ş., №135), s.68-74; Şahin Mustafayev. Safevi Tarih Yazımında Osmanlılar (Türk Tarihi Araştırmaları Dergisi, Yıl: 3, Sayı: 1, Bahar 2018).

SƏFƏVİLƏR DÖVLƏTİNƏ SƏFƏR ETMİŞ QƏRB SƏYYAHLARI – Səfəvilər dövrü tarixinin öyrənilməsində avropalı səyyahların xatirələri mühüm rol oynayır. Osmanlı dövləti Qərbə doğru fəthlərini genişləndirdikcə Avropa dövlətləri Səfəvilərlə siyasi-iqtisadi əlaqələr qurmağa daha artıq maraq göstərir, İsfahana göndərilən səfirlər Osmanlı dövlətinin Qərbə doğru irəliləyişinin qarşısını almaq üçün ona qarşı Səfəvilərin əli ilə ikinci cəbhə açmağa çalışırdılar. Bununla yanaşı, Qərb tacirləri osmanlıların ixtiyarında olan quru və su yollarına alternativ ticarət yolları tapmaq üçün bölgəyə səfərlər edir, İran ərazisindən keçməklə Hindistana rahat yol axtarırdılar.

XVI-XVIII əsrlərdə İtaliya, Hollandiya, İngiltərə, İspaniya və Portuqaliya, Almaniya, Fransa, Polşa, Rusiya və digər ölkələrdən Səfəvilər dövlətinə onlarla səyyah gəlmişdir. Bunları əsasən 4 qrupa bölmək mümkündür:

- xarici dövlət tərəfindən rəsmi olaraq göndərilmiş diplomatik korpus nümayəndələri;
- tacirlər və iş adamları;
- alimlər və macəra axtarışında olan avantüristlər;
- missioner qruplar.

Öz kitabında Səfəvilər dövləti barədə faydalı informasiyalar vermiş ən məşhur avropalı səyyah və alimlər aşağıdakılardan ibarətdir:

Marini Sanuto (1466-1536) – Venesiya salnaməçisi, gənc yaşlarında Venesiya Respublikasının idarəedici orqanı olan Böyük Şuraya üzv seçilmiş, daha sonra senator vəzifəsinə gətirilmişdir. Sanuto özü Səfəvilər dövlətinə səfər etməsə də, onun tərtib etdiyi gündəlik xarakterli "Diarii" əsərində rəsmi sənədlər və səyyah xatirələri əsasında digər ölkələrlə yanaşı Səfəvilər dövlətinin xarici siyasəti və tarixi barədə maraqlı məlumatlar mövcuddur.

Vinçenzo deli Alessandri (1530-1595) – Venesiya Respublikası hökuməti adından Səfəvilər dövlətində diplomatik missiyada olmuşdur. İstanbulda xidmət edən Alessandri 1570-ci ildə I Şah Təhmasibi osmanlılara qarşı müharibəyə təhrik etmək tapşırığı almış, İstanbulda ifşa edildikdən sonra tacir qiyafəsində Səfəvilər dövlətinə qaça bilmişdi. O, şahın vəfatından 4 il əvvəl (1572) Qəzvinə gəlib çatmış, burada qaldığı müddətdə Azərbaycan dilini mükəmməl şəkildə öyrənmişdi. Bütün səylərinə baxmayaraq, Alessandri şəxsən şahla danışıq apara bilməmiş, amma digər dövlət adamları, o cümlədən vəliəhd Heydər Mirzə ilə görüşmüşdür.

Tomas Minadoi (1540-1615) – İtaliyanın Paduya şəhərində tibb təhsili almış Minadoi 1579-86-cı illərdə Osmanlı imperiyasının tabeliyində olan Suriyadakı Venesiya konsulluğunun xəstəxanasında fəaliyyət göstərmişdir. Əldə etdiyi məlumatlar əsasında o, "Türklər və farslar arasındakı müharibənin tarixi"

kitabını yazmışdır; bu əsərdə Səfəvilər dövlətinin quruluşu və Osmanlı imperiyası ilə aparılan hərbi əmliyyatlar barədə qiymətli informasiyalar vardır.

Antoni Cenkinson (1529-1611) – ingilis diplomatı, tacir, İngiltərənin Rusiyadakı ilk tamsəlahiyyətli səfiri. 1557-71-ci illərdə İngiltərə kraliçaları Mariya Tüdor və I Yelizavetanın tapşırığı ilə 4 dəfə Rusiyaya səfər etmişdir. İkinci səfər zamanı 1562-ci ildə "Moskva kompaniyası" adlı ingilis şirkətinin əməkdaşı kimi Moskvadan çıxaraq Xəzər dənizi vasitəsilə Dərbəndə, oradan Şamaxıya gəlib burada Şirvan bəylərbəyi Abdullah xan Ustaclu ilə görüşmüş, sonra Qəzvin istiqamətində yola çıxmışdır. Qış mövsümünü Qəzvində keçirdikdən sonra 1563-cü ilin baharında Şamaxıya dönmüş, may ayının sonlarında Həştərxan yolu ilə Rusiyaya qayıtmışdır.

I Şah Təhmasibin hakimiyyət illərində Səfəvilər dövlətinə səyahət etmiş ingilis tacirləri, "Moskva kompaniyası"nın nümayəndələri **Conson, Eduards, Deket** və başqalarının xatirələri də bu kontekstdə mühüm əhəmiyyət daşıyır.

Don Qarsia de Silva Fiqeroa (1550-1624) – İspaniya diplomatı, siyasi karyerasına hərbçi kimi başlamış, 1612-ci ildə İspaniya və Portuqaliya kralı III Filippin göstərişi ilə əvvəlcə Hindistana səfər etmişdir. Hindistan valisi ilə aralarında yaranmış anlaşılmazlıq üzündən uzun müddət Səfəvi torpaqlarına keçə bilməyən Fiqeroa, nəhayət, 1617-ci ildə məqsədinə nail olmuşdur. O, Səfəvilər dövlətində yaşadığı iki il ərzində I Şah Abbasla görüşmüş, onunla osmanlılara qarşı hərbi ittifaqın şərtlərini müzakirə etmişdir. Fiqeroanın xatirələri Səfəvilər dövlətinin daxili və xarici siyasəti, iqtisadi durumu, eləcə də Şiraz və digər şəhərlərdəki qədim tarixi abidələr haqqında maraqlı bilikləri özündə əks etdirir.

Georq Tektander fon der Yabel (1581-1614) – Müqəddəs Roma imperiyasının imperatoru II Rudolf tərəfindən Stefan Kakaşın başçılıq etdiyi heyətin tərkibində 1602-ci ildə Səfəvilər dövlətinə səfər etmişdir. Lənkəranda heyətin başçısı Kakaş vəfat etdiyi üçün rəhbərliyi Tektander öz üzərinə götürmüşdür. 1603-cü ilin sonlarında osmanlılardan təzəcə geri alınmış Təbrizdə I Şah Abbasla görüşən diplomat tezliklə Rusiya yolu ilə geri qayıtmışdır.

Fedot Afanasyeviç Katov – rusiyalı tacir ailəsinə mənsub olan Katov çar Mixail Romanovun göstərişi ilə 8 nəfərlik heyətin tərkibində 1623-cü ildə Səfəvilər dövlətinə səfər etmişdir. O, Həştərxandan Xəzər dənizi vasitəsilə hərəkət edərək Şirvana gəlmiş, buradan İsfahana yollanmışdır. 1624-cü ildə Katov Bağdad yürüşündən qayıdan I Şah Abbasla görüşmüşdür. Katovun xatirələrində yol boyunca keçdiyi ərazilərin müfəssəl təsviri, əhalinin məişəti, dini inancları, adət-ənənələri barədə maraqlı məlumatlar mövcuddur. Müəllif gəzdiyi şəhərlərin iri memarlıq abidələri qarşısında heyranlığını gizlətməmiş, bu binaları ölkəsindəki tikililərlə müqayisə edərək onların üstünlüyünü etiraf etmişdir.

Şirli qardaşları – ingilis zadəganları, peşəkar hərbçilər Entoni Şirli (1565-1635) və qardaşı Robert Şirli (1581-

1628) 1598-ci ildə Səfəvilər dövlətinə səfər etmiş, I Şah Abbas tərəfindən səmimi qarşılanmışlar. Onlar şahın xahişi ilə Səfəvi ordusunun Qərb standartları əsasında təşkilatlanması prosesinə rəhbərlik etmiş, hərbi islahatlarda fəallıq göstərmişlər. Bir müddətdən sonra əvvəlcə Entoni, ondan bir neçə il sonra isə Robert Səfəvi şahının tapşırığı ilə Avropaya diplomatik səfərə çıxmışlar. (Robert Şirli *Oruc bəy Bayatın* da qatıldığı elçi heyətinin üzvü idi). Avropanın bir neçə ölkəsində dövlət başçıları ilə görüşlər keçirən Şirli qardaşları osmanlılara qarşı müharibədə Səfəvi dövləti ilə müttəfiqlik planlarını onlarla müzakirə etmişlər. Robert Şirli bundan sonra yenidən Səfəvilər dövlətinə qayıtmış (1613), bir daha şahın tapşırığı ilə Avropaya səfər etmişdir (1615). Nəhayət, 1627-ci ildə İngiltərənin ilk səfirinin müşayiəti ilə o, üçüncü dəfə Səfəvilər dövlətinə gəlmiş və bir ildən sonra Qəzvində dünyasını dəyişmişdir.

I Şah Abbasın zamanında Səfəvilər dövlətində fəaliyyət göstərmək icazəsi almış katolik **karmelitlər ordeninin rahibləri** XVIII əsrin sonlarınadək ölkədə qalmış və xristianlığı təbliğ etmişlər. Karmelitlər Səfəvilər dövlətində fəaliyyət göstərən ən böyük xristian icması sayılırdı. Karmelit rahiblərin xatirələri, məktub və sənədləri sonralar toplanaraq kitab halında çap edilmişdir. Karmelit rahibi Aleksandr Malabar Səfəvilər dövlətinin süqutunun və İsfahanın əfqanlar tərəfindən işğalının şahidi olmuş, həmin hadisələri xatirələrində təsvir etmişdir.

Pyetro della Valle (1586-1652) – italiyalı zadəgan, ədib, bəstəkar. Heç bir diplomatik korpusa bağlı olmadan, heç bir siyasi missiya daşımadan müsəlman Şərq ölkələrinə səfər etmişdir. Görkəmli yazıçı Jül Vernin "ilk turist" adlandırdığı Pyetro della Valle 1614-cü ildə öz vəsaiti hesabına 12 illik dünya səyahətinə çıxmış, Osmanlı imperiyasını, o cümlədən Misir və Fələstini gəzmiş, 1617-ci ilin fevralında Səfəvilər dövlətinin paytaxtı İsfahana çatmışdır. O, 1618-ci ilin fevralında I Şah Abbasın Qəzvində əcnəbi qonaqlar üşün təşkil etdiyi təntənəli qəbul mərasimində iştirak etmiş, bir neçə il ölkədə qaldıqdan sonra 1623-cü ilin əvvəllərində Hindistana yollanmışdır. Səfəvilər dövlətində yaşadığı müddət ərzində səyyah yerli tarixi abidələri öyrənməyə çalışmış, şahidi olduğu hər bir hadisəni dəqiqliklə qələmə almışdır. O, Şərq səfəri boyunca xeyli nadir əlyazma və tarixi eksponat alaraq Avropaya aparmışdır.

Adam Oleari (1599-1671) – alman coğrafiyaşünası, tarixçi və səyyah. O, həm də öz dövründə ölçülərinə görə ən böyük sayılan qlobus-planetarinin müəllifi kimi tarixə düşmüşdür. Şlezviq-Holşteyn hersoqu III Fridrixə xidmət edən Adam Oleari onun göstərişi ilə əvvəlcə Rusiya dövlətinə diplomatik səfər həyata keçirmiş, 1635-ci ildə başlamış ikinci səfərdə isə Rusiya torpaqlarından keçməklə Səfəvilər dövlətinin ərazisinə gəlmişdir. O, 90 nəfərdən artıq şəxsin qatıldığı diplomatik missiyanın rəhbərinin müşaviri və katibi vəzifəsində xidmət edirdi. 1636-cı ilin dekabrında qəza nəticəsində Azərbaycanın şimalında gəmi-

dən enməyə məcbur olmuş elçilər Şamaxıda 4 ay gözlədikdən sonra İsfahan istiqamətində yola çıxmağa icazə aldılar və 1637-ci ilin avqustunda paytaxt İsfahana çatdılar. Dörd ay yarım İsfahanda qaldıqdan sonra Adam Oleari Xəzər dənizinin qərb sahili boyunca Azərbaycandan keçməklə Rusiyaya qayıtdı. Onun xatirələrinin mühüm hissəsini XVII əsrin birinci yarısında Səfəvilər dövlətinin tərkibində olan Azərbaycan şəhərləri, Azərbaycan xalqının adət-ənənələri barədə informasiyalar təşkil edir.

Tomas Herbert (1606-1682) – ingilis səyyah və diplomat, siyasi xadim. Səfəvilər dövlətinin İngiltərədəki səfiri Nəqdəli bəylə və Robert Şirli ilə (bu, onun üçüncü və sonuncu səfəri idi) birlikdə 1627-ci ildə su yolu ilə səyahətə çıxmış, Qəzvin, Kaşan, Bağdad şəhərlərində olmuşdur. 1629-cu ildə Avropaya qayıtdıqdan sonra siyasi fəaliyyətini davam etdirmişdir. Herbertin qələmə aldığı irihəcmli səyahətnamə I Şah Abbas dövründə Səfəvilər dövlətinin vəziyyəti barədə ən mühüm tarixi mənbələrdən sayılır.

Jan-Batist Tavernye (1605-1689) – fransız səyyah, əsasən Hindistandan bahalı cavahirat alıb Avropaya aparmış, beş böyük səfəri boyunca 240 min km məsafə qət etmişdir. 1630-33-cü illərdə İstanbul-Ərzurum-Bakı-İsfahan-Bağdad-Hələb xətti üzrə ilk səfərə çıxmış, 1638-ci ildə Səfəvilər dövlətindən keçməklə Hindistana səyahət etmiş, daha sonra bu marşrutu 4 dəfə təkrarlamışdır. Səfərlərini başa vurduqdan sonra külli miqdarda qazanc əldə etmiş Tavernye ömrünün sonlarına yaxın xatirələrini qələmə almışdır. Onun səyahətnaməsi bütünlüklə Səfəvilər dövləti ilə yanaşı Azərbaycan barədə də qiymətli məlumatları özündə ehtiva edir. İxtisasına uyğun olaraq Tavernye gəzdiyi ölkələrdəki pul dövriyyəsi, çəki vahidləri ilə daha yaxından maraqlanmış və bu istiqamətdə əldə etdiyi biliklərə kitabında geniş yer ayırmışdır.

Rafael dü Man (1613-1696) – Fransada doğulmuş, katolik kapusinlər ordeninin üzvü olmuşdur. Xristianlığı təbliğ edən missioner rahib kimi 1645-ci ildə Misirə, iki ildən sonra isə oradan Səfəvilər dövlətinə göndərilmişdir. II Şah Abbas və I Şah Süleymanla dəfələrlə görüşmüş rahibin fəaliyyətindən ötrü İsfahanda hər şərait yaradılmışdı. Rafael dü Man əsasən Səfəvilər dövlətinə səfər edən diplomatik korpuslara və burada yaşayan Avropa icmasının üzvlərinə xidmət göstərirdi. O, İsfahanda 50 ilə yaxın yaşamış və bu şəhərdə vəfat etmişdir.

Sanson – XVII əsrin ikinci yarısında Səfəvilər dövlətinə səfər etmiş fransalı xristian ruhani. O, missioner korpusun tərkibində 1683-cü ildə Səfəvilər dövlətinə gəlmiş, bununla yanaşı, Fransa kralının diplomatik tapşırıqlarını da icra etmişdir. Əsasən paytaxt İsfahanda fəaliyyət göstərmiş Sanson 1692-ci ildə geri qayıtmış, xatirələrini bir neçə ildən sonra Parisdə çap etdirmişdir.

Jan Şarden (1642-1713) – Fransada zərgər ailəsində doğulmuş Şarden 1665-ci ildə İstanbuldan və digər Osmanlı vilayətlərindən keçməklə Səfəvilər döv-

lətinə gəlmiş, burada 5 ilə yaxın qalmışdır. Bu müddət ərzində xalqın məişəti, adət-ənənələri ilə yaxından tanış olmaq imkanı qazanmış, özü ilə gətirdiyi rəssamın köməyi ilə zəngin vizual material toplamışdır. Səfəvilər dövlətində yaşadığı müddətdə Şarden fars və türk dillərini öyrənmiş, şahın zərgəri və cavahirat tədarükçüsü kimi xidmət etmişdir. 1670-ci ildə vətəninə qayıtdıqdan sonra xatirələrini kitab kimi nəşr etdirmiş, 1672-ci ildə yenidən Gürcüstan yolu ilə Səfəvilər dövlətinin ərazisinə daxil olmuşdur. Bu dəfə İsfahanda 4 il qalan Şarden geri qayıdarkən Hindistana da səfər etmiş, İngiltərə və Hollandiyada diplomat kimi ömrünü başa vurmuşdur. Şardenin 10 cildlik kitabı həm həcminin böyüklüyünə, həm də əhatə dairəsinə görə Səfəvilər dövləti haqqında Qərb səyyahları tərəfindən qələmə alınmış kitablar arasında xüsusi seçilir.

Covanni Françesko Cemelli Karreri (1651-1725) – italyan zadəganı, diplomatik missiya daşımadan, gəzinti məqsədilə Şərq ölkələrinə səyahət etmiş, Türkiyə, Fələstin, Misir, Səfəvilər dövləti, Hindistanla yanaşı Çin, Filippin, Meksika və Kubada da olmuşdur. Karrerinin səfər xatirələrindən ibarət 6 cildlik kitabın ilk 3 cildi Osmanlı imperiyası, Yaxın Şərq və Səfəvilər dövləti barədə məlumatları əhatə edir.

Engelbert Kempfer (1651-1716) – öz ölkəsində mükəmməl tibb, fəlsəfə və ilahiyyat təhsili almış alman səyyah Kempfer İsveç diplomatik korpusunun tərkibində 1683-cü ildə Rusiyaya, oradan Səfəvilər dövlətinə səfər etmişdir. O, İsveç səfirliyinin katibi kimi xidmət etməklə yanaşı İran körfəzindəki holland gəmisində həkim kimi fəaliyyət göstərmiş, Hindistan, Ərəbistan, Java, Sumatra və Yaponiyada olmuşdur.

Jan Tadeuş Kruşinski (1675-1756) – yezuit ordeninin rahibi, polyak mənşəli Kruşinski Səfəvilər dövlətinin son dövrlərində İsfahanda missioner təbliğatı ilə məşğul olmuşdur. 20 ildən artıq müddət boyunca fəaliyyət göstərmiş Kruşinskinin xatirələrində Səfəvilər dövlətinin süqutu barədə diqqətəlayiq məlumatlara rast gəlmək mümkündür.

Bunlardan əlavə, venesiyalı tərcüməçi Mişel Membre (1509-1594), italyan səyyahlar Lodoviko Vartema (vəf. 1517), Covanni Battista Ramuzio (1485-1557), Antonio Manuzio (1511-1559), Çezare Federiki (1530-1600/03) və Luici Rancinotto, Səfəvilərlə döyüşmüş Portuqaliya admiralı Afonsu d'Albukerki (1453-1515), portuqal diplomat Antonio Tenrreyro, 1622-ci ildə Hörmüzün Səfəvilər tərəfindən fəth olunması ilə nəticələnmiş dəniz döyüşündə iştirak etmiş portuqal Ruy Freyre de Andrada, Portuqaliya səfiri Qreqorio Pereyra Fidalqo da Silva, fars dilini mükəmməl bildiyi üçün bəzi kitabları tərcümə etmiş ispan səyyah Pedro Teixeira, Avqustin ordeninin rahibi ispaniyalı Antonio de Qoa (1575-1628), ispan ruhanisi Pedro Kubero Sebastyan (1645-1700), holland rəssam Kornelis de Bröyn (1652-1727), holland tacir Jan Smidt, alman səyyahlar Henrix fon Pozer (vəf. 1661) və İohan Albrext fon Mandelslo, fransız abbat Martin Qudro, məşhur fransız səyyah

Tavernyenin qardaşı oğlu Andre Dolye Deland, fransız botanik Jan de Teveno (1633-1687), I Pyotrun göstərişi ilə Səfəvilər dövlətinin vəziyyətini öyrənmək üçün ezam olunmuş Artemi Volınski (1689-1740) və başqaları da Səfəvilər dövlətinə səfərləri barədə xatirələri qələmə almışlar; bu kitablarda XVI-XVIII əsrlər Səfəvilər tarixi barədə xeyli dəyərli məlumat mövcuddur.

Göründüyü kimi, avropalı səyyahların bir qismi birbaşa Səfəvilər dövlətinə səfər etmiş, bir qismi isə aldığı təlimat əsasında Osmanlı və ya Rusiya dövlətlərinə səfərdən sonra Səfəvi torpaqlarına keçmişdir. Səyyahların bir qisminin marşrutunda son nöqtə Hindistan olduğu üçün onlar Səfəvi ölkəsindən tranzit kimi istifadə etmişlər.

Avropalı səyyahların əksəriyyəti səfərini başa vurub vətənə qayıtdıqdan sonra yol xatirələrini qələmə almış və çap etdirmişlər. Əksər səyahətnamələr XVI-XVII əsrlərdə İtaliya, İngiltərə, Almaniya, Hollandiya, Fransa və digər ölkələrdə yerli dillərdə nəşr edilmişdir. Uzun müddət həmin əsərlərin yalnız qədim nəşrləri tədqiqatlara qismən cəlb edilirdi. XX əsrdə səyahətnamələrin böyük hissəsi ingilis, rus və fars dillərinə tərcümə edilmiş, onlara şərhlər yazılmış, elmi-tənqidi mətnlər hazırlanmışdır. Bəzi mənbələr Azərbaycan dilinə bütöv və ya natamam şəkildə tərcümə edilmiş (Şardenin, Kruşinskinin səyahətnamələri), azərbaycanlı tədqiqatçılar tərəfindən araşdırmalara cəlb olunmuşdur.

Qərb səyyahlarının bəziləri diplomatik missiya daşımaqla yanaşı, Səfəvilər dövləti barədə xüsusi əhəmiyyətə malik strateji informasiyaları da əldə etməyə çalışmışlar, buna görə səyahətnamələrdə sırf Avropa dövlətlərinin maraqlarına cavab verən nöqtələrə tez-tez rast gəlmək mümkündür. Xarici diplomatlar Səfəvi şahları və yüksəkrütbəli dövlət xadimləri ilə görüş zamanı onları hər vasitə ilə Osmanlı imperiyası əleyhinə qızışdırmağa çalışırdılar. Bəzi Avropa monarxları osmanlıların Qərbə doğru irəliləməsinin qarşısını almaq üçün çıxış yolunu Səfəviləri osmanlılara qarşı müharibəyə sövq etməkdə görürdü. Lakin Səfəvi şahları adətən bu provakasiyalara soyuqqanlı reaksiya göstərir və Osmanlı dövləti ilə münasibətləri yalnız öz maraqları çərçivəsində nizamlamağa üstünlük verirdilər.

Qərb elçiləri ilə ünsiyyət Səfəvilər üçün də maraqlı idi; bu yolla Avropanın elmi-mədəni nailiyyətləri öyrənilir, hərbi sənaye sayəsində təcrübə mübadiləsi aparılır, orduda faydalı islahatlar keçirilirdi, avropalı tacirlərə əlverişli şərait yaratmaqla xarici kapitalın ölkəyə gətirilməsi təmin olunurdu.

Avropa səyyahlarının xatirələrini müsəlman (Səfəvi) müəlliflərin yazılarından fərqləndirən mühüm cəhətlərdən biri də onlarda sosial-iqtisadi mövzulara, xalqın məişətinə, dilinə, dini inanclarına, adət-ənənələrinə, mətbəxinə, geyim tərzinə, bürokratik aparatın quruluşuna, şəhərlərin abadlıq və təmizliyinə, milli və dini bayramlara, silah növlərinə, iri memarlıq abidələrinə, iqlimə, nəbatat və heyvanat aləminə xüsusi diqqət yetirilməsidir. Əsasən döyüşlərin təsviri

üzərində qurulmuş Şərq salnamələrindən fərqli olaraq, avropalı səyyahların yazılarında Səfəvilər dövlətinin daxili quruluşunu və sosial mühitini daha ətraflı əks etdirmək cəhdləri duyulur. Avropalılar rastlaşdıqları xırda və əhəmiyyətsiz görünən məsələləri də işıqlandırmaqdan çəkinmirdilər. Bunu mövzulara qərbli və şərqli gözü ilə baxış tərzləri arasındakı fərqlə də izah etmək olar. Müsəlman şərqli üçün adi və gündəlik olan bəzi məsələlər qərbli səyyahın gözündə çox maraqlı, qeyri-adi, ekzotik və hətta mistik görünürdü.

Baxış tərzlərindəki bu fərqlilik Avropa səyyahlarının xatirələrində bir çox yanlışlıqların yaranmasına da səbəb olmuşdur. Bəzi səyyahların yerli dilləri (Azərbaycan və fars dillərini) bilməməsi, İslam barədə biliklərinin azlığı müəyyən hadisələri düzgün şəkildə qavramalarına əngəl törədir və onlarda yanlış təsəvvür yaradırdı.

Bütün bunları yekunlaşdıraraq deyə bilərik ki, avropalı səyyahların Səfəvilər dövləti barədə əsərlərində verdikləri məlumatlar böyük tədqiqat əhəmiyyəti kəsb edir, faktoloji material kimi də çox qiymətlidir.

Mənbələr: *Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.25-29; Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.189-316; Н.В.Пигулевская и др. История Ирана с древнейших времен до конца 18 века, стр. 250, 270-271; Kurosh Meshkat. The Journey of Master Anthony Jenkinson to Persia, 1562-1563 (Journal of Early Modern History, October 2009), pp.209-228; Walter Hinz. İkinci Şah İsmayıl Səfəvi (farsca tərcümə: K.Cahandari), s.5; Yaqub Mahmudov. Azərbaycan diplomatiyası, s.170-302; Y.Mahmudov. Səyyahlar Azərbaycana gəlir, s.114-138; Rudi Matthee. Safavid Iran through the eyes of European travelers (Harvard Library Bulletin, 23 (1-2)), pp.10-24; The Cambridge History of İran, Volume 6, pp. 379-409; Восточная нумизматика в Украине (Сборник публикаций, часть 3), стр.130-132; Байрамлы З. Европейские путешественники о социально-политической природе Сефевидского государства ("Актуальные проблемы гуманитарных и естественных наук", 2009, №11), стр. 44-47; Şah Sultan Hüseynin sarayındakı Portuqaliya səfirinin raportu (fars dilinə tərcümə edən: P.Hikmət); S.Ə.Xizri və Ə.Fuladipənah. Səfəvilər dövrü İranında karmelitlərin dini fəaliyyəti ("Mütaliati-tarixi-İslam", 1390 h.-ş., №11), s.7-27; Həsən Cavadi. Səfəvilər dövründə portuqaliyalı və ispaniyalı səyyahların İran barədə xatirələri ("Əlifba", 1356 h.-ş., cild 6), s.30-56; M.Bəhramzadə və M.Dadbəxş. Səfəvilər dövründə səyahətnamələr və səyahətnamə yazılışı ("Mütaliati-İranşünasi", 1398 h.-ş., №15), s.5-22; Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında); Venesiyalılar Şah I Təhmasibin sarayında (nəşrə hazırlayan: O.Əfəndiyev); Y.T.Kruşinski. Xristian səyyahın tarixi (tərcümə edən və nəşrə hazırlayan: Ş.Fazil), s.6-10; Kruşinskinin səyahətnaməsi (fars dilinə tərcümə: Ə.Dünbüli Məftun), s.8-9; Venesiyalıların İran səyahətnamələri (fars dilinə tərcümə edən: M.Əmiri); M.K.Yusifcəmali. Venesiyalıların İran səyahətnamələri barədə tənqidi araşdırma ("Tarix" elmi-araşdırma dərgisi, 1385 h.-ş., №1), s.126-151; Şarden. Parisdən İsfahana səyahət (tərcümə edən: V.Aslanov), s.3-5; Karrerinin səyahətnaməsi (fars dilinə tərcümə: A.Naxçıvani və Ə.Karəng), s.3; H.Haciyanpur. Səfəvilər dövründə İranın sosial prob-*

lemləri: Kempferin səyahətnaməsi əsasında araşdırma (“Tarixi-nov” dərgisi, 1391 h.-ş., №4), s.4-32; Ə.Mübin. Engelbert Kempferin baxışında Səfəvilər dövrünün İranı (“Kitabi-mah: tarix və coğrafiya”, 1379 h.-ş., aban və azər ayları), s.110-117; Pyetro della Vallenin səyahətnaməsi (farsca tərcümə: Şüaəddin Şəfa), s.11-24; M.Həsənniya. Şah İsmayıl Səfəvinin sarayına göndərilmiş ilk Portuqaliya elçiləri (“Tarix və xarici əlaqələr” dərgisi, №34, 1387 h.-ş.), s.219-221; Adam Olearinin səyahətnaməsi (fars dilinə tərcümə: Ə.Behpur), s.5-28; Don Qarsia de Silva Fiqeroanın səyahətnaməsi (fars dilinə tərcümə: Q.Səmii), s.1-9; Iter Persicum (Georq Tektander fon der Yabelin səyahətnaməsi, fars dilinə tərcümə: M.Təfəzzüli), müqəddimə bölümü; Şirli qardaşlarının səyahətnaməsi (doktor Məhəbbət Ayinin müqəddiməsi ilə); Ə.Mübəyyin. Şirli qardaşları Şah Abbas Səfəvinin sarayında (“Kitabi-mah: tarix və coğrafiya”, 1383 h.-ş., bəhmən və esfənd ayları), s.112-119; Ahmad Guliyev. Safavids in Venetian and European Sources; Sansonun səyahətnaməsi (farsca tərcümə: T.Təfəzzüli), s.9-14; Şardenin səyahətnaməsi (fars dilinə tərcümə: M.Abbasi), müqəddimə bölümü; A.Baxşəliyev. Təbriz şəhərinin iqtisadi və mədəni həyatı anonim tacirin gündəliyində (“Tarix və onun problemləri”, №4, 2012), s.32-36; J.B.Tavernier. XVII. Asr Ortalarında Türkiye Üzerinden İran’a Seyahat (tərcümə: E.Gültekin), s.7-14; Tomas Herbert. Travels in Persia 1627-1629 (Abridged and Edited by Sir William Foster), introduction.

“ABBASNAMƏ” – XVII əsrdə yazılmış, Səfəvilər dövrünün tarixini qismən əhatə edən kitab. Müəllifi Səfəvi sarayında yüksək vəzifələr tutmuş, o cümlədən *Şah Süleymanın* hakimiyyət dövründə baş vəzir mənsəbinə yüksəlmiş Məhəmməd Tahir *Vəhid Qəzvinidir* (vəf. 1700/01). *II Şah Abbasın* zamanında və onun sifarişi ilə yazıldığı üçün kitab “Abbasnamə” adlandırılmışdır. Müəllif əsərini üç hissəyə bölmüş, birinci hissədə Səfəvilər sülaləsinin şəcərəsini, ikinci hissədə *I Şah İsmayılın* hakimiyyət dövrünü, üçüncü hissədə isə sonrakı hökmdarların əhvalatlarını təsvir etmişdir. Qəzvini II Şah Abbasın hakimiyyətinin əvvəlindən (1642) 1663-cü ilədək baş vermiş hadisələri qələmə almış, amma bilinməyən səbəb üzündən şahın hakimiyyətinin son 3 ilinə toxunmamışdır. Kitabın ilkin variantı II Şah Abbas tərəfindən razılıqla qarşılanmış, lakin nüsxənin üzərində son redaktə işləri getdiyi zaman şah vəfat etmişdir. “Abbasnamə” kitabının dili mürəkkəb olsa da, əsərdə o dövrün görkəmli şəxsiyyətlərinin tərcümeyi-halının verilməsi, Səfəvilər dövləti ilə yanaşı qonşu ölkələrin də tarixinə toxunulması onun əhəmiyyətini xeyli artırır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.73-75; Abbasnamə (nəşrə hazırlayan: İbrahim Dehgan), müqəddimə bölümü; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.8; S.A.Əzimova. Məhəmməd Tahir Vəhid və onun “Abbasnamə” əsəri haqqında (“Bakı Universitetinin xəbərləri”, humanitar elmlər seriyası, №4, 2014), s.67-74.*

“ALƏMARAYİ-SƏFƏVİ” – *bax:* **“ALƏMARAYİ-ŞAH İSMAYIL”.**

“ALƏMARAYİ-ŞAH İSMAYIL” – Səfəvilər dövründə yazılmış, *I Şah İsmayılın* həyatından və hakimiyyət illə-

rindən bəhs edən kitab. Əsər naməlum müəllif tərəfindən *Şah Süleymanın* hakimiyyət dövründə, 1675/76-cı illərdə qələmə alınmışdır. Əsərdə *Şeyx Səfiəddin Ərdəbilidən* I Şah İsmayıladək Səfəvi şeyxlərinin həyat və fəaliyyəti də qısaca işıqlandırılmışdır. "Aləmarayi-Şah İsmayıl" orta əsrlərə xas dastançılıq üslubunda sadə dildə yazılmışdır. Müəllif hadisələrin təsvirinə bədii çalar verməyə çalışmış, döyüş səhnələrinə geniş yer ayırmış, personajların fikrini dəqiq çatdırmaq üçün dialoqlardan istifadə etmişdir. Əsərdə XVI əsr Səfəvilər dövlətinin siyasi-ictimai həyatı, xalqın yaşayış səviyyəsi, dini düşüncəsi, qızılbaş əmirlərinin xarakteri, I Şah İsmayılın tabeliyində olanlarla münasibəti, Səfəvi-Osmanlı, Səfəvi-özbək müharibələrinin gedişatı və digər mövzular barədə faydalı informasiyalar mövcuddur. "Aləmarayi-Şah İsmayıl" tarixi mənbə kimi böyük əhəmiyyət kəsb etməklə yanaşı, həm də oxucuda maraqlı bədii əsər təəssüratı yaradır. Müəllif əsərin bədii təsir gücünü artırmaq üçün mübaliğədən geniş şəkildə istifadə etmişdir.

Kitab fərqli nüsxələr əsasında İranda Ə.M.Sahib və Y.Şükri tərəfindən araşdırmaya cəlb olunmuş, "Aləmarayi-Şah İsmayıl" və "Aləmarayi-Səfəvi" adları altında ayrı-ayrı çap edilmişdir. Elmi dairələrdə əsər bu iki ad altında tanınır. Kitabla bağlı Azərbaycanda da müəyyən araşdırmalar həyata keçirilmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.82-83; Aləmarayi-Səfəvi (nəşrə hazırlayan: Y.Şükri), müqəddimə bölümü; Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında), s.23-84.*

"ALƏMARAYİ-ŞAH TƏHMASİB" – Səfəvi hökmdarı *I Şah Təhmasibin* həyatından və hakimiyyət illərindən fars dilində bəhs edən klassik mənbə. Uzun müddət əsərin cəmi bir natamam nüsxəsi elm aləminə məlum olmuş, müəllifi və yazılma tarixi naməlum sayılmış, hətta 1991-ci ildə görkəmli tədqiqatçı İrəc Əfşar tərəfindən də bu şəkildə çap edilmişdir. Əlyazmanın orijinal adı məlum olmadığı üçün ona *"Aləmarayi-Şah İsmayıl"* anonim kitabının adı ilə səsləşən "Aləmarayi-Şah Təhmasib" şərti adı verilmişdir. Sonralar əsərin digər əlyazma nüsxələri aşkarlanmış və məlum olmuşdur ki, o, XVII əsrin ikinci yarısında, *I Şah Səfinin* və ya *II Şah Abbasın* hakimiyyəti dövründə Mülayim bəy ləqəbli və Mir Dəva təxəllüslü İsmayıl Hüseyni Mərəşi Təbrizi tərəfindən qələmə alınmışdır. Mülayim bəy Səfəvilər dövlətində yüksək vəzifələrdən sayılan məlik ət-tüccar (tacirlərin başçısı) və əmin əz-zərb (sikkəxana nəzarətçisi) mənsəblərini daşımışdır. *I Şah Abbasın* zamanından etibarən saraydakı bəzi maliyyə əməliyyatlarında, o cümlədən Avropa şirkətləri ilə ticarət əlaqələrinin qurulmasında onun adına rast gəlinir.

Bu əsərlə "Aləmarayi-Şah İsmayıl" kitabı arasında analoji məqamlar çoxdur. Hər iki əlyazma sadə, təmtəraqsız dildə yazılmış, hadisələrin təsvirində hekayəçilik üslubundan istifadə edilmişdir. Kitabda bədiilik tarixiliyi üstələyir. Müəllif hadisələri təsvir edərkən mübaliğə,

sarkazm üsullarından çox faydalanmışdır. Bu kimi kitablar orta əsrlərdə xalqda Səfəvilər sülaləsinə sevgi yaratmaq məqsədilə ideoloji vasitə kimi tərtib edilir, camaatın toplaşdığı məkanlarda təşkil olunan kütləvi qiraət tədbirlərində oxunurdu. Bu cür mətnləri oxuyanlara qissəxan (hekayəçi) və nəqqal (nəql edən, nağılçı) deyirdilər.

"Aləmarayi-Şah Təhmasib" orta əsrlərin dil və üslubunu əks etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Kitabda Səfəvilər dövrünün ictimai-siyasi mənzərəsi, şəhər həyatı, döyüş qaydaları, Səfəvilər dövlətinin daxili və xarici siyasəti, Osmanlı və özbək qoşunları ilə aramsız müharibələr, Böyük Moğol imperiyası ilə münasibətlər barədə maraqlı informasiyalar mövcuddur.

Mənbələr: *M.Səlim və M.Heydəri. "Aləmarayi-Şah Təhmasib"in yeni tapılmış nüsxəsi ("Pejuheşnameyi-tarix" dərgisi, 1389 h.-ş., №18), s.97-118; Aləmarayi-Şah Təhmasib (nəşrə hazırlayan: İrəc Əfşar), s.7-17.*

"CAHANGÜŞAYİ-XAQAN" – XVI əsrdə qələmə alınmış, Səfəvilər dövrünün tarixindən bəhs edən kitab. Müəllifi naməlum olan bu əsərin 1540-48-ci illər arasında yazıldığı ehtimal edilir. (Bəzi araşdırmalara görə, müəllifin adı Bicəndir). Kitab *I Şah İsmayılın* hakimiyyətə gəlişindən 1540-cı ilədək olan dövrü əhatə edir. Əsərdə bütün hadisələr tarixsiz qeyd edilmiş, yalnız bir dəfə tarix göstərilmişdir (hicri 947-ci il, miladi 1540/41-ci illər). Müəllif kitabın yazılışı zamanı özündən əvvəlki mənbələrə istinad etsə də, onların adlarını qeyd etməyi lazım bilməmişdir. Əsərdə hadisələr son dərəcə canlı və dinamik şəkildə təsvir edilmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.27-28; Tarixi-cahangüşayi-xaqan (nəşrə hazırlayanlar: N.Əhmədi, N.Cəfrudi), s.27-58; Cahangüşayi-xaqan (nəşrə hazırlayan: A.D.Müztər), müqəddimə bölümü.*

"CƏVAHİR ƏL-ƏXBAR" – XVI əsrdə qələmə alınmış, Səfəvilər dövləti tarixinin ilk onilliklərini əhatə edən kitab. Müəllifi Səfəvilər sarayında və bölgələrdə *divan münşisi* (katib) kimi fəaliyyət göstərmiş Budaq Qəzvinidir. O, əsərini 1576-cı ildə, *II Şah İsmayılın* taxta çıxmasından cəmi bir neçə gün sonra yazıb bitirmişdir. "Cəvahir əl-əxbar" salnamə tiplu ümumtarix kitabıdır, dünyanın yaranışından miladi 1576-cı ilədək baş vermiş hadisələrin təsvirini əhatə edir. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, eləcə də ilk iki Səfəvi şahının (*I Şah İsmayıl* və *I Şah Təhmasib*) hakimiyyətinin ətraflı təsviri baxımından əsər mühüm əhəmiyyət kəsb edir. Kitabın elm aləminə məlum olan yeganə nüsxəsi Sankt-Peterburqda, Rusiya Elmlər Akademiyasının kitabxanasında saxlanılır. Müəllifin öz dəstxəti ilə yazılmış avtoqraf nüsxəsinin üzərindəki qeyddən məlum olur ki, bu nüsxə 1608/09-cu illərdə *I Şah Abbas* tərəfindən Ərdəbildəki Şeyx Səfi xanəgahının kitabxanasına *vəqf* edilmişdir. 1828-ci ildə kitabxananın fondu tədqiq edilmək bəhanəsi ilə Sankt-Peterburqa aparılmış, bir daha geri qaytarılmamışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.38-41; Cəvahir əl-əxbar (müqəddimə: M.Bəhramnejad), s.13-29; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.18-19.*

"DƏSTUR ƏL-MÜLUK" – XVIII əsrdə qələmə alınmış və Səfəvilər dövlətinin idarəçilik aparatının quruluşundan bəhs edən mühüm mənbələrdən biri. Müəllifi *Şah Sultan Hüseynin* zamanında *mustovfi əl-məmalik* vəzifəsini daşımış "Mirzə Rəfia" ləqəbli Məhəmməd Rəfi Ənsaridir. *"Təzkirət əl-müluk"la* yanaşı bu kitab da Səfəvilər dövlətində saray vəzifələri və bölgələrin idarəçilik sistemi barədə dəyərli məlumatları özündə əks etdirir. Hətta "Dəstur əl-müluk" digər əsəri tamamlayır; belə ki, "Təzkirət əl-müluk"da əsasən İsfahandakı saray vəzifələrinə daha çox diqqət yetirildiyi halda "Dəstur əl-müluk" müəllifi bu boşluğu doldurmuş və bölgələrdəki vəziyyəti də işıqlandırmışdır.

Kitab 15 babdan və xatimədən (yekun) ibarətdir. Birinci babda Səfəvilər dövlətinin yüksək dini vəzifələri və onların səlahiyyət dairələri təsvir edilib (*mollabaşı*, *sədr*, ziyarətgahların, o cümlədən Şeyx Səfi xanəgahının mütəvəlli qurumu, *şeyxülislam*, *qazı* və s.). İkinci babda sarayda və bölgələrdə xidmət edən yüksəkrütbəli əmirlərdən söhbət açılır (*valilər*, *bəylərbəyiləri*, *xan* və *sultanlar*, *vəzir*, *qorçubaşı*, *sipəhsalar*, *qullarağası*, *eşikağasıbaşı*, *tüfəngçiağası*, *naziri-büyutat*, *divanbəyi*, *əmirşikarbaşı*, *miraxurbaşı*, *topçubaşı*, *məclisnəvis*, *mustovfi əlməmalik*, *həkimbaşı*). Üçüncü bab *müqərrəb əl-xaqan* təbəqəsinə aid mənsəblərdən bəhs edir (*cəbbadarbaşı*, *sahibcəm*, *xacəsəra*, *xəlifət əl-xüləfa*, *münəccimbaşı*, *möhürdar*, *tuşmalbaşı* və s.). Dördüncü babın mövzusu əsasən *vəzir* və kələntər vəzifələridir. Beşinci bab *müqərrəb əl-həzrət* təbəqəsini ehtiva edir (*süfrəçibaşı*, *mehmandarbaşı*, İsfahan darğası, İsfahan *mirabı*, *davatdar*, *yasavullar*, saray mətbəxinə bağlı qurumlar və s.). Altıncı babda əsas etibarilə divan işçilərindən (*mustovfi* və *münşilər*, təsərrüfat işçiləri) danışılır. Kitabın növbəti babları Səfəvilər dövlətindəki bürokratik aparatı, bölgələrdən gələn vergi və peşkəşləri, ödənilən məvacib və hədiyyələri bütün xırdalıqlarına kimi təsvir edir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.154-157; Dəstur əl-müluk (nəşrə hazırlayan: Nobivaki Kundu), s.1-4; Ə.S.Ağqələ. Mirzə Rəfianın "Dəstur əl-müluk"u oxşar iki mətnlə müqayisədə ("Güzarişi-miras" dərgisi, 1397 h.-ş., №3-4), s.95-109.*

"DƏSTURİ-ŞƏHRİYARAN" – XVIII əsrin əvvəllərində qələmə alınmış, Səfəvilər dövlətinin tarixini qismən əhatə edən kitab. *Şah Sultan Hüseynin* hakimiyyətinin ilk illərini əhatə edən kitabın müəllifi onun zamanında yaşamış Məhəmməd İbrahim ibn Zeynülabidin Nəsiridir. O, Nəsirəddin Tusinin nəslindən "Münşəat" ("Töhfeyi-şahi") əsərinin müəllifi Əbdülhüseyn Nəsiri Tusinin nəvəsidir. Dini elmləri mükəmməl öyrənmiş, Əllamə Məclisidən dərs almışdır. 1680/81-ci illərdə 41 yaşlı Nəsiri əvvəlcə As-

tarabad hakiminin vəziri təyin edilmiş, daha sonra Ərdəbil təkkəsinin mütəvəllisinin və Azərbaycan (Təbriz) hakiminin vəziri olmuşdur. Ona həsəd aparan qüvvələrin səyi ilə vəzifəsindən uzaqlaşdırılıb işsiz qalan müəllif bir müddətdən sonra yenidən saraya dəvət olunur və ona *məclisnəvis* mənsəbi verilir. Xidməti vəzifəsinə uyğun olaraq bütün mühüm dövlət mıclislərinə qatılaraq onların protokolunu tərtib edən Nəsiri kitabı üçün də materiallar toplamağa başlayır. Müəllif əsərdə *Şah Süleymanın* hakimiyyətinin sonlarında Səfəvi dövlətinin durumunu təhlil edərək yeni şahın hakimiyyəti hansı vəziyyətdə təhvil aldığını göstərir. O, tarixi hadisələri sadalamaqla yanaşı, mühüm dövlət sənədlərinin xülasəsini də vermiş, məşhur dövlət adamlarının həyatı haqqında maraqlı faktlara toxunmuşdur. Səfəvilər tarixinin bu zaman kəsimini əhatə edən mənbələrin azlığı "Dəsturi-şəhriyaran" kitabının əhəmiyyətini daha da artırır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.87-90; Dəsturi-şəhriyaran, (nəşrə hazırlayan: M.N.Nəsiri Müqəddəm), müqəddimə bölümü.*

"ƏHSƏN ƏT-TƏVARİX" – Səfəvilər tarixinə həsr edilmiş ən mühüm mənbələrdən biri. XVI əsrdə yaşayıb-yaratmış görkəmli ədib *Həsən bəy Rumlu* tərəfindən qələmə alınmışdır. Ümumtarix kitabı kimi planlaşdırılmış əsər dünyanın əvvəlindən *I Şah Təhmasibin* vəfatı və *II Şah İsmayılın* hakimiyyətə gəlişinədək keçən dövrü əhatə edir. 10 və ya 12 cilddən ibarət olan "Əhsən ət-təvarix"in yalnız sonuncu iki cildi günümüzə gəlib çatmışdır. Bu iki cildin əvvəlincisində Əmir Teymurun vəfatından (1405) hicri 900-cü (miladi 1495-ci) ilədək olan dövrdən danışılır, Qaraqoyunlu və Ağqoyunlu sülalələri barədə məlumat verilir. Sonuncu cild isə *I Şah İsmayılın* hakimiyyətə gəlişi ərəfəsində baş verən hadisələri, onun və I Şah Təhmasibin hökmranlıq illərini əhatə edir. "Əhsən ət-təvarix"i dəyərli edən xüsusiyyətlərdən biri də hər ilin mühüm hadisələrinin təsvirindən sonra həmin ildə vəfat etmiş görkəmli şəxsiyyətlər, şair və sənətkarlar barədə qısa da olsa məlumatların verilməsidir. Kitabı mütaliə etdikcə oxucuda Səfəvilər dövlətinin ictimai-siyasi, elmi-mədəni həyatı, qonşu ölkələrlə münasibəti, əhalinin məişəti barədə kifayət qədər dolğun təsəvvür yaranır. Həsən bəy Rumlu kitabı I Şah Təhmasibin qızı *Pərixan xanıma* ithaf etmişdir. "Əhsən ət-təvarix" kitabı Azərbaycan dilinə tərcümə edilmiş və nəşr olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.32-35; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.21; Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), s.5-13; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı), s.23-33; Həsən bəy Rumlu. Əhsən ət-təvarix (təshih: Əbdülhüseyn Nəvayi), s.14-27.*

"ƏLQAB VƏ MƏVACİB" – XVIII əsrin birinci rübündə yazılmış Səfəvilər dövrünə aid mühüm mənbələrdən biri.

Kitabın bütöv adının fars dilindən tərcüməsi belədir: "Səfəvi sultanlarının zamanında ləqəblər və məvaciblər". Əsər Nəsirəddin Tusi nəslinin yetirməsi olan Mirzə Əli Nəqi Nəsiri Ordubadi Tusi tərəfindən qələmə alınmış və *II Şah Təhmasibə* ithaf olunmuşdur. Nəsirilər sülaləsi Səfəvilər zamanında mühüm dövlət vəzifələrində xidmət etmişlər. Bu nəslin iki nümayəndəsi – *Hatəm xan* və oğlu *Əbu Talib xan baş vəzir* mənsəbinə kimi yüksəlmişlər. Nəslin digər yetirmələri divanxanada *münşi əl-məmalik* vəzifəsində xidmət edir, eləcə də Şeyx Səfi xanəgahının idarəçiliyini həyata keçirirdilər. Nəsirilər nəslinin bir neçə nümayəndəsi ixtisaslarına uyğun əsərlər (münşəat) yazaraq Səfəvi şahlarına təqdim etmişlər. Belə əsərlərdən biri də "Əlqab və məvacib" risaləsidir. Təəssüf ki, əsərin yeganə əlyazma nüsxəsinin əvvəlindən və axırından xeyli hissəsi itmişdir. Risalənin təbəqə adlandırılmış 10 bölümdən ibarət olduğu ehtimal edilir. Günümüzə gəlib çatmış hissə dördüncü təbəqənin sonundan onuncu təbəqənin əvvəlinədək davam edir. Müəllif bu risalədə Səfəvi dövlət aparatında mövcud olan bütün vəzifələrin ad və səlahiyyətlərini qeyd etmiş, hər vəzifə üçün nəzərdə tutulmuş məvacibin miqdarını da vermişdir. Dövlət xidmətçilərinin tiyullarının təsviri, eləcə də sarayda şahın iştirak etdiyi məclisdə hər vəzifə sahibinin əyləşdiyi yer ətraflı şəkildə təsvir edilmişdir. Müəllif yeri gəldikcə bu və ya digər vəzifədə xidmət edən məmurların adlarını da qeyd etməyi unutmamışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.157-160; Əlqab və məvacibi-dövreyi-səlatini-Səfəviyyə (nəşrə hazırlayan: Yusif Rəhimlu), müqəddimə bölümü.*

"FƏVAİD ƏS-SƏFƏVİYYƏ" – XVIII əsrin sonlarında qələmə alınmış, Səfəvilər dövlətinin tarixindən bəhs edən kitab. Əsərin müəllifi Əbülhəsən ibn İbrahim Qəzvininin həyatı barədə məlumat azdır. O, "Fəvaid əs-Səfəviyyə" kitabını 1796/97-ci illərdə yazıb bitirmiş və Səfəvilər sülaləsindən olan Əbülfəth Sultan Məhəmməd Mirzəyə *(II Şah Məhəmməd)* ithaf etmişdir. *II Şah Təhmasibin* nəvəsi, *II Şah Hüseynin* oğlu Məhəmməd Mirzə həmin dövrdə Hindistanda məskunlaşmışdı. Bundan bir neçə il əvvəl Qacar dövlətinin banisi Ağa Məhəmməd şah onu Tehranda taxta çıxarmışdı. Səfəvilər sülaləsinin hakimiyyətinin legitimliyi hamı tərəfindən qəbul edildiyi üçün dövlətin süqutundan sonra hökuməti ələ keçirmiş şəxslər onların nüfuzundan istifadə etməyi lazım bilir, bu sülalənin nümayəndələrindən birini formal olaraq taxta çıxarıb, özləri onun adından dövləti idarə edirdilər. Nadir şah Əfşar da, Ağa Məhəmməd şah Qacar da bu yolla getmişdilər.

"Fəvaid əs-Səfəviyyə" iki hissədən ibarətdir. Birinci hissədə *I Şah İsmayıldan Şah Sultan Hüseynə* kimi Səfəvi şahlarının tarixi müxtəsər şəkildə işıqlandırılmışdır. Kitabın ikinci hissəsinə əfqanlar, Əfşarlar, Zəndilər və Qacarların hakimiyyət dövrlərinin təsviri daxildir. Müəllif əsəri fars dilində qələmə alsa da, bəzi türk sözlərindən də istifadə et-

mişdir.
"Fəvaid əs-Səfəviyyə" əsəri müəllifin sağlığında cəmi 10 nüsxə şəklində köçürülmüş, bu nüsxələr Hindistanda və digər bölgələrdə hakimiyyət sürən əmirlərə, o cümlədən Hindistandakı ingilis kontingentinin başçılarına göndərilmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.332-335; Fəvaid əs-Səfəviyyə (nəşrə hazırlayan: Məryəm Mirəhmədi), müqəddimə bölümü.*

"FÜTUHATİ-ŞAHİ" – XVI əsrin birinci yarısında qələmə alınmış ilk Səfəvi mənbələrindən biridir. "Həbib əs-siyər"-dən bir neçə il əvvəl yazıldığına görə daha böyük əhəmiyyət kəsb edir. Əsərin müəllifi Əmir Sədrəddin Sultan İbrahim Mirək Cəlaləddin oğlu Əminidir. O, Teymuri hökmdarı *Sultan Hüseyn Bayqaranın* Heratdakı sarayında böyük hörmət sahibi olmuş, *sədr* (ən yüksək dini vəzifə) mənsəbinə yüksəlmişdir. *Məhəmməd xan Şeybaninin* başçılığı altında özbək qoşunu Heratı ələ keçirdikdən sonra Əmini inzivaya çəkilmişdir. 1510-cu ildə *I Şah İsmayıl* Heratı fəth etdikdən sonra Əmini Səfəvilərin xidmətinə keçmiş, şah tərəfindən hörmətə layiq görülərək ona mülklər bağışlanmışdır. Təqribən 10 ildən sonra I Şah İsmayıldan müfəssəl bir tarix kitabı yazmaq sifarişi almış, "Fütuhati-şahi"ni yazmağa başlamışdır. Əsər iki cilddən ibarətdir. Birinci cild dünyanın əvvəlindən I Şah İsmayılın uşaqlıq və yeniyetməlik dövrünədək müddəti əhatə edir. Kitabın ikinci cildində isə Səfəvilər dövləti qurucusunun hərbi yürüşləri və qələbələri illər üzrə təsvir edilir. Əmini I Şah İsmayılın hakimiyyətinin ilk 12 ilinin hadisələrini qeydə almışdır. Təsvir etdiyi bəzi hadisələrin bilavasitə iştirakçısı və şahidi olduğu üçün onun verdiyi məlumatlar mötəbər sayılır.
İbrahim Əmini I Şah İsmayılın vəfatından sonra Xorasanda qalmış, şahzadə *Bəhram Mirzənin* tərbiyəsi ona tapşırılmışdır. 1535-ci ildə özbək sərkərdəsi Bayram Oğlanın hücumu zamanı Əmini Herat hakiminin qoşununun tərkibində hərbi əməliyyatlara qatılmış və döyüşdə həlak olmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.28-30; Fütuhati-şahi (nəşrə hazırlayan: Məhəmməd Rza Nəsiri), müqəddimə bölümü; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.9-12.*

"XÜLASƏT ƏS-SİYƏR" – XVII əsrin birinci yarısında qələmə alınmış, *I Şah Səfinin* hakimiyyət dövründən (1629-1642) bəhs edən salnamə tipli tarix kitabı. Əsərin müəllifi Məhəmməd Məsum ibn Xacəgi İsfahaninin atası dövlət xidmətində qulluq edirdi, yaxın qohumu Mirzə Abdullah Lahican vəziri idi. Özü 20 yaşında ikən *I Şah Abbasın* zamanında sarayda xidmətə başlamış, *miraxurbaşı* vəzifəsinə yüksəlmişdi. Ədəbiyyatı gözəl bilən və şairliyi olan Məhəmməd Məsum tezliklə şahın diqqətini cəlb etmiş, öz vəzifəsindən əlavə divanda da ona işlər tapşırılmışdı. Müəllif həmin dövrdə şahla ədəbiyyat və tarix

mövzusunda söhbətlər etdiyini xatırlayırdı.

I Şah Abbasın vəfatından sonra hakimiyyətə gələn I Şah Səfi Məhəmməd Məsumu vəzifəsində saxladı. Bu dövrdə müəllif yüksək dairələrə daha yaxın olmuş, I Şah Səfinin həmsöhbətinə çevrilmişdi. Səfərlərdə şahı müşayiət edən Məhəmməd Məsum tarix mövzusunda kitab yazmaq qərarına gəlir. O, ümumtarix tipli bir əsər olaraq planlaşdırdığı "Xülasət əs-siyər"in mühüm hissəsini (dünyanın əvvəlindən Əmir Teymurun hakimiyyətə gəlişinədək olan dövrün təsviri) yazıb bitirdikdən sonra şaha təqdim edir və onun razılığını qazanır. Bununla yanaşı, şah ona təklif edir ki, əsəri ardıcıllıq üzrə yazmağı dayandırsın və onun hakimiyyət dövrünün təsvirinə keçsin. Məhəmməd Məsum verilən tapşırıq üzrə I Şah Səfinin tarixini yazmağa başlayır.

"Xülasət əs-siyər" əsərinin əvvəlki bölümləri itmiş, yalnız I Şah Səfinin hakimiyyət dövrünü əhatə edən hissə günümüzə gəlib çatmışdır. Əsərin ən dəyərli xüsusiyyəti onun canlı müşahidələr əsasında qələmə alınmasıdır. Müəllif şahidi olduğu hadisələri dəqiqliklə təsvir etmişdir.

I Şah Səfinin vəfatından sonra 30 illik xidmətinin sonunda 50 yaşlı Məhəmməd Məsum vəzifədən uzaqlaşdırılmış və iki il işsiz qalmışdır. Daha sonra o, Qarabağ bəylərbəyi Mürtəzaqulu xan Ziyadoğlu-Qacarın vəziri təyin olunmuş, həmin vəzifədə bir müddət xidmət etdikdən sonra dünyasını dəyişmişdir.

"Xülasət əs-siyər" kitabının sonunda müəllif qısa tərcümeyi-halını vermiş və *Ziyadoğlular* nəslinin tarixindən bəhs etmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.66-69; Xülasət əs-siyər (nəşrə hazırlayan: İrəc Əfşar), s.11-16; A.A.Paxмани. Азербайджан в конце XVI и в XVII веке, стр.7-8.*

"XÜLASƏT ƏT-TƏVARİX" – XVII əsrdə yazılmış, Səfəvilər dövlətinin tarixini əks etdirən mühüm mənbələrdən biri. Müəllifi XVI əsrin ikinci yarısında yaşayıb-yaratmış Qazı Əhməd ibn Şərəfəddin Hüseyn Hüseyni Qumidir (Mir Münşi ləqəbi ilə tanınır). O, 1546-cı ildə Qum şəhərində doğulmuş, 13 yaşında ikən ailəsi ilə birlikdə Məşhədə köçmüş, burada 20 il müddətində müxtəlif vəzifələrdə çalışmışdır. Mükəmməl dini təhsil almış Qazı Əhməd Qumi əvvəlcə qədim zamanlardan Səfəvilər dövrünədək tarixdən bəhs edən 4 cildlik kitab yazmış və *II Şah İsmayıla* təqdim etmişdir. Şahın tövsiyəsi ilə o, Səfəvilər sülaləsinin tarixini yazmağa başlamış, *I Şah Abbasın* zamanında əsəri tamamlamışdır (1591). "Xülasət ət-təvarix"in ilk 4 cildi itib-batmış, yalnız Səfəvilərdən bəhs edən beşinci cild günümüzə gəlib çatmışdır. Salnaməçilik ənənələrinə sadiq qalan müəllif kitabını Şeyx Səfi dövrünün təsvirindən başlamış, keçmiş hadisələri əvvəlki mənbələrdən nəql etmişdir. Müəllifin öz dövründəki tarixi hadisələr və proseslər barədə qeydləri xüsusi əhəmiyyət daşıyır. O, görkəmli din xadimlərinin həyatı və əsərləri barə-

də digər mənbələrə nisbətən daha geniş və dəqiq məlumatlar vermişdir.
Qazı Əhməd Qumi "Xülasət ət-təvarix"-dən əlavə Səfəvilər dövrü barədə maraqlı məlumatları özündə əks etdirən daha bir neçə kitab da qələmə almışdır. Məşhur rəssam və xəttatlardan bəhs edən "Gülüstani-hünər", şair və ədiblərin həyat və yaradıcılığını əhatə edən "Cəm əl-xiyar" və "Məcmə əş-şüəra", vəzirlərin fəaliyyətindən danışan "Müntəxəb əl-vüzəra" əsərləri buna misaldır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq,s.46-50; Xülasət ət-təvarix (nəşrə hazırlayan: Ehsan İşraqi), s.9-28; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.21-22.*

"XÜLDİ-BƏRİN" – XVII əsrdə qələmə alınmış və Səfəvilər dövrünün mühüm tarixi mənbələrindən sayılan kitab. Əsərin müəllifi Səfəvilər dövlətində yüksək vəzifələr tutmuş ədib və şair Məhəmməd Yusif *Valeh Qəzvinidir*. "Xüldi-bərin" irihəcmli ümumtarix kitabı olub rövzə adlı 8 bölümdən ibarətdir. Rövzələrdə keçmiş peyğəmbərlərin tarixindən başlayaraq Həzrət Məhəmməd Peyğəmbərin (s), imamların, Əməvi və Abbasi xəlifələrinin, monqol ulusunun, Teymuri, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixləri ətraflı təsvir edilmişdir. Səkkizinci rövzə Səfəvilər tarixini əhatə edir və hədiqə adlı 7 hissədən ibarətdir. Hər hədiqə Səfəvi şahlarından birinə həsr edilmişdir. Kitabın xatimə (yekun) bölümü *II Şah Abbasın* hakimiyyət dövrünün əvvəlinə təsadüf edən 1667/68-ci illərin hadisələrinin təsviri ilə bitir.
"Xüldi-bərin" əsərinin fərqli kitabxanalarda müxtəlif nüsxələri mövcuddur, amma heç bir kitabxanadakı nüsxə bütöv deyildir; yəni əsəri tam şəkildə əldə etmək üçün fərqli kitabxanalardakı nüsxələri birləşdirmək lazımdır. "Xüldi-bərin" əsərində müəllif *İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi"də* izlədiyi üsulla getmiş, şahların hər biri üçün ləqəblər seçmiş və kitab boyunca onları həmin ləqəblərlə adlandırmışdır. Hadisələrin diqqətli və ətraflı şəkildə təsvir edilməsi, ayrı-ayrı hadisələrlə yanaşı bəhs edilən hər dövrün mühüm elm və sənət adamlarının tərcümeyi-hallarının da verilməsi baxımından kitab xüsusi əhəmiyyət kəsb edir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.77-78; Xüldi-bərin (nəşrə hazırlayan: Mirhaşim Mühəddis), müqəddimə bölümü; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.9.*

"QARA MƏCMUƏ" – səfəviyyə təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin* tövsiyələrindən və hikmətli kəlamlarından ibarət kitab. "Qara məcmuə" səfəviyyə təriqətinin əxlaq kodeksi, irfan dərsliyi sayılır, Səfəvilər zamanında təriqət ədəbiyyatının ən mühüm nümunəsi hesab edilirdi. XVII əsrdə Səfəvilər dövlətinə səfər etmiş fransız səyyahı Jan Şarden yazırdı ki, şah döyüşdən əvvəl əyanları *cəngi* məclisinə toplayıb onlarla birlikdə "Qara məcmuə"ni oxuyurdu. Bu kitab hər biri 50 hərfdən ibarət 9 min sətir həcmində idi. Şardenin fik-

rincə, Səfəvilər inanırdılar ki, bu kitabda dünyanın sonunadək baş verəcək bütün proseslər öz əksini tapmışdır. "Qara məcmuə" cəmi bir nüsxədə mövcud idi, onu yalnız şahın icazəsi ilə oxumaq olardı. Bu kitabın mistik gücünə inandıqları üçün onu əhalidən gizlədirdilər.

"Qara məcmuə" Azərbaycan türkcəsinin orta əsrlər ləhcəsində qələmə alınmışdır, sadə üslubu, səlis bəyan tərzi onu bu gün də oxunaqlı edir. Əsərin bir neçə yerində mövzuya uyğun olaraq Şah İsmayıl Xətainin şeirlərindən nümunələr verilmişdir. "Qara məcmuə"nin əsasını Şeyx Səfinin öz müridlərinə tövsiyələrindən ibarət olan "Əl-Buyruq" risaləsi təşkil edir. Onunla yanaşı, "Mizəkki ən-nüfus" və "Könül" risalələrini də "Qara məcmuə"yə aid edirlər. Şeyx Səfi tövsiyələrində *təriqət ədəbini*, təsəvvüfün əsaslarını, *mürid-mürşid* münasibətlərini gözəl və anlaşıqlı şəkildə şərh etməyə nail olmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.124-125; Şardenin səyahətnaməsi (tərcümə: Məhəmməd Abbasi), VIII, 162-163; Michel M.Mazzaoui. Səfəvilər dövlətinin yaranması (farsca tərcümə), s.174-175; Qara məcmuə (nəşrə hazırlayan: H.M.Sədiq Düzgün).*

"QİSƏS ƏL-XAQANİ" – XVII əsrdə Səfəvilər dövlətinin tarixi barədə qələmə alınmış əsər. Kitabın müəllifi Vəliqulu bəy Hacı Davudqulu oğlu Şamlu 1626-cı ildə Heratda anadan olmuş, orada və Sistanda təhsil alaraq Sistan hakiminə xidmət etmişdir. Daha sonra Qəndəhara gedən Vəliqulu bəy buranın *naziri-büyutat* vəzifəsinə təyin edilmiş, amma sonrakı Qəndəhar valisi tərəfindən vəzifədən uzaqlaşdırılmışdır. "Qisəs əl-xaqani" əsərini müəllif 1662/63-cü illərdə 38 yaşında ikən yazmağa başlamış, özünün qeyd etdiyinə görə, 3 il ərzində bitirmişdir. Lakin kitabda bəhs edilən bəzi hadisələrin daha sonrakı illərə aid olduğunu nəzərə alanda məlum olur ki, əsər üzərində iş göstərilən tarixdən sonra da davam etmişdir.

"Qisəs əl-xaqani" kitabı müqəddimə, 3 bab və 3 təzkirədən ibarətdir. Müqəddimədə Səfəvilər sülaləsinin şəcərəsi verilmiş, birinci babda *Firuz şah Zərrinkülahdan I Şah İsmayıla* kimi Səfəvi şeyxlərinin, ikinci babda I Şah İsmayıldan *II Şah Abbasa* kimi hakimiyyətdə olmuş şahların, üçüncü babda II Şah Abbasın tarixi işıqlandırılmışdır. Kitabın sonundakı 3 təzkirədə isə 145 nəfər alim, şair və dərvişin tərcümeyi-halı verilmişdir.

Kitabın yazılışı zamanı müəllif özündən əvvəlki mənbələrə istinad etmiş, dövründə baş vermiş hadisələri isə əsasən şəxsi müşahidələri əsasında qələmə almışdır. Burada Səfəvi şahlarının fərman və məktubları, vəqfnamələr, memarlıq abidələrinin təsviri də ətraflı şəkildə verilmişdir. II Şah Abbas zamanında Qəndəhar uğrunda Böyük Moğollar imperiyası ilə aparılmış döyüşlərin təsvirinə də əsərdə geniş yer ayrılmışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.69-72; Qisəs əl-xaqani (nəşrə hazırlayan: S.H.Sadat Nasiri), müqəddimə bö-*

lümü; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.8-9.

“QIZILBAŞLAR TARİXİ” – *bax:* **“TARİXİ-QIZILBAŞAN”**.

“LÜBB ƏT-TƏVARİX” – XVI əsrdə qələmə alınmış ilkin Səfəvi tarixi mənbələrindən biri. Əsərin müəllifi Yəhya ibn Əbdülmüttəlib Qəzvininin həyatı barədə məlumat azdır. O, əhli-sünnə məzhəbinə etiqad bəsləsə də, Səfəvilərə rəğbətlə yanaşmışdır. *I Şah Təhmasibin* ona münasibəti müsbət olmuşdur, hətta ona Məsum ləqəbini verdiyi rəvayət edilir. Lakin 1553-cü ildə qoca yaşında şərlənərək İsfahanda həbs edilmiş, iki ildən sonra zindanda dünyasını dəyişmişdir. Yığcam həcmə malik “Lübb ət-təvarix” kitabı dörd hissədən ibarətdir. Birinci hissə Həzrət Məhəmməd Peyğəmbərlə (s) imamların, ikinci hissə qədim Şərq hökmdarlarının, üçüncü hissə müsəlman sülalələrinin və monqolların tarixinə həsr edilmişdir. Əsərin dördüncü bölümü bütünlükdə *I Şah İsmayılın* hakimiyyət illərinin təsvirini əhatə edir. Yəhya Qəzvini əsərin sonunda Səfəvi tarixi barədə daha genişhəcmli bir kitab yazmağı planlaşdırdığını xəbər verir, amma bu planı həyata keçirib-keçirmədiyi haqqında dəqiq məlumat yoxdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq,s.31-32; Lübb ət-təvarix, h.-ş. 1314 və 1363-cü il nəşrləri; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXV, 158.*

“MƏCMƏ ƏL-XƏVAS” (**MƏCMƏ ƏL-XƏVASS**) – Səfəvilər zamanında yaşamış şairlərin həyatı və əsərləri barədə qısa məlumatları özündə əks etdirən, XVII əsrdə qələmə alınmış kitab. Əsərin müəllifi *I Şah Abbasın* dövründə saray kitabxanasının müdiri vəzifəsində xidmət etmiş görkəmli şair, ədib, xəttat, rəssam və sənətşünas *Sadiq bəy Əfşardır* (1533-1609/10). “Məcmə əl-xəvas” klassik təzkirəçilik ənənələri əsasında fars dilində qələmə alınmışdır, müqəddimə, məcmə adlı səkkiz fəsil və xatimədən (yekun) ibarətdir. Birinci fəsildə o dövrdə yaşamış və şairlik istedadı olmuş hökmdarlardan, ikinci fəsildə şahzadələrdən, üçüncü fəsildə “səltənət sütunu olan türk” əmirlərdən, dördüncü fəsildə şeir təbi olan fars əmirlərdən, beşinci fəsildə bu əmirlərin övladlarından, altıncı fəsildə Peyğəmbər nəslindən olan şairlərdən, yeddinci fəsildə hər iki dildə (türkcə və fars) yazmış keçmiş görkəmli şairlərdən bəhs edilir. Sonuncu fəsildə isə müəllif müasiri olduğu qələm əhli haqqında məlumatlar yerləşdirmişdir. Əsərdə 480 nəfərdən artıq sənətkardan söz açılır. Sadiq bəy bunların bəziləri haqqında çox qısa, bəziləri haqqında isə nisbətən geniş informasiya verir. Yazdıqlarından məlum olur ki, o, şairlərin böyük bir qismini şəxsən tanımış, bəziləri ilə dostluq əlaqəsi saxlamışdır. Kitab Səfəvilər dövrünün ədəbi mühitini canlandıran ən mühüm mənbələrdən sayılır. “Məcmə əl-xəvas” kitabı Azərbaycan dilinə tərcümə edilmiş və çap olunmuşdur.

Mənbələr: *Sadiq bəy Əfşar. Məcməül-xəvas (hazırlayan: Əkrəm Bağırov), s.3-4; Sadiq bəy Əfşar. Məcmə əl-xəvas (müqəddimə: Əb-*

dürrəsul Xəyyampur); Sadiq bəy Əfşar. Şeirlər (nəşrə hazırlayan: Paşa Kərimov), s.3-32.

"MƏCMƏ ƏL-İNŞA" – XVII əsrin əvvəllərində qələmə alınmış və Səfəvilər dövrünə aid mühüm sənədləri əhatə edən əsər. Müəllifi Qaradağ sufilərinin *Evoğlular* nəslinə mənsub Əbülqasim Heydər bəy Evoğludur. Bu nəslin nümayəndələri Səfəvi şahları zamanında sarayda mühüm vəzifələrdə xidmət etmişlər. Heydər bəy Evoğlu *I Şah Abbas* zamanında atasından sonra *eşikağasıbaşı* mənsəbinə layiq görülmüş, *I Şah Səfinin* dövründə bu vəzifədə qalmış, lakin 1643-cü ildə *II Şah Abbasın* baş vəziri *Saru Tağı* ilə münasibətləri korlandığı üçün vəzifədən kənarlaşdırılmışdır.

"Mənşə əl-inşa" iki hissədən ibarətdir. Birinci hissədə keçmiş dövlətlərin (Səlcuqlar, Teymurilər və s.) zamanında imzalanmış fərmanlar, məvacib sənədləri, digər dövlət başçılarına göndərilmiş məktublar toplanmışdır. Kitabın ikinci bölümü Səfəvilərin ilk 7 hökmdarının zamanına aid eyni məzmunlu sənədləri ehtiva edir. "Məcmə əl-inşa"nın 1632/33-cü illərdə tərtib edildiyi ehtimal olunur. Əsər əlyazma şəklində mövcuddur, çap edilməmişdir.

"Münşəat" ("Töhfeyi-şahi") kitabının müəllifi Əbdülhüseyn Nəsiri Tusi "Məcmə əl-inşa" əsərinə zeyl (əlavə, tamamlama) yazmışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.160-161; Əbdülhüseyn Nəvai. İranın tarixi sənədləri və məktublaşmaları, s.24; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.10; Əhməd Gülçin Məani. Farsdilli təzkirələrin tarixi, II, 798.*

"MƏCMƏ ƏT-TƏVARİX" – XVIII əsrdə qələmə alınmış, Səfəvilər dövlətinin son illərini və Səfəvilərdən sonrakı dövrün tarixini əhatə edən kitab. Müəllifi Mirzə Məhəmməd Xəlil (və ya Sultan Xəlil) Mərəşi Hüseynidir. O, ana tərəfdən Səfəvilər sülaləsinə mənsub idi, babası Seyid Məhəmməd Sədr Məşhəddə İmam Rza (ə) hərəminin mütəvəllisi (müdiri) olmuş, *Nadir şahın* qətlindən sonrakı qarışıqlıq dövründə Məşhəddə özünü şah elan edərək qısa müddət ərzində *II Şah Süleyman* adı altında hakimiyyət sürmüşdür (1750). Hakimiyyətdən devrildikdən və gözləri çıxarıldıqdan sonra II Şah Süleyman oğullarını (kitab müəllifinin atası Sultan Davud Mirzə ilə qardaşı Sultan Əli Mirzəni) əvvəlcə İraqa, oradan da Hindistana göndərmiş, bundan bir qədər sonra Mirzə Məhəmməd Xəlil də Hindistana köçmüşdür (1778). Atasının vəfatından sonra o, "Məcmə ət-təvarix" əsərini yazmağa başlamışdır (1792/93). Kitabda Səfəvilər dövlətinin süqutu ərəfəsində baş vermiş hadisələr, əfqan işğalı, son Səfəvi şahlarının həyatı, eləcə də II Şah Süleymanın Məşhəddəki hakimiyyət dövrü ətraflı şəkildə təsvir edilmişdir. Əsəri yazanda müəllif keçmiş mənbələrdən də faydalanmışdır. Kitabın dili mürəkkəb, məzmunu bəzi yerlərdə dolaşıq olsa da, o dövrün mənbələrinin azlığı, eləcə də təkcə hadisələrin təsviri ilə kifayətlənməyib, dövrün siyasi-ictimai vəziyyətini də mümkün qədər əks etdirdiyi üçün

mühüm əhəmiyyət kəsb edir. Müəllif əsərdə iddia edir ki, onun toxunduğu mövzuların bir qismində digər mənbələrdə rast gəlinmir və ya bu mövzular onun yazdığı kimi obyektiv, ətraflı izah edilməyib. Mirzə Məhəmməd Xəlil Mərəşi Hüseyni təqribən 1805-ci ildə vəfat etmiş, Hindistanın Benqal vilayətində dəfn olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.329-332; Məcmə ət-təvarix (nəşrə hazırlayan: A.İqbal), müqəddimə bölümü.*

"MOLLA KAMAL TARİXİ" – *bax:* **"ZÜBDƏT ƏT-TƏVARİX".**

"MÜNŞƏAT" – XVII əsrdə qələmə alınmış Səfəvi mənbəyi. Mənbələrdə "Töhfeyi-şahi" adı ilə də qeyd edilir. Müəllifi Nəsirəddin Tusinin nəslindən olan, Səfəvilər dövlətində *baş vəzir* vəzifəsini icra etmiş *Hatəm bəy Ordubadinin* qardaşı Ədhəm bəyin oğlu Əbdülhüseyn Nəsiri Tusidir. O, kitabını orta əsrlərdə divanxana sənədlərinin məcmusu olaraq qələmə alınan münşəat üslubunda tərtib etmişdir. Kitab *I Şah Səfiyə* ithaf olunmuşdur. "Münşəat" əsəri təkcə dövlət sənədlərinin və məktubların toplusundan ibarət deyil, burada həm də bu növ sənədlərin yazılışına dair təlimatlar verilir. Müəllif hər bir vəzifə sahibinin ləqəbini bürokratik etiketə uyğun olaraq dövlət sənədində qeyd edilməsi gərəkən qaydada yazmış, əyanların bir-birinə yazılı müraciət qaydalarını şərh etmişdir. Bu siyahının başında *valilər*, saray *əmirləri*, *bəylərbəyiləri*, böyük *xan* və *sultanlardan* sonra *sədr* və ruhanilər, *vəzir* və təbiblər, onların ardınca *mustovfi əl-məmalik* və ona tabe olan maliyyə işçiləri, divanxana qulluqçuları və s. vəzifə sahibləri qeyd edilmişdir.

Nəsiri Tusinin "Münşəat" əsəri nəşr olunmamışdır və əlyazma nüsxələr şəklində mövcuddur.

Müəllifin oğlu Məhəmməd Rza Nəsiri əsərə əlavə (zeyl) yazaraq şahın öz həyat yoldaşlarına və qadın qohumlarına, onların da şaha yazılı müraciət qaydalarını əlavə etmişdir.

Əbdülhüseyn Nəsiri Tusi Səfəvilər dövründə qələmə alınmış Heydər Evoğlunun "Məcmə əl-inşa" əsərinə zeyl (əlavə, tamamlama) də yazmışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.161-162.*

"NƏQAVƏT ƏL-ASAR Fİ ZİKR ƏL-ƏXYAR" – Səfəvilər dövlətinin tarixini qismən əhatə edən, XVI əsrin sonlarında qələmə alınmış kitab. Əsərin müəllifi Mahmud ibn Hidayətullah Əfuşteyi Nətənzidir. 1590-cı ildə *I Şah Abbas* onun tabeliyindən çıxıb İstəxr qalasına sığınmış *Yaqub xan Zülqədəri* cəzalandırmaq üçün Fars vilayətinə hücum etmiş və alınmaz hesab olunan qalanı fəth edərək üsyana son qoymuşdu. 60 yaşlı Mahmud Nətənzi bu hadisədən ilhamlanaraq Səfəvi tarixi barədə kitab yazmağa başlayır və əsər üzərində 9 il işləyir. "Nəqavət əl-asar" *I Şah Təhmasibin* vəfatından sonra şahzadə *Heydər Mirzə* ilə İsmayıl Mirzənin (gələcək *II Şah İsma-*

yıl) tərəfdarları arasında baş vermiş mübarizənin şərhi ilə başlayır, *II Şah İsmayılın* və *Şah Məhəmməd Xudabəndənin* hakimiyyət dövrünün təsviri ilə davam edir. Kitabda *I Şah Abbasın* hakimiyyətinin ilk 11 ilinin hadisələri daha əhatəli şəkildə verilmişdir. Əsərdə təsvir edilən hadisələr hicri 1007-ci ildə (1598/99-cu illər) tamamlanır, bundan sonra 69 yaşlı müəllifin kitab üzərində işi öz istəyi ilə dayandırdığı, yaxud vəfat etdiyi məlum deyil. "Nəqavət əl-asar" kitabında təsvir edilən hadisələrin bir qismində başqa mənbələrdə ya ümumiyyətlə rast gəlinmir, ya da digər kitablardakı məlumatlar buradakı qədər zəngin deyil. Əsərin bu xüsusiyyəti onu Səfəvi tarixşünaslığı üçün mühüm mənbələrdən birinə çevirmişdir.

Nətənzi həm də şair olmuş, 5 şeir divanı yaratmışdır. "Nəqavət əl-asar"da o, hadisələri bəzən şeir vasitəsilə təsvir etmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.57-59; Nəqavət əl-asar fi zikr əl-əxyar (nəşrə hazırlayan: Ehsan İşraqi), müqəddimə bölümü; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.23.*

"NÜSƏXİ-CAHANARA" – *bax:* **"TARİXİ-CAHANARA".**

"ORUC BƏY BAYATIN KİTABI" – XVII əsrdə ispan dilində qələmə alınmış və Səfəvilər dövləti haqqında bəzi maraqlı informasiyaları özündə ehtiva edən kitab. Müəllifi *I Şah Abbasın* zamanında (1599) Avropa ölkələrinə diplomatik missiya ilə göndərilmiş, İspaniyada qalaraq xristianlığı qəbul etmiş Oruc bəy Bayatdır. Oruc bəyin hələ yolda ikən ispan dilini öyrəndiyi barədə məlumatlar vardır. Onun öz xatirələrini XVII əsrin ilk illərində İspaniyada əvvəlcə fars dilində qələmə aldığını, sonra dostlarının köməyi ilə ispan dilinə çevirdiyini yazırlar. Oruc bəyin xatirələrinin bir qismi Səfəvilər dövlətinin quruluşu, ictimai-siyasi həyatı, Səfəvi-Osmanlı müharibələri və s. mövzuları əhatə edir və tarixşünaslıq baxımından böyük əhəmiyyət daşıyır. O öz kitabında qızılbaş tayfalarının əhatəli siyahısını vermiş və iri tayfaların dövlətdəki mövqeyini Avropa oxucusunun anlayacağı üslubda izah etmişdir. Tərcümə nəticəsində kitabda bir sıra türk və fars kəlmələri təhrif edilmişdir, onların bir qisminin orijinal şəklini bərpa etmək mümkün olsa da, bəzi anlaşılmaz məqamlar qalmaqdadır.

"Oruc bəy Bayatın kitabı" üç hissədən ibarətdir. Birinci hissədə Səfəvilər dövlətinin inzibati quruluşu, idarəçilik sistemi, eləcə də qədim İranın və orta əsrlər müsəlman məmləkətlərinin tarixi qısa şəkildə işıqlandırılmışdır. İkinci hissədə *Səfəvilər sülaləsinin* mənşəyi, *I Şah Abbasın* hakimiyyətinədək baş vermiş mühüm hadisələr əksini tapmışdır. Kitabın üçüncü hissəsində Oruc bəy səfər boyunca Rusiya və Avropada qarşılaşdığı hadisələri təsvir etmişdir. "Oruc bəy Bayatın kitabı"nda informativ baxımdan qeyri-dəqiqliklər, qərəzli yanaşmalar çoxdur, lakin bu nöqsanlar onun mənbəşünaslıq baxımından əhəmiyyətini

azaltmır.
Oruc bəy Bayat İspaniyada xristian dininə keçib Don Xuan adını qəbul etdiyi üçün onun kitabı Avropada "Don Xuan (Don Juan) Persiyalının (İranlının) kitabı" kimi tanınır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.146-147; Книга Орудж бека Байата, Дон Жуана Персидского (перевод с английского, введение и комментарии: О.Эфендиев, А.Фарзалиев); O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.28-29; Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya), s.5-49.*

"RÖVZƏT ƏS-SƏFƏVİYYƏ" – XVII əsrdə Səfəvilər dövlətinin tarixi barədə qələmə alınmış klassik mənbə. Əsərin müəllifi Mirzə bəy ibn Həsən Hüseyni Cünabədinin həyatı haqqında məlumat azdır. O, XVI əsrin ikinci yarısı - XVII əsrin əvvəllərində yaşayıb-yaratmış, əvvəlcə fəlsəfə və ədəbiyyatla məşğul olmuş, daha sonra tarixşünaslıq sahəsinə keçmişdir. "Rövzət əs-Səfəviyyə" kitabı *I Şah İsmayılın* hakimiyyətə gəlişindən (1501) *I Şah Abbasın* vəfatınadək (1629) keçən dövrü əhatə edir. Müəllif yaşadığı dövrə kimi olan hadisələrin təsvirində keçmiş mənbələrdən ("Rövzət əs-səfa", "Həbib əs-siyər", "Tarixi-aləmarayi-Abbasi" və s.) bəhrələnmiş, 1565/66-cı illərin hadisələrindən etibarən şəxsi müşahidələrinə və şahidlərin ifadələrinə əsaslanmışdır. "Rövzət əs-Səfəviyyə" əsəri Səfəvilər dövləti ilə yanaşı qonşu ölkələrin, xüsusilə Osmanlı imperiyasının tarixi barədə maraqlı məlumatları ehtiva edir. Kitabda tarixi hadisələrin təsviri ilə yanaşı dövrün mədəni-ictimai həyatı, adət-ənənələri, məişəti, dövlət quruluşu haqqında da qiymətli informasiyalar verilmişdir. Mühüm cəhətlərdən biri də əsərdəki coğrafi məlumatların dəqiqliyi, müxtəlif məkanlar barədə verilmiş məlumatların zənginliyidir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.64, 65; Mirzə bəy Cünabədi. Rövzət əs-Səfəviyyə (nəşrə hazırlayan: Q.Təbatəbaiməcd), s.17-29; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.7.*

"RUZNAMEYİ-CƏLAL" – *bax:* **"TARİXİ-ABBASİ".**

"RÜSTƏM ƏT-TƏVARİX" – Səfəvilər dövlətinin son dövrünün və sonrakı bir neşə onilliyin tarixini əks etdirən kitab. Əsərin müəllifi "Asəf" və "Rüstəm əl-hükəma" təxəllüslü Məhəmməd Haşim İsfahanidir. O, dərin elmi biliyə malik olmuş, Fəthəli şah Qacar tərəfindən "Səmsam əd-dövlə" (Dövlətin iti qılıncı) ləqəbini qazanmışdı. Gözəl xəttə malik olmuş, "Gülşən" adlı şeir divanı tərtib etmişdi.
"Rüstəm ət-təvarix" *Şah Sultan Hüseynin* hakimiyyət dövründən Fəthəli şah Qacarın hakimiyyətinin ortalarınadək müddəti əks edir. Müəllif kitabın yazılışına təqribən 1779-cu ildə başlamışdır. Burada Səfəvilər dövlətinin süqutu ərəfəsində baş vermiş hadisələr, əfqan işğalı, *Nadir şahın* hərbi uğurları, Zəndilər sülaləsinin hakimiyyəti, Ağa Məhəmməd şahın hakimiyyətə gəlişi və

Qacarlar dövlətinin təşəkkülü sadə, anlaşıqlı üslubda təsvir edilmişdir. Müəllif bəzi hadisələrin canlı şahidi olduğu üçün onları dəqiq şəkildə əks etdirməyə nail olmuş, o dövrün siyasi-ictimai vəziyyətini, xalqın yaşayış səviyyəsini uğurla canlandırmışdır. "Rüstəm ət-təvarix"də XVIII əsrin böyük elm və sənət adamlarından bir çoxunun həyatı barədə maraqlı informasiyalar verilir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.335-336; Rüstəm ət-təvarix (nəşrə hazırlayan: Məhəmməd Müşiri), s.3-7.*

"SƏFVƏT ƏS-SƏFA" – *səfəviyyə* təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin* həyat və fəaliyyəti, səfəviyyə təriqətinin yaranma mərhələsi barədə ən mühüm tarixi mənbələrdən biri. Müəllifi İbn Bəzzaz kimi tanınan dərviş Təvəkküli ibn İsmail Ərdəbilidir. O, səfəviyyə təriqətinin üzvü olmuş və bu əsəri Şeyx Səfiəddin Ərdəbilinin vəfatından cəmi 22 il sonra onun oğlu *Şeyx Sədrəddinin* xahişi ilə fars dilində qələmə almışdır. Kitabın 1356-cı ilə aid olan avtoqraf nüsxəsi Nəcəf şəhərində saxlanılır. "Səfvət əs-səfa" Şeyx Səfinin həyatı, düşüncələri, təriqət yolu barədə ən geniş məlumatları özündə əks etdirən mənbə sayılır. Kitabın XVI əsrdə *I Şah Təhmasibin* göstərişi ilə Əbülfəth Hüseyni tərəfindən ciddi şəkildə redaktə edildiyini və Səfəvilər sülaləsinin maraqlarına uyğun olan bəzi hissələrin bu zaman əsərə artırıldığını yazırlar.
"Səfvət əs-səfa" müqəddimə, 12 bab və xatimədən (yekun) ibarətdir; hər bab da bir neçə fəslə bölünmüşdür. Müqəddimə hissəsində Peyğəmbərin və övliyaların Şeyx Səfi barədə öncədən verdikləri xəbərlər əksini tapmışdır. Birinci bab Şeyx Səfinin öz təriqətini qurmazdan əvvəlki həyatına həsr edilmişdir. (Onun şəcərəsi, *Şeyx Zahid Gilani* ilə tanışlığı, Şeyx Zahidin hüzurunda keçirdiyi dövr burada öz əksini tapıb). İkinci, üçüncü, beşinci və yeddinci bablarda şeyxin kəramətləri, dördüncü babda hikmətli kəlamları, altıncı babda *səma* tərzi, səkkizinci babda əxlaqi xüsusiyyətləri, doqquzuncu babda xəstələnməsi və vəfatı, onuncu babda vəfatından sonrakı *kəramətləri*, on birinci babda şöhrəti, on ikinci babda *müridlərinin* kəramətləri təsvir olunmuşdur. Xatimə bölümündə müəllif ərəbcə bəzi dua və ayələrlə əsərinə yekun vurmuşdur. Kitabda müəllif yalnız hadisələrin quru təsviri ilə kifayətlənməmiş, o dövrün həyat tərzi, adət-ənənələri, elmi və mədəni həyatı, ictimai münasibətləri barədə də maraqlı məlumatlar vermişdir. Əsərdə orta əsr mənbələrinə və sufi ədəbiyyatına xas olan mübaliğəli təsvir üslubu bariz şəkildə özünü göstərir.
"Səfvət əs-səfa" I Şah Təhmasib zamanında Azərbaycan türkcəsinə də tərcümə edilmişdir; həmin tərcümə *"Şeyx Səfi təzkirəsi"* adı ilə tanınır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.119-126; Səfvət əs-səfa (nəşrə hazırlayan: Q.Təbatəbaiməcd), s.3-31.*

"SİLSİLƏT ƏN-NƏSƏBİ-SƏFƏVİYYƏ" – XVII əsrdə qələmə alınmış, *Sə-*

fəvilər sülaləsinin tarixinə həsr edilmiş kitab. Müəllifi *səfəviyyə* təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin mürşidi Şeyx Zahid Gilaninin* nəslindən olan Şeyx Hüseyn ibn Şeyx Abdal Zahididir. O, *Şah Süleyman* zamanında yaşamış, əsərini də həmin şahın hakimiyyəti dövründə yazmışdır. "Silsilət ən-nəsəbi-Səfəviyyə" kitabında *Firuz şah Zərrinkülahdan* başlayaraq Şeyx Səfiəddin Ərdəbilinin və xələfləri olan səfəviyyə şeyxlərinin həyatı təsvir edilmişdir. Əsərdə Şah Süleymana kimi hakimiyyət sürmüş Səfəvi şahlarının da taxta çıxdıqları və vəfat etdikləri tarixlər göstərilmişdir. Kitabın yazılışı zamanı *"Səfvət əs-səfa"* və digər mənbələrdən faydalanmış müəllif Ərdəbildəki Şeyx Səfi xanəgahının *vəqf* sənədlərindən nümunələri də buraya daxil etmişdir. Əsərdə Səfəvilər sülaləsinin siyasi fəaliyyətinə deyil, təriqət həyatına daha çox diqqət yetirilmiş, səfəviyyə şeyxlərinin dini rəhbərliyi qabardılmışdır. Müəllif Səfəviyyə sülaləsinin şəcərəsini *İmam Kazimə (ə)* bağlamaqla onların seyidliyi üzərində təkid etmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.126-127; Silsilət ən-nəsəbi-Səfəviyyə (h.-ş. 1343-cü il Berlin nəşri), s.3-7; Z.Bayramlı. "Silsilət ən-nəsəbi-Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi, s.7-17.*

"ŞEYX SƏFİ TƏZKİRƏSİ" – orta əsrlərdə Səfəvilər tarixi barədə Azərbaycan türkcəsində qələmə alınmış ən mühüm tarixi mənbələrdən biri. İbn Bəzzaz Ərdəbilinin XIV əsrdə fars dilində yazdığı *"Səfvət əs-səfa"* əsərinin XVI əsrdə *I Şah Təhmasibin* göstərişi ilə həyata keçirilmiş tərcüməsidir. Tərcümənin müəllifi şirazlı Məhəmməd ibn Hüseyn Katib Nişati həm də gözəl xətt sahibi olmuşdur, onun köçürdüyü bəzi nüsxələr dünya kitabxanalarının nadir fondunu bəzəyir. Nişatinin "Şühədanamə" adlı əsər yazdığı da elm aləminə məlumdur. O, "Səfvət əs-səfa" əsərini tərcümə edərkən orijinala mümkün qədər sadiq qalmağa çalışmış, kitabın quruluşunu olduğu kimi saxlamışdır.

"Şeyx Səfi təzkirəsi" də "Səfvət əs-səfa" kimi müqəddimə, 12 bab və xatimədən (yekun) ibarətdir. Tərcümədəki bəzi şeir parçalarının müəllifi Nişatinin özüdür. "Şeyx Səfi təzkirəsi"nin üslubu sadə xalq dilinə yaxın və kifayət qədər anlaşıqlıdır. Müəllif bəzən tərcüməyə bədiilik verməyə çalışmış, cümlədaxili qafiyə və digər üsullardan faydalanmışdır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.125; Şeyx Səfi təzkirəsi (tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı), s.3-22.*

"ŞEYX ZAHİD GİLANİ MƏNAQİBNAMƏSİ" – *səfəviyyə* təriqətinin banisi *Şeyx Səfiəddin Ərdəbilinin mürşidi Şeyx Zahid Gilaninin* həyat və fəaliyyəti barədə yazılmış klassik mənbə. Əsərin orijinalı fars dilində qələmə alınmış və ehtimala görə, itib-batmışdır. Mənaqibnamənin natamam türkcə tərcüməsi Kastamonu Əlyazmaları Kitabxanasında irfani mövzuda bir topluda aşkar

edilmişdir. XV əsrdə Anadoluda Mehmet ibn Əbdüllətif tərəfindən türk dilinə edilmiş bu tərcümə yalnız Şeyx Zahid Gilaninin kəlamları olan bölümü ehtiva edir. Burada Şeyx Zahidin müxtəlif irfani məzmunlu kəlamları 55 fəsildə toplanmışdır. Kəlamlarda *xəlvət* və *cəlvət*, *fəna* və *bəqa*, *şeyx* və *qütb*, tövhid, vəhdət, *nəfs*, *səbir* və digər təsəvvüf terminlərinə aydınlıq gətirilmişdir. Əlyazma toplunun təqribən 36 səhifəsini tutan mənaqibnamə Türkiyədə kitab şəklində nəşr edilmişdir. Əsərdə Şeyx Zahid Gilaninin Azərbaycandakı fəaliyyəti ilə bağlı yeni faktlar da öz əksini tapmışdır.

Mənbələr: *Şeyh Zahid Geylani ve Menakibi (nəşrə hazırlayan: N.Musalı, 2019-cu il Kastamonu nəşri); N.Musalı. Anadolu İrfan Gelenegi ve Şeyh Zahid Geylani (Uluslararası "Horasan'dan Anadolu'ya İrfan Gelenegi: Elvan Çelebi" Sempozyumu materialları, oktyabr 2020), s.91-103.*

"TARİXİ-ABBASİ" – Səfəvilər dövlətinin tarixini qismən əhatə edən, XVII əsrdə qələmə alınmış kitab. Əsərin müəllifi Molla Cəlaləddin Məhəmməd Münəccim Yəzdi, adından da göründüyü kimi, ixtisasca astroloq idi. Bununla yanaşı, istedadlı ədib, incə təbli şair və tarixçi olan Molla Cəlaləddin hələ *I Şah Abbasın* şahzadə kimi Heratda hakimiyyət sürdüyü dövrdə məşhurlaşmışdı. Sonralar o, I Şah Abbasın saray münəccimi vəzifəsində uzun müddət xidmət etmişdir. Şah onun astroloji proqnozlarına və məsləhətlərinə tam şəkildə inanır və əməl edirdi. Onun I Şah Abbası hədələyən bəzi təhlükələr barədə qabaqcadan xəbər verməsi və bu xəbərdarlıqlar sayəsində şahın ölümdən xilas olması barədə çoxlu rəvayətlər mövcuddur. Rəvayətə görə, şahı təhlükədən qorumaq üçün bir neçə günlük hakimiyyətdən kənara çəkilməsini və öz yerinə başqa bir adamı taxta çıxarmasını da Molla Cəlaləddin məsləhət görmüşdü. (M.F.Axundov bu hadisəni "Aldanmış kəvakib" povestində təsvir etmiş, amma münəccimin adını Mirzə Sədrəddin şəklində vermişdir).

"Tarixi-Abbasi" I Şah Təhmasibin hakimiyyətinin sonlarından başlayaraq *II Şah İsmayılın* və *Şah Məhəmməd Xudabəndənin* bütün hökmdarlıq müddətini və I Şah Abbasın taxta çıxmasından sonrakı 20 ildən artıq dövrü əhatə edir. Müəllif bəzi hadisələri təsvir edərkən, ixtisasına uyğun olaraq, onun dəqiq başvermə gününü və hətta saatını da göstərmişdir. Kitab müəllifin özünün və digər şairlərin qələmindən çıxmış şeir nümunələri ilə zəngindir. Molla Cəlaləddin təkcə hadisələri sadalamaqla kifayətlənməmiş, bəzən o dövrün mənzərəsini əks etdirən əlavə faydalı məlumatlar da vermişdir; bu qeydlər kitabı daha da oxunaqlı edir.

Əsər həm də "Ruznameyi-Molla Cəlal" adı ilə tanınır.

Əsərin müəllifi Molla Cəlaləddin I Şah Abbasın sarayında 34 il münəccim vəzifəsində xidmət etdikdən sonra 1620-ci ildə dünyasını dəyişmişdir. Oğlu Molla Kamal və nəvəsi Molla Cəlal da Səfəvi sarayında xidmət etmişlər. Molla Kamal Səfəvilər dövrü tarixindən bəhs

edən *"Zübdət ət-təvarix"* kitabının müəllifidir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.62-63; Tarixi-Abbasi ya ruznameyi-Molla Cəlal (nəşrə hazırlayan: Seyfullah Vəhidniya), s.10-14.*

"TARİXİ-ALƏMARAYİ-ABBASİ" – XVII əsrdə qələmə alınmış və Səfəvilər tarixinin ən mühüm mənbələrindən sayılan kitab. Əsərin adının fars dilindən tərcüməsi belədir: "Dünyanı bəzəyən Abbasın tarixi". Müəllifi türkman mənşəli ədib və dövlət xadimi *İsgəndər bəy Münşidir* (1560/61-1634). O, *I Şah Abbasın* hakimiyyət dövründə hökmdarın həyatından bəhs edən əhatəli bir kitab yazmağı qarşısına məqsəd qoymuş, 1616-cı ildə əsərin ilk variantını tamamlayaraq *baş vəzir Əbu Talib xan Ordubadinin* vasitəçiliyi ilə şaha təqdim etmişdir. Sonralar müəllif əsər üzərində işi davam etdirmiş, I Şah Abbasın vəfatından sonra (1629) onu tamamlamışdır.

"Tarixi-aləmarayi-Abbasi" üç hissədən ibarətdir. Birinci hissədə Səfəvilər sülaləsinin əcdadı *Şeyx Səfi Ərdəbilinin* dövründən başlayaraq I Şah Abbasın hakimiyyətə gəlişinədək baş vermiş hadisələr öz əksini tapmışdır. Bu bölümdə *I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl* və *Şah Məhəmməd Xudabəndənin* hakimiyyət illəri ətraflı şəkildə təsvir edilmişdir. I Şah İsmayılın vəfatından sonra qızılbaş liderləri arasında başlamış hakimiyyət davası, I Şah Təhmasibin zamanındakı Səfəvi-Osmanlı müharibələri, şahın vəfatından sonra *Heydər Mirzə* və İsmayıl Mirzə (gələcək II Şah İsmayıl) tərəfdarlarının mübarizəsi, Şah Məhəmməd Xudabəndə zamanında osmanlıların Səfəvi torpaqlarına qarşı həyata keçirdikləri işğalçılıq siyasəti, şahzadələr *Həmzə Mirzə* və Abbas Mirzə (gələcək I Şah Abbas) tərəfdarlarının qarşıdurması kifayət qədər dəqiqliklə işıqlandırılmışdır. Kitabın ikinci və üçüncü bölümlərində I Şah Abbasın hakimiyyətə gəlişindən 1616-cı ilə və 1616-cı ildən ölümünədək baş vermiş hadisələr illər üzrə qələmə alınmışdır. Hadisələrin xronoloji təsviri zamanı tarixlər həm hicri-qəməri, həm də qədim türk təqviminə uyğun olaraq göstərilmişdir.

İsgəndər bəy əsər üzərində iş zamanı əsasən dörd cür mənbədən faydalanmışdır: özündən əvvəlki yazılı mənbələr, şəxsi müşahidələr, rəsmi dövlət sənədləri və şahid ifadələri. Müəllif özü saray həyatında kifayət qədər yaxından iştirak etmiş, hakimiyyət dairələrində baş verən proseslərdən, qızılbaş əyanları arasında hökm sürən rəqabət və intriqadan xəbərdar olmuş, mühüm dövlət vəzifələrində xidmət edən şəxslərin, müasiri olduğu elm və sənət adamlarının əksəriyyətini şəxsən tanımışdır. Bu baxımdan "Tarixi-aləmarayi-Abbasi" kitabında təsvir edilən hadisələr, bir qayda olaraq, dəqiqliyi ilə seçilir, lakin bəzən bunlara müəllifin subyektiv yanaşmaları da qarışmışdır. Əsərdə Səfəvilər dövrünün görkəmli dövlət xadimləri, alimləri, sənət adamları barədə faydalı məlumatlar verilmişdir. I Şah Təhmasibin və daha sonra I Şah Abbasın vəfatı ərəfəsində yüksək dövlət vəzifələrində

olmuş qızılbaş əmirlərinin siyahısı əsərə xüsusi dəyər verir.

"Tarixi-aləmarayi-Abbasi" kitabını bitirdikdən sonra İsgəndər bəy Münşi növbəti hökmdarın – *I Şah Səfinin* tarixini qələmə almağa başlamış ("Zeyli-Tarixi-aləmarayi-Abbasi"), lakin 1634-cü ildə vəfat etdiyi üçün bu əsər başqaları tərəfindən tamamlanmışdır.

"Tarixi-aləmarayi-Abbasi" əsəri yazıldığı dövrdən etibarən tarixçilərin diqqət mərkəzində olmuş, sonrakı müəlliflərin, demək olar ki, hamısı ondan bəhrələnmişlər. Kitab Azərbaycanın XV-XVII əsrlər tarixini öyrənmək baxımından müstəsna əhəmiyyət kəsb edir. "Tarixi-aləmarayi-Abbasi" əsəri ölkəmizdə də tədqiqatlara cəlb edilmiş, Azərbaycan dilinə tərcümə və nəşr olunmuşdur.

Mənbələr: *İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı), s.9-22; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.24-25; Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, XXII, 563-564; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке, стр.6-7; C.Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.59-62.*

"TARİXİ-CAHANARA" – XVI əsrdə qələmə alınmış, Səfəvilər dövlətinin tarixindən bəhs edən kitab. Əsərin müəllifi Əhməd ibn Məhəmməd Qəffari Kaşani (Qəzvini) *I Şah Təhmasibin* zamanında Qəzvin *qazısı* vəzifəsində xidmət etmişdir. Əhməd Qəffari bundan əlavə daha bir tarix kitabı da qələmə almışdır. "Tarixi-nigaristan" adlı həmin əsər İslam tarixinin əvvəlindən Ağqoyunlu dövlətinin sonunadək keçən dövrü 300-dən artıq maraqlı və oxunaqlı qissə formasında bəyan edir.

"Tarixi-cahanara" kitabı ümumtarix janrında qələmə alınmışdır və üç bölümdən ibarətdir. Birinci bölüm Peyğəmbərin və imamların, ikinci bölüm İslamdan əvvəl və sonrakı hökmdarların, üçüncü bölüm isə Səfəvilərin tarixinə həsr olunmuşdur. Müəllif hər bölümü "nüsxə" adlandırdığı üçün kitabı ümumilikdə bu sözün cəmi olan "Nüsəxi-cahanara" adı ilə də qeyd etmişlər. Müəllif kitab üzərində işi I Şah Təhmasibin hakimiyyət dövrünün sonlarında bitirmiş və ona ithaf etmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.35-37; Tarixi-cahanara (nəşrə hazırlayan: Əhməd Nəraqi), müqəddimə bölümü.*

"TARİXİ-ELÇİYİ-NİZAMŞAH" – XVI əsrdə Səfəvilər dövlətinin tarixi barədə qələmə alınmış kitab. Əsərin müəllifi mərkəzi Hindistanın Əhmədnəgər vilayətində hakimiyyət sürmüş Nizamşahlar sülaləsinə xidmət edən Xurşah ibn Qubad Hüseynidir. Əslən Səfəvilər dövlətinə məxsus torpaqların yetirməsi olan Xurşah 1546-cı ildə sultan Bürhan ibn Nizamşahın göstərişi ilə Səfəvilər dövlətinə diplomatik səfər etmiş və burada 19 il qalmışdır. Bu müddət ərzində o, həm saray həyatını yaxından müşahidə etmiş, həm də Səfəvilər dövlətinin tarixi, şəhərləri, əhalisi haqqında qiymətli məlumatlar toplamağa nail olmuşdur. Xurşah kitabı yazarkən *I Şah Təhmasi-*

bin ona hədiyyə etdiyi və öz hakimiyyət dövrünün tarixindən bəhs edən kitabçadan da bəhrələnmişdir. Hindistan elçisinin xatirələrində Səfəvilər dövlətindəki həyat tərzi barədə diqqətçəkici məlumatlar çoxdur.

Xurşah öz əsərini ümumtarix üslubunda qələmə almış, klassik ənənəyə sadiq qalaraq dünyanın yaranışından yaşadığı dövrədək baş vermiş hadisələri bir müqəddimə və 7 bölümdə təsvir etmişdir. Kitabın altıncı bölümü Səfəvilər dövlətinin qurulmasından başlayaraq *I Şah İsmayılın* və *I Şah Təhmasibin* hakimiyyət dövrlərini, bölgələrdə hökm sürən məhəlli dövlətlərin tarixini əhatə edir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.53-54; "Tarixi-elçiyi-Nizamşah" (nəşrə hazırlayanlar: M.R.Nəsiri, K.Hanəda), müqəddimə bölümü; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.17-18.*

"TARİXİ-HƏZİN" – XVIII əsrin ortalarında qələmə alınmış, Səfəvilər dövlətinin süqutundan və sonrakı dövrün hadisələrindən bəhs edən kitab. Əsərin müəllifi *Şeyx Zahid Gilaninin* nəslindən olan Məhəmməd Əli ibn Əbu Talib dövrünün görkəmli din alimlərindən və şairlərindən sayılmış, "Həzin" təxəllüsü ilə şeirlər yazmışdır. Mənbələrdə 200-dən artıq irili-xırdalı kitab yazdığı bildirilir. Onun ata-babaları Lahicanda elm əhli kimi tanınırdı. Məhəmməd Əlinin atası Lahicandan İsfahana köçmüş, özü isə 1691/92-ci illərdə burada doğulmuşdur.

Səfəvilər dövlətinin paytaxtı İsfahan şəhəri 1722-ci ilin oktyabrında əfqanlar tərəfindən mühasirəyə alındı. Altı ay davam etmiş mühasirədə şəhərin xeyli əhalisi, o cümlədən Məhəmməd Əlinin iki qardaşı və digər qohumları aclıq və xəstəlikdən öldülər. İsfahan əhalisinin müqavimətini qıran əfqanlar şəhəri ələ keçirdikdən sonra burada dəhşətli qırğın və talan törətdilər. Bütün bu hadisələrin canlı şahidi olan Həzin çətinliklə canını qurtararaq Xansar şəhərinə qaçdı. Növbəti 10 il ərzində o, şəhərdən-şəhərə hicrət etmiş, Yəmən və Bəhreyndə sığınacaq tapmağa çalışmış, İraq və Məkkə ziyarətində olmuşdur. Nəhayət, 1733/34-cü illərdə o, Hindistanda həmişəlik məskunlaşmağı qərara alır. Daim vətən həsrəti ilə yaşayan Məhəmməd Əli 1741/42-ci illərdə "Tarixi-Həzin" kitabını qələmə almış, 1767/68-ci illərdə Hindistanda dünyasını dəyişmişdir. O, məhsuldar şair olmuş, dörd şeir divanı tərtib etmişdir.

"Tarixi-Həzin" tərcümeyi-hal janrında qələmə alınmasına baxmayaraq, XVIII əsrin birinci yarısında bölgədə baş vermiş bəzi hadisələri də əks etdirir. Müəllif Səfəvilər dövlətinin son illəri, *Nadir şahın* müharibələri və hakimiyyətə gəlişi, özünün səfər etdiyi ölkələrin vəziyyəti barədə kitabda maraqlı məlumatlar vermişdir. "Tarixi-Həzin"i dəyərli edən cəhətlərdən biri də o dövrün bəzi şair və ədibləri barədə informasiyaları əhatə etməsidir. Kitabda müəllifin vətən nisgili və kədər motivləri bariz şəkildə özünü göstərir.

"Tarixi-Həzin" kitabı "Təzkirət əl-əhval" adı ilə də tanınır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.133; Tarixi-Həzin (1953-cü il İsfahan nəşri), müqəddimə bölümü; Tarix və səfərnameyi-Həzin (nəşrə hazırlayan: Əli Dəvvani), s.9-137; Divani-Həzin Lahici (nəşrə hazırlayan: Bijən Tərəqqi), s.5-22.*

"TARİXİ-QIZILBAŞAN" – qızılbaş türk tayfalarının mənşəyi, qolları və görkəmli nümayəndələri barədə qələmə alınmış anonim mənbə. Əsər XVI-XVII əsrlərin qovşağında, *I Şah Abbasın* hakimiyyət illərində qələmə alınmışdır. Əsərin məşhur əlyazma nüsxəsi 1604/05-ci illərdə köçürülmüşdür. Müəllif bu kitabda qızılbaş tayfalarını iki böyük qrupa ayırmış, bunların birincisini "sağ tərəfdə (cinahda) olan tayfalar", ikincisini isə "sol tərəfdə olan tayfalar" adlandırmışdır. Sağ tərəfdə olan tayfalara *Şamlu, Rumlu,* Ağacəri, *Bayramlu,* Əkrəmi, *Ördəklü, Qaracarlu, Şeyxavənd, Çəpni, Bayat, Bozcalu, Ərəbgirlü, Xınıslu, Təkəlü,* Bayanduri, *Mosullu, Pörnak, Alpaut, Baharlu, Sədlü, Cagirlü, Qaramanlu, Hacılu, Bayburtlu, Varsaq, Evoğlu, Qaracadağlu* tayfaları aiddir; müəllif bunlara *kürd və lur tayfalarını* da əlavə etmişdir. Sol tərəfdəkilərin cərgəsində isə *Ustaclu, Zülqədər, Əfşar* və *Qacar* tayfaları durur. Kitabda hər tayfanın Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövründə yaşamış görkəmli əmirlərinin tərcümeyi-halları bəzən çox qısa (adları sadalanmaq şəklində), bəzən də geniş şəkildə verilmişdir. "Tarixi-qızılbaşan" kitabı Azərbaycan dilinə tərcümə edilmiş və çap olunmuşdur ("Qızılbaşlar tarixi" adı altında).

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.132-133; Qızılbaşlar tarixi (tərcümə və şərhlər: M.Ə.Məhəmmədi).*

"TARİXİ-SƏLATİNİ-SƏFƏVİYYƏ" – XVII əsrdə qələmə alınmış və Səfəvilər dövrünün tarixini əks etdirən kitab. Əsərin müəllifi Hindistanda, Nizamşahlar sülaləsinin paytaxtı olmuş Əhmədnəgərdə yaşamış Mirzə Məhəmməd Məsum adlı şəxsdir. O, kitabı Ümdət əl-hüccab ləqəbli hind əyanının sifarişi ilə qələmə almışdır. Müəllifin və sifarişçinin həyatı haqqında, demək olar ki, məlumat yoxdur. "Tarixi-səlatini-Səfəviyyə" risaləsinin Heydərabad muzeyində saxlanılan yeganə əlyazma nüsxəsinin sonunda hicri 1088-ci il (miladi 1677/78-ci illər) tarixi göstərilmişdir; bu, əsərin ya tamamlandığı, ya da köçürüldüyü tarixi ifadə edir.

Həcmcə kiçik olan kitabçada *I Şah İsmayıldan Şah Süleymana* kimi Səfəvi şahlarının hər birinə ayrıca fəsil ayrılmışdır. Bu fəsillərdə hər şahın doğum, taxta çıxma və ölüm tarixləri qeyd edilmişdir. Demək olar ki, bütün tarixlərlə bağlı şeir şəklində maddeyi-tarixlər verilmişdir. Əsərin böyük bir qismini təşkil edən son fəsildə mühüm fəthlərin tarixləri sadalanmış və maddeyi-tarixlərlə ifadə edilmişdir. Əsərin başlanğıcında I Şah İsmayılın *İmam Musa Kazimə (ə)* bağlanan şəcərəsi verilmiş, bununla da Səfəvilər sülaləsinin seyidliyi üzərində təkid olunmuşdur.

Mənbələr: *Tarixi-səlatini-Səfəviyyə (nəşrə hazırlayan: S.Ə.H.Abidi), müqəddimə bölümü.*

"TARİXİ-SULTANİ" – Səfəvilər dövrü tarixindən bəhs edən mühüm mənbə. Kitab 1703/04-cü illərdə Seyid Həsən ibn Mürtəza Hüseyni Astarabadi tərəfindən qələmə alınmışdır. "Tarixi-sultani" üç hissədən (babdan) ibarətdir. Birinci babda mələklər, cinlər aləmi kimi metafizik mövzular, Həzrət Adəmin (ə) yaradılışından Mühəmməd Peyğəmbərin (s) və imamların dövrünədək müddətdə baş vermiş hadisələr işıqlandırılmışdır. İkinci bab rum, hind, ərəb və türk hökmdarlarının tarixindən bəhs edir. Üçüncü babda isə *Şeyx Səfiəddin Ərdəbilidən I Şah Səfinin* hakimiyyətinədək keçən dövr şərh olunmuşdur. Müəllif özündən əvvəlki dövrün hadisələrini Səfəvi müəlliflərinin salnamələrindən nəql etmişdir. "Tarixi-sultani" kitabını digər əksər mənbələrdən fərqləndirən cəhət onun dilinin sadəliyidir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.84-87; Tarixi-sultani (nəşrə hazırlayan: Ehsan İşraqi), s.7-11.*

"TƏKMİLƏT ƏL-ƏXBAR" – XVI əsrdə qələmə alınmış, Səfəvi tarixi barədə ən mühüm mənbələrdən sayılan kitab. Müəllifi *Əbdi bəy Şirazidir.* "Təkmilət əl-əxbar" ən qədim zamanlardan 1570-ci ilədək dövrü əhatə edən ümumtarix əsəridir. Kitabda dünyanın yaradılışından Həzrət Mühəmməd Peyğəmbərədək (s) olan dövr, İslam müqəddəslərinin həyatı, eləcə də müxtəlif dövrlərdə hakimiyyət sürmüş sülalələrin tarixi öz əksini tapmışdır. Səfəvilər dövlətinin tarixindən bəhs edən sonuncu hissə daha ətraflı yazılmışdır. "Təkmilət əl-əxbar"da hadisələr həm müsəlman təqvimi (hicri-qəməri), həm də türk təqvimi üzrə verilmişdir. Bəzi tədqiqatçılar bu kitabı Səfəvilər tarixinə aid digər mühüm mənbə olan Qazı Əhməd Qəffari Kaşaninin "Tarixi-cahanara" kitabından iqtibas hesab etsələr də, "Təkmilət əl-əxbar"ın müstəqil və orijinal əsər olması əksər mənbələrdə öz təsdiqini tapmışdır. Kitab Azərbaycan dilinə tərcümə edilmiş və nəşr olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.50-52; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (tərcümə Ə.Rəhimli), müqəddimə bölümü; Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (müqəddimə: Əbdülhüseyn Nəvayi), s.14-31; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.16-17.*

"TƏZKİREYİ-NƏSRABADİ" – Səfəvilər zamanında yaşayıb-yaratmış şairlərdən bəhs edən, XVII əsrdə tərtib edilmiş təzkirə janrlı əsər. Müəllifi görkəmli ədib Məhəmməd Tahir Nəsrabadidir. Nəsrabadi 1618-ci ildə anadan olmuş, gənc yaşlarında atasını itirmişdir. Atası və əcdadları dövlət xidmətində olsalar da, o, saraydan və dövlət işindən uzaq duraraq öz torpaq sahəsinin qazancı hesabına dolanmağa üstünlük vermişdir. Bununla belə, Məhəmməd Tahir sarayda böyük hörmətə malik idi, *Şah Süleyman* nə zaman Nəsrabada gəlsəydi, onun qonağı olurdu.

Nəsrabadi təzkirənin yazılmasına 1672/73-cü illərdə başlamış və onu Şah Süleymana təqdim etmişdir. "Təzkireyi-

Nəsrabadi" Səfəvilər dövründə yaşayıb-yaratmış min nəfərdən artıq sənət adamının həyatı haqqında qısa məlumatı və yaradıcılığından nümunələri əhatə edir. Kitabı maraqlı edən cəhət burada təkcə şairlərdən deyil, xəttat, alim və sufilərdən də bəhs edilməsidir. Təzkirə bir müqəddimə, "səf" adlı beş bölüm və xatimədən (yekun) ibarətdir. Müqəddimədə şah və şahzadələrin, birinci səfdə əmir və xanların, ikinci səfdə vəzir və dövlət adamlarının, üçüncü səfdə alim, xəttat və dərvişlərin, dördüncü səfdə şairlərin, beşinci səfdə isə müəllifin özünün və qohumlarının yaradıcılığına toxunulmuşdur. Xatimə bölümündə maddeyi-tarix, müəmma və digər maraqlı şeir parçaları toplanmışdır. "Təzkireyi-Nəsrabadi"ni eyni janrlı əksər kitablardan fərqləndirən cəhət budur ki, orada yalnız Səfəvilər dövlətində deyil, Hindistanda və Orta Asiyada yaşamış sənətkarların da həyatı əks olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.107-108; Təzkireyi-Nəsrabadi (nəşrə hazırlayan: Vəhid Dəstgirdi), müqəddimə bölümü.*

"TƏZKİREYİ-ŞAH TƏHMASİB" – Səfəvilər dövrünün tarixini qismən əks etdirən mənbələrdən biri. Adından da göründüyü kimi, bu kitabçanı *I Şah Təhmasibə* mənsub edirlər. Kiçikhəcmli bu əsər I Şah Təhmasibin hakimiyyətə gəlişindən (1524) Osmanlı şahzadəsi Bayezidin Səfəvilər dövlətinə pənah gətirməsinədək (1561) keçən dövrü əhatə edir. Təzkirədə hadisələr qısa, amma dolğun şəkildə əks etdirilmişdir. Tədqiqatçıların ehtimalına görə, əsər "Baburnamə"nin təsiri altında qələmə alınmışdır. Həmçinin son araşdırmalara görə, bu əsər kitabça şəklində yazılmamışdır, I Şah Təhmasibin Osmanlı elçiləri ilə görüşündə söylədiyi nitqin mətnindən ibarətdir. Şahzadə Bayezidi geri almaq üçün Səfəvi sarayına göndərilmiş nümayəndə heyəti ilə görüşdə I Şah Təhmasib genişhəcmli nitqlə çıxış etmiş, dövlət idarəçiliyində izlədiyi əsas prinsipləri, əldə etdiyi uğurları Osmanlı diplomatlarının diqqətinə çatdırmışdı.
I Şah İsmayılın vəfatından sonra qızılbaş tayfalarının üsyanı, XVI əsrin birinci yarısında Səfəvi-Osmanlı müharibələri, 1538-ci ildə Şirvan ərazisinin Səfəvi dövlətinə birləşdirilməsi və s. haqqında təzkirədə verilmiş məlumatlar xüsusilə maraqlıdır. Əsərdə Səfəvilərin inzibati idarə sistemi, vilayət hakimlərinin təyin olunması, bağışlanmış mülklər və s. barəsində faydalı materiallar vardır.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.41-43; Zəhra Əliməhəmmədi. Təhmasibin rəvayəti əsasında Təhmasib ("Kitabi-mah" (tarix və coğrafiya), 1388 h.-ş., № 133), s.103-109; Təzkireyi-Şah Təhmasib; O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s.15-16.*

"TƏZKİRƏT ƏL-ƏHVAL" – *bax:* **"TARİXİ-HƏZİN".**

"TƏZKİRƏT ƏL-MÜLUK" – XVIII əsrin birinci yarısında qələmə alınmış, Səfəvilər dövlətinin idarəçilik aparatı-

nın quruluşundan bəhs edən mühüm mənbələrdən biri. Əsərin müəllifi Mirzə Səmia ləqəbli Məhəmməd Səminin həyatı haqqında məlumat azdır. Kitab Səfəvilər dövlətinin paytaxtı İsfahanın əfqanlar tərəfindən işğal edilməsindən iki il sonra (1725) əfqan hökmdarı *Məlik Əşrəfə* ithaf olaraq qələmə alınmışdır. Müəllif bu əsəri dövlətçilik təcrübəsi olmayan əfqan tayfalarının Səfəvilər dövləti nümunəsində öz idarəçilik sistemini qurmasından ötrü yazmışdır. "Təzkirət əl-müluk" 5 böyük bölümdən (babdan) və xatimədən (yekundan) ibarətdir. Babların hər biri öz növbəsində bir neçə fəslə bölünür. Dövlət xidmətinin müxtəlif sahələrinə aid vəzifələr bir-bir fəsillərdə sadalanır; beləliklə, kitabda 84 dövlət vəzifəsi haqqında məlumat verilmişdir. Birinci babda dini vəzifələr, ikinci babda dövlətxana (saray xidməti) və qeyri-dövlətxana (bölgələr) əmirləri, üçüncü babda *müqərrəb əl-xaqan* və *müqərrəb əl-həzrət* təbəqəsinə aid vəzifələr, eləcə də *sahib-cəmlər* (anbar müdirləri), dördüncü babda *vəzir* və *mustovfilər*, vergi xidmətinin üzvləri, beşinci babda paytaxtın məsul mənsəbləri qeyd edilmişdir. Yekun bölümündə vəzifə sahiblərinin məvaciblərinin miqdarı göstərilmişdir. "Təzkirət əl-müluk" Səfəvilər dövlətinin bürokratik aparatının bütöv və dəqiq sxematik quruluşunu özündə əks etdirir.

Görkəmli şərqşünas V.Minorski "Təzkirət əl-müluk"u diqqətlə araşdırmış, kitab onun şərhləri ilə birlikdə çap edilmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.152-154; Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları, nəşrə hazırlayan: M.Dəbirsəyaqi), s.11-16; Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi, s.1-3.*

"TÖHFEYİ-SAMİ" – XVI əsrdə tərtib edilmiş, Səfəvi dövrü şairlərinin yaradıcılığından bəhs edən təzkirə janrlı əsər. Müəllifi *I Şah İsmayılın* oğlu şahzadə *Sam Mirzədir*, əsəri öz təxəllüsünə uyğun adlandırmışdır. Bəzi mənbələrdə təzkirənin 1550-ci ildə tərtib edildiyi göstərilmişdir. "Töhfeyi-Sami" təzkirəsində adları çəkilən şairlər əsasən XVI əsrin birinci yarısında, I Şah Təhmasibin hakimiyyət dövründə yaşayıb-yaratmışlar. Burada təqribən 700 nəfərə yaxın şair haqqında informasiya verilir; məlumatlar adətən çox qısa olub bir neçə cümlədən ibarətdir. Şairlər "səhifə" adlandırılmış 7 qrup üzrə bölünmüşdür. Birinci səhifədə Şah İsmayıl Xətai və şair sələfləri, onunla müasir olan hökmdarlar və övladları (19 nəfər), ikinci səhifədə nəcib seyidlər və böyük alimlər (142 nəfər), üçüncü səhifədə vəzirlər və dövlət adamları (34 nəfər), dördüncü səhifədə ixtisasca şair olmayan, amma şeir deyən şəxslər (69 nəfər) haqqında məlumatlar toplanıb. Beşinci səhifə görkəmli qeyri-türk şairləri (371 nəfər), altıncı səhifə türkdilli şairləri (30 nəfər), yeddinci səhifə isə "ürəyəyatan söz deməyi bacaran" sıravi şəxsləri (46 nəfər) əhatə edir. Sam Mirzə hər şairin adının altında onun əsərlərindən kiçik nümu-

nələr də təqdim etmişdir. Kitabdan məlum olur ki, müəllif tərcümeyi-halını verdiyi şairlərin bir çoxu ilə şəxsən tanış imiş. "Töhfeyi-Sami"də təqdim edilmiş şairlərin böyük əksəriyyəti farsdillidir, lakin müəllif azərbaycanlı şairlərin də əsərlərindən nümunələr gətirərkən farsca şeir parçalarına üstünlük vermişdir. Ümumiyyətlə, kitabda müəllifin şairlər və onların yaradıcılığı barədə subyektiv fikirləri də kifayət qədər geniş şəkildə əks olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.106-107; Töhfeyi-Sami (nəşrə hazırlayan: Vəhid Dəstgirdi); Dairət əl-məarifi-təşəyyö, IV, 165; M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.297-298.*

"TÖHFEYİ-ŞAHİ" – *bax:* **"MÜNŞƏAT".**

"VƏQAYE ƏS-SƏNİN VƏ-L-ƏVAM" – XVII əsrdə yazılmış, Səfəvilər dövrünün tarixini əks etdirən əsər. Müəllifi *Şah Süleyman* dövründə yaşamış Seyid Əbdülhüseyn Xatunabadidir (vəf. 1693/94). Müəllif bu əsəri məşhur dövlət adamları və ədiblərin vəfat tarixləri mövzusunda yazmış, tarixi konkret məlum olan hadisələri qeydə almışdır. Burada təsvir edilmiş hadisələr hicri 11-ci (miladi 632-ci) ildən (Mühəmməd Peyğəmbərin (s) vəfatı) hicri 1099-cu (miladi 1688-ci) ilədək davam edir. Kitab 3 bölümdən, bu bölümlər də müvafiq olaraq 2, 3 və 11 hissədən ibarətdir; sonuncu hissədə Səfəvilər tarixindən danışılır. 1779-cu ildə digər bir müəllif əsərə əlavələr edərək təkmilləşdirmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.84.*

"ZEYLİ-HƏBİB ƏS-SİYƏR" – Səfəvilər dövlətinin tarixini qismən əks etdirən, XVI əsrdə yazılmış mühüm tarixi mənbələrdən biri. Məşhur tarixçi Xondəmirin oğlu Əmir Mahmud Xondəmir tərəfindən atasının "Həbib əs-siyər" kitabına zeyl (əlavə, tamamlama) şəklində qələmə alınmışdır. Müəllif bu kitabı *I Şah Təhmasib* tərəfindən Herat hakimi və şahzadə Məhəmməd Mirzənin (gələcək *Şah Məhəmməd Xudabəndə*) *lələsi* təyin edilmiş *Məhəmməd xan Şərəfəddinoğlu Təkəlünün* sifarişi və dəstəyi ilə 4 il ərzində (1546-50) yazmışdır. Özündən əvvəlki mənbələrdən də bəhrələnən Əmir Mahmud müasiri olduğu hadisələrin təsvirində şəxsi müşahidələrə əsaslanmağa üstünlük vermişdir. "Zeyli-Həbib əs-siyər" kitabında *Şeyx Səfiəddin Ərdəbilidən* başlayaraq Səfəvi şeyxlərinin həyatına toxunulmuş, *I Şah İsmayılın* uşaqlıq və yeniyetməlik dövrü haqqında maraqlı məlumatlar verilmişdir. Burada təsvir edilən hadisələr *I Şah Təhmasibin* hakimiyyətinin ortalarınadək davam edir. Müəllifin bəzi mövzular barədə mülahizələri öz orijinallığı ilə seçilir. O, təkcə tarixi hadisələri təsvir etməklə kifayətlənməmiş, həmin dövrdə yaşamış elm və sənət adamlarının həyat və yaradıcılığını da kifayət qədər geniş şəkildə işıqlandırmışdır. Kitabda Xorasan vilayətinin XVI əsrdəki tarixi-siyasi mənzərəsi və elmi-mədəni mühiti dolğun şəkildə əks etdirilir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.43-46; Abbas Xürrəmabadi. Əmir Mahmud Xondəmirin həyatı və onun "Zeyli-tarixi-Həbibüs-siyər" əsəri ("Tarix və onun problemləri" dərgisi, №2, 2014), s.334-341; Şah İsmayıl və Şah Təhmasib Səfəvinin tarixi (Zeyli-tarixi-Həbib əs-siyər, təshih və haşiyə: Məhəmməd Əli Cərrahi), müqəddimə bölümü.*

"ZEYLİ-TARİXİ-ALƏMARAYİ-ABBASİ" – XVII əsrdə qələmə alınmış Səfəvilər tarixi barədə mühüm mənbələrdən biri. *İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi"* kitabına zeyl, yəni əlavə, tamamlama kimi nəzərdə tutulmuşdur. İsgəndər bəy I Şah Abbasın həyatından bəhs edən adıkeçən kitabı bitirdikdən (1629) sonra növbəti Səfəvi şahı *I Şah Səfinin* həyat salnaməsini yazmağı qərara almış və bu istiqamətdə işə başlamışdı. Lakin təqribən 5 ildən sonra (1634) müəllif vəfat etmiş və əsər yarımçıq qalmışdır. Tədqiqatçı alim Süheyli Xansari 1938-ci ildə kitabı nəşr etdirərkən Səfəvilər dövrünün digər müəllifi Məhəmməd Yusif *Valeh Qəzvininin* irihəcmli *"Üldi-bərin"* kitabından I Şah Səfinin hakimiyyətinin sonrakı dövrünü əks etdirən hissəni bura əlavə etmişdir. Beləliklə, "Zeyli-Tarixi-aləmarayi-Abbasi" kitabı iki müəllifin – İsgəndər bəy Münşi və Məhəmməd Yusif Qəzvininin adından çap olunmuşdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.61; Zeyli-Tarixi-aləmarayi-Abbasi (nəşrə hazırlayan: Süheyli Xansari), müqəddimə bölümü.*

"ZÜBDƏT ƏT-TƏVARİX" – Səfəvilər dövlətinin tarixindən bəhs edən, XVII əsrdə yazılmış kitab. Əsərin müəllifi *I Şah Abbasın* saray münəccimi *Molla Cəlaləddin Məhəmməd Münəccim Yəzdinin* oğlu Molla Kamaldır. O, atasının sağlığında sarayda xidmətə başlamış, *I Şah Səfinin* zamanında *sipəhsalar Rüstəm xanın* Gürcüstan yürüşünə (1632/33) münəccim kimi qatılmışdır. Sonralar *II Şah Abbasın* saray münəccimi olmuş, 1649-cu ildə Qəndəhar yürüşündə onu müşayiət etmişdir.

Molla Kamalın qələmə aldığı "Zübdət ət-təvarix" əsəri ümumtarix kitabı olub, Pişdadiyan (qədim İran şahları sülaləsi) dövründən 1662-ci ilədək baş vermiş hadisələri əks etdirir. 1667-ci ildə tamamlanmış bu əsərin son bölümü Səfəvilər dövrünə həsr edilmişdir.

Kitabın adı bəzi mənbələrdə "Lübb ət-təvarix", "Mücməl ət-təvarix", "Tarixi-Molla Kəmal" şəklində də qeyd edilmişdir. Adıçəkilən əsərləri "Zübdət ət-təvarix"dən fərqli sayanlar da vardır. "Zübdət ət-təvarixin son bölümləri ("Tarixi-Molla Kəmal" adı altında) anonim *"Xülasət ət-təvarix"* əsəri ilə birlikdə 1955-ci ildə İranda nəşr edilmişdir.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.77-78; Tarixi-Səfəviyan. Xülasət ət-təvarix, Tarixi-Molla Kəmal (nəşrə hazırlayan: İbrahim Dehgan), müqəddimə bölümü.*

"ZÜBDƏT ƏT-TƏVARİX" – XVIII əsrdə qələmə alınmış, Səfəvilər dövlətinin süqut mərhələsini təsvir edən kitab. Əsərin müəllifi Məhəmməd Möh-

sin ibn Məhəmməd Kərim Mustovfinin həyatı haqqında məlumat azdır. O, *Şah Sultan Hüseyn* zamanında Məşhəd hakiminə xidmət etmiş, 1720-ci ildə onunla birlikdə İsfahana getmişdir. Burada saray divanında xidmətə başlamış, *mustovfi* vəzifəsini yerinə yetirmişdir. 1722-ci ilin yazında İsfahan şəhəri əfqanlar tərəfindən mühasirəyə alınanda Məhəmməd Möhsin şahın əmrinə əsasən ərzaq təminatı məsələləri ilə məşğul olmuş, şəhərdə möhtəkirliyin qarşısını almağa və gizlədilmiş ərzağı aşkar etməyə çalışmışdır. İsfahanın işğalından sonra Xorasana qayıtmış, *Nadir şahın* zamanında Məşhəddəki İmam Rza (ə) hərəminə müdir təyin edilmişdir. O, 1738/39-cu və ya 1741/42-ci illərdə Nadir şahın oğlu Rzaqulu Mirzənin sifarişi ilə "Zübdət ət-təvarix" əsərini yazmağa başlamışdır.

"Zübdət ət-təvarix" ümumtarix kitabıdır, dünyanın yaradılışından Nadir şahın hakimiyyətinədək keçən dövrün hadisələrini əhatə edir. Müəllif Səfəvilər dövlətinin başlanğıcına kimi olan dövrdən çox qısa şəkildə bəhs açmış, Səfəvi şahlarının hakimiyyət müddətini nisbətən geniş formada işləmişdir. *Şah Sultan Hüseynin* hakimiyyətinin sonlarından etibarən hadisələrin təsviri daha da ətraflı verilmiş, İsfahanın süqutu, Nadir xanın yürüşləri və özünü şah elan etməsi müfəssəl şəkildə təsvir edilmişdir. Kitabın ilk bölümləri tarixşünaslıq baxımından o qədər də ciddi əhəmiyyət kəsb etmir. Səfəvilər dövlətinin süqutundan etibarən hadisələrin təsvirində orijinallıq özünü bariz şəkildə göstərir. Müəllif baş verən proseslərin canlı şahidi olduğu üçün verdiyi məlumatlar xüsusilə dəyərlidir. "Zübdət ət-təvarix"-də son Səfəvilər dövrünə aid verilmiş bəzi informasiyalar digər mənbələrdə yoxdur.

Mənbələr: *Cahanbəxş Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq, s.320-324; Zübdət ət-təvarix (nəşrə hazırlayan: Bəhruz Gudərzi), s.10-28.*

İstifadə edilmiş ədəbiyyat siyahısı

Azərbaycan dilində:

1. Qurani-Kərim məalı (tərc. edənlər: Z.Bünyadov və V.Məmmədəliyev), Bakı, 2006.
2. "Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statusunun və təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (18 dekabr 2015-ci il, №64-VQD).
3. A.A.Bakıxanov. Gülüstani-İrəm. Bakı, 2010.
4. A.Baxşəliyev. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri, Bakı, 2009.
5. A.Baxşəliyev. Təbriz şəhərinin iqtisadi və mədəni həyatı anonim tacirin gündəliyində ("Tarix və onun problemləri", №4, 2012).
6. Azərbaycan aşıq şeirindən seçmələr. Bakı, 2005.
7. Azərbaycan dastanları. Bakı, 2005.
8. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2006.
9. Azərbaycan ədəbiyyatı tarixi (10 cilddə, III cild). Bakı, 2020.
10. Azərbaycan klassik ədəbiyyatı kitabxanası (20 cilddə, III, V və VI cildlər). Bakı, 1984-88.
11. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. Bakı, 2007.
12. Azərbaycan – milli kimliyin tarixi məsələləri (məqalələr toplusu). Bakı. 2021.
13. Azərbaycan muğam ensiklopediyası. Bakı, 2012.
14. Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (6 dekabr 1993-cü il, №755).
15. Azərbaycan Səfəvi dövlətində Birinci Xanım titulu ("Türküstan", 26 fevral-6 mart 2017).
16. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (№1/44), Bakı, 2014.
17. Azərbaycan tarixi (7 cilddə, III cild). Bakı, 2007.
18. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci ilə qədər (redaktor: S.Əliyarlı). Bakı, 2009.
19. Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçi: S.Əliyarlı). Bakı, 2007.
20. B.Əhmədov. XVII əsrin birinci yarısında İngiltərənin Şərq siyasəti, Bakı, 1988.
21. B.Ş.Şabiyev. Çuxursəd bəylərbəyi Əmirgünə xan Qacar ("Tarix və onun problemləri", №4, 2009).
22. Baburnamə (nəşrə hazırlayan: Ramiz Əskər). Bakı, 2011.
23. C.Bayramlı, V.Zifəroğlu. Azərbaycan hökmdarları: Səfəvilər. Bakı, 2015.

24. Cəfər İbrahimov. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958.
25. Cəmilə Həsənzadə. Təbrizin sehrli nağılları. Bakı, 2014.
26. E.Qarayev. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı, 2016.
27. E.Nəciyev. 1514-cü il Təbriz sürgünləri ("Tarix və onun problemləri", №4). Bakı, 2015.
28. E.Nəciyev. Səfəvilərin sufi dərgahı – Ərdəbil ("İslam maarifçiliyi və müasir dövr" beynəlxalq elmi konfransın materialları, 16-17 aprel 2015-ci il, Bakı).
29. Elşad Əliyev. I Şah İsmayılın Uffizi Qalereyasında saxlanılan portreti haqqında ("Mədəniyyət.az", 1/2019).
30. Elza İsmayılova. "Koroğlu" Avropa dillərində ("Azərbaycan dünya ədəbiyyatında" Beynəlxalq Simpoziumun materialları). Bakı, 2012.
31. Ə.Çingizoğlu və A.Avşar. Avşarlar. Bakı, 2008.
32. Ə.Çingizoğlu, N.Məmmədova. Zülqədər eli (tarixi-genealoji tədqiqat). Bakı, 2011.
33. Ə.Əhməd. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı, 2012.
34. Ə.Əhmədov. Allahın hüccətləri. Bakı, 1999.
35. Ə.Səfərli. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2008.
36. Ə.Səfərli. Məsihi. Bakı, 1992.
37. Ə.V.Salamzadə, K.M.Məmmədzadə. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı, 1985.
38. Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (tərcümə Ə.Rəhimli). Bakı, 1996.
39. Əbu Bəkr Tehrani. Kitabi-Diyarbəkriyyə (tərcümə edən: R.Şükürova). Bakı, 1998.
40. Əhməd Səbri Həmədani. İslamda Cəfəri məzhəbi və İmam Cəfər Sadiqin buyruqları. Bakı, 1991.
41. Həcər Əhmədova. Azərbaycan Səfəvi dövlətinin etnik kimliyi (Pyetro della Vallenin "Səyahətnamə"si əsasında) ("Geostrategiya", 2020, №5/6, 59/60).
42. Ələddin Məlikov. Azərbaycanlı filosof Molla Rəcəbəli Təbrizi ("Elm" qəzeti, 15 sentyabr 2020-ci il).
43. Əliəkbər Vilayəti. Şah İsmayıl dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998.
44. Əllamə Hilli. Cəza gününün mənfəət verəni (tərcümə edən: Şirzad Pənahov). Bakı, 2001.
45. Əllamə Təbatəbai. İslamda şiəlik. 2002.
46. F.B.Köçərli. Azərbaycan ədəbiyyatı (2 cilddə, I cild). Bakı, 1978.
47. F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, 2007.
48. Fədai. Bəxtiyarnamə (tərtib və ön sözün müəllifi: Q.Məmmədli). Bakı, 2004.
49. Fəxrəddin Salim. Milli yaddaş sistemində ürfan və təsəvvüf. Bakı, 2010.
50. Firəngiz Xəlilova. Müsahib Gəncəvinin divanı. Bakı, 2022.
51. G.Qardaşova. Azərbaycan miniatür rəngkarlığının inkişafinda Ustad Behzadın rolu ("Elmi iş" dərgisi, 2019, №2/3).

52. Gəncə abidələri. Ankara, 2022.
53. Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli (tərtib edən: H.R.Şeyxzamanlı). Gəncə, 2020.
54. Gəncənin maddi mədəniyyət abidələri. Bakı, 2004.
55. H.A.Abdullayev. Azərbaycan Səfəvilər dövlətinin daxili və xarici siyasəti. Bakı, 2013.
56. H.Məmmədbəyli. Məhəmməd Nəsirəddin Tusi. Bakı, 1980.
57. Həmid Araslı. Füzuli. Bakı, 1958.
58. Həsən bəy Rumlu. Əhsənüt-təvarix (fars dilindən tərcümə və şərhlər: O.Əfəndiyev və N.Musalı). Kastamonu, 2017.
59. Xaqan Balayev. Səfəvilər dövründə Azərbaycan dili (Azərbaycan dilinin dövlət dini kimi təşəkkül tarixindən, XVI-XX əsrlər). Bakı, 2022.
60. XVII əsr anadilli Azərbaycan lirikası (tərtib edən: P.Kərimov). Bakı, 2012.
61. XVII əsr Azərbaycan lirikası (antologiya, tərtibçilər: P.Kərimli və M.Hüseyni). Bakı, 2008.
62. İ.Bayramov. Qədim Azərbaycan şəhəri İrəvan. Ankara, 2023.
63. İ.H.Rəhimizadə. Osmanlı qoşunlarının Azərbaycana yürüşləri (XVI əsrin sonu) (nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). Bakı, 2007.
64. İ.Kazımov. Bəydililər ("Kredo" qəzeti, 06.06.2019).
65. İ.Məmmədov. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
66. İ.P.Petruşevski. XV əsrdə Azərbaycan dövlətləri ("Tarix və Fəlsəfə İnstitutunun əsərləri", 5 cilddə, I cild). Bakı, 1951.
67. İmadəddin Nəsimi. Əsərləri (2 cilddə, elmi-tənqidi mətnin tərtibi və müqəddimə: C.Qəhrəmanov). Bakı, 1973.
68. İrəvan xanlığı (AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu). Bakı, 2010.
69. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev). Bakı, 2010.
70. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (fars dilindən çevirən: Ş.Fərzəliyev, II kitab). Bakı, 2014.
71. İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (tərcümə və şərhlər: O.Əfəndiyev, N.Musalı). Bakı, 2009.
72. İslam: tarix, fəlsəfə və hüquq. Ensiklopedik lüğət (tərtibçi müəlliflər: A.Əlizadə, E.Səmədov). Bakı, 2016.
73. İzahlı dini terminlər lüğəti (baş redaktor: Aqil Şirinov). Bakı, 2020.
74. J.Tiflisli. Vaqiati-Mir Veys və Şah Hüseyn (osmanlıcadan tərcümə edən və ön sözün müəllifi: Şahin Fazil). Bakı, 1992.
75. Jan Şardən. Parisdən İsfahana səyahətnamə (fransız dilindən tərcümə edən: V.Aslanov). Bakı, 1994.
76. K.Bünyadzadə. Sərrac Tusinin "əl-Lümə" əsəri. Bakı, 2003.

77. Koroğlu (mətni hazırlayıb tərtib edənlər: İ.Abbaslı, B.Abdulla). Bakı, 2005.
78. Q.Ə.Pirquliyeva. Numizmatikanın əsasları. Bakı, 2009.
79. Qara məcmuə (nəşrə hazırlayan: H.M.Sədiq Düzgün). Tehran, 2001.
80. Qəzənfər Paşayev. Nəsimi haqqında araşdırmalar. Bakı, 2010.
81. Qısa İslam Ensiklopediyası (N.Rəhimovun ümumi redaktəsi ilə, 2 cilddə). Bakı, 2012-2013.
82. Qızılbaşlar tarixi (tərcümə və şərhlər: M.Ə.Məhəmmədi). Bakı, 1993.
83. M.Allahmanlı. Miskin Abdal – Səfəvilərin böyük ideoloqu, sufi şeyxi. Bakı, 2018.
84. Mahmud Kaşğari. Divanü Lüğat-it-türk (tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, 4 cilddə). Bakı, 2006.
85. M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. Bakı, 1994.
86. M.F.Axundov. Bədii və fəlsəfi əsərləri. Bakı, 1987.
87. Mehdi Pişvayi. Məsum imamların həyatı. 2005.
88. Mehman Süleymanov. Nadir şah. Tehran, 2010.
89. Mehman Süleymanov. Səfəvilər (5 cilddə). Bakı, 2019-2020.
90. Məhəmməd Füzuli. Əsərləri (tərtib edəni və redaktoru: H.Araslı, 5 cilddə). Bakı, 1958-1985.
91. Məhəmmədəli Tərbiyət. Danişməndani-Azərbaycan. Bakı, 1987.
92. Məsihi. Vərqa və Gülşa (nəşrə hazrlayan: Ə.Səfərli). Bakı, 2005.
93. Mürtəzaqulu xan Şamlu. Divan (nəşrə hazırlayan: P.Kərimov). Bakı, 2005.
94. N.Kərimova. Gəncə karvansaraları (“Qobustan” jurnalı, №2/2015).
95. Namiq Musalı. XVII əsr Azərbaycan tarixçisi Gəncəli Hacı Məhəmmədqulu xan Qacarın “Lübbül-lübab” əsərinin Tehran nüsxəsi haqqında (“Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları” (akad. V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları). Bakı, 2013.
96. Namiq Musalı. XVII əsrdə Qarabağ bəylərbəyliyində yaşayıb-yaratmış üç tarixçi haqqında (“Qarabağ dünən, bu gün və sabah” VI Respublika elmi-əməli konfransının materialları). Bakı, 2007.
97. Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləmara-yi Şah İsmayıl” əsəri əsasında). Bakı, 2011.
98. Natiq Rəhimov. Aşura şəhidləri. 2004.
99. Natiq Rəhimov. Azərbaycanın din alimləri. Bakı, 2014.
100. Natiq Rəhimov. Bu məqama necə çatdılar. Bakı, 2017.
101. Natiq Rəhimov. İrfan əlifbası. Bakı, 2017.
102. Natiq Rəhimov. İslam tarixi (Abbasilər xilafəti). 2005.
103. Natiq Rəhimov. Məzhəblərarası yaxınlaşma: yardımlar və maneələr. Bakı, 2015.
104. Nazim Mustafa. İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri. Bakı, 2016.
105. Nazim Mustafa. İrəvan şəhəri. Bakı, 2020.

106. Nəhcül-bəlağə (tərcüməçilər: A.Mehdiyev, D.Cəfərli və E.Quliyev, 2 cilddə). İİR Mədəniyyət Mərkəzinin nəşri.
107. Nəsirəddin Tusi. Ovsaf əl-əşraf (tərcümə, çıxarışlar, qeyd və şərhlər: F.Şəfiyev). Bakı, 2010.
108. Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti (1501-1736-cı illər). Bakı, 2018.
109. Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında). Bakı, 2021.
110. Nizami Süleymanov. Azərbaycan Səfəvi dövləti: təsərrüfatı, ticarət əlaqələri, maliyyə sistemi. Bakı, 2013.
111. Nizami Süleymanov. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı, 2012.
112. Nizamülmülk. Siyasətnamə (tərcümə edən: R.Sultanov). Bakı, 1989.
113. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007.
114. Oqtay Əfəndiyev. XVI əsrin başlanğıcında Osmanlı-Səfəvi münasibətlərinə dair ("Türkiyə Respublikası və Osman dövləti" toplusu). Bakı, 2000.
115. Ortaq mədəniyyətin övladları – İraq türkmanları və Azərbaycan. Bakı, 2023.
116. R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı, 2003.
117. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı, 2007.
118. S.A.Əzimova. Azərbaycan Səfəvi dövləti II Şah Abbasın hakimiyyəti dövründə (Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri üzrə). Bakı, 2019.
119. S.A.Əzimova. Məhəmməd Tahir Vəhid və onun "Abbasnamə" əsəri haqqında ("Bakı Universitetinin xəbərləri", humanitar elmlər seriyası, №4, 2014).
120. S.Nağıyev. Qızılbaşlıq haqqında. Bakı, 1997.
121. Sadiq bəy Əfşar. Məcmə əl-xəvas (tərcümə edən və nəşrə hazırlayan: Ə.Bağırov). Bakı, 2008.
122. Sadiq bəy Əfşar. Şeirlər (nəşrə hazırlayan: Paşa Kərimov). Bakı, 2010.
123. Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, 2006.
124. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, 2006.
125. Seyid Əzim Şirvani. Əsərləri (nəşrə hazırlayan: S.Rüstəmov, 3 cilddə, I cild). Bakı, 1967.
126. Səidə Səlimzadə. Səfəvi xalçaları (I cild). Bakı, 2015.
127. Soltan Hüseynqulu oğlu. Şah İsmayıl Xətai (xronoloji-tarixi məlumatlar). Bakı, 1997.
128. Ş.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası. Bakı, 1999.
129. Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, 1983.
130. Ş.Məmmədova. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991.
131. Şah İsmayıl Xətai. Əsərləri (nəşrə hazırlayan: Ə.Məmmədov, 2 cilddə). Bakı, 1966-1973.
132. Şah İsmayıl Səfəvi (tarixi-diplomatik sənədlər toplusu). Bakı, 2014.

133. Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə və müqəddimə: Ə.H.Rəhimov). Bakı, 1996.
134. Şahin Fazil. İki Pərixan xanım ("Hikmət" elmi araşdırmalar toplusu, №21-22, 2022).
135. Şeyx Səfi təzkirəsi (tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı). Bakı, 2006.
136. Şəriət çırağı (Misbah əş-şəriə, ərəb dilindən tərcümə edən: Ə.Əhmədov). Bakı, 1997.
137. T.Hüseynzadə. Səfəvilərin böyük övliyası – Miskin Abdal. Bakı, 2005.
138. T.T.Mustafazadə. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. Bakı, 2002.
139. T.T.Mustafazadə. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. Bakı, 2021.
140. Təsəvvüf tarixi (BİU Zaqatala şöbəsinin nəşri). Bakı, 2011.
141. Tofiq Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi (Ali məktəblər üçün dərslik, I hissə). Bakı, 2012.
142. Tofiq Hüseyn. Baba Samid türbəsi ("Respublika" qəzeti, 08 yanvar 2023-cü il, №03/7473).
143. Tofiq Nəcəfli. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012.
144. Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin bayraqlarına dair ("Geostrategiya" ictimai-siyasi, elmi-populyar jurnalı, iyul-avqust 2017, №4/40).
145. Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020.
146. Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin Türküstan xanlıqları ilə siyasi əlaqələri. Bakı, 2021.
147. Tofiq Nəcəfli. Azərbaycan Səfəvi dövlətinin Venesiya və Papalıqla münasibətləri ("Geostrategiya", №1(25), yanvar-fevral, 2015).
148. Tofiq Nəcəfli. XVII əsrin I yarısında Səfəvi–Polşa əlaqələri tarixindən (AMEA Sosial Elmlər, №1, 2022).
149. Tofiq Nəcəfli. Nadir xan Əfşarın Səfəvi imperiyasının ərazisini işğaldan azad etmək uğrunda mübarizəsi (AMEA Sosial Elmlər, №1, 2023);
150. Tofiq Nəcəfli. Səfəvilərin etnik mənsubiyyəti məsələsi müasir Türkiyə tarixşünaslığında ("Geostrategiya", mart-aprel 2014, №02/20).
151. Tofiq Nəcəfli. Səfəvi-Osmanlı münasibətləri. Bakı, 2014.
152. V.Baxşəliyev, F.Quliyeva. Naxçıvanın tarixi abidələri. Bakı, 2017.
153. Valeh Kərimov. Səfəvilər dövründə təşəkkül tapmiş "Şah Xətai" muğam guşəsinin mahiyyətinə dair ("Konservatoriya" jurnalı, 2022-ci il, №1/54).
154. Venesiyalılar Şah I Təhmasibin sarayında (nəşrə hazırlayan: O.Əfəndiyev). Bakı, 2005.
155. Vəhid Qəzvini. Divan (nəşrə hazırlayanlar: P.Kərimov və A.Ramazanov). Bakı, 2009.

156. Vəli Həbiboğlu. Keşlə və keşləlilər. Bakı, 1995.
157. Vüsalə Musalı. Azərbaycan təzkirəçilik tarixi. Bakı, 2012.
158. Y.Məmmədova. Şah İsmayıl–Babur alyansına dair (Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, №1, 2008).
159. Y.T.Kruşinski. Xristian səyyahın tarixi (tərcümə edən və nəşrə hazırlayan: Ş.Fazil). Bakı, 1993.
160. Yaqub Babayev. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018.
161. Yaqub Babayev. Təriqət ədəbiyyatı; sufizm, hürufizm. Bakı, 2011.
162. Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları (1639-1828), (4 cilddə, I cild). Bakı, 2009.
163. Yaqub Mahmudov. Azərbaycan diplomatiyası. Bakı, 2006.
164. Yaqub Mahmudov. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, 2005.
165. Yaqub Mahmudov. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977.
166. Yaqub Mahmudov. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 2012.
167. Yusif bəy Ustaclu. Divan (nəşrə hazırlayan: P.Kərimov). Bakı, 2012.
168. Z.Bayramlı və B.Şabıyev. Azərbaycan Səfəvi dövləti. XVI-XVII əsrlər. Bakı, 2017.
169. Z.Həsənəliyev və Z.Bayramlı. II Şah Abbasın hakimiyyəti dövründə Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bak, 2011.
170. Zabil Bayramlı. "Silsilət ən-nəsəbi-Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 2019.
171. Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015.
172. Zabil Bayramlı. Səfəvi dövlətinin etnik mənsubiyyətinə dair ("Azərbaycan xalçaları", cild 5, №17, 2015).
173. Zakir Məmmədov. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 2006.
174. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
175. Zülfiyyə Vəliyeva. Səfəvi dövlət təşkilatında "cəngi" və "tacikiyyə" (Azərbaycan Dünya Ədəbiyyatında Beynəlxalq Simpoziumun materialları, 27-29 may, 2011). Bakı, 2012.

Türk dilində:

176. A.Allouche. Osmanlı-Safevi İlişkileri: Kökenleri ve Gelişim (çeviren: Ahmed Emin Dağ). İstanbul, 2001.
177. A.Ateş. Avşarlı Nadir Şah ve Döneminde Osmanlı-İran Mücadeleleri (S.Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı, Doktora Tezi). İsparta, 2001.

178. A.Caferoğlu. XVII Asirda Azeri Şairi Melik Bey Avcı. İstanbul, 1933.
179. A.E.Evirgen. Şibani-name'nin Budapeşte Nüshası (Metin-İnceleme-Dizin). Ankara, Gazi Üniversitesi, 2019.
180. A.Turan ve H.Yıldız. Tarihten Günümüze Anadolu Aleviliği (Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi, 26/26-27, Eylül 2008).
181. A.Y.Ocak. Türk Heterodoksi Tarihinde "Zındık", "Harici", "Rafizi", "Mülhit" ve "Ehl-i Bidat" Terimlerine Dair Bazi Düşünceler (Tarix Enstitüsü Dergisi, sene: 1981-81, sayı: 12).
182. Abdulbaki Gölpınarlı, Pertev Naili Boratav. Pir Sultan Abdal. İstanbul, 2010.
183. Abdülbaki Gölpınarlı. 101 Soruda Türkiye'de Mezhepler ve Tariketler. İstanbul, 1969.
184. Abdülbaki Gölpınarlı. Hürufilik Metinleri Kataloğu. Ankara, 1973.
185. Abdulbaki Gölpınarlı. Pir Sultan Abdal. İstanbul, 1963.
186. Abdulcabbar Adıgüzel. Şiî-Imâmiyye'nin Ehl-i Beyt Tasavvuru ve Dinî Referansları (SİİRT Üniversitesi İlahiyat Fakültesi Dergisi, №1, 2015).
187. Abdullah Gündoğdu. Şiban Han Sülalesi ve Özbek Ulusunun Teşekkülü (Türkler Ansiklopedisi, 7. Cilt). Ankara, 2002.
188. Abdullah Kahraman. Yunus Emre Divanında Şeriat, Tarikat, Hakikat ve Marifet (Dört Kapı) (Kocaeli İlahiyat Dergisi, Cilt: 1, Sayı: 1, Mayıs 2017).
189. Abdullatif Kazvini. Safevi Tarihi (çeviren ve notlandıran: H.Mohemmednejad). Ankara, 2011.
190. Ahilik Ansiklopedisi, 2. Cilt. Ankara, 2014.
191. Ahmet Avni Konuk. Fususu'l-Hikem Tercüme ve Şerhi (2 Ciltte). İstanbul, 2017.
192. Ahmet Keven. Şah İsmail'in Mezhebi Eğilimlerinin Anadolu ve İran Coğrafyasına Etkileri (Uluslararası Sosyal ve Eğitim Bilimleri Dergisi, Cilt: 2, Sayı: 3, Hazıran 2015).
193. Ahmet Özcan. Uzun Hasan Kanunları ve Osmanlı Dönemine Yansımaları (OTAM, №29, 2011).
194. Ahmet Turan. Anadolu Alevileri – Kızılbaşlar (Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi, 6/6, Temmuz 1992).
195. Ahmet Yaşar Ocak. Alevi ve Bektaşı İnançlarının İslam Öncesi Temelleri. İstanbul, 2005.
196. Ahmet Yaşar Ocak. Babailer İsyanı: Aleviligin Tarihsel Altyapısı. İstanbul, 2011.
197. Ahmet Yaşar Ocak. Babaîler İsyanından Kızılbaşlığa: Anadolu'da İslâm Heterodoksisinin Doğuş ve Gelişim Tarihine Kısa Bir Bakış (Belleten Türk Tarih Kurumu, 2000, LXIV, Sayı: 239).
198. Ahmet Yaşar Ocak. Osmanlı İmparatorluğunda Marjinal Sufilik: Kalenderiler (XIV-XVII. Yüzyıllar). Ankara, 1992.

199. Ahmet Yıldırım. Tasavvufda Ricalu'l-Gayb Telakkisi ve Konuyla İlgili Bazi Rivayetler (Süleyman Demirel Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl: 1997, Sayı: 4).
200. Alevi-Bektaşi İnancının Esasları. DABF Danimarka Alevi Birlikleri Federasyonu, 2008.
201. Alevi-Bektaşi Şiirleri Antolojisi (5 Ciltte). Ankara, 1998.
202. Ali Rıza Özdemir. Şeyh Safiyyüddin-i Erdebilî'nin Etnik Kökeni ve İnancı Hakkında Bazi Değerlendirmeler (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, Kış 2021, Sayı: 100).
203. Ali Sinan Bilgili. Devletlik Pir: Şeyh Safiyyüddin-i Erdebili Vakfı (Türk Kültürü ve Hacı Bektaş Veli dergisi, №49, 2009).
204. Ali Yaman. Alevilik ve Kızılbaşlık Tarihi. İstanbul, 2007.
205. Alper Günaydın. "İbnü'l-vakt" ve "Ebü'l-vakt" Kavramlarının Klasik Türk Tasavvuf Edebiyatındakı Kullanımı (Rumelide Dil ve Edebiyat Araştırmaları Dergisi, №8, 2020).
206. Anton Jozef Dierl. Anadolu Aleviliği (almanca çeviri: Fahrettin Yiğit). Ant Yayınları, 1991.
207. Arif Demir. İlk Mutasavvıfların Musiki Anlayışları (Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, 15 (2), 2015).
208. Arif Sarı. İran Türk Dövletleri Tarihi: Karakoyunlular, Akkoyunlular, Sefeviler (İnsanlığın Serüveni (editörler: A.Taşağıl, A.Kar), ss.345-374). İstanbul, 2018.
209. Aşık Paşazade. Osmanoğulları'nın Tarihi (hazırlayanlar: Kemal Yavuz ve Yekta Saraç). İstanbul, 2003.
210. Bahattin Keleş. Baba İshak İsyanı'nın Anadolu Selçuklu Tarihindeki Yeri ve Önemi (Fırat Üniversitesi İlahiyat Fakültesi Dergisi 23:1/2018).
211. Bekir Kütükoğlu. Osmanlı-İran Siyasi Münasebetleri (1578-1612). İstanbul, 1993.
212. Bilal Dedeyev. Çaldıran Savaşı'na Kadar Osmanlı-Safevi İlişkilerine Kısa Bir Bakış (Uluslararası Sosyal Araştırmalar Dergisi, №2, 2009).
213. Bilal Dedeyev. Sosyo-Kültürel İlişkiler Bağlamında 15.Yüzyil-16.Yüzyilin İlk Çeyreğinde Anadolu'dan Azerbaycan'a Türkmen Göçleri (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 2016/77).
214. Bintülhüda Kardeşlik. Akkoyunlu Devleti'nde Tasavvuf ve Tarîkatlar (Yüksek Lisans Tezi). Diyarbakır, 2021.
215. Cafer Acar. İbn Kemal'in Şah İsmail'e Yönelik Tekfirinin Siyâsî Boyutları Üzerine (Danisname 5, Eylül/September 2022).
216. Cemil Hakyemez. Mehdi Düşüncesinin İtikadileşmesi Üzerine (Gazi Üniversitesi Çorum İlahiyat Fakültesi Dergisi, Cilt: III, Sayı: 5, 2004).
217. Cenksu Üçer. Aleviler: Yapılar, Grupların Temel Özellikleri ve Bazı Mülahazalar (Dini Araştırmalar, Cilt: 12, Sayı: 33, Ocak-Nisan 2009).

218. Cihat Aydoğmuşoğlu. I Şah Abbas ve Zamanı (1587-1629). Ankara, 2013.
219. Cihat Aydoğmuşoğlu. Safevi Devleti Tarihi (1501-1736). Ankara, 2017.
220. Cihat Aydoğmuşoğlu. Safevi Hükümdarı Şah Abbas'ın Dinî Siyaseti (Turkish Studies – International Periodical For The Languages, Literature and History of Turkish or Turkic, Volume 6/3, Summer 2011).
221. Colin İmber. Osmanlı İmparatorluğu (1300-1650). İstanbul, 2006.
222. D.G.Erdem Kük. Alevi-Bektaşi Gülbankları: Bağlam Merkezli Bir Yaklaşım (Doktora Tezi). Denizli, 2021.
223. Daniel Goffman. Osmanlı Dünyası ve Avrupa: 1300-1700. İstanbul, 2004.
224. Dayan Kamali. Safevi Hanedanı'nın Çöküşü (Türk Dünyası Araştırmaları Dergisi, Sayı: 225, Aralık 2016).
225. Dilber Usul. Orta Çağ'da Tebriz (Uluslararası Uygur Araştırmaları Dergisi, Sayı: 2021/18).
226. Elif Gül Akman. Onaltıncı Asır Osmanlı Toplumunda Bellibaşlı Kızılbaş İsyanları (Yüksek Lisans Tezi). İstanbul, 2008.
227. Elnur Neciyev. Anadolu'dan Safevi Devleti'ne Göçler: Sebepleri ve Sonuçları (XVIII. Türk Tarih Kongresi, 1-5 Ekim, 2018).
228. Emin Kırkıl. Şah İsmail Dönemi İktidar Mücadelelerinde İki Dinsel Kurum (Alevilik Araştırmaları Dergisi, №3, Yaz 2012), s.177-184.
229. Enver Behnan Şapolyo. Mezhepler ve Tarikatlar Tarihi. İstanbul, 1964.
230. Enver Behnan Şapolyo. Osmanlı Sultanları Tarihi. İstanbul, 1961.
231. Enver Cebeci. Topal Osman Paşa ve Osmanlı-İran Savaşlarındaki Rolü (1664-1733) (Yüksek Lisans Tezi). Afyonkarahisar, 2015.
232. Eralp Erdoğan. Safevi Devleti'nin Askeri Teşkilati (Doktora Tezi). Ankara, 2015.
233. Eralp Erdoğan. Safevi Ordusunda Bir Birlik – Kurçiler (Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, №55/2, 2015).
234. Eralp Erdoğan. Safevilerde Okçuluk ve Kabak Oyunu'na Genel Bir Bakış (Türk Tarihine Dair Yazılar II). Ankara, 2017.
235. Erdoğan Aydın. Kimlik Mücadelesinde Alevilik. İstanbul, 2013.
236. Ethem Cebecioğlu. Tasavvuf Terimleri ve Deyimleri Sözlüğü. Ankara, 2005.
237. Eyüp Bekiryazıcı. Şihabuddin Sühreverdi'nin Hikmet-i İşrak Anlayışı (Yüksek Lisans Tezi). Atatürk Üniversitesi, 2000.
238. Əhməd Rəşid. Xəritəli və rəsmli mükəmməl tarixi-Osmani. 1328 h.-q.
239. F.Kırzıoğlu. Osmanlıların Kafkas ellerini fethi (1450-1590). Ankara, 1999.
240. Farah Hüseyn. 1578-1590 Osmanlı-Safevî Savaşı ve Kırım Hanlığı (Akademik Tarih ve Düşünce Dergisi, №6/2, 2019).
241. Faruk Gün. Mehdîlik İnancı Üzerine Bir İnceleme (Artuklu Akademi, 2017/4-1).
242. Faruk Sümer. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü. Ankara, 1976.

243. Faruk Sümer. Safevi Tarihi ile İlgili İncelemeler: I. ve II. Abbas Devirleri (Türk Dünyası Araştırmaları, Sayı: 69). İstanbul, 1990.
244. Filiz Kalyon. Alevi Bektaşi Şiirlerinde Kullanılan Sembollere Dair Bir İnceleme (IV. Uluslararası Alevilik ve Bektaşilik Sempozyumu, 18-20 Ekim 2018, Ankara).
245. Filiz Kılıç. Alevilik ve Bektaşilikte yedi ulu ozan. Ankara, 2008.
246. Filiz Tapan. Rumeli Uç Ailesi Malkoçoğulları'nın Kökeni Hakkında Tartışmalar ve Yeni Bir İddia (Gazi Akademik Bakış Dergisi, Yıl: 2023, Cilt: 16 Sayı: 32).
247. Fuad Köprülü. Osmanlı Devletinin Kuruluşu. Ankara, 1991.
248. Fuad Köprülü. Türk Edebiyatı'nda İlk Mutasavvıflar. Ankara, 1966.
249. Fuzuli Divanı (hazırlayan: Abdülbaki Gölpınarlı). İstanbul, 2005.
250. G.K.Çinar. İki Böyük Türk Hakanı Şah İsmail ve Şeybani Han Arasında Söz Düellosu (History Studies, 2011, 3/2).
251. G.K.Çinar. Safevî Devleti'nin Güçlü Melikesi Hayrünnisa Begüm (Türkiyat Mecmuası, Cilt: 21/Güz, 2011).
252. Geza David. Macaristan'da Yönetici Osmanlı Aileleri (OTAM, 38/Güz 2015).
253. Giorgio Rota. Safevi İranı ile Venedik Cümhuriyeti Arasındakı Diplomatik İlişkilere Genel Bir Bakış (Türkler Ansiklopedisi, 6. Cilt), Ankara, 2002.
254. Gülay Karadağ Çınar. Safevî Devleti'nde Dini Otoritenin Temsilcisi Şahlar ve Şiî Ulemayla İlişkileri (İran Çalışmaları Dergisi, 2017, Cilt: 1, Sayı: 1).
255. Güldane Gündüzöz. Tasavvufta İhsan Teriminin Kavram Ağı Üzerine Analitik Bir Değerlendirme (İlahiyat Tetkikleri Dergisi, Aralık/December, 2021/2).
256. Gülnihal Küpeli. Savaşçı Bir Sanatkârın Kaleminden Safevî Sarayındakı Müzehhib ve Nakkaşlara Dair Notlar (Akdeniz Sanat Dergisi, Cilt: 13, Sayı: 24, 2019).
257. H.Dilek Batîslam. Divan Şiirinin Mitolojik Kuşları: Hüma, Anka ve Simurg (Türk Kültürü İncelemeleri Dergisi L, İstanbul 2002).
258. H.İnalcık. Osmanlı İmparatorluğunun Ekonomik ve Sosyal Tarihi (türkçeye çeviren: Halil Berktay, Cilt: 1). İstanbul, 2000.
259. H.R.Roemer. Kızılbaş Türkmenler: Safevi Teokrasisinin Kurucuları ve Kurbanları (Türk Kültürü ve Hacı Bektaş Veli, 2006, Sayı: 38).
260. H.Y.Bayur. Hindistan Tarihi, 2. Cilt. Ankara, 1987.
261. Hacı Bektaş Veli. Makalat (hazırlayanlar: A.Yılmaz, M.Akkuş, A.Öztürk). Ankara, 2006.
262. Halil İbrahim Bulut. Osmanlı–Safevi Mücadelesinde Ulemanın Rolü: Kemal Paşazade Orneği (Dini Araştırmalar, Cilt: 7, Sayı: 21, 2005).
263. Halil İbrahim Bulut. Safevîlerin Ehl-i Sünnet Karşıtı Politikaları (Türk Kültürü vü Hacı Büktaş Veli Araştırma Dergisi, Yıl: 2015, Sayı: 76).

264. Hammer. Dövləti-Osmaniyyə Tarixi (tərcümə edən: M.Əta, 11 cilddə, köhnə İstanbul nəşri);
265. Hammer. Dövləti-Osmaniyyə tarixi: Osmanlıların məbadii-zühurundan Qaynarca əhdnaməsinə qədər (mütərcim: Məhəmməd Əta). İstanbul, Sələnik mətbəəsi, 1330 h.-q.
266. Harun Yıldız. Ehl-i Beyt İnanışının Anadolu Alevileri Üzerindeki İzdüşümleri (Marife, Yıl: Kış 2004, Sayı: 3).
267. Hasan Gültekin. Yavuz Sultan Selim'in Farsça Beyitleriyle Tercümeleri (Turkish Studies, International Periodical for The Languages, Literature and History of Turkish or Turkic, Volume 10/8 Spring 2015).
268. Hasan Gümüşoğlu. Ehl-i Sünnet ve İmamiyye Şiasının Ehl-i Beyt Kavramına Yükledikleri Anlamlar (Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt: 18, Sayı: 2, 2014).
269. Hasan Onat. Buyruklara Göre Kızılbaşlık (Doktora Tezi). Konya, 2008.
270. Haşim Şahin. Osmanlı Devletinin Kuruluş Döneminde Abdalân-i Rum, 1300-1400 (Yüksek Lisans Tezi). Sakarya, 2001.
271. Hilmi Ziya Ülken. Anadolu'nun Dini Sosyal Tarihi. Ankara, 2003.
272. Hoca Sadettin Efendi. Tacü't-Tevarih (5 Ciltte). Ankara, 1979.
273. Hüseyin Özcan. Bektaşîlikte Dört Kapı Kırk Makam (Türklük Bilgisi Araştırmaları, TUBA, Volume 28/1, 2004).
274. İbrahim Agah Çubukçu. Sühreverdi ve İşrakiyye Felsefesi (Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, 1968, Cilt: 16, Sayı: 1-4).
275. İbrahim Altuntaş. Yeniçeri Ocağı'nın Kaldırılmasından Sonra Bektaşi Tekkeleri ve Osmanlı Yönetimi (Yüksek Lisans Tezi). Eskişehir, 2005.
276. İbrahim Aslanoğlu. Şah İsmail Hatayi (Divan, Dehname, Nasihatname ve Anadolu Hatayileri). İstanbul, 1992.
277. İbrahim Gül. Alevi İnancında Can, Ruh Kavramı ve Nefsin Egitimi (Folklor/Edebiyat Dergisi, 2021; Sayı: 27/1).
278. İbrahim Həqqi. Mərifətnamə. İstanbul, 1330 h.-q.
279. İbrahim Yıldıran. Osmanlılarda Atlı Hedef Okçuluğu Kabak Oyunu ("Anadolu Uygarlıklarında Spor"). Ankara, 2012.
280. İlyas Gökhan. Dulkadir Beyliği Coğrafyasında Bektaşîlîk ve Alevîlik (Nevşehir Hacı Bektaş Veli Üniversitesi SBE Dergisi, Hacı Bektaş Veli Özel Sayısı, 2021).
281. İsmail Erdoğan. İşrâkîlik'in İslâm Felsefesi İçerisindeki Yeri ve Kaynakları (Fırat İlahiyat Fakültesi Dergisi, 8, 2003).
282. İsmail Hakkı Uzunçarşılı. Osmanlı Tarihi (6 Ciltte). Ankara, 1988.
283. J.B.Tavernier. XVII. Asr Ortalarında Türkiye Üzerinden İran'a Seyahat (tercüme: E.Gültekin). Tercüman, 1001 Temel Eser, 1980.
284. John E.Woods. 300 Yıllık Türk İmparatorluğu: Akkoyunlular (tercüme: Sibel Özbudun). İstanbul, 1993.

285. Joseph von Hammer. Büyük Osmanlı Tarihi (18 Ciltte). İstanbul, 1983.
286. K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara) (tercüme ve notlar: Buket Gündüz). İstanbul, 2023.
287. K.A.Gaffari. Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler (Tarih-i Cihan-Ara). İstanbul, 2023.
288. K.E.Kürkçüoğlu. Nesimi Divanı'ndan Seçmeler. Ankara, 1985.
289. K.Özköse. İbnü'l-Vakt Ya Da Ebu'l-Vakt Olabilmek (Somuncu Baba Dergisi, №64, Şubat, 2006).
290. Kavanin-i Yeniçeriyan (yayına hazırlayan: Tayfun Toroser). İstanbul, 2011.
291. Kibar Bal. Tarihsel Süreç İçerisinde Bektaşiliğin Yeniçeriler İçerisinde Aldığı Şekil (IV. Uluslararası Alevilik ve Bektaşilik Sempozyumu, 18-20 Ekim 2018, Ankara, Bildiriler Kitabı).
292. Qiyas Şükürov. Safevîlerde Av Geleneğinin Oluşumu ve I. Şah İsmail Dönemi Av Merasimleri (ACTA Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, Yıl: 1, Sayı: 1, Ocak 2009).
293. Laurence Lockhart. Safevi Döneminde İran Ordusu ("Cihannüma" Tarih ve Coğrafya Araştırmaları Dergisi, Sayı II/2, Aralık 2016).
294. Levent Kayapınar. Anadolu'dan Koron Ve Modon'a Kizil Taçluların İskânı (Alevilik-Bektaşilik Araştırmaları Dergisi, 2016/14).
295. Lətifi. Təzkirət əş-şüəra və təbsirət ən-nüzəma (yayına hazırlayan: Əhməd Covdət). 1314 h.-q.
296. M.F.Köprülüzade. Küçük Asya'da İslâm Batinîliğinin Tekâmül-i Tarihîsi Hakkında Bir Tecrübe (Bektaşîliğin Menşe'leri, Türk Yurdu 2, No. 8, Mayıs 1341/1925).
297. MEB İslam Ansiklopedisi (13 Ciltte). İstanbul, 1978-1986.
298. Mecmua-yi münşeat-i Feridun bey. İstanbul, Takvimhane-yi Amire, hicri 1274-75-ci illər, miladi 1858-ci il.
299. Mehmed Said Hatiboğlu. Hilafet'in Kureyşliliği (Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, №3-4, Cilt: 23, 1978).
300. Mehmet Azimli. Babek el-Hurremi İsyanı ve Bizans İle İlişkileri (Fırat Üniversitesi Orta Doğu Araştırmaları Merkezi Beşinci Uluslar Arası Orta Doğu Semineri, İslamiyet'in Doğuşundan Osmanlı İdaresine Kadar Orta Doğu, Şam, 2-4 Kasım 2010).
301. Mehmet Çelenk. Safevilerin Din Politikası ve İran'ın Şiileşme Seyri (Çanakkale Onsekiz Mart Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2014, sayı: 4).
302. Mehmet Dağlar. Safevi Devleti'nde Şah II. İsmail ve Muhammed Hudabende Dönemlerinde Kızılbaş Hakimiyeti (1574-1587) (Türk Tarihi Araştırmaları Dergisi, Yıl. 3, Sayı. 1, Bahar 2018).
303. Mehmet Dağlar. Şah Tahmasb'ın Dini Siyaseti (1524-1576) (Doktora Tezi, Sakarya, 2017).

304. Mehmet Eröz. Türkiye'de Alevîlik Bektaşîlik. Ankara, 1990.
305. Mehmet Hakan Alşan. Horasan Erenleri. İstanbul, 2012.
306. Mehmet Hakan Alşan. Melametiler, Horasan Erenleri, Abdalan-i Rum, Baciyan-i Rum, Qaziyan-i Rum, Ahiyan-i Rum. İstanbul, 2006.
307. Mehmet Herkiloğlu. 16. Yüzyıl Başlarında Ramazanoğlu Piri Mehmet Paşa Döneminde Anadolu Ve Çukurova Bölgesinde Meydana Gelen İsyanlar (Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, 30. Yıl Özel Sayısı, Eylül/ September 2022).
308. Mehmet Necmettin Bardakçı. Tasavvufun Teşekkül Devrinde Melâmetîlik (Uluslararası Melâmilik ve Seyid Muhammed Nûru'l-Arabî Sempozyumu Bildirileri, 9-10 Mayıs 2015/Antalya).
309. Mehmet Nuri Çinarcı. Sefevi Sarayında Türkçe Şiir Yazan Bir Şehzade (Türkiye Sosyal Araştırmalar Dergisi, №3, 2015).
310. Mehmet Nuri Çinarcı. Tesir-i Tebrizinin Külliyyatı ve Türkçe Şiirleri (Turkish Studies, International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 7/4, Fall 2012).
311. Mehmet Rıhtım. Halvetiligin Pir-i Sanisi Seyid Yahya Eş-Şirvani El-Bakûvi (Uluslarası Seyid Yahya Şirvani ve Halvetilik Sempozyumu, Eskişehir, 21-23 Kasım, 2013 – Bakü, 25-27 Kasım, 2013).
312. M.A.Kaim. Türk Tasavvuf Edebiyatında Gülbang (Doktora Tezi). Bursa, 2022.
313. Metinlerle Tasavvuf Terimleri Sözlüğü (editör: Zafer Erginli). İstanbul, 2006.
314. Mikail Bayram. Anadolu Selçukluları Devrinde Anadolu Bacıları (Baciyan-i Rum) Örgütünün Kurucusu Fatma Bacı Kimdir? (Yıl: 1981, Cilt: 45/2, Sayı: 180).
315. Mirza Abbaslı. Safevilerin Kökenine Dair (Belleten, №158, Cilt: 40, 1976).
316. Muhammet Ali Özkan. Fetvalar ve Belgeler İşığında Osmanlıda Kızılbaşlık Meselesi (Yüksek Lisans Tezi). Niğde, 2018.
317. Musa Kazım Engin. Hak ve Hakikat Yolu Alevilik. Ankara, 2020.
318. Mustafa Akdağ. Celali İsyanları (1550-1603). Ankara, 1963.
319. Mustafa Çağrıcı. İslam Kültüründe Mehdi İnancı: İnanışın Kaynağı Mahiyeti ve Etkileri. İstanbul, 2021.
320. Mutlu Özgen. Osmanlı Şenliklerinde Bir Gösteri Sporu: Kabak Oyunu (ACTA Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, II/1, Ocak 2010).
321. Müneccimbaşı Ahmet Dede. Müneccimbaşı Tarihi (tercüme: İsmail Erünsal, 2 Ciltte). Tercüman, 1001 Temel Eser.
322. Naim Döner. Mîr Dâmâd ve Emânet-i İlahî Risalesi (DÜİFAD, 2016, 18/1).
323. Namiq Musalı. Anadolu İrfan Gelenegi ve Şeyh Zahid Geylani (Uluslararası "Horasan'dan Anadolu'ya İrfan Gelenegi: Elvan Çelebi" Sempozyumu materialları, Oktyabr 2020).

324. Namiq Musalı. Anonim Bir Savefi Müellifinin Gözüyle Dulkadir Beyligi'nin Son 20 Yıllık Tarihine Bakış (Uluslar arası Dulkadir Beyliği sempozyumu, 29 Nisan-1 Mayıs 2011, Kahramanmaraş).
325. Namiq Musalı. I. Şah İsmail'in İdarî-Askerî ve İctimaî-İktisadî Politikaları Üzerine Bazı Notlar ve Değerlendirmeler (Akademik Tarih ve Düşünce Dergisi, İlkbahar 2018, 5/14).
326. Namiq Musalı. Safevî Saltanatında İlk Taht Kavgası: Süleyman Mirza Ayaklanması (XVIII. Türk Tarih Kongresi, 1-5 Ekim 2018, Kongreye Sunulan Bildiriler, VI. Cilt).
327. Namiq Musalı. Safeviler ve Ahiler (Ahilik Uluslararası Sempozyumu Bildiri Kitabı, Erciyes Üniversitesi, 20-22 Eylül, 2011).
328. Namiq Musalı. Safevilər'in Diyarbakır Beylerbeyi Muhammed Han Ustaclu ve Anadoluda'ki Faaliyetleri (Uluslararası Diyarbakır Sempozyumu, 02-05 Kasım, 2016). Diyarbakır, 2017.
329. Namiq Musalı. Şah İsmail Hatâî'nin Annesi Alemşah Begüm: Efsaneler ve Gerçekler (Alevilik-Bektaşilik Araştırmaları Dergisi, 2016/13).
330. Namiq Musalı. Şah İsmail'in Ağabeyi İbrahim Mirza ve Kizilbaş Hareketi İçindeki Rolü (IV. Uluslararası Alevilik ve Bektaşilik Sempozyumu, 18-20 Ekim 2018, Ankara, Bildiriler Kitabi).
331. N.İqbal, F.Baloch. Rivayetler Çerçevesinde Kureyş'in Durumuna Siyasi Bir Bakış (Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, XLIV, 2018/1).
332. Nejat Birdoğan. Anadolu Alevi Ocaklarının Kuruluşu, İşlevleri, Yayılmaları (IV Milletlerarası Türk Halk Kültürü Kongresi Bildirileri, I Cilt). Ankara, 1992.
333. Nihat Çetinkaya. Kızılbaş Türkler (Tarixi Oluşumu ve Gelişimi). İstanbul, 2003.
334. O.Efendiyev. Sultan II Bayazit ve Şah İsmayıl (XIII Türk Tarih Kongresi, Ankara, 4-8 Ekim 1999). Ankara, 2002.
335. O.N.Topbaş. Abide Şahsiyetleri ve Müesseseleriyle Osmanlı. İstanbul, 1999.
336. O.N.Topbaş. İmandan İhsana Tasavvuf. İstanbul, 2002.
337. Osmanlı Ansiklopedisi (12 Ciltte, editör: Güler Eren). Ankara, 1999.
338. Osmanlı ve İran'da İşrak Felsefesi. İstanbul, 2018.
339. Ozkan Daşdemir. Simürg İle İlgili Açıklayıcı Metin: Der Beyan-i Ahval-i Simürg-i Anka (Atatürk Üniversitesi Edebiyat Fakültesi Dergisi, Sayı 67, Aralık 2021).
340. Ömer Faruk Teber. XVI. Yüzyılda Kızılbaşlık Farklılaşması (Doktora Tezi). Ankara, 2005.
341. Ömer Öngüt. Tasavvufun Aslı Hakikat ve Marifetullah İncileri. İstanbul, 2009.
342. Özer Küpeli. Safevi Ülkesinin İngilis Konukları (İngilis Tacirlerin İran Seyahatları, 1562-1581) (History Studies International Jurnal of History, Volume 4/1, 2012).

343. Özer Küpeli. Safevi-Osmanlı Münasebetleri, İstanbul, 2014.
344. Özer Küpeli. Osmanli-Safevi Münasebetleri (1612-1639) (Doktora Tezi). İzmir, 2009.
345. Övliya Çələbi səyahətnaməsi, IV cild. İstanbul, 1314 h.-q.
346. Peçevi İbrahim Efendi. Peçevi Tarihi (2 Ciltte). Ankara, 1981-1982.
347. R.Kılıç. XVI ve XVII Yüzyıllarda Osmanlı-İran Siyasi Antlaşmaları. İstanbul, 2001.
348. R.Kılıç. Kanuni devri Osmanlı-İran münasebetleri (1520-1566). İstanbul, 2006.
349. R.Kılıç. Osmanlı–İran Arasında Kasr-i Şirin Barış Antlaşması (1639) (Fırat Universitesi İlahiyat Fakültesi Dergisi, 2000, Sayı: 5).
350. R.Kılıç. Osmanlılar ile Safevîler Arasında Nasuh Paşa (1612) ve Serav (1618) antlaşmaları (Niğde Üniversitesi Eğitim Fakültesi Eğitim ve Bilim Dergisi, Sayı: 2, 2003, ss. 124-134).
351. Reyhan Kele. Yedi Ulu Ozan'ın "Yedi" Sembolizmi (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 2017, Sayı: 83).
352. Rəna Nəcəfova. Səfəvi imperiya ordusunun quruluşu (Akademik Tarih ve Düşünce Dergisi, 6/5, Kış 2019).
353. Roger Savory. Safeviler Devrinde İran (çeviren: Özgür Kolçak). İstanbul, 2021.
354. Rza Halili. Sultân Mahmûd bin Sultân Burhâneddîn Geylânî'nin 'Akâ'id-i Evliyâ'-i Seb'a İsimli Eseri (İnceleme-Metin-Dizin, Yüksek Lisans Tezi). İstanbul, 2009.
355. S.Özbaran. Portekizli Seyyahlar İran, Türkiye, İrak, Suriya ve Mısır Yollarında. İstanbul, 2007.
356. Sadeddin Nüzhet Ergun. Hatayi Divanı. İstanbul, 1956.
357. Sadullah Gülten. Tahrir Defterlerine Göre Anadolu'da Kalenderîler ve Haydarîler (Tarih Araştırmları Dergisi, Yıl: 2012, Cilt: 31 Sayı: 52).
358. Sayın Dalkıran. Alevi Kimligi ve Anadolu Aleviligi Üzerine Bir Deneme (EKEV Akademi Dergisi, Yıl: 6 Sayı: 10, Kış 2002).
359. Sayın Dalkıran. İran Safevî Devletinin Kuruluşuna Sii İnançların Etkisi ve Osmanli'nın İran'a Bakisi (Atatürk Üniversitesi İlahiyat Fakültesi Dergisi, №18, Aralık 2002), s.49-96.
360. Seyhun Şahin. Hacı Bektaş-ı Veli ve yaşadığı dönemde Anadolu'nun siyasi ve sosyal durumu (Nevşehir Hacı Bektaş Veli Üniversitesi SBE Dergisi, №1, Cilt: 12, 2022).
361. Sugra Caferova. Azerbaycan Tarihinde Kadın (Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yüksek Lisans Tezi). Sakarya, 2016.
362. Sultan IV Muradın Revan ve Tebriz Seferi Ruznamesi. Ankara, 1999.
363. Süleyman Ateş. İşari Tefsir Okulu. Ankara, 1974.
364. Süleyman Nəzif. Füzuli. İstanbul, 1926.

365. Ş.Tekindağ. Yeni Kaynak ve Vesikalar Işığı Altında Yavuz Sultan Selimin İran Seferi (İÜEF Tarih Dergisi, Sayı: 3, İstanbul, 1967).
366. Şadi Aydın. Farsça Divan Sahibi Osmanlı Sultanları ve Divânlarının Nüshaları (Şarkiyat Araştırmaları Dergisi, Nüsha, Yıl: II, Sayı: 6, Yaz 2002).
367. Şafak Tunç. Tophane-i Amire ve Osmanlı Devletinde Top Döküm Faaliyetleri. 2014.
368. Şahı Ahmedov. Azerbaycan'da Şiîliğin Yayilma Süreci (Doktora Tezi). Ankara, 2005.
369. Şahin Mustafayev. Safevi Tarih Yazımında Osmanlılar (Türk Tarihi Araştırmaları Dergisi, Yıl: 3, Sayı: 1, Bahar 2018).
370. Şeref han Bitlisi. Sefername. Osmanlı-İran Tarihi (farsçadan çeviren: Osman Aslanoğlu, 2. Cilt), İstanbul, 2014;
371. Şeref han. Şerefname (Arapçadan çeviren: M.E.Bozarslan, 2 Ciltte), İstanbul, 1971.
372. Şeyh Zahid Geylani ve Menakibi (yayına hazırlayan: N.Musalı). Kastamonu, 2019.
373. T.H.Balcıoğlu. Türk Tarihinde Mezheb Cereyanları. Ankara, 1940.
374. T.Nejat Eralp. Tarih Boyunca Türk Toplumunda Silah Kavramı ve Osmanlı İmparatorluğunda Kullanılan Silahlar. Ankara, 1993.
375. Tahsin Şahin. Bir Osmanlı Başkentinde Celâliler: Bursa'da Celâli İstilası ve Yarattığı Tahribat (Uludağ Üniversitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 23/43, 2022).
376. Tahsin Şahin. Celali Kuşatması Altında Bursa (Yüksek Lisans Tezi). Bursa, 2017.
377. Tofiq Necefli. 1590 İstanbul Barış Antlaşmasından sonra Safevi-Osmanlı diplomatik ilişkileri (XVII. Türk Tarih Konqresi, 15-17 Eylül 2014, Ankara, IV. Cilt, s.1603-1622). Ankara, 2018.
378. Tofiq Necefli. I Şah Abbas'ın islahatları (Akademik Tarih ve Düşünce Dergisi, 2022, №9-4).
379. Toshihiko İzutsu. Mir Damad ve Metafiziği (Eski Yeni: Anadolu İlahiyat Akademisi Araştırma Dergisi, 2015, Vol: 30).
380. Tufan Gündüz. Anadolu'da Türkmen Aşiretleri (Bozuluş Türkmenleri 1540-1640). Ankara, 1997.
381. Tufan Gündüz. Kızılbaşlar, Osmanlılar, Safeviler. İstanbul, 2015.
382. Tufan Gündüz. Son Kızılbaş Şah İsmail. İstanbul. 2013.
383. Tufan Gündüz. Şah İsmail'in Eşi Taçlu Begüm (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 2009, Sayı: 51).
384. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi (44 Ciltte). Türkiye Diyanet Vakfı, 1988-2013.
385. Uluslar arası Dulkadir Beyliği sempozyumu (29 Nisan-1 Mayıs 2011, Kahramanmaraş, 3 Ciltte). İstanbul, 2012.

386. Vatan Özgül. Kızılbaşlık ve Türkmenler (Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 2004/32).
387. Vedat Turğut. Şah İsmail'in Hatunu (OTAM, 39, Bahar 2016).
388. Vural Genş. Safevi Kroniklerinde Çaldıran Savaşı (Osmanlı Medeniyeti Araştırmaları Dergisi, Cilt: 5, Sayı: 8, Nisan 2019).
389. Walther Hinz. Uzun Hasan ve Şeyh Cüneyd (çeviren: Tevfik Bıyıklıoğlu). Ankara, 1992.
390. Yakip Karasoy. Şibani Han Divan'ı (İnceleme-Metin, Doktora Tezi). Konya, 1989.
391. Yakup Karasoy. Şiban Han Dîvânı'na Farklı Bakmak (Akademik Dil ve Edebiyat Dergisi, Cilt: 5, Sayı: 4, Aralık 2021).
392. Zülfiye Veliyeva. Safevi Devlet Teskilatı (Tezkiretü'l-Mülük'e Göre), doktora tezi. Ankara, 2007.
393. Zülfiyye Veliyeva. Safevilerin Menşei ve Kızılbaşça ("Journal of Azerbaijani Studies", 2009).

Fars və ərəb dillərində:

394. A.İyzədyar və Ş.M.Alvar. Səfəvilər dövründə Kiyailər dövlətinin süqutunun səbəblərinin təhlili ("Tarixnameyi-Xarəzmi", №18, 1396 h.-ş.).
395. A.Mütəvəlli. Səfəvi dövlət quruluşunda istifadə edilən dini təbliğatın metod və simvolları ("Şiəşünaslıq" elmi araşdırma dərgisi, №40, 1391 h.-ş.).
396. A.Sərəfrazi. I Şah Abbasın hakimiyyətinin sonlarına kimi Səfəvilər dövlətinin güclənməsində və zəifləməsində Təkəlü tayfasının rolu (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi araşdırmalar dərgisi, №40, 1384 h.-ş.).
397. Abbas əl-Əzzavi əl-Məhami. Tarix əl-İraq beyn ihtilaleyn, III cild. Əd-Dar əl-ərəbiyyə əl-movsuat nəşri.
398. Abbas Xürrəmabadi. Əmir Mahmud Xondəmirin həyatı və onun "Zeyli-tarixi-Həbibüs-siyər" əsəri ("Tarix və onun problemləri" dərgisi, №2, 2014).
399. Abbasəli Əmid Zəncani. Təsəvvüf və irfanın yaranması və inkişafı barədə araşdırma. Tehran, 1366 h.-ş.
400. Abbasqulu Ğəffarifərd. Xacə Əli və Əmir Teymur Gürgan ("Xarici əlaqələr tarixi" dərgisi, №34, 1387 h.-ş.).
401. Abbasnamə (nəşrə hazırlayan: İbrahim Dehgan). Ərak, 1329 h.-ş.
402. Abdullah Mübəlliği Abadani. Dünya dinləri və məzhəbləri tarixi (3 cilddə). Qum, 1373 h.-ş.
403. Abdullah Mütəvəlli. Səfəvilər dövründə İran–Osmanlı münasibətlərinə məzhəbin təsiri ("Pejuheşnameyi-tarixi-İslam" elmi araşdırma dərgisi, №21, 1395 h.-ş.).
404. Abdullah Mütəvəlli. Səfəvilər dövrünün müharibələrində hərbi rəhbərliyin meyarlarına baxış ("İran və İslam tarixi araşdırmaları" dərgisi, №12, 1392 h.-ş.).

405. Adam Olearinin səyahətnaməsi (fars dilinə tərcümə: Ə.Behpur). 1363 h.-ş.
406. Adam Olearіusun səfərnaməsi (farsca tərcümə edən: M.H.Kürdbeççə, 2 cilddə). 1369 h.-ş.
407. Ağa Büzürg ət-Tehrani. Əz-Zəriə ila təsanif əş-şiə, III cild. Beyrut, 1983.
408. Ağa Büzürg ət-Tehrani. Təbəqat əlam əş-şiə (əl-Kəvakib əl-müntəşirə, IX cild). Beyrut, 2009.
409. Aləmarayi-Səfəvi (nəşrə hazırlayan: Y.Şükri). İntişarati-bünyadi-fərhəngi-İran, 1350 h.-ş.
410. Aləmarayi-Şah Təhmasib (nəşrə hazırlayan: İrəc Əfşar). İntişarati-dünyayi-kitab, 1370 h.-ş.
411. B.Məhəmmədi və Ə.Fazili. Cövkən oyununda iranlıların məharəti ("İranın idman tarixi" məcmuəsindən). İİR Milli Olimpiya Komitəsi, Tehran, 1386 h.-ş.
412. Bastani Parizi. Gəncəli xan (İsfahan Universiteti Ədəbiyyat və Humanitar Elmlər fakültəsinin elmi-araşdırma dərgisi, №1, 1343 h.-ş.).
413. Behnam Elmi. Gəncə xanlığının yaranmasında və güclənməsində Ziyadoğlu-Qacar nəslinin rolu ("Tarixnameyi-Xarəzmi" dərgisi, yay, 1394 h.-ş.).
414. Behzad Kərimi. Səfəvilər dövründə din və dövlət ("Kitabi-mah: tarix və coğrafiya", №147, 1389 h.-ş.).
415. Beyhəqi. Əs-Sünən əl-kübra (nəşrə hazırlayan: M.Ə.Əta, 11 cilddə). Beyrut, 2003.
416. Böyük İslam ensiklopediyası (Dairətül-məarifi-büzürgi-İslami, K.M.Bocnurdinin rəhbərliyi ilə), II cild. Tehran, 1374 h.-ş.
417. Bosworth, C.E. Hakim müsəlman sülalələri (ərəbcə tərcümə: Əmr əl-Məlah). Əbu-Dəbi, 2013.
418. Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar (nəşrə hazırlayan: M.Bəhramnəjad). Tehran, 1378 h.-ş.
419. C.Novruzi və Ş.Ramazani. Səfəvi şahlarının şiə alimləri ilə rabitələrinin səbəb və nəticələri ("Pejuheşnameyi-tarixi-İslam" elmi araşdırma dərgisi, №19, 1394 h.-ş.).
420. C.Səvaqib və F.Bazgir. Səfəvi dövlətinin quruluş və davamında Şamluların rolu (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin tarix elmləri dərgisi, №1/25, 1394 h.-ş.).
421. C.Səvaqib, M.M.Rövşənfikr. Səfəvilər dövründə Şah Qələndər üsyanına bir baxış (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin "Tarix araşdırmaları" dərgisi, №1, 1377 h.-ş.).
422. C.Səvaqib. Hicri X əsrdə Osmanlı dövləti qarşısında Səfəvilərin sülhsevər siyasəti ("İran və İslam tarixi araşdırmaları" dərgisi, №26, 1399 h.-ş.).
423. C.Səvaqib. Qarabağda Davud xan üsyanının səbəbləri, gedişatı və nəticələri barədə araşdırma (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, №34-35, 1382 h.-ş.).

424. C.Səvaqib. Səfəvi şeyxlərinin Şirvanşahlarla hərbi-siyasi əlaqələrinin təhlili (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, №17, 1393 h.-ş.).
425. C.Səvaqib. Şah Səfinin zamanında (1042 q.) Fars hakimi İmamqulu xanın qətlinin səbəb və nəticələrinin təhlili ("Tarixi araşdırmalar" dərgisi, №3/7, 1389 h.-ş.).
426. C.Səvaqib. Üsuli və əxbari məktəblərinin inkişaf prosesi ("Pejuheşnameyi-tarixi-İslam" dərgisi, №9, 1392 h.-ş.).
427. C.Səvaqib. Səfəvilər dövründəki tarixyazarlıq, mənbə və məxəzlərlə tanışlıq. Şiraz, 1380 h.-ş.
428. C.Səvaqib. Şah Səfi zamanında ordu quruluşu və hərbi vəzifə sahibləri (Zəhra Universitetinin İslam və İran tarixi elmi araşdırmalar dərgisi, №14, 1391 h.-ş.).
429. Cahangüşayi-xaqan (nəşrə hazırlayan: Allah Dəta Müztər). İslamabad nəşri.
430. Cavad Hisari Müqəddəm. Əllamə Mühəmməd Baqir Məclisi ("Amuzeşi-tarix" dərgisi, №4, 1389 h.-ş.).
431. Cavad Mühəddisi. Fərhəngi-Aşura. Qum, 1376 h.-ş.
432. Cemelli Karrerinin səfərnaməsi (farsca tərcümə edən: Abbas Naxçıvani və Əbdülali Karəng). 1348 h.-ş.
433. Cəfər əl-Xəlili. Movsuət əl-ətəbat əl-müqəddəsə (qism Kərbəla, VIII cild). Beyrut, 1987.
434. "Cəvahir əl-əxbar" kitabından xəttat və nəqqaşların tərcümeyi-halı bölümü ("Nameyi-bəharistan" dərgisi, 15-ci dəftər, 1388 h.-ş.).
435. D.C.Stüart. Səfəvilər dövründə Amil fəqihlərinin İran mühacirəti barədə məqamlar (farsca tərcümə, "Kitabi-mah: din", №56-57, 1381 h.-ş.).
436. D.Cəfərpur və P.Səlimi. Səfəvilər dövründə Şeyxəli xan Zəngənənin vəzirliyinə bir baxış ("Miskəveyh" dərgisi, №7, 1386 h.-ş.).
437. Dairət əl-məarifi-təşəyyö (Ə.S.Hacı Seyid Cəvadi və b.-nın nəzarəti altında, II cild). Tehran, 1368 h.-ş.
438. Dariyuş Şarigan. Anri Korbin: İran İslamında mənəvi təfəkkürün üfüqləri. Tehran, 1374 h.-ş.
439. Davud İlhami. İrfan və təsəvvüf. İntişarati-Məktəbi-İslam, 1374 h.-ş.
440. Deyləmi, əl-Həsən ibn Əbil-Həsən Məhəmməd. İrşad əl-qülub ilə-l-səvab (nəşrə hazırlayan: S.H.Milani, 2 cilddə). Tehran, 1417 h.-ş.
441. Divani-Əmirəlmöminin Əli ibn Əbitalib (farsca tərcümə: Mustafa Zamani). Nəsayih nəşriyyatı, 1374 h.-ş.
442. Divani-Həzin Lahici (nəşrə hazırlayan: Bijən Tərəqqi). Xəyyam nəşriyyatı, 1362 h.-ş.
443. Divani-Sultan Hüseyn Mirza Bayqara (nəşrə hazırlayan: M.V.Cuzcani). Kabil, 1346 h.-ş.

444. Don Juani-irani (farsca tərcümə edən: Məsud Rəcəbniya). Tehran, 1338 h.-ş.
445. Don Qarsia de Silva Fiqeroanın səyahətnaməsi (fars dilinə tərcümə: Q.Səmii). Tehran, 1363 h.-ş.
446. Ehsan İşraqi. Səfəvilər dövründə ipək ticarətinin əhəmiyyəti ("İranşənaxt", №5, 1376 h.-ş.);.
447. Ehsan İşraqi. Şah Sultan Hüseyn ("Nəşriyyeyi-güruhi-tarix", №1, 1355 h.-ş.).
448. Ehsanullah Əli İstəxri. Üsuli-təsəvvüf. Tehran, Kanuni-mərifət nəşriyyatı.
449. Ə.Abdullah. Səfəvilər dövründə din və dövlət ("Yanaşma: birinci xətt" dərgisi, №1, 1386 h.-ş.).
450. Ə.Cəfəri və b. Səfəvilər dövründə Cabirilər nəslinin divanbaşı vəzifəsində yeri və rolu (Mirzə Salman Cabiri misalında) (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi-araşdırma dərgisi, №4/20, 1392 h.-ş.).
451. Ə.Cəfəripur və İ.Türki Dəstgirdi. Səfəvilər dövlətinin dini azlıqlarla (yəhudi və zərdüştilərlə) rabitəsi ("Miskəveyh" dərgisi, №9, 1387 h.-ş.).
452. Ə.Gölpınarlı. Qızılbaş (tərcümə edən: V.Vəli; "Fərhəng" dərgisi, №1, 1366 h.-ş.).
453. Ə.H.Mehdəvi. Hökmdarlıq iddiası etmiş sonuncu Səfəvi şahzadəsi ("Siyasi-iqtisadi xəbərlər" dərgisi, №258, 1387 h.-ş.).
454. Ə.Heydəri, N.B.Bidəhəndi. Səfiəddin Ərdəbilinin seyidliyi mövzusuna baxış ("Tarix dər ayineyi-pejuheş" dərgisi, №2, 2011).
455. Ə.Xeyrəndiş. Səfəvilərin başlanğıcı və bu barədə araşdırmalar ("Kitabnameyi-tarix və coğrafiya", 1379 h.-ş., aban və azər ayları).
456. Ə.Mirənsari. Səfəvi dövrü təzkirələri bu dövrün şair, musiqişünas və ifaçılarının tanınması üşün dəyərli mənbə kimi (Nameyi-fərhəngistan, №1/14, 1393 h.-ş.).
457. Ə.Mübəyyin. Engelbert Kempferin baxışında Səfəvilər dövrünün İranı ("Kitabi-mah: tarix və coğrafiya", 1379 h.-ş., aban və azər ayları).
458. Ə.Mübəyyin. Şirli qardaşları Şah Abbas Səfəvinin sarayında ("Kitabi-mah: tarix və coğrafiya", 1383 h.-ş., bəhmən və esfənd ayları).
459. Ə.Müslimi və b. Səfəvi hökumətinin siyasi və ictimai quruluşunda qulamların yerinin təhlili (Tarix elmi-araşdırma dərgisi, №55, 1398 h.-ş.).
460. Ə.Nikuhimmət. Şah Abbasın Məşhədə piyada ziyarəti ("Vəhid", il: 2, sayı: 9).
461. Ə.R.Cabiri. Səfəvi dövlətinin quruluşu və güclənməsində rumluların rolu ("Parsə" dərgisi, №24, 1394 h.-ş.).
462. Ə.S.Ağqələ. Mirzə Rəfianın "Dəstur əl-müluk"u oxşar iki mətnlə müqayisədə ("Güzarişi-miras" dərgisi, №3-4, 1397 h.-ş.).
463. Ə.Şəbani. Şahzadə Əbülfəth Sultan İbrahim Mirzənin həyatı və onun kitabxanasının tarixi barədə araşdırma (İsfahan Universiteti ədəbiyyat və humanitar elmlər fakültəsinin dərgisi, №34-35, 1382 h.-ş.).
464. Ə.Şəhabinəjad və b. İsfahan Nəqşicahan meydanının formalaşma və dəyişmə tarixi ("Restavrasiya və mədəni irs bilikləri" dərgisi, №3, 1393 h.-ş.).

465. Ə.Tacbəxş. İran Səfəviyyə dövründə, Təbriz, 1340 h.-ş.
466. Ə.Tehrani Şəfəq. Saray əmirləri: Silsüpür sülaləsinin tarixi (Səfəvilərdən Qacar dövrünə kimi). Tehran, 1385 h.-ş.
467. Ə.Təhməzi və b. Büveyhi və Səfəvi hakimlərinin dini azlıqlarla qarşılıqlı əlaqələri ("Pejuheşnameyi-tarix" elmi dərgisi, №61, 1399 h.-ş.).
468. Əbdi bəy Şirazi. Təkmilət əl-əxbar (nəşrə hazırlayan: Ə.Nəvai). Tehran, 1369 h.-ş.
469. Əbdühüseyn Zərrinkub. Sufi irsinin dəyəri. Tehran, 1344 h.-ş.
470. Əbdülbaqi Hiyləmən. İrfan və təsəvvüf terminləri və nüanslar. Pişavər, nəşr ili naməlum.
471. Əbdüləziz ibn Məhəmməd Nəsəfi. Kəşf əl-həqaiq (nəşrə hazırlayan: Ə.M.Damğani). Tehran, 1359 h.-ş.
472. Əbdülhüseyn Əmini. Əl-Ğədir fi-l-kitab və-l-sünnə və-l-ədəb (11 cilddə, I cild). Beyrut, 1994.
473. Əbdülhüseyn Nəvai. İranın tarixi sənədləri və məktublaşmaları. Tehran, 2536 pəhləvi.
474. Əbdülməcid Şüca. Səfəvilər dövründə qadın, siyasət və hərəmxana. Səbzəvar, 1384 h.-ş.
475. Əbdürrəhman Cami. Nəfəhat əl-üns. Əl-Əzhər nəşri, nəşr ili naməlum.
476. Əbu Əbdürrəhman Süləmi. Kitab əl-fütüvvə (farsca tərcümə edən: Qasim Ənsari). Qum, 1385 h.-ş.
477. Əbu Nüeym İsfahani. Hilyət əl-övliya və təbəqat əl-əsfiya (10 cilddə, I cild). Beyrut, 1988.
478. Əbülfəzl Həsənabadi. Səfəvilər dövründə Məşhəddə Rezəvi seyidlərinin mövqeyinə bir baxış (Asitani-qüdsi-Rizəvinin "Miras" dərgisi, №3, 1388 h.-ş.).
479. Əbülhəsən Gülüstanə. Mücməl ət-təvarix (nəşrə hazırlayan: Müdərris Rezəvi). Tehran, 1344 h.-ş.
480. Əbülhəsən ibn İbrahim Qəzvini. Fəvaid əs-Səfəviyyə (nəşrə hazırlayan: Məryəm Mirəhmədi). Tehran, 1367 h.-ş.
481. Əhməd Gülçin Məani. Farsdilli təzkirələrin tarixi (2 cilddə). Kitabxaneyi-Simnani, 1363 h.-ş.
482. Əhməd Gülçin Məani. Həsən xan Şamlu ("Ayəndə", №5-8, 1369 h.-ş.).
483. Əhməd ibn Əli Təbrisi. Əl-İhticac (2 cilddə). İntişarat əş-Şərif ər-Rəzi, 1380 h.-ş.
484. Əhməd ibn Hənbəl. Müsnəd (12 cilddə). Beyrut, 2008.
485. Əhməd ibn Məhəmməd Ğəffari Kaşani (Qazı Əhməd Qəzvini). Tarixi-cahanara (nəşrə hazırlayan: Əhməd Nəraqi). Tehran, 1343 h.-ş.
486. Əhməd Kamranifər. Səfəvilərin güc qazanmaq yolunda hərbi çalışmaları: Cüneyd, Heydər, İsmayıl (Loristan Universitetinin "İran və İslam tarixi" elmi-ixtisas dərgisi, №4, 1387 h.-ş.).
487. Əhməd Kəsrəvi. Şeyx Səfi və nəsli. Tehran, 2535 pəhləvi.

488. Əhməd Rezəvi Müfrəd. Səfəvi hakimiyyətinin güclənməsində və İranda şiə məzhəbinin yayılmasında Cəbəli-Amil alimlərinin rolu (“Humanitar araşdırmalar” dərgisi, №37, 1394 h.-ş.).
489. Əqiqi Bəxşayişi. Məfaxiri-Azərbaycan (5 cilddə, I cild). Təbriz, 1374-75 h.-ş.
490. Əli Əbülqasimi. Səfəvilər dövründə Bozcalu elinin rolu (“Tarixnameyi-Xarəzmi”, №20, 1396 h.-ş.).
491. Əli Əkbər Mehdipur, Əcsadi-cavidan. Qum, 1373 h.-ş.
492. Əli Əkbər Yəzdani. Səfəvilər dövründə İran pulları (“Pəyami-baharistan” dərgisi, №15, 1391 h.-ş.).
493. Əli İbrahim Dərviş. Cəbəli-Amil 1516-1697-ci illər arasında: siyasi və mədəni həyat. Beyrut, 1993.
494. Əli Kurani. Peyğəmbərin 12 imam barədə müjdə hədisi əhli-sünnə mətnlərində (“İmamət Araşdırmaları” dərgisi, №12, 1392 h.-ş.).
495. Əli Mürüvvə. Ət-Təşəyyö beynə Cəbəl Amil və İran. London, 1987.
496. Əli Ovcəbi. Şəmsayi Gilani və İsfahan fəlsəfə məktəbi (“Ayineyi-miras” dərgisi, №3-4, 1384 h.-ş.).
497. Əli Pursəfər. Səfəvi hökuməti və türk qızılbaş tayfaları (“Nəşri-daniş” dərgisi, №76, 1372 h.-ş.).
498. Əl-Kütüb əs-sittə (Şeyx Saleh Alüşşeyxin redaktəsi ilə). Ər-Riyad, 1999.
499. Əllamə Məclisi, Məhəmməd Baqir. Mirat əl-üqul (26 cilddə). Tehran, 1375 h.-ş.
500. Əllamə Təbatəbai, Seyid Məhəmməd Hüseyn. Təfsir əl-mizan (20 cilddə). Qum, nəşr tarixi naməlum.
501. Əllamə Təbatəbai. İslamda Quran. Tehran, 1394 h.-ş.
502. Əs-Seyid Əbülqasim əl-Xoyi. Möcəm rical əl-hədis (24cilddə). İran nəşri, 1413 h.-q.
503. Əs-Seyid Haşim əl-Bəhrani. Əl-Bürhan fi təfsir əl-Quran (5 cilddə). Qum, nəşr tarixi naməlum.
504. Əs-Seyid Mahmud əl-Alusi əl-Bağdadi. Ruh əl-məani (30 cilddə). Beyrut nəşri, nəşr tarixi naməlum.
505. Əs-Seyid Nurullah bin Şərəfüddin əl-Mərəşi ət-Tüstəri. Məcalis əl-möminin (2 cilddə), Tehran, 1354 h.-ş.
506. Əl-Üsul min əl-Kafi (nəşrə hazırlayan: Ə.Qəffari, 2 cilddə). Tehran, 1381 h.-q.
507. Əmir Sədrəddin İbrahim Əmini Hərəvi. Fütuhati-Şahi (nəşrə hazırlayan: M.R.Nəsiri). Tehran, 1383 h.-ş.
508. Əzizəddin Nəsəfi. İnsani-kamil, 12-ci risalə.
509. F.Novzad. Hürmüzün fatehi İmamqulu xan və onun taleyinin sonu (“Vəhid” dərgisi, №1-2, 1346 h.-ş.).
510. F.Sərxeyl, Ə.Vələvi. Şah İsmayıl Səfəvi və Şeyban xan özbək arasındakı məktublaşmada hakimiyyət hüququ barədə polemikalar (“Tarixi araşdırmalar” dərgisi, №1, 1396 h.-ş.).

511. Fatimə Hacıabadi. Ətiqi vəqfinin mütəvəlliləri (“Pejuheşnameyi-mütaliati-sənədi və arşivi” dərgisi, №1, 1401 h.-ş.).
512. Fazil Hindi. Kəşf əl-lisam ən qəvaid əl-əhkam (11 cilddə). Qum, 1418 h.-q.
513. Fəxrəddin Razi. Ət-Təfsir əl-kəbir (32 cilddə). Əl-Əzhər nəşri, Misir.
514. Fərhəngi-farsiyi-Müin (6 cilddə). Tehran, 1384 h.-ş.
515. Fərzanə Qaini. Səfəvi sikkələri (“Mirasi-fərhəngi” dərgisi, №17, 1376 h.-ş.).
516. Fəzail əl-ənam min rəsail Hüccət əl-İslam (İmam Qəzzalinin farsca məktubları, nəşrə hazırlayan: Abbas İqbal). Tehran, 1333 h.-ş.
517. Fəzlullah Həqiq. İsfahanın Ali qapusu (“İrani-emruz”, №9, il: 2).
518. H.Allahyari, P.Ə.Qoşqayi. Səfəvilər dövrünün tarix yazılarında seyidliyin yeri və seyidlərin rolu (“Tarixi-İslam” elmi-araşdırma dərgisi, №40, 1399 h.-ş.).
519. H.C.Kəlkinari. Məhdi-ülya ləqəbli Xeyrənnisa bəyim (“Miskəveyh” Rey Azad Universitetinin nəşri, №9, 1387 h.-ş.).
520. H.Haciyanpur. Səfəvilər dövründə İranın sosial problemləri: Kempferin səyahətnaməsi əsasında araşdırma (“Tarixi-nov” dərgisi, №4, 1391 h.-ş.).
521. H.Mircəfəri. Rumlu tayfası və Səfəvi sülaləsi (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin nəşri, №13-14, 1355 h.-ş.).
522. H.Mircəfəri. Təkəlü tayfası və Səfəvi sülaləsi (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin nəşri, №11, 1353-54 h.-ş.).
523. H.R.Roemer. Qızılbaşlar – Səfəvi hökumətinin baniləri və qurbanları (fars dilinə tərcümə: M.Cəlilvənd, “Ayəndə”, №1-3, 1366 h.-ş.).
524. H.Şəhidi. Sultan Hüseyn Bayqaranın din siyasəti (“Mütaliati-tarixi-İslam” dərgisi, №29, 1395 h.-ş.).
525. H.Zəndiyyə, Ə.Cəfəri və S.M.H.Şahturabi. Səfəvilər dövründə şiə dini ayinlərinin keçirilməsinin nəticələri (“İran və İslam tarixi araşdırmaları” dərgisi, №13, 1392 h.-ş.).
526. Hacı Mirzə Həsən Hüseyni Fəsai. Farsnameyi-Nasiri (2 cilddə). Tehran, 1378 h.-ş.
527. Hafiz Hüseyn Kərbəlayi Təbrizi. Rəvəzat əl-cinan və cənnat əl-cənan (2 cilddə). Təbriz, 1383 h.-ş.
528. Hakim Həskani. Şəvahid ət-tənzil (nəşrə hazırlayan: M.B.Mahmudi, 3 cilddə). Tehran, 1990.
529. Hakim Nişaburi. Əl-Müstədrək əla-l-Səhiheyn (5 cilddə). Qahirə, 1997.
530. Heysəmi, Nurəddin Əli ibn Əbi Bəkr. Büğyət ər-raid fi təhqiq Məcmə əz-zəvaid və mənbə əl-fəvaid (nəşrə hazırlayan: A.M.Əd-Dərviş, 10 cilddə). Beyrut, 1994.
531. Həmdullah Mustovfi. Tarixi-güzidə (nəşrə hazırlayan: Ə.Nəvayi). Tehran, 1387 h.-ş.
532. Həmid Neyyir Nuri. Hicri XIII əsrin əvvəlindən indiyə kimi İran bayrağı və simvollarının dəyişiklik və inkişaf tarixçəsi (“Hünər və mərdüm” dərgisi, №47, 1347 h.-ş.).

533. Həmidrza Səfakiş. Səfəvilər tarix boyunca. Tehran, 1390 h.-ş.
534. Həsən bəy Rumlu. Əhsən ət-təvarix (nəşrə hazırlayan: Ə.Nəvai). Tehran, 1357 h.-ş.
535. Həsən Cavadi. Səfəvilər dövründə portuqaliyalı və ispaniyalı səyyahların İran barədə xatirələri ("Əlifba", 1356 h.-ş., cild 6).
536. Həsən Ənuşə. Fərhəngnameyi-ədəbiyyi-farsi (II cild). Tehran, 1381 h.-ş.
537. Həsən Qulupur, Pərviz Hasili. Avropa ilə mədəni əlaqələrin İsfahan rəssamlıq məktəbinə təsiri barədə araşdırma ("Pejuheşi-hünər" dərgisi, №17, 1398 h.-ş.).
538. Həsən Tarimi. Əllamə Məclisi. Tehran, 1375 h.-ş.
539. Həvizi, Əbd-Əli ibn əl-Cümə əl-Ərusi. Təfsir Nur əs-səqəleyn (nəşrə hazırlayan: S.H.Rəsuli Məhəllati, 5 cilddə). Qum nəşri.
540. Hidayət əl-ələm fi tənzim Ğürər əl-hikəm (nəşrə hazırlayan: S.H.Şeyxülislami). Qum, 1371 h.-ş.
541. Hürr Amili. Əməl əl-Amil (nəşrə hazırlayan: S.Ə.Əl-Hüseyni, 2 cilddə). Nəcəf 1385 h.-q.
542. Hürr Amili. Təfsil vəsail əş-şiə ila təhsil məsail əş-şəriə (30 cilddə). Qum, Müəssəsət Al əl-beyt li-ihya ət-tiras, 1414 h.-q.
543. Hüseyn Əhmədi. Talışlar (Səfəvilər dövründən II İran-Rusiya müharibəsinin sonuna kimi). Tehran, 1380 h.-ş.
544. Hüseyn Ənsariyan. İrfani-İslami (12 cilddə). Qum, Dar əl-irfan, 1386 h.-ş.
545. Hüseyn Xosrovi. Hind üslubunun xüsusiyyətlərinə yeni baxış ("Ədəbi tənqid və stilistika araşdırmaları" dərgisi, 1/31, 1397 h.-ş.).
546. Hüseyn Qəzzali İsfahani. Bir baxışda İsfahan. İsfahan, 1384 h.-ş.
547. Hüseyn Meysəmi. Səfəvilər dövrü musiqisinə bir baxış ("Gülüstani-hünər" dərgisi, №2, 1384 h.-ş.).
548. Hüseyn Mircəfəri. Çaldıranın igid qadını Taclu xanım (Təbriz Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin nəşri, №112, 1353 h.-ş.).
549. Hüseyn Müdərrisi Təbatəbai. Qəzvin tarixindən bir vərəq. Qum, 1361 h.-ş.
550. Hüseyn Nurbəxş. Şah Abbasın təlxəklərinin məzhəkələri ("Güzariş" dərgisi, №85-86, 1376-77 h.-ş.).
551. Hüseyn Purnadiri. Dövlətxaneyi-Nəqşicəhan Ali qapunun yaranması və formalaşması ("Süffə" dərgisi, №4, 1389 h.-ş.).
552. Hüseyn Vaiz Kaşifi Səbzəvari. Fütüvvətnameyi-sultani (nəşrə hazırlayan: M.C.Məhcub). 1350 h.-ş.
553. Hüseyn Yəzdi. Səfəvi paytaxtının İsfahana köçürülməsi: səbəb və nəticələr ("Rüşdi-amuzeş" dərgisi, №23, 1385 h.-ş.).
554. Xanbaba Bəyani. İranın hərbi tarixi: Səfəvilər dövrünün döyüşləri. Tehran, 1353 h.-ş.
555. Xondəmir, Qiyasəddin ibn Hümaməddin. Dəstur əl-vüzəra (nəşrə hazırlayan: Səid Nəfisi). Tehran, 2535 pəhləvi.

556. Xondəmir, Qiyasəddin ibn Hümaməddin. Həbib əs-siyər (nəşrə hazırlayan: M.Dəbirsiyaqi, 4 cilddə). 1380 h.-ş.
557. Xurşah ibn Qubad Hüseyni. Tarixi-elçiyi-Nizamşah (nəşrə hazırlayan: M.R.Nəsiri). Tehran, 1379 h.-ş.
558. İ.Mirabidini. Şah Təhmasibin qızı Pərixan xanım ("Rüşdi-amuzeşi-tarix" dərgisi, №8, 1380 h.-ş.).
559. İbn Bəzzaz Ərdəbili. Səfvət əs-səfa (nəşrə hazırlayan: Q.Təbatəbaiməcd). Təbriz, 1994.
560. İbn əl-Əsir. Ən-Nihayə fi-l-ğərib əl-hədis və-l-əsər (5 cilddə). Əl-Məktəbət əl-İslamiyyə, 1963.
561. İbn əl-Əsir. Üsüd əl-ğabə fi mərifət əs-səhabə. Beyrut, 2012.
562. İbn Həcər Heysəmi. Əs-Səvaiq əl-mühriqə fi-l-rədd əla əhl əl-bid və-l-zindiqə. Misir 1292 h.-q.
563. İbn İyas, Məhəmməd ibn Əhməd əl-Hənəfi. Bədai əz-zühur fi vəqai əd-dühur (5 cilddə). Misir, Mustafa əl-Babi əl-Hələbi və övladlarının mətbəəsi, nəşr tarixi naməlum.
564. İbrahim Bərzgər. Şah Sultan Hüseynin siyasi psixologiyası və Səfəvilər dövlətinin süqutunda bunun rolu ("Afaqi-əmniyyət" dərgisi, №27, 1394 h.-ş.).
565. İsgəndər bəy Münşi. Tarixi-aləmarayi-Abbasi. Tehran, 1314 h.-ş., daşbasma nəşri.
566. İsgəndər bəy Türkman Münşi və Məhəmməd Yusif Müvərrix. Zeyli-Tarixi-aləmarayi-Abbasi. 1317 h.-ş.
567. İter Persicum (Georq Tektander fon der Yabelin səyahətnaməsi, fars dilinə tərcümə: M.Təfəzzüli). İntişarati-bünyadi-fərhəngi-İran, 1351 h.-ş.
568. İzzəddin Kaşani. Misbah əl-hidayə və miftah əl-kifayə (nəşrə hazırlayan: C.Humayi). Tehran, 1394 h.-ş.
569. K.Ə.Mühacir və S.Kelher. İranın hökumət tuğra və möhürlərinin vizual tədqiqi ("Hünərhayi-təcəssümi" dərgisi, №3, payız, 1391 h.-ş.).
570. K.Morimoto. Ənsab kitabında Səfəvilərin seyidliyi barədə ilk nişan (farsca tərcümə: Əli Xakpur, "Pəyami-baharistan" dərgisi, №11, 1390 h.-ş.).
571. K.Siyahpur, N.Zəkipur. İsfahanın süqutundan sonra Səfəvi hakimiyyətinə daxili iddiaçılar: Səfi Mirzə üsyanı ("Tarixi-İran" dərgisi, №15, 1397 h.-ş.).
572. Kamil Mustafa Şeybi. Şiəlik və sufilik (fars dilinə tərcümə: Ə.Zəkavəti Qaragözlü). Tehran, 1374 h.-ş.
573. Karrerinin səyahətnanəsi (fars dilinə tərcümə: A.Naxçıvani və Ə.Karəng). 1348 h.-ş.
574. Klaus Röhrborn. Səfəvilər dövründə əyalətlərin nizamı (fars dilinə tərcümə: K.Cahandari). Tehran, 1349 h.-ş.
575. Kruşinskinin səyahətnaməsi (fars dilinə tərcümə: Ə.Dünbüli Məftun). 1366 h.-ş.
576. Külliyyati-Əşrəfi Mazandarani. Tehran, 1400 h.-ş.

577. Q.Mənsurbəxt və S.M.Tahiri Müqəddəm. Səfəvilər dövlətində alimlərin yeri ("Tarixi-İran" dərgisi, №5/64, 1389 h.-ş.).
578. Q.Səidiyan və Z.Yusifli. Mürşidqulu xan Ustaclu ("Miskəveyh" dərgisi, №10, 1387-88 h.-ş.).
579. Q.Səidiyan. Səfəvilər dövründə Əmir xan Türkmanın mənsəbi, fəaliyyəti və taleyi ("Pejuheşnaməeyi-tarix" dərgisi, №3, 1385 h.-ş.).
580. Qasim Qərib. Səfəvi–Gürgani münasibətlərinə təsir edən amillər ("Xarici əlaqələr tarixi" dərgisi, №74, 1398 h.-ş.).
581. Qazı Əhməd Qumi. Xülasət ət-təvarix (nəşrə hazırlayan: Ehsan İşraqi). Tehran, 1383 h.-ş.
582. Qazı Mir Əhməd Münşi Qumi. Gülüstani-hünər (nəşrə hazırlayan: Ə.S.Xansari). Bünyadi-fərhəngi-İran nəşriyyatı, 1352 h.-ş.
583. Qazı Nurullah Şüştəri. Məsalib ən-nəvasib fi-l-rədd əla Nəvaqiz ər-rəvafiz (nəşrə hazırlayan: Qeys əl-Əttar, 2 cilddə). Qum, 1426 h.-q.
584. Qəzzali, Əbu Hamid Məhəmməd. Kimiyayi-səadət. Tehran, 1333 h.-ş.
585. Qulamhüseyn Bigdili. Bigdili tarixi (3 cilddə). Tehran, 1374 h.-ş.
586. Qulamhüseyn Zeynəli. On iki canişin hədisi ("Kəlami-İslami" dərgisi, №92, 1393 h.-ş.).
587. Qulamrza Gülizəvarə. Qadınlar və Səfəvi hökmdarları ("Pəyami-zən" dərgisi, №161, 1384 h.-ş.).
588. Qulamrza Gülizəvarə. Qacarların qüdrət sahibi olmalarına qədər Əfşarların siyasi izdivacları ("Pəyami-zən" dərgisi, №174, 1385h.-ş.).
589. Qulamrza Mehdi Ravənci. Səfəvi dövrünə aid geyimlərin xarakteri barədə tarixi araşdırma ("Pejuheşnameyi-tarix" dərgisi, №58, 1399 h.-ş.).
590. Qurani-Məcidin ədəbi və irfani təfsiri (Xacə Abdullah Ənsarinin kəlamları əsasında Miybədinin qələmə aldığı "Kəşf əl-əsrar" təfsirinin xülasəsi, 2 cilddə). Tehran, 1376 h.-ş.
591. Qurtubi. Əl-Came li-əhkam əl-Quran (nəşrə hazırlayan: A.Ət-Türki, 24 cilddə). Beyrut, 2006.
592. L.D.Neyyiri, Ə.M.Əl-Qaim və Ə.Cəfəri. Səfəvilərin legitimlik böhranı və III İsmayılın hakimiyyət məsələsi (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi araşdırma dərgisi, №50, 1386 h.-ş.).
593. L.Lockhart. Nadir şah (fars dilinə tərcümə edən: Müşfiq Həmədani). Tehran, 1331 h.-ş.
594. Leyla Pəhləvanzadə. Şərqin elm şəhəri İsfahan Səfəvilər dövründə ("İctimai coğrafiyaya yeni baxış" dərgisi, №3, 1391 h.-ş.).
595. Lüğətnameyi-Dehxuda (15 cilddə). Tehran, 1999.
596. Lütfullah Hünərfər. Tarixi İsfahan şəhəri ilə tanışlıq. İsfahan, 1376 h.-ş.

597. M.Bəhramnəjad və S.Darabzadə. Səfəvilər dövründə lələnin ictimai-tərbiyəvi rolunun təhlili: qızılbaş əmirləri və hərəmxana qulamları (“Mütaliati-tarixi-fərhəngi” dərgisi, №19, 1393 h.-ş.).
598. M.Bəhramzadə və M.Dadbəxş. Səfəvilər dövründə səyahətnamələr və səyahətnamə yazılışı (“Mütaliati-İranşünasi”, №15, 1398 h.-ş.).
599. M.Cabbari, S.Fəthi. Qəzvin Çehelsütun sarayının funksional icmalı (“Arnam-şəhr” dərgisi, №10, 1387 h.-ş.).
600. M.Ə.Kərimzadə Təbrizi. Səfəvi nəslinin şəcərəsi (“Tarixi araşdırmalar”, №4/53, 1353 h.-ş.).
601. M.Ə.Pərğu, S.Qulamzadə. Səfəvilər dövründə əzadarlığın ziyanlarının öyrənilməsi istiqamətində bir araşdırma (“Tarixi-İslam” rüblük elmi jurnalı, №63, 1394 h.-ş.).
602. M.Ə.Rəncbər və İ.Ş.Bərcuyi. Şah Təhmasib Səfəvinin osmanlılarla müharibələrində kürd tayfalarının rolu və yeri (“Döyüş tarix mütaliələri” dərgisi, №1/7, 1398 h.-ş.).
603. M.Ə.Sadiqi Gəndümani və M.H.Şahi. I Şah Abbas və musiqi sənəti (“İslamdan sonra İran tarixi” elmi araşdırma dərgisi, №13, 1396 h.-ş.).
604. M.Əfruğ və Ə.Novruzitələb. Səfəvilər dövrü incəsənətində dini məfhumlar (“Nameyi-pejuheşi-fərhəngi”, №10, 1389 h.-ş.).
605. M.H.Raznihan və Ə.Xaləndi. Osmanlı-Avropa qarşıdurması ilə bağlı Səfəvi xarici siyasətinin mövqeyi (“Mütaliati-tarixi-İslam” dərgisi, №24, 1394 h.-ş.).
606. M.H.Raznihan. Böyük Ustaclu elində qarşıdurma və böhran (“Kitabi-mah” dərgisi, №142, 1388 h.-ş.).
607. M.H.Riyahi. İsfahanın məşhur qadınları. İsfahan. 1375 h.-ş.
608. M.H.Riyahi. Səfəvilər dövrü İsfahanının qadınlarından yadigar qalmış vəqflər (“Vəqfi-mirasi-cavidan” dərgisi, №71, 1389 h.-ş.).
609. M.H.Şahi və M.S.Gəndümani. Səfəvilər dövrünün sənətkarlıq proseslərində Sultan İbrahim Mirzənin rolu (Tarixi araşdırmalar dərgisi, İsfahan, №31, 1395 h.-ş.).
610. M.Hacıbabayi və İ.Aslani. Ruhanilərlə Səfəvilərin qarşılıqlı əlaqələrinin təhlili (“Tarixi-İran” dərgisi, №5/62, 1388 h.-ş.).
611. M.Həsənniya. Şah İsmayıl Səfəvinin sarayına göndərilmiş ilk Portuqaliya elçiləri (“Tarix və xarici əlaqələr” dərgisi, №34, 1387 h.-ş.).
612. M.İ.Arimi. Şah Sultan Hüseyndən Nadir şah dövrünə kimi Fətəli xan Qacar (“Gəncineyi-əsnad”, dördüncü il, üçüncü dəftər).
613. M.K.Rəhməti. İranda din dəyişikliyi: Səfəvilər dövründə din və qüdrət (“Kitabi-mah: din”, №89-90, 1383-84 h.-ş.).
614. M.K.Yusifcəmali. I Şah İsmayılın həyatı. Qum, 1376 h.-ş.

615. M.K.Yusifcəmali. Venesiyalıların İran səyahətnamələri barədə tənqidi araşdırma (“Tarix” elmi-araşdırma dərgisi, №1, 1385 h.-ş.).
616. M.K.Yusifcəmali. Səfəvilər dövrünün əvvəllərində musiqi və əyləncə (İsfahan Universiteti Ədəbiyyat və himanitar elmlər fakültəsinin elmi araşdırma dərgisi, №26-27, 1380 h.-ş.).
617. M.M.Rövşənfikr və R.M.Rudbali. Səfəvilər dövründə Kyhgiluyənin siyasi-hərbi rolunun təhlili (“İranın regional tarixi” dərgisi, №2/16, 1399 h.-ş.).
618. M.Mehmannəvaz, S.M.Musəvixu. Fəthəli xan Daşıstaninin yüksəliş və süqutunda saray intriqalarının rolunun təhlili (“İran və İslam tarixi araşdırmaları” dərgisi, №25, 1398 h.-ş.).
619. M.Mehmannəvaz. II Şah Abbasın zamanında saray intriqalarında Saru Tağının yeri və rolu (“İran və İslam tarixi araşdırmaları” dərgisi, №27, 1399 h.-ş.).
620. M.Məhəmmədqubar. Əfqanıstan tarix boyunca (2 cilddə). Kabil, 2014.
621. M.Müdərris Mütləq. İsfahan fəlsəfə məktəbi. Tehran, 1389 h-ş.
622. M.N.Haşimi. İsfahanın süqutu faciəsinə yeni baxış (İsfahan Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin elmi araşdırma dərgisi, qış 1377 h.-ş.).
623. M.Səlim və M.Heydəri. “Aləmarayi-Şah Təhmasib”in yeni tapılmış nüsxəsi (“Pejuheşnameyi-tarix” dərgisi, №18, 1389 h.-ş.).
624. M.Sülhi, M.Əziznəjad və M.S.Musəvi. Gəncə xanı Şahverdi xanın Osmanlı dövlətinə yolladığı məktubun təhlili (“Gəncineyi-əsnad” dərgisi, 1392 h.-ş., ikinci dəftər).
625. M.T.Fəqih. Cəbəli-Amil tarixdə. Beyrut, 1986.
626. M.Zeynali və b. Səfəvilər dövründə əsas dini vəzifələr (“Hünəri-İslami”, №43, 1400 h.-ş.).
627. Mehdi Dehqani. Səfəvilər dövrü alimlərinin sosial mahiyyəti (Sistan və Bəlucistan Universitetinin İslam və İran tarixi araşdırmaları dərgisi, №1, 1401 h.-ş.).
628. Mehdi Əmin Rezəvi. Sührəverdi və işraq məktəbi. Tehran, 1377 h.-ş.
629. Mehdi Fərəhani Münfərid. Səfəvilər dövrü: Şiə alimlərinin mühacirəti (“İran” qəzeti, 07.12.1996, №541).
630. Mehdi Fərhad Münfərəd. Teymurilərin süqutu və Səfəvilərin zühuru dövründə siyasət və mədəniyyətin vəhdəti. Tehran, 1382 h.-ş.
631. Mehdi Hairi Yəzdi. “Əsfar” kitabına giriş (“İrannamə” dərgisi, №1, 1368 h.-ş.).
632. Mehdi Razani. Çehelsütunun rəsmləri və rəssamları (“Fərhəngi-İsfahan” dərgisi, №40, 1387 h.-ş.).
633. Mehdi Seyidi. Məşhədin Rezəvi seyidlərinin övlad vəqflərinə bir baxış (“Vəqfi-mirasi-cavidan” dərgisi, №35-36, 1380 h.-ş.).
634. Məhəmməd Baqir əl-Məclisi. Bihar əl-ənvar əl-camiə li-dürər əxbar əl-əimmət əl-əthar (110 cilddə). Beyrut, Dar ehya ət-tiras əl-ərəbi, 1983.
635. Məhəmməd Haşim İsfahani. Rüstəm ət-təvarix (nəşrə hazırlayan: Məhəmməd Müşiri). Tehran, 1348 h.-ş.

636. Məhəmməd Hüseyn Haşimiyan. Şeyx Bəhai hamamının istilik sisteminin layihələndirilməsi istiqamətində araşdırmalar (ICONFAAA materialları).
637. Məhəmməd Hüseyn Quddusi. Nadirnamə. Çapxaneyi-Xorasan, 1339 h.-ş.
638. Məhəmməd ibn Əbdülkərim Şəhristani. Məfatih əl-əsrar və məsabih əl-əbrar (nəşrə hazırlayan: M.Azərşəb). Tehran, 1386 h.-ş.
639. Məhəmməd ibn Münəvvər. Əsrar ət-tövhid fi məqamat Şeyx Əbi Səid Əbi-l-xeyr. Tehran, 1376 h.-ş.
640. Məhəmməd ibn Münəvvər. Əsrar ət-tövhid fi məqamat Şeyx Əbi Səid Əbi-l-xeyr (nəşrə hazırlayan: V.Jukovski). Sankt-Peterburq, 1899.
641. Məhəmməd İbrahim Nəsiri. Dəsturi-şəhriyaran (nəşrə hazırlayan: M.N.Nəsiri Müqəddəm). Tehran, 1373 h.-ş.
642. Məhəmməd Kazim Mərvi. Aləmarayi-Nadiri (3 cilddə, nəşrə hazırlayan: M.Ə.Riyahi). Kitabfüruşiyi-Zəvvar, 1364 h.-ş.
643. Məhəmməd Məsum ibn Xacəgi İsfahani. Xülasət əs-siyər (nəşrə hazırlayan: İrəc Əfşar). Tehran, 1368 h.-ş.
644. Məhəmməd Möhsin Mustovfi. Zübdət ət-təvarix (nəşrə hazırlayan: Bəhruz Gudərzi). Tehran, 1375 h.-ş.
645. Məhəmməd Nəbi Səlim. Cəbəli-amillilərin Səfəvilər dövlətinə mühacirəti: əfsanə, ya həqiqət ("Ayineyi-pejuheş" dərgisi, №143-144, 1392 h.-ş).
646. Məhəmməd Reyşəhri. Mizan əl-hikmə (12 cilddə). Beyrut, 2001.
647. Məhəmməd Reyşəhri. Movsuət əl-İmam Əliyy bin Əbi Talib (12 cilddə). Beyrut, 2000.
648. Məhəmməd Tahir Vəhid. II Şah Abbasın əhvalatı (nəşrə hazırlayan: Səttar Əvdi), Tehran, 1334 h.-ş.
649. Məhəmməd Təqi Müdərrisi. İslami irfan bəşər nəzəriyyələri ilə vəhy bəsirətinin arasında. Beyrut, 1992 h.-q.
650. Məhəmməd Yusif Valeh İsfahani. Xüldi-bərin (nəşrə hazırlayan: Mir Haşim Mühəddis). Tehran, 1372 h.-ş.
651. Məhəmmədəli Kərimzadə Təbrizi. Əhval və asari-nəqqaşani-qədimi-İran (3 cilddə). London, 1990-91; İran nəşri, 1376 h.-ş.
652. Məhəmmədrza ibn Əbdülcəmil Nəsiri. Fərhəngi-Nəsiri: türki-cığatayi, rumi, qızılbaşı, rusidən farscaya (nəşrə hazırlayanlar: H.Cavadi, V.Flor, M.Kaçalin). Təbriz, 1393 h.-ş.
653. Məryəm Əmin ər-Rəaya. Ali qapu sarayı – İsfahanın incəsənət xəzinəsi. İsfahan, 1394 h.-ş.
654. Məryəm Kəşmiri. Səfəvilər zamanında ifaçıların yeri ("Təsviri incəsənət və musiqi nəşriyyəsi", №2, 1397 h.-ş.).
655. Məsudi, Əbil-Həsən Əli. Müruc əz-zəhəb və məadin əl-cəvahir (4 cilddə). Beyrut, 2005.

656. Michel M.Mazzaoui. Səfəvilər dövlətinin yaranması (fars dilinə tərcümə: Y.Ajənd). Tehran, 1388 h.-ş.
657. Mir Lovhi. Kifayət əl-mühtədi fi mərifət əl-Mehdi (müqəddimə). Qum, 1384 h.-ş.
658. Mirzə Abdullah Əfəndi. Riyaz əl-üləma və hiyaz əl-füzəla (nəşrə hazırlayan: S.Ə.Hüseyni, 7 cilddə). Qum, 1403 h.-q.
659. Mirzə bəy Cünabədi. Rövzət əs-Səfəviyyə (nəşrə hazırlayan: Q.Təbatəbai-məcd). Tehran, 1378 h.-ş.
660. Mirzə Hüseyn əl-Nuri ət-Təbrisi. Müstədrək əl-Vəsail və müstənbət əl-məsail (18 cilddə). Beyrut, 1991.
661. Mirzə Mehdi xan Astarabadi. Cahangüşayi-Nadiri (nəşrə hazırlayan: S.A.Ənvar). Tehran, 1377 h.-ş.
662. Mirzə Məhəmməd Baqir Xansari. Rəvəzat əl-cənnat fi əhval əl-üləma və-l-sadat (8 cilddə). Tehran, 1390 h.-q.
663. Mirzə Məhəmməd Xəlil Mərəşi Səfəvi. Məcmə ət-təvarix (nəşrə hazırlayan: Abbas İqbal). 1362 h.-ş.
664. Mirzə Məhəmməd Məsum. Tarixi-səlatini-Səfəviyyə (nəşrə hazırlayan: Seyid Əmir Həsən Abidi). Bünyadi-fərhəngi-İran, 1351 h.-ş.
665. Mirzə Məhəmmməd Rəfi Ənsari. Dəstur əl-müluk (nəşrə hazırlayan: Nobivaki Kundu). Tokio, 1397 h.-ş.
666. Molla Cəlaləddin Münəccim. Tarixi-Abbasi ya ruznameyi-Molla Cəlal (nəşrə hazırlayan: Seyfullah Vəhidniya). Vəhid nəşriyyatı, 1366 h-ş.
667. Molla Sədra (Sədrəddin Şirazi). Əsfar (fars dilinə tərcümə: M.Xacuyi, 7 cilddə). Tehran, 1384 h.-ş.
668. Müdərris Təbrizi, Mirzə Məhəmməd Əli. Reyhanət əl-ədəb fi təracim əl-mərufin bi-l-künyət və-l-ləqəb (8 cilddə). Çapxaneyi-Heydəri, 1374 h.-ş.
669. Müdərrisi Təbatəbai. Səfəvi sədrlərinin misalları. Qum, 1353 h.-ş.
670. Mühəmməd əl-Hüseyn Ali-Kaşif əl-ğita. Əsl əş-şiə və üsuliha. Beyrut, 1990.
671. Mühibbüddin Təbəri. Zəxair əl-üqba fi mənaqib zəvi-l-qürba (nəşrə hazırlayanlar: Ə.Əl-Buşi və M.Əl-Arnavut).
672. Mürtəza Əsgəri. Bu ümmətin imamları 12 nəfərdir. Tehran, 1376 h.-ş.
673. Mürtəza Müdərrisi Çəhardəhi. Müşəşəilər ("Tarix araşdırmaları" dərgisi, №74, 1356 h.-ş.).
674. Mürtəza Mütəhhəri. İslami elmlərlə tanışlıq (3 cilddə, II cild). Tehran, 1369 h.-ş.
675. N.Abdullahi və Ə.Kəcbaf. Səfəvilərin legitimliyi və Nadirin şahlığı ("İslamdan sonrakı İran tarixi" elmi araşdırma dərgisi, №6, 1392 h.-ş.).
676. Nəhc əl-bəlağə (farsca tərcümə edən: M.Zamani). Qum, 1373 h.-ş.
677. Nəqş və nəqşbənd (məqalələr toplusu, tərtib edən: Mənijə Kəngərani). Tehran, 1397 h.-ş.
678. Nəsirəddin Tusi. Ovsaf əl-əşraf (nəşrə hazırlayan: S.M.Şəmsəddin). Tehran, 1373 h.-ş.

679. Nəsirəddin Tusi. Təcrid əl-etiqad (nəşrə hazırlayan: M.C.H.Cəlali). 1407 h.-q.
680. Nəsirəddin Tusi. Təcrid əl-əqaid (nəşrə hazırlayan: A.M.H.Süleyman). Dar əl-mərifət əl-camiə, 1996.
681. Nəsrullah Fəlsəfi. Bir neçə tarixi və ədəbi məqalə (iki cilddə). Tehran, 1347-48 h.-ş.
682. Nəsrullah Fəlsəfi. Çaldıran savaşı (Tehran Universiteti ədəbiyyat fakültəsinin dərgisi, №2, 1332 h.-ş.).
683. Nəsrullah Fəlsəfi. I Şah Abbasın həyatı. Tehran, 1347-53 h.-ş.
684. Nəsrullah Fəlsəfi. Səkkiz tarixi və ədəbi məqalə. Tehran, 1330 h.-ş.
685. Nəsrullah Fəlsəfi. Şah Abbasın İngiltərədəki səfiri Nəqdəli bəy ("Mehr" dərgisi, №9, 1315 h.-ş.).
686. Nətənzi, Mahmud ibn Hidayətullah. Nəqavət əl-asar fi zikr əl-əxyar dər tarixi-Səfəviyyə (nəşrə hazırlayan: Ehsan İşraqi). 1373 h.-ş.
687. Nur Əli Tabəndə (Məczubəli şah). Zikr və fikr. 1391 h.-ş.
688. Nurullah Larudi. "Qılınc övladı" Nadir şahın həyatı. Tehran, 1319 h.-ş.
689. Nüsrətullah Bəxtəvərtaş. Səfəvilər dövründə ordu idmanından seçmələr ("Tarixi rəylər", №5, azər-dey, 1349 h.-ş.).
690. Nüzhət Əhmədi. Səfəvilər dövründə İsfahan (hind) üslubu ("Fərhəngi-İsfahan" dərgisi, №27-28, 1383 h.-ş.).
691. Pərviz Vərcavənd. Qəzvinin tarix və mədəniyyət siması. Tehran, 1377 h.-ş.
692. Pyetro della Vallenin səyahətnaməsi (farsca tərcümə: Şüaəddin Şəfa). Şirkəti-intişarati-elmi və fərhəngi, 1370 h.-ş.
693. R.A.Nikolson. Müsəlman ariflərin irfanı (tərcümə: Ə.Azad). Məşhəd, nəşr tarixi naməlum.
694. R.Cordi. Cəbəli-Amil alimləri Səfəvilər dövlətində (farsca tərcümə, "Hökuməti-İslami" dərgisi, №7, 1377 h.-ş.).
695. R.Ş.Qasimxeyli və İ.Müşfiqifər. Əfqanların üsyanında Səfəvi hökumətinin hərbi tədbirlərinin təhlili ("Mütaliati-tarixiyi-cəng" dərgisi, №1, 1395 h.-ş.).
696. R.Ş.Qasimxeyli və İ.Müşfiqifər. Səfəvilər dövrü hərbi taktikasının araşdırma və təhlili ("Mütaliati-tarixiyi-cəng", №2/12, 1399 h.-ş.).
697. Rağib İsfahani. Əl-Müfrədat fi ğərib əl-Quran. Dar əl-mərifə nəşri, Beyrut, nəşr ili naməlum.
698. Ramin Yulfani. Şah Sultan Hüseyn Səfəvinin hakimiyyət dövründəki iqtisadi vəziyyət ("Fiqh və mədəniyyət tarixi" ixtisas dərgisi, №16, 1387 h.-ş.).
699. Rəsul Cəfəriyan. Səfəvilər dövründə qulam və kənizlər barədə yeni məlumatlar ("Pəyami-baharistan" dərgisi, №14, 1390 h.-ş.).
700. Rəsul Cəfəriyan. Səfəvilər dövlətinin qurulmasında alimlərin iştirakına bir baxış ("Hökuməti-islami" dərgisi, №28, 1382 h.-ş.).
701. Rəsul Cəfəriyan. Səfəviyyə din, mədəniyyət və siyasət meydanında (3 cilddə). Qum, 1379 h.-ş.

702. Rəsul Cəfəriyan. Şiə mədəniyyətində Novruz (“Nameyi-müfid” dərgisi, №9, 1376 h.-ş.).
703. Rəsul Fəthiməcd. Şah İsmayıl Səfəvinin bir şəcərəsi (Təbriz Universiteti Ədəbiyyat və humanitar elmlər fakültəsinin dərgisi, №140-141, 1370 h.-ş.).
704. Rəuf Musəvi. Ərdəbil Səfəvilər dövründə. Təbriz, 1379 h.-ş.
705. Richard Tapper. Şahsevən (Qaraqoyunlular–Ağqoyunlular, farsca tərcümə: M.Dehram, “Tarix araşdırmaları”, №5, 1347 h.-ş.).
706. Risaleyi-Qüşeyriyyə (farsca tərcümə: Bədiüzzaman Firuzənfər). İntişarati-elmi-fərhəngi, 1374 h.-ş.
707. Roger Savory. Səfəvilər dövrü İran tarixinə dair araşdırmalar (fars dilinə tərcümə: A.Qəffarifərd və M.B.Aram). Tehran, 1382 h.-ş.
708. Roger Savory. Səfəvilər dövrünün İranı (farsca tərcümə: Kambiz Əzizi). Tehran, 1385 h.-ş.
709. Röya Payun. Səfəvilər dövründə təsəvvüfün tarixi (“Fərhəngi-İsfahan” dərgisi, №19, 1380 h.-ş.).
710. Rza Şapuriyan. Səfəvi sikkələrinin yazıları (“Xirəd və kuşiş”, №10, 1351 h.-ş.).
711. Rzaqulu xan Hidayət. Riyaz əl-arifin. Tehran, 1316 h.-ş.
712. S.Ə.B.Şirazi. Şərhi-cünun (Hafiz Şirazi divanının mövzular üzrə şərhi, I cild), Rovzənə nəşriyyatı, 1371 h.-ş.
713. S.Ə.Münəvvəri. Din-dövlət münasibətləri və İranın Osmanlı dövləti ilə xarici əlaqələrinin yaranma mərhələsi (“Tarix və rəvabiti-xarici” dərgisi, №73, 1396 h.-ş.).
714. S.Ə.R.Xizri və Ə.Fuladipənah. Səfəvilər dövründə İranda karmelitlər ordeninin fəaliyyəti (“Mütaliati-tarixi-İslam” dərgisi, №11, 1390 h.-ş.).
715. S.Ə.Üqeyli. Səfəvilər dövlətinin təşkilindən əvvəl və sonra qızılbaşların rolunun tarixi təhlili (“İran və İslam tarix araşdırmaları dərgisi”, №18, 1395 h.-ş.).
716. S.Əzimi, M.L.Şatiri. Qüdrətə nail olmaqda şəriətə uyğunluq və məqbulluq şərti (İsfahanın süqutundan Muğan qurultayına kimi Səfəvi hakimiyyətinin iddiaçıları) (“Pəyami-nov” dərgisi, №29, 1398 h.-ş.).
717. S.H.Ağacəri və İ.Müşfiqifər. I Şah Abbas dövründə İranın hərbi strategiyasının və onun komponentlərinin təhlili (“Əncüməni-İraniyi-tarix” araşdırma dərgisi, №4, 1379 h.-ş.).
718. S.H.Ağacəri, M.H.Raznihan və H.Bayati. Səfəvilər dövründə siyasi sığınacaqlar (Ulamə Təkəlünün Osmanlı imperiyasına sığınması misalında) (Əz-Zəhra Universitetinin “İslam və İran tarixi” elmi-araşdırma dərgisi, №23/113, 1393 h.-ş.).
719. S.H.Ağacəri, Həsən Allahyari. Səfəvilər dövründə seyid məfhumunun təkamülü və müxtəlifliyi (“Mütaliati-tarixi-İslam”, №9, 1390 h.-ş.).
720. S.H.Müvəhhid Əbtəhi. İsfahan elm hövzəsinin şiə kökləri və təzahürləri tarix boyunca. İsfahan, 1418 h.-q.

721. S.M.B.Hüccəti. Qurani-Kərimin tarixi barədə araşdırma. Dəftəri-nəşri-fərhəngi-İslami, 1375 h.-ş.
722. S.M.Dəbirsəyaqi. Qəzvin şəhərinin və binalarının tarixi. Qəzvin, 1381 h.-ş.
723. S.M.Şahmuradi. Səfəvilər dövrünün proseslərində Pərixan xanımın yaradıcı rolu ("İran və İslam tarix araşdırmaları" dərgisi, №26, 1399 h.-ş.).
724. S.Nəcəfinəjad. I Şah İsmayıl Səfəvinin mehdilik iddiası nəzəriyyəsinin tənqidi və təhlili ("Məşriqi-mövud" dərgisi, №60, 1400 h.-ş.).
725. Sadiq bəy Əfşar. Məcmə əl-xəvas (müqəddimə: Əbdürrəsul Xəyyampur). Təbriz, 1327 h.-ş.
726. Sam Mirzə. Töhfeyi-Sami (nəşrə hazırlayan: Vəhid Dəstgirdi). 1352 h.-ş.
727. Sansonun səyahətnaməsi (nəşrə hazırlayan: T.Təfəzzüli). Tehran, 1346 h.-ş.
728. Sara Şuhani. Şah Sultan Hüseynin din siyasətinin təhlili ("Tarixi-nov" dərgisi, №7, 1386 h.-ş.).
729. Sasan Təhmasibi. Səfəvilər dövründə Xorasanda şiə məzhəbinin rəsmiləşməsi ("İranın lokal tarixi" dərgisi, №2, 1393 h.-ş.).
730. Seyid Cəfər Səccadi. İrfani söz, termin və ibarələr lüğəti. Tehran, 1991.
731. Seyid Cəfər Səccadi. İslam maarifi lüğəti (3 cilddə). Tehran, 1373 h.-ş.
732. Seyid Əbdüzzəhra Hüseyni Xətib. Məsadir Nəhc əl-bəlağə və əsaniduh (4 cilddə). Beyrut, 1985.
733. Seyid Heydər Amuli. Came əl-əsrar və mənbə əl-ənvar (nəşrə hazırlayanlar: A.Korbin və O.İ.Yəhya). Tehran, 1969.
734. Seyid Həsən Əmin. Ensiklopedik bilikli böyük alim Şeyx Bəhai ("Məcmueyi-məqalat", №57, 1387 h.-ş.).
735. Seyid Həsən ibn Mürtəza Hüseyni Astarabadi. Tarixi-sultani ("Şeyx Səfidən Şah Səfiyə kimi"; nəşrə hazırlayan: Ehsan İşraqi). Tehran, 1366 h.-ş.
736. Seyid Kamal Heydəri. Əl-İrfan əş-şii. Qum, 2008.
737. Seyid Məhəmməd Kərəki Hairi. Təsliyət əl-mücalis və ziynət əl-məcalis (2 cilddə). Qum, 1418 h.-q.
738. Seyid Məhəmməd Mühit Təbatəbai. Cəfəri islami Novruz ("Vaçar" dərgisi, №1, 1400 h.-ş.).
739. Seyid Möhsün əl-Əmin. Əyan əş-şiə (11 cilddə, VIII cild). Beyrut, 1983.
740. Seyid Mürtəza Firuzabadi. Fəzail əl-xəmsə min əs-sihah əs-sittə (3 cilddə, I cild), Qum, 1424 h.-q.
741. Seyid Mürtəza ibn Dai Həsəni Razi. Təbsirət əl-əvam fi mərifət məqalat əl-ənam (nəşrə hazırlayan: A.İqbal). Tehran, 1364 h.-ş.
742. Seyid Nemətullah əl-Cəzairi. Əl-Ənvar əl-Nömaniyyə (nəşrə hazırlayan: Məhəmməd Əli Qazi Təbatəbai, 4 cilddə). Beyrut, 2010.
743. Seyid Zahir Hüseyni. Şeyx Bəhainin memarlıq əsərlərinin təhlili ("Süxəni-tarix" dərgisi, №9, 1389 h.-ş.).

744. Seyid Ziyaəddin Səccadi. İrfan və təsəvvüfün əsaslarına giriş. Tehran, 1372 h.-ş.
745. Səccadi Hüseyni. "Qızılbaş" sözünün semantik məna formaları ("Mütaliati-tarixi-İslam" dərgisi, №32, 1396 h.-ş.).
746. Səfəvi hökumətinin idarəetmə sistemi ("Təzkirət əl-müluk" əsəri üzərində V.Minorskinin araşdırmaları, nəşrə hazırlayan: M.Dəbirsəyaqi). Tehran, 1334 h.-ş.
747. Səhifeyi-Səccadiyyə (farsca tərcümə: Hüseyn Ənsariyan). 1375 h.-ş.
748. Səid Qanei. Şah Abbas Səfəvi. Tehran, 1387 h.-ş.
749. Səid Nəcəfi-nəjad. I Şah İsmayıl Səfəvinin mehdilik iddiası nəzəriyyəsi barədə tənqidi araşdırma ("Məşriqi-mövud" dərgisi, №60, 1400 h.-ş.).
750. Sərrac Tusi. Əl-Lümə. Bağdad, 1960.
751. Shaw Stanford Jay. Osmanlı imperiyasının və yeni Türkiyənin tarixi (fars dilinə tərcümə: M.Ramazanzadə, 2 cilddə). Məşhəd, 1370 h.-ş.
752. Sirus Şəfəqi. Səfəvilər dövründə İsfahanda şəhərsalmanın əsasları ("Fərhəngi-İsfahan" dərgisi, №15, 1379 h.-ş.).
753. Sultan Haşim Mirzə. Zəburi-Ali-Davud (nəşrə hazırlayan: Ə.Nəvai). Tehran, 1379 h.-ş.
754. Sührəvərdi, Şihabəddin Yəhya. Hikmət əl-işraq (fars dilinə tərcümə və şərhlər: S.C.Səccadi). Tehran Universitetinin nəşri.
755. Sührəvərdi, Şihabəddin Yəhya. Hikmət əl-işraq (nəşrə hazırlayan: İnam Heydurə). Dar əl-məarif əl-hikmiyyə, 2010.
756. Süleyman Heydəri. Tövhidxana və Səfəvilər dövründə onun rolu ("Rüşdi-amuzeşi-tarix" dərgisi, №11, 1381 h.-ş.).
757. Ş.Gülsürxi. Pərixan xanım ("Rüşdi-amuzeşi-tarix" №12, 1382 h.-ş.).
758. Şah İsmayıl və Şah Təhmasib Səfəvinin tarixi (Zeyli-tarixi-Həbib əs-siyər, təshih və haşiyə: Məhəmməd Əli Cərrahi). Tehran, 1370 h.-ş.
759. Şah Sultan Hüseynin sarayındakı Portuqaliya səfirinin raportu (fars dilinə tərcümə edən: P.Hikmət). Tehran, 2537 pəhləvi.
760. Şah Təhmasib təzkirəsi. Berlin, 1343 h.-q.
761. Şahzad Bəşir. Şah İsmayıl və qızılbaşlar: Səfəvilər dövrünün əvvəllərindəki dini tarixdə kannibalizm ("Pəyami-baharistan", №16, 1391 h.-ş.).
762. Şardenin səyahətnaməsi (farsca tərcümə edən: M.Abbasi, 10 cilddə, VIII cild). Tehran, 1966.
763. Şeyx Abbas Qumi. Müntəha-l-amal. 1373 h.-ş.
764. Şeyx Abbas Qumi. Nəfəs əl-məhmum və nəfsət əl-məsdur. Kitabxaneyi-İslamiyyə nəşri, Tehran, nəşr tarixi naməlum.
765. Şeyx Abbas Qumi. Səfinət əl-Bihar və mədinət əl-hikəm və-l-asar (2 cilddə), h.-q. 1355-ci il Nəcəf nəşrinin ofset üsulu ilə yeni çapı.
766. Şeyx Bəhai. Kəşkül (fars dilinə tərcümə: Əzizullah Katib). Tehran, 1375 h.-ş.
767. Şeyx Bəhai. Tovzih əl-məqasid. Qum, 1406 h.-q.

768. Şeyx Hüseyn Pirzadə Zahidi. Silsilət ən-nəsəbi-Səfəviyyə. Berlin, 1343 h.-q.
769. Şeyx Müfid. Əl-İrşad fi mərifət hücəc-Allah əla-l-ibad (2 cilddə). Beyrut, 1995.
770. Şeyx Yusif Bəhrani. Əl-Kəşkul (Ənis əl-müsafir və cəlis əl-hazir, nəşrə hazırlayan: S.M.Əl-Məüllim, 3 cilddə). Əl-Məktəbət əl-Heydəriyyə, 1428 h.-q.
771. Şəhristani. Əl-Miləl və-l-nihəl (nəşrə hazırlayan: Məhəmməd ibn Fəthullah Bədran, 2 cilddə). Qahirə nəşri.
772. Şərəf xan Bidlisi. Şərəfnamə (nəşrə hazırlayan: V.V.Zernov). Tehran, 1377 h.-ş.
773. Şirli qardaşlarının səyahətnaməsi (doktor Məhəbbət Ayinin müqəddiməsi ilə). Mənuçöhri nəşriyyatı, 1357 h.-ş.
774. Şövkani. Fəth əl-qədir. Beyrut, Dar əl-Mərifə, 2007.
775. Tarix və səfərnameyi-Həzin (nəşrə hazırlayan: Əli Dəvvani). Tehran, 1375 h.-ş.
776. Tarixi-cahangüşayi-xaqan (nəşrə hazırlayanlar: N.Əhmədi, N.Cəfrudi). Tehran, 1400 h.-ş.
777. Tarixi-Səfəviyan. Xülasət ət-təvarix, Tarixi-Molla Kəmal (nəşrə hazırlayan: İbrahim Dehgan). Ərak, nəşr tarixi naməlum.
778. Təbərani, Əbulqasim Süleyman ibn Əhməd. Əl-Möcəm əl-kəbir. Qahirə nəşri.
779. Təbəri, Əbu Cəfər Məhəmməd ibn Cərir. Came əl-bəyan ən təvil ayə-l-Quran (nəşrə hazırlayan: A.Ət-Türki, 26 cilddə). Giza, 2001.
780. Təbrisi, Fəzl ibn əl-Həsən. Məcmə əl-bəyan fi təfsir əl-Quran (10 cilddə). Beyrut, Dar əl-Mürtəza, 2006.
781. Təbrisi, Rəziyəddin Əbi Nəsr. Məkarim əl-əxlaq. Məktəbət əl-Əlfeyn, Küveyt nəşri.
782. Təfrişi, Seyid Mustafa. Nəqd ər-rical (5 cilddə). Qum, 1418 h.-q.
783. Təfsiri-nümunə (Ayətullah N.M.Şirazinin rəhbərliyi altında, 27 cilddə). Tehran, 1387 h.-ş.
784. Təyalisi, Əbu Davud. Müsnəd (4 cilddə). Giza, 1999.
785. Təzkireyi-Nəsrabadi (nəşrə hazırlayan: Vəhid Dəstgirdi). Tehran, Ərməğan nəşriyyatı.
786. Timur Aytberov. Şeyx Heydər Səfəvinin Dağıstanda yeni tapılmış məzar daşı ("Pəyami-baharistan" dərgisi, №9, 1389 h.-ş.).
787. Titus Burckhardt. Təsəvvüf ayininə giriş (farscaya tərcümə: Yəqub Ajənd). Mövla nəşriyyatı, 1374 h.-ş.
788. Toşihiko İzutsu. İşraq fəlsəfəsi (tərcümə: M.Məhəmmədi, "Cahan" jurnalı, https://mesiha.blogspot.com/2009/09/israq-sozu-nurlandrma-isqlandrma.html).
789. Töhfət əl-ixvan dər bəyani-üsuli-fütüvvət və adabi-fətyan (nəşrə hazırlayan: M.Damadi). Bünyadi-fərhəngi-İran, 1351 h.-ş.
790. Turxan Gəncəyi. Səfəvilər dövləti və türk dili (fars dilinə tərcümə: N.Salihi, "Pəyami-baharistan" dərgisi, №6, 1388 h.-ş.).

791. Valeh Dağıstani. Riyaz əş-şüəra (nəşrə hazırlayan: M.Naci Nəsrabadi, 2 cilddə). Tehran, 1384 h.-ş.
792. Venesiyalıların İran səyahətnamələri (fars dilinə tərcümə edən: M.Əmiri). Xarəzmi nəşriyyatı, 1381 h.-ş.
793. Vəliqulu bəy Şamlu. Qisəs əl-xaqani (nəşrə hazırlayan: S.H.Sadat Nasiri). Tehran, 1371 h.-ş.
794. Walther Hinz. İkinci Şah İsmayıl Səfəvi (farsca tərcümə: K.Cahandari). 1371 h.-ş.
795. Y.E.Bertels. Təsəvvüf və təsəvvüf ədəbiyyatı (farsca tərcümə: Sirus İyzədi). Tehran, 2536 pəhləvi.
796. Yəhya ibn Əbdüllətif Qəzvini. Lübb ət-təvarix. Xavər nəşriyyatı, 1314 h.-ş.
797. Z.Ə.Məhəmmədi. Şah Sultan Hüseynin vəsfləri ("Kitabi-mah: tarix və coğrafiya", 137, 1388 h.-ş.).
798. Z.Rizayi, N.Cədidi və M.K.Yusifcəmali. Səfəvilər dövründə vəliəhd seçimində sarayın nüfuzlu şəxslərinin rolu barədə araşdırma (Tarix elmi araşdırma dərgisi, №64, 1401 h.-ş.).
799. Z.Rizayi. Səfəvilər dövründə hökmdarın canişininin təyini məsələsində hərəmxananın rolu (Tarix elmi araşdırmalar dərgisi, №58, 1399 h.-ş.).
800. Zeynəb Ümidiyan. Hindistan Gürganiləri dövlətinin yaranma şəraiti ("Pejuheş dər tarix" dərgisi, №1, 1389 h.-ş.).
801. Zəhra Əliməhəmmədi. Təhmasibin rəvayəti əsasında Təhmasib ("Kitabi-mah: tarix və coğrafiya", №133, 1388 h.-ş.).
802. Zəhra Əliməmmədi. Səfəvi tarixyazarlığı ("Kitabi-mah, tarix və coğrafiya", №135, 1388 h.-ş.).
803. Zirikli, Xeyrəddin. Əl-Əlam (8 cilddə). Beyrut, 2002.

Rus dilində:

804. Аббас-Кули-Ага Бакиханов Кудси. Гюлистан-Ирам. Баку, 1926.
805. А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981.
806. А.В.Саламзаде. Архитектура Азербайджана XVI-XIX вв. Баку, 1964.
807. А.Г.Нестеров, М.И. Каджар. Каджары Зийадоглу и создание Карабахского беглярбекства в XVI веке ("Научный диалог", 2019, №6).
808. А.С.Тверитинова. Восстание Кара Языджи-Дели Хасана в Турции. Москва, 1946.
809. А.Фарзалиев, Р.Мамедова. Сефевиды и Великие Моголы в мусульманской дипломатике. Санкт-Петербург, 2004.
810. Архив Маркса и Энгельса (под редакцией М.Б.Митина), том VII. Москва, 1940.
811. Бабур-намэ (перевод: М.Салье). Баку, 2011.

812. Базен Жермен. История истории искусства: от Вазари до наших дней. Москва, 1994.
813. В.В.Бартольд, Сочинения, 2-ой том, 1-ая часть. Москва, 1963.
814. В.И.Козубский. История города Дербента. Темирхан-Шура, 1906.
815. В.Комаров. Персидская война 1722-1725 гг. (Материалы для истории царствования Петра Великого), Русский Вестник, т. 68, №4. Санкт-Петербург, 1867.
816. Восточная нумизматика в Украине (Сборник публикаций, часть III). Киев, 2013.
817. Г.Сеидова Азербайджан во взвимоотношениях Сефевидской империи и Русского государства. Баку, 2007.
818. Джамиля Гасанзаде, Агаселим Эфендиев. Большое Тебризское "Шахнаме" и тебризская живопись 1330-40 гг. (журнал "Искусство-IRS", №3/51, 2011).
819. Джон Патрик Бальфур. Османская империя. Москва, 2017.
820. Е.Э.Бертельс. Избранные труды, том V. Москва, 1988.
821. Жак Павио. Османская империя (ок. 1300-1481) (Империи средневековья: от Каролингов до Чингизидов; под ред. С.Гугенхейма). Москва, 2021.
822. З.Байрамлы. Европейские путешественники о социально-политической природе Сефевидского государства ("Актуальные проблемы гуманитарных и естественных наук", 2009, №11).
823. И.К.Павлова. Хроника времен Сефевидов. Москва, 1993.
824. И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград, 1949.
825. Ибрахим Эфенди Печеви. История (извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.; перевод и примечения: акад. З.Буниятова). Баку, 1988.
826. Исфахани Мухаммад Масум ибн Хаджаги. Хуласату-с-сияр, Материалы по истории туркмен и туркмении (перевод под. ред. А.А.Ромаскевича, том 2). Москва-Ленинград, 1938.
827. История Государства и права (МИД Республики Узбекистан, Академия). Ташкент, 2021.
828. История Османского государства, общества и цивилизации (в. 2-х т., под ред. Э.Ихсаноглу). Москва, 2006.
829. К.Носов. Осадная техника античности и средневековья. Москва, 2010.
830. К.Рыжков, Все монархи мира (Мусульманский Восток, VII-XV вв). Москва, 2005.
831. К.Рыжков. Все монархи мира (Мусульманский Восток, XV-XX вв). Москва, 2004.
832. К.Э.Босворт. Мусульманские династии. Справочник по хронологии и генеалогии (пер. с англ. П.А.Грязневича). Москва, 1971.

833. Книга Орудж-бека Байата, Дон-Жуана Персидского (перевод с англ., введение и комментарии: О.Эфендиева и А.Фарзалиева). Баку, 1988.
834. Кэролайн Финкель. История Османской империи: видение Османа. Москва, 2010.
835. Лятиф Керимов. Азербайджанский ковер, часть II. Баку, 1983.
836. М.Л.Рейснер, А.Н.Ардашникова. Персидская литература IX-XVIII веков, том II. Москва, 2021.
837. М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, том IV. Баку, 2008.
838. Мехти Кязимов. Персоязычная поэзия XVI-XVII веков. Баку, 2019.
839. Мунши Мухаммад Юсуф. Муким-ханская история (пер. с тадж., предисл., примеч. и указ. проф. А.А.Семенова). Ташкент, 1956.
840. Н.В.Мамедова. Эпоха азербайджанского ренессанса периода Сефевидов (по материалам французских исследователей) (Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, №1, 2021).
841. Н.В.Минкевич-Мустафаева. Гробницы в усыпальнице Ширваншахов (ДАН Азерб. ССР, 1947, том 3, №1).
842. Н.В.Пигулевская, А.Ю.Якубовский, И.П.Петрушевский и др. История Ирана с древнейших времен до конца 18-го века. Ленинград, 1958.
843. Н.Д.Миклухо-Маклай. Балхский поход шаха Аббаса I (Страны и народы Востока, вып. 22, Средняя и Центральная Азия, география, этнография, история, книга 2). Москва, 1980.
844. Н.Н.Туманович. Герат в XVI-XVIII веках. Москва, 1989.
845. Н.Н.Туманович. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва, 1982.
846. Н.Ф.Ахундова. Эволюция научно-концептуальных взглядов на вопрос происхождения династии Сефевидов в историографии XIX-начала XX вв. (Тюркологические исследования, 2019, том 2, №2).
847. Норманн Стоун. Краткая история Турции. Москва, 2014.
848. О.П.Маркова. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва, 1966.
849. О.Эфендиев. Азербайджанское государство Сефевидов. Баку, 1981.
850. О.Эфендиев. Образование Азербайджанского государство Сефевидов в начале XVI века. Баку, 1961.
851. П.Г.Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг., том I. Санкт-Петербург, 1869.
852. П.П.Бушев. История посольства и дипломатических отношений Русского и Иранского государства в 1586-1612 гг. Москва, 1976.
853. П.Х.Гребельский и С.В.Думин. Дворянские роды Российской империи, том III. Москва, 1996.

854. Р.Б.Рыбаков и др. История Востока: Восток на рубеже средневековья и нового времени XVI-XVIII вв. (в 6 томах), том III. Москва, 2000.
855. Р.М.Шукуров. Великие Комнины и Восток (1204-1461). Санкт-Петербург, 2001.
856. Р.Мехтиев. Шах Исмаил Сефеви: портрет правителя и воина. Баку, 2014.
857. Рафаэла Льюис. Османская Турция: быт, религия, культура. Москва, 2004.
858. С.А.Азимджанова. Государство Бабура в Кабуле и в Индии. Москва, 1977.
859. С.А.Мамедов. Азербайджан по источникам XV-первой половины XVIII вв. Баку, 1993.
860. Сара Ашурбейли. Государство Ширваншахов. Баку, 1983.
861. Систани Малик-шах-Хусайн. Хроника воскрешения царей (перевод с персид., предисл., коммент. и указ.: Л.П.Смирновой). Москва, 2000.
862. Т.Г.Наджафли. Взаимоотношения Азербайджанского государства Сефевидов с Россией в XVI-XVII вв. (Вопросы истории, №4). Москва, 2015.
863. Т.Т.Мустафазаде. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку, 1993.
864. Т.Т.Мустафазаде. Ещё раз о так называемом «Манифесте Петра I» (“GEO strategiya”, №1, 2014).
865. Ф.А.Гусейн. К вопросу об обещании шаха Аббаса уступить Московскому государству Дербент, Баку и Шемаху («Вопросы истории», №9, 2010).
866. Ф.Хитцель. Османская империя (Гиды цивилизаций). Москва, 2006.
867. Фарах Адиль кызы Гусейн. Османо-Сефевидская война 1578-1590 гг. Баку, 2005.
868. Философский энциклопедический словарь. Москва, 1983.
869. Э.К.Мустафаев Место веры в мехдианство в идеологической политике государства Сефевидов (Вчені записки ТНУ імені В.І. Вернадського. Серія: Історичні науки, том 31/70, №4, 2020).
870. Я.Я.Стрейс. Три путешествия (пер. Э.Бородиной; ред. А.Морозова). Москва, 1935.

Avropa dillərində:

871. A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17 and the 18 Centuries (Editor H.Chick, İntroduction Rudi Matthee, in 2 volumes, Vol.1). London, 2012.
872. Adamova A.T. Muhammad Qasim and the Isfahan School of Painting, Society and culture in the early modern Middle East. Brill, 2003.
873. Ahmad Guliyev. Safavids in Venetian and European Sources. Venezia, 2022.
874. Architecture of The Islamic World (edited by George Michell). London, 2011.

875. Babayan, Kathryn. The Waninig of The Qizilbash: The Spiritual and The Temporal in Seventeenth Century Iran. Princeton University, 1993.
876. Basil Gray. Persian Painting. London, 1930.
877. Basil Gray. The Arts in The Safavid Period (The Cambridge History of Iran, vol. 6, pp.877-912). Cambridge Universuty Press, 2006.
878. Burton A. The Bukharans: a Dynastic, Diplomatik and Commercial History 1550-1702. London, 1997.
879. Burton Stein. A History of India (Second Edition). Wiley-Blackwell, 2010.
880. C.Edwards. Relations of Shah Abbas The Great of Persia with The Mogul Emperors Akbar and Jahangir (Journal of the American Oriental Society, Vol. 35, 1915).
881. Christopher Buyers. The Safawi Dynasty, Cenealogy.
882. Clements R.Markham. A General Sketch of The History of Persia. London, 1874.
883. D.Balland. Ashraf Gilzay (Encyclopedia Iranica).
884. David Blow. Shah Abbas, The Ruthless King Who Became an Iranian Legend. London-New York, 2009.
885. Don Juan of Persia. A Shi'ah Catholic 1560-1604 (Translated and Edited with an Introduction by G.Le Strange). London, 2004.
886. E.Denison Ross. The Early Years of Shah Ismail, Founder of The Safavi Dynasty (The Journal of the Royal Asiatic Society of Great Britain and Ireland, April 1896).
887. E.J.W.Gibb. A History of Ottoman Poetry (Edited by Edward G.Browne), Volume 3. London, 1904.
888. Edward G.Browne. A Literary History of Persia, Volume IV. Cambridge, 1959.
889. Encyclopaedia Iranica Online. Columbia University.
890. Farshid Emami. Religious Architecture of Safavid Iran ("The Religious Architecture of Islam", Volume 1). Turnhout, 2021.
891. Francis D.K.Ching, Mark M.Jarzombek, Vikramaditya Prakash. A global history of architecture. New Jersey, 2011.
892. G.N.Curzon. Persia and Persian Question, Vol. 2. London-New York, 1892.
893. Gabor Agoston, Bruce Masters. Encyclopedia of The Ottoman Empire. New York, 2009.
894. Ghulam Sarwar. History of Shah Ismail Safawi, Muslim University. Aligarh, 1939.
895. History of Shah Abbas the Great. Tarik-e alamara-ye Abbasi (translated by Roger M.Savory, Volume 1). Boulder, Colorado, 1930.
896. India Medieval History (Editor: Roma Chatterjee). New Delhi, 2016.
897. J.R.Perry. The Last Safavids, 1722-73 (British Institute of Persian Studies, Vol. 9, 1971).

898. Kioumars Ghereghlou. Haydar Safavi (Encyclopaedia Iranica, online edition, 2016).
899. Kishwar Rizvi. Architecture and the Representations of Kingship During the Reign of the Safavid Shah 'Abbas I (Every Inch a King: Comparative Studies on Kings and Kingship in the Ancient and Medieval World). Leiden, Boston, 2013.
900. Kolodziejczyk D. The relations between the Polisi i-Lithuanian commonwealth and Safavid İran. Some comments on their character and intensity/Eastern Europe, Safavid Persia and the Iberian world. Frontiers and Circulations at the Edge of Empires. Albatros, 2019.
901. Kubilayhan Erman. Afshar Nader Shah: Military Leadership, Strategy And The Armed Forces During His Reign (Çanakkale Araştırmaları Türk Yıllığı, №25, 2018).
902. Kurosh Meshkat. The Journey of Master Anthony Jenkinson to Persia, 1562-1563 (Journal of Early Modern History, October 2009).
903. L.Lockhart. Nadir Shah (with a Foreword by Sir E.Denison Ross). London, 1938.
904. L.Lockhart. Nadir Shah: a Critical Study Based Mainly Upon Contemporary Sources. London, 1938.
905. L.Lockhart. The Fall of The Safavid Dynasty and The Afghan Occupation of Persia. Cambridge, 1958.
906. Landau, Amy S. From Poet to Painter: Allegory and Metaphor in a Seventeenth-Century Persian Painting by Muhammad Zaman, Master of Farangī-Sāzi (Muqarnas: An Annual on the Visual Culture of the Islamic World 28, 2011).
907. Maurice Herbette. Une Ambassade Persane Sous Louis XIV. Paris, 1907.
908. Michael Axworthy. The Sword of Persia. New York, 2006.
909. Michel M.Mazzaoui. The Origins of The Safawids: Shiism, Sufism and The Gulat. Wiesbaden, 1972.
910. N.Hanif. Biographical Encyclopaedia of Sufis (Central Asia & Middle East). New Delhi, 2002.
911. Natig Rahimov. Azerbaijan's Contribution to İslamic Culture. An Undicsovered Treasure ("Contributions of The Eurasian Nations to Islamic Culture"). Baku, 2021.
912. Reyhan Erdoğdu Başaran. Does Being Rafidi Mean Shi`ite? The Representation of the Kızılbaş Belief in the Sixteenth Century Ottoman Records (Trabzon İlahiyat Dergisi, TİD, Vol. 6, No. 1, 2019).
913. Richard Tapper. Shahsevan in Safavid Persia (Bulletin of the School of Oriental and African Studies, University of London, Vol. 37, No. 2, 1974).
914. Riza Yıldırım. Turkomans Between Two Empires: The Origins of The Qizilbash Identity in Anatolia (1447-1514). A Ph.D. Dissertation, Ankara, 2008.

915. Robert Hillenbrand. Safavid Architecture (The Cambridge History of Iran, Vol. 6). Cambridge Universuty Press, 2006.
916. Roger Savory. Iran under The Safavids. Cambridge University Press, 1980.
917. Rouhollah Mojtahedzadeh and Zahra Namavar. Golden Section in the Persian-Islamic Architecture. Case study: Hasht Behesht Palace, Isfahan, Iran (Mathematics Interdisciplinary Research, 4/2019).
918. Rudi Matthee and Hiroyuki Mashita. Kandahar. IV. From The Mongol Invasion Through the Safavid Era (Encyclopaedia Iranica, XV/5).
919. Rudi Matthee. Anti-Ottoman politics and transit rights the seventeenth-century trade in silk between Safavid Iran and Muscow, Cahiers du Monde russe, Vol. 35, No. 4, Oct.-Dec. 1994.
920. Rudi Matthee. Distant allies: diplomatic contacts between Portugal and Iran in the reign of Shah Tahmasb, 1524-1576, Portugal, the Persian gulf and Safavid Persia. Peeters, 2011.
921. Rudi Matthee. Iran' s Ottoman Diplomacy During The Reign of Shah Sulayman I (1011-1105/1666-94) (Iran and Iranian Studies, Edited by Kambiz Eslami). Princeton, New Jersey, 1998.
922. Rudi Matthee. Persia in Crisis: Safavid Decline and the Fall of Isfahan. London-New York, 2012.
923. Rudi Matthee. Safavid Iran through the eyes of European travelers (Harvard Library Bulletin, 23 (1-2), 2012).
924. Rudi Matthee. The Wrath of God or National Hero? Nader Shah in European and Iranian Historiography (JRAS, Series 3/2023).
925. Satish Chandra. History of Medieval India. New Delhi, 2014.
926. Selim Güngörürler. Fraternity, Perpetual Peace, and Alliance in Ottoman-Safavid Relations, 1688-1698: A Diplomatic Revolution in The Middle East (Turcica, 50, 2019).
927. Seyyed Hossein Nasr. Mulla Sadra: His Teachings (in Seyyed Hossein Nasr and Oliver Leaman, eds. History of Islamic Philosophy). New York, 1996.
928. Shahzad Bashir. Shah Ismail and The Qizilbash: Cannibalism in The Religious History of Early Safavid Iran (History of Religions, 2006, by The University of Chicago).
929. Sheikh Safi al-Din Khanegah and Shrine Ensemble in Ardabil (Iranian Cultural Heritage, Handicrafts and Tourism Organization). https://whc.unesco.org/en/list/1345/
930. Sheila R.Canby. Shah Abbas: The Remaking of İran. London, 2009.
931. Sir Mortimer Durand. Nadir Shah. London, 1908.
932. Sussan Babaie and etc. Slaves of The Shah: New Elites of Safavid Iran. London-New York, 2004.

933. Sussan Babaiye. Building on the Past: the Shaping of Safavid Architecture, 1501-76 (Hunt for Paradise: Court Arts of Safavid Iran, 1501-1576). Milan, 2003.
934. T.H.Najafli. From the history of Safavid-Poland relations in the first half of the 17th century (Studia Wschodnioeuropejskie, №28, Azerbaijan, its impact on Europe's energy security and relations with Poland – yesterday and today). Warszawa, 2023.
935. The Cambridge History of Iran, Volumes VI, VII. Cambridge Universuty Press, 2006-2007.
936. The Encyclopedia of Islam (in 13 Volumes). Leiden, 1986-2004.
937. The Relations of the Polish Lithuanian Commonwealth with Safavid Iran and the Catholicosate of Etchmiadzin. Varshava, 2017.
938. The Six Voyages of John Baptista Tavernier, a Noble Man of France Now Living, Through Turky Into Persia, and The East-Indies, Book IV. London, 1678.
939. Theodore S. Beers. The Biography of Vahshi Bafqi (d. 991/1583) and the Tazkera Tradition (Journal of persianate studies, 8/2015).
940. Thomas Herbert. Travels in Persia 1627-1629 (Abridged and Edited by Sir William Foster). London, 1928.
941. Vasileios Syros. The Safavid Machiavelli: Shāh ʿAbbās I and the "Great Man" Theory Revisited (Comparative Political Theory 1/2021).
942. Viaggi di Pietro della Valle, il pellegrino: descritti da lui medesimo in lettere familiari all'erudito suo amico Mario Schipano, divisi in tre parti cioè: La Truchia, La Persia, e l'India, colla vita dell'autore, Volume Secondo. Brighton, 1843.
943. Wilson A.T. The Persian Gulf. A Historical Sketch from the Earliest Times to the Beginning of the 20th Century. Oxford, England, 1928.
944. Zahit Atcıl. Warfare as a Tool of Diplomacy: Background of the First Ottoman-Safavid Treaty in 1555 (Turkish Historical Review 10/2019).

Şəkillər



Şah İsmayıl döyüşdə. Divar şəkli. İsfahan, XVII əsr.

İsmayılın rəhbərliyi altında qızılbaşlar 1500-cü ildə Şirvanşah Fərrux Yasarı Çobanı döyüşündə, 1501-ci ildə isə Ağqoyunlu Sultan Əlvəndi Şərur döyüşündə məğlub etdilər. Təbrizə daxil olan İsmayıl şah elan olundu və Azərbaycan Səfəvi dövləti yarandı. Şah İsmayıl 1503-cü ilin iyununda Almaqulağı döyüşündə Sultan Muradın ordusunu məğlub etdi və Səfəvilər tərəfindən İranın Kirmana kimi əksər vilayətləri ələ keçirildi. 1506-1508-ci illərdə Ərəb İraqı, 1510-cu ildə isə Mərv döyüşündə Məhəmməd Şeybani üzərində qələbədən sonra Xorasan vilayəti Səfəvi dövlətinə birləşdirildi. Azərbaycan Səfəvi imperiyası şərqdə Şeybanilər, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd oldu. Dövlətin sərhədləri şimalda Dərbənd şəhərindən cənuba doğru - Fars körfəzinə, qərbdə-Fərat çayından, şərqdə Amudərya çayına kimi uzanırdı.

1514-cü ildə Çaldıran döyüşündən sonra Şərqi Anadolu və Şimali İraq əraziləri Osmanlı dövlətinə verildi.

1499-1504-cü illərdə Şah İsmayılın mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəsi

1507-1508-ci illərdə Şah İsmayılın Ərəb İraqına yürüşləri

1510-cu ildə Şah İsmayılın Xorasana yürüşü

1514-cü ildə Sultan Səlimin Azərbaycana yürüşü

Səfəvilərin Çaldıran döyüşündən sonra itirmiş əraziləri

Portuqaliyanın işğal etdiyi ərazi

I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövləti

XVI əsrin son rübündə Səfəvi-Osmanlı müharibələri

Səfəvi qızılbaş döyüşçüləri (tarixi rekonstruksiya)

Səfəvi qızılbaş döyüşçüləri alman səyyahı E.Kempferin rəsmlərində

Qızılbaş süvari (tarixi rekonstruksiya)

I Şah Təhmasibə aid olan qılınclar
(Britaniya Muzeyi, London)

Səfəvi silahları
(Topqapı sarayı, İstanbul)

Səfəvi ustaları tərəfindən hazırlanmış zireh və dəbilqə

I Şah Abbasa aid edilən qılıncın üzərində məşhur silah ustası Əsədullah İsfahaninin möhürü

Çaldıran savaşında I Şah İsmayılın Malkoçoğlu ilə təkbətək döyüşü (miniatür)

Qızılbaş qoşununun Bakını fəth etməsi (miniatür)

Hüseyn bəy Lələnin başçılıq etdiyi qızılbaş qoşunu döyüşdə (miniatür)

Luristan hakimi Rüstəm Məlikşah I Şah İsmayılın hüzurunda (miniatür)

Şah İsmayılın müşəşəilərlə döyüşü (miniatür)

“Osmanlı sultanı II Bayezidin elçiləri Şah İsmayıl Xətainin qəbulunda”
(rəssam: T.Nərimanbəyov)

“Şah İsmayılın Təbrizə daxil olması”, “Şah İsmayıl Osmanlı elçisini qəbul edir” (rəssam: R.Quliyev)

Çaldıran savaşında şəhid olmuş qızılbaş əmiri Piri bəy İnallunun məzarının başdaşı. Ərdəbil

Çaldıran savaşında şəhid olmuş vəzir Nizaməddin Əbdülbaqinin və Seyid Sədrəddin Şirazinin məzarları. Çaldıran



Div sultanın Mərv hakimi olarkən I Şah İsmayıla göndərdiyi məktub

Böyük Moğol imperiyasının banisi Zəhirəddin Babur (miniatür)



Qızılbaşların qalaya hücumu (“Tarixi-cahanara” kitabından minatür)

I Şah Təhmasibin özbəklərlə savaşını əks etdirən miniatür

Əsir düşmüş Adil Gəray Həmzə Mirzənin hüzurunda (Osmanlı miniatürü)

Aras xan Rumlunun Osmanlı ordusu ilə döyüşü (Osmanlı miniatürü)

Qızılbaş əmirləri və saray xidmətçiləri

Qızılbaşlar təriqət şeyxi ilə görüşdə

Qızılbaş əmirləri və saray xidmətçiləri

Səfəvi əsilzadələri miniatürlərdə

Səfəvilər dövrünün geyimləri miniatürlərdə

I Şah Abbasın silahını daşıyan kaman qorçusu

Məşhur flamand rəssamı P.P.Rubensin (1577-1640) Səfəvi geyimləri mövzusunda eskizləri

Səfəvi əsilzadələri miniatürlərdə

Səfəvilər dövrünün geyimləri əcnəbi səyyahların rəsmlərində

Səfəvilər dövrünün geyimləri əcnəbi səyyahların rəsmlərində

Səfəvi əmirləri rəssamların gözü ilə

I Şah Təhmasibin öz qardaşı Bəhram Mirzə üçün çəkdiyi rəsm

Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzə Heratda (miniatür)

"Şirvan kralı" ləqəbli Abdullah xan Ustaclı italyan diplomatı Antoni Cenkinsonu Şamaxıda qəbul edir (rəssam: O.Sadıqzadə)

Sultan əl-üləma

Baş vəzir Saru Tağı

İsa xan qorçubaşı

Qullarağası Allahverdi xan Undiladze

Baş vəzir Şahqulu xan Zəngənə

Xosrov xan

İmamqulu xan Undiladze

Davud xan Undiladze

Səfəvilər zamanında Novruz şənlikləri (Çehelsütun sarayının divar rəsmi, İsfahan)

Çovkən oyunu (miniatür)

Musiqiçi gənc (miniatür)

Güləşçilər
(E.Kempferin kitabından)

Qoç döyüşdürənlər
(E.Kempferin kitabından)

Səfəvi sarayında musiqiçilər



İsfahan və Bakı şəhərləri Qərb səyyahlarının gözü ilə



Səfəvi dövlətinin iri şəhərlərinin Qərb səyyahları tərəfindən çəkilmiş planları. Ərdəbil, Qum və Kaşan

Şamaxı, İrəvan və Təbriz şəhərlərinin planı (A.Oleari və J.Şardenin kitablarından)





İsfahandakı Nəqşicahan meydanının XVII və XIX əsrlərə aid rəsmləri və indiki görünüşü

Şah məscidi. İsfahan



Şah məscidi XVII əsr səyyahı Şardenin təsvirində



Şah məscidinin interyeri

Şah məscidinin planı

Şah məscidinin interyeri və baştağı

Şeyx Lütfullah məscidi. İsfahan



Şeyx Lütfullah məscidinin tavanı



XVII əsr səyyahı Şardenin kitabında Qeysəriyyə alaqapısının təsviri

Qeysəriyyə alaqapısının memarlıq elementləri. İsfahan



XVII əsr səyyahı Şardenin kitabında Ali qapu sarayının təsviri

Ali qapu sarayı. İsfahan

Çehelsütun sarayı. Qəzvin



Çaharbağ xiyabanı XVIII əsrin əvvəllərində. İsfahan



XVII əsr səyyahı Şardenin kitabında İsfahandakı Çehelsütun sarayının təsviri

Çehelsütun sarayı. İsfahan

İsfahandakı Çehelsütun sarayının divar rəsmləri



Həşt behişt sarayı. İsfahan



Şeyx Bəhainin məzarı. Məşhəd

Yellənən minarələr məscidi. Kardalan

Layihəsi Şeyx Bəhaiyə aid edilən, bir şamla qızınan hamam. İsfahan

Azərbaycan ərazisindəki Şah Abbas məscidləri:
Gəncə şəhəri, Ordubad şəhəri və Keşlə qəsəbəsi

Şah Abbas karvansarası. Gəncə

İmamzadə türbəsi. Naxçıvan

Səfəvilər zamanında tikilmiş, sonralar erməni vandalları tərəfindən dağıdılmış Şah Abbas (Sərdar) məscidinin qədim şəkli. İrəvan

Kələxana türbələr kompleksi. Şamaxı

Baba Samid türbəsi. Sabirabad



Şeyx Səfi kompleksinin ümumi mənzərəsi. Ərdəbil

Allahverdi xan körpüsü. İsfahan



Xacu körpüsünün XVII əsrdə səyyah Şarden tərəfindən çəkilmiş rəsmi

"Şeyx Səfi" xalçası (Viktoriya və Albert muzeyi, London)

Səfəvilər dövrünün məşhur rəssamları: Behzad, Rza Abbasi və Mir Seyid Əli

“Sultan Məhəmməd və Avropa rəssamları I Şah Təhmasibin hüzurunda”
(rəssam: N.Ağazadə)

“Şah Abbas və xəttat Əlirza Abbasi”
(rəssam: L.Nadir)



İmam Rza hərəminin günbəzinin dövrəsində Əlirza Abbasi tərəfindən yazılmış kitabədə I Şah Abbasın İsfahandan Məşhədə piyada ziyarətə getməsi və hərəmi təmir etdirməsi barədə məlumat verilir

Səfəvilər dövründə yaradılmış ən gözəl miniatür nümunələri

Yeddi ulu ozanın təsviri



Füzulinin Şah İsmayıla həsr etdiyi "Bəngü badə" poemasının əlyazmasından nümunələr

Məhəmməd Füzuli (miniatür)

Səfəvilər dövrünün görkəmli şairlərinin məzarları:
Saib Təbrizi (İsfahan), Möhtəşəm Kaşani (Kaşan),
Qasimi-Ənvar (Türbəti-Cam)

Şeyx Bəhai və Mir Fendereski (qədim rəsm)

Əllamə Məclisi (qədim rəsm)



Şeyx Hürr Amilinin və Əllamə Məclisinin məzarları. Məşhəd, İmam Rza (ə) hərəmi

Molla Möhsin Feyz Kaşaninin məzarı. Kaşan

Əcnəbi dövlətlərə göndərilmiş Səfəvi elçiləri

Hüseynəli bəy Bayat

Mehdiqulu bəy

Zeynal xan Şamlu

Roma papalığına göndərilmiş Səfəvi elçisi Əliqulu bəy möhürdar

Fransaya göndərilmiş Səfəvi elçisi Məhəmməd Rza bəy

Böyük Moğol imperiyasına göndərilmiş Səfəvi elçisi Məhəmməd Əli bəy

Səfəvi elçiləri Roma papasının sarayında (Romadakı freskadan)

"I Şah Abbasın göndərdiyi elçilər Venesiya dojunun sarayında"
(rəssam: Carlo və Gabriele Caliari)

"Səfəvi elçiləri Fransa kralı XIV Lüdovikin sarayında" (rəssam: Antoine Coypel)

Səfəvilər dövləti haqqında öz əsərlərində ətraflı məlumat vermiş avropalı səyyah və diplomatlar

Antoni Cenkinson

Tomas Herbert

Don Qarsia Fiqeroa

Pyetro della Valle

Robert Şirli

C.F.Cemelli Karreri

Adam Oleari

Jan Şarden

Jan-Batist Tavernye